AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
İQTİSADİYYAT İNSTİTUTU

Ş. M. MURADOV

19638

İNSAN POTENSİALI:

ƏSAS MEYLLƏR, REALLIQLAR, PROBLEMLƏR

BAKI – «ELM» – 2004

İlim və Təhsil Mərkəzi
Yəfəkkür Universiteti
Kitabana

Azərbaycan Milli Elmlər Akademiyası
Redaksiya-Nəşriyyat Şurasının Qərarı ilə çap olunur

Redaktoru: akademik **A.A.Nadirov**

Rəyçilər: AMEA-nın müxbir üzvü **A.K.Ələsgərov**
i.e.d-ru, professor, c.e.d-ru **E.Q.Mehrəliyev**

Muradov Ş.M. İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər. - Bakı: Elm, 2004. 660 səh.

ISBN 5-8066-1629-0

Monoqrafiya son 106 il ərzində (1897-2003) Azərbaycanda insan potensialının formalaşması, inkişafı və istifadəsinin nəzəri-metodoloji, sosial-iqtisadi, etno-demoqrafik və regional problemlərinin öyrənilməsinə həsr edilmişdir. Kitabda diqqəti cəlb edən ən mühüm cəhət ondan ibarətdir ki, ilk dəfə olaraq burada zəngin tarixi və rəsmi statistik məlumatlar əsasında uzun tarixi dövr ərzində Azərbaycan əhalisinin sayı, milli tərkibi, yaş-cins quruluşu, şəhər və kənd yerləri arasında bölüşdürülməsi, təhsil, intellektual inkişaf və məşğulluq səviyyəsi və quruluşunda, miqrasiyası prosesində, ailə-kəbin, doğum, ölüm və təbii artım, ömür müddəti və sağlamlıq göstəricilərində baş verən dəyişikliklər və inkişaf meylləri, onlara təsir edən amillər kompleks şəkildə tədqiq edilib ümumiləşdirilmiş, bütün bunlar dünya və MDB ölkələri ilə müqayisəli şəkildə aparılmışdır. Burada habelə müasir mərhələdə Azərbaycanda əhalisakinliyi, demoqrafiya, əhali miqrasiyası, məşğulluq və Gender sahəsində dövlət siyasətinin əsas istiqamətləri hərtərəfli və geniş işıqlandırılmış, dünya və MDB ölkələrinin bu sahədəki təcrübəsi nəzərə alınmaqla elmi cəhətdən əsaslandırılmış bir sıra nəzəri-metodoloji və konseptual xarakterli təkliflər verilmişdir.

Əsər elmi işçilər, ali məktəb müəllimləri, tələbələr və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

$M \frac{0605010407}{655(07)-2004}$

© Ş. Muradov, 2004

GİRİŞ

Müasir dövrdə bəşəriyyəti narahat edən problemlər arasında demoqrafik proseslərdə baş verən dəyişikliklərlə bağlı məsələlər mərkəzi yerlərdən birini tutur. Təsadüfi deyildir ki, indi dünya əhalisinin sürətli artımı və demoqrafik proseslərdə baş verən dəyişikliklər ayrı-ayrı dövlətlərin ölkə daxilində və beynəlxalq aləmdə yeritdikləri siyasətə daha çox təsir göstərir və həmin məsələlərə ***«demoqrafik aspekt»*** verərək, onların qoyuluşu və həlli məsələsinə yeni mövqelər və normalardan yanaşılmasını ön plana çəkir.

İndi Yer kürəsi əhalisinin sayı əvvəlki dövrlərlə müqayisədə daha sürətlə artıb çoxalır, bir sıra yeni və mürəkkəb problemlərin meydana çıxmasına səbəb olur. Onu da qeyd etmək lazımdır ki, hazırda Yer kürəsində yaşayan 6,2 milyard nəfər əhalinin 5 milyard nəfəri XX əsrin «məhsul»udur. Proqnoz məlumatlarına əsasən, XXI əsrin ortalarınadək Yer kürəsində əhalinin sayı müsəlman dünyasında və bəzi başqa regionlarda mövcud olan yüksək doğum səviyyəsi hesabına 7,6-9,0 milyard nəfərə gəlib çatacaq. Bir çox demoqrafların fikrincə, bu artım Yer kürəsinin biosferi üçün ekoloji cəhətdən olduqca çoxdur[1] və müəyyən mənfi sosial-iqtisadi və demoqrafik nəticələrə gətirib çıxara bilər. Eyni zamanda, dünya əhalisinin sayının kəskin surətdə azalması və bu azalmanın XX əsrdə əhalinin sayının artmasına nisbətən daha sürətli olması da arzuolunmazdır. Çünki bu, nəsillər arasındakı əlaqənin pozulmasına və xalqların yeniliklərə, daha doğrusu əhalinin dayanıqlı qaydada artdığı dövrdə yaranmış sosial institutlara uyğunlaşmalarında daim gecikmələrə məruz qalmalarına gətirib çıxara bilər.

Nəzərə almaq lazımdır ki, indi əhalinin azalmasında ölüm səviyyəsinin artması deyil, doğum səviyyəsinin aşağı düşməsi həlledici rola malikdir. Hazırda əhalinin sadə təkrar istehsal normasından daha çox uzaqlaşan da məhz doğum səviyyəsidir və buna görə də cəmiyyətin diqqəti onun nizamlanmasına yönəldilməlidir.

İndi doğum səviyyəsi dünyanın bir çox ölkələrində (mövcud ölüm səviyyəsi şəraitində) əhalinin sadə təkrar istehsalı üçün zəruri olan səviyyədən xeyli aşağıdır. Bu vəziyyət bəzi MDB

---

[1] B a x: Журнал «Вопросы экономики». M., 2000, № 7, s. 113.

ölkələri üçün, ilk növbədə isə Rusiya Federasiyası, Ukrayna, Belorusiya, Gürcüstan və Ermənistan respublikaları üçün də xarakterikdir. Əlbəttə, dövlət səviyyəsində lazımi demoqrafik tədbirlər sistemi işlənib həyata keçirilməsə, gələcəkdə Azərbaycan Respublikası da həmin vəziyyətlə üzləşə bilər. Bu da bir həqiqətdir ki, bütün tarixi inkişaf mərhələlərində əhalinin artımı heç də həmişə cəmiyyət üçün məqsəd olmamış və bu səbəbdən də o, daim cəmiyyətin başlıca məqsədinə müvafiq olaraq qiymətləndirilmişdir. Çünki bir çox hallarda əhalinin sayının həddən çox artması onun azalmasına nisbətən daha ciddi və həlli çətin olan problemlər doğurur.

Hazırda əhalinin artımı, ilk növbədə daha çox o millətlər üçün aktualdır ki, onların sayı sürətlə azalır və müəyyən vaxtdan sonra tamamilə yox olmaq təhlükəsi ilə üzləşə bilərlər. Buna görə də hazırda əsas məsələ hər bir ölkədə və ya ərazidə müəyyən demoqrafik optimallığa nail olmaqdan ibarətdir. Hər bir ölkədə və ya ərazidə əhalinin sayı isə o vaxt optimal hesab edilə bilər ki, o, nəsillərin normal qaydada yeniləşməsini, istehsal və material resurslarından daha səmərəli istifadə olunmasını, əmək ehtiyatları ilə iş yerləri arasında tarazlığın yaradılmasını, istehsalın səmərəliliyinin artırılmasını, bütünlükdə cəmiyyətin və onun hər bir üzvünün maddi və mədəni tələbatının maksimum ödənilməsini, onların şəxsiyyətinin hərtərəfli inkişafını təmin edə bilsin. Çünki ***insanlar*** bütün cəmiyyətlərdə istehsal prosesinin aparıcı qüvvəsi, cəmiyyətin məhsuldar qüvvələrinin başlıca və ən inqilabçı ünsürünü təşkil edirlər. Bütün bəşəriyyət tarixinin birinci müqəddəm şərti də məhz insan fərdlərinin mövcud olmasıdır. İnsan fərdlərinin mövcud olmasının təbii əsasını isə demoqrafik proseslər (doğum, ölüm, təbii artım) təşkil edir. Əhali insanlardan, demoqrafik hadisələr isə ayrı-ayrı adamlara aid olan faktlardan ibarət olduğundan, başqa kütləvi hadisələr kimi demoqrafik hadisələr də əhalinin sayından asılıdır.

Əhali və iqtisadiyyat vahid ictimai orqanizmin ünsürləri olduğundan bütün cəmiyyətlərdə ictimai istehsalın baş verməsi və ahəngdar surətdə davam etməsi üçün ancaq müəyyən sayda və həm də fiziki və zehni qabiliyyətlərə, sağlamlığa, təhsilə, bilik və bacarığa, ixtisasa, peşə hazırlığına, mənəvi keyfiyyətlərə və mədəniyyətə malik olan intellektual insan potensialının mövcud olması zəruridir. Nəzərə alsaq ki, ictimai təkrar istehsalın əsasını və subyektini təşkil edən insanlar ictimai həyatda həm maddi nemətlərin istehsalçısı və istehlakçısı, və həm də insan nəslinin

davametdiricisi kimi çıxış edirlər, onda ancaq hər bir müstəqil ölkədə əhalinin təkrar istehsalının xarakterini və onları idarə edən qanunları dərk edib öyrənməklə əhalinin sayının, tərkibinin və yerləşdirilməsinin gələcəkdə neçə dəyişəcəyini qabaqcadan görmək, sosial-iqtisadi tərəqqini proqnozlaşdırmaq və insan potensialından istifadə edilməsi sahəsində elmi cəhətdən əsaslandırılmış siyasət işləyib hazırlamaq olar.

Azərbaycan Respublikasının gələcək iqtisadi və sosial inkişaf strategiyasının müəyyənləşdirilməsi və bu sahədə düzgün sosial-iqtisadi siyasət tədbirləri işlənib hazırlanması, ilk növbədə burada yaşayan əhalinin və onun müxtəlif sosial-demoqrafik qruplarının gözlənilən dəyişikliklərə nə dərəcədə hazır olub-olmaması imkanlarının ölçülüb-biçilməsinə əsaslanmalı, bu zaman onların malik olduğu dəyərlər, mənafe, ənənə və istəkləri diqqətlə nəzərə alınmalı, mövcud insan potensialının kəmiyyət və keyfiyyət vəziyyəti obyektiv surətdə qiymətləndirilməlidir.

Hələ 70-ci illərdə Roma klubunun nəzəriyyəçiləri təbiət, cəmiyyət və insanlar arasında qarşılıqlı struktur əlaqələrini və ziddiyyətləri dərindən təhlil edib öyrənməklə belə bir qənaətə gəlmişlər ki, iqtisadi, sosial və bütün başqa sahələrdə əldə edilmiş nailiyyətlər və uyğunsuzluqlar nəticə etibarı ilə insan potensialının inkişafı və genişlənməsi ilə qanunauyğunluq təşkil edir və onunla bağlıdır[2]. O da məlumdur ki, artıq yola saldığımız XX əsrin sonları yaddaşlarda ictimai tərəqqinin qiymətləndirilməsinin dəyərləri, məqsəd və meyarları sistemində baş verən kəskin dəyişikliklər, insanın həyat fəaliyyətinə və onun həyatının keyfiyyətinə təsir edən amillərin ön plana keçməsi dövrü kimi qalacaqdır.

Hazırda insan potensialı cəmiyyətin başlıca milli sərvəti və iqtisadi artımın əsas hərəkətverici qüvvəsi hesab edilir. Çünki elmi-texniki tərəqqinin sürəti, əməyin təşkili və mədəniyyəti, onun məhsuldarlığı, hər şeydən əvvəl, insan potensialının keyfiyyətindən asılıdır. İnkişaf etmiş ölkələrin əksəriyyətində artıq belə bir anlayış qətiləşdirilmişdir ki, ***insanlar iqtisadiyyat üçün deyil, iqtisadiyyat insanlar üçündür.*** Bu səbəbdəndir ki, hazırda həmin inkişaf etmiş ölkələrdə iqtisadi artıma, onun sürəti, quruluşu və keyfiyyətinə məqsəd üçün deyil, insanların həyatının zənginləşdirilməsi, insan

---

[2] B a x: *Б. М. Лейбин.* «Модели мира» и образ человека. М., Политиздат, 1982, s. 179.

potensialının müntəzəm inkişafı üçün zəruri olan vasitə kimi baxılır.[3]

İndi dünyada başqa istiqamətlərə nisbətən insan potensialına qoyulan vəsait daha səmərəli hesab edilir. Təsadüfi deyildir ki, hazırda dünyanın 92 ölkəsində milli sərvətin 2/3 hissəsi, Rusiyada isə 50 faizi insan kapitalının inkişafına sərf edilir. Lakin müəyyən səbəblər üzündən hələlik respublikamızda bu göstəricinin həcmi tələb edilən səviyyədə deyildir.

Gələcəkdə respublikamızda həmin sahəyə kapital qoyuluşunu artırmaq və onun səmərəliliyinin yüksəldilməsi istiqamətlərini düzgün müəyyənləşdirmək üçün, ilk növbədə, burada mövcud olan insan potensialını və onun kəmiyyət-keyfiyyət xarakteristikasını aşkara çıxarmaq lazımdır. ***Hazırda bizim məqsədimiz ölkəmizdə müstəqil, demokratik, hüquqi, unitar və sosial yönümlü bazar münasibətlərinə əsaslanan yetkin cəmiyyət qurmaqdan ibarətdir. Bu vəzifənin həlli isə, hər şeydən əvvəl, cəmiyyət həyatının bütün sahələri arasında müəyyən optimal nisbət yaradılmasını tələb edir. Belə bir nisbətin demoqrafik proseslərlə cəmiyyət həyatının digər tərəfləri arasında olması da zəruridir.*** Çünki əhali özlüyündə mücərrəd anlayış olsa da, onda baş verən dəyişikliklər demoqrafik proseslərdə əks olunur. Demoqrafik proseslər isə demək olar ki, cəmiyyət həyatının bir çox tərəfləri ilə qarşılıqlı surətdə bağlıdır. Bu əlaqə sosial-iqtisadi hadisələrin demoqrafik proseslərə və öz növbəsində demoqrafik proseslərin də sosial-iqtisadi hadisələrə təsirində təzahür edir. Buna görə də bütünlükdə cəmiyyətin, hər bir ölkənin və onun ayrı-ayrı regionlarının ***gələcək inkişaf konsepsiyasını demoqrafik inkişaf konsepsiyasız*** təsəvvür etmək qeyri-mümkündür. Çünki elə bir ictimai fəaliyyət dairəsi tapmaq mümkün deyildir ki, orada demoqrafik proseslərin xarakteri, yaxın və uzaq gələcəyə onların dəyişməsi meyllərinin öyrənilməsinə maraq olmasın. Bu, hər şeydən əvvəl, onunla bağlıdır ki, ***əvvəla,*** əhali cəmiyyətin başlıca məhsuldar qüvvələrini təşkil etdiyindən sosial-iqtisadi və mədəniyyətlər sahəsində əldə edilməsi mümkün olan hər nə varsa, onların hamısı insanların malik olduğu əmək potensialının bütünlükdə cəmiyyətin və onun hər bir üzvünün mənafeyi baxımından necə və nə cür reallaşmasından asılıdır; ***ikincisi,*** insanlar özlərinin əmək, sosial və siyasi fəallığını müəyyən edən məcmu ictimai münasibətlərin ardıcıl olaraq təkrarlanmasının fəal subyekti kimi çıxış etməklə iqtisadi və sosial inkişafın

---

[3] B a x: Доклад о развитии человека в 1996 году. Нью-Йорк, 1996, s. 1, 5, 11.

sağlamlaşdırılması, ictimai istehsalın səmərəliliyinin yüksəldilməsi və elmi-texniki tərəqqinin sürətləndirilməsində aparıcı rol oynayırlar.

Azərbaycan Respublikası dünyada özünəməxsus etno-demoqrafik inkişaf xüsusiyyətlərinə malik olan bir ölkə kimi tanınır və öz vətəndaşlarının beynəlmiləlçiliyi və insanpərvərliyi ilə şöhrət tapmışdır. Azərbaycan xalqının Böyük ziyalı oğlu və əvəzsiz lideri Heydər Əlirza oğlu Əliyevin dediyi kimi: ***«Biz Azərbaycan deyəndə, onun sərvətini, onun gözəl təbiətini nəzərdə tuturuq. Lakin bütün bunlarla yanaşı, respublikanın ən başlıca sərvətlərindən biri, bəlkə də ən başlıca sərvəti qədimlərdən bu torpaqda yaşayan, öz taleyini, öz həyatını torpağa bağlayan, müxtəlif millətlərdən olan, müxtəlif dinlərə etiqad edən adamlardır. Ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər çox zəngin olar».***[4]

Hazırda Azərbaycan Respublikasında 100-dən çox milləti, xalqı və etnosu təmsil edən insanlar yaşayır. Bu insan qruplarının isə hər birinin özünəməxsus milli xüsusiyyətləri və adət-ənənələri olduğu kimi, həm də fərqli demoqrafik, inkişaf və məşğuliyyət xüsusiyyətləri, bu xüsusiyyətlərdən irəli gələn müəyyən demoqrafik çətinlikləri və problemləri vardır.

Yuxarıda deyilənləri nəzərə alaraq, biz oxuculara təqdim etdiyimiz monoqrafiyada 100 ildən artıq bir müddəti əhatə edən dövrdə Azərbaycan Respublikasında insan potensialının formalaşması, inkişaf dinamikası və istifadəsi, əhalinin təbii təkrar istehsalının əsasını təşkil edən demoqrafik hadisə və proseslərdə, əhalinin cins-yaş, peşə-ixtisas, əmək və məşğulluq quruluşu, milli tərkibi və miqrasiyasında və s. baş verən dəyişiklikləri və onlara təsir edən amilləri geniş tədqiq və təhlil edib ümumiləşdirmək əsasında gələcəkdə Azərbaycanda intellektual insan potensialının artırılması, səmərəli məşğulluq, miqrasiya və demoqrafiya siyasəti yeridilməsinə dair elmi cəhətdən əsaslandırılmış təkliflər işləyib hazırlamağı qarşıya məqsəd qoymuşuq.

Kitabla bağlı rəy və təkliflərini göndərən oxuculara əvvəlcədən öz minnətdarlığımı bildirirəm.

---

[4] H.Əliyevin Azərbaycan Respublikasında yaşayan milli azlıqların və etnik qrupların nümayəndələri ilə 1 oktyabr 1993-cü il görüşündəki çıxışından. Azərbaycan qəzeti, 7 oktyabr 1993-cü il.

I FƏSİL

İNSAN POTENSİALININ FORMALAŞMASI VƏ İNKİŞAF DİNAMİKASI: ƏSAS TARİXİ DƏYİŞİKLİKLƏR VƏ İNKİŞAF MEYLLƏRİ

1.1 DÜNYADA VƏ AZƏRBAYCANDA İNSAN POTENSİALININ FORMALAŞMASI, İNKİŞAF DİNAMİKASI VƏ ONLARA TƏSİR EDƏN AMİLLƏR

İnsanlar tarixi inkişafın bütün mərhələlərində ictimai istehsal prosesinin aparıcı qüvvəsi olub, cəmiyyətin məhsuldar qüvvələrinin başlıca və ən inqilabçı ünsürünü təşkil edir. Bütün bəşəriyyət tarixinin birinci müqəddəm şərti də məhz insan fərdlərinin mövcud olmasıdır.[5] Başqa sözlə desək, ictimai istehsal prosesinin əsasını və subyektini təşkil edən müəyyən fiziki və zehni qabiliyyətə, yəni fiziki inkişafa, sağlamlığa, təhsilə, bacarığa, mənəvi keyfiyyətlərə, ixtisasa, peşə hazırlığına, mədəniyyətə və vətəndaşlıq mövqeyinə malik olan insanlar, iqtisadi formasından asılı olmayaraq, bütün cəmiyyətlərdə ictimai istehsalın zəruri şərti və ölkənin milli sərvətinin həcmini müəyyən edən mühüm amil kimi çıxış edir. Buna görə də insan problemi, ona olan qayğı və onun əməyindən səmərəli istifadə edilməsi hər bir ölkənin və dövlətin mühüm strateji vəzifələrindən biri kimi daim diqqət mərkəzində durmalıdır.

Nəzərə almaq lazımdır ki, insan fərdləri sosial və bioloji varlıq olaraq təbiət və cəmiyyətin bir hissəsidir, ona təbiət və cəmiyyətdə baş verən hadisələrdən kənarda baxmaq olmaz. Buna görə də müəyyən konkret ərazilərdə məskunlaşmış insanların məcmusundan ibarət olan əhalinin sayını düzgün müəyyənləşdirmək və əhali sakinliyindəki sosial və bioloji nisbətlər, əhali qanunları və s. haqqında mühüm məsələləri həll etmək üçün əhali sakinliyinə onun tarixi inkişafı nöqteyi-nəzərindən baxılmalıdır. Çünki insan fərdlərinin formalaşmasının təbii əsasını təşkil edən demoqrafik proseslər (əhalinin doğum, ölüm və təbii

---

[5] *K.Marks və F.Engels.* Seçilmiş əsərləri. 4 cilddə, 1-ci cild, Bakı, 1978, s.8.

artımı), əhalinin təkrar istehsalı əhalisakinliyinin inkişafı prosesinin ünsürlərini, tərəflərini təşkil edir; onlar bioloji əsasa malik olsalar da, eyni zamanda ətraf mühitin dəyişilməsi ilə şərtlənir və öz növbəsində məhsuldar qüvvələrin və cəmiyyətdə hakim rol oynayan iqtisadi münasibətlərin inkişaf səviyyəsi ilə müəyyən edilən həyat və əmək şəraitindən asılıdır. Öz təbiəti etibarilə sosial hadisə olan demoqrafik proseslər istehsal üsulunun inkişafı ilə müəyyən edilir və məhsuldar qüvvələrin və bütünlükdə ictimai münasibətlərin inkişafına əks təsir göstərir. Bu isə o deməkdir ki, demoqrafik qanunlar ictimai münasibətlərin xarakterindən asılıdır və demoqrafik hadisə və proseslərin hərəkəti, əhalinin quruluşunda baş verən dəyişikliklər hakim istehsal münasibətlərinin əsasında yaranmış sosial institutlarla müəyyən edilir.

Demoqrafik proseslərin şərtlərindən bəhs edərkən K.Marks göstərmişdir ki, müxtəlif istehsal üsulları şəraitində əhalinin artımının müxtəlif qanunları vardır. Bu müxtəlif qanunları sadəcə olaraq istehsalın şərtlərinin müxtəlif növ münasibətlərinə, canlı fərdlərə gəldikdə isə onlar cəmiyyətin üzvü kimi bu cəmiyyətdə işləyib mənimsədiklərindən həmin cəmiyyətin təkrar istehsalı şərtlərinə aid edilməlidir. O yazırdı: «Hər bir ayrıca tarixi istehsal üsulunun həqiqətdə özünəməxsus ayrıca tarixi xarakterə malik əhali qanunları vardır»[6]. V.İ.Lenin də bu məsələdən bəhs edərkən yazırdı: «İnsanın törəyib artması şəraiti müxtəlif ictimai orqanizmlərin quruluşundan asılıdır». Buna görə də əhali qanununu bir belə orqanizm üçün ayrılıqda öyrənmək lazımdır; bunu «mücərrəd şəkildə ictimai quruluşun tarixcə müxtəlif formalarından asılı etmədən öyrənmək olmaz»[7].

Bütün bu deyilənlər bizə əsas verir ki, dünyada baş verən qloballaşma şəraitində ölkəmizdə insan potensialının formalaşması və inkişafı prosesində baş verməkdə olan müasir kəmiyyət-keyfiyyət dəyişikliklərini və onların gələcək inkişaf meyllərini aşkara çıxarıb düzgün qiymətləndirmək üçün dünya miqyasında və yaşadığımız ərazidə həmin hadisə və proseslərdə

---

[6] *K.Marks.* Kapital, 1-ci cild, Bakı, 1969, s. 634.

[7] *V.İ.Lenin.* Əsərlərinin tam külliyyatı, 1-ci cild, s. 499-500.

baş vermiş tarixi dəyişikliklərə nəzər salaq və onlara təsir edən amilləri aşkara çıxarıb ümumiləşdirək.

Tarixi mənbələr göstərir ki, on min illər ərzində dünya əhalisinin sayı olduqca ləng artmış və bu vəziyyət bəşər tarixinin ilk mərhələlərində məhsuldar qüvvələrin aşağı inkişaf səviyyəsi və insanların təbiətdən asılı qalması ilə izah edilir.

Qədim zamanlarda və orta əsrlərdə əhalinin doğum səviyyəsi həddən ziyadə yüksək olub, bioloji imkan həddinə yaxınlaşır, ölüm səviyyəsi isə xüsusilə uşaqlar arasında olduqca yüksək idi. Bu vəziyyət antisanitar həyat şəraiti, vaxtaşırı dağıdıcı epidemiyaların yayılması, aclığın və müharibələrin xroniki hal alması və bu proseslərin bəzi hallarda bütünlükdə bir çox xalqları əhatə etməsi ilə bağlı idi. Doğum səviyyəsi çox cüzi miqdarda ölüm səviyyəsini üstələyir və bu səbəbdən də əhalinin təbii artım səviyyəsi son dərəcə aşağı idi; çox halda isə bu yox dərəcəsinədək azalırdı. Bəzi tarixçi-demoqraf alimlərin yazdığına görə isə Poliolit dövrünün sonunda (təqribən 15-16 min il əvvəl) çox təqribi hesablamalara əsasən Yer kürəsində cəmi 3 milyon nəfər adam yaşamışdır. Deməyə əsas var ki, həmin dövrdə indiki yaşayış məskənlərinin təqribən $^1/_3$ -dən az bir hissəsində (40 milyon kv.km. ətrafında) insanlar məskunlaşmış və hər 100 kv.km-ə təxminən 8-10 nəfər adam düşmüşdü. Yaşayış mənbəyinin ovçuluq, balıqçılıq və yabanı bitkilərin toplanmasından ibarət olduğu qədim insanların artımı isə uzun illər boyu təbii mühitdən asılı qalmışdı.[8]

Tarixi inkişafın sonrakı mərhələlərində məhsuldar qüvvələrin inkişafı ilə əlaqədar olaraq əhalinin təbii artımı xeyli yüksəlməyə başlamışdır. Yaxın Şərqdə əkinçilik və maldarlığa keçidin başlanması və ətraf mühitin insana təsirinin zəifləməsi əhalinin təkrar istehsalı və onun dinamikasının dəyişməsində həlledici rol oynamağa başlamışdır. Bu dəyişikliklərin nəticəsində qədim sivilizasiyanın meydana gəlməsi ilə Neolit dövrünün qurtarması (4-5 min il bundan əvvəl) zamanı Yer kürəsi əhalisinin sayı təqribən 50 milyon nəfərə gəlib çatmışdır. İnsan

---

[8] *С.И.Брук*. Население мира. Этнодемографический справочник. Изд-во «Наука», М., 1981, s.12.

cəmiyyətinin sonrakı inkişafı istehsal vasitələrinin hazırlanması üçün əsas material olan metalların istehsalının genişlənməsi (xüsusilə dəmirin), əkinçilik və maldarlığın təkmilləşdirilməsi (aqrotexnikanın yaxşılaşdırılması, daha məhsuldar kənd təsərrüfatı bitkilərinin aşkara çıxarılması, yeni heyvan növlərinin əhliləşdirilməsi), yeni mühüm texniki kəşflərin əmələ gəlməsi kimi hadisələrlə bağlı olmuşdur. Bunların əsasında əhalinin artımı daha sürətlə çoxalmağa başlamışdır. Mütəxəssislər Yer kürəsi əhalisinin sayının yeni eranın başlanğıcında 250-280 milyon nəfərə gəlib çatdığı fikrini irəli sürmüşlər. Bu dövrdə dünyanın bir çox rayonlarında əhali ya məskunlaşmamış və yaxud da çox az məskunlaşmışdı. Belə fərz edilir ki, həmin dövrdə dünya əhalisinin 2/3 hissəsi Asiya qitəsində yaşamışdır. Əksər mütəxəssislərin fikrincə isə 1000-ci ildə dünyanın əhalisinin sayı təqribən 300 milyon nəfər, 1500-cü ildə isə 400-450 milyon nəfər təşkil etmişdir.[9]

Qeyd edilən dövrdə insanların məskunlaşdığı quru ərazilərin sahəsi də xeyli genişlənmişdi. İnsanların nisbətən zəif məskunlaşdığı ərazilər arasında Şimali Amerika və Avstraliya, habelə Afrikanın və Cənubi Amerikanın nəmişli geniş meşə zolaqları fərqlənirdi. Əvvəllərdə olduğu kimi, bu dövrdə də dünya əhalisinin böyük hissəsi (3/5 hissəsi) Asiyada cəmlənmiş və əhəmiyyətli dərəcədə artmağa başlamışdır. Bu dövrdə bir çox ölkələrdə kapitalizmin inkişafı sənaye və kənd təsərrüfatı istehsalının artması, yeyinti məhsullarının çoxalması və tibbi nailiyyətlərlə müşayiət olunmuşdur. Bunlar da heç şübhəsiz ki, demoqrafik proseslərin inkişafına təsir etməyə bilməzdi.

Tarixi demoqrafik statistikanın məlumatlarına əsasən dünya əhalisinin sayı 1500-cü ildə 440 milyon nəfər, 1750-ci ildə 728 milyon nəfər, 1800-cü ildə 952 milyon nəfər, 1850-ci ildə 1248 milyon nəfər, 1900-cü ildə isə 1500,5 milyon nəfər təşkil etmişdir.[10]

---

[9] *С.И.Брук.* Население мира. Этнодемографический справочник. Изд-во «Наука», М., 1981, s.12-13.

[10] *S.İ.Bruk.* Göstərilən kitabı, s.14; «Мировая экономика и международные отношения». М., «Наука», 2001, № 9, s. 90.

Yuxarıda göstərilən rəqəmlərdən aydın olur ki, XVIII əsrin ikinci yarısından sonra dünya əhalisinin sayı kəskin surətdə artmağa başlamışdır. Həmin vəziyyət öyrənilən dövrdə bir sıra Qərbi Avropa ölkələrində baş vermiş sənaye çevrilişi, habelə doğum səviyyəsinin sabit qaldığı şəraitdə ölüm səviyyəsinin, xüsusilə də uşaq ölümünün aşağı düşməsi ilə bağlı olmuşdur. İlk və fövqəladə dərəcədə güclü **«demoqrafik partlayış»** da məhz elə bu dövrdə baş vermişdir. Belə ki, əgər tədqiq edilən dövrün birinci 350 ili ərzində (1500-1850-ci illərdə) dünya əhalisinin sayı 808 milyon nəfər və ya hər il orta hesabla 2,3 milyon nəfər artmışdırsa, sonrakı 50 il ərzində (1850-1900-cu illərdə) bu artım 252,5 milyon nəfər və ya hər il orta hesabla 5,05 milyon nəfər təşkil etmiş və əvvəlki dövrlə müqayisədə 2,2 dəfə yüksək olmuşdur.

Aparılan tədqiqatların nəticələrindən aydın olur ki, dünya əhalisinin hər il üçün təbii artımı 1500-1750-ci illərdə 2‰, 1750-1900-cu illərdə - 4‰, o cümlədən XIX əsrin ikinci yarısında (1850-1900-cu illərdə) isə 6‰ olmuşdur.[11]

Tarix boyu dünya əhalisinin sayının artım sürətinin yüksəlməsini ondan görmək olar ki, S.İ.Brukun yazdığına görə, əgər axırıncı minillikdə onun sayı 14 dəfə artmış və ***birinci*** iki dəfə çoxalması üçün təqribən 700 il, ***ikinci*** iki dəfə çoxalması üçün 150 il, ***üçüncü*** iki dəfə çoxalması üçün 100 ildən bir qədər az vaxt tələb olunmuşdursa, ***sonuncu*** iki dəfə çoxalması üçün cəmi 40 ildən də az bir vaxt tələb olunmuşdur.[12]

Beləliklə, dünya əhalisinin sayının 1,0 milyard nəfərə gəliib çatması təqribən 1820-ci ilə (başqa bir mənbənin məlumatına əsasən isə 1804-1807-ci ilə) təsadüf etmiş və bunun üçün təqribən 70 əsr vaxt tələb olunmuşdursa,[13] 2,0 milyard nəfərə çatması - 1927–ci ilə (yəni yüz ildən bir qədər çox vaxtda), 3,0 milyard nəfərə çatması - 33 il sonraya, yəni – 1960-cı ilə təsadüf etmişdir.

---

[11] *S.İ.Bruk*. Göstərilən kitabı, s.13-14.
[12] B a x: yenə orada, s.16.
[13] Журнал «Наука и религия», М., 2001, № 8.

Dünya əhalisinin sayının axırıncı iki dəfə çoxalması, yəni 3,0 milyard nəfərdən 6,0 milyard nəfərə çatması üçünsə cəmi 40 il vaxt (1960-2000-ci illərdə) tələb olunmuş və bu səviyyə XX əsrin 2000-ci ilinə təsadüf etmişdir. **Ümumiyyətlə götürüldükdə isə XX əsr insan cəmiyyəti tarixinə dünya əhalisinin ən sürətlə artdığı və ikinci «demoqrafik partlayış»ın baş verdiyi yüzillik kimi daxil olmuşdur. Bu əsr özündən əvvəlki bütün insan cəmiyyətləri ilə müqayisədə inqilabçı əsr kimi yadda qalmışdır**.

Dünyanın ən tanınmış filosoflarından biri sayılan ispaniyalı filosof Xose Orteqa-i-Qassetinin haqlı olaraq dediyi kimi, **tarixin inqilabçı əsrini təkamül əsrindən** fərqləndirən cəhət odur ki, **bu əsrdə dəyişən nə isə deyil, dəyişən dünyanın özüdür.**[14]

Dünyada baş verən sürətli tarixi inkişafla əlaqədar olaraq 1900-cü ildən başlayaraq ictimai həyatın bütün sahələrində çox böyük sosial, siyasi hadisələr və radikal dəyişikliklər baş vermişdir. Təkcə bunu demək kifayətdir ki,bu dövrdə Yer kürəsi əhalisinin sayı 4 dəfə (1500,5 milyon nəfərdən 6000,0 milyon nəfərə); dünyanın ümumi daxili məhsulunun həcmi 18,8 dəfə (2590 milyard dollardan 48575 milyard dollara); dünya iqtisadiyyatında məşğul olanların sayı 3,8 dəfə (592,5 milyon nəfərdən 2240,0 milyon nəfərə); əmək məhsuldarlığının səviyyəsi 5,0 dəfə artmış; hər nəfər məşğul olan əhali tərəfindən istehsal olunmuş məhsulun həcmi isə 4,9 dəfə artaraq 4,4 min dollardan 21,7 min dollara; dünya sənaye məhsulunun həcmi 26,3 dəfə artaraq 370,0 milyard dollardan 9740,0 milyard dollara, kənd təsərrüfatı məhsulları istehsalının həcmi isə 6,0 dəfə artaraq 415 milyard dollardan 2475,0 milyard dollara gəlib çatmışdır.[15]

İndi dünya əhalisinin yarıdan çoxu yeni yaranmış dövlətlərdə yaşayır.

---

[14] *Э.А.Араб оглы.* Демографические и экологические прогнозы. М., «Статистика», 1978, s.11.

[15] Журнал «Мировая экономика и международные отношения». М., «Наука», 2001, № 9, s.90-103 (burada dolların 2002-ci ilin qiymətlərinə çevrilməsi onun rəsmi kursuna əsasən deyil, milli valyutanın paritet alıcılıq qabiliyətinə əsasən aparılmışdır ki, bu da postsovet ölkələrində kursların hesablanmasından ciddi surətdə fərqlənir).

Dünya əhalisinin dəyişilməsi dinamikası, hər şeydən əvvəl, onun təbii hərəkəti ilə, yəni doğum və ölüm səviyyələri arasındakı nisbətlə müəyyən edilir. Dünyanın bir çox ölkələrində isə əhalinin artım dinamikasına onun təbii hərəkətindən daha çox mexaniki hərəkəti, daha doğrusu, miqrasiyası təsir göstərir. Məsələn, XIX əsrin bir çox onillikləri ərzində ABŞ, Kanada, Avstraliya və Yeni Zelandiya kimi ölkələrdə əhalinin emmiqrasiyası bu ölkələrin əhalisinin təbii artımından çox olmuşdur. İrlandiyada isə əksinə, doğum səviyyəsinin əhəmiyyətli dərəcədə yüksək olmasına baxmayaraq, əhalinin sayı onun emmiqrasiyası nəticəsində kəskin surətdə azalaraq 1845-ci ildəki 8,2 milyon nəfərdən 1871-ci ildə 5,4 milyon nəfərə düşmüşdür.[16] XVIII əsrin sonunadək əhalinin doğum səviyyəsi dünyanın hər yerində olduqca yüksək olmuş və ayrı-ayrı tarixi dövrlərdə ölkələr üzrə bir-birindən fərqlənmiş, ancaq bu fərqlər o qədər də kəskin xarakter daşımamışdır.

Əhalinin təbii hərəkətindəki dəyişikliklər əsas etibarilə ölkələrin sosial-iqtisadi və mədəni inkişaf səviyyələri ilə bağlı olan ölüm səviyyəsindəki dəyişikliklərdən asılı olaraq baş vermişdir. Yalnız XIX əsrdə, xüsusilə də XX əsrdə sənayeləşmənin və urbanizasiya prosesinin sürətli inkişafı, qadınların ictimai istehsal prosesinə geniş cəlb edilməsi, onların təhsil və mədəniyyət səviyyəsinin yüksəlməsi, nikahkəsdirmə yaşının artması nəticə etibarilə bir sıra ölkələrdə doğum göstəricisinin əhəmiyyətli dərəcədə dəyişməsinə gətirib çıxarmışdır. Onu da qeyd etmək lazımdır ki, demoqrafik proseslərin bir sıra kompleks sosial-iqtisadi amillərlə şərtlənməsinə baxmayaraq, onlar üçün müəyyən müstəqillik və böyük əhatəçilik də xasdır. Doğuma münasibətdə isə demoqrafik davranış çox mühafizəkar olub, ən çox ayrı-ayrı millətlərin və xalqların malik olduğu mövcud ənənə və qaydalardan, onların məişətlərindən, adətlərindən, ailə tərzlərindən, dini baxışlarından və s. asılıdır.

Demoqrafik statistikanın məlumatları göstərir ki, əhalinin ən yüksək artımı XIX əsrin sonuncu rübündə (o dövr üçün yüksək doğum səviyyəsi şəraitində) Avropa ölkələrində, XX əs-

---

[16] *S.İ.Bruk*. Göstərilən kitabı, s.16.

rin ilk onilliklərində isə Latın Amerikasının əksər ölkələrində özünü göstərməyə başlamışdır. Bu dövrdə Asiya və Afrika ölkələrində isə başqa regionlardakına nisbətən ölüm və doğum səviyyəsi əhəmiyyətli dərəcədə yüksək olduğundan, təbii artım səviyyəsi aşağı olmuşdur. Bu ölkələrdə doğum səviyyəsinin yüksək olması (bir qayda olaraq 40‰-i ötürdü) xeyli dərəcədə erkən yaşlarında nikah bağlamaq və çoxuşaqlılığa meylin artması ilə əlaqədar olmuşdur. Çoxuşaqlılığa meylin artması isə uşaq ölümünün həddən artıq yüksək olması ilə bağlı olub, valideynlərdə özlərindən sonra nəslin kəsilməsi qorxusundan irəli gəlirdi (bu dövrdə Avroasiya ölkələrinin əksəriyyətində hər dörd, bəzi Afrika ölkələrində isə hər üç, hətta hər iki uşaqdan biri bir yaşına çatmamış ölürdü). Gənc və yetkin yaşında olanlar arasında da çox yüksək ölüm halları müşahidə olunurdu. Baş alıb gedən aclıq və epidemiyalar hər il on və yüz minlərlə adamı həyatdan aparırdı. Artıq XX əsrin 20-ci illərində, daha doğrusu, Birinci dünya müharibəsindən sonrakı ilk onillikdə əhalinin nisbətən yüksək artımı dünya üçün səciyyəvi hal olmuş və bu vəziyyət dünyanın bir çox ölkələrində müşahidə edilmişdir. Bu sahədə istisna təşkil edən yalnız yüksək urbanizasiyası ilə fərqlənən Qərbi Avropa ölkələri olmuşdur. Bu da həmin ölkələrdən Amerikaya və Avstraliyaya çoxlu sayda miqrantların getməsi ilə izah olunurdu. Həmin dövrdə Asiya, Afrika və Amerikada illik əhali artımının 15 promil təşkil etməsi ayrı-ayrı ölkələrdə doğum səviyyəsinin həlledici rol oynaması, ölüm səviyyəsinin isə müasir dövrdəkindən qat-qat yüksək olması ilə bağlı idi. Bu dövrdə Asiya və Afrika ölkələrində əhalinin artımının xeyli sürətlənməsi isə həmin ölkələrdə əhalinin təbii artımının XX əsrin ilk iki onilliyi ərzindəkinə nisbətən bir neçə dəfə yüksək olması ilə izah edilirdi. Bu baxımdan cəsarətlə demək olar ki, həmin illərdə Birinci dünya müharibəsi qurtardıqdan **sonra daha bir "demoqrafik partlayış" özünü göstərmiş və bu proses bütün dünya ölkələrini deyil, yalnız zəif inkişaf etmiş ölkələri əhatə etmişdir.**

1930-cu ildə başlamış dünya iqtisadi böhranı, dünyanın müxtəlif regionlarında yaranmış gərgin siyasi durum, Almaniya, İtaliya və Yaponiyada təcavüzkar faşist rejimi ilə bağlı

19638

Tefekkür Universitetin Kitabxana

olaraq müharibəyə hazırlıq, Efiopiya, Çin və İspaniyanın hərbi münaqişəyə cəlb edilməsi demoqrafik proseslərə də təsir etməyə bilməzdi. Təsadüfi deyildir ki, 30-cu illərdə dünya miqyasında əhalinin orta illik artım səviyyəsi 10,5‰ azalmış, bir sıra inkişaf etmiş ölkələrdə isə açıq-aşkar onun depopulyasiya simptomları görünməkdə idi. 1935-ci ildə isə Fransada artıq ölüm səviyyəsi doğum səviyyəsini üstələmişdi. Dünyanın ən inkişaf etmiş ölkəsi sayılan ABŞ-da əhalinin artımı kəskin surətdə aşağı düşmüş, Asiyada isə onun sürəti 1/3 dəfə azalmışdı. Yalnız təkcə Latın Amerikası ölkələri bu prosesdən kənarda qalmış və həmin ölkələrdə əhalinin artımı nəinki azalmamış, əksinə, 18‰-dək yüksəlmişdi.

İkinci dünya müharibəsi keçmiş SSRİ xalqlarına, habelə bir sıra başqa ölkələrin xalqlarına böyük bədbəxtlik gətirdi. Bu dünya müharibəsində təkcə birbaşa insan itkisi 50 milyon nəfər təşkil etmişdi. Doğum səviyyəsinin azalması, ölüm səviyyəsinin isə yüksəlməsi ilə bağlı olaraq dolayısı yolla insan itkisinə gəldikdə isə təqribi hesablamalara əsasən bu itkilərin sayı qeyd etdiyimiz birbaşa itkilərdən ən azı 2,5 dəfə çox olmuşdu. Həmin müharibə illərində əksər ölkələrdə doğum səviyyəsi ölüm səviyyəsindən aşağı olmuşdur. Bəzi demoqrafların apardıqları hesablamalara əsasən İkinci dünya müharibəsi zamanı Yer kürəsi ən azı 175 milyon nəfər adam itkisi ilə üzləşmişdir.[17] B.S.Urlanisin hesablamalarına əsasən XVIII əsrdə dünya dövlətlərində aparılan bütün müharibələrdə 5 milyon nəfərdən çox adam ölmüşdür. Onların 680 min nəfəri Rusiyanın payına düşmüşdür.[18] 1914-1918-ci illərin Dünya müharibəsi isə bəşəriyyətə təkcə əsgərlər arasında 9,5 milyon nəfərin öldürülməsinə və ölümünə başa gəlmişdir.[19] Həmin müharibə illərində 70 milyon nəfər adam səfərbərliyə alınmış və onların 1/7 hissəsi birbaşa müharibənin odunda həlak olmuşdur.[20] Bu müharibədə həlak olanların 9/10 hissəsi avropalılar olmuşdur. Onların 720

---

[17] *S.İ.Bruk*. Göstərilən kitabı, s.18-19.

[18] *Б.Ц.Урланис*. Народонаселение. Исследования, публицистика. М., «Статистика», 1976, s.156.

[19] Yenə orada, s.185-186.

[20] Yenə orada, s.191.

min nəfəri Türkiyənin, təqribən 150 min nəfəri isə Rusiyanın Asiya hissəsinin payına düşmüşdür.[21]

Bütün bunlar isə heç şübhəsiz ki, dünyanın müxtəlif ərazilərində demoqrafik proseslərin inkişafına öz mənfi təsirini göstərməmiş deyildir. XX əsrin birinci yarısında dünyada baş verən bu hadisələrin nəticəsi idi ki, 40-cı illərdə bütünlükdə dünya üzrə əhalinin orta illik artımı azalaraq 8,5‰-dək, Avropada isə 3‰-dək düşmüşdür.

İkinci dünya müharibəsindən sonra baş verən qlobal demoqrafik partlayışla əlaqədar olaraq əksər ölkələrdə əhalinin ölüm səviyyəsinin kəskin şəkildə azalması nəticəsində təbii artımın orta illik səviyyəsi 60-cı illərin ortalarında artaraq dünya üzrə orta illik hesabla 20‰, bir sıra Mərkəzi və Cənubi Amerika, Afrika və Asiya ölkələrində isə 30‰-ə qalxmışdı.[22]

Demoqrafik göstəricilərdə baş verən dəyişikliklər dünyanın ayrı-ayrı ölkələrində müxtəlif olmaqla daim dəyişmiş və indi də dəyişməkdə davam edir. Müxtəlif ölkələrdə əhalinin artım sürətində baş verən dəyişikliklərin vəziyyətini və onun dəyişilməsi meyllərini düzgün təsəvvür etmək üçün 1-ci cədvəlin məlumatlarına müraciət etmək kifayətdir. Bu cədvəlin məlumatlarından göründüyü kimi, 1900-2000-ci illəri əhatə edən yüzillikdə dünya əhalisinin sayı 4,5 milyard nəfər və ya 4,0 dəfə artaraq 1,5 milyard nəfərdən 6,0 milyard nəfərə, o cümlədən inkişaf etmiş Qərb ölkələrində 497,5 milyon nəfər və ya 2,4 dəfə artaraq 355,5 milyon nəfərdən 853,0 milyon nəfərə (***ABŞ-da*** 200,6 milyon nəfər və ya 3,6 dəfə artaraq 76,4 milyon nəfərdən 277,0 milyon nəfərə, ***Yaponiyada*** 83,0 milyon nəfər və ya 2,9 artaraq 44,0 milyon nəfərdən 127,0 milyon nəfərə); ***Qərbi Avropada*** 165,0 milyon nəfər və ya 1,7 dəfə artaraq 225,0 milyon nəfərdən 390 milyon nəfərə (***Almaniyada*** 36,3 milyon nəfər və ya 1,8 dəfə artaraq 45,7 milyon nəfərdən 82,0 milyon nəfərə; ***Fransada*** 18,2 milyon nəfər və ya 44,6 faiz artaraq 40,8 milyon nəfərdən 59,0 milyon nəfərə; ***Böyük Britaniyada*** 20,5 milyon nəfər artaraq

---

[21] *Б.Ц.Урланис.* Народонаселение. Исследования, публицистика. М., «Статистика», 1976, s.190.

[22] *S.İ.Bruk.* Göstərilən kitabı, s.18-19.

38,5 milyon nəfərdən 59,0 milyon nəfərə; ***İtaliyada*** 24,5 milyon nəfər və ya 1,7 dəfə artaraq 33,5 milyon nəfərdən 58,0 milyon nəfərə); ***İnkişaf etməkdə olan ölkələrdə*** 3,8 milyard nəfər və ya 5,0 dəfə artaraq 950,0 milyon nəfərdən 4 milyard 750 milyon nəfərə; ***Latın Amerikasında*** 457,0 milyon nəfər və ya 8,2 dəfə artaraq 63,0 milyon nəfərdən 520,0 milyon nəfərə (***Braziliyada*** 156,0 milyon nəfər və ya 9,7 dəfə artaraq 18,0 milyon nəfərdən 174,0 milyon nəfərə; ***Meksikada*** 86,4 milyon nəfər və ya 7,3 dəfə artaraq 13,6 milyon nəfərdən 100,0 milyon nəfərə; ***Argentinada*** 32,0 milyon nəfər və ya 7,4 dəfə artaraq 5,0 milyon nəfərdən 37,0 milyon nəfərə); ***Asiyada*** 2 milyard 3 milyon 900 min nəfər və ya 3,9 dəfədən çox artaraq 810,0 milyon nəfərdən 3 milyard 200 milyon nəfərə (***Çində*** 860 milyon nəfər və ya 3,1 dəfə artaraq 400,0 milyon nəfərdən 1 milyard 260 milyon nəfərə; ***Hindistanda*** 785,5 milyon nəfər və ya 4,3 dəfə artaraq 234,5 milyon nəfərdən 1 milyard 20 milyon nəfərə; ***İndoneziyada*** 165,5 milyon nəfər və ya 5,1 dəfə artaraq 40,5 milyon nəfərdən 206,0 milyon nəfərə); ***Şimali Afrika, Yaxın və Orta Şərqdə*** 340,0 milyon nəfər və ya 12,3 dəfə artaraq 30,0 milyon nəfərdən 370,0 milyon nəfərə; ***Afrikanın Saxaradan*** cənubunda 603,0 milyon nəfər və ya 13,8 dəfə artaraq 47,0 milyon nəfərdən 650,0 milyon nəfərə; ***Şərqi Avropada*** 50,0 milyon nəfər və ya 69,4 faiz artaraq 72,0 milyon nəfərdən 122,0 milyon nəfərə; keçmiş SSRİ ərazisində 167,0 milyon nəfər və ya 2,5 dəfə artaraq 123,0 milyon nəfərdən 290,0 milyon nəfərə; ***Rusiyada*** 76,0 milyon nəfər və ya 2,1 dəfə artaraq 69,0 milyon nəfərdən 145,0 milyon nəfərə və nəhayət, ***Azərbaycan Respublikasında*** 6,2 milyon nəfər və ya 4,4 dəfə artaraq 1,8 milyon nəfərdən, 8,0 milyon nəfərə gəlib çatmışdır.

1960-cı ildən sonra isə bütün ölkələrdə əhalinin artım sürəti 1900-cü illə müqayisədə xeyli azalmışdır. 1-ci cədvəlin məlumatlarından göründüyü kimi, istər 1900-cü illə, istərsə də 1950-ci və 1960-cı illərlə müqayisədə əhalinin ən sürətli artımı ***Saxaradan cənubdakı Afrikada*** (13,8; 4,2 və 3,1 dəfə), ***Şimali Afrika, Yaxın və Orta Şərqdə*** (12,3; 3,7 və 2,7 dəfə), ***Braziliyada*** (9,7; 3,4 və 2,5 dəfə), **Meksikada** (7,3; 4,2 və 3,0 dəfə), ***Argentinada*** (7,4; 2,2 və 1,8 dəfə), ***Pakistanda*** (6,6; 3,8 və 2,7 dəfə), ***İn-***

1-ci c

Dünya əhalisinin dinamikası (milyon nəfərlə)

İllər / Ölkələr	1900	1913	1926	1938	1950	1960	1970	1980	1990	2000	1900-2000-ci illərdə %-lə	O cümlədən 1900-1950-ci illərdə	O cümlədən 1950-2000-ci illərdə
Bütün dünyada	1500,5	1700,0	1975,0	2200,0	2507,0	3050,0	3700,0	4400,0	5235,0	6000,0	399,9	167,1	239,3
İnkişaf etmiş Qərb ölkələri	355,5	415,0	470,0	502,0	562,5	627,5	693,5	756,0	800,0	853,0	240,0	158,2	151,6
O cüm: ABŞ	76,4	9,6	122,2	130,5	153,0	176,0	200,5	227,0	247,0	277,0	362,5	200,3	181,0
Yaponiya	44,0	51,6	63,2	71,8	83,0	93,0	104,0	116,8	123,5	127,0	288,6	188,6	153,0
Qərbi Avropa	225,0	250,0	268,0	280,5	300,5	325,5	349,5	366,0	375,5	390,0	173,3	133,5	129,8
O cüm.: Almaniya	45,7	54,7	58,7	62,3	67,0	72,0	77,0	78,5	79,0	82,0	179,4	146,4	122,4
Fransa	40,8	41,8	42,0	42,0	42,0	46,0	50,5	54,0	56,5	59,0	144,6	103,0	140,5
Böyük Britaniya	38,5	42,5	45,5	47,5	52,0	55,0	57,0	57,5	58,0	59,0	153,2	135,1	113,5
İtaliya	33,5	36,0	40,0	43,0	46,5	50,0	53,0	56,5	56,5	58,0	173,1	138,8	124,7
İnkişaf etməkdə olan ölkələr	950,0	1060,0	1250,0	1420,0	1650,0	2100,0	2650,0	3260,0	4025,0	4750,0	500,0	173,7	287,9
Latın Amerikası	63,0	80,0	106,0	125,0	156,0	208,5	275,5	358,0	426,0	520,0	825,4	247,6	333,3
O cüm: Braziliya	18,0	23,7	33,0	40,0	51,0	70,0	93,5	121,5	141,0	174,0	966,6	283,3	341,2
Meksika	13,6	15,0	16,8	19,8	24,0	34,0	47,5	67,5	80,0	100,0	735,3	176,5	416,7
Argentina	510,0	7,7	11,6	13,7	16,5	20,0	24,0	28,0	33,0	37,0	740,0	330,0	224,2
Asiya[1]	810,0	880,0	1000,0	1100,0	1235,0	1550,0	1900,0	2300,0	2800,0	3200,0	395,1	152,5	259,1
O cüm: Çin	400,0	430,0	485,0	527,5	580,0	700,0	830,0	980,0	1150,0	1260,0	315,0	145,0	217,2
Hindistan	234,5	248,5	273,0	308,0	338,0	438,0	556,0	688,0	840,0	1020,0	435,0	144,1	301,8
Pakistan	20,0	24,0	25,0	29,0	35,0	48,5	65,0	82,5	114,0	132,5	662,5	175,0	378,6
İndoneziya	40,5	48,5	60,0	68,5	77,0	98,5	124,0	148,5	184,5	206,0	508,6	190,1	267,5
Şimali Afrika, Yaxın və Orta Şərq	30,0	40,0	55,0	75,0	100,0	135,0	180,0	222,5	300,0	370,0	1233,3	333,0	370,0
Saxaridən cənubdakı Afrikada	47,0	62,0	88,0	112,0	155,0	210,0	285,0	375,0	510,0	650,0	1383,0	329,8	419,3
Şərqi Avropa	72,0	79,0	84,5	87,5	89,0	98,0	106,0	117,0	119,0	122,0	169,4	123,6	137,1
Keçmiş SSRİ[2]	123,0	158,0	171,5	186,5	205,5	226,5	247,0	258,5	290,0	290,0	255,8	167,1	141,1
O cüm: Rusiya[3]	69,0	89,0	95,0	103,5	112,0	123,0	132,0	139,0	150,0	145,0	210,1	162,3	129,5
Azərbaycan Respublikası[4]	1,81	2,33	2,31	3,20	2,86	3,82	5,11	6,11	7,13	8,01	442,5	158,0	280,1

[2,3] Jurnal: «Мировая экономика и международные отношения», М., «Наука», 2001, № 9, s. 90-91.

[1] Yaxın və Orta Şərqsiz.

[2] 1900, 1913-cü illər – Rusiya İmperiyası Polşa və Finləndiyasız; 1929, 1950, 1980, 1990-cı illər – SSRİ; 2000-ci il – keçmiş SSRİ (MDB və Baltikyanı ölkələr).

[3] Rusiya Federasiyası indiki şəhərlərdə. [4] 1990-cı il – 1897-ci il, 1929-cu il, 1906-cı il, 1938-ci il, 1939-cu ilin məlumatları

[4] 1990-cı il – 1897-ci il, 1929-cu il, 1906-cı il, 1938-ci il, 1939-cu ilin məlumatları

doneziyada (5,1; 2,7 və 2,1 dəfə), ***Hindistanda*** (4,3; 3,0 və 2,3 dəfə), ***Çində*** (3,1; 2,2 və 2,1 dəfə), ***ABŞ-da*** (3,6; 1,8 və 1,6 dəfə), ***Yaponiyada*** (2,9; 1,5 və 1,4 dəfə) və ***Azərbaycan Respublikasında*** (4,4; 2,8 və 2,1 dəfə) özünü büruzə vermişdir.

20-ci yüzilliyin ayrı-ayrı tarixi inkişaf mərhələlərində əhalinin sayının artım sürəti və bu artım sürətinin hər bir faizinin əhali artımı tutumu özündən əvvəlki dövrlərə nisbətən xeyli yüksək olmaqla bir-birindən fərqlənir. Beləliklə, əgər 1900-2000-ci illərdə bütünlükdə götürüldükdə dünya əhalisinin sayı orta hesabla hər il 45 milyon nəfər artmışdırsa, bu artım 1900-1950-ci illərdə – 20,1 milyon nəfər; 1950-2000-ci illərdə – 69,9 milyon nəfər; 1960-2000-ci illərdə isə 73,7 milyon nəfər təşkil etmişdir. Bu isə o deməkdir ki, əhalinin orta illik artımı 1950-2000-ci illərdə 1900-1950-ci illərdə olduğuna nisbətən 3,5 dəfə, 1960-2000-ci illərdə olduğuna nisbətən isə 3,7 dəfə yüksək olmuşdur. Bu fərqlər müxtəlif olmaqla, demək olar ki, dünyanın bütün ölkələrində özünü göstərmişdir.

Dünyada və onun ayrı-ayrı ölkələrində əhalinin artım sürətindəki bu dəyişikliklər qanunauyğun hal olub, həmin ərazilərdə yaşayan əhalinin təbii təkrar istehsal göstəricilərinin (doğum, ölüm, təbii artımında) səviyyəsi, habelə əhali miqyasında baş verən və onlara təsir edən kompleks amillərlə izah edilir. Aparılan tədqiqatlar göstərir ki, bu amillərin təsiri ayrı-ayrı ölkələrdə müxtəlif olmaqla bir-birindən fərqlənir və həmin ölkələrdə məskunlaşan əhalinin dinamikası və quruluşundakı dəyişikliklərdə öz əksini tapır. Bu baxımdan dünyanın ən qədim insan məskunlaşan ərazilərindən biri sayılan Azərbaycan Respublikasında əhalinin hərəkət göstəricilərində baş verən dəyişikliklərin və meyllərin bu sahədə dünyada gedən dəyişikliklərin fonunda tədqiq edilib öyrənilməsi xüsusi maraq doğurur və mühüm elmi əhəmiyyət kəsb edir. Buna görə də burada biz XX əsrdə Azərbaycan Respublikasında əhalinin hərəkət dinamikası və quruluşunda baş verən dəyişikliklərin tədqiq edilib öyrənilməsi və ümumiləşdirilməsini məqsədəuyğun saydıq. Dünyanın ***ən qədim mədəniyyət ocaqlarından və insanların məskunlaşdığı ərazilərdən biri kimi tanınan Azərbaycanın*** ərazisində insanlar hələ 1,5-2,0 milyon il bundan əvvəl Poliolit (daş dövrü)

dövründə və Neolit (yeni daş dövrü) dövründə oturaq həyata keçərək əkinçilik və heyvandarlıqla məşğul olmağa başlamışlar.[24]

Qədim və zəngin tarixə malik olan Azərbaycanın ərazisi və onun əhalisi 1804-1813-cü illərin İran—Rusiya müharibəsi nəticəsində Rusiya ilə İran arasında 1813-cü ildə imzalanmış məlum «Gülüstan» və 1828-ci il fevral ayının 10-da imzalanmış «Türkmənçay» müqavilələrinə əsasən iki yerə (Şimali Azərbaycana və Cənubi Azərbaycana) bölündü. Şimali Azərbaycan İrəvan və Naxçıvan xanlıqları ilə birlikdə bütünlükdə Rusiyanın ərazisinə qatıldı, Cənubi Azərbaycan isə İranın tərkibində qaldı.

1828-ci il martın 1-də I Nikolay həmin müqaviləni təsdiq etmiş və ertəsi gün Erməni vilayəti yaradılması haqqında Fərman vermişdir. Bu Fərmanda deyilirdi ki, «İranla bağlanmış müqaviləyə əsasən İrandan Rusiyaya birləşdirilən İrəvan və Naxçıvan xanlıqlarını bundan sonra «Erməni vilayəti» adlandırmağı hökm edir və öz titulumuza daxil edirik. Həmin vilayətin quruluşu və idarə edilməsi Qaydası haqqında ali senat lazımi fərmanları öz vaxtında alacaqdır».[25]

Qeyd etdiyimiz həmin üzdəniraq Erməni vilayəti İrəvan və Naxçıvan əyalətlərinə və Ordubad dairəsinə bölünmüşdü. Tarixi mənbələrə əsasən həmin vaxt qeyd edilən Erməni vilayətində 23700 ailə, o cümlədən İrəvan əyalətində 1700 ailə, Naxçıvan əyalətində isə 4600 ailə yaşamışdır. Nəzərə alsaq ki, orta hesabla hər ailədə 5 nəfər adam olmuşdur, onda bütün ailələrdə mövcud olmuş əhalinin sayının 118500 nəfər olduğu aydınlaşar. Siyahıya alınmanın nəticələrinə görə Erməni vilayətində 81749 nəfər müsəlman və 25131 yerli erməni qeydə alınmışdır.[26] 1840-cı ildə adı çəkilən Erməni vilayəti buraxılır, əvəzində İrəvan qə-

---

[24] История Азербайджана (под ред. Дж.Б.Кулиева). Издательство «Элм», Баку, 1979, s.3.

[25] *V.Arzumanov, N.Mustafa.* Tarixin qara səhifələri. Deportasiya, Soyqırım, Qaçqınlıq. Bakı, «Qartal», 1998, s.23.

[26] Bax: *V.Arzumanlı, N.Mustafa.* Tarixin qara səhifələri. Deportasiya, Soyqırım, Qaçqınlıq. Bakı, «Qartal», 1998, səh. 23-24 və И.Шопен. Исторический памятник состояния Армянской области в эпоху его присоединения к Российской империи. СПБ., 1852, s.542.

zası təşkil edilir və bu Gürcü İmereti quberniyasının tərkibinə daxil edilir. 1849-cu ildə İrəvan, Aleksandropol, Naxçıvan, Ordubad və Novo-Bayazid (Yeni Bayazid) qəzalarından ibarət İrəvan quberniyası təşkil edilir və bu struktur 1917-ci ilədək dəyişməz qalır.

Yuxarıda adı çəkilən müqavilələrdən keçən 200 ilə yaxın bir müddət ərzində əvvəlcə çar Rusiyasının, sonra isə SSRİ-nin tərkibində qalmış Şimali Azərbaycanın (indiki Azərbaycan Respublikası) ictimai-iqtisadi və sosial həyatında baş vermiş köklü dəyişikliklər bütün başqa sahələrdə olduğu kimi, onun əhalisinin inkişafına və demoqrafik vəziyyətinə də öz təsirini göstərməmiş deyildir. Bunu 2-ci cədvəlin məlumatlarından görmək olar. Mövcud statistik mənbələrdən aydın olur ki, Şimali Azərbaycanın əhalisinin sayı onun Rusiyaya birləşdirilməsindən 50 il

2-ci cədvəl[xx]

Azərbaycan Respublikası əhalisinin dinamikası (1897-2003-cü illər)

Cəmi əhalinin sayı (min nəfər)		O cümlədən		Bütünlükdə əhaliyə nisbətən, faizlə	
		şəhər yerlərində	kənd yerlərində	şəhər yerlərində	kənd yerlərində
1897	1806,6	305,1	1501,6	16,9	83,1
1913	2339,2	555,9	1783,3	23,8	76,2
1917	2353,7	560,2	1793,5	23,8	76,2
1920	1952,2	405,8	1546,4	20,8	79,2
1922	2436,0	-	-	-	-
1926	2313,7	649,5	1664,2	28,1	71,9
1939	3205,2	1156,8	2048,4	36,1	63,9
1940	3274,0	1212,0	2062,0	37,0	63,0
1945	2705,6	-	-	-	-
1950	2859,0	1252,0	1607,0	44,0	56,0
1955	3277,0	1585,0	1692,0	48,0	52,0
1959	3697,7	1767,3	1930,4	47,8	52,2

[xx] 1897, 1926, 1939, 1959, 1970, 1979, 1989 və 1999-cu illərin məlumatları əhalinin siyahıyaalınması üzrə, qalan illərin məlumatları ilin əvvəlinə olan rəqəmlər üzrə verilmişdir. Bax: Azərbaycan əhalisinin siyahıya alınması, 1999-cu il, Bakı, 2000, IV hissə, s. 8-9; Azərbaycanın əhalisi 2003-cü il, Statistik Bülleten, Bakı, 2003, s. 19; Население союзных республик, M., 1977, s. 11; Azərbaycan və azərbaycanlılar, Bakı, 2000, s. 92-100; Azərbaycan statistik göstəriciləri 2002, s. 46.

1960	3815,7	1835,2	1980,5	48,1	51,9
1965	4509,5	2238,8	2270,7	49,6	50,4
1970	5117,1	2564,6	2552,5	50,1	49,9
1975	5644,4	2921,3	2723,1	51,8	48,2
1979	6028,3	3200,3	2828,0	53,1	46,9
1980	6114,3	3274,5	2866,8	53,1	46,9
1985	6622,4	3524,5	3097,9	53,2	46,8
1988	6928,0	3722,6	3205,4	53,7	46,3
1989	7021,2	3805,9	3215,3	54,2	45,8
1990	7131,9	3847,3	3284,6	52,9	46,1
1991	7218,5	3858,3	3360,2	53,5	46,5
1993	7440,0	3928,5	3511,5	59,8	47,2
1994	7549,6	3970,9	3578,7	52,6	47,4
1999	7953,4	4053,5	3899,9	51,0	49,0
2000	8016,2	4075,7	3940,5	51,0	49,0
2002	8141,4	4130,1	4011,3	51,0	49,0
2003	8202,5	4154,3	4048,2	50,7	49,3

sonra, yəni 1863-cü ildə 1130,0 min nəfər, 100 il sonra, yəni 1913-cü ildə 2339,2 min nəfər,[27] Azərbaycanda Sovet hakimiyyətinin qurulduğu 1920-ci ildə 1952,2 min nəfər,[28] SSRİ-nin dağıldığı 1991-ci ildə isə 7218,5 min nəfər[29] olmuşdur. Başqa sözlə desək, Azərbaycan əhalisinin sayı onun çar Rusiyasının tərkibində olduğu axırıncı 57 il ərzində (1863-1920-ci illərdə) 822,2 min nəfər və ya hər il orta hesabla 14,4 min nəfər (1,27%) artmışdırsa, Sovet hakimiyyəti illərində bu artım müvafiq surətdə 5266,3 min nəfər və 741,7 min nəfər (3,8%) təşkil etmiş və ya birinci dövrlə müqayisədə 5,1 dəfə sürətlə artmışdı. 2003-cü ilin əvvəlinə olan məlumatlara əsasən Azərbaycan Respublikasının əhalisinin sayı 8 milyon 202 min 500 nəfər təşkil etmişdir. Onların 4130,1 min nəfəri və ya 51 faizi şəhər, 4011,3 min nəfəri və ya 49 faizi isə kənd yerlərinin payına düşmüşdür. Əhalinin 3763,4 min nəfəri və ya 46,2 faizi iqtisadi fəal, 3715,0 min nəfəri və ya 45,6 faizi isə məşğul əhali olmuşdur. Respublika əhalisinin

[27] Бах: Демографический энциклопедический словарь. М., «Советская энциклопедия». 1985, s.12.
[28] Azərbaycan əhalisi. 2003. Bakı, 2003, s.14.
[29] Yenə orada, s.19.

4023,0 min nəfərini (49,1 faizini) kişilər və 4179,5 min nəfərini (50,9 faizini) qadınlar təşkil etmişdir.[30] Bütünlükdə əhalinin 28,7 faizini 0-15 yaşda, 60,1 faizini əmək qabiliyyətli yaşda (kişilər 16-32, qadınlar 16-57 yaşda), 11,2 faizini isə əmək qabiliyyətli yaşdan yuxarı olanlar təşkil etmişlər.[31]

Yuxarıda göstərildiyi kimi, tarixi inkişafın ayrı-ayrı mərhələlərində respublika əhalisinin artım sürəti müxtəlif sosial-iqtisadi, demoqrafik, milli, mədəni, siyasi və s. amillərin təsiri altında eyni olmamış və daim dəyişmişdir. Belə ki, əgər 1897-2003-cü illəri əhatə edən 106 il ərzində Azərbaycan Respublikasının əhalisinin sayı 4,5 dəfə artaraq 1,8 milyon nəfərdən 8,2 milyon nəfərə, o cümlədən şəhər əhalisinin sayı 13,6 dəfə artaraq 305,1 min nəfərdən 4154,3 min nəfərə, kənd əhalisinin sayı isə 2,7 dəfə artaraq 1501,6 min nəfərdən 4048,2 min nəfərə gəlib çatmışdırsa,[32] 1897-1913-cü illərdə bu artım 532 min nəfər təşkil etmiş və ya hər il orta hesabla 38,2 min nəfər artmışdır. Bu dövrdə respublika əhalisinin artımı bir tərəfdən əhalinin nisbətən yüksək təbii artımı ilə (1913-cü ildə Azərbaycanda əhalinin hər min nəfərinə 44,2 nəfər doğum, 25,5 nəfər ölüm və 18,7 nəfər təbii artım düşürdü)[33] bağlı idisə, digər tərəfdən də başqa ərazilərdən buraya əhalinin miqrasiyası ilə əlaqədar olmuşdur. Qeyd edilən dövrdə respublika əhalisinin artımının 40-45%-i əhalinin mexaniki hərəkətinin (miqrasiyasının) payına düşürdü. Azərbaycan əhalisinin miqrasiya hesabına belə yüksək artımı, hər şeydən əvvəl, həmin dövrdə çar Rusiyasının burada yeritdiyi köçürmə siyasəti ilə, o cümlədən Azərbaycanın neft mədənlərinin intensiv surətdə istismar edilməsi ilə bağlı olmuşdur. Neft sənayesində və onunla bağlı sahələrdə çoxlu iş qüvvəsinə olan tələbat başlıca olaraq Rusiyanın mərkəzi quberniyalarında, Şimali Qafqaz, Dağıstan və Zaqafqaziyanın başqa rayonlarında yaşayan kəndlilərin buraya miqrasiyası hesabına ödəni-

---

[30] Azərbaycan əhalisi. 2003. Bakı, 2003, s.19.
[31] Yenə orada, s.22.
[32] Yenə orada, s.19.
[33] Азербайджанская ССР 50-летию Великого Октября. Статистический сборник. Азербайджанское отделение. Издательство «Статистика». Баку, 1967, s.12

lirdi. Təkcə, bunu demək kifayətdir ki, 1908-1910-cu illəri əhatə edən cəmi iki il ərzində Rusiyanın başqa rayonlarından Azərbaycana 300 kəndli ailəsi köçürülmüşdü.[34] Bu cür hadisələrin nəticəsidir ki, Azərbaycan əhalisinin müsbət mexaniki hərəkət qalığı (saldosu) 1,6 dəfədən çox (64,8%) artaraq 1886-1897-ci illərdəki 133,4 min nəfərdən 1897-1913-cü illərdə 219,8 min nəfərə gəlib çatmışdır.[35]

Azərbaycan əhalisinin sayının mütləq mənada azalması isə öyrənilən dövrdə ilk dəfə olaraq 1913-1920-ci illərdə baş vermişdir. Bu dövrdə Azərbaycan əhalisinin sayı 387 min nəfər və ya 16,6% azalaraq, 1913-cü ildəki 2339 min nəfərdən 1920-ci ildə 1952 min nəfərə, o cümlədən şəhər yerlərində 150,1 min nəfər və ya 27% azalaraq 555,9 min nəfərdən 405,8 min nəfərə, kənd yerlərində isə 236,9 min nəfər və ya 13,3 % azalaraq 1783,2 min nəfərdən 1546,1 min nəfərə düşmüşdür. Şəhər yerlərində əhalinin sayı kənd yerlərinə nisbətən daha sürətlə azaldığından bu dövrdə bütünlükdə respublika əhalisi içərisində şəhər əhalisinin xüsusi çəkisi azalaraq 23,8%-dən 20,8%-ə düşmüş, kənd əhalisinin xüsusi çəkisi isə artaraq 76,2%-dən 79,2%-ə qalxmışdı. Həmin illərdə əhalinin sayının belə azalmasına bir sıra sosial-iqtisadi, demoqrafik amillərlə yanaşı, Birinci dünya müharibəsinin nəticələri, xarici müdaxilə, vətəndaş müharibəsi, erməni-azərbaycanlı davasında azərbaycanlıların soyqırımı, habelə azərbaycanlıların müharibələrdə həlak olmaları və onların bir qisminin İrana köçüb getməsi ilə bağlı olmuşdur.

1914-1920-ci illərdə Azərbaycanın bütün təsərrüfat sahələri bərbad hala düşmüşdü və əhalinin həyat səviyyəsi olduqca aşağı səviyyədə idi. 1914-1915-ci illərdə Azərbaycanda cəmi 943 ibtidai, 18 natamam orta və 15 ümumi orta təhsil məktəbi var idi ki, bunlarda da cəmi 73,1 min şagird təhsil alırdı. Əhalinin $^{9}/_{10}$ –u savadsız idi. 1913-cü ildə Azərbaycanda 1123 çarpayısı olan cəmi 43 xəstəxana işləyir və hər həkimə 8 min nəfər

---

[34] *M.M.Allahverdiyev.* Azərbaycanda işçi qüvvəsinin təkrar istehsalının bəzi məsələləri. Bakı, «Elm», 1996, s.46.

[35] *А.Г. Рашин.* Население России за 100 лет. М., Госстатиздат, 1956, s.93.

əhali düşürdü. Kənd yerlərində səhiyyənin vəziyyəti daha da pis idi. O dövrdə respublikanın kənd yerlərində cəmi 55 həkim işləyirdi. Hər həkimə 30 mindən artıq əhali düşürdü. XX əsrin əvvəllərində bütünlükdə Zaqafqaziyada xəstəxanaların sayı Moskva quberniyasının hətta ayrı-ayrı qəzalarında olduğundan belə az idi. Fəhlələrin yaşayış və əmək şəraiti xüsusilə ağır idi. Çox vaxt onlar darısqal, qaranlıq, çirkli və rütubətli kazarmalarda yaşayırdılar. Kazarmalarda fəhlələrin 70%-i hər otaqda 6-dan 20 nəfərə qədər adam olmaqla, ailəli fəhlələrin 88%-i 3-9 nəfərlik otaqlarda yaşayırdılar. Fəhlələrin işlədikləri yerlərdə, demək olar ki, heç bir əmək mühafizəsi tədbirləri görülmür və buna görə də onlar hər cür yoluxucu və peşə xəstəliklərinə tutulur, tez-tez bədbəxt hadisələrlə üzləşir və vaxtından əvvəl öz iş qüvvələrini itirib qocalırdılar. Bunları demək kifayətdir ki, XIX əsrin axırı XX əsrin əvvəllərində Bakıda qazılmış minə qədər quyu 40 min fəhlənin sağlamlığını itirməsi bahasına başa gəlmişdi.[36]

Aydındır ki, belə əmək, yaşayış, mədəni və səhiyyə xidməti olan şəraitdə əhali arasında ölümün səviyyəsi çar Rusiyasının başqa quberniyalarındakından aşağı ola bilməzdi. Belə ki, əhalinin hər min nəfərinə düşən ölümün doğuma nisbəti 1911-1913-cü illərdə Rusiyanın Avropa hissəsində 63,7% olmuşdursa, Azərbaycanda bu göstərici təqribən 63 % təşkil etmişdir. Uşaqlar arasında ölüm halları Rusiyanın Avropa hissəsindəkinə nisbətən Azərbaycanda xeyli yüksək olmuşdur. 1913-cü ildə Rusiyanın Avropa hissəsində doğulan uşaqların bir yaşadək 27%-i ölürdüsə, Azərbaycanda 38%-i ölürdü.

Bu dövrdə respublikada əhalinin doğum səviyyəsi də nisbətən aşağı idi. Bu, bir çox sosial-iqtisadi səbəblərlə, ilk növbədə Azərbaycanın iqtisadiyyatının olduqca geri qalması, xalq təsərrüfatının inkişafının müstəmləkə xarakteri daşıması, neft Bakısı müstəsna olmaqla Azərbaycanda yarımpatriarxal və yarımfeodal istehsal münasibətlərinin qəti üstünlük təşkil etməsi və s. səbəblərlə bağlı idi.

---

[36] Bax: *M.Allahverdiyev*. Göstərilən kitabı, s.43-45.

Burada belə bir cəhəti də qeyd etmək lazımdır ki, həmin dövrdə kəndlilərin bir qismi lazımi miqdarda torpağa malik olmadıqlarından öz ailələrini dolandırmaq üçün çörək dalınca başqa yerlərə getməyə məcbur olurdular. 1907-ci ildə təkcə Şuşa, Yelizavetpol, Cavanşir, Qazax və Naxçıvan qəzalarında olan 110 min aztorpaqlı və var-yoxdan çıxmış kəndli olmuşdur. Cəbrayıl, Cavanşir, Şuşa və Zəngəzur qəzalarında isə 16,5 min nəfər və yaxud bütün yaşlı əhalinin $^1/_3$ hissəsi sərgərdan yaşayır,[37] həm də onların əksər hissəsi öz ailələrini evdə qoyub başqa yerlərdə iş axtarmağa gedirdilər. Çünki ailə ilə birlikdə iş tapmaq çətin idi. Tarixi faktlar sübut edir ki, 1894-1895-ci illərdə Bakı neft sənayesi müəssisələrində işləyən rus mütəxəssisləri, fəhlə və qulluqçuları əksər hallarda öz ailələri ilə birlikdə, ermənilərin çoxu subay və təklikdə, müsəlmanların isə hamısı öz ailələrini qoyub, gəlib təklikdə yaşayırdılar[38].

1897-ci ilin siyahıyaalma məlumatlarına əsasən Bakı neftçıxarma müəssisələrində çalışan bütün fəhlələrin 82,5%-i subay və yaxud öz ailələrindən kənarda yaşayanlardan ibarət idi. Bunu belə bir fakt da sübut edir ki, XX əsrin əvvəllərinə yaxın Bakının mədən rayonları əhalisinin 75%-i kişilər idisə, cəmi 25%-i qadınlar olmuşdur.[39]

Bütün bunlar qeyd edilən dövrdə Azərbaycanda əhalinin doğum səviyyəsinin aşağı olmasına təsir göstərən amillərdən idi. Həmin illərdə əhalinin doğum səviyyəsinin aşağı düşməsi ölüm səviyyəsinin yüksəlməsi ilə müşayiət olunmuşdur. Bu isə əhalinin təbii artımının əhəmiyyətli dərəcədə azalması ilə nəticələnmişdir. 1913-1920-ci illərdə isə Azərbaycanda əhalinin təbii artımı 87 min nəfər və ya hər il orta hesabla 12 min nəfər azalmışdır. Onu da qeyd etmək lazımdır ki, həmin dövrdə ölkə iqtisadiyyatının bərbad hala düşməsi ilə əlaqədar olaraq Azərbaycana kənardan gələn işçi qüvvəsi axını dayanmış və burada mənfi əhali miqrasiyası saldosu (qalığı) 481 min nəfər təşkil etmişdir.[40]

---

[37] *M.M.Allahverdiyev.* Göstərilən kitabı, s.45-47.

[38] *И.В.Стригунов.* Из истории формирования Бакинского пролетариата. Bakı, 1960, s. 137.

[39] Yenə orada.

[40] *К.Д.Мамедов.* Демографическое развитие Азербайджанской ССР. Баку, 1980, s. 11.

Doğum, ölüm və təbii artım göstəricilərinin nisbi mənada ayrı-ayrı illərdə müxtəlif olması əhalinin törəmə hesabına mütləq mənada çoxalmasında da öz əksini tapmışdır.

Azərbaycanda Sovet hakimiyyətinin qurulmasınadək olan bütün illərdə (1880-1920-ci illər) törəmə hesabına əhalinin mütləq mənada artımının orta illik sayı təqribən 15,6 min nəfər, o cümlədən 1880-1890-cu illərdə – 12,3, 1890-1900-cı illərdə – 15,9, 1990-1917-ci illərdə – 18,8, 1917-1920-ci illərdə isə 11,5 min nəfər təşkil etmişdir.[41]

Sovet hakimiyyətinin qurulmasından əvvəlki dövrdə Azərbaycanda təbii artımın əhalinin ümumi artımındakı rolunu 3-cü cədvəldəki rəqəmlərdən daha aydın görmək olar.

3-cü cədvəldəki rəqəmlərdən göründüyü kimi, 1886-1920-ci illərdə Azərbaycanda əhalinin sayı 414,3 min nəfər və yaxud hər il orta hesabla 12,1 min nəfər artdığı halda, 1886-1890-cı illərdə 29,1 min nəfər, 1897-1913-cü illərdə 33,9 min nəfər, 1913-1917-ci illərdə cəmi 3,8 min nəfər, 1917-1920-ci illərdə isə 401,5 min nəfər və yaxud hər il orta hesabla 133,8 min nəfər artmışdır.

3-cü cədvəl [42]

Azərbaycanda əhalinin sayına onun təbii artımının təsiri (1886-1920-ci illərdə)

	1886-cı ildə	**1897-ci ildə**	**1913-cü ildə**	**1917-ci ildə**	**1920-ci ildə**
Əhalinin ümumi sayı (min nəfər)	1537,9	1807,0	2339,2	2353,7	1952,2
1886-cı ilə nisbətən əhalinin sayı artmışdır (min nəfər)		269,1	801,3	815,8	414,3
1886-cı ildən sonrakı illərdə artan yekuna təbii artımın sayı (min nəfər)		157,5	407,1	506,6	541,1
Təbii artımın ümumi artıma nisbəti (%-lə)		58,5	55,8	62,2	130,5

[41] *M.M.Allahverdiyev.* Göstərilən kitabı, s. 71.
[42] Yenə orada, s. 73.

Təbii artımın əhalinin ümumi artımında tutduğu xüsusi çəki 1886-1897-ci illərdə – 58,5%, 1897-1913-cü illərdə – 55,8%, 1913-1917-ci illərdə – 62,2% təşkil etmişdir. 1917-1920-ci illərdə isə bu göstərici 130,5%-i ötüb keçmişdir. Bu o demək idi ki, törəmə hesabına əhali artımının təqribən 30%-i respublikanı tərk etmişdir. Statistik məlumatlardan aydın olur ki, bu dövrdə kənd yerlərində təbii artımın əhalinin ümumi artımındakı rolu daha yüksək olmuşdur. Belə ki, 1886-1913-cü illərdə əhalinin ümumi artımında təbii artımın xüsusi çəkisi şəhər yerlərində 17% təşkil etmişdirsə, kənd yerlərində bu göstərici 85,5%-ə çatırdı. Bu, təsadüfi olmayıb, həmin dövrdə Azərbaycanda şəhər əhalisinin başlıca olaraq kənarda iş axtarmaq üçün gələnlər hesabına formalaşması ilə bağlı idi. Təkcə bunu demək kifayətdir ki, 1886-1889-cu illərdə şəhər yerlərində təbii artımın sayı 12,9 min nəfər təşkil edirdisə, şəhər əhalisinin ümumi sayı 44,4 min nəfər çoxalmışdı.

Ümumiyyətlə götürüldükdə 1917-1920-ci illərdə respublika əhalisinin ümumi sayı 401,5 min nəfər azalmışdır. ***Bu, bir tərəfdən*** vaxtilə iş dalınca kənardan respublikamıza gələnlərin təsərrüfat dağıntılığı illərində öz əməklərini tətbiq etməyə yer tapmamaları, ***digər tərəfdən*** isə xarici imperialistlərin və ölkə daxilində onların əlaltılarının yaratdıqları milli qırğın, aclıq və ümidsizlik nəticəsində Azərbaycandan çıxıb başqa regionlara getmələri ilə izah olunur. Bunu həmin dövrdə Azərbaycanda əhalinin mexaniki hərəkətini səciyyələndirən 4-cü cədvəlin məlumatlarından daha aydın görmək olar. 4-cü cədvəlin məlumatlarından göründüyü kimi, 1886-1913-cü illərdə, yəni neft sənayesinin və bununla əlaqədar olan digər sahələrin nisbətən daha sürətlə inkişaf etdiyi dövrdə respublika əhalisinin sayı kənardan gələnlər hesabına hər il orta hesabla 12-14 min nəfər artmışdırsa, 1913-1920-ci illərdə (xüsusilə 1917-1920-ci illərdə) burada istehsalın həcminin ciddi surətdə azalması ilə əlaqədar olaraq buraya gələnlərin sayı hər il 68,1 min nəfər azalmış, respublikadan gedənlərin sayı isə buraya gələnlərin sayından 126,8 min nəfər artıq olmuşdur[43].

---

[43] *M.M.Allahverdiyev.* Göstərilən kitabı, s. 76.

4-cü cədvəl [44]

İnqilabdan əvvəlki dövrdə Azərbaycanda əhalinin mexaniki hərəkəti (min nəfərlə)

İllər	Artım (+) və ya azalma (-)	
	Cəmi	o cümlədən hər il orta hesabla
1886-1897	-133,4	-12,2
1897-1913	-219,8	-13,8
1913-1920	-481,0	-68,1
1886-1920	-126,8	-3,2

1897-1913-cü illərə nisbətən 1913-1920-ci illərdə əhalinin sayının azalması təkcə Azərbaycan üçün deyil, bütünlükdə Zaqafqaziya üçün də səciyyəvi olmuşdur (5-ci cədvələ bax).

5-ci cədvəlin məlumatlarından göründüyü kimi, 1897-1913-cü illərdə əhalinin orta illik artım sürəti bütünlükdə Zaqafqaziyada 1,73%, ən yüksək illik artım Gürcüstanda (1,90%), ən aşağı artım isə Ermənistanda (1,43%) müşahidə edildiyi halda, 1913-1920-ci illərdə bütünlükdə Zaqafqaziyada əhalinin sayı orta illik azalma sürətinin ən yüksək olduğu ərazi Azərbaycana (-2,55), ən aşağı azalma sürəti isə Ermənistana təsadüf etmişdir. Sonrakı illərdə, daha doğrusu, 1920-1959-cu illərdə isə

5-ci cədvəl [45]

1897-1920-ci illərdə Zaqafqaziyada əhalinin dinamikası müasir sərhədlərdə (min nəfərlə)

Ərazilər	İllər			Orta illik artım, %-lə	
	1897	1913	1920	1897-1913-cü illərdə	1913-1920-ci illərdə
Azərbaycanda	1807,0	2339,0	1952,0	1,63	-2,55
Ermənistanda	797,9	1000,1	961,7	1,43	-0,65

[44] *M.M.Allahverdiyev*. Göstərilən kitabı, s. 76.

[45] *K.V.Mamedov*. Göstərilən kitabı, s. 11 (Məlumatlar Ermənistan üçün 1919-cu ilə, Gürcüstan üçün isə 1921-ci ilə aiddir).

Gürcüstanda	1919,4	2600,4	2410,5	1,90	-0,95
Bütünlükdə Zaqafqaziyada	4524,3	5939,5	5324,2	1,73	-1,55

Azərbaycanda təbii artımın əhalinin ümumi say artımındakı rolunun dəyişilməsi vəziyyətini aşağıda, 6-cı cədvəlin rəqəmlərindən daha aydın görmək olar.

6-cı cədvəl [46]

	1920	**1926**	**1939**	**1959**
Əhalinin ümumi sayı (min nəfərlə)	1952,2	2313,7	3205,1	3697,7
1920-ci ilə nisbətən əhalinin ümumi sayı artmışdır (min nəfər)		361,5	1252,9	1745,5
1920-ci ildən sonrakı illərdən artan yekuna təbii artım (min nəfərlə)		175,0	769,0	2007,9
Təbii artımın ümumi artma nisbəti (%-lə)		48,4	61,3	114,5

6-cı cədvəldə göstərilən rəqəmlərdən aydın olduğu kimi, 1939-cu ilə qədərki dövrdə respublikada əhalinin sayca artımının təqribən yarısı təbii artım hesabına olmuşdur. Sonrakı illərdə isə müharibənin nəticəsində əhalinin sayının ciddi surətdə azalması ilə əhalinin ümumi sayının artım sürəti təbii artımın sürətindən xeyli geri qalmışdır. Belə ki, əgər əhalinin ümumi sayı 1939-1959-cu illərdə cəmi 492,6 min nəfər artmışdırsa, təbii artım 1238,9 min nəfər çoxalmışdır, yəni təbii artım əhalinin ümumi sayının artımından 2,5 dəfə çox olmuşdur. Bu dövrdə Azərbaycanda əhalinin törəmə hesabına artımı ilə ümumi artımı arasındakı fərq kənd yerlərində daha yüksək olmuşdur. 1939-1959-cu illərdə Azərbaycanın kənd yerlərində təbii artım (törəmə) hesabına əhalinin artımı təqribən 800 min nəfər təşkil etmişdirsə, bu vaxt kənd əhalisinin ümumi sayı nəinki artmamış, hətta 117,9 min nəfər azalmışdır.

Yuxarıda deyilənlərdən aydın olur ki, öyrənilən dövrdə Azərbaycanda əhalinin ümumi sayının artımı təkcə təbii artımdan asılı olmayıb, habelə əhalinin mexaniki hərəkəti ilə də bila-

[46] *M.M.Allahverdiyev*. Göstərilən kitabı, s. 75.

vasitə bağlı olmuşdur. Prof. M.M.Allahverdiyevin göstərdiyi kimi, respublikamızda əhalinin ərazi üzrə hərəkəti (mexaniki) onun ümumi sayına ayrı-ayrı dövrlərdə müxtəlif istiqamətlərdə təsir göstərmişdir. Prof. M.M.Allahverdiyevin hesablamalarına əsasən tədqiq edilən dövrdə respublikada ərazi üzrə hərəkət edən əhalinin əksər hissəsi (təqribən 85-90%-i) əmək qabiliyyətli əhalidən ibarət olmuşdur.

1920-ci ilədək olan dövrdə respublikamızda əhalinin mexaniki hərəkəti iş axtarmaq və çarizmin müstəmləkəçi-köçürmə siyasəti nəticəsində baş vermişdir. Belə ki, XIX əsrin ikinci yarısından başlayaraq respublikamızda neft sənayesinin sürətli inkişafı və çarizmin o dövrdə həyata keçirdiyi müstəmləkəçi-köçürmə siyasəti nəticəsində kənardan Azərbaycana axıb gələnlərin sayı sürətlə artıgı halda, Birinci dünya müharibəsi illərində təsərrüfat dağıntıları və istehsalın həcminin azalması ilə əlaqədar olaraq respublikadan kənara çıxıb gələnlərin sayı da sürətlə artmışdır. Lakin sonrakı illərdə, yəni iyirminci illərdə, bir tərəfdən respublikamızda əmək qabiliyyətli əhalinin sayının təqribən 110 min nəfər azalması, digər tərəfdən isə xalq təsərrüfatının bərpa və inkişafı ilə əlaqədar olaraq iş qüvvəsinə tələbatın ciddi surətdə artması buraya kənardan çoxlu sayda iş qüvvəsinin gətirilməsini obyektiv zərurətə çevirmişdir.[47] Elə bu səbəbdən idi ki, Böyük Vətən müharibəsi ərəfəsinədək olan dövrdə respublikamızda əhalinin ümumi artımının yarıdan çoxunu kənardan gələnlər təşkil etmişlər (7-ci cədvələ bax).

7-ci cədvəlin məlumatlarından göründüyü kimi, 1920-1939-cu illərdə Azərbaycanda əhalinin sayı kənardan gələnlər hesabına ciddi sürətdə artdığı halda, sonrakı illərdə əksinə, azalmışdır. İkinci dövrdə (1940-1945-ci illərdə) Azərbaycanda əhalinin sayı 568,4 min nəfər, yəni 17,4% azalaraq 1940-cı ilin əvvəlindəki 3274 min nəfərdən 1945-ci ilin əvvəlində 2705,6 min nəfərə düşmüşdür. Bu dövrdə Azərbaycan əhalisinin sayının mütləq qaydada nəzərəçarpan dərəcədə azalmasına səbəb (40-cı və 50-ci illərdə Ermənistandan 150 min nəfərdən çox

---

[47] *M.M.Allahverdiyev.* Göstərilən kitabı, s. 76-77.

azərbaycanlının zorla qovulması nəticəsində Azərbaycan əhalisinin sayının xeyli çoxalmasına baxmayaraq) 1941-1945-ci illər müharibəsindəki itkilər və 30-40-cı illərin repressiyaları olmuşdur.

7-ci cədvəl [48]

1920-1939-cu illərdə Azərbaycanda əhalinin respublikalararası miqrasiyası (min nəfər)

İllər	Miqrasiya hesabına əhalinin artımı (+) və ya azalma (-)	
	cəmi	hər il orta hesabla
1920-1927	186,5	26,6
1927-1939	287,4	23,7
1939-1959	746,3	37,3

Azərbaycanın əhalisi özünün müharibədən əvvəlki səviyyəsini yalnız müharibə qurtardıqdan 10 il sonra, yəni 1955-ci ildə bərpa edə bilmişdir. Həmin vaxt respublikamızın əhalisinin sayı 3277,0 min nəfərə gəlib çatmışdır. Qeyd etmək lazımdır ki, əhalinin müharibədən əvvəlki sayının belə çətin bərpası yalnız 4 respublika – Rusiya, Ukrayna, Belorusiya və Azərbaycan üçün səciyyəvi olmuşdur. Halbuki qalan respublikalarda, o cümlədən də Ermənistanda əhalinin sayının müharibədən əvvəlki səviyyəsi 1950-1952-ci illərdə bərpa olunmuşdur. Bütün bunlar onu göstərir ki, yuxarıda qeyd edilən üç respublika ilə yanaşı, Azərbaycan Respublikası da 1941-1945-ci illərdə müharibədə ən çox canlı qüvvə itkisi verən respublikalardan biri olmuşdur.

Burada xüsusi olaraq belə bir məsələnin üzərində də dayanmaq istərdik ki, Azərbaycan Respublikası əhalisinin ən səciyyəvi xüsusiyyətlərindən biri onun tarixən rəngarəng etnodemoqrafik quruluşa malik olması və bütün tarixi şəraitlərdə bu xüsusiyyətini qoruyub saxlaya bilməsidir. Bunu ondan görmək olar ki, hələ 106 il öncə, yəni 1897-ci ildə Rusiya imperiyası dövründə aparılmış ilk ümumi əhali siyahıyaalınma məlumatlarına əsasən respublikamızın ərazisində onlarca müxtəlif millətlərdən, xalqlardan, etnik qruplardan olan insanlar yaşamış və 1926-cı ilin Ümumittifaq əhali siyahıyaalınma məlumatlarına

[48] *M.M.Allahverdiyev.* Göstərilən kitabı, s. 76-77.

əsasən onların sayı 95-i ötüb keçmişdir. Halbuki həmin dövrdə bizimlə qonşu olan Gürcüstanda onların sayı 76, Ermənistanda isə cəmi 48 olmuşdur.[49] Bu cəhətdən həmin illərdə Azərbaycanın əhalisinin milli tərkibinin və onda baş vermiş dəyişikliklərin bir qədər geniş öyrənilib nəzərdən keçirilməsi xüsusi maraq doğurduğundan burada həmin məsələnin şərh edilməsini məqsədəuyğun bildik.

Məsələ burasındadır ki, Azərbaycan Respublikasında yaşayan köklü (yerli) millətdən olan əhalinin adı son 100 il ərzində rəsmi dövlət sənədlərində və mətbuatda bir neçə dəfə dəyişdirilərək gah tatar, gah türk, gah azəri, gah da azərbaycanlı kimi göstərilmişdir. Bu səbəbdən də respublika ərazisində yaşayan ayrı-ayrı millətlərdən olan əhalinin, o cümlədən də azərbaycanlıların sayının dəqiq müəyyənləşdirilməsi xüsusi maraq doğurur və mühüm elmi və siyasi əhəmiyyət kəsb edir.

Əhalinin sayı və tərkibi haqqında dəqiq məlumatların əldə edilməsi isə yalnız və yalnız onların siyahıyaalınma materialları əsasında mümkündür. 1897-ci ildə Rusiya imperiyasında keçirilmiş Birinci ümumi əhali siyahıyaalınması məlumatlarında əhalinin milliyyəti göstərilmədiyindən onların milli mənsubiyyətini yalnız özləri üçün qəbul etdiyi ana dilinə əsasən müəyyən etmək mümkündür. Bu isə heç şübhəsiz ki, bu və ya digər millətlərdən olan əhalinin sayı barədə tam dəqiqliyi ilə düzgün məlumat əldə etməyə imkan vermir. Çünki hər bir insan milliyyətindən asılı olmadan hər hansı bir dili özü üçün ana dili qəbul edə bilər. Bununla belə, ***ana dili milliyyətin müəyyənləşdirilməsinin mühüm atributlarından biri sayılır və ana dili olmadan millət - millət sayıla bilməz.*** Buna görə də adamların milli mənsubiyyətinin və sayının müəyyən edilməsində həmin göstəricidən də istifadə edilə bilər. Bu göstəricidən istifadə edilməsi nə qədər təqribi xarakter daşısa da, müxtəlif şərtlərin bərabərliyi şəraitində əhalinin milli mənsubiyyətinin onların qəbul etdiyi ana dili əsasında müəyyənləşdirilməsi daha münasib hesab oluna bilər.

---

[49]Население Закавказья. Всесоюзная перепись населения 1926 г. Краткие итоги. Изд-во. Зак. ЦСУ. Тифлис, 1928, с. 18.

1897-ci ilin əhalinin siyahıyaalınma məlumatlarında Azərbaycan Respublikasının ərazisində yaşayan ***əhali ana dilinə görə – velikorus, malorus, belorus, alman, polyak, tatar (azərbaycanlı), gürcü, ləzqi, talış, yəhudi, kürd, türk və sair; dini mənsubiyyətlərinə görə isə proslavyanlar, staroobryadlar, ermənigriqoryanlar, rim-katoliklər, protestantlar, moqometanlar, xristianlar, xristian olmayanlar*** və s. kimi qeydə alınmışlar.[50]

Həmin əhali siyahıyaalınması materiallarına nəzər saldıqda açıq-aydın görünür ki, o dövrdə əhali siyahıya alınarkən onlar milli mənsubiyyətlərinə görə deyil, məhz qəbul etdikləri ana dillərinə görə qeydə alınmışlar. Bu dövrdə Bakı quberniyasında əhalinin dil mənsubiyyətindən söhbət gedərkən başqa dillərlə yanaşı tatar və türk dillərinin adı çəkildiyi halda, Azərbaycan dilinin adı çəkilmir. Yelizavetpol (indiki Gəncə) quberniyasında isə əksinə, türk dilinin adı çəkilmir və tatar dilindən sonra mötərizədə Azərbaycan (aderbaydcanskiy) dili ifadəsi işlədilir. İrəvan quberniyasında isə Bakı və Yelizavetpol quberniyalarından fərqli olaraq nə türk, nə də Azərbaycan dillərinin adlarına rast gəlinir. Burada yalnız tatar dilindən bəhs olunur.

Maraqlıdır, əgər həmin dövrdə azərbaycanlılar bir millət kimi mövcud olmamışdılarsa, onda bəs nə üçün Yelizavetpol quberniyasında tatar dili sözündən sonra mötərizə arasında «adırbaycanski» sözü də yazılmışdır? Görünür ki, nə səbəbdəndirsə həmin dövrdə əhalinin siyahıyaalınması materiallarında azərbaycanlılar tatar kimi qeydə alınmışdır. Bu da sirr deyildir ki, indi olduğu kimi, o vaxtlar da azərbaycanlılar və türklərlə yanaşı, göstərilən quberniyalarda tatar millətindən olan əhali kütləsi də yaşamış və 1926-cı ilin əhali siyahıyaalınması dövründən başlayaraq keçmiş SSRİ-də aparılmış sonuncu – 1989-cu ilin əhali siyahıyaalınmasınadək olan bütün dövrlərdəki əhalinin siyahıya alınması materiallarında bütünlükdə çar Rusiyasında və onun tərkibində olmuş Azərbaycanda yaşayan millətlər sırasında tatarların da adı çəkilmiş və öz sayına görə onlar keçmiş SSRİ-də yaşayan ruslar, ukraynalılar, özbəklər, beloruslar və

---

[50] B a x: Первая Всеобщая перепись населения Российской Империи 1897 г. Бакинская губерния. с. 2-3; Эреванская губерния. 1950, с. 2-3; Елизаветпольская губерния, 1904, с. 2-3.

qazaxlardan sonra altıncı yeri tutmuşlar. 1897-ci ilin əhali siyahıyaalınması məlumatlarından isə belə çıxır ki, güya o vaxt Bakı və İrəvan quberniyalarında tatarlar və azərbaycanlılardan ibarət olan bu iki müxtəlif millətlərdən hansı birisi isə yaşamamışdır. Əlbəttə, bu fikirlə qətiyyən razılaşmaq olmaz. Çünki Azərbaycan Respublikası uzun illərdən bəri azərbaycanlılarla yanaşı, tatarlar və türklərin də yaşayış məskəni olmuş və onların indi də yaşayış məskənlərindən biridir. Təsadüfi deyildir ki, 1897-ci ildən sonra keçmiş SSRİ-də 1926-cı ilin əhali siyahıyaalınması istisna olunmaqla (həmin ildə əhali siyahıyaalınması məlumatlarında azərbaycanlılar türklər kimi qeydə alınmışlar) bütün sonrakı dövrlərin əhalinin siyahıyaalınması materiallarında (1939, 1959, 1970, 1979 və 1989-cu illərdə) azərbaycanlılarla yanaşı, türklərin və tatarların da sayı ayrı-ayrılıqda qeydə alınmışdır. 1897-ci ilin əhali siyahıyaalınması məlumatlarında isə Bakı quberniyasında tatar dilində danışanların sayı ilə yanaşı, türk dilində danışanların da sayı qeydə alınmışdır. Yelizavetpol (indiki Gəncə) quberniyasında isə türk dilində danışanların siyahısı verilməmiş, tatar dilində danışanların siyahısı verilən qrafada isə tatar dili sözündən sonra mötərizə arasında «aderbaycan dili» sözü də yazılmışdır. Bu isə onu göstərir ki, qeyd edilən dövrdə Azərbaycan, türk və tatar dillərində danışanların sayının qəsdən qarışıq salınmasında heç şübhəsiz ki, hansısa bir siyasi məqsəd güdülmüşdür. Bu fikirin nə qədər həqiqət olduğunun cavabını görkəmli tarixçi alim akademik Tofiq Köçərlinin «Erməni saxtakarlığı» kitabında tapmaq olar.[51] Həmin kitabın 10-cu səhifəsində göstərilir: «Biz türkük. Türk olmağımızla fəxr edirik. Rusiya Simali Azərbaycanı işğal etdikdən sonra bizi «tatar» adlandırdı. Hətta «türk» adlanmağımız bir növ yasaq edilmişdi. Belə bir fakt məlumdur. «Həyat» qəzetinin sərlövhəsində «türkcə» və «islamiyə» sözləri yazılır. Qafqaz canişini qəzetin bu «zərərli məsləki» ilə əlaqədar rəsmi sərəncam vermişdi». Təcili olaraq «Həyat»ın sərlövhəsindəki «türk» sözü pozul-

[51] *Tofiq Köçərli.* Erməni saxtakarlığı. Bakı, 2002, 80 s.

sun və əvəzində «tatar» sözü yazılsın.[52] Bu deyilənlərdən hər şey aydın görünür.

1897-ci ilin əhalinin siyahıyaalınması materiallarında ana dilini Azərbaycan dili hesab edənlərin də ana dilini tatar dili hesab edənlər kimi qeydə alınması, ana dili türk dili olanların isə ayrılıqda göstərilməsi ayrı-ayrılıqda bu qardaş xalqların sayının düzgün müəyyən edilməsinə də əngəl törətmişdir. 1897-ci ilin əhali siyahıyaalınması məlumatlarına əsasən Bakı quberniyasına daxil olan 6 qəzanın hamısında yaşayan əhalinin əksəriyyətinin ana dili tatar (azərbaycanlı) dili kimi qeydə alınmışdır (8-ci cədvələ bax). 8-ci cədvəlin məlumatlarından göründüyü kimi, həmin ildə Bakı quberniyasında mövcud olan 826716 nəfər əhalinin 485146 nəfəri və ya 58,7 faizi tatar (azərbaycanlı) dilində danışanlar, 1155 nəfəri və ya 0,13 faizi türk, 62945 nəfəri və ya 7,6 faizi ləzgi, 81,2 nəfəri və ya 9,9 faizi yəhudi, 34994 nəfəri və ya 4,2 faizi tat, 42233 nəfəri və ya 5,1 faizi erməni, 1616 nəfəri və ya 0,19 faizi kürd, 89519 nəfəri və ya 10,8 faizi başqa millətlərin dilində danışanlar olmuşdular.

Bu göstəricilər quberniyanın müxtəlif qəzalarında və şəhərlərində eyni olmamışdır. Məsələn, Bakı şəhərində yaşayan 111904 nəfərin 40341 nəfərini və ya 36, 0 faizini azərbaycanlı, 814 nəfərini və ya 0,7 faizini türk, 696 nəfərini və ya 0,6 faizini ləzgi, 1905 nəfərini və ya 1,7 faizini yəhudi, 38965 nəfərini və ya 34,8 faizini rus, 19099 nəfərini və ya 17,0 faizini erməni, 971 nəfərini və ya 0,86 faizini gürcü, 1072 nəfərini və ya 0,95 faizini tat, 10676 nəfərini və ya 5,8 faizini başqa millətlər təşkil etmişlər.

Qeyd edilən dövrdə Azərbaycan ərazisində yaşamış qeyri-millətlərdən olan əhalinin əksəriyyəti şəhər yerlərində, şəhər yerlərində olanların isə xeyli hissəsi Bakı, Yelizavetpol (indiki Gəncə), Şuşa, Şamaxı, Lənkəran, Quba şəhərlərinin payına düşmüşdür. Məsələn, 1897-ci ildə Bakı quberniyasında yaşamış 77681 nəfər rusun 42033 min nəfəri və ya 54,1 faizi şəhər

---

[52] *Tofiq Köçərli.* Erməni saxtakarlığı. Bakı, 2002, 80 s. (daha ətraflı bax: Əli bəy Hüseynzadə. Türklər kimdir və kimlərdən ibarətdir. Bakı, 1997).

8-ci c

1897-ci ildə Bakı quberniyasının əhalisi və ana dilinə görə onun quruluşu

№	Qəzaların adları	mövcud əhali (nəfər)	o cümlədən aşağıdakı ana dili olanlar									
			azərbay-canlı (tatar)	türk	ləzgi	yəhudi	rus	talış	erməni	gürcü	tat	başqala
1	Bakı qəzası	182.807	63415	837	2122	2034	45510	-	22583	1127	34503	10676
	o cümlədən: Bakı şəhəri	111.904	40341	814	696	1905	38965	-	19039	971	1072	8041
2	Göyçay qəzası	117.705	92962	11	3836	847	2475	-	12994	235	3995	350
	o cümlədən: Göyçay şəhəri	2201	1507	-	220	1	138	-	296	15	2	22
3	Cəbrayıl qəzası	90.043	84054	-	231	8	4635	-	699	122	-	294
	o cümlədən: Cəbrayıl şəhəri	11.787	11520	-	1	1	119	-	108	24	-	14
4	Quba qəzası	183.242	70150	216	56476	3972	3971	-	1191	66	46430	770
	o cümlədən: Quba şəhəri	15.363	7134	-	318	3775	635	-	807	26	2437	231
5	Lənkəran qəzası	130.987	84725	82	19	207	9728	34991	483	17	74	64
	o cümlədən: Lənkəran şəhəri	8733	5600	1	10	150	1369	975	299	11	30	296
6	Şamaxı qəzası	121.824	89840	9	1216	1104	11362	-	14283	49	4517	417
	o cümlədən: Şamaxı şəhəri	20.007	16160	-	143	90	807	-	2515	25	5	263
7	bütünlükdə quberniyada cəmi	826.716	485,146	1155	62945	8172	77681	34994	52233	1616	89519	13255
8	o cümlədən: şəhər yerlərində	169.995	82,262	815	1388	5922	42033	975	23124	1072	3546	8858

В а х: Первая Всеобщая перепись населения Российской Империи. 1987 (X). Бакинская губерния. 1905, s. 2

yerlərində,onların isə 38965 nəfəri və ya 92,7 faizi Bakı şəhərində, 52233 nəfər ermənininin isə 23124 nəfəri və ya 44,3 faizi şəhər yerlərində, onların isə 19039 nəfəri və ya 82,3 faizi Bakı şəhərində yaşamışlar.

1897-ci ildə Bakı quberniyasında yaşayan 45510 nəfər rusun 11362 nəfəri və ya 14,6 faizi Şamaxı qəzasında, 9728 nəfəri və ya 12,5 faizi Lənkəran qəzasında, 4635 nəfəri və ya 6, 0 faizi Cəbrayıl qəzasında, 3971 nəfəri və ya 5 faizi Quba qəzasında, 2475 nəfəri və ya 3,2 faizi isə Göyçay qəzasında yaşamışlar. Başqa sözlə desək, ruslar Bakı quberniyasının bütün qəzalarında və bu qəzaların mərkəzi şəhərlərində məskunlaşmışlar.

Həmin dövrdə Bakı quberniyasında yaşayan 52233 nəfər ermənininin isə 49860 nəfəri və ya 95,4 faizi Bakı, Şamaxı və Göyçay qəzalarında cəmlənmişlər. Qeyd edilən dövrdə Bakı quberniyasında yaşayan 62945 nəfər ləzginin 56476 nəfəri və ya 89,7 faizi Quba qəzasında, 8172 nəfər yəhudinin 3972 nəfəri və ya 48,6 faizi Quba qəzasında, 2034 nəfəri və ya 24,6 faizi isə Bakı qəzasında məskunlaşmışlar. Bu dövrdə Bakı quberniyasında yaşayan ermənilərin xüsusi çəkisinin ən yüksək olduğu yer Bakı şəhərinə (17,1 faizi), Göyçay (11,0 yaiz) və Şamaxı qəzalarına (11,7 faiz), o cümlədən Şamaxı şəhərinə (12,6 faiz) təsadüf etmişdir. Qeyd edilən ildə Bakı quberniyasında yaşayan bütün əhalinin isə cəmi 20,6 faizi, o cümlədən azərbaycanlıların 17 faizi şəhər yerlərinin payına düşmüşdür.

1897-ci ildə Bakı quberniyasında şəhər əhalisinin 48,8 faizini azərbaycanlılar, 24,7 faizini ruslar, 13,6 faizini ermənilər, 2,0 faizini tatlar, 3,5 faizini yəhudilər, 0,8 faizini talışlar, 0,6 faizini gürcülər, 0,5 faizini türklər, 0,8 faizini ləzgilər, 5,1 faizini isə başqa millətlərdən olanlar təşkil etmişdir. 1897-ci ilin əhali siyahıyaalınması məlumatlarından aydın olur ki, Yelizavetpol (indiki Gəncə) quberniyasında yaşayan 873415 nəfər əhalinin 534086 nəfərini və ya 60,8 faizini azərbaycanlılar, 7875 nəfərini və ya 9,0 faizini ruslar, 29188 nəfərini və ya 33,3 faizini ermənilər, 7040 nəfərini və ya 8,0 faizini udinlər, 8042 nəfərini və ya 3,5 faizini isə kürdlər təşkil etmişlər (9-cu cədvələ bax).

9-cu cədvəl [54]

1897-ci ildə Yelizavetpol quberniyasının əhalisinin milli tərkibi və ana dilinə görə onun quruluşu

№	Qəzaların adları	mövcud əhali (nəfər)	o cümlədən: aşağıdakı ana dili olanlar				
			azərbay-canlı	rus	ermənі	udin	kürd
1	Yelizavetpol qəzası	162788	103970	10428	43040	4	38
	o cümlədən: Yelizavetpol şəhəri	33625	17426	2735	12055	4	3
2	Aret qəzası	67277	47133	162	13822	4	-
	o cümlədən: Ağdaş	528	267	29	116	-	-
3	Cəbrayıl qəzası	66360	49189	893	15749	-	398
	o cümlədən: Cəbrayıl şəhəri	520	186	94	228	-	-
4	Cavanşir qəzası	72710	52041	208	19551	-	571
	o cümlədən: Tərtər	752	508	65	120	-	-
5	Zəngəzur qəzası:	137871	71206	1000	63622	-	1807
	o cümlədən: m. Gorus	1450	209	125	1082	-	-
6	Qazax qəzası:	1120074	64101	3444	43555	-	137
	o cümlədən: m. Qazax	1769	601	255	802	-	-
7	Nuxa qəzası:	120555	83578	230	18899	7030	1
	o cümlədən: Nuxa şəhəri	24734	19974	213	4286	1	-
8	Şuşa qəzası:	138771	62868	1504	79353	2	90
	o cümlədən: Şuşa şəhəri	25881	10778	396	14420	-	-
	bütünlükdə quberniyada	878415	534086	7875	292188	7040	3042
	o cümlədən: şəhər yerlərində	89259	49949	3908	33009	9	3

Yelizavetpol (indiki Gəncə) şəhərində yaşamış 33625 nəfər əhalinin 17426 nəfərini və ya 51,8 faizini azərbaycanlılar, 12055 nəfərini və ya 35,8 faizini ermənilər, 2735 nəfərini və ya 8,1 faizini

[54] В а х: Первая Всеобщая перепись населения Российской Империи. 1897 г. Елизаветпольская губерния. 1904, с.2-3.

isə ruslar təşkil etmişlər. 1897-ci ildə Yelizavetpol quberniyasında rusların ən yüksək xüsusi çəkiyə malik olduğu ərazi Yelizavetpol uyezdinə (9%) və Yelizavetpol şəhərinə (8,1%), Cəbrayıl qəzasına (13,4%), Qazax qəzasına (3,1%) və Şuşa qəzasına (10,8%), ermənilərin ən yüksək xüsusi çəkisi isə Yelizavetpol qəzasına (26,4%), Yelizavetpol şəhərinə (35,8%), Aret qəzasına (20,5%), Cəbrayıl qəzasına (23,7%), Cavanşir qəzasına (26,9%), Zəngəzur qəzasına (46,1%), Gorus şəhərinə (74,6%), Qazax qəzasına (38,9%) və Qazax şəhərinə (45,3%), Nuxa qəzasına (15,6%) və Nuxa şəhərinə (16,9%), Şuşa qəzasına (53,3%) və Şuşa şəhərinə (55,7%) təsadüf etmişdir. 1897-ci ildə Şuşa qəzasında yaşamış 138771 nəfər əhalinin 62868 nəfəri və ya 45,3 faizi, o cümlədən Şuşa şəhərində yaşamış 25881 nəfər əhalinin 10778 nəfəri və ya 41,6 faizi, Gorus şəhərində yaşamış 1450 nəfər əhalinin isə 209 nəfəri və ya 14,4 faizi azərbaycanlı olmuşdur. 1897-ci ildə İrəvan quberniyasında yaşayan 829556 nəfər əhalinin 313176 nəfərini və ya 37,8 faizini, İrəvan şəhərində yaşayan 29006 nəfər əhalinin isə 12359 nəfərini və ya 42,6 faizini azərbaycanlılar təşkil etmişlər (10-cu cədvələ bax). Daha doğrusu, qeyd edilən dövrdə İrəvan şəhərində yaşayan ermənilərin sayı azərbaycanlıların sayından vur-tut cəmi 164 nəfər çox olmuşdur. Qeyd edilən dövrdə azərbaycanlıların xüsusi çəkisi Aleksandropol qəzasında – 4,7% (7832 nəfər), Aleksandropol şəhərində – 3,56% (1090 nəfər), Novobayazid qəzasında – 28,3% (34726 nəfər), Surmalin qəzasında – 46,5% (41417 nəfər), Eçmiədzin qəzasında – 29,0% (35959 nəfər), Naxçıvan qəzasında – 63,7% (64151 nəfər), o cümlədən Naxçıvan şəhərində 70,0% (6161 nəfər), Ordubad şəhərində – 88,6% (4088 nəfər) və s. təşkil etmişdir.

1897-ci ildə İrəvan quberniyasında yaşayan 829556 nəfər əhalinin 441000 nəfərini və ya 53,2 faizini, o cümlədən İrəvan şəhərində 12523 nəfərini və ya 43,2 faizini, Naxçıvan qəzasında yaşamış 100771 nəfər əhalinin 34672 nəfərini və ya 34,4 faizini, o cümlədən Naxçıvan şəhərində yaşamış 8799 nəfər əhalinin 2263 nəfərini və ya 25,7 faizini, Şərur-Dərələyəz qəzasında yaşamış 76538 nəfər əhalinin 20726 nəfərini və ya 27,1 faizini, o

cümlədən Baş Noraşendə yaşamış 867 nəfər əhalinin 132 nəfərini və ya 15,2 faizini ermənilər təşkil etmişlər. Həmin ildə İrəvan

10-cu cədvəl [55]

1897-ci ildə İrəvan quberniyasının əhalisi və ana dilinə görə onun quruluşu

№	Qəzaların adları	mövcud əhali (nəfər)	o cümlədən: aşağıdakı dillərdə						
			erməni	rus	azərbaycanlı	kürd	Yəhudi	aysor	sair dillərdə
1	İrəvan qəzası	150899	58148	3713	77491	8195	326	2288	718
	o cüm. İrəvan şəhəri	29006	12523	3171	12359	64	201	81	604
2	Aleksandropol qəzası	165503	141522	6836	7832	4676	400	34	3853
	o cüm. Aleksandropol şəhəri	30616	21771	5157	1030	101	415	-	282
3	Naxçıvan qəzası	100771	34672	1014	64151	639	-	9	282
	o cüm. Naxçıvan şəhəri	8799	2263	232	6161	2	-	4	128
4	Ordubad şəhəri	4611	284	179	4088	-	-	-	60
5	Novobayazid qəzası	122578	78095	5906	34726	2995	31	4	816
	o cüm. Novobayazid şəhəri	8486				211			
6	Surmalin qəzası	89055	30265		41517	13099			97
	o cüm. İqdir kəndi	4680	2931			82			
7	Şərur-Dərələyəz qəzası	76538 867	20726 132	122 31	51560 597	3761 90	6	331	32 17
	o cüm. Baş Noraşen kəndi								
8	Eçmiədzin qəzası	124237 5267	77572 4996	165 141	35999 71	9724 21	24 6	196 5	544 27
	o cüm. Vaqorşopat kəndi								

[55] Bax: Первая Всеобщая перепись населения Российской Империи. 1897 г. Елизаветпольская губ., 1905, с.2-3.

	quberniya üzrə cəmi	829556	441000	15937	313176	49389	850	2862	6342
	o cüm. şəhər yerləri	92323	53997	9527	24488	591	644	90	2986

quberniyasının əhalisinin 49389 nəfərini və ya 5,9 faizini, o cümlədən İrəvan qəzasının əhalisinin 8195 nəfərini və ya 5,4 faizini, Aleksandropol qəzasında 2995 nəfərini və ya 2,4 faizini, Eçmiədzin qəzasında 9724 nəfərini və ya 7,8 faizini, Naxçıvan qəzasında isə 639 nəfərini və ya 0,6 faizini kürdlər təşkil etmişlər.[56]

Öyrənilən dövrdə Bakı, Yelizavetpol və İrəvan quberniyalarında yaşayan əhalinin milli tərkibi ilə yanaşı, onların dini məfkurəsinə görə fərqlənməsinin də aşkara çıxarılmasının müəyyən elmi əhəmiyyəti vardır. 1897-ci ilin əhali siyahıya alınması məlumatlarına əsasən, Bakı quberniyasında 826716 nəfərin 67243 nəfərini və ya 81,8 faizini müsəlmanlar (maqometanlar), 52563 nəfərini və ya 6,37 faizini erməni-qriqoryanlar, 56090 nəfərini və ya 6,8 faizini pravoslavlar, 4635 nəfərini və ya 0,5 faizini protestantlar, 2218 nəfərini və ya 0,3 faizini rimkatoliklər, 12761 nəfərini və ya 1,5 faizini udinlər, 21912 nəfərini staroobryadlar, 4,0 faizini isə sair dinlərə mənsub olanlar təşkil etmişlər[57]. Həmin ildə İrəvan quberniyasında yaşayan 829566 nəfər əhalinin 350099 nəfərini və ya 42,2 faizini müsəlmanlar (maqometanlar), 16398 nəfərini və ya 2,0 faizini pravoslavlar, 4827 nəfərini və ya 0,6 faizini pravoslavlardan uzaqlaşmış staroobryadlar, 2260 nəfərini və ya 0,3 faizini rimkatoliklər, 440334 nəfərini və ya 53,1 faizini xristianlar, o cümlədən 432042 nəfərini və ya 52,1 faizini erməni-qriqoryanlar, 1,8 faizini isə sair dinlərə mənsub olanlar təşkil etmişlər.

Qeyd edilən dövrdə Yelizavetpol quberniyasında yaşayan 878415 nəfər əhalinin 552822 nəfəri və ya 62,9 faizi müsəlmanlar (maqometanlar), 10429 nəfəri və ya 1,2 faizi pravoslavlar, 9507 nəfəri və ya 1,1 faizi staroobryadlar, 298804 nə-

---

[56] Первая Всеобщая перепись населения Российской Империи. 1897 г. Ереванская губ., s. 2-3.

[57] Первая Всеобщая перепись населения Российской Империи. 1897 г. Бакинская губ., 1905, s. 2-3

fərini (o cümlədən 298685 nəfəri və ya 34 faizi erməni-qriqoryanlar) və ya 34 faizi xristianlar, 0,8 faizi isə sair dinlərə mənsub olanlar təşkil edirdi. 1897-ci ildə Bakı şəhərində yaşayan 111904 nəfər əhalidən 46235 nəfərini (41,3%) müsəlmanlar (maqometanlar), 19033 nəfərini (17,0%) erməni-qriqoryanlar, 37007 nəfərini (33,0%) pravoslavlar, 1340 nəfərini (1,2%) rim-katoliklər, 3051 nəfərini (2,7%) protestantlar, 2811 nəfərini (2,5%) staroobryadlar, 2341 nəfərini (2,1%) udinlər, 9204 nəfərini isə (11,1%) başqaları təşkil etmişlər.

1897-ci ildə İrəvan şəhərində yaşayan 29000 nəfər əhali arasında 12516 nəfər (43,2%) müsəlman (maqometan), 12537 nəfər (43,2%) erməni-qriqoryan, 2929 nəfər (10,1%) pravoslav, 315 nəfər (1,1%) staroobryad, 312 nəfər (1,1%) rim-katolik, 270 nəfər (0,9%) udin, 0,4% isə başqaları olmuşlar. O dövrdə Yelizavetpol (indiki Gəncə) şəhərində yaşamış 33625 nəfər əhalinin 17714 nəfərini (52,7%) müsəlmanlar (maqometanlar), 12077 nəfərini (35,9%) erməni-qriqoryanlar, 342 nəfərini rim-katoliklər, 340 nəfərini staroobryadlar, 190 nəfərini protestantlar, 130 nəfərini udinlər təşkil etmişlər.[58]

Beləliklə, yuxarıda deyilənlərdən aydın olur ki, 1897-ci ilin əhali siyahıyaalınması məlumatlarına əsasən Bakı, Yelizavetpol (indiki Gəncə) və İrəvan quberniyalarında yaşayan 2.534.687 nəfər əhalinin 1.322.408 nəfərini və ya 52,6 faizini azərbaycanlılar, 785421 nəfərini və ya 31,0 faizini ermənilər, 101493 nəfərini və ya 4,0 faizini ruslar, yerdə qalan 315.365 nəfərini və ya 12,4 faizini isə başqa millətlərdən və xalqlardan olanlar təşkil etmişlər.

İrəlidə deyilənləri əsas götürərək, 1897-ci ilin əhali siyahıyaalınması məlumatlarına əsasən, Azərbaycan Respublikasının indiki ərazisində yaşamış 1806 min nəfər əhalinin 1092,8 min nəfərini və ya 59,8 faizini azərbaycanlılar, 338,3 min nəfərini və ya 18,5 faizini ermənilər, 125,8 min nəfərini və ya 6,9 faizini Dağıstan xalqları, 94,0 min nəfərini və ya 5,1 faizini ruslar,

---

[58] B a x: Всеобщая перепись населения Российской Империи. 1897 г. Ереванская губ., 1904, с. 2-3; Бакинская губ., 1905, с. 2-3; Ереванская губ., с. 2-3.

91,3 min nəfərini və ya 5,0 faizini tatlar, 35,0 min nəfərini və ya 1,9 faizini talışlar, 15,5 faizini yəhudilər, 5,5 min nəfərini və ya 0,3 faizini kürdlər, 3,8 min nəfərini və ya 0,2 faizini ukraynalılar, 18,3 min nəfərini və ya 1,0 faizini isə başqa millətlər təşkil etmişlər.[59]

Sonrakı illərdə, daha doğrusu, Azərbaycanda Sovet hakimiyyətinin qurulduğu ilk dövrlərdə burada əhalinin milli tərkibinin formalaşması xüsusiyyətlərinin əsl mahiyyətini aşkara çıxarıb düzgün qiymətləndirmək üçün onun təkcə bu sahədə qonşu Gürcüstan və Ermənistan respublikalarında mövcud olmuş vəziyyətlə müqayisəli şəkildə tədqiq edilib öyrənilməsi kifayətdir. Bunun üçünsə, 1926-cı ildə SSRİ-də aparılmış ilk Ümumittifaq əhali siyahıyaalınması məlumatlarına müraciət etmək lazımdır (11-ci cədvələ bax).

1926-cı ildə Zaqafqaziya Federativ Sovet respublikalarında (Azərbaycan, Ermənistan və Gürcüstan) əhalinin cins quruluşu üzrə milli tərkibini səciyyələndirən 11-ci cədvəlin məlumatlarından aydın olur ki, yuxarıda adları çəkilən millətlərin çox hissəsi Azərbaycan Respublikasının payına güşmüşdür. Osetinlər, yunanlar və abxazlar istisna edilməklə Zaqafqaziya Federtiv Sovet Respublikasında qeyd edilən gövrdə yaşayan rusların 65,6 faizi (220,5 min nəfəri), talışların hamısı, ləzgilərin 91,5 faizi (37,3 min nəfəri), kürdlərin 78,9 faizi (41,2 min nəfəri), ukraynalıların 51,5 faizi (18,2 mn nəfəri), yəhudilərin 68,2 faizi (20,6 min nəfəri), tatların hamısı, almanların isə 51,9 faizi (13,4 min nəfəri) Azərbaycan Respublikasının payına düşmüşdür.[60]

Qeyd edilən dövrdə Azərbaycanda yaşayan əhalinin milli tərkibinə gəldikdə isə 1926-cı ilin əhali siyahıyaalınması məlumatlarına əsasən müəyyən edilmişdir ki, burada yaşamış 2314,6 min nəfər əhalinin 1437,9 min nəfərini və ya 62,1 faizini azərbaycanlılar (türklər), 282,0 min nəfərini və ya 12,2 faizini

---

[59] Первая Всеобщая перепись населения Российской Империи. 1897 г. (IX, XI, XIII cildlər); *К.В.Мамедов.* Демографическое развитие в Азербайджанской ССР. Баку, 1980, с.160.

[60] Насселения Закавказья. Всесоюзная перепись населения. 1926. Краткие итоги. Изд-во ЗАК ЦСУ, Тифлис, 1928, s. 8.

11-ci c

1926-cı ilin Ümumittifaq əhali siyahıya alınması məlumatlarına əsasən Zaqafqaziya respublikalarında əhalinin cins quruluşu üzrə milli tərkibi

Xalqlar	Zaqafqaziya Federativ Sovet Respublikaları			Azərbaycan SSR			Ermənistan SSR			Gürcüstan SSR		
	cəmi	kişilər	qadınlar	cəmi	kişilər	qadınlar	cəmi	kişilər	qadınlar	cəmi	kişilər	qa
Cəmi əhali	5861529	3009046	2852483	2314571	1212859	1101712	880464	448674	431790	2666494	1347513	13
o cümlədən: türklər azərbaycanlılar)	1652768	871011	781757	1437977	758431	679546	76870	40906	35964	137521	71647	6
Gürcülər	1797960	901800	896160	9500	5471	4029	274	142	132	1788186	896187	8
Ermənilər	1332593	675593	657000	282004	144877	137127	743571	375088	368483	307018	155628	1
Ruslar	336178	164468	171710	220545	108459	112085	19548	10221	9327	96085	45788	5
Osetinlər	114450	59938	54512	1024	625	399	128	104	24	113298	59209	5
Talışlar	77323	39960	37363	77323	39960	37363	---	---	---	---	---	
Yunanlar	57935	28904	29031	904	473	431	2980	1512	1468	54051	26919	2
Abxazlar	56851	29100	27751	4	---	4	---	---	---	56847	29096	2
Kürdlər	52172	27015	25158	41193	21280	19913	3025	1590	1435	7955	4149	
Ləzgilər	40709	22786	17923	37263	20653	16610	26	25	1	3420	2108	
Ukraynalılar	35423	23644	11779	18241	10560	7981	2826	2337	489	14356	10747	
Yəhudilər	30175	15037	15138	20578	10048	10530	335	221	114	9262	4768	
Tatlar	28443	14894	13549	28443	14894	13549	---	---	---	---	---	
Almanlar	25327	11678	13649	13149	6035	7114	104	38	66	12074	5605	
Gürcü yəhudiləri	21324	10707	10617	427	210	217	---	---	---	20897	10497	
Avarlar	19105	10226	8879	19104	10225	8879	---	---	---	1	1	
Farslar	16709	9744	6965	9446	5546	3900	5043	2722	2321	2220	1476	

[61] B a x: Населения Закавказья. Всесоюзная перепись населення. 1926 г. Краткие итоги. Изд-во ЗАК ЦСУ. T
928, s. 8.

11-ci cədvəlin ardı

Saxurlar	15552	8293	7259	15552	8293	7259	---	---	---	---	---
Yezidilər	14522	7350	7172	23	11	12	12237	6056	6181	2262	1283
Tatarlar	10574	5969	4605	9948	5555	4393	27	27	---	599	387
Dağ yəhudiləri	10324	5036	5288	10270	4999	5271	---	---	---	54	37
Polyaklar	6324	3368	2956	2460	1170	1290	705	621	84	3159	1577
Karapapaqlar	6311	3252	3059	---	---	---	6311	3252	3059	---	---
Aysorlar	6083	3169	2914	964	487	477	2215	1096	1119	2904	1586
Osmanlı türkləri	5661	3439	2222	335	208	127	1516	817	699	3810	2414
Beloruslar	3767	1928	1039	2867	1444	1423	360	179	181	540	305
Udinlər	2453	1348	1105	2445	1344	1101	3	2	1	5	2
İnquşlar	1936	961	975	43	33	10	---	---	---	1893	928
Mordvalar	1238	718	520	782	478	304	419	215	204	37	25
Estonlar	1043	510	533	168	78	90	4	1	3	871	431
Latışlar	944	577	367	669	360	209	12	6	6	363	211
Litoylar	572	347	225	285	182	103	4	4	---	283	161
Türkmənlər	102	91	11	94	87	7	8	4	4	---	---

ermənilər, 220,5 min nəfərini və ya 9,5 faizini ruslar, 77,3 min nəfərini və ya 3,3 faizini talışlar, 41,2 min nəfərini və ya 1,8 faizini kürdlər, 37,3 min nəfərini və ya 1,6 faizini ləzgilər, 28,4 min nəfərini və ya 1,2 faizini tatlar, 20,6 min nəfərini və ya 0,9 faizini yəhudilər, 19,1 min nəfərini və ya 0,8 faizini avarlar, 18,2 min nəfərini və ya 0,79 faizini ukraynalılar, 13,1 min nəfərini və ya 0,56 faizini almanlar, yerdə qalan 119,0 min nəfərini və ya 5,1 faizini isə başqa millətlərdən və xalqlardan olanlar təşkil etmişlər. Bu göstəricilər respublikamızın qadın və kişi əhalisi, ayrı-ayrı regionları, şəhər və kənd yerləri üzrə müxtəlif olmaqla bir-birindən fərqlənmişlər. Bunu 1926-cı ildə respublikamızda mövcud olmuş 13 uyezd, bir muxtar respublika və bir muxtar vilayətdə yaşamış əhalinin cins quruluşu üzrə milli tərkibini özündə əks etdirən 12-ci cədvəlin məlumatlarından daha aydın görmək olar. Həmin cədvəlin məlumatlarının təhlilindən məlum olur ki, qeyd edilən dövrdə respublikamızda yaşayan bütün əhalinin 41,6 faizi, o cümlədən türklərin 27, 9 faizi, ermənilərin 91, 5 faizi Bakı və Gəncə uyezdlərində, Naxçıvan Muxtar Respublikası və DQMV-də , rusların isə 77,9 faizi Bakı, Cəncə uyezdləri və Naxçıvan Muxtar Respublikasında məskunlaşmışlar.[62]

Qeyd edilən dövrdə respublikamizda yaşamiş talışların 99,9 faizi Lənkəran uyezdində, yəhudilərin 96,4 faizi Bakı uyezdində, ləzgilərin 86,5 faizi Quba, Nuxa, Şamaxı və Göyçay uyezdlərində, tatların 99,9 faizi Quba, Bakı və Gəncə uyezdlərində, kürdlərin isə 96,7 faizi Kürdüstan uyezdində və Naxcıvan Muxtar Respublikasında cəmlənmişdilər.[63] Bu göstəriciləri şəhər və kənd yerləri, ayrı-ayrı millətlərdən olan qadın və kişilər üzrə və sair aspektlərdən də tədqiq edib öyrənmək mümkündür. Ancaq burada bizim əsas məqsədimiz respublikamizın müxtəlif tarixi inkişaf mərhələlərində ölkəmizin bütün ərazilərində ayrı-ayrı millətlərdən və xalqlardan olan əhalinin yaşayıb işləməsi üçün nə qədər əlverişli şərait yaradıldığını oxucuların diqqəti-

---

[62] B a x: Население Закавказья. Всесоюзная перепись населения.1926 г. Краткие итоги. Изд-во ЗАК ЦСУ, Tiflis, 1928, s.8.

[63] Yenə orada.

nə çatdırmadan ibarət olduğundan həmin məsələlərin geniş surətdə tədqiq edilməsini məqsədəuyğun saymaqdır. Bizə elə gəlir ki, burada təqdim edilmiş tarixi faktlar oxucuya düzgün nəticə çıxarmağa imkan verəcəkdir.

1926-cı ildən sonrakı dövrdə də keçmiş SSRİ-də aparılan əhali siyahıyaalınması materiallarının təhlilindən aydın olur ki, **respublika əhalisinin milli tərkibindəki etnodemoqrafik rəngarəngliyin qorunub saxlanması** 1939-1989-cu illərdə aparılmış əhali siyahıyaalınması materiallarında da öz əksini tapmişdir. Təkcə bunu demək kifayətdir ki, SSRİ-nin dağılmasından cəmi iki il əvvəl, yəni 1989-cı ildə aparılmış sonuncu Ümumittifaq əhali siyahıyaalınması məlumatlarına əsasən Azərbaycanda yaşayan millətlərin, xalqların və etnik qrupların sayı əvvəlki illərə

12-ci cədvəl [64]

1926-cı ildə Azərbaycanın müxtəlif uyezd və pegionlarında yaşayan əhalinin çins quruluşu üzrə milli tərkibi

Uyezdlər, Xalqlar	*əhalisi*			*şəhər əhalisi*		*kənd əhalisi*	
	cəmi	*kişilər*	*qadınlar*	*kişilər*	*qadınlar*	*kişilər*	*qadınlar*
1	2	3	4	5	6	7	8
BAKİ UYEZDİ	527220	272551	254669	233873	219460	38678	35209
Türklər	177651	94372	33279	63563	55174	30809	28105
Ruslar	164495	78655	85840	76171	83320	2484	2520
Ermənilər	77085	40165	36535	39904	36752	242	187
Yəhudilər	19640	9516	10124	9490	10099	26	25
Tatlar	11300	5852	5448	1506	1474	4346	3974
Tatarlar	9412	5201	4211	5085	4154	116	57
Ukraynalılar	8036	4777	3259	4699	3183	78	76
Farslar	7579	4299	3280	4269	3271	30	9
Almanlar	6428	2819	3609	2785	3572	34	37
Sairlər	17872	10283	7589	9974	7405	309	184
Xaricilər	27722	16631	11091	16427	11056	204	35
CƏNGƏ UYEZDİ	206687	109368	97319	33771	29773	75597	67546
Türklər	122982	64798	58184	16309	14786	48489	43398
Ermənilər	58009	29721	28288	8827	8287	20894	20001
Ruslar	5468	3121	2347	2632	2060	489	287
Almanlar	4855	2288	2567	1762	1977	526	590

[64] В а х: Население Закавказья. Всесоюзная перепись населения. 1926 г. Краткие итоги. Изд-во ЗАК ЦСУ. Тифлис, 1928, s.11-12.

Ukraynalılar	3287	1873	1414	814	281	1059	1133
Tatlar	2445	1523	922	260	153	1263	769
Sairlər	4303	2626	1677	1577	1233	1049	444
Xaricilər	5338	3418	1920	1590	996	1828	924
AĞDAM UYEZDİ	123352	65849	57503	5591	4679	60258	52824
Türklər	116191	61579	54612	4741	4191	56838	50421
Ermənilər	2521	1439	1086	203	72	1236	1014
Sairlər	1864	1150	714	429	273	721	441
Xaricilər	2772	1681	1091	218	143	1463	948
GÖYÇAY UYEZDİ	172851	91978	80373	6097	5021	85881	75852
Türklər	158996	84418	74578	6097	5021	85881	75852
Ləzgilər	5220	2974	2246	234	143	2740	2103
Ruslar	3843	1937	1906	352	413	1585	1493
Ermənilər	3154	1690	1464	149	98	1541	1366
Sairlər	1988	766	622	265	215	501	407
Xaricilər	603	331	272	2	7	329	265
CƏBRAYIL UYEZDİ	75341	39414	35957	1708	1452	37706	34505
Türklər	71725	37041	34684	1377	1192	31664	33492
Ruslar	1089	789	300	106	112	683	188
Sairlər	1954	1253	701	223	141	1030	560
Xaricilər	603	331	272	2	7	329	265
ZAQATALA UYEZDİ	80204	42906	37298	1817	1487	41089	35811
Türklər	37431	20049	17382	723	561	19326	16821
Avarlar	19060	10194	8866	9	1	10685	8865
Saxurlar	15217	8092	7125	113	100	7979	7025
Gürcülər	5279	2775	2504	65	31	2710	2473
Ermənilər	1399	753	646	611	570	142	76
Sairlər	1809	1036	773	294	224	742	549
Xaricilər	9	7	2	2		5	2
QAZAX UYEZDİ	121255	64698	56557	3624	3143	61074	53414
Türklər	110550	59044	51506	2515	2169	56529	49337
Ermənilər	3632	2021	1611	534	455	1487	1156
Ruslar	3816	1349	1967	216	288	1633	1679
Almanlar	1543	758	785	28	30	730	755
Sairlər	1392	817	575	192	147	625	428
Xaricilər	322	209	113	139	54	70	59
QUBA UYEZDİ	189916	99184	90732	9489	8413	89695	82319
Türklər	137157	71332	65825	3611	3392	67721	62433
Ləzgilər	24125	12349	11776	300	277	12049	11499
Tatlar	10734	5639	5099	7	8	5632	5089
Dağ yəhudiləri	6488	3075	3413	3002	3403	73	10
Ruslar	5221	2920	2301	1353	971	1567	1330
Ukraynalılar	3051	1871	1180	686	84	1185	1096
Sairlər	2108	1263	843	436	233	829	610

Xaricilər	1032	733	299	94	45	639	254
KÜRDÜSTAN UYEZDİ	51426	26678	24748	339	96	26339	24652
Kürdlər	37182	19160	18022	88	22	19072	18000
Türklər	13745	7142	6603	122	42	7020	6561
Sairlər	496	373	123	128	32	249	91
Xaricilər	3	3	---	1	---	2	---
LƏNKƏRAN UYEZDİ	208475	108215	100264	6806	6029	101409	54235
Türklər	11181	57722	53455	4990	4472	52732	48587
Talışlar	77261	39900	37361	134	88	39766	37273
Ruslar	13384	6797	6587	1244	1169	5553	5418
Sairlər	1631	924	707	306	260	618	417
Xaricilər	5022	2872	2150	132	40	2740	2110
NUXA UYEZDİ	107049	57130	49919	12137	10807	44493	39112
Türklər	94078	50022	44056	10977	9787	39045	34269
Ermənilər	4007	2076	1931	796	769	1280	1162
Ləzgilər	2874	1735	1139	130	55	1605	1084
Udinlər	2439	1341	1098	---	---	1341	1098
Sairlər	3644	1950	1694	231	195	1719	1499
Xaricilər	7	6	1	3	1	3	---
SƏLYAN UYEZDİ	129367	68805	60562	6699	6504	62106	54058
Türklər	115366	61083	54283	5324	5158	55759	49125
Ruslar	8624	4700	3924	841	875	3859	3049
Ukraynalılar	3108	1603	1519	124	156	1479	1349
Sairlər	1299	839	460	291	231	548	229
Xaricilər	970	580	390	119	84	461	306
ŞAMAXI UYEZDİ	91185	47266	43919	3928	3819	43338	40100
Türklər	69899	36729	33170	1786	1481	34949	31689
Ruslar	10053	4822	5231	237	220	4585	5011
Ermənilər	6485	3356	3129	115	77	3241	3052
Tatlar	3855	1808	2047	1699	1962	109	85
Sairlər	826	501	325	90	79	411	246
Xaricilər	67	50	17	1	---	49	17
DQMV	125300	63131	62169	4179	4114	58952	58055
Ermənilər	111694	56225	55469	1517	1300	54708	54169
Türklər	12592	6361	6231	2543	2700	3818	3531
Sairlər	873	461	412	69	68	392	344
Xaricilər	141	84	57	50	46	34	11
NAXÇIVAN MSSR	104909	59686	49223	8267	6435	47419	42788
Türklər	88433	46739	41694	6029	5354	40710	36340
Ermənilər	11276	5643	5633	777	658	4866	4975
Kürdlər	2649	1369	1280	3	3	1366	1277
Ruslar	1837	1447	390	1212	326	235	64
Sairlər	461	322	139	237	90	85	49
Xaricilər	253	166	87	9	4	157	81

nisbətən nəinki azalmamiş, əksinə, xeyli çoxalaraq 115-ə gəlib çatmişdır. Həmin ildə respublikamizda yaşayan əhalinin 5805,0 min nəfərini azərbaycanlılar (82,7 %), 392,3 min nəfərini ruslar(5,6 %), 390,5 min nəfərini ermənilər(5,5 %), 171,4 min nəfərini ləzgilər (2,44%), 44,1 min nəfərini avarlar (0,6%), 32,3 min nəfərini ukraynalılar (0,4%), 28,1 min nəfərini tatarlar (0,40%), 25,2 min nəfərini yəhudilər (0,36%), 21,1 min nəfərini talışlar (0,30%), 14,2 min nəfərini gürcülər (0,20%), 12,2 min nəfərini kürdlər (0,17), 10,2 min nəfərini tatlar (0,14%), 7,8 min nəfərini beloruslar (0,11%) təşkil etmişlər.[65]

Təsadüfi deyildir ki, son vaxtlaradək respublika əhalisinin xeyli bir qismini qarışıq ailələrdə yaşayanlar təşkil edirdilər. Məsələn, 1993-cü ildə Azərbaycanda dünyaya göz açmış körpələrin 15,1%-i qarışıq ailələrdə doğulanların payına düşmuşdur. Həmin ildə respublikamızda doğulan və **anaları rus olan uşuqların 40,5%-nin, anaları ukraynalı olanların 92,6%-nin, anaları özbək olanların 95,2%-nin, anaları belorus olanların 88,5-nin, anaları erməni olanların 85,4%-nin, anaları tatar olanların 75,6%-nin, anaları yəhudi olanların 34,9%-nin, anaları azərbaycanlı olanların isə cəmi 3,6%-nin atalarını başqa millətlərdən olanlar təşkil etmişlər**. Onu da qeyd etmək lazımdır ki, 1989-cu ilin əhali siyahıyaalınması məlumatlarına əsasən, keçmiş SSRİ ərazisində yaşayan nikahda olan azərbaycanlı kişilərin 12,1%-i (Azərbaycanda 4,5%) başqa millətlərdən olan qadınlarla, azərbaycanlı qadınların isə 4,7%-i (Azərbaycanda 1,8%-i) başqa millətlərdən olan kişilərlə evlənmişlər. Bu göstərici respublikamızda yaşa-yan ruslar üzrə müvafiq surətdə keçmiş İttifaq ərazisində 16,1% və 17,7%, Azərbaycanda isə 27,2 və 46,3% təşkil etmişdir.[66] Onu da demək lazımdır ki, 1989-cu ildə keçmiş İttifaqın ərazisində yaşayan 466,8 min nəfər ləzginin 171,4 min nəfəri və ya 36,7%-i, 604,2 min nəfər avarın 44,1 min nəfəri və ya 7,3%-i, 21,1 min nəfər talışın hamısı, 152,9 min nəfər kürdün 12,2 min nəfəri və ya 8%-i, 137,7 min nəfər yəhudinin 25,2 min

---

[65] Население ССР 1987 г. Статистический сборник. М., 1988 г. s. 98-104, Население Азербайджанской Республики. Статистический сборник. Баку, 1991. s.38.

[66] Народное хозяйство СССР в 1990 г. М., 1991, s.84-85.

nəfəri və ya 18,3%-i Azərbaycanda məskunlaşmış və öz talelərini Azərbaycanla bağlamışlar.[67] 13-cü cədvəldən göründüyü kimi, 1989-cu ilin əhali siyahıyaalınması məlumatlarına əsasən, o dövrdə keçmiş SSRİ ərazisində yaşamış 6771,1 min nəfər azərbaycanlının 965,4 min nəfəri və ya 14,3%-i Azərbaycandan kənarda, o cümlədən 335,9 min nəfəri və ya 5,0%-i Rusiyada, 307,6 min nəfəri və ya 4,5-%-i Gürcüstanda, 9,0 min nəfəri və ya 1,3%-i Qazaxıstanda, 84,9 min nəfəri və ya 1,3%-i Ermənistanda, 3,7 min nəfəri və ya 0,5%-i Ukraynada, 44,4 min nəfəri və ya 0,7%-i Özbəkistanda, 33,4 min nəfəri və ya 0,5%-i Türkmənistanda, 15,8 min nəfəri və ya 0,2%-i Qırğızıstanda, 5,0 min nəfəri və ya 0,6%-i Belorusiyada, 3,6 min nəfəri və ya 0,1%-i Tacikistanda, 2,8 min nəfəri və ya 0,04%-i Latviyada, 2,6 min nəfəri və ya 0,03%-i Moldovada, 1,3 min nəfəri və ya 0,02% Litvada və nəhayət, 1,1 min nəfəri və ya 0,01%-i isə Estoniyada məskunlaşmışlar.[68]

13-cü cədvəl [69]

Azərbaycanda əhalinin milli tərkibinin dəyişilməsi dinamikası (min nəfər)

	1897-ci il	1926-ci il	1939-cu il	1959-cu il	1970-ci il	1979-cu il	1989-cu il
Cəmi bütün əhali	1807,0	2314,0	3205,0	3698,0	5117,0	6028,7	7037,9
Azərbaycanlı	1092,8	1438,8	1870,5	2494,4	3776,8	4708,8	5805,0
Ruslar	94,0	220,5	528,3	501,3	510,1	475,2	392,3
Ermənilər	338,0	282,0	388,0	442,1	483,5	475,2	390,5
Ləzgilər	---	37,3	111,7	98,2	137,3	138,1	171,4
Ukraynalılar	3,8	18,2	23,6	25,8	29,2	26,4	32,3
Yəhudilər	8,3	10,3	41,3	40,2	41,3	35,5	30,0
Tatarlar	---	9,9	27,6	29,5	31,3	31,2	28,0

[67] Народное хозяйство СССР в 1990 г. М., 1991, s.82;. Население Азербайджанской Республики. Статистический сборник. Баку, 1991. s.38

[68] *Ş.Muradov*. Azərbaycan əhalisinin dinamikası və quruluşu. «Bazar münasibətlərinə keçid və Azərbaycanın iqtisadi inkişafının bəzi problemləri» kitabında. Bakı, «Elm», 1994, s.193.

[69] Население Азербаджанской Республики. Статистический сборник. Баку, 1991. s.39.

Talışlar	35,8	77,5	87,5	---	---	---	21,2
Gürcülər	15,5	9,5	10,2	9,5	13,6	11,4	14,0
Kürdlər	15,6	41,2	6,0	1,5	5,5	5,7	12,2
Beloruslar	---	---	---	---	4,9	4,8	7,8
Başqa millətlər	204,0	168,8	110,3	55,5	83,0	96,4	137,2

SSRİ-nin dagılmasından 8 il sonra, yəni 1999-cu ildə keçirilmiş müstəqil Azərbaycan Respublikası əhalisinin ilk siyahıyaalınması məlumatlarına əsasən isə Azərbaycan əhalisinin milli tərkibi aşağıdakı kimi olimuşdur (bax: 14-cü cədvələ). Bu məlumatlardan aydın olur ki, ***bütün çətinliklərə, baş vermiş milli münaqişələrə və sair hadisələrə baxmayaraq, respublikamızın əhalisi yenə də öz çoxmilli tərkibini və burada yaşayan bütün millətlərdən və xalqlardan olan insanların dostluq və həmrəyliyini qoruyub saxlaya bilmişdir.*** 1999-cü ilin əhali sıyahıyaalınması məlumatlarına əsasən respublikamızda qeydə alınmış 7953,4 min nəfər əhalinin 7205,5 min nəfərini və ya 90,6 faizini azərbaycanlılar, 141,7 min nəfərini və ya 1,8 faizini ruslar, 178,0 min nəfərini və ya 2,2 faizini ləzgilər, 120,7 min nəfərini və ya 1,5 faizini ermənilər, 76,8 min nəfərini və ya 1,0 faizini talışlar, 50,9 min nəfərini və ya 0,6 faizini avarlar, 43,4 min nəfərini və ya 0,5 faizini türklər, 30,3 min nəfərini və ya 0,4 faizini tatarlar, 14,9 min nəfərini və ya 0,2 faizini gürcülər, 13,1 min nəfərini və ya 0,2 faizini kürdlər, 8,9 min nəfərini və ya 0,1 faizini yəhudilər və b. təşkil etmişlər.[70]

Bütün bu deyilənlər təsadüfi olmayıb, ***bu diyarın ən qədim sakinləri olan azərbaycanlıların insanpərvərliyi, beynəlmiləlçiliyi, bütün millətlərdən və xalqlardan olan adamlara olan insani münasibət və qayğı göstərmələri, onlara həssaslıq və mehribanlıqla yanaşmaları ilə bağlıdır.*** Təsadüfi deyildir ki, tədqiq edilən dövrdə respublikamızın köklü əhalisi olan azərbaycanlılarla yanaşı, burada yaşayan başqa millətlərdən və xalqlardan olan əhalinin də sayı sürətlə artıb çoxalmış, onların mədəni-texniki

[70] B a x: Azərbaycan Respublikası əhalisinin siyahıya alınması. 1999-cu il. Bakı, 2001, s. 151-152.

və intellektual inkişaf səviyyəsi yüksəlmiş və indi də inkişaf edib yüksəlməlidir.

Azərbaycanda yaşayan müxtəlif millətlərdən olan əhalinin artım dinamikasını nümayış etdirmək üçün Sovet hakimiyyətinin mövçud olduğu 74 ilin 63 ilini özündə əks etdirən 1926-1989-cu illərdə keçirilmiş Ümumittifaq əhali siyahıya alınması məlumatlarına müraciət etmək kifayətdir (13-cü cədvələ bax). 13-cü cədvəlin məlumatlarından göründüyü kimi, 1926-1989-cu illəri əhatə edən 63 il ərzində Azərbaycan əhalisinin sayı 3 dəfə artaraq 2313,7 min nəfərdən 7021,2 min nəfərə, o cümlədən azərbaycanlıların sayı 4 dəfə artaraq 1438,8 min nəfərdən 5805,0 min nəfərə, rusların sayı 1,8 dəfə artaraq 220,5 min nəfərdən 392,3 min nəfərə, ermənilərin sayı 1,4 dəfə artaraq 282,0 min nəfərdən 390,5 min nəfərə, ləzgilərin sayı 4,6 dəfədən çox artaraq 37 min nəfərdən 171,4 min nəfərə, yəhudilərin sayı 3 dəfə artaraq 10,3 min nəfərdən 30,8 min nəfərə, tatarların sayı 2,9 dəfə artaraq 9,9 min nəfərdən 28,6 min nəfərə və s. gəlib çatmışdır.

14-cü cədvəl [71]

Azərbaycan Respublikası əhalisinin milli tərkibi (1999-cu ildə)

Milliyyəti	Sayı (min nəfər)	Yekuna nisbətən, %-lə
Cəmi əhali	7953,4	100,0
Azərbaycanlılar	7205,5	90,6
Ukraynalılar	29,0	0,4
Ruslar	141,7	1,8
Türklər	43,4	0,5
Tatarlar	30,0	0,4
Talışlar	76,8	1,0
Ləzgilər	178,0	2,2
Yəhudilər	8,9	0,1
Kürdlər	13,1	0,2
Ermənilər	120,7	1,5
Avarlar	50,9	0,6
Gürcülər	14,9	0,2

[71] Azərbaycan Respublikası əhalisinin siyahıya alınması. 1999, Bakı, 2001.

Udinlər	4,1	0,05
Saxurlar	15,9	0,2
Tatlar	10,9	0,13
Digər millətlər	9,6	0,12

1988-ci ildən başlayan Ermənistan – Azərbaycan və Dağlıq Qarabağ münaqişəsinin yaratdığı milli ədavətlərə və xalqımızın başına gətirilən müsibətlərə baxmayaraq, 1999-cu ilin əhali siyahıyaalınmasına əsasən respublikamızda azərbaycanlılarla yanaşı, onlara daim düşmən kəsilmiş erməni millətindən olan 120,7 min nəfər adam yaşamışdır. Nəzərə alsaq ki, əhalinin siyahıyaalınması məlumatlarında hər kəs milli mənsubiyyətini heç bir təzyiq olmadan öz arzusu ilə bildirir, onda burada yaşayan ermənilərin əsl sayının qeyd edilənlərdən xeyli çox olduğu şübhə doğurmur. Ancaq çox təəssüflər olsun ki, XX əsrin əvvəllərində əhalisinin 40 faizinə qədəri azərbaycanlılardan ibarət olmuş, ərazisinin isə xeyli bir qismi 1920-ci ilədək Azərbaycan torpağı olub, bu torpaqlarda yaşamış əhalinin əksəriyyətini azərbaycanlıların təşkil etdiyi indiki Ermənistanda 1989-cu ilin axırına bir nəfər də olsun azərbaycanlı qalmamış və onların hamısı zorla öz əzəli torpaqlarından qovulmuş, xeyli bir qismi isə vəhşicəsinə qətlə yetirilmişdir. Bu, **«yersiz gəldi, yerli qaç»** prinsipi ilə yaşayan qatı erməni millətçilərinin başqa xalqların torpaqlarını zəbt etmək hesabına «Böyük Ermənistan» dövləti yaratmaq xülyası ilə uzun illərdən bəri yeritdikləri sərsəm siyasətin nəticəsi olub, özünü hələ XX əsrin əvvəllərində daha qabarıq şəkildə büruzə verməyə başlamışdır. Son iki əsr ərzində erməni millətçilərinin apardığı murdar siyasət nəticəsində indiki Ermənistan ərazisindən 1,5 milyon nəfərdən çox azərbaycanlı zorla qovulmuş və qətlə yetirilmişdir.

Tarixi faktlar sübüt edir ki, Azərbaycan ərazisinin Dağlıq Qarabağ hissəsində olduğu kimi, indiki Ermənistan ərazisində də yaşayan ermənilərin çoxu yerli əhali olmayıb sonradan buraya gələnlərdir. N.İ.Şavrovun 1911-ci ildə S.-Peterburq şəhərində nəşr olunmuş **«Zaqafqaziyada rus işinə təhlükə»** kitabında göstərilir ki: «1826-1828-ci illər müharibəsindən sonrakı iki ildə 1828-ci ildən 1930-cu ilədək Zaqafqaziyaya 40 min İran ermənisi, 84600 Türkiyə ermənisi köçürülmüşdür və onlar er-

məni millətinin cüzi olduğu Yelizavetpolun və İrəvan quberniyasının ən yaxşı torpaqlarında yerləşdirilmişdir. Köçkünlərin ən çoxu ermənilərdir. İndi Zaqafqaziyada yaşayan 1 milyon 300 min nəfərdən 1 milyonu diyarın yerli əhalisi deyil, gəlmələrdir»[72]. Z. Korkodyanın yazdığına görə isə indiki Ermənistan ərazisində əvvəllər mövcud olmuş İrəvan quberniyasının İrəvan, Eçmiədzin, Yeni Bayazıd, Aleksandropol qəzalarında, Gəncə quberniyasınını Zəngəzur və Qazax-Dilican qəzalarında, Tiflis quberniyasının Lori-Pəmbək (Borçalı mahalı) qəzasında 2310 yaşayış məntəqəsindən 2000-i azərbaycanlılara mənsub olmuşdur.[73]

1897-ci ilin əhali siyahıyaalınması məlumatlarına əsasən, indiki Ermənistanın ərazisində yaşamış 757,7 min nəfər əhalinin 312,2 min nəfəri və ya 39,2 faizi, o cümlədən Bayazid qəzasinda yaşamış 122,6 min nəfər əhalinin 34,7 min nəfəri və ya 28,3%-i, Eçmiədzin qəzasında yaşamış 124,2 min nəfər əhalinin 36,0 min nəfəri və ya 29,0%-i azərbaycanlı olmuşdur. Qeyd edilən dövrdə həmin ərazinin ən iri yaşayış məntəqələrindən biri sayılan İrəvan şəhərində yaşamış 29000 nəfər əhalinin 12532 nəfəri və ya 43,2%-i ermənilər, 12359 nəfəri və ya 42,6%-i azərbaycanlılar olmuşlar. Bu dövrdə Zəngəzurda yaşayan 142 min nəfər əhalinin 71,2 min nəfəri və ya 50,1%-i azərbaycanlı, 63,6 min nəfəri və ya 44,8%-i isə erməni olmuşdur.[74] Lakin bütün bunlara baxmayaraq, erməni millətçiləri və onların havadarlarının müsəlmanların əleyhinə yeritdikləri çirkin siyasət nəticəsində keçən əsrin əvvəllərindən başlayaraq azərbaycanlılar tədricən həmin torpaqlardan sıxışdırılıb çıxarılmağa başlamışdır ki, bu da 1988-1989-cu illərdə özünün son həddinə gəlib çatmışdır. Rəsmi mənbələrə əsasən, 1820-1920-ci illəri əhatə edən 100 il

---

[72] *Н. И. Шавров.* Новая угроза русскому делу в Закавказье. С.-Петербург, 1991, с.59-61.

[73] *Z. Korkodyan.* Sovet Ermənistanının əhalisi 1831, 1931. İrəvan, 1932, s.162 (erməni dilində)

[74] *В. Е. Ходжабекян, Ю. Вазе, Р. Шефер.* Демографические проблемы и воспроизводство трудовых ресурсов. Ереван, 1983, с. 11; Первая Всеобщая перепись населения Российской империи 1897 г. Эреванская губерния, 1905, с. 2-3.

ərzində rus imperiyasının ərazisinə 600 min nəfər erməni köçuruldüyü halda, Rusiyadan 2 milyon nəfərədək müsəlman çıxıb getmişdir.[75] 1918-1920-ci illərdə azərbaycanlıların soyqırımı dövründə Ermənistanın indiki ərazisində yaşamış 575 min nəfər azərbaycanlının 565 min nəfəri qırılmış və qovulmuşdur. Z.Korkodyanın yazdığına görə, 1920-ci ildə Ermənistanda daşnaklardan sonra cəmi 10 min nəfərdən bir qədər artıq türk (azərbaycanlı) əhali qalmışdı. 1922-ci ildə 60 min nəfər qaçqın buraya geri qayıtdıqdan sonra azərbaycanlıların sayı burada 72596 nəfər təşkil etmişdir.[76]

Rəsmi statistik məlumatlara əsasən, 1922-ci ildən sonra az da olsa, Ermənistanda yaşayan azərbaycanlıların sayı tədricən artaraq 1926-ci ildə 84,0 min nəfər, 1939-cu ildə isə 130,9 min nəfərə gəlib çata bilmişdir.[77] Lakin 1948-1953-cü illərdə yenidən 150 min nəfərdən çox azərbaycanlı Ermənistandakı ata-baba torpaqlarından zorla köçürüldü və köçməyə məcbur edildi ki, bunun da nəticəsində həmin ərazidə yaşayan azərbaycanlıların sayı yenə azalaraq 1959-cu ildə artmaq əvəzinə 107,7 min nəfərə düşmüş, sonrakı iki onillik ərzində isə onların sayı xeyli artaraq 1970-ci ildə 148,2 min nəfərə, 1979-cu ildə isə 160,8 min nəfərə gəlib çatmışdır.[78] **Ançaq bu Ermənistanın ərazisində azərbaycanlıların sonuncu artımı oldu. Nə qədər təəccüblü olsa da, maraqlı haldır ki, azərbacanlıların Ermənistandan qovulduğu butun dövrlərdə Azərbaycanda yaşayan ermənilərin sayı nəinki azalmamış, əksinə daha da artmışdır**. Məsələn, 1939-1359-cü illərdə Ermənistanda yaşayan azərbaycanlıların sayı 23,2 min nəfər və ya 17,8 % azaldığı halda, Azərbaycanda yaşayan ermənilərin sayı 54,1 min nəfər və ya 13,9 % çoxalmışdır.

Ümumiyyətlə götürüldükdə isə 1926-1979-cu illərdə Ermənistanda yaşayan azərbaycanlıların sayı cəmi 76,8 min nəfər artaraq 84 min nəfərdən 160,8 min nəfərə, Azərbaycanda ya-

---

[75] *İ.Məmmədov, S.Əsədov*. Ermənistan azərbaycanlıları və onların acı taleyi. Baki, 1992, s. 23-24.

[76] *З.Коркодян*. «Население Советской Армении. 1831-1931», s. 184-185; Историческая география Западного Азербайджана

[77] Население СССР. М., 1977, s.278

[78] *V.E Xodcabekyan* və başqaları. Göstərilən kitab, s. 23

şayan ermənilərin sayı isə bundan 2,5 dəfə çox, yəni 193,2 min nəfər artaraq 282 min nəfərdən 475,2 min nəfərə gəlib çatmışdır. Başqa sözlə desək, müqayisə edilən bütün bu illər ərzində Azərbaycanda yaşayan ermənilərin sayı Ermənistanda yaşayan azərbaycanlıların sayından 2,9-4,1 dəfə çox olmuşdur.

Yeri gəlmişkən burada onu da qeyd etmək lazımdır ki, keçmiş SSRİ-nin başqa ərazilərindən, xüsusilə də ***qonşu Gürcüstan və Ermənistandan fərqli olaraq Azərbaycanda beynəlmiləlçilik ənənələrinin vətənpərvərlik və öz millətini sevmək ənənəsini üstələməsi halı, bir qayda olaraq, burada yaşayan azərbaycanlılara nisbətən başqa millətlərdən və etnik qruplardan olan əhali üçün daha münasib və əlverişli həyat şəraiti yaradılmasına səbəb olmuşdur. Bunu yerli azərbaycanlılara nisbətən başqa ərazilərdən köçüb buraya gəlmiş azərbaycanlılara da aid etmək olar.***

Başqa millətlər və xalqlar üçün respublikamızda yaradılmış ab-havanı Azərbaycanın paytaxtı Bakı şəhərində yaşayan əhalinin milli tərkibinin indiki Yerevan və Tbilisi şəhərlərində yaşayan əhalinin milli tərkibindəki dəyişikliklərin müqayisəsindən daha aydın görmək olar (15-ci cədvələ bax). 15-ci cədvəlin məlumatlarından göründüyü kimi, 1897-1979-cu illəri əhatə edən 82 il ərzində **Bakı şəhərində** yaşayan əhali arasında ermənilərin sayı 11,3 dəfədən çox artaraq 19033 nəfərdən 215807 nəfərə, rusların sayı 8,7 dəfədən çox artaraq 38965 nəfərdən 337950 nəfərə, gürcülərin sayı 3,2 dəfə artaraq 971 nəfərdən 3065 nəfərə gəlib çatdığı halda, **Tbilisi şəhərində** yaşayan rusların sayı cəmi 2,7 dəfə artaraq 47599 nəfərdən 129143 nəfərə, azərbaycanlıların sayı isə 2,3 dəfə artaraq 5557 nəfərdən 12867 nəfərə və s. gəlib çatmış; ***Yerevan şəhərində isə əksinə, azərbaycanlıların sayı 5,2 dəfə azalaraq 12359 nəfərdən 2352 nəfərə düşmüş, rusların sayı isə 3171 nəfərdən 26522 nəfərə qalxmış və guya ki, 8,3 dəfə çoxalmışdır.***

Onu da qeyd etmək lazımdır ki, 1897-ci ildə İrəvanın (indiki Yerevanın) əhalisinin ***42,6%-i azərbaycanlı olduğu halda, 1926-ci ildə cəmi 7,7, 1959-cu ildə 0,7, 1970-ci ildə 0,4, 1979-cu ildə isə cəmi 0,2%-i*** azərbaycanlı olmuşdur. Halbuki ***Bakı şəhərində ermənilərin*** xüsusi çəkisi ***1897-ci ildə 17,0, 1926-cı***

ildə 16,9, 1959-cu ildə 17,2, 1970-ci ildə 16,4, 1979-cu ildə 14,1% təşkil etmişdir.

1897-ci ildə İrəvan şəhərinin (indiki Yerevanın) əhalisinin cəmi 43,2%-i ermənilər olduğu halda, bu göstəriçi artaraq ***1926-ci ildə - 93,0, 1970-ci ildə - 95,2, 1979-cu ildə isə 95,7%-ə qalxmışdır.*** Halbuki Bakı şəhərində azərbaycanlıların xüsusi çəkisi 1897-ci ildə 36,1, 1926-ci ildə-26,2, 1959-cu ildə - 37,7, 1970-ci ildə – 46,3, 1979-cu ildə isə 55,7% olmuşdur. Tbilisi şəhərində isə gürcülərin xüsusi çəkisi 1897-ci ildə 25,8, 1926-ci ildə – 33,2, 1959-cu ildə – 48,4, 1970-ci ildə – 57,7, 1979-cu ildə – 62,2% təşkil etmişdir.

1999-cu ildə keçirilmiş əhali siyahıyaalınması məlumatlarına əsasən, Bakı şəhərində 378 nəfər erməni (o cumlədən 352 nəfər qadın, 26 nəfər kişi), 2340 nəfər gürcü (o cümlədən 1249 nəfər qadın, 1091 nəfər kişi), 119371 nəfər rus (o cümlədən 73607 nəfər qadın, 45764 nəfər kişi), 2400 nəfər ukraynalı (o cümlədən, 14038 nəfər qadın, 10862 nəfər kişi) və sair millətlərdən olan insanlar yaşamışdılar.[79]

Yuxarıda göstərilənlərdən bir daha aydın olur ki, Ermənistan hökuməti daim Ermənistanda yalnız ermənilərin yaşaması üçün təminat verməyə cəhd göstərmiş və buna nail olmuşdur. Əlbəttə, bu çirkin millətçilik «siyasəti» heç şübhəsiz ki, nəticə etibarilə nə vaxtsa, gələcəkdə erməni millətinin bədbəxtliyi ilə qurtaracaqdır. Ermənistan hökuməti bu «siyasəti» təkcə öz ərazilərində deyil, ermənilərin yaşadığı bütün başqa ərazilərdə də daim həyata keçirməyə, buna müvəffəq olmağa cəhd etmiş və təəssüf ki, çox halda buna nail olmuşdur. Bunu 1923-cü ildə Azərbaycanın tərkibində yaradılmış keçmiş DQMV-nin ərazisində Azərbaycan hökumətinin bəzi fərsiz rəhbərlərinin gözü önündə yeridilmiş ermənləşdirmə siyasətindən daha aydın görmək olar.

Bu mürtəce siyasəti tədricən həyata keçirən erməni rəhbərləri və ermənipərəst qüvvələr keçmiş DQMV-də ermənilərin sayını süni surətdə daim çoxaltmış, azərbaycanlıların sayını isə azaltmışlar. Bunu 1989-cu ildə aparılmış Ümumittifaq əhali

---

[79] Azərbaycanın regionları. Bakı, 2002, s.23.

15-ci c

1897-1979-cu illərdə Bakı, Tbilisi, Yerevan şəhərlərində əhalinin milli tərkibinin dəyişilməsi dinar

	1897-ci il		1926-ci il		1959-cu il		1970-ci il		1979-c
	nəfər	yekuna nisbətən, %-lə	nəfər	yekuna nisbətən, %-lə	nəfər	yekuna nisbətən, %-lə	nəfər	yekuna nisbətən, %-lə	nəfər
Bakı şəhəri və Bakı sovetinə tabe olan yaşayış məntəqələrində	111904	100	453333	100	987228	100	1265515	100	1533235
Azərbaycanlılır	40341	36,1	118737	26,2	372676	37,7	586052	46,3	854386
Ruslar	38965	34,8	159491	35,2	337835	34,2	351090	27,7	337950
Ermənilər	19033	17,0	76656	16,9	170086	17,2	207464	16,4	215807
Gürcülər	971	0,9	2558	0,6	2993	0,3	3283	0,3	3065
Lazgilər	691	0,6	3708	0,8	15330	1,6	23650	1,9	28995
Yəhudilər	1905	1,7	19589	4,3	29197	3,0	29716	2,3	26446
Kürdlər	---	---	---	---	---	---	---	---	---
Başqa millətlər	9898	8,9	72594	16,0	59111	6,0	64260	5,1	66586
Tbilisi və Tbilisi şəhər sovetlərinə tabe olan yaşayış məntəqələrində	159590	100	294044	100	703016	100	891928	100	1056140
Gürcülər	41151	25,8	112206	38,2	340477	48,4	514248	57,7	656431
Ruslar	47599	29,8	45937	15,6	128176	182	124342	14,0	129143
Ermənilər	47133	29,5	100148	34,1	149735	21,3	150208	16,8	152900
Azərbaycanlılar	5557	3,5	5836	2,0	9670	1,4	10815	1,2	12867
Osetinlər	865	0,6	2890	1,0	16012	2,3	21797	2,4	27891
Yəhudilər	---	---	5706	1,9	17333	2,5	19579	2,2	14878
Kürdlər	---	---	---	---	12985	1,9	18409	2,1	23413
Başqa millətlər	17285	10,8	91321	7,2	28628	4,0	32530	3,6	38617
Yerevan şəhəri və Yerevan sovetinə tabe olan yaşayış məntəqələrində	29000	100	64613	100	509340	100	775028	100	1030969
Ermənilər	12523	43,2	57259	88,6	473742	93,0	738045	95,2	986812
Ruslar	3171	10,9	1127	1,8	22572	4,4	21802	2,8	26522
Azərbaycanlılır	12359	42,6	4968	7,7	3213	0,7	2721	0,4	2352
Gürcülər	---	---	---	---	---	---	---	---	---
Yəhudilər	204	0,7	---	---	---	---	---	---	---
Kürdlər	64	0,2	---	---	2835	0,6	3804	0,5	5651
Başqa millətlər	679	2,4	1259	1,9	6778	1,3	8656	1,1	9632

[80] Первая Всеобщая перепись населения Российской империи 1987 г. Эреванская губ. 1905. с. 2-3. Первая Всеобщая перепись населения Российской империи 1897 г. IX Бакинская губ., с. 2-3. Итоги Всесоюзн си населения 1970 года. том IV, часть I, книга 2, М. 1972. с. 725, 691, 816. Итоги Всесоюзной переписи населения 1979 года. том IV, часть I, книга 3, стр 9-37, 136. Итоги Всесоюзной переписи населения 1959 г. СССР. М., 1963. с. Первая Всеобщая перепись населения Российской империи 1897 г. XIX Тифлисская губерния 1905 г., с. 2-3. Население Закавказья. Итоги Всесоюзной переписи населения 1926. Краткие итог ЦСУ. Тифлис. 1928 г. с. 17 (таб VIa)

siyahıyaalınması məlumatları da təsdiq edir. 1989-cu ilin əhali siyahıyaalınması məlumatlarına əsasən həmin ildə keçmiş DQMV-nin əhalisinin ümumi sayı 188 min nəfər, o cümlədən ermənilərin sayı guya 145 min nəfər (77,1%), azərbaycanlıların sayı 40,6 min nəfər (12,5%), rusların sayı isə 1,0 min nəfər (0,5%) təşkil etmişdir. Ancaq keçmiş DQMV-də yaşayan azərbaycanlılarla ermənilərin sayı arasında süni olaraq yaradılmış bu cür nisbətin saxtalaşdırıldığı məlum həqiqətdir. Keçmiş DQMV ətrafında baş vermiş hadisələrin əsl mahiyyətini örtbasdır etmək məqsədilə 1988-1989-cu illərdə erməni ekstremistləri və onların xaricdə yaşayan dilverənləri hər cür hay-haray salıb sübut etməyə çalışırdılar ki, guya keçmiş DQMV-də yaşayan əhalinin vur-tut cəmi 15%-i azərbaycanlı, yerdə qalan 85%-i isə ermənilərdir. Halbuki, hətta, keçmiş DQMV-də, bizim fikrimizcə, saxtalaşdırılmış son əhali siyahıyaalınması məlumatları belə bu «faktın» qondarma olduğunu və nə məqsəd güddüyünü açıq-aydın sübut edir.

1989-cu ildə keçirilmiş axırıncı Ümumittifaq əhali siyahıyaalınması dövründə (heç şübhə yoxdur ki, bundan əvvəlki dövrlərdə də belə olmuşdur) keçmiş DQMV-də yaşayan əhalinin milli tərkibinin ermənilərin xeyrinə saxtalaşdırıldığı son 30 il ərzində (1959-1989-cu illərdə) burada yaşayan müxtəlif millətlərdən olan əhalinin, ilk növbədə isə azərbaycanlıların və ermənilərin demoqrafik inkişaf vəziyyətini xarakterizə edən göstəricilərdə baş verən dəyişikliklərdən daha aydın görmək olar. **Elə isə gəlin faktlara müraciət edək.** 1959-cu ilin Ümumittifaq əhali siyahıyaalınması məlumatlarına əsasən, Azərbaycan SSR-in keçmiş DQMV-də yaşamış əhalisinin sayı 130,4 min nəfər təşkil etmişdir. Onların 110 min nəfərini (84,3%-i) ermənilər, 18 min nəfərini (13,8%-i) azərbaycanlılar, 1,8 min nəfərini isə (1,3%-i) ruslar təşkil etmişlər.[81] 1970-ci ildə aparılmış əhali siyahıya alınması məlumatlarına əsasən isə keçmiş DQMV-də yaşayan əhalinin sayı 150,3 min nəfər olmuş və onların 121,1 min nəfərini (80,5%) ermənilər, 27,2 min nəfərini (18,1%) azərbaycanlılar, 1,3 min nəfərini (0,87%) isə ruslar təşkil etmişlər.[82] 1979-cu ildə

---

[81] Итоги Всесоюзной переписи. 1959 г. Азербайджанская ССР.

[82] Итоги Всесоюзной переписи населения. 1970 г. том IV. Национальный состав населения СССР. М., 1973. s. 272.

aparılan əhali siyahıyaalınması məlumatlarından isə aydın olur ki, həmin ildə keçmiş DQMV-nin əhalisinin sayı 162,2 min nəfər təşkil etmişdir. Qeyd edilən dövrdə keçmiş DQMV-nin əhalisi arasında ermənilərin sayı 123,1 min nəfər (75,8), azərbaycanlıların sayı 37,3 min nəfər (23 %), rusların sayı isə 1,26 min nəfər (0,77%) təşkil etmişdir.[83] Nəhayət, yuxarıda qeyd edildiyi kimi, 1989-cu ilin əhali siyahıyaalınması məlumatlarına əsasən isə keçmiş DQMV-nin əhalisinin sayı gəlib 188 min nəfərə çatmışdır ki, guya onun da 145 min nəfərini (77,1%) ermənilər, 40,6 min nəfərini (21,5%) azərbaycanlılar və cəmi 1,0 min nəfərini (0,5%) isə ruslar təşkil etmişlər.

Həqiqəti üzə çıxarmaq üçün 1959-1989-cu illəri əhatə edən onilliklər üzrə keçmiş DQMV-də yaşayan azərbaycanlı və erməni əhalisinin artım dinamikasındakı fərqlərə nəzər salmaq kifayətdir. Yuxarıda qeyd etdiyimiz məlumatların müqayisəsindən aydın olur ki, keçmiş DQMV-də yaşayan bütün əhalinin sayı 1959-1970-ci illərdə 19,9 min nəfər və ya 15,2% çoxalmışdırsa, ermənilərin sayı 11,0 min nəfər və ya 51,1% artmışdır. 1970-1979-cu illərdə isə orada yaşayan bütün əhalinin sayı 11,9 min nəfər və ya 7,9% artdığı halda, ermənilərin sayı cəmi 2 min nəfər və ya 1,6%, azərbaycanlıların sayı isə 10,1 min nəfər və ya 37,1% çoxalmışdır ***(Bu dövrdə ermənilərin sayının belə az artması onların bir qisminin respublikanın iri şəhərlərinə və onun hüdudlarından kənara çıxıb getməsi, habelə onların arasında doğum səviyyəsinin xeyli azalması ilə bağlı olmuşdur).*** Ancaq nədənsə, birdən-birə 1979-1989-cu illərdə keçmiş DQMV-də yaşayan əhalinin sayı 25,8 min nəfər və ya 15,9%, o cümlədən ermənilərin sayı 21,9 min nəfər və ya 17,7%, yəni 1970-1979-cu illərdəkindən guya 11 dəfə çox artdığı halda, azərbaycanlıların sayı vur-tut guya cəmi 3,3 min nəfər və ya 8,8% çoxalmış, yəni 1970-1979-cu illərdə olduğuna nisbətən 3 dəfə az artmışdır. Halbuki müqayisə edilən bütün illər ərzində azərbaycanlılar arasında əhalinin həm doğum və həm də təbii artım səviyyəsi ermənilər arasındakı doğum və təbii artım səviyyəsindən xeyli yüksək olmuşdur. Faktlara müraciət edək. Konkret statistik məlumatlara əsasən apardığımız hesablamalara görə, əgər 1959-cu ildə keçmiş DQMV-də yaşayan ermənilərin hər min nəfərinə düşən doğum səviyyəsi 36,2 nəfər olmuşdursa, azərbaycanlılar

---

[83] Численность и состав населения СССР. М., 1985, с.126.

arasında bu göstərici 54,3 nəfər təşkil etmiş və ya ermənilərin doğum səviyyəsindən 1,5 dəfə yüksək olmuşdur. Eyni vəziyyəti sonrakı dövrlər üçün də demək olar. Hətta azərbaycanlıların sayının ermənilərin xeyrinə dəyişdirildiyi 1989-cu ilin əhali siyahıyaalınması dövründə belə keçmiş DQMV-də yaşayan hər min nəfər azərbaycanlıya düşən doğum səviyyəsi erməni əhalisinin hər min nəfərinə düşən doğum səviyyəsindən xeyli yüksək olmuşdur. Daha doğrusu, qeyd edilən dövrdə ermənilərin hər min nəfərinə düşən doğumun sayı 20,7 nəfər təşkil etdiyi halda, azərbaycanlılar üzrə bu göstərici 26,7 nəfər olmuşdur. Bunu müqayisə edilən dövrdə doğulmuş uşaqlar arasında azərbaycanlı və erməni uşaqlarının sayının və xüsusi çəkisinin dəyişilməsi vəziyyətindən aydın görmək olar.

Oxucuların diqqətini burada belə bir cəhətə cəlb etmək istərdik ki, uşaqlar anadan olarkən onların milli mənsubiyyəti ilk statistik uçotda analarının milli mənsubiyyəti üzrə qeydə alınırlar. Həmin uçot məlumatlarına əsasən, keçmiş DQMV-nin ərazisində 1958-ci ildə doğulmuş 4942 nəfər uşağın 3987 nəfəri (67,6 %-i) ermənilər, 880 nəfəri (17,8 %) azərbaycanlılar, 1965-ci ildə doğulmuş 4830 nəfər uşağın 3323 nəfəri (68,8%) ermənilər, 1436 nəfəri (29,7%-i) azərbaycanlılar, 1975-ci ildə doğulan 3774 nəfər uşağın 2510 nəfəri (66,5%-i) ermənilər, 1188 nəfəri (31,5 %-i) azərbaycanlılar, 1987-ci ildə doğulmuş 4370 nəfər uşağın 3109 nəfəri (71,7 %-i) ermənilər, 1213 nəfəri (27,7 %-i) azərbaycanlılar, 1988-ci ildə doğulmuş 4137 nəfər uşağın isə 3004 nəfəri (72,6 %-i) ermənilər, 1085 nəfəri (26,2 %-i) azərbaycanlılar olmuşdur.

Müqayisə edilən dövrdə əhalinin təbii artımında azərbaycanlıların və ermənilərin xüsusi çəkisinin dəyişilməsi vəziyyətinə gəldikdə isə statistik məlumatlardan aşağıdakılar aydın olur. Belə ki, əgər 1958-ci ildə keçmiş DQMV-də 3843 nəfər əhali təbii artımının 3009 nəfəri və ya 78,3 %-i ermənilərin, 768 nəfəri və ya 20,0 %-i azərbaycanlıların payına düşmüşdürsə, 1965-ci ildə 3913 nəfərdən 2615 nəfəri və ya 66,8 %-i ermənilərin, 1254 nəfəri və ya 31,8%-i azərbaycanlıların, 1987-ci ildə 2954 nəfərin 1896 nəfəri və ya 64,2 %-i ermənilərin, 1029 nəfəri və ya 34,8%-i azərbaycanlıların, 1988-ci ildə 2687 nəfərin 1780 nəfəri və ya

66,2%-i ermənilərin, 873 nəfəri və ya 32,5 nəfəri isə azərbaycanlıların payına düşmüşdür.

Bütün bu deyilənlərdən aydın olur ki, 1988-1989-cu illərdə keçmiş DQMV-də yaşayan əhali arasında azərbaycanlıların xüsusi çəkisi ən azı 31-32 faiz təşkil etmişdir. Deməli, 1989-cu ilin əhali siyahıyaalınması dövründə burada yaşayan əhalinin təqribən 58-60 min nəfəri azərbaycanlı olmuşdur. Bəs onda necə olub ki, keçmiş DQMV-nin əhalisi arasında azərbaycanlıların sayı süni surətdə azaldılıb 40,6 min nəfərə, xüsusi çəkisi isə 21,5 faizə enmişdir? Buradan açıq-aşkar görünür ki, 1989-cu ilin yanvarında keçirilmiş əhalinin siyahıyaalınması keçmiş DQMV-də düzgün aparılmamışdır.

Həqiqəti aşkar etmək üçün o zaman bu sətirlərin müəllifi səlahiyyətli orqanlara müraciət edərək, onlardan xahiş etmişdir ki, respublika miqyaslı dövlət komissiyası yaradılmalı və keçmiş DQMV-də əhalinin siyahıya alınması yenidən aparılmalıdır. O zaman biz təklif edirdik ki, yaxşı olar ki, bu komissiyanın tərkibində azərbaycanlılar, ermənilər, ruslar və respublikamızda yaşayan başqa millətlərin və xalqların nümayəndələrindən olan mütəxəssislər, partiya, komsomol və həmkarlar ittifaqları təşkilatlarının nümayəndələri, habelə dövlət orqanlarının işçiləri daxil edilsin. Elə olsun ki, birdəfəlik keçmiş DQMV-də yaşayan əhalinin milli tərkibinə dair həqiqəti aşkara çıxarmaq mümkün olsun. Lakin çox təəssüflər olsun ki, həmin dövrdə respublikamızın hökumət və dövlət orqanlarında bu təklifə əhəmiyyət verənlər tapılmadı.

Ermənilər eyni məsələ barəsində Naxçıvan Muxtar Respublikası haqqında da daim əsassız hay-küy qaldırır və guya həmin diyarın əhalisinin də çoxunun vaxtilə ermənilərdən ibarət olmasını «sübuta yetirmək» istəyirlər. Ancaq tarixi faktlar bunun əksini göstərir və erməni «alimlərinin» fikirlərinin tamamilə əsassız və absurd olduğunu təsdiqləyir.

1897-ci ildə Rusiya imperiyasında keçirilmiş ilk Ümumi Əhali Siyahıya Alınması məlumatlarına əsasən, çar Rusiyasının tərkibinə qatılmış qədim Azərbaycan torpaqları olan İrəvan quberniyasının indiki Naxçıvan Muxtar Respublikasının ərazisinin əksəriyyətini təşkil etmiş Naxçıvan və Şərur-Dərələyəz qə-

zalarında birlikdə götürüldükdə 177,3 min nəfər, o cümlədən Naxçıvan qəzasında 76,5 min nəfər əhali yaşamışdır. Hər iki qəzada birlikdə götürüldükdə yaşamış bütün əhalinin 115,7 min nəfərini və ya 65,3 faizini yerli azərbaycanlılar (o cümlədən Naxçıvan qəzasında 64,1 min nəfər və ya 63,7 faiz, Şərur-Dərələyəz qəzasında 51,6 min nəfər və ya 67,4 faiz, Naxçıvan şəhərində 6,2 min nəfər və ya 70 faiz, Ordubad şəhərində 4,1 min nəfər və ya 88,6 faiz, Baş Noraşendə-0,6 min nəfər və ya 68,6 faiz), 55,4 min nəfərini və ya 31,2 faizini gəlmə ermənilər (o cümlədən Naxçıvan qəzasında 34,7 min nəfər və ya 34,4 faiz, Şərur-Dərələyəz qəzasında 20,7 min nəfər və ya 27,1 faiz, Naxçıvan şəhərində 2,2 min nəfər və ya 25,7 faiz), 4,4 min nəfərini və ya 24,8 faizini kürdlər, 1,1 min nəfərini və ya 0,64 faizini ruslar, 0,7 min nəfərini və ya 0,37 faizini isə başqa xalqların nümayəndələri təşkil etmişlər.[84]

16-cı cədvəlin məlumatlarından göründüyü kimi, Naxçıvan Muxtar Respublikasında son 102 il ərzində əhalinin sayı 2,8 dəfə artaraq 1897-ci ildəki 177,3 min nəfərdən 354,1 min nəfərə, o cümlədən azərbaycanlıların sayı 3,0 dəfə artaraq 115, 7 min nəfərə, bütünlükdə əhali arasında onların xüsusi çəkisi isə 33,8 faiz yüksələrək 65,3 faizdən 91,1 faizə gəlib çatmışdır. Həmin cədvəlin məlumatlarından göründüyü kimi, Azərbaycanda Sovet hakimiyyətinin qurulmasından 6 il sonra, yəni 1926-cı ildə aparılmış Ümumittifaq əhali siyahıyaalınması dövründən tutmuş SSRİ-nin süqutu ərəfəsində (1989-cu ildə) keçirilmiş sonuncu əhali siyahıyaalınması dövrunədək olan 63 il ərzində Naxçıvan Muxtar Respublikasında yaşayan təkcə azərbaycanlılar deyil, həm də burada yaşamış bütün başqa millətlərdən, o cümlədən erməni və rus millətindən olan əhalinin sayı daim artıb çoxalmış, lakin 1989-cu ildən sonra ölkədə baş vermiş bir sıra məlum hadisələrlə əlaqədar olaraq onların sayı tədricən azalmağa başlamış və hazırda Muxtar Respublika əhalisi arasında ciddi yer tutmur.

---

[84] Первая Всеобщая перепись населения Российской империи 1897 г. Эреванская губерния, 1905, с. 2-3; Naxçıvan statistika güzgüsündə. Tarixi-statistik məcmuə. Bakı, 1999, s. 18.

16-cı cədvəl [85]

Naxçıvan Muxtar Respublikası əhalisinin milli tərkibinin dəyişilməsi dinamikası

İllər	Cəmi əhali, min nəfər	O cümlədən							
		azərbaycanlılar		ruslar		ermənilər		başqa millətlər	
		Cəmi min nəfər	Yekuna nisbətən, %-lə	Cəmi min nəfər	Yekuna nisbətən, %-lə	Cəmi min nəfər	Yekuna nisbətən, %-lə	Cəmi min nəfər	Yekuna nisbətən, %-lə
1897[xx]	177,3	115,7	65,3	1,1	0,6	55,4	31,2	5,1	2,9
1926	104,9	88,4	84,3	1,8	1,7	11,3	10,8	3,4	3,2
1939	126,7	105,8	85,6	2,5	2,0	13,3	10,5	2,4	1,9
1959	141,4	127,5	90,2	3,2	2,3	9,5	6,7	1,2	0,8
1970	202,2	189,7	93,8	3,9	1,9	5,4	2,9	2,8	1,4
1979	240,4	230,0	95,7	3,8	1,6	3,4	1,4	3,2	1,3
1989	293,9	281,9	95,9	3,8	1,3	1,9	0,6	6,4	2,2
1999	354,1	350,8	99,1	0,5	0,14	17	---	2,7	0,77

[xx] 1897-ci ilin erməni əhalisinin sayına indiki Ermənistanın bəzi yaşayış məntəqələrində o vaxt yaşamış ermənilər də daxildir.

Ümumiyyətlə götürdükdə, Naxçıvan Muxtar Respublikasında əhalinin milli tərkibində baş vermiş dəyişikliklər müxtəlif obyektiv və subyektiv səbəblərlə bağlı olub, ayrı-ayrı tarixi inkişaf mərhələlərində bir-birindən fərqlənir. Məsələn, 1897-1924-cü illərdə Naxçıvan Muxtar Respublikası ərazisində əhalinin, xüsusilə də azərbaycanlıların sayca azalmasına öncə burada 1905-1906-cı və 1915-1918-ci illərdə erməni-müsəlman qırğınları, bu qanlı hadisələrin nəticəsində əhalinin kütləvi surətdə başqa yerlərə, ələlxüsus İrana və Türkiyəyə köçməsi, misli görünməmiş aclıq nəticəsində əhalinin böyük tələfata uğraması, Naxçıvan ərazisinin bir hissəsinin Azərbaycan torpaqları hesabına vaxtilə yaradılmış Ermənistana qatılması, Sovet hakimiyyətinin qurulduğu ilk illərdə əhalinin bir qisminin keçmiş SSRİ və Azərbaycan SSR-in iri şəhərlərində daimi yaşamağa,

[85] B a x: Naxçıvan statistika güzgüsündə. Tarixi-statistik məcmuə. Bakı, 1999, s. 18, 54.

işləməyə, təhsil almağa getmələri, habelə əhalinin doğum, ölüm və təbii artım göstəricilərinin nisbətən aşağı düşməyə başlaması və sair amillər təsir göstərmişdir.

Naxçıvan Muxtar Respublikasında baş vermiş demoqrafik dəyişikliklərə təsir göstərən ən mühüm amillərdən biri də burada məskunlaşmış əhalinin milli tərkibindən ibarətdir. Müxtəlif milli adət-ənənəyə, nikah, boşanma, təhsil, mədəniyyət, məşğulluq səviyyəsinə malik olub müəyyən ərazidə məskunlaşmış, müxtəlif millətlərdən və etnik qruplardan olan əhalinin doğum səviyyəsi də rəngarəngliyinə görə bir-birindən fərqlənir və əhalinin artımına müxtəlif cür təsir göstərir. Tarixən ən qədim zamanlardan burada məskunlaşmış və həmin ərazinin əsl sahibləri olan azərbaycanlıların sayı 1897-ci ilin əhali siyahıya alınması məlumatlarına əsasən 115,7 min nəfər olduğu halda, yuxarıda qeyd edilən səbəblər üzündən onların sayı xeyli azalaraq, 1926-cı ilin əhali siyahıyaalınması dövründə 88,4 min nəfərə düşmüş, sonrakı illərdə isə daim artaraq 1999-cu ilin əhali siyahıya alınması dövründə 350,8 min nəfərə gəlib çatmışdır. Bütünlükdə əhali arasında azərbaycanlıların xüsusi çəkisi daim artaraq 1897-ci ildəki 65,3 faizdən 1926-cı ildə 84,3 faizə, 1939-cu ildə 85,7 faizə, 1959-cu ildə 90,2 faizə, 1970-ci ildə 95,6 faizə, 1979-cu ildə 95,6 faizə, 1988-ci ildə 95,9 faizə və nəhayət, 1999-cu ildə 99,1 faizə qalxmışdır.[86]

Öyrənilən dövrdə Naxçıvan Muxtar Respublikasında sonradan gəlib məskunlaşmış və azərbaycanlılardan sonra sayca çoxluq təşkil etmiş ermənilərin sayının və xüsusi çəkisinin azalmasına gəldikdə isə bu təbii hal olub, bir tərəfdən, keçmiş SSRİ-də, Azərbaycan SSR və Ermənistan SSR-də əhalinin miqrasiyası prosesində baş verən dəyişikliklər, əhalinin daha mobil hissəsinin Naxçıvandan keçmiş İttifaqın, Azərbaycanın və Ermənistanın sənaye, kənd təsərrüfatı və mədəni cəhətdən inkişaf etmiş iri şəhər və regionlarına getməsi, bir qisminin ömürlərinin sonunda keçmiş ata-baba torpaqlarına qayıtmasının geniş vüsət alması, erməni millətindən olan gənclərin böyük bir hissəsinin

---

[86] Naxçıvan statistika güzgüsündə. Tarixi-statistik məcmuə. Bakı, 1999, s. 54, 44.

SSRİ-nin başqa ərazilərində orduda qulluq etdikdən sonra geri dönməmələri, bəzilərinin xarici ölkələrə, o cümlədən də Rusiyaya və Ermənistana getməyə daha çox meylli olmaları, digər tərəfdən isə ermənilər və başqa millətlər arasında əhalinin doğum səviyyəsinin və təbii artımının azərbaycanlılara nisbətən xeyli aşağı olması, Naxçıvanda yaşayan ermənilərin Ermənistanda azərbaycanlılara qarşı daim mövcud olmuş qeyri-insani münasibətlərdən xoflanmaları, 1948-1953-cü illərdə Ermənistandan 150 min nəfərdən, 1988-ci ildən sonra isə 250 min nəfərdən çox soydaşımızın öz torpaqlarından deportasiya edilmələri və zorla qovulmaları ilə əlaqədar olaraq yaranmış ictimai-siyasi şəraitlə və s. amillərlə izah olunur.

Yuxarıda qeyd edildiyi kimi, 1897-1926-cı illərdə Naxçıvan diyarının əhalisinin sayının 40,8 faiz azalaraq 177,3 min nəfərdən 1926-cı ildə 104,9 min nəfərə, o cümlədən azərbaycanlıların sayının 24,5 faiz azalaraq 115,7 min nəfərdən 88,4 min nəfərə, ermənilərin sayının 79,6 faiz azalaraq 55,4 min nəfərdən 11,3 min nəfərə və s. düşməsi həmin dövrdə baş verən hadisələrlə əlaqədar olaraq onların bir qisminin Rusiyaya, başqa xarici ölkələrə çıxıb getməsi ilə, digər bir qisminin isə Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq tarixi boyu erməni silahlı quldur dəstələrinin həmin ərazidə dinc azərbaycanlı əhaliyə divan tutmaları, yerli azərbaycanlıların sayını süni surətdə azaltmaq üçün onların hər cür vasitələrə əl atması, 1918-ci ilin mart ayında ermənilərin həyata keçirdikləri azərbaycanlıların soyqırımı və s. səbəblərlə bağlı idi.

1926-1939-cu illərdə Muxtar Respublikada əhalinin sayının 13 il ərzində 21,8 min nəfər artması isə başqa amillərlə yanaşı, 1929-cu ildə Zaqafqaziyada Mərkəzi Komitənin qərarı ilə 657 kv.km ərazinin – Şərur qəzasının Qurdqulaq, Xaçın, Horadiz; Naxçıvan qəzası Şahbuz nahiyyəsinin Oğbin, Ağxaç, Almalı, İtqıran, Sultanbəy kəndlərinin; Ordubad qəzasının - Qorçevan kəndinin, habelə Kilid kəndi torpaqlarının bir hissəsinin; 1930-cu ildə isə Əldərə, Lehvaz, Astazur, Nüvədi və s. yaşayış məntəqələrinin Ermənistana verilməsi ilə bağlıdır. Əlbəttə, bütün bu deyilənlər heç şübhəsiz ki, respublikamızın əhalisinin demoqrafik inkişaf göstəricilərinin, onun yaş-cins quruluşunun,

milli tərkibinin və s. dəyişilməsinə öz təsirini göstərməmiş deyildir.

Demoqrafik statistikanın məlumatlarına əsasən, yuxarıda deyilənlərlə yanaşı, son yüzillikdə Azərbaycan həm də beş dəfə kəskin demoqrafik çətinliklərlə üzləşmişdir. Bunlara aşağıdakılar aiddir:

Birincisi – 1905-1907-ci illərə təsadüf edir. Bu dövrdə çar Rusiyasının hakim dairələrindən hərtərəfli yardım alan erməni quldur dəstələri İrəvanda, Zəngəzurda, Göyçədə, Naxçıvanda, Qarabağda, Gəncədə, Bakıda və başqa ərazilərdə dinc azərbaycanlılara və türklərə amansızcasına divan tutmuş, şəhər və kəndlər yandırılmış, uşaqlar, qadınlar, qocalar tarixdə görünməmiş qəddarlıq və vəhşiliklə öldürülmüşlər;

İkincisi, 1913-1920-ci illərdə Birinci dünya müharibəsi, xarici müdaxilə, vətəndaş müharibəsi, erməni-azərbaycanlı davasında azərbaycanlıların soyqırımı və s. nəticəsində Azərbaycanın əhalisi 387 min nəfər və ya 16,6 faiz azalaraq 2339,2 min nəfərdən 1952,2 min nəfərə düşmüşdür.

Azərbaycan xalqına qarşı soyqırımı cinayətləri 1918-ci ildə daha geniş vüsət almışdır. Bu dövrdə soyqırımı daha mütəşəkkil şəkildə və daha böyük qəddarlıqla həyata keçirilmişdir. 1918-ci ilin təkcə mart-aprel aylarında Bakıda, Şamaxıda, Qubada, Muğanda və Lənkəranda erməni-bolşevik silahlı dəstələri 50 min nəfərdən çox azərbaycanlını qətlə yetirmiş, on minlərlə insanı yerindən-yurdundan didərgin salmışlar. Mart ayının üç günü ərzində Bakı şəhərində 30 minə qədər soydaşımız xüsusi amansızlıqla, işgəncə verilərək öldürülmüşdür. Bakı qırğınının ardınca Şamaxı qəzasının 58 kəndi dağılmış, 7 minədək adam, o cümlədən 1653 qadın, 965 uşaq qılıncdan keçirilmiş və güllələnmiş, Quba qəzasının 122 kəndi yerlə-yeksan edilmişdir. Şərur-Dərələyəz, Naxçıvan bölgəsində, Qarabağın dağlıq hissəsində, Zəngəzur qəzasında yüzlərlə azərbaycanlı kəndi yandırılmış, əhaliyə cinsinə və yaşına fərq qoyulmadan qəddarcasına divan tutulmuşdur. İrəvan quberniyasında azərbaycanlılara məxsus 211, Qars vilayətində 92 kənd dağıdılmış, yandırılmış və talan edilmişdir.

Erməni terrorçu dəstələrinin törətdikləri vəhşiliklər, daşnak hakimiyyəti dövründə yeridilən «türksüz Ermənistan» siyasəti nəticəsində İrəvan quberniyasının azərbaycanlı əhalisinin sayı 1916-cı ildə 375 min nəfərdən 1922-ci ildə 70 min nəfərə enmişdir.[87]

Üçüncüsü, 1941-1945-ci illərin Böyük vətən müharibəsi illərindəki respublika əhalisinin sayı ən azı 568,4 min nəfər və ya 17,4 faiz azalaraq 1940-cı ilin əvvəlindəki 3274 min nəfərdən 1945-ci ilin əvvəlində 2705,6 min nəfərə düşmüş və nəticədə əhalinin müharibədən əvvəlki səviyyəsi müharibə qurtardıqdan yalnız 10 il sonra, yəni 1955-ci ildə bərpa olunmuşdur. Həmin ildə Azərbaycan əhalisinin sayı 3277 min nəfərə gəlib çatmışdır. Onların 1585 min nəfəri və ya 48,4 faizi kişilər, 1692 min nəfəri və ya 51,6 faizi isə qadınlar olmuşlar.

Burada bir daha xatırlatmaq yerinə düşər ki, Azərbaycanda əhalinin müharibədən əvvəlki sayının belə çətin bərpası keçmiş SSRİ-nin yalnız 4 müttəfiq respublikası – Rusiya, Ukrayna, Belorusiya və Azərbaycan üçün səciyyəvi olmuşdur. Halbuki qalan bütün respublikalarda, o cümlədən də Ermənistanda əhalinin sayının müharibədən əvvəlki səviyyəsi artıq 1950-1952-ci illərdə bərpa olunmuşdur. Deməli, 1941-1945-ci illərin müharibəsində yuxarıda qeyd edilən üç respublika ilə yanaşı, Azərbaycan da ən çox insan itkisi verən respublikalardan biri olmuşdur.

Dördüncüsü, SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarlarına əsasən, 1948-1953-cü illərdə 150 min nəfərdən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitində, kəskin iqlim dəyişikliyinə, fiziki sar-

---

[87] B a x: Azərbaycan Respublikası Milli Məclisinin 2001-ci il 30 mart tarixli iclasında qəbul edilmiş Bəyanatı. Azərbaycan qəzeti, 31 mart 2001-ci il, № 71 (2784).

sıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Bu işdə erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin cinayətkar siyasəti ilə yanaşı, o dövrdəki Azərbaycan rəhbərliyinin öz xalqının taleyinə zidd mövqeyi, soydaşlarımıza qarşı törədilən cina-yətlərin təşkilində və həyata keçirilməsində iştirakı da az rol oynamamışdır.[88]

Çox təəssüflər olsun ki, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiya olunması faktı ötən 50 il ərzində lazımınca araşdırılmamış, bu hadisələrə hüquqi-siyasi qiymət verilməmişdir.

Azərbaycan Respublikasının eks-prezidenti Heydər Əliyev cənabları böyük hünər, cəsarət və tarixi xidmət göstərərək 18 dekabr 1997-ci il tarixdə 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasının hərtərəfli tədqiq edilməsi, Azərbaycan xalqına qarşı dövlət səviyyəsində həyata keçirilmiş bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədilə **«1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında»** Fərman imzalamış və bu fərmandan irəli gələn vəzifələr müvəffəqiyyətlə həyata keçirilməkdədir.

Yuxarıda deyilənlərdən bir daha aydın olur ki, erməni şovinistlərinin azərbaycanlılara qarşı soyqırımı cinayətləri uzun illərdən bəri cəzasız qaldığına, bu cinayətlərə heç bir siyasi-hüquqi qiymət verilmədiyinə görə Sovet hakimiyyəti dövründə də azərbaycanlılar barəsində düşmənçilik siyasəti davam etdirilmişdir. 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin tərkibinə daxil olan Göyçə, Zəngəzur və digər ərazilər o zamankı Sovet hökuməti rəhbərlərinin əli ilə qondarma Ermənistan dövlətinə qatılmış, Dağlıq Qarabağ ermənilərinə isə əsassız olaraq muxtariyyət verilmişdir. SSRİ rəhbərliyinin əli ilə Ermənistan SSR hakim dairələri 1948-1953-cü illərdə azərbaycanlıla-

---

[88] B a x: «1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında» Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Azərbaycan qəzeti, 19 dekabr 1997-ci il, № 278 (1799).

rın öz tarixi torpaqları olan Qərbi Azərbaycandan (müasir Ermənistan ərazisindən) deportasiya edilməsinə nail olmuşlar.[89]

Beşincisi, 1988-1993-cü illərdə erməni təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizi, yəni Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayon işğal edilmiş, 1 milyon nəfərədək soydaşımız öz vətənlərində qaçqın və köçkün vəziyyətinə düşmüş, 30 min Azərbaycan vətəndaşı həlak olmuş, 200 mindən çox adam yaralanmış və əlil olmuş, minlərlə adam əsir düşüb, girov götürülmüş, itkin düşmüş, 900-dən çox irili-xırdalı yaşayış məntəqəsi, 600-dək məktəb, 250 tibb müəssisəsi, bütün muzeylər, tarix və mədəniyyət abidələri məhv edilmişdir.

Ermənistanın silahlı qüvvələrinin azərbaycanlılara qarşı soyqırımı cinayətlərinin miqyası və necə vəhşiliklə həyata keçirildiyini təsəvvür etmək üçün 1992-ci il fevralın 26-da Dağlıq Qarabağın Xocalı şəhərində baş vermiş faciəni yada salmaq kifayətdir. Bəşər tarixində ən böyük müsibətlərdən olan bu faciə zamanı bütöv bir şəhər erməni qoşunları tərəfindən yerləyeksan edilmiş, 613 nəfər dinc azərbaycanlı, o cümlədən 63 uşaq, 106 qadın vəhşicəsinə öldürülmüş, 487 nəfər şikəst edilmiş, 1275 sakin – qocalar, uşaqlar, qadınlar isə əsir aparılaraq dəhşətli təhqirlərə və həqarətə məruz qalmışlar.[90] Bu dövrdə 250 min nəfərdən artıq azərbaycanlı soydaşlarımız yenidən Ermənistandan zorla qovulmuşlar.

Beləliklə, son iki əsr davam edən deportasiya-köçürmə əməliyyatı nəticəsində 1,5 milyon nəfərdən çox azərbaycanlı soydaşlarımızın Ermənistandan – öz tarixi torpaqlarından zorla köçürülməsi əməliyyatı sona çatdırılmış və indi Ermənistanda bir nəfər də olsun soydaşımız yaşamır.[91] ***Lakin bütün bu demoqrafik çətinliklərə, dəfələrlə ermənilər və onların havadarları tərə-***

---

[89] B a x: Azərbaycan Respublikası Milli Məclisinin adı çəkilən Bəyanatına.

[90] Yenə orada.

[91] Народное хозяйство СССР 1922-1982 гг. Москва, 1982, с.11; Народное хозяйство СССР в 1990 г. Москва, 1991, с.67; Azərbaycanın əhalisi. 2000. Bakı, 2001, s.15. Azərbaycanlılara qarşı yönəldilmiş soyqırım siyasətinin əsl mahiyyətini akademiklər Cəlal Əliyev və Budaq Budaqovun «Турки, азербайджанцы, армяне: «геноцид» исторической правды», Москва, 2002 (52) kitabından daha geniş öyrənə bilərsiniz.

findən törədilmiş soyqırımına baxmayaraq ölkəmizin bütünlükdə əhalisinin sayı, o cümlədən də azərbaycanlıların sayı daim durmadan artıb çoxalmış, keyfiyyət tərkibi və intellektual səviyyəsi inkişaf edib təkmilləşmişdir. Bunu ondan görmək olar ki, SSRİ-nin mövcud olduğu 70 il ərzində (1922-1991-ci illərdə) keçmiş SSRİ əhalisinin sayı 2,1 dəfə artaraq 136,1 milyon nəfərdən 290,0 milyon nəfərə gəlib çatmışdırsa, Azərbaycan əhalisinin sayı daha sürətlə, yəni 3,8 dəfə artaraq 1863 min nəfərdən 7131,9 min nəfərə çatmışdır.

1926-1989-cu illərin əhali siyahıyaalınması məlumatlarına əsasən, SSRİ ərazisində yaşayan rusların sayı 86,6 faiz artaraq, 77,9 milyon nəfərdən 145,5 milyon nəfərə, ukraynalıların sayı 41,6 faiz artaraq, 31,2 milyon nəfərdən 44,2 milyon nəfərə, belorusların sayı 2,1 dəfə artaraq, 4,7 milyon nəfərdən 10,0 milyon nəfərə, gürcülərin sayı 2,2 dəfə artaraq, 1,8 milyon nəfərdən 3,9 milyon nəfərə, **ermənilərin sayı 2,9 dəfə artaraq,** 1,5 milyon nəfərdən 4,6 milyon nəfərə gəlib çatmışdırsa, **azərbaycanlıların sayı daha sürətlə, yəni dörd dəfə artaraq 1,7 milyon nəfərdən 6,8 milyon nəfərə,** o cümlədən Azərbaycan Respublikasında yaşayan azərbaycanlıların sayı 4,1 dəfə artaraq 1438,8 min nəfərdən 5805,0 min nəfərə çatmışdır.

Müqayisə edilən dövrdə keçmiş SSRİ əhalisi tərkibində azərbaycanlıların xüsusi çəkisi 2,1 dəfə artaraq 1,16 faizdən 2,42 faizə qalxmışdır. 1999-cu ildə Müstəqil Azərbaycan Respublikasında aparılmış ilk əhali siyahıyaalınması məlumatlarına əsasən, ölkəmizin əhalisinin sayı 7953,4 min nəfər, o cümlədən azərbaycanlıların sayı 7205,5 min nəfər olmuş[92] və indi də artmaqda davam edir və gələcəkdə də artıb-çoxalacaqdır.

---

[92] Azərbaycan Respublikası əhalisinin siyahıya alınması. 1999, Bakı, 2001, s.151.

1.2. MÜASİR MƏRHƏLƏDƏ DEMOQRAFİK DƏYİŞİKLİKLƏR, İNSAN POTENSİALININ FORMALAŞMASI VƏ İNKİŞAFINA ONLARIN TƏSİRİ

Demoqrafik proseslər insan və əmək potensialının formalaşması və ölkə iqtisadiyyatının iş qüvvəsi ilə təmin edilməsinin təbii əsasını və mənbəyini təşkil edir.

Əhali və iqtisadiyyat vahid ictimai orqanizmin ünsürləri oduğundan forma və məzmunundan asılı olmayaraq, bütün ictimai-iqtisadi formasiyalarda ictimai istehsal prosesinin baş verməsi və onun ahəngdar surətdə davam etməsi üçün fiziki və zehni cəhətdən lazımı dərəcədə inkişaf etmiş müəyyən sayda əhalinin və əmək potensialının mövcud olması zəruri şərtdir. K.Marksın yazdığı kimi, ictimai istehsalın formasından asılı olmayaraq iş qüvvəsi və istehsal vasitələri onun amilləri olaraq qalır.[93] «... iş qüvvəsi, ancaq canlı fərdin qabiliyyəti kimi mövcuddur. Deməli, iş qüvvəsinin istehsalı canlı fərdin mövcud olmasını tələb edir».[94] Canlı insan fərdlərinin mövcud olmasının təbii əsasını isə demoqrafik proseslər (əhalinin doğum, ölüm və təbii artım səviyyəsi) təşkil edir. Əhali insanlardan, demoqrafik hadisələr isə ayrı-ayrı fərdlərə aid olan faktlardan ibarət olduğundan, başqa kütləvi hadisələr kimi demoqrafik hadisələr də əhalinin sayından asılıdır. Əhalinin say və tərkibində baş verən dəyişikliklər demoqrafik proseslərdə, demoqrafik proseslərdə baş verən dəyişikliklər isə əhalinin və onun tərkib hissəsi olan əmək ehtiyatlarının hərəkət dinamikasında öz əskini tapır. Bu isə o deməkdir ki, hər bir ölkədə yaşayan əhali burada mövcud olan əmək ehtiyatlarının formalaşması və müxtəlif fəaliyyət dairələrinin iş qüvvəsi ilə təmin edilməsinin yeganə təbii mənbəyini təşkil edir.

Bu və ya digər cəmiyyətin məhsuldar qüvvələrinin başlıca ünsürü kimi çıxış edən insanlar eyni zamanda istehsal münasibətlərinin subyektini təşkil edir və buna görə də bütünlükdə götürüldükdə məhsuldar qüvvələrin və deməli, həmin cəmiyyə-

---

[93] *K.Marks* və *F.Engels*. Əsərləri, 24-cü cild. M., 1969, s. 43 (rus dilində).
[94] *K.Marks*. Kapital, I cild. B., 1969, s. 176.

tin özünün inkişafına da ciddi təsir göstərirlər. Bu mənada, yuxarıda deyildiyi kimi, bütün bəşəriyyət tarixinin müqəddəm şərti, əlbəttə, canlı insan fərdlərinin mövcud olmasıdır.

Əhalinin və deməli, həm də əmək ehtiyatlarının təbii əsasını təşkil edən demoqrafik proseslər bioloji əsasa malik olsa da, öz təbiətinə görə eyni zamanda sosial hadisə olduğundan həmin proseslərdə baş verən dəyişikliklər məhsuldar qüvvələrin və bütünlükdə ictimai təkrar istehsal prosesinin səviyyəsi ilə müəyyən edilir və öz növbəsində bu proseslərdə baş verən dəyişikliklər də birincilərin inkişafına əks təsir göstərir. Lakin tarixi inkişafın bütün mərhələlərində əhalinin hər cür artımı heç də həmişə cəmiyyət üçün özlüyündə məqsəd olmamış və indi də məqsəd deyildir. O, həmişə cəmiyyətin məqsəd və tələblərinə müvafiq olaraq qiymətləndirilmişdir. İndi bizim başlıca məqsədimiz əsl demokratik prinsiplərə və mütərəqqi bəşəri ideyalara əsaslanan hüquqi, dünyəvi, unitar və sosial yönümlü yeni cəmiyyət qurmaqdan ibarətdir.

Qarşıda qoyulmuş bu müqəddəs vəzifənin həlli cəmiyyət həyatının bütün sahələri arasında müəyyən optimal nisbət yaradılmasını tələb edir. Belə bir nisbət əhali və onun təbii təkrar istehsalının əsasını təşkil edən demoqrafik proseslərlə cəmiyyət həyatının digər sahələri arasında da zəruridir. Çünki demoqrafik proseslər demək olar ki, cəmiyyət həyatının bütün tərəfləri ilə qarşılıqlı surətdə bağlı olduğundan bu əlaqə sosial-iqtisadi hadisələrin demoqrafik proseslərə və öz növbəsində demoqrafik proseslərin də sosial-iqtisadi hadisələrə təsirində təzahür edir. Buna görə də bütünlükdə cəmiyyətin, hər bir ölkənin və onun ayrı-ayrı regionlarının **gələcək inkişaf konsepsiyasını demoqrafik inkişaf konsepsiyasız** təsəvvür etmək qeyri-mümkündür. Çünki elə bir ictimai fəaliyyət dairəsi tapmaq mümkün deyildir ki, orada demoqrafik proseslərin xarakteri, yaxın və uzaq gələcəyə onların dəyişilməsi meyllərinin öyrənilməsinə maraq olmasın. Bu, hər şeydən əvvəl, onunla bağlıdır ki, **əvvəla,** əhali cəmiyyətin başlıca məhsuldar qüvvələrini təşkil etdiyindən sosial-iqtisadi və mədəni inkişaf sahəsində əldə edilməsi mümkün olan hər nə varsa, onların hamısı insanların malik olduğu əmək potensialının bütünlükdə cəmiyyətin və onun hər bir üzvünün mənafeyi

baxımından necə və nə cür reallaşmasından asılıdır; **ikincisi**, insan onun əmək, sosial və siyasi fəallığını müəyyən edən məcmu ictimai münasibətlərin ardıcıl olaraq təkrarlanmasının fəal subyekti kimi çıxış etməklə iqtisadi və sosial inkişafın sağlamlaşdırılması, ictimai istehsalın səmərəliliyinin yüksəldilməsi və elmi-texniki tərəqqinin sürətləndirilməsində aparıcı rol oynayır. Deməli, ayrılıqda götürülmüş hər bir ölkədə intellektual insan potensialının təkrar istehsalı prosesinin baş verməsi üçün, hər şeydən əvvəl, burada müəyyən sayda əhalinin mövcud olması və onun doğulub törəməsi yolu ilə özünü əbədiləşdirməsi tələb olunur. Çünki əhali forma və məzmunundan asılı olmayaraq, bütün cəmiyyətlərdə istehsal prosesinin baş verməsi və onun arasıkəsilmədən təkrarlanması üçün zəruri şərtdir. Bu şərtin reallaşması isə əhalinin təbii təkrar istehsal göstəricilərini özündə əks etdirən demoqrafik proseslər vasitəsilə reallaşır. Başqa sözlə desək, konkret ölkə və ərazi daxilində insan potensialının yaranıb inkişaf etməsinin başlıca mənbəyini həmin ölkə və ərazidə yaşayan əhalinin təbii təkrar istehsalı prosesi (doğum, ölüm və təbii artımı) təşkil edir.

Əhalinin təbii təkrar istehsalı prosesinə bilavasitə təsir edən mühit isə onun meydana gəldiyi şəraitdir. Bu isə, **hər şeydən əvvəl,** özünü müasir cəmiyyətin ilk yaranma rüşeymi, özəyi olan **ailədə büruzə verir.** Ailə müasir cəmiyyətdə əhalinin təkrar istehsalının təşkili formasıdır. Onun əsas funksiyası uşaq doğulması və gənc nəslin tərbiyəsindən ibarətdir. Bu funksiyaların lazımi səviyyədə yerinə yetirilməsi isə ictimai tərəqqinin inkişaf dərəcəsi ilə müəyyən edilən ailənin minimum maddi nemətlərə və onun üzvlərinin müəyyən mədəniyyət və bilik səviyyəsinə malik olmasını tələb edir.

Ailənin əhalinin təkrar istehsalı prosesində və ümumiyyətlə, cəmiyyətin həyatında oynadığı rol misilsiz və əvəzsizdir.

Ailə nisbətən müstəqil olduğundan, o, əhalinin təkrar istehsalı ilə əlaqədar olan adət-ənənələri, məsələn, çoxuşaqlılıq ənənəsini qoruyub saxlamaqla müəyən müstəqilliyə malikdir. Bununla yanaşı, ailədəki uşaqların sayının artırılmasında ərlə arvadın dost və tanışları, ata-anaları, yaxın qohum-qonşuları

da müəyyən rol oynayır. Bu isə o deməkdir ki, ictimai mühit və həyat şəraiti bir-biri ilə qırılmaz surətdə bağlı olub, ailədə əhalinin təkrar istehsalı prosesinə birgə təsir göstərdiyindən onları bir-birindən ayrılıqda təsəvvür etmək, onların arasından müəyyən bir sədd çəkmək olmaz. Buna görə də əhalinin təkrar istehsalı prosesində ailənin rolunun nədən ibarət olduğunu və ona hansı amillərin təsir etdiyini öyrənməyə böyük ehtiyac vardır. Lakin buna baxmayaraq, ölkəmizdə sosial-iqtisadi münasibətlər sistemində ailənin rol və yerinin müəyyən edilməsi, onun yerinə yetirdiyi təsərrüfat-məişət və iqtisadi funksiyalar kompleks şəkildə tədqiq edilib öyrənilməmiş və ya çox az öyrənilmişdir. Məhz buna görə də müasir şəraitdə demoqrafik vəziyyətin xarakterinə və demoqrafik proseslərin məzmununa dərindən təsir edən mühüm hadisə olaraq, ailə demokratik siyasətin mərkəz obyekti kimi ayrılıb dərindən tədqiq edilməli və onun möhkəmləndirilməsi həmin siyasəti müəyyən edən şərtlər içərisində ilk plana çəkilməlidir. Belə ki, əgər əvvəllər ailə sadəcə olaraq cəmiyyət üzvlərinin həyat tərzinin ünsürlərindən biri kimi qeyd edilirdisə, ölkəmizin müasir inkişaf mərhələsində o, insan fəaliyyətinin əmək və məişət formaları ilə yanaşı, yeni həyat tərzinin ən mühüm və başlıca cəhətlərindən biri kimi ön sıraya çəkilməlidir. **Əvvəla**, ona görə ki, doğum, ölüm, təbii artım və s. bu kimi müxtəlif demoqrafik proseslərdəki dəyişikliklər və meyllər bilavasitə ailədə baş verir və sosial amillərin həmin proseslərə təsiri də məhz onun vasitəsilə həyata keçirilir. **İkincisi**, ailə əhalinin təkrar istehsalının özəyi olub, iqtisadi, mədəni, uşaq doğulub tərbiyə edilməsi və s. bu kimi bir sıra funksiyaları yerinə yetirməklə cəmiyyətin sosial-iqtisadi tərəqqisində mühüm rol oynayır. Buna görə də ailəyə qayğının gücləndirilməsinə mühüm dövlət əhəmiyyətli məsələ kimi baxılmalıdır.

Ailə böyüməkdə olan nəsillərin cansağlığının möhkəmləndirilməsində və tərbiyəsində, cəmiyyətin iqtisadi və sosial tərəqqisinin təmin edilməsində, demoqrafik proseslərin yaxşılaşdırılmasında getdikcə daha böyük rol oynayır. İnsanın xarakteri və onun əməyə, ən başlıca mənəvi, ideya və mədəniyyət sərvətlərinə münasibətinin əsasları ailədə formalaşır. Yeni cəmiyyətin qurulması, hər şeydən əvvəl, möhkəm, mənəvi və əxlaqi

cəhətdən sağlam ailələrin mövcud olmasını tələb edir. Bunu əsas götürərək, dövlət ailənin möhkəmləndirilməsinə, sosial funksiyaların yerinə yetirilməsində, uşaqların tərbiyəsində ona yardım göstərməsinə, çoxuşaqlı və gənc ailələrin maddi, mənzil və məişət şəraitinin yaxşılaşdırılmasına yönəldilən kompleks tədbirlər sistemi işləyib hazırlamalı və həyata keçirməlidir. Çünki ailədəki uşaqların sayı təkcə ərlə-arvadın şəxsi arzusu ilə deyil, onları əhatə edən mühitlə, həyat şəraiti ilə də sıx surətdə bağlıdır və ailədə əhalinin təkrar istehsalı prosesinə bu şəraitin hamısı birgə təsir göstərir. Deməli, əhalinin təkrar istehsalı prosesi və onun səviyyəsi ayrı-ayrılıqda götürülmüş hər hansı bir amildən deyil, kompleks amillərdən asılıdır. Bu amillərin təsiri isə ayrı-ayrı ictimai-iqtisadi quruluşlarda və onların müxtəlif inkişaf mərhələlərində mövcud istehsal münasibətlərinin xarakterindən və məhsuldar qüvvələrin inkişaf səviyyəsindən asılı olaraq daim dəyişir. Bu səbəbdən də əhalinin təkrar istehsal səviyyəsi və onun dəyişilməsi meylləri nəinki müxtəlif ölkələrdə, hətta, onun ayrı-ayrı ərazilərində, şəhər və kənd yerlərində sabit qalmayıb daim dəyişir. Bunu Sovet hakimiyyəti illərində (1920-1991-ci illərdə) və müstəqillik dövründə (1991-2003-cü illərdə) respublikamızın əhalisinin hərəkət dinamikasında baş verən dəyişikliklərdən daha aydın görmək olar.

Sovet hakimiyyəti illərində Azərbaycan Respublikasında baş verən sosial-iqtisadi dəyişikliklər əvvəlki dövrlərlə müqayisədə demoqrafik proseslərin inkişafına müsbət təsir göstərmişdir. Belə ki, Azərbaycanda Sovet hakimiyyətinin qurulduğu ilk illərdən başlayaraq, burada əhalinin sayı əvvəlki illərə nisbətən sürətlə artmağa başlamış, onun sosial və sinfi quruluşu dəyişmiş, əhalinin xəstəlik və ölüm səviyyəsi kəskin surətdə azalmış, orta ömür müddəti uzanmağa və əmək fəallığı artmağa, təhsil və mədəni səviyyəsi isə yüksəlməyə başlamışdır. Bununla birlikdə, sosializm cəmiyyəti quruculuğunun ayrı-ayrı dövrlərində bir sıra sosial, iqtisadi, tarixi, demoqrafik və s. xarakterli amillərin təsiri altında əhalinin artım sürəti müxtəlif olmuş və birbirlərindən fərqlənmişdir.

Yuxarıda verilmiş 2-ci cədvəlin məlumatlarından görünür ki, 1920-1991-ci illəri əhatə edən 71 il ərzində respublikamı-

zın əhalisinin sayı 3,7 dəfə artaraq 1952,2 min nəfərdən 7218,5 min nəfərə, o cümlədən şəhər əhalisinin sayı 9,5 dəfə artaraq 405,8 min nəfərdən 3858,3 min nəfərə, kənd əhalisinin sayı isə 2,2 dəfə artaraq 1546,4 min nəfərdən 3360,2 min nəfərə gəlib çatmışdır. Bu müddət ərzində şəhər əhalisinin xüsusi çəkisi artaraq 20,8 faizdən 54 faizə qalxmış, kənd əhalisinin xüsusi çəkisi isə azalaraq, 79,2 faizdən 46 faizə düşmüşdür. 1922-1991-ci illərdə isə keçmiş SSRİ əhalisinin tərkibində Azərbaycan əhalisinin ümumi sayı 5,3 milyon nəfər artaraq 1991-ci ilin əvvəlində (1922-ci ildə SSRİ əhalisinin sayı 136100 min nəfər, Azərbaycan əhalisinin sayı isə 1863 min nəfər təşkil etmişdir)[95] 7218,5 min nəfərə gəlib çatmış və ya 3,9 dəfə çoxalmış, xüsusi səkisi isə 1,37 faizdən 2,48 faizə qalxmışdı. 1922-1940-cı illərdə Azərbaycanın əhalisinin sayı 1,3 milyon nəfər və ya 72,0 faiz, 1940-1959-cu illərdə 424 min nəfər və ya 12,9 faiz, 1959-1991-ci illərdə isə 3,4 milyon nəfər və ya 94,3 faiz çoxalmışdı.

Yuxarıdakı rəqəmlərdən açıq-aydın görünür ki, Sovet hakimiyyəti dövründə Azərbaycan Respublikasında əhalinin ən sürətli artımı özünü ***əvvəlcə,*** 1922-1940-cı illərdə, **sonra,** yəni Böyük Vətən müharibəsindən bu vaxtadək keçən 50 ilə yaxın bir müddət ərzində isə yalnız 50-60-cı illərdə büruzə vermişdi. 50-60-cı illərdə ***Azərbaycan Respublikası malik olduğu demoqrafik inkişaf xüsusiyyətlərinə görə keçmiş İttifaq respublikaları arasında ən qabaqcıl yerlərdən birini tutmuş və hətta 1960-cı ildə əhalinin hər 1000 nəfərinə düşən doğum və təbii artım səviyyəsinə görə onların arasında birinci yerə çıxmışdır.*** Belə ki, əgər 1960-cı ildə keçmiş İttifaqda əhalinin hər 1000 nəfərinə düşən doğum səviyyəsi 24,9 nəfər, təbii artım səviyyəsi isə 17,8 nəfər olmuşdursa, Azərbaycanda bu göstəricilər müvafiq surətdə 42,6 və 36,9 nəfər təşkil etmiş və ya orta İttifaq səviyyəsindən 1,7 və 2,1 dəfə yüksək olmuşdur. Təsadüfi deyildir ki, 1959-1989-cu illərin əhali siyahıyaalınması dövründə keçmiş SSRİ-də əhalinin orta illik artım sürəti 1,24 faiz təşkil etmişdirsə (SSRİ-nin əhalisi 1959-cu ildəki 208,8 milyon nəfərdən 1989-cu ildə 286,7 milyon

---

[95] Население союзных республик. М., «Статистика», 1977, s. 11 və Народное хозяйство СССР в 1990 г. М., 1991, s. 67.

nəfərə gəlib çatmış və ya 37,8 faiz artmışdırsa, Azərbaycanda bu göstəricilər müvafiq surətdə 3698 min nəfər və 7038 min nəfər təşkil etmiş və ya 90,3 faiz artmışdır[96]), Azərbaycanda bu göstərici 3,0 faiz və ya orta İttifaq səviyyəsindən 2,4 dəfə yüksək olmuşdur.

Öyrənilən dövrdə respublikamızda əhalinin orta illik artım sürətinin nisbətən belə yüksək olması, hər şeydən əvvəl, burada müqayisə edilən ərazilərə nisbətən əhalinin doğum səviyyəsinin yüksək, ölüm səviyyəsinin isə aşağı olması ilə əlaqədardar. 17-ci cədvəlin məlumatlarından göründüyü kimi, 1960-1990-cı illərdə respublikamız əhalinin hər 1000 nəfərinə düşən doğum səviyyəsinə görə orta İttifaq səviyyəsindən 1,6-1,7 dəfə, o cümlədən RSFSR-dən 1,8-2,0, Ukrayna və Baltikyanı respublikalarından 1,7-2,6 dəfə yüksəkdə dururdusa, əhalinin hər 1000 nəfərinə düşən ölümün səviyyəsinə görə isə müvafiq olaraq həmin ərazilərdən 5,6-40 faiz, 3,0-51,2 və 25,6-48,0 faiz geridə qalırdı.[97]

Ayrı-ayrı ərazilərdə əhalinin demoqrafik inkişaf göstəricilərində, o cümlədən doğum səviyyəsində mövcud olmuş bu fərqlər də sosializmin yaratdığı şəraitlə əlaqədar deyildir. Çünki keçmiş SSRİ-nin bütün ərazilərində sabit həyat şəraitinin yaradılmasının obyektiv əsası eyni idi. Bu isə o deməkdir ki, əhalinin təbii təkrar istehsal göstəricilərindəki fərqli cəhətləri izah etməkdən ötrü hər bir ərazi və bütün millətlər üçün bərabər əhəmiyyətə malik olan ictimai münasibətlərin ümumi əlaqəsində konkret səbəbləri axtarmaq lazımdır.

Keçmiş SSRİ-nin müxtəlif ərazilərində doğum səviyyəsindəki bu fərqin mövcudluğu hər bir respublikanın tarixi inkişafında keçirdiyi həyat yolunun xüsusiyyətlərindən, məişət ənənəsindən, şəhər və kənd əhalisinin nisbətindən, öz kökləri ilə keçmişə gedən bir sıra spesifik xüsusiyyətləri ilə təzahür edən milli mənsubiyyət, habelə demoqrafik inkişafın xarakterindən irəli gəlirdi.

---

[96] Население СССР. 1987. М., 1988, s. 8, Народное хозяйство СССР в 1989 году. М., 1990. s. 67; Народное хозяйство СССР в 1990 г. М., 1991, s. 67; Народное хозяйство Азербайджанской ССР в 1980 году. Б., 1981, s. 6.

[97] Народное хозяйство СССР в 1995 году. М., 1986, s. 8.

Doğrudur, Sovet hakimiyyəti illərində ayrı-ayrı millətlərin müxtəlif inkişaf səviyyəsini müəyyən edən ictimai-iqtisadi şərait ləğv edilmişdir. Lakin milli adətlərin, ənənələrin yenidən təşkili ictimai-iqtisadi inkişafa nisbətən ləng baş verirdi ki, bu da həmin dövrdə doğum səviyyəsinin ölkənin ayrı-ayrı ərazilərində fərqli olmasına gətirib çıxarırdı. Demoqrafik əhali statistikasının təhlili göstərir ki, öyrənilən dövrdə doğum səviyyəsi təkcə böyük ərazilər üzrə deyil, kiçik ərazilər üzrə də fərqlənir. Bunu 1960-1985-ci illəri əhatə edən 25 il ərzində respublikamızın ayrı-ayrı təbii iqtisadi zonalarında, şəhər və kənd yerlərində əhalinin təbii təkrar istehsal göstəricilərində baş vermiş dəyişikliklərdən daha aydın görmək mümkündür. Qeyd edilən dövrdə bütünlükdə respublikamızda, o cümlədən də onun şəhər və kənd yerlərində əhalinin hər 1000 nəfərinə düşən doğum səviyyəsinin vəziyyətində baş verən dəyişikliklər 18-ci cədvəldə verilmişdir. Həmin cədvəlin məlumatlarından aydın olur ki, 1960-cı ildə respublikamızda doğumun ən yüksək səviyyəsi Şirvan zonasına (54,4 nəfər), ən aşağı səviyyəsi isə Abşeron zonasına (18,9 nəfər) təsadüf etmişdirsə, 1985-ci ildə bu səviyyənin ən yüksək olduğu yer Naxçıvan MSSR-də (31,3 nəfər), ən aşağı olduğu yer isə yenə də Abşeron zonasında (21,5 nəfər) qeydə alınmışdır. Müqayisə edilən dövrdə respublikada doğum səviyyəsinin ən yüksək olduğu ərazi ilə ən aşağı səviyyəsinin olduğu ərazi arasındakı fərq 2,6 dəfə azalaraq 25,5 nəfərdən 9,8 nəfərə, o cümlədən şəhər yerlərində 2,6 dəfə azalaraq 24,0 nəfərdən 9,3 nəfərə, kənd yerlərində isə 2,2 dəfə azalaraq 21,5 nəfərdən 9,8 nəfərə düşmüşdür.

Respublikamızın demoqrafik inkişafında kənd yerləri özünəməxsus yer tutur. Çünki hələlik kənd yerlərində əhalinin doğum səviyyəsi şəhər yerlərindən xeyli yüksək olduğundan burada əhalinin təbii istehsal səviyyəsi və sürəti bütünlükdə əhalinin və əmək ehtiyatlarının sayının dəyişilməsinə əhəmiyyətli təsir göstərir. Əhalinin təkrar istehsalına təsir edən amillərin mürəkkəb mexanizmini açmaq üçün kənddə əhalinin təkrar istehsal göstəricilərinin şəhərlə müqayisəli şəkildə tədqiq edilməsi məqsədəuyğundur. Öyrənilən dövrdə bütünlükdə ölkəmizdə və onun ayrı-ayrı təbii-iqtisadi zonalarında şəhər yerlərinə nisbətən

kənd yerlərində əhalinin doğum səviyyəsi xeyli yüksək olmuş və bütünlükdə əhali arasında olduğu kimi, burada da onun səviyyəsi daim azalmağa doğru meyl etmişdir. Bu proses 1960-cı ildən başlayaraq, Azərbaycanda və onun demək olar ki, bütün təbii-iqtisadi zonalarında sürətlə davam etmişdir. Ancaq burada belə bir hal da diqqəti cəlb edir ki, respublikamızın bəzi təbii-iqtisadi zonalarında əhalinin doğum səviyyəsi kənd yerlərində olduğuna nisbətən xeyli aşağı olmuşdur. Bu hal həmin ərazilərin şəhər və kənd yerlərində yaşayan əhalinin yaş-cins quruluşundakı fərqlərlə, urbanizasiya prosesinin güclənməsi və rayon mərkəzlərinin sosial-iqtisadi inkişaf səviyyəsi ilə bağlı olub, gənc oğlan və qızların həmin mərkəzlərə axıb gəlməsi və burada ailə qurması, oğlanların nisbətən daha çox şəhər yerlərinə getməsi nəticəsində kənd yerlərində gənc qızların ailə qurmasının çətinləşməsi, habelə öyrənilən ərazilərdə kənd və şəhər yerlərində həyat tərzinin nisbətən bir-birinə yaxınlaşması və sairlə izah edilir.

Burada belə bir cəhəti də qeyd etmək lazımdır ki, bütünlükdə MDB məkanında olduğu kimi, respublikamızda da əhalinin daha çox hissəsi tədricən özünün təbii təkrar istehsalı prosesinin nisbətən az geniş təkrar istehsal tipinə keçməyə başlamış və burada tamamilə qanunauyğun hal olaraq, əhalinin doğum səviyyəsi kənd yerlərində şəhər yerlərində olduğuna nisbətən daha sürətlə azalmağa doğru meyl etməkdədir. Bunu ondan görmək olar ki, əgər 1960-2000-ci illəri əhatə edən 40 il ərzində respublikamızda əhalinin hər 1000 nəfərinə düşən ümumi doğum əmsalı 65,3 faiz azalmışdırsa, şəhər yerlərində bu göstərici 64,8 faiz, kənd yerlərində isə 65,3 faiz təşkil etmişdir. Bu göstəricinin daha çox sürətlə azaldığı yer Abşeron, Şəki-Zaqatala və Şirvan zonalarının kənd yerlərinə təsadüf etmişdir. Bütün bunlar istər bütünlükdə respublikada və istərsə də onun ayrı-ayrı təbii-iqtisadi zonalarında şəhər və kənd yerlərində əhalinin doğum səviyyəsinin get-gedə daha çox bir-birinə yaxınlaşmasına və onlar arasında mövcud olan fərqlərin tədricən silinməsinə doğru aparır. 1985-ci ilin məlumatlarına əsasən, şəhər və kənd yerlərində hər 1000 nəfər hesabı ilə əhalinin doğum səviyyəsi arasındakı fərqin ən çox olduğu ərazi Abşeron (5,8 nəfər)

17-ci c

Keçmiş SSRİ-nin müttəfiq respublikalarında əhalinin təbii hərəkət göstəricilərinin dəyişilməsi dinamikası (hər 1000 nəfər əhali hesabı ilə)

	1960-cı ildə			1970-ci ildə			1980-cı ildə			1990-cı ildə		
	doğum	ölüm	təbii artım	doğum	ölüm	təbii artım	doğum	ölüm	təbii artım	doğum	ölüm	
SSRİ	24,9	7,1	17,8	17,4	8,2	9,2	18,3	10,3	6,0	16,8	10,3	
RSFSR	23,2	7,4	15,8	14,6	8,7	5,9	15,9	11,0	4,9	13,4	11,2	
Ukrayna SSR	20,5	6,9	13,6	15,2	8,8	6,4	14,8	11,4	3,4	12,7	12,1	
Belorusiya SSR	24,4	6,6	17,8	16,2	7,6	8,6	16,0	9,9	6,1	13,9	10,7	
Özbəkistan SSR	39,9	6,0	33,8	33,6	5,5	28,1	33,8	7,4	26,4	33,7	6,1	
Qazaxıstan SSR	37,2	6,6	30,6	23,4	6,0	17,4	23,8	8,0	15,8	21,7	7,7	
Gürcüstan SSR	24,7	6,5	18,2	19,2	7,3	11,9	17,7	10,2	17,7	17,0	8,4	
Azərbaycan SSR	42,6	6,7	35,9	29,2	6,7	22,5	25,2	7,0	18,2	26,4	6,2	
Litva SSR	22,5	7,8	14,7	17,6	8,9	8,7	15,1	10,5	4,8	15,3	10,7	
Moldaviya SSR	29,3	6,4	22,9	19,4	7,4	12,0	20,0	10,2	9,8	17,7	9,7	
Latviya SSR	16,7	10,0	6,7	14,5	11,2	3,3	14,0	12,7	1,3	14,1	13,0	
Qırğızıstan SSR	36,9	6,1	30,8	30,5	7,4	23,1	29,6	8,4	21,2	29,3	7,0	
Tacikistan SSR	33,5	5,1	28,4	34,8	6,4	28,4	37,0	8,0	29,0	38,8	6,2	
Ermənistan SSR	40,1	6,8	33,3	22,1	5,1	17,0	22,7	5,5	17,2	24,0	6,6	
Türkmənistan SSR	42,4	6,5	35,9	35,2	6,6	28,6	34,3	8,3	26,0	34,2	7,0	
Estoniya SSR	16,6	10,5	6,1	15,8	11,1	4,7	15,0	12,3	2,7	14,1	12,3	

[98] Население СССР. 1987. М., 1988, s.127-143; Народное хозяйство СССР в 1990 году. М., 1991, s.89.

və Lənkəran-Astara (4,6 nəfər), ən az fərq olduğu ərazi isə Şəki-Zaqatala (2,5 nəfər), Kirovabad-Qazax (indiki Gəncə-Qazax) (1,4 nəfər) və Muğan-Salyan (1,3 nəfər) təbii-iqtisadi zonalarına təsadüf etmişdir.

Burada, yeri gəlmişkən, belə bir cəhəti də qeyd etmək lazımdır ki, əgər 1960-1980-cı illəri əhatə edən 20 il ərzində respublikamızda əhalinin hər 1000 nəfərinə düşən doğum əmsalı ilə yanaşı, doğulanların mütləq sayı da azalmışdırsa, 1980-cı ildən sonra bu göstəricilər xeyli yüksəlmişdir. Belə ki, əgər 1960-1980-cı illərdə respublikamızda əhalinin hər 1000 nəfərinə düşən doğulan uşaqların sayı 17,4 nəfər və ya 37,3 faiz azalaraq 42,6 nəfərdən 26,7 nəfərə, onların mütləq sayı isə 10,8 min nəfər və ya 6,6 faiz azalaraq 165,8 min nəfərdən 155,0 min nəfərə düşmüşdürsə, 1980-1991-ci illərdə birinci göstərici 6,3 faiz artaraq 25,2 nəfərdən 26,8 nəfərə, ikinci göstərici isə 22,9 faiz artaraq 155,0 min nəfərdən 190,3 min nəfərə çatmışdır. 1991-2002-ci illərdə isə müvafiq surətdə bu göstəricilər 48,1 faiz azalaraq 26,6 nəfərdən 13,8 nəfərə və 41,8 faiz azalaraq 190,3 min nəfərdən 110,7 min nəfərə düşmüşdür. Bu göstəricilər şəhər və kənd yerlərində bir-birindən fərqlənmiş və aşağıdakı kimi olmuşdur. Şəhər yerlərində əhalinin hər 1000 nəfərinə düşən doğum səviyyəsi 1960-1980-cı illərdə 33,8 faiz azalaraq 34,9 nəfərdən 23,1 nəfərə, doğulan uşaqların sayı isə 14,5 faiz artaraq 66,0 min nəfərdən 75,6 min nəfərə; 1980-1991-ci illərdə isə müvafiq surətdə 1,7 faiz artaraq 23,1 nəfərdən 23,5 nəfərə və 18,2 faiz artaraq 75,6 min nəfərdən 89,3 min nəfərə gəlib çatmışdırsa, 1991-2002-ci illərdə əksinə, həm əhalinin hər 1000 nəfərinə düşən doğum səviyyəsi və həm də doğulan uşaqların sayı müvafiq surətdə 48,1 faiz azalaraq 23,5 nəfərdən 12,2 nəfərə və 44,4 faiz azalaraq 89,3 min nəfərdən 49,7 min nəfərə düşmüşdür. Kənd yerlərində bu göstəricilər daha qabarıq şəkildə özünü büruzə vermişdir. Belə ki, 1960-1980-cı illərdə burada əhalinin doğum əmsalı 44,2 faiz azalaraq 49,8 nəfərdən 27,5 nəfərə; doğulan uşaqların sayı isə 20,5 faiz azalaraq 99,9 min nəfərdən 79,4 min nəfərə düşmüşdürsə, 1980-1991-ci illərdə birinci göstərici 9,8 faiz artaraq 27,5 nəfərdən 30,2 nəfərə; doğulan uşaqların sayı isə 27,3 faiz artaraq

18-ci

Azərbaycan Respublikasının ayrı-ayrı təbii-iqtisadi zonalarında əhalinin doğum səviyyəsinin dəyişilməsi meylləri (hər 1000 nəfər əhaliyə düşən doğum, nəfərlə)

	1960-cı ildə			1970-ci ildə			1980-ci ildə			1985-ci ildə	
	cəmi	şəhərdə	kənddə	cəmi	şəhərdə	kənddə	cəmi	şəhərdə	kənddə	cəmi	şəhərdə
Naxçıvan MSSR	54,0	47,5	52,5	35,9	28,6	38,3	28,9	28,8	28,9	31,3	28,8
DQMV	33,5	42,6	34,5	29,6	28,4	22,2	25,1	27,8	22,9	24,0	25,4
Abşeron	28,9	28,4	54,1	20,5	20,5	24,7	19,7	19,6	23,0	21,5	21,5
Şəki-Zaqatala	51,9	37,9	56,0	32,4	26,6	34,3	26,8	24,2	26,5	29,1	27,4
Mil-Qarabağ	44,9	44,3	45,2	33,9	31,3	34,8	27,4	30,2	26,1	29,9	30,8
Kirovabad-Qazax	42,2	36,9	45,3	27,7	25,7	39,7	24,0	24,0	25,4	26,7	24,9
Şirvan	54,4	52,4	55,0	34,1	31,1	25,5	27,4	28,1	27,1	29,1	27,9
Muğan-Salyan	48,8	47,7	49,4	35,2	34,3	33,6	00,6	30,2	30,7	30,7	39,9
Quba-Xaçmaz	52,4	47,3	54,6	31,9	29,3	33,2	28,6	29,0	28,4	29,1	27,4
Lənkəran-Astara	53,9	45,7	55,6	41,0	40,7	41,0	31,3	27,0	32,8	30,8	27,4
Azərbaycan SSR	42,6	34,9	49,3	29,2	24,4	34,1	25,2	23,0	27,6	26,7	24,2
Ayrı-ayrı zonalar arasındakı fərq amplitudu	25,5	24,0	21,5	20,5	J20,2	18,8	11,6	10,6	9,9	9,8	9,3

79,4 min nəfərdən 101,0 min nəfərə çatmış, 1991-2002-ci illərdə isə əksinə, həmin göstəricilərin hər ikisi müvafiq surətdə 51,0 faiz azalaraq 30,2 nəfərdən 15,4 nəfərə və 39,6 faiz azalaraq 101,0 min nəfərdən 61,0 min nəfərə düşmüşdür.[99] Lakin bununla belə, 1960-1985-ci illəri əhatə edən 25 il ərzində doğulan bütün uşaqlar arasında 3-cü növbədə doğulanların sayı 34,7 min nəfər və ya 34,8 faiz azalaraq 99,6 min nəfərdən 64,9 min nəfərə, onların xüsusi çəkisi isə 23 faiz azalaraq 60 faizdən 37 faizə düşmüşdür.[100]

Maraqlı haldır ki, respublikamızda doğumun nisbi surətdə azalması prosesi (hər 1000 nəfərə) onun sayının mütləq qaydada azalması prosesindən bir qədər sonra başlamışdır. Əhalinin hər 1000 nəfərinə düşən doğulan uşaqların sayı nisbi surətdə 1960-cı ildən azalmağa başlamışdırsa, doğulan uşaqların mütləq sayının azalması prosesi 1965-ci ildən başlamışdır. Bu proses yuxarıda göstərildiyi kimi, özünü nəinki bütünlükdə respublikamızda, onun şəhər və kənd yerlərində, habelə ayrı-ayrı təbii-iqtisadi zonalarda da büruzə vermişdir.

Qeyd etmək lazımdır ki, respublikanın bəzi zonalarının şəhər və kəndlərində doğum səviyyəsi üzrə mövcud olan fərqə təsir edən amillərdən biri də xırda şəhərlərin və şəhərtipli qəsəbələrin ümumi inkişaf səviyyəsinin iri şəhərlərlə müqayisədə kənd yerlərindən o qədər də fərqlənməməsidir. Bu da öz növbəsində həmin zonaların şəhərlərində doğum səviyyəsinin kəndlərdən az fərqlənməsinə səbəb olmuşdur. Ancaq istər bütünlükdə respublikamızda, istərsə də onun əksər təbii-iqtisadi zonalarında öyrənilən dövrdə doğum səviyyəsi kənd yerlərində şəhər yerlərinə nisbətən yüksək olaraq qalmışdır.

Yuxarıda deyilənlərdən aydın olar ki, ölkəmizin ayrı-ayrı təbii-iqtisadi zonalarında, şəhər və kənd yerlərində mövcud olan doğum əmsalı arasındakı tərəddüdün miqyası get-gedə azalır ki, bu da həmin ərazilərin sosial-iqtisadi, əhalinin yaş-cins quruluşu, məşğulluq səviyyəsi və quruluşu, maddi və mədəni

---

[99] Azərbaycanın əhalisi. 2003. Bakı, 2003, s. 26-27.

[100] Народное хозяйство Азербайджанской ССР в 1984 году. Баку, 1985, s. 15-16.

həyat səviyyəsi və sairdə mövcud olan fərqlərin azalması ilə əlaqədardır.

Fikrimizcə, gələcəkdə dünyanın bütün regionlarının sosial-iqtisadi və mədəni inkişaf səviyyələrinin bir-birinə yaxınlaşması və tarazlaşması prosesində bu ərazilərdə yaşayan əhali arasında, o cümlədən ayrı-ayrı millətlərdən və xalqlardan olan əhali arasındakı doğum səviyyələrindəki fərqlər xeyli azalaraq bir-birinə bənzəyəcəkdir. Bunu müstəqillik illərində MDB ölkələrində əhalinin doğum səviyyələri arasındakı fərqlərin azalması meylindən də aydın görmək olar (19-cu cədvələ bax). 19-cu cədvəlin məlumatlarından görünür ki, 1990-2000-ci illərdə MDB ölkələrinin hamısında ümumi doğum əmsalı və bu göstəricilər üzrə həmin ölkələr arasındakı fərqlər getdikcə azalmışdır. Belə ki, əgər 1990-cı ildə MDB ölkələrində hər 1000 nəfər əhaliyə düşən doğulanların sayının ən yüksək səviyyəsi Tacikistanda (33,8 nəfər), ən aşağı səviyyəsi isə Ukraynada (12,7 nəfər) qeydə alınmış və onlar arasındakı fərq 21,1 nəfər (və ya 3,1 dəfə) təşkil etmişdirsə, 1999-cu ildə bu göstəricilər yenə də həmin respublikalara təsadüf edərək müvafiq qaydada 18,6; 7,8 və 10,8 nəfər (2,4 dəfə) təşkil etmişdir. Başqa sözlə desək, bu dövrdə doğum səviyyəsinin ən yüksək və ən aşağı olduğu respublikalar arasındakı fərq təqribən iki dəfə azalaraq 21,1 nəfərdən 10,8 nəfərə düşmüşdür.

19-cu cədvəl [101]

MDB ölkələrində əhalinin doğum səviyyəsinin dinamikası (hər 1000 nəfər əhali hesabı ilə)

İllər / MDB ölkələri	1990-cı ildə	1996-cı ildə	1997-ci ildə	1980-ci ildə	1999-cu ildə	2000-ci ildə
Azərbaycan	26,3	16,9	17,1	15,9	14,9	14,8
Ermənistan	22,5	12,8	11,6	10,4	9,6	9,0
Belorus	13,9	9,3	8,8	9,1	9,3	9,4
Gürcüstan	17,0	11,1	10,7	9,1	8,9	8,9
Qazaxıstan	21,7	16,3	15,2	14,8	14,2	14,7
Qırğızıstan	29,3	23,2	21,6	21,7	21,4	19,7

[101] Демографическая ситуация и формирование общего рынка труда государств-участников СНГ. М., 2001, s. 12.

Moldova	17,7	12,0	12,5	11,3	10,6	10,2
Rusiya	13,4	8,9	8,6	8,8	8,3	8,7
Tacikistan	38,8	24,5	25,0	20,9	18,6	---
Türkmənistan	34,2	24,2	21,6	20,8	18,5	---
Özbəkistan	33,7	27,3	25,5	23,0	22,3	---
Ukrayna	12,7	9,1	8,7	8,3	7,8	7,8
MDB ölkələrində orta hesabla	16,0	11,9	11,5	11,1	10,6	10,0

Qeyd edilən dövrdə həmin göstəricilər üzrə ayrı-ayrı MDB ölkələri arasındakı fərqlər də əhəmiyyətli dərəcədə azalmış və bu proses indi də davam etməkdədir. Bu göstəricilərdən bir daha məlum olur ki, hazırda doğum səviyyəsinin azalmağa doğru meyl etməsi göstəricisi ümumdünya xarakterli proses olub bütün MDB ölkələrini əhatə edir. Ancaq bu azalmanın sürəti ayrı-ayrı MDB ölkələrində eyni olmayıb, bir-birindən fərqlənir. Məsələn, 90-cı illərdə Ermənistan, Gürcüstan, Tacikistan və Türkmənistanda ümumi doğum əmsalı 2 dəfədən çox, Belorus, Qazaxıstan, Özbəkistan və Rusiyada isə üçdə bir qədər azalmışdır. Doğum səviyyəsinin vəziyyətini dəqiq səciyyələndirən əsas göstərici kimi ümumi doğum əmsalına, yəni fertil yaşında olan (15-49 yaş) dövrdə qadınlar tərəfindən doğulan uşaqların orta sayına gəldikdə isə əksər MDB ölkələrində onun səviyyəsi həddindən çox azalaraq 2,15-dən aşağı düşmüşdür. Bu isə o deməkdir ki, həmin göstərici qeyd edilən dövlətlərdə əhalinin sadə təkrar istehsalını belə təmin etmir. Həmin göstərici 1995-2000-ci illərdə Rusiyada kəskin surətdə azalaraq 1,17-yə düşmüşdür ki, bu da Almaniya, İtaliya, Yunanıstan və İspaniya kimi demoqrafik cəhətdən çətinlik səkən ölkələrin sırasına düşmək deməkdir (hazırda bu ölkələrdə ümumi doğum əmsalı vur-tut 1,1-1,3-dür). Bu cərgədə olan ölkələr sırasında Ukrayna (1,1), Gürcüstan (1,16), Ermənistan (1,19), Belorus (1,31) və Moldova da (1,38) vardır.

Əhalinin sadə təkrar istehsalının təmin edilməsi baxımından demoqrafik çətinlikləri olan ölkələr sırasına Qazaxıstan (1,86) və Azərbaycan (2,0) respublikaları da daxil olmuşdur. Türkmənistan Respublikasında ümumi doğum əmsalının səviyyəsi isə sadə təkrar istehsal normasından cüzi miqdarda

yüksəkdir (2,20). MDB ölkələrindən yalnız Tacikistanda (3,70), Özbəkistanda (2,72) və Qırğızıstanda (2,80) qeyd edilən doğum əmsalı əhalinin geniş təkrar istehsalını təmin etmək imkanına malikdir. Bu isə o deməkdir ki, MDB ölkələrinin əksəriyyəti yeni minilliyə əhalinin sadə təkrar istehsalını təmin etməyən doğum səviyyəsi göstəricisilə daxil olmuşdur. 2002-ci ilin statistik məlumatlarına əsasən, bu ölkələrdə 241 milyon nəfər əhali yaşamışdır ki, bu da bütünlükdə MDB ölkələrinin əhalisinin 85%-ni təşkil etmişdir. MDB ölkələrinin yalnız dördündə – Türkmənistan, Özbəkistan, Tacikistan və Qırğızıstanda doğum səviyyəsi əhalinin geniş təkrar istehsalının təmin edilməsi imkanına malikdir. Bu ölkələrdə yaşayan əhalinin sayı isə qeyd edilən dövrdə 40 milyon nəfər olub, MDB ölkələrində yaşayan bütün əhalinin cəmi 15%-ni təşkil etmişdir.[102]

Aparılan tədqiqatların nəticələri göstərir ki, bu və ya digər ölkələrdə məhsuldar qüvvələrin inkişafı və sosial-iqtisadi şəraitin dəyişməsi əhalinin doğum və təbii artımına müəyyən təsir göstərən (bəzən daha yüksək təsir göstərən) milli adət-ənənələrə nisbətən daha tez dəyişir. Buna görə də təsadüfi deyildir ki, ən yüksək doğum səviyyəsi çoxuşaqlılıq ənənəsini qoruyub saxlayan millət və xalqlardan olan əhali qruplarının bütünlükdə əhalinin arasında xüsusi çəkisi yüksək olan respublikalarda və regionlarda özünü büruzə verir. Çünki müxtəlif sosial hadisələrə, o cümlədən demoqrafik proseslərə, xüsusən də doğum səviyyəsinə təsir göstərən, uzun illərdən bəri qorunub saxlanmış milli xüsusiyyətlər və adət-ənənələrin dəyişməsi məhsuldar qüvvələrin inkişafına nisbətən xeyli ləng baş verir. Eyni zamanda, yerli adətlər və milli ənənələrin əhalinin doğum səviyyəsinə təsiri nə qədər qorunub saxlansa da, bu təsir heç şübhəsiz ki, sosial-iqtisadi tərəqqinin gələcək inkişafı ilə əlaqədar olaraq tədricən zəifləyəcək və çox güman ki, tarixi inkişafın müəyyən mərhələsində tamamilə aradan qalxacaqdır. Təkcə bunu demək kifayətdir ki, əgər Azərbaycan Respublikası 1960-cı ildə əhalinin hər 1000 nəfərinə düşən doğum səviyyəsinə görə orta İttifaq səviyyəsindən 17,7, təbii artım səviyyəsinə görə isə

---

[102] Экономика СНГ. М., 2001, s.13.

18,1 bənd yüksəkdə dururdusa, 1990-cı ildə bu göstəricilər azalaraq müvafiq surətdə 9,6 və 13,7 bəndə düşmüşdür. Daha doğrusu, həmin göstəricilər üzrə SSRİ ilə Azərbaycan SSR arasındakı fərq müvafiq olaraq 1,8 və 1,3 dəfə azalmışdır. Burada onu da qeyd etmək lazımdır ki, respublikamızda əhalinin ümumi doğum və təbii artım səviyyəsinin azalma sürəti 1960-1990-cı illərdə olduğuna nisbətən 1990-2000-ci illərdə daha sürətli olmuşdur. Belə ki, əgər 1960-1990-cı illərdə Azərbaycanda əhalinin hər 1000 nəfərinə düşən doğum səviyyəsi 39,2 faiz (42,6 nəfərdən 25,9 nəfərə düşmüş), təbii artım səviyyəsi isə 44,9 faiz (35,4 nəfərdən 19,8 nəfərə düşmüş) azalmışdırsa, 1990-2002-ci illərdə bu azalmanın sürəti müvafiq qaydada 46,7 faiz (25,9 nəfərdən 13,8 nəfərə düşmüş) və 59,6 faiz (19,8 nəfərdən 8,0 nəfərə düşmüş) təşkil etmiş və ya müqayisə olunan əvvəlki dövrə nisbətən 7,5 və 14,7 faiz bənd sürətlə azalmışdı.[103]

Qeyd edilən dövrdə əhalinin doğum səviyyəsinin azalması respublikamızın bütün təbii-iqtisadi zonalarında, şəhər və kənd yerlərində də baş vermiş, ancaq kənd yerlərində şəhər yerlərinə nisbətən azalma sürəti daha yüksək olmuşdur. Belə ki, əgər 1960-cı ildə respublikanın kənd yerlərində əhalinin hər 1000 nəfərinə düşən doğum səviyyəsi şəhər yerlərindəkinə nisbətən 14,9 bənd yüksək olmuşdursa, 1970-ci ildə bu göstərici 9,8 bənd, 1990-cı ildə 7,0 bənd, 2002-ci ildə isə cəmi 3,2 bənd təşkil etmişdir.[104] Şəhər və kənd yerlərində doğum səviyyəsi üzrə mövcud olan bu fərqlər respublikamızın demək olar ki, bütün təbii-iqtisadi zonalarında qeydə alınmış və bu proses ardıcıl xarakter daşımışdır.

Öyrənilən dövrdə respublikamızda əhalinin doğum səviyyəsinin azalmasına bir sıra kompleks sosial, iqtisadi və demoqrafik xarakterli amillər, o cümlədən şəhər və kənd əhalisinin sayı arasındakı nisbətliyin birincinin xeyrinə dəyişməsi, əhalinin tərkibində fertil yaşlı (15-49 yaşlı) qadınların xüsusi çəkisinin azalması, əhalinin maddi və mədəni həyat səviyyəsinin yüksəlməsi, qadınların ictimai istehsala cəlb edilməsi və onların

---

[103] Azərbaycanın əhalisi 2003. Bakı, 2003, s.27.
[104] Yenə orada.

təhsil səviyyəsinin yüksəlməsi, ailədə uşaqların sayının nizama salınması prosesinin güclənməsi və sair təsir göstərmişdir. Bunu ondan görmək olar ki, ölkəmizdə iri şəhərlərin inkişafı və şəhər tipli qəsəbələrin get-gedə şəhərlərə çevrilməsi nəticəsində son 43 il (1959-2002-ci illər) ərzində şəhər əhalisinin sayı və bütünlükdə ölkə əhalisi arasında onun xüsusi çəkisi müvafiq qaydada 2,3 dəfə artaraq, 1767,3 min nəfərdən 4154,3 min nəfərə və 2,1 bənd artaraq 47,8 faizdən 50,7 faizə qalxmışdır.[105]

Əhalinin doğum səviyyəsindəki ərazi fərqlərinə və onun azalmasına təsir edən amillərdən biri də ictimai istehsalda qadınların məşğulluq və təhsil səviyyəsinin yüksəldilməsidir. Statistik məlumatların təhlilindən aydın olur ki, 1922-1990-cı illəri əhatə edən 68 il ərzində keçmiş SSRİ-nin bütün xalq təsərrüfatı sahələrində məşğul olan fəhlə və qulluqçu qadınların sayı 37,3 dəfə artaraq 1560 min nəfərdən 58135 min nəfərə, fəhlə və qulluqçular arasında onların xüsusi çəkisi isə 2 dəfədən çox artaraq 25 faizdən 51,5 faizə, Azərbaycan SSR-də isə müvafiq qaydada 73,2 dəfə artaraq 17,0 min nəfərdən 1244,5 min nəfərə, xüsusi çəkisi isə 29 bənd artaraq 14 faizdən 43 faizə gəlib çatmışdır.[106]

Müstəqillik illərini əhatə edən son on bir il ərzində (1991-2002-ci illərdə) isə Azərbaycan Respublikasında iqtisadiyyatda məşğul olan qadınların sayı 11,3 faiz artaraq 1597 min nəfərdən 1806,4 min nəfərə, bütünlükdə iqtisadiyyatda məşğul olanlar arasında onların xüsusi çəkisi isə 4,9 bənd artaraq 42,8 faizdən 47,7 faizə gəlib çatmışdır.[107] Bu dövrdə keçmiş İttifaqda və Azərbaycanda iqtisadiyyatda məşğul olan qadınların təhsil səviyyələri arasındakı fərqlərin azalması sahəsində də xeyli dəyişikliklər baş vermişdir. Təkcə bunu demək kifayətdir ki, əgər 1960-1990-cı illərdə keçmiş SSRİ-də xalq təsərrüfatında məşğul olan ali və orta ixtisas təhsilli qadın mütəxəssislərin sayı 4,3 dəfə artaraq 5189 min nəfərdən 22500 min nəfərə, xalq təsərrüfatında məşğul olan bütün ali və orta ixtisas təhsilli mütəxəssislər

---

[105] Azərbaycanın əhalisi. 2003. Bakı, 2003, səh.19.

[106] Народное хозяйство ССР 1922-1982. М., 1982, s. 404; Народное хозяйство СССР в 1990 г. М. 1991, с. 103; Azərbaycanda demoqrafik vəziyyət və sosial inkişaf. Bakı, 1999, s. 27.

[107] Əmək bazarı. Bakı, 2001, s. 147; Əmək bazarı. Bakı, 2003, s. 157.

arasında onların xüsusi çəkisi isə 2 bənd artaraq 59 faizdən 61 faizə qalxmışdırsa, Azərbaycan Respublikasında bu göstəricilər müvafiq surətdə 4,8 dəfə artaraq 66,5 min nəfərdən 318 min nəfərə və 1,2 bənd artaraq 43,8 faizdən 45,0 faizə çatmışdır.[108]

Respublikamızda yaşayan bütünlükdə əhalinin, o cümlədən kişi və qadınların təhsil səviyyələrində baş verən dəyişikliklərə gəldikdə isə bunu ondan görmək olar ki, əgər 1939-cu ildə respublikamızda yaşayan 10 və yuxarı yaşlı əhalinin hər 1000 nəfərinə 113 nəfər ali və orta təhsili (tam və natamam) olanlar düşürdüsə, 1999-cu ildə onların sayı gəlib 796 nəfərə çatmış və ya 7,0 dəfə artmışdırsa, kişilər üzrə bu göstərici 144 nəfərdən 793 nəfərə qalxmış və ya 5,5 dəfə artmış, qadınlar üzrə isə 80 nəfərdən 799 nəfərə gəlib çatmış və ya təqribən 10 dəfə (9,99 dəfə) çoxalmışdır.[109]

Əhalinin doğum və təbii artımına təsir edən ən mühüm amillərdən biri də nikah və boşanma səviyyəsidir. Buna görə də əhalinin artımı, insan və əmək potensialının formalaşması mənbələrindən danışarkən nikah və boşanma məsələsinə toxunmamaq olmaz. Çünki hazırda nikahların azalması və boşanmaların artması mühüm demoqrafik hadisə olub, bütün dünyada olduğu kimi, respublikamızda da əhalinin doğum səviyyəsi və təbii artımına, deməli, həm də əhalinin və əmək potensialının artım sürətinə təsir göstərən ən mühüm amillərdən sayılır və son vaxtlar bütün başqa amillər arasında onların yeri və rolu xeyli artmışdır. Başqa sözlə desək, əhalinin təkrar istehsalına təsir edən ən başlıca amil ölkədə mövcud olan nikah, boşanma və ailə vəziyyətidir. Öz növbəsində nikah, boşanma və ailənin inkişaf parametləri isə əsas demoqrafik göstəricilərlə (əhalinin doğum, ölüm səviyyəsi, yaş və cins tərkibi) ilə yanaşı, ölkənin malik olduğu sosial-iqtisadi şəraitdən, xalqın mövcud adət və ənənələrindən də çox asılıdır.

Tarixi inkişafın müxtəlif dövrlərində bütün dünya ölkələrində olduğu kimi, Azərbaycanda da ailənin vəziyyətinə xal-

---

[108] Народное хозяйство СССР за 70 лет. М., 1987, s. 420; Народное хозяйство СССР в 1990 г. М. 1991, с. 104.

[109] Azərbaycan Respublikası əhalisinin siyahıya alınması. 1999. Bakı, 2001, s. 119-120.

qın həyatında baş verən bir çox mühüm dəyişikliklər təsir göstərmiş və bu proses indi də davam etməkdədir.

Məlum olduğu kimi, hər bir ölkədə ailənin əsasını kişi ilə qadının razılığı əsasında bağlanmış nikah təşkil edir. ***Nikah dedikdə isə – kişi və qadın arasında, onların bir-birinə və uşaqlarına dair hüquq və vəzifələrini müəyyənləşdirən, cəmiyyət tərəfindən qəbul edilən və nizamlanun münasibət forması başa düşülür.***

Tarixi baxımdan çoxəsrlik uzun bir inkişaf yolu keçən nikahın bir forması digəri ilə əvəz olunmuşdur. Bizim ölkəmizdə ***həqiqi nikahda olmaq dedikdə yalnız VADQ orqanlarında kişi və qadın arasında bağlanmış kəbin başa düşülür.*** Çünki ər və arvad arasında hüquqi münasibət onların nikahlarının VADQ orqanlarında qeyd etdirilməsidir. Demoqrafiya elmi üçün nikah, hər şeydən əvvəl, ailənin yaranması və uşaqların doğulması, habelə doğum və ölüm prosesinin ilkin şərti kimi maraq kəsb edir. Eyni zamanda demoqrafiya elmi ənənəvi olaraq nikaha kişi və qadın arasında bağlanmış qanuniləşdirilmiş ittifaq kimi deyil, bu və ya digər ölkədə qəbul edilmiş qaydalara və qanunlara uyğun olaraq bağlanıb-bağlanmamasından asılı olmayaraq daha çox həqiqi və səmərəli nikah münasibətlərinin (ərlə-arvad arasında) mövcud olması kimi baxır. Bununla bərabər, demoqrafiya elmini nikahın hüquqi forması da maraqlandırır. Çünki bu anlayış kəbindənkənar doğum hadisəsi ilə də bağlıdır. Nikah münasibətlərinin, rəsmi qeydiyyatın olub-olmaması, onların hüquqi cəhətdən rəsmiləşdirilməsi bir sosial qurum kimi ailənin vəziyyətinin mühüm indikatorunu təşkil edir.

Axırıncı onilliklər ərizində nikahın rəsmiləşdirilməsindən imtinaların sayının artması və birgə yaşamaq hallarının geniş yayılması (başqa oxşar hallarla yanaşı) ailə böhranının dərinləşməsindən, cəmiyyətdə qeyri-normal əxlaq normalarının yayılmasından və s. neqativ proseslərin və meyllərin çoxalmasından xəbər verir. Bu hadisə və proseslərin səbəblərinin dərindən tədqiq edilib aşkara çıxarılması və aradan qaldırılması yollarının düzgün müəyyənləşdirilməsi onların keçdiyi tarixi yola nəzər salmağı tələb edir.

Məlum olduğu kimi, insan cəmiyyəti tarixində müxtəlif nikah və ailə formaları olmuş və onların bəziləri aradan çıxmış

və yaxud aradan çıxmaq üzrədir. **Dünyanın əksər xalqları hazırda təkkəbinli ailə şəraitində yaşayırlar**. Ancaq təəssüflər olsun ki, hələ də bir çox Afrika və Asiya ölkələrində (başlıca olaraq müsəlman ölkələrində) çoxarvadlılığa, Cənubi Hindistanda (Nepalda isə 70-ci illərin sonlarınadək) yaşayan bir sıra xalqlar və Mərkəzi Amerikadakı qariblər arasında isə hətta çoxərliliyə yol verilir. Ancaq axırıncı onilliklərdə qeyd edilən formada mövcud olan ailələrin sayı get-gedə azalmış və azalmaqda davam edir. Bu azalmanın nə səviyyədə getməsi barədə isə söz demək olduqca çətindir. Çünki qeyd edilən ölkələrdə statistik məlumatlar çox zəif olduğundan həmin ailələrin nə dərəcədə geniş və ya az yayılması barədə dürüst məlumatlar yoxdur. Təqribən 42-48 il bundan əvvəl, yəni 1955-1961-ci illərdə üç Afrika ölkəsində – Zair, (Konqo Demokratik Ölkəsi), Mərkəzi Afrika Respublikası və Qvineyada ailələr arasında aparılan xüsusi tədqiqatlar əsasında müəyyən edilmişdir ki, həqiqətən də bu ölkələrdə çoxarvadlı ailələrin sayı xeyli dərəcədə çoxdur. Qeyd edilən dövrdə bu ölkələrdə soruşulan 734 min ailənin 490 minini və ya 66,8 faizini **çoxarvadlı**; 23,4 faizini – **ikiarvadlı**, 6,8 faizini – **üçarvadlı**, 3 faizini isə **dördarvadlı ailələr təşkil etmişdir**. Tədqiqat aparılan ölkələr arasında islam dininin üstünlük təşkil etdiyi yalnız Qvineyada bütün ailələrin 38,2 faizi **təkarvadlılardan,** 27,0 faizi isə **çoxarvadlılardan ibarətdir** [110] (Bu ölkədə 1995-ci ildə 6.549.336 nəfər adam yaşamışdır. Çoxlu etnik qruplardan ibarət olan həmin əhalinin 39 faizini fulanlar, 23 faizini malinkslər, 11 faizini susular, 6 faizini kissilər, 5 faizini kpellelər təşkil etmişdir. Hakim din – sünnilərdən ibarət islam dinidir. Əhalinin $^2/_3$ hissəsi bu dinə inanır. Burada əhalinin hər 1000 nəfərinə 43,4 nəfər uşaq doğulur və 19,4 nəfər adam ölür; hər 1000 nəfər yeni doğulan uşaqdan isə 136,6 nəfəri ölür. Kişilərin orta ömür müddəti – 42, qadınlarınkı isə 47 yaşdır).[111]

1970-ci ilin əhali siyahıyaalınması məlumatlarına əsasən Afrika qitəsinin cənubunda yerləşən Toqo dövlətində (1995-ci

---

[110] *S.İ.Bruk*. Göstərilən kitabı, s. 32.

[111] Страны мира. Энциклопедический справочник. Смоленск: Россия, 2001, s. 128.

ilin məlumatlarına əsasən bu ölkənin əhalisinin sayı 4.410.370 nəfər olub. 37 Afrika tayfasından ibarət olan həmin əhalinin ən çoxunu – eve, mina, kabne və avropalılar təşkil edirlər (onlar əhalinin 1 faizindən azını təşkil edirlər). Əhalinin 20 faizi xristian, 10 faizi islam, yerdə qalan əksəriyyəti isə yerli verovanı dininə inanır. Əhalinin hər 1000 nəfərinə 46,8 nəfər doğum, 11,1 nəfər ölüm düşür. 1000 nəfər yeni doğulan uşağın 86,5 nəfəri ölür. Orta ömür müddəti kişilər üzrə – 55, qadınlar üzrə isə 59 yaşdır. 50-54 yaşında kişilərin 46 faizinin ən azı iki arvadı olmuşdur.[112]

Qeyd edilən dövrdə tropik Afrika ölkələrində hər 100 evli kişiyə ən azı 150 ərli arvad, kənd yerlərində isə 15 və yuxarı yaşında olan hər nəfər kişiyə iki-üç arvad düşmüşdür. Çoxarvadlı ailələr ərəb ölkələrində də geniş yayılmışdır. Məsələn, 60-cı illərin ortalarında Əlcəzairdə bütün ailələrin 18 faizini çoxarvadlı ailələr təşkil etmişdi.[113]

Məlum olduğu kimi, bütünlükdə dünya miqyasında götürüldükdə kişilər ən tezi 25-29 yaşında, qadınlar isə 20-24 yaşında ailə qururlar. Ancaq onu da qeyd etmək lazımdır ki, ayrı-ayrı ölkələrdə nikah yaşı bir-birindən kəskin surətdə fərqlənir. Nikah yaşının minimum həddi, demək olar ki, dünyanın bütün ölkələrində qanunla nizamlanır.

Hazırda **nikah yaşının ən aşağı həddi kişilər üçün** 14 yaş olub, İrlandiya, İspaniya və bəzi Latın Amerikası ölkələrində, **ən yüksək həddi isə** 21 yaş olub, Mərkəzi və Şimali Avropa ölkələrində və Avstraliyada, ***qadınlar üçünsə müvafiq*** surətdə 12 və 18 yaş olub, İspaniya, İrlandiya, bəzi Latın Amerikası ölkələrində və əksər Avropa ölkələrində müşahidə olunur. Bununla belə, aparılan tədqiqatların nəticələri göstərir ki, bu məsələdə qəbul edilmiş qanunlardan çox xalqın adət-ənənələri daha böyük rol oynayır və heç şübhəsiz ki, nikahla bağlı qanunlar qəbul edilərkən bu adət-ənənələr də mütləq nəzərə alınır. Adət-ənənələr isə mövcud sosial və iqtisadi amillərin təsiri altında

---

[112] Страны мира. Энциклопедический справочник. Смоленск: Россия, 2001, s. 505.

[113] *S.İ.Bruk*. Göstərilən kitabı, s. 32.

formalaşır və çox halda coğrafi şəraitin təsirindən də kənarda qalmır. İsti ölkələrdə soyuq və mülayım ölkələrdəkinə nisbətən cinsi cəhətdən yetkinlik halları daha tez baş verdiyindən birinci qrup ölkələrdə sonrakı ölkələrdə olduğuna nisbətən nikah bağlanma halları daha gənc yaşlarında baş verir. ***Erkən yaşında*** nikah səviyyəsinin xüsusilə yüksək olduğu ölkələrə ***ən iri cənub*** dövlətləri sayılan Hindistan, Pakistan və Banqladeş aiddir. Belə ki, hələ 1931-ci ildə Hindistanda yaşayan 14 yaşınadək olan bütün yeniyetmə qızların 50 faizindən çoxu, 1961-ci ildə 69,5 faizi, 1971-ci ildə isə 11 faizi ərdə olmuşdur. 1961-ci ildə isə 15-19 yaşlı qızların Pakistanda – 52,8 faizi, Banqladeşdə isə 89,5 faizi ərdə olanlar idi.[114]

Nikahkəsdirmənin ən çox təsadüf etdiyi yaş həddi də (yəni bu yaşda onların yarısının nikahda olduğu yaş) ayrı-ayrı ölkələrdə müxtəlifdir. Avropanın əksər ölkələrində bu yaş həddi ***kişilər üçün*** 25 (Bolqarıstandakı 23 yaşdan, Yunanıstandakı 29 yaşadək), ***qadınlar üçün*** isə 22 yaş (Bolqarıstandakı 20 yaşdan Yunanıstandakı 25 yaşadək) ətrafındadır. Erkən nikah, habelə Macarıstan, Çexiya və Slovakiya üçün, ***gecikmiş nikah*** isə İrlandiya və İtaliya üçün də səciyyəvidir.

İnkişaf etməkdə olan ölkələrdə isə nikah yaşı başqa cürdür. Bu, Hindistanda ***kişilər üçün*** – 19, ***qadınlar üçün*** – 17, müvafiq surətdə Türkiyədə – 20 və 18; Pakistanda isə – 22 və 17, Asiya, Afrika və Latın Amerikasının əksər ölkələrində ***qadınlar üçün*** 19-21, ***kişilər üçün*** isə Avropada olduğu kimi, 23-25 yaş olaraq müəyyənləşdirilmişdir. Hazırda respublikamızda qadınlar üçün nikah yaşı 17, kişilər üçün 18 yaş olaraq qanunlaşdırılmışdır.

Bütün dünya ölkələrində olduğu kimi, respublikamızın sosial-iqtisadi inkişafı sahəsində, habelə əhalinin, xüsusilə də qadınların mədəni-texniki, təhsil, peşə-ixtisas və məşğulluq səviyyəsində baş verən mütərəqqi dəyişikliklər nəticəsində burada nikah yaşı get-gedə artmış, nikah bağlayanlar arasında erkən ərə gedənlərin xüsusi çəkisi isə tədricən azalmağa doğru meyl etmişdir. Belə ki, əgər 1940-cı ildə respublikamızda ərə gedən

---

[114] *S.İ.Bruk*. Göstərilən kitabı, s. 32-33.

qadınların 32,2 faizini 18 yaşından aşağı olanlar, 14,7 faizini 18-19 yaşında olanlar, 20,5 faizini 20-24 yaşında olanlar təşkil etmişdilərsə, müvafiq surətdə bu göstəricilər 1965-ci ildə 11,2; 14,5 və 23,6 faiz, 1985-ci ildə isə 9,0; 11,8 və 44,8 faiz olmuşdur. 1999-cu ilin əhali siyahıyaalınması məlumatlarına əsasən həmin ildə respublikamızda nikahda olan bütün qadınların (1746,2 min nəfər) 2347 nəfərini və ya cəmi 0,17 faizini nikah yaşından aşağı, yəni 16 yaşında olanlar, 21595 nəfərini və ya 2,0 faizini 17-19 yaşında olanlar, 158,6 min nəfərini və ya 9,1 faizini isə 20-24 yaşında olanlar təşkil etmişlər.[115]

Əhalinin artım sürətinə və əmək potensialının çoxalmasına mənfi təsir edən amillərdən biri də bütünlükdə əhali arasında heç zaman nikahda olmayanların xüsusi çəkisinin və ya subaylıq dərəcəsinin artmasıdır. Demoqrafik statistikanın məlumatlarına əsasən heç zaman nikahda olmayanların xüsusi çəkisi dünyanın ayrı-ayrı ölkələrində 1-2 faizlə 10-12 faiz, bəzi hallarda isə 15-20 faiz arasında tərəddüd edir. Bu göstərici inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə müxtəlif olub, birbirindən kəskin şəkildə fərqlənir. Belə ki, son vaxtlaradək altı Avropa ölkəsində (İrlandiya, İtaliya, İspaniya, İsveç, Norveç, İsveçrə) 50-54 yaşında olub, heç zaman nikahda olmamış və dul qalmış qadınlar həmin yaşda olan qadınların 10 faizini (İrlandiyada – 21,1, İspaniyada – 13,3, İtaliyada – 13,2 faizini) təşkil etmişdir. Heç vaxt nikahda olmayan kişilərə gəldikdə isə qeyd edilən Avropa ölkələrində onların xüsusi çəkisi göstərilən yaşda olan kişilər arasında qadınların xüsusi çəkisinə nisbətən xeyli aşağı olsa da, İrlandiyada – 18,4; İsveçdə – 12,7; Norveçdə – 12,0 faiz olmuşdur. 1999-cu ilin əhali siyahıya alınması məlumatlarına əsasən Azərbaycan Respublikasında heç zaman nikahda olmayanlar 50-54 yaşlı qadınlar arasında cəmi – 2,5 faiz, kişilər arasında isə 1,2 faiz təşkil etmişdir. Onu da qeyd etməmək olmaz ki, respublikamız gənclər arasında subaylıq səviyyə-

---

[115] B a x: Численность, состав, естественное и механическое движения населения Азербайджанская ССР. Статистический сборник. Баку, 1967, с. 298; Население СССР 1987. Статистический сборник. М., 1988, с.181.; Azərbaycan Respublikası əhalisinin siyahıya alınması, 1999. Bakı, 2001, s. 101.

sinin yüksəkliyinə görə MDB ölkələri arasında əvvəllər olduğu kimi, indi də «qabaqcıl» yerlərdən birini tutmaqda davam edir. 1999-cu ilin əhali siyahıyaalınması məlumatlarına əsasən burada yaşayan 20-24 yaşlı oğlanların 83,2 faizini və ya 260,5 min nəfərini, 25-29 yaşlı oğlanların isə 42,9 faizini və ya 127,8 min nəfərini subaylar təşkil etmişlər. Bu göstərici müvafiq surətdə 20-24 yaşlı qızlar arasında – 51 faiz (170,7 min nəfər), 25-29 yaşlı qızlar arasında isə 23,9 faiz (79,4 min nəfər) təşkil etmişdir. Hazırda qeyd edilən yaş qrupları oğlan və qızların ailə qurması üçün ən optimal yaş həddləri hesab olunur.[116]

Dünya demoqraflarının fikrincə, 15 və yuxarı yaşda olan hər 1000 nəfər qadın və kişiyə düşən nikahda olanların sayının 700 nəfər təşkil etməsi bu sahədə ən yüksək göstərici hesab edilir.[117] Nikah göstəricisi təkcə nikahda olmağın orta yaş həddindən deyil, həm də yuxarı yaşda olanlar arasındakı ölüm səviyyəsindən (bu səviyyəyə daha çox kişilər arasında təsadüf olunur), habelə boşanmışların və dulların ikinci dəfə nikah bağlaya bilməsi müddətinin tezliyindən asılıdır. Son məlumatlara əsasən ***kişilər arasında*** nikahın ***ən yüksək səviyyəsi*** (15 və yuxarı yaşda olan hər 1000 nəfər kişiyə düşən nikahda olanların sayı) Bolqaristanda (750 nəfər), Almaniya və Rumıniyada (700 nəfər), ***qadınlar arasında*** isə Bolqaristanda (737 nəfər) və Rumıniyada (700 nəfər); ***ən aşağı səviyyəsi*** isə müvafiq surətdə ***kişilər arasında*** İrlandiyada (500 nəfər ətrafında), Finlandiya, Albaniya, İspaniya, İsveç və İsveçrədə (575-635 nəfər), ***qadınlar arasında*** isə İrlandiya, Finlandiya və Avstriyada (500-550 nəfər) özünü büruzə verir.

Asiya və Afrikada qeyd edilən göstərici bir qədər başqadır. Həmin göstəricinin ***kişilər arasında*** 700-ü keçdiyi **ölkələrə** Nigeriya, Hindistan, İran və bəzi ərəb dövlətləri; ***qadınlar arasında*** isə bu göstəricinin 800-ü keçdiyi regionlara Qvineya, Nigeriya və Benina (əksər Afrika və Asiya ölkələrində bu göstərici qadınlar üzrə 700-800 nəfər arasında tərəddüd edir) ölkələrində müşahidə edilir.

---

[116] Azərbaycan Respublikası əhalisinin siyahıya alınması. 1999, Bakı, 2001, s. 101.

[117] *S.İ. Bruk*. Göstərilən kitabı, s. 34.

Qeyd etdiyimiz nikah göstəricisinin ***ən aşağı səviyyəsi kişilər arasında*** – Şri-Lankada (499 nəfər), CAR-da (574 nəfər), ***qadınlar arasında*** isə Şri-Lankada (503 nəfər), CAR-da (572 nəfər) və Finlandiyada (587 nəfər) rast gəlinir. ABŞ-da yuxarıda qeyd edilən göstərici ***kişilər arasında*** – 626 nəfər, ***qadınlar arasında*** isə 572 nəfər təşkil edir. Kanadada bu göstərici müvafiq surətdə 649 və 639, Avstriyada – 647 və 642 nəfərdir. Azərbaycan Respublikasında isə 16 və yuxarı yaşda olan hər 1000 nəfər kişinin 669 nəfəri, hər 1000 nəfər qadının isə 632 nəfəri nikahdadır.[118]

Nikah səviyyəsinə ən çox təsir edən amillərdən biri də boşanmalardır. Rəsmi statistika boşanmaların sayı haqqında dəqiq məlumat verməsə də, qəti surətdə demək olar ki, bu göstərici əksər ölkələrdə artmaqdadır.

Azərbaycan Respublikasında əhalinin nikah və boşanma səviyyəsində baş verən dəyişikliklər aşağıdakı 20-ci cədvəlin məlumatları ilə səciyyələnir. Həmin cədvəldən aydın olur ki, tədqiq edilən dövrdə Azərbaycanda nikahların və boşanmaların sayı və əhalinin hər 1000 nəfəri hesabı ilə onların səviyyəsi sabit qalmayıb, daim dəyişmişdir. Belə ki, 1950-ci ilə nisbətən 1960-cı ildə nikahların sayı 1,9 dəfə, o cümlədən şəhər yerində 1,4 dəfə, kənd yerlərində 3,1 dəfə, əhalinin hər 1000 nəfəri hesabı ilə onun səviyyəsi isə müvafiq surətdə 1,5 dəfə artdığı, şəhər yerində isə nisbətən azaldığı, kənd yerində 2,9 dəfə artdığı halda, boşanmaların ümumi sayı 3,3 dəfə, o cümlədən şəhər yerlərində 3,4 dəfə artmış, kənd yerlərində isə 4,6 faiz azalmış, əhalinin hər 1000 nəfəri hesabı ilə onun səviyyəsi müvafiq qaydada 2,3 və 2,1 dəfə artmış, kənd yerlərində isə dəyişmişdir.

1960-cı ildən müstəqillik qazandığımız 1991-ci ilədək olan dövrdə isə nikahların və boşanmaların həm ümumi sayı və həm də əhalinin hər 1000 nəfəri hesabı ilə onların səviyyəsi daim artmış, 1992-ci ildən sonra isə sürətlə azalmışdır. 1960-cı ildən keçən 42 il ərzində isə nikahların və boşanmaların həm mütləq sayının, həm də əhalinin hər 1000 nəfəri hesabına səviyyəsinin ən çox artımı 1985-1991-ci illərə təsadüf etmişdir. Qeyd edilən

---

[118] Azərbaycan Respublikası əhalisinin siyahıya alınması. 1999. Bakı, 2001, s. 109.

Azərbaycan Respublikasında nikahların və boşanmaların dinamikası (nəfərlə)

İllər	Nikahların sayı (nəfərlə)			Boşanmaların sayı			Əhalinin 1000 nəfərinə düşən nikahların sayı			Əhalinin 1000 nəfərin boşanmaların sa		
	cəmi	o cümlədən		cəmi	o cümlədən		cəmi	o cümlədən		cəmi	o cümləd	
		şəhər yerlərində	kənd yerlərində		şəhər yerlərində	kənd yerlərində		şəhər yerlərində	kənd yerlərində		şəhər yerlərində	y
1950	23862	16755	7107	883	839	44	8,2	13,0	4,4	0,3	0,7	
1955	34351	19942	14417	1505	1463	42	10,3	12,5	8,4	0,5	0,9	
1960	46635	24219	22416	2910	2868	42	12,0	12,8	11,2	0,7	1,5	
1965	39077	19881	19196	3537	3552	15	8,5	8,8	8,3	0,8	1,6	
1970	35222	20896	14326	6786	6781	5	6,8	8,0	5,6	1,3	2,6	
1975	41173	26794	20379	7096	6824	272	8,3	9,1	7,5	1,2	2,3	
1980	60134	31940	28194	7116	6723	393	9,8	9,8	9,8	1,2	2,1	
1985	70104	36197	33907	7879	7088	791	10,5	10,2	10,9	1,2	2,0	
1989	71874	35974	35900	11436	10723	713	10,4	9,7	11,3	1,7	2,9	
1990	73119	37748	35371	14040	13210	830	10,4	9,9	10,8	2,0	3,5	
1991	74378	35852	38526	10679	9160	1515	10,4	9,4	11,5	1,5	2,4	
1995	4310	21478	21652	5669	4819	850	5,7	5,4	6,0	0,8	1,2	
2000	39611	19994	19617	5478	4332	1146	5,0	5,0	5,0	0,7	1,1	
2002	41661	22438	19223	5738	4726	1012	5,2	5,5	5,5	0,7	1,2	

[119] Azərbaycan əhalisi 2003. Bakı, 2003, s. 47-48.

dövrdə nikah və boşanma hadisələrinin vəziyyətində yaranmış bu hal bir tərəfdən qanunauyğun hadisə və proseslərlə bağlı olmuşdursa, digər tərəfdən, həmin illərdə keçmiş İttifaqda və Azərbaycanda baş vermiş siyasi hadisələrlə, milli zəmində yaranmış münaqişələrlə və sairlə əlaqədar olaraq «nikahbağlama və boşanma əməliyyatlarında» müxtəlif millətlərdən olan qadın və kişilər arasında nikahbağlama və boşanmalar zamanı yol verilmiş qeyri-qanuni hallar, ev almaq, satmaq və sair məsələlərlə nikahbağlama və boşanma əməliyyatlarında edilən saxtakarlıq və sair hallarla bağlı olmuşdur. Elə bu qeyd edilən sonuncu səbəblər üzündəndir ki, birdən-birə 1985-1991-ci illərdə, xüsusilə də 1989-1991-ci illərdə Azərbaycanda nikahbağlamaların və boşanmaların həm ümumi sayı, həm də əhalinin hər 1000 nəfəri hesabı ilə səviyyəsi əhəmiyyətli dərəcədə yüksələrək nikahlarda olanların sayı 1991-ci ildə 74,4 minə, boşanmaların sayı isə 10,7 minə gəlib çatmışdır. 1991-ci ildən keçən 10 il ərzində isə həm nikahların və boşanmaların sayı, həm də əhalinin hər 1000 nəfəri hesabı ilə onların səviyyəsi yenidən sürətlə azalmağa başlamışdır. 20-ci cədvəlin məlumatlarından göründüyü kimi, əgər 1991-ci ildə respublika üzrə nikahların sayı 74,4 min təşkil etmişdirsə, bu göstərici 43,9 faiz azalaraq 2002-ci ildə 41,7 minə, boşanmaların sayı isə müvafiq surətdə 46,7 faiz azalaraq 10,7 mindən 5,7 minə düşmüşdür.

Respublikamızda yaranmış demoqrafik vəziyyətə mənfi təsir edən amillərdən biri də Azərbaycanın keçmiş SSRİ-nin tərkibində olduğu axırıncı 30 il ərzində (1960-1990-cı illərdə) iş yerlərinin çatışmaması və bəzi başqa obyektiv və subyektiv səbəblər üzündən buradan SSRİ-nin iri sənaye şəhərlərinə, tikinti obyektlərinə, kənd təsərrüfatı rayonlarına və təhsil mərkəzlərinə hər il orta hesabla 30-40 min nəfər gənc oğlanların işləməyə, təhsil almağa və daimi yaşamağa köçüb getmələri olmuşdur. Qeyd edilən dövrdə, xüsusilə də 1980-cı ildən sonra keçmiş SSRİ hökumətinin təkidi ilə İttifaqın Arxangelsk, Qeyri-qaratorpaq, Çernobıl, Tümen vilayətləri, BAM zonası regionlarına və başqa ərazilərə minlərlə ali və orta ixtisas təhsilli mütəxəssis və ixtisaslı fəhlə kadrları mütəşəkkil şəkildə aparılmışdı. Təkcə 80-cı illərin ortalarında Azərbaycandan Rusiyanın Amur

vilayətinə 600-dən çox ailə köçürülmüş və hər il orta hesabla yuxarıda deyilən vilayətlərə buradan 1500 nəfərdən çox yüksək ixtisaslı mütəxəssis göndərilmişdir ki, onların da 80-90 faizindən çoxunu azərbaycanlı oğlanlar təşkil etmişlər.

Bütün bunlar istər-istəməz Azərbaycan əhalisinin demoqrafik quruluşunun pozulmasına, daha doğrusu, əhalinin yaş-cins tərkibində, ilk növbədə isə ailə qurmaq yaşında olan gənc oğlan və qızların say nisbətində qeyri-normal vəziyyətin yaranmasına, bu isə öz növbəsində onların ailə qurması işinin çətinləşməsinə səbəb olmuşdu. 1999-cu ildə respublikamızda aparılan əhalinin siyahıyaalınması məlumatlarına əsasən, həmin il Azərbaycanda heç zaman nikahda olmamış subayların sayı 25-29 yaşında olan qadınlar arasında 79,4 min nəfəri (23,7 faizi), 30-34 yaşında olan qadınlar arasında 47,9 min nəfəri (23,9 faizi), 35-39 yaşında olan qadınlar arasında 33,7 min nəfəri (13,3 faizi), 40 və ya yuxarı yaşında olan qadınlar arasında isə 33,9 min nəfəri (9,3 faizi) ötüb keçmişdir. Onu da qeyd etmək lazımdır ki, 1989-cu ilin əhalinin siyahıyaalınması məlumatlarına əsasən o vaxt respublikamızda 30-34 yaşından yuxarı olan qadınlar arasında heç zaman nikahda olmamış qadınların sayı 66,1 min nəfər, 1999-cu ildə isə 67,6 min nəfər təşkil etmişdir. Bu isə o deməkdir ki, respublikamızda on minlərlə qadın həmişəlik ana olmaq səadətindən məhrum olmaq, evdə qalıb qarımaq təhlükəsi qarşısında qalmışdır. [120]

Respublikamızda gənc qızların evdə qalıb qarımasına təsir edən mühüm amillərdən biri də azərbaycanlı oğlanların hələ 70-80-ci illərdən başlamış və son onillikdə artmaqda davam edən miqrasiyası prosesinin daha da sürətlənməsi ilə bağlıdır. Statistik materialların təhlilindən aydın olur ki, son vaxtlaradək miqrasiya prosesinin tənzimlənməməsi, keçid dövründə yaranmış sosial-iqtisadi çətinliklər, MDB ölkələri ilə sərhədlərin şəffaf olması və sair nəticəsində respublikamızda əhali miqrasiyası saldosu (qalığı) 1990-2000-ci illərdə mənfi 53,6 — mənfi 5,6 ara-

---

[120] *Ş.M.Muradov.* «Azərbaycanda insan potensialının inkişafı və onun nizamlanması istiqamətləri». Azərbaycan Elmlər Akademiyasının «Xəbərləri», İqtisadiyyat seriyası, Bakı, 2001, № 1-2, s. 20-21.

sında tərəddüd etmişdir. Əsasən reproduktiv yaşda, daha doğrusu, 20-40 yaşda olan kişilərin miqrasiyası nəticəsində ölkə əhalisinin yaş- cins tərkibi də xeyli pozulmuşdur. Belə ki, 1999-cu ildə aparılan əhali siyahıyaalınması məlumatlarına əsasən respublikamızda hər 1000 nəfər kişiyə düşən qadınların sayı 1026,7 nəfər olduğu halda, 15-19 yaşlar üzrə 968,3 nəfər, 20-24 yaşlar üzrə 922,6 nəfər, 25-29 yaşlar üzrə 960,4 nəfər, 30-34 yaşlar üzrə 1126,3 nəfər, 35-39 yaşlar üzrə 1084,3 nəfər, 40-44 yaşlılar üzrə 1095,4 nəfər və s. təşkil etmişdir. Bu dövrdə respublika əhalisi arasında qadınların xüsusi çəkisi 51,0 faiz olduğu halda, 15-19 yaşlılar arasında 49,0; 20-24 yaşlılar arasında 48,0; 25-29 yaşlılar arasında 49,0, 30-34 yaşlılar arsında isə 52,0 faiz təşkil etmişdir.[121]

Yuxarıda deyilənlərdən aydın olur ki, öyrənilən dövrdə respublikamızda doğum səviyyəsinin azalmasında sosial-iqtisadi amillər və əhalinin yaş-cins quruluşunda baş verən dəyişikliklər həlledici rol oynamışdır. Ancaq burada kəbinin möhkəmlik dərəcəsinin təsirini də nəzərə almamaq olmaz. Çünki faktlar sübut edir ki, boşanma halları və ailənin dağılması təhlükəsi ən çox azuşaqlı və uşaqsız ailələrdə təsadüf olunur. Bu da bir həqiqətdir ki, boşanma hallarının artması ər-arvadda, ilk növbədə isə qadınlarda uşaq doğulmasına olan tələbin yerinə yetirilməsinə mane olur. Boşanma hallarının baş verə biləcəyi təhlükəsi qadınlarda uşaqlarla tək qalmaq qorxusu yaratmaqla onları istədikləri sayda uşaq doğmaq arzusundan çəkindirir. MDB məkanında olan ölkələrdə bu hal özünü ən çox RSFSR, Ukrayna və Belorus respublikalarında yaşayan qadınlar arasında büruzə verir. Təsadüfi deyildir ki, MDB-də doğum səviyyəsinin ən aşağı, boşanma səviyyəsinin isə ən yüksək olduğu ərazilər də məhz həmin respublikalara təsadüf edir. Bu səbəbdəndir ki, əhalinin hər 1000 nəfərinə düşən doğum səviyyəsinin RSFSR, Ukrayna və Belorusdakına nisbətən 1,3 – 2,4 dəfə yüksək olduğu Orta Asiya ölkələrində və Azərbaycanda boşanma əmsalı həmin ölkələrdəkindən təqribən 2,5 – 3,3 dəfə aşağıdır. Bunu ondan görmək olar ki, əgər son illərdə hər 100

---

[121] Ş.M.Mudarovun yuxarıda adı çəkilən məqaləsi, s. 22.

nikaha Orta Asiya respublikaları və Azərbaycanda cəmi 11-17 boşanma halı qeydə alınmışdırsa, RSFSR-də 30 və Ukraynada 27 belə hal olmuşdur. MDB-də doğum səviyyəsinin ən aşağı olduğu ərazilərdən sayılan Rusiya və Ukrayna boşananların və ayrılanların xüsusi çəkisinin yüksəkliyinə görə MDB ölkələri arasında ilk yerləri tutur. Burada boşananların və ayrılanların xüsusi çəkisi yaşa dolmuş qadınlar arasında 8-9, kişilər arasında isə 5-6 faizdən yuxarı qalxır. Bu göstərici, bir qayda olaraq, şəhər yerlərində kənd yerlərinə nisbətən, iri şəhərlərdə isə xırda şəhərlərə nisbətən yüksəkdir.

Sosioloji tədqiqatların nəticələrindən aydın olur ki, boşanma halları, bir qayda olaraq, əsasən ailə qurulduqdan 9-10 il müddət keçdikdən sonra baş verir.Nəzərə alsaq ki, bütün bunların təqribən 37 faizi «xasiyyətlərinin uyğun gəlməməsini» bəhanə edib boşananlardan, 2/3 hissəsindən çoxu isə ailə qurulduqdan cəmi beş il keçdikdən sonra boşanırlar və bu cür boşananların sayı sürətlə artmaqda davam edir. Bu halda əhalinin artım sürətinin azalmasına həmin prosesin necə mənfi təsir göstərdiyini sübut etməyə ehtiyac qalmır.

Tədqiqatlara əsasən müəyyən edilmişdir ki, ayrılan kişilərin təqribən yarıya qədəri, qadınların isə cəmi 40 faizə qədəri yenidən ailə qura bilir. Hazırda ölkəmizdə hər il orta hesabla 4-5 minə yaxın boşanma halı qeydə alınır ki, bunların da təqribən 80 faizə qədəri şəhər yerlərinin payına düşür. 1999-cu ilin əhali siyahıyaalınması məlumatlarına əsasən müəyyən edilmişdir ki, ölkəmizdə qadınlar arasında boşanma halları kişilərə nisbətən 3,2 dəfə azdır.[122]

Burada belə bir cəhəti də qeyd etmək lazımdır ki, hazırda respublikamız əhalinin hər 1000 nəfərinə düşən boşanma hallarının sayına görə MDB ölkələrinin orta səviyyəsindən təqribən 3 dəfə aşağıdır. İndi respublikamız qadınlar arasında boşanma və ayrılma hallarının sayına görə MDB ölkələri arasında sonuncu, kişilər arasında olan boşanma və ayrılma hallarının sayına görə isə axırıncı yerlərdən birini tutur. Statistik məlumat-

---

[122] Azərbaycan Respublikası əhalisinin siyahıya alınması. 1999. Bakı, 1999, s. 109.

lardan aydın olur ki, boşanma və ayrılma halları nəinki ayrı-ayrı MDB ölkələrində, onun şəhər və kənd yerləri, habelə ayrı-ayrı millətlər üzrə də fərqlənir. Aparılan tədqiqatlara əsasən MDB-də əhalinin 1000 nəfərinə düşən boşanma və ayrılma hallarının ən yüksək səviyyəsi özünü ruslar, ukraynalılar, beloruslar, ən aşağı səviyyəsi isə türkmənlər, azərbaycanlılar, özbəklər, qırğızlar və taciklər arasında büruzə verir.

Ölkəmizdə boşanmaların vəziyyəti bir çox səbəblərlə bağlı olub, ailənin quruluşu və funksiyalarında baş verən dəyişikliklər, xüsusən qadınların məşğulluq səviyyəsinin artması və iqtisadi cəhətdən müstəqil olması nəticəsində ailədaxili münasibətlərin təkmilləşdirilməsinə, tələbatın yüksəldilməsinə və evlənmənin başlıca olaraq məhəbbətə, qarşılıqlı meylə və marağa əsaslanması ilə əlaqədardır. Bu səbəbdən hazırda uğursuz evlənmələrdə boşanma halları əsas etibarilə qadınların təşəbbüsü ilə qaldırılır. Halbuki uzun illər boyu boşanma məsələsində qadınların iradəsi maddi mülahizələrə tabe edilmişdir. Çünki ərə getmək onların mövcud olması üçün yeganə yaşayış vasitəsi idi. Arvadın maddi cəhətdən ərindən asılılığı nikah ənənəsi ilə bağlı idi. Qeyd edilən dövrdə ailə məhəbbətə əsaslanmaqdan çox dini qanunlara, boşanmanın məhdudlaşdırılmasına, hətta onun qadağan edilməsinə və qadının hüquqsuz olmasına əsaslanırdı. Tək qadınlar ərdə olan qadınlar qədər cəmiyyətdə hörmət və şərəfə malik deyildilər. Cəmiyyətdə qadının müvəffəqiyyəti əsas etibarilə onun ərdə olmasından, daha doğrusu, ərinin nüfuzundan asılı idi. Təsadüfi deyildir ki, qadınların bir çoxu tək yaşamaqdansa, uğursuz ərdə olmağı daha üstün tuturdular. Buna görə də əvvəllər uzun illər boyu boşanma məsələsi başlıca olaraq kişilərin təşəbbüsü ilə qaldırılırdı.

Müasir dövrdə qadınlar əksər hallarda özlərini heç nəyin naminə, hətta ailədə uşaq olduqda belə uğursuz məhəbbətə qurban vermək istəmirlər. İndi sosial-iqtisadi həyatın bütün sahələrində qadınlar hüquqca kişilərlə bərabər olub, yüksək təhsil və məşğulluq səviyyəsinə malikdirlər. Onlar ictimai istehsalda fəal iştirak edərək bərabər əmək üçün kişilərlə bərabər haqq alır və iqtisadi cəhətdən müstəqildirlər. Faktlar göstərir ki, hazırda işləyən və müstəqil əmək haqqına malik olan kişi və qadınlar

himayədə yaşayanlara nisbətən boşanmaya daha çox təşəbbüs göstərirlər ki, bu da kişilər üzrə ən çox fəhlələr arasında, qadınlar üzrə isə qulluqçular arasında özünü büruzə verir. Bu da bir həqiqətdir ki, boşananların əksəriyyəti uşaqlı ailələrin payına düşür. Nəticədə hər il ölkəmizdə minlərlə uşaq ata və yaxud ana nəvazişindən məhrum olur. Buna görə də boşanmanın azaldılması ilə mübarizə ciddi sosial vəzifələrdən biri kimi öz həllini gözləyir. Ancaq heç də həmişə boşanma hallarının mövcud olmasına və bir çox hallarda onun artmasına cəmiyyətin mənəvi bünövrəsinin və nikahın «möhkəmliyinin» zəifləməsi kimi də baxmaq olmaz. Çünki hər bir cəmiyyətdə müəyyən optimal boşanma səviyyəsinin olması zəruridir. Boşanmanın minimum səviyyəyə endirilməsinə yalnız onun qanunla qadağan edildiyi şəraitdə nail olmaq mümkündür. Belə olduqda isə uğursuz ailələrdə ərlə arvadın və uşaqların birgə yaşaması çox ağır nəticələrə gətirib çıxara bilər. Hələ vaxtilə F.Engels yazırdı ki, madam ki, hiss itirilmişdir, boşanma hər tərəf üçün və həm də cəmiyyət üçün xeyirxah işdir.[123]

Vaxtilə ölkəmizdə boşanmanın tam azad olması mühüm tələb kimi meydana çıxmış və hazırda o, azaddır. Bu məsələdən bəhs edərək V.İ.Lenin yazmışdır ki: «... dərhal tam boşanma azadlığını tələb etməyən bir adam demokrat ola bilməz, çünki bir azadlıq olmaması məzlum cinsi, qadını həddən artıq sıxışdırmaqdadır, - əlbəttə, əsla çətinlik çəkmədən başa düşmək olar ki, ərdən ayrılmaq azadlığını qəbul etmək, bütün arvadları ayrılmağa çağırmaq deyildir».[124] Bu isə o deməkdir ki, hazırda heç də söhbət boşanmanı tamamilə aradan qaldırmaqdan və onu minimum səviyyəyə endirməkdən deyil, onun sürətlə çoxalmasının qarşısının alınmasından, ailənin bir sosial təsisat kimi möhkəmləndirilməsindən getməlidir. Burada qəti resept vermək də çətindir.

Hazırda əsas vəzifə nikahın «möhkəmliyini» müəyyən edən meyarı və boşanmaya təsir edən başlıca amilləri, bu amilləri doğuran səbəbləri və onların boşanma səviyyəsinə təsiri me-

---

[123] *K.Marks, F.Engels.* Əsərləri, I cild, s. 84-85.
[124] *V.İ.Lenin.* Əsərləri, 23-cü cild, s. 59.

xanizmini aşkara çıxarmaqdan ibarətdir. Əlbəttə, bir çox görkəmli dünya demoqraflarının da haqlı olaraq düşündüyü kimi, bu problemin həll edilməsi çox çətin və geniş tədqiqatlar aparılmasını tələb edir. Çünki burada bütün qarşılıqlı ictimai münasibətlərin məcmusu nəzərə alınmalıdır. Halbuki bəzi müəlliflər bu məsələnin həllinə birtərəfli yanaşaraq boşanmanın baş verməsini əsas etibarilə ər-arvadın xasiyyətlərinin uyğun gəlməməsi, evlənənlərin ər-arvad, ana və ata rolunu yerinə yetirməyə hazır olmamaları, xəyanət, hissiyyatın itirilməsi, sərxoşluq, düşünmədən, götür-qoy etmədən tələsik evlənmək kimi səbəblərlə izah edərək, onun sosial, iqtisadi, tibbi, psixoloji, etnik və sair bu kimi əsl səbəblərindən yan keçirirlər. Buna görə də hazırda ölkə demoqrafları, sosioloqları, iqtisadçı və sair elm sahələrində məşğul olan digər alimlərimizin diqqəti məhz həmin amillərin kompleks şəkildə tədqiq edilib öyrənilməsinə, milli və **regional xüsusiyyətlər** nəzərə alınmaqla boşanma və ayrılma hallarının sürətlənməsinin qarşısının alınması üçün zəruri olan tədbirlər sisteminin işlənib hazırlanması və həyata keçirilməsinə yönəldilməlidir.

Bununla yanaşı, gələcəkdə nəinki hər bir ailədə, həm də orta və ali məktəblərdə gənclərin ailə qurmağa hazırlanması, onlarda bunun üçün mənəvi-psixoloji hazırlıq yaradılması, ailə, ər-arvadlıq, ata-analıq, qardaş-bacılıq funksiyalarının yerinə yetirilməsinin nə qədər şərəfli və müqəddəs olduğunu, boşanmanın və bunun nəticəsində atasız və yaxud da anasız qalmağın, habelə tək-uşaqlılığın, qardaş-bacısızlığın mənfi cəhətləri, cəmiyyətdə ailənin və uşaqların nə kimi böyük rola malik olması geniş təbliğ edilib gənclərin şüuruna aşılanması da bu tədbirlər sisteminə daxil edilməli və mühüm bir vəzifə kimi qarşıda durmalıdır. Hələ vaxtilə F.Engels yazmışdır ki: «Ata, uşaq, qardaş, bacı adları yalnız bir növ şərəfli adlar deyildir, bunlar tamamilə müəyyən və çox ciddi qarşılıqlı vəzifələr doğurur, bu vəzifələrin məcmusu da ictimai quruluşun mühüm hissəsini təşkil edir».[125]

---

[125] *F.Engels.* Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi. Bakı, 1971, s. 29.

Şübhəsiz ki, nikahkəsdirmə hallarının çoxalması və boşanmanın azalması gələcəkdə əhalinin doğum səviyyəsi və təbii artımının və deməli, həm də insan və əmək potensialının azalmasının sürətlənməsinin qarşısını müəyyən dərəcədə ala bilər və onların formalaşmasına müsbət təsir göstərər.

Əhalinin doğum səviyyəsinə təsir edən mühüm amillərdən biri də ailənin maddi təminat səviyyəsidir. Ailədə uşaqların sayının çox və ya az olmasına ailənin maddi təminat dərəcəsinin təsirinin müəyyən edilməsi ***demoqrafiyada ən çətin və mürəkkəb məsələlərdən biridir.*** Bu məsələnin istər bizim ölkəmizin, istərsə də xarici ölkə alimlərinin əsərlərində və müxtəlif ölkələrin dövri mətbuatlarında uzun illərdən bəri geniş və hərtərəfli müzakirə edilməsinə baxmayaraq, burada tam fikir birliyi yoxdur. Hazırda sosial-iqtisadi və demoqrafiyaya dair ədəbiyyatlarda maddi həyat səviyyəsinin və onun mühüm göstəricilərindən biri olan adambaşına düşən pul gəlirlərinin doğum səviyyəsinə və ailədə mövcud olan uşaqların sayına göstərdiyi təsiri araşdıran alimlər arasında biri-birinin əksinə olan ***iki müxtəlif fikir*** vardır. **Birinci qrup alimlərin fikrincə,** maddi həyat səviyyəsi ilə doğum səviyyəsi arasında tərs, **ikinci qrup alimlərin fikrincə** isə düz proporsionallıq mövcuddur.

Maddi həyat səviyyəsi ilə doğum səviyyəsi arasında tərs proporsionallığın mövcud olması ideyasını irəli sürən birinci qrup alimlər K.Marksın belə bir müddəasını əsas götürürlər ki: «... yalnız doğulanların və ölənlərin sayı deyil, ailələrin mütləq qədəri də əmək haqqının kəmiyyətinə, yəni müxtəlif fəhlə kateqoriyasının malik olduğu yaşayış vasitələri kütləsinə tərs proporsionaldır».[126] **İkinci qrup alimlər** isə K.Marksın bu fikrini tənqid edərək göstərirlər ki, ***ailənin gəlirləri ilə doğum səviyyəsi arasındakı tərs proporsionallıq sosial qanunlar sırasına daxil olub universal və mütləq xarakter daşımır və yalnız müəyyən dövrədək fəaliyyət göstərir.***

Hər iki qrupa daxil olan alimlər müxtəlif statistik məlumatlar vasitəsilə öz mövqelərinin doğru olduğunu sübut etməyə çalışırlar. Lakin gətirilən statistik məlumatların təhlili də lazımi

---

[126] *K.Marks.* Kapital, I cild. Bakı, 1969, s. 645

nəticəyə gəlməyə imkan vermir. Çünki ailədə uşaqların sayının az və ya çox olması bir çox kompleks sosial, iqtisadi, demoqrafik, etnik və s. amillərdən asılı olduğundan və onlar birgə qarşılıqlı fəaliyyət göstərdiyindən ***bu amillərin bir qrupu doğumun artmasına, digərləri isə onun azalmasına səbəb olur.*** Bu isə konkret tarixi şəraitdə həmin amillərin hansının daha güclü təsirə malik olmasından asılıdır. Buna görə də konkret olaraq hansı amilin bu prosesə necə təsir etdiyi, ayrı-ayrılıqda onların hər birinin ailədə uşaqların sayının formalaşmasına təsirinin ***müəyyən edilib aşkara çıxarılması*** çox çətin məsələdir və vahid metodikaya əsaslanan kompleks tədqiqatlar aparılmasını tələb edir.

Doğrudur, mövcud statistik məlumatlar həyat səviyyəsi ilə doğum səviyyəsi, pul gəlirləri ilə ailədə mövcud olan uşaqların sayı arasında müəyyən asılılığın mövcud olduğunu aşakara çıxarmağa imkan versə də, həmin asılılığa dərindən baxdıqda onun zahiri olduğu aşkara çıxır. Çünki maddi həyat səviyyəsi amili müqayisə edilən əhali qruplarının malik olduğu başqa fərqli keyfiyyət göstəricilərini də özündə əks etdirir. Buna misal olaraq göstərmək olar ki, daha yüksək maddi həyat səviyyəsi, bir qayda olaraq, daha yüksək təhsil və mədəniyyət səviyyəsinə malik olan ailələrdə özünü büruzə verir ki, bu da doğum səviyyəsinə təsir edən mühüm amillərdəndir. Bu isə o deməkdir ki, görünür, doğum səviyyəsi ilə həyat səviyyəsi arasındakı tərs proporsionallıq gəlir səviyyəsini müşayiət edən həyat səviyyəsi ilə başqa amillər arasındakı paralelizmin nəticəsidir.

Görkəmli demoqrafik alim A.Y.Boyarskinin haqlı olaraq göstərdiyi kimi, həyat səviyyəsi özü-özlüyündə doğum səviyyəsinin azalmasına gətirib çıxarmır. Heç cür sübut etmək mümkün deyildir ki, əgər adamlar daha yaxşı yaşamağa – yaxşı mənzilə yiyələnməyə, yaxşı qidalanmağa və s. malik olmağa başlayırlarsa, guya bu hökmən doğumun azalmasına səbəb olmalıdır. Aparılan sosioloji tədqiqatların nəticələrindən aydın olur ki, ailədə adambaşına düşən pul gəlirlərinin səviyyəsi təkcə onun malik olduğu ümumi pul gəlirlərinin məbləğindən deyil, həm də ailə üzvlərinin sayından asılıdır. Belə ki, ***eyni pul gəlirlərinə malik olan ailələrdə ailə üzvlərinin sayı nə qədər çox olursa, orda adambaşına düşən pul gəlirlərinin səviyyəsi də bir o qədər az***

olur. Buna görə də bəzi ailələrdə ***doğumun yüksək olması*** adambaşına düşən pul gəlirlərinin ***az olmasının nəticəsi deyil***, əksinə, ***adambaşına düşən pul gəlirlərinin az olması yüksək doğum səviyyəsinin nəticəsidir***. Əgər adambaşına pul gəlirlərinin səviyyəsini deyil, ailənin ümumi pul gəlirini götürsək, onda ailənin pul gəliri ilə doğum səviyyəsi arasında düz proporsionallıq olduğu aşkara çıxar. Ancaq bu asılılığı bir əlamətə görə deyil, daha geniş əlamətlər qrupuna görə tədqiq edib aşkara çıxarmaq daha düzgün olardı. Daha doğru nəticələr almaq məqsədilə maddi həyat səviyyəsinin doğum səviyyəsinə təsirini aşkara çıxara biləcək metodika işləyib hazırlamaq üçün ilk növbədə doğum səviyyəsi ilə maddi həyat səviyyəsi arasındakı əlaqələrin özünün mexanizmini aşkara çıxarmaq lazımdır. Qeyd etmək lazımdır ki, hazırda bu məsələnin tədqiqinə xüsusi diqqət yetirilməkdədir. Əksər mütəxəssislərin haqlı fikrincə, ailədə uşaqların sayının təkcə onun mütləq həyat səviyyəsi ilə deyil, həm də bu səviyyənin ailənin tələbatının ödənilməsinə nə dərəcədə uyğun gəlib-gəlməməsi ilə izah etmək lazımdır. Çünki ***ailənin tələbatı dedikdə təkcə onun maddi tərəfi deyil, mənəvi tərəfi də nəzərdə tutulur***. Onun ödənilməsi isə, hər şeydən əvvəl, cəmiyyətin məhsuldar qüvvələri və istehsal münasibətlərinin inkişaf səviyyəsi ilə müəyyən olunur və ondan asılıdır. ***Tələbatın artması və inkişafı isə bir qayda olaraq istehsalı ötüb keçir və tərəqqiyə səbəb olur.***

Tələbatla onun ödənilməsi imkanları arasındakı dialektik ziddiyyət, əkslik ondan ibarətdir ki, adamlar həmişə tələbatlarının yalnız bir qismini (az və ya çox) ödəmək imkanına malik olurlar. Hər bir cəmiyyətə, hətta hər bir cəmiyyət üzvünə əhəmiyyət dərəcəsinə görə fərqlənən müəyyən tələbat xasdır ki, bu da bir çox amillərdən (ictimai quruluşun forması, ənənə, ictimai fikir) asılıdır. ***Hər bir adam malik olduğu sosial-iqtisadi vəziyyətə, mövcud ictimai fikrə və şəxsi keyfiyyətlərinə müvafiq olaraq öz tələbatlarını həyata keçirir və buna uyğun olaraq da bu və ya digər tələbatının ilk növbədə ödənilməsinə üstünlük verir.*** Adamların tələbatları içərisində ***atalıq və analıq tələbatını xüsusi qeyd etmək lazımdır***. Müasir cəmiyyətdə başqa tələbatlar kimi, bu tələbat da müəyyən keyfiyyət dəyişikliklərinə məruz qalmışdır. Artıq burada ailədə uşaqların mövcud olması onun iqtisadi

tələbatından irəli gəlib, ailə saxlamaq üçün bir dayaq vasitəsi kimi deyil, mənəvi tələbat kimi çıxış edir.

Gələcəkdə şəxsiyyətin fiziki və mənəvi cəhətdən inkişaf etdirilib daha da təkmilləşdirilməsi üçün zəruri olan tələbatın inkişaf edib artması ilə əlaqədar olaraq heç şübhəsiz ki, uşağa olan tələbat başqa tələbatlar arasında özünə daha layiqli yer tutacaqdır. Buna görə də doğum səviyyəsi və ailədə uşaqların sayı təkcə əhalinin daim artmaqda olan tələbatının ümumiyyətlə ödənilməsindən deyil, həm də bu tələbatlar arasında ***uşağa olan tələbatın ailə və cəmiyyət üçün nə kimi əhəmiyyət kəsb etməsindən asılıdır.*** Aparılan tədqiqatların nəticəsindən aydın olur ki ***tələbatın ödənmə səviyyəsi həyat səviyyəsi ilə düz, tələbatın həcmi ilə isə əks asılılıqdadır.*** Yəni tələbat dəyişməz qaldıqda əhalinin həyat səviyyəsi nə qədər yüksəlirsə, tələbatın ödənilmə səviyyəsi də bir o qədər yüksəlir və əksinə, həyat səviyyəsi eyni qaldıqda tələbat nə qədər yüksəlirsə, onun ödənmə səviyyəsi də bir o qədər azalır. Bu isə o deməkdir ki, ***həyat səviyyəsinin yüksəlməsi ilə tələbatın ödənilməsi səviyyəsi yeni şey deyildir.*** Təsadüfi deyildir ki, tələbatın ödənmə səviyyəsi onun yüksək olmadığı və nisbətən aşağı həyat səviyyəsi mövcud olan yerdə, yüksək həyat səviyyəsi və ondan da yüksək tələbat olan yerdə nisbətən daha yüksək görünür.

Elm və texnikanın inkişafı, iqtisadiyyatın möhkəmlənməsi əhalinin həyat səviyyəsinin yüksəlməsinə səbəb olur və eyni zamanda tələbat da artır. Buna görə də əhalinin tələbatının ödənilməsi səviyyəsi ***tələbatla həyat səviyyəsinin hansının üstün artmasından və deməli, doğum səviyyəsi və ailədə uşaqların sayı əhəmiyyətli dərəcədə ailənin maddi və mədəni tələbatlarının ödənilməsi dərəcəsindən asılıdır.*** Şəhər və kənd yerlərində doğum səviyyəsinin və ailələrdə mövcud olan uşaqların sayının müxtəlif olmasına gəlincə, bu, bəzi alimlərin düşündüyü kimi, heç də təkcə kənd təsərrüfatında və sənayedə çalışanların əmək haqlarında, kənd və şəhər yerlərində ailənin pul gəlirlərinin məbləğində mövcud olan fərqlərlə deyil, həm də buradakı həyat tərzi, əməyin xarakteri, əhalinin təhsil səviyyəsi, qadınların ictimai istehsala cəlb edilməsi dərəcəsi və s. sahələrdə mövcud olan fərqli xüsusiyyətlərlə bağlıdır.

Maddi istehsal sahələrinə nisbətən qeyri-istehsal sahələrində çalışan qadınlar arasında (xüsusilə də şəhər yerlərində) azuşaqlılığın mövcud olmasını qadınların sosial fəallığı ilə izah edənlər də haqlıdırlar. Çünki maddi istehsalda çalışan qadınlara nisbətən qeyri-istehsal sahələrində çalışan qadınların təhsil səviyyəsi və deməli, həm də sosial fəallığı xeyli yüksəkdir. ***Təhsil səviyyəsi isə doğum səviyyəsinə təsir edən mühüm amillərdəndir.*** Statistik məlumatlardan aydın olur ki, bir qayda olaraq, ictimai istehsalda məşğul olan ali və orta təhsilli qadınlar arasında doğum səviyyəsi natamam orta, ibtidai təhsili olan və bu təhsilə malik olmayan qadınlar arasında mövcud olan doğum səviyyəsinə nisbətən xeyli aşağıdır. Bunu 1999-cu ilin əhalinin siyahıya alınması məlumatlarından daha aydın görmək olar. Həmin məlumatlara əsasən müəyyən edilmişdir ki, ən yüksək doğum səviyyəsi heç bir təhsili olmayan və ibtidai təhsilli qadınlar, ən aşağı doğum səviyyəsi isə ali və orta ixtisas təhsilli qadınlar arasında özünü büruzə verir. Bu qanunauyğun hal fiziki və zehni əməklə məşğul olanlar arasında da özünü göstərir.

Bir qayda olaraq, xalq təsərrüfatının bütün sahələrində fiziki əməyin üstünlük təşkil etdiyi sahələrdə çalışan qadınlar arasında doğum səviyyəsi zehni əməyin üstünlük təşkil etdiyi sahələrdə məşğul olan qadınlara nisbətən xeyli yüksəkdir. Bu isə o deməkdir ki, gələcəkdə qadınların təhsil səviyyəsi və əmək-lərinin xarakterində baş verəcək dəyişikliklərlə əlaqədar olaraq onların sosial fəallığı daha da artacaqdır. Bu da öz növbəsində gələcəkdə doğum səviyyəsinin indikinə nisbətən daha da aşağı düşməsinə səbəb olacaqdır. Başqa sözlə desək, gələcəkdə bütün məşğul olan qadınlar üçün orta doğum səviyyəsi, daha doğrusu, cəmiyyət üçün zəruri olan orta optimallıqda doğum səviyyəsi formalaşacaqdır.

Ölkəmizin əhalisinin və deməli, həm də əmək potensialının artıb-azalmasına təsir edən mühüm demoqrafik amillərdən biri də **insanların sağlamlığı və onların ölüm səviyyəsindən ibarətdir.**

Ölüm doğumdan sonra ikinci mühüm demoqrafik hadisədir. **Demoqrafiyada ölüm dedikdə** - nəslin kəsilməsi prosesi başa düşülür və ona müxtəlif yaşlarda baş verən ölüm hallarından

əmələ gələn, real və ya şərti nəslin kəsilməsi ardıcıllığının məcmusu ilə müəyyən edilən kütləvi statistik proses kimi baxılır.

Ölüm demoqrafik statistika sisteminin onun üçün topladığı və qruplaşdırdığı məlumatlardan ibarət olan ilkin həyati hadisədir. Ölüm statistikası və onun təhlil edilməsi, həm demoqrafik tədqiqatlar (xalis mütaliə aspektində), həm də təcrübə üçün, xüsusilə də səhiyyə orqanları və sosial siyasət üçün zəruridir. Çünki ölüm səviyyəsi, xüsusilə də uşaq ölümünün vəziyyəti bu və ya digər ölkənin sosial-iqtisadi inkişafını və onun əhalisinin həyat səviyyəsini səciyyələndirən ən mühüm göstəricilərdən biri hesab edilir.

Cəmiyyətin inkişafı, kütləvi epidemiyaların aradan qaldırılması, tibbi biliklərin dərinləşməsi və səhiyyə xidmətinin genişlənməsi, tez-tez baş verən dağıdıcı müharibələrin azalması və sair sahələrdə baş verən mütərəqqi irəliləyişlərlə əlaqədar olaraq dünya miqyasında əhalinin ölüm səviyyəsi tədricən azalaraq gəlib indiki vəziyyətə düşmüşdür. Lakin bütün bu deyilənlərə baxmayaraq, onun səviyyəsi dünyanın ayrı-ayrı qitələri, regionları və ölkələrində müxtəlif olmaqla bir-birindən fərqlənir. Məsələn, 2002-ci ilin məlumatlarına əsasən əhalinin hər 1000 nəfərinə düşən ölüm səviyyəsi orta hesabla dünya miqyasında 9 nəfər təşkil etdiyi halda, bu göstərici Avropa qitəsində – 11, Şimali Avropada – 10, Qərbi Avropada – 9, Şərqi Avropada – 14, Cənubi Avropada – 9, Afrikada – 14, Şimali Amerikada – 9, Mərkəzi Amerikada – 5, Cənubi Amerikada – 6, Okeaniyada – 7, Asiya qitəsində – 7, Cənub Mərkəzi Asiyada – 9, Cənub Şərqi Asiyada – 7, Şərqi Asiyada – 7, ABŞ, Fransa, Banqladeş və Hindistanda – 9, Çində – 6, Türkiyədə – 7, Almaniyada – 10, Yaponiya və İndoneziyada – 8, Nigeriyada – 13, Rusiyada – 15, Konqo Demokratik Respublikasında – 16, Həbəşistanda – 21 nəfərdir.[127]

Əhalinin sağlamlığı və ölüm səviyyəsi MDB ölkələrində xüsusi narahatlıq doğurur. 21-ci cədvəlin məlumatlarından göründüyü kimi, əhalinin hər 1000 nəfərinə düşən ölüm səviyyəsi 90-cı illərdə bu ölkələrdə əhəmiyyətli dəyişikliklərə mə-

[127] Azərbaycanın əhalisi. 2003. (Statistik bülleten). Bakı, 2003, səh. 107-111.

ruz qalmışdır. SSRİ-nin dağılması nəticəsində həmin ölkənin əhalisinin ümumi şok vəziyyətinə düşməsi, ayrı-ayrı respublikalarda millətlərarası münaqişələrin və lokal müharibələrin baş verməsi nəticəsində 1991-1994-cü illərdə bütün MDB ölkələrində, xüsusilə də Rusiya, Ukrayna, Belorus, Moldova, Tacikistan və Qazaxıstanda əhalinin ölüm səviyyəsi əhəmiyyətli dərəcədə artmışdır. Sonrakı illərdə, yəni 1997-1998-ci illərdə Qazaxıstan, Qırğızıstan, Moldova, Rusiya və Ukraynada əhalinin ölüm səviyyəsinin artması xeyli dayanmış, ancaq 1998-ci idən sonra onun səviyyəsi altı MDB ölkəsində – Gürcüstanda -15,8%, Rusiyada - 8%, Belorusda - 7,6%, Ermənistan, Moldova və Ukraynada isə 3,2-3,5% artmışdır. 2000-ci ildə ölüm səviyyəsi Rusiya, Ukrayna, Qırğızıstan və Qazaxıstanda artmaqda davam etmiş və yalnız Belorusda əvvəlki ilə nisbətən azalmışdır. 2000-ci ildə MDB ölkələri arasında ölümün ən yüksək səviyyəsi Rusiyada (15,4), Ukraynada (15,3) və Belorusda (13,5) qeydə alınmışdır.

Bu ölkələrdə ölüm səviyyəsinin belə yüksək olmasına səbəb bir tərəfdən əhalinin yaş quruluşunun xeyli «qocalması» ilə bağlıdırsa, digər tərəfdən də əmək qabiliyyətli yaşda olan əhali arasında, ələlxüsus da bu yaşda olan kişilər arasında ölüm səviyyəsinin yüksək olması ilə bağlıdır. Məsələn, hazırda Rusiyada bütünlükdə götürüldükdə kişilər arasında ölüm səviyyəsi

21-ci cədvəl [128]

MDB ölkələrində əhalinin ölüm səviyyəsinin dəyişilməsi dinamikası (əhalinin hər 1000 nəfəri hesabı ilə)

Müstəqil Dövlətlər Birliyi ölkələri	1990-cı il	1994-cü il	1996-cı il	1997-ci il	1998-ci il	1999-cu il	2000-ci il
Azərbaycan	6,1	7,3	6,3	6,1	5,9	5,9	5,9
Ermənistan	6,2	6,6	6,6	6,3	6,1	6,3	6,3
Belorus	10,7	12,6	13,0	13,4	13,5	14,2	13,5
Gürcüstan	8,4	8,6	7,1	7,7	7,6	8,8	.....
Qazaxıstan	7,7	9,9	10,7	10,4	10,2	9,8	10,1

[128] Демографическая ситуация и формирование общего рынка труда государств – участников СНГ. ЗАО «Финстатинформ». М., 2001, s. 18.

Qırğızıstan	7,0	8,2	7,4	7,3	7,2	6,8	6,9
Moldova	9,7	11,8	11,5	11,8	10,9	11,3	11,3
Rusiya	11,2	15,7	14,2	13,8	13,6	14,7	15,4
Tacikistan	5,1	7,0	5,4	5,8	4,8	4,2	.....
Türkmənistan	7,0	7,4	7,0	6,5	6,3	5,4	.....
Özbəkistan	6,1	6,6	6,2	5,8	5,8	5,3	.....
Ukrayna	12,1	14,7	15,2	14,9	14,3	14,8	15,3
MDB ölkələri üzrə orta hesabla	10,6	13,3	12,5	12,2	11,9	12,5	12,0

qadınlar arasındakı ölüm səviyyəsindən 23 faiz yüksək olduğu halda, 20-25 yaşlılar arasında 4,1 dəfə, 35-39 yaşlılar arasında isə 3,7 dəfə yüksəkdir. Kişilər və qadınlar üzrə ölüm səviyyəsi arasındakı bu kəskin fərq ilbəil artmaqda davam edir. Demoqrafların fikrincə, ölümün indiki səviyyəsinin saxlanması şəraitində 2000-ci ildə 15 yaşı tamam olmuş kişi cinsindən olan əhalinin cəmi 58 faizi 60 yaşınadək yaşaya biləcəkdir. Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi məlumatlarına əsasən hazırda respublikamızda da əhalinin sağlamlığı və onun səviyyəsi sevindirici deyildir. 22-ci cədvəlin məlumatlarına əsasən, baxmayaraq ki, son yarım əsr ərzində (1950-2002-ci illərdə) respublikamızda əhalinin hər 1000 nəfərinə düşən ölüm səviyyəsi 39,4 faiz, o cümlədən şəhər yerlərində 42,6 faiz, kənd yerlərində 37,0 faiz azalaraq müvafiq surətdə 9,6-dan 5,8-ə; 10,1-dən 5,8-ə və 9,2-dən 5,8-ə düşmüşdür. Bu göstərici 1990-1994-cü illərdə, yəni Azərbaycanla Ermənistan arasındakı atəşkəs dövrünədək 19,7 faiz artaraq, 6,1 nəfərdən 7,3 nəfərə qalxmış, 1994-cü ildən sonra isə 20,6 faiz azalaraq 7,3 nəfərdən 5,8 nəfərə düşmüşsə də hələlik burada əmək qabiliyyətli yaşında olan əhali və bir yaşınadək olan uşaqlar arasında ölüm səviyyəsi xeyli yüksək olaraq qalmaqdadır. 2002-ci ilin statistik məlumatlarına əsasən, respublikamızda hər 1000 nəfər diri doğulan uşaqdan bir yaşınadək ölənlərin sayı 12,8 nəfər, o cümlədən şəhər yerlərində 11,1 nəfər, kənd yerlərində 14,2 nəfər; müvafiq surətdə Naxçıvan MR-də 11,1; 10,9 və 11,2 nəfər; Bakı şəhərində (qəsəbələrsiz) 11,2 nəfər; Gəncədə 5,8; Sumqayıtda 18,2; Mingəçevirdə 10,6; Naftalanda 57,7 nəfər təşkil etmişdir.

22-ci c

Azərbaycan Respublikasında əhalinin ölüm səviyyəsinin dəyişilməsi dinamikası

İllər	Ölənlərin sayı (nəfərlə)			Əhalinin hər 1000 nəfərinə düşən ölənlərin sayı (nəfər)			1 yaşınadək diri doğulan uşaqlardan ölənlərin sayı (nəfər)			Hər 1000 nəfər diri uşağa düşən ölənlə (nəfər)	
	cəmi	o cümlədən		cəmi	o cümlədən		cəmi	o cümlədən		cəmi	o cüml
		şəhər yerlərində	kənd yerlərində		şəhər yerlərində	kənd yerlərində		şəhər yerlərində	kənd yerlərində		şəhər yerlərində
1950	27746	12933	14813	9,6	10,1	9,2	5922	3392	2530	67,6	91,0
1955	25074	12872	12202	7,0	7,7	6,3	7193	3864	3329	58,7	76,7
1960	25918	13537	12381	6,7	7,2	6,2	7006	3108	3898	43,2	48,9
1965	29095	14821	14274	6,4	6,5	6,2	6650	2483	4167	38,9	36,3
1970	34506	16815	17690	6,7	6,5	6,9	5221	1940	3281	37,0	26,1
1975	39291	19519	19772	6,9	6,6	7,2	5284	1954	3330	37,5	30,0
1980	43064	21999	21065	7,0	6,7	7,3	4697	1976	2718	30,4	26,3
1985	45179	23560	21619	6,8	6,6	6,9	5184	2211	2973	29,4	25,6
1990	42819	21804	21015	6,1	5,8	6,4	4193	1656	2537	23,0	19,3
1991	44659	23192	21467	6,3	6,1	6,4	4749	1901	2848	25,3	21,3
1992	51258	26179	25079	7,1	6,8	7,3	47,8	1669	3039	25,5	19,5
1993	52809	27185	25624	7,2	7,0	7,3	4989	1859	3130	28,2	22,6
1994	54921	28372	26549	7,3	7,2	7,5	4180	1644	2536	25,2	21,5
1995	50828	26353	24475	6,7	6,6	6,8	3477	1471	2006	23,3	21,8
2000	46701	23530	23171	5,9	5,8	6,0	1501	642	589	12,8	12,9
2002	46522	23605	22917	5,8	5,8	5,8	1422	554	868	12,8	11,1
1950-2002-ci illərdə %-lə	167,7	182,5	154,7	60,4	57,4	63,0	24,0	16,3	34,3	18,9	12,2

[129] Численность, состав, естественное и механическое движение населения Азербайджанской ССР. Статической сборник. Баку, 97; Azərbaycanın əhalisi. 2003 (Statistik bülleten). Bakı, 2003, s. 28-33, 38.

Onu da qeyd etmək lazımdır ki, son yarım əsr ərzində (22-ci cədvələ bax) bütünlükdə əhali arasında ölənlərdən fərqli olaraq 1 yaşınadək diri doğulan uşaqlar arasında ölənlərin həm mütləq sayı, həm də hər 1000 nəfər diri doğulan 1 yaşınadək uşağa düşən ölənlərin sayı əhəmiyyətli dərəcədə azalmışdır. Bu azalma 1 yaşınadək diri doğulan uşaqlar arasında ölənlərin mütləq sayı üzrə respublika miqyasında 76,0 faiz, o cümlədən şəhər yerlərində 83,7, kənd yerlərində 65,7 faiz; hər 1000 nəfər diri doğulan uşağa düşən ölənlərin sayı üzrə isə müvafiq surətdə 81,1; 87,8 və 71,7 faiz təşkil etmişdir.

Respublikamızda 1 yaşınadək diri doğulan uşaqlar arasında ölüm səviyyəsinin (hər 1000 nəfər hesabı ilə) ən yüksək olduğu ərazilərə Ağsu (36,8 nəfər), Xızı (31,7 nəfər), Zərdab (31,2 nəfər), Ağstafa (28,2 nəfər), Tovuz (26,2 nəfər), Ağdaş (24,1 nəfər), Qusar (23, 60), Qobustan (20,9 nəfər) və Hacıqabul (20,8 nəfər) rayonlarını; ən aşağı olduğu ərazilərə isə (işğal olunmuş ərazilərin əhalisi istisna olmaqla) Bərdə (3,5 nəfər), Sədərək (3,7 nəfər), İmişli (4,9 nəfər), yüksək səviyyəsi Yevlax (55,6 nəfər), Qəbələ (44,0 nəfər), Ağstafa (35,0 nəfər), Xızı (34,5 nəfər), Qax (28,8 nəfər), Saatlı (29,6 nəfər), Hacıqabul (27, 6 nəfər), Tovuz (27,3 nəfər), Zərdab (25,5 nəfər) və Gədəbəy şəhərlərində (25,4 nəfər); ən aşağı səviyyəsi isə Qusar (3,6 nəfər), Göyçay (4,9 nəfər), Xanlar (4,8 nəfər), Masallı (6,8 nəfər), Şamaxı (7,2 nəfər), Abşeron (7,7 nəfər) və Qazax (8,0 nəfər) rayonlarında qeydə alınmışdır. Eyni vəziyyəti kənd əhalisi arasında da görmək olar.[130] 2000-ci ilin rəsmi statistik məlumatlarına əsasən Azərbaycanın kənd əhalisi arasında qeyd edilən göstəricinin ən yüksək səviyyəsi Zərdab rayonunda (33,1 nəfər), Xızıda (30,3 nəfər), Ağdaşda (28,6 nəfər), Qusarda (28,4 nəfər), Ağstafada (26,7 nəfər); ən aşağı səviyyəsi isə Bərdədə (2 nəfər), İmişlidə (3,3 nəfər), Salyanda (5,5 nəfər), Tərtərdə (6,4 nəfər) və Saatlıda (7,0 nəfər) özünü büruzə vermişdir[131].

Məlum olduğu kimi, cəmiyyətin inkişaf səviyyəsini xarakterizə edən ən mühüm göstəricilərdən **biri körpələr arasındakı ölüm əmsalıdır**. Hər bir ölkədə mövcud olan sosial sistemin və

---

[130] Azərbaycanın əhalisi. 2001 (Statistik bülleten). Bakı, 2001, s.62-70.
[131] Yenə orada.

səhiyyə xidmətinin inkişaf səviyyəsi, hər şeydən əvvəl, həmin əmsalın kəmiyyəti ilə müəyyən edilir. Əhali statistikası məlumatlarına əsasən 2000-ci ildə hər 1000 nəfər diri doğulan uşaqdan 1 yaşınadək ölənlərin sayı orta hesabla dünya miqyasında 57 nəfər, o cümlədən inkişaf etməkdə olan ölkələrdə 63 nəfər, inkişaf etmiş ölkələrdə isə 8 nəfər təşkil edirdi[132]. Bu göstərici ABŞ-da 7; İngiltərədə 5,7; Yaponiyada 3,5; Almaniyada 4,7; Fransada 4,8; Çində 29; Braziliyada 31; Nigeriyada 77; Banqladeşdə 72; Pakistanda 91; İndoneziyada 46; Konqo Demokratik Respublikasında 109; Rusiyada 17; Hindistanda 72; Ermənistanda 15; Qazaxıstanda 21; Qırğızıstanda 26; Türkmənistanda 33; Tacikistanda 28; Özbəkistanda 22; Moldovada 18; Ukraynada 13; Gürcüstanda 15 nəfər təşkil etmişdir.[133]

Göstərilən məlumatlardan aydın olur ki, dünyanın bütün ölkələrində olduğu kimi, Azərbaycanda da uşaq ölümünün azaldılması imkanları çoxdur. 2002-ci ilin statistika məlumatları göstərir ki, hazırda dünya miqyasında əhalinin hər 1000 nəfərinə düşən təbii artım əmsalı da orta hesabla 13‰ olmaqla, onun müxtəlif regionlarında bir-birindən fərqlənir. Məsələn, bu göstərici Avropa qitəsində mənfi 1‰-dirsə, Afrikada 24‰, Asiyada 14‰, Latın Amerikası və xaricdə 18‰, Hindistanda 18‰, Almaniyada mənfi 1‰, Türkiyədə 15‰, Fransada 4‰, İngiltərədə 1‰, Braziliyada 15‰, Nigeriyada 29‰, Meksikada 20‰, Həbəşistanda 24‰, Konqo Demokratik Respublikasında 32‰, ABŞ-da 6‰, İranda 15‰, Vyetnamda 14‰, Yaponiyada 1‰, Pakistanda 28‰, postsovet məkanına daxil olan ölkələrdə isə 3‰-lə–14,4 arasında tərəddüd edir. Bu ölkələr arasında əhalinin ən yüksək təbii artımı (əhalinin 1000 nəfəri hesabı ilə) Özbəkistan (17‰), Tacikistan (16‰), Qırğızıstan və Türkmənistan (15‰) respublikaları və Azərbaycanda (9‰), ən aşağı təbii artım isə Qazaxıstan, Ermənistan (4‰) və Gürcüstan (1‰) respublikalarında qeydə alınmışdır. Postsovet ölkələri arasında əhalinin təbii artımının azalması proseslərinin

---

[132] Социальная политика в постсоциалистическом обществе: задачи, противоречия, механизмы. М., Наука, 2001, s. 192.

[133] Azərbaycanın əhalisi. 2001 (Statistik bülleten), Bakı, 2001, s.62-70.

sürətlə davam etdiyi ölkələrə isə Rusiya (-7‰), Belorus (-5‰), Latviya (-6‰), Estoniya (-5‰) və Litva (-1‰) daxildir.

Demoqrafik proqnozlara əsasən əhalinin hazırkı təkrar istehsal rejimi saxlanılarsa, Özbəkistanda əhalinin indiki sayının iki dəfə artması üçün 40 il, Tacikistan üçün 43 il, Türkmənistan üçün 48 il, Qırğızıstan üçün 47 il, Azərbaycan üçün 77 il, Qazaxıstan və Ermənistan respublikaları üçün 161 il, Gürcüstan Respublikası üçün 462 il, Moldova üçünsə 1733 il vaxt tələb olunar. Rusiya, Ukrayna, Belorus və üç Baltikyanı respublikalarda (Latviya, Litva və Estoniya) isə gələcəkdə də əhalinin indiki demoqrafik vəziyyəti saxlanacaq və bu ölkələrdə əhalinin depopulyasiya prosesi davam edəcəkdir.

Demoqrafik proseslər arasında hər bir ölkədə öyrənilməsi zəruri olan ən mühüm məsələlərdən biri də əhalinin demoqrafik qocalmasıdır.

Əhalinin **«qocalması»** mühüm demoqrafik hadisə olub, onun hərəkətinə təsir edən amillərdən biridir. Əhalinin «qocalması» prosesi hazırda dünyanın bütün ölkələrini əhatə edir.

Demoqrafik qocalmanı müəyyən etmək üçün ilk növbədə «qocalma» prosesi anlayışının mahiyyətini və onun başlanğıc nöqtəsini aydınlaşdırmaq lazımdır. Dünya demoqrafları «qocalma» prosesinin başlanğıcını 60 və ya 65 yaş olaraq götürürlər. Bəzi demoqraflar isə qocalığın başlanğıcını kişilər üçün 65 yaş, qadınlar üçün isə 60 yaş olaraq qəbul edirlər.

Demoqrafiyada «qocalma» prosesi dedikdə əhalinin yaş tərkibində yaşlı adamların xüsusi çəkisinin başqa yaş qruplarından olan adamlara nisbətən sürətli və dinamik artımı başa düşülür. Burada söhbət əhalinin tərkibində yaşlı adamların sayının mütləq artımından deyil, nisbi artımından, daha doğrusu, xüsusi çəkisinin artmasından gedir. **Demoqrafik qocalıq anlayışının** xarakteri isə başqadır. Bu özünü müəyyən konkret vaxtda qocalarla gənclərin bu və ya digər nisbətliyində əks etdirən statistik anlayışdır. Qocalma və qocalıq prosesi bir- biri ilə qırılmaz surətdə bağlıdır. Qocalma – qocalma prosesinin nəticəsidir. Ancaq bunlar eyni anlayışlar deyildir. Demoqrafik qocalıq səviyyəsi **qocalıq əmsalı** deyilən göstərici ilə müəyyən edilir və müəyən edilməsinin müxtəlif üsul və metodları vardır. Ən

geniş surətdə yayılmış və ən çox istifadə edilən metod qoca adamların bütünlükdə əhali arasında tutduğu xüsusi çəkisindən ibarətdir.

Hazırda BMT-nin ekspertlərinin təsnifatına görə, ölkənin bütün əhalisinin tərkibində 65 və yuxarı yaşlı adamların xüsusi çəkisi 4 faizdən aşağı olduqda – bu gənc, 4-7 faiz təşkil etdikdə qocalıq ərəfəsində olan, 7 və yuxarı faiz təşkil etdikdə isə qocalmış əhali hesab edilir.

Hazırda əhalinin tərkibində 65 və yuxarı yaşında olanların xüsusi çəkisinin 14 faizdən çox olduğu inkişaf etmiş ölkələrdə əhalinin qocalma prosesi çox sürətlə davam etməkdədir. Avropanın bir çox ölkələrində bu vəziyyət daha mürəkkəb xarakter almışdır. Məsələn, hazırda 65 və yuxarı yaşında olanların xüsusi çəkisi İtaliya, İsveç, Belçika və Yunanıstanda 17%-i, Fransa, Yaponiya, Bolqarıstan və İspaniyada 16%-i, Finlandiya, İsveçrə, Avstriya və Portuqaliyada 15% -i ötüb keçir. Bu, **bir tərəfdən** həmin ölkələrdə əhalinin doğum səviyyəsinin aşağı olması (**«aşağıdan qocalma»), digər tərəfdən** isə əhalinin nisbətən uzun ömür müddəti ilə (**«yuxarıdan qocalma»**) əlaqədardır.

Hazırda dünya miqyasında əhalinin gözlənilən **orta ömür müddəti 66 yaşdır.** Bu göstərici Avropada 74, Asiyada 66, Afrikada 52, Şimali Amerikada 77, Latın Amerikasında 70, Mərkəzi Amerikada 71, Şimali və Cənubi Avropada 77, Qərbi Avropada 78, ABŞ, Kanada, İspaniya, Almaniya, Fransa və İngiltərədə 77-78, Yaponiyada 81 yaşdır.

Əhalinin orta ömür müddətinin ən aşağı olduğu ölkələr sırasına Qərbi Afrikada Qvineya (45 yaş), Niger (41 yaş), Qambiya (45 yaş), Şərqi Afrikada Zimbabve (40 yaş), Zambiya (37 yaş), Uqanda (42 yaş), Mərkəzi Afrikada Anqola (47 yaş), Mərkəzi Afrika Respublikası (45 yaş), Cənubi Afrikada Svazilend (38 yaş), Namibiya (46 yaş), Cənubi Mərkəzi Asiyada Əfqanıstan (46 yaş) ölkələri daxildir. Postsovet məkanına daxil olan ölkələr arasında da həm **demoqrafik cəhətdən nisbətən gənc və həm də demoqrafik cəhətdən nisbətən qocalmış əhaliyə** malik olan ölkələr vardır. Demoqrafik cəhətdən **qocalma ərəfəsində olan** ölkələrə (4-6%) Tacikistan, Türkmənistan, Özbəkistan, Qırğızıstan və Azərbaycan respublikaları, **qocalmanın başlanğıc**

mərhələsində (7-9%) olan ölkələrə Qazaxıstan, Ermənistan və Moldova, **nisbətən yüksək qocalıq səviyyəsində** olan ölkələrə isə (11-14%) Gürcüstan, Rusiya, Belorus, Ukrayna, Litva, Latviya və Estoniya aiddir.

Hazırda bütün dünya ölkələrində olduğu kimi, postsovet məkanına daxil olan dövlətlərdə də ümumi qanunauyğunluq ondan ibarətdir ki, qadınların orta ömür müddəti kişilərin orta ömür müddətindən yüksəkdir və bu göstərici ayrı- ayrı ölkələrdə bir-birindən xeyli fərqlidir. İndi qadınların orta ömür müddəti kişilərin orta ömür müddətinə nisbətən Tacikistanda – 5 yaş, Özbəkistanda - 6 yaş, Gürcüstan, Ermənistan, Azərbaycan, Moldova və Türkmənistanda – 7 yaş, Qırğızıstanda – 8 yaş, Litvada – 10 yaş, Belorus, Qazaxıstan və Ukraynada – 11 yaş, Rusiya, Latviya və Estoniyada isə 12 yaş çox olmaqla fərqlənir.

Əhalinin tərkibində 15 yaşadək olan gənclərin xüsusi çəkisinə görə də dünya ölkələri, o cümlədən postsovet məkanına daxil olan ölkələr bir-birindən xeyli fərqlənir. Doğum səviyyəsinin nisbətən yüksək olduğu Orta Asiya (Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistan) ölkələrində bu göstərici 37-44 faiz arasında tərəddüd edir. Bu göstərici Qazaxıstan və Azərbaycanda 29-33 faiz, Gürcüstan, Moldova və Ermənistanda 24-27 faiz, Rusiya, Ukrayna, Belorus, Litva, Latviya və Estoniyada isə 19-20 faizdir. İndi dünya miqyasında əhalinin orta yaşı təqribən 28 ildir. **Dünyada əhalinin hər üç nəfərindən birinin 15, hər dörd nəfərindən (Avropada hər yeddi nəfərdən birinin) birinin 65 və yuxarı yaşı vardır**. Gələcəkdə dünya əhalisinin orta yaş səviyyəsi sürətlə artaraq 2030-cu ildə 35 yaşa çatacaqdır. BMT-nin proqnozlarına əsasən isə 2025-ci ilədək bütünlükdə dünya əhalisinin tərkibində 65 və yuxarı yaşlı adamların xüsusi çəkisi iki dəfədən çox artaraq 15 faizə, o cümlədən Qərbi Avropada 27,5 faizə çatacaqdır.[134]

Qeyd edilən bütün bu demoqrafik dəyişikliklər dünyanın tərkib hissəsi olan Azərbaycan Respublikasında da qələcəkdə

---

[134] Социальная политика в постсоциалистическом обществе: задачи, противоречия и механизмы. М., «Наука», 2001, s.192-195.

özünəməxsus xüsusiyyətlər kəsb etməklə baş verəcək və onun əhalisinin ümumi sayına və tərkibinə öz təsirini göstərəcəkdir.

Ölkəmizin əhalisinin və əmək potensialının gələcək inkişaf dinamikasına təsir edən amillər arasında əhalinin sağlamlıq səviyyəsinin yüksəldilməsi və ölüm səviyyəsinin, xüsusilə də uşaqlar arasında onun artımının qarşısının alınması mühüm əhəmiyyət kəsb edən məsələlərdən biridir. Rəsmi statistik məlumatlara əsasən 2002-ci ildə respublikamızda bir yaşa qədər uşaqlar arasında ölümün əsas səbəblərini tənəffüs orqanlarının xəstəlikləri (48,2 faiz), pereptal dövrdə əmələ gələn hallar (18,8 faiz), yoluxucu və parazitar xəstəliklər (11,5 faiz), əsəb sisteminin və hissiyyat orqanlarının xəstəlikləri (7,3 faiz), anadangəlmə anomaliyalar – (7,9 faiz), bədbəxt hadisələr, zəhərlənmə və zədələr (0,8 faiz) və s. xəstəliklər (5,4 faiz) təşkil edir[135].

Bütünlükdə əhali arasındakı ölümün səbəblərinə gəldikdə isə burada əsas yeri qan dövranı sistemi xəstəlikləri (57,0 faiz), yeni törəmələr (12,6 faiz), tənəffüs orqanlarının xəstəlikləri (6,9 faiz), mədə-bağırsaq orqanlarının xəstəlikləri (6,0 faiz), bədbəxt hadisələrlə zəhərlənmə və zədələr (4,0 faiz), yoluxucu və parazitar xəstəliklər (3,0 faiz), simptomlar və düzgün qeyd edilməmiş hallar (2,6 faiz), qida pozuntuları, immunitet və maddələr mübadiləsinin pozulması (2,9 faiz), sidik tənasül sisteminin xəstəlikləri (1,7 faiz), əsəb sisteminin və hissiyyat orqanlarının xəstəlikləri (1,7 faiz) və s. təşkil edir.[136]

Respublika əhalisi arasında, xüsusilə də uşaqlar arasında ölüm səviyyəsinin nisbətən belə yüksək olması bir tərəfdən burada lazımi sayda və keyfiyyətdə yüksək ixtisaslı kadrların hələlik çatışmaması, səhiyyə ocaqlarının maddi - texniki bazasının zəif olması, bir sıra rayon və şəhərlərdə tibb müəssisələrində antisanitariyanın **hökm sürməsi ilə əlaqədardırsa**, digər tərəfdən də əhalinin, xüsusilə də qadınların əmək və məişət şəraitindəki çatışmazlıqlar, onların xeyli bir qisminin çadırlarda, köçkün və qaçqın halında yaşaması, zəif qidalanması və s. ilə bağlıdır.

---

[135] Azərbaycanın əhalisi. 2003 (Statistik büllcten). Bakı, 2003, s.39.
[136] Yenə orada, s.37.

Hazırda respublikamızda əhaliyə səhiyyə xidmətinin vəziyyətini ondan görmək olar ki, 1990-2001-ci illərdə burada bütün ixtisaslardan olan həkimlərin sayının 7,9 faiz artaraq 27,5 min nəfərdən 29,5 min nəfərə, xəstəxana müəssisələrinin sayının isə 2,6 faiz artaraq 731-dən 738-ə gəlib çatmasına baxmayaraq, əhalinin hər 10 min nəfərinə düşən bütün ixtisaslardan olan həkimlərin sayı 5,8 faiz azalaraq 38,7 nəfərdən 36,3 nəfərə, orta tibb işçilərinin sayı 23,7 faiz azalaraq 95,8 nəfərdən 73,1 nəfərə, xəstəxana çarpayılarının sayı 14,9 faiz azalaraq 99,9 ədəddən 85,0 ədədə düşmüşdür. Bu dövrdə eyni zamanda orta tibb işçilərinin ümumi sayı azalaraq 68,0 min nəfərdən 59, 1 min nəfərə, xəstə uşaqlar üçün çarpayıların sayı 8,1 faiz azalaraq 12,4 mindən 11,4 minə, əhaliyə ambulatoriya – poliklinika yardımı göstərən müalicə müəssisələrinin sayı 12,4 faiz azalaraq 1826-dan 1603-ə, qadın məsləhətxanalarının və ambulatoriyalarının sayı (müstəqil və başqa müəssisələrin tərkibinə daxil olan) 11,3 faiz azalaraq 1034-dən 917-yə, hamilə və zahı qadınlar üçün çarpayıların sayı isə (həkim və ginekologiya çarpayıları daxil olmaqla) 1,4 faiz azalaraq 7,4 mindən 7,3 minə düşmüşdür.[137]

Ölkəmizdə əhaliyə səhiyyə xidmətinin vəziyyəti ayrı-ayrı ərazilərdə, şəhər və rayonlarda eyni olmayıb, bir-birindən kəskin surətdə fərqlənir. Bu müxtəlifliyi təsəvvür etmək üçün 23-cü cədvəlin məlumatlarına nəzər salmaq kifayətdir.

23-cü cədvəlin məlumatlarından aydın olur ki, respublikamızın əksər şəhər və rayonlarında səhiyyənin inkişaf göstəriciləri orta ölkə səviyyəsindən aşağı və yuxarı olmaqla xeyli fərqlənir. Bu fərqlərin ölkə miqyasına nisbətən yüksək olduğu ərazilərə əsas etibarilə Bakı, Əli Bayramlı, Gəncə, Mingəçevir, Sumqayıt şəhərləri, ölkə miqyasına nisbətən aşağı olan ərazilərə əsas yerdə qalan bütün başqa şəhər və rayonları aid etmək olar. Seçib öyrəndiyimiz şəhər və rayonlar arasında səhiyyə xidmətinin ən aşağı səviyyədə olduğu əraziyə Daşkəsən, Xanlar, Yardımlı, Sabirabad, Saatlı, Quba, Qusar, Astara, Ağcabədi rayonları, bu

---

[137] Azərbaycanın statistik göstəriciləri. 2003. Bakı, 2003, s. 229.

göstəricinin nisbətən yüksək olduğu ərazilərə isə Bərdə, Qazax, Lənkəran, Tovuz, Şəki və Salyan rayonları aiddir.

Bütün bu deyilən demoqrafik dəyişikliklərin nəticəsidir ki, Azərbaycan əhalisinin orta illik artım sürəti 3,0 dəfə azalaraq 1959-1999-cu illərdəki 3,0 faizdən 1990-2002-ci illərdə 1,0 faizə enmiş, əhalinin orta illik artım sayı isə 32,3 faiz azalaraq 113,6 min nəfərdən 76,9 min nəfərə düşmüşdür.[138] Respublikamızın demoqrafik inkişaf göstəricilərində baş vermiş bu dəyişikliklər öz növbəsində onun başlıca məhsuldar qüvvələrini təşkil edən əmək potensialının formalaşması və artımına, habelə quruluşuna da öz təsirini göstərmişdir. Belə ki, əgər 1960-1970-ci illərdə respublikamızda əmək ehtiyatlarının orta illik artım sayı 43,7 min nəfər (2,3 faiz), 1970-1980-ci illərdə 107,6 min nəfər (4,6 faiz), 1980-1990-cı illərdə 60,2 min nəfər (1,76 faiz) təşkil etmişdirsə, 1990-2001-ci illərdə bu göstərici xeyli azalaraq 57,1 min nəfərə (1,42 faiz) düşmüşdür. Başqa sözlə desək,

23-cü cədvəl [139]

Azərbaycan Respublikasının müxtəlif şəhər və rayonlarında səhiyyənin əsas inkişaf göstəriciləri (2001-ci ildə Səhiyyə Nazirliyi sistemi üzrə)

Şəhər və rayonlar	Həkimlərin sayı	Əhalinin hər 10.000 nəfərinə həkimlərin sayı	Orta tibb işçilərinin sayı	Əhalinin hər 10.000 nəfərinə orta tibb işçilərinin sayı	Xəstəxanaların sayı	Xəstəxana çarpaylarının sayı	Əhalinin hər 10.000 nəfərinə xəstəxana çarpaylarının sayı	Əhaliyə ambulatoriya-poliklinika yardımı göstərən müalicə müəssisələrinin sayı
Bakı	15209	83,7	19596	107,8	96	20707	113,9	186
Əli Bayramlı	250	35,3	687	95,6	5	730	103,0	9
Gəncə	1213	40,2	2108	69,9	18	2525	83,8	32
Mingəçevir	407	43,0	1050	111,0	8	1150	121,6	15
Sumqayıt	1162	40,3	2753	95,5	14	2450	85,0	26
Naxçıvan MR	683	18,7	2824	77,5	53	3540	97,1	104
Bərdə	302	22,7	967	72,8	16	940	70,7	50

[138] Azərbaycanın əhalisi. 2001. Bakı, 2001, s. 17 və Azərbaycan rəqəmlərdə. 2003. Bakı, 2003, s. 9.

[139] Azərbaycanın statistik göstəriciləri. 2002. s. 281-282.

Ağcabədi	146	13,2	618	56,0	12	715	81,8	18
Ağdaş	145	15,8	637	69,5	9	715	78,0	19
Astara	104	11,9	520	59,5	15	715	81,8	18
Balakən	135	15,8	506	59,3	6	556	65,2	14
Qazax	273	33,1	741	89,8	12	1205	146,1	29
Qax	139	26,6	510	97,5	9	635	121,4	17
Qəbələ	118	13,7	381	44,1	7	365	42,3	11
Quba	194	13,9	547	39,1	16	510	36,4	19
Qusar	121	14,6	387	46,6	9	415	50,0	19
Daşkəsən	21	6,7	193	61,9	7	385	123,4	13
İmişli	107	10,0	473	44,4	10	356	50,3	20
Yardımlı	52	10,0	167	32,2	7	290	56,0	21
Yevlax	177	16,1	572	52,0	13	875	79,5	23
Göyçay	193	18,8	580	56,4	10	800	77,7	32
Lənkəran	411	21,2	1070	55,2	17	1395	72,0	48
Saatlı	101	11,9	208	24,4	6	390	45,8	17
Sabirabad	148	10,5	591	42,0	17	855	60,8	36
Salyan	315	27,4	797	69,4	13	1340	116,6	37
Tovuz	352	24,0	1167	79,6	20	1310	89,4	39
Cəlilabad	238	13,5	802	45,6	18	1205	68,5	38
Şamaxı	127	15,3	429	51,6	3	420	50,5	19
Şəki	383	23,8	1284	79,8	17	1505	93,5	35
Xanlar	71	13,3	56	41,5	4	110	81,5	9

respublikamızın əmək ehtiyatlarının sayı 1960-1970-ci illərdə 437 min nəfər artaraq 1899 min nəfərdən 2336 min nəfərə, 1970-1980-ci illərdə 1076 min nəfər artaraq 3412 min nəfərə, 1980-1990-cı illərdə 602,5 min nəfər artaraq 4014,5 min nəfərə, 1990-2001-ci illərdə isə 881,7 min nəfər artaraq 4896,2 min nəfərə çatmışdı.[140]

Rəsmi statistik məlumatların təhlilindən aydın olur ki, respublikamızın əhalisinin yaş quruluşunda uzun illərdən bəri, bir qayda olaraq, əmək qabiliyyətli yaşında olanlar (1970-ci il istisna olmaqla) onların yarısından çoxunu təşkil edir. 24-cü cədvəlin məlumatlarından göründüyü kimi, 1959-2002-ci illəri əhatə edən 43 ildən bəridir ki, burada əmək qabiliyyətli yaşda olan adamlar bütün əhalinin tərkibində 51,5-60,1 faiz arasında tərəddüd edir. Hazırda respublika əhalisinin 30,4 faizini əmək qabiliyyətli yaşından kiçik olanlar, 60,1 faizini əmək qabiliyyətli yaşda olanlar, 9,5 faizini isə əmək qabiliyyətli yaşını ötmüş adamlar təşkil edirlər. 24-cü cədvəlin məlumatlarının təhlilindən

[140] Əmək bazarı. Rəqəm və diaqramlarda. 1996.Bakı, 1996, s.11; Azərbaycanın statistik göstəriciləri. 2002. Bakı, 2002, s. 69; Əmək bazarı. 2003. (Statistik Məcmuə), Bakı 2003, s. 28.

aydın olur ki, 1959-2002-ci illəri əhatə edən 43 il ərzində Azərbaycanda bütünlükdə əhalinin sayı 2,2 dəfə, o cümlədən əmək qabiliyyətli yaşından kiçik olanların sayı 1,7 dəfə (76,2 faiz), əmək qabiliyyətli yaşında olanların sayı 2,6 dəfə, əmək qabiliyyətli yaşından yuxarı olanların sayı isə 2,0 dəfəyə yaxın (97,5 faiz) artmışdır. Bu isə o deməkdir ki, son illərdə respublikamızda əhalinin doğum səviyyəsinin aşağı düşməsi nəticəsində burada əhalinin tərkibində əmək qabiliyyətli yaşından kiçik olanların (0-15 yaşında) sayı əmək qabiliyyətli yaşında olan və bu yaşı ötüb keçənlərin sayına nisbətən daha ləng artmağa başlamışdır ki, bu da yaxın gələcəkdə əhalinin «qocalması» prosesinin sürətlənməsinə və əmək ehtiyatlarının artım sürətinin azalmasına səbəb olmaqla xalq təsərrüfatı sahələrinin iş qüvvəsi ilə təmin edilməsi işini xeyli çətinləşdirə bilər.

Azərbaycanın əmək potensialının formalaşmasına təsir edən amillərdən biri də əhalinin yaş quruluşunda baş verən dəyişikliklərdir (25-ci cədvələ bax). 25-ci cədvəldən göründüyü kimi, respublika əhalisinin yaş tərkibində baş verən ən mühüm dəyişikliklərdən biri əhalinin ümumi sayında gənclərin (29 yaşınadək olanların) xüsusi çəkisinin tədricən azalmağa doğru meyl etməsidir. Respublika əhalisinin tərkibində olanların xüsusi çəkisi 1979-cu ildə 65,8% təşkil etdiyi halda, 1989-cu ildə 62,6%, 1999-cu ildə 57,4%, 2002-ci ildə isə 55,3% təşkil etmişdir. Öyrənilən dövrdə respublika əhalisinin yaş tərkibindəki dəyişiklikləri xarakterizə edən mühüm əlamətlərdən biri də əhalinin ümumi sayında əmək qabiliyyətli yaşından kiçik olanların (0-15 yaşında) xüsusi çəkisinin azalaraq 1959-cu ildəki 37,2%-dən 1979-cu ildə 35,3%-ə, o cümlədən 5-9 yaşında olan uşaqların xüsusi çəksinin 12,2%-dən 11,4%-ə düşməsi, 10-14 yaşında olanların xüsusi çəkisinin isə 7,8%-dən 12,8%-ə qalxması, sonrakı illərdə isə bu, azalmağa doğru meyl etməyə başlamışdır. Statistik rəqəmlərdən görünür ki, hazırda respublika əhalisinin tərkibində onların xüsusi çəkisi 1959-1979-cu illərdəkinə nisbətən xeyli azalaraq, 2002-ci ildə müvafiq surətdə 28,7%, 10,1% və 11,5% təşkil etmişdir.

24-cü c

Azərbaycan Respublikasında əhalinin əmək quruluşunun dəyişilməsi dinamikası

	1959-cu ildə		1970-ci ildə		1979-cu ildə		1989-cu ildə		1999-cu ildə		2002
	cəmi (min nəfər)	yekuna nisbətən, faizlə	cəmi (min nəfər)	yekuna nisbətən, faizlə	cəmi (min nəfər)	yekuna nisbətən, faizlə	cəmi (min nəfər)	yekuna nisbətən, faizlə	cəmi (min nəfər)	yekuna nisbətən, faizlə	cəmi (min nəfər)
cəmi əhali	3698,0	100,0	5117,1	100,0	6026,5	100,0	7021,2	100,0	7953,4	100,0	8141,4
o cümlədən əmək qabiliyyətli yaşadək	1406,0	38,0	2363,1	46,2	2297,6	38,1	2433,3	34,7	2720,4	34,2	2478,4
əmək qabiliyyətli yaşda	1902,0	51,5	2242,8	43,8	3183,9	52,8	3888,0	55,4	4515,4	56,8	4892,9
əmək qabiliyyətli yaşdan yuxarı	390,0	10,5	511,2	10,0	545,0	9,1	699,9	9,9	717,6	9,0	770,1

[141] B a x: Итоги Всесоюзной переписи населения. Т.П.М., «Статистика», 1972, s. 42-43 və Az
rəqəmlərdə 1995. B., 1996, s. 17; Azərbaycanın statistik göstəriciləri. 2002, Bakı, 2002, s. 47.

25-ci cədvəl [142]

1959-2002-ci illərdə Azərbaycan Respublikası əhalisinin yaş quruluşunun dinamikası

	min nəfərlə					Faizlə				
	1959	1979	1989	1999	2002	1999	1979	1989	1999	2002
Cəmi əhali	3697,7	6026,5	7021,2	7953,4	8184,4	100,0	100,0	100,0	100,0	100,0
o cümlədən: 0-4 yaşında	635,0	671,2	861,9	710,9	574,0	17,2	11,1	12,3	8,9	7,1
5-9 yaşında	450,6	688,4	758,8	920,9	824,5	12,2	11,4	10,8	11,6	10,1
10-14 yaşında	288,4	774,5	681,2	901,2	931,0	7,8	12,8	9,7	11,3	11,5
15-19 yaşında	291,6	811,5	693,7	756,7	848,2	7,9	13,5	9,9	9,5	10,4
20-24 yaşında	396,8	620,7	687,2	648,0	703,0	10,7	10,3	9,8	8,2	8,6
25-29 yaşında	342,9	401,9	706,4	629,1	619,3	9,3	6,7	10,1	7,9	7,6
30-34 yaşında	287,4	247,8	560,9	682,6	650,2	7,8	4,1	8,0	8,6	8,0
35-39 yaşında	158,3	267,1	389,2	699,3	691,5	4,3	4,4	5,5	8,8	8,5
40-44 yaşında	129,9	384,3	232,3	533,0	652,8	3,5	6,4	3,3	6,7	8,0
45-49 yaşında	153,8	309,0	256,7	343,3	434,4	4,1	5,1	3,6	4,3	5,3
50-54 yaşında	131,2	252,3	355,8	199,9	293,8	3,5	4,2	5,1	2,5	3,6
55-59 yaşında	121,2	139,0	258,9	211,8	148,6	3,3	2,3	4,1	2,7	1,8
60-64 yaşında	99,8	112,1	217,0	282,0	258,9	2,7	1,9	3,1	3,5	3,2
65-69 yaşında	69,3	121,5	108,3	199,3	228,5	1,9	2,0	1,5	2,5	2,8
70 və yuxarı yaşında	141,5	224,9	226,0	236,3	282,7	3,8	3,7	3,2	3,0	3,5
Əmək qabiliyyətli yaşda	1902,2	3183,9	3288,0	4515,4	4892,9	51,4	52,8	55,4	56,8	60,1

[142] Население СССР. 1987. М., 1988, s. 68-69; Azərbaycanın əhalisi 2001, s. 19; Azərbaycanın statistik göstəriciləri. 2001. Bakı, 2001. s. 47-48.

Azərbaycan Respublikası əhalisinin demoqrafik quruluşunda baş verən daha bir mühüm əlamət müqayisə edilən dövrdə əhalinin cins quruluşundakı dəyişikliklərlə səciyyələnir. Burada əhalinin cins quruluşunda baş verən dəyişikliklər 26-cı cədvəldə öz əksini tapmışdır. Həmin cədvəlin məlumatlarından göründüyü kimi, Böyük Vətən müharibəsinədək olan dövrdə respublikada kişilərin sayı qadınların sayını üstələdiyi halda, müharibənin nəticəsi olaraq sonrakı illərdə qadınların sayı kişilərin sayını üstələməyə başlamış və bu proses hazırkı dövrədək davam etməkdədir. Məsələn, 1959-cu ildən başlayaraq, qadınlarla kişilərin say nisbəti arasındakı fərq tədricən azalmağa başlamış və bu fərq 1959-cu ildə qadınların xeyrinə 184,5 min nəfər olduğu halda, 1998-ci ildə isə 110,3 min nəfərədək azalmasına baxmayaraq, 2003-cü ildə yenidən artaraq 156,5 min nəfərə çatmışdır.

Göstərmək lazımdır ki, qadınların sayı ilə kişilərin sayı arasındakı qeyd edilən nisbətin pozulması əhalinin nikah səviyyəsinə, bu isə öz növbəsində həm əhalinin ümumi sayına və həm də əmək ehtiyatlarının artımına öz mənfi təsirini göstərmişdir. ***Onu da qeyd etmək lazımdır ki, həmişə gənclər və uzunömürlülər diyarı kimi söhrət tapmış respublikamız indi artıq bu sahədəki qabaqcıllığını itirmək ərəfəsindədir.*** Belə ki, əgər hazırda dünyanın əksər inkişaf etmiş ölkələrində əhalinin orta ömür müddəti kişilər üzrə 74-75, qadınlar üzrə isə 80,0-80,3 yaş arasında tərəddüd edir və qadınlar arasında bu göstərici ABŞ-da 80,1; Kanadada 81,9; Avstriyada 81,2; İsveçdə 81,0; Fransada 82,1; Norveçdə 81,3; İtaliyada 81,3; İspaniyada 81,6; İngiltərədə 80,0; Finlandiyada 80,8; Belçikada 80,3; Yaponiyada 83,0 yaş, kişilər arasında isə müvafiq surətdə 73,5-76,9 yaş təşkil edirsə, Azərbaycanda müvafiq surətdə cəmi 71,8, 68,6 və 75,1 yaşdır.[143]

Beləliklə, hazırda Azərbaycan Respublikasında demoqrafik inkişafın ümumi vəziyyəti – əhalinin sağlamlığının nisbətən pisləşməsi, doğum səviyyəsinin aşağı düşməsi, ölüm səviyyəsinin (əsasən əmək qabiliyyətli yaşda və körpələr arasında) nisbətən

---

[143] Демографический Ежегодник России. М., 2000, с. 381-383; Azərbaycan əhalisi, 2001. B., 2001, s. 27.

yüksək olaraq qalması, gözlənilən ömür müddətinin nisbətən aşağı olması (əsasən kişilərdə), ana və uşaq ölümünün yüksəkliyi və əhalinin artım sürətinin kəskin surətdə azalması və demoqrafik «qocalması» prosesinin sürətlənməsi, nikah kəsdirənlərin sayca azalması, boşanma hallarının nisbətən sabit qalması və s. proseslərlə səciyyələnir. Apardığımız tədqiqatlara əsasən müəyyən edilmişdir ki, son dövrlərdə ölkəmizdə mövcud olan demoqrafik vəziyyətin kəskinləşməsinə təsir edən mühüm amillərə aşağıdakıları aid etmək olar.

26-cı cədvəl [144]

Azərbaycan Respublikasında əhalinin cins tərkibinin dəyişilməsi dinamikası

İllər	Əhalinin sayı	O cümlədən		Yekuna nisbətən, faizlə		Hər 1000 nəfər kişiyə düşən
	(min nəfər)	kişilər	qadınlar	kişilər	qadınlar	qadınların sayı, nəfərlə
1939	3205,2	1642,6	1562,6	51,2	48,8	951,3
1959	3697,7	1756,6	1941,1	47,5	52,5	1105,0
1970	5117,1	2483,0	2634,1	48,5	51,5	1060,0
1979	6028,3	2938,8	3089,5	48,8	51,2	1051,3
1989	7021,2	3423,8	3597,4	48,8	51,2	1050,7
1990	7131,9	3481,7	3650,2	48,8	51,2	1048,4
1991	7218,5	3524,1	3694,4	48,8	51,2	1048,3
1993	7440,0	3641,2	3798,8	48,9	51,1	1043,3
1994	7549,6	3702,5	3847,1	49,0	51,0	1039,1
1995	7643,5	3754,6	3888,9	49,1	50,9	1035,8
1998	7876,7	3883,2	3993,5	49,3	50,7	1028,4
2000	8016,2	3918,3	4097,9	48,9	51,5	1045,8
2001	8081,0	3954,5	4126,5	48,9	51,1	1043,5
2003	8202,5	4023,0	4179,5	49,1	50,9	1038,9

Birinci, bazar münasibətlərinə keçid və 1988-1995-ci illərdə ölkədə yaranmış sosial-iqtisadi böhranla əlaqədar olaraq əhalinin əksər sosial-demoqrafik qruplarından və təbəqələrindən olan hissəsinin yaşayış vəziyyətinin pisləşməsi, onlar arasında kəskin tərqin mövcud olması; **ikinci**, sosial-infrastruktur

[144] Azərbaycanın əhalisi. 2003. Bakı, 2003, s. 21.

sahələrinin son dərəcə zəif inkişaf səviyyəsinin mövcud olması və əhalinin əksər hissəsinin onların xidmətlərindən lazımı səviyyədə istifadə etmək imkanının olmaması; **üçüncü**, Ermənistanın silahlı qüvvələrinin hərbi təcavüzü nəticəsində əhalinin ölüm səviyyəsinin artması, respublika ərazisinin 20 faizinin işğal edilməsi, 1 milyon nəfərədək qaçqın və məcburi köçkünün mövcud olması, işğal olunmuş ərazilərdə 300 mindən çox iş yerinin itirilməsi; **dördüncü**, ölkə əhalisinin arasında müxtəlif xəstəliklərin artması; **beşinci**, əhali tərəfindən istehlak edilən ərzaq məhsullarının keyfiyyətinə və satışına nəzarətin zəif olması; **altıncı,** ekoloji tarazlığın pozulmasının sürətlənməsi və ona nəzarətin zəif olması; **yeddinci**, sağlam yaşayış tərzinin ləng formalaşması və onun təbliğinin aşağı səviyyədə olması; **səkkizinci**, ölkədə miqrasiya prosesinin tənzimlənməməsi və nəhayət **doqquzuncu**, son vaxtlaradək dövlətin milli demoqrafik inkişaf konsepsiyası və proqramının olmaması üzündən həmin proseslərin nizamlanmasının məqsədyönlü xarakter daşımaması və bu səbəbdən də demoqrafik siyasət sahəsində həyata keçirilən ayrı-ayrı tədbirlərin sistem halında olmaması və lazımi səmərə verməməsi.

Bu amillərin nəzərə alınmaması yaxın gələcəkdə respublikanın demoqrafik inkişaf vəziyyətinin daha da kəskinləşməsi ilə yanaşı, ölkədə geosiyasi və sosial-demoqrafik vəziyyətin nəzərəçarpacaq dərəcədə kəskinləşməsinə, dövlət tərəfindən sosial sığortanın və pensiya təminatının müəyyənləşdirilməsinin genişlənməsinə, azuşaqlı ailə modelinin formalaşmasına, əmək potensialının kəmiyyət-keyfiyyət tərkibinin mənfi istiqamətdə dəyişməsinə, gənclər kontingentinin azalmasına səbəb olmaqla **əhalinin nəinki geniş təkrar istehsalı prosesinin, hətta sadə təkrar istehsal prosesinin də həyata keçməsinə imkan verməz və ölkənin** təhlükəsizliyinə mənfi təsir göstərə bilər. Lakin demoqrafik proseslərdə baş verən bütün bu mənfi meyllərə və dəyişikliklərə baxmayaraq, respublikamız kifayət qədər əmək ehtiyatlarına malikdir.

Qonşu Zaqafqaziya dövlətlərində və bir sıra başqa MDB ölkələrində olduğuna nisbətən (Orta Asiya ölkələri və Qazaxıstan istisna olmaqla) respublikamızda hələ də əhalinin təbii tək-

rar istehsal göstəricilərinin səviyyəsi əhalinin və onun mühüm tərkib hissəsini təşkil edən əmək ehtiyatlarının artımı üçün müəyyən imkanlara malikdir. Bunu ondan görmək olar ki, əgər 2002-ci ilin məlumatlarına əsasən Rusiya əhalisinin hər 1000 nəfərinə düşən təbii artımın səviyyəsi – 6,5 nəfər, Belorusda – 4,9 nəfər, Moldovada – 1,0 nəfər, Ukraynada – 7,6 nəfər, Gürcüstanda – 0,2 nəfər azalmış, Ermənistanda isə cəmi 2,1 nəfər təşkil etmişdirsə, Azərbaycanda bu göstərici 8,0 nəfər olmaqla Ermənistan Respublikası ilə müqayisədə 4,0 dəfə yüksəkdir.[145] Onu qeyd etmək lazımdır ki, 1994-2002-ci illəri əhatə edən 9 il ərzində respublikamızda 325 min yeni ailə qurulmuş, 1144 min nəfər uşaq doğulmuş və nəticədə ölkəmizin əhalisinin sayı həmin dövrdə 7,3 faiz artaraq 7643,5 min nəfərdən 8202,5 min nəfərə, onun əmək ehtiyatlarının sayı isə təqribən 17,7 faiz artaraq 4161,1 min nəfərdən 4896,2 min nəfərə gəlib çatmışdır. Bu dövrdə respublikamızda bir milyon nəfərdən çox uşaq məktəbli yaşına, təqribən o qədər də yeniyetmə yetkinlik yaşına çatmışdır.

2002-2003-cü tədris ilində respublikamızın bütün təhsil məktəblərində 1918 min nəfər, o cümlədən ümumtəhsil məktəblərində 1709 min nəfər, orta ixtisas təhsili məktəblərində 51 min nəfər, ali məktəblərdə 120 min nəfər, peşə məktəblərində isə 21 min nəfər təhsil almışdır.[146] **Bütün bunlar isə sadəcə statistik kəmiyyət olmayıb, respublikanın gələcək intellektual insan potensialının formalaşmasının təbii əsasını təşkil edən sosial-iqtisadi və demoqrafik inkişaf göstəriciləridir.**

İndi vəzifə həmin potensialdan səmərəli istifadə edilməsi strategiyasının işlənib hazırlanmasından və onun həyata keçirilməsindən ibarətdir. Onu da qeyd etmək lazımdır ki, hazırda MDB ölkələrində yaranmış demoqrafik vəziyyətdən və onun quruluşundan aydın olur ki, Azərbaycan Respublikası Orta

---

[145] Xalqa həsr olunan illər. Bakı, «Səda» nəşriyyatı, 2003, s. 41; Azərbaycanın statistik göstəriciləri. 2002. Bakı, 2002, s.46. Azərbaycan rəqəmlərdə. 2003. Bakı, 2003, s. 9.

[146] Əmək bazarı. Rəqəm və diaqramlarda. Statistik məcmuə. 2002. Bakı, 2002, s. 16; Azərbaycanın statistik göstəriciləri. 2002, Bakı, 2002, s. 68; Azərbaycan rəqəmlərdə. 2003. Bakı, 2003, s. 9.

Asiya respublikalarından sonra öz demoqrafik inkişaf potensialına görə Müstəqil Dövlətlər Birliyi ölkələri arasında 5-ci yeri tutur və gələcəkdə burda əmək potensialının artımını təmin edə biləcək xeyli sayda gənc insan potensialı və onun artımı üçün zəruri olan şəraitin hələ uzun müddət qorunub saxlanması imkanları vardır. Bunu hazırda MDB ölkələrində mövcud olan əhalinin demoqrafik quruluşunun vəziyyətini xarakterizə edən 27-ci cədvəlin məlumatlarından daha aydın görmək olar. Həmin cədvəlin məlumatlarına əsasən əhalinin demoqrafik quruluşuna görə MDB ölkələrini üç qrupa bölmək olar:

Birinci qrup ölkələrə Belorus, Gürcüstan, Rusiya və Ukrayna daxildir. Bu ölkələrdə bütünlükdə əhalinin tərkibində 65 və yuxarı yaşında olanların xüsusi çəkisi 13-14 faiz, uşaqların xüsusi çəkisi isə 18-20 faizdən yuxarı qalxmır. Bu ölkələrdə qadınların sayı xüsusilə də təqaüd yaşlı adamlar arasında üstünlük təşkil edir və həmin dövlətlərdə qocalma prosesi hələ 60-cı illərdə başlamışdır.

İkinci qrupa Orta Asiya ölkələri və Azərbaycan Respublikası daxildir. Bu ölkələrdə uşaqların xüsusi çəkisi 32 faizlə (Azərbaycanda) 42 faiz (Tacikistanda) arasında, yaşlıların xüsusi çəkisi isə 4,1-5,5 faiz arasında tərəddüd edir. Bu ölkələrdə qadınlarla kişilərin sayı təqribən bərabərdir. ***Üçüncü qrup ölkələrə*** isə Ermənistan, Qazaxıstan və Moldova aiddir. Bu ölkələrdə uşaqların xüsusi çəkisi 23,7-28,7 faiz, yaşlıların xüsusi çəkisi isə 6,8-9,4 faiz arasındadır. 27-ci cədvəldəki rəqəmlərdən

27-ci cədvəl [147]

MDB ölkələrində əhalinin demoqrafik quruluşu

MDB ölkələri	2001-ci ilin əvvəlinə əhalinin sayı (milyon nəfər)	Aşağıdakı yaşlarda olan əhalinin xüsusi çəkisi			Hər 1000 nəfər əhaliyə düşür	
		0-14 yaşda	15-64 yaşda	65 və yuxarı yaşda	0-14 yaşda	65 və yuxarı yaşda
Belorus	9,99	18,9	67,8	13,3	279	196
Gürcüstan	5,1	20,4	66,3	13,3	308	201

[147] «Демографическая ситуация и формирования общего рынка труда государств-участников СНГ. ЗАО «Финстатинформ». М., 2001, s. 28.

Rusiya	144,8	18,3	69,2	12,5	264	181
Ukrayna	49,0	17,8	68,4	13,8	261	202
Ermənistan	3,8	24,2	66,9	8,9	362	132
Qazaxıstan	14,8	28,7	64,5	6,8	445	105
Moldova	4,3	23,7	66,9	9,4	355	140
Azərbaycan	8,1	31,8	62,7	5,5	508	87
Qırğızıstan	4,9	35,2	59,4	5,4	592	62
Tacikistan	6,2	42,4	53,5	4,1	793	77
Türkmənistan	4,8	37,9	58,2	3,9	652	66
Özbəkistan	24,9	38,3	57,5	4,2	665	73

aydın olur ki, **MDB ölkələrinin hamısı üçün yaşlı əhalinin xüsusi çəkisinin artması, uşaqların xüsusi çəkisinin isə azalması səciyyəvidir.** Nəzərə alsaq ki, bu ölkələrin hamısında əhalinin doğum səviyyəsi azalmaqda və 40-60 yaşlı adamlar **arasında ölüm səviyyəsi sürətlə artmaqda davam edir, onda gələcəkdə bu ölkələrdə əhalinin və onun mühüm tərkib hissəsi olan əmək ehtiyatlarının azalması təhlükəsinin yaxında olmasına şübhə qalmır.** Ona görə də bu ölkələrdə təxirə salınmadan əhalinin təbii təkrar istehsalının nizamlanmasına yönəldilmiş **demoqrafik siyasət tədbirlərinin işlənib hazırlanması və həyata keçirilməsinin nə demək olduğunu sübut etməyə ehtiyac yoxdur.** Çünki gələcəkdə vəziyyət belə davam edərsə, bu ölkələrin hamısında əhalinin, o cümlədən əmək ehtiyatlarının nəinki geniş təkrar istehsalını, həm də sadə.təkrar istehsalını belə təmin etmək mümkün olmayacaqdır.

II FƏSİL

ƏMƏK BAZARININ ÖYRƏNİLMƏSİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI

2.1. ƏMƏK BAZARI: SOSİAL-İQTİSADİ MAHİYYƏTİ, MƏZMUNU VƏ NİZAMLANMASININ NƏZƏRİ-METODOLOJİ ƏSASLARI

Əmək bazarı - əmtəə, kapital, qiyəmtli kağızlar, investisiya və sair bazarlar kimi, bazar iqtisadiyyatının mühüm tərkib hissələrindən birini təşkil edir.

İqtisad elmində ***əmək bazarı nəzəriyyəsinin əsasını*** klassik məktəbin nümayəndələri-şotland iqtisadçısı Adam Smit (1723-1790), ingilis iqtisadçısı David Rikardo (1772-1883) və onun müasiri fransız iqtisadçısı Jan-Batist Sey (1767-1832) qoymuşlar. Adam Smit maddi, maliyyə və insan resurslarından optimal istifadəni azad rəqabətdə görür və sübüt edirdi ki, ölkənin iqtisadiyyatında əhalinin məşğulluğunun həcmi bir işçinin orta əmək haqqı məbləği ilə müəyyən edilir. Başqa sözlə desək, əgər əmək haqqının orta məbləği artırsa, onda əhalinin məşğulluğunun təmin edilməsi imkanları azalır. David Rikardo isə əmək haqqı məbləğinin əməyə olan tələbatından asılılığını sübüt edirdi. O, belə hesab edirdi ki, əmək haqqının artması, əhalinin təkrar istehsalının normal qaydada həyata keçirilməsi üçün tələb edilən minimum səviyyədən yuxarı olması əmək təklifinin artmasına, bu isə öz növbəsində əmək haqqının aşağı düşməsinə təsir göstərir. J.B. Sey isə tələblə təklif arasındakı qarşılıqlı təsirin və bu əsasda alqı - satqı predmetinin, o cümlədən əməyin (iş qüvvəsinin) qiymətinin tarazlığının əldə edilməsinin qanununu formalaşdırmışdır.

XIX əsrin axırlarında və iyirminci əsrdə bazar nəzəriyyəsi bir sıra görkəmli iqtisadçıların - Alfred Marşal ( ), Con Meynard Keyns ( ), Paul Samuelson, R.C.Erenberq, R.S.Smit, habelə L.A.Kostin, A.A.Nikiforova, A.E.Kotlyar, S.A.Kuzmin, A.İ.Rofe, L.N.Sosnovskaya və başqalarının əsərlərində geniş şərh edilmişdir. Bu alimlərin əsərlə-

rində əmək bazarına dair bir-birindən fərqli xeyli fikirlər söylənsə də, nəticə etibarı ilə onların demək olar ki, hamısı eyni bir məntiqə gəlib çıxırlar ki, ***əmək bazarı dedikdə, iş qüvvəsinin*** təkrar istehsalı, mübadiləsi və istifadəsini təmin edən ictimai münasibətlər, sosial norma və institutlar başa düşülür.[148]

Məsələnin mahiyyətini aydınlaşdırmaq üçün bir neçə mütəxəssisin fikirlərinə müraciət etmək kifayətdir. Məsələn, iqtisad elmləri doktoru, ***professor İ.S.Maslovanın fikrincə, əmək bazarı dedikdə – istehsal vasitələrinin sahibləri, işverənlərlə iş qüvvəsinin sahibləri – muzdlu fəhlələr arasında birincilərin əməyə olan tələbi və ikincilərin muzdlu işə olan təklifinin ödənilməsi dəyəri arasında formalaşan münasibətlər sistemi başa düşülür.*** Amerikan alimləri ***R.D.Erenberq və R.S.Smitin fikrincə isə işçiləri işlə təmin edən və məşğulluq dairəsində qərarları koordinasiya edən bazara əmək bazarı deyilir. Əmək bazarı işçilərlə iş yerlərinin sayı arasındakı nisbətlərin nizamlanması mexanizmidir.*** Eyni məqsədlə çıxış edən ***A.A.Nikiforova isə yazır ki, ictimai münasibətlər sistemi kimi yaranmış əmək bazarı bu bazarda iştirak edən qüvvələrin: sahibkarların, zəhmətkeşlərin və dövlətin arasında əldə edilmiş maraqlar balansını və inkişaf səviyyəsini özündə əks etdirir.***[149] Başqa bir iqtisadçı ***V.İ.Plaksya isə belə hesab edir ki, əmək bazarı əmtəə bazarının özünəməxsus bir növü olub xüsusi növ əmtəənin - iş qüvvəsinin və ya insanların əmək qabiliyyətinin reallaşmasını*** (alqı-satqısını) ***özündə əks etdirir. İş qüvvəsi bazarı iqtisadi kateqoriya kimi bir tərəfdən, bu əmtəənin sahibi, iş qüvvəsinin sahibi ilə onun satıcısı, digər tərəfdən də kapitalın sahibi, iş***

---

[148] B a x: *Самуелсон Н.А.* Экономика. Вводный курс. Пер. с анг. Т.1. М; 1993; *Еренберг Р.Д., Смит Р.С.* Современная экономика труда. Теория и Государственная политика. Пер. с англ. М., 1996; *А.А.Никифорова.* Рынок труда; Занятость и безработица. М., 1991; *Сосновская Л.Н.* Основы теории рынка труда. С-.Пб, 1992; *Л.А.Костин, Г.М.Зушина, Р.М.Султанова.* Рынок труда и теории занятости. Учебное пособие, М., 1997; *А.И.Рофе, Б.Г.Збышко, В.В.Ишин.* Рынок труда, занятость населения, экономика ресурсов для труда. Учебное пособие. М., Изд-во «МИК», 1998 və başqaları

[149] Рынок труда в России: Проблемы формирования и регулиривания. Под ред. К.И.Микульского, М., Низко, 1995, с.13. Российский рынок труда. М., 1993, с.13.

qüvvəsinin alıcısı arasındakı iqtisadi münasibətləri əks etdirir.[150] *Digər bir qrup iqtisadçılarının fikrincə isə əmək bazarı müəyyən iqtisadi müstəvidə işverənlərlə muzdlu işçilər arasındakı qarşılıqlı münasibətlərin fəaliyyət mexanizmidir.*[151] *A.İ.Rofenin* başçılıq etdiyi iqtisadçılar qrupu isə belə hesab edirlər ki, *əmək bazarı hər şeydən əvvəl muzd və əmək təklifi ilə bağlı olan ictimai münasibətlər sistemidir: bu həm də özünəməxsus əmtəənin- əməyin alıcıları ilə satıcılarının qarşılıqlı hərəkət etdiyi iqtisadi münasibətlər, işədüzəlmə idarəsidir: bu, nəhayət işverənlərlə müzdlü işçilərin qiymət və əmək şəraiti üzrə razılaşmanın təmin edilməsi mexanizmidir.*[152]

Bütün bu deyilənləri yekunlaşdırsaq, belə qənaətə gəlmək olar ki, *əmək bazarı dedikdə – ən ümumi halda işverənlərlə muzdlu fəhlələr, iş qüvvəsi alıcıları ilə onun satıcıları arasında birincilərin əməyə olan tələbləri ilə ikincilərin işə olan təkliflərinin ödənilməsi üzrə formalaşan iqtisadi münasibətlər sistemi başa düşülür.*

Ayrı-ayrı ölkələrdə əmək bazarının xüsusiyyətləri və cəhətlərinə isə müxtəlif kontekslərdən yanaşmaq olar: ya iqtisadi və sosial amillərin qaşılıqlı əlaqəsində və yaxud da ayrılıqda o cəhətlərə ki, onlar ancaq əmək bazarının özünə məxsusdur.

İnkişaf etmiş bazar ölkələrində iqtisadiyyatın və sosial dairənin inkişafındakı bütün oxşarlıqlara baxmayaraq, ayrı-ayrılıqda götürüldükdə, hər bir ölkədə həyata keçirilən məşğulluq siyasəti bu ölkələrdə əmək bazarının müxtəlif modellərinin yaranmasına gətirib çıxarmışdır. **İqtisadi ədəbiyyatlarda** bu əmək bazarı modelləri **iki tipə – xarici (və ya peşə) və daxili (və ya qapalı) əmək bazarına bölünürlər.**

Xarici əmək bazarı tipi iş qüvvəsinin müəssisə və firmalar arasındakı mobilliyini nəzərdə tutur. Bu tip əmək bazarı müəssisə

---

[150] *Плакся В.И.* Рынок труда и безработица: Вопросы теории, методологии, государственного регулирования. Автореферат докт. дисс. ученой степени доктора экономич. наук. М., 1996, с.16.

[151] *Л.А.Костин, Т.М.Зушина, Р.М.Султанова.* Рынок труда и теории занятости. М., 1997, с.6.

[152] *А.И.Рофе, Б.Г.Вбишко, В.В.Ишин.* Рынок труда, занятости населения, экономика ресурсов для труда. М., Изд-во «МИК», 1998, с.47.

və firma daxilində işçilərin hərəkətinin şaquli və üfüqi surətdə yerləşdirilməsinə, daha doğrusu, əvvəlki işlərinin xarakteri və funksiyalarına uyğun şəkildə və yaxud daha yüksək vəzifə və dərəcəli yeni iş yerlərində yerləşdirilməsinə əsaslanır. Xarici əmək bazarı işçilərin elə peşələrə malik olmasını nəzərdə tutur ki, onların müxtəlif müəssisə və firmalarda işə düzəlməsinə imkan versin.

Xarici əmək bazarı demoqrafik əlamətlərinə və peşə fərqlərinə görə isə bir sıra bazarlara bölünür. **Demoqrafik əlamətlərinə** görə - xarici əmək bazarı gənclər, yaşlı zəhmətkeşlər, qadınlar, əlillər və yaşlı əhali; **peşə fərqlərinə** görə isə mühəndislər, müəllimlər, həkimlər, iqtisadçılar, hüquqşünaslar və sair əmək bazarlarına ayrılırlar.

Gənclərin əmək bazarı – onların yüksək mobilliyi, nisbətən aşağı peşə-ixtisas səviyyəsinə malik olması, tez-tez iş yerlərini dəyişmələri ilə fərqlənir. Bu əmək bazarında fəaliyyət göstərən gənclər daha uzun müddət çalışmaq, yeni peşələrə yiyələnmək və ixtisaslarını artırmaq imkanlarına malikdirlər. Onlar habelə malik olduqları enerjilərinə və yeni iş şəraitinə daha tez uyğunlaşa bilmək bacarıqlarına görə də fərqlənirlər. Onların belə keyfiyyətləri üçün də sahibkarlar və işverənlər Azərbaycanın əmək bazarında həmin gəncləri işə götürmək üçün axtarırlar. Eyni zamanda bu gənclərin bir çoxu yüksək peşə-ixtisas səviyyəsinə malik olmadıqları üçün işə düzələ bilmir və işsizlər sırasına daxil olurlar.

Yaşlı zəhmətkeşlərin əmək bazarı isə onların yüksək peşə ustalıqları və böyük iş təcrübəsinə malik olmaları ilə yanaşı, aşağı fiziki qüvvəyə və sağlamlığa malik olduqlarından, onların yeni peşələrə yiyələnmək və ixtisaslarını artırmaq imkanları zəifdir.

Əlillərin əmək bazarı – öz əmək fəaliyyətlərini həyata keçirmək üçün xüsusi şərait yaradılmasını tələb edir.

Qadın əmək bazarı - orqanizmlərinin fizioloji əlamətlərinə, uşaq doğub tərbiyə etmək və ev təsərrüfatında məşğul olmaq xüsusiyyətlərinə görə çevik əmək bazarının inkişafını tələb edir.

Məşğulluq və işsizlik səviyyəsi **müxtəlif peşə qrupları və regionlar üzrə də bir-birindən fərqlənir**. Ayrı-ayrı regionlarda və

bütünlükdə ölkədə baş verən sosial-iqtisadi və struktur dəyişikliklərinə müvafiq olaraq, əmək bazarı hansı peşə və ixtisaslara tələbatın olduğunu və hansılarına belə tələbatın olmadığını aşkara çıxarır.

Daxili əmək bazarına gəldikdə isə bu elə əmək bazarı tipidir ki, burada işçilərin eyni firma və ya müəssisədə çalışması üçün zəruri olan ixtisas və peşələr üzrə hazırlanması nəzərdə tutulur. Bu səbəbdən də həmin işçiləri başqa müəssisə və firmalarda yerləşdirmək çox çətindir.

Bütün bu deyilənlər onu göstərir ki, kadrların yalnız müəssisə və firma daxilində hərəkət etdiyi daxili əmək bazarına nisbətən xarici əmək bazarında daha yüksək iş qüvvəsi axıcılığı müşahidə olunur.

Cəmiyyətdə iki əmək bazarı modelinin mövcud olması burada müxtəlif peşə təhsili modelinin olması zərurətini də ortaya atır. Çünki **xarici əmək bazarı** işçilərin müəyyən peşə və ixtisas təhsili müəssisələrini bitirməsi haqqında xüsusi diplom və ya sertifikata malik olmasını tələb edirsə, **daxili əmək bazarı** bundan fərqli olaraq, onların işləmək istədiyi konkret müəssisə və firmanın xüsusiyyətlərinə cavab verə bilən ixtisas və peşələr üzrə hazırlıqlı olmalarını tələb edir.

Ölkədə mövcüd olan bu müxtəlif əmək bazarlarının fəaliyyəti isə məşğulluq dairəsində eyni olmayan müxtəlif nəticələrə gətirib çıxırır. Xarici və ya peşə əmək bazarı **bir tərəfdən**, işçilərin yüksək əmək haqqı almaq, öz statuslarını artırmaq məqsədilə bir kompaniya və müəssisədən başqasına axıb getmələrinə imkan verirsə, **digər tərəfdən** də kompaniya və müəssisələrdə işin həcminin azalması, iş qüvvəsinə sərf edilən xərclərin ixtisar olunması ilə əlaqədar olaraq müəssisə rəhbərləri tərəfindən onların işdən çıxarılmaları üçün yol açır. Ancaq bu zaman heç də bütün öz arzusu və başqa səbəblərdən işdən çıxarılanlar işsizlərə çevrilmirlər. Məsələn, Almaniyada illik iş qüvvəsi axıcılığı 20-25 faiz təşkil etdiyi halda, iş yerlərini dəyişənlərin cəmi $^1/_3$ hissəsi işsizlik statusu alırlar. Lakin bununla belə, istehsalın həcminin azaldığı və başqa zəruri hallarda işçilərin müəssisə daxilində bir iş yerindən digərlərinə keçirilməsi və yaxud iş vaxtının qısaldılması yolu ilə onların müəssisədə saxlanılmasının mümkün ol-

duğu daxili əmək bazarından fərqli olaraq, xarici əmək bazarında işsizliyin yaranması üçün daha geniş zəmin vardır. Xarici əmək bazarından fərqli olaraq, daxili əmək bazarında isə yalnız zəruri hallarda kompaniya və müəssisələrin rəhbərləri işçilərin əmək haqlarını tam saxlamaqla, onların yenidən peşə hazırlığı keçməsi, məşğulluqlarına təminat yaradılması və mövcud əmək potensialından səmərəli istifadə edilməklə işçilərin həmin müəssisə və firmalara işə qəbul olunmaları üçün geniş imkanlar yaradırlar.

Bütün bu deyilənləri yekunlaşdırsaq, Qərb iqtisadçılarının da haqlı olaraq dediyi **kimi, xarici (peşə) əmək bazarı** tsiklik halında inkişaf edən istehsalın, **daxili əmək bazarı** isə iqtisadiyyatdakı struktur dəyişikliklərinin tələbinə cavab verir, ona uyğun gəlir. ***Təcrübədə əmək bazarı şərti olaraq belə iki tipə bölünsə də, bazar iqtisadiyyatı cəhətdən inkişaf etmiş ölkələrdə istehsalın inkişaf meylləri bu əmək bazarı modellərini bir-birinə yaxınlaşdırır.***

Onu da qeyd etmək lazımdır ki, yuxarıda deyilənlərlə yanaşı, bu iki tip əmək bazarının xarakterik olduğu ölkələrdə həyata keçirilən məşğulluq siyasətini nəzərdən keçirmək və ölkəmizdə onların təcrübəsindən istifadə olunması imkanlarını aşkara çıxarmaq həm mühüm elmi və həm də böyük təcrübəvi əhəmiyyət kəsb edir. Bu baxımdan hazırda iqtisadi cəhətdən dünyanın ən çox inkişaf etmiş ölkələrində həyata keçirilən məşğulluq siyasəti modellərinin nəzərdən keçirilməsi də pis olmaz. Bunlara **Yapon, ABŞ**, **İsveç** modelləri aiddir.

Yapon modeli - mütəşəkkil daxili əmək bazarının klassik nümunəsidir. Bu, ölkədə əmək münasibətləri sistemi – **«ömürlük muzd»** sisteminə əsaslanır. Bu sistemin mahiyyəti ondan ibarətdir ki, işçilər konkret bir müəssisədə ən ahıl dövrünədək – 55-60 yaşadak işləmək təminatı (qarantı) alır. **«Ömürlük muzd»** sistemi işçilərin maddi həyat şəraitinin yüksəldilməsinə əmək haqqı, mükafat və sosial müavinatlar verilməsi şəklində həyata keçirmək yolu ilə təminat verilməsini nəzərdə tutur. Müəssisələrdə kadrların «ömürlük muzd»la möhkəmləndirilməsi müəssisə, firma və kompaniyalara imkan verir ki, firmadaxili səviyyədə tələb olunan ixtisasları üzrə işçiləri tam komplektləşdirsin və

operativ surətdə kadrların peşə-ixtisas tərkibini iş yerlərinin strukturuna, texnika və texnologiyanın inkişafına, buraxılan məhsulların modifikasiyasına uyğunlaşdırsınlar. İlk 10-12 il ərzində işçilər öz peşə ixtisaslarını genişləndirmək və firmadaxili mobilliyə hazır olmaq məqsədilə planlı qaydada 3-4 dəfə yeni iş yerlərinə keçirilirlər. İşləyən kişilər 10-12 illik iş stajına 30-35 yaşında nail olurlar. Qadınlar isə bir qayda olaraq «ömürlük muzd» sisteminə düşmürlər və onların iş stajı kişilərinkindən az olur. Yapon firmaları muzdlu işçilərdən uzun müddət ərzində istifadə etməyə yönəldilmişdir. Bu isə işçilərdə əməyə yaradıcı münasibət bəsləmək və yerinə yetirilən işlərin yüksək keyfiyyətli olması istiqamətində tərbiyə edilməsi siyasətinin əsasını təşkil edir. Bu da öz növbəsində sahibkarları istehsalın və tətbiq edilən iş qüvvəsinin ixtisar edilməsi məsələsini işçilərin işdən çıxarılması yolu ilə deyil, iş vaxtının qısaldılması, işçilərin digər iş yerlərinə və yaxud da qarşılıqlı razılaşma ilə başqa müəssisələrə keçirilməsi vasitəsilə həll etməyə sövq etdirir. Əlbəttə, bütün bu deyilənlər yalnız firmanın daimi işçi heyətinə aiddir. Müvəqqəti işləmək statusu olan işçilər isə iqtisadiyyatda geriləmə olduğu ilk andaca işdən azad edilir və həmişəlik iqtisadi fəal əhalinin tərkibindən çıxarılırlar.

ABŞ modeli. Bu model üçün qeyri-mərkəzləşdirilmiş əmək bazarı xarakterikdir. Hazırda ABŞ-da hər bir ştatın məşğulluğa və işsizliyə kömək göstərməsinə dair öz qanunvericiliyi və işsizlərin sığortalanması üzrə fondu mövcuddur. Müəssisələr və işçilərin özləri isə ştatların fondlarına və federal fonda ayrılıqda vəsait keçirirlər.

Burada müəssisələrdəki **məşğulluq siyasəti** də özünəməxsus xarakterik **xüsusiyyət kəsb edir**. Yaponiyadan fərqli olaraq, ABŞ-da konyukturanın dəyişilməsi və işçilərin işdən azad edilməsi zərurəti yarandıqda məsələnin həlli iş vaxtının qısaldılması yolu ilə deyil, işçilərin işdən azad edilməsi ilə həyata keçirilir. Burada işçilərin işdən azad edilməsinə bir də o vaxt əl atırlar ki, müəssisələr rentabelli işləməsin. **ABŞ-da işçilərə qarşı çox sərt siyasət yeridilir**. Onların işdən çıxarılması əvvəlcədən xəbərdarlıq edilmədən, yalnız işdən çıxarılma ərəfəsində həyata keçirilir. **Kollektiv əmək müqavilələri müəssisədə işləyənlərin yalnız** 1/4

hissəsini əhatə edir. Firma üçün özünəməxsus xarakter daşıyan ixtisaslar istisna edilməklə, işçilərin firmadaxili hazırlanmasına az fikir verilir. İşçilərin xidməti vəzifələrinin yüksəldilməsi isə onların ixtisaslarının artırılması yolu ilə deyil, başqa vəzifəyə keçirilməklə həll edilir. Belə daxili əmək bazarı siyasətinin əksi isə iş qüvvəsinin istər peşə və istərsə də coğrafi cəhətdən yüksək mobilliyindən ibarətdir. ABŞ-da bir qayda olaraq il ərzində işçilərin 10 faizi, gənclərin isə 20-40 faizi öz peşələrini dəyişirlər. Burada həyata keçirilən məşğulluq siyasətinin nəticəsidir ki, ABŞ-da işsizlik səviyyəsi Yaponiya və İsveçdə olduğuna nisbətən xeyli yüksəkdir.[153]

İsveç modeli. Bu əmək bazarı modeli məşğulluq sahəsində dövlətin fəal siyasəti və bu siyasətin nəticəsi olaraq, işsizlik səviyyəsinin minimum həddə olması ilə səciyyələnir. Əmək bazarında həyata keçirilən siyasətin başlıca istiqaməti iş yerlərini itirənlərə təsir göstərmək deyil, işsizliyin yaranmasını və yeni iş yerlərinin yaradılmasına başqa ölkələrdə olduğuna nisbətən daha çox vəsait ayırmaqdan ibarətdir. Son məlumatlara əsasən, burada məşğulluq proqramının həllinə yönəldilən ümumi xərclər Ümumi Daxili məhsulun 2,59 faizini təşkil etdiyi halda, bu göstərici ABŞ-da -0,69, Yaponiyada – 0,58, İtaliyada-1,61 faiz və s. təşkil edir. **Başqa ölkələr qeyd edilən vəsaiti işsizliyin həllinə yönəltdiyi halda, İsveçrədə əmək bazarında işçilərin rəqabət qabiliyyətinin yüksəldilməsinə yönəldilir**. İsveçrədə məşğulluq siyasətinin uğur qazanmasının əsası hələ 50 il bundan əvvəl qoyulmuş və bu siyasət görkəmli İsveç alimləri R.Meydnera və Q.Renanın adı ilə bağlıdır. Onlar 1951-cə ildə Həmkarlar Təşkilatının konfransında «Həmkarlar təşkilatı və tam məşğulluq» mövzusunda məruzə etmişlər. Həmin məruzədə göstərilmişdir ki, ***əmək bazarında siyasət – boş yerlərin işsizlərlə doldurulmasına və işsizlərə köməklik göstərilməsinə deyil, işsizliyin yaranmasının qarşısının alınmasına yönəlməlidir***. Elə həmin vaxt da burada tam

---

[153] B a x: *А.И.Рофе, Б.Г.Збышко, В.В.Ишин.* Рынок труда, занятость населения, экономика ресурсов для труда. Изд-во «МИК», 1998, с. 61-62; *А.А.Никифорова.* Рынок труда: занятость и безработица. М., «Международное отношение», 1991, с. 10-20.

məşğulluğun təmin edilməsinin yeni modeli işlənib qəbul edilmişdir. **Həmin modelin aşağıdakı dörd əsas ünsürü vardır:**

1. Məhdudlaşdırıcı fiksal siyasət;
2. Əmək haqqında «həmrəylik siyasəti»;
3. Əmək bazarında fəal siyasət;
4. Dövlət proqramı ilə müəyyənləşdirilmiş üstün inkişaf etdirilən sahələrin müdafiə olunması siyasəti.

Məhdudlaşdırıcı fiksal siyasət yeritməkdə məqsəd əmtəə və xidmətlərə elə dolayı vergilər müəyyənləşdirməkdən ibarətdir ki, bu təklif və inflyasiyanı o dərəcədə yüksəltməyə imkan verməsin ki, azmənfəətlə işləyən müəssisələr öz fəaliyyətlərini dayandırmağa məcbur olsunlar. Başqa sözlə desək, məhdudlaşdırıcı fiksal siyasət yeridilməsi yüksək gəlirlə işləyən firmalar arasında əmək haqqının yüksəldilməsində inflyasiya rəqabətinin qarşısını almaqla azmənfəətli müəssisələrin müdafiə olunmasına yönəldilmişdir.

Əmək haqqında «Həmrəylik siyasəti»ndə isə məqsəd öz sahibkarlarının maliyyə vəziyyətindən asılı olmayaraq butun işçilərə bərabər əmək haqqı verilməsi ilə yanaşı, az mənfəətlə işləyən müəssisələrin öz işçilərinin sayını azaltmağa və ya fəaliyyətlərini tamamilə dayandırmağa, yüksəkmənfəətli müəssisə və firmaları isə əməyin ödənilməsi səviyyəsinin öz imkanlarından aşağı olmaqla müəyyənləşdirməyə məcbur etməkdən ibarətdir. Bu deyilən prinsiplərin tətbiq edilməsi isə öz növbəsində bir tərəfdən, inflyasiyanın qarşısının alınmasına, iqtiadiyyatda struktur dəyişikliklərin stimullaşdırılmasına, digər tərəfdən isə rentabelli olmayan müəssisələrin bağlanmasına və işsizliyin artmasına səbəb olur.

Buna görə də əmək bazarı modelinin **üçüncü ünsürü** sayılan **əmək bazarında fəal siyasət** yeridilməsinə ***ehtiyac yaranmışdır.*** Əmək bazarında fəal siyasətin həyata keçirilməsi isə rəqabət qabiliyyəti aşağı olan işçilərin müdafiəsinə yönəldilmişdir. Bu siyasətin həyata keçirilməsi zamanı aydın olmuşdur ki, bəzi kateqoriyalardan olan fəhlələr əmək bazarında rəqabətə hazır de-yillər və onlara xüsusi köməklik göstərilməlidir. Bu işçiləri müəssisələrdə saxlamaq üçün isə sahibkalar stimullaşdırılır və onlara ***subsidlər*** verilir.

Nəhayət, İsveç modelinin sonuncu - dördüncü ünsürü aşağı göstəriciləri olan iqtisadiyyat bölməsində məşğulluğun **dövlət tərəfindən müdafiə olunmasıdır.**[154]

Yuxarıda qeyd edilən **əmək bazarı tiplərinin müqayisəli** təhlili göstərir ki, əslində xarici və daxili əmək bazarları bir-biri ilə o qədər sıx surətdə qarşılıqlı əlaqədədirlər ki, onların ayrılığı şərti xarakter daşıyır. Ancaq hər bir konkret milli əmək bazarında hansı əmək bazarı tipinin xarici, yoxsa daxili əmək bazarının üstünlük təşkil etdiyini görməmək olmaz. Məsələn, Yaponiyanın təcrübəsi orada yaxşı təşkil edilmiş daxili əmək bazarının, ABŞ-ın təcrübəsi isə burada xarici əmək bazarının üstün inkişaf etdiyini göstərir.

Bu əmək bazarlarını bir-birindən fərqləndirən mühüm cəhət isə ondan ibarətdir ki, xarici əmək bazarı dövlət və onun orqanları tərəfindən, daxili əmək bazarı isə firma və müəssisələrin inzibati orqanları tərəfindən nizamlanır.

Bu və ya digər əmək bazarı modelinin formalaşması şəraiti göstərir ki, onun məşğulluq səviyyəsinin yüksəlməsi sahəsində əldə etdiyi nailiyyət burada milli ənənələrin, siyasi şəraitin və ictimai əhvali-ruhiyyənin nə dərəcədə nəzərə alınıb-alınmamasından asılıdır. Məsələn, İsveç məşğulluq modelinin tətbiqi və onun fəaliyyət göstərməsi imkanları əmək haqqının artırılmasına kəskin məhdudiyyət qoyulması və fiksal siyasətin məhdudlaşdırılması ilə bərabər, həm də hökumətin Sosial-demokrat partiyasının etimadından və Həmkarlar ittifaqı ilə əməkdaşlıq etmək siyasətindən asılıdır.

Yaponiyada isə əmək münasibətləri sistemi bütövlükdə götürüldükdə yapon zəhmətkeşlərinin milli xarakteri əsasında qurulmuşdur. Ancaq burada **«ömürlük muzd»** sisteminin tətbiqi elmi-texniki tərəqqinin inkişafına güclü təsir göstərə bilən perspektivli gənclərin maraqları ilə ziddiyyət təşkil edir. Uzun müddət qalacağı proqnozlaşdırılan **«ömürlük muzd»** sistemi yapon sahibkarlarını bu sistemə qarşı elə müvafiq əks tədbirlər

---

[154] B a x: *А.А.Никифорова.* Рынок труда: занятость и безработица. М., «Международное отношение», 1991, с. 18-21 və *А.И.Рофе, Б.Г.Збышко. В.В.Ишин.* Рынок труда, занятость населения, экономика ресурсов для труда. М., Изд-во «МИК», 1998, с.61-62.

axtarıb tapmağa məcbur edir ki, onların həyata keçirilməsi «ömürlük muzd» sisteminin fəaliyyət dairəsini daralda bilsin.

İsveçrədə isə əmək bazarında yüksək xərcləri təmin etmək üçün yüksək vergi qoyulması siyasəti xarici investisiyaların çoxalmasına səbəb olmuşdur. Bu meyl İsveç kompaniyalarının çiçəklənməsinə arxalanan iqtisadi artım siyasəti seçiminin İsveçrənin özündə nüfuzdan düşməsinə sədəb olur. Sosial müavinətlərin əhəmiyyətli dərəcədə yüksək olması iş qüvvəsi təklifinin azalmasına və əmək haqqının yüksəlməsi tələbinin güclənməsinə səbəb olmuşdur. Əmək haqqının yüksəldilməsinin məhdudlaşdırılmasından yan keçmək məqsədi ilə müəssisələr işçilərə əmək haqqını daha çox onların mənfəətdə iştirakı sistemi vasitəsilə ödəməyə başlamışlar. **Bütün bunlar o deməkdir ki, əmək bazarı modelini birdəfəlik və həmişəlik müəyyənləşdirmək doğru olmaz və məşğulluq siyasətinin səmərəliliyi onun çevikliyindən və bütünlükdə iqtisadiyyatda baş verən dəyişikliklərə uyğunlaşdırılmasından asılıdır.**

İstehsalın tsiklik (dövri) inkişaf xarakteri və iqtisadiyyatda baş verən struktur dəyişikliklər əmək bazarına köklü surətdə təsir göstərir. Bu amillər bir-birilə qırılmaz surətdə əlaqədədir: vaxtaşırı böhranlar struktur yenidənqurmanın katalizatoru rolu oynayır. Öz növbəsində struktur yenidənqurma isə müəyyən mərhələdə istehsalın inkişaf surətinin ləngiməsinə səbəb olur, ancaq onun başa çatması ilə inkişafa surətli təkan verir.

Struktur yenidənqurma iş qüvvəsinin tətbiqi dairəsində üç dəfə qlobal dəyişikliklərə gətirib çıxarmışdır. Məsələn, **birinci,** sənaye çevrilişi kənd təsərrüfatının iqtisadiyyatda və o cümlədən də məşğulluqda üstün rol oynamasına son qoymuşdur. Hələ vaxtı ilə K.Marks kənd təsərrüfatı işçilərinə tələbin mütləq mənada azalması zamanı aqrar əhali artıqlığından bəhs etmişdir. Hal-hazırda bütün inkişaf etmiş ölkələrdə kənd təsərrüfatında məşğul olanların xüsusi çəkisi olduqca aşağıdır. Təkcə bunu demək kifayətdir ki, kənd təsərrüfatında məşğul olanların xüsusi çəkisi azalaraq 1950-1987-ci illərdə ABŞ-da 11,9 faizdən 0,7 faizə, Yaponiyada isə 47,7 faizdən 8 faizə, Fransada 26,7 faizdən 7,5 faizə düşmüşdür. Son məlumatlara

əsasən, Böyük Britaniyada bu göstərici 2,1, Almaniyada isə 4,5 faizdən yuxarı qalxmır.[155] Artıq 60-cı illərin əvvəllərindən başlayaraq bu üstünlük iqtisadiyyatın qeyri-istehsal sahələrinə keçmişdi. 80-cı illərdən sonra isə yeni əmək bazarının vəziyyəti informasiya texnologiyası və mikroelektronikanın inkişafını tələb etməyə başladı. Elmi-texniki tərəqqinin yeni mərhələsinin məşğulluğa təsiri isə indi artıq xidmət dairəsini də əhatə etmişdir. Bu isə əmək bazarının yeni inkişaf mərhələsinə gətirib çıxara bilər. Sənayedə olduğu kimi, qeyri-istehsal dairəsindən də işçilərin azad olması ya irimiqyaslı işsizliyə və yaxud da iş vaxtının ixtisarına gətirib çıxaracaqdır. Elə bu səbəbdəndir ki, 1950-1987-ci illərdə Avropanın əksər ölkələrində iş vaxtının müddəti 25-30 faiz, o cümlədən Almaniyada-29,6, İsveçdə-28,9, Danimarkada-27,7, Norveçdə-25,4, Niderlandda-24,3 faiz ixtisar edilmişdir. Bu göstəricinin nisbətən az miqdarda ixtisar olunduğu ölkələrə isə İtaliya (18,4 faiz), Fransa (16,8 faiz) və Böyük Britaniya (13,7 faiz) aiddir.[156]

İş vaxtının qısaldılmasına gətirib çıxaran iqtisadi inkişafdakı meyllər isə **çevik əmək bazarı deyilən** əmək bazarının fəaliyyət göstərməsini həyati zərurətə çevirmişdir. **Çevik əmək bazarı nisbətən yeni** bazar münasibətlərini özündə əks etdirən **əmək bazarı formasıdır**. Bu əmək bazarını ənənəvi əmək bazarından fərqli olaraq istehsal dairəsində məşğulluğun xüsusi çəkisinin azalmasına, xidmət dairəsində isə artmasına gətirib çıxaran sənaye cəhətdən inkişaf etmiş ölkələrdə struktur cəhətdən yenidən qurulmuş iqtisadiyyata uyğunlaşdırılan əmək bazarı kimi xarakterizə etmək olar. Bu elmi-texniki tərəqqi, texnoloqiya inqilabı, əməyin və istehsalın elmi təşkilindəki nailiyyətlər əsasında sənayedə, tikintidə və kənd təsərrüfatında əmək məhsuldarlığının əhəmiyyətli dərəcədə artması nəticəsində mümkün olmuşdur. Artıq çoxdandır ki, sənayedə üstünlük təşkil edən ciddi reqlamentə əsaslanan iş vaxtı rejimi çevik məşğulluq forması və çevik iş vaxtı rejimi ilə əvəz olmuş və bu proses xidmət dairəsində daha geniş yayılmışdır. Bu cür məşğulluq və iş reji-

---

[155] B a x: *А.А.Никифорова.* Рынок труда : занятость и безработица. М., 1991, с.24.
[156] B a x: *A.A.Nikiforova.* Göstərilən əsəri, s.25.

minin tətbiq edilməsi müxtəlif kateqoriyalardan olan işçilərin (uşaqlı qadınların, yaşlı adamların, əlillərin, imiqrantların və s.) imkanlarından səmərəli istifadə etməyə şərait yaratmaqla, istehsalın səmərəliliyinin yüksəldilməsinə gətirib çıxarır. Çevik məşğulluq forması firma və müəssisələrdə, evdə iş, müstəqil məşğulluq, tam olmayan iş günü, müvəqqəti işəgötürmə və s. yollarla işçilərin işə qəbul edilməsinə imkan verir.

İqtisadiyyatın struktur cəhətdən yenidən qurulması məşğulluğun xüsusi çəkisinin sənayedə azalması, xidmət dairəsində isə yüksəlməsi, qeyri-standart məşğulluq imkanlarının mövcud olması, istehsalın maddi bazasının arasıkəsilmədən yeniləşməsi, əmtəə və xidmətlərə olan tələbatın həcmi və quruluşunun, habelə, müəssisələrin iş qüvvəsinin kəmiyyət və keyfiyyətinə olan tələbinin dəyişilməsinə səbəb olmuşdur. Standart rejimdə məşğul olan işçilərin əmək şəraitinə sərt reqlament qoyulması isə istehsalın çevikliyinə əngəl törətməklə, onun rəqabət qabiliyyətinin azalmasına gətirib çıxarır. Çevik əmək bazarı isə istehsalın səmərəliliyinin yüksəltməsi alətinə çevrilmişdir. Çevik əmək bazarının yaranmasına sosial amillər də köməklik göstərmişdir. Bunlara əmək fəaliyyəti dövrü ərzində işçilərin əmək şəraitinə tələbatlarının dəyişilməsi, vaxtaşırı olaraq onların biliklərinin yeniləşdirilməsi, peşə ixtisaslarının genişləndirilməsi, əlverişli iş vaxtı rejimi seçimləri və s. amillər aiddir.

Çevik əmək bazarının yaranması və inkişafında demoqrafik amillər də az rol oynamamışdır. Çünki çevik əmək bazarı ailə vəzifələri olan qadınlar, yaşlı zəhmətkeşlər, əlillər, gənclər və sair bu kimi kateqoriyalardan olan işçilərin əmək potensialının reallaşması üçün geniş zəmin yaradır. Bu kateqoriyalardan olan işçilər üçün özünəməxsus xüsusiyyət təşkil edən iş vaxtı rejimi, iş yerləri və s. yaratmaq tələb olunur. Əmək bazarında bu kateqoriyalardan olan işçilərin davranışı məşğulluq siyasətində nəzərə alınması zəruri olan öz qanunvericilikləri ilə müəyyən edilir.

Məkan ölçüsü və inzibati-ərazi asılılığına görə əmək bazarı - milli, yerli və beynəlxalq əmək bazarlarına bölünür. **Milli bazar** - bütünlükdə ölkə ərazisini əhatə edir və onun sərhədləri çərçivəsində fəaliyyət göstərir.

Yerli (lokal) əmək bazarı- ayrı-ayrı regionların, şəhər və kəndlərin ərazisində fəaliyyət göstərir.

Beynəlxalq əmək bazarı isə müxtəlif ölkə və qitələri əhatə edir. Müəyyən çətinliklərin olmasına baxmayaraq hazırda Azərbaycan Respublikası Beynəlxalq Əmək Bazarına qoşulmuşdu.

Əmək bazarı yetkinlik və nizamlanma səviyyəsinə görə də bir neçə yerə – **fraqment** (natamam), **qara** (nizamlanmayan) və **nizamlanan** əmək bazarlarına ayrılır.

Fraqment (natamam) əmək bazarı hələ keçmiş SSRİ-də, yəni inzibati-planlı təsərrüfat sistemində də mövcud olmuş və Azərbaycandan da yan keçməmişdir. Məlum olduğu kimi, Sovet dövründə istehsal vasitələri bütün işçilərin kollektiv mülkiyyəti olduğundan (halbuki real həyatda bu heç vaxt belə olmamışdır) iş qüvvəsi əmtəə hesab edilmirdi. Müəssisə və təşkilatların iş qüvvəsi ilə komplektləşdirilməsi isə əsas etibarı ilə planlı qaydada dövlət orqanları tərəfindən həyata keçirilirdi. Lakin bununla yanaşı, müəssisələr işçilərin az bir qismini də özləri işə qəbul edirdilər. Ancaq bu əmək bazarı çox məhdud xarakter daşıyırdı və hər bir müəssisədə işçilərə verilən əmək haqqının məbləği ciddi surətdə mərkəzi orqanların qərarı ilə həyata keçirilirdi.

Qara (nizamlanmayan) əmək bazarı qara bazar iqtisadiyyatının nəticəsi kimi yaranmışdır. Beynəlxalq normalara əsasən qara bazara fəaliyyətinə gəlirdən vergi ödənilməyən bütün fəaliyyət növləri aid edilir. Qara əmək bazarı heç bir qanunvericilik və normativ aktlarla nizamlanmır. Burada bazar dövlət tərəfindən nizamlanmır və muzdlu işçilərin sosial müdafiəsi həyata keçirilmir. Ancaq qara əmək bazarına işçilərin cəlb edilməsi yüksək əmək haqqı ödənilməklə həyata keçirilir.

Nizamlanan əmək bazarı – bilavasitə həm dövlət tərəfindən və həm də sahibkarlarla zəhmətkeşlər tərəfindən müxtəlif səviyyələrdə onların razılaşmaları ilə müəyyənləşdirilmiş çoxlu qanunvericilik və normativ aktların mövcudluğu ilə səciyyələnir. Bu əmək bazarının subyektləri: işverənlərin nümayəndələri, muzdlu işçilər və dövlət zəhmətkeşlərin sosial müdafiəsini

yüksək səviyyədə təmin etmək və sahibkarların hüquqlarını gözləmək prinsipi ilə fəaliyyət göstərirlər.

İdarəetmə səviyyəsinə görə də əmək bazarını iki yerə – **liberal** və **sosial-yönümlü əmək bazarına** ayırmaq olar. **Liberal əmək bazarı** dövlətin ona az təsir göstərməsi ilə fərqlənir. Müəssisələrdə muzd və iş qüvvəsinə təklif məsələsi əsas etibarı ilə işverənlər tərəfindən müəyyənləşdirilir. Dövlət isə əksər sosial-əmək problemlərinin həlli məsələlərinə qarışmır.

Əmək münasibətləri əsas etibarı ilə işverənlərlə işçilər arasındakı razılaşmaya əsasən müəyyən edilir. Bu əmək bazarı daha çox ABŞ əmək bazarına uyğun gəlir.

Sosial-yönümlü əmək bazarı isə işçilərin dövlət tərəfindən sosial müdafiəsinin geniş və mühüm qaydada müdafiə olunması ilə səciyyələnir. Məşğulluq, iş şəraiti, əməyin ödənilməsi və sair məsələlər dövlətin iştirakı ilə danışıqlar yolu ilə həll edilir. Bu cür əmək bazarları Qərbi Avropanın bütün ölkələrində fəaliyyət göstərir və xüsusilə İsveçrə üçün səciyyəvidir.

Azərbaycan iqtisadiyyatının bazar münasibətlərinə keçməsi burada əmək bazarının formalaşmasını obyektiv zərurətə çevirmişdir. Əmək bazarı bazar iqtisadiyyatının inteqral elementinin həlqəsi kimi bu sistemin başqa elementləri ilə üzvü surətdə funksional əlaqədə mövcuddur. Azərbaycanda əmək bazarının formalaşmasının maddi əsasını aşağıdakılar təşkil edir:

- mülkiyyətin özəlləşdirilməsi və dövlətsizləşdirilməsi;
- müxtəlif mülkiyyət formalarının yaranması, onların hüquqi və iqtisadi cəhətdən tam bərabər hüquqlara malik olması;
- istehsal vasitələri üzərində xüsusi mülkiyyətin bərqərar olması və buna müvafiq olaraq iqtisadiyyatda xüsusi sektorun yaranması;
- iqtisadiyyat dairəsində inhisarçılığın aradan qaldırılması, istehsalçılar (sahibkarlar) arasında azad, iqtisadi və hüquqi cəhətdən bərabər hüquqi əsasda rəqabətin inkişaf etdirilməsi, o cümlədən onlar arasında iş qüvvəsi uğrunda da rəqabətin inkişaf etdirilməsi;

- əmək ehtiyatları və iş qüvvəsi üzərində dövlətin inhisarının ləğv edilməsi; onların hazırlanması, bölüşdürülməsi və istifadəsində məhdudiyyətlərin aradan qaldırılması; onlara öz bacarıq və qabiliyyətindən sərbəst surətdə istifadə etmələrinə imkan verilməsi;
- muzdlu işçilərin öz əmək lərini azad və sərbəst surətdə tətbiq etmək üçün geniş imkanlar yaradılması.

Beləliklə, məlum olur ki, əmək bazarı olmadan bazar iqtisadiyyatı olmadığı kimi, mülkiyyət münasibətlərində və başqa münasibətlərdə əvvəlcədən dəyişikliklər edilmədən və başqa şərait həyata keçirilmədən əmək bazarını formalaşdırmaq olmaz.[157] Ancaq əmək bazarının formalaşmasının başqa bazar strukturlarından möhkəm asılılığı heç də o demək deyildir ki, əmək bazarının müstəqilliyi və əhəmiyyəti yoxdur.

Əmək bazarı aşağıdakı ictimai əhəmiyyət kəsb edən keyfiyyətlərə malikdir:

- əmək bazarı yüksək texnologiyaya malik istehsalın tələbatına cavab verən iş qüvvəsinin təkrar istehsalında mühüm rol oynayır;
- əmək ehtiyatlarının bölüşdürülməsi və yenidən bölüşdürülməsini təmin etməklə, onlardan səmərəli istifadə olunması üçün lazımi şərait yaradır;
- inzibati-amirlik sistemindən qalmış qeyri-səmərəli məşğulluq quruluşu dinamik, səmərəli məşğulluq quruluşu ilə əvəzlənir;
- işçilərin çoxprofilli və universal inkişafı üçün öz peşələrini, ustalıq dərəcələrini, ixtisas və təhsil səviyyəsini yüksəltməkdə geniş şərait yaradılır;
- iş qüvvəsinin mobillik fəallığının artırılmasına, onların sahədaxili, sahələrarası və regionlararası miqrasiyası istiqamətlərinin surətlənməsinə imkan yaradılaraq, onların səmərəli məşğulluğu üçün geniş imkanlar açılır;

---

[157] Государственное регулирование рыночной экономики. М., «Экономика», 2000, с.589 .

- əməyin ödənilməsində bazar amillərinin rolunun artırılmasına və beləliklə də əməyin iqtisadi motivlərinin yüksəldilməsinə, onun səmərəliliyinin artmasına təkan verilir;
- əhalinin formalaşmaqda olan bazar münasibətlərinə adaptasiya olunmasına, onlarda bazar şəraitində işləmək bacarığının, şüurunun formalaşmasına köməklik göstərir.

Onu da unutmaq olmaz ki, əmək bazarı yuxarıda deyilən müsbət hallarla yanaşı, mənfi sosial-iqtisadi proseslərin də yaranıb inkişaf etməsinə təsir edir. O, əhalinin təbəqələşməsinə, əməyin ödənilməsi və müxtəlif əhali qruplarının gəlirlərinin diferensiallaşmasına səbəb olur, varlılar və kasıbların əmələ gəlməsinə, işsizliyin yaranmasına və sair mənfi meyllərin əmələ gəlib artmasına səbəb olur.

Beləliklə, əmək bazarı anlayışının sosial-iqtisadi mahiyyətini müəyyənləşdirərkən, onun əmtəə olması, alqı-satqı obyekti olması xarakterindən çıxış etmək lazımdır. Başqa sözlə desək, **bu əmtəənin reallaşdırıldığı bazar, əmək bazarı deyil**, iş qüvvəsi bazarı kimi meydana çıxır. Ciddi elmi mənada isə "**əmək bazarı**" dedikdə, "**iş qüvvəsi bazarı**" başa düşülür. "**Əmək bazarı**" və "**iş qüvvəsi bazarı**" sinonimlərdir.

Bütün bu deyilənlərdən bir daha aydın olur ki, əmək bazarının formalaşması iqtisadi inkişafın bazar modelinə keçilməsi şəraitində ən mürəkkəb problemlərdən biri sayılır. Son vaxtlarda iqtisadi ədəbiyyatlarda məcmu iş qüvvəsinin keyfiyyət xarakteristikasının yüksəldilməsi, iş qüvvəsindən istifadənin səmərəliliyinin artırılması, onun sahə və ərazi mobilliyinin stimullaşdırılması əmək bazarının yaranması ilə əlaqələndirilir. Əmək bazarının xüsusiyyəti onda alqı-satqı obyektinin muzdlu işçilərin iş qüvvəsindən istifadə etmək hüququndan ibarət olub, adamların bütün psixofizioloji və sosial tələbatlarının nəzərə alınması zərurətini özündə əks etdirir.

Əmək bazarında iş qüvvəsinin dəyəri öz qiymətini alır, onun muzdla işləməsi şəraiti, o cümlədən əmək haqqının həcmi, iş şəraiti, təhsil almaq, peşə yüksəlişi, məşğulluq təminatı və s. müəyyən edilir.

Əmək bazarı əhalinin məşğulluq səviyyəsi, dinamikası, peşə-ixtisas, sahə və demoqrafik xüsusiyyətlərinə görə məşğulluq quruluşunda baş verən başlıca dəyişiklikləri və meylləri, iş qüvvəsinin mobilliyi, işsizliyin miqyası, dinamikası və ona təsir edən amilləri özündə əks etdirir.

Əmək bazarının formalaşması, əhalinin məşğulluğunun optimallaşdırılması və yeni əmək münasibətlərinin yaranmasında bu zaman öz mənafeyini həyata keçirən həmin bazarın subyektləri (həmkarlar Təşkilatları və dövlətin vasitəçiliyi ilə sahibkarlar və muzdlu işçilər) mühüm rol oynayırlar. Belə ki, ***əgər işverənlərin iqtisadi mənafeyi başlıca olaraq, istehsal fəaliyyətinin iqtisadi səmərəliliyinin yüksəldilməsindən ibarətdirsə, iş qüvvəsini işverənlərə satan muzdlu işçilərin marağı isə əməklərinin müqabilində özlərinin və ailə üzvlərinin yaşayışı üçün zəruri olan miqdarda vəsait (haqq) almaqda ifadə olunur.***

İş qüvvəsinin alınıb-satılmanın qarşılıqlı surətdə müqabil olmasına yalnız o zaman nail olmaq mümkündür ki, bu proses Həmkarlar ittifaqlarının vasitəçiliyi və dövlət hüquq qaydaları əsasında tələb və təklif konyukturası, əmək haqqı və mənfəətin qalxıb-düşməsi, rəqabət dərəcəsi və firma sahibkarının maliyyə vəziyyəti düzgün nəzərə alınmaqla həyata keçirilsin.

Mövcud iqtisadi ədəbiyyatlarda çox vaxt nəzəri cəhətdən əmək bazarının ikili xarakterə malik olmasından da bəhs edilir. Burada bazar münasibətləri şəraitində iş qüvvəsinin belə bir xarakterik xüsusiyyəti əsas götürülür ki, əmək bazarında iş qüvvəsi ***bir tərəfdən,*** istehsalın mühüm amili olmaqla əmtəə kimi, ***digər tərəfdən*** də əmək münasibətləri sisteminin subyekti kimi çıxış edir. Belə ki, əgər iş qüvvəsinə istehsalın amili kimi (istehsalın başqa amilləri ilə bahəm) yanaşılırsa, iş qüvvəsi əmək bazarında əmtəə kimi çıxış edir və onun dəyəri istehsal xərclərinə və məhsulun dəyərinə daxil olur.

Bazar iqtisadiyyatının inkişafının mühüm amili olmaqla, istər daxili və istərsə də beynəlxalq bazarlarda öz göstəriciləri üzrə müqayisə olunan məhsulun dəyərində iş qüvvəsi məsrəflərinin xüsusi çəkisi üzrə iş qüvvəsinin qiyməti müəyyən edilir. İş qüvvəsinə olan tələb və təklifin ödənilməsi isə tədavül dairəsində baş verir. Məsələyə bu cəhətdən yanaşıldıqda ***əmək bazarı***

dedikdə – işçilər və işverənlər arasında muzdun, əmək haqqının, sosial ödənişlər və müavinətlər, əmək şəraiti və s. şərtlər haqqında sazişlə bağlanan yer və ya üsul başa düşülür. Bu, əmək bazarının ikili təbiətinin bir tərəfidir. Onun digər tərəfini isə əmək bazarında iştirak edən subyektlər – işverənlər (sahibkarlar), işçilər və əldə edilmiş mənafelər balansını özündə əks etdirən əmək münasibətləri sistemi təşkil edir. Burada dövlətin başlıca funksiyası partiyalar və qarşı-qarşıya duran tərəflər arasında hüquqi qaydaların müəyyən edilməsindən ibarətdir.

İqtisadi ədəbiyyatlarda əmək bazarının fəaliyyət mexanizmi və onun təhlil edilməsinə nəzəri cəhətdən yanaşma metodları və üsulları haqqında çoxlu müddəalar mövcuddur. Bunların arasında ən çox yayılmışları **neoklassik, keynsçi, monetarist** və **institutsionalist yanaşma** metodlarıdır. **Neoklassik** yanaşmaya görə əmək bazarı dedikdə, elə bazar nəzərdə tutulur ki, burada istehsal resurslarının yalnız birinin reallaşması həyata keçirilir. **Birinci konsepsiyanın** əsasında klassik siyasi iqtisadçıların müddəaları qoyulmuşdur. Bu konsepsiyanın əsas tərəfdarları neoklassiklər (C.Perri, M.Feldstayn, R.Xoll) və 80-cı illərdə iqtisadiyyatın təkliflər konsepsiyasının tərəfdarlarıdır (D.Qilder, A.Laffer və başqaları). Həmin konsepsiya tərəfdarlarının fikrincə, bütün başqa bazarlar kimi əmək bazarı da qiymətlər tarazlığı əsasında fəaliyyət göstərir. Daha doğrusu, onların fikrincə, bazarın əsas tənzimləyicisi qiymətdir və əmək bazarında bu funksiyanı yerinə yetirən iş qüvvəsinin qiyməti əmək haqqıdır. Bu müəlliflərin fikrincə, iş qüvvəsinə tələb və təkliflər məhz əmək haqqının köməkliyi ilə nizamlanır və onların tarazlığı qorunub saxlanır.

Neoklassik konsepsiyaya görə işə iş qüvvəsinin qiyməti bazarın tələbinə çevik surətdə cavab verərək, təklif və tələbdən asılı olaraq ya artır və yaxud da azalır; əmək bazarında tarazlıq mövcuddursa, onda işsizlik mümkün deyildir. İşsizlik olmadığı şəraitdə isə əmək haqqının dəyişilməsinin tələb və təklifin dəyişilməsinə tam uyğunluğundan ciddi söhbət aparmaq mümkün olmadığı üçün həmin konsepsiya tərəfdarları onların nəzəriyyələrinin həyatla uyğun gəlməməsinin səbəbini «qeyri-təkmil» bazarın olması ilə əlaqələndirirlər. Buraya, habelə Həmkarlar itti-

faqının təsirini, əmək haqqının minimum həddinin dövlət tərəfindən müəyyən edilməsini, informasiyanın olmamasını və s. aid edirlər. Belə bir tezis də irəli sürülür ki, guya işsizlik könüllü xarakter daşıyır. Əgər işsizlik könüllü xarakter daşıyırsa, onda bəs nə üçün o, iqtisadi tsikllərin fazalarından asılı olaraq dəyişilir? Belə bir tezis də irəli sürülür ki, guya iş yerlərinin «axtarılması» bazarın qeyri-sabitliyi ilə bağlıdır. Onun mahiyyəti ondan ibarətdir ki, guya muzdlu işçilər çox tələbkardırlar və maksimum xeyirli iş axtarırlar. Ancaq belə halda da aydın deyil ki, bəs nə üçün həmin işçilər bəzən 4-5 faiz, bəzən də 15 faiz təşkil edirlər? Ancaq başlıca məsələ ondan ibarətdir ki, neoklassik konsepsiya tərəfdarları belə bir suala cavab verə bilmirlər ki, bəs nə üçün bütün muzdlu işçilər onların təklifi tələbi üstələdiyi halda öz iş qüvvələrini daha aşağı qiymətə təklif etmirlər.

Əmək bazarının fəaliyyət göstərməsinin izahına **keynsçilər** və **monetaristlər** isə başqa mövqedən yanaşırlar. Onlar neoklassiklərdən fərqli olaraq, əmək bazarına daim və fundamental surətdə qeyri-tarazlıq hadisəsi kimi baxırlar. Keynsçilik modelinə görə (C.M.Keyns, sonra R.Qordon və başqaları) iş qüvvəsinin qiyməti - əmək haqqı sərt surətdə müəyyənləşdirilir və demək olar ki, dəyişdirilmir (xüsusilə azalmağa doğru). Modelin bu ünsürünün sübuta yetirilməsinə cəhd edilmir və o sözsüz ki, fakt kimi qəbul edilir. Çünki onların fikrincə, qiymət (əmək haqqı) bazarın tənzimləyicisi hesab edilmir və bunu ondan kənarda axtarmağı təklif edirlər. Bu rolu onlar dövlətdə görürlər. Onların fikrincə, dövlət məcmu tələbi artırıb azaltmaqla, bu qeyri-tarazlığı ləğv edə bilər. Beləliklə, həmin modelə görə iş qüvvəsinə olan tələb əməyin bazar qiyməti ilə deyil, məcmu tələblə, yəni istehsalın həcmi ilə nizamlanır.

Keynsçı konsepsiya tərəfdarları kimi, monetarist məktəbin nümayəndələri də (ilk növbədə də M.Fridmen) iş qüvvəsinin sərt qiymət strukturundan, həm də onların bir istiqamətdə, yüksəliş hərəkəti zəminindən çıxış edirlər. **Monetaristlər** isə əmək bazarının struktur xarakteristikasını özündə əks etdirən, onların qıymətlərini qeyri-çevik edən, onun normal fəaliyyət göstərməsinə mane olan və qeyri-tarazlığın dərinləşməsinə səbəb olan «təbii» deyilən işsizlik səviyyəsi anlayışını meydana

atmışlar. Bu məktəbin nümayəndələrinin fikrincə, əmək bazarı üçün, məsələn, amerikan əmək bazarı üçün bazarın qeyri-tarazlığının surətlənməsinə dövlət tərəfindən əmək haqqının minimum həddinin müəyyən edilməsi, Həmkarlar ittifaqının güclü mövqeyə malik olması, boş iş yerləri və ehtiyat iş qüvvəsinin sayı haqqında informasiyanın olmaması kimi neqativ amillər təsir edir.

Monetaristlər bazarı tarazlaşdırmaq üçün pul-kredit siyasəti-vasitəsindən istifadə edilməsini təklif edirlər. Burada söhbət ilk növbədə mərkəzi bankın uçot stavkası, onun hesablarında kommersiya banklarının öhdəlik ehtiyatlarının miqdarı və s. vasitələrdən gedir.

Əmək bazarının fəaliyyət mexanizminə nəzəri yanaşmanın daha bir geniş yayılmış **konsepsiyası institutsionalist məktəbin** nümayəndələri (məsələn, C.Danlop, L.Ulman) tərəfindən irəli sürülmüşdür. Onların konsepsiyasında əsas diqqət iş qüvvəsinin peşə və sahə strukturlarındakı fərqlərin və onlara müvafiq əmək haqlarının təhlilinə verilir. Burada makroiqtisadi təhlildən imtina edilməsinə və əmək bazarının xarakterini ayrı-ayrı sahələrin, peşələrin və demoqrafik qrupların dinamikasının xüsusiyyətləri ilə izah etməyə cəhd göstərilir.

Marksist iqtisadi nəzəriyyəyə görə isə iş qüvvəsi bazarı xüsusi növ bazardır. Onu başqa bazarlardan fərqləndirən iş qüvvəsinin əmtəə olmamasıdır. Belə ki, əgər iş qüvvəsi əmək prosesində dəyər yaradırsa, başqa resurslar öz dəyərini əmək vasitəsilə istehsal edilən məhsulun dəyərinin üzərinə keçirirlər. Buna görə də iş qüvvəsi əmtəəsi də başqa əmtəələr kimi bazarın ümumi qanunauyğunluqlarına tabe olsa da, əmtəə olmaqla, o istehsalın subyektiv amili kimi çıxış etdiyi üçün təklif və tələb arasındakı nisbətliyə, özünün bazar qiymətinə əhəmiyyətli surətdə təsir göstərir.

Yuxarıda deyilən konsepsiyaların əksəriyyəti hələlik iş qüvvəsi bazarının başqa resurs bazarları ilə müqayisə edilə bilən halda formalaşmışdır. Məsələn, belə hesab edilir ki, guya işçilər əmək bazarına gələnədək ixtisas alırlar. Halbuki bu heç də həmişə belə olmur və çox hallarda işçilər işə qəbul edildikdən sonra, yəni istehsalatda ixtisas alırlar. Bu o deməkdir ki, bazarda iş

qüvvəsi potensialını qiymətləndirmək o qədər də asan məsələ deyildir. Digər bir müddəaya əsasən guya insanın əmək məhsuldarlığı əvvəlcədən məlumdur. Əlbəttə bu heç də belə deyildir. Çünki əmək məhsuldarlığını yüksəltməyin çoxlu motivləri vardır. Eyni zamanda aydındır ki, işçinin əməyinin lazımi səviyyədə qiymətləndirilməsi və onun istehsalatda və əmək bazarında özünün vəziyyəti ilə razılaşması səviyyəsini əks etdirmək üçün təkcə əmək haqqı kifayət deyildir. Bu, həm də insanlara bayağılaşdırılmış əmtəə-qiymət baxımından yanaşılmasını şübhə altına alır. Əmək bazarında insanın malik olduğu potensialın qiymətləndirilməsi bir də iş qüvvəsinin qiymətinin onun dəyərindən kənarlaşması, bu isə öz növbəsində istehsalın səmərəliliyindən, bölgü münasibətlərindən, əmək haqqının səviyyəsi və gəlirlərin quruluşundan, istehlak bazarının dinamikliyindən, əmtəə və xidmətlərin fəaliyyətdə olan qiymətlərin səviyyəsindən və s. amillərdən asılıdır. Bu deyilənlərin və sair ünsürlərin qarşılıqlı əlaqəsi və bir-birindən asılılığı tədavül dairəsində iş qüvvəsinin özünütənzimləmə mexanizmini formalaşdırır.

İş qüvvəsi bazarına bütünlükdə bazar mexanizminin ayrılmaz hissəsi kimi baxılmalıdır. Sağlam iş qüvvəsi bazarı aşağıda qeyd edilən bir sıra əsaslı şəraitin olmasını tələb edir: təsərrüfatçılığın müxtəlif formalarının olmasını, çoxvariantlı əmək tətbiqi dairəsinin seçilməsi imkanlarının mövcudluğunu, hər bir əməkçinin onun üçün daha əlverişli əmək rejimi olan iş yerləri seçmək imkanının, öz iş qüvvəsi üzərində sərəncam verməsini, şəxsiyyətin hüquqi cəhətdən azad olması, azad surətdə öz iş və yaşayış yerini dəyişə bilməsini, sahibkarlıqla məşğul olmasını, investisiya, qiymətli kağızlar və valyuta bazarının, mənzil, əhalinin tələbatını ödəyən və yeni tələbat doğura bilən istehlak malları və xidmətləri bazarının olmasını və s.

Məlum olduğu kimi, iş qüvvəsi bazarının funksiyaları rəngarəngdir. Bu, hər şeydən əvvəl, iş qüvvəsinin tələb və təklifə müvafiq qaydada bölüşdürülməsi tarazlığının təmin edilməsindən ibarətdir. Məhz bu yolla iş qüvvəsi bazarı ictimai və şəxsi tələbatın ödənilməsini iqtisadi cəhətdən daha səmərəli edən fəaliyyət dairəsindən əmək resursları və istehsal vasitələri axınının istiqamətlərini müəyyən etməklə, istehsalın səmərəliliyinin

yüksəldilməsi üçün stimul yaradır. İş qüvvəsi bazarı istehsal xərclərinin əhəmiyyətli dərəcədə azalmasına, onun daha qənaətli olmasına təsir göstərməklə istehsaldaxili artıq iş qüvvəsi ehtiyatlarının azad edilməsinə səbəb olur. Bununla da o, rəqabət əsasında həmin azad olmuş iş qüvvəsinin xalq təsərrüfatının başqa sahələrində işləməsi üçün tədavül sferasında müəyyən miqdar iş qüvvəsinin ehtiyatlarının olmasına şərait yaradır.

Bazar münasibətləri əmək resurslarından istifadənin səmərəliliyinin yüksəldilməsinin mühüm amili kimi çıxış etməklə istehsal olunmuş məhsullarda təcəssüm edən əməyin kəmiyyət və keyfiyyətinin ictimai zəruriliyini müəyyən edir. İnsanların həm istehsalçı və həm də istehlakçı olmaqla mənafelərinin üst-üstə düşməsini təmin etməyə imkan verən yüksək məhsuldar əməyin motivləşdirilməsinin tənzimləyicisi kimi əmək bazarının başlıca funksiyası da məhz elə bundan ibarətdir. Bundan əlavə, iş qüvvəsi bazarı peşə ixtisasının yüksəldilməsinin və yüksək gəlir alınmasının stimullaşdırılması yolu ilə bölgü münasibətlərinə də bilavasitə təsir göstərir.

Sahə və ərazilər üzrə təsərrüfat sahələri arasında iş qüvvəsinə tələb və təklifin hərəkəti çoxlu amillərin təsiri altında baş verir. Bu amillərə iş qüvvəsi bazarının öz-özünə qurulması, iş qüvvəsinə tələb və təklifin dinamik müvazinatını təmin edən sosial-iqtisadi mühiti formalaşdıran birbaşa və vasitəli nizamlayıcılar arasındakı nisbətlik (iqtisadi, təşkilati, hüquqi və s. dövlət nizamlayıcı təşkilatlar vasitələri), ölkənin və onun ayrı-ayrı rayonlarının sosial-iqtisadi inkişaf səviyyəsi, ictimai-siyasi şəraitin vəziyyəti, əhalinin bilik, mədəniyyət və peşə hazırlığı səviyyəsi, milli xüsusiyyətləri, ənənələri və s. daxildir.

Əmək bazarının nizamlayıcıları iş qüvvəsinə tələb və təklifin şəxsi və ictimai tələbata uyğunluğunun təmin edilməsi üçün özünəməxsus şərait yaradır. Nizamlayıcılardan istifadə edilməsi iş qüvvəsi bazarında kortəbii surətdə meydana çıxan disproporsiyaların tamamilə ləğv edilməsi və işçilərin hərəkətindən doğan ziddiyyətlərin aradan götürülməsi demək deyildir. Burada iş qüvvəsinin ehtimal olunan kortəbii hərəkət forması əsas kimi çıxış edir. Dövlət tərəfindən tətbiq edilən nizamlayıcının rolu (iqtisadi, təşkilati və hüquqi) iş qüvvəsi bazarındakı ziddiyyətlə-

ri yumşaltmaqdan, tələb və təklif konyukturasındakı balansızlaşma hadisəsini inkişaf etdirib dağıdıcı nəticələrə gətirib çıxara bilən böhranlı vəziyyətə (kütləvi işsizliyə, gəlir əldə etmək üçün ictimai təsərrüfatda işə düzəlməyin mümkün olmaması və s.) çatmasının qarşısını almaqdan ibarətdir.

Bazar münasibətlərinin sosial nəticələri həddən çox ziddiyyətlidir. Bazar münasibətləri ictimai istehsalda məşğulluqdan istifadənin səmərəliliyinin yüksəldilməsini stimullaşdırmaqla yanaşı, eyni zamanda elə şərait yaradır ki, onun nəticəsində əhalinin müəyyən hissəsi üçün işə düzəlmək və gəlir əldə etmək imkanları çətinləşir və onların həyat şəraiti pisləşir. Buna görə inzibati nizamlayıcılar iqtisadi nizamlayıcılara əlavə olaraq, minimum xalq təsərrüfatı itkiləri ilə həm adamların və həm də ictimai təsərrüfatın mənafeyini nəzərə alan, çevik, özözünə yaranan, iş qüvvəsinə tələb və təklifin tarazlaşdırılması mexanizmini həyata keçirməlidir.

2.2 MƏŞĞULLUQ ANLAYIŞI: MAHİYYƏTİ, MƏZMUNU, QURULUŞU, PRİNSİPLƏRİ VƏ İQTİSADİ FUNKSİYALARI

«Məşğulluq» - sosial-iqtisadi kateqoriya olub, bir çox aspektlərə malikdir. İqtisadi ədəbiyyatlarda ona faydalı bir iş görmək, təhsil almaq, iqtisadiyyatın hər hansı bir sahəsində çalışmaq, uşaqlara və yaşlı adamlara xidmət göstərmək, orduda qulluq etmək və sair fəaliyyət növü kimi baxılır.[158]

Məlum olduğu kimi, insanların malik olduğu əmək qabiliyyəti və ya iş qüvvəsi yalnız əmək prosesində həqiqətə çevrilir, gerçəkləşir. Çünki hər bir konkret istehsal prosesi öz dəyişilməz şərti kimi əşya-maddi (istehsal vasitələri) və şəxsi (iş qüvvəsi) amillərin birləşməsi nəticəsində baş verir. İstehsal prosesi və ya maddi amillər tərəfindən texnologiya, şəxsi amillər tərəfindən isə əmək kimi çıxış edir.

---

[158] Государственное регулиривание рыночной экономики. М., 2000, с.605.

Məşğulluq və onun formalaşmasını səciyyələndirən proseslər müəyyən iş yerlərinin tutulması üzrə olan əməklə, işlə bağlıdır. Ancaq elə-belə götürüldükdə, məşğulluğu hər hansı bir əməklə, işlə eyniləşdirmək olmaz. Yəni məşğulluğun formalaşması prosesi müəyyən şəxslərin iş yerləri arasında bölüşdürülməsi (paylanması, yerləşdirilməsi) və onların sonuncularla birləşməsi prosesi ilə eyni olub, iş qüvvəsinin gələcək fəaliyyət göstərməsi prosesi ilə, daha doğrusu, məşğul olan işçilərin müəyyən məqsədyönlü fəaliyyət göstərməsi prosesi ilə bağlıdır. İqtisadi kateqoriya olaraq məşğulluq iş qüvvəsi daşıyıcılarının (əmək qabiliyyətli əhalinin) iş yerləri arasında bölüşdürülməsi və onların istehsal vasitələri ilə birləşməsi üzrə obyektiv surətdə mövcud olan real gerçəklikdə yaranan məcmu münasibətləri özündə əks etdirir. Müəssisə, sahə, region və xalq təsərrüfatı səviyyəsində bu və ya digər şəxslərin müəyyən məşğulluq vəziyyətindən və ya belə məşğulluq vəziyyətinə nəhayət verilməsindən və yaxud da hansı bir müddətə isə bu cür məşğulluq vəziyyətinin yaradılmasının mümkün olmadığından danışmaq olar. Bu cür məşğulluq vəziyyətinin formalaşması üzrə mövcud olan məcmu münasibətlər məşğulluq iqtisadi kateqoriyasının məzmununu təşkil edir.

Məşğulluq prosesində insanlar arasında yaranan münasibətlər sosial-iqtisadi xarakter daşımaqla, təkcə əmək prosesini deyil, həm də məşğulluq prosesinin özünün formalaşmasını əhatə edir. Məşğulluq zahirən əmək kimi təzahür etsə də, əməklə məşğulluq sinonim olmayıb bir-birindən fərqlənirlər. Belə ki, əgər əmək insanların şüurlu, məqsədəuyğun fəaliyyətidirsə, məşğulluq müəyyən iş yerlərində işçinin konkret əmək kooperasiyasına qoşulmaq üzrə mövcud olan ictimai münasibətdir. Əmək prosesi başlamazdan əvvəl məcmu işçilər iqtisadiyyatın sahələri arasında bölüşdürülməli və istehsal vasitələri ilə təmin olunmalıdırlar. Bu isə o deməkdir ki, məşğulluq münasibətləri əmək prosesindən qabaqda gedən prosesdir, onun sələfidir. Bu baxımdan məşğulluq kateqoriyasını aşağıdakı ünsürlərə bölmək olar:

1. Əmək qabiliyyətli əhalinin işə cəlb edilməsi ;
2. Məşğulluğun özü və ya əmək prosesi ;

3. İş qüvvəsinin azad edilməsi.

Əmək qabiliyyətli əhalinin əmək fəaliyyətinə cəlb edilməsi məşğulluğun ilk mərhələsini və ya başlanğıc mərhələsini təşkil edir. **Bu mərhələdə** işçilər öz aralarında və istehsal vasitələri ilə birləşirlər. Onların əmək prosesinə cəlb edilməsi istehsalın normal fəaliyyət göstərməsinin mühüm şərtlərindən biridir. **İkinci mərhələdə** bilavasitə əmək prosesi baş verir. Eyni zamanda ilk mərhələdə əmək fəaliyyətinə cəlb edilmiş iş qüvvəsinin istifadə edilməsi, onların istehsal vasitələri ilə birləşməsi, istehsalın amillərinə çevrilməsi həyata keçirilir. Bu proses iş qüvvəsinin keyfiyyətinin əməyin texnika ilə silahlanması səviyyəsinə uyğun olmasını tələb edir.

Üçüncü mərhələdə isə birinci mərhələdə işə cəlb edilənlərin işdən azad edilməsi prosesi baş verir. Bu prosesin nəticəsində məşğul olanların müəyyən bir qismi məcmu iş qüvvəsi olmaqdan qalır və istehsal vasitələrindən ayrı düşür. Beləliklə, **məşğulluq** – cəlbedilmə, əmək prosesi və azadedilmə prosesi kimi üç mərhələni özündə əks etdirən sosial-iqtisadi prosesdir. Məşğulluğun mərhələləri (ünsürləri) başqa ardıcıllıqla da baş verə bilər. Məsələn, **məşğulluq, azadedilmə** və **cəlbolunma**. Bu halda azad edilmiş işçilər yenidən işə cəlb edilirlər. Bu onunla şərtlənir ki, cəlb edilən əmək ehtiyatları təkcə əhalinin təbii artımı hesabına deyil, həm də azad edilmiş işçilər hesabına həyata keçirilir. Beləliklə, məşğulluq yuxarıda deyilən və müəyyən özünəməxsus ümumilik təşkil edən hissə və ünsürlərin qarşılıqlı əlaqələrinin və asılılıqlarının məcmusunu özündə əks etdirir. Bu mənada məşğulluq müəyyən daxili quruluşa malikdir. Məşğulluğun qeyd etdiyimiz hissə və ünsürlərinin qarşılıqlı surətdə fəaliyyət göstərməsi obyektiv zərurətdir və cəmiyyətin yaşamasının əsasını təşkil edir.

Məşğulluq – iş yerləri ilə təmin edilmələri üzrə işçilər arasındakı münasibətlərin və istehsal vasitələri ilə iş qüvvəsinin birləşməsinin tarixi xüsusiyyətlərini özündə əks etdirən sosial-iqtisadi prosesdir. O, ictimai əmək bölgüsü ilə bağlı olub, bütün ictimai-iqtisadi quruluşlar üçün xasdır. Bütün formasiyalarda cəmiyyət üzvlərinin əmək prosesində məşğul olmaları əmək ehtiyatlarının mühüm iqtisadi məzmununu ifadə edir. Bütün cə-

miyyətlərdə iş qüvvəsinə, mövcud iş yerlərinə əmək məhsuldarlığının səviyyəsinə olan tələb əmək prosesində tətbiq edilən maşın, avadanlıq və s. istehsal vasitələrindən asılıdır. Əhalinin məşğulluğunun bu maddi zəminləri, onların inkişaf istiqamətləri və səviyyələri, habelə istifadəsinin sosial-iqtisadi nəticələri – bu zəminin təkrar istehsalı prosesinin həyata keçirildiyi ictimai-iqtisadi şəraitdən asılıdır.

Məşğulluq, həm də bir iqtisadi kateqoriya kimi, müəyyən **kəmiyyət** və **keyfiyyət** tərəflərinə malikdir. Məşğulluğun **kəmiyyət tərəfi dedikdə - əmək qabiliyyətli əhali ilə mövcud iş yerləri arasındakı nisbətlik, keyfiyyət tərəfi dedikdə isə iş qüvvəsindən istifadənin səmərəlilik dərəcəsi başa düşülür**. Bu səbəbdəndir ki, inkişaf etmiş sivil bazar sisteminin mövcud olduğu ölkələrdə qanunauyğun olaraq çalışırlar ki, istehsal həm tam öz həcminə uyğun olaraq fəaliyyət göstərsin və həm də əmək qabiliyyətli əhalinin tam məşğulluğu təmin edilsin. Çünki bu prosesin səmərəli təşkil edildiyi cəmiyyətlərdə və ölkələrdə həm faydalı məhsullar və xidmətlər istehsalına nail olunur və deməli, həm də əhalinin həyat səviyyəsinin yaxşılaşmasına təminat verilir. Buna görə də təsadüfi deyildir ki, tarixi inkişafın müxtəlif mərhələlərində məşğulluqla bağlı problemlərin tədqiqinə həmişə xüsusi maraq göstərilmiş və bu sahədə bir sıra nəzəriyyələr yaranmışdır. Bunların ən mühümlərindən biri «**klassik**» nəzəriyyədir. Məşğulluğun «**klassik**» nəzəriyyəsinə görə, bazar iqtisadiyyatı üçün «**tam məşğulluq**» adi hal, ən yaxşı iqtisadi siyasət isə **«dövlətin iqtisadiyyata müdaxilə etməməsidir»**. Onların fikrincə, bazar iqtisadi sistemi iqtisadiyyatda daxili resursların tam istifadə edilməsi üçün şərait yaradır. Ancaq onlar eyni zamanda etiraf edirdilər ki, iqtisadiyyatda bəzən bir sıra səbəblər nəticəsində (quraqlıq, siyasi çəkişmələr, müharibələr, birjadakı iflaslar və s.) qeyri-normal vəziyyət nəzərə çarpsa da ümumiyyətlə, bu vəziyyət çox uzun müddət çəkmir. Bazar iqtisadiyyatına məxsus mexanizmlər vasitəsi ilə iqtisadiyyat özünü tənzimləyir və tezliklə tam məşğulluq şəraitində istehsalın səviyyəsi avtomatik olaraq bərpa olunur. Məşğulluğun «**klassik**» nəzəriyyəsində iki əsas istiqamət diqqəti cəlb edir:

Birincisi, bu nəzəriyyəyə görə, tam məşğulluq şəraitində istehsal olunmuş məhsulların alınması üçün çəkilən məcmu xərclərin səviyyəsinin aşağı olması halı mümkün deyildir;

İkincisi, məcmu xərclərin səviyyəsi doğrudan da kifayət dərəcədə olmazsa, tənzimlənən qiymət əmək haqqı və faiz dərəcəsi kimi vacib ünsürlərin qısa bir zamanda işə salınması nəticəsində məcmu xərclərin səviyyəsinin aşağı salınması heç də istehsalın real həcminin, məşğulluğun və real gəlirlərin aşağı düşməsinə səbəb olmur.

Klassiklərin nəzərincə, bazarın tənzimlənməsinin əsas ünsürlərindən olan faiz dərəcəsinin tərəddüdləri **bir tərəfdən**, qiymətlərin və əmək haqqının nisbətlərinin elastikliyinə, **digər tərəfdən** isə kapitalist iqtisadiyyatında tam məşğulluğa təminat verir. Onlar belə güman edirdilər ki, tənzimlənən bu iki mexanizm birlikdə tam məşğulluğu labüd edir. Bundan əlavə, onlar kapitalizmə özünü tənzimləyən və tam məşğulluğa nail olmuş bir iqtisadi sistem kimi baxdıqlarından iqtisadiyyata dövlətin müdaxiləsini lazımsız bilirdilər. Onların məntiqi fikrinə görə, dövlətin iqtisadiyyata qarışmaması onun iqtisadi siyasətinin əsasını təşkil etməlidir.

Məşğulluğa dair nəzəriyyələr arasında **«neoklassik»** nəzəriyyə də özünəməxsus yer tutur. Bu nəzəriyyənin ən görkəmli nümayəndələri A.Marşall (1842-1924-cü illər), A.Piqu (1877-1959-cu illər) və başqalarıdır. Məşğulluğa dair **«neoklassik»** nəzəriyyənin ən mühüm müddəaları **A.Piqunun** 1923-cü ildə nəşr edilmiş **«İşsizlik nəzəriyyəsi»** adlı məhşur əsərində irəli sürülmüşdür.[159]

A.Piqunun nəzəriyyəsinə görə, əmək bazarında qeyri-təkmil rəqabət hökm sürür və o əməyin qiymətinin yüksəlməsinə gətirib çıxarır. Buna görə də sahibkarlar üçün buraxılan məhsulun dəyərinin yüksəlməsini təmin edən yüksək ixtisaslı kadrlara yüksək əmək haqqı vermək daha əlverişlidir. Çünki onların yüksək əmək məhsuldarlığı nəticəsində işçi heyətini xeyli azaltmaq (belə bir prinsip mövcuddur ki, bir adamı işə qə-

---

[159] *Д.Кейнс.* Обшая теория занятости, процента и денег. М., Изд-во «Прогресс», 1978, с.343-354.

bul edib, ona yüksək əmək haqqı vermək, aşağı əmək haqqı ilə 5-6 nəfər adam işə qəbul etməkdən yaxşıdır) mümkündür.

Ümumiyyətlə götürüldükdə, **neoklassik nəzəriyyə** tərəfdarları **məşğulluğun iki amildən**: 1) **əmək məhsuldarlığının son həddindən (əməyə tələbi müəyyən edir)** və **2) fəhlələrin real əmək haqları ilə qiymətləndirdikləri əməyin «ağırlıq» dərəcəsindən** (əməyin təklifini şərtləndirir) **asılılığını əsaslandırmışlar.**[160] Bu **konsepsiya da öz növbəsində, iki əsas prinsipə əsaslanır: birincisi,** əməyin təklifi real əmək haqqının təklifinə uyğun surətdə baş verir; **ikincisi,** real əmək haqqının hərəkəti normal əmək haqqının hərəkəti ilə düz mütənasiblik təşkil edir. Buna görə də normal əmək haqqı üzrə hər bir bağlanmış saziş onun real səviyyəsini müəyyən edir. Buradan da neoklassik nəzəriyyənin əsas nəticəsi meydana çıxır ki, guya **məşğulluğun səviyyəsi** fəhlələrin öz **«əllərindədir».** Əgər onlar real əmək haqlarının azaldılmasına razılıq verərlərsə, bununla işsizliyin səviyyəsinin aşağı düşməsinə şərait yaratmış olarlar.

XIX əsrin ikinci yarısında K.Marks (1818-1883-cü illər) özünün məşhur «Kapital» əsərində kapitalizmdə işsizliyi daha ətraflı tədqiq edib öyrənmiş və belə bir nəticəyə gəlmişdir ki, texniki tərəqqinin artması ilə əlaqədar olaraq hər işçiyə düşən istehsal vasitələrinin kütləsi və dəyəri artır, nəticədə əməyə olan tələb kapital yığımının artım surətindən geridə qalır ki, bu da işsizliyin yaranmasına səbəb olur. Onun fikrinə görə, işsizlik kapital yığımının ümumi qanununun təsirinin nəticəsidir. Kapital yığımı və onunla birlikdə istehsalın təmərküzləşməsi kapitalın sabit hissəsinə nisbətən onun dəyişən hissəsinin nisbi azalmasına səbəb olur, çoxlu maşın və xammalı hərəkətə gətirmək üçün daha az əmək kütləsi kifayət edir. Buradan da əməyə tələbin nisbətən azaldılması və işsizliyin artması irəli gəlir. K.Marksın yazdığı kimi, «... kapitalist yığımı daim, həm də öz gücü və öz həcminə proporsional surətdə nisbətən artıq fəhlə əhali, yəni kapitalın öz orta artması tələbatına nisbətən artıq, buna görə də gərəksiz və ya əlavə fəhlə istehsal edir... Fəhlə əhali kapital yığımı istehsal etməklə, özünü nisbi artıq əhaliyə

---

[160] *D. Keyns.* Göstərilən əsəri, s. 346.

çevirən vasitələri də getdikcə daha artıq miqyasda istehsal edir. **Bu, kapitalist istehsal üsuluna xas olan əhali qanunudur** ».[161]

Burada kapitalist istehsal münasibətləri ilə şərtlənən nisbi əhali artıqlığının mövcud olmasında ifadə olunan əmək qabiliyyətli əhalinin məşğulluq dərəcəsi və xarakteri öz əksini tapdığından K.Marks onu **işçi əhalinin məşğulluğu qanunu adlandırmışdır.** Bununla belə o da kapitalist istehsalının tsiklik inkişafının işsizliyin əmələ gəlməsinə təsirini lazımi səviyyədə açmamışdır. K.Marksdan sonra iqtisadi nəzəriyyədə işsizliyin iqtisadiyyatın tsiklik inkişafı ilə izah edilməsi sabit ənənə halını almışdır. Belə ki, **əgər iqtisadiyyat tsiklik inkişaf edirsə, bu zaman yüksəliş və aşağıdüşmə təsərrüfatın inkişafı ilə yanaşı davam edir və nəticədə, istehsalatdan işçilərin azad olması, istehsalın səviyyəsinin aşağı düşməsi və işsizlər ordusunun çoxalması prosesi daimi hal alır.**

Məşğulluq nəzəriyyələri arasında **«Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi»** (1936-cı il) kitabının müəllifi C.Keyns (1883-1946-cı illər) tərəfindən irəli sürülmüş müddəalar xüsusi maraq doğurur. Bu əsərində **C.Keyns klassik nəzəriyyənin əsaslarını «dağıtmış» və makroiqtisadi məsələlər üzrə iqtisad elmi tarixində çevriliş edərək, müasir məşğulluq** nəzəriyyəsinin əsaslarını yaratmışdır.

Məlum olduğu kimi, məşğulluğun klassik nəzəriyyəsinin müddəalarına mühüm bir amil mane olurdu ki, bu da tez-tez təkrar olunan və uzun sürən **işsizlik və inflyasiyanın daim davam etməsi idi.** Əgər 1924-cü və 1927-ci illərdə baş verən müvəqqəti iqtisadi tənəzzülləri müharibə və başqa səbəblərlə izah etmək mümkün olurdusa, 1929-1933-cu illərdə bütünlükdə kapitalist dünyasını bürümüş böhranı, bu illərdə baş verən **«böyük durğunluq»** zamanı meydana çıxan dərin iqtisadi tənəzzülü və bunun nəticəsində yaranmış görünməmiş kütləvi işsizlik və inflyasiyanın tüğyan etməsini heç cür izah etmək mümkün deyildir. Məhz 1929-1933-cü illərdə kapitalizmi bürümüş ümumi böhranın dərsləri əsasında C.Keyns Qərb iqtisadçıları arasında iqtisadiyyatın dövlət-inhisarçı nizamlanmasının zəruriliyi fikrini irəli

---

[161] *К.Маркс.* Капитал. Баку, 1969, с. 633-637.

sürdü. 30-cu illərdə kapitalizm dünyasında işsizlik dağıdıcı hal aldığından C.Keynsin kapitalist istehsalının təhlilində **məşğulluğu çıxış nöqtəsi kimi** götürməsi təsadüfi deyildir.

C.Keyns özündən əvvəlki klassiklərin və neoklassiklərin məşğulluq nəzəriyyələrini **rədd edərək belə bir nəticəyə gəlmişdir ki,** kapitalizmdə tam məşğulluğa təminat verən bir mexanizm yoxdur və iqtisadiyyat işsizliyin yüksək səviyyəsi və inflyasiyanın olduğu bir zamanda da balanslaşdırıla bilər. Burada tam məşğulluq qanunauyğunluqdan çox, təsadüfi xarakter daşıyır. Kapitalizm özünü tənzimləyərək, sonsuzluğadək çiçəklənən bir sistem deyildir. C.Keyns neoklassiklərin fikirlərinin əksinə olaraq yazırdı ki, fəhlələrin pulla ödənilən əmək haqqının aşağı salınmasına razılaşmalarına hazır olmaları heç də işsizliyin dərmanı deyildir.[162] ***C.Keynsə görə, məşğulluq səviyyəsi əmək haqqının dəyişməsi ilə deyil, istehlaka və investisiyaya sərf edilən gözlənən xərclərdən yaranan səmərəli tələbin dinamikası ilə müəyyən edilir. Onun fikrincə, məşğulluğun və milli gəlirin səviyyəsi resurslara olan tələb və onların qiymətlərinin dəyişməsi ilə deyil, məhz səmərəli tələblə müəyyən edilir. Səmərəli tələb də, öz növbəsində, sahibkarların maksimum mənfəət əldə etmək cəhdlərindən və deməli, son nəticədə gözlənilən mənfəət əldə etmək normasından asılıdır.***

Səmərəli tələb yuxarıda deyildiyi kimi, **iki konponentdən: istehlak** və **investisiyadan yaranır**. Yalnız bu iki komponent müəyyən nisbətlikdə olduqda və zəruri səviyyəyə gəlib çatdıqda, tam məşğulluğa nail olmaq mümkündür. ***Beləliklə, C.Keyns işsizliyin kapitalizm cəmiyyətinin daxili «çatışmamazlıqlar» və rəqabət sistemi ilə bağlı olduğunu etiraf etməyə məcbur olmuşdur.***[163]

Bu deyilənlərdən aydın olur ki, əmək qabiliyyətli ***əhalinin tam və səmərəli məşğulluğunun təmin edilməsi bütün sivilizasiyalı ölkələrdə dövlətin qarşısında duran ən mühüm vəzifələrdən biri hesab edilir.*** Lakin sovet iqtisadi ədəbiyyatlarında 30-cu illərdən başlayaraq məşğulluq probleminin tamamilə həll edildiyi, işsiz-

---

[162] *D.Keyns*. Göstərilən əsəri, s.356.
[163] Yenə orada, s.347-358.

liyin bir sosial bəla kimi ləğv olunduğu iddia edilir, **«iş qüvvəsi əmtəəsi», «əmək bazarı»** və **«işsizlik»** anlayışlarının isə yalnız kapitalizm cəmiyyətinə xas olduğu və sosializm cəmiyyəti ilə heç bir əlaqəsi olmadığı **«elmi cəhətdən əsaslandırılaraq»** sübuta yetirilirdi. Təsadüfi deyildir ki, 50-ci illərin sonunadək sovet iqtisadi ədəbiyyatında və rəsmi dövlət sənədlərində, hətta **«əmək ehtiyatları»** anlayışı sözünün özünə belə rast gəlinmirdi. Bu anlayış həmin ədəbiyyat və dövlət sənədlərində yalnız 1966-cı ildə keçmiş ittifaqda əmək ehtiyatlarından istifadə edilməsi üzrə «**Dövlət Əmək Komitəsinin**» yaradılması ilə bağlı olaraq işlədilməyə başlanmışdır. 50-ci illərin sonu, 60-cı illərin birinci yarısınadək sovet iqtisadi ədəbiyyatlarında **«əmək ehtiyatları»na** yalnız kəmiyyət nöqteyi-nəzərdən, yəni statistik-demoqrafik (əhalinin yaş-cins tərkibi) aspektlərdən yanaşılır və ona işləmək qabiliyyəti yaşında olan fərdlərin məcmusu kimi baxılırdı.

«Əmək ehtiyatları»na bir iqtisadi kateqoriya kimi baxış isə yalnız 60-cı illərin ikinci yarısı və 70-ci illrin əvvəllərinə təsadüf etmişdir. Bunun ən mühüm səbəblərindən biri həmin dövrədək **«əmək ehtiyatları»** kateqoriyasının müəyyən edilməsinə dair metodologiyanın olmaması idi. Bu sahədə ilk mühüm tədqiqatlar 1959-1970-ci illərdə yaradılmağa başladı və sonrakı illərdə daha geniş vüsət aldı. Bu əsərlərdə sosializm cəmiyyəti şəraitində əmək ehtiyatları, iş qüvvəsinin təkrar istehsalı və əhalinin məşğulluğunun mühüm nəzəri-metodoloji və praktiki aspektləri hərtərəfli tədqiq edilib öyrənilmişdir.[164] Bu əsərlərin müəlliflərinin əksər çoxluğu əhalinin tam məşğulluğunun təmin edilməsinin istehsal vasitələri üzərində ictimai mülkiyyətin hakim olduğu, iş qüvvəsi ilə istehsal vasitələrinin planauyğun qaydada birləşdiyi planlı sosialist təsərrüfatı şəraitində mümkün olduğunu iddia edir və əhalinin məşğulluğunun təmin edilməsinin yeganə yolunu onların əsasən ictimailəşdirilmiş əmək dairəsinə cəlb edilməsində görürdülər. Halbuki sovet hakimiyyəti illərində iqtisadi ədəbiyyatlarda məşğulluğun dörd əsas forması-

---

[164] Bax: *М.Я.Сонин*. Воспроизводство рабочей силы в СССР и баланс труда. М., 1959; *П.П.Литвяков*. Научные основы использования трудовых ресурсов. М., 1969; Экономика труда в СССР. М.1965; *А.Э.Котляр* və başqaları. Рабочая сила в СССР. М., 1967.

nın- **ictimai faydalı fəaliyyətdə, iqtisadiyyatda, ictimai (ictimailəşdirilmiş) əmək dairəsində, şəxsi (ictimailəşdirilməmiş)** əmək dairəsindəki məşğulluğun mövcud olması göstərilir, onların hər birinin sosial-iqtisadi inkişafda və əhalinin məşğulluğunun təmin edilməsində rol və yeri aydınlaşdırılmışdır.

İctimai faydalı fəaliyyətdə məşğulluq dedikdə, bütünlükdə cəmiyyət tərəfindən zəruri və faydalı hesab olunub qəbul edilən hər hansı bir əmək fəaliyyəti sahəsindəki məşğulluq forması başa düşülürdü. Məşğulluğun bu formasını cəmiyyətdə adamların yaşayış vasitələri əldə etmələrinin yeganə mənbəyi olan şəxsi əmək**ləri** hesab edildiyindən əmək qabiliyyətli bütün cəmiyyət üzvlərinin özlərinin malik olduqları əmək qabiliyyətlərinə uyğun olaraq ictimai faydalı əməkdə iştirak etmələri zərurəti ilə bağlı idi.

Məşğulluğun ikinci və öz miqyasına görə mühüm forması iqtisadiyyatdakı məşğulluq idi. Buraya iqtisadiyyatın bütün sahələrində məşğul olan fəhlələr, qulluqçular, kolxozçular, şəxsi-yardımçı kənd təsərrüfatında məşğul olanlar (fermerlər), kooperativləşməmiş bəzi kustarlar və kəndlilərin məşğul olduqları xüsusi əmək sahələri daxil edilmişdir.

Məşğulluğun üçüncü forması ictimai əmək dairəsindəki (ictimailəşdirilmiş) məşğulluq olub, buraya yalnız fəhlə və qulluqçuların məşğul olduqları əmək sahələri aid edilmişdir.

Məşğulluğun dördüncü formasını isə şəxsi (xüsusi) əmək dairəsindəki məşğulluq təşkil edir. Buraya ev təsərrüfatındakı, habelə kolxozçuların, fəhlə və qulluqçuların bir hissəsinin şəxsi yardımçı kənd təsərrüfatı sahəsindəki məşğulluğu daxil edilirdi. Hazırda bu məşğulluq forması öz əhəmiyyətini itirmiş və əsasən kəndli (fermer) təsərrüfatlarında çalışan sahibkarlarda və fermerlərdə təcəssüm olunmuşdur.

Məşğulluğun bu əsas formalarından başqa ölkədə onun xüsusi formaları da xeyli yayılmışdır. Bunlara aşağıdakılar aid edilirdi:

Tam olmayan iş vaxtı (tam olmayan iş günü və ya iş həftəsində) **rejimində əmək** - buraya əsas etibarilə məhdud əmək qabiliyyətinə malik olanlar (qocalığa görə pensiyaçılar və əlillər)

və yaxud tam iş günü ərzində işləmək imkanı olmayanlar (ev və şəxsi həyətyanı təsərrüfatda məşğul olanlar, tələbələr) aid idi.

Evdə iş - buraya ailə vəziyyətinə və sağlamlığına görə evdən kənarda işləmək imkanı olmayıb mütəşəkkil qaydada ictimai istehsala cəlb olunanlar aid edilirdi.

Əmək semestri (rübü) təhsildən kənar boş vaxtlarında tələbələrin mövsümi və müvəqqəti məşğulluğunun təşkil edilməsi metodu idi.

Əvəzçiliklə işləmək əsas iş yerlərindən kənarda iş vaxtından sonra işçilərin normal müddətdə ardıcıl olaraq pulla iş yerinə yetirməyə cəlb edilməsi.

Bu məşğulluq formalarının bir çoxu indi də qalmaqda olub, əmək qabiliyyətli əhalinin iş yerləri ilə təmin edilməsində özünəməxsus rol oynasa da, iqtisadçılar arasında həmin formaların məşğulluq səviyyəsinə təsiri eyni cür qiymətləndirilmir və bu sahədə müxtəlif mövqelər vardır.

Ümumiyyətlə götürüldükdə, keçmiş SSRİ-də məşğulluq problemlərinin tədqiqi ilə məşğul olmuş iqtisadçıların bir çoxu **məşğulluq** dedikdə, bütünlükdə əmək qabiliyyətli əhalinin ictimai istehsalın müxtəlif sahələri və dairələrində işləməsini və ya ictimai faydalı fəaliyyətlə təmin edilməsini, əmək qabiliyyətli əhalinin ictimai təsərrüfatda, şəxsi yardımçı, xüsusi və ev təsərrüfatında, habelə başqa növ faydalı əmək dairəsində, məsələn, təhsildə məşğul olmalarını nəzərdə tutur, tam **məşğulluq** dedikdə, **birincisi**, əmək qabiliyyətli əhalinin ictimai təsərrüfatda **tam məşğulluğunu** və **ikincisi**, əmək qabiliyyətli əhalinin ictimai faydalı əməkdə **tam məşğulluğunu** başa düşürdülər.

Fikrimizcə, bazar iqitsadiyyatı şəraitində əhalinin tam məşğulluğuna əmək qabiliyyətli əhalinin maksimum ictimai istehsala cəlb edilməsi kimi deyil, əmək və təhsil hüququ ilə birlikdə ictimai istehsalda işləmək arzusu və ehtiyacı olanların işlə təmin edilməsi üzrə vətəndaşlar qarşısında dövlət vəzifəsini özündə əks etdirən bir hal kimi baxılmalıdır.

Məşğulluq quruluşu bir sıra **kəmiyyət və keyfiyyət göstəriciləri** ilə səciyyələnir. Onun **kəmiyyət** göstəricilərinə iqtisadiyyatın sahələrində və fəaliyyət dairələrində məşğul olan işçilərin sayı ilə əmək ehtiyatlarının sayı, maddi və qeyri-maddi is-

tehsal dairələrində, dövlət və xüsusi bölmədə məşğul olanların sayı, ayrı-ayrı iqtisadi rayonlarda, şəhər və kənd yerlərində məşğul olanların sayı arasındakı nisbətlər və s. daxildir. **Keyfiyyət** göstəricilərinə isə məşqul olanların yaş-cins quruluşu, təhsil səviyyəsi, ixtisası, peşəsi, iş stajı, ailə vəziyyəti və s. aiddir.

Müasir mərhələdə məşğulluq iqtisadiyyatın inkişafı və əhalinin rifahının yüksəldilməsinin mühüm amillərindən birini və dövlətin sosial siyasətinin tərkib hissəsini təşkil edir. «**Məşğulluq haqqında**» Azərbaycan Respublikasının qanununda onun sosial-iqtisadi mahiyyəti öz əksini aşağıdakı kimi tapmışdır. Orada deyilir ki: «**Məşğulluq** - Azərbaycan Respublikası vətəndaşlarının, Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin və əcnəbilərin Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan və bir qayda olaraq, onlara qazanc (gəlir) gətirən hər hansı fəaliyyətidir»[165]. Bu qanunda ölkə əhalisinin məşğulluq quruluşunun sosial-iqtisadi mahiyyəti, daha doğrusu məşğul əhali kateqoriyasına hansı şəxslərin aid edilməsi də öz konkret və aydın ifadəsini tapmışdır. Qanunun "Məşğul şəxslər" adlanan 2-ci maddəsində deyilir ki: "**Məşğul şəxslərə**" aşağıdakılar aiddir:

- muzdla işləyən, o cümlədən əmək müqaviləsi (kontraktı) ilə tam və ya tam olmayan iş vaxtı ərzində haqq müqabilində iş görən, habelə haqqı ödənilən başqa işi (xidməti) olanlar;
- sahibkarlar, fərdi əmək fəaliyyəti ilə məşğul olanlar, mülkiyyətində torpaq payı olanlar;
- haqqı ödənilən, vəzifəyə seçilən, təyin və ya təsdiq edilənlər;
- Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələrdə xidmət edənlər;
- əmək qabiliyyətinin müvəqqəti itirilməsi, məzuniyyət, ixtisasartırma, tətil, istehsalatın dayanması və ya başqa səbəblər ilə əlaqədar iş yerlərində müvəqqəti olmayanlar;

---

[165] «Məşğulluq haqqında» Azərbaycan Respublikasının qanunu. Azərbaycan qəzeti, 15 avqust 2001-ci il № 184(2897), s.1 (4 səh.)

- Azərbaycan Respublikasının ərazisində qanuni əsaslarla haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər;
- Azərbaycan Respublikasının hüdudlarından kənarda qanuni əsaslarla əmək fəaliyyəti ilə məşğul olan Azərbaycan Respublikasının vətəndaşları.[166]

Göstərilən fəaliyyət növlərini əhalinin təkrar istehsalı prosesinin ahəngdar surətdə həyata keçirilməsi, ölkənin bütövlüyü və təhlükəsizliyinin təmin edilməsi, habelə ictimai təkrar istehsalın arası kəsilməz bir proses kimi həyata keçiriləməsi baxımından **üç qrupa** ayırmaq olar:

1. **İqtisadiyyatda haqqı ödənilən fəaliyyətlə məşğul olanlar**. Onlar cəmiyyətin əsas sərvətini (əşya və mənəvi) yaradanlardır. Bu fəaliyyət növü ilə məşğul olanlar yaratdığı sərvətlərlə həm özlərinin və həm də başqa ictimai fəaliyyət sahələrinin təkrar istehsalı və inkişafı üçün zəmin hazırlayırlar.

2. **Azərbaycan Respublikasının Ordusunda xidmət edənlər**. Onlar bilavasitə pul gəlirləri gətirən fəaliyyət növü ilə məşğul olmasalar da, ölkəmizin və dövlətimizin təhlükəsizliyini təmin etmək üçün zəruri olan fəaliyyət sahəsində çalışmaqla iqtisadiyyatda məşğul olan əhalinin dinc şəraitdə işləməsini təmin edirlər.

3. **İstehsalatdan ayrılmaqla təhsil alanlar**. Onlar isə təbii yolla əmək qabiliyyətli yaşını ötmüş əhalinin yerini doldurmaq üçün ehtiyatda olan və hazırlanan nəsildir.

İqtisadiyyatda məşğul olanların özlərini də iqtisadi proseslərdə iştirak etmək xarakterinə görə üç mühüm yarımqruplara bölmək olar:

1. **Muzdlu işçilər.** Ən çox sayda olan əmək qabiliyyətli məşğul əhalidir. Onlara öz iş qüvvəsini satmaqla məşğul olan şəxslər aid edilirlər.

---

[166] «Məşğulluq haqqında» Azərbaycan Respublikasının qanunu. Azərbaycan qəzeti, 15 avqust 2001-ci il № 184(2897), s.1 (4 səh.)

2. **İşəgötürənlər (sahibkarlar).** Onlara əhalinin iqtisadi cəhətdən ən fəal hissəsi daxildir. Bunlara işəgötürənlər - sahibkarlar və öz mülkiyyətçilik hüququnu reallaşdıran şəxslər daxildir.

3. **Özüməşğul olanlar.** Bu kateqoriya şəxslərə daimi əsaslarla muzdlu iş qüvvəsindən istifadə etmədən öz hesabına işləyənlər, istehsal kooperativlərinin üzvləri daxildirlər.

Dünya, MDB və Azərbaycanın təcrübəsində başqa təsnifatdan da istifadə olunur. Beynəlxalq təsnifata əsasən məşğulluq statusu alanlar aşağıdakı altı qrupa bölünürlər:

1. Muzdlu işçilərə;
2. İşəgötürənlərə;
3. Öz hesabına işləyən şəxslərə;
4. İstehsal kooperativlərinin üzvlərinə;
5. Ailə üzvlərinə kömək edənlərə;
6. Status üzrə təsnifləşdirilməmiş işçilərə.

Bu təsnifatı rəhbər tutaraq məşğulluğun tərkibi və xarakterini geniş təhlil etmək, lazımi elmi təcrübi əhəmiyyətli təkliflər işləyib hazırlamaq olar.

Azərbaycan Respublikasında həyata keçirilən radikal iqtisadi islahatlar ictimai həyatın bütün sahələrində olduğu kimi, məşğulluq sahəsində də müəyyən prinsiplərin Azərbaycan Respublikasının Konstitusiyasında, **«Məşğulluq haqqında»** Azərbaycan Respublikasının qanununda və başqa dövlət sənədlərində əks etdirilməsinə gətirib çıxarmışdır. Bu prinsiplər özünü mövcud bazar iqtisadiyyatının reallığında təzahür etdirir. Həmin prinsipləri daha dərindən təhlil edib öyrənmək üçün ilk növbədə Azərbaycan Respublikasının Konstitusiyasının **«Əmək hüququ»** adlanan 35-ci maddəsinə müraciət etmək lazımdır. Burada deyilir ki:

«I. Əmək fərdi və ictimai rifahın əsasıdır.

II. Hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır.

III. Heç kəs zorla işlədilə bilməz.

IV. Əmək müqavilələri sərbəst bağlanır. Heç kəs əmək müqaviləsi bağlamağa məcbur edilə bilməz.

V. Məhkəmə qərarı əsasında şərtləri və müddəaları qanunla nəzərdə tutulan məcburi əməyə cəlb etmək, hərbi xidmət zamanı səlahiyyətli şəxslərin əmrlərinin yerinə yetirilməsi ilə əlaqədar işlətmək, fövqəladə vəziyyət və hərbi vəziyyət zamanı vətəndaşlara tələb olunan işləri gördürmək hallarına yol verilir.

VI. Hər kəsin təhlükəsiz və sağlam şəraitdə işləmək, heç bir ayrı-seçkilik qoyulmadan öz işinə görə dövlətin müəyyənləşdirdiyi minimum əmək haqqı miqdarından az olmayan haqq almaq hüququ vardır.

VII. İşsizlərin dövlətdən sosial müavinət almaq hüququ vardır.

VIII. Dövlət işsizliyinin aradan qaldırılması üçün bütün imkanlardan istifadə edir»[167].

«Məşğulluq haqqında» Azərbaycan Respublikasının Qanununda əhalinin məşğulluq prinsipləri isə öz konkret ifadəsini aşağıdakı kimi tapmışdır:

Birinci prinsip. Azərbaycan Respublikasının Konstitusiyasında həkk olunmuş məşğulluğun **ilk prinsipi** - hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçməsindən ibarətdir. Azərbaycan Respublikasının Konstitusiyasında və əmək qanunvericiliyi ilə müəyyən edilmiş xüsusi hallardan başqa (məhkəmənin qərarı, hərbi və fövqəladə vəziyyət zamanı) vətəndaşların məcburi əməyə cəlb edilməsinə yol verilmir və heç kim zorla işlədilə bilməz. Əməklə məşğul olmaq yeganə səmərəli fəaliyyət növü deyildir. Təhsil almaq, ev təsərrüfatında işləmək, uşaqların tərbiyəsi ilə məşğul olmaq, ictimai işlərdə çalışmaq, dini fəaliyyətlə və sairlə məşğul olmaq da əmək fəaliyyətinə bərabər sayılan işlərdir. Həyata keçirilən bazar islahatları, istehsal vasitələrinin özəlləşdirilməsi, hər hansı bir yerdə yaşamaq hüququna malik olmaq və ölkə ərazisində azad surətdə hərəkət etmək və sair hallar qeyd edilən prinsipin həyata keçirilməsinə geniş zəmin yaradır. Bundan əlavə, həmin prinsipin həyata keçirilməsi xeyli dərəcədə də adamların yaşayış mənbəyinin mövcud olması dərəcə-

---

[167] Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, «Qanun», 2002, s. 20-21.

dən asılıdır. Sonuncunun mövcud olmaması, məsələn, işsizlərdə, xüsusilə də uzun müddət işləməyənlərdə belə imkanın mövcud olmaması, onların hər hansı bir işlə məşğul olmaq imkanını sual altına alır.

İkinci prinsip də yuxarıda deyilən dövlət sənədlərindən irəli gəlir və onun mahiyyəti ondan ibarətdir ki, vətəndaşlar fəaliyyət növü, peşə, məşğuliyyət və iş yerini sərbəst seçmək hüququna malikdirlər. Bu isə o deməkdir ki, dövlət hər bir vətəndaş üçün əmək və sərbəst məşğulluq seçmək hüququnun həyata keçirilməsinə məsuliyyət daşıyır. Özünə sərbəst məşğuliyyət seçmək hüququnu reallaşdırmaq üçün çoxlu sayda insanların dövlətin köməyinə böyük ehtiyacı vardır. Məsələn, gənclər ilk dəfə əmək fəaliyyətinə başlayarkən, hələ tam təsəffür etmir ki, hansı sahədə və hansı işlərdə çalışmaq daha əlverişlidir. Buna görə də peşə yönümü, peşə seçmək və yeni iş yerləri açılmasında dövlətin köməklik göstərməsinə böyük ehtiyac vardır. Belə köməklik göstərilməsinə başqa qrup əhali kateqoriyalarının-çoxuşaqlı qadınların, əlillərin, təqaüd yaşı ərəfəsində yaşda olanların və sairlərin də böyük ehtiyacı vardır. Dövlət onlar üçün bərabər şəraiti iqtisadi, qanunvericilik və sosial tədbirlər vasitəsilə həyata keçirə bilər.

Üçüncü prinsip – uzunmüddətli milli mənafelərin nəzərə alınması və təmin edilməsindən ibarətdir. Çünki cəmiyyət və dövlət heç vəchlə milli mənafelərə, o cümlədən məşğulluq sahəsində belə mənafelərə biganə qala bilməz. Təsadüfi deyildir ki, "**Məşğulluq haqqında**" Azərbaycan Respublikasının qanununda məşğulluq sahəsində dövlət siyasətinin əsas istiqamətlərindən birinin **«irqindən, milliyətindən, dilindən, cinsindən, ailə vəziyyətindən, ictimai-sosial mənşəyindən, yaşayış sferindən, əmək vəziyyətindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlara əmək və məşğulluğu sərbəst seçmək hüququnun həyata keçirilməsində bərabər imkanlar təmin edilməsi»ndən ibarət olması xüsusi qeyd olunmuşdur**.[168]

---

[168] «Məşğulluq haqqında» Azərbaycan Respublikasının qanunu. Azərbaycan qəzeti, 15 avqust 2001-ci il, №184(2897) s.1.

Dördüncü prinsip - regional, milli, etnik və sahə xüsusiyyətləri və iş yerinə tələbatın nəzərə alınmasından ibarətdir.

Beşinci prinsip - məşğulluğun həll edilməsinə kompleks yanaşılmaq zəruriyyətindən ibarətdir. Bu məsələyə **kompleks yanaşılması** dedikdə, bütün səviyyələrdə hökümət orqanlarının səylərinin birləşdirilməsi, dövlət tənzimlənməsi ilə bazar tənzimlənməsi mexanizmlərinin qarşılıqlı əlaqələndirilməsi, büdcə və büdcədənkənar fondlardan, müəssisələrin, ictimai birliklərin və vətəndaşların maliyyə imkanlarından istifadə edilməsi, iqtisadi səmərəliliyin və sosial ədalətin əldə edilməsi və s. başa düşülür.

Dövlətin məşğulluğun birbaşa mərkəzləşdirilmiş qaydada nizamlanmasından imtina etməsindən sonra onun yeni tənzimlənmə sisteminin yaradılması zərurəti meydana çıxmışdır. Belə sistem bütün başqa MDB dövlətlərində olduğu kimi, respublikamızda da yaradılmağa başlamışdır. 1999-cu ilin fevralında **«Əmək məcəlləsi»**, 2001-ci ilin «2» iyulunda **«Məşğulluq haqqında»** Azərbaycan Respublikasının qanunu qəbul edilmiş və bunlara müvafiq müxtəlif sənədlər hazırlanıb təsdiq edilmişdir. Məşğulluğun nizamlanması sisteminin əsas mərhələsini əmək qanunvericiliyi; Prezidentin sərəncamı və hökümətin qərarları; milli, regional, sahə və müəssisə səviyyəsində sosial-əmək münasibətləri üzrə bağlanmış müqavilələr; məşğulluq proqramları təşkil edir.

Sosial-əmək münasibətlərinin əsas subyektlərinin birgə səyləri ilə məşğulluğun gələcək istiqamətləri müəyyənləşdirilməli, bunun üçün zəruri olan struktur dəyişiklikləri aparılmalı, iş qüvvəsinin keyfiyyət tərkibi təkmilləşdirilməli, onun daxili və xarici əmək bazarında rəqabət qabiliyyəti artırılmalıdır. Ancaq bütün səylərin başlıca koordinatoru kimi dövlət çıxış etməlidir.

Məşğulluğun əsas iqtisadi funksiyası iş qüvvəsi ilə istehsal vasitələrinin birləşməsindən, daha doğrusu cəmiyyətin və onun hər bir üzvünün tələbatını ödəmək üçün zəruri olan maddi və mənəvi nemətlərin yaradılması məqsədilə işçilərin iqtisadi cəhətdən səmərəli olan iş yerləri ilə təmin edilməsindən ibarətdir. Başqa sözlə desək, məşğulluğun iqtisadi funksiyası şəxsi və ictimai tələbatın ödənilməsi üçün zəruri olan ilkin zəmin yaratmaqdan ibarətdir.

İqtisadi kateqoriya kimi isə məşğulluq iş yerləri ilə təminedilmə üzrə insanlar arasındakı münasibətləri özündə əks etdirməklə əmək proseslərinə, əmək fəaliyyətinə qoşulmuş və onlardan kənarda qalmış adamlara bölünmüş əmək qabiliyyətli əhalinin bilavasitə funksional xarakteristikası kimi çıxış edir. Başqa sözlə desək, «**məşğulluq** həmişə hər bir istehsal üsulunun başlıca iqtisadi münasibətlərini təşkil edən istehsal amillərininistehsal vasitələri ilə iş qüvvəsinin birləşməsinin tarixi üsullarının xüsusiyyətlərini özündə əks etdirən sosial iqtisadi prosesdir».[169]

Beləliklə, məşğulluq ictimai əmək bölgüsü ilə bağlı olub bütün ictimai-iqtisadi quruluşlar üçün xasdır. Bütün ictimai-iqtisadi quruluşlarda cəmiyyət üzvlərinin əmək prosesində məşğul olmaları əhalinin əmək ehtiyatlarına aid hissəsinin mühüm iqtisadi məzmununu təşkil edir. Məcmu iş qüvvəsi isə istehsal vasitələrinin birləşməsi prosesində adamların məşğulluğunun maddi zəmini, onun maddi əsası kimi çıxış edir. Hələ vaxtı ilə K.Marks yazmışdır ki: «...müəyyən bir istehlak dəyərinin xam material, əmək vasitəsi və ya məhsul kimi meydana çıxması tamamilə onun əmək prosesində daşıdığı müəyyən funksiyadan, burada tutduğu yerdən asılıdır və bu yer dəyişdikdə, onun vəzifələri də dəyişir. **Buna görə də yeni** əmək proseslərinə istehsal vasitələri kimi daxil olduqda öz məhsul xarakterini itirir. Məhsullar burada canlı əməyin ancaq maddi amilləri olur».[170]

Cəmiyyət üzvlərinin əmək prosesinə nə qədər tam cəlb edilməsi, mürəkkəb fəaliyyət növlərini yerinə yetirmələri və onların əməyindən nə dərəcədə səmərəli istifadə edilib-edilməməsi iqtisadi inkişafın artım sürətindən, ümumi daxili məhsulun və vətəndaşların gəlirlərinin həcmindən, cəmiyyətin alıcılıq qabiliyyətindən, tələb və təklifinin ödənilməsi dərəcəsindən asılıdır. Buna görə də əhalini **tam, səmərəli** və **məhsuldar məşğulluğunun təmin edilməsi** Azərbaycan dövlətinin iqtisadi siyasətinin mühüm tərkib hissələrindən biridir. Yalnız dövlətin fəal müdaxiləsi

---

[169] А.З.Дадашов. Проблемы использования трудовых ресурсов в СССР. М., 1975. Изд-во «Знание», с.6-7 .

[170] *K.Marks.* Kapital, I cild. Bakı, 1969, s.188(895)

və iştirakı ilə məşğulluğun iqtisadi funksiyası tam həcmində həyata keçirilə bilər.

Tam, məhsuldar və səmərəli məşğulluğun mühüm xalq təsərrüfatı əhəmiyyətinə malik olmasını nəzərə alaraq, onların haqqında bir qədər ətraflı bəhs etməyi məqsədəuyğun hesab edirik. Bu anlayışlara tam aydınlıq gətirmək üçün **ilk növbədə məşğulluğun məqsəd və meyarlarını** düzgün müəyyən etmək tələb olunur. Uzun illər boyu keçmiş SSRİ-də, o cümlədən Azərbaycan SSR-də **bu meyar əhalinin hamılıqla məşğulluğunun təmin edilməsindən ibarət olmuşdur. Dövlətin məqsədi** əmək qabiliyyətli əhalinin hamısını iş yerləri ilə təmin etməkdən ibarət idi. **İş yerlərinin yaradılması və proqnozlarının əsasına isə əmək resurslarının hərəkəti proqnozu qoyulurdu.** Bu siyasətin nəticəsi yüksək məşğulluğun təmin edilməsində özünü göstərirdi. Təsadüfi deyildir ki, 90-cı illərdə keçmiş SSRİ-də əmək qabiliyyətli əhalinin təqribən 90-95%-i yalnız ictimai istehsalda işləyirdi. Ancaq təcrübə göstərdi ki, bu cür yüksək məşğulluq heç də **yüksək əmək məhsuldarlığı və yüksək iqtisadi səmərəlilikdə əks olunmurdu**. Bu səbəbdən də keçmiş SSRİ-də əmək məhsuldarlığının səviyyəsi və iqtisadiyyatın səmərəlilik dərəcəsi sənaye cəhətdən inkişaf etmiş ölkələrdən xeyli geridə qalırdı. Eyni zamanda da bu cür yüksək məşğulluq cəmiyyətin başqa sahələrinin inkişafına mənfi təsir göstərirdi. Ən əsası isə, hər şeydən əvvəl, əhalinin uşaqların tərbiyəsinə və özlərinin inkişafına sərf etməyə vaxtı qalmırdı.

Əvvəllərdə olduğu kimi, bu gün də MDB ölkələrinin iqtisadçıları (həm də təkcə onlar yox) **«tam, məhsuldar və səmərəli məşğulluq»** anlayışlarına dair tam fikir birliyinə nail olmamışlar. Belə bir vəhdətlik Qərb iqtisadçıları arasında da yoxdur. Belə ki, neoklassik istiqamətli iqtisadi fikir tərəfdarlarına görə ***tam məşğulluq dedikdə – iqtisadiyyatın elə vəziyyətdə olması nəzərdə tutulur ki, əmək haqqının mövcud səviyyəsində işləmək arzusunda olan bütün əmək qabiliyyətli əhalinin ictimai istehsalda işi vardır.***[171] Bu cür məşğulluğu onlar ***həm optimal və həm də səmərəli hesab edilirlər.*** Neoklassik iqtisadçılardan fərqli olaraq,

---

[171] Занятость населения. Изучение и регулирование. М., «Финансы и статистика», 1983, с.17 (182).

Keyns belə hesab edirdi ki, iqtisadiyyatda səmərəli təklifi təmin etmək üçün eyni real əmək şəraitində hər vaxt faktiki məşğul olan əhaliyə nisbətən daha çox əhali işləyə bilər. **Bu cür yüksək məşğulluğu o, səmərəli hesab edirdi.**

Monetaristlərin fikrincə isə (M.Fridmen və başqaları) «təbii işsizliyin» müəyyən səviyyəsi mövcuddur (onların fikrincə, bu səviyyə ABŞ-da 5-6 faizdir) və iqtisadiyyat özü-özünü nizamlamaqla bu həddə gəlib çıxır. Məhz buna görə də dövlət bu prosesə müdaxilə etməməlidir, çünki onun müdaxiləsi iqtisadiyyatda inflyasiyanın yaranmasına gətirib çıxarır. Dövlət yalnız pul kütləsinin nizamlanması ilə məşğul olmalıdır. Bu, hər il istehsalın artım səviyyəsindən çox olmayaraq artmalıdır. (ABŞ üçün bu artım təqribən 3-5 faiz təşkil edir). Bu prosesə dair başqa nöqteyi-nəzərlər də vardır. Başqa sözlə desək, bu problem indiyədək kəskin xarakter daşımaqdadır və həll edilməmiş qalmışdır. **Sual oluna bilər ki, tam məşğulluğa nail olmaq olarmı və o hansı şəraitdə əldə edilə bilər**? Əlbəttə, burada söhbət heç də ümumiyyətlə iş yerindən deyil, ***əhalinin tələbatını ödəyə bilən, iqtisadi cəhətdən səmərəli olan iş yerlərindən gedir***. İqtisadi cəhətdən səmərəli iş yeri dedikdə isə - dövriyyə vasitələri ilə (əmək predmeti, enerji, əmək haqqı və s.) təmin edilmiş elə fiziki iş yerləri nəzərdə tutulur ki, bu zəhmət ***adamına öz marağını həyata keçirməyə, yüksək əmək məhsuldarlığına nail olmağa və işçinin özünün və ailəsinin normal qaydada yaşamasına imkan vermiş olsun.***[172]

Beləliklə, əgər iqtisadi cəhətdən səmərəli olan belə iş yerlərinə tələb müvafiq peşə-ixtisas quruluşu üzrə iş qüvvəsinə olan tələbatı ödəyirsə, onda bu vəziyyətdə **tam məşğulluq haqqında** söhbət aparmaq olar. Həm də bu iqtisadi cəhətdən səmərəli iş yerləri **ictimai səmərəli və haqqı ödənilən**, başqa sözlə desək, **məhsuldar** olmalıdır. Yalnız bu əsasda tələb və təklifin tarazlığı iqtisadiyyatda yüksək nəticələrin əldə edilməsinə imkan verə bilər. Nəzərə almaq lazımdır ki, tam məşğulluğun təmin edilməsinə **təkcə bazar mexanizmi vasitəsilə nail olmaq qeyri-mümkündür.** Bunun üçün dövlətin iqtisadi cəhətdən səmərəli iş

---

[172] «Общество и экономика». М., 1977, №7-8, с.21.

yerlərinin yaradılmasına, daha çox isə elmin, təhsilin, səhiyyənin, ekoloji təhlükəsizliyin inkişafına, iş qüvvəsinin ixtisas səviyyəsinin yüksəldilməsinə, iqtisadiyyatın yeni və daha yüksək inkişaf səviyyəsinə imkan verən **fəal iqtisadi siyasət yeridilməsinə böyük ehtiyac duyulur**. Bu vəzifə isə yalnız sosial yönümlü iqtisadiyyatın yaradılması şəraitində həyata keçirilə bilər. Burada qarşıda duran vəzifə təkcə **məhsuldar məşğulluğa** deyil, həm də iqtisadi cəhətdən səmərəli məşğulluğa nail olmaqdan ibarətdir.

Səmərəli məşğulluq dedikdə isə – elə məşğulluq başa düşülür ki, o, layiqli gəlir, sağlamlıq, şəxsiyyətin təkmilləşdirilməsi, ictimai əmək məhsuldarlığının yüksəldilməsi əsasında cəmiyyətin hər bir üzvü üçün təhsil və peşə səviyyəsinin yüksəldilməsinin təmin edilməsinə imkan versin. Keyfiyyət cəhətdən həmin anlayışın müəyyən edilməsi üçün bu deyilənlər kifayətdir. Ancaq kəmiyyətcə onu ölçmək bir göstərici ilə mümkün deyildir. Bunun üçün çoxlu göstəricilər sistemi lazımdır.[173] **Bizim fikrimizcə, həmin göstəricilərin ən mühümlərinə aşağıdakıları aid etmək olar:**

- peşə əməyi ilə əhalinin məşğulluq səviyyəsi (əmsalı);
- əmək qabiliyyətli əhalinin ictimai təsərrüfatda məşğulluq səviyyəsi;
- ictimai səmərəli fəaliyyət dairələri üzrə əmək qabiliyyətli əhalinin (və ya əmək ehtiyatlarının) bölüşdürülməsinin optimallığı;
- əmək qabiliyyətli əhalinin iqtisadiyyatın sektorları və sahələri üzrə bölüşdürülməsinin quruluşunun səmərəliliyi;
- işsizlik norması və onun təbii işsizlik səviyyəsinə nisbəti.

Yuxarıda deyilən göstəricilərin köməkliyi ilə Azərbaycan Respublikasında əhalinin məşğulluq vəziyyətini qısaca təhlil edib onun inkişaf meyllərini aşkara çıxarmaq müəyyən maraq doğurmaya bilməz.

Birinci göstərici - peşə əməyi ilə məşğul olan əhalinin məşğulluq səviyyəsini (əmsalı) müəyyən etmək üçün – məşğul

---

[173] Экономика труда и социально-трудовые отношения. М., Изд-во МГУ, 1996, с.83-90 (415 стр.)

olan əhalinin sayının əhalinin orta illik ümumi sayına nisbəti götürülür və faizlə ifadə edilir.

2002-ci ildə Azərbaycanda onun səviyyəsi – 45,6 faiz olub (8172,0 min nəfər: 3726,4 min nəfər x 100).[174] 2002-ci ildə Azərbaycan Respublikasında bütün əhali arasında əmək qabiliyyətli əhalinin xüsusi çəkisi 59,7 faiz təşkil etmişdir.[175]

İkinci göstərici – əmək qabiliyyətli əhalinin ictimai təsərrüfatda məşğul olmaq səviyyəsi-peşə əməyi ilə məşğul olan əmək qabiliyyətli əhalinin bütünlüklə əmək qabiliyyətli əhalinin sayına olan nisbəti kimi hesablanır. 2002-ci ildə Azərbaycan Respublikasında bu göstərici 78,6 faiz olub (3726,4 min nəfər: 4740,6 min nəfər x 100).

Üçüncü göstərici – əmək qabiliyyətli əhalinin ictimai faydalı əməyin sahələri üzrə bölünməsi optimallığı. 2002-ci ildə Azərbaycan Respublikasında peşə əməyi ilə 3726,4 min nəfər məşğul olmuşdur. Onların sayı 1990-cı ilə nisbətən artmamış, təqribən sabit qalmışdır. Onların 32,0 faizi dövlət sektorunda, 68,0 faizi qeyri-dövlət sektorunda, məşğul olanların 39,3 faizi fərdi bölmədə, 6,9 faizi xüsusi və kollektiv mülkiyyət formalı təşkilatlarda, 0,9 faizi xarici investisiyalı təşkilatlarda, 0,9 faizi dinə xidmət edən şəxslər, 19,5 faizi sərbəst (müstəqil) məşğul əhali olmuşdur.[176]

Dördüncü göstərici – əmək qabiliyyətli əhalinin iqtisadiyyatın sahələri və bölmələri arasında bölüşdürülməsi quruluşunun səmərəliliyi-müəyyən dərəcədə əhalinin məşğuliyyət növləri üzrə bölünməsi vəziyyətini xarakterizə edir (xüsusilə də sahələraltı məşğulluq quruluşu). Azərbaycan Respublikasında əmək qabiliyyətli əhalinin iqtisadiyyatın sahələri və bölmələri üzrə bölüşdürülməsi nisbətlərinin dəyişilməsi dinamikasını aşağıdakı 28-ci cədvəlin məlumatlarından daha aydın görmək olar. Həmin cədvəlin məlumatlarından görünür ki, 1990-1998-ci illərdə bütünlüklə iqtisadiyyatda məşğul olanların sayı 0,1 faiz, o cümlədən sənayedə 46,5 faiz, kənd təsərrüfatında 0,4 faiz, ti-

---

[174] Əmək bazarı. 2003. B., 2003, s.27.
[175] Azərbaycanın əhalisi. 2003, B., 2003, s.22.
[176] Əmək bazarı. 2003. B., 2003, s.40.

kintidə-38,7 faiz, nəqliyyat və rabitədə 23 faiz azaldığı halda, ticarət iaşə, MTT, satış və tədarükdə 1,9 dəfə, mənzil-kommunal təsərrüfat və məişət xidmətində 25,8 faiz, səhiyyə, bədən tərbiyəsi və sosial təminatda 7,9 faiz, təhsil, mədəniyyət və incəsənətdə 11,5 faiz, idarəetmə orqanları aparatında 28 faiz artmışdır[x].

Beləliklə, bəzi qeyri-istehsal dairələrində baş verən müsbət dəyişikliklər, iqtisadiyyatın inkişafında onların rol və yerinin artması bu dairənin başqa sahələrin inkişaf səviyyələrinin geri qalması ilə xeyli ləngiyir ki, bunun da nəticəsində bütünlüklə xalq təsərrüfatında məşğulluğun səmərəliliyi aşağı düşür. Bunlar isə, öz növbəsində, ölkədə neqativ hal kimi işsizlərin sayının günü-gündən artmasına gətirib çıxarır. Buna görə də həmin məsələnin həllinə dövlət qayğısı və nəzarətinin artırılması tələb olunur.

Qeyd etmək lazımdır ki, məşğulluq təkcə **iqtisadi funksiyalara deyil**, həm də **sosial funksiyalara** malikdir. Bu iki funksiyanı bir-birindən ayırmaq o qədər də asan bir məsələ olmasa da, onların ayrı-ayrılıqda nəzərdən keçirilməsinə böyük ehtiyac duyulur.

Məşğulluğun sosial funksiyası əhalinin hərtərəfli inkişafının təmin edilməsindən ibarətdir. İnsanlar cəmiyyət həyatında təkcə istehsal amili, iqtisadi və siyasi vəzifələrin yerinə yetirilməsi aləti, vasitəsi kimi deyil, həm də hər şeydən əvvəl yüksək mənəvi dəyərlər və ictimai tərəqqinin məqsədi kimi çıxış edir.

İnsanın hərtərəfli inkişafı onun istehsalın və cəmiyyətin idarə edilməsində iştirak imkanlarını artırır, özünün yaşayışı üçün zəruri olan qərarların qəbul edilməsində bir sıra tədbirlər görülüb həyata keçirilməsində fəallığını yüksəldir. **Daha çox inkişaf etmiş insan - daha çox azad adam olduğundan o daha çox sosial azadlıq və sosial ədalət prinsiplərinə əməl etməyə tələbkar olur, siyasi plüralizmə və demokratiyaya əməl edir. Həmin insanlarda bu və ya digər fəaliyyət növlərinə daha çox tələbat və stimul yaranır və bu şəraitdə onların özləri də inkişaf edib təkmilləşir.**

---

[x] Sahələr üzrə məşğulluq 1998-ci ildən sonra statistik külliyyatlarda verilmir.

28-ci cədvəl [177]

Azərbaycan Respublikasında məşğul olan əhalinin iqtisadiyyatın sahələri üzrə bölgüsü nisbətlərinin dəyişilməsi dinamikası

İllər	1990-cı il		1995-ci il		1998-ci il		1998-ci il
Təsərrüfat sahələri	min nəfər	yekuna nisbətən, faizlə	min nəfər	yekuna nisbətən, faizlə	min nəfər	yekuna nisbətən, faizlə	1990-cı ilə nisbətən, faizlə
İqtisadiyyatda məşğul olanların sayı	3703,4	100,0	3613,0	100,0	3701,5	100,0	99,9
O cümlədən: Sənayedə	469,1	12,7	352,1	9,8	251,1	6,8	53,5
Kənd təsərrüfatı və meşə təsərrüfatında	1144,4	30,9	1112,8	30,8	1139,6	30,8	99,6
Tikintidə	251,7	6,8	185,1	5,1	154,3	4,2	61,3
Nəqliyyat və rabitədə	215,8	5,8	159,1	4,4	166,2	4,5	77,0
Ticarət, ictimai iaşə, MTT, satış və tədarükdə	366,6	9,9	505,8	14,0	701,7	19,0	191,4
Mənzil-kommunal təsərrüfatı və məişət xidməti	125,9	3,4	104,8	2,9	158,4	4,3	125,8
Səhiyyə, bədən tərbiyəsi və sosial təminatda	169,6	4,6	174,5	4,8	183,0	4,9	107,9
Təhsil, mədəniyyət və incəsənətdə	337,8	9,1	372,6	10,3	376,9	10,2	111,5
Elm və elmə xidmətdə	57,9	1,6	34,1	1,1	31,2	0,8	53,9
İdarəetmə, maliyyə və sığortada	10,7	0,3	14,2	0,3	10,5	0,2	98,1
İdarəetmə orqanları aparatında	51,0	1,4	66,6	1,8	65,3	1,8	128,0
Sair sahələrdə	502,9	13,6	531,3	14,7	463,3	12,5	92,1

[177] Azərbaycanın statistik göstəriciləri, 2001. Bakı, 2001, s.72. 1998-ci ildən sonra bu səpkidə rəqəmlər çap olunmur.

Bu isə əhalinin əmək fəallığının yüksəlməsinə və onların həyat səviyyəsinin yaxşılaşdırılmasına zəmin yaradır. Müvəffəqiyyətli əmək məşğulluğu isə öz növbəsində intellektual səviyyənin yüksəldilməsinə, bilik və peşələrə yiyələnməyə, ixtisas almağa, bu və ya digər sahədə çalışa bilmək üçün rəqabət qabiliyyətini yüksəltməyə həvəs oyadır.

İnkişaf etmiş ölkələrdə ixtisas, peşə yüksək əmək haqqı ilə sıx bağlıdır. Bu qarşılıqlı əlaqə meylinin yüksəlməsi isə onda özünü göstərir ki, insan nə qədər ixtisasa malik olursa, o daha yüksək əmək haqqı verilən işlərdə çalışmağa nail olur, bu isə onun həyat səviyyəsinin yüksəlməsi və bir insan kimi hərtərəfli inkişaf etməsi üçün təminat yaradır. **Məşğulluğun sosial funksiyası** (onun strukturu, hərəkət istiqaməti) isə eyni qalmayıb daim dəyişib təkmilləşir. O, daim müəyyən dəyişikliklərə məruz qalır. Bu, xüsusilə keçid şəraitində özünü daha qabarıq surətdə büruzə verir. Müasir dövrdə başqa MDB ölkələrində olduğu kimi, Azərbaycan Respublikasında da məşğulluğun sosial funksiyasında müəyyən transformasiyalar baş verir. Bunu ölkənin iqtisadi sektorlarında əhalinin quruluşunun dəyişilməsindən daha aydın görmək olar (bax 29-cu cədvələ). Həmin cədvəlin məlumatlarının təhlilindən aydın olur ki, 1990-2002-ci illərdə ölkə iqtisadiyyatında məşğul olanların sayı demək olar ki, artmayıb sabit qalmış və ya cəmi 1,1 min nəfər artdığı halda, dövlət sektorunda işləyənlərin sayı 54,5 faiz azalaraq 2618,9 min nəfərdən 1192,0 min nəfərə düşmüş, qeyri-dövlət bölməsində isə 2,3 dəfədən çox (233,7 faiz) artaraq 1084,5 min nəfərdən 2534,5 min nəfərə gəlib çatmış və buna müvafiq olaraq birinci bölmədə məşğul olanların xüsusi çəkisi azalaraq 70,7 faizdən 32,0 faizə düşmüş, ikinci bölmədə məşğul olanların xüsusi çəkisi isə artaraq 29,3 faizdən 68,0 faizə qalxmışdır. Müqayisə edilən dövrdə fərdi bölmədə məşğul olanların sayı 3,1 dəfə artaraq 466,2 min nəfərdən 1464,5 min nəfərə gəlib çatmış və bütünlükdə məşğul olan əhali arasında onların xüsusi çəkisi 12,6 faizdən 39,3 faizə qalxmışdır. Bunu dinə xidmət edən və sərbəst məşğul olan şəxslər haqqında da demək olar.

29-cu

Azərbaycan Respublikasında məşğul əhalinin iqtisadiyyatın müxtəlif bölmələri üzrə bölgüsünün quruluşu və dinamikası

İllər	1990		1995		1996		1997		1998		1999		2000		2002
tisadiyyat imələri	cəmi (min nəfər)	yekuna nisbətən, faizlə	cəmi (min nəfər)	yekuna nisbətən, faizlə	cəmi (min nəfər)	yekuna nisbə-tən, faizlə	cəmi (min nəfər)	yekuna nisbətən, faizlə	cəmi (min nəfər)	yekuna nisbə-tən, faizlə	cəmi (min nəfər)	yekuna nisbə-tən, faizlə	cəmi (min nəfər)	yekuna nisbə-tən, faizlə	cəmi (min nəfər)
mi iqtisa-yatda şğuldurlar	3703,4	100	3613,0	100	3686,7	100	3694,1	100	3701,5	100	3701,9	100	3704,5	100	3726,5
cümlədən övlət lməsində	2618,9	70,7	2027,2	56,1	1879,9	51,0	1717,7	46,5	1710,0	46,2	1342,0	36,3	1278,2	34,5	1192,0
yri-dövlət lməsində	1084,5	29,3	1585,8	43,9	1806,8	49,0	1976,4	53,5	1991,3	53,8	2359,9	63,7	2426,3	65,5	2534,5
lardan: operativ lməsində	395,5	10,7	340,9	9,4	308,5	8,4	93,4	2,5	20,2	0,5	-	-	-	-	-
rdi lmədə	466,2	12,6	631,5	17,5	684,9	18,6	788,1	21,1	779,8	20,9	1489,2	40,2	1439,5	38,8	1464,5
üştərək kilatlarda	-	-	7,0	0,2	26,9	0,7	32,2	0,8	174,0	4,7	174,2	4,7	371,0	10,0	278,2
rici investi-alı təşkilat-	-	-	-	-	5,6	0,2	8,2	0,2	125,3	3,4	135,8	3,7	28,5	0,8	32,7
na xidmət n şəxslər	0,6	0,1	5,0	0,1	5,5	0,1	5,5	0,1	35,0	1,0	35,2	1,0	35,2	1,0	33,0
bəst məş-olan şəxs-	222,2	6,0	601,4	16,7	775,4	21,0	1059,0	28,8	863,0	23,3	525,5	14,1	552,1	14,9	726,1

Beləliklə, son on il ərzində ölkədə əhalinin məşğulluq quruluşunda dövlət sektorunun xüsusi çəkisinin azalması, qeyri-dövlət sektorunun, o cümlədən fərdi sektorun xüsusi çəkisinin artması meylinin surətlənməsi müsbət hal olub, bazar münasibətlərinin formalaşmağa başladığını göstərən bir əlamət kimi qiymətləndirilməli və müdafiə olunmalıdır. Ancaq bu sahədə xüsusi sektorun birinci yerə çıxması hələ həmin sahədə məşğulluğun səmərəliliyi haqqında qəti söz deməyə imkan vermir. Çünki hələlik bütün başqa sahələrdə olduğu kimi, xüsusi sektorda da iqtisadiyyatın səmərəlilik dərəcəsi aşağı olaraq qalmaqdadır və bu göstərici bir çox sahələrdə artmaq əvəzinə azalmaqdadır. Ona görə də dövlət və qeyri-dövlət sektorunda, habelə başqa məşğulluq sahəsində mövcud olan nisbətlikləri və bu nisbətliklərdə baş verən dəyişiklikləri optimal hesab etmək olmaz. Onu da nəzərə almaq lazımdır ki, bazar iqtisadiyyatının doğurduğu ən mənfi, neqativ hallardan biri də işsizliyin yaranıb artması və onun xroniki hal almasından ibarətdir. Azərbaycan Respublikası işsizlərin ən çox olduğu ölkələrdən biri kimi diqqəti cəlb edir və həmin məsələnin ayrılıqda nəzərdən keçirilməsini tələb edir.

2.3. İŞSİZLİK ANLAYIŞI: MAHİYYƏTİ, MƏZMUNU, FORMALARI VƏ MODELLƏRİ[XX]

İşsizlik dedikdə - hər şeydən əvvəl ölkənin əmək qabiliyyətli əhalisinin bir qisminin özünə müvafiq iş tapa bilməməsi nəticəsində «artıq» əhaliyə, ehtiyat əmək ordusuna çevrilməsi başa düşülür. O, əmək bazarında iş qüvvəsinə olan tələb və təklifin arasındakı uyğunsuzluq nəticəsində yaranır. Keçmiş SSRİ-də, o cümlədən də Azərbaycanda həmişə reallıq olmuş «işsizlik» anlayışı 90-cı illərin əvvəllərinədək dövlət səviyyəsində rəsmən qəbul edilmədiyindən işləmək qabiliyyəti olub, bilavasitə faydalı əmək dairəsində məşğul olmayan və istehsalatdan ayrılmaqla təhsil almayan əmək qabiliyyətli əhalinin hamısı asudə əmək ehtiyatları kimi uçota alınır, cəmiyyətin inkişafında onla-

---

XX Bu hissə elmi işçi F.Ş.Cəfərova ilə birlikdə yazılmışdır.

rın rolu lazımınca qiymətləndirilmir, ayrı-ayrı hallarda onların bir qismi tufeyli şəxslər hesab olunur, bəziləri barəsində isə, hətta, inzibati məsuliyyət və başqa məsuliyyətlərə cəlb edilmələri haqqında məsələ qaldırılardı. Nəticədə həqiqətən işləməyə ehtiyacı olan əsil işsiz (iş axtaran) əmək qabiliyyətli əhalinin sayı haqqında dəqiq məlumat əldə edib bu sahədə mövcud vəziyyəti düzgün qiymətləndirmək mümkün olmurdu.

Beynəlxalq Əmək Təşkilatının Konfensiyalarına və tövsiyələrinə əsasən bazar iqtisadiyyatı cəhətdən inkişaf etmiş ölkələrdə «işsiz» əhaliyə müayinə vaxtı 15 və yuxarı yaşda hər iki cinsdən olan aşağıdakı şəxslər aid edilirlər:

1. İşi (qazanc gətirən məşğuliyyəti) olmayanlar;
2. İş axtarmaqla məşğul olan, yəni dövlət və qeyri-dövlət məşğulluq xidmətinə müraciət edən, mətbuatdan istifadə edən və ya elan verən müəssisə rəhbərinə (iş verənə) bilavasitə müraciət edən, şəxsi əlaqələrindən istifadə edən və ya şəxsən özləri təşkil etməyə səy göstərənlər;
3. İşə başlamağa hazır olanlar.[178]

2001-ci ilin 2 iyulunda ABŞ-ın Əmək Bürosu Statistikasının hər ilin ayları və rübləri üzrə yaydığı məlumatlara və həmin Büronun apardığı tədqiqatlara əsasən isə «işsiz» əhalini «işləyənlərdən» ayırd etmək üçün ciddi sədd müəyyənləşdirilmişdir. Həmin tədqiqatlara əsasən adamların «işsiz» əhaliyə aid edilməsi üçün aşağıdakılar tələb olunur:

1. Həmin adam institusional olmayan əhaliyə daxil olmalıdır;
2. Tədqiqatın əhatə etdiyi həftə ərzində işi olmamalıdır;
3. Ötən 4 həftə ərzində iş axtarmaq üçün konkret addımlar atmamış olmalıdır;
4. Hazırkı vaxtda işləməyə hazır olmalıdır (müvəqqəti işdən azad olunmuşlar və yaxın 30 gün ərzində işləmək niyyətində olanlar da işsiz hesab edilirlər, hətta onlar üçüncü şərti, yəni onların fəal surətdə iş axtarmalı olduğunun onlardan tələb edilməsini yerinə yetirməsələr də).[179]

---

[178] Трудовые ресурсы и глобализация экономики. Отчет о мировом развитии. 1995. Всемирный банк, с.8.

[179] *Пол Кейнс.* Экономический образ мышления. М., Изд-во «Дело», 1992, с.495.

«Məşğulluq haqqında» Azərbaycan Respublikasının qanununda deyilir ki, «İşi və qazancı olmayan, işə başlamağa hazır olub, müvafiq İcra Hakimiyyəti orqanında iş axtaran kimi qeydiyyata alınan, əmək qabiliyyətli yaşda olan əmək qabiliyyətli vətəndaşlar işsiz statusu almaq hüququna malikdirlər. Vətəndaş yaşadığı ərazi üzrə müvafiq İcra Hakimiyyəti orqanına şəxsiyyətini təsdiq edən sənəd, əmək kitabçası (yaxud onu əvəz edən sənəd), peşə və ya onun ixtisasını təsdiq edən sənəd (zəruri hallarda) təqdim edərək işaxtaran kimi qeydə alınır, ilk dəfə işaxtaranlar şəxsiyyəti təsdiq edən və təhsil haqqında (zəruri hallarda) sənədləri təqdim edirlər.

İşaxtaran kimi qeydiyyata alınmış vətəndaş müvafiq sənədləri təqdim etdiyi andan, ona münasib iş təklif olunmadığı halda, müvafiq İcra Hakimiyyəti orqanı II gün ərzində həmin şəxsə işsiz statusu verilməsi haqqında qərar qəbul edir.

İşsizlərin müvafiq icra hakimiyyəti orqanlarında qeydiyyata alınması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir.

İşsiz statusu almaq hüququ olmayan vətəndaşlara isə aşağıdakılar aid edilirlər:

1. 15 yaşına çatmayanlar;
2. Pensiya (ailə başçısını itirməyə görə uşaqlar üçün təyin olunmuş pensiyalar istisna olmaqla) hüquqi qazanmış vətəndaşlar;
3. Qeydiyyata alındıqdan sonrakı 10 gün müddətində münasib iş axtarmaq məqsədilə üzürsüz səbəbdən müvafiq icra hakimiyyəti orqanına gəlməyənlər və ya bu müddət ərzində təklif edilən iki münasib işdən imtina edənlər (vətəndaşa eyni iş təkrarən təklif oluna bilməz);
4. İlk dəfə işaxtaranlar;
5. Azadlıqdan məhrumetmə cəzasını çəkənlər.

İşaxtaranlara müəyyən olunmuş qaydada işsiz statusu verilmədiyi halda, onun bir aydan sonra təkrarən işsiz statusu

almaq üçün müvafiq icra hakimiyyəti orqanına müraciət etmək hüququ vardır.[180]

Bu deyilənlərdən aydın olur ki, 2001-ci ildə qəbul edilmiş «**Məşğulluq haqqında**» Azərbaycan Respublikasının qanununda «işsiz» əhali anlayışına dair irəli sürülmüş bəzi müddəalarla BƏT-in müvafiq metodik tövsiyələri arasında müəyyən uyğunsuzluqlar mövcuddur. Buna görə də onların respublika əhalisinin milli xüsusiyyətləri nəzərə alınmaqla yenidən işlənib real gerçəkliyə uyğunlaşdırılması məqsədəuyğun olardı. Çünki bazar iqtisadiyyatı cəhətdən inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, hazırda bir qayda olaraq məşğulluq xidməti orqanlarında işsizlərin təqribən 30 faizi qeydiyyata alınır. Qalan işsizlər müxtəlif qəzet və jurnallarda verilmiş elanların, dost–tanışlarının, qohumlarının və s. köməkliyi, ayrı-ayrı müəssisə (idarə) və təşkilatların kadrlar şöbələrinə müraciət etmək vasitəsilə müstəqil qaydada özlərinə iş axtarıb tapırlar. Onu da qeyd etmək lazımdır ki, həmin ölkələrdə adamların işsizlik statusu almaları üçün, bizim ölkədə olduğu kimi, mütləq məşğulluq xidməti idarələrində uçota alınmaları tələb edilmir. Bu ölkələrdə işsizlərin sayı seçmə yolu ilə əmək qabiliyyətli əhalinin müəyyən bir qisminin arasında mikroəhali siyahıya alınması yolu ilə müəyyən edilir.

Müayinə üçün seçilib öyrənilən əmək qabiliyyətli əhalinin sayı isə ayrı-ayrı ölkələrdə müxtəlifdir. Məsələn, ABŞ və Yaponiyada bunun üçün əmək qabiliyyətli əhalinin cəmi 0,1 faizi, İtaliyada 0,7 faizi və s. götürülür.[181] BƏT-in metodiki tövsiyələrinə əsasən isə **işsizliyin səviyyəsi dedikdə** – iqtisadi fəal əhalinin sayında (yəni iqtisadiyyatda məşğul olan əhali ilə işsizlərin cəmi) işsizlərin xüsusi çəkisi başa düşülür.

Bütün dünya ölkələrində işsizliyin səviyyəsi bir çox amillərdən, ilk növbədə isə ölkənin iqtisadi vəziyyətindən və burada həyata keçirilən sosial siyasətdən asılıdır. Bu səbəbdəndir ki, müxtəlif ölkələrdə işsizliyin səviyyəsi bir-birindən fərqlənir. 2000-ci ilin məlumatlarına əsasən bu göstərici Belçikada 10,1,

---

[180] «Məşğulluq haqqında» Azərbaycan Respublikasının qanunu. Azərbaycan qəzeti, 15 avqust 2001-ci il , №184 (2897) s.1 (4 səh.)

[181] B a x: Jurnal «Вопросы экономики», M., 1993, № 12, c.73.

Almaniyada 10,1, İspaniyada 14,1, İtaliyada 10,8, Fransada 9,8, Finlandiyada 10,3 faiz olduğu halda, ABŞ-da 4,2, İsveçrədə 5,1, Yaponiyada 4,9, İsveçdə isə cəmi 1,8 faizdir. Onu da qeyd etmək lazımdır ki, yuxarıda adları çəkilən ölkələrdə işsizlik səviyyəsi xeyli müddətdir ki, dəyişmir, sabit qalmaqda davam edir. Bu ölkələrdə işsizlik səviyyəsinin sabit qalmasının səbəbi müxtəlifdir. Məsələn, ABŞ-da buna səbəb **liberal bazar iqtisadiyyatı modelinin mövcud olmasıdır.**

Həmin modelə əsasən burada iqtisadi mənafe sosial mənafeyi üstələyir və əmək bazarının iştirakçıları öz mənafelərini müdafiə etmək üçün tərəf müqabilinə ciddi təsir göstərməyə cəhd edirlər. Daha doğrusu, burada iş yerlərini itirən şəxslər dərhal özlərinə yeni iş yeri axtarmağa başlayırlar. Bunun nəticəsidir ki, ABŞ-da işsizliyin müddəti o qədər də böyük deyildir. Yaponiyada işsizliyin aşağı səviyyədə olmasına və sabit qalmasına səbəb burada **«ömürlük muzd»** modeli sisteminin tətbiq edilməsidir. Bu sistemə görə işçi bütün əmək fəaliyyəti dövründə eyni bir müəssisədə işləyir. Belə sistemdə işləməyə işçiləri sövq etdirən cəhət orada həyata keçirilən düzgün maddi maraq prinsipi (iş stajından asılı olaraq onların əmək haqlarının, əmək haqlarına əlavələrin və sair ödənişlərin mütəmadi qaydada artırılması) və mövcud olan məşğulluq sistemidir (istehsalın həcmi azaldıqca, müdiriyyət dərhal işçini başqa iş yerlərinə və ya firmanın müəssisələrinə işə keçirir, iş həftəsinin müddətini qısaldır və s.). İsveçdə isə həmin vəziyyət düzgün məşğulluq siyasəti aparılması modelinin mövcud olması ilə bağlıdır. Bu ölkədə məşğulluq siyasəti üçün ayrılan vəsaitlərin məbləği işsizliyə görə verilən məbləğdən iki dəfə yüksəkdir.[182]

Respublikamıza gəldikdə isə hələlik burada mövcud olan iqtisadi vəziyyət və ölkədə müharibə şəraitinin mövcud olması nəticəsində sosial sabitliyin tam təmin edilməməsi işsizliyin səviyyəsi və xarakterinə öz mənfi təsirini göstərir və indi Azərbaycanda işsizlik ən mühüm problemlərdən biri kimi öz həllini gözləyir. Buna görə də respublikamızda mövcud olan işsizlərin həqiqi sayı və onun səviyyəsinin düzgün müəyyən

---

[182] B a x: Рынок труда. Учебник. М., 2000, с.52-55.

edilməsi çox böyük elmi və təcrübi əhəmiyyət kəsb etməklə iqtisad elminin qarşısında duran mühüm vəzifələrdən biridir.

İqtisadi ədəbiyyatlarda göstərildiyi kimi, **kəmiyyət xarakteristikası baxımından işsizlik səviyyəsi üç cür: «təbii», «məqbul»** və **«kütləvi»** xarakter daşıya bilər. Hər bir ölkə coğrafi böyüklüyü, kommunikasiya sistemi və iqtisadi inkişaf vəziyyəti ilə şərtlənən özünə məxsus **təbii işsizlik** səviyyəsinə malikdir. Məşğulluq dairəsində yaranmış real vəziyyətin təhlil edilib qiymətləndirilməsinə və beynəlxalq təcrübəyə əsasən müəyyən edilmişdir ki, hər bir ölkədə iqtisadi fəal əhalinin 5-7 faizinin işsiz olması nəinki zəruridir, həm də ölkənin sosial-iqtisadi həyatının normal inkişafı ilə üzləşən **məqbul** haldır. Kütləvi işsizliyin yaranmasına gəldikdə isə bu mənfi hal olub, ölkədə sosial-iqtisadi vəziyyətin qeyri-sabitliyinə, sosial partlayışa gətirib çıxara bilər. İctimai cəhətdən məqbul işsizliyin müəyyən edilməsində onun səbəbləri və xarakteri mühüm rol oynayır. Bu səbəbdən də ayrı-ayrı işsizlik formaları onların ixtisarı və aradan qaldırılması üçün müxtəlif tədbirlər görülməsini tələb edir. Bu baxımdan hazırda geniş surətdə yayılmış və diqqəti cəlb edən işsizlik formalarının nəzərdən keçirilməsinə də ehtiyac vardır. Həmin işsizlik formalarına aşağıdakılar daxildir:

Birincisi, friksion və ya axıcı (təbii) işsizlik. Bu işsizlik forması bir qayda olaraq işçilərin ayrı-ayrı müəssisə və idarələrdən öz arzuları ilə işdən çıxmaları ilə əlaqədar olaraq baş verir və təbii xarakter daşıyır. Çünki bu halda işçilər öz iş yerlərini daha yaxşı əmək şəraiti olan, yüksək əmək haqqı verilən, vəzifə yüksəlişi üçün əlverişli olan və s. müəssisə və təşkilatlarda işləmək məqsədilə dəyişirlər. Bu işçilərin azad surətdə özlərinə hər hansı bir yerdə müvafiq iş yeri tapıb işləmək hüquqları ilə bağlıdır. Bu cür işsizlik forması yalnız o zaman arzuedilməz və mənfi hal hesab edilə bilər ki, ya həmin işsizlik formasının səviyyəsi başqa ölkələrdəki müvafiq göstəricinin orta səviyyəsindən yuxarı olsun və yaxud da onun müddəti bütünlükdə ölkə miqyasında olduğundan əhəmiyyətli dərəcədə uzun olsun.

İkincisi, struktur işsizlik. Bu işsizlik forması işçilərin peşə və ixtisas keyfiyyətinin mövcud iş yerlərinə uyğun olmaması, tələb və təklifdə yaranan keyfiyyət və kəmiyyət uyğunsuzluğu

nəticəsində baş verir. Başqa sözlə desək, elmi-texniki tərəqqinin inkişafı və onun nailiyyətlərinin istehsalata tətbiqi nəticəsində istehsalın xarakteri dəyişir, müəyyən dövr ərzində istehlak tələbinin quruluşunda və texnologiyasında mühüm dəyişikliklər baş verir, yeni istehsal sahələri, yüksək ixtisaslı iş qüvvəsi tələb edən iş yerləri açılır və mövcud olan iş qüvvəsi təklifi keyfiyyətcə bu tələbi ödəmək iqtidarında olmur. Bu iş obyektiv surətdə həmin tələbi ödəməyən işçilərin azad edilməsinin və onların əvəzində yeni, daha yüksək ixtisaslı kadrların hazırlanmasını, mövcud işçilərin ixtisasının artırılması və onların yenidən hazırlanmasını obyektiv zərurətə çevirir. Azad edilmiş işçilərin dərhal işə düzəldilməsi mümkün olmadığından onların yeni iş yerlərində işləyə bilməsi üçün yenidən hazırlanmaları, peşə və ixtisaslarının artırılması üçün həm dövlət orqanları və həm də ayrı-ayrı müəssisə və təşkilatlar, habelə müxtəlif iş adamları müəyyən maddi və mənəvi yardım göstərməlidirlər. Hər bir ölkədə friksion və struktur işsizlikdən onun **təbii səviyyəsi** formalaşır. Bu təkcə iqtisadiyyatda yaranan struktur dəyişikliklərindən və zəhmətkeşlərin özlərinin «yer dəyişmələrindən» deyil, həm də məşğulluğa təsir edən bazar mexanizminin səmərəliliyindən asılıdır. Bütün bunların nəticəsində isə tam məşğulluqla ziddiyyət təşkil etməyən **məqbul işsizlik səviyyəsi** formalaşır.

İşsizliyin üçüncü forması **tsiklik işsizlikdir.** Bu işsizlik forması sənaye tsiklinin tənəzzülü, yəni iqtisadi böhran mərhələsinə (fəzasına) keçərək bütün sahələrdə, ərazilərdə və istehsal dairələrində iş qüvvəsinə olan tələbin aşağı səviyyədə olması nəticəsində yaranır. İqtisadi tənəzzül nəticəsində ölkədə deməli, təbii işsizlik də artır. Buna görə də **tsiklik işsizlik** bəzən tələbin kəsirliliyi (defisit) ilə əlaqədar olan işsizlik kimi də adlandırılır.

Nəhayət, işsizliyin **dördüncü forması** mövsümü (gizli) işsizlikdir. İşsizliyin bu forması özünü əsasən kənd təsərrüfatında büruzə verir.

Bu deyilənlərdən başqa **könüllü** (əgər işçilər əmək haqqının az olduğuna görə işləmək istəmirlərsə) və **məcburi** (iş qüvvəsinin qiymətinin qeyri-çevikliyi şəraitində təklifin tələbi üstələməsi nəticəsində işsizlik baş verirsə) işsizlik formaları da mövcuddur. Yeni texnika və texnologiya tətbiq edilərkən iş qüvvə-

sinin sərbəstləşdirilməsi nəticəsində baş verən işsizliyi «**texnoloji işsizlik**» kimi də xarakterizə edirlər.

Ümumiyyətlə götürüldükdə, istehsalın ixtisar olunması və yaxud da müəssisələrin tamamilə bağlanması nəticəsində yaranan işsizlik həqiqətən əmək bazarında çox ciddi problemlərin meydana gəlməsinə səbəb olur. Buna görə də dövlət tərəfindən həm işsizlərə maddi yardım göstərilməsi və həm də müəssisələrə, ilk növbədə isə əhalinin birinci dərəcəli tələbatını ödəyən məhsullar istehsal edən müəssisələrə mövcud iş yerlərini qoruyub saxlamaq üçün maliyyə yardımı göstərməsini tələb edir.

Bu və ya digər ölkədə **işsizliyin** ümumi səviyyəsi həmin ölkənin iqtisadiyyatında mövcud olan işsizliyin bütün formalarını özündə əks etdirir. Ancaq bəzi iqtisadçı alimlərin də haqlı olaraq dediyi kimi, bu deyilən göstərici məşğulluqda yaranmış həqiqi vəziyyəti tam əks etdirmək iqtidarında deyildir. Buna görə də həmin iqtisadçıların belə bir fikrilə razılaşmaq lazımdır ki, bazar iqtisadiyyatı münasibətlərinin inkişaf etdiyi ölkələrdə işsizliyin ümumi səviyyəsini əks etdirən göstəricilərlə yanaşı, müvəqqəti işsiz qalan ayrı-ayrı kateqoriyalardan olan əmək qabiliyyətli əhalinin məşğulluğunu xarakterizə edən göstəricilərdən də istifadə etmək lazımdır. Bu səbəbdən də bəzi iqtisadi ədəbiyyatlarda işsizlər yeddi kateqoriyaya bölünməklə aşağıdakı kimi təsnifləşdirilir:

- **birinci kateqoriya işsizlər** və ya **uzun müddət işi olmayan adamlar.** Bu vəziyyətin yaranması bir neçə səbəblə: istehsalın dayanması, struktur dəyişikliklər, işsizlərin yaş-cins quruluşunun xarakteristikası, əmək bazarında işçilərin özlərini aparması tipləri və sairlə əlaqədar olaraq baş verə bilər;
- **ikinci kateqoriya işsizlər,** yəni öz xoşu olmadan iş yerlərini itirənlər. Bu, istehsalın ixtisar olunması və yenidən qurulması ilə əlaqədar olaraq baş verə bilər. İşdən azad olan həmin adamlar müəssisənin kadrlarının tərkibinə daxil olan, ixtisaslı, tam iş vaxtında işləyən və yüksək əmək haqqı alan işçilərdirlər;
- **üçüncü kateqoriya işsizlər** 25 və ya yuxarı yaşında olan işsizlər (onların arasında işsizlik səviyyəsi 25 və yuxarı yaşında

olan bütün işçilərə nisbətən faizlə müəyyən edilir). Bu işsizlər bir qayda olaraq təhsilini başa vurmuş və peşəsi olan adamlardan ibarətdirlər;

- **dördüncü kateqoriya işsizlər** və ya tam iş vaxtı üzrə iş axtaran işsizlər (bu işsizliyin səviyyəsi həmin işsizlərin sayını tam iş vaxtında işləyənlərin sayına bölməklə tapılır);
- **beşinci kateqoriya işsizlər** ümumi işsizlik səviyyəsi ilə xarakterizə olunur, yəni işsizlərin bütünlükdə iş qüvvəsinə nisbətini əks etdirir.

İnkişaf etmiş ölkələrdə statistika orqanları tərəfindən birbaşa işsizlərin tərkibinə daxil olmayan, lakin əmək bazarında gərginlik yaradan və dövlət tərəfindən həmin vəziyyətin nizamlanması və onlara yardım göstərilməsi zəruri olan əhali qrupu da ayırd edilib öyrənilir. Bunlara **altıncı kateqoriya** işsizləri təşkil edən iqtisadi səbəblər üzündən tam olmayan iş vaxtında işləyənlər və **nəhayət yeddinci kateqoriya** işsizlərə aid olan-iş yeri axtarıb tapmaqda ümidlərini itirdiklərindən **iş yeri axtarmayan əmək qabiliyyətli şəxslər aiddirlər.** Bu kateqoriyalara daxil olan işsizlərin sayının bütünlükdə iş qüvvəsinin sayına olan nisbəti həmin kateqoriyadan olan işsizlərin hər biri üzrə işsizlik səviyyəsini göstərir.

Yuxarıda deyilənlərdən aydın olur ki, tam məşğulluğun bir vəzifə kimi qarşıya qoyulduğu şəraitdə belə işsizliyin tamamilə aradan qaldırılmasına nail olmaq qeyri-mümkündür. Çünki bir çox iqtisadçıların fikrincə, bütün normal cəmiyyətlərdə axıcı (friksion) və struktur işsizliyin mövcud olması məqbul hal hesab edilməli və hətta cəmiyyətin inkişafı üçün zəruri sayılmalıdır. Deməli, onlar «tam məşğulluq» dedikdə - iş qüvvəsinin 100 faizdən az bir hissəsinin məşğul olmasını nəzərdə tuturlar. Daha doğrusu, **tam məşğulluq şəraitindəki işsizliyin səviyyəsi dedikdə - axıcı** (friksion) və **struktur** işsizlik səviyyələrinin məzmununa bərabər bir kəmiyyət başa düşülür. Başqa sözlə, tam məşğulluq şəraitində işsizliyin normal səviyyəsinə ancaq tsiklik işsizliyin səviyyəsi sıfıra bərabər olduqda nail olmaq mümkündür. İqtisadi ədəbiyyatlarda işsizliyin bu formasına bəzən təbii **işsizlik** də deyilir. İşsizliyin **təbii səviyyəsi** əmək bazarı-

nın balanslaşdırılması şəraitində, yəni iş axtaranların sayı ilə boş olan iş yerlərinin sayı üst-üstə düşdüyü şəraitdə meydana çıxır.

Ümumiyyətlə götürüldükdə isə «**işsizliyin təbii səviyyəsi**» anlayışı iki aspektdən dəqiqləşdirilməlidir:

Birincisi, bu anlayış heç də iqtisadiyyatın həmişə **işsizliyin təbii səviyyəsi** şəraitində fəaliyyət göstərdiyini və nəticədə istehsal potensialının tam reallaşdırılmasını əks etdirmir. Çünki iqtisadi tsikllərin təhlili göstərir ki, işsizliyin səviyyəsi tez-tez onun təbii səviyyəsini üstələyir. Digər tərəfdən isə çox nadir hallarda iqtisadiyyatda belə bir hal ola bilər ki, işsizliyin səviyyəsi onun təbii səviyyəsindən aşağı olsun.

İkincisi, işsizliyin təbii səviyyəsi öz-özlüyündə sabit qalmır və institutsional dəyişikliklər nəticəsində (cəmiyyətdəki adət-ənənələr və qanunçuluqlardakı dəyişikliklər) bu səviyyə də yenidən müəyyən edilir. Məsələn, 60-cı illərdə çoxları belə hesab edirdilər ki, **axıcı** (friksion) və **struktur** işsizliyin minimum labüd səviyyəsi iş qüvvəsinin 4 faizini təşkil etməlidir. Başqa sözlə desək, etiraf olunurdu ki, mövcud iş qüvvəsinin 96 faizi məşğul olduqda, tam məşğulluq yaranır.[183] Hazırda isə dünyanın əksər əmək iqtisadiyyatı ilə məşğul olan iqtisadçıları belə hesab edirlər ki, işsizliyin təbii səviyyəsi 5-7 faizə bərabərdir. Belə olan halda indi işsizliyin təbii səviyyəsinin 60-cı illərdəkindən nə üçün yüksək olmasının səbəbləri iqtisadi ədəbiyyatlarda aşağıdakı kimi izah edilir: **əvvəla,** iş qüvvəsinin demoqrafik tərkibi dəyişilmiş və işsizlərin əksəriyyətini təşkil edən qadınlar və gənclər artıq müəyyən mənada iş qüvvəsinin mühüm komponentlərinə çevrilmişlər; **ikincisi,** institutsional dəyişikliklər baş vermişdir. Yeni işsizliyə görə müəyyən müavinət verilməsi haqqında proqramlar hazırlanmış və həyata keçirilməyə başlanmışdır. İşsizliyə görə verilən bu müavinətlər işsizlərin iqtisadiyyata təsirini zəiflədir və onların daha sakit və arxayın tərzdə iş axtarmalarına şərait yaradır. Bu isə eyni zamanda həm axıcı (friksion) işsizliyin və həm də ümumiyyətlə götürüldükdə, işsizliyin səviyyə-

---

[183] *В.Г.Костаков.* Прогноз занятости населення. Методологическне основы. М., «Экономика», 1979, с.9-11 .

sinin artmasına səbəb olur. Bu hal isə işsizliyin səviyyəsinin neçə və hansı metodlarla müəyyən edilməsi vəzifəsini qarşıya qoyur.

Hazırda dünya təcrübəsində işsizlik səviyyəsi iki cür müəyyən edilir:

Birincisi, müvafiq məşğulluq xidməti orqanlarında qeydə alınmış işsizlərin sayına əsasən;

İkincisi, ev təsərrüfatında aparılan sorğu tədqiqatlarının nəticələrinə əsasən.

İşsizliyin səviyyəsini aşağıdakı kimi ifadə etmək olar:

$$\text{İşsizliyin səviyyəsi} = \frac{\text{işsizlərin sayı}}{\text{İqtisadi fəal əhalinin sayı}} \times 100 \text{ faiz}$$

Məsələyə yuxarıda deyilənlər baxımından yanaşdıqda hazırda Azərbaycanda əhalinin işsizlik səviyyəsinin müəyyən edilməsi xüsusi maraq doğurur. 2002-ci ilin məlumatlarına əsasən, Azərbaycan Respublikasında mövcud olan əmək ehtiyatlarının sayı 4896,2 min nəfər olmuşdur. Onların 3726,5 min nəfərini və 76,1 faizini iqtisadiyyatda məşğul olanlar, 1118,7 min nəfərini və ya 22,8 faizini iqtisadiyyatda məşğul olmayanlar, 51,0 min nəfərini və ya 1,0 faizini isə yuxarıda qeyd edilən əhalinin məşğulluğu haqqında qanuna müvafiq olaraq işsizlik statusu alanlar təşkil etmişlər.[184] Nəzərə alsaq ki, iqtisadi cəhətdən fəal əhalinin sayı iqtisadiyyatda məşğul olanlarla işsizlərin sayından formalaşır və işsizlik səviyyəsi sonuncuların sayının iqtisadi cəhətdən fəal əhalinin sayına bölünüb 100-ə vurulması ilə müəyyən edilir, onda məlum olur ki, hazırda Azərbaycanda işsizlik səviyyəsi vur-tut cəmi 1,3 faiz təşkil edir. Yəni işsizlərin sayı (51,0 min nəfər) bölünsün iqtisadi cəhətdən fəal əhalinin sayına (3777,5 min nəfər üstə gəl 51,0 min nəfər bərabərdir 3828,5 min nəfər vurulsun 100-ə).

İndi hətta bazar iqtisadiyyatı cəhətdən inkişaf etmiş ölkələrdə belə əmək qabiliyyətli əhalinin 5-7 faizinin işsiz olması məqbul hesab edildiyi və iqtisadi cəhətdən inkişaf etmiş ABŞ, Fransa, Yaponiya, İtaliya, Belçika və s. bu kimi ölkələrdə işsizlik səviyyəsi təqribən 4,2-10,8 faiz arasında tərəddüd etdiyi bir

---

[184] Əmək bazarı. 2003, B., 2003, s.28.

vaxtda[185], yenicə iqtisadi böhran mərhələsindən çıxmış və bazar münasibətləri yoluna qədəm qoymuş Müstəqil Azərbaycan Respublikasında həmin göstəricinin cəmi 1,3 faiz olması reallığı əks etdirmir və həqiqətdən uzaqdır. Əlbəttə, bu hal heç də respublikamızda məşğulluq probleminin «həll edildiyini» deyil, burada işsizlərin sayının və işsizlik səviyyəsinin düzgün müəyyən edilməməsini göstərir. Bu isə bir çox obyektiv amillərlə bağlıdır. Bunlara, hər şeydən əvvəl, təqdim edilən iş yerlərində verilən əmək haqqının və işsizliyə görə ödənilməsi nəzərdə tutulan müavinətlərin həddən ziyada aşağı olması üzündən iş yerlərini itirmiş və əvvəllər işləməyən əmək qabiliyyətli əhalinin özlərinin məşğulluq xidməti idarələrinə az müraciət etmələri, məşğulluq xidməti idarələrində iş axtaranların və boş qalmış iş yerlərinin uçota alınmasında yol verilən bəzi çatışmazlıqlar, əmək qabiliyyətli əhalinin, xüsusilə qadınların özlərinin könüllü olaraq işləmək istəməməsi və sair səbəblərlə bağlıdır. Bu deyilən səbəblərdən hazırda respublikamızda həqiqətdə işləmək istəyənlərin sayı uçota alınmış işsizlərin sayından və boş qalmış iş yerlərinin sayı uçota alınan boş iş yerlərinin sayından qat-qat çoxdur. Bu sahədə vəziyyətin düzəldilməsi yuxarıda deyilən səbəblərin aradan qaldırılmasını, işsizlərin və boş iş yerlərinin sayının müəyyən edilməsi ilə məşğul olan məşğulluq xidməti idarələrinin, habelə həmin iş yerlərinin sayını gizlədən ayrı-ayrı müəssisə və təşkilatların məsuliyyət hissinin artırılmasını tələb edir.

İşsizlərin sayının müəyyən edilməsi sahəsindəki bütün nöqsanlara baxmayaraq son illərdə respublikamızda işsizlik statusu alanların sayı ilbəil artmaqda davam edir. Belə ki, 1991-ci ildə respublikada işsizlik statusu alanların sayı cəmi 3969 nəfər, 1992-ci ildə 6409 nəfər olmuşdursa, bu göstərici 1995-ci ildə – 28314 nəfər, 1996-cı ildə 31935 nəfər, 1997-ci ildə 38306 nəfər, 1998-ci ildə 42329 nəfər, 1999-cu ildə 45211 nəfər, 2000-ci ildə 43739 nəfər, 2001-ci ildə 48446 nəfər, 2002-ci ildə isə 50963 nəfər təşkil etmiş və ya 2002-ci ildə 1991-ci ildəkinə nisbətən 12,8 dəfə, 1992-ci ilə nisbətən 7,9 dəfə, 1995-ci ilə nisbətən 1,8 dəfə,

---

[185] Журнал «Общество и экономика», М., 2001, с.223 (223).

1996-cı ilə nisbətən 1,6 dəfə, 1997-ci ilə nisbətən isə 33,0 faiz artmışdır. Maraqlı haldır ki, bütün illərdə işsizlik statusu alanların çoxu qadınlar olmuşdur. Belə ki, bütünlükdə işsizlərin tərkibində qadınların xüsusi çəkisi 1992-ci ildə 56,8 faiz, 1994-cü ildə 61,1 faiz, 1995-ci ildə 59,7 faiz, 1996-cı ildə 59,0 faiz, 1997-ci ildə 57,6 faiz, 2000-ci ildə 55,9 faiz, 2001-ci ildə 55,0 faiz, 2002-ci ildə isə 54,7 faiz təşkil etmişdir.[186]

Öyrənilən dövrdə işsizlərin, xüsusilə də işsiz qadınların sayının belə çoxalmasına səbəb 1995-1996-cı illərədək respublika iqtisadiyyatında yaranmış böhranlı vəziyyət, başqa ölkələrlə, ilk növbədə isə MDB ölkələri ilə iqtisadi əlaqələrin zəifləməsi və bir çox hallarda tamamilə kəsilməsi nəticəsində dövlət müəssisələrinin fəaliyyətinin qismən və ya tamamilə dayanması, özəlləşmənin həyata keçirilməsi nəticəsində ayrı-ayrı müəssisələrdən işçilərin azad edilməsi, sahibkarlıq fəaliyyəti və alternativ məşğulluq formalarının zəif inkişaf etməsi, əhalinin özünün iqtisadi fəallığını təmin etmək təcrübəsinin olmaması, öz işlərini hələlik bazar iqtisadiyyatının tələblərinə və qanunlarına uyğun halda qura bilməmələri, bir çox sahələrdə əmək haqqının çox aşağı səviyyədə olması və s. aiddir.

İşsizlərin sayının artmasına təsir edən başlıca amillərdən biri də iş yerlərinin sürətlə itirilməsindən ibarətdir. Bunun yeganə alternativi isə sahibkarlığın və xırda biznesin inkişafına köməklik göstərilməsi, respublika ərazisində məhsuldar qüvvələrin düzgün inkişaf etdirilib yerləşdirilməsi, iqtisadi islahatların sürətlə həyata keçirilməsi, xalq təsərrüfatının quruluşunun mütərəqqi sahələrin inkişafı hesabına dəyişdirilib təkmilləşdirilməsi, qadın və kişi əməyinin tətbiqi sahələrinin optimal nisbətlikdə inkişafına nail olunması, infrastruktur sahələrin inkişaf etdirilməsi, respublika miqyaslı və ayrı-ayrı regionlar üzrə məşğulluq proqramlarının, o cümlədən «gənclərin», «qadınların», «əlillərin» məşğulluğu kimi məqsədli kompleks proqramların hazırlanıb həyata keçirilməsindən və sair sosial-iqtisadi və demokrafik tədbirlər sisteminin işlənib həyata keçirilməsindən ibarətdir.

---

[186] Əmək bazarı. 2003. B., 2003, s.160.

Burada belə bir məsələni qeyd etmək yerinə düşər ki, mövcud statistika hesabatları və uçot qaydaları elədir ki, onların köməkliyi ilə işləməyənlərin, ixtisar edilən iş yerlərinin, ilk növbədə isə işdən azad olunan pensiyaçıların, gizli işsizlərin (müvəqqəti işsizlərin, tam iş günündə işləməyənlərin, ödənişsiz və ya qismən ödənişli məzuniyyətdə olanların) sayını dəqiq müəyyən etməyə imkan vermir və çox hallarda həmin adamlar işləyən əhali kimi uçota alınırlar. Bundan əlavə, hazırda eyni bir əmək qabiliyyətli şəxsin bir neçə formal və qeyri-formal strukturlarda işləməsi halları da geniş xarakter almışdır. Bu xüsusilə təhsil müəssisələrində, ilk növbədə isə özəl təhsil ocaqlarında özünə daha geniş yer tapmışdır. Belə olduğu halda, eyni bir şəxs bir neçə yerdə işçi kimi uçota alınır. Bu isə respublikada nə əhalinin məşğulluq və nə də işsizlik səviyyəsini düzgün müəyyən etməyə imkan vermir. Buna görə də hazırda respublikamızda uçot-hesabat və statistika işlərini təkmilləşdirib bazar iqtisadiyyatı cəhətdən inkişaf etmiş ölkələrdəkinə uyğunlaşdırmaq ən mühüm vəzifələrdən biri kimi qarşıda durmalı, əhalinin məşğulluq və işsizlik səviyyəsinin müəyyən edilməsində yuxarıda göstərilən və xarici ölkələrdə müvəffəqiyyətlə tətbiq edilən metodiki üsullardan geniş istifadə olunmalıdır.

Əlbəttə, bütün bu deyilənlər klassik kapitalist ölkələri üçün xasdır. Bizə belə gəlir ki, keçid iqtisadiyyatı dövrünü yaşayan və 70 il Sovet rejiminin tərkibində olmuş Azərbaycan kimi bir ölkədə «işsizlik» anlayışına və onun səviyyəsinin müəyyən edilməsinə fərqli yanaşılmalı və bu sahədə yeni bir metodikanın işlənib hazırlanmasına böyük ehtiyac vardır. Bizə elə gəlir ki, keçid iqtisadiyyatını yaşayan və 70 il Sovetlər İttifaqının tərkibində olan müstəqil dövlətlərdə işsizlik səviyyəsini uzun illərdən bəri bazar iqtisadiyyatı şəraitində yaşamış və bu sistemin yüksək səviyyədə inkişaf etdiyi ABŞ, İngiltərə, Yaponiya, Fransa və başqa ölkələrdə olduğu kimi müəyyən etmək və həmin ölkələrdə mövcud olan qaydalara uyğunlaşdırmaq hələlik doğru deyildir. Ona görə də işsizlik statusunun və səviyyəsinin müəyyən edilməsində keçid iqtisadiyyatının xüsusiyyətləri, məşğulluq sahəsindəki ənənələr və milli xüsusiyyətlər, əhalinin

yeni iqtisadi sistemə adaptasiya edilə bilməsi imkanları və s. mütləq nəzərə alınmalıdır.

Sonda onu da qeyd etməyi məqsədəuyğun hesab edirik ki, regional səviyyədə işsizliyin azaldılması strategiyasının işlənməsi üçün ilk növbədə keçid iqtisadiyyatı şəraitində işsizliyin meyarları, səbəbləri və təzahür formalarının mövcud təsnifatına baxmaq və dəqiqləşdirmək zəruridir. Hazırda vahid metodologiya və metodikanın olmaması üzündən ölkənin müxtəlif regionlarında işsizliyin quruluşu və göstəricilərinin müqayisəli təhlilini aparmaq qeyri-mümkündür.

Müasir MDB ölkələrində işsizliyin mahiyyəti və formalarının tədqiqinə həsr edilmiş əsərlərdə işsizliyin formalarının təsnifatının üç əsas istiqamətini seçib öyrənməyə üstünlük verilir.

Birinci istiqamətin tərəfdarları (A.Nikiforova, L.Sosnovskaya və başq.) Qərb alimlərinin təsnifatını əsas götürürlər. Onlar friksion, struktur, tsiklik, mövsümü, texnoloji və gizli işsizliyə üstünlük verirlər. **İkinci istiqamətin** tərəfdarları olan alimlər (Y.Lakovlu, A.Livşits, E.Saruxanov, B.Qenkin, V.Povlenkov) işsizliyin: texnoloji, struktur, konversiya, iqtisadi, gənclər, gizli və durğunluq formalarını əsas götürürlər. **Üçüncü istiqamətin** tərəfdarları (İ.Bezqrebalnaya,İ.Bestujev, Q.Gendler, M.Gildinqerş, İ.Zaslavskiy və başqaları) müasir Rusiya iqtisadiyyatının, buradakı əmək bazarının və məşğulluğun formalaşması və inkişafı xüsusiyyətlərinin nəzərə alınmasını əsas götürürlər.

Bizə belə gəlir ki, həmin problemin həlli üçün prof. M.G.Gildingerşin yanaşma üsulu həm nəzəri və həm də praktiki cəhətdən xüsusi əhəmiyyət və maraq kəsb edir və bu səbəbdən də ona üstünlük verilməsi daha məqsədəuyğundur. Çünki o, həmin məsələyə müasir işsizlik formaları kimi tanınan və qəbul edilən-axıcı, struktur, tsiklik, siyasi, gizli, durğun, müvəqqəti, mövsümü, peşə, yaş-cins, regional, sahəvi, rəsmi, həqiqi, potensial, qondarma işsizlik formaları baxımından yanaşır. Ancaq burada belə bir məsələni də qeyd etməyi özümüzə borc bilirik ki, işsizlik problemi ilə məşğul olan və onun formalarının təsnifatını müəyyən edən iqtisadçıların fikirlərində çatışmayan yega-

nə və ən mühüm nöqsan **işsizliyin demoqrafik formasını yaddan çıxarmalarıdır**. Həmin müəlliflərin hamısı demək olar ki, əmək qabiliyyətli əhalinin artması ilə bağlı olan işsizliyin mövcud olmasını inkar edirlər. Başqa elmi ədəbiyyatlarda və rəsmi materiallarda isə demoqrafik işsizlik regional və ya friksion (axıcı) işsizlik formaları ilə eyniləşdirilir. Halbuki bu problemin tədqiqi ilə məşğul olanların hamısına yaxşı məlumdur ki, orta və ali məktəbləri bitirənlər və əmək qabiliyyəti yaşına çatmış başqa kateqoriyalardan olan əhali işləmək üçün ilk növbədə məşğulluq xidməti orqanlarına müraciət edirlər və onlar xüsusi qrup işsizlər hesab edilirlər. Bu kateqoriyadan olan işsizləri heç bir vəchlə struktur dəyişiklikləri və yaxud da istehsalın tsiklik xarakterindən irəli gələn işsizlik formaları ilə qarışdırmaq olmaz.

Əmək ehtiyatlarının sürətlə artdığı və ya «**Əmək ehtiyyatlarının artıqlıq**» etdiyi deyilən regionlarda işsizliyin yaranmasına gəldikdə isə bunun səbəbini dövlətin həmin ərazilərdə əmək ehtiyatlarının artımına uyğun iş yerləri yarada bilməməsində axtarmaq lazımdır. Əmək ehtiyatlarının sürətlə artdığı regionlarda daim əməyə tələb ödənilməmiş qalmışdır. Bu neqativ proses əmək ehtiyatlarının sürətlə artdığı regionlarda gələcəkdə də qalacaqdır. Çünki ***keçid iqtisadiyyatı şəraitində ölkə iqtisadiyyatının mövcud vəziyyəti və sahibkarlığın inkişaf səviyyəsi hələlik bütün ərazilərdə, xüsusilə də əmək ehtiyatlarının surətlə artdığı regionlarda lazımi sayda və keyfiyyətdə iş yerləri yaratmağa imkan vermir. Başqa sözlə desək, yaranmış bu vəziyyət region səviyyəsində demoqrafik işsizliyi xüsusi işsizlik forması kimi ayırıb öyrənməyi obyektiv zərurətə çevirir.***

Fikrimizcə, qeyd edilən işsizlik formasını ümumtəhsil məktəblərini bitirənlər və hərbdən təxris olunmuşlar üzrə yaranmış işsizlərlə birləşdirib öyrənmək daha məqsədəuyğun olardı. Məsələyə bu cür yanaşılması onunla izah edilir ki, əmək qabiliyyəti yaşına çatmış insanların bir qismi dərhal işə düzəldiyi halda, digər bir qismi ya tədris müəssisələrində təhsil alır və yaxud da orduda xidmət edirlər. Region səviyyəsində işsizliyin dinamikasını, forma və quruluşunu təhlil etmək məqsədilə işsizlik formalarının təsnifatı üçün aşağıdakı 1-ci şəkildə verilmiş metodik yanaşma daha məqsədəuyğundur.

Şəkil 1


Təsnifatın meyarı
İşsizlik formaları
İşsizliyin müxtəlif formaları
Axıcı
Aqrar
İşsizliyin meydana çıxması səbəbləri
Demoqrafik
Tsiklik
Struktur
Konversiya
Özəl
Texnoloji
Konyuktur
İşsizliyin müddəti
Uzunmüddətli
Qısamüddətli
Meydana çıxmağın xarici forması
Gizli
Aşkar
durğun
xroniki
Sahəvi
Bütün sahələr
Mühəndislik
Aqronomluq
Peşə
Həkimlik
Pedoqoji
İqtisadçı və s
Əmək seqmenti üzrə işsizlər
Yaş-cins
qadın
gənclər
Ərazi
kənd
şəhər

İşsizlik mürəkkəb və çoxcəhətli ictimai hadisə olub iqtisadi, siyasi, demoqrafik, psixoloji, mənəvi və s. xarakter daşıyan müxtəlif neqativ nəticələrə malikdir. Ancaq çox təəssüflər olsun ki, hələlik iqtisadi ədəbiyyatlarda bu neqativ proseslərin iqtisadi nəticələrini və işsizliyin nəticəsində yaranmış itkiləri müəyyən etmək üçün dəqiq işlənmiş meyarlar və göstəricilər sistemi yoxdur. Buna görə də işsizliyin ölkənin və onun ayrı-ayrı regionlarının iqtisadi nəticələrinə və sosial vəziyyətinə təsirini müəyyən etməyə imkan verən elmi cəhətdən əsaslandırılmış metodikanın işlənməsinə də böyük ehtiyacı vardır.

Bu bir həqiqətdir ki, işsizlik əhalinin həyat səviyyəsinin aşağı düşməsinə, demoqrafik vəziyyətin pisləşməsinə, real bölmədə məşğul olanların əmək haqqının azalmasına, vergi yükünün artmasına, uzun müddət işsiz qalanların mənəvi və psixoloji cəhətdən tənəzzülə uğramasına, peşələrini itirməsinə, kriminogen vəziyyətin kəskinləşməsinə, sosial gərginliyin və siyasi sabitsizliyin yaranmasına səbəb olan sosial bəladır və buna görə də daim onunla mübarizə aparılmalıdır. İşsizlik, xüsusilə də onun durğunluq forması şəxsiyyətin mənəvi və psixoloji tənəzzülünə gətirib çıxarır, ona səbəb olur. Məsələn, yaşlı adam üçün öz iş yerini itirməsi – ***onun həyatının əsasının və mənasının itirilməsi, hətta faciəsi kimi qiymətləndirilə bilər.*** Belə olan halda adam özünün vərdiş etdiyi statusunu itirir, işsizlik vəziyyətini faciə, çıxılmazlıq hal kimi qəbul edir. Özünü uğursuz sayır. Uzun müddət işsiz qalmış adam özünü yarımçıq, inamsız, öz imkanlarını qiymətləndirə bilməyən bir adam kimi hiss edir. Cəmiyyətdə «artıq» adam kimi qalmış bu insanlarda nəinki maddi vəziyyətinin pisləşməsi həyəcanı, həm də bir sıra psixoloji xarakterli problemlər meydana çıxır.

Bazar dəyişikliklərinin son dərəcə ləng getdiyi və sosial-iqtisadi böhranın uzandığı bir şəraitdə isə durğun işsizlik iqtisadi cəhətdən tənəzzülə uğramış regionlarda işsizlərə daha kəskin şəkildə təsir göstərir. Bu, həmin insanlarda, hətta uzaq gələcəkdə belə həyat səviyyələrinin yaxşılaşacağına ümidlərini itirir.

İşsizliyin ən təhlükəli və dağıdıcı nəticələri arasında kriminogen vəziyyətin kəskinləşməsini xüsusi qeyd etmək lazımdır.

Bundan əlavə, işsizlik regionlarda cinayətkarlığın artması baxımından da son dərəcədə təhlükəlidir.

Buna görə də gələcəkdə ölkəmizdə həmin neqativ proseslərin qarşısını almaq və onların meydana çıxmasına yol verməmək məqsədilə məşğulluq və işsizliklə bağlı bütün problemlər dərindən tədqiq edilib öyrənilməli və dövlətin ciddi nəzarətinə götürülməlidir.

III FƏSİL

MÜASİR MƏRHƏLƏDƏ AZƏRBAYCANDA İNTELLEKTUAL İNSAN POTENSİALININ FORMALAŞMASI QANUNAUYĞUNLUQLARI, ƏHALİNİN MƏŞĞULLUQ SƏVİYYƏSİ VƏ QURULUŞUNUN DƏYİŞİLMƏSİ MEYLLƏRİ, İŞSİZLİYİN AZALDILMASI İSTİQAMƏTLƏRİ VƏ STRATEGİYASI

3.1. MÜASİR MƏRHƏLƏDƏ AZƏRBAYCANDA İNTELLEKTUAL İNSAN POTENSİALININ FORMALAŞMASI VƏ İNKİŞAFI QANUNAUYĞUNLUQLARI

XX əsr bəşər cəmiyyəti tarixinə bir tərəfdən, dünya əhalisinin ən sürətlə artdığı mərhələ və ya «**demoqrafik partlayış**» yüzilliyi kimi, digər tərəfdən isə ictimai tərəqqinin qiymətləndirilməsinin dəyərləri, məqsəd və meyarları sistemində baş verən kəskin dəyişikliklər, **insan cəmiyyətinin** və **onun həyatının keyfiyyətinə** təsir edən amillərin ön plana çəkilməsi dövrü kimi daxil olmuşdur. Həmin əsrin 70-ci illərində dünyanın bir çox görkəmli nəzəriyyəçi alimləri təbiət, cəmiyyət və insanlar arasında mövcud olan qarşılıqlı struktur əlaqələri və ziddiyyətləri dərindən təhlil edib öyrənməklə belə bir qənaətə gəlmişlər ki, iqtisadi, sosial və bütün başqa sahələrdə əldə edilmiş nailiyyətlərin və uğursuzluqların hamısı, nəticə etibarı ilə, **insan potensialının** inkişafı və genişlənməsi ilə qanunauyğunluq təşkil edir və onunla bağlıdır.[187]

Hazırda **insan potensialı** cəmiyyətin başlıca milli sərvəti və iqtisadi artımın əsas hərəkətverici qüvvəsi hesab edilir. Çünki elmi-texniki tərəqqinin sürəti, əməyin təşkili və mədəni səviyyəsi, onun məhsuldarlığı, hər şeydən əvvəl, **insan potensialının** kəmiyyət və keyfiyyətindən asılıdır. İnkişaf etmiş ölkələrin əksəriyyətində artıq belə bir anlayış qətiləşdirilmişdir ki, **insanlar iqtisadiyyat üçün** deyil, **iqtisadiyyat insanlar üçündür.** İndi həmin

---

[187] B a x: *Лейбин В.М.* «Модели мира» и образ человека. М., Политиздат, 1982, с. 179.

ölkələrdə iqtisadi artım, onun sürəti, quruluşu və keyfiyyətinə bir məqsəd kimi deyil, **insanların həyatının zənginləşməsi, intellektual insan potensialının müntəzəm inkişafı** üçün zəruri vasitə kimi baxılır. Təsadüfi deyildir ki, dünyanın inkişaf etmiş əksər ölkələrində başqa istiqamətlərə nisbətən **insan potensialına** qoyulan vəsait daha səmərəli hesab edilir. Elə bu səbəbdəndir ki, indi dünyanın 92 ölkəsində milli sərvətin $^2/_3$ hissəsi, Rusiyada isə 50 faizi **insan potensialının** inkişafına sərf edilir.[188]

Uzun tarixi inkişaf prosesində insanın cəmiyyətin inkişafındakı rolu və yeri daha dəqiq və düzgün başa düşüldükcə, iqtisadi həyatın subyekti kimi onun haqqındakı təsəvvürlər getgedə dəyişmiş və onunla bağlı bir sıra anlayışlar meydana çıxmışdır. Bunlara **«iş qüvvəsi», «əmək ehtiyatları», «insan amili», «insan potensialı», «insan kapitalı»** və s. aiddir. 30-cu cədvəldə həmin anlayışların meydana gəldiyi və iqtisadi ədəbiyyatlarda geniş istifadə olunduğu dövrlər xronoloji ardıcıllıqla verilmişdir. Həmin cədvəldən açıq-aydın görünür ki, cəmiyyətin və iqtisadiyyatın inkişafında insanın rolu daha düzgün başa düşüldükcə, onun tədqiq edilib öyrənilməsi zərurəti də get-gedə daha anlamlı olmuş və bu sahədə aparılan tədqiqatların əhatə dairəsi və intensivliyi artmışdır.

Müasir inkişaf mərhələsində postsosialist cəmiyyətdə köklü siyasi və iqtisadi dəyişikliklərin gedişi prosesində sosial şəraitin kəskin surətdə dəyişilməsi nəticəsində ölkənin intellektual insan potensialını formalaşdıran və xalqın gündəlik həyatında onun həyata keçirilməsini səmərələşdirən bütün mürəkkəb amillərin nəzərə alınması, onların təshih edilməsi və istifadə olunması həlledici əhəmiyyətə malikdir. Çünki burada məqsəd bu və ya digər sosial proseslərin inkişafına təsir edən amilləri aşkara çıxarmaq, meydana çıxa bilən və mümkün olan bütün sosial nəticələrin dövlət səviyyəsində həll edilməsi vəziyyətini qiymətləndirən bu prosesin inkişaf meyllərinə fəal təsir göstərməkdən ibarətdir. Eyni zamanda, bu sahədə mövcud olan bəzi çeynənmiş ideologiyaları aradan qaldırmaq, sosial inkişafa dair bir sıra fundamental təsəvvürlər, düzəlişlər etmək və həmin sa-

---

[188] B a x: Россия 2015: Оптимический сценарий. M., 1999, c. 57.

hədə ictimai şüuru yeniləşdirmək vacibdir. Bu cəhətdən bir çox anlayışlara yenidən baxmaq, onların əsl mahiyyət və məzmununu düzgün aşkara çıxarıb təbliğ etməyə böyük ehtiyac vardır.

30-cu cədvəl [189]

İqtisadi həyatın subyekti – insan haqqında təsəvvürlərin inkişaf dinamikası

Anlayış	İqtisadi ədəbiyyatda fəal istifadə edildiyi dövr	İnsan haqqında təsəvvürlər	Meydana çıxma amilləri
İş qüvvəsi	XIX əsr – hal hazırda	İnsan – əmək prosesində məhsuldar qaydada istifadə oluna bilən qabiliyyət və keyfiyyətin daşıyıcısı kimi	İstehsalın amili kimi qeyd etmək və uçota almaq
Əmək ehtiyatları	XX əsrin 20-ci illəri və hal hazırda	İnsan - xüsusi idarəetmənin passiv obyekti, plan-uçot vahidi kimi	İqtisadiyyatın mərkəzləşdirilmiş qaydada idarə edilməsi şəraitində iş qüvvəsinin təkrar istehsalı göstəricilərinin zəruliliyi
Əmək potensialı	XX əsrin 70-80-ci illəri və hal hazırda	İnsan – əmək prosesində öz tələbatı və marağının subyekti kimi	Şəxsi amilin inkişafından səmərəli istifadə edilməsi və formalaşdırılmasının zəruliliyi
İnsan amili	XX əsrin 80-ci illərinin sonu, 90-cı illərin əvvəlləri və hal hazırda	İnsan – ictimai istehsalın başlıca hərəkətverici qüv-vəsi və onun səmərəliyinin yüksəldilməsi vasitəsi kimi	İctimai-siyasi şərait və şəxsi amil veriminin yüksəldilməsi zərurəti
İnsan kapitalı	XX əsrin 90-cı illərinin əvvəli, hal hazırda	İnsan – sərmayə qoyuluşunun obyekti və onları sonradan reallaşdırmaq məqsədilə bilik və qabiliyyətlərinin məcmusuna çevirən subyekti kimi	İnsanın yaratmaq aləti dəyərlərinə malik olduğunun və insana investisiya qoyuluşunun məhsuldar xarakterinin qəbul edilməsi

Belə məsələlərdən biri də **insanın inkişafı** ilə bağlı anlayışların dərindən tədqiq edilib öyrənilməsi və cəmiyyətdə onun yerini və rolunu düzgün müəyyənləşdirməkdən ibarətdir. Çünki indi cəmiyyətdə elə anlayışlardan istifadə olunur ki, insanlar onun əsl mahiyyətinin nədən ibarət olduğunu tam dərk edə bilmir və bu anlayışların müxtəlif tərəfləri arasında çaşıb qalırlar. Burada sadə bir misal gətirməklə oxuculara fikrimizi çatdırmağa cəhd edəcəyik. Məsələn, biz tez-tez «**ictimai istehsal**» anlayışı sözlərini işlədirik. Bu, ilk baxışda çox sadə görünsə də ölkə vətəndaşlarının şüurunda çoxlu və ən müxtəlif anlayışların

[189] B a x: «Экономика труда». Социально-трудовые отношения. M., 2002, s. 34.

meydana çıxmasına səbəb olur və onları çaş-baş salır. Çünki bu təriflər arasında elə birisi yoxdur ki, o həmin anlayışın əsl mahiyyətinin və məzmununun nədən ibarət olduğunu düzgün və aydın şəkildə əks etdirə bilsin. Belə ki, «**ictimai istehsal**» dedikdə, hər şeydən əvvəl, **cəmiyyətin istehsalı** başa düşülür. Başqa sözlə desək, bu, bütün insanların birgə yaşayışının təşkili çərçivəsində və əsasında onların həyatının qorunub saxlanmasını və inkişafını nəzərdə tutur.

Doğrudur, XIX-XX əsrdə həmin anlayışın bu cür qavranması özü-özlüyündə humanitar və ictimaiyyətşünas alimlər, tələbə və müəllimlər üçün başa düşülən idi və cəmiyyətin bu cür anlanmasında insan ölçüsü həmişə ilk yerlərdə durmuşdu. Lakin indi məsələyə bir qədər başqa səpgidən yanaşılması tələb olunur. Çünki ***insan cəmiyyətinin mahiyyəti üç komponentdən ibarətdir: xüsusi, fərdi subyekt kimi şəxsiyyətin varlığı; ətraf aləmin müxtəlif obyektləri (subyekt-obyekt münasibətləri) və çoxlu başqa obyektlərlə onun münasibətlərinin məcmusu (subyekt – subyekt münasibətləri və s.).***

Cəmiyyətin inkişafı bu üç komponentin inkişafı ilə bağlıdır. İnsanın və insan münasibətlərinin istehsalı ***ictimai istehsalın sosial dairəsini,*** onun dövlət və ictimai idarə edilməsi prosesi isə **sosial siyasətin** mahiyyətini təşkil edir. Başqa sözlə desək, ***insan potensialının inkişafı və ondan səmərəli istifadə*** **olunması** ***dövlətin fəal siyasətinin mühüm istiqamətlərindən birini təşkil edir.***

«**İnsan inkişafı**» anlayışı – elmi dövriyyəyə 1990-cı ildə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (BMTİP) tərəfindən daxil edilmiş və həmin vaxtdan geniş surətdə istifadə edilməyə başlanmışdır. Qeyd edilən vaxtdan etibarən, BMTİP-i hər il İnsan İnkişafı haqqında məruzə təqdim edir. Bu məruzə hər il insan potensialının müxtəlif aspektlərinə həsr edilir, orada yeni konsepsiyalar və bu konsepsiyaların hazırlanmasına yeni yanaşma metodları irəli sürülür. Burada həmişə başlıca vəzifə ondan ibarət olmuşdur ki, inkişafın həmin prosesinin iştirakçısı olan insanın mənafeyinə və onun imkanlarının genişlənməsinə yönəldiyi başa düşülsün və təmin edilsin.

Qeyd edilən məruzənin ilk buraxılışında «**İnsan inkişafı**» anlayışının izahı ilə yanaşı, onun ölçü vahidi kimi «**İnsan inkişafı indeksi**» də təklif kimi irəli sürülmüş və əsaslandırılmışdır. Məruzənin sonrakı buraxılışlarında isə «**İnsan inkişafı**»nın hesablanması metodikası dəqiqləşdirilərək, «**İnsan potensialının inkişafı indeksi**» adlandırılmışdır.

BMT-nin İnkişaf Proqramına dair konsepsiyada İnsan İnkişafı – azad seçimin genişləndirilməsi prosesi kimi izah edilir və göstərilir ki, bu seçimin sayı sonsuz ola bilər. Ancaq bütün inkişaf mərhələlərində **bu seçimin üçü ən mühümdür**. Bunlara – **uzun və sağlam ömür, bilik əldə etmək** və **layiqli həyat sürmək üçün** lazımi resurslara malik olmaq imkanlarına yiyələnə bilməyin mümkünlüyünün təmin edilməsi göstəriciləri aiddir. Həmin əsas seçim variantları olmadığı halda, bütün başqa imkanların əlçatmaz olduğu şübhəsizdir. Bu deyilənlərdən əlavə, insanların həyat fəaliyyətinin əsas aspektlərini xarakterizə etmək üçün bir sıra başqa göstəricilərdən də istifadə edilir. Bunlara xəstəliyin dinamikası və onunla əlaqədar olaraq tibbi xidmətlərin əlverişli olub-olmaması vəziyyəti; şəxsi təhlükəsizlik; sosial nemətlərə yiyələnmək imkanları; ətraf mühitin vəziyyəti və sair göstəricilər daxildir. İnsan inkişafı konsepsiyası son dərəcə iqtisadi artımla tarazlı inkişafa alternativ olan nöqteyi-nəzərdir. İqtisadi artım və istehlakın həcminin artması isə məqsəd xatirinə deyil, insan inkişafı sahəsində qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi vasitəsidir.

İnsan inkişafı **konsepsiyası məhsuldarlığı, bərabərliyi, sabitliyi və imkanların genişləndirilməsini** özündə əks etdirən **dörd əsas prinsipə** əsaslanır. Bunlara **məhsuldarlıq, bərabərlik, sabitlik və imkanların genişləndirilməsi** prinsipləri aiddir.

Məhsuldarlıq prinsipi dedikdə, o nəzərdə tutulur ki, insanlar gərək öz fəaliyyətlərinin məhsuldarlığını artırmaq imkanlarına malik olsunlar, gəlir əldə edilməsi prosesində fəal iştirak etsinlər və pul qazanmaq üçün zəhmət çəksinlər. Buna görə də iqtisadi artım insan potensialının inkişafının əsas modellərindən biri hesab edilir.

Bərabərlik prinsipi dedikdə, isə, hər şeydən əvvəl insanların ilk başlanğıcdan bərabər imkanlara malik olması nəzərdə

tutulur. İqtisadi və siyasi həyatda mövcud olan imkanlardan istifadə edilməsində yaranmış bütün maneələr ləğv olunmalı və elə edilməlidir ki, insanlar bu imkanların həyata keçirilməsində və onun nemətlərindən istifadə olunmasında iştirak edə bilsinlər.

Sabitlik prinsipi – mövcud imkanlara yiyələnməyin indi və gələcəkdə əlverişli olmasının təmin edilməsini nəzərdə tutur.

İmkanların genişləndirilməsi prinsipi dedikdə isə, nəzərdə tutulur ki, inkişaf insanların gücü ilə həyata keçirilməli və təkcə onların maraqlarına yönəldilməməlidir. İnsanlar, onların həyatını müəyyən edən başqa qərarların qəbul edilməsi prosesində də iştirak etməlidirlər.

Bütün bu deyilənlərdən bir daha aydın olur ki, **insan inkişafı konsepsiyasında əsas məqsəd** elə əlverişli şərait yaradılmasından ibarətdir ki, insanların həyatı uzun, sağlam və yaradıcılıqla dolu olsun. Bu sadə, ancaq mühüm həqiqət çox vaxt maddi və maliyyə vəsaitlərinin çatışmazlığı kölgəsində yaddan çıxarılır. Halbuki, həyatın keyfiyyəti və insan inkişafı anlayışları müasir dünyada iqtisad elminin metodologiyasında baş verən prinsipial dəyişikliklərin və bir çox ölkələrin inkişaf strategiyasının xarakterini müəyyən edir. Burada söhbət **davamlı inkişaf konsepsiyası** və **insan inkişafı konsepsiyası ideyalarının** geniş surətdə tətbiq edilməsi ilə əlaqədar olaraq, həyatın keyfiyyəti anlayışının genişləndirilmiş izahından gedir.

Bu gün mövcud olan davamlı inkişaf anlayışlarının çoxuna «**həyatın keyfiyyəti**» anlayışı da daxil edilir. Bu baxımdan hələ 1998-ci ildə qəbul edilmiş «**Böyük Britaniya üçün davamlı inkişaf strategiyası**»nda irəli sürülmüş anlayış daha səciyyəvidir. Orada deyilir ki, **davamlı inkişaf çox sadə ideyadır. Bu, indiki və gələcək nəsil üçün yaxşı keyfiyyətdə həyat şəraitinin təmin edilməsidir**. Bu anlayış Rusiya Federasiyasının davamlı inkişaf konsepsiyasında da vardır.[190] Bu mənada «**həyatın keyfiyyəti**» anlayışı həyat səviyyəsi anlayışını nə rədd edir və nə də onu

---

[190] B a x: Указ Президента Российской Федерации № 440 «О Концепции перехода Российской Федерации к устойчивому развитию». Концепция перехода Российский Федерации к устойчивому развитию. Сб. Законодательство Российской Федерации. М., 1996,. № 15, с. 15-72.

məhdudlaşdırır. Eyni zamanda, bu konsepsiyada həyat səviyyəsi nəinki təkcə istehlakın çoxaldılması mövqeyindən, həm də daha çox insan inkişafının tərəqqisi nöqteyi-nəzərindən qiymətləndirilir. Belə yanaşmada vahid konsepsiyanın formalaşdırılması ona əsaslanır ki, **həyat səviyyəsi** və **həyatın keyfiyyəti** anlayışları qarşılıqlı surətdə bir-birlərini inkar etməyən anlayışlardır. Həyatın keyfiyyəti və həyat səviyyəsi anlayışlarının hər ikisi birlikdə **iqtisadi və sosial siyasət** sahəsində nizamlayıcı tədbirlər görülməsinin əsasını təşkil edir və ona xidmət göstərir.

Sosial tərəqqinin ən dəqiq və ümumiləşdirici göstəricisi **insan potensialının** inkişaf indeksindən (İPİİ) ibarətdir. Bu törəmə göstərici **insan inkişafının** müxtəlif tərəflərini səciyyələndirən həyat səviyyəsinin üç ən tutumlu indikatorundan – **doğulanların gözlənilən ömür uzunluğu; əldə olunmuş təhsil səviyyəsi və yaşlı əhalinin rifahından ibarətdir.**[191]

Dünya ölkələri həmin inkişaf indeksinə görə – **yüksək, orta** və **aşağı,** habelə **sənaye cəhətdən inkişaf etmiş** və **inkişaf etməkdə olan ölkələrə ayrılırlar**. Hazırda insan potensialının **yüksək inkişaf səviyyəsi** bu indeksin, yəni İPİİ-nin 0,800 və yuxarı olduğu ölkələrə; **orta inkişaf səviyyəsi** İPİİ-nin 0,500 – 0,799 olduğu **ölkələrə; aşağı inkişaf səviyyəsi isə** İPİİ-nin 0,500-dən aşağı olduğu ölkələrə aiddir. Bu indeksin səviyyəsinə görə Azərbaycan Respublikası postsovet ölkələrindən olan Qazaxıstan, Qırğızıstan, Latviya, Litva, Ukrayna, Gürcüstan, Belorus, Tacikistan, Moldova, Türkmənistan, Özbəkistan və Ermənistan Respublikaları, kimi dünyanın 78 ölkəsini və rayonlarını əhatə edən insan potensialının orta inkişaf səviyyəsinə malik olan dövlətlər sırasına daxildir. Bu ölkələr arasında adları çəkilən postsovet dövlətləri ilə yanaşı, dünyanın ən çox əhalisinin yaşa-

---

[191] B a x: İPİİ-nin hesablanması mexanizmi müəyyən müddətdə öz əhəmiyyətinə görə düzülmüş kompozisiyalı göstəricilərdən ibarətdir: konkret vaxtda gözlənilən ömür müddəti (25-dən 85 yaşadək); bütün yaşlı əhalinin savadlılıq xüsusi çəkisi (0-dan 100 faizədək); müvafiq yaş qrupları üzrə ibtidai, orta və ali təhsil məktəblərində təhsil alanların xüsusi çəkisi indeksi (0-dan 100 faizədək); Adambaşına düşən ÜDM-la hesablanan həyat səviyyəsi (100-dən 40 min ABŞ dollarınadək müqayisəli qiymətlərlə – milli valyutaya uyğun olaraq).

dığı Çin, Hindistan və İndoneziya kimi ölkələr, habelə Braziliya, Səudiyyə Ərəbistanı, Meksika, Misir, İran, Vyetnam, Bolqariya və sair bu kimi onlarca inkişaf etməkdə olan başqa dövlətlərin də adları vardır.[192]

Yuxarıda qeyd edilən seçilmiş orta göstəricilərin müqayisəli təhlili, dünya ölkələrində insan potensialının inkişafı və onun təkrar istehsal şəraitinin vəziyyəti haqqında ümumiləşdirilmə aparmağa imkan verir. Məsələn, **doğulanların ömür uzunluğu indeksi** vasitəsilə bu və ya digər ölkələrdə, habelə bütünlükdə dünyada əhalinin malik olduğu əmək qabiliyyətli illərinin həqiqi sayı ilə müəyyən edilən **əmək potensialının** real vəziyyətini aşkara çıxarıb qiymətləndirmək mümkündür. Əhalinin uzunömürlülük xarakteristikasını bilmək isə ondan ötrü lazımdır ki, insanlar təkcə istehsal prosesində iştirak edib maddi dəyərlər yaratmaqla qalmır, onlar eyni zamanda, bu nemətləri və xidmətləri həm də istehlak edirlər. Buna görə də **orta ömür müddəti indeksinə** müxtəlif ölçülərin sosial-iqtisadi inkişaf səviyyəsi və ondan asılı olan əhalinin təkrar istehsal şəraiti (gəlir və istehlakın səviyyəsi, tibbi xidmətlərin və yeməyin keyfiyyəti, ətraf mühitin vəziyyəti və s.) öz əksini tapır.

Təhsil səviyyəsi indeksi isə ayrı-ayrı ölkələrdə və bütünlükdə dünyada ictimai sərvətin çoxaldılmasının, canlı əmək sərfinin səmərəliliyi və onun nəticələrinin yüksəldilməsinin əsas amili olaraq ixtisasın və intellektual (elmi) potensialın yaranması bazasını təşkil edən toplanmış bilik və bacarığın ümumiləşdirilmiş şəkildə həcmini səciyyələndirir. Bu, hər bir ölkədə Ümumi Daxili Məhsulun (ÜDM) və əhalinin gəlirlərinin mühüm şərti kimi cəmiyyətin və ayrı-ayrı şəxslərin təhsilə (ümumi və peşə hazırlığı təhsilinə, ixtisas artırmaya və yenidən hazırlanmaya) ayrılan maliyyə vəsaitinin həcmindən asılıdır. Çünki ***əhalinin təhsil səviyyəsi ilə gəlirləri arasında müəyyən qanunauyğun, qarşılıqlı əlaqə və asılılıq vardır. Bu o deməkdir ki, təhsil səviyyəsinin yüksəlməsi işçilərin intellektual inkişaf səviyyəsinin artmasına, bu isə öz növbəsində, adamların gəlirlərinin və***

---

[192] B a x: Доклад о развитии за 2001 год. Нью-Йорк, 2001, s. 257.

deməli, həm də ÜDM-un və bütünlükdə cəmiyyətin milli sərvətinin çoxalmasına şərait yaradır.

Adambaşına düşən real ÜDM indeksi isə həyatın keyfiyyətinin mühüm indikatoru kimi çıxış edir. Çünki ÜDM-un əhəmiyyətli hissəsi əhalinin təkrar istehsalı ilə bağlı olan istehlak məqsədləri üçün (yemək, paltar, mənzilin saxlanması, təhsil, səhiyyə və sair) istifadə olunur. Bu indikator təhsil və tibbi xidmətlərin, mədəniyyət nailiyyətlərinin, yeməyin keyfiyyətinin və sairənin vətəndaşlar üçün nə dərəcədə əlçatan olub-olmadığını özündə əks etdirir.

Qlobal İnsan İnkişafı Hesabatına əsasən (BMTİP: 2000, 2001-ci il) Azərbaycan Respublikasının reytinqi ilbəil artır. Beləki, Azərbaycan Respublikası İnsan Potensialının İnkişafı İndeksinə görə 1999-cu ildə 174 ölkə arasında 110-cu yeri, 2000-ci ildə 90-cı yeri, 2001-ci ildə isə 162 ölkə arasında 79-cu yeri tutmuşdur. 2000 və 2001-ci ildə İnsan İnkişafı İndeksini müəyyən etmək üçün götürülmüş göstəricilərin artması, ölkədə nailiyyətlərin olmasını təsdiq edir və gələcəkdə davamlı insan inkişafı üçün potensial imkanların mövcud olduğunu sübut edir.

Məlum olduğu kimi, Ümumi Daxili Məhsulun (ÜDM) illik artımı yoxsulluqla mübarizədə çox vaxt mühüm bir amil kimi qəbul olunur. Azərbaycanda ÜDM 2000-ci ildə 11,1 faiz, 2001-ci ildə 10,0 faiz, 2003-cü ildə isə 11 faiz artmışdır. Bu artımın bu cür yüksəlməsinə iqtisadi inkişafda baş verən müsbət dəyişiklik kimi qiymət vermək olar. Bu prosesə çox illərlə müqayisədə müşahidə olunan təbii hadisə kimi baxılmalıdır. Bu illər ərzində həmin sahədə əldə edilmiş nailiyyətləri adambaşına düşən ÜDM-nin artımından daha aydın görmək olar. Belə ki, əgər 1999-cu ildə respublikamızda adambaşına düşən ÜDM-un həcmi 574,5 ABŞ dolları təşkil edirdisə, bu göstərici 2000-ci ildə 654,5 ABŞ dolları, 2001-ci ildə 715,4 ABŞ dolları, 2002-ci ildə isə 788 ABŞ dolları təşkil etmiş və ya 1999-cu ilə nisbətən 37,2 faiz, 2000-ci ilə nisbətən isə 22,1 faiz, 2001-ci ilə nisbətən isə 10,1 faiz artmışdır. Ümumiyyətlə götürüldükdə isə, Azərbaycanda insan inkişafının vəziyyəti 31-ci cədvəldəki məlumatlarla xarakterizə olunur.

31-ci cədvəlin məlumatlarından aydın olur ki, Azərbaycanda İnsan İnkişafı İndeksi ÜDM İndeksinin artmasına uyğun olaraq yüksəlir. Təhsil indeksinin aşağı düşməsinə baxmayaraq, qeyd olunan artım ÜDM-nin artımı nəticəsində baş vermişdir. Adambaşına düşən ÜDM və İnsan İnkişafı İndeksi arasında əlaqə yoxsulluğun azalması tələbləri üçün ölkədə əlavə milli potensialın olduğunu göstərir. Bu istiqamətdə əsas məqsəd regional inkişafda və gəlirlərin qeyri-bərabər bölünməsində müşahidə olunan fərqlərin aradan qaldırılması və tədris sahəsinə diqqətin artırılmasıdır.

31-ci cədvəl [193]

Azərbaycan Respublikasında insanın inkişaf indeksi və onun tərkib hissələri üzrə dəyişilməsi dinamikası

İnsan inkişafı indeksi	İllər									
	1992	1993	1994	1995	1996	1997	1998	1999	2000	2001
uzun ömürlülük indeksi	0,718	0,707	0,696	0,692	0,697	0,706	0,722	0,738	0,746	0,751
təhsil indeksi	0,745	0,742	0,743	0,735	0,753	0,770	0,772	0,770	0,780	0,782
ÜDM indeksi	0,870	0,880	0,880	0,880	0,868	0,871	0,878	0,880	0,895	0,895
ÜDM (ADR)	2540	1980	1610	1590	1675	1740	1850	2850	2924	3148

Aparılan tədqiqatların nəticələri göstərir ki, Azərbaycanda İnsan İnkişafı İndeksinin yüksəlməsinə baxmayaraq, bu nailiyyətlər ölkənin malik olduğu potensialı tam əks etdirmir. Çünki burada kifayət qədər istifadə olunmamış ehtiyatlar mövcuddur və onlardan gələcəkdə daha səmərəli istifadə edilməlidir.

Azərbaycan Respublikası insan inkişafında yüksək nəticələr əldə etmiş bir sıra ölkələrə oxşar təbii şəraitə (ərazi, əhalinin sıxlığı, adambaşına düşən enerji istehsalı) və insan potensialına malikdir. Bu ölkələrlə müqayisələr 32-ci cədvəldə verilmişdir. Həmin cədvəlin məlumatlarından göründüyü kimi, Azərbaycanın İnsan İnkişafı İndeksi 1995-ci ildə dünyanın hə-

[193] Azərbaycan Respublikasında İnsan İnkişafı Haqqında Hesabat. 2002, s.17.

min göstəricisinin orta səviyyəsindən 1,8 bənd, 1999-cu ildə isə 3,1 bənd yüksək olmuşdur.

Eyni meyllər yüksək inkişaf etmiş ölkələrdə də müşahidə olunur. Bu ölkələr öz inkişafında daha çox nailiyyətlər qazana bilmişlər. Azərbaycan respublikası da bu baxımdan inkişaf etmək üçün böyük potensiala malikdir. Müqayisə üçün seçilmiş və insan inkişafı sahəsində yüksək nəticələr əldə etmiş digər ölkələr üçün texnoloji nailiyyətlərdə yüksək göstəricilər və yöxsulluğun aşağı səviyyəsi səciyyəvidir. Azərbaycan əgər texnoloji

32-ci cədvəl [194]

Azərbaycan Respublikasında və seçilmiş ölkələrdə İnsan İnkişafı İndeksinin dinamikası

Ölkələr	1995-ci il		1999-cu il	
	İnsan İnkişafı İndeksi	Dünyanın Orta İİİ fərqi, faizlə	İnsan İnkişafı İndeksi	Dünyanın Orta İİİ fərqi, faizlə
Fransa	0,913	+34,2	0,924	+29,0
Avstriya	0,908	+33,5	0,921	+28,6
Portuqaliya	0,853	+25,4	0,874	+22,1
Macarıstan	0,829	+21,9	0,829	+15,8
Meksika	0,772	+13,5	0,790	+10,3
Rusiya	0,778	+14,4	0,775	+8,2
Bolqarıstan	0,775	+14,0	0,772	+7,8
Azərbaycan	0,692	+1,8	0,738	+3,1
Türkiyə	0,716	+5,3	0,735	+2,6
İordaniya	0,704	+3,5	0,714	-0,3
İran	0,688	+1,2	0,714	-0,3
Moldaviya	0,744	+3,5	0,699	-2,4
Özbəkistan	0,683	+0,4	0,698	-2,5

irəliləmələrdən istifadə edərək, yoxsulluğun aradan qaldırılması sahəsində səylərini bir qədər də artırsa, bu onun İnsan İnkişafı İndeksinin növbəti bir neçə ildə də ardıcıl olaraq inkişaf etdirməsinə səbəb olacaqdır.

Azərbaycan Respublikası iqtisadiyyatının daha da sağlamlaşdırılması və gələcəkdə onun stabil inkişafının təmin edil-

[194] Azərbaycan Respublikasında İnsan İnkişafı Haqqında Hesabat. 2002, s.18.

məsində insan potensialının imkanlarına təkcə mövcud olan İnsan İnkişafı İndeksinin vəziyyəti ilə qiymət vermək də doğru olmazdı. Azərbaycanın gələcəyi ilə bağlı məsələlər həll edilərkən, insan potensialının qiymətləndirilməsində ümumiləşdirici və xüsusi göstəricilərdən əlavə, başqa göstəricilərdən də istifadə olunmalıdır. Burada iqtisadiyyatın inkişaf perspektivlərini müəyyənləşdirən insan potensilamın resurs parametrlərinin mövcud kəmiyyət və keyfiyyəti onun əmək yaradıcılığı imkanlarının demoqrafik, ixtisas və intellektual vəhdətliyi baxımından da qiymətləndirilməli və Azərbaycan iqtisadiyyatının inkişaf etdirilməsi amili və ictimai tərəqqinin hərəkətverici qüvvəsi kimi həmin potensialın müasir intellektual inkişaf səviyyəsini də dəqiqləşdirmək lazımdır. Belə sual meydana çıxa bilər ki, bəs Azərbaycan Respublikası XXI əsrin başlanğıcında iqtisadi inkişafın sürətləndirilməsi üçün hansı insan potensialına malikdir? Bu məsələni aydınlaşdırmaq üçün Azərbaycanın demoqrafik inkişaf potensialına, onun əhalisinin təbii təkrar istehsalı prosesinə (əhalinin doğum, ölüm və təbii artımı vəziyyətinə və s.) baxmaq kifayətdir (əvvəlki fəsillərə bax).

Azərbaycan Respublikası özünün həm də güclü **təhsil potensialına** malikdir. Respublikamızda əhalinin təhsil səviyyəsində baş verən dəyişiklikləri 33-cü cədvəlin göstəricilərindən daha aydın görmək olar. Həmin cədvəlin məlumatlarından göründüyü kimi, 1939-1999-cu illəri əhatə edən 60 il ərzində burada əhalinin hər 1000 nəfərinə düşən 10 və yuxarı yaşda olan ali (tam və natamam) və orta təhsili olanların sayı 7,0 dəfə, o cümlədən ali təhsili olanların sayı 7,8 dəfə artmışdır. Qeyd edilən göstəricilərin artım sürəti ali və orta təhsili olan kişi və qadınlar üzrə də müxtəlif olub, bir-birindən kəskin surətdə fərqlənir. Belə ki, əgər müqayisə edilən dövrdə əhalinin hər 1000 nəfərinə düşən ali təhsili olan 10 və yuxarı yaşda kişilərin sayı 7,8 dəfə, orta təhsili olan kişilərin sayı 4,9 dəfə artmışdırsa, bu göstərici qadınlar arasında daha yüksək olub, müvafiq surətdə 14,8 və 9,7 dəfə təşkil etmişdir. 1999-cu il əhalinin siyahıya alınması materiallarına əsasən, Respublikamızda 573,6 min nəfər ali və 681,0 min nəfər orta ixtisas təhsili olanlar, onların da müvafiq surətdə 240,8 min və 345,0 min nəfərərini və ya 42,0 və

50,7 faizini qadınlar təşkil etmişdir. Bu baxımdan, qeyd edilən dövrdə Respublikamızda yaşayan qadınların orta hesabla hər 7 nəfərindən birinin ali və orta ixtisas təhsili, o cümlədən hər 17 nəfərindən birinin ali, hər 12 nəfərindən birinin isə orta ixtisas təhsili olmuşdur.

33-cü cədvəl[195]

Azərbaycan Respublikasında əhalinin təhsil səviyyəsinin dəyişilməsi dinamikası (əhalinin siyahıya alınması məlumatlarına əsasən)

İllər	Hər 1000 nəfər əhaliyə düşən 10 və yuxarı yaşda ali və orta təhsili olanlar			Onlardan					
				Ali təhsili (tam və natamam) olanlar			Orta təhsili olanlar		
	Cəmi	o cümlədən:		cəmi	o cümlədən:		cəmi	o cümlədən:	
		kişi	qadın		kişi	qadın		kişi	qadın
1939	113	144	80	10	14	5	103	130	75
1959	400	469	340	30	38	22	370	431	318
1970	475	538	411	44	57	33	427	481	378
1979	652	706	601	65	80	51	578	626	550
1989	775	809	743	92	109	76	683	700	667
1999	796	796	799	91	110	74	705	633	725

Əhalinin ümumtəhsil və peşə ixtisas səviyyəsinin yüksəlməsi məhsuldar qüvvələrin bütün ünsürlərinin ardıcıl surətdə inkişaf etməsi və əmək potensialından səmərəli istifadə olunması üçün mühüm şərtlərdən biridir. Hələ vaxtı ilə görkəmli iqtisadçı K.Marks yazmışdır ki, mövcud əhalinin məharət dərəcəsi məcmu istehsalın ilkin şərtidir.[196] Təsadüfi deyildir ki, 1980-ci ildə Azərbaycan KP-nın XXX qurultayında mərhum prezidentimiz Heydər Əliyev bu məsələdən **bəhs edərək demişdir ki: «Respublikanın əməkçi əhalisinin peşə strukturunun daha da təkmilləşdirilməsi, işçilərin ixtisas səviyyəsinin durmadan yüksəldilməsi... ən mühüm vəzifələrdən biridir. Biz siniflərin və sosial qrupların, fiziki əməklə əqli əməyin bir-birinə yaxınlaşması pro-**

[195] Əmək bazarı. Rəqəm və diaqramlarda. Bakı, 2001, s. 19.
[196] *K.Marks* və *F.Engels*. Seçilmiş əsərləri, 26-cı cild, 3-cü hissə. s. 306 (rus dilində).

seslərini keyfiyyətcə yeni səviyyəyə qaldırmaq üçün hələ çox iş görməliyik... Fəhlələrdən, texniklərdən, ali təhsilli mütəxəssislərdən onların ixtisaslarına son dərəcə müvafiq şəkildə istifadə olunmasını yaxşılaşdırmaq lazımdır. Yüksək ixtisaslı kadrlardan aşağı dərəcəli işlərdə istifadə edilməsi həm iqtisadi, həm də sosial baxımdan israfçılıqdır. Buna nail olmaq lazımdır ki, ... sənaye sahələri üzrə kadrların ixtisas-peşə dərəcəsi, strukturu iş yerlərinin strukturuna uyğunlaşdırılsın. Bu, fəhlə və mütəxəssis kadrlarını onların hazırlığına uyğun gələn iş yerlərində möhkəmləndirməyə imkan verər».[197]

Bu müddəanı rəhbər tutaraq, Azərbaycan dövləti həmin illərdə yüksək ixtisaslı müəssisələrin və fəhlə kadrlarının hazırlanması sahəsində mühüm siyasi və təşkilatçılıq işi aparmış, nəticədə əhalinin ümumtəhsil və peşə-ixtisas səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlmiş və xalq təsərrüfatında çalışanlar arasında yüksək ixtisaslı kadrların xüsusi çəkisi xeyli artmışdır. Bunu belə bir həqiqətdən də aydın görmək olar ki, əgər 1970-ci ildə respublikamızda məşğul olan əhalinin hər min nəfərinə düşən ali və orta (tam və natamam) təhsili olanların sayı 674 nəfər təşkil etmişdirsə, 1985-ci ildə onların sayı 897 nəfərə gəlib çatmış və ya 33,1 faiz olmuşdur. Bununla birlikdə həmin dövrdə respublikanın xalq təsərrüfatında çalışan ali və orta ixtisas təhsilli mütəxəssislərin sayı da artaraq, 274 min nəfərdən 606,2 min nəfərə çatmış və ya 2,2 dəfə çoxalmışdır. Bu illər ərzində Azərbaycanın Peşə Texniki məktəblərində 799,5 min nəfərdən çox ixtisaslı fəhlə kadrları hazırlanmışdır.[198] 1970-1985-ci illəri əhatə edən 5 il ərzində respublikanın əmək potensialının keyfiyyətcə belə təkmilləşməsi, burada fəhlə və mütəxəssislərin ixtisasının yüksəldilməsi miqyasının ildən-ilə artması nəticəsində mümkün olmuşdur.

Qeyd edilən dövrdə respublikada yüksək ixtisaslı kadrların hazırlanması sahəsində əldə edilən nailiyyətlərin çoxalmasında həmin illərdə yaradılmış yeni ali məktəblərin, açılan fa-

---

[197] Azərbaycan KP-nın XXX qurultayının materialları. Bakı, 1981, s. 73-74.
[198] Народное хозяйство СССР 1985 г. Баку, 1986, с.6. 160; Народное хозяйство Азербайджанской ССР в 1974 году. Баку, 1975. с.221 və Народное хозяйство Азербайджанской ССР за 60 лет. Баку, 1980, с. 209.

kültə və kafedraların da böyük rolu olmuşdur. Bu illər ərzində respublikamızda bir neçə ali təhsil ocağı – Rus Dili və Ədəbiyyatı İnstitutu, Mühəndis-Tikinti İnstitutu, Naxçıvan və keçmiş Stepanakert (indiki Xankəndi) şəhərlərində Pedoqoji İnstitutlar, Kirovabad (indiki Gəncə) şəhərində Azərbaycan Texnologiya İnstitutu açılmışdır. Bu dövrdə ali məktəblərdə 31 fakültə, 116 kafedra və problem laboratoriyaları yenidən təşkil edilmiş və yaradılmış, 50-dən çox yeni ixtisas açılmış, çoxlu tədris korpusları və tələbə yataqxanaları fəaliyyətə başlamışdır.[199]

Yuxarıda deyilənlərin nəticəsi idi ki, 1985-ci ildə respublikanın ali və orta ixtisas məktəblərində təhsil alanların sayı 11,1 min nəfər və ya 6,5 faiz artaraq, 1970-ci ildəki 171 min nəfərdən 182,1 min nəfərə, həmin təhsil ocaqlarından buraxılan mütəxəssislərin sayı isə 12,5 min nəfərə və ya 39,2 faiz artaraq, 31,9 min nəfərdən 44,4 min nəfərə çatmışdır. 1984-1985-ci illərdə qeyd edilən tədris ocaqlarından buraxılan mütəxəssislərin sayı 1960-cı ildəkindən 3,5 dəfə çox olmuşdur. Bu illər ərzində mütəxəssis buraxılışı ən çox sənaye və tikinti (1,5 dəfə), kənd təsərrüfatı (2,7 dəfə) və maarif (2,2 dəfə) istiqamətli ali və orta ixtisas məktəblərində qeydə alınmışdır. Respublikamızın xalq təsərrüfatı təkcə onuncu və on birinci beşilliklər ərzində 400 min nəfərdən çox ali və orta ixtisas təhsilli mütəxəssis almışdır.

Kadrların keçmiş SSRİ-nin Moskva, Leninqrad və başqa iri şəhərlərinin ali məktəblərində hazırlanması təcrübəsi də bu illər ərzində daha böyük vüsət almışdı. **Bu dövrdə Respublikamızın o vaxtkı rəhbəri Heydər Əliyevin həyata keçirdiyi ən möhtəşəm və yadda qalan mühüm tədbirlərdən biri də yüksək peşəkar səviyyəli kadrların, xüsusilə milli kadrların hazırlığına ciddi fikir verilməsi və qayğı göstərilməsindən ibarət olmuşdur.** Çünki o vaxtlar həyatımızın bütün sahələrində əsaslı dönüş yaratmaq üçün ilk növbədə yüksək ixtisaslı kadrlara böyük ehtiyac duyulurdu. Məhz buna görə də, bu illər ərzində respublikanın ali məktəblər şəbəkəsi əhəmiyyətli dərəcədə genişləndirilmiş, onların strukturu və maddi-texniki bazası ildırım sürəti ilə inkişaf edən iqtisadiyyatın tələblərinə uyğun bir tərzdə təkmilləşdiril-

---

[199] B a x: *Ş.M.Muradov*. Göstərilən monoqrafiyası. s. 100-101.

mişdir. *1969-1979-cu illərdə Azərbaycanda ali məktəblərin sayı 12-dən 17-yə, təhsil alanların sayı isə 70 min nəfərdən 100 min nəfərə çatdırılmışdı.*

Azərbaycanın daxilində hazırlanan ali təhsilli mütəxəssislərlə yanaşı, bu ehtiyacı ödəmək üçün Moskvanın, eləcə də keçmiş SSRİ-nin digər şəhərlərinin **170 aparıcı ali elm və təhsil ocağına 3500 azərbaycanlı oğlan və qız göndərilmişdir. Hər il ali təhsil almaqdan ötrü respublikamızdan kənara 800-dən artıq tələbə göndərilməsi yaxşı ənənə şəklini almışdı**. Müqayisə üçün deyək ki, 1969-cu ildə Azərbaycandan həmin ali məktəblərə 47 nəfərin təhsil almağa göndərilməsi planlaşdırılmış və onların da əksəriyyəti başqa millətlərdən idisə, 70-ci illərin axırında həmin məktəblərə göndərilən abituriyentlərin sayı 700-800 nəfər (80-ci illərin əvvəllərində isə hər il 1000-1400 nəfər) təhsil almağa göndərilirdi və onların da çoxu azərbaycanlı idi. 1981-ci ildə Moskva, Leninqrad, Kiyev və başqa şəhərlərdə 244 ixtisas üzrə təhsil alan azərbaycanlı oğlan və qızların sayı 3600 nəfərdən çox idi. **Azərbaycan xalqının bu gününü və gələcəyini qabaqcadan görən xalqımızın böyük oğlu Heydər Əliyev milli hərbi kadrların hazırlanmasına da böyük qayğı göstərmişdi.** 1972-ci ildən etibarən, hər il 300-400 azərbaycanlı gənc hərbi təhsil almaq üçün müxtəlif ali məktəblərə qəbul olunmuş və 80-ci illərin əvvəllərində bu rəqəm 800-1000-ə çatmışdı. Onların çoxu azərbaycanlı idi.

Qeyd edilən dövrdə Azərbaycanın elm məbədgahı sayılan Elmlər Akademiyasının müxtəlif elmi-tədqiqat İnstitutlarından respublikadan kənar elm mərkəzlərinə ezam olunan aspirantların, stajor-tədqiqatçıların və məqsədli aspiranturaya göndərilənlərin sayı da xeyli artmışdı.

1970-1985-ci illərdə Respublikamızın ali və orta ixtisas məktəblərində müxtəlif millətlərin nümayəndələrindən olan kadrların hazırlanması da diqqət mərkəzində olmuşdur. Bunu 34-cü cədvəlin məlumatlarından aydın görmək olar. Həmin cədvəldən göründüyü kimi, 1970-1985-ci illərdə respublikamızın ali məktəblərində təhsil alan tələbələrin sayı 25,2 faiz artaraq, 86,1 min nəfərdən 107,9 min nəfərə, o cümlədən azərbaycanlıların sayı 30,9 faiz artaraq, 65,3 min nəfərdən 91,1 min nəfərə, ermənilərin sayı 10,2 faiz artaraq, 5,6 min nəfərdən 6,2 min nə-

fərə, Dağıstan xalqlarının sayı 2,1 dəfədən çox artaraq, 910 nəfərdən 1935 nəfərə və s. gəlib çatmışdı. Həmin dövrdə respublikamızın ali məktəblərində təhsil almış rusların sayı 6,9-11,4 min nəfər, ukraynalıların sayı 227-500 nəfər, Orta Asiya xalqlarından olanların sayı 79-131 nəfər, tatarların sayı 377-525 nəfər, yəhudilərin sayı 678-1373 nəfər, başqa millətlərdən olanların sayı isə 540-883 nəfər arasında tərəddüd etmişdir. Buna bənzər vəziyyəti orta ixtisas təhsili müəssisələrində oxuyanlar haqqında da demək olar.

34-cü cədvəl [200]

1970-1985-ci illərdə Azərbaycan SSR-in ali və orta ixtisas məktəblərində təhsil almış tələbələrin milli tərkibinin dəyişilməsi dinamikası (nəfərlə)

Millətlər / Tədris illəri	Cəmi tələbələr	Onlardan azərbaycanlılar	ruslar	ermənilər	ukraynalılar	Dağıstan xalqları	Orta Asiya xalqları	tatlar	yəhudilər	başqa millətlər
Ali məktəb illəri 1970-1971-ci illər	86143	65326	11458	5594	480	910	84	420	1373	498
1974-1975	97673	76447	10844	6404	500	1173	131	525	1107	540
1976-1977	100215	80091	10186	6119	431	741	114	414	1286	833
1978-1979	103699	83785	9173	6756	394	1269	92	470	1099	663
1984-1985	107958	91058	6885	6167	227	1935	79	377	678	552
1984-1985-ci illər 1970-1971-ci illərə nisbətən, %-lə	125,2	139,4	60,1	110,2	47,3	212,6	94,0	89,8	49,4	110,8
Orta ixtisas məktəb tələbələri 1970-1971-ci illər	70770	52539	9936	5269	485	1138	10	439	514	440
1975-1976	76315	60398	7383	5537	345	1268	13	438	524	409
1978-1979	79631	64898	6723	5152	331	1328	9	344	458	388

[200] Rəqəmlər müvafiq tədris məktəblərinin ilkin hesabatları əsasında müəllif tərəfindən hesablanmışdır.

1980-1981	79016	65286	6173	4834	233	1423	16	358	371	322
1984-1985	77914	66447	4810	3971	141	1648	10	268	262	357
1984-1985-ci illər 1970-1971-ci ilə nisbətən, %-lə	110,1	130,9	50,0	75,9	23,4	144,2	76,9	55,5	42,7	80,8

Həmin dövrdə istehsalın intensivləşməsi səviyyəsinin yüksəldilməsi və sosial-iqtisadi inkişafda başlıca məhsuldar qüvvə kimi, elmin rolunun artması ilə əlaqədar olaraq, respublikamızın elmi potensialı da əhəmiyyətli dərəcədə inkişaf edib çoxalmışdır. 1970-1985-ci illərdə respublikamızda elmlər doktorlarının sayı 56 faiz artaraq 625 nəfərdən 975 nəfərə, elmlər namizədlərinin sayı isə 1,8 dəfə artaraq 5,3 min nəfərdən 9,4 min nəfərə çatmışdır. Elmi işçilərin tərkibində elmi dərəcəsi olanların xüsusi çəkisi artaraq, 1970-ci ildəki 35,1 faizdən 1985-ci ildə 44,6 faizə qalxmışdır ki,[201] bu da həmin dövrdə Respublikamızda elmi işçilərin keyfiyyət tərkibinin və quruluşunun əhəmiyyətli surətdə inkişaf edib dəyişdiyini göstərir.

Respublikamızda elmi kadrların hazırlanmasında Milli Elmlər Akademiyası mühüm rol oynayır. 2002-ci ilin məlumatlarına əsasən respublikamızın elmi potensialının 24,6 faizi, o cümlədən elmlər doktorlarının 28,9 faizi, elmlər namizədlərinin isə 22,0 faizi burada cəmlənmişdir.

1969-1982-ci illərdə Azərbaycan Elmlər Akademiyasında çalışan işçilərin sayı 1,9 dəfə artaraq, 7892 nəfərdən 15072 nəfərə, o cümlədən elmi işçilərin sayı 45,6 faiz artaraq, 3431 nəfərdən 4995 nəfərə, elmlər doktorlarının sayı 1,5 dəfədən çox artaraq, 188 nəfərdən 285 nəfərə, elmlər namizədlərinin sayı isə 1,6 dəfədən çox artaraq, 1275 nəfərdən 2068 nəfərə çatmışdır. Bu illərdə respublikamızda aspirantura təhsilinə də qayğı və diqqət xeyli yüksəlmiş və bu sahədə xeyli irəliləyişlər baş vermişdir. Belə ki, əgər 1969-cu ildə Elmlər Akademiyası İnstitutlarının aspiranturasını bitirənlərin cəmi 22 faizi dissertasiya işlərini vaxtında tamamlayıb müdafiə etmiş və ya müdafiəyə təqdim et-

[201] *Ş.M.Muradov.* Göstərilən kitabı, s. 101-102; Azərbaycanın statistik göstəriciləri. 2000. Bakı, 2001, s. 146.

mişlərsə, 80-ci illərin əvvəllərində bu göstərici artaraq 30,8 faizə qalxmışdı. Təkcə 1982-ci ildə Azərbaycan Elmlər Akademiyasının İnstitutlarında 159 namizədlik və 20 doktorluq dissertasiyası müdafiə edilmişdir. Bütünlükdə götürüldükdə isə 1970-1982-ci illərdə respublikamızda 265 elmlər doktoru və 3141 elmlər namizədi hazırlanmışdır. Bu dövrdə respublikada Elmlər Akademiyası İnstitutlarının aspiranturasını və ali təhsil ocaqlarını bitirmiş istedadlı və elmə marağı olan gənclərin Akademiyaya işə qəbul edilməsinə də xeyli diqqət və qayğı göstərilmişdir. Bunun hesabına burada çalışanların tərkibi nisbətən cavanlaşmış və onların elmi fəallığı əhəmiyyətli dərəcədə yüksəlmişdir. Belə ki, əgər 1976-cı ildə Akademiyanın İnstitutlarına ali məktəbləri və istehsalatdan ayrılmaqla aspiranturanı bitirmiş 131 nəfər gənc mütəxəssis işə qəbul edilmişdirsə, 1982-ci ildə onların sayı 208 nəfəri ötüb keçmişdir.

1970-1985-ci illərdə əhalinin təhsil səviyyəsinin yüksəldilməsi və ixtisaslı kadrların hazırlanması sahəsində aparılan uğurlu və ardıcıl siyasətin nəticəsində bu günkü müstəqil Azərbaycanın inkişafı üçün qüdrətli kadr və əmək potensialının yaranmasının əsası qoyulmuş, onun əmək potensialının intellektual inkişaf səviyyəsinin yüksəlməsinə, keyfiyyət tərkibi və quruluşunun dəyişib təkmilləşməsinə səbəb olmaqla onların əmək fəallığının artmasına zəmin yaranmışdır. Bunu ondan görmək olar ki, 2003-cü ilin əvvəlinə olan statistik məlumatlara əsasən müəyyən edilmişdir ki, respublikamızda yaşayan 15 və yuxarı yaşda olan 5947,9 min nəfər əhalinin 1427,5 min nəfərini və ya 24,0 faizini ali və orta ixtisas təhsili olanlar, o cümlədən 713,7 min nəfərini və ya 12,0 faizini ali və natamam ali, 713,7 min nəfərini və ya 12,0 faizini isə orta ixtisas təhsili olanlar, 3099 min nəfərini və ya 52,1 faizini ümumi orta, 892,2 min nəfərini və ya 15,0 faizini isə natamam orta təhsili olanlar təşkil etmişlər.

2002-2003-cü tədris ilində respublikamızın bütün tədris məktəblərində oxuyanların sayı 1918 min nəfər, o cümlədən ümumi təhsil məktəblərində – 1709 min nəfər, peşə məktəbləri və litseylərdə – 21 min nəfər, orta ixtisas təhsili məktəblərində 51 min nəfər, ali təhsil məktəblərində isə 120 min nəfər təşkil etmişdir. Qeyd edilən dövrdə dövlət ali təhsil məktəblərində

oxuyanların sayı 101,7 min nəfər, orta ixtisas məktəbəlrində isə 50,3 min nəfər olmuşdur. Həmin il dövlət ali təhsil məktəblərini 23,0 min nəfər, orta ixtisas məktəblərini isə 12,4 min nəfər mütəxəssis bitirmişdir. 2002-ci ildə respublikamızda elmi tədqiqat və işləmələri yerinə yetirən işçilərin sayı 27030 nəfəri, o cümlədən əsas fəaliyyətlə məşğul olan işçilərin sayı 16019 nəfəri, elmlər doktorlarının sayı 1470 nəfəri, elmlər namizədlərinin sayı isə 8231 nəfri ötüb keçmişdir.[202] Respublika təşkilatlarında elmi-tədqiqat və işləmələri yerinə yetirən bütün işçilərin 6220 nəfəri və ya 23,1 faizi, o cümlədən elmi işçilərin 3632 nəfəri və ya 22,8 faizi, elmlər doktorlarının 430 nəfəri və ya 29,0 faizi, elmlər namizədlərinin 1806 nəfəri və ya 21,9 faizi isə Azərbaycan Milli Elmlər Akademiyasının payına düşür. 2002-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının bütün idarə və təşkilatlarında çalışan işçilərin sayı 8851 nəfər olub, respublikanın dövlət sektorunda işləyənlərin (1202,0 min nəfərin) cəmi 0,7 faizini təşkil etmişdir. Həmin işçilərin 4313 nəfəri elmi işçilər (43,1%-i), 446 nəfəri elmlər doktorları (6,9%-i), 1932 nəfəri isə elmlər namizədləridir (21,8%-i).[203] İndi respublika alimlərinin 58 nəfəri Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvləri (akademikləri), 137 nəfəri isə müxbir üzvləridir. Onların müvafiq olaraq 27 və 89 nəfəri 2001-ci ilin iyunun 29-da Milli Elmlər Akademiyasına seçkilər vaxtı həmin adlara layiq görülmüşlər.

Bütün bu yuxarıda deyilənlər, hazırda respublika əhalisinin nə qədər yüksək intellektual inkişaf səviyyəsinə malik olduğunu səciyyələndirən göstəricilərdir. Respublika əhalisinin belə yüksək intellektual inkişaf səviyyəsinə malik olmasının nəticəsidir ki, hələ 1970-1985-ci illərdə burada ictimai istehsala cəlb edilmiş fəhlə, qulluqçu və kolxozçuların orta illik sayı 813 min nəfər və yaxud 1,5 dəfə artaraq, 2360 min nəfərə çat-

---

[202] Azərbaycanın statistik göstəriciləri. 2000. Bakı, Səda nəşriyyatı, 2000. s. 48, 121; Yenə orada, 210, 222, 225, 223, 226, 230; Yenə orada 222, 225.
[203] AMEA-nın 2002-ci ildəki fəaliyyəti haqqında hesabat. Bakı, «Elm», 2003, s. 135; Xalqa həsr olunmuş illər. Bakı, 2003, s. 401.

mışdır.[204] Ancaq 70-80-ci illərin əvvəllərində respublikamızda əmək potensialından səmərəli istifadə olunmasına, onların məşğulluq səviyyəsi və quruluşunda baş verən bütün müsbət dəyişikliklərə baxmayaraq, burada əhalinin işlə təmin edilməsi məsələsi hələ də çox mürəkkəb və mühüm sosial-iqtisadi vəzifə olaraq öz həllini gözləyir.

3.2. AZƏRBAYCANDA ƏHALİNİN MƏŞĞULLUQ SƏVİYYƏSİ VƏ DİNAMİKASI [XX]

Hər bir ölkədə əhalinin məşğulluq səviyyəsi ***əvvəla***, onun malik olduğu əmək qabiliyyətli əhalisinin ölkənin qanunvericiliyinə zidd olmayan, onların hamısınınmı, yoxsa müəyyən bir hissəsininmi cəmiyyət üzvlərinin şəxsi və ictimai tələbatlarının ödənilməsi ilə bağlı olan və bir qayda olaraq, onlara qazanc (əmək gəliri) gətirən hər hansı bir fəaliyyət dairəsində işləməsini, ***ikincisi*** həmin fəaliyyət dairələrində müxtəlif siniflərə, sosial qruplara məxsus olan əhalinin iştirakının nə səviyyədə olmasını göstərir.

Məlum olduğu kimi, məşğulluq həmişə hər bir istehsal üsulunun başlıca iqtisadi münasibətlərini təşkil edən istehsal amillərinin - istehsal vasitələri ilə iş qüvvəsinin birləşməsinin tarixi üsullarının xüsusiyyətlərini özündə əks etdirən sosial-iqtisadi prosesdir. O, ictimai əmək bölgüsü ilə bağlı olub, bütün ictimai-iqtisadi quruluşlara xas olan iqtisadi anlayışdır. Bu ictimai-iqtisadi formasiyalarda cəmiyyət üzvlərinin əmək prosesində məşğul olmaları əhalinin əmək ehtiyatlarına aid hissəsinin mühüm iqtisadi məzmununu təşkil edir. Məcmu iş qüvvəsi isə istehsal vasitələri ilə birləşməsi prosesində adamların məşğul olmasının maddi zəmini, onun maddi əsası kimi çıxış edir. K.Marksın yazdığı kimi: «... Müəyyən bir istehlak dəyərlərinin xam material, əmək vasitəsi və ya məhsul kimi meydana çıx-

---

[204] Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin «Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti». Bakı, 2001, s. 26.

[XX] Kitabın bu bölməsinin 3.2 və 4-cü hissələri i.e.n. Rövşən Muradovla birlikdə yazılmışdır.

ması, tamamilə onun əmək prosesində daşıdığı müəyyən funksiyadan, burada tutduğu yerdən asılıdır və bu yer dəyişildikdə, onun vəzifələri də dəyişir.

Buna görə də məhsullar yeni əmək prosesinə istehsal vasitələri kimi daxil olduqda, öz məhsul xarakterini itirir. Məhsullar burada canlı əməyin ancaq maddi amilləri olur».[205]

Bütün cəmiyyətlərdə iş qüvvəsinə, mövcud iş yerlərinə, əmək məhsuldarlığının səviyyəsi və sosial-iqtisadi münasibətlərə olan tələb əmək prosesində tətbiq edilən maşın, avadanlıq və sair istehsal vasitələrindən asılıdır.

Əhalinin məşğulluğunun bu maddi zəminləri, onların inkişaf istiqamətləri və səviyyələri, habelə istifadə edilməsinin sosial-iqtisadi nəticələri bu zəminin təkrar istehsalı prosesinin həyata keçirildiyi ictimai-iqtisadi şəraitdən asılıdır və onunla müəyyən edilir. Buna görə də, əhalinin məşğulluğunun fəaliyyət göstərməsinin maddi əsasını təşkil edən maddi-texniki baza həmişə öz inkişafında sosial-iqtisadi münasibətlərin və hakim istehsal üsulunun təsirinə məruz qalır. K.Marksın dediyi kimi, hər bir ictimai-iqtisadi formasiyada insan cəmiyyətinin təkrar istehsalının tələbi əməyi hərəkət formasından predmet formasına keçirməklə işləməkdən ibarətdir. Bundan o tərəfdə «*...insan qüvvəsinin müstəqil bir məqsəd olan inkişafı, həqiqi azadlıq səltənəti başlanır, lakin bu yalnız özünün bazisi olan həmin zərurət səltənəti üzərində coşqun tərəqqi edə bilər*».[206] Bu bazisin möhkəmliyi isə orta şəraitdə maddi nemətlər istehsalında funksional rol oynayan başlıca məhsuldar qüvvələrin – əmək ehtiyatlarının sayından, keyfiyyət tərkibindən və onların əməyindən cəmiyyətin məqsədi üçün nə dərəcədə tam və səmərəli istifadə edilib-edilməməsindən asılıdır. Çünki maddi nemətlər istehsalının zəruri ünsürü olan əmək ehtiyatları yalnız əmək prosesində iştirak etdikdə, istehsal vasitələri ilə birləşdikdə, həqiqi sərvətə çevrilir, maddi nemətlərin istehsalçısı, onun həqiqi ünsürü olur. Başqa sözlə desək, **əmək ehtiyatları yalnız əmək prosesində fəaliyyət göstərməklə, cəmiyyət üçün müəyyən bir fay-**

---

[205] *K.Marks.* Kapital. I cild. Bakı, 1969, s.188.
[206] *K.Marks.* Kapital. III cild. Bakı, 1969, səh.877.

dalı əmək dairəsində məşğul olmaqla ölkənin sosial-iqtisadi tərəqqisinə fəal təsir edə bilər.

Hər bir ictimai-iqtisadi formasiyada mövcud əhali ilə onun ictimai istehsalda iştirakı dərəcəsi arasında müəyyən əlaqə vardır və məşğulluq həmişə müəyyən sosial-iqtisadi formada çıxış edir. O, ictimai istehsalda insanlar arasında cəmiyyətdə mövcud olan iş yerləri üzrə münasibətləri əks etdirən iqtisadi, ümumtarixi bir kateqoriya olmaqla istehsal vasitələri üzərindəki mülkiyyət forması və hakim istehsal münasibətlərinin xarakteri ilə müəyyən edilir.

Cəmiyyətin başlıca məhsuldar qüvvələrini təşkil etməklə əmək qabiliyyətli əhalinin tam və səmərəli məşğulluğunun təmin edilməsi **bütün sivil ölkələrdə dövlətin qarşısında duran ən mühüm vəzifələrdən biri hesab edilir.** Lakin sovet ictimai-iqtisadi ədəbiyyatlarında 30-cu illərdən başlayaraq, məşğulluq probleminin tamamilə həll edildiyi, işsizliyin bir sosial bəla kimi ləğv olunduğu iddia edilir, «iş qüvvəsi əmtəəsi», «əmək bazarı» və «işsizlik» anlayışlarının isə yalnız kapitalizm cəmiyyətinə xas olduğu və sosializm cəmiyyəti ilə heç bir əlaqəsi olmadığı «elmi cəhətdən əsaslandırılaraq» sübuta yetirilirdi. Təsadüfi deyildir ki, 50-ci illərin axırlarınadək sovet iqtisadi ədəbiyyatlarında və rəsmi dövlət sənədlərində, hətta «əmək ehtiyatları» anlayışı sözünün özünə belə rast gəlinmirdi. Bu anlayışın ilk dəfə olaraq, hələ 1922-ci ildə akademik S.Q.Strumilin tərəfindən işlədilməsinə baxmayaraq (o, əmək ehtiyatları dedikdə, ölkənin və ya xalqın 16-49 yaşlı əhalisini başa düşürdü)[207], yuxarıda deyildiyi kimi keçmiş SSRİ-nin iqtisadi ədəbiyyatlarında və dövlət sənədlərində o, yalnız 1966-cı ildə keçmiş ittifaqda əmək ehtiyatlarından istifadə edilməsi üzrə «**Dövlət əmək komitəsinin**» yaradılması ilə bağlı olaraq işlədilməyə başlanmışdır. **50-ci illərin sonu, 60-cı illərin birinci yarısınadək** sovet iqtisadi ədəbiyyatında «əmək ehtiyatlarına» yalnız kəmiyyət nöqteyi-nəzərdən, yəni statistik-demoqrafik (əhalinin yaş-cins tərkibi) aspektlərindən yanaşılır

---

[207] Bax: *С.Г.Струмилин.* Проблемы экономики труда. Избр. произведения. М., 1964, т.3, с. 25-34.

yanaşılır və ona işləmək qabiliyyəti yaşında olan fərdlərin məcmusu kimi baxılırdı.

Sovet iqtisadi ədəbiyyatında «Əmək ehtiyatlarına» bir iqtisadi kateqoriya kimi baxış isə yalnız 60-cı illərin ikinci yarısı və 70-ci illərin əvvəllərinə təsadüf etmişdir. Bunun ən mühüm səbəblərindən biri həmin dövrədək «əmək ehtiyatları» kateqoriyasının müəyyən edilməsinə dair metodologiyanın olmaması idi. Bu sahədə ilk mühüm tədqiqatlar 1959-1970-ci illərdə araşdırılmağa başlamış və sonrakı illərdə daha geniş vüsət almışdır. Bu əsərlərdə sosializm cəmiyyəti şəraitində əmək ehtiyatları, iş qüvvəsinin təkrar istehsalı və əhalinin məşğulluğunun mühüm nəzəri-metodoloji və praktiki aspektləri hərtərəfli tədqiq edilib öyrənilmişdir.[208] Bu əsərlərin müəlliflərinin əksəriyyəti əhalinin tam məşğulluğunun təmin edilməsinin istehsal vasitələri üzərində ictimai mülkiyyətin hakim olduğu, iş qüvvəsi ilə istehsal vasitələrinin planauyğun qaydada birləşdiyi **planlı** sosialist təsərrüfatı şəraitində mümkün olduğunu iddia edir və göstərirdilər ki: «Bütünlükdə əmək qabiliyyətli əhalinin **tam məşğulluğu** – sosialist xalq təsərrüfatı sisteminin xarakterik cəhətidir».[209]

Keçmiş SSRİ-də məşğulluq problemlərinin tədqiqi ilə məşğul olmuş iqtisadçıların bir çoxu **məşğulluq** dedikdə, bütünlükdə əmək qabiliyyətli əhalinin işlə, ictimai istehsalın müxtəlif sahələri və dairələrində və ya ictimai faydalı fəaliyyətlə təmin

---

[208] B a x: *М.Я.Сонин.* «Воспроизводство рабочей силы в СССР и баланс труда». М., 1959; *М.Я.Сонин.* «Актуальные проблемы использования рабочей силы в СССР». М., 1965; *А.Я.Котляр.* Рабочая сила в СССР. М., 1967; «Экономика труда в СССР (колл. труд)», М., 1965; *П.П.Литвяков.* «Научные основы использования трудовых ресурсов». М., 1969; *M.M.Allahverdiyev.* «Azərbaycanda iş qüvvəsinin təkrar istehsalının bəzi məsələləri». Bakı, 1967; *П.О.Косяков.* «Трудовые ресурсы. Экономическая категория». Свердловск. 1970; *И.Г.Подзячих.* «Население СССР». М., 1961; *П.Ю.Писарев.* «Население и труд в СССР». М., 1966; *Е.С.Русанов.* «Распределение и использование трудовых ресурсов». М., 1971; *В.Г.Костаков, П.П.Литьяков.* Баланс труда. М., 1970; *В.Г.Костаков.* «Прогноз занятости населения: методологические основы». М.,1979; *Рузавина Е.И.* «Занятость в условиях интенсификации производства». М., 1975; «Трудовые ресурсы: формирование и использование». М., 1975; «Воспроизводство рабочей силы и повышение эффективности использования трудовых ресурсов». МГУ, 1971; *Чембровский В.В.* «Проблемы занятости в соц. обществе». Кишинев. 1973 və başqaları.

[209] B a x: Воспроизводство рабочей силы и повышение эффективности использования трудовых ресурсов. МГУ. 1971, с.162; *Г.А.Пруденский.* «Время и труд». М., 1964, с.121 və başqaları.

edilməsini, əmək qabiliyyətli əhalinin ictimai təsərrüfatda, şəxsi yardımçı və ev təsərrüfatında, habelə başqa növ faydalı əmək dairəsində, məsələn, təhsildə məşğul olmalarını nəzərə alaraq, **tam məşğulluq** dedikdə – **birincisi, əmək qabiliyyətli əhalinin ictimai təsərrüfatda tam məşğulluğunu və ikincisi,** əmək qabiliyyətli əhalinin ictimai faydalı əməklə **tam məşğulluğunu** başa düşürdülər.[210] Onu da qeyd etmək lazımdır ki, uzun illər boyu əhali və əmək problemləri ilə məşğul olmuş keçmiş sovet iqtisadçı alimləri arasında **«məşğulluq»**, **«tam», «səmərəli»** və **«optimal» məşğulluq** anlayışlarının müəyyən edilməsi sahəsində vahid fikir birliyi olmamışdır. Məsələn, prof. E.İ.Ruzavina məşğulluğa istehsalın əşya amilləri ilə əmək qabiliyyətli əhali arasındakı uyğunluq kimi baxaraq, yazırdı ki: «Məşğulluq özündə əhalinin aktiv hissəsinin cəmiyyətin mövcud spesifik sosial-iqtisadi formalarındakı yığım prosesində istehsalın əşya amillərinə nisbətən hərəkətini özündə əks etdirir».[211] Burada müəllif haqlı olaraq, məşğulluq prosesinin istehsalın əşya amilləri və yığım prosesi ilə qarşılıqlı əlaqədə olduğunu sübut etməyə cəhd göstərir, lakin onu lazımi dərəcədə elmi surətdə əsaslandırmağa nail olmur. Başqa bir iqtisadçı alimin – V.V.Çembrovskinin fikrincə isə: «... məşğulluq – əşyalara, təbiətə, bir-birinə olan nə təbii, nə də texniki münasibətlər deyil, əməkdə iştirak etmək üçün cəmiyyət üzvləri arasında onların məcmu işçidə və istehsal vasitələri ilə birləşmələri üzrə istehsal münasibətləri, iqtisadi münasibətlərdir».[212] Burada müəllif istehsal münasibətlərinə məşğulluq münasibətləri ilə bir səviyyədə baxır ki, bununla da razılaşmaq olmaz. Çünki istehsal münasibətləri məşğulluğun formalaşması amilidir. **Bizim fikrimizcə**, məşğulluq anlayışının tərifi V.K.Kostakovun «Əhalinin məşğulluğunun proqnozlaşdırılması» əsərində daha düzgün verilmişdir. Həmin əsərdə deyilir ki, «əhalinin məşğulluğu müxtəlif əhali qruplarının müxtəlif ic-

---

[210] B a x: Воспроизводство рабочей силы и повышение эффективности использования трудовых ресурсов. МГУ, 1971, с.152.

[211] B a x: *Рузавина Е.И.* «Занятость в условиях интенсификации производство». М., «Статитика», 1975, с.9.

[212] *Чемборовский В.В.* «Проблемы занятости в социалистическом обществе». Кишинев, 1973, с. 9-10.

timai faydalı fəaliyyət dairələrində – ictimai istehsalda, təhsildə və fərdi təsərrüfatda (ev və ya şəxsi yardımçı) ictimai əmək bölgüsünə əsaslanan sosial-iqtisadi əmək tətbiqi prosesini əks etdirir».[213]

Məlum olduğu kimi, tarixi inkişafın müxtəlif mərhələlərində bütünlükdə keçmiş SSRİ-də olduğu kimi, respublikamız da özünün müəyyən məşğulluq formalarına malik olmuş və malikdir. Bu məsələ əsərin bundan əvvəlki hissəsində ətraflı şərh edildiyindən onların üzərində dayanmağı lazım bilmirik. Ancaq təkcə bunu demək istərdik ki, keçmiş SSRİ vaxtında ölkəmizdəki əsas məşğulluq forması ictimai faydalı fəaliyyətdəki məşğulluq sayılırdı. Məşğulluğun həmin formasından çıxış edərək, keçmiş ittifaqda əmək problemlərinin tədqiqi sahəsində ən nüfuzlu iqtisadçı alim sayılan prof. M.Y.Sonin keçmiş ittifaqın iqtisadçı alimləri arasında ilk dəfə olaraq yazmışdır ki: «... nəzərə alsaq ki, ictimai faydalı əməklə məşğul olanlar təkcə fəhlələr, qulluqçular, şəxsi yardımçı təsərrüfatda işləyən kolxozçular deyil, həm də onların ailə üzvləri, habelə ev təsərrüfatında və uşaqların tərbiyəsi ilə məşğul olanlar, əmək qabiliyyəti olmayan ailə üzvlərinə qulluq edənlər, istehsalatdan ayrılmaqla təhsil alanlar və hərbi xidmətçilər də daxildir, onda bu mənada sosializmdə tam məşğulluğa nail olunmasını sübut etməyə ehtiyac qalmır... Məşğul olanlar kateqoriyasına (bu anlayışı geniş mənada izah etdikdə) biz başqa ailə üzvləri tərəfindən «pulla» yerinə yetirilən işlərə kömək eləyib-eləməməsindən asılı olmayaraq, ev işlərinin yerinə yetirilməsi və uşaqların tərbiyəsi ilə məşğul olan əmək qabiliyyətli adamları, habelə şəxsi yardımçı kənd təsərrüfatında işləyən əmək qabiliyyətli əhalini (bir qayda olaraq bu məşğuliyyəti ev təsərrüfatı işlərinin görülməsi ilə əlaqəli şəkildə yerinə yetirən) və nəhayət, təhsildə məşğul olanları (əgər onlar eyni vaxtda əmək haqqı almırlarsa, daha doğrusu, onlar «istehsalatdan ayrılmaqla» oxuyurlarsa) daxil edirik.»[214] M.Y.Soninin fikrincə, bütünlükdə cəmiyyət miqyasında götü-

---

[213] B a x: *Костаков В.Г.* «Прогноз занятости населения». М., 1979. с.5.

[214] B a x: *М.Сонин.* «Актуальные проблемы использования рабочей силы в СССР». М., 1965, с. 95.

rüldükdə, «tam və ya natamam məşğulluq», **əvvəla**, məşğul olan əmək qabiliyyətli əhalinin bütünlükdə əmək qabiliyyətli əhali arasındakı xüsusi çəkisini və **ikincisi**, əmək qabiliyyətli əhalinin ictimai faydalı əməkdə məşğulluğunun dinamik dərəcəsini müəyyən edir.[215]

Ümumiyyətlə götürüldükdə, keçmiş ittifaq iqtisadçılarının bir çoxlarının əsərlərində (M.Y.Sonin, A.E.Kotlyar, V.A.Boldırev və başqaları) **tam məşğulluq dedikdə**, **bir halda** əmək qabiliyyətli əhalinin ictimai faydalı əməklə məşğul olması, **digər halda** isə əmək qabiliyyətli cəmiyyət üzvlərinin ictimai əmək dairəsində işə olan tələbinin ödənilməsi başa düşülürdü.[216] Digər bir qrup iqtisadçıların (V.K. Kostakov, P.P.Litvyakov, V.A.Şerenko və başqaları) əsərlərində tam məşğulluq anlayışı bir halda əmək qabiliyyətli əhalinin yalnız ictimai istehsal bölməsindəki məşğulluğu kimi,[217] digər halda əmək qabiliyyətli əhalinin işlə tələbatı və bu tələbatı ödəmək üçün iş yerlərinin miqdarı aşağıdakı nisbət kimi izah edilirdi.[218]

Bu deyilənlər müəyyən dərəcədə əhalinin «səmərəli» və «optimal» məşğulluğunun müəyyən edilməsinə də aid idi. Məsələn, A.E.Kotlyar və E.İ.Ruzavinanın fikrincə, məşğulluğun səmərəliliyi dedikdə, tarazlıq əlaməti, yəni bütün kəmiyyət və keyfiyyət göstəriciləri üzrə işləmək arzusu ilə mövcud iş yerləri arasındakı uyğunluq və tarazlığın olması başa düşülürdü.[219] ***Halbuki, bizim fikrimizcə***, səmərəli məşğulluq zamanı heç də həmişə nə əhalinin iş yerlərinə olan tələbi ödənilmir, nə də belə

---

[215] B a x: *M.Сонин.* «Актуальные проблемы использования рабочей силы в СССР». M., 1965, c. 95..

[216] B a x: «Занятость населения, изучение и регулирование». M., 1983, M., 1973; *А.Е.Котляр, С.Я.Турчанина.* «Занятость женщин и производстве». M., 1975; B.A.Болдырев. «Экономический закон народонаселения при социализме». M., 1968.

[217] B a x: *В.Г.Костаков, П.П.Литвяков. «Баланс труда». M., 1970, c.25; Шеренко В.А.* «Экономический закон народонаселения при социализме и проблемы использования трудовых ресурсов». Саратов, 1972, c.112.

[218] B a x: *П.П.Литвяков.* «Научные основы использования трудовых ресурсов». M., 1969, c.21; B.Г.Костаков. «Прогноз занятости населения. Методологические основы». M., 1979, c. 7-8.

[219] B a x: *Котляр А.Я., Рузавина Е.И.* «Трудовые ресурсы СССР». M., 1979, c.139.

bir tələb irəli sürülmürdü. M. İ. Dolişniyə görə: «optimal» məşğulluq dedikdə, işçi əhali ilə məşğulluq vasitələri arasında elə uyğunluq yaradılması nəzərdə tutulurdu ki, bu, əmək və istehsal potensialından daha tam istifadə edilməsini təmin edə bilsin.[220] Bu barədə, M. V. Kurmanın mövqeyinə gəldikdə isə, onun fikrincə, optimal məşğulluq çox mürəkkəb kateqoriya olub, ona müxtəlif səpgilərdən, daha doğrusu, sosial-hüquqi, sosial-iqtisadi, sosial-demoqrafik, sosial-estetik, sosial-psixoloji və sosial-etik səpgilərdən baxılmasını tələb edir. Bu səpgiləri ayrı-ayrılıqda izah etdikdən sonra o, belə bir nəticəyə gəlirdi ki, optimal məşğulluğun bütün bu təzahür formalarında onu iki cəhətdən **kəmiyyət** və **keyfiyyətcə** xarakterizə etmək olar. **Kəmiyyət** tərəfi dedikdə, əmək qabiliyyətli əhalinin tam məşğulluğu, **keyfiyyət** tərəfi dedikdə isə, bu məşğulluğun səmərəlilik dərəcəsi başa düşülürdü.[221] Bizə belə gəlir ki, müəllif «optimal» məşğulluq anlayışının sosial-iqtisadi mahiyyətini dürüst müəyyənləşdirə bilməmiş və bu optimallığın nədən ibarət olduğunu və onun hansı göstəricilərlə müəyyən edilməsi barədə də heç nə deyə bilməmişdir. **Fikrimizcə, əhalinin optimal məşğulluğa səmərəli məşğulluğun ən yüksək mərhələsi, inkişaf etmiş forması kimi baxanlar daha haqlıdırlar.**[222]

Bütün bu deyilənləri yekunlaşdırsaq, belə nəticəyə gələ bilərik ki, ölkə miqyasında əhalinin «tam», «səmərəli» və «optimal» məşğulluğunu o vaxt səmərəli hesab etmək olar ki, qeyd edilən proseslərin həyata keçirilməsi nəticəsində, əvvəla, ictimai əməyin məhsuldarlığının artırılması əsasında əhalinin həyat səviyyəsinin yüksəldilməsi təmin edilsin; ikincisi, işləmək arzusunda olan bütün əmək qabiliyyətli əhali müvafiq iş yerləri ilə təmin olunsun və nəhayət, üçüncüsü, əhalinin normal təkrar istehsalı prosesinin həyata keçirilməsi mümkün olsun.

Ancaq nədənsə bəzi iqtisadçılar belə güman edirlər ki, ***guya bazar iqtisadiyyatı münasibətlərinə keçid kütləvi işsizlik doğurduğundan, əhalinin tam məşğulluğunun təmin edilməsi məq-***

---

[220] *М.И.Долишний.* Формирование и использование трудовых ресурсов. Киев, 1972, вып. 6-7, с. 185-186.

[221] «Демографические тетради». Киев, 1972, вып. 6-7, с. 185-186.

[222] B a x: *Ş.M.Muradov.* Göstərilən monoqrafiyası, s. 206-207.

sədindən əl çəkilməlidir. Halbuki, bazar iqtisadiyyatı cəhətdən inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, həmin dövlətlərdə əhalinin tam məşğulluğunun təmin edilməsi əmək münasibətləri dairəsində müasir dövrün ümumbəşəri dəyərindən biri hesab edilir. Əlbətdə, heç şübhəsiz ki, bazar iqtisadiyyatı münasibətlərinin bərqərar olduğu şəraitdə, əhalinin ***tam məşğulluğu*** anlayışının məzmunu son vaxtlaradək sovet iqtisadi ədəbiyyatında özünə geniş yer tutmuş məzmunundan köklü surətdə fərqlənir.

Bazar iqtisadiyyatı şəraitində əhalinin tam məşğulluğuna əmək qabiliyyətli əhalinin maksimum ictimai istehsala cəlb edilməsi kimi deyil, əmək və təhsil hüququ ilə birlikdə ictimai istehsalda işləmək arzusu və ehtiyacı olanların işlə təmin edilməsi üzrə vətəndaşlar qarşısında dövlət vəzifəsini özündə əks etdirən bir hal kimi baxılmalıdır. Başqa sözlə desək, bu zaman məşğulluq əmək qabiliyyətli əhalinin o hissəsinə aid edilir ki, onlar əmək bazarında iştirak edirlər, yəni ənənəvi olaraq muzdla işləyirlər.

Bazar münasibətləri şəraitində tam məşğulluq anlayışı və məşğulluq siyasətinin məzmununun və prinsiplərinin yeni tərzdə dərk edilməsi onların həyata keçirilməsi üçün adekvat mexanizmin olmasını və məşğulluq siyasətinin maksimum dərəcədə işsizliyin qarşısının alınmasına və deməli, məşğulluğun mümkün dərəcədə tam və səmərəli olmasının təmin edilməsinə yönəldilməlidir. Bu isə, ilk növbədə, respublikamızda mövcud olan əmək qabiliyyətli əhalinin məşğulluq səviyyəsinin müəyyən edilməsini tələb edir.

Məlum olduğu kimi, sovetlər dövründə bütünlükdə keçmiş SSRİ-də olduğu kimi, Azərbaycan Respublikasında da **məşğulluq səviyyəsi** – ictimai istehsala və istehsalatdan ayrılmaqla təhsilə cəlb edilmiş əmək qabiliyyətli əhalinin sayını mövcud əmək ehtiyatlarının sayına bölməklə müəyyən edilirdi. Həmin dövrdə fəaliyyət göstərən və keçmiş SSRİ Nazirlər Soveti tərəfindən qəbul edilmiş SSRİ MSİ və Dövlət Plan Komitəsinin metodik göstəricilərinə əsasən, rəsmi dövlət sənədlərində və sosial-iqtisadi planlaşmada əmək ehtiyatlarına aşağıdakı əhali qrupları daxil edilirdi: [xx] a). işləməyən I və II qrup əmək və mü-

---

[xx] 1920-1930-cu illərdə keçmiş SSRİ-də əhalinin əmək fəaliyyətinə başlaması həddi kişilər və qadınlar üçün fərq qoyulmadan 18-48 yaş olaraq müəyyənləşdirilmiş və 1940-cı ilin oktyabrında təşkil edilmiş ehtiyat əmək qüvvələri sistemi vasitəsilə 14-15 yaşlı yeniyetmələrdən hazırlanan çoxlu fəhlə kadrları da əmək ehtiyatlarının tərkibinə

haribə əlilləri; müəyyən güzəştlər və qocalığa görə təqaüd aldığından işləməyən 50-59 yaşında kişilər və 45-54 yaşında qadınlar istisna olmaqla əmək qabiliyyəti olan 16-59 yaşında kişilər və 16-54 yaşında qadınlar; b). dövlət müəssisələri və idarələrində, kooperativ və ictimai təşkilatlarda, habelə kolxozların ictimai təsərrüfatlarında işləyən 60 və yuxarı yaşında kişilər, 55 və yuxarı yaşında qadınlar və 16 yaşından kiçik yeniyetmələr.[223]

Qeyd edilən metodiki göstərişlərdən göründüyü kimi, keçmiş SSRİ-də bu və ya digər əhali qruplarının əmək ehtiyatlarının tərkibinə daxil edilməsində prinsip kimi onların müəyyən yaş həddinə və əmək qabiliyyətinə malik olması əsas götürülmüşdür.

Əhalinin məşğulluğunun təmin edilməsinə gəldikdə isə, yeganə yol bütün əmək qabiliyyətli əhalinin yalnız ictimailəşdirilmiş istehsal dairəsinə və istehsalatdan ayrılmaqla təhsilə cəlb edilməsi hesab olunurdu. Ancaq 80-ci illərin ikinci yarısından başlayaraq, bütünlükdə keçmiş ittifaqda, o cümlədən Azərbaycan Respublikasında iqtisadiyyatda yaranmış böhranlı vəziyyətlə əlaqədar olaraq, başqa problemlərlə yanaşı, əhalinin məşğulluğunun təmin edilməsi problemi də tam kəskinliyi ilə meydana çıxdı. Təsadüfi deyildir ki, SSRİ-nin dağılması ərəfəsində **əvvəlcə** 1990-cı ildə SSRİ miqyasında, sonra 1991-ci ilin ortalarında isə Azərbaycan Respublikasında əhalinin məşğulluğu haqqında Konstitutsiya Qanunları qəbul edildi. 1991-ci ilin 27 iyulunda qəbul edilmiş «Azərbaycan Respublikasında əhalinin məşğulluğu haqqında» Azərbaycan Respublikasının Qanunu 1995-ci ilin 12 noyabrında Ümumxalq Referendumu ilə qəbul edilmiş «Azərbaycan Respublikasının Konstitusiyası»na əsasən yenidən işlənib, lazımi dəyişikliklər edilməklə 2 iyul 2001-ci ildə «Məşğulluq haqqında» Azərbaycan Respublikasının Qanunu adlandırılmaqla yenidən qəbul edildi. Ancaq təəssüflər olsun ki, bu qanunda da irəli sürülən bir çox müddəalar

---

daxil edilirdi. 1956-cı ildən etibarən əmək ehtiyatlarının tərkibinə daxil edilən əmək qabiliyyətli əhalinin yaş həddi qadınlar üçün 16-54, kişilər üçünsə 16-59 yaş olaraq müəyyənləşdirilmişdir.

[223] B a x: Методические указания к разработке государственных планов развития народного хозяйства СССР. М., 1974, с. 366-367.

bazar iqtisadiyyatı cəhətdən inkişaf etmiş ölkələrdə mövcud olan müvafiq anlayışlara və Beynəlxalq Əmək Təşkilatlarının **«məşğul»** və **«işsiz»** əhali anlayışları ilə bağlı müddəalarına tam uyğun gəlmədiyindən, Azərbaycanın milli xüsusiyyətləri nəzərə alınmaqla onda yenə də müəyyən dəyişikliklər edilməsinə ehtiyac vardır. Respublikamız BƏT-na qəbul edildiyindən, bu, həm də əmək bazarında yaranmış vəziyyətin başqa ölkələrlə müqayisəli şəkildə öyrənmək üçün zəruridir. Belə ki, hazırda respublikamızda əmək ehtiyatlarının tərkibinə daxil edilən yaş həddi kişilər üçün 16-62, qadınlar üçünsə 16-57 yaş götürülürdüsə beynəlxalq aləmdə bu göstərici qadın və kişilərə fərq qoyulmadan 15-64 yaş olaraq qəbul edilmişdir.[224]

BƏT-nin tövsiyyələrinə əsasən əhalinin məşğulluq səviyyəsi müəyyən edilərkən, son vaxtlaradək bizim ölkədə olduğu kimi, **«ictimailəşdirilmiş istehsal dairəsində və istehsalatdan ayrılmaqla təhsilə cəlb edilmiş əmək qabiliyyətli əhalinin mövcud əmək qabiliyyətli əhaliyə nisbəti» kimi deyil, «Əhalinin ümumi sayında iqtisadi fəal əhalinin xüsusi çəkisi» göstəricisindən istifadə edilir. Həmin metodik tövsiyələrə əsasən «iqtisadi fəal əhali (iş qüvvəsi)» dedikdə, məhsul istehsalı və xidmət göstərilməsini təmin etmək üçün öz əməyini təklif edən hər iki cinsdən olan əhalinin bir hissəsi başa düşülür. İqtisadi fəal əhaliyə - müayinə aparılan anda mövcud olan məşğul əhali və işsizlər aid edilir.**

Əhalinin ölkəmizin qanunvericiliyinə zidd olmayan və yuxarıda deyildiyi qaydada onlara qazanc (əmək gəliri) gətirən hər hansı bir fəaliyyətdə məşğul olması onların yaşayış mənbəyi olub, ölkənin sosial əmin-amanlığının mühüm şərtlərindən biri sayılır. Buna görə də hazırda ölkəmizdə **əmək qabiliyyətli əhalinin işlə təmin edilməsi mühüm vəzifə kimi qarşıda durur.**

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası keçmiş SSRİ-də uzun illərdən bəri **əmək ehtiyatlarının ən sürətlə çoxaldığı regionlardan biri kimi fərqlənmiş və burada əmək ehtiyatlarının artımı, bir qayda olaraq, həmişə iş yerlərinin artımını üstələmişdir.** Bu səbəbdən də Azərbaycan Respublikası keçmiş

---

[224] B a x: Трудовые ресурсы и глобализация экономики. Отчет о мировом развитии – 1995. Всемирный Банк. С. VIII.

SSRİ-də əmək ehtiyatlarının ictimai istehsaldakı məşğulluq səviyyəsinin də ən aşağı olduğu ərazilərdən biri kimi diqqəti cəlb edirdi. Bununla belə, həmin dövrdə həm keçmiş İttifaqda, həm də Azərbaycan Respublikasında əmək qabiliyyətli əhalinin ictimai istehsala cəlb edilməsi, onların xalq təsərrüfatının müxtəlif sahələri arasında və onların daxilində bölüşdürülməsi prosesi qanunauyğun surətdə həyata keçirilmiş və ardıcıl xarakter daşıyaraq iqtisadiyyatın sahə və ərazi quruluşunun dəyişilməsinin obyektiv əsasını təşkil etmişdir.

Xalq təsərrüfatının dinamik və proporsional inkişafı əsasında əhalinin məşğulluq səviyyəsi və quruluşundakı dəyişikliklərə müxtəlif amillər, o cümlədən texniki tərəqqinin sürətləndirilməsi, maddi istehsal dairəsində əmək məhsuldarlığının yüksəldilməsi, habelə qeyri-maddi istehsal sahələrinin, xüsusilə mənzil-kommunal təsərrüfatı və əhaliyə məişət xidməti dairəsinin, maarif, mədəniyyət, incəsənət, elm və elmə xidmət sahələrinin sürətli inkişafı təsir etmişdir.

Sovet hakimiyyəti illərində respublikamızda məhsuldar qüvvələrin inkişaf etdirilib yerləşdirilməsindəki dəyişikliklər əhalinin məşğulluğunun yalnız sahə quruluşunun deyil, həm də onun ərazi quruluşunun dəyişməsinə səbəb olmuşdur. Lakin bütün bu müsbət dəyişikliklərə baxmayaraq, həmin illərdə respublika əhalisinin xeyli bir qismi işsiz olmuş və bu həmişə gizli saxlanmışdır. Çünki istehsal vasitələri üzərində ictimai mülkiyyətin hökm sürdüyü keçmiş SSRİ-də məşğulluq siyasəti ictimai istehsalatda əməyin hamı üçün məcburi olması, tam məşğulluq və ciddi standart iş rejimi əsasında qurulmuşdu. Bu isə, öz növbəsində, həm əmək motivlərinə, həm də onların məhsuldarlığına mənfi təsir göstərirdi. Bundan əlavə, tam məşğulluq siyasəti külli miqdarda «artıq» işçilərin meydana gəlməsinə səbəb olurdu. 60-80-ci illərdə keçmiş İttifaqda həmin artıq işçilərin (gizli işçilərin) sayı bir halda 10 milyon nəfər, digər halda 25 milyon nəfər kimi qiymətləndirilirdi. Qeyd etmək lazımdır ki, keçmiş SSRİ-də bu işsizlik daim gizli saxlanılmışdır. Çünki keçmiş İttifaqda ölkənin hər yerində olduğu kimi, Azərbaycan Respublikasında da dövlət səviyyəsində **«iş qüvvəsi əmtəəsi», «əmək bazarı», «iş qüvvəsi bazarı», «işsizlik»** və sair bu kimi

anlayışların yalnız kapitalist təsərrüfat sisteminə xas olan bir hadisə kimi qəbul edilib qiymətləndirilirdi.

Məlum olduğu kimi, Sovet hakimiyyəti quruculuğunun ilk illərində, yəni 20-ci illərdə keçmiş SSRİ-də ölkənin iqtisadiyyatı çoxukladlı təsərrüfat forması ilə xarakterizə edildiyindən bu zaman iqtisadi rıçaqlar və hüquqi normalar tələb və təklifə uyğun olaraq, iş qüvvəsinin azad surətdə hərəkəti üçün lazımi şərait yaradırdı. Ancaq 20-ci illərin sonu və 30-cu illərin əvvəllərində total planlı iqtisadiyyata keçidlə əlaqədar olaraq, xüsusi sahibkarlığın tamamilə ləğv edilməsi və kapitalist təsərrüfat formasının sıxışdırılması üçün tədbirlər görüldü və təsərrüfatçılıq siyasətində idarəçiliyin inzibati-amirlik metodları və sərt mərkəzləşmə kursu əsas götürüldü.

İctimai inkişafın bayağılaşdırılmasına əsaslanan və buna görə də əmtəə-pul münasibətlərinin və sahibkarlığının məhdudlaşdırılmasına yönəldilmiş iqtisadiyyatın inzibati-amirlik metod və formaları ilə idarə edilməsi ona gətirib çıxarmışdır ki, əmək bazarında dövlət iş qüvvəsinin yeganə istehlakçısı, alıcısı kimi çıxış edirdi. Bu isə dövlətə iş qüvvəsinin daşıyıcıları olan işçilərə öz şərtlərini qəbul etdirmək imkanı verməklə, işçilərin öz iş qüvvələrini onun dəyərindən xeyli aşağı qiymətə satmağa məcbur etmişdir. Bütünlükdə bu sistem məcburi əməyə, əməyin ölçüsü və istehlakın mərkəzləşdirilmiş qaydada müəyyən edilməsinə, hamılıqla dövlətə işləmək ideologiyasına əsaslanırdı.

Nəticədə, bu dövrdə əməyin ümumiliyi və ictimai təsərrüfat dairəsində əməyin məcburi prinsipləri eyniləşdirilmiş və bu səbəbdən də iş qüvvəsinin tədavülü dairəsində onun hərəkətinin spesifik amirlik sistemi formalaşmışdır. Belə ki, dövlət əmək bazarında iş qüvvəsinin yeganə alıcısı kimi çıxış etdiyindən, o, əmək qabiliyyətli bütün əhalinin işlə təmin edilməsi vəzifəsini öz üzərinə götürmüş və məşğulluq siyasəti elə qurulmuşdur ki, əhalinin ictimai istehsala cəlb edilməsi onun səmərəliliyinə zərər gətirdiyi şəraitdə belə, əmək qabiliyyətli adamların ictimai təsərrüfatda iş yerlərinə olan tələbi təmin edilmiş olsun. Bu zaman muzdlu əməyin istismarının imtina edilməsinə əsaslanan əməyin ümumiliyi prinsipi ümumi əmək mükəlləfiyyəti ilə, yəni məcburi əməklə əvəz edilmişdir. Bu səbəbdən də xüsusi qanunvericilik

aktları vasitəsilə ictimai əməklə məşğul olmayan əmək qabiliyyətli adamların tüfeyli və müftəxor kimi inzibati məsuliyyətə, cinayət məsuliyyətinə və başqa məsuliyyətlərə cəlb edilməsi halları qanuniləşdirilmişdir. Beləliklə, iş qüvvəsindən istifadə edilməsindəki dövlət inhisarına əhalinin hərəkətindəki inzibati məhdudluqların da əlavə edilməsi (pasport sistemi, işə düzəlməyin pasport qeydiyyatı ilə əlaqələndirilməsi, xüsusi düşərgələrdə saxlanan külli miqdarda əhalinin işgəncəli əməyə cəlb edilməsi və s.), əslində keçmiş SSRİ Konstitutsiyasında elan edilmiş adamların özlərinə azad surətdə peşə seçməsi hüququnu cəfəngiyata çevirmişdir. Məcburi əməyə, hamılıqla dövlətə işləməyin məcburi olması ideologiyasına əsaslanan bu sistem iş qüvvəsi bazarının deformasiyasına və öz formasını dəyişməsinə gətirib çıxarmışdır.

Bir neçə onilliklər ərzində əmək ehtiyatlarının idarə edilməsi, adamların mənafeyi baxımından deyil, ümumi ekstensiv inkişafa yönəldilmiş istehsalın mənafeyinə tabe edilmişdir. O, lazım oldu-olmadı sürətlə artmaqda olan iş yerlərində iş qüvvəsi, kadr çatışmazlığını aradan qaldırmağa, əlavə iş qüvvəsi mənbələrini axtarmağa, boş iş yerlərini iş qüvvəsi ilə komplektləşdirməyə tabe etdirilmişdir. Bu isə əmək qabiliyyətli əhalinin daha tam surətdə istehsala cəlb edilməsini tələb edirdi. Təsadüfi deyildir ki, 1990-cı ildə SSRİ-nin yarandığı 1922-ci ilə nisbətən bütünlükdə İttifaqın xalq təsərrüfatında məşğul olan fəhlə və qulluqçuların sayı 18,1 dəfə (ayrı-ayrı müttəfiq respublikalarda 17-158 dəfə arasında tərəddüd etməklə) artmışdır. Bu artımın ən yüksək olduğu respublikalara Moldoviya (158 dəfə), Qırğızıstan (73,7 dəfə), Tacikistan (72,4 dəfə), Özbəkistan (64,5 dəfə), Qazaxstan (52,6 dəfə), ən aşağı olduğu respublikalara isə RSFSR (14,4 dəfə), Ukrayna və Azərbaycan (17 dəfə) daxil idi. Müxtəlif dövrlərdə bu artım dinamikası eyni olmayıb dəyişmişdir (35-ci cədvələ bax). Həmin cədvəldə verilmiş rəqəmlərdən göründüyü kimi, Azərbaycanın xalq təsərrüfatında məşğul olan fəhlə və qulluqçuların orta illik artım sürəti 1960-1990-cı illərdə keçmiş İttifaqda olduğundan 1,5 dəfə, 1970-1990-cı illərdə isə 1,3 dəfə yüksək olmuşdur. Lakin bu heç də o demək deyildir ki, həmin illərdə Azərbaycanda əhalinin məşğulluğunun təmin

edilməsi üçün Orta İttifaqda olduğuna nisbətən daha yaxşı şərait yaradılmışdır. Əksinə, respublikamızda əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi sahəsində görülmüş bütün tədbirlərə baxmayaraq, burada yaradılan yeni iş yerlərinin sayı həmişə əmək ehtiyatlarının sayından geridə qalmışdır.

50-ci illərin ikinci yarısı və 60-cı illərin əvvəllərində respublikamızda yaranmış əlverişli demoqrafik vəziyyətlə əlaqədar sonrakı illərdə burada əmək ehtiyatlarının sürətli artımı üçün möhkəm əsas yaranmışdır. Belə ki, əgər 1960-1970-ci illərdə respublikada əmək ehtiyatlarının orta illik artım sayı 43,7 min nəfər (23 faiz) təşkil etmişdirsə, 1970-1980-ci illərdə – 107,6 min nəfər (46,1 faiz), 1980-1990-cı illərdə isə 54,8 min nəfər (16,1 faiz) təşkil etmişdir.

35-ci cədvəl [225]

Keçmiş SSRİ-nin müttəfiq respublikalarında fəhlə və qulluqçuların dinamikası (min nəfərlə)

Müttəfiq respublikalar	1992-ci ildə	1940-cı ildə	1960-cı ildə	1970-ci ildə	1980-ci ildə	1990-cı ildə	1990-cı ildə faizlə		
							1992-ci ilə nisbətən	1960-cı ilə nisbətən	1970-ci ilə nisbətən
SSRİ	6235	33926	60032	90186	112498	112936	18,1 dəfə	182,1 dəfə	125 dəfə
RSFSR	4415	22173	39505	54376	65612	63878	14,4	161,7	117
Ukrayna SSR	1167	6578	10659	16200	20042	19886	17,0	186,6	122
Belorusiya SSR	140	1136	1887	3057	4046	4236	30,2	224,5	137
Özbəkistan SSR	80	756	1530	2642	4169	5158	64,5	337,1	186
Qazaxıstan SSR	123	917	2977	4692	6043	6476	52,6	217,5	138
Gürcüstan SSR	87	404	940	1496	1978	2091	24,0	222,4	164
Azərbaycan SSR	121	486	748	1278	1802	2053	17,0	247,5	161
Litva SSR	---	179	674	1166	1461	1459	---	216,5	125
Moldoviya SSR	9	101	439	44	1511	1422	158,0	323,9	150

[225] B a x: Народное хозяйство СССР 1922-1982 гг. М., 1982; Народное хозяйство СССР за 70 лет. М., 1987, с. 414; «Народное хозяйство СССР в 1990 г.». М., 1991, с. 102.

Latviya SSR	---	262	25	1033	1202	1094	---	150,9	105
Qırğızıstan SSR	17	175	434	780	1102	1253	73,7	288,7	160
Tacikistan SSR	16	149	320	586	927	1159	72,4	362,2	197
Ermənistan SSR	30	156	427	838	1192	1283	42,8	300,5	153
Türkmənistan SSR	30	188	314	478	711	862	28,7	274,5	180
Estoniya SSR	---	176	453	613	700	626	---	138,2	102

Lakin buna baxmayaraq, həmin dövrdə respublikanın sosial-iqtisadi inkişafının planlaşdırılmasında bu vəziyyət lazımınca düzgün qiymətləndirilib nəzərə alınmamışdı. Bu isə həmin dövrdə obyektiv surətdə respublikada əmək ehtiyatlarının ictimai istehsala cəlb edilməsi problemini son dərəcə kəskinləşdirmiş və onun həllini xeyli çətinləşdirmişdir. Bu çətinlikləri aradan qaldırmaq məqsədilə 1971-1988-ci illərdə respublikanın xalq təsərrüfatına o zaman üçün çox böyük məbləğ olan 42,2 milyard manatdan çox vəsait qoyulmuş, 37,4 milyard manatlıq əsas fondlar, müasir və yüksək texniki səviyyəli avadanlıqlarla təchiz olunmuş 249 iri sənaye müəssisələri tikilib işə salınmış, respublikamız üçün yeni olan müasir elektrik və radiotexnika sənayesi sahələri yaradılmış, sənaye istehsalının strukturu kimya, neft kimyası, elektronika, maşınqayırma və cihazqayırma sahələrinin, kənd təsərrüfatının strukturu isə pambıqçılıq və üzümçülük kimi yüksək əmək tutumlu sahələrin inkişafı hesabına xeyli dəyişdirilmiş, habelə yüksək ixtisaslı mütəxəssislər və fəhlə kadrları hazırlanmasına diqqət artırılmışdır.

Bütün bu yuxarıda deyilənlərin nəticəsində respublikanın xalq təsərrüfatında məşğul olan fəhlə, qulluqçu və kolxozçuların orta illik sayı 1970-1990-cı illərdə 57,7 faiz və ya 891min nəfər artaraq 1543 min nəfərdən 2434 min[226] nəfərə (keçmiş İttifaqda 16,4 faiz və ya 17,6 milyon nəfər artaraq 107,2 milyon nəfərdən 124,8 milyon nəfərə)[227] çatmışdır. Daha doğrusu, res-

[226] Народное хозяйство Азерб.ССР в 1988 году. Б., 1989, s. 28 və Azərbaycan rəqəmlərdə. 1994. B., 1995, s. 32.
[227] Народное хозяйство СССР в 1992-1982 гг. М., 1982, с.315, 401 və Народное хозяйство СССР в 1990 г. М., 1991, с. 100, 451.

publikanın xalq təsərrüfatında məşğul olan işçi artımının orta illik sayı 1960-1970-ci illərdəki 32,6 min nəfərə[228] qarşı, 1970-1990-cı illərdə 44,6 min nəfər təşkil etmiş və ya 36,8 faiz çoxalmışdır. Buna baxmayaraq, 1960-1990-cı illəri əhatə edən son 30 il ərzində respublikamızda əmək ehtiyatlarının sayı 2061 min nəfər artdığı halda, xalq təsərrüfatında məşğul olan fəhlə, qulluqçu və kolxozçuların sayı cəmi 1217 min nəfər çoxalmış və ya əmək ehtiyatlarının sayının artımından 844,0 min nəfər və ya 1,7 dəfə (69,4 faiz) geridə qalmışdır.[229] Bu mütənasibsizlik həmin dövrdə respublikanın şəxsi yardımçı və ev təsərrüfatında yüksək məşğulluğun yaranmasına səbəb olur və əmək ehtiyatlarından səmərəli istifadə olunmasına imkan vermirdi. Təkcə bunu demək kifayətdir ki, 1960-1970-ci illəri əhatə edən 10 il ərzində Azərbaycan Respublikasında şəxsi əmək dairəsində xeyli miqdarda əmək ehtiyatları məşğul olduğu və əlavə olaraq onların sayı əhəmiyyətli dərəcədə artdığı halda, bu dövrdə ictimai istehsalda məşğul olanların sayı cəmi 300 min nəfər arta bilmişdi. Bu isə o deməkdir ki, qeyd edilən dövrdə respublikamızın şəxsi əmək dairəsində məşğul olanların sayı nəinki azalmamış, əksinə daha da artmışdır. Bunun başlıca səbəbi həmin dövrdə respublikada ictimai istehsalın inkişaf surətinin aşağı olması, onun sahə və ərazi quruluşunun qeyri-təkmil olması, habelə sənayenin və qeyri-istehsal sahələrinin lazımı dərəcədə linkişaf etməməsindən ibarət idi.

70-ci illərdə və 80-ci illərin birinci yarsınıda respublikamızda mövcud olan əmək ehtiyatlarının ümumi sayının artım sürətinin 1960—1970-ci illərdə olduğundan 2,7 dəfə, onların orta illik artımının isə 1,6 dəfə sürətlə çoxaldığını nəzərə alsaq, onda həmin illərdə əmək qabiliyyətli əhalinin ictimai əməyə cəlb olunması və onların əməyindən səmərəli istifadə edilməsinin respublikamız üçün nə qədər kəskin və mürəkkəb problem olduğunu sübut etməyə ehtiyac qalmır. Bu səbəbdən qeyd edilən dövrdə əmək ehtiyatlarının səmərəli istifadə olunması, xalq tə-

---

[228] Труд в Азербайджанской ССР. Б., 1987, с. 20.

[229] Народное хозяйство Азерб.ССР в 1975 г. Б., 1976; Azərbaycan rəqəmlərdə. 1990. B., 1991, s. 5; Население СССР 1987. М., 1988. с. 68; Труд в Азерб. ССР. Б., 1987, s.6; Azərbaycan rəqəmlərdə 1995. B., 1996, s. 27-30.

sərrüfatı sahələrinin ixtisaslı iş qüvvəsi ilə təmin edilməsi, ixtisaslı fəhlə və mütəxəssis kadrların hazırlanması və onların ixtisaslarının yüksəldilməsi sisteminin təkmilləşdirilməsi, habelə kadrların düzgün seçilib yerləşdirilməsi və tərbiyyə edilməsinin yaxşılaşdırılması Azərbaycan Dövlətinin hazırlayıb həyata keçirdiyi bütün təsərrüfatçılıq və siyasi tədbirlər içərisində mərkəzi yer tutmuş və xüsusi dövlət əhəmiyyətli bir məsələ kimi onun diqqətindən yayınmamışdır.

Təsadüfi deyildir ki, 80-ci illərin əvvəllərində mərhum prezidentimiz H.Əliyev bu məsələnin əhəmiyyətini nəzərə alaraq böyük uzaqgörənliklə Azərbaycan KP-nın XXX qurultayına məruzəsində, ilk dəfə olaraq, dövlət səviyyəsində «Respublikanın demoqrafik inkişafı və əhalinin işlə təmin olunması üçün elmi surətdə əsaslandırılmış, uzun müddətli konsepsiya» işlənib hazırlanması vəzifəsini irəli sürmüş və qeyd etmişdir ki, respublikada «Məhsuldar qüvvələrin yerləşdirilməsini daha da təkmilləşdirmək lazımdır. Söhbət respublikada ictimai istehsalatda çalışmayan əmək qabiliyyətli əhalinin xüsusi çəkisinin yüksək olduğu, bu əhalinin çevik hissəsinin, xüsusən cavan oğlanların işləmək üçün əsasən Bakı şəhərinə getmək istədiyi ayrı-ayrı zonaların və rayonların iqtisadi inkişaf səviyyələrini plana uyğun şəkildə bərabərləşdirməkdən gedir. Başqa çətinliklərlə yanaşı, bu, gələcəkdə əhalinin artması üçün demoqrafik çətinliklər yaradacıqdır».[230]

Məsələ burasındadır ki, həmin dövrdə də mövcud əmək ehtiyatlarının səmərəli məşğulluğunun təmin edilməsi kimi həm çox mühüm sosial-iqtisadi, həm də böyük siyasi əhəmiyyəti olan bir problemin müvəffəqiyyətli həllinin sürətləndirilməsi respublikamızda bütünlükdə ictimai istehsalın sürətli inkişafını və xalq təsərrüfatının sahə və ərazi quruluşunun dəyişdirilib təkmilləşdirilməsini tələb edirdi. Bu məqsədlə ***hələ 1970—1980-ci illərin əvvəllərində respublikamıza rəhbərlik etmiş Heydər Əliyevin görkəmli dövlət başçısı və mahir siyasətçi kimi keçmiş SSRİ məkanında və bütünlükdə dünyada günü-gündən artan nüfuz və hörməti, Vətəni Azərbaycana və onun xalqına olan sonsuz məhəbbəti,***

---

[230] B a x: Azərbaycan Kommunist Partiyası XX qurultayının materialları. Bakı, 1981, s. 91-92.

həddindən ziyada təşəbbüskarlığı və qətiyyətliliyi, ölkəyə rəhbərlik etmək bacarığı və səriştəsi, gələcəyi görmək qabiliyyəti və düşüncəsi sayəsində SSRİ hökuməti Azərbaycanla əlaqədar, respublikada xalq təsərrüfatının hərtərəfli yüksəlişi və intensiv inkişafını nəzərdə tutan və Azərbaycan xalqı üçün tarixi əhəmiyyət kəsb edən bir-birinin ardınca 5 xüsusi qərar qəbul etmişdir. Həmin qərarların yerinə yetirilməsi nəticəsində Azərbaycanda müharibədən sonrakı dövrdə ilk dəfə olaraq doqquzuncu və onuncu beşilliklər üçün nəzərdə tutulmuş xalq təsərrüfatının bütün inkişaf planları vaxtından əvvəl və yüksək keyfiyyətlə yerinə yetirilmiş və həmin beşilliklərin bütün illərində Azərbaycan keçmiş SSRİ-nin ən yüksək səviyyələrdə keçici Qırmızı Bayraqları ilə təltif olunmuşdu.

Bu dövrdə respublikanın bütünlükdə xalq təsərrüfatının, o cümlədən onun aparıcı sahəsi olan sənayenin quruluşunda mühüm dəyişikliklər baş vermişdir. Respublikamız üçün yeni olan müasir sənaye sahələrinin inkişafı ilə yanaşı, kənd təsərrüfatının ixtisaslaşdırılması və təmərküzləşməsi, aqrar-sənaye birlikləri və müəssisələri yaradılması sahəsində də xeyli müsbət irəliləmələr baş vermiş, pambıqçılıq və üzümçülük kimi yüksək əmək tutumlu sahələrin daha da inkişaf etdirilməsi hesabına kənd təsərrüfatı istehsalının quruluşu dəyişmiş və onun əsas istehsal göstəriciləri xeyli yaxşılaşmışdır. Bütün bunlar isə, öz növbəsində, respublikada əhaliyə ictimai xidmət sahələrinin də xeyli inkişaf etməsinə səbəb olmuşdur.

Respublikamızın maddi istehsal sahələrinin və qeyrimaddi istehsal dairəsinin inkişaf etdirilib yerləşdirilməsində baş verən dəyişikliklər nəticə etibarı ilə öz əksini burada mövcud olan əmək ehtiyatlarının ictimai-istehsala cəlb edilməsinin elmi-texniki tərəqqinin və müasir istehsalın tələblərinə yaxınlaşmasında, sahə və ərazi məşğulluq quruluşunun daha da təkmilləşdirilməsində tapmışdır. Burada belə bir mühüm cəhəti də xüsusi olaraq qeyd etmək lazımdır ki, *1970—1985-ci illərdə respublikada əmək ehtiyatlarının ictimai istehsala cəlb edilməsi probleminin həllinin mürəkkəbliyi bir tərəfdən, şəxsi əmək dairəsində məşğulluğun yüksək olması və əmək ehtiyatlarının ümumi sayının sürətli artımı ilə əlaqədar idisə, digər tərəfdən onların keyfiyyət tərki-*

binin elmi-texniki tərəqqinin və müasir istehsalın tələbləri səviyyəsinə uyğun gəlməməsi ilə əlaqədar idi.

Bu vəziyyət həmin dövrdə ***Azərbaycan dövlətinin qarşısında bir-biri ilə sıx surətdə bağlı olan iki mühüm vahid problemin eyni vaxtda həll edilməsi vəzifəsini irəli sürmüşdür. Həmin problemin mahiyyəti ondan ibarətdir ki, əgər respublikada bir tərəfdən yeni iş yerləri, əmək tətbiqi sahələri yaradılıb inkişaf etdirilməli və onun quruluşu təkmilləşdirilməli idisə, digər tərəfdən də həmin sahələrdə işləyə biləcək yüksək ixtisaslı mütəxəssis və fəhlə kadrlarının hazırlanmasının yaxşılaşdırılması, onların peşə ixtisas hazırlığının yüksəldilməsi lazım idi.***

Əmək ehtiyatlarının keyfiyyət tərkibinin planauyğun qaydada yaxşılaşdırılması ilə yanaşı, iqtisadiyyatın inkişafı, xalq təsərrüfatının sahə və ərazi nisbətliklərinin təkmilləşdirilməsi əmək ehtiyatlarının ictimai istehsala cəlb edilməsinin sürətləndirilməsi və onun məşğulluq quruluşunun dəyişilməsi üçün maddi zəmin yaratdı. Bunu ondan görmək olar ki, əgər 1970-1985-ci illərdə bütünlükdə keçmiş SSRİ-də ictimai istehsalda məşğul olan əhalinin sayı 23,4 milyon nəfər və ya 21%, o cümlədən fəhlə və qulluqçuların sayı 30,6% çoxalmışdırsa, Azərbaycanda bu göstəricilər müvafiq surətdə 759 min nəfər, 49,1% və 57,6% təşkil etmişdir. ***Başqa sözlə desək, müqayisə edilən dövrdə respublikanın xalq təsərrüfatında məşğul olan bütün əhalinin sayı SSRİ miqyasında olduğuna nisbətən 2,3 dəfə, o cümlədən fəhlə və qulluqçuların sayı təqribən 2 dəfə (95,2%) sürətlə artmışdır.***[231]

Qeyd edilən dövrdə respublikamızda əhalinin məşğulluq səviyyəsi və əmək fəallığı xalq təsərrüfatının bütün sahələrində özünü göstərmişdir ki, bunun da maddi əsasını burada məhsuldar qüvvələrin ardıcıl surətdə inkişaf etdirilməsi, əmək tətbiqi dairəsinin daim inkişaf etdirilib genişləndirilməsi, əhalinin təhsil səviyyəsi və ixtisasının yüksəldilməsi, peşə-ixtisas quruluşunun təkmilləşdirilməsi təşkil etmişdir. ***Bu dövr üçün səciyyəvi cəhət ondan ibarət olmuşdur ki, sənaye və kənd təsərrüfatı sahələri ilə yanaşı, ictimai xidmət sahəsində də məşğulluğun səviyyəsi sürətlə***

---

[231] B a x: *Ş.M.Muradov.* Göstərilən monoqrafiyası, s. 92.

yüksəlmişdir. Nəticədə qeyd edilən dövrdə bütünlükdə SSRİ-də kənd təsərrüfatında əhalinin məşğulluq səviyyəsi həm mütləq, həm də nisbi surətdə azaldığı halda, respublikamızda bu göstərici mütləq mənada artmış, nisbi mənada isə xeyli azalmışdır ki, bu da həmin dövrdə respublikada iqtisadiyyatın özünə məxsus inkişaf xüsusiyyətləri ilə bağlı idi.

70—80-ci illərdə respublika iqtisadiyyatının sürətli inkişafının təmin edilməsi, bir sıra sosial vəzifələrin, o cümlədən ictimai istehsaldan kənarda qalmış əmək ehtiyatlarının buraya cəlb edilməsinin sürətlənməsi kimi mühüm proqram xarakterli vəzifələrin yerinə yetirilməsi, burada sənayenin, xüsusilə də onun elektronika, elektroenergetika, radiotexnika, cihazqayırma və sair bu kimi sahələrinin inkişafı ilə yanaşı kənd təsərrüfatı istehsalının, ələlxüsus da onun yüksək əmək tutumlu sahələri olan pambıqçılıq və üzümçülüyün inkişaf etdirilməsi zərurətini meydana atmışdır. Bunun nəticəsi idi ki, ***1960—1970-ci illərdə respublikanın kənd təsərrüfatında işləyənlərin sayı 45 min nəfər azalmışdırsa, 1970—1985-ci illərdə xeyli artmışdır. Bu artım hər şeydən əvvəl, əmək ehtiyatlarının şəxsi yardımçı və ev təsərrüfatından ictimai təsərrüfata keçməsi ilə mümkün olmuşdur.***

Bu cəhətdən sənayedə də mühüm dəyişikliklər baş vermişdir. Bununla belə sənayedə və kənd təsərrüfatında olduğuna nisbətən əhaliyə ictimai xidmət dairəsində məşğulluq səviyyəsinin daha üstün artması bütünlükdə məşğul əhali arasında birincilərin xüsusi çəkisinin nisbətən azalmasına, sonuncunun xüsusi çəkisinin isə artmasına səbəb olmuşdur.

Qeyd edilən dövrdə bütünlükdə respublikanın xalq təsərrüfatının dinamik və proporsional inkişafı əsasında əhalinin məşğulluğundakı dəyişikliklərə müxtəlif amillər, o cümlədən texniki tərəqqinin sürətləndirilməsi, maddi istehsal dairəsində əmək məhsuldarlığının yüksəlməsi, habelə qeyri-maddi istehsal sahələrinin, xüsusilə mənzil-kommunal təsərrüfatı və əhaliyə məişət xidməti dairəsinin, maarif, mədəniyyət, incəsənət, elm və elmə xidmət sahələrinin sürətli inkişafı təsir etmişdir. Həmin dövrdə respublikada məhsuldar qüvvələrin inkişaf etdirilib yerləşdirilməsindəki dəyişikliklər əhalinin məşğulluğunun sahə quruluşunun təkcə respublika miqyasında deyil, onun ayrı-ayrı

ərazilərində də dəyişməsinə səbəb olmuşdur. Bunu belə bir faktdan daha aydın görmək olar ki, əgər 1970—1985-ci illərdə sənayedə məşğul olanların sayı Abşeron təbii iqtisadi zonasında 30,4% artmışdırsa, Naxçıvan Muxtar Respublikasında 2,1, Mil-Qarabağda 1,9, Lənkəran—Astara 1,8, Muğan—Səlyanda 1,7, Şirvanda 1,6, keçmiş DQMV-də 1,5, Şəki—Zaqatalada 1,5 dəfə çoxalmışdır.

Respublikamızda əhalinin məşğulluğunun səviyyəsinin yüksəlməsi, onun sahə və ərazi quruluşunun dəyişdirilib təkmilləşdirilməsi əhalinin təhsil, peşə və ixtisas səviyyəsinin əhəmiyyətli dərəcədə artması ilə bağlı olmuşdur. Çünki məşğul əhalinin ümumtəhsil və peşə ixtisas səviyyəsinin yüksəlməsi məhsuldar qüvvələrin bütün ünsürlərinin ardıcıl surətdə inkişaf etməsi və əmək potensialından səmərəli istifadə olunması üçün mühüm şərtlərdən biridir.

Bunu rəhbər tutaraq, Azərbaycan dövləti həmin illərdə yüksək ixtisaslı mütəxəssislərin və fəhlə kadrlarının hazırlanması sahəsində mühüm, siyasi və təşkilatçılıq işi aparmış və bunun nəticəsindəki əhalinin ümumtəhsil və peşə-ixtisas səviyyəsi əhəmiyyətli dərəcədə yüksəlmiş və xalq təsərrüfatında çalışanlar arasında yüksək ixtisaslı kadrların xüsusi çəkisi xeyli yüksəlmişdir. Bunu belə bir həqiqətdən aydın görmək olar ki, əgər 1970-ci ildə respublikamızda məşğul olan əhalinin hər min nəfərinə düşən ali və orta (tam və natamam) təhsili olanların sayı 674 nəfər təşkil etmişdirsə, 1985-ci ildə onların sayı 897 nəfərə gəlib çatmış və ya 33,1 faiz artmışdır. Bununla birlikdə həmin dövrdə respublikanın xalq təsərrüfatında çalışan ali və orta ixtisas təhsilli mütəxəssislərin sayı artaraq, 274 min nəfərdən 606,2 min nəfərə çatmış və ya 2,2 dəfə çoxalmışdır. Bu illər ərzində Azərbaycanın peşə-texniki məktəblərində 799,5 min nəfərdən çox ixtisasli fəhlə kadrları hazırlanmışdır.[232] 1970-1985-ci illəri əhatə edən 15 il ərzində respublikanın əmək potensialının keyfiyyətcə bu cür təkmilləşdirilməsi burada fəhlə və mütəxəssislərin ixtisa-

---

[232] Народное хозяйство СССР 1985 г. Баку, 1986, с.6. 160; Народное хозяйство Азербайджанской ССР 1974 г. Баку, 1975, с.221 и Народное хозяйство Азербайджанской ССР за 60 лет. Баку, 1980, с. 209.

sının yüksəldilməsi miqyasının ildən-ilə artması nəticəsində mümkün olmuşdur.

Bu dövrdə respublikada yüksək ixtisaslı kadrların hazırlanması sahəsində əldə edilən nailiyyətlərin çoxalmasında həmin illərdə yaradılmış yeni ali məktəblərin, açılan fakültə və kafedraların da böyük rolu olmuşdur. Nəticədə, 1985-ci ildə respublikanın ali və orta ixtisas məktəblərində təhsil alanların sayı 11,1 min nəfər və ya 6,5 faiz artaraq, 1970-ci ildəki 171 min nəfərdən 182,1 min nəfərə, həmin təhsil ocaqlarından buraxılan mütəxəssislərin sayı isə 12,5 min nəfər və ya 39,2 faiz artaraq, 31,9 min nəfərdən 44,4 min nəfərə çatmışıdır. 1984—1985-ci illərdə qeyd edilən tədris ocaqlarından buraxılan mütəxəssislərin sayı 1960-cı ildəkindən 3,5 dəfə çox olmuşdur. Bu illər ərzində mütəxəssis buraxılışı ən çox sənaye və tikinti (1,5 dəfə), kənd təsərrüfatı (2,7 dəfə) və maarif (2,2 dəfə) istiqamətli ali və orta ixtisas məktəblərində qeydə alınmışdı. Respublikamızın xalq təsərrüfatı təkcə onuncu və on birinci beşilliklər ərzində 400 min nəfərdən çox ali və orta ixtisas təhsilli mütəxəssis almışdı.[233]

Yuxarıda qeyd etdiyimiz kimi, kadrların keçmiş SSRİ-nin Moskva, Leninqrad və başqa iri şəhərlərin ali məktəblərində hazırlanması təcrübəsi bu illər ərzində daha da inkişaf edib təkmilləşmişdi. ***Bu dövrdə respublikamızın o vaxtkı rəhbəri Heydər Əliyevin həyata keçirdiyi ən möhtəşəm və yadda qalan mühüm tədbirlərdən biri də yüksək peşəkar səviyyəli kadrların, xüsusilə milli kadrların hazırlığına ciddi fikir verməsi və qayğı göstərməsindən ibarət olmuşdur.*** Çünki o vaxtlar həyatımızın bütün sahələrində əsaslı dönüş yaratmaq üçün, ilk növbədə, yüksək ixtisaslı kadrlara böyük ehtiyac duyulurdu. Məhz buna görə də, bu illər ərzində respublikanın ali məktəblər şəbəkəsi əhəmiyyətli dərəcədə genişləndirilmiş, ildırım sürəti ilə inkişaf edən iqtisadiyyatın tələblərinə uyğun bir tərzdə onların strukturu və maddi-texniki bazası təkmilləşdirilmişdir.

Bütün bu yuxarıda deyilənlərdən aydın olur ki, istər 70—80-ci illərdə, istərsə də son illərdə görülən bütün tədbirlərin əhəmiyyət və miqyasına baxmayaraq, respublikamızda mövcud olan

---

[233] B a x: *Ş.M.Muradov.* Göstərilən monoqrafiyası, s. 100-101.

və sürətlə artmaqda davam edən əmək ehtiyatlarının hamısını müvafiq iş yerləri ilə təmin etmək, nə 70—80-ci illərdə, nə də indi mümkün olmamış və onun həlli yenə də mühüm problem olaraq qalmış və bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq, bu, indi daha da kəskinləşmişdir. Bunu 1980—1996-cı illərdə respublikamızda əmək ehtiyatlarının məşğulluq səviyyəsinin dinamikasında dəyişikliklərdən daha aydın görmək olar (36-cı cədvələ bax).

Həmin cədvəldən göründüyü kimi, respublikada əmək ehtiyatlarının ictimai istehsala və istehsalatdan ayrılmaqla təhsilə cəlb edilməsi səviyyəsi 1980-ci ilə nisbətən 1990-cı ildə yüksəlmiş, 1991-ci ildən sonra isə yenidən aşağı düşməyə, iqtisadiyyatda məşğul olmayan əmək qabiliyyətli əhalinin sayı isə xeyli artmağa başlamışdır. Belə ki, 1980—1990-cı illərdə respublikamızda mövcud olan bütün əmək ehtiyatlarından ictimai istehsala və istehsalatdan ayrılmaqla, təhsilə cəlb edilənlərin sayı 716,2 min nəfər və ya 28,7 faiz artaraq, 1487,0 min nəfərdən 3213,2 min nəfərə, cəlb edilmə səviyyəsi isə 7,2 bənd artaraq 72,9 faizdən 80,8 faizə qalxmışdırsa, 1991—1996-cı illərdə müvafiq surətdə birinci göstərici 243,2 min nəfərə və ya 7,2 faiz azalmaqla, 3359,9 min nəfərdən 3116,7 min nəfərə, ikinci göstərici isə 3,0 bənd azalaraq, 80,8 faizdən 77,5 faizə düşmüşdür.

36-cı cədvəl [234]

Azərbaycan Respublikasında əmək ehtiyatlarının məşğulluq səviyyəsinin dinamikası (1980—1996-cı illərdə)[x]

	1980-ci il		1985-ci il		1990-cı il		1991-ci il		1995-ci il		1996-cı il	
	Cəmi min nəfər	Yekuna nisbətən %-lə	Cəmi min nəfər	Yekuna nisbətən %-lə	Cəmi min nəfər	Yekuna nisbətən %-lə	Cəmi min nəfər	Yekuna nisbətən %-lə	Cəmi min nəfər	Yekuna nisbətən %-lə	Cəmi min nəfər	Yekuna nisbətən %-lə
Cəmi	3412,0	100	3815,8	100	3960	100	3991	100	4036,5	100	4060	100

[234] B a x: «Azərbaycan rəqəmlərdə 1994». Bakı, 1995, s. 27; «Azərbaycan rəqəmlərdə 1995». Bakı, 1996, s. 27; Azərbaycanın statistik göstəriciləri 1996, s. 26.

[x] 1996-cı ildən sonra bu barədə müqayisəli rəqəmlər yoxdur

əmək ehtiyatları												
o cümlədən məşğul olan əhali	2142	62,8	2619,2	68,6	2907,7	73,4	3047,2	76,4	2837,3	70,3	2886	71,1
Şagirdlər	345	10,1	349,7	9,2	305,5	7,7	312,7	7,8	231,9	5,7	230,7	6,4
İqtisadiyyatda məşğul olmayan əmək qabiliyyətli adamlar	925	27,1	846,9	22,2	746,7	18,9	630,8	15,8	967,3	24,0	943,3	23,2

Buradan belə bir həqiqət də aydın olur ki, 80-ci illərdə bütünlükdə keçmiş İttifaqda olduğu kimi Azərbaycan Respublikasında da nəyin bahasına olursa-olsun, əmək qabiliyyətli əhalinin ictimailəşdirilmiş istehsal və təhsil dairəsinə cəlb edilməsi prosesi sürətləndirilmiş və bu illərdə respublikanın bütün əmək ehtiyatlarının 72,9—80,8 faizə qədəri buraya cəlb edilmişdir. Ancaq Azərbaycanın nail olduğu bu məşğulluq səviyyəsinə keçmiş SSRİ hələ 60-cı illərin sonu, 70-ci illərin əvvəlində gəlib çatmışdı.

Məşğulluq problemi sahəsində görkəmli rus tədqiqatçısı V.K.Kostakovun hesablamalarına əsasən əmək ehtiyatlarının ictimai istehsala və istehsalatdan ayrılmaqla təhsilə cəlb edilməsi səviyyəsi keçmiş SSRİ-də 1950-ci ildə – 74 faiz, 1960-cı ildə – 78, 1970-ci ildə – 90, 1975-ci ildə isə 91 faiz təşkil etmişdir.[235] Başqa mənbələrə əsasən demək olar ki, 1979-cu ildə SSRİ-də əmək ehtiyatlarının 95,4 faizi ictimai istehsalatda və istehsalatdan ayrılmaqla təhsildə məşğul olmuşdur.[236]

Bütün bu deyilənlərdən aydın olur ki, keçmiş İttifaqda ölkənin hər bir yerində mövcud əmək qabiliyyətli əhalinin hamılıqla ictimai istehsalata cəlb edilməsi vəzifəsi dövlət səviyyəsində qarşıya qoyulmuş olsa da, heç də bütün regionlarda bu vəzifənin yerinə yetirilməsi üçün eyni şərait yaradılmamışdır. SSRİ-nin tərkibində olduğu uzun illər boyu respublikamızın iq-

---

[235] B a x: *В.Г.Костаков.* Прогноз занятости населения: методологические основы. М., «Экономика», 1979, с. 11.

[236] B a x: Труд в СССР. Стат. сб., М., 1968, с.5; «Правда» qəzeti, 7 may 1991-ci il.

tisadiyyatının birtərəfli inkişaf etdirilməsi, onun daha çox SSRİ-nin xammal mənbəyinə çevrilməsi, burada başlıca olaraq Ümumittifaq mənafeyinə yönəldilmiş sahələrin, ilk növbədə neft sənayesi və onunla bağlı sənayelərin, habelə pambıqçılıq, üzümçülük, tütünçülük, tərəvəzçilik və s. bu kimi yüksək əmək tutumlu sahələrin inkişaf etdirilməsi buna əyani sübutdur.

Azərbaycanın respublikalararası iqtisadi əlaqələrdə oynadığı rol isə onun daha çox keçmiş İttifaqın xammal mənbəyi olmasından xəbər verirdi. Həmin illərdə respublikamızda istehsal edilmiş pambıq-mahlıcın 90 faizindən çoxu, yuyulmuş natural yunun 93 faizi, fermentləşmiş tütünün 92 faizi, neft məhsullarının 64 faizi, sintetik kauçukun 68,5 faizi, polad boruların 97 faizi, neft-mədən avadanlıqlarının 75 faizi, pambıq parçanın 75 faizi, ipək parçanın 70 faizi, xalça və xalça ləvazimatlarının 74 faizi və s. respublikadan kənara daşınırdı.

Respublikada istehsal edilən məhsulların əksər hissəsinin öz ərazisində son məhsula çatdırıla bilməməsi, heç şübhəsiz ki, bütün başqa mənfi nəticələr ilə bərabər burada lazımi miqdarda yeni iş yerlərinin yaradılmasına da imkan vermirdi. Bu isə, öz növbəsində, Azərbaycanda külli miqdarda əmək ehtiyatlarının ictimai istehsaldan kənarda qalmasına və onların əməyindən səmərəli istifadə edilməməsinə səbəb olurdu. Təsadüfi deyildir ki, 1980—1990-cı illərdə respublikamızda ictimai istehsala və istehsalatdan ayrılmaqla təhsilə cəlb edilməmiş əmək qabiliyyətli əhalinin sayı 746,7—925,0 min nəfər arasında tərəddüd etmiş və ya respublikanın əmək ehtiyatlarının 18,9—27,1 faizini təşkil etmişdir.

Bu dövrdə Azərbaycanda əmək ehtiyatlarının ictimai istehsala və istehsalatdan ayrılmaqla təhsilə cəlb edilməsi sahəsində yaranmış vəziyyət bir sıra başqa obyektiv və subyektiv səbəblərlə də bağlı olmuşdur. Onların ən başlıcası təsərrüfatın idarə edilməsində ekstensiv metodlara üstünlük verilməsi və qeyri-sağlam məşğulluq siyasəti yeridilməsi idi.

Təsərrüfatın idarə edilməsində ekstensiv metodlara üstünlük verilməsi ictimai istehsalda insanın rolunun azaldılmasına və ona cəmiyyətin başlıca məhsuldar qüvvəsi, ictimai istehsalın əsas siması kimi deyil, daha çox istehsal ehtiyatlarından

biri kimi baxılmasına gətirib çıxarmış, iş qüvvəsinin kəmiyyəti və keyfiyyəti, iş yerlərinin sayı ilə əmək ehtiyatları, habelə iqtisadiyyatın yenidən qurulması ilə onun sosial yönümü arasında ciddi uyğunsuzluqların yaranmasına səbəb olmuşdu. Bunlar da öz ifadəsini onda tapmışdır ki, uzun illər boyu: **əvvəla,** ölkənin əksər sənaye müəssisələri və tikinti təşkilatlarında, habelə ictimai xidmət dairəsində xeyli iş vaxtı itkilərinə və işçilərin öz əsas işlərindən yayınmasına yol verilərək, süni surətdə fəhlə kadrları «çatışmazlığı» yaradılmış və bu proses günü-gündən artmışdır; **ikincisi**, iqtisadiyyatın idarə edilməsində çoxməsrəflilik mexanizminin geniş surətdə tətbiq edilməsi bütün resurslardan, o cümlədən də əmək ehtiyatlarından düzgün istifadə olunmamasına gətirib çıxarmış; **üçüncüsü**, fəaliyyətdə olan müəssisələrin texniki cəhətdən silahlandırılması və modernləşdirilməsi əvəzinə, getdikcə daha çox yeni istehsal obyektlərinin tikilməsi «qayğısına» qalınmış və çox hallarda bunların əksəriyyəti ixtisaslı iş qüvvəsi və əmək ehtiyatları çatışmayan rayonlarda yaradılmış; **dördüncüsü**, minlərlə adam iş yerlərini itirməmək xatrinə ixtisassız və az ixtisaslı işlərdə çalışmağa məcbur olduğu, iş yerlərinin üçdə bir hissəsindən çoxu sanitar normalarına uyğun gəlmədiyi, sənaye sahələri işçilərinin yarısından çoxu, kənd təsərrüfatı əməkçilərinin üçdə iki hissəsi əl əməyi ilə, hətta sağlamlıqları üçün zərərli, ağır əl əməyinin tətbiq edildiyi işlərlə məşğul olduqları halda, ağır əl əməyinin tətbiq edildiyi iş yerlərinin azaldılması kimi çox mühüm sosial vəzifələrin yerinə yetirilməsi üçün lazımi maddi təminat yaradılmır, hətta bunlar xalq təsərrüfatı planlarında belə nəzərdə tutulmurdu. Məhz bütün bunların nəticəsi idi ki, vahid planlı təsərrüfat şəraitində yeridilən qeyri-sağlam məşğulluq siyasəti nəticəsində, yəni əmək ehtiyatlarının sürətlə artdığı ərazilərə nisbətən (Azərbaycan SSR, Qazaxıstan və Orta Asiya respublikaları və s.) onun ləng artdığı və bəzən də heç artmadığı, hətta azaldığı ərazilərdə (RSFSR, Ukrayna SSR və Baltikyanı Respublikalarda) daha çox yeni iş yerlərinin yaradılması həmin ərazilərdə mövcud olan əmək ehtiyatlarının sayı ilə iş yerlərinin miqdarı arasında ciddi uyğunsuzluqların və ölkədə ictimai istehsalın iş qüvvəsi ilə təmin edilməsində bir-birinə tamamilə əks olan iki meylin yaranma-

sına səbəb olmuşdur, daha doğrusu, bir sıra keçmiş İttifaq Respublikalarında və onların ayrı-ayrı regionlarında (RSFSR, Ukrayna, Belorus və Baltikyanı respublikalarda) iş qüvvəsi çatışmadığı halda, digərlərində (Orta Asiya, Qazaxıstan və Zaqafqaziya respublikalarında) əmək qabiliyyətli əhalinin xeyli hissəsi ictimai istehsaldan kənarda qalır, onların əməyinin tətbiqi üçün müvafiq iş yerləri çatışmırdı.

Bu dövrdə kadrların hazırlanması və istifadəsində buraxılmış ən kobud səhvlərdən biri də ixtisaslı iş qüvvəsinə, xüsusilə də ali və orta ixtisaslı kadrlara tələbatın və onlara verilən əmək haqqlarının düzgün müəyyən edilməməsi idi. Bu səbəbdən idi ki, SSRİ-nin dağılması ərəfəsində respublikamızda əhalinin öz peşəsi və ixtisasına uyğun gəlməyən işlərdə işləməyə məcbur olması kütləvi hal almışdır. Həmin dövrdə respublikanın xalq təsərrüfatında 14,4 min nəfərdən çox ali təhsilli mütəxəssis öz peşə və ixtisasına uyğun gəlməyən işlərdə çalışmışlar ki, onların da 48,2 faizi fəhlə işləmişlər. Fəhləliklə məşğul olmuş həmin ali təhsilli mütəxəssislərin 53 faizini mühəndis, 23,4 faizini iqtisadçı, 10,7 faizini pedoqoji institutları bitirənlər və incəsənət üzrə ali təhsili olanlar, 6,2 faizini – universitet təhsili alanlar, 3,1 faizini isə aqronom, zootexnik və s. təşkil etmişdir. Eyni vəziyyəti orta ixtisas təhsilli mütəxəssislər üçün də demək olar. Öyrənilən dövrdə respublikanın xalq təsərrüfatında məşğul olmuş orta ixtisas təhsilli mütəxəssislərin 39,2 min nəfəri və ya 13,6 faizi ali və orta ixtisas təhsili tələb etməyən işlərdə çalışmışlar. Onların 81,6 faizi isə fəhləlik etmişlər. Fəhlə peşəsində çalışmış həmin orta ixtisas təhsilli mütəxəssislərin 74,9 faizi texnik, 16,0 faizi iqtisadçı, 5,0 faizi aqronom, zootexnik və s. kənd təsərrüfatı mütəxəssisi, 1,6 faizi maarif üzrə, 1,4 faizi isə tibb üzrə mütəxəssislər olmuşlar.

Bütün bu deyilənlər həmin illərdən başlayaraq respublikamızda məşğulluq probleminin kəskinləşməsinə səbəb olmuş və onun həllini ön plana çəkmişdir. 90-cı illərin əvvəllərindən başlayaraq Azərbaycanın sosial-iqtisadi inkişafı əmək bazarında vəziyyətin tədricən, lakin dönmədən daha da kəskinləşdiyini göstərən bir sıra əlamətlərlə səciyyələnmişdir. **Bu əlamətlərə** xalq təsərrüfatında məşğul olanların sayının cüzi miqdarda

azalması ilə yanaşı, iqtisadiyyatda məşğul olmayan əmək qabiliyyətli əhalinin, o cümlədən işsizlərin sayının xeyli çoxalması, iş qüvvəsi axıcılığının sürətlənməsi, işdən çıxanların sayının işə qəbul edilənlərin sayını əhəmiyyətli surətdə üstələməsi, iş yerlərinin, xüsusilə də nisbi işsizlərin sayının ixtisar olması, işsizlik müddətinin artması və sair aid idi. Bu deyilənləri ondan görmək olar ki, 1991—2002-ci illərdə iqtisadiyyatda məşğul olanların sayı 0,2 faiz azalaraq, 3732,0 min nəfərdən 3726,5 min nəfərə düşmüşdürsə, işsizlik statusu alanların sayı isə 12,9 dəfə artaraq, 3969 nəfərdən 50963 nəfərə, o cümlədən qadınların sayı 11,1 dəfə artaraq, 2517 nəfərdən 27875 nəfərə gəlib çatmışdır.[237] 2002-ci ildə respublikamızda əvvəlki illərdən fərqli olaraq işdən azad olanların sayı işə qəbul edilənlərin sayından cəmi 0,2 faiz, o cümlədən emal sənayesində – 1,6 dəfə çox, kənd təsərrüfatı, ovçuluq və meşəçilikdə – 3,5 faiz, tikintidə – 21,3 faiz, topdan və pərakəndə satış, avtomobillərin, motosikletlərin, məişət malları və şəxsi əşyaların təmiri sahəsində isə 22,3 faiz az olmuşdur. İşdən çıxan bütün işçilərin 71,3 faizini öz arzusu ilə işdən azad olunanlar təşkil etmişlər.[238] Nəzərə alsaq ki, mövcud statistika hesabatları və uçot qaydaları işləməyənlərin, ixtisar edilən iş yerlərinin, ilk növbədə isə işdən azad olunan pensiyaçıların, gizli işsizlərin, tam iş günü rejimində işləməyənlərin, ödənişsiz və ya qismən ödənişli məzuniyyətdə olanların sayını dəqiq müəyyən etməyə imkan vermir və çox hallarda həmin adamlar işləyən əhali kimi uçota alınır, onda respublikada məşğulluq probleminin nə qədər kəskin olduğunu sübut etməyə ehtiyac qalmaz. Dünya Bankının ekspertlərinin 1995-ci ildə Bakı şəhərinin 11 və respublikanın başqa 8 rayon və şəhərlərinin 945 müəssisəsində apardıqları sorğu materiallarına əsasən müəyyən edilmişdir ki, həmin müəssisələrdə çalışmalı olan 191,4 min nəfər işçidən 62,7 min nəfəri və ya 32,8 faizi inzibati qaydada məzuniyyətə göndərmişdilər.

Qeyd edilən dövrdə Dövlət Məşğulluq Mərkəzinin həmin vəziyyətin əmək bazarına təsirini müəyyən etmək məqsədilə

---

[237] B a x: Əmək bazarı. 2003. Statistik məcmuə, Bakı, 2003, s. 28, 160.
[238] Yenə orada, s. 4-65.

respublikanın 19 rayon və şəhərinin 1283 dövlət müəssisəsi və təşkilatlarında apardığı sorğu tədqiqatlarına əsasən müəyyən edilmişdir ki, həmin müəssisə və təşkilatlarda işləmiş 383,5 min nəfər işçinin 12,3 min nəfəri və ya 3,3 faizi sərbəstləşdirilmiş, 90,4 min nəfəri və ya 23,6 faizi isə məcburi məzuniyyətə göndərilmişdir. Məcburi məzuniyyətə göndərilənlərin xüsusi çəkisi şəhər yerlərində 16-37, kənd yerlərində isə 4,2-13,6 faiz arasında tərəddüd etmişdir. Əmək bazarında pensiyaçılara, xüsusən peşə və təhsil hazırlığı olmayanlara, 18-30 yaşlı gənclərə və əvvəllər uşaqlarının tərbiyəsi ilə (1991-ci ildə respublikada işsizlik statusu alanların 63,4 faizini) məşğul olmuş qadınlara təzyiqlər daha da artmışdır. Elə bunun nəticəsidir ki, 1995-ci ildə – 59,7 faizini təşkil etmişlərsə, 2002-ci ildə bu göstərici yenə də yüksək olaraq qalmış və ya 54,7 faiz təşkil etmişdir.[239]

1991—2002-ci illər ərzində bütün işsizlər arasında 18-30 yaşında olan gənclərin xüsusi çəkisi artaraq, 30,4 faizdən 41,3 faizə, onların tərkibində qadınların xüsusi çəkisi isə 32 faizdən 60,0 faizə qalxmışdır.[240]

Onu da qeyd etmək lazımdır ki, Sovet hakimiyyəti illərində bütünlükdə keçmiş SSRİ-də olduğu kimi, Azərbaycan Respublikasında da məşğulluğun dörd əsas formasının – əmək qabiliyyətli əhalinin ictimai faydalı fəaliyyətdə, xalq təsərrüfatında, ictimailəşdirilmiş və şəxsi əmək dairələrindəki formalarının mövcud olduğu qəbul edildiyi halda, əmək qabiliyyətli əhalinin məşğulluq səviyyəsi müəyyən edilərkən, yalnız ictimailəşdirilmiş əmək dairəsində məşğul olanların sayının bütün əmək ehtiyatlarının sayına nisbəti əsas götürüldü. Bu isə əmək qabiliyyətli əhalinin məşğulluq səviyyəsinin süni surətdə azalmasına və ictimai istehsalatdan kənarda qalan əmək ehtiyatlarının sayının və bütünlükdə əmək ehtiyatları içərisində onların xüsusi çəkisinin şişirdilməsinə səbəb olmaqla, həqiqətdə işsiz (işaxtaran) olan əmək qabiliyyətli əhalinin sayı haqqında dəqiq məlumat əldə edib bu sahədə mövcud olan real vəziyyəti düzgün qiymətləndirməyə imkan vermirdi. Bunu nəzərə alaraq, **məşğul-**

---

[239] B a x: Əmək bazarı. 2003. Statistik məcmuə. Bakı, 2003, s. 28-160.
[240] Yenə orada, s. 135.

luq və işsizlik səviyyəsi bazar münasibətlərinə keçid şəraitində Beynəlxalq Əmək Təşkilatının (BƏT) tövsiyələrində və «məşğulluq haqqında» Azərbaycan Respublikasının Qanununda irəli sürülmüş «məşğul» və «işsiz» vətəndaşlar anlayışı əsas götürülərək müəyyən edilməlidir. Daha doğrusu, **əmək qabiliyyətli əhalinin məşğulluq səviyyəsini** iqtisadi fəal əhalinin (yəni **iqtisadiyyatda məşğul olan əhalinin sayı ilə işsizlərin sayının cəmi)** sayının bütünlükdə əhalinin sayına nisbəti, **işsizlərin səviyyəsini** isə işsizlərin sayının iqtisadi fəal əhalinin sayına nisbəti kimi müəyyən etmək lazımdır. Çünki son vaxtlaradək ölkədə **«işsizlik»** anlayışı rəsmən qəbul edilmədiyindən burada nə işsizlərin sayı, nə də onun səviyyəsinə dair rəsmi məlumat olmamış və əksər hallarda «işsizlər» «işləməyən» və ya «qeyri-məşğul» əhali, **«asudə əmək ehtiyatları»** və ya **«şəxsi yardımçı və ev təsərrüfatında məşğul olan əmək qabiliyyətli əhali»** anlayışları ilə eyniləşdirilmişdir. Bu səbəbdəndir ki, indinin özündə də çox vaxt **«iqtisadiyyatda məşğul olmayan əmək qabiliyyətli yaşda əhali»** və ya **«qeyri-məşğul»** əhali, **«işsiz əhali»**, onların bütün əmək qabiliyyətli əhaliyə nisbəti isə işsizlik kimi başa düşülür. Bu da bir həqiqətdir ki, 2002-ci ildə respublikamızda iqtisadiyyatda məşğul olanların sayının 372,6 min nəfər, işsizlərin sayının isə 51,0 min nəfər olduğunu nəzərə alıb əmək ehtiyatlarının işsizlik səviyyəsini BƏT-nin yuxarıda qeyd edilən metodik tövsiyələrinə əsasən hesabladıqda, Azərbaycan Respublikasında işsizlik səviyyəsinin cəmi 1,3 faiz olduğu aşkara çıxır.[241]

Hal hazırda bazar iqtisadiyyatı cəhətdən inkişaf etmiş ölkələrdə əmək qabiliyyətli əhalinin 5-7 faizinin işsiz olmasının məqbul hal hesab edildiyi bir vaxtda 4896,2 min nəfər əmək ehtiyatına, 552,6 min nəfər[242] işləməyən iqtisadi aktiv əhalisi olan Azərbaycan kimi bir ölkədə işsizlik səviyyəsinin son dərəcə belə aşağı olması təəccüb doğurur və onun düzgün hesablanmasını tələb edir. İşsizliyin səviyyəsinin düzgün müəyyən edilməsi isə ilk növbədə işsizlərin özlərinin sayının dəqiq müəyyən edilməsini tələb

---

[241] Xalqa həsr olunan illər. Bakı, 2003, s. 404.

[242] B a x: Azərbaycan Respublikası əhalisinin siyahıya alınması 1999. Bakı, 2001, s. 202.

edir. 2002-ci ildə respublikamızda məşğulluq xidməti tərəfindən cəmi 5660 boş iş yeri qeydə alınmış və 50963 nəfərə işsizlik statusu verilmişdir. Başqa sözlə desək, hər 9 nəfər işsizlik statusu alana cəmi bir boş iş yeri düşmüşdür. Burada onu da qeyd etmək lazımdır ki, həmin boş qalmış iş yerlərinin 1811-i (32,0 faizi) səviyyə və sosial xidmət sahəsinin; 1054-ü (18,6 faizi) təhsil sahəsinin; 897-si (15,8 faizi) isə topdan və pərakəndə ticarət sahəsinin payına düşmüşdür.[243] Başqa sözlə desək, boş qalmış bütün iş yerlərinin 66,4 faizi bu üç sahədə, geridə qalan cəmi 33,6 faizi isə başqa sahələrdə mövcud olmuş və bu heç də işsizlik statusu almış adamların malik olduqları peşə və ixtisasların çox az bir qismini ödəməyə imkan verə bilər. Halbuki aparılan tədqiqatların nəticələrinə əsasən məlum olur ki, ölkədə mövcud olan həqiqi işsizlərin sayı işsizlik statusu alanların sayından qat-qat çoxdur, qeydə alınmış boş iş yerlərinin sayı isə həqiqətdə mövcud olan iş yerlərinin çox az bir qismini təşkil edir. Bu vəziyyətin yaranmasına səbəb ayrı-ayrı dövlət müəssisə və təşkilatlarında müxtəlif məqsədlər üçün boş iş yerlərinin, xüsusilə münasib iş yerlərinin sayının gizli saxlanması, bu barədə dövlət əmək orqanlarına məlumat verilməməsi və bu işə müvafiq əmək orqanlarının lazımi səviyyədə nəzarət etməməsidir.

Məlum olduğu kimi, bazar iqtisadiyyatı cəhətdən inkişaf etmiş bütün ölkələrdə, bir qayda olaraq, məşğulluq xidməti idarələrində ən yaxşı halda işsizlərin 30 faizə qədəri qeydə alınır, qalan işsizlərin sayı isə mikro-əhali siyahıya alınması yolu ilə müəyyənləşdirilir. Hazırda respublikamızda da işsizlərin həqiqi sayının müəyyən edilməsində bu üsuldan istifadə edilməsinə böyük ehtiyac duyulur. Çünki indi bir tərəfdən işsizlərə təklif edilən iş yerlərində əmək haqqının və işsizlik üçün verilən müavinətlərin məbləği həddən ziyada aşağı olduğundan, digər tərəfdən isə məşğulluq xidməti idarələrinə işə düzəlmək üçün müraciət edən işsizlərin hamısı deyil, onların çox az bir qismi münasib işlə təmin edildiyindən, hələlik məşğulluq xidməti idarələrinə işə düzəlmək üçün müraciət edənlərin sayı işlə təmin edilmək arzusunda olanların sayından qat-qat azdır. Bütün bunlar isə

---

[243] Əmək bazarı. - 2003, Statistik məcmuə, Bakı, 2003, s. 133.

respublikada mövcud olan işsizlik səviyyəsinin düzgün müəyyən edilib qiymətləndirilməsinə imkan vermir. Buna görə də gələcəkdə həmin məsələlərə diqqət artırılmalı və dövlət səviyyəsində həll edilməlidir.

3.3 AZƏRBAYCANDA ƏHALİNİN MƏŞĞULLUQ QURULUŞU, ONUN FORMALAŞMASI QANUNAUYĞUNLUQLARI, DƏYİŞİLMƏSİ MEYLLƏRİ VƏ XÜSUSİYYƏTLƏRİ

Respublikada əhalinin məşğulluq vəziyyətini daha düzgün təsəvvür etmək üçün onun quruluşunun formalaşması xüsusiyyətləri və qanunauyğunluqlarını, habelə burada baş verən dəyişiklik və meyllərin ətraflı öyrənilib aşkara çıxarılması tələb edilir.

Əhalinin məşğulluq quruluşu – əmək ehtiyatlarından istifadənin vəziyyətini səciyyələndirən ən mühüm göstəricilərdən biridir.

Məşğulluq quruluşu dedikdə – əhalinin bir sıra əlamətlər üzrə xalq təsərrüfatı sahələri, mülkiyyət formaları və müxtəlif fəaliyyət dairələri üzrə bölünməsi nisbətliyi başa düşülür. Başqa sözlə desək, ictimai əməyin xalq təsərrüfatının sahələri, mülkiyyət formaları və müxtəlif fəaliyyət dairələri arasında bu və ya digər nisbətlikdə bölünməsinə riayət edilməsi bütün ictimai-iqtisadi formasiyalar üçün ümumi qanundur və onun obyektiv əsasını ictimai əmək bölgüsü təşkil edir.

Əhalinin məşğulluq quruluşu istehsalın quruluşunun əsas ünsürlərindən biri olub maddi-texniki proporsiyalardakı və ictimai tələbatın quruluşundakı irəliləmələri özündə birləşdirir. Bütün məsrəflər nəticə etibarı ilə öz əksini **məcmu əmək məsrəflərində** (canlı və əşyalaşmış) tapdığından bu məsrəflərin və onun quruluşunun formalaşması da əmək proporsiyalarının necə formalaşmasından asılıdır.

İqtisadiyyatın quruluşunun təkmilləşdirilməsi də nəticə etibarı ilə öz əksini məhz elə əhalinin məşğulluq quruluşunda tapır. Çünki iqtisadiyyatın quruluşunun formalaşması cəmiyyə-

tin məcmu tələbatının təsiri altında baş verir və bu səbəbdən də bütünlükdə məhsuldar qüvvələrin fəaliyyət göstərməsinin səmərəliliyi də xeyli dərəcədə məhz əhalinin məşğulluq quruluşunun səmərəliliyi ilə müəyyən edilir.

Əhalinin məşğulluq quruluşunun formalaşması isə bir çox **demoqrafik** və **sosial-iqtisadi amillərin** təsiri altında baş verir. **Demoqrafik amillərə**, hər şeydən əvvəl, əhalinin sayı, yaş-cins tərkibi, kişilərin sayı ilə qadınların sayı arasındakı nisbilik, əhalinin doğum, ölüm və təbii artım səviyyəsi, ömür müddəti, mexaniki hərəkəti və s. daxildir. Bu demoqrafik göstəricilərin əhalinin məşğulluq quruluşuna təsiri adamlarda ictimai istehsalda iştirak etmək tələbinin formalaşmasına, ailənin gəlirlərinə, təhsil, ixtisas səviyyəsinə və peşəsinə, habelə mənəvi cəhətdən zənginləşmək arzusuna uyğun surətdə işləmək vasitəsilə baş verərək, əsas etibarı ilə işçinin şəxsi keyfiyyətindən və həyati mənafeyindən asılıdır. Bununla birlikdə, burada yenə də müəyyənedici rol sosial-iqtisadi amillərə aiddir.

Sosial-iqtisadi amillərə – məhsuldar qüvvələrin inkişaf dərəcəsi və istifadə səviyyəsi, istehsalın maddi əşya quruluşu, iqtisadiyyatın inkişaf səviyyəsi və qürülüşü, əhalinin təhsil və peşə-ixtisas səviyyəsi, milli məşğulluq ənənəsi və əmək vərdişləri, əhalinin müxtəlif həyat maraqları (işləmək, müvafiq təhsil almaq, yüksək əmək haqqı verilən işə malik olması, uşaqların tərbiyəsi, özlərinin təhsil və peşə-ixtisas səviyyələrini artırmaq, istirahət etmək və s. üçün daha çox asudə vaxta mailk olmaq arzusu və s.) daxildir.

Əhalinin məşğulluq səviyyəsi və **onun quruluşunun formalaşması xarakteri** isə istehsal vasitələri üzərindəki hakim mülkiyyət formaları və tarixən təşəkkül tapmış ictimai əmək bölgüsü ilə müəyyən edilir. Elmi-texniki tərəqqinin sürətlənməsi ilə əlaqədar olaraq ictimai əmək bölgüsünün dərinləşməsi ictimai istehsalın diferensiallaşmasına, ayrı-ayrı ənənəvi istehsal sahələrinin daxilində yeni fəaliyyət növlərinin yaranıb inkişaf etməsinə səbəb olur.

Əhalinin məşğulluq quruluşu bir sıra göstəricilərlə xarakterizə olunur. Belə mühüm göstəricilərdən biri iqtisadiyyat-

da məşğul olan əhalinin xalq təsərrüfatının müxtəlif sahələri arasında bölünməsi nisbiliyi və onun dəyişilməsidir.

Hər bir ölkədə və onun ayrı-ayrı ərazilərində əhalinin məşğulluq səviyyəsi və quruluşunun vəziyyəti ilk növbədə burada iqtisadiyyatın inkişaf səviyyəsi və quruluşundan, mövcud əmək ehtiyatlarının kəmiyyət-keyfiyyət tərkibindən və ona müvafiq olaraq, istehsal və xidmət dairəsi sahələrinin düzgün inkişaf etdirilb yerləşdirilməsindən, onların sahə və ərazi quruluşunun təkmil olub-olmamasından, maddi və qeyri-maddi istehsal sahələrinin, ilk növbədə isə sənayenin və xidmət sferasının inkişaf səviyyəsi və quruluşundan asılıdır.

Respublikamızda əhalinin məşğulluq səviyyəsi və quruluşunun 1970—1998-ci illərdəki mövcud vəziyyətinin dəyişilməsi dinamikasını xarakterizə edən məlumatların təhlilindən (37-ci cədvələ bax) aydın olur ki, 70-ci illərdə və 80-ci illərin əvvəllərində respublika xalq təsərrüfatının kompleks inkişaf etdirilməsi, onun bütün sahələrinin ixtisaslı iş qüvvəsi ilə təmin edilməsi, ixtisaslı fəhlə və mütəxəssis kadrların hazırlanması və onların ixtisasının yüksəldilməsi sistemlərinin təkmilləşdirilməsi və sair sahələrdə görülmüş tədbirlər nəticəsində 1970—1990-cı illərdə respublika iqtisadiyyatında məşğul olanların sayı 1,9 dəfə artaraq, 1547,0 min nəfərdən 2907,0 min nəfərə, o cümlədən sənayedə 1,5 dəfə artaraq, 308,2 min nəfərdən 469,1 min nəfərə, kənd təsərrüfatı və meşə təsərrüfatında 1,9 dəfədən çox (93,6 faiz) artaraq, 464,2 min nəfərdən 898,6 min nəfərə, tikintidə 1,8 dəfə artaraq, 138,9 min nəfərdən 251,7 min nəfərə, nəqliyyat və rabitədə 1,5 dəfədən çox (53,8 faiz) artaraq, 140,3 min nəfərdən 215,8 min nəfərə, ticarət, ictimai iaşə, maddi-texniki təchizat, satış və tədarükdə 2,8 dəfə artaraq, 102,1 min nəfərdən 289,1 min nəfərə, mənzil-kommunal təsərrüfatında və əhaliyə məişət xidmətinin istehsal sahəsində 2,1 dəfə artaraq, 47,2 min nəfərdən 99,7 min nəfərə, səhiyyə, bədən tərbiyəsi və sosial təminatda təqribən 1,9 dəfə artaraq, 88,8 min nəfərdən 169,6 min nəfərə, təhsil, mədəniyyət və incəsənətdə 2,0 dəfə artaraq, 165,2 min nəfərdən 337,8 min nəfərə, elm və elmə xidmətdə 1,6 dəfə artaraq, 36,3 min nəfərdən 57,9 min nəfərə, kreditləşmə, maliyyə və sığortada 2,1 dəfə artaraq, 5,2 min nəfərdən 10,7 min nəfərə,

37-ci cə

1970—1998-ci illərdə Azərbaycan Respublikasında əhalinin məşğulluq quruluşunun dinamikas

Təsərrüfat sahələri	1970-ci ildə		1980-ci ildə		1990-cı ildə		1991-ci ildə		1995-ci ildə		1998-ci	
	Min nəfər	Yekuna nisbətən, faizlə	Min nəfər	Yekuna nisbətən, faizlə	Min nəfər	Yekuna nisbətən, faizlə	Min nəfər	Yekuna nisbətən, faizlə	Min nəfər	Yekuna nisbətən, faizlə	Min nəfər	Y ni
Cəmi iqtisadiyyatda məşğuldurlar	1547,0	100,0	2090,0	100,0	2907,7	100,0	3732,0	100,0	3613,0	100,0	3701,5	
O cümlədən: Sənayedə	308,2	19,2	400,0	19,2	369,1	16,1	458,8	12,3	352,1	9,7	251,1	
Kənd təsərrüfatı və meşə təsərrüfatında	464,2	30,0	619,7	29,6	898,6	30,9	1186,1	31,8	1112,8	30,8	1139,6	
Tikintidə	138,9	9,0	170,9	8,2	251,7	8,7	245,7	6,6	185,1	5,1	154,3	
Nəqliyyat və rabitədə	140,3	9,1	202,8	9,7	215,8	7,4	215,8	5,8	159,1	4,4	166,2	
Ticarət və ictimai iaşədə, MTT, satışda və ədarükdə	102,1	6,6	141,0	6,6	289,1	9,9	388,3	10,4	505,8	14,0	701,7	
Səhiyyə, bədən tərbiyəsi, sosial təminatda	88,8	5,7	111,8	5,3	169,6	5,8	178,9	4,8	174,5	4,8	183,0	
Mənzil-kom. təsər., əhaliyə məişət xidmət. texn. növündə	47,2	3,0	67,9	3,2	99,7	3,4	126,8	3,4	104,8	2,9	158,4	
Təhsil, mədəniy. və incəsənətdə	165,2	10,8	247,0	11,8	33,7	11,6	355,4	9,5	372,6	103	376,9	
Elm və elmə xidmətdə	36,3	2,5	51,8	2,5	57,9	2,0	58,6	1,6	34,1	1,0	31,2	
Kreditləşmə, maliyyə və sığortada	5,2	0,3	8,4	0,5	10,7	0,4	10,4	0,3	14,2	0,4	10,5	
Dövlət və təsərrüfat idarəetmə orqanlarının, kooperativ və ictimai təşkilatların idarəetmə orqanlarının aparatında	31,8	2,0	36,4	1,7	51,0	1,8	52,8	1,4	66,6	1,8	65,3	
Digər sahələrdə	18,9	1,2	32,3	1,5	56,7	2,0	454,4	12,1	531,3	14,8	463,3	

B a x: Народное хозяйство Азербайджанской ССР в 1988 году. Б., 1989, s.28-29, 311; Azərbaycanın statistik göstəriciləri. 1996, s. 27 zan rəqəmlərdə və diaqramlarda. Bakı, 2001, s. 27. Xalqa həsr olunan illər. Bakı, «Səda» nəşriyyatı, 2003, s. 395. 1998-ci ildən son lumatlar (sahələr üzrə) verilmir.

idarəetmə orqanlarının aparatında 1,6 dəfə artaraq, 31,8 min nəfərdən 51,0 min nəfərə, digər sahələrdə isə 3,0 dəfə artaraq, 18,9 min nəfərdən 56,7 min nəfərə gəlib çatmışdır. Bu illər ərzində maddi-istehsal dairəsində məşğul olanların sayı 84,1 faiz artaraq, 1153,7 min nəfərdən 2124,3 min nəfərə, qeyri-istehsal dairəsində isə 94,0 faiz artaraq, 374,5 min nəfərdən 726,7 min nəfərə gəlib çatmış və bu artım bütün sahələrdə özünü göstərmişdirsə, 1991—1995-ci illərdə əksinə bütünlükdə respublika iqtisadiyyatında məşğul olanların sayı 5,3 faiz azalaraq, 3047,2 min nəfərdən 2886,3 min nəfərə düşmüş, o cümlədən maddi istehsal dairəsində işləyənlərin sayı 11,1 faiz azalaraq, 2210,3 min nəfərdən 1965,2 min nəfərə, qeyri-istehsal dairəsində isə 2,8 faiz azalaraq, 766,5 min nəfərdən 744,8 min nəfərə düşmüşdür.

Müqayisə edilən **birinci dövrdə** (1970—1990-cı illər) əhalinin məşğulluq quruluşunun formalaşmasında ən xarakterik və qanunauyğun cəhətlərdən biri ondan ibarət olmuşdur ki, sənaye istehsalı ilə yanaşı, ictimai xidmət dairəsində də məşğul olan əhalinin sürətli artımı prosesi baş vermiş və bunun maddi əsasını həmin dövrdə respublikada məhsuldar qüvvələrin ardıcıl surətdə inkişaf etdirilməsi və əmək tədbiqi sferasının, ilk növbədə isə yüksək əmək tutumlu sahələrinin inkişaf etdirilib təkmilləşdirilməsi təşkil etmişdir.

İkinci dövrdə isə (1991—1998-ci illər) bütünlükdə respublika iqtisadiyyatında məşğul olanlar arasında ticarət, ictimai iaşə, maddi-texniki təchizat, satış və tədarükdə, səhiyyə, bədən tərbiyəsi, sosial təminat, təhsil, mədəniyyət, incəsənət, elm, kreditləşmə, maliyyə, sığorta və idarəetmə orqanlarında işləyənlərin sayı həm mütləq, həm də nisbi mənada artdığı halda, qalan sahələrdə bu göstəricilər hər iki mənada azalmışdır.

Bu dövrdə əhalinin məşğulluq səviyyəsinin ən sürətli artımı ticarət və ictimai iaşədə, MTT, satışda və tədarükdə (80,7 faiz), ən sürətlə azalması isə tikintidə (47,2 faiz), elm və elmə xidmətdə (46,8 faiz) özünü büruzə vermişdir.

Tədqiq edilən dövrdə respublika əhalisinin məşğulluq səviyyəsi və quruluşun formalaşmasına təsir edən amillərdən biri də əhalinin təhsil səviyyəsinin yüksəldilməsi və onun quruluşunun ali və orta ixtisas təhsili olanlar hesabına dəyişib tək-

milləşməsindən ibarət olmuşdur. Bunu 1979—1999-cu illərdə respublikada yaşayan 15 və yuxarı yaş həddində olan əhali arasında ali və orta (tam və natamam) təhsili olanların sayının 64,4 faiz artaraq 2998 min nəfərdən 4930 min nəfərə gəlib çatması və onların arasında ali və orta ixtisas təhsili olanların xüsusi çəkisinin 22,5 faizdən 25,4 faizə qalxaraq 675 min nəfərdən 1255 min nəfərə gəlib çatması da sübut edir.[245]

Respublika ərazisinin məşğulluq quruluşunu səciyyələndirən digər mühüm göstərici iş qüvvəsinin iqtisadiyyatın maddi və qeyri-maddi istehsal dairələri və onların daxilində bölünməsi nisbətinin dəyişilməsidir. İqtisadiyyatda məşğul olan əhalinin maddi və qeyri-maddi istehsal dairələri arasında bölünməsi nisbətinin ikincinin xeyrinə dəyişməsi qanunauyğun proses olub, cəmiyyətin irəliyə doğru inkişafını özündə əks etdirən ən mühüm göstəricilərdən biridir. 38-ci cədvəldə verilmiş statistik məlumatların təhlili göstərir ki, 1970—1998-ci illəri əhatə edən 28 il ərzində respublikamızın bütünlükdə iqtisadiyyat sahələrində məşğul olanların sayı 2,4 dəfə artdığı halda, maddi istehsal sahələrində bu göstərici 2,0 dəfə, qeyri-maddi istehsal dairələrində isə 7,7 dəfə çoxalmış, həmin sahələrdə məşğul olanların xüsusi çəkisi isə müvafiq surətdə birinci sahədə 75 faizdən 65,2 faizə düşmüş, ikinci dairədə isə 25 faizdən 34,8 faizə qalxmışdır.

38-ci cədvəl[246]

Azərbaycan Respublikasında əhalinin maddi və qeyri-maddi istehsal dairələri arasında bölüşdürülməsi nisbətlərinin dinamikası

	1970		1980		1990		1991		1998x	
	min nəfər	faizlə	min nəfər	faizlə	min nəfər	faizlə	min nəfər	faizlə	min nəfər	faizlə
Cəmi iqtisadiyyatda məşğul olanlar	1547,0	100	2090,0	100	2907,7	100	3732,0	100	3701,5	100
maddi istehsal dairəsində	1172,6	75,0	1566,7	72,6	2124,3	73,1	2494,7	66,8	2412,9	65,2

[245] B a x: Xalqa həsr olunan illər. Bakı, Səda nəşriyyatı, 2003, s. 420.
[246] Yenə orada, s. 420.

qeyri-maddi istehsal dairəsində	374,4	25,0	523,3	27,4	783,4	26,1	1239,3	33,2	1288,6	34,8

1991—1998-ci illərdə isə əksinə bütünlükdə iqtisadiyyatda məşğul olanların sayı 30,5 min nəfər və ya 0,8 faiz, o cümlədən maddi istehsal dairəsində 82,8 min nəfər və ya 3,3 faiz azaldığı halda, qeyri-maddi istehsal dairəsində məşğul olanların sayı isə əksinə 51,3 min nəfər və ya 4,1 faiz çoxalmışdır.

Nəzərə alsaq ki, qeyri-maddi istehsal dairəsində çalışanların əksəriyyəti gənc nəslin böyüməsi və tərbiyə edilməsi, əhalinin mədəni-texniki səviyyəsinin yüksəldilməsi, onların sağlamlığının möhkəmləndirilməsi və ömür müddətinin uzadılması ilə məşğuldurlar və orada işləyənlərin sayı və keyfiyyət tərkibi əhalinin sayı və yaş-cins tərkibinin dəyişilməsinə müvafiq surətdə artmalıdır, onda respublikamızda əhalinin məşğulluq səviyyəsi və quruluşunun hələ də qeyri-qənaətbəxş olduğu aşkara çıxar. Təkcə bunu demək kifayətdir ki, əgər 2002-ci ildə əhalinin hər min nəfərinə düşən iqtisadiyyatda məşğul olanların sayı 454,4 nəfər, o cümlədən kənd təsərrüfatında – 182,2 nəfər, ticarət və ictimai iaşədə – 75,8 nəfər təşkil etdiyi halda, təhsil sahəsində cəmi 39 nəfər, səhiyyə və sosial xidmət sahəsində isə vur-tut – 21,2 nəfər təşkil etmişdir.[247]

Respublikada yaranıb fəaliyyət göstərən yeni bazar strukturlarında (kiçik müəssisələr, kooperativlər, müştərək müəssisələr, fermer və kəndli təsərrüfatları, birjalar və s.) əhalinin məşğulluq səviyyəsi və quruluşunun vəziyyətinin (39-cu cədvələ bax) təhlil edilib öyrənilməsi əsasında müəyyən edilmişdir ki, 1993-cü ildə bütünlükdə ölkə iqtisadiyyatında məşğul olanların 62,0 faizi dövlət sektorunda, 38,0 faizi isə qeyri-dövlət sektorunda (onlardan isə 11,8 faizi kooperativ bölməsinin, 16,3 faizi fərdi bölmənin, 0,1 faizi xüsusi və kollektiv müəssisələrin, 0,1 faizi dinə xidmət edən şəxslərin, 9,7 faizi sərbəst məşğul olanların) işləmişlərsə, 2002-ci ildə bu göstərici 32,0 və 67,7 faiz

[247] B a x: Xalqa həsr olunan illər. Bakı, 2003, s. 396. Yenə orada, s. 57.
x. Bundan sonrakı illər üçün müqayisəli məlumat yoxdur

təşkil etmişdir. Başqa sözlə desək, əhalinin məşğulluğunda həlledici rol qeyri-dövlət sektoruna keçmişdir. Qeyri-dövlət sektorunda məşğul olanların isə indi 39,3 faizi fərdi bölmənin, 6,5 faizi xüsusi və kollektiv təsərrüfatların, 2,9 faizi bələdiyyələrin, xarici investisiyalı və qarışıq müəssisələrin və dinə xidmət edənlərin, 19,6 faizi isə sərbəst məşğul olanların payına düşür. Müstəqillik illərində Azərbaycan Respublikasında əhalinin məşğulluq və işsizlik vəziyyətində və onların quruluşunda baş verən dəyişikliklərin həqiqi vəziyyətini aşkara çıxarıb düzgün qiymətləndirmək məqsədilə müqayisə üçün MDB məkanında olan ölkələrdə də həmin sahədəki vəziyyətə nəzər salmaq məqsədəuyğun olardı. Məsələnin mahiyyətinə keçməzdən əvvəl onu qeyd etmək istərdik ki, MDB məkanında ümumi əmək bazarının formalaşmasına sadəcə olaraq milli əmək bazarlarının məcmusu kimi baxmaq doğru olmaz. Bu, mürəkkəb və uzun müddət tələb edən bir proses olub, həmin ölkələrin məcmu əmək potensialından daha dolğun və səmərəli istifadə edilməsi mexanizminin və onlarla razılaşdırılmış tədbirlər sisteminin işlənib hazırlanmasını tələb edir.

Burada söhbət birgə müəssisələr, transmilli korporasiyalar, kiçik sahibkarlığın mikrokreditləşdirilməsi və sair formalarda əmək kooperasiyasının inkişafından gedir.

39-cu cədvəl [248]

Məşğul olan əhalinin mülkiyyət formaları üzrə bölgüsünün dəyişilməsi dinamikası

	1993-cü ildə		1995-ci ildə		2000-ci ildə		2002-ci ildə	
	cəmi işçilər (min nəfər)	yekuna nisbətən, %-lə	cəmi işçilər (min nəfər)	yekuna nisbətən, %-lə	cəmi işçilər (min nəfər)	yekuna nisbətən, %-lə	cəmi işçilər (min nəfər)	yekuna nisbətən, %-lə
Cəmi iqtisadiyyatda məşğuldur	3714,6	100,0	3613,0	100,0	3704,5	100,0	3726,5	100,0
O cümlədən: mülkiyyət formaları üzrə: dövlət	2303,0	62,0	2027,2	56,1	1278,2	34,5	1202,0	32,3

[248] B a x: Xalqa həsr olunan illər. Bakı, 2003, s. 399-402.

qeyri-dövlət	1411,6	38,0	1585,8	43,9	2426,3	65,5	2624,5	67,7
Onlardan: kooperativ	439,8	11,8	340,9	9,4	---	---	---	---
fərdi	604,5	16,3	631,5	17,5	1439,5	38,9	1464,5	39,3
xüsusi və kollektiv	2,2	0,1	7,0	0,2	271,3	7,3	241,0	6,5
bələdiyyə	---	---	---	---	---	---	18,0	0,4
xarici investisiyaları və qarışıq müəssisələr	---		---		35,1	1,0	37,2	1,0
dinə xidmət edən şəxslər	5,0	0,1	5,0	0,1	35,0	0,9	33,0	0,9
sərbəst məşğul əhali	360,1	9,7	601,4	16,7	645,4	17,4	730,8	19,6

Müstəqil Dövlətlər Birliyi ölkələrində məşğulluq sahəsindəki əməkdaşlığın yeni formalarının cücərtiləri 90-cı illərin birinci yarsında meydana çıxmağa başlamışdı. Lakin sonrakı illərdə bu əməkdaşlığın inkişafı aparılan islahatların və iqtisadiyyatın sosiallaşdırılması sürətindən asılı olaraq, eyni qaydada davam etməmişdir.

Son məlumatlara əsasən, MDB ölkələrinin əmək ehtiyatlarının sayı 164,8 milyon nəfər və ya bu ölkələrin əhalisinin 58,8 faizi qədər olmuşdur. 1991—2000-ci illəri əhatə edən dövrdə burada mövcud olmuş əmək ehtiyatlarının sayı 4,6 milyon nəfər və ya 2,8 faiz artmışdı. 2000-ci ildə bu birliyə daxil olan ölkələrdə məşğul olan əhalinin sayı 119,7 milyon nəfər, iqtisadi fəal əhalinin sayı isə 133,5 milyon nəfər olub həmin birlik ölkələrinin bütünlükdə əmək ehtiyatlarının müvafiq qaydada 72,6 və 81,0 faizini təşkil etmişdi. Məşğul olan əhalinin bütünlükdə MDB ölkələrinin əhalisi arasındakı xüsusi çəkisinə gəldikdə isə bu göstərici 42,6 faizdir.

Bütün bunlar hazırda MDB ölkələri üzrə mövcud olan əmək potensialından istifadənin vəziyyəti barədə, tam olmasa da, müəyyən dərəcədə təsəvvür yaradır.

Əmək qabiliyyətli yaşında olan, iqtisadi cəhətdən qeyrifəal əhalinin sayına gəldikdə (ev təsərrüfatının aparılması ilə məşğul olan şəxslər, yuxarı siniflərdə oxuyanlar, əmək qabiliyyətli olub işləməyən başqa şəxslər və s.) isə onların sayı 31,3 milyon nəfərdən çox olub, həmin ölkələrdə mövcud olan əmək ehtiyatlarının 19 faizini təşkil edir. Bu göstərici Azərbaycanda,

Qazaxıstanda, Moldova, Rusiya, Türkmənistan və Ukraynada 17-20 faiz, Belorus, Qırğızıstan, Gürcüstan və Özbəkistanda 23-28 faiz, Ermənistanda 36 faiz, Tacikistanda isə 44 faizdir.

Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrin bəzilərində aparılan sosioloji tədqiqatların nəticələrinə əsasən iqtisadi cəhətdən qeyri-fəal əmək qabiliyyətli yaşda olan, əhalinin təqribən 10 faizini iş axtaran və dərhal işləmək imkanına malik olmayan şəxslər təşkil edirlər.[249]

Həmin tədqiqatlara əsasən müəyyən edilmişdir ki, gələcək inkişaf baxımından tələbələr və yuxarı sinif şagirdləri ixtisaslı iş qüvvəsi potensialını təşkil edirlər və onlar yaxın illərdə əmək fəaliyyətinə qoşularaq öz ölkələrinin sosial-iqtisadi inkişafının yüksəlişinə təsir göstərəcəklər. Burada onu da qeyd etmək lazımdır ki, bütünlükdə 90-cı illərdə milli əmək bazarının formalaşmasında 1998-ci ilədək istehsalın həcminin aşağı düşməsi, iqtisadiyyatın yenidən qurulması, instisional dəyişikliklər, investisiya fəallığının azalması və maliyyə çatışmazlıqları həlledici rol oynamışdı. Statistik məlumatların təhlilindən o da aydın olur ki, 1991—2000-ci illərdə MDB ölkələrində iqtisadiyyatda məşğul olanların sayı 15,4 milyon nəfər və ya 11,4 faiz azalmışdır. Ən əsası isə odur ki, bu azalma 12 ölkədən 9-unda baş vermişdir (40-cı cədvələ bax).40-cı cədvəldən göründüyü kimi, bu azalmanın ən yüksək səviyyəsi Gürcüstan (28,5%), Moldova (27,3%), Ermənistan (23,2%), Qazaxıstan (20,2%) və Tacikistan (18,1%) Respublikalarında, nisbətən aşağı səviyyəsi isə Belorus, Rusiya və Ukraynada (12-14% arasında) qeydə alınmışdı. Bu ölkələrin əksinə olaraq, məşğulluq səviyyəsi Özbəkistanda 6,8%, Qırğızıstanda 2,1% artmış, Azərbaycanda isə sabit qalmış və ya cəmi 0,7 faiz azalmışdır. Ancaq bu göstərici ümumi daxili məhsulun aşağı düşməsi sürəti ilə (bu göstərici bəzi MDB ölkələrində 50 faizdən çox olmuşdu) müqayisədə xeyli aşağıdır. Maraqlı haldır ki, istehsalın həcminin belə kəskin şəkildə azalmasına baxmayaraq, bəzi səbəblər üzündən bu, məşğulluğun son dərəcə aşağı düşməsinə təsir etməmişdir. Çünki müəssisə rəhbərləri öz

---

[249] Демографическая ситуация и формирование общего рынка труда государств-участников СНГ. М., 2001, с. 47

40-cı cədvəl [250]

MDB ölkələrində iqtisadiyyatın bölmələri üzrə məşğulluq quruluşunun dəyişilməsi dinamikası

Ölkələr / İllər		Cəmi min nəfər	Yekuna nisbətən, faizlə			
			dövlət müəssisələri və təşkilatları	xüsusi bölmə	ictimai təşkilatlar, fondlar	müştərək müəssisələr və qarışıq mülkiyyətdə olan form
Azərbaycan	1991	3732	65	35	---	---
	2000	3705	36	64	---	---
Ermənistan	1991	1671	67	30	3	---
	2000	1283	27	72	1	---
Belorus	1991	5029	77	20	1	2
	2000	4442	63	34	1	2
Gürcüstan	1991	2519	75	25	---	---
	2000	2283	35	65	---	---
Qazaxıstan	1991	7716	83	17	---	---
	2000	6160	23	77	---	---
Qırğızıstan	1991	1731	70	29	1	0
	2000	1767	22	73	1	4
Moldova	1991	2070	61	36	1	2
	2000	1515	26	68	---	6
Rusiya	1991	73848	76	13	1	10
	2000	64600	38	45	1	16
Tacikistan	1991	1970	59	39	1	1
	2000	1622	38	61	---	1
Türkmənistan	1991	1527	56	43	---	1
	2000	1839	39	56	---	2
Özbəkistan	1991	8255	63	37	---	---
	2000	8885	29	69	1	1
Ukrayna	1991	24995	79	21	---	---
	2000	21600	34	66	---	---
MDB üzrə (qiymətləndirmə)	1991	135058	75	19	3	3
	2000	119692	36	54	1	0

müəssisələrində sülh şəraiti yaratmaq məqsədilə şüurlu qaydada əmək haqlarının azaldılması, istehsal güclərinin yükünün aşağı salınması və müəssisələrin bir hissəsini satmaq yolu ilə ştatları

[250] В а х: Демографическая ситуация и формирования общего рынка Труда государств-участников СНГ. М., 2001, с. 48.

minimum həddə qədər ixtisar etmişlər. Bu məqsədlə müəssisə rəhbərləri kollektivlə birlikdə özəlləşdirmə yolu ilə müəssisələri alıb onların üzərində tam nəzarət əldə etməyə cəht göstərirdilər. Müəssisələrin bir çoxu isə hətta maliyyə çətinliyi bəhanəsi ilə işçilərə işdənçıxma pulunu ödəməkdən belə qaçmağa çalışırdılar.

Belə şəraitdə çıxış yolu kimi işçilər məcburi qaydada məzuniyyətə çıxmağa təhrik edilir, tam olmayan iş günündə işləməyə keçirilir, əmək haqlarının ödənilməsi gecikdirilirdi. Belə olan halda əməkdaşlar işdən kənarlaşdırılmaqdansa, bu cür qanunsuzluqlarla razılaşmağa məcbur olurdular. Mənfəətlə işləməyən müəssisələrdən artıq işçilərin işdən çıxarılması dövlət orqanları tərəfindən də müdafiə olunur və hətta, onlara müəyyən güzəştlər verilirdi. Buna görə də MDB ölkələrində məşğulluq sahəsində yaranmış bu gərginlik məşğulluğa dair rəsmi statistikada əks etdirilmirdi. 1998-ci ilin böhranından sonra MDB ölkələrində həm ÜDM-da və həm də məşğulluqda (az da olsa) tədricən artım hiss edilməyə başlamışdı. Belə ki, artıq 1999-cu ildə ÜDM-un 3-4,4 faiz artımı şəraitində məşğulluq səviyyəsindəki artım Tacikistanda – 0,2; Qırğızıstanda – 0,3; Özbəkistanda – 1,0; Belorusda – 1,2; Rusiyada isə 1,3 faiz təşkil etmişdi.

Bu ölkələrdə məşğulluq və əmək bazarındakı vəziyyətə sənaye məhsulu istehsalının, müəssisələrin kommersiya yük dövriyyəsinin, əhaliyə rabitə və pullu xidmətlərin artması əlverişli təsir göstərmişdi. Ancaq 2000-ci ildə bütünlükdə MDB ölkələrində ÜDM istehsalının artımı şəraitində məşğulluqda heç bir adekvat artım baş verməmişdi. Həmin il Azərbaycanda, Ermənistanda, Belorusda, Qırğızıstanda və Moldovada ÜDM-un artımı 1,9 – 11,4 faiz arasında tərəddüd etdiyi halda, məşğulluq səviyyəsi əvvəlki 1999-cu ildəki kimi qalmışdı. Halbuki ÜDM-in müvafiq surətdə 8,3 və 60% artımı müqabilində Tacikistan və Ukraynada məşğul olanların sayı 1,7 milyon nəfərdən 1,6 milyon nəfərə (5,9% azalıb) və 21,8 milyon nəfərdən 21,6 milyon nəfərə (0,9% azalıb) düşmüşdü. Təkcə Qazaxıstan və Rusiyada isə məşğulluq səviyyəsi ÜDM-la korrelyasiyada artmışdı.

Beləliklə, 1999—2000-ci illərdə MDB ölkələrində məşğulluq səviyyəsinin artması göstəricisinin müxtəlifliyi ən azı iki səbəblə: müəssisələrdə xeyli miqdarda əmək resurslarının olması, tələb və təklifin quruluşunun iş qüvvəsinə uyğun gəlməməsi ilə əlaqədardır. Bunu onda görmək olar ki, qeyd edilən dövrdə ölkə iqtisadiyyatında məşğul olanlar arasında məcburi olaraq natamam iş günü və ya iş həftəsi ərzində işləyənlərin xüsusi çəkisi Rusiyadakı 6 faizlə Gürcüstanda 10 faiz, Qazaxıstanda – 11 faiz, Moldovada – 14 faiz, Ukraynada və Belorusda – 18-20 faiz arasında tərəddüd etmişdi. Natamam iş günü və ya iş həftəsi ərzində işləmək halları isə özünü ən çox yüngül, maşınqayırma, kimya, neft-kimya sənayesinin müəssisələrində, nəqliyyatda, elmi müəssisələrdə və tikintidə büruzə vermişdi. Sonrakı illərdə isə əksər MDB ölkələrində natamam iş günü və ya iş həftəsi ərzindəki məşğulluğun miqyası xeyli azalmışdı.

Məsələn, Rusiyada bu formada işləyənlərin sayı 1999-cu ildəki 2,6 milyon nəfərdən 2000-ci ildə 1,37 milyon nəfərə düşmüş və ya 47 faiz azalmış, məcburi məzuniyyətə göndərilənlərin sayı isə 36 faiz azalaraq 2,8 milyon nəfərdən 1,8 milyon nəfərə düşmüşdü. Müəssisələrdə mövcud olan əmək resurslarının həcmi barədə isə ÜDM-la məşğulluq arasındakı nisbətə əsasən fikir yürütmək olar. MDB ölkələri bu nisbətə görə birbirindən fərqlənir və bu göstərici həmin ölkələrin milli əmək bazarlarının formalaşması xüsusiyyətlərini özündə əks etdirir. ÜDM-un həcminin azalması səviyyəsi ilə məşğulluq səviyyəsi arasındakı fərqi özündə əks etdirən əmək yığımı əmsalı (və ya əmək ehtiyatlarının indikatoru) 1991—2000-ci illərdə MDB-nin ayrı-ayrı ölkələrində 0,1 – 41,0 faiz bənd, o cümlədən Ermənistanda – 01; Qazaxıstanda – 1,9; Özbəkistanda – 7,9; Qırğızıstanda – 30,7; Ukrayna, Azərbaycan və Tacikistanda – 39-41 faiz bənd arasında tərəddüd etməklə, bir-birlərindən fərqlənmişlər (41-ci cədvələ bax).

41-ci cədvəl[251]

MDB ölkələrində 1991—2000-ci illərdə istehsalın həcmi və məşğulluğun dinamikası

MDB ölkələri	1991-ci ilə nisbətən 2000-ci ildə VDB-un dinamikası %-lə	1991-ci ilə nisbətən 2000-ci ildə məşğulluğun dinamikası %-lə	Əmək ehtiyatlarının indikatoru
Azərbaycan	59,5	99,3	- 39,8
Ermənistan	76,9	76,8	+ 0,1
Belorus	89,9	88,4	+ 1,5
Gürcüstan	47,6	71,5	- 23,9
Qazaxıstan	77,9	79,8	+ 1,9
Qırğızıstan	72,0	102,1	- 30,1
Moldova	42,0	72,7	- 30,7
Rusiya	69,1	87,5	- 18,7
Tacikistan	41,0	81,9	- 40,9
Türkmənistan	---	---	---
Özbəkistan	99,0	106,8	- 7,9
Ukrayna	47,3	86,4	- 39,1

Yuxarıda qeyd edilən rəqəmlər əmək bazarının istehsalın dinamikasına adaptasiyasının sürətini göstərir və bu əsasda makroiqtisadi islahatların iş qüvvəsinə olan tələbə təsirini və ya yığılmış gizli işsizlər potensialını özündə əks etdirir. Statistik məlumatların təhlili göstərir ki, MDB məkanına daxil olan ölkələr arasında gizli işsizlərin ən çox olduğu dövlətlər sırasına Tacikistan, Azərbaycan, Ukrayna, Qırğızıstan və Moldova Respublikaları başçılıq edirlər. MDB məkanına daxil olan ölkələrdə əhalinin məşğulluq quruluşunda baş vermiş ən kordinal dəyişiklik isə iş qüvvəsinin dövlət sektorundan xüsusi sektora keçməsindən ibarətdir. Bunu onda görmək olar ki, 2000-ci ildə bütünlükdə MDB ölkələrində qeyri-dövlət sektorunda (xüsusi sektor, ictimai təşkilatlar, xarici ölkələrin firmaları ilə birlikdə yaradılmış qarışıq mülkiyyət formasında fəaliyyət göstərən müəssisələr daxil olmaqla) işləyənlərin sayı 1991—2000-ci illərdə 42,8 milyon nəfər çoxalaraq, 76,6 milyon nəfərə gəlib çatmış və ya 2,3 dəfə artmışdı. Müqayisə edilən dövrdə bu sektorda

[251] B a x: Демографическая ситуация и формирование общего рынка труда государств-участников СНГ. М., 2001, с. 51.

məşğul olanların xüsusi çəkisi 2,6 dəfə artaraq, 25 faizdən 64 faizə, o cümlədən Ermənistanda – 33 faizdən 73 faizə, Gürcüstanda – 25 faizdən 65 faizə, Qazaxıstanda – 17 faizdən 77 faizə, Qırğızıstanda – 30 faizdən 78 faizə; Moldovada – 39 faizdən 74 faizə; Özbəkistanda isə 37 faizdən 71 faizə gəlib çatmışdı.[252]

Dövlət sektorundan kənarda məşğul olanların (76,6 milyon nəfərin) 40,1 milyon nəfəri və ya 52,3 faizi Rusiyanın, 2,43 milyon nəfəri və ya cəmi 3,2 faizi isə Azərbaycan Respublikasının payına düşmüşdü. MDB ölkələrində məşğul olan iş qüvvəsinin sahələr arasındakı hərəkətinin dəyişilməsi vəziyyəti isə aşağıdakı 42-ci cədvəlin məlumatları ilə səciyyələnir. Həmin cədvəldən göründüyü kimi, 1991—2000-ci illərdə MDB ölkələrinin hamısında sənaye və tikinti istehsalında məşğul olanların xüsusi çəkisi kəskin surətdə azalmışdır. Bu azalma o, ölkələrdə daha sürətlə getmişdir ki, həmin ölkələrdə əvvəllər qeyd edilən sahələrin həm mütləq sayı və həm də xüsusi çəkisi aşağı olmuşdur. Məsələn, öyrənilən dövrdə bu göstərici Azərbaycanda 19 faizdən 11 faizə (o cümlədən sənayedə 15 faizdən 6,5 faizə), Qırğızıstanda – 26 faizdən 11 faizə (o cümlədən sənayedə 17,9 faizdən 9,8 faizə), Moldovada – 28 faizdən 14 faizə (o cümlədən sənayedə 20,6 faizdən 11,0 faizə), Tacikistanda – 20 faizdən 10 faizə (o cümlədən sənayedə 13 faizdən 8 faizə) düşmüşdür.

Yalnız Belorus, Rusiya və Ukraynada sənaye sahəsində işləyənlərin xüsusi çəkisi 22-28 faiz arasında qala bilmişdi. Eyni zamanda, bütün MDB ölkələrində kənd təsərrüfatında, nəqliyyat, rabitə, ticarət, təhsil, mədəniyyət, səhiyyə, mənzil-kommunal təsərrüfatı daxil olmaqla, xidmət dairəsində işləyənlərin xüsusi çəkisi artmışdı. Öyrənilən dövrdə yeni iş yerləri başlıca olaraq xidmət dairəsində, ələlxüsus da maliyyə və istehsala xidmət sahələrində, dövlət idarələrində, habelə ticarət, turizm və sair xidmət sahələrində yaradılmışdır. Qeyd edilən dövrdə xidmət dairəsində Müstəqil Dövlətlər Birliyinə daxil olan 12 dövlətdən beşində xidmət dairəsində işləyənlərin xüsusi çəkisi artmışdır. Bu göstərici Belorusda – 40 faizdən 51 faizə, Qazaxıstanda

---

[252] Демографическая ситуация и формирование общего рынка труда государств-участников СНГ. М., 2001, с. 50-51.

42-ci cədvəl [253]

MDB ölkələrində əhalinin sahə məşğulluq quruluşunun dinamikası (yekuna nisbətən, %-lə)

İllər / Dövlətlər		Sənaye və tikinti	Kənd təsərrüfatı, meşəçilik və balıqçılıq	xidmət dairəsi	Onlardan		
					nəqliyyat və rabitə	ticarət və təchizat, satış və tədarük	başqa sahələr
Azərbaycan	1991	19	30	51	6	11	34
	2000	11	43	46	4	16	26
Ermənistan	1991	38	22	40	5	6	29
	2000	19	43	38	4	8	26
Belorus	1991	42	18	40	7	8	25
	2000	35	14	51	7	12	32
Gürcüstan	1991	29	26	45	7	6	32
	2000	9	52	39	4	9	26
Qazaxıstan	1991	30	24	46	9	7	30
	2000	18	22	60	---	---	---
Qırğızıstan	1991	26	35	39	5	6	28
	2000	11	53	36	4	10	22
Moldova	1991	28	35	37	5	7	25
	2000	14	51	35	4	10	21
Rusiya	1991	42	13	45	8	7	30
	2000	31	13	56	8	15	33
Tacikistan	1991	20	44	36	5	6	25
	2000	10	67	23	---	---	---
Türkmənistan	1991	21	41	38	6	6	26
	2000	18	48	34	5	6	23
Özbəkistan	1991	23	41	36	5	5	26
	2000	20	36	44	4	8	32
Ukrayna	1991	40	19	41	7	7	27
	2000	24	22	54	6	7	41
MDB üzrə (qiymətləndirmə)	1991	38	19	43	7	7	29
	2000	26	21	53	7	12	34

– 46 faizdən 60 faizə, Rusiyada – 45 faizdən 56 faizə, Özbəkistanda – 36 faizdən 44 faizə, Ukraynada – isə 41 faizdən 54

[253] Демографическая ситуация и формирование общего рынка труда государств-участников СНГ. М., 2001, с. 521.

faizə qalxmışdır. Bu ölkələrdə hər iki nəfər işləyəndən biri, o cumlədən ticarət, təchizat, satış və tədarükdə 12-15 faizi çalışır. Başqa ölkələrdə xidmət sahələrində məşğul olanların xüsusi çəkisi bir qədər azalsa da, həmin dairədə işləyənlərin xüsusi çəkisi Tacikistandakı 23 faizlə Azərbaycandakı 46 faiz arasında tərəddüd edir. İqtisadiyyatda baş verən struktur dəyişiklikləri və yenidənqurma şəhər yerlərində məşğul olanların kənd təsərrüfatında işləməyə getməsinə səbəb olmuşdur. 42-ci cədvəlin məlumatlarından göründüyü kimi, 90-cı illərdə 8 MDB dövlətində, xüsusilə də Azərbaycanda (30%-dən 43%-ə), Ermənistanda (22%-dən 43%-ə), Gürcüstanda (26%-dən 52%-ə), Qırğızıstanda (35%-dən 53%-ə), Moldovada (35%-dən 51%-ə) və Tacikistanda (44%-dən 67%-ə) kənd təsərrüfatında məşğul olanların xüsusi çəkisi əhəmiyyətli surətdə artmışdı. Gürcüstan, Qırğızıstan, Moldova, Tacikistan və Türkmənistan Respublikalarında bütünlükdə iqtisadiyyatda məşğul olanların hər iki nəfərindən biri kənd təsərrüfatı, meşəçilik və balıqçılıq sahələrində çalışırlar. Bazar iqtisadiyyatı sisteminə keçilməsi məşğul olan əhalinin peşə-ixtisas tərkibində də müəyyən müsbət irəliləyişlərin baş verməsinə səbəb olmuşdu. Firma direktoru, menecer, loqistik, böhran əleyhinə müdir, bank işçisi və s. bu kimi peşələr meydana çıxmışdı. Bu proseslərin yaranması bazar iqtisadiyyatının fəaliyyəti üçün həyati əhəmiyyətə malik olan kredit, maliyyə, çığorta və s. bu kimi xidmət sahələrində çalışanların sayının əhəmiyyətli dərəcədə artmasına səbəb olmuşdu.

90-cı illərdə bütünlükdə MDB ölkələrində həmin sahələrdə işləyənlərin sayı təqribən iki dəfə artmışdı. Maliyyə-bank sistemində işləyənlərin sayının sürətli artımına təsir edən əsas amillərdən biri bu sahələrdə işləyənlərin əmək haqqının başqa dövlət orqanlarında işləyənlərin əmək haqqından xeyli çox olmasıdır. İş qüvvəsinin iqtisadiyyatın bölmələri arasında bölünməsi sahəsində baş vermiş irəliləmələr, qeyri-dövlət sektorunda məşğulluğun koordinal surətdə dəyişməsi isə əmək bazarında rəqabət mühitinin yaranmasına şərait yaradır. Bazar infrastrukturu, ticarət-vasitəçilik, notarial-xidməti, bank sferası və sair alternativ məşğulluq sahələri inkişaf edir. Məşğulluqda baş vermiş bəzi struktur dəyişiklikləri konyuktur, müvəqqəti xarak-

ter daşıyır. Məşğulluq sahəsində ən çox artım ticarət-vasitəçilik strukturlarında baş vermişdir. Bunu onda görmək olar ki, əgər 1991—2002-ci illərdə Azərbaycan Respublikasında bütünlükdə iqtisadiyyatda məşğul olanların sayı 0,2 faiz azalaraq 3732,0 min nəfərdən 3726,0 min nəfərə düşmüşdürsə, ticarət, ictimai iaşə, maddi-texniki təchizat, satış və tədarükdə 1,6 dəfə artaraq, 399,3 min nəfərdən 621,9 min nəfərə gəlib çatmışdı.[254]

Məşğulluq sahəsindəki struktur dəyişiklikləri, habelə işçilərin məşğulluq statusu üzrə bölüşdürülməsindəki dəyişikliklərlə də müşayət olunur. Belə ki, dövlət sektorunda muzdla işləyənlərin sayı və xüsusi çəkisi azaldığı halda, müvafiq surətdə sərbəst məşğul olanların sayı və xüsusi çəkisi artır. Bunu belə bir həqiqət də təsdiq edir ki, 1993—2002-ci illərdə respublikamızda dövlət sektorunda işləyənlərin sayı 47,8 faiz azalaraq 2303,0 min nəfərdən 1202,0 min nəfərə, cəmi iqtisadiyyatda məşğul olanlar arasında onların xüsusi çəkisi isə 29,7 faiz bənd azalaraq, 62,0 faizdən 32,3 faizə düşmüşdürsə, həmin dövrdə müvafiq surətdə burada sərbəst məşğul olanların sayı 2,0 dəfə artaraq, 360,1 min nəfərdən 730,1 min nəfərə, xüsusi çəkisi isə 9,9 faiz bənd artaraq, 9,7 faizdən 19,6 faizə qalxmışdı.[255]

Sərbəst məşğulluğun inkişaf dərəcəsinə görə MDB ölkələrini **üç qrupa** bölmək olar. **Birinci qrupa** sərbəst məşğulluğun daha geniş surətdə yayıldığı – Azərbaycan, Qazaxıstan, Gürcüstan, Ermənistan, Moldova və Tacikistan Respublikaları daxildir. Bu respublikalarda muzdla işləyənlərin xüsusi çəkisi 30-59 faiz arasında tərəddüd edir. **İkinci qrupa** Özbəkistan, Ukrayna, Türkmənistan Respublikları aiddir. Bu respublikalarda muzdla işləyənlərin xüsusi çəkisi 20-30 faiz arasında tərəddüd edir. **Üçüncü qrupa** isə Belorus və Rusiya daxildir ki, burada da sərbəst məşğul olanların xüsusi çəkisi 4-7 faiz olmaqla fərqlənir.[256]

MDB ölkələrində sərbəst məşğulluğun inkişaf səviyyəsindəki bu müxtəliflik həmin ölkələrin iqtisadiyyatının quruluşu

---

[254] B a x: Əmək bazarı. Rəqəm və diaqramlarda. B., 2001, s. 27 və Azərbaycan Rəqəmlərdə 2003, Bakı, 2003, s. 13.

[255] B a x: Xalqa həsr olunan illər. Bakı, 2003, s. 391-402.

[256] B a x: Демографическая ситуация и формирование общего рынка труда государств-участников СНГ. М., 2003, с. 54.

və iqtisadi münasibətlərin islahatlaşması sürətilə şərtlənir. Birinci qrup ölkələr üçün çox böyük olmayan ənənəvi istehsal sahələrinin inkişafı xarakterik olduğu halda, Rusiya və Belorus dövlətlərində əmək bazarının fərdi cəhəti keçid dövründə məşğulluğun iri və orta müəssisələrdə təmərküzləşməsinin yüksək olması ilə səciyyələnir. Son məlumatlara əsasən, Rusiyada iri müəssisələrdə 43 milyon nəfərdən çox işçi toplanmışdır ki, bu da bütünlükdə ölkədə məşğul olanların 67 faizini təşkil edir.

İndi Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrin hamısında ikinci məşğulluq forması geniş yayılmaqdadır. Əldə olunan məlumatlara əsasən, təkcə Rusiyada bu məşğulluqda işləyənlərin sayı 8 milyon nəfəri ötüb keçir. MDB ölkələrində çevik məşğulluq forması da əmək bazarının mühüm ünsürü kimi xeyli inkişaf etmişdir. Bu cür məşğulluğa dəyişkən iş qrafikində, tam olmayan iş günü və ya iş həftəsi üzrə işləmək, evdə iş və sair əmək formaları aiddir. Belə çevik iş sistemi orada əmək haqqının nisbətən aşağı olmasına baxmayaraq hər şeydən əvvəl ayrı-ayrı sosial-demoqrafik qruplardan olan əhali: uşaqlı qadınlar, tələbələr, şagirdlər, təqaüdçülər üçün əlverişlidir.

Bütün inkişaf etmiş ölkələrdə natamam iş vaxtı sistemində işləyənlərin xüsusi çəkisi kifayət qədər yüksəkdir. Bu səviyyə, bir qayda olaraq, bəzi inkişaf etmiş ölkələrdə məşğul olanların 1/4 hissəsindən çoxunu təşkil edir. Məsələn, bu göstərici Hollandiyada (32%), İsveçdə (29%), Norveçdə (27%) və İsveçrədə (25%) deyilən dərəcəni ötüb keçir. Müvəqqəti məşğul olanların xüsusi çəkisi İspaniyada 33, Avstraliyada 20, Fillandiyada isə 13 faizdən yüksəkdir.[257] Rusiyanın və başqa MDB ölkələrinin xüsusiyyəti isə ondan ibarətdir ki, bu ölkələrdə tam olmayan iş vaxtındakı məşğulluq formasını əksər sahibkarlar (işverənlər), vergi ödənişləri, subsidlər alınması, vergi güzəştləri və başqa dövlət müavinətləri vaxtı müəyyən qazanc əldə etmək vasitəsi adlandırırlar. Ona görə də bu sahədə əməkçilərin sosial müdafiəsinə dövlət nəzarətinin güclənməsinə ehtiyac vardır.

---

[257] B a x: Демографическая ситуация и формирование общего рынка труда государств-участников СНГ. M., 2001, s. 55.

3.4. GƏLƏCƏKDƏ AZƏRBAYCANDA ƏHALİNİN İŞSİZLİK SƏVİYYƏSİNİN AZALDILMASI İSTİQAMƏTLƏRİ VƏ STRATEGİYASI

Əhalinin işsizlik səviyyəsinin azaldılması və onların tam və səmərəli məşğulluğunun təmin edilməsi müstəqil Azərbaycan dövlətinin qarşısında duran ən ümdə və ümumbəşəri əhəmiyyət kəsb edən problemlərdən biridir. ***Təsadüfi deyildir ki, bu məsələ Azərbaycan Respublikasının yenicə seçilmiş Prezidenti cənab İlham Heydər oğlu Əliyevin «24» noyabr 2003-cü il tarixdə imzaladığı «Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında»*** ilk Fərmanında mühüm vəzifə kimi irəli sürülmüş, respublikanın Nazirlər Kabinetinə və aidiyyəti dövlət orqanlarına tapşırılmışdır ki: «***Ölkədə işsizliyin azaldılmasına və əhalinin, xüsusilə gənclərin faydalı əməklə məşğulluğunun artırılmasına yönəldilmiş tədbirlər planı hazırlayaraq 1 ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin»***. Bu fərman İlham Əliyevin Prezident seçkiləri ərəfəsində irəli sürdüyü platformasındakı vədlərini, o cümlədən prezident seçildiyi halda beş il ərzində Azərbaycanda 600 min yeni iş yerlərinin açılmasını təmin edəcəyi ilə bağlı qarşıya qoyduğu vəzifənin reallaşdırılması məqsədini güdür. Azərbaycan Prezidenti İlham Əliyev hələ həmin fərmanı imzalamaqdan bir həftə əvvəl, yəni Respublika Nazirlər Kabinetinin noyabrın 17-də keçirilmiş iclasında öz vədini bir daha təkrar edərək, ***demişdir ki: «Azərbaycan üçün ən böyük problem işsizlik problemidir. Bu istiqamətdə görüləcək tədbirlərin nəticəsində, əminəm ki, həmin problem də aradan qaldırılacaqdır. Bəyan etmişdim, məqsədimiz odur ki, növbəti beş ildə Azərbaycanda 600 min iş yeri açılsın. Bu sadəcə olaraq, seçkiqabağı vəd deyildir. Bu, proqramdır. Yəni mən əminəm ki, həm dövlət tərəfindən, eyni zamanda, özəl sektor tərəfindən görüləcək tədbirlərin nəticəsində biz buna nail olacağıq»***. Beləliklə, Azərbaycan Prezidenti İlham Əliyev 600 min yeni iş yerinin açılmasının vəd deyil, proqram olduğunu bir daha təsdiqləmişdir. Həmin proqramın yerinə yetirilməsi istiqamətində bir çox vəzifələr irəli sürülmüşdür. Belə vəzifələr arasında iqtisadiyyatın hərtərəfli tərəqqisinə nail olmaq məqsədilə qeyri-neft

sektorunun sürətli inkişafını təmin etmək, bu sahəyə investisiyaların cəlb edilməsinin stimullaşdırılması, aqrar sektorda islahatların ikinci mərhələsinə başlanması, sahibkarlığın inkişafı ilə bağlı əvvəllər qəbul edilmiş qərarların icrasının sürətləndirilməsi, kiçik və orta sahibkarlığın inkişafına qayğının artırılması və sair bu kimi məsələlər də vardır. Bu da bir həqiqətdir ki, respublikamızda işsizlik probleminin həll edilməsində kiçik biznesin inkişaf etdirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Nəzərə alsaq ki, kiçik biznesin inkişafı bazar iqtisadiyyatının dönməzliyini təmin edən və orta sinfin formalaşmasına təsir edən ən başlıca amillərdən biridir, onda hansı ölkədə bu biznes forması zəif inkişaf edirsə, deməli orada işsizliyin artması, əhalinin gəlirlərinin azalması və onların həyat səviyyəsinin aşağı düşməsi labüddür. Kiçik sahibkarlıq ölkənin istehlak bazarını yerli məhsullarla təchiz etməklə, onun istehlak təhlükəsizliyinin təmin edilməsi işində də misilsiz rola malikdir. Buna görə də həmin məsələyə xüsusi diqqət yetirilməlidir. Lakin buna baxmayaraq, bütünlükdə MDB ölkələrində, o cümlədən də Azərbaycanda hələ də kiçik və xüsusi biznesin strukturu qeyri-optimal olaraq qalmaqdadır. Bu sahədə fəaliyyət göstərən müəssisələrin çoxunu ticarət və ictimai iaşə müəssisələri təşkil edir. Buna misal olaraq onu göstərmək olar ki, 2002-ci ildə Azərbaycanda fəaliyyət göstərmiş 25121 kiçik müəssisə və kooperativlərin 14948-nü və ya 59,5 faizini topdan və pərakəndə satış, avtomobillərin, məişət maşınlarının və şəxsi əşyaların təmiri müəssisələrinin, mehmanxanaların və restoranların payına düşdüyü halda, cəmi 1486-sı və ya 5,9 faizi sənaye müəssisələrinin, 1345-i və ya 5,3 faizi kənd təsərrüfatı, ovçuluq, meşəçilik və balıqçılığın, 897-si və ya 3,6 faizi isə tikintinin payına düşmüşdü.[258] Bazar iqtisadiyyatı inkişaf etmiş ölkələrdə isə əksinə kiçik müəssisələr möhkəm strukturu təmin etməklə istehsalda, tikintidə, ticarətdə, xidmət dairəsində, hətta yüksək texnologiyalarda hegemon rol oynayır. Eyni zamanda, onu da qeyd etmək lazımdır ki, bütünlükdə MDB ölkələrində, o cümlədən də Azərbaycanda işsizliyin azaldılması, cəmiyyətdəki gərginliyin

---

[258] B a x: Azərbaycanın statistik göstəriciləri. B., 2002, s. 103.

aradan qaldırılmasında mühüm rol oynaya bilən çevik məşğulluq formalarının inkişafı sahəsində kiçik müəssisələr böyük potensial imkanlara malikdir və bu imkanlardan səmərəli istifadə olunması üçün hər cür şərait vardır. Kiçik müəssisələrin inkişafı çoxlu sayda kiçik mülkiyyətçilərin (sahibkarların) yaranmasına, onların sərbəst qaydada özlərinin məşğulluğunun və həyat səviyyəsinin yüksəldilməsinin təmin edilməsi, bazarların əmtəə və xidmətlərlə təchiz edilməsi işində mühüm rol oynaya bilər və oynamalıdır. Çünki kiçik və orta müəssisələr çox böyük rəqabət üstünlüklərinə malikdirlər. Onlar bir çox hallarda iri müəssisələrə nisbətən adambaşı daha az kapital qoyuluşu ilə yerli materiallardan və əmək ehtiyatlarından daha səmərəli istifadə edə bilərsə, kiçik müəssisələrin sahibkarları yığma və investisiya qoyuluşuna daha çox meylli olurlar; müvəffəqiyyət qazanmaqda onlar daha çox yüksək şəxsi motivlərə malikdirlər; kiçik müəssisələrin subyektləri yerli bazarların tələbinin xarakterini daha yaxşı bilir və çox hallarda konkret istehlakçının sifarişinə uyğun məhsul istehsal edir və ya gətirir; iri mülkiyyətçilərə nisbətən daha çox insanları yaşayış vasitələri ilə təmin edirlər və s.

Kiçik və orta sahibkarlığın mühüm üstünlükləri, habelə onların mövcud əmək və intellektual potensialından daha tam və səmərəli istifadə etmək imkanlarına malik olmaları, xüsusilə də artıq iş qüvvəsi və gizli işsizlərin mövcud olduğu regionlarda olanlardan səmərəli istifadə edə bilmək imkanlarına malik olmaları ilə bağlıdır. Buna görə də təsadüfi deyildir ki, dövlət bazar iqtisadiyyatına və liberal demokratiyaya əsaslanan ölkələrdə kiçik və orta sahibkarlığın müdafiəsi və inkişafına yönəldilmiş məqsədyönlü siyasət aparır. Məsələn, ABŞ-da kiçik biznes 20 milyondan çox müəssisəni əhatə edir və onlar bütün amerikan firmalarının 99 faizini təşkil edirlər. Bu müəssisələrin əksəriyyəti kiçik müəssisələrdir və onların 80 faizindən çoxunda 10 nəfərdən az adam işləyir. Almaniyada bütün firmaların (1,9 milyon firmanın) 99,8 faizi kiçik və orta müəssisələrdən ibarətdir və onlar ölkənin ümumi daxili məhsulunun $^2/_3$ hissəsini istehsal edirlər. İtaliyada 100 nəfərə qədər işçisi olan kiçik müəssisələr ölkədə mövcud olan bütün firmaların 99 faizini təşkil edir. Onlarda ölkədə məşğul olan əhalinin $^3/_4$ hissəsi cəmlənmiş və onlar

dövlətin milli gəlirlərinin 70 faizini yaradırlar. Yaponiyada sənaye məhsulu satışının təqribən 55 faizi, topdan ticarətin 60 faizə qədəri, pərakəndə ticarətin 80 faizi kiçik və orta müəssisələrin payına düşür. Burada təkcə emal sənayesi sahəsində 6,5 milyon kiçik və orta müəssisə fəaliyyət göstərir və onlar orada fəaliyyət göstərən bütün müəssisələrin 99 faizini təşkil edir. Həmin müəssisələrdə 40 milyon nəfər adam çalışır ki, bu da bütünlükdə sənaye işçilərinin 80 faizi qədərdir. Hazırda Hindistan, Pakistan, Sinqapur, Tailand və başqa bu kimi Cənubi—Şərq regionu ölkələrində istehsal olunan milli gəlirin artımının 80 faizi kiçik biznesin payına düşür.[259] Hesablamalar göstərir ki, 2001-ci ildə Azərbaycan Respublikasında dövlət qeydiyyatından keçmiş qeyri-dövlət bölməsinə aid olan hüquqi şəxs statuslu təsərrüfat-maliyyə strukturlarının təqribən 80 faizi kiçik müəssisələrdən ibarət olmuş və onların ümumi daxili məhsuldakı payı 42,7 faiz təşkil etmişdir.[260]

Ancaq aparılan tədqiqatlar göstərir ki, hazırda bir sıra obyektiv və subyektiv səbəblərdən respublikamızda kiçik sahibkarlığın inkişaf potensialından hələlik heç də lazımi səviyyədə istifadə edilmir və bu sahədə bir sıra neqativ meyl və problemlər vardır. Bunlar özünü ilk növbədə bir tərəfdən, sahibkarlıqla məşğul olan fiziki şəxslərin sayının durmadan artmasında, digər tərəfdən isə son dövrlərdə hüquqi şəxs yaratmaqla, işgüzar fəaliyyət göstərməyə meylin aşağı düşməsində, qeydiyyatdan keçmiş və faktiki işləyən müəssisələr arasında böyük fərqin mövcudluğunda, kiçik sahibkarlıqla məşğul olanların sayının mövcud imkanlardan azlığında, bu bölmədə strateji cəhətdən mühüm olan, struktur formalaşdırıcı potensiala malik müəssisələrin zəif təmsil olunmasında, kiçik sahibkarlıq bölməsinin ölkənin ixrac potensialının güclənməsinə zəif təsirində göstərir.

Keçid dövründə kiçik sahibkarlığın formalaşmasına mane olan bir sıra problemlərin təsirinin müəyyənləşdirilməsi, on-

---

[259] Демографическая ситуация и формирование общего рынка труда государств-участников СНГ. М., 2001, с. 60-61.

[260] *Manafov Q.N.* Sahibkarlıq fəaliyyətinin formalaşması və inkişafının elmi-praktik problemləri. Doktor. dissert. avtoreferatı. B., 2002, s. 26.

ların aradan qaldırılması vəzifələrinin araşdırılması ilk növbədə kiçik sahibkarlıqla bağlı vergilərin tənzimləyici, həvəsləndirici və sosial funksiyalarının gücləndirilməsi istiqamətində vergi islahatının daha da dərinləşdirilməsini zəruri edir. Belə ki, son dövrlərdə yeni «Vergi Məcəlləsinin» qüvvəyə minməsi ilə bir sıra vacib vergi dərəcələri (ilk növbədə mənfəət və əlavə dəyər vergiləri) azaldılsa da, işgüzar fəaliyyət subyektlərinin bir qismi üçün sadələşdirilmiş vergi sistemi tətbiq edilsə də, mövcud vergi siyasəti hələ də sahibkarlığın köklü inkişafına əsaslı təsir etmir, vergidən yayınma halları, gizli iqtisadiyyatın mövcudluğu üçün imkan və şərait qalmaqda davam edir.

Kiçik sahibkarlığın normal inkişafını ləngidən əsas amillərdən biri kimi dövlət orqanlarının işgüzar fəaliyyət üzərində köhnə sistemdən qalmış hakim münasibətlərinin qorunub saxlanılması və onun əsas təzahürü kimi icra hakimiyyətləri, hüquq-mühafizə, vergi, gömrük və s. strukturların sahibkarların işlərinə əsassız müdaxilələri çıxış edir. Bu sahədə vəziyyəti yaxşılaşdırmaq üçün son dövrlərdə bir sıra qanunvericilik sənədləri qəbul edilsə də, hazırda sahibkarların işinə dövlət orqanlarının əsassız müdaxilələrinin qarşısını almaq üçün mövcud strukturların bir qisminin ləğv edilməsi ilə yanaşı, belə hərəkətlər nəticəsində işgüzar subyektlərə dəymiş ziyanın günahkarlar tərəfindən ödənilməsi daha təsirli və səmərəli tədbir kimi qiymətləndirilməlidir.

Faktiki materialların təhlili özəl bölməyə məxsus kiçik müəssisələrin iqtisadiyyatın digər sahələri ilə müqayisədə nisbətən az hissəsinin istehsal fəaliyyəti ilə məşğul olduğunu göstərir. Bu vəziyyətin səbəblərinin öyrənilməsi və onların aradan qaldırılması yollarının qiymətləndirilməsi nəticəsində belə bir qənaətə gəlinmişdir ki, istehsal sahibkarlığı qarşısında bütövlükdə işgüzar fəaliyyətlə bağlı problemlərlə yanaşı, bir sıra spesifik əngəllər dayanır ki, buraya da zəruri maliyyə vəsaitlərinin azlığı, dəzgahların, texniki vasitələrin çatışmazlığı, zəruri iqtisadi resursların, kommunal və nəqliyyat xərclərinin bahalığı, müasir texnologiyanın, istehsal binalarının, torpaq sahəsinin əldə edilməsi üzrə obyektiv və subyektiv manelər aid edilə bilər.

Azərbaycanda istehsal sahibkarlığının inkişaf etdirilməsində iqtisadiyyatın güclü potensiala, daxili bazarın tələblərini ödəmək və dünya bazarına çıxarıla biləcək rəqabət qabiliyyətli məhsullar istehsal etmək imkanına malik sənaye sahəsinin mühüm rolu vardır. Ölkə qarşısında dayanan cari və perspektiv vəzifələrin həll edilməsi üçün sənayenin potensialından istifadə edilməsi, mövcud sahibkarlıq sistemində sənaye bölməsinin öz mövcud imkanları səviyyəsində çıxış etməsi və iqtisadi fəallığın digər formaları ilə sistemli halda inkişaf etməsi məqsədilə dövlət tərəfindən biznes sahəsində səmərəli və konseptual sənaye siyasətinin qanunvericilik əsaslarının formalaşdırılması və reallaşdırılması xüsusi aktuallıq kəsb edir. Sənayenin mövcud institusional bazasının yaradılması, müəssisələrin sağlamlaşdırılması, sənaye biznesinin texnoloji potensialının təzələnməsi və dünya standartlarına çatdırılması üçün daxili və xarici investisiyaların vergi mexanizmi yolu ilə stimullaşdırılması, dünyanın sənaye inkişafı sahəsində qabaqcıl texnologiyalarının patentlərinin dövlət tərəfindən əldə edilərək, müəssisələr arasında müsabiqə əsasında güzəştli şərtlərlə bölüşdürülməsi, ölkənin sənaye məhsulunun dünya bazarında təmsil olunması və rəqabətə tab gətirə bilməsi üçün çoxşaxəli kömək mexanizminin tətbiqi bu siyasətin tərkib hissələri kimi dəyərləndirilməlidir.

Kiçik sahibkarlığın istehsal yönümündə, xüsusilə dünya bazarında yüksək tələbə və rəqabət qabiliyyətinə malik ola biləcək milli sənətkarlıq və kənd təsərrüfatının bir sıra məhsulları mühüm rol oynaya bilər. Həmin məhsulların istehsalının dövlət tərəfindən həvəsləndirilməsi iqtisadiyyatın ixrac imkanlarının, kiçik sahibkarların maliyyə əsaslarının möhkəmləndirilməsi ilə yanaşı, bir sıra sosial-iqtisadi problemlərin həllinə, o cümlədən əhalinin paytaxta və iri şəhərlərə miqrasiyasının azaldılmasına, regionların iqtisadi potensialının daha dolğun reallaşdırılmasına, əmək bazarında yaranmış gərginliyin zəifləməsinə imkan yaradardı.

Aparılan tədqiqatların nəticələri göstərir ki, yuxarıda deyilənlərlə yanaşı, ölkədə kiçik sahibkarlığın inkişafına daha bir sıra başqa obyektiv və subyektiv səbəblər mane olur. İlk növbədə bunlara kiçik sahibkarlığın geniş surətdə yaranıb inki-

şaf etməsi üçün zəruri şəraitin olmaması, o cümlədən kifayət qədər dövlət müdafiəsinin və iri dövlət bölmələri ilə etibarlı əlaqələrin olmaması aiddir. Subyektiv səbəblər arasında isə hökumətin məram və məqsədlərinə inamsızlıq əhvali-ruhiyyəsinin artması, yenidənqurmanın və islahatların ilk dövrlərində ümümi «ruhyüksəkliyinin» azalması xüsusi yer tutur. Kiçik sahibkarlığın zəif inkişaf etməsində zəhmətkeş əhalinin yeni şəraitdə istehsal dairəsində işləməyə lazımi səviyyədə adaptasiya olunması da az rol oynamamışdı. O da məlumdur ki, kiçik biznes sahəsində siyasətin institusional əsasları çox ləng formalaşır. Əksər yeni qurumların xüsusiyyəti ondan ibarətdir ki, onlar «yuxarıdan» meydana çıxır, yuxarıların xalis qurumu olaraq qalır və çox az halda bilavasitə istehsalçıya «gəlib çatırlar». Müasir institusional mexanizmlərin ən böyük nöqsanlarından biri ondan ibarətdir ki, kiçik sahibkarlıq əksər hallarda təsərrüfat siyasətinin formalaşdırılmasından kənarlaşdırılaraq müstəqil və potensial fəal sosial birlik kimi fəaliyyət göstərməmişdir.

Kiçik sahibkarlığın sosial aspektləri arasında onun yerli özünü idarəetmə orqanlarının mühüm ünsürü kimi böyük rola malik olmasından ibarətdir. Kiçik sahibkarlıq vətəndaşların bir hissəsini işlə və əmək haqqı ilə təmin etməklə, əhalinin məşğulluq problemlərinin, xüsusilə də onun xırda yaşayış məntəqələrində həll edilməsində böyük rol oynaya bilər. Çünki kiçik biznes əhalini bir-iki şəhər tipli müəssisələrin asılılığından qurtarıb, daha geniş struktura malik olan istehsal və istehlak qurumları yaradıb əmək qabiliyyətli gənclərin həmin əmək dairəsinə cəlb edilməsinə səbəb olar. Təsərrüfatçılığın məhz bu formaları əhalinin az təmin edilmiş və sosial cəhətdən zəif müdafiə olunan hissəsinin işlə təmin edilməsinə təsir göstərə bilər.

Rəsmi dövlət statistika məlumatlarına əsasən, hazırda bütünlükdə MDB ölkələrində, o cümlədən də Azərbaycan Respublikasında (Ermənistan Respublikası istisna olmaqla) əhalinin işsizlik səviyyəsi olduqca aşağı olub 1,2 faizlə (Azərbaycan Respublikası) 4,2 faiz arasında (Ukrayna Respublikası) tərəddüd edir və MDB ölkələri üzrə orta hesabla 2,3 faiz təşkil edir (43-cü cədvələ bax). Ancaq həmin cədvəldən göründüyü kimi, müstəqilliyin ilk ilindən keçən 9 il ərzində (1992—2000-ci

43-cü cədvəl [261]

MDB ölkələrində işsiz əhalinin və işsizlik səviyyəsinin dinamikası (ilin axırına)

MDB ölkələri	Min nəfər		İqtisadi fəal əhalinin sayına nisbətən, %-lə	
	1992-ci ildə	2000-ci ildə	1992-ci ildə	2000-ci ildə
Azərbaycan	6,4	43,7	0,2	1,2
Ermənistan	56,3	153,9	3,4	10,9
Belorus	24,0	95,8	0,5	2,1
Gürcüstan	113,2	116,9	---	---
Qazaxıstan	33,7	231,4	0,4	3,7
Qırğızıstan	1,8	58,3	0,1	3,1
Moldova	15,0	28,9	0,7	1,8
Rusiya	577,7	1037,0	0,8	1,4
Tacikistan	6,8	43,2	0,4	2,6
Türkmənistan	---	---	---	---
Özbəkistan	8,8	43,1	0,1	0,5
Ukrayna	70,5	1155,2	0,3	4,2
MDB ölkələri üzrə orta hesabla	914,2	3007,2	0,7	2,3

illərdə) qeyd edilən respublikaların hamısında həm işsizlik statusu alanların mütləq sayı və həm də işsizlik səviyyəsi xeyli artmışdır. İşsizlərin sayca artımının ən yüksək səviyyəsi Qırğızıstan (32,4 dəfə), Ukrayna (16,4 dəfə), Qazaxıstan (6,9 dəfə), Azərbaycan (6,8 dəfə) və Tacikistan (6,3 dəfə) Respublikalarında, nisbətən az artım səviyyəsi Özbəkistan (4,9 dəfə), Belorus (4,0 dəfə) və Gürcüstan (3,3 dəfə) Respublikalarında, ən az artım səviyyəsi isə Ermənistan (2,7 dəfə), Moldova (1,9 dəfə) və Rusiya (1,8 dəfə) Respublikalarında özünü büruzə vermişdir. 43-cü cədvəldə göstərilən mütləq və nisbi rəqəmlərin heç biri qeyd edilən ölkələrdə mövcud olan işsizlərin sayı və səviyyəsindəki reallığı əks etdirmir. Bu, hər şeydən əvvəl, bir sıra obyektiv və subyektiv səbəblərdən (iş yerlərinin əsas ctibarı ilə fəhlə yerləri olması, əmək haqqının həddən ziyada aşağı olması, boş iş yerlərinin münasib iş yerləri olmaması və s.) məşğulluq xidməti orqanlarında qeydə alınmalarında maraqlı olmamaları ilə və bu

[261] B a x: Демографическая ситуация и формирование общего рынка труда государств-участников СНГ. М., 2001, с. 62.

sahədə hələ də lazımi qayda-qanun yaradılmaması, işsizlərin sayının düzgün müəyyən edilməsi işində xarici ölkələrin təcrübəsindən istifadə edilməməsi və ya çox pis istifadə edilməsi və sairlə (işsiz əhali arasındakı anket-sorğu müayinə tədqiqat üsulundan istifadə edilməməsi) bağlıdır.

Bütünlükdə götürüldükdə, müstəqillik illərinin ötən 10-12 ili ərzində əksər MDB ölkələri üçün ümumi olan cəhət ondan ibarət olmuşdur ki, bu dövrdə əmək bazarında ən çox gərginliklə üzləşənlər sosial cəhətdən zəif müdafiə olunan qadınlar, yaşlı adamlar, gənclər, ali və orta ixtisas məktəblərini bitirənlər olmuşlar. Bunu ondan görmək olar ki, 2000-ci ildə məşğulluq xidməti orqanlarının köməkliyi ilə iş axtaranlar arasında qadınların xüsusi çəkisi Azərbaycan, Qırğızıstan və Tacikistanda 54-55 faiz, Ermənistan, Belorus, Qazaxıstan və Moldovada 60-64 faiz, Rusiya və Özbəkistanda isə 65 faizdən yuxarı olmuşdur. Statistik məlumatlar və aparılan sosioloji tədqiqat materiallarının nəticələri göstərir ki, işsiz qadınların təhsil səviyyəsi həmin qəbildən olan kişilərə nisbətən hələ də xeyli aşağıdır. Bunu Azərbaycan Respublikasında məşğulluq xidməti idarələrində qeydiyyata götürülmüş işsiz qadın və kişilərin təhsil səviyyəsinin dəyişilməsi dinamikasından daha aydın görmək olar (44-cü cədvələ bax). Həmin cədvəlin məlumatlarından görünür ki, tədqiq edilən son 9 il ərzində (1992—2002-ci illər) respublikanın məşğulluq xidməti orqanlarında işsizlər kimi qeydə alınmış bütün işsizlərin 13,4-28 faizini ali təhsili olanlar, 24,7-40,4 faizini isə orta ixtisas təhsili olanlar təşkil etdiyi halda, bu göstərici müvafiq surətdə kişilər arasında 17,9-34,6 və 23,4-33,9 faiz, qadınlar arasında isə, 11,7-24,3 və 25,8-33,7 faiz arasında tərəddüd etmiş və bütün illərdə kişilərin təhsil səviyyəsindən aşağı olmaqla fərqlənmişdir. Uzun illərdən bəri qadınların kişilərə nisbətən məşğulluq səviyyəsinin nisbətən aşağı olmasının mühüm səbəblərindən biri də məhz onların təhsil və peşə ixtisas səviyyəsinə görə hələlik kişilərdən xeyli geridə qalması ilə bağlı olmuşdur.

44-cü cədvəl [262]

Azərbaycanda işsizlərin təhsil səviyyəsinə görə bölüşdürülməsi dinamikası (dekabr ayının sonuna, faizlə)

İllər üzrə işsizlərin cins tərkibi	Cəmi işsizlər	O cümlədən aldıqları təhsil				
	Ali təhsil	orta ixtisas təhsili	texniki peşə təhsili		orta ümumi təhsili olanlar	orta təhsili olmayanlar
İşsizlər cəmi:						
1992	100	16,7	34,8	---	41,3	7,2
1993	100	20,1	40,4	20,6	15,8	3,1
1994	100	17,4	38,4	24,6	17,3	2,3
1995	100	13,4	24,7	20,5	40,2	1,2
1996	100	14,7	31,2	21,1	32,0	1,0
1997	100	15,3	31,9	23,7	27,0	2,1
1998	100	28,2	34,5	---	30,3	7,0
1999	100	28,8	33,7	---	30,8	6,7
2002	100	26,0	35,3	---	33,6	5,1
Kişilər:						
1992	100	21,1	32,2	42,7	---	4,0
1993	100	26,9	37,2	20,5	12,1	3,3
1994	100	23,1	38,3	24,1	12,0	2,5
1995	100	17,9	23,4	18,3	39,3	1,1
1996	100	19,0	31,2	21,2	27,8	0,8
1997	100	19,5	34,0	25,1	18,6	2,9
1998	100	33,7	35,6	---	25,6	5,1
1999	100	34,6	33,9	---	26,3	5,2
2002	100	30,8	33,4	---	31,3	4,5
Qadınlar:						
1992	100	14,1	36,4	---	40,2	9,3
1993	100	14,7	43,1	20,6	18,7	2,9
1994	100	14,1	38,4	24,9	20,4	2,2
1995	100	9,7	25,8	22,3	41,0	1,2
1996	100	11,7	31,1	21,1	34,9	1,2
1997	100	12,3	30,3	22,8	33,1	1,5
1998	100	24,0	33,7	---	33,9	8,4
1999	100	24,3	33,6	---	34,3	7,8
2002	100	22,0	36,9	---	35,6	5,5

[262] B a x: Əmək bazarı. 2003. Bakı, 2003, s. 136.

İşsizlər arasında gənclərin (30 yaşadək olanların) xüsusi çəkisnə gəldikdə isə, 2000-ci ildə bu göstərici Ermənistan, Qazaxıstan, Qırğızıstan, Rusiya və Ukraynadakı 30-36 faizlə, Azərbaycan, Belorus, Moldova və Özbəkistandakı 46-53 faiz və Tacikistandakı 63 faiz arasında tərəddüd etmişdi.[263] 2002-ci ildə Azərbaycanda məşğulluq xidməti orqanlarında işsizlik statusu almış işsizlərin 1,2 faizini 18 yaşa qədər olanlar, 41,3 faizini 18-30 yaşadək olanlar, 3,2 faizini pensiya qabağı yaşda olanlar, 54,3 faizini isə başqa yaşda olanlar təşkil etmişlər.[264]

Hazırda bütünlükdə MDB ölkələrində olduğu kimi, Azərbaycanda da əhalinin peşə hazırlığının əmək bazarında iş qüvvəsinə olan real tələbə uyğun gəlməməsi üzündən ali və orta ixtisas məktəblərini, habelə texniki məktəbləri qurtaranların xeyli bir qismi işsizlər ordusuna qatılırlar. Onlara həmçinin əlillər, keçmiş mühakimlər və qaçqınlar da qoşulurlar.

İndi ən mühüm sosial bəlalardan biri də məşğul olmayan əhalinin yeni iş yerləri axtarmalarının müddətinin get-gedə uzanmasından ibarətdir. Belə ki, əgər bütünlükdə MDB ölkələrində bu müddət 1992-ci ildə – 2,7 ay, 1995-ci ildə – 6 ay olmuşdursa, 1998—2000-ci illərdə – 8 ay təşkil etmişdir. 2000-ci ildə bu göstərici Azərbaycanda – 12 ay, Ermənistanda – 14 ay, Ukraynada – 11 ay, Belorusda – 7 ay, Qazaxıstan və Moldovada – 7,5 ay, Qırğızıstanda – 9 ay, Rusiyada – 6,4 ay, Tacikistanda – 6 ay, Özbəkistanda isə – 4 ay olmuşdu. 1997—2000-ci illərdə bütünlükdə MDB ölkələrində yeni iş yerləri axtarmaq üçün növbədə duranlar arasında bir ildən artıq gözləyənlərin xüsusi çəkisi iki dəfə artmışdır. Bu isə o deməkdir ki, onlar tədricən öz ixtisaslarını itirməyə başlayır və onlarda passivlik və ələbaxımlılıq əhval- ruhiyyəsi formalaşır ki, buna da yol vermək olmaz. Bu göstəricinin vəziyyəti Azərbaycan Respublikasında da ürəkaçan deyildir. Aşağıdakı 45-ci cədvəlin məlumatlarından görünür ki, işə düzəldilmiş işsizlərin ümumi sayında bir ildən yuxarı müddətə işə düzəlmək üçün qeydiyyatda olmuş işsizlərin bütün işsizlər

---

[263] Демографическая ситуация и формирование общего рынка труда государств-участников СНГ. М., 2001, с. 63.
[264] Yenə orada, s. 135.

arasındakı xüsusi çəkisi 1993-cü ildəki 8,8 faizdən 2000-ci ildə 59,6 faizə gəlib çatmışdırsa, bu göstərici müvafiq surətdə kişilər arasında 8,8 faizdən 30,6 faizə, qadınlar arasında isə 8,6 faizdən 69,6 faizə qalxmışdı. Bu göstərici kişi və qadınlar üzrə ayrı-ayrı illərdə müxtəlif olmuş və onlar arasındakı fərq get-gedə çoxalmışdı. Bu fərqin get-gedə artması bir çox amillərə, ilk növbədə isə başlıca olaraq ölkədə aparılan iqtisadi islahatların sürəti və ölkə iqtisadiyyatının quruluşunda qadın və kişi əməyinin üstünlüklə tətbiq edildiyi sahələr arasındakı nisbətliklər və onların inkişaf meylləri ilə bağlı olmuşdur. İş axtaranların xeyli qismi peşə hazırlığı olanlar və ya uzun müddət işləmədiklərindən aldıqları peşə vərdişlərini itirənlərdən ibarətdir. Rəsmi statistikanın məlumatlarına əsasən, bu cür işsizlər MDB ölkələri üzrə bütünlükdə işsizlərin $^1/_3$-nə qədərini təşkil edir. Əmək bazarında rəqabət qabiliyyətinin artırılması işləyən əhalnin peşə hazırlığının miqyasının genişləndirilməsinə təsir edə bilər. Ancaq buna baxmayaraq, hələlik Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələrdə məşğulluq xidməti orqanlarına işləmək üçün müraciət etmiş işsizlər arasında təhsil almağa göndərilənlərin xüsusi çəkisi 4-13 faiz arasında tərəddüd edir.

Onu da qeyd etmək lazımdır ki, işsizliyə görə müavinət alanların xüsusi çəkisinə görə də MDB ölkələri bir-birlərindən fərqlənirlər. 2002-ci ilin məlumatlarına əsasən, işsizliyə görə təqaüd alanların xüsusi çəkisi Ukrayna, Tacikistan və Rusiya Respublikalarında – 53-85 faiz arasında tərəddüd etdiyi halda, bu göstərici Gürcüstan, Azərbaycan və Ermənistanda cəmi 2-10 faizdir.

Burada belə bir cəhəti qeyd etmək istərdik ki, Azərbaycanda 1992-ci ildə işsizlik statusu almış 6409 nəfərin 6199 nəfərinə və ya 96,7%-nə işsizliyə görə müavinət verilmişdirsə, 1973-cü ildə 19474 nəfərin 4434 nəfərinə və ya 22,8%-nə 1995-ci ildə 28314 nəfərin 2981 nəfərinə və ya 10,5%-nə, 2000-ci ildə isə 43739 nəfərin 2768 nəfərinə və ya cəmi 6,3%-nə bu cür müavinət verilmişdir.[265] Bütünlükdə, MDB ölkələrində ümumi olan hal ondan ibarətdir ki, son illərdə bu ölkələrdə təqaüd alan

---

[265] B a x: Əmək bazarı. Rəqəmlərdə və diaqramlarda. Bakı, 2001, s. 117.

45-ci cədvəl [266]

Azərbaycan Respublikasında işə düzəldilmiş işsizlərin işsizlik müddətinə görə bölüşdürülməsinin dinamikası (işə düzəldilmiş işsizlərin ümumi sayından, faizlə)

İşsizlər	Cəmi	O cümlədən				
		1 aya qədər	1 aydan 3 aya qədər	3 aydan 6 aya qədər	6 aydan 1 ilə qədər	1 ildən yuxarı
Cəmi işsizlər: 1993	100	12,7	26,6	34,4	17,5	8,8
1994	100	11,0	19,7	32,3	19,0	18,0
1995	100	7,5	15,3	24,8	12,7	39,7
1996	100	9,4	22,4	35,6	11,4	21,2
1997	100	1,9	10,5	35,9	33,3	28,4
1998	100	1,4	8,9	17,3	32,5	39,9
1999	100	2,6	8,8	19,2	13,9	55,5
2000	100	2,1	8,1	18,8	11,4	59,6
Kişilər: 1993	100	13,5	28,1	34,7	14,9	8,8
1994	100	12,7	16,2	32,9	20,8	17,4
1995	100	7,6	12,2	24,5	13,9	41,8
1996	100	11,3	28,1	24,6	14,3	21,7
1997	100	2,8	15,3	29,6	29,6	22,7
1998	100	1,0	10,2	15,1	43,9	29,8
1999	100	3,8	8,3	24,5	17,4	46,0
2000	100	3,1	8,5	24,2	13,6	50,6
Qadınlar: 1993	100	11,8	25,0	34,2	20,4	8,6
1994	100	9,8	22,3	31,8	17,7	18,4
1995	100	7,4	17,6	25,0	11,7	38,3
1996	100	8,1	18,5	43,1	9,4	20,9
1997	100	1,2	7,0	23,3	35,9	32,6
1998	100	1,9	7,3	20,0	15,5	52,0
1999	100	1,3	9,4	13,5	10,1	65,7
2000	100	1,0	7,6	12,8	9,0	69,6

işsizlərin həm sayı və həm də bütün işsizlər arasında olanların xüsusi çəkisi azalmağa doğru meyl edir və bu meyl son illərdə daha kəskin xarakter almağa başlamışdır. Belə ki, işsizliyə görə təqaüd alanların sayı 1999—2000-ci illərdə Ermənistanda təqri-

[266] B a x: Əmək bazarı. Rəqəmlərdə və diaqramlarda. Bakı, 2002, s. 121.

bən iki dəfə (95,5%) azalaraq, 30,5 min nəfərdən 15,6 min nəfərə, Qazaxıstanda 8,6 faiz azalaraq, 25,7 min nəfərdən 23,5 min nəfərə, Moldovada 27,2 faiz azalaraq, 11,4 min nəfərdən 8,3 min nəfərə, Rusiyada 24,1 faiz azalaraq, 1090,2 min nəfərdən 827,7 min nəfərə, Özbəkistanda 19,7 faiz azalaraq, 21,8 min nəfərdən 17,5 min nəfərə, Ukraynada 1,6 faiz azalaraq, 620,6 min nəfərdən 610,7 min nəfərə düşmüşdü. İşsizliyə görə təqaüd alanların cüzi miqdarda artımı isə Azərbaycan, Belorus, Gürcüstan, Qazaxıstan və Tacikistanda özünü göstərməyə başlamışdır. Bu təqaüdlərin məbləği isə əslində o qədər aşağıdır ki, o, hətta simvolik xarakter daşıyır. 2000-ci ilin sentyabr ayına olan məlumatlara əsasən, bu təqaüdlər orta aylıq əmək haqqının Moldovada – 28,5; Tacikistanda – 27,6; Ukraynada – 22,5; Azərbaycanda – 19,6; Rusiyada – 19,5; Ermənistanda – 14,5; Qazaxıstanda – 8,7; Belorusda isə cəmi 4,5 faizini təşkil etmişdi. ABŞ dolları hesabı ilə bu göstərici Tacikistanda 2 dollardan bir qədər çox, Rusiyada isə 15-16 dollar olmuşdu.

Hazırda bütünlükdə MDB ölkələrində, o cümlədən də Azərbaycanda məşğulluq xidməti idarələrinə müraciət edən işsizlərin sayının potensial işsizlərin sayından qat-qat az olmasının bir səbəbi də məhz işsizliyə görə verilən müavinətlərin son dərəcə aşağı olmasıdır. Nəzərə alsaq ki, hazırda Azərbaycan Həmkarlar Konfederasiyasının (AHK) məlumatlarına görə, bir adam üçün ərzaq səbətinin dəyəri 228,1 min manat, orta yaşayış minimumunun dəyəri 341,2 min manat, işləyən adam üçünsə 413,0 min manatdır, onda yuxarıda deyilən vəziyyətin nə demək olduğunu izah etməyə ehtiyac qalmır.

Beləliklə, hazırda bütünlükdə MDB ölkələrində, o cümlədən də Azərbaycanda işsizliyin başlıca xüsusiyyəti onun cərgəsinin ixtisaslı kadrlar, ali və orta ixtisas məktəblərini bitirənlər hesabına çoxalması, gizli işsizliyin artması, işsizliyə görə verilən müavinətlərin çox aşağı olması, məşğulluq xidməti orqanlarında işə düzəlmək üçün müraciət edən işsizlərin sayının və işsizlik statusu alanlar arasında müavinət alanların xüsusi çəkisinin getdikcə aşağı düşməsindən ibarətdir.

Tədqiqat materiallarının təhlili göstərir ki, bütünlükdə 90-cı illərdə durğunluq şəraitində yeni yaradılan iş yerlərinin

sayı demək olar ki, artmadığından müəssisə və təşkilatlar tərəfindən iş qüvvəsinə olan tələb çox cüzi surətdə dəyişmişdir. Buna görə də, o dövrdən indiyədək iş qüvvəsinə olan tələb təklifi üstələdiyindən əmək bazarında gərginlik qalmaqda davam edir. MDB dövlətləri bu gərginliyə görə bir-birindən fərqlənir. Belə ki, əgər 2000-ci ildə iş qüvvəsinə olan tələblə təklif arasındakı fərqin minimum həddi Özbəkistanda qeydə alınmış və hər boş iş yerinə cəmi 1,3 işsiz düşmüşdürsə, onun maksimum həddi Ermənistanda özünü göstərmiş və burada hər boş iş yerinə düşən işsizlərin sayı 256 nəfər təşkil etmişdir. Bu göstərici Rusiyada – 1,4; Belorusda – 2,9%; Qazaxıstan, Qırğızıstan, Moldova və Ukraynada 15-28 nəfər; Azərbaycanda isə 8,4 nəfər təşkil etmişdir.[267]

Azərbaycan Respublikasında əhalinin məşğulluq problemində yaranmış gərginlik təkcə bu günün və yaxın keçmişin deyil, bütünlükdə sovet hakimiyyəti illərində burada yaranmış vəziyyətin nəticələri ilə bağlıdır. Məsələ burasındadır ki, Azərbaycan Respublikasının uzun illər boyu keçmiş SSRİ-nin xammal mənbəyinə çevrilməsi və burada istehsal olunan məhsulların əksər çoxluğunun onun öz ərazisində son məhsula çatdırılması respublikada lazımi sayda iş yerlərinin yaradılmasına və əhalinin səmərəli məşğulluğunun təmin edilməsinə imkan verməmiş və onun mənfi nəticələri indiyədək aradan qaldırıla bilməmişdir. Hazırda ölkəmizin yeni iqtisadi münasibətlər sisteminə keçməsilə əlaqədar olaraq onun sosial-iqtisadi inkişafı əmək bazarında vəziyyətin tədricən, lakin dönmədən kəskinləşdiyini göstərən bir sıra əlamətlərlə səciyyələnir. Bu əlamətlərə xalq təsərrüfatında məşğul olanların sayının nisbətən azalması ilə yanaşı iqtisadiyyatda məşğul olmayan əmək qabiliyyətli əhalinin, o cümlədən işsizlik statusu alanların sayının xeyli çoxalması, iş qüvvəsi axıcılığının sürətlənməsi, işdən çıxanların sayının işə qəbul edilənlərin sayını xeyli üstələməsi, iş yerlərinin

[267] B a x: Демографическая ситуация и формирование общего рынка труда государст-участников СНГ. М., 2001, с. 65; Əmək bazarı. Rəqəmlərdə və diaqramlarda. Bakı, 2001. s. 11, 123.

sayının əhəmiyyətli dərəcədə ixtisar olması, iş qüvvəsinin keyfiyyət səviyyəsi və tərkibinin nisbətən pisləşməsi və sair aiddir.

46-cı cədvəl [268]

Azərbaycan Respublikasında əmək bazarının əsas göstəricilərinin dəyişilməsi dinamikası (min nəfərlə)

İllər Göstəricilər	1991	1992	1993	1994	1995	1996	1997	1998	1999	2002	1991-2002-ci illərdə %-lə
əhalinin sayı	7218,5	7440,0	7549,6	7643,5	7726,2	7799,8	7876,7	7953,4	8016,2	8141,4	112,8
əmək ehtiyatlarının sayı	4131,9	4133,3	4135,3	4161,3	4227,8	4278,6	4336,0	4437,8	4566,7	4896,2	118,5
iqtisadi fəal əhalinin sayı	3736,0	3728,4	3734,1	3654,9	3641,3	3718,6	3732,4	3743,8	3748,0	3777,5	101,1
onlardan: kişilər	2151,4	2131,8	2084,2	2006,4	1991,3	1992,9	1948,2	1954,1	1956,2	1971,1	91,6
qadınlar	1584,6	1596,6	1649,9	1648,5	1650,0	1725,7	1784,2	1789,7	1791,8	1806,4	114,0
iqtisadiyyatda məşğul olanlar	3732,0	3722,0	3714,6	3631,3	3613,0	3686,7	3694,1	3701,5	3702,8	3726,5	99,8
o cümlədən: kişilər	2149,6	2129,0	2076,5	1997,2	1979,9	1979,8	1932,0	1935,9	1936,6	1948,0	90,6
qadınlar	1582,4	1593,0	1638,1	1634,1	1633,1	1706,9	1762,1	1765,6	1766,2	1778,5	112,4
dövlət sektorunda məşğul olanlar	2441,2	2300,0	2303,0	2190,5	2027,2	1879,9	1717,7	1710,2	1342,0	1192,0	48,8
qeyri-dövlət sektorunda məşğul olanlar	1290,8	1422,0	1411,6	1440,8	1585,8	1806,8	1976,4	1991,3	2360,8	2534,5	196,3
işsizlərin sayı	4,0	6,4	19,5	23,6	28,3	31,9	38,3	42,3	45,2	51,0	12,7 dəfə
onlardan: kişilər	1,5	2,8	7,7	9,2	11,4	13,1	16,2	18,2	19,6	23,1	15,4 dəfə
qadınlar	2,5	3,6	11,8	14,4	16,9	18,8	22,1	24,1	25,6	27,9	11,2 dəfə
işsizlər arasında qadınlar %-lə	62,5	56,2	60,5	61,0	59,7	58,9	57,7	57,0	56,6	54,7	- 7,8
məşğul olanlar arasında qadınlar %-lə	42,4	42,8	44,1	45,0	45,2	46,3	47,7	47,7	47,7	47,7	+ 5,3
işsizlərdən müavinət alanlar	---	6,2	4,4	3,5	3,0	3,3	3,1	2,7	2,4	3,3	---
onlardan: kişilər	---	2,7	1,8	1,4	1,2	1,5	1,4	1,1	1,2	1,6	---

[268] Əmək bazarı. Rəqəmlərdə və diaqramlarda 2001. Bakı, 2001. s. 20, 24, 27, 39; Əmək bazarı. 2003 Statistik məcmuə. B., 2003, s. 18-19; 157, 127.

qadınlar	---	3,5	2,6	2,1	1,8	1,8	1,7	1,6	1,2	1,7	---
müavinət alanlar arasında qadınlar %-lə	---	56,4	59,1	60,0	60,0	54,5	54,8	59,2	50,0		---
Boş iş yerlərinin sayı (min yer)	18,6	10,9	10,7	9,6	9,1	9,5	10,1	8,0	6,6	5,7	30,6

Bazar münasibətlərinə keçidlə əlaqədar olaraq yaranmış iqtisadi çətinliklər dövlətimizi işsizlik və onun həlli ilə bağlı olan bir çox mürəkkəb sosial problemlərlə üz-üzə qoyulmuşdur. Bu baxımdan bazar iqtisadiyyatına keçid şəraitində ölkəmizdə işsizliklə mübarizə və əmək qabiliyyətli əhalinin tam və səmərəli məşğulluğunun təmin edilməsi məsələsi dövlət səviyyəsində həyata keçirilməsi zəruri olan sosial siyasətin ən mühüm istiqamətlərindən birinə çevrilmişdir.

Müstəqilliyimizin ilk illərində iqtisadiyyatda baş verən dağıntılar, respublikamızın başqa ölkələrlə, xüsusilə də MDB ölkələri ilə bütün iqtisadi əlaqələrinin kəsilməsi, ən başlıcası isə Ermənistan—Azərbaycan və Dağlıq Qarabağ münaqişəsinin yaranması, torpaqlarımızın 20 faizinin erməni faşistləri tərəfindən işğal olunması, ölkəmizdə 1 milyon nəfərdən çox qaçqın və məcburi köçkünün mövcud olması, ölkə əhalisinin bir qisminin, ələlxüsus da yüksək ixtisaslı kadrların Azərbaycanı tərk etməsi, özəlləşdirmənin həyata keçirilməsi nəticəsində iqtisadiyyatın müxtəlif sahələrindən xeyli sayda iş qüvvəsinin ixtisar olunması, erməni faşistləri tərəfindən işğal olunmuş ərazilərdə 300 mindən artıq iş yerlərinin itirilməsi, lazımi miqdarda yeni iş yerlərinin yaradıla bilməməsi və sair səbəblər üzündən hazırda ölkəmizin əmək bazarında xeyli gərginlik yaranmış və onun aradan qaldırılması ən təxirə salınmaz vəzifələrdən biri kimi Azərbaycan dövlətinin qarşısında durur. Respublikamızda əmək bazarının müasir durumu 46-cı cədvəldə verilmiş statistik göstəricilərlə xarakterizə olunur. 46-cı cədvəlin məlumatlarından görünür ki, öz müstəqilliyinə qovuşduğu 12 il ərzində (1991—2002-ci illərdə) Azərbaycan Respublikasında əhalinin sayı 12,8 faiz, iqtisadi fəal əhalinin sayı 1,1 faiz artmış, iqtisadiyyatda məşğul olanların sayı isə 0,2 faiz azalmışdır. Eyni zamanda, qeyd edilən dövrdə

respublikadan kənarda miqrasiya edilənlər arasında kişilərin çoxluq təşkil etməsi və sair səbəblərlə əlaqədar olaraq burada iqtisadi fəal və iqtisadiyyatda məşğul olan kişilərin sayı müvafiq surətdə 8,4 və 9,4 faiz azaldığı halda, iqtisadi fəal və iqtisadiyyatda məşğul olan qadınların sayı 14,0 və 12,4 faiz çoxalmışdır. Onu da qeyd etmək lazımdır ki, həmin dövrdə respublikamızda qeydə alınmış bütün işsizlərin sayı 12,7 dəfə artdığı halda, işsiz kişilərin sayı 15,4 dəfə, işsiz qadınların sayı isə bundan xeyli az, yəni 11,2 dəfə artmışdır. Ancaq əsil həqiqət bundan ibarətdir ki, öyrənilən dövrün bütün illərində işsizlik statusu alanlar arasında qadınlar üstünlük təşkil etmiş və onların xüsusi çəkisi 62,5-54,7 faiz arasında tərəddüd etmişdir.

Qeyd edilən dövrdə respublikada məşğulluq xidməti mərkəzlərinə işə düzəlmək üçün müraciət edənlər arasında qadınların belə üstünlük təşkil etməsinə səbəb Ermənistan—Azərbaycan və Dağlıq Qarabağ münaqişəsi nəticəsində bir çox ailələrin ailə başçısı kimi kişilərini itirməsi, on minlərlə ailə başçısı sayılan kişilərin əlil olması və keçid iqtisadiyyatının çətinlikləri ilə bağlı olaraq yüksək əmək haqqı verilən iş yerlərinin hələlik çatışmaması və ümumiyyətlə lazımi sayda iş yerlərinin yaradılmaması və sair səbəblərlə bağlı olaraq, kişi cinsindən olan əmək qabiliyyətli yaşında əhalinin bir qisminin Azərbaycanı müvəqqəti və ya daimi olaraq tərk etməsi üzündən minlərlə ailənin saxlanması vəzifəsinin qadınların öhdəsinə düşməsi və sairdən ibarətdir. Təsadüfi deyildir ki, öyrənilən dövrdə respublika iqtisadiyyatında məşğul olanların arasında qadınların xüsusi çəkisi 5,3 bənd artaraq 1991-ci ildəki 42,4 faizdən 47,7 faizə çatmışdır.

Respublikada formalaşmaqda olan əmək bazarının vəziyyətinin təhlilindən aydın olur ki, 1992—2002-ci illərdə burada mövcud olan boş iş yerlərinin sayı təqribən 1,9 dəfə azalaraq, 10,9 min yerdən 5,7 min yerə düşmüş, iqtisadi fəal əhalinin tərkibində işsizlərin xüsusi çəkisi isə çoxalaraq, 0,17 faizdən 1,35 faizə qalxmışdır. Başqa sözlə desək, öyrənilən dövrdə respublikamızda rəsmi işsizlik statusu alanların sayı sürətlə artmış, boş iş yerlərinin sayı isə artmaq əvəzinə, əksinə daha da azalmışdır. Belə olan halda, Azərbaycanın əmək bazarında iş qüvvəsinə olan tələb və təklifin dinamikası iki əsas prosesin təsiri altında

baş verir. Bir tərəfdən iqtisadiyyatda baş verən struktur dəyişikliklərinin və rəqabətə davam gətirməyən aşağı keyfiyyətli məhsul istehsal edən az rentabelli müəssisələrin bağlanması nəticəsində iş qüvvəsinə olan tələbat azalır, digər tərəfdən isə geniş tələbat doğuran yüksək keyfiyyətli məhsullar istehsal edən müəssisələrin yaradılması ilə əlaqədar olaraq əlavə iş qüvvəsinə tələbat artır. Alternativ məşğulluq formalarının inkişafı, müştərək və xarici firmalarda, kooperativlərdə yeni iş yerlərinin yaradılması və fərdi əmək fəaliyyətinin genişləndirilməsi də iş qüvvəsinə tələbatın artmasına səbəb olur.

Azərbaycan Respublikasının bazar iqtisadiyyatına keçməsi ilə əlaqədar olaraq respublikada struktur işsizlik baş alıb gedir və işsizliyin səviyyəsinə görə ölkənin müxtəlif əraziləri birbirindən ciddi surətdə fərqlənir. Bu cəhətdən çətin vəziyyət özünü kənd yerlərində və dağlıq rayonlarında daha kəskin şəkildə büruzə verir. İndi respublika ərazisində iş yerlərinin təminatı üzrə mövcud olan fərqlər isə onun regionlarında müxtəlif işsizlik səviyyəsinin formalaşmasına gətirib çıxarmışdır.

İnkişaf etməkdə olan ölkələrdə olduğu kimi, Azərbaycanda da mövcud olan işsizlik, inkişaf etmiş ölkələrdəkindən köklü surətdə fərqlənir. Bu isə, hər şeydən əvvəl, respublikamızda keçid iqtisadiyyatı ilə bağlı olan bir sıra kompleks amillərlə şərtlənir və xeyli dərəcədə də keçmiş SSRİ-dən qalmış mirasla əlaqədardır. Bunlar aşağıdakılardan ibarətdir:

- qərbdə geniş yayılmış vahid istehsal mərkəzlərindən fərqli olaraq keçmiş SSRİ-də onun müxtəlif ərazilərində yerləşdirilmiş müəssisələrinin kooperasiyasından geniş istifadə olunurdu. SSRİ-nin dağılması isə təsərrüfat əlaqələrinin pozulmasına səbəb omuş və nəticədə bir çox müəssisələr öz məhsullarının alıcılarını və tədarükçülərini itirmişdir;
- müəssisələrdə istifadə olunan köhnə texnologiyalar yeni bazarlara daxil olmağa imkan verən dünya standartlarına uyğun məhsullar istehsal etməyə imkan vermir;
- investisiyaların hələlik az olması (investisiyaların əsas hissəsi neft çıxarılması sahələrinə yönəldilir);

➢ ölkəni öz daxilində istehsalı mümkün olan məhsullarla təmin etməyin ucuz və keyfiyyətsiz xarici məhsullardan daxili bazarı qorumağın mümkün olmaması.

Hazırda respublikada iş qüvvəsinə olan tələbata, çoxukladlı iqtisadiyyatın yaranması, istehsalın sahə quruluşunun dəyişilməsi və yeni bazar sisteminin formalaşması ilə əlaqədar olan dəyişikliklər də təsir göstərir. Mülkiyyət formalarındakı və əmək münasibətlərindəki dəyişikliklər özüməşğulluğun və sahibkarlığın inkişafına səbəb olmuşdur. Məşğulluq dairəsindəki dəyişikliklər isə müəyyən dərəcədə dövlət mülkiyyətinin özəlləşdirilməsi, onun yeni formalarının və başqa proseslərinin inkişafı ilə bağlıdır.

Azərbaycanın bazar iqtisadiyyatı münasibətlərinə keçməsi, başqa ölkələrdə olduğu kimi, burada da qeyri-formal iqtisadiyyat sektorunun inkişafına zəmin yaratmışdır. Buraya qeyri-mütəşəkkil, nizamlanmayan, qanuni əsaslarla fəaliyyət göstərən, lakin qeydiyyatdan keçməyən küçə ticarəti, müxtəlif xidmətlər göstərən fəaliyyət növləri daxildir. Bu sektorun adamların işlə təmin edilməsində və işsizlik səviyyəsinin azaldılmasındakı rolu günü-gündən artmaqdadır. Qeyri-formal sektor artıq formal sektorun əhalinin işlə təmin edə bilməməsinə cavab kimi yaranıb inkişaf edən bir fəaliyyət sektoru olduğunu sübut etmişdir. Bu sektorda işləyənlər əsas etibarı ilə kənd yerlərindən miqrasiya olunmuşlar, məcburi köçkünlər, formal sektorda iş tapmaq ümidini itirənlər və s. əhali kütləsindən ibarətdir. Ancaq bu sahədə işləyənlərin gəlirləri formal sektorda işləyənlərin gəlirlərindən aşağı olmaqla yanaşı, onlar formal sektorlarda işləyənlər üçün dövlət tərəfindən nəzərdə tutulmuş sosial müdafiənin (iş yerlərini saxlamaq, yaşa görə təqaüd almaq, normal iş şəraiti ilə təmin olunmaq və s.) məhrumdurlar. Qeyri-formal sektora **bir tərəfdən,** gələcəkdə formal sektorda işləyə biləcək adamlar üçün müvəqqəti iş yeri, **digər tərəfdən** isə müəyyən qrup əhali kütləsi üçün daimi gəlir mənbəyi kimi də baxmaq olar. Qeyri-formal sektorun respublikamızda lazımi səviyyədə inkişaf edib genişlənməməsinin bir səbəbi də inzibati orqanların müxtəlif sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyənlərə li-

senziyalar verilməsi sahəsindəki bürokratik hallara yol vermələri ilə bağlıdır. Bir çox insanlar müəyyən növ bizneslə məşğul olmaq üçün qeydiyyatdan keçə bilməməsi üzündən məcburiyyət qarşısında qalıb formal sektorda məşğul olmağa üstünlük verirlər. Lakin bütün bunlara baxmayaraq, bazar münasibətlərinin inkişafı və özəlləşdirmə prosesinin qanunauyğun nəticəsi olaraq, son on il ərzində (1991–2002-ci illərdə) dövlət bölməsində məşğul olanların bütövlükdə iqtisadiyyatda məşğul olanların arasındakı xüsusi çəkisi iki dəfədən çox azalaraq 65,4 faizdən 32,0 faizə düşmüş, qeyri-dövlət bölməsində isə müvafiq surətdə təqribən iki dəfə artaraq 34,5 faizdən 68,0 faizə qalxmışdır. Bu illər ərzində kooperativ bölməsində işləyənlərin sayı və onların qeyri-dövlət bölməsində işləyənlər arasındakı xüsusi çəkisi daim azalmışdır. Fərdi bölmədə işləyənlərin sayı isə 3,1 dəfədən çox artaraq 466,2 min nəfərdən 1464,5 min nəfərə, qeyri-dövlət bölməsində işləyənlər arasında onların xüsusi çəkisi isə 4,6 dəfə artaraq 12,6%-dən 57,8%-ə çatmışdır.

Müqayisə edilən dövrdə respublikamızda məşğulluq sahəsində baş verən dəyişikliklərin ən mühüm xüsusiyyətlərindən biri də sərbəst məşğul olanların sayının və qeyri-dövlət bölməsində işləyənlər arasında olanların xüsusi çəkisinin get-gedə artmasından ibarətdir. Belə ki, əgər 1993-cü ildə respublikada sərbəst məşğul olanların sayı 360,1 min nəfər olmuş və qeyri-dövlət sektorunda işləyənlər arasında onların xüsusi çəkisi 25,5 faiz təşkil etmişdirsə, 2002-ci ildə bu göstəricilər müvafiq surətdə 726,1 min nəfər və 28,6 faiz təşkil etmiş və ya əvvəlki dövrlə müqayisədə xeyli yüksək olmuşdur.[269] Bu dövrün məşğulluq xüsusiyyətlərindən biri də dinə xidmət edənlərin sayca və nisbi mənada artmasıdır. Həmin illərdə Azərbaycanda dinə xidmət edənlərin sayı 6,6 dəfədən çox artaraq 5,0 min nəfərdən 33,0 min nəfərə, qeyri-dövlət bölməsində işləyənlər arasında onların xüsusi çəkisi isə 13,0 bənd artaraq 0,35 faizdən 13,3 faizədək yüksəlmişdir.[270]

---

[269] Əmək bazarı. 2003. səh. 39

[270] Yenə orada.

Hazırda ölkəmizdə əhalinin tam və səmərəli məşğulluğunun təmin edilməsi üçün zəruri olan ən mühüm vəzifələrdən biri də iqtisadiyyatın istehsal sahələrinin yenidən qurulması və texniki cəhətdən təkmilləşdirilməsinə sərmayə və investisiyaların cəlb edilməsindən ibarətdir. Qeyd etmək lazımdır ki, bank və ticarət dairəsində mənfəət normasının istehsal sferasında, o cümlədən xalq istehlakı malları istehsalı sahəsindəkindən yüksək olması vəziyyətini normal hal hesab etmək olmaz. Çünki belə olan halda xüsusi sahibkarlar sənaye, tikinti, kənd təsərrüfatı və nəqliyyat kimi əsas sahələrə pullarını qoymaqda maraqlı olmazlar. Bu isə öz növbəsində, mütərəqqi istehsal sahələrində quruluş dəyişiklikləri və texnoloji təkmilləşmələr aparılmasını ləngidər və həmin sahələrdə daim «investisiya aclığı» yaradar. Buna görə də dövlət investisiya siyasətinin formalaşdırılması və həyata keçirilməsi zamanı əmək bazarında təkcə son illərdə müxtəlif sahələrdən azad olmuş iş qüvvəsinin sayını deyil, həm də əmək qabilliyyətli yaşına çatan gənclərin sayının artmasını nəzərə almalıdır. Əmək bazarının formalaşmasında bu amilin nəzərə alınmaması gələcəkdə respublikamızda mövcud olan işləməyən əmək qabiliyyətli əhalinin sayının daha da çoxalmasına və sosial gərginliyin artmasına səbəb ola bilər. Bu səbəbdən də əhalinin səmərəli məşgulluğunun formalaşması üçün əmək bazarında iş qüvvəsinə olan tələb və təklifin dinamik tarazlığını nizamlayan mexanizmin işlənib hazırlanması və həyata keçirilməsi vacibdir.

Əhalinin səmərəli məşğulluğunun təmin edilməsində miqrasiya edən əhalinin hərəkətinin nizamlanması, keçmiş ittifaqın müxtəlif ərazilərindən respublikamıza gəlmiş əmək qabiliyyətli əhalinin düzgün uçota alınıb işlə təmin edilməsi, məşğulluq dairəsində iqtisadi cəhətdən fəal əhali üçün özünü idarə edən ərazilər üzrə məqsədli kompleks proqramların işlənib hazırlanması və həyata keçirilməsinin də mühüm əhəmiyyəti vardır.

Burada belə bir məsələni də xüsusi olaraq qeyd etmək lazımdır ki, respublikamızın əhalisinin məşğulluğuna mənfi təsir göstərən amillərdən biri də 1988-ci ildən başlayan Ermənistan—Azərbaycan və Dağlıq Qarabağ münaqişəsi nəticəsində respub-

likadaxili əhali miqrasiyasının lazımi səviyyədə nizamlana bilməməsidir. Demək lazımdır ki, indiki durumda məcburi köçkünlər öz sayına, miqyasına və problemlərinə görə ən böyük miqrant koteqoriyasıdır. Hazırda respublikada Ermənistan Respublikasından qovulmuş 204,6 min nəfər qaçqın, ölkə ərazisinin 20%-inin Ermənistan silahlı qüvvələri tərəfindən zəbt edilməsi nəticəsində öz daimi yaşayış yerlərini tərk etmiş 600 min nəfərə yaxın məcburi köçkün, etnik münaqişə nəticəsində Özbəkistandan Azərbaycana pənah gətirmiş 29 min nəfər məhsəti türkü, müəyyən səbəblər üzündən öz həyatını təhlükədən qorumaq məqsədilə bir sıra ölkələrdən gəlmiş və geri qayıtmaq arzusunda olmayan 2,8 min nəfər sığınacaq axtaran şəxs, 90-cı illərdə bəzi MDB ölkələrində azərbaycanlı əhaliyə qeyri-sağlam münasibət və onların hüquqlarının pozulması üzündən Azərbaycana qayıtmaq məcburiyyətində qalan və vətəndaşlığı olmayan on minlərlə azərbaycanlı əhali, Xəzər dənizinin səviyyəsinin dəyişməsi, torpaq sürüşməsi, şoranlaşma və digər proseslər nəticəsində öz yaşayış yerlərini respublika daxilində dəyişməyə məcbur olan 4,5 min nəfər ekoloji miqrant vardır.

Son illərdə Azərbaycan Respublikasında bazar münasibətlərinin formalaşması istiqamətində aparılan iqtisadi islahatlar, dünyanın aparıcı şirkətləri ilə imzalanmış və artıq bəhrəsini verməyə başlayan kontraktlar, Azərbaycanın əlverişli geosiyasi mövqeyi, tarixi «İpək yolu»nun bərpası və bu baxımdan ölkəmizin strateji əhəmiyyəti yaxın gələcəkdə respublikamızda miqrasiya axınlarının güclənməsini proqnozlaşdırmağa əsas verir. Buna görə də hazırda Azərbaycan Respublikasının qarşısında ölkənin mənafeyinə və beynəlxalq normalara uyğun olan dövlət miqrasiya proseslərinin idarə edilməsinin dövlət sisteminin formalaşdırılması kimi çox mühüm vəzifələr durur. Nəzərə almaq lazımdır ki, 1997—1998-ci illərdə Azərbaycan dövləti və beynəlxalq təşkilatlar tərəfindən lazımi tədbirlər görülməklə, Fizuli və Ağdam rayonlarının işğal olunmamış və işğaldan azad edilmiş kəndlərinə 50 min nəfərə yaxın məcburi köckünün könüllü surətdə geri qaytarılmasına baxmayaraq, 2000-ci ilin əvvəlinə Azərbaycanda 788,8 min nəfər qaçqın və köçkün vardır. Statistik məlumatlara əsasən, məcburi köckünlərin 92 min nəfəri ça-

dır düşərgələrində, 280 min nəfəri ictimai binalarda (istirahət evlərində, pansionat və sanatoriyalarda, mehmanxanalarda, məktəblərdə, idarə binalarında və s.), 236 min nəfərə yaxını isə qohumlarının evlərində və ya onlar üçün ayrılan yerlərdə tikdikləri şəxsi evlərdə məskunlaşmışlar. Ərazi baxımından məcburi köckünlərin 53%-i və ya 317 min nəfəri şəhərlərdə, xüsusilə Bakıda (138,7 min nəfər), Sumqayıtda (46,8 min nəfər), qalanlar isə Bərdə, İmişli, Ağcabədi, Biləsuvar, Beyləqan, Saatlı, Sabirabad və digər rayonların ərazilərində məskunlaşmışlar.

Məcburi köckünlərlə bağlı problemlər arasında ən mühüm məsələlərdən biri məhz əmək qabiliyyətli əhalinin işlə təmin olunmasında mövcud olan çətinliklərdir. Bu sahədə görülən bir sıra tədbirlərə baxmayaraq, son vaxtlaradək əmək qabiliyyətli olan 300 min nəfərə yaxın məcburi köckünün cəmi 102 min nəfəri və ya 34%-i daimi və ya müvəqqəti işlə təmin olunmuşdur. Məcburi köckünlərin 53%-dən çoxunu təşkil edən qadınların işlə təminat səviyyəsi kişilər üzrə müvafiq göstəricilərdən xeyli aşağıdır. Belə ki, məcburi köckün kişilərin 38%-i işlə təmin olunmuşdursa, bu göstərici qadınlar üzrə cəmi 28% təşkil edir. Bu məsələnin həlli də dövlət səviyyəsində həyata keçirilməli vəzifə kimi qarşıda durur.

Azərbaycanda əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi və onun quruluşunun təkmilləşdirilməsi xeyli dərəcədə də respublikada və onun ərazilərində ictimai əməyin təşkilinin köhnə formalarının yeniləri ilə əvəz edilməsi, işçilərin kütləvi surətdə sərbəstləşməsinin qarşısının alınmasına imkan verən səmərəli işlək mexanizmin hazırlanmasından asılıdır. Belə mexanizmlərin mühüm həlqələrindən biri iqtisadi həvəsləndirmədir. Bu baxımdan işverənlərin əlavə iş yerləri təşkilinə görə maliyyə cəhətdən, o cümlədən Dövlət Məşğulluğu Fondunun vəsaiti hesabına həvəsləndirilməsi məqsədəuyğundur. Həyata keçirilən məşğulluq siyasəti məhz o vaxt fəal ola bilər ki, həmin məşğulluq fondundan tam surətdə istifadə olunsun (zəruri keçid qalığı ilə), xərclərin quruluşunda isə iş yerlərinin saxlanması və əlavə iş yerlərinin yaradılmasına, peşə hazırlığı və peşə yönümünün və s. ötürülməsinə sərf edilən vəsaitlərin xüsusi çəkisi üstünlük təşkil etsin.

Əhalinin səmərəli məşğulluğunun təmin edilməsi və onun quruluşunun təkmilləşdirilməsi xeyli dərəcədə ixtisaslı iş qüvvəsinin hazırlanması və bütünlükdə təhsil sisteminin inkişaf etdirilib təkmilləşdirilməsindən asılıdır. Lakin buna baxmayaraq, respublikamızın müstəqillik qazandığı son on (1990-1991-2002-2003-cü dərs illəri) il ərzində dövlət ali məktəblərində təhsil alanların sayı 3,4 min nəfər və ya 3,2%, dövlət orta ixtisas məktəblərində isə 8,5 min nəfər və ya 14,5%, azalmışdır. Fikrimizcə bu sahədə bir-biri ilə sıx surətdə bağlı olan aşağıdakı iki məsələyə diqqət yetirmək lazımdır:

Birincisi, yeni şəraitdə peşə təhsilində nə kimi dəyişikliklər baş verəcəkdir və nəyə yol vermək olmaz;

İkincisi, peşə təhsilini müxtəlif mənafelərin təsirindən necə müdafiə etmək. Çünki hazırda formal və real təhsil arasında müəyyən ziddiyyətlər meydana çıxır və öz həllini gözləyir. İndi dövlət və istərsə də özəl tədris müəssisələri kadr hazırlığı zamanı praktik olaraq bu və ya digər ixtisaslar üzrə əmək bazarında yaranmış vəziyyətlə qətiyyən maraqlanmırlar. İşverənləri isə ilk növbədə muzdla işə götürdükləri işçilərin hansı tədris müəssisələrini qurtarmaları deyil, onların hansı işləri və necə yerinə yetirmək qabiliyyəti maraqlandırır. Yalnız həmin ziddiyyətlər aradan qaldırıldığı şəraitdə əmək bazarında bu sahədə mövcud olan vəziyyətin sabitləşəcəyinə təminat vermək olar. Hazırda başlıca vəzifə formal və real təhsil arasında yaranmış ziddiyyətlərin aradan qaldırılmasından, ixtisaslı və yüksək ixtisaslı iş qüvvəsinin hazırlanması və istifadəsinin təkmilləşdirilməsindən, mövcud təhsil qanununu müasir tələblər baxımından yenidən işləyib təkmilləşdirməkdən, ayrı-ayrı regionlarda məşğulluq orqanlarının ərazilər və sahələr üzrə ixtisaslı fəhlə kadrlarına və mütəxəssislərə olan tələbatın proqnozlaşdırılmasından, onun təhlili və uçotu sahəsində fəaliyyətini artırmaqdan, həmin kadrların hazırlanması üçün lazımi şərait yaradılmasından və s. ibarətdir.

Müasir şəraitdə səmərəli məşğulluğun formalaşmasının mühüm istiqamətlərindən biri də əmək bazarında iş qüvvəsinə olan tələb və təklifin dinamik tarazlığını nizamlayan mexaniz-

min işlənib hazırlanması və həyata keçirilməsindən ibarətdir. Burada da **iki məsələyə** diqqət yetirilməlidir:

a) iqtisadi vəziyyətin fəallığının canlanması, kapitalın dinamik hərəkəti üçün şəraitin yaradılması, yeni iş yerlərinin açılması, müəssisə və təşkilatların iş qüvvəsinə tələbatının yüksəldilməsi sisteminin inkişafı üzrə tədbirlərin hazırlanmasına;

b) əməyin ödənilməsi sisteminin təkmilləşdirilməsi, əhalinin əlavə gəlir əldə etməsi imkanlarının genişləndirilməsi (qiymətli kağızlardan dividendlər, əmanətlərə faizlər alınması və s.), xalq təsərrüfatında əhalinin ayrı-ayrı sosial-demoqrafik qruplarına, xüsusilə də qadınlar, təhsil alan gənclər və pensiyaçıların əməyinə tələbi azaldan sosial müavinətlər və güzəştlər üzrə tədbirlər sisteminin işlənməsinə.

Birinci qrup problemlər həll edilərkən, iqtisadiyyatda quruluş dəyişiklikləri və mülkiyyətin yeni formalarının inkişafında əhalinin məşğulluğuna təsir edən müvafiq metodların işlənməsinin böyük əhəmiyyəti vardır. Bu zaman dövlət həyat üçün zəruri olan istehsal sahələrində, habelə texnoloji cəhətdən ən çox inkişaf etmiş sahələrdə yeni investisiya prinsipləri əsasında iş yerlərinin yaradılması və yenidən qurulmasını stimullaşdırılmalıdır. Bu işdə qeyri-mərkəzləşdirilmiş mənbələrdən (sahibkarlar, əhali, xarici investorlar və s.) istifadə edilməsinin rolu artırılmalıdır.

İkinci qrup problemlərin həll edilməsinə gəldikdə isə onu demək lazımdır ki, ciddi investisiya məhdudluğu şəraitində məşğulluğun nizamlanması ilə bağlı tədbirlər sistemi işlənib həyata keçirilərkən əhalinin ayrı-ayrı sosial-demoqrafik qrupları tərəfindən iş yerlərinə olan tələbin azalması məsələlərinə xüsusi diqqət yetirilməlidir. Bu zaman əmək bazarında qadınlar, gənclər və təqaüdçülərlə bağlı dövlət siyasəti onlara dair sosial siyasətlə sıx əlaqəli şəkildə aparılmalıdır. Qısa müddət ərzində uşaqlara verilən müavinətlərin artırılması ilə eyni vaxtda körpələri üç yaşına çatanadək qadınlara orta aylıq əmək haqqı səviyyəsində ödənişli məzuniyyət verilməsi məsələləri həll edilməlidir. Bu, əmək bazarında qadınların sayının xeyli azalmasına (qeyd edilən yaşadək məzuniyyətdə olan qadınların sayı qədər) və onların hesabına burada gərginliyin zəifləməsinə sə-

bəb ola bilər. Gələcəkdə əmək bazarına gənclərin təsirinin azaldılması isə qiyabi və axşam təhsilini azaltmaq hesabına əyani şöbələrdə onların hazırlanmasının xeyli çoxaldılmasını, peşə-texniki məktəblərdə, texnikum və ali məktəblərdə əmək bazarının tələblərinə uyğun olaraq, təhsilin yenidən qurulmasını, onun başa çatdırlırması müddətinin ordudan tərxis edilmənin müddəti ilə razılaşdırılması tələb edilir.

Pensiya yaşı ərəfəsində və pensiya yaşında olanlar üçün vaxtından əvvəl pensiyaya çıxmaq, kontraktla iş yerlərində müvəqqəti işləmək və s. imkanların yaradılması aktualdır. Nəzərə almaq lazımdır ki, hazırda pensiyaçıların çoxu maddi səbəblərlə əlaqədar olaraq işləmək istəyənlərdir. Gələcəkdə pensiyaların məbləğinin artırılması və pensiya təminatının yaxşılaşdırılması nəticəsində onların əmək bazarına təsiri xeyli zəifləyəcəkdir.

Mövcud insan potensialından səmərəli istifadə edilməsi daxili imkanlarla yanaşı, ölkə iqtisadiyyatına xarici kapitalın cəlb edilməsi və ondan düzgün istifadə edilməsindən də çox asılıdır. Bu, aşağıdakı bölmədə ətraflı tədqiq edilir.

IV FƏSİL

AZƏRBAYCAN İQTİSADİYYATINA XARİCİ İNVESTİSİYA QOYULUŞU VƏ ONUN ƏHALİNİN MƏŞĞULLUQ SƏVİYYƏSİNƏ TƏSİRİ

4.1. AZƏRBAYCAN İQTİSADİYYATINA XARİCİ İNVESTİSİYA QOYULUŞU MÜHİTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

SSRİ-nin dağılması və Azərbaycan Respublikasının öz müstəqilliyinə qovuşması, bütün sahələrdə olduğu kimi, onun müstəqil xarici və investisiya siyasəti yeridilməsi sahəsində də müəyyən müsbət dəyişikliklərin baş verməsinə səbəb olmuşdur. Axırıncı onillikdə dünya təsərrüfatı sistemində əmtəə və xidmətlər üzrə ticarət əlaqələrinin həlledici rol oynaması ilə yanaşı, kapitalın müxtəlif formalarda hərəkəti də getdikcə daha böyük əhəmiyyət kəsb etməyə başlamışdır. Eyni zamanda, hər il artmaqda davam edən dünya ticarətindən fərqli olmaqla, ümumdünya təsərrüfat konstruksiyasının vəziyyəti və inkişafından asılı olaraq, ilbəil birbaşa, portfel və ssuda xarakterli investisiyaların dinamikasında əhəmiyyətli tərəddüdlər olmuşdur. Ancaq bütünlükdə götürüldükdə, xarici kapital qoyuluşlarının həcminin artım dinamikası əksər ölkələrdə onların daxili iqtisadiyyatının artımını ötüb keçir. Belə ki, 80-ci illərin ortalarından başlayaraq, birbaşa investisiyaların artım sürəti ümumi daxili məhsul istehsalının dəyərinin artımını təqribən dörd dəfə üstələnişdir.

Müasir mərhələdə isə kapitalın hərəkət xüsusiyyəti getdikcə dünyanın daha çox ölkəsinin birbaşa, portfel və ssuda kapital qoyuluşunun ölkəyə gətirilməsi və çıxarılması prosesinə qoşulmasından ibarətdir. **Əgər əvvəllər bu və ya digər ölkə, bir qayda olaraq, ya kapital idxal edən və yaxud da kapital ixrac edən ölkədən ibarət idisə, hazırda onların əksəriyyəti həm kapital ixrac edən və həm də kapital idxal edən ölkələrə çevrilmişlər. Başqa sözlə desək, bütünlükdə götürüldükdə, xarici kapitalın ölkə iqtisadiyyatına cəlb edilməsi üzrə dövlət siyasəti indi daha çox**

liberal xarakter daşıyır. 90-cı illərdən başlayaraq xarici investisiyaların cəlb edilməsi cəhətləri beynəlxalq siyasətdə baş verən əsas meyllərdən birinə çevrilmişdir. 80-ci illərdə və 90-cı illərin əvvəllərində əgər sahibkarlıq investisiyalarının ixracı-kapital axını hər il tərəddüd etməsi ilə səciyyələnirdisə, 90-cı illərin ortalarından etibarən dünya kapital ixracının artımı ilbəil çoxalmağa doğru meyl etmiş və möhkəm xarakter almışdır. Bunu birbaşa dünya xarici investisiya ixracının dəyişilməsi dinamikasından daha aydın görmək olar (47-ci cədvələ bax).

47-ci cədvəl [271]

Birbaşa dünya xarici investisiya ixracının dinamikası

İllər	İnvestisiyaların həcmi (milyard ABŞ dolları ilə)
1990	201
1991	149
1992	155
1993	196
1994	216
1995	299
1996	319
1997	469
1998	660
1999	827
2000	900

Həmin cədvəldən göründüyü kimi, 1990—1993-cü illərdə dünya miqyasında birbaşa xarici investisiya ixracının həcmi 2,5 % azaldığı halda, 1994—2000-ci illərdə 4,2 dəfə artaraq, 216 milyard dollardan 900 milyard dollara gəlib çatmışdır. Onu da demək lazımdır ki, qeyd edilən dövrdə dünya iqtisadiyyatında investisiya-kapital axınının bölüşdürülməsi ayrı-ayrı ölkələr arasında maliyyə resursları uğrunda kəskin rəqabət mübarizəsində getmişdir. Son illərdə həmin kapitalın tərkibində inkişaf

[271] Журнал «Общество и экономика». М., 2001, № 1, с.68.

etməkdə olan ölkələrin (keçid iqtisadiyyatlı ölkələr də daxil olmaqla) xüsusi çəkisi xeyli artmışdır. Qeyd edilən ölkələrin xüsusi çəkisi birbaşa xarici investisiyaların tərkibində 80-ci illərin axırındakı 17%-dən 90-cı illərin axırında 30%-ə gəlib çatmışdır. Ancaq dünya kapital ixracında inkişaf etməkdə olan ölkələrin xüsusi çəkisi artsa da, kasıb ölkələrin xüsusi çəkisi getdikcə azalmış və 2000-ci ildə 0,1%-ə düşmüşdür.

İnkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələr xarici investorlar üçün nə qədər cəlbedici olsalar da, əvvəllərdə olduğu kimi, birbaşa xarici kapital qoyuluşlarının yarısından çoxu yenə də sənaye cəhətdən inkişaf etmiş ölkələrin payına düşür. 90-cı illərin sonunda dünyanın xarici investisiya kapital ixracı yığımının ən çox hissəsi ABŞ (950 milyard dollar), İngiltərə (410 milyard dollar), Fransa (203 milyard dollar), Kanada (180 milyard dollar), Niderland (150 milyard dollar), Almaniya (120 milyard dollar) və Avstraliyanın (110 milyard dollar) payına düşmüşdür.[272]

Həmin illərdə inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələr arasında sahibkarlıq investisiya kapitalı ixracında liderlik isə Çinin payına düşmüşdür. 80-ci illərdə Çinin iqtisadiyyatına hər il təqribən 2 milyard dollar birbaşa xarici investisiya qoyulurdusa, 1993-cü ildə bu rəqəm 27 milyard dollar, 1994-cü ildə 34 milyard dollar, 1995-ci ildə 36 milyard dollar, 1996-cı ildə 42 milyard dollar, 1997-ci ildə 45 milyard dollar, 1998-ci ildə 45 milyard dollar, 1999-cu ildə 40 milyard dollar təşkil etmişdir. 1979—1999-cu illəri əhatə edən 20 il ərzində Çin iqtisadiyyatında fəaliyyət göstərən 280 min müştərək müəssisəyə 300 milyard dollar birbaşa investisiya qoyulmuşdur.[273]

Kapitalın beynəlxalq hərəkəti müstəqil Azərbaycan Respublikasında da kapitalın əmələ gəlməsi prosesinə əhəmiyyətli təsir göstərmişdir. Azərbaycan Respublikasında həyata keçirilmiş iqtisadi islahatların strateji tərəflərindən biri iqtisadiyyatın quruluşunun milli maraqlara, bazar iqtisadiyyatı prinsiplərinə və ölkənin beynəlxalq əmək bölgüsündə üstünlüklərinə uyğun olaraq

---

[272] Журнал «Общество и экономика». М., 2001, № 1, s.69.
[273] Yenə orada, s. 70.

yenidən qurulmasından ibarətdir. İqtisadiyyatın quruluşca yenidən təşkili isə böyük həcmdə yeni kapital qoyuluşları tələb edir ki, bunu da Azərbaycanın malik olduğu indiki çətinlikləri, xüsusilə müəyyən dərəcədə investisiya qıtlığı şəraitində təkcə daxili imkanlar hesabına həyata keçirmək mümkün deyildir. Bu səbəbdən də Azərbaycan dövləti bu prosesə daxili ehtiyatlarla yanaşı, xarici kapitalın da cəlb olunması yolunu tutmuşdur. Bu, həm də onunla bağlıdır ki, ***hazırda kapitalın beynəlxalq hərəkəti, beynəlxalq ticarətlə yanaşı, ölkələrarası iqtisadi əlaqələrin daha da genişlənməsinə və dərinləşməsinə səbəb olur ki, bu da bütünlükdə dünyada və ayrı-ayrı ölkələrdə mövcud olan iqtisadi potensialdan daha səmərəli istifadə olunmasına şərait yaradır.***

Kapitalın beynəlxalq hərəkəti bir sıra amillərlə şərtlənir. Bunlara ayrı-ayrı ölkələrdə mənfəət normasının müxtəlif olması; ölkədə kapital "artıqlığının" mövcud olması, yerli bazarların inhisara alınması və rəqabət mübarizəsinin kəskinliyinin, ölkədə normal ictimai-siyasi şəraitin mövcud olması, kapital idxal edən ölkənin yerli xammal bazarının mövcud olması və iş qüvvəsinin ucuz olması imkanları; kapitalın cəlb edilməsi üçün əlverişli iqtisadi və siyasi mühitin mövcudluğu və s. daxildir.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, xarici investorlar bu və ya digər ölkəyə investisiya qoymaq istəyərkən öz strateji maraqlarından çıxış edərək, ilk növbədə həmin ölkədə investisiya mühitinin əlverişli olub-olmaması ilə maraqlanır. ***İnvestisiya mühiti dedikdə isə, hər şeydən əvvəl, ölkədə mövcud olan siyasi və makroiqtisadi sabitlik nəzərdə tutulur.*** Məhz, bu amillər investora öz fəaliyyətini uzunmüddətli dövr üçün planlaşdırmağa imkan verir. İnvestisiya mühiti amillərindən biri də investora mənfəətin və kapitalının cəlb edilməyəcəyi haqqında iqtisadi təminat verilməsidir. Bu təminat, əsasən, ondan ibarət olur ki, milliləşdirmə, təbii fəlakət, pulun köçürülə bilməməsi və digər fövqəladə hallarda dövlət və hökumət öz maliyyə mənbələri hesabına xarici investora investisiya olunmuş kapitalının ya hamısını, yaxud da müəyyən hissəsini qaytarmağa zəmanət verir. Dünya ölkələrinin təcrübəsinə əsaslanaraq demək olar ki,

xarici investora dövlət təminatı investisiya fəaliyyəti həyata keçirdiyi ölkə ilə yanaşı, investorun aid olduğu ölkə tərəfindən də verilə bilər.

İnvestisiya mühitinə ölkədə bazar infrastrukturunun inkişafı, ixtisaslı və ucuz iş qüvvəsinin olması amilləri də daxildir.

Müxtəlif ölkələrin təcrübəsindən aydın olur ki, keçid iqtisadiyyatlı ölkələrdə xarici kapitalın cəlb edilməsinə yalnız iqtisadiyyatın gələcək inkişafını təmin etmək, mütərəqqi idarəetmə təcrübəsinə yiyələnmək və müasir texnika və texnologiyanı gətirmək vasitəsi kimi deyil, habelə həmin milli iqtisadiyyatın dünya təsərrüfat sisteminə inteqrasiyasını sürətləndirən bir amil kimi də baxmaq lazımdır. Belə ki, ***hazırda keçid iqtisadiyyatlı ölkələrin əksəriyyətində böyük iqtisadi potensialın olmasına baxmayaraq, həmin potensialdan lazımi səviyyədə tam və səmərəli istifadə olunmur. Bunun başlıca səbəbləri aşağıdakılardan ibarətdir: sosialist təsərrüfat sisteminin dağılması ilə əlaqədar olaraq bu ölkələr arasında əvvəllər mövcud olmuş iqtisadi əlaqələrin, o cümlədən istehsal-kooperasiya əlaqələrinin birdən–birə pozulması və yeni iqtisadi münasibətlərin qurulmasında bir sıra problemlərin mövcud olması; bu ölkələrin əksəriyyətində makroiqtisadi sabitliyin, bəzilərində isə siyasi sabitliyin olmaması; maliyyə ehtiyatlarının çatışmaması*** və s.

Məlum olduğu kimi, bir qayda olaraq, keçid iqtisadiyyatlı və zəif inkişaf etmiş ölkələrdə maliyyə vəsaitinə daha böyuk ehtiyac olur. Belə vəsaitlərin əldə edilməsində isə beynəlxalq maliyyə - kredit institutlarının böyük rolu vardır. Ancaq bu institutlar hər hansı bir ölkəyə kredit verməzdən əvvəl həmin ölkəyə öz şərtlərini qəbul etdirirlər. ***Bu şərtlər,*** adətən, ***aşağıdakılardan ibarət olur: ölkədə siyasi və makroiqtisadi sabitliyə nail olunması; inflyasiya səviyyəsinin tənzimlənməsi; bazar münasibətlərinə keçid məqsədilə iqtisadi islahatların aparılması; qiymətlərin liberallaşdırılması; xarici ticarətin sərbəstləşdirilməsi; ölkənin iqtisadi inkişaf proqramlarının beynəlxalq maliyyə quruluşları ilə birgə işlənib hazırlanması*** və s.

Aparılan tədqiqatların nəticələri göstərir ki, qeyd etdiyimiz mənfi cəhətlər, əsasən, xarici kapital cəlb edən ölkənin

maraqları ilə bu ölkəyə kapital qoyan xarici investorların maraqlarının düzgün əlaqələndirilməməsi nəticəsində yaranır. Belə ki, ***xarici kapital cəlb edən ölkə bu kapitalın köməyi ilə mövcud iqtisadi potensialından daha tam və səmərəli istifadə etməklə özünün sosial-iqtisadi inkişafını sürətləndirmək maraağında olduğu halda, xarici investorlar kapital qoyduqları ölkədə mövcud iqtisadi potensial hesabına öz fəaliyyətlərini genişləndirməklə yüksək mənfəət əldə etməyə çalışırlar. Ancaq dünya təcrübəsi göstərir ki, xarici kapitalın milli iqtisadiyyata cəlb edilməsində düzgün strategiyadan və məqsədyönlü taktikadan istifadə olunarsa, başqa sözlə desək, xarici investisiyaların milli iqtisadiyyata cəlb edilməsini stimullaşdıran və eyni zamanda, ölkənin mənafelərinə tam cavab verən investisiya siyasəti həyata keçirilərsə, narahatçılığa əsas qalmır.*** Bütünlükdə götürüldükdə isə, bəzi iqtisadçıların da haqlı olaraq yazdıqları kimi, Azərbaycan iqtisadiyyatına xarici kapitalın cəlb olunması prosesini, şərti olaraq, üç mərhələyə bölmək olar.

Birinci mərhələ 1992—1993-cü illəri əhatə edir. Bu dövrdə xarici kapitalın ölkə iqtisadiyyatına cəlb olunmasına biganə yanaşıldığı müşahidə olunur (Bu sahəyə dair bəzi qanun və digər hüquqi - normativ aktların qəbul edilməsi istisna olunmaqla).

İkinci mərhələ 1994—1996-cı illəri əhatə edir. Bu mərhələdə ölkəyə xarici kapitalın cəlb olunması və onun fəaliyyətinin tənzimlənməsi sahəsində birinci mərhələdə qəbul olunmuş qanunlara dəyişiklik və əlavələr edilməklə yanaşı, bir sıra yeni qanunlar qəbul edilmiş və zəruri təşkilati – idarəetmə tədbirləri görülmüşdür. Elə bunun nəticəsidir ki, ölkə iqtisadiyyatına xarici kapitalın real olaraq cəlb olunması da məhz bu dövrə təsadüf edir. 1994-cü il sentyabrın 20-də Bakıda dünyanın iri neft şirkətləri ilə "Əsrin müqaviləsi" adlanan neft müqaviləsinin imzalanması ilə Azərbaycanın neft sənayesində yeni era başlanmışdır. "Əsrin müqaviləsi" imzalandıqdan keçən 5-6 il ərzində respublikada dünyanın bir çox dövlətləri ilə 21 neft müqaviləsi bağlanmış və hazırda burada 14 ölkənin 32 böyük şirkəti, habelə 400-ə qədər servis xidməti göstərən müxtəlif xarici ölkə şirkətləri fəaliyyət göstərir və həmin

şirkətlərdə 10 min nəfərdən artıq Azərbaycan mütəxəssisi işləyir. Ancaq təhlil göstərir ki, qeyd edilən dövrdə ölkə iqtisadiyyatına cəlb edilən xarici investisiya, əsasən, birtərəfli qaydada neft sektoruna yönəldilmişdir.

Üçüncü mərhələyə 1997—2000-ci illəri əhatə edən dövr aid edilir. Bu dövrdə xarici kapitalın neft sektoru ilə yanaşı, iqtisadiyyatın digər sahələrinə də cəlb edilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir.[274]

Hazırda Azərbaycan Respublikasında xarici kapitalın cəlb olunması və onun fəaliyyətinin tənzimlənməsi üçün zəruri hüquqi, iqtisadi və təşkilati baza yaradılmışdır.

Azərbaycan Respublikasında xarici kapitalın cəlb olunması və onun fəaliyyətinin tənzimlənməsinin hüquqi bazasını Azərbaycan Respublikasının müvafiq qanunları, "Xarici investisiyaların qorunması haqqında", "İnvestisiya fəaliyyəti haqqında", "Sahibkarlıq fəaliyyəti haqqında" və s. digər qanunvericilik aktları və iştirakçısı olduğu beynəlxalq müqavilələr təşkil edir.

48-ci cədvəl *

1995—2000-ci illərdə Azərbaycan Respublikasında iqtisadiyyata investisiya qoyuluşunun dinamikası

İnvestisiyaların növləri	İllər						
	1995	1996	1997	1998	1999	2000	1995-2000-ci illərdə cəmi
investisiya qoyuluşları bütün mənbələr üzrə (xarici investisiyalar nəzərə alınmaqla) milyard manat	2403.4	4005.5	6755.6	7475.5	6469.1	6448.9	33558.0
milyon dollar	544.0	932.5	1694.5	1932.2	1571.0	1441.4	8115.6
xarici investisiyalar milyard manat	1657.0	2667.5	5212.0	5695.0	4493.0	4147.5	23872.0
milyon dollar	375.1	621.0	1307.3	1472.0	1091.1	927.0	5793.5

[274] Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri. Elmi əsərlər toplusu. II buraxılış. Bakı, 2001, s. 20 və ADSK-də. Dəyirmi masanın materialları. Bakı, 2001, s. 12.

* *Mənbə:* Azərbaycanın statistik göstəriciləri. Bakı, «Səda», 2001.

daxili investisiyalar milyard manat	746.4	1338.0	1543.0	1780.5	1976.1	2301.4	9685.4
milyon dollar	168.9	311.5	387.2	460.2	479.9	514.4	2322.1

Mövcud hüquqi bazanın təhlili göstərir ki, Azərbaycan Respublikasının ərazisində xarici investisiya huquqi cəhətdən tam və qeyri-şərtsiz müdafiə olunur və ölkədə qanunvericiliyin dəyişdirilməsi ilə bağlı hallar üçün də müəyyən təminata malikdir. O da məlumdur ki, Azəbaycan Respublikasının iqtisadiyyatına xarici kapitalın cəlb edilməsinə real surətdə 1994-cü ildən başlanmışdır. 1994-cü ildə ölkə iqtisadiyyatına 296 milyon ABŞ dolları məbləğində investisiya qoyulmuşdur. Onun 146 milyon dolları və ya 49,3%-ni daxili investisiyalar, 150 milyon dolları və ya 50,7%-ni isə xarici investisiyalar təşkil etmişdir. Sonrakı illərdə Azərbaycanda investisiya qoyuluşunun dinamikasını 48-ci cədvəlin məlumatlarından aydın görmək olar. 48-ci cədvəldə göstərilən rəqəmlərdən aydın görünür ki, 1995—2000-ci illərdə Azərbaycan iqtisadiyyatına investisiya qoyuluşu - həm daxili (168,9 milyon ABŞ dolları) və həm də xarici investisiyalar (375,1 milyon dollar) 2,6 dəfə artaraq, 1441,4 milyon ABŞ dolları məbləğində olmuşdur. Ümumiyyətlə götürüldükdə isə, 1995—2000-ci illərdə respublika iqtisadiyyatına bütün mənbələr hesabına qoyulan investisiyaların məbləği 8115,6 milyon ABŞ dolları olmuşdur ki, onun da 5793,5 milyon dolları və ya 71,4 %-i xarici investisiyaların, 2332,1 milyon dolları və ya 28,6%-i isə daxili investisiyaların payına düşmüşdür.

1995—2003-cü illərdə respublika iqtisadiyyatına qoyulan xarici investisiyaların məbləği 8,7 dəfə artaraq, 375,1 milyon ABŞ dollarından 3273,3 milyon ABŞ dollarına, o cümlədən maliyyə kreditlərinə yönəldilən investisiyaların məbləği 3,6% azalaraq, 220,4 milyon ABŞ dollarından 213,0 milyon ABŞ dollarına, neft sənayesinə yönəldilən investisiyaların məbləği 20,1 dəfə artaraq, 139,8 milyon ABŞ dollarından 2810,2 milyon ABŞ dollarına, birgə müəssisələr və xarici firmalara yönəldilmiş investisiyaların məbləği isə 7,9 dəfə artaraq, 14,9 milyon ABŞ dollarından 250,1 milyon ABŞ dollarına gəlib çatmışdır. Başqa sözlə, respublika iqtisadiyyatına qoyulan investisiyaların 1995-ci ildə 58,8%-i maliyyə kreditlərinə, 37,2%-i neft sənayesinə,

4,0%-i isə birgə müəssisələr və xarici firmaların payına düşmüşdürsə, 2003-cü ildə bu göstəricilər müvafiq surətdə 6,5; 85,9 və 12,1% təşkil etmişdir.[275]

1995-ci ildə birgə müəssisələr və xarici firmalara qoyulan investisiyaların 45,6 %-i Türkiyənin (6,8 milyon ABŞ dolları), 14,1 %-i (17,4 milyon ABŞ dolları) ABŞ-ın, 8,1%-i (1,2 milyon ABŞ dolları) Almaniyanın, 8,1%-i (1,2 milyon ABŞ dolları) İsveçrənin, 6,0 %-i (0,9 milyon ABŞ dolları) İranın, 4,7 %-i (0,7 milyon ABŞ dolları) Rusiyanın, 4,7 %-i (0,7 milyon ABŞ dolları) İngiltərənin, 4,7 %-i (0,7 milyon ABŞ dolları) Birləşmiş Ərəb Əmirliklərinin, yerdə qalan 4,0 %-i (0,6 milyon ABŞ dolları) Bolqarıstan, İtaliya və başqa ölkələrin birgə müəssisə və firmalarının payına düşmüşdür. 2004-cü ildə isə bu göstərici dəyişərək, Türkiyə üzrə – 26,8% (30,4 milyon ABŞ dolları), ABŞ üzrə – 42,8 % (11,2 milyon ABŞ dolları), İran üzrə – 2,4% (2,9 milyon ABŞ dolları), Almaniya üzrə – 1,4% (1,7 milyon ABŞ dolları), İngiltərə üzrə – 39,0 % (97,5 milyon ABŞ dolları), Birləşmiş Ərəb Əmirlikləri üzrə –2,4% (2,8 milyon ABŞ dolları), Fransa üzrə – 5,9 % (14,7 milyon ABŞ dolları), Yaponiya üzrə – 7,0% (17,4 milyon ABŞ dolları), sair ölkələr üzrə isə 1,5 % (3,8 milyon ABŞ dolları) təşkil etmişdir.[276]

Göründüyü kimi, əgər 1995-ci ildə birgə müəssisə və firmalara qoyulmuş xarici investisiyaların əksəriyyəti Türkiyyə, İran, ABŞ və Almaniyanın müəssisə və firmalarının payına düşmüşdürsə (73,8% və ya 11,0 milyon ABŞ dolları), 2004-cü ildə təkcə İngiltərənin müəssisə və firmalarının payına həmin investisiyaların 39,0%-i və ya 97,5 milyon ABŞ dolları, Türkiyə, ABŞ, İran və Almaniyanın payına 29,5% və ya 73,8 milyon dolları düşmüşdür. Onu da qeyd etmək lazımdır ki, təkcə 2000-ci ildə Azərbaycan Respublikasında 575 xarici investisiyalı müəssisə fəaliyyət göstərmişdir ki, onların da 339-u və ya 59,0%-i xarici mülkiyyətdə olan müəssisələrin, 236-ı və ya 41,0%-i qarışıq mülkiyyətdə olan müəssisələrin payına düşmüşdür. Həmin müəssisələrdə 23,4 min nəfər adam işləmişdir.

---

[275] Azərbaycan rəqəmlərdə. Bakı, «Səda», 2004. s. 119.
[276] Yenə orada.

Onların 1053 nəfəri və ya 4,5%-i əcnəbilər, 22386 nəfəri və ya 95,5%-i yerli vətəndaşlar olmuşdur. Həmin işçilər tərəfindən birlikdə 378,9 milyon manat dəyərində məhsul və xidmətlər istehsal edilmişdir. Bu məhsul və xidmətlərin 303,6 milyon manatı və ya 80,1%-i sənayenin payına düşmüşdür. Statistik rəqəmlərin təhlilindən aydın olur ki, həmin xarici investisiyalı müəssisələrin sayı 1996—2000-ci illərdə 1385-dən 775-ə düşmüşdür. Bu dövrdə xarici investisiyalı müəssisələrin sayının belə azalmasını aşağıdakı səbəblərlə izah etmək olar: 1998-ci ildə dünyada, o cümlədən də Rusiyada baş vermiş iqtisadi böhranın xarici investisiyalı müəssisələrin fəaliyyətinə mənfi təsiri; 1997—1998-ci illərdə dünya bazarında neftin qiymətinin kəskin aşağı düşməsi nəticəsində büdcə gəlirlərinin formalaşması üçün vergi intizamının şərtləşdirilməsi; bürokratik maneələr; 1997-ci ildə qüvvəyə minən yeni vergi qanununa əsasən, müştərək müəssisələrə verilmiş vergi güzəştlərinin ləğv edilməsi və s. Hesablamalar göstərir ki, 1994—1999-cu illər ərzində ölkə iqtisadiyyatına ümumilikdə 179 milyon ABŞ dolları dəyərində xarici kapital cəlb edilmişdir. Həmin kapitalın 11,3 %-i (587 milyon ABŞ dolları) institusional struktur dəyişikliklərinin artırılmasına, 9,7 %-i (501 milyon ABŞ dolları) konkret layihələr üzrə investisiyaların kreditləşdirilməsinə yönədilmişdir. Qalan 21,0%-i isə (4091 milyon ABŞ dolları) qeyri-kredit investisiyaları təşkil etmişdir. Cəlb edilmiş qeyri-kredit investisiyaların 71,2 %-i neft sektorunun, 28,8%-i isə qeyri-neft sektorunun: sənaye sahələri - 7,2%, tikinti - 9,5%, ticarət və xidmət - 6,6%, nəqliyyat və rabitə - 2,8 % və digər sahələr - 2,8% payına düşür. Qeyd etmək lazımdır ki, 1994—1999-cu illərdə neft sektoruna daxil olmuş 5179 milyon ABŞ dolları məbləğində investisiyanın 76,1 %-i Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin (ABƏŞ) xətti ilə cəlb edilmişdir (49-cu cədvələ bax).

Ümumiyyətlə götürüldükdə, tədqiq edilən dövr ərzində 1994-cü il sentyabrın 20-dən başlayaraq, ARDNŞ ilə xarici şirkətlərlə 21 neft müqaviləsi bağlamışdır. Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən 3 böyük neft yatağının – "Azəri", "Çıraq" və dərinsulu "Günəşli"nin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında başlanmış ilk kontrakt

əhəmiyyətinə görə tarixə "Əsrin Kontraktı" adı ilə daxil olmuşdur. Ümumilikdə bu müqavilələr üzrə Azərbaycanın neft sektoruna 60 milyard ABŞ dolları həcmində investisiya qoyulacağı ehtimal olunur.

Öyrənilən dövrdə Azərbaycan iqtisadiyyatının maliyyə vəsaitinə olan ehtiyacının ödənilməsində beynəlxalq maliyyə

49-cu cədvəl [277]

Neft sektoruna yönəldilmiş xarici investisiyalar (milyon ABŞ dolları)

İllər	1994	1995	1996	1997	1998	1999	1994—1999-cu ildə cəmi
Cəmi	22	140	780	894	545	2798	5179,0
ABƏŞ	-	140	632	598	341	2127	3838
Digər müqavilələr üzrə	22	-	148	296	204	671	1341

qruplarından alınmış kreditlər mühüm əhəmiyyət kəsb etmişdir. 1994—1999-cu illərdə Azərbaycan Respublikası dünyanın on dörd beynəlxalq və regional maliyyə-kredit təşkilatlarından 998 milyon ABŞ dolları həcmində kredit götürərək faktiki istifadə etmişdir. Həmin kreditlərdən 34 min ABŞ dolları qaytarılmışdır. Beləliklə də, Azərbaycanın beynəlxalq və regional maliyyə-kredit təşkilatlarına həmin ildə 964 milyon ABŞ dolları həcmində borcu qalmışdır ki, bu da Ümumi Daxili Məhsulun təqribən 24,1%-ni təşkil etmişdir. Adambaşına düşən xarici borcun miqdarı isə 125 ABŞ dolları təşkil etmişdir. Beynəlxalq Valyuta Fondu (BVF) 1995-ci ildən başlayaraq Azərbaycana dörd maliyyələşdirmə proqramı üzrə (STF, STEND-bay, ESNF, EFF) 439 milyon ABŞ dolları məbləğində kredit təqdim etmişdir. Bu kreditlər islahatların aparılması, tədiyyə balansının yaxşılaşdırılması, manatın sabitliyinin təmin edilməsi kimi zəruri məsələlərin həlli məqsədilə təqdim edilmişdir. Ölkə

[277] Müştərək xarici müəssisələrin fəaliyyətinin əsas göstəriciləri. Bakı, 2001, s. 3.

iqtisadiyyatına cəlb edilən xarici kreditlərin əsas mənbələrindən biri də Dünya Bankı qrupuna daxil olan Beynəlxalq İnkişaf Assosiasiyasıdır (BİA). Ümumiyyətlə, BİA çox ciddi faizə və uzun müddətə kreditlər təqdim edir ki, burada da əsas məqsəd ölkənin iqtisadi inkişafına yardım göstərməkdən ibarətdir.

Hazırda Dünya Bankı qrupu Azərbaycanda həyata keçirilən müxtəlif layihələrin maliyyələşdirilməsində yaxından iştirak edir. Belə layihələrə aşağıdakıları misal göstərmək olar:

— "Böyük Bakının su təchizatı" layihəsi –bu layihənin smeta dəyəri 94 milyon ABŞ dolları təşkil etmişdir. Bunun 61 milyon dollarını Dünya Bankı qrupu, 23 milyon dollarını AYİB, 10 milyon dollarını isə Azərbaycan hökuməti maliyyələşdirmişdir. Layihənin məqsədi Bakının su təchizatını yaxşılaşdırmaqdan ibarətdir.

— "Neft sektoruna texniki yardım" layihəsi –BİA tərəfindən təqdim olunan kreditin məbləği 19,3 milyon ABŞ dolları təşkil etmişdir;

— "Qaz sisteminin reabilitasiyası" layihəsi–BİA tərəfindən təqdim olunan kreditin məbləği 19,3 milyon ABŞ dolları təşkil etmişdir;

— "Kənd təsərrüfatının özəlləşdirilməsinə texniki yardım" layihəsinə BİA-nın təqdim etdiyi kreditin məbləği 14 milyon ABŞ dolları təşkil etmişdir. Layihəyə əsasən, Bərdə, Lənkəran, Salyan, Ucar və Xaçmaz rayonlarında mövcud olmuş kolxoz və sovxozların yerində beş nümunəvi sınaq fermer təsərrüfatı yaradılmışdır. BİA-dan başqa, layihənin reallaşdırılması üçün Beynəlxalq Kənd Təsərrüfatı İnkişaf Fondu 9,2 milyon ABŞ dolları, Azərbaycan hökuməti 4,82 milyon ABŞ dolları vəsait ayırmışdır.

Qeyd edilən maliyyə qurumları ilə yanaşı, Avropa Yenidənqurma və İnkişaf Bankından (AYİB), Almaniyanın KFB, Britaniyanın Banklar qrupundan, Türkiyənin Eksimbankından, Yaponiyanın Eksimbankından, İslam İnkişaf Bankından və digər maliyyə qurumlarından da kreditlər alınmışdır. Onu da qeyd etmək lazımdır ki, sözü gedən kreditlər hökumət zəmanəti əsasında təqdim edilmişdir. Bunun da əsas səbəbi kredit alan təşkilatların maliyyə vəziyyətlərinin qənaət-

bəxş olmamasıdır. Gələcəkdə bu təşkilatların aldığı kreditlər üzrə maliyyə öhdəliklərinin yerinə yetirilməsindən asılı olmayaraq, Azərbaycan hökuməti kreditor təşkilat qarşısında maliyyə öhdəlikləri üzrə məsuliyyət daşıyır. Buna görə də alınmış kreditlərin layihələr üzrə məqsədyönlü istifadə olunmasına operativ nəzarət təşkil etməlidir.

Aparılan tədqiqatların nəticələrindən aydın olur ki, Azərbaycanda xarici kapitalın yaratdığı potensial imkanlardan hələ də kifayət qədər tam və səmərəli istifadə olunmur və bu sahədə bir çox problemlər və xoşagəlməz meyllər vardır. Bunlara aşağıdakıları aid etmək olar: ölkənin böyük miqdarda xarici borclarının yaranması; istehsal sahəsinə qoyulan investisiyaların mütləq əksəriyyətinin neft sektoruna qoyulması nəticəsində ölkə iqtisadiyyatının birtərəfli inkişaf meyli «Holland xəstəliyi (sindromu)»; tam xarici investisiyalı və müştərək müəssisələrin fəaliyyətinin əsasən tez gəlir gətirən xammal yönümlü və xidmət sahələrinə istiqamətləndirilməsi; ölkənin emal sənayesi sahəsinə xarici investisiya qoyuluşunun həddən artıq az olması; ölkə iqtisadiyyatına qoyulan investisiyaların hamısının Abşeron iqtisadi rayonu ərazisində cəmlənməsi və digər regionlara xarici investisiya qoyuluşunun yox dərəcəsində olması; beynəlxalq maliyyə qurumlarından alınmış kreditlər və onların verdikləri tövsiyələrin ölkədə makroiqtisadi sabitliyin təmin edilməsində böyük rol oynasa da, real sektorda istehsalın səviyyəsinin və səmərəliliyinin yüksəldilməsi və əhalinin sosial müdafiəsinin gücləndirilməsi kimi sosial-iqtisadi problemlərin həlli sahəsində hiss olunacaq dəyişikliklərə gətirməməsi və s. qeyd edilən bu problemlərin və mənfi meyllərin yaranma səbəbləri, əsasən, aşağıdakılardan ibarət olmuşdur:

- ölkədə siyasi və makroiqtisadi sabitliyin tam təmin edilməməsi;
- istehsal müəssisələrinin texniki və texnoloji səviyyəsinin dünya standartlarından xeyli aşağı səviyyədə olması; istehsalın, tələbatın və xarici iqtisadi əlaqələrin keçmiş SSRİ dövlətlərində onilliklər boyu təşəkkül tapmış quruluşları arasında yaranmış uyğunsuzluqların ətalət üzrə davam etməsi;

➢ ölkədə aparılan iqtisadi islahatların sistemsiz və yarımçıq xarakter daşıması nəticəsində bazar infrastrukturunun zəif inkişafı;

➢ beynəlxalq iqtisadi əməkdaşlığın mütərəqqi formalarının yaratdığı imkanlardan zəif istifadə olunması;

➢ ölkədə xarici investisiyaların cəlb olunması və fəaliyyətinin tənzimlənməsi üzrə aparılan işin vahid orqan tərəfindən əlaqələndirilməməsi və bu sahədə iqtisadi və hüquqi bazanın lazımi səviyyədə qurulmaması;

➢ xarici iqtisadi əlaqələrin tənzimlənməsinin yeni təsərrüfatçılıq şəraitinin tələblərinə tam cavab verən mükəmməl təşkilati-idarəetmə sisteminin yaradılmaması;

➢ bürokratik maneələr və s.[278]

Aparılan tədqiqatlara və mütərəqqi dünya təcrübəsinə əsaslanaraq belə qənaətə gəlmək olar ki, hazırda Azərbaycan Respublikasında davamlı iqtisadi artımın təmin olunması, iqtisadiyyatın strukturunun yenidən qurulmasının sürətləndirilməsi və dünya təsərrüfat sistemində onun yerinin möhkəmləndirilməsi və əhalinin səmərəli məşğulluğunun təmini baxımından xarici kapital amilinin potensial imkanlarından tam və səmərəli istifadə olunması üçün ölkədə aparılan xarici investisiya siyasətinin aşağıda göstərilən istiqamətlər üzrə təkmilləşdirilməsi məqsədəuyğun olardı:

➢ təbii ehtiyatların, o cümlədən karbohidrogen ehtiyatlarının investorların iştiraki ilə istismarını tənzimləyən vahid hüquqi normativ baza, mükəmməl təşkilati-idarəetmə mexanizminin yaradılması;

➢ xarici investisiyaların aşağıdakı məqsədlərə cəlb olunmasının stimullaşdırılması: a) mütərəqqi texnika və texnologiya əsasında ixrac yönümlü və idxalı əvəzləyən məhsul istehsal edən mövcud müəssisələrin modernləşdirilməsi və yenilərinin yaradılması; b) ixrac olunan xammalın və aralıq məhsulların emal dərinliyinin

---

[278] B a x: Yuxarıda adı çəkilən Elmi əsərlər toplusu. II Buraxılış. Bakı, 2001, s. 27-28.

artırılmasına imkan verən emal müəssisələrinin modernləşdirilməsi və yenilərinin yaradılması; v) infrastruktur sahələrinin dünya standartları əsasında modernləşdirilməsi və inkişaf etdirilməsi ;

- ölkədə investisiya mühitinin əlverişliliyinin artırılması;
- xarici investorlarla yerli sahibkarlar arasında qarşılıqlı faydalı əməkdaşlıq yaradılması üçün əlverişli şəraitin təmin olunması;
- ayrı-ayrı regionlar və iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişaf perspektivləri nəzərə alınmaqla, ölkənin investisiya xəritəsinin hazırlanması, o cümlədən xarici investisiyanın stimullaşdırılması, qadağan olunan və az səmərəli hesab olunan sahələrin müəyyənləşdirilməsi və onun əsasında hazırlanan layihələrin həyata keçirilməsi üzrə tədbirlərin görülməsi;
- birgə sahibkarlığın, o cümlədən beynəlxalq istehsal kooperasiyasının inkişafının stimullaşdırılması;
- xarici borca nəzarət sisteminin gücləndirilməsi;
- neft və neft məhsullarının ixracından əldə olunan valyutanın iqtisadiyyatın digər sahələrinin inkişafına yönəldilməsi;
- xarici investisiyalarda işin təşkilati-idarəetmə mexanizminin təkmilləşdirilməsi;
- beynəlxalq maliyyə qurumlarından alınmış kreditlərin layihələr üzrə məqsədyönlü istifadə olunmasına operativ nəzarətin gücləndirilməsi;
- ölkə iqtisadiyyatına xarici investisiyaların portfel investisiyalar formasında da cəlb edilməsini canlandırmaq üçün zəruri tədbirlərin görülməsi;
- ölkənin ixrac potensialının inkişafını və ondan tam səmərəli istifadə olunması məqsədini əsas tutaraq, xarici investisiyaların cəlbinə "selektiv yanaşma" prinsipinin tətbiq edilməsi;
- ölkənin müvafiq bölgələrində azad iqtisadi zonalar yaradılması istiqamətində zəruri tədbirlərin həyata keçirilməsi;
- bürokratik maneələrin aradan qaldırılması və s.[279]

Beləliklə, yuxarıda göstərilən təkliflərin həyata keçirilməsi Azərbaycanda iqtisadiyyatın struktur yenidənqurulmasının

---

[279] B a x: Yuxarıda adı çəkilən Elmi əsərlər toplusu. II Buraxılış. Bakı, 2001, s. 29-30.

sürətləndirilməsi və davamlı iqtisadi artımın təmin olunması baxımından xarici kapitalın yaratdığı imkanlardan daha səmərəli istifadə olunması üçün şərait yaradır.

4.2 AZƏRBAYCAN İQTİSADİYYATINA XARİCİ İNVESTİSİYA QOYULUŞUNUN ƏHALİNİN MƏŞĞULLUQ VƏ İŞSİZLİK SƏVİYYƏSİNƏ TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Tədqiqat işinin əvvəlki hissəsində deyildiyi kimi, hazırda Azərbaycan Respublikasında həm bütünlükdə əhalinin və həm də onun mühüm tərkib hissəsini təşkil edən əmək ehtiyatlarının orta illik artım sayı və sürətinin 60—70-ci illərdə olduğuna nisbətən xeyli aşağı olmasına baxmayaraq, hələ də burada xeyli sayda istifadə edilməyən əmək ehtiyatları vardır və onların sayı əvvəlki illərə nisbətən, az da olsa, artmaqda davam edir. Bu isə istər-istəməz həmin əmək ehtiyatlarının iş yerləri ilə təmin edilməsini ciddi problemə çevirir. Buna görə də indiyədək respublikada məşğulluq sahəsində əldə edilmiş nailiyyətlər hələlik tələbatı ödəmir və ölkənin işsizlik problemi ilə üzləşməsi davam edir. Məşğulluğun təmin edilməsində əsas məqsədlərdən biri istehsalı sistemli hala gətirmək və artırmaqdan ibarətdir. Bu məqsədin həyata keçirilməsində əsas amil olan sosial məqsədin həyata keçirilməsi də diqqətdən kənarda qalmamalıdır. İşləmək iqtidarında olan hər kəsə iş tapılması, iş qüvvəsi tələb və təklifinin bir çox baxımdan uyğunlaşdırılması, məhsuldarlığın artırılması və təminat altına alınması və beləliklə, işləmək üçün razılığa gəlinməsi kimi məsələlərin hamısı məşğulluğun sosial məqsədini təşkil edir.

Bütün bunlarla bərabər, məşğulluq səviyyəsinin aşağı olmasının ictimai narazılıqların əsas səbəblərindən biri ola biləcəyi də diqqətdən yayınmamalıdır. Respublikada aparılan iqtisadi islahat proqramlarında işsizlik məsələsinin həlli yollarına diqqət yetirilməli və əhalinin məşğulluğunun təmin edilməsi kapital qoyuluşları məsələsilə birlikdə qoyulmalıdır. İstehsaldakı və Ümumi Milli Gəlirdəki artım işsizlik səviyyə-

sinin azalmasında və deməli, məşğulluğun yüksəldilməsində müəyyən müsbət rol oynayır. Ancaq bu, kifayət deyildir. Buna görə də məşğulluq probleminin həllində uzunmüddətli işlər görülməlidir. Məhsuldar məşğulluğun gətirəcəyi xeyri qısa şəkildə belə izah etmək olar: ehtiyac içində yaşayan əhali qruplarının gəlirinin artırılması və onların iqtisadi inkişafın nailiyyətlərindən daha çox pay almalarının təmin olunması; iqtisadi inkişaf üçün demoqrafik imkanlardan lazımınca istifadə olunması; hər kəsin ictimai həyatda iştirakının təmin edilməsi və işsizlik, eləcə də aşağı məşğulluğun həddən artıq olmasının doğuracağı qorxu və inamsızlığın qarşısının alınması.

Məlum olduğu kimi, məşğulluq siyasətinin əsaslarının müəyyən olunduğu 1961-ci ildə keçirilən Beynəlxalq Əmək Konfransında təşkilat üzvü olan ölkələrdən tələb olunanlar aşağıdakı kimi göstərilmişdir: ***Tam, məhsuldar və sərbəst seçim hüququna söykənən məşğulluğu iqtisadi və sosial siyasətin başlıca məqsədinə çevirmək əsas götürülməlidir. Bu məqsədə çatmaq üçün aşağıdakılar vacibdir: işləmək istəyən və işləmək gücündə olan hər kəsə işləmək imkanının təmin edilməsi; təmin olunan işlərin mümkün qədər məhsuldar olması; hər kəsin peşə ustalığını artıra biləcəyi, mövcud qabiliyyət və bacarığını göstərə biləcəyi, öz xasiyyətlərinə uyğun, irq, cins, inanc, yaş və məişət fərqlərinin nəzərə alınmadığı bir işi seçmək sərbəstliyinə malik olması. Bu müddəalar Azərbaycan Respublikasının Konstitusiyasının «Əmək hüququ» adlanan 35-ci maddəsində də öz əksini tapmışdır.***

Dövlətin məşğulluq siyasətinin əsas məqsədi «tam məşğulluğun» təmin olunmasıdır. Tam məşğulluğa nail olmaq dünyanın bütün ölkələri tərəfindən məqsəd kimi qəbul edilir və görülən müxtəlif tədbirlərlə bu məqsədə yaxınlaşmağa cəhd edilir. Ölkələrin iqtisadi inkişaf səviyyəsi və sürətiylə əlaqədar olaraq, məşğulluq probleminin ölçüsü dəyişir. Sabitliyin möhkəmləndiyi, müəyyən bir inkişaf sürətinə malik olan Avropa ölkələrinin məşğulluq problemləri ilə ümidsizlik içində fasiləsiz çalxanmaların yaşandığı inkişaf etməkdə olan ölkələrin uyğun problemləri bir-birindən tamamilə fərqlənir. İqtisadi inkişaf göstəriciləri yüksəlməyə meylli olan ölkələrdə investisiyaların sürətlə artması yeni məşğulluq sahələrinin yaradılmasında

mühüm rol oynayır. Bundan başqa, əhalinin artım sürətinin iqtisadi inkişaf sürətindən daha az olması və güclü, eyni zamanda, geniş yayılmış məşğulluq idarələrinin fəaliyyət göstərməsi bu ölkələrdə məşğulluq probleminin kəskin şəkildə böyüməsinin qarşısını alır və bu prosesdə həmin problemin əhəmiyyətli dərəcədə həll olunmasını təmin edir. Onu da demək lazımdır ki, iş qüvvəsi təklifinin tələbdən çox olduğu dövrlərdə məşğulluq problemi daha da kəskinləşir. İş qüvvəsi təklifinin tələbdən az olduğu dövrlərdə də məşğulluq problemi mövcud ola bilər. İş qüvvəsi təklifi ilə tələb müəyyən şərtlər və zaman baxımından bir-birinə uyğunlaşdırıldıqda isə, məşğulluq problemi azalır. ***Lakin təəssüflənmək olar ki, hələlik Azərbaycanda lazımi məşğulluq siyasəti formalaşdırılmamışdır. Nəzərə almaq lazımdır ki, bu gün dünyanın bütün millətləri gərgin iqtisadi mübarizə aparır və ya başqa cür desək, amansız bir inkişaf yarışı keçirilir.***

Dünyanın bütün millətlərinin məqsədi iqtisadi və sosial inkişaflarını mümkün olduğu qədər sürətləndirmək və nəticədə özlərinin həyat səviyyəsini və rifah halını yüksəltməkdən ibarətdir. Bütün millətlərin və iqtisadi sistemlərin məqsədi budur. Bu məqsədi həyata keçirmək və insanın ehtiyaclarını təmin etmək üçün istifadə olunan hər cür əşyanın daha bol və daha keyfiyyətli şəkildə istehsal olunması vacibdir.

İstehsalın həcminin ***artırılması və keyfiyyət baxımından yaxşılaşdırılması üçün hər bir millət insan ehtiyatlarını maksimum dərəcədə qiymətləndirməyə məcburdur.*** İqtisadi inkişaf tempini sürətləndirmək üçün lazım gələn digər bütün şərtlər mövcud olarsa, insan ehtiyatlarını qiymətləndirmək baxımından **iki imkandan bəhs etmək** olar: ***zehni və fiziki əməklə məşğul olanların sayını*** çoxaltmaq və işləyənlərin əməyinin məhsuldarlığını artırmaq. Hansı ölkədə bu iki imkan daha çox reallaşarsa, iş qüvvəsi təklifi o qədər artmış olar. ***İş qüvvəsi təklifi ilə bağlı siyasəti isə üç əsas qrupa bölmək olar: əhalinin planlaşdırılması siyasəti; iş qüvvəsi ixracı siyasəti; iş qüvvəsi təklifinin əsaslı surətdə dəyişdirilməsi ilə bağlı siyasət.***

Azərbaycan MDB ölkələri arasında ən cavan əhaliyə malik və əhalisinin artım sürətinin nisbətən yüksək olduğu bir

ölkədir. Cavan əhaliyə malik olan Azərbaycanın bu üstünlüyü burada gənclərə lazımi yeni iş imkanlarının təmin edilmədiyinə görə, problemə çevrilmişdir. Buna görə də hazırda işsizlik problemini «yumşaltmaq» məqsədilə bütün imkan və vasitələrdən istifadə olunmalıdır. Belə vasitələrdən biri də xarici kapitalın ölkəyə gətirilməsindən və ondan məqsədəuyğun qaydada istifadə edilməsindən ibarətdir. Azərbaycan Respublikası hazırda hələ də «vəsait kəsiri» içindədir. Burada kapital yığımı kifayət qədər deyil və bu səbəbdən də kapital qoyuluşunu həyata keçirmək üçün ya ixracatı qat-qat artırmalı, ya da xaricdən borc almalıdır. Ölkədə maliyyə mənbələrinin hələlik kifayət etmədiyi, ixracatı qat-qat artırmanın mümkün olmadığı və xarici borclarla investisiya qoymanın çox baha və riskli olduğu bir şəraitdə yeni texnologiya, müasir iş sistemi və marketinq üsullarından istifadəyə imkan verən xarici investisiyalar əhəmiyyətli mənbə rolu oynaya bilər.

İndi dünyada mövcud olan transmilli şirkətlər xarici kapital qoyuluşlarının kəmiyyət və keyfiyyətini dəyişdirmişdir. Artıq, bir tərəf kimi, ölkələr və ya kapitalın milliliyi rol oynamır. Xarici kapital öz ölkəsinin bazarından kənarda yeni bazarlar əldə etmək və qlobal rəqabət gücünü artırmaq üçün inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrə investisiya qoyur. Xarici kapital, sahibinin kimliyindən asılı olmayaraq, çoxmilli şəkil almışdır, başqa sözlə desək, qlobal kapital forması qazanmışdır.

Dünya iqtisadiyyatı artıq idxal yönümlü iqtisadiyyatdan ixraca söykənən iqtisadiyyata keçmişdir. Bu gün ixraca əsaslanan strategiyadan başqa, rəqabət apara bilmək üçün artıq bazarın olduğu yerə investisiya qoymaq vacib şərtə çevrilmişdir. Hazırda transmilli şirkətlər istər istehsal, istərsə də bölgü sahələrinə xarici kapital qoyur və beləliklə də, müştəriyə daha yaxın olurlar. Bu vəziyyət şirkətlərin ölkələrdəki maliyyə imtiyazlarından istifadə etməsinə şərait yaradır. Nəticədə, şirkətlər istər öz ölkələrində, istərsə də beynəlxalq səviyyədə güclü rəqabət aparmaq imkanı qazanmış olurlar. Transmilli şirkətlərin bu strategiyası böyük bazarlara malik inkişaf etməkdə olan ölkələrə investisiyalar qoyulması, başqa sözlə desək, yeni iş sahələrinin meydana çıxması baxımından əhəmiyyətlidir.

Xarici kapital qoyuluşlarının məşğulluğa təsirini isə ölçmək çox çətindir. Onun məşğulluğa təsiri ölkələrə və investisiyalara görə dəyişir. İnvestisiyanın məşğulluğa təsiri investisiya qoyan ölkə ilə investisiya qoyulan ölkədə müxtəlif cür qiymətləndirilir. İnvestisiyanın bir ölkəyə daxilolma forması seçilmiş texnologiya və investisiyanın yeri ilk mərhələdə məşğulluğa təsir edən ən mühüm amillərdən biri kimi çıxış edir. İşin əvvəlki «Azərbaycanda iqtisadiyyata xarici investisiya qoyuluşu mühitinin yaranması vəziyyətinin qiymətləndirilməsi» hissəsində göstərildiyi kimi, respublikada yaranmış siyasi sabitliklə əlaqədar olaraq, 1994-cü ildən başlayaraq, ölkə iqtisadiyyatının müxtəlif sahələrinə xarici investisiya qoyuluşu və xarici iş adamlarının Azərbaycana gəlişi ilbəil artmağa başlamış və hazırda burada 50-dən artıq ölkənin xarici investisiyalı müəssisələri fəaliyyət göstərməkdədir. Ölkədə xarici kapitalın fəaliyyətinin genişlənməsi ondan ibarətdir ki, əgər 1994-cü ildə respublika iqtisadiyyatına cəmi 150 min ABŞ dolları məbləğində xarici investisiya qoyulmuşdursa, bu rəqəm 1995-ci ildə 375,1 mln, 1996-cı ildə 620,5 mln, 1997-ci ildə 1307,3 mln, 1998-ci ildə 1472,0 mln, 1999-cu ildə 1091,1 mln, 2000-ci ildə 927,0 mln, 2004-cü ildə isə 3273,3 mln ABŞ dolları təşkil etmiş və ya 1994-cü ilə nisbətən 21,8 dəfə, 1995-ci ilə nisbətən 8,7, 1996-cı ilə nisbətən - 5,3, 1997-ci ilə nisbətən – 2,5, 1998-ci ilə nisbətən – 2,2, 1999-cu ildə – 3,0, 2000-ci ilə nisbətən isə 3,5 dəfə artmışdır. Bu dəyişiklikləri respublikada fəaliyyət göstərən xarici və müştərək müəssisələrin və onlarda işləyənlərin sayının dinamikasını özündə əks etdirən 50-ci cədvəlin məlumatlarından da aydın görmək olar. Həmin cədvəlin məlumatlarından göründüyü kimi, 1995-ci ildə respublikada fəaliyyət göstərən 293 xarici investisiyalı müştərək və xarici müəssisə olmuşdursa, onların sayı 5,0 dəfə artaraq, 2000-ci ildə 1478-ə, o cümlədən sənaye sahəsində fəaliyyət göstərən müəssisələrin sayı təqribən 5,9 dəfə artaraq, 65-dən 381-ə, tikintidə 15,0 dəfə artaraq, 12-dən 180-ə, topdan və pərakəndə satışda 6% artaraq, 166-dan 176-ya, nəqliyyat, anbar təsərrüfatı və rabitədə 17,2 dəfə artaraq, 8-dən 138-ə, digər kommunal, sosial və fərdi xidmətlərdə 2,2 dəfə artaraq, 25-dən 56-ya gəlib çatmışdır. Həmin müəssisələrdə

işləyən işçilərin orta siyahı sayı isə bu dövrdə bütünlükdə respublikada fəaliyyət göstərən xarici investisiyalı müəssisələrdə 3,1 dəfə artaraq, 7027 nəfərdən 22145 nəfərə, o cümlədən sənayedə 2,8 dəfəyə yaxın artaraq, 3213 nəfərdən 8905 nəfərə, tikintidə 4,5 dəfə artaraq, 455 nəfərdən 2052 nəfərə, topdan ticarət və pərakəndə satışda 15,3% artaraq, 1578 nəfərdən 1819 nəfərə, nəqliyyat, anbar təsərrüfatı və rabitədə 19,2 dəfədən çox artaraq, 214 nəfərdən 4118 nəfərə, digər kommunal, sosial və fərdi xidmət sahələrində isə 11,3 % artaraq, 599 nəfərdən 667 nəfərə gəlib çatmışdır. Bu dəyişikliklər 1999—2000-ci illərdə daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və kommersiya fəaliyyəti, təhsil, səhiyyə və sosial xidmətlər sahəsində fəaliyyət göstərən müəssisələrdə də özünü büruzə vermişdir. Ancaq təhsil sahəsində fəaliyyət göstərən müəssisələrin sayının 1,8 dəfə artaraq, 9-dan 16-ya çatmasına baxmayaraq, orada işləyənlərin orta siyahı sayı 28 % azalaraq, 913-dən 706-ya düşmüşdür. Bunun əksinə olaraq, səhiyyə və sosial xidmətlər sahəsində bu göstəricilər müvafiq surətdə 4,1 dəfə və ya 41,8% artaraq, 7-dən 29-a və 67-dən 95-ə çatmışdır. Müqayisə edilən dövrdə həmin müəssisələrin və onlarda çalışan işçilərin sahə quruluşundakı dəyişikliklərə gəldikdə isə, bunu 51-ci cədvəlin məlumatlarından daha aydın görmək olar.

Həmin cədvəlin məlumatlarından görünür ki, əgər 1995-ci ildə Azərbaycanda fəaliyyət göstərmiş xarici investisiyalı

50-ci cədvəl [280]

Azərbaycan Respublikasında fəaliyyət göstərən xarici və müştərək müəssisələrin və onlarda işləyənlərin sayının dinamikası

Sahələr	Müəssisələrin sayı (ədəd)			1995-ci ilə nisbətən 2000-ci ildə, %-lə	Orada işləyənlərin orta siyahı sayı (nəfər)			1995-ci ilə nisbətən 2000-ci ildə, %-lə
	1995-ci ildə	1999-cu ildə	2000-ci ildə		1995-ci ildə	1999-cu ildə	2000-ci ildə	
Respublika üzrə cəmi	293	775	1478	504,4	7027	18677	22145	315,1

[280] Azərbaycanın statistik göstəriciləri. 2000. Bakı, «Səda», s. 91-93.

Sənaye	65	149	381	586,1	3213	7697	8905	277,1
Tikinti	12	79	180	1500,0	455	1507	2052	451,0
Kənd təsərrüfatı, ovçuluq, meşəçilik və balıqçılıq	-	-	2	-	-	-	256	-
Topdan və pərakəndə satış	166	177	176	106,0	1578	1608	1819	115,3
Mehmanxanalar və restoranlar	17	14	11	64,7	968	781	583	60,2
Nəqliyyat, anbar təsərrüfatı və rabitə	8	78	138	1725	214	2773	4118	1924,3
Daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və kommersiya fəaliyyəti	-	247	489	-	-	3009	2944	-
Təhsil	-	9	16	-	-	993	706	-
Səhiyyə və sosial xidmətlər	-	7	29	-	-	67	95	-
Sosial və fərdi xidmətlər	25	15	56	224,0	599	242	667	111,3

müəssisələrin 29,0 %-i, orada işləyənlərin isə 55,2 %-i sənaye, tikinti, nəqliyyat, anbar təsərrüfatı və rabitə sahəsində, müvafiq qaydada 71,0 və 44,8 %-i topdan və pərakəndə satış, mehmanxanalar və restoranlar, digər kommunal, sosial və fərdi xidmət sahələrində fəaliyyət göstərən müəssisələrin payına düşürdüsə, 2000-ci ildə bu göstəricilər müvafiq surətdə 38,1, 50,7%, 61,9% və 49,3 % təşkil edərək fərqlənmişdir.

Bu deyilənlərdən aydın olur ki, 1995-ci illə müqayisədə 2000-ci ildə maddi istehsal dairəsində fəaliyyət göstərən xarici investisiyalı müəssisələrin xüsusi çəkisi 9,1 bənd artdığı halda, orada işləyənlərin xüsusi çəkisi 4,5 bənd azalmış, xidmət dairəsində fəaliyyət göstərən müəssisələrin xüsusi çəkisi isə əksinə, 9,1 bənd azaldığı halda, orada işləyənlərin xüsusi çəkisi 4,5 bənd artmışdır. Bu isə o deməkdir ki, hələ də respublikada fəaliyyət göstərən xarici investisiyalı müəssisələr arasında xidmət dairəsinə aid olan müəssisələr və orada işləyənlər nisbətən üstünlük təşkil edir. Ona görə də gələcəkdə həmin müəssisələrin daha çox maddi istehsalla bağlı olan sahələrə yönəldilməsinə diqqət artırılmalıdır. Tədqiq edilən sahədə yaranmış vəziyyəti dərindən təhlil edib öyrənmək və əsl həqiqəti aşkara çıxarmaq məqsədilə ölkədə fəaliyyət göstərən xarici investisiyalı müəssisələrin mülkiyyət formaları üzrə nəzərdən keçirilməsinə də böyük ehtiyac vardır.

51-ci cədvəl[281]

Azərbaycan Respublikasında fəaliyyət göstərən xarici investisiyalı müəssisələrin və orada işləyənlərin sahə quruluşunun dəyişilməsi (%-lə)

Sahələr	Müəssisələr üzrə			Orada işləyənlər üzrə		
	1995-ci ildə	1999-cu ildə	2000-ci ildə	1995-ci ildə	1999-cu ildə	2000-ci ildə
Respublika üzrə cəmi	100,0	100,0	100,0	100,0	100,0	100,0
Sənaye	22,2	19,2	25,8	45,7	41,2	40,2
Tikinti	4,1	10,2	12,2	6,5	8,1	9,3
Kənd təsərrüfatı, ovçuluq, meşəçilik, balıqçılıq	-	-	0,1	-	-	1,2
Topdan və pərakəndə satış	56,7	22,8	11,9	22,5	8,6	8,2
Mehmanxanalar və restoranlar	5,8	1,8	0,7	13,8	4,2	2,6
Nəqliyyat, anbar təsərrüfatı və rabitə	2,7	10,1	9,3	3,0	14,8	18,6
Daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və kommersiya fəaliyyəti	-	31,9	33,1	-	16,1	13,3
Təhsil	-	1,2	1,1	-	5,3	3,2
Səhiyyə və sosial xidmətlər	-	0,9	2,0	-	0,4	0,4
Digər kommunal, sosial və fərdi xidmətlər	8,5	1,9	3,8	8,5	1,3	3,0

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin ilkin hesabat məlumatlarına əsasən, apardığımız tədqiqatların nəticələrindən aydın olur ki, müəssisələrin 978-i və ya 66,2 %-i, o cümlədən ayrı-ayrı sahələrdə 50,0-100 %-i xarici mülkiyyətdə olan müəssisələrin, 500-ü və ya 33,8 %-i, o cümlədən ayrı-ayrı sahələrdə 10,4-50,0%-i isə qarışıq mülkiyyətdə olan müəssisə-

[281] Azərbaycanın statistik göstəriciləri. 2000. Bakı, «Səda», s. 91-93.

lərin payına düşmüşdür (bax: cədvəl 52). 52-ci cədvəlin məlumatlarından o da aydın olur ki, xarici mülkiyyətdə olan bütün müəssisələrin 154-ü və ya 15,7 %-i sənayenin, 119-u və ya 12,2 %-i tikintinin, 430-u və ya 44,0 %-i isə daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və kommersiya fəaliyyətinin payına düşmüşdürsə, qarışıq mülkiyyətdə olan müəssisələr üzrə bu göstəricilər müvafıq surətdə 227 və ya 45,4%; 61 və ya 12,2%; 59 və ya 11,8% təşkil etmişdir.

Göründüyü kimi, qeyd edilən üç sahədə xarici mülkiyyətdə olan bütün müəssisələrin 71,9%-i, qarışıq mülkiyyətdə olan müəssisələrin isə 69,4%-i cəmlənmişdir. Bunu qeyd edilən sahələrdə məşğul olan işçilərin xüsusi çəkisi haqqında da demək olar. Belə ki, bütün xarici investisiyalı müəssisələrdə işləyənlərin 62,8%-i, o cümlədən xarici mülkiyyətdə olan müəssisələrdə işləyənlərin 57,4%-i, qarışıq mülkiyyətdə olan müssisələrdə işləyənlərin isə 67,7%-i həmin qrup sahədə fəaliyyət göstərən müəssisələrin payına düşmüşdür.

Qeyd edilən xarici investisiyalı müəssisələrdə işləyənlərin 40,2 %-i, o cümlədən xarici mülkiyyətdə olan müəssisələrdə çalışanların 23,0 %-i, qarışıq müəssisələrdə işləyənlərin isə 53,9 %-i sənaye sahəsində fəaliyyət göstərən müəssisələrin, müvafiq qaydada 9,3; 10,1 və 8,6 %-i tikinti sahəsində fəaliyyət göstərən müəssisələrin, 18,6; 17,8 və 19,2%-i nəqliyyat, anbar təsərrüfatı və rabitə sahəsində fəaliyyət göstərən müəssisələrin, 8,2; 9,5 və 7,1%-i mehmanxana və restoranlarda, 2,6; 5,3 və 0,5%-i topdan və pərakəndə ticarət sahəsində fəaliyyət göstərən müəssisələrin, 13,3; 24,3 və 4,5%-i daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və kommersiya fəaliyyəti sahəsində fəaliyyət göstərən müəssisələrin, 10,4; 15,3 və 6,4%-i yerdə qalan sahələrdə fəaliyyət göstərən müəssisələrin payına düşmüşdür.

52-ci

Azərbaycan Respublikasında xarici investisiyalı müəssisələrin iqtisadiyyat sahələri və mülkiyyət formalarına görə quruluşu və orada çalışan işçilərin həmin əlamətlərə görə bölünməsi

tisadiyyat sahələri	Müəssisə		Onlardan				Xarici mülkiyyətin xüsusi çəkisi, %-lə	Onlarda işləyən işçilərin orta siyahı sayı		O cümlədən				X müü xüsu
	cəmi	yekuna nisbəti, %-lə	xarici mülkiyyət	yekuna nisbəti, %-lə	qarışıq mülkiyyət	yekuna nisbəti, %-lə		cəmi	yekuna nisbəti, %-lə	xarici mülkiy-yət	yekuna nisbəti %-lə	qarışıq mülkiyyət	yekuna nisbəti, %-lə	
spublika üzrə ni	1478	100,0	97,8	100,0	500	100,0	66,2	22145	100,0	9804	100,0	12341	100	
cüm.: Sənaye	381	25,8	154	15,8	227	45,4	59,6	8905	40,2	2252	23,0	6653	53,9	
nd təsərrüfatı, ov-uq, meşəçilik, ba-çılıq	2	0,1	1	0,1	1	0,1	50,0	256	1,2	118	1,2	138	1,1	
kintidə	180	12,2	119	12,2	61	12,2	66,1	2052	9,3	989	10,1	1063	8,6	
qliyyat, anbar ərrüfatı və itədə	138	9,3	81	8,3	57	11,4	58,7	4118	18,6	1743	17,8	2375	19,2	
ehmanxana və toranlarda	176	11,9	116	11,9	60	12,1	65,9	1819	8,2	931	9,5	881	7,1	
pdan və pərə-ndə satışda	11	0,7	6	0,6	5	1,0	54,5	583	2,6	521	5,3	62	0,5	
hsildə	16	1,1	16	1,6	-	-	100,0	706	3,2	706	7,2	-	-	
hiyyə və digər lmət sahələrində	29	2,0	26	2,6	3	0,6	89,6	95	0,4	64	0,6	31	0,2	
aşınmaz əmlakla qədar əmə-yatlar, icarə və mmunal fəaliyyəti	489	33,1	430	44,0	59	11,8	87,9	2944	13,3	2383	24,3	561	4,5	
gər kommunal, sial və fərdi dmətlərdə	56	3,8	29	3,0	27	5,4	51,8	667	3,0	97	1,0	570	4,6	

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin «Müştərək və xarici müəssisələrinin fəaliyyətinin əsas göstəricilə
sabatı. Bakı, yanvar-dekabr, 2000-ci il.

Bu göstəricilərdən aydın olur ki, respublikada fəaliyyət göstərən xarici investisiyalı müəssisələrin fəaliyyət dairəsi o qədər də geniş olmayıb, az bir qrup sahəni əhatə edir və bu səbəbdən ölkə əhalisinin məşğulluq səviyyəsinin yüksəldilməsi işində hələlik o qədər də böyük rol oynamaq iqtidarında deyildir. Bunu həmin müəssisələrdə işləyənlərin ölkə vətəndaşlarına və əcnəbilərə bölünməsi nisbətindəki vəziyyətdən də açıq-aydın görmək mümkündür. 53-cü cədvəlin məlumatlarından göründüyü kimi, 2000-ci ildə Azərbaycanda fəaliyyət göstərən xarici investisiyalı müəssisələrdə işləmiş 22145 nəfərin 21021 nəfəri və ya 94,9%-i (ayrı-ayrı sahələrdə 86,5-99,6% arasında tərəddüd etməklə) ölkə vətəndaşlarının, 1124 nəfəri və ya 5,1%-i (ayrı-ayrı sahələrdə 90,4-13,5% arasında tərəddüd etməklə) əcnəbilərin payına düşmüşdür. Əcnəbilərin ən yüksək xüsusi çəkiyə malik olduğu müəssisələrə xarici mülkiyyətdə olan müəssisələr arasında tikintidə (15,2%), sənayedə (10,3%), səhiyyə və sosial xidmətlərdə (9,4%), digər kommunal, sosial və fərdi xidmətlərdə (13,4%), ən aşağı xüsusi çəkiyə malik olduğu sahələrə isə kənd təsərrüfatında (0,9%), nəqliyyat, anbar təsərrüfatı və rabitədə (1,3%); qarışıq mülkiyyətdə olan müəssisələr arasında isə müvafiq surətdə mehmanxana və restoranlarda (8,1%), sənayedə (2,5%), tikintidə (2,6%), topdan və pərakəndə satışda (2,2%) rast gəlinir. Həmin cədvəlin məlumatlarından aydın olur ki, ölkədə fəaliyyət göstərən qeyd edilən müəssisələrdə işləmiş bütün işçilərin 44,3%-i, o cümlədən ölkə vətəndaşlarının 42,6%-i, əcnəbilərin isə 76,2%-i xarici mülkiyyətdə olan müəssisələrin, müvafiq qaydada 55,7; 57,4 və 23,8%-i isə müştərək müəssisələrin payına düşmüşdür. Bu göstəricilər ayrı-ayrı sahələrdə müxtəlif olub, bir-birindən fərqlənir. Məsələn, respublikanın xarici investisiyalı sənaye sahəsində fəaliyyət göstərən bütün işçilərin 25,3%-i, o cümlədən ölkə vətəndaşlarının 23,8%-i, əcnəbilərin isə 58,2%-i xarici mülkiyyətdə olan müəssisələrdə, müvafiq qaydada 74,7; 76,2 və 41,8%-i qarışıq müəssisələrdə çalışdığı halda, topdan və pərakəndə satışda işləyənlərin 42,3%-i, o cümlədən ölkə vətəndaşlarının 42,3%-i, əcnəbilərin isə 43,4%-i xarici mülkiyyətdə olan müəssisələrin, müvafiq qaydada 57,7; 57,7 və 56,6%-i isə qarışıq mülkiyyətdə olan müəssisələrdə işləyənlərin payına düşmüşdür. 53-cü cədvəlin məlumatlarına əsasən, bütünlükdə götürdükdə,

53-cü cədvəl [283]

Azərbaycan Respublikasında fəaliyyət göstərən xarici investisiyalı müəssisələrdə çalışan ölkə vətəndaşları və əcnəbilərin sayı və onların müxtəlif iqtisadiyyat sahələri və mülkiyyət növləri arasında bölünməsi (2000-ci il)

İqtisadiyyat sahələri və mülkiyyət növləri	İşçilərin orta siyahı sayı (nəfər)	Yekuna nisbətən, %-lə	Onlardan				Cəmi işçilər arasında %-lə	
			ölkə vətəndaşları (nəfər)	yekuna nisbətən %-lə	əcnəbilər (nəfər)	yekuna nisbətən, %-lə	ölkə vətən-daşları	əcnə-bilər
Respublika üzrə cəmi	22145	100	21021	100	1124	100	94,9	5,1
O cümlədən: Xarici mülkiyyətdə	9804	44,3	8947	42,6	857	76,2	91,2	8,8
Qarışıq mülkiyyətdə	12341	55,7	12074	57,4	267	23,8	97,8	2,2
1. Sənayedə	8905	40,2	8508	40,5	397	35,3	95,5	4,5
O cümlədən: Xarici mülkiyyətdə	2252	25,3	2021	23,8	231	58,2	89,7	10,3
Qarışıq mülkiyyətdə	6653	74,7	6487	76,2	166	41,8	97,5	2,5
2.Kənd təsərrüfatı, balıqçılıq, ov-çuluq, meşə-çilikdə	256	1,1	255	1,2	1	—	99,6	0,4
O cümlədən: Xarici mülkiyyətdə	118	46,1	117	45,9	1	100	99,1	0,9
Qarışıq mülkiyyətdə	138	53,9	138	54,1	—	—	100	—
3. Tikintidə	2052	9,3	1775	8,5	277	24,6	86,5	13,5
O cümlədən: Xarici mülkiyyətdə	989	48,2	740	41,7	249	89,9	74,8	25,2
Qarışıq mülkiyyətdə	1063	51,8	1035	58,3	28	10,1	97,2	2,8
4.Nəqliyyat, anbar təsərrüfatı və rabitədə	4118	18,6	4065	19,3	53	4,7	98,7	1,3
O cümlədən: Xarici mülkiyyətdə	1743	42,3	1720	42,3	23	43,4	98,7	1,3
Qarışıq mülkiyyətdə	2375	57,7	2345	57,7	30	56,6	98,7	1,3

[283] Cədvəl Azərbaycan Dövlət Statistika Komitəsinin «Müştərək və xarici müəssisələrin fəaliyyətinin əsas göstəriciləri», Bakı, yanvar-dekabr 2000-ci ilə dair rəsmi məlumatlarına əsasən tərtib edilib.

5. Topdan və pərakəndə ticarətdə	1819	8,2	1732	8,2	87	7,7	95,2	4,8
O cümlədən: Xarici mülkiyyətdə	931	51,2	863	49,8	68	78,2	92,7	7,3
Qarışıq mülkiyyətdə	888	48,8	869	50,2	19	21,8	97,9	2,1
6. Mehman-xana və resto-ranlarda	583	2,6	535	2,5	48	4,3	91,8	8,2
O cümlədən: Xarici mülkiyyətdə	521	89,4	478	89,3	43	89,6	91,7	8,3
Qarışıq mülkiyyətdə	62	10,6	57	10,7	5	10,4	91,9	8,1
7. Təhsildə	706	3,3	649	3,2	57	5,1	91,9	8,1
O cümlədən: Xarici mülkiyyətdə	706	100	649	100	57	100	91,9	8,1
Qarışıq mülkiyyətdə	—	—	—	—	—	—	—	—
8. Səhiyyə və sosial xidmətdə	95	0,4	89	0,4	6	0,5	93,7	6,3
O cümlədən: Xarici mülkiyyətdə	64	67,4	58	65,2	6	100	90,6	9,4
Qarışıq mülkiyyətdə	31	32,6	31	34,8	—	—	100,0	—
9. Daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və kommersiyada	2944	13,3	2760	13,1	184	16,4	93,7	6,3
O cümlədən: Xarici mülkiyyətdə	2383	81,0	2214	80,2	169	91,8	92,9	7,1
Qarışıq mülkiyyətdə	561	19,0	546	19,8	15	8,2	97,3	2,7
10. Digər kommunal, sosial və fərdi xidmətlərdə	667	3,0	652	3,1	15	1,4	97,7	2,3
O cümlədən: Xarici mülkiyyətdə	97	14,5	86	13,2	11	73,3	88,6	11,4
Qarışıq Mülkiyyətdə	570	85,5	566	86,8	4	26,7	99,3	0,7

respublikada fəaliyyət göstərən investisiyalı müəssisələrdə çalışan bütün işçilərin 40,2%-i sənayedə, 1,1%-i kənd təsərrüfatında, 9,3%-i tikintidə, 18,6%-i nəqliyyat, anbar təsərrüfatı və rabitədə, 8,2%-i topdan və pərakəndə satışda, 2,6%-i mehmanxana və restoranlarda, 3,3%-i təhsil, 0,4%-i səhiyyə və sosial xidmət, 13,3%-i daşınmaz əmlakla əlaqədar əməliyyatlar,

icarə və kommersiya, 3,0%-i isə digər kommunal, sosial və fərdi xidmətlər sahəsində fəaliyyət göstərən müştərək və xarici müəssisələrin payına düşmüşdür. Ayrı-ayrılıqda götürüldükdə, ölkə vətəndaşları və əcnəbilərdən ibarət olan işçilərin həmin sahələr arasında bölüşdürülməsi nisbətlərini nəzərdən keçirdikdə, aydın olur ki, onların sahə məşğulluq quruluşunda o qədər kəskin fərq olmasa da, bəzi sahələrdə bu, ciddi surətdə bir-birindən fərqlənir. Məsələn, 2000-ci ilin məlumatlarına əsasən, respublikada fəaliyyət göstərən bütün müştərək və xarici müəssisələrdə işləyən işçilərin 40,2%-i sənaye sahəsində fəaliyyət göstərən qeyd edilən müəssisələrdə cəmləşdiyi halda, burada ölkə vətəndaşlarının 40,5%-i, xarici vətəndaşların 35,3%-i, müvafiq surətdə tikintidə 9,3; 8,5 və 24,6 %-i, nəqliyyat, anbar təsərrüfatı və rabitədə - 18,6; 19,3 və 4,7%-i, daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və kommersiya fəaliyyətində isə 13,3; 13,1 və 16,4 %-i cəmləşmişdir.

Bu vəziyyət müəyyən dərəcədə özünü həmin müəssisələrdə yaradılan məhsulun (işlərin və xidmətlərin) sahə quruluşunda da büruzə verir. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi məlumatlarına əsasən, bütünlükdə ölkədə fəaliyyət göstərən xarici investisiyalı müəssisələrdə məhsulun (işlərin və xidmətlərin) həcmi son 5 il (1995—2000-ci illər) ərzində 2,0 dəfə artaraq, 311868,9 milyon manatdan 6198878,9 milyon manata, o cümlədən sənayedə 8,8 dəfə artaraq, 53618,2 milyon manatdan 4732065,8 milyon manata, tikintidə 4,5 dəfə artaraq, 12438,8 milyon manatdan 559452,7 milyon manata, topdan və pərakəndə ticarətdə 1,9 dəfə artaraq, 213390,2 milyon manatdan 41673,8 milyon manata, nəqliyyat, anbar təsərrüfatı və rabitədə 11,3 dəfə artaraq, 50998,4 milyon manatdan 577705,5 milyon manata, başqa sahələrdə isə 8,9 dəfə artaraq, 32421,7 milyon manatdan 287980,8 milyon manata gəlib çatmışdır. Həmin rəqəmlərdən görünür ki, öyrənilən dövrdə respublikada fəaliyyət göstərən müəssisələrdə görülən işlərin və xidmətlərin payı heç də eyni olmamış və onların rolu və yeri müxtəlif olaraq, bir-birindən köklü surətdə fərqlənmişdir. Bunu həmin müəssisələrdə görülən işlərin və xidmətlərin sahə quruluşunun dəyişməsi vəziyyətini səciyyələndirən aşağıdakı rəqəm-

lərdən aydın görmək olar.[284] Göründüyü kimi, 1995-ci ildə xarici investisiyalı müəssisələrdə görülən işlərin və xidmətlərin 68,4%-i topdan və pərakəndə satış müəssisələrinin və cəmi 21,2%-i sənaye və tikinti kimi mühüm maddi istehsal sahələrinin payına düşmüşdürsə, 2000-ci ildə vəziyyət tamamilə başqa istiqamət almış, daha doğrusu, qeyd edilən müəssisələrin məhsulunun (işlərin və xidmətlərin) 85,3%-i sənaye və tikintinin və cəmi 0,7%-i topdan və pərakəndə satış müəssisələrinin payına düşmüşdür. Bu isə o deməkdir ki, respublikaya xarici investisiya qoyuluşunun get-gedə daha çox hissəsi maddi istehsal sahələrinə yönəldilməyə başlamışdır ki, bu da müsbət hal kimi qiymətləndirilməlidir. Lakin əldə edilmiş bütün bu nailiyyətlərə baxmayaraq, respublikada fəaliyyət göstərən xarici investisiyalı müəssisələrin məhsulunun (işlərin və xidmətlərin) dəyəri ölkədə istehsal edilən ümumi daxili məhsulun çox cüzi bir qismini təşkil edir. 2000-ci ildə respublikada istehsal edilmiş Ümumi Daxili Məhsulun (23566200 milyon manat) cəmi 0,26%-i, o cümlədən sənaye məhsulunun 0,28 %-i qeyd edilən xarici investisiyalı müəssisələrin payına düşmüşdür. Respublikada mövcud olan xarici investisiyalı müəssisələrdə işləyənlər isə

Sahələr:	**1995-i ildə**	**2000-ci ildə**
Respublika üzrə:	100,0	100,0
Sənaye	17,2	76,3
Tikinti	4,0	9,0
Kənd təsərrüfatı, ovçuluq	-	0,1
Meşəçilik və balıqçılıq	-	-
Topdan və pərakəndə satış	68,4	0,7
Mehmanxanalar və restoranlar	6,6	1,0
Nəqliyyat, anbar təsərrüfatı və rabitədə	1,6	9,3
Daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və kommersiya fəaliyyəti	-	3,2
Təhsil	-	0,1
Səhiyyə və sosial xidmətlər	-	0,1
Digər kommunal, sosial və fərdi xidmətlər	2,2	0,2

[284] Azərbaycanın statistik göstəriciləri. 2000. Bakı, «Səda», s. 91-93.

ölkə iqtisadiyyatında məşğul olan bütün işçilərin cəmi 0,6 %-ni özündə birləşdirmişdir. Onu da qeyd etmək yerinə düşər ki, hazırda xarici investisiyalı müəssisələrdə işləyən işçilərin orta aylıq əmək haqlarının məbləği 1041,8 min manat, o cümlədən sənayedə 969,9 min manat, tikintidə 1696,4 min manat, nəqliyyat, anbar təsərrüfatı və rabitədə 593,4 min manat, təhsildə 322,0 min manat, səhiyyə və sosial xidmətlərdə isə 1328,7 min manat təşkil etməklə, ölkə iqtisadiyyatının müvafiq sahələrində olduğuna nisbətən xeyli yüksək olaraq, fərqlənir. Belə ki, 2000-ci ildə respublika iqtisadiyyatında məşğul olan işçilərin orta aylıq əmək haqqı 221,6 min manat, o cümlədən dövlət sektorunda 112,4 min manat, qeyri-dövlət sektorunda isə 418,7 min manat təşkil etmiş və ya müvafiq surətdə qeyd edilən xarici investisiyalı müəssisələrdə olduğunun cəmi 21,3; 18,5 və 40,2%-ni təşkil etmişdir. Bu göstərici müvafiq surətdə tikintidə - 416,7; 362,9 və 647,9 min manat və ya 40,0; 34,8 və 62,2%; nəqliyyat, anbar təsərrüfatı və rabitədə - 292,4; 302,2 və 236,0 min manat və ya 28,1; 29,0 və 24,1%; təhsildə 156,0; 155,2 və 258,9 min manat və ya 15,0; 14,9 və 24,8%, səhiyyə və sosial xidmətdə isə 73,4; 71,2 və 371,8 min manat və ya 7,0; 6,8 və 35,7% təşkil etmişdir.[285]

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəsmi məlumatlarına əsasən tərtib etdiyimiz 54-cü cədvəldə isə respublikanın müxtəlif iqtisadiyyat sahələrində fəaliyyət göstərən müştərək və xarici müəssisələrdə, o cümlədən ayrı-ayrılıqda xarici və qarışıq mülkiyyətdə olan müəssisələrdə işləyənlərin, habelə ölkə vətəndaşlarının və əcnəbilərin orta aylıq əmək haqlarının məbləği verilmişdir. Bu məlumatlara əsasən, hazırda həmin müəssisələrdə işləyənlərin orta aylıq əmək haqlarının məbləği ölkə vətəndaşları və əcnəbilər üzrə də bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir və bu fərqlər müxtəlif təsərrüfat sahələri və mülkiyyət formalarında da eyni olmayıb, bir-birindən kəskin surətdə fərqlidir. 54-cü cədvəlin məlumatlarından görünür ki, 2000-ci ildə respublikada fəaliyyət göstərmiş qeyd

---

[285] Azərbaycanın statistik göstəriciləri. 2000. Bakı, «Səda», 2001, s. 37, 91-99-100.

edilən xarici investisiyalı müəssisələrdə işçilərin orta aylıq əmək haqlarının məbləği 141,4-2157,2 min manat, o cümlədən xarici mülkiyyətdə olan müəssisələrdə 183,6-2544,6 min manat, qarışıq mülkiyyətdə olan müəssisələrdə isə 279,6-2141,5 min manat arasında tərəddüd etmişdir. Bu göstəricinin ən yüksək səviyyəsi daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və kommersiya fəaliyyəti göstərən müəssisələrdə və tikintidə, ən aşağı səviyyəsi isə səhiyyə və sosial xidmət sahəsində fəaliyyət göstərən müəssisələrdə qeydə alınmışdır. Tədqiq edilən həmin müəssisələrdə işləyən ölkə və xarici vətəndaşların orta aylıq əmək haqlarının səviyyəsi arasındakı fərqlərə gəldikdə isə bu fərqlər bütün sahələrdə mövcud olub, ölkə vətəndaşlarının orta aylıq əmək haqlarına nisbətən, əcnəbilərin orta aylıq əmək haqlarının qat-qat yüksək olması ilə müşayiət olunur. Belə ki, əgər qeyd edilən dövrdə bütünlükdə respublikada fəaliyyət göstərən müştərək və xarici müəssisələrdə işləyənlərin orta aylıq əmək haqlarının məbləği 1041,8 min manat, o cümlədən xarici mülkiyyətdə olan müəssisələrdə 1285,7 min manat, qarışıq müəssisələrdə isə 848,0 min manat təşkil edirsə, bu göstərici müvafiq surətdə

54-cü cədvəl [286]

Azərbaycan Respublikasında fəaliyyət göstərən müştərək və xarici müəssisələrdə mülkiyyət növləri üzrə işləyənlərin orta aylıq əmək haqlarının məbləği *(2000-ci ildə, manatla)*

İqtisadiyyatın sahələri və mülkiyyət növləri	Hər nəfər işçiyə düşən orta aylıq əmək haqqı (min manat)	O cümlədən		Azərbaycan vətəndaşlarının əmək haqqı əcnəbilərinkinə nisbətən, %-lə	Əcnəbilərin əmək haqqı neçə dəfə çoxdur
		Azərbaycan vətəndaşları üzrə	Əcnəbilər üzrə		
Respublika üzrə cəmi	1041,8	848,0	4529,5	18,7	5,3 dəfə
Xarici mülkiyyət	1285,7	1312,1	4330,7	26,6	3,7 dəfə
Qarışıq mülkiyyət	848,0	795,1	3241,6	24,5	4,1 dəfə
1. Sənayedə	969,9	770,3	1650,7	46,7	2,1 dəfə
Xarici mülkiyyət	1427,0	882,0	7716,7	11,4	8,7 dəfə
Qarışıq mülkiyyət	815,2	735,4	3930,9	18,7	5,3 dəfə
2. Tikintidə	1696,2	1584,4	2458,1	64,4	1,5 dəfə
Xarici mülkiyyət	1217,9	776,8	3034,6	25,6	3,9 dəfə

[286] Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin «Müştərək və xarici müəssisələrin fəaliyyətinin əsas göstəriciləri», Bakı, yanvar-dekabr 2000-ci il hesabatları əsasında tərtib edilib.

Qarışıq mülkiyyət	2141,5	2161,8	13899,8	15,5	6,4 dəfə
3.Nəqliyyat, anbar təsərrüfatı və rabitə	593,4	569,7	2411,0	23,6	4,2 dəfə
Xarici mülkiyyət	1737,0	1621,6	3623,1	44,7	2,2 dəfə
Qarışıq mülkiyyət	901,1	868,2	3478,9	24,9	4,3 dəfə
4.Topdan və pərakəndə satış	295,1	245,7	1276,8	19,2	5,2 dəfə
Xarici mülkiyyət	494,4	407,6	1596,7	25,5	3,9 dəfə
Qarışıq mülkiyyət	866,9	856,9	1320,2	64,9	1,5 dəfə
5.Mehmanxana və restoranlar	1623,3	1248,0	5806,1	21,5	4,6 dəfə
Xarici mülkiyyət	1772,3	1349,9	6468,0	20,8	4,8 dəfə
Qarışıq mülkiyyət	371,4	394,0	1133,3	34,8	1,8 dəfə
6. Təhsildə	323,0	304,2	534,8	56,9	1,7 dəfə
O cümlədən: Xarici mülkiyyət	323,0	304,2	534,8	56,9	1,7 dəfə
7. Səhiyyə və sosial xidmətlərdə	141,4	117,8	355,8	33,1	3,0 dəfə
O cümlədən: Xarici mülkiyyət	183,6	180,2	355,8	50,6	2,0 dəfə
Qarışıq mülkiyyət	279,6	336,4			
8. Daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və kommersiya fəaliyyətində	2157,2	1664,1	2553,9	17,4	5,2 dəfə
O cümlədən: Xarici mülkiyyət	2544,6	1978,9	10030,6	19,7	5,7 dəfə
Qarışıq mülkiyyət	489,3	387,8	502,1	77,2	5,1 dəfə
9. Digər kommersiya sosial və fərdi xidmətlərdə	403,2	395,1	912,0	43,3	2,3 dəfə
O cümlədən: Xarici mülkiyyət	575,1	561,0	684,8	81,9	22,1 faiz
Qarışıq mülkiyyət	374,1	370,0	966,7	38,3	2,6 dəfə

Azərbaycan vətəndaşları üzrə 848,0; 1312,1 və 795,1 min manat, əcnəbilər üzrə isə 4529,5; 4930,7 və 3241,6 min manat olub, Azərbaycan vətəndaşlarının orta aylıq əmək haqlarından 5,3; 3,7 və 4,1 dəfə yüksək olduğu diqqəti cəlb edir. Bu fərq öyrənilən bütün müştərək və xarici müəssisələrdə özünü göstərir və bir-birindən ciddi surətdə fərqlənirlər. Qeyd edilən fərqin ən yüksək olduğu xarici mülkiyyətdə olan müəssisələrdə qeydə alınmışdır.

Bizə belə gəlir ki, ölkə və xarici vətəndaşların əmək haqları arasında mövcud olan bu fərqlər ölkə vətəndaşlarının əmək haqlarının artırılması hesabına xeyli azaldılmalı və onların minimum yaşayış səviyyəsi nəzərə alınmaqla nizamlanmalıdır. Bu, bir tərəfdən, həmin sahələrdə çalışan ölkə vətəndaşlarının əmək fəallığının artmasına, digər tərəfdən də onların yaşayış şəraitinin yaxşılaşmasına təkan verər. Hazırda ölkə iqti-

sadiyyatına xarici investisiya qoyuluşunun əhalinin məşğulluq səviyyəsi və quruluşuna təsirini düzgün öyrənib, aşkara çıxartmaq üçün zəruri olan vasitələrdən biri də fəaliyyətdə olan müştərək və xarici müəssisələrin ölkə ərazisində yerləşdirilməsi vəziyyətini aydınlaşdırmaqdan ibarətdir. Statistik məlumatların təhlilindən görünür ki, 2000-ci ildə Azərbaycan Respublikasında fəaliyyət göstərmiş 1478 xarici investisiyalı müəssisənin 1380-i və ya 93,4 %-i Bakı şəhərində, 6-sı və ya 0,4%-i Naxçıvan Muxtar Respublikasında, 20-i və ya 1,4%-i Gəncə şəhərində, 24-ü və ya 1,6%-i Sumqayıt şəhərində, 2-si və ya 0,1%-i Mingəçevirdə, 11-i və ya 0,8%-i Abşeron rayonunda, 2-si və ya 0,1%-i İsmayıllı rayonunda, 3-ü və ya 0,2%-i Salyan rayonunda, yerdə qalan 28-i və ya 1,9%-i isə respublikanın Lənkəran, Quba, Neftçala, Yevlax, Astara, Bərdə, Ağdaş, Ağcabədi və başqa rayon və şəhərlərdə yerləşmişdir. Eyni vəziyyəti təqribən həmin müəssisələrdə işləyənlərin ərazi məşğulluq quruluşu haqqında da demək olar. Belə ki, qeyd edilən dövrdə respublikanın xarici investisiyalı müəssisələrində işləmiş 22145 nəfərin 18407 nəfəri və ya 83,1%-i Baki şəhərinin, 794 nəfəri və ya 3,6%-i Neftçala rayonunun, 297-i və ya 1,3%-i Gəncə şəhərinin, 224-ü və ya 1,0%-i Mingəçevir şəhərinin, 201-i və ya 0,9%-i Ağcabədi rayonunun, 120-i və ya 0,5%-i Lənkəran, 118-i və ya 0,6%-i Goranboy, 115-i və ya 0,15%-i Ağdaş rayonunun, 72-i və ya 0,3%-i Astara, 48-i və ya 0,2%-i Göyçay rayonunun, yerdə qalan 1749 nəfəri və ya 7,9%-i isə, Naxçıvan Muxtar Respublikası da (burada cəmi 9 nəfər işləmişdir) daxil olmaqla, Azərbaycanın digər rayonlarında fəaliyyət göstərən müştərək və xarici müəssisələrin payına düşür. Baki şəhərində mövcud olan 1380 müştərək və xarici müəssisənin isə 484-ü (35,1%-i) daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və kommersiya fəaliyyəti, 313-ü (22,7%-i) sənaye sahəsində, 175-i (12,7%-i) tikinti sahəsində, 166-ı (12,0%-i) topdan və pərakəndə satış sahəsində, 133-ü (9,6%-i) nəqliyyat, anbar və rabitə sahəsində, 29-u (2,1%-i) səhiyyə və sosial xidmətdə, 2-i (0,9%-i) təhsildə, 10-u (0,7%-i) mehmanxana və restoranlarda, 58-i (4,2%-i) başqa sahələrdə fəaliyyət göstərmişdir. Buna uyğun olaraq, respublika paytaxtında həmin sahədə fəaliyyət göstərmiş müəssisələrdə

çalışmış 18407 nəfər adamın isə 7177 nəfəri və ya 39,0%-i sənaye, 2052 nəfəri və ya 11,1%-i tikinti, 4038 nəfəri və ya 21,9%-i nəqliyyat, anbar təsərrüfatı və rabitə, 2387 nəfəri və ya 13,0%-i daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və kommersiya, 1007 nəfəri və ya 5,5%-i topdan və pərakəndə satış, 365 nəfəri və ya 2%-i təhsil, 507 nəfəri və ya 2,7%-i mehmanxana və restoran sahəsində, yerdə qalan 874 nəfəri və ya 4,8%-i isə başqa sahələrdə işləyənlərin payına düşmüşdür. Bütün bu deyilənlərdən aydın olur ki, hazırda istər bütünlükdə respublikada, istərsə də onun paytaxtı Bakı şəhərində tədqiq edilən sahələrin fəaliyyəti hələlik əhalinin məşğulluq probleminin həll edilməsi işinə yetərincə təsir etmək iqtidarında deyil və bu təsir müxtəlif ölkələr üzrə eyni olmayıb, bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir. Bu fərqlər özünü həm ölkədə fəaliyyət göstərən müəssisələr və onlarda çalışan işçilərin sayında, həm də onların iqtisadi fəaliyyətinin əsas göstəriciləri sayılan, bu müəssisələrdə buraxılan mal və xidmətlərin faktiki qiymətlərlə (ƏDV və aksiz rüsumları nəzərə alınmadan) dəyərində, yüklənmiş malların, ixrac və idxalın həcmində büruzə verir. Bunu Azərbaycan Respubliukası Dövlət Statistika Komitəsinin 2001-ci ilin əvvəlinə olan rəsmi statistik məlumatlarından daha aydın görmək olar. Həmin statistik məlumatlara əsasən, qeyd edilən dövrdə respublikada fəaliyyət göstərən 1478 müştərək və xarici müəssisənin 64-ü və ya 4,5%-i MDB ölkələrinə, 1414-ü və ya 95,5%-i isə Uzaq xarici ölkələrin payına düşmüşdür. Həmin müəssisələrdə işləyən 22145 nəfərin isə müvafiq qaydada 671 nəfəri və ya 4,3%-i MDB ölkələrinə, 1414 nəfəri və ya 95,7%-i uzaq xarici ölkələrə məxsus müəssisələrdə çalışmışdır. Bütünlükdə götürüldükdə, bu müəssisələrdə buraxılan məhsulların və xidmətlərin dəyəri faktiki olaraq ixrac idxaldan təqribən 7,4 dəfə və ya 3130788,6 milyon manat çox olmuşdur. Bu, müsbət hal kimi qiymətləndirilməlidir. Bu, onu göstərir ki, ölkədə fəaliyyət göstərən həmin müəssisələr burada təkcə əhalinin məşğulluğu baxımından deyil, həmçinin xalqın müxtəlif mal və xidmətlərə olan tələbatının ödənilməsi baxımından da böyük rol oynayırlar. Bütün bu məsələlərə ətraflı toxunmadan həmin müəssisələrin, onlarda işləyənlərin və bu

müəssisələrdə buraxılan mal və xidmətlərin ayrı-ayrı ölkələr arasında bölünməsi vəziyyətini özündə əks etdirən 55-ci cədvəlin məlumatlarının təhlilinə keçmək daha məqsədəuyğundur.

Həmin cədvəlin məlumatlarından aydın olur ki, öyrənilən dövrdə Azərbaycan Respublikasında ən çox müştərək və xarici müəssisəsi olan ölkələr MDB məkanında Rusiya (50 müəssisə), Uzaq xarici ölkələr arasında isə Türkiyə (437), İngiltərə (158), ABŞ (97), Almaniya (51), İran (37), BƏƏ (37), Niderland (23) və İsveçrədir (22). Bu müəssisələrdə işləyənlərin sayca çoxluğu baxımından isə MDB məkanında Rusiya (510 nəfər), Gürcüstan (128 nəfər), Uzaq xarici ölkələr arasında isə Türkiyə (8040 nəfər), Böyük Britaniya (2114 nəfər), ABŞ (1016 nəfər), Almaniya (893 nəfər), Cənubi Koreya (576 nəfər), Çexiya-Slovakiya (386 nəfər), İsveçrə (381 nəfər), İrlandiya (252 nəfər), Panama (237 nəfər), Danimarka (237 nəfər), Çin (237 nəfər), İsrail (211 nəfər), BƏƏ (204 nəfər), Səudiyyə Ərəbistanı (168 nəfər), Finlandiya (150 nəfər), İran(126 nəfər), İtaliya (113 nəfər) və Kanada (111 nəfər) seçilir.

Qeyd edilən cədvəlin məlumatlarına əsasən, MDB ölkələrinə məxsus olan müştərək və xarici müəssisələrin və orada işləyənlərin əksəriyyəti, yəni müvafiq surətdə xarici müəssisələrin 78,1, işçilərin isə 76,1%-i Rusiyanın, Uzaq xarici ölkələrə məxsus olan eyni müəssisələrin və orada işləyənlərin isə müvafiq qaydada 30,9 və 37,4%-i Türkiyənin, 11,2 və 9,8%-i İngiltərənin, 6,8 və 4,7%-i ABŞ-ın, 3,6 və 4,1%-i Almaniyanın və s. payına düşmüşdür. Bütünlükdə həmin müəssisələrin buraxdıqları mal və xidmətlərin dəyərinin 99,7%-i Uzaq xarici ölkələrin və cəmi 0,3%-i isə MDB ölkələrinin müəssisələrində hasil edilmişdir. MDB məkanında qeyd edilən müəssisələrdə yaradılmış mal və xidmətlərin dəyərinin 80,0%-i Rusiyanın, Uzaq Xarici ölkələrə aid olan müəssisələrdə yaradılmış mal və xidmətlərin dəyərinin isə 26,0%-i 55-ci cədvəldə göstərilən 25 ölkənin (o cümlədən 11,8%-i Türkiyənin, 4,7%-i ABŞ-ın, 4,1%-i Böyük Britaniyanın, 0,2%-i Fransanın, 1,9%-i Cənubi Koreyanın, 0,7%-i Niderlandın və s.), 74,0 %-i isə yerdə qalan bütün başqa ölkələrin payına düşmüşdür (həmin ölkələrin sayı təqribən 28-dir).

55-ci cədvəl [287]

Azərbaycan Respublikasında fəaliyyət göstərən xarici investisiyalı müəssisələrin, orada çalışan işçilərin və buraxılan mal və xidmətlərin dəyərinin ölkələr üzrə bölünməsi (2001-ci ilin əvvəlinə)

Ölkələrin adları	Müəssisələrin sayı		İşçilərin orta siyahı sayı (nəfər)		Məhsul və xidmətlərin dəyəri	
	cəmi	yekuna nisbəti %-lə	cəmi	yekuna nisbəti, %-lə	cəmi	Yekuna nisbəti, %-lə
Respublika üzrə cəmi	1478	100,0	22145	100,0	6198878,6	100,0
Onlardan: 1. MDB ölkələri üzrə	64	4,3	671	3,0	17165,1	0,3
O cümlədən: Rusiya	50	78,1	510	76,1	13741,6	80,0
Gürcüstan	8	12,5	128	19,0	3259,9	19,0
Orta Asiya Respublikaları	3	4,7	20	3,0	155,1	0,9
Digərləri	3	4,7	13	1,9	8,5	0,1
2. Uzaq xarici ölkələr üzrə cəmi	1414	95,7	21474	97,0	6181713,5	99,7
O cümlədən	437	30,9	8040	37,4	727169,7	11,8
Böyük Britaniya	158	11,2	2114	9,8	251996,3	4,1
ABŞ	97	6,8	1016	4,7	288768,6	4,7
Almaniya	51	3,6	893	4,1	44550,7	0,7
Yaponiya	1		8	0,05	49,7	
İtaliya	2		113	0,5	1139,1	
Kanada	5	0,3	111	0,5	555,6	
Çin	3	0,1	237	1,1	632,6	
Hindistan	7	0,5	8	0,05	87,0	
Fransa	8	0,6	143	0,7	13077,4	2,1
BƏƏ	37	2,6	204	1,0	5583,8	
İran	40	2,8	126	0,6	3605,3	
İsveçrə	22	1,5	381	1,8	31391,6	
Çexiya-Slovakiya	7	0,6	386	1,8	5986,5	
İrlandiya	7	0,6	252	1,2	2430,6	
Səudiyyə Ərəbistanı	1		168	0,8	2360,3	
Niderland	23	1,5	41	0,2	46309,4	0,7
Finlandiya	3	0,1	150	0,7	3007,2	
İsrail	1		211	1,0	32112,6	
Cənubi Koreya	5	0,3	576	2,7	115869,2	1,9
Panama	10	0,7	15	0,1	30205,7	
Danimarka	1		237	1,1	9307,4	

[287] Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin «Müştərək və xarici müəssisələrin fəaliyyətinin əsas göstəriciləri», Bakı, yanvar-dekabr 2001-ci il hesabatları əsasında tərtib edilmişdir.

Estoniya	1		8	0,05	105,8	
Polşa	1		4	0,02	5,2	
Pakistan	2		2		3,6	
Digər ölkələr	477	33,7	6030	28,1	4565402,6	73,1

Yuxarıda deyilənlərdən bir daha aydın olur ki, Azərbaycan Respublikasında fəaliyyət göstərən müxtəlif ölkələrin xarici investisiyalı müəssisələrinin heç də hamısı ölkə əhalisinin məşğulluğunun təmin edilməsində eyni dərəcədə iştirak etmirlər. Burada onu da qeyd etmək lazımdır ki, həmin müəssisələrin rolu təkcə ölkədə fəaliyyət göstərən müəssisələrin sayı ilə deyil, həm də onların yerinə yetirdikləri işlərin xarakteri və əhəmiyyəti ilə də müəyyən edilir. Məsələn, ABŞ-ın ölkədə fəaliyyət göstərən 97 müəssisəsinin hər birində orta hesabla təqribən 10-11 nəfər adam işlədiyi halda, Almaniyanın 51 müəssisəsinin hər birində 17-18 nəfər, İngiltərənin 158 müəssisəsinin hər birində 13-14 nəfər, İranın 40 müəssisəsinin hər birində 3 nəfər, İsveçrənin 22 müəssisəsinin hər birində 17 nəfər, İrlandiyanın 7 müəssisəsinin hər birində 36 nəfər, Səudiyyə Ərəbistanının 1 müəssisəsində 168 nəfər, Türkiyənin 437 müəssisəsinin hər birində 18-19 nəfər, Çinin 3 müəssisəsinin hər birində 79 nəfər, İtaliyanın 2 müəssisəsinin hər birində 56-57 nəfər, İsrailin 1 müəssisəsində 211 nəfər və s. çalışmışdır. Bunu həmin ölkələrə aid olan müəssisələrdə hər nəfər işçiyə və ya müəssisəyə düşən buraxılan mal və xidmətlərin dəyəri haqqında da demək olar. Məsələn, əgər MDB ölkələrinin fəaliyyət göstərən hər bir müəssisəsinə düşən buraxılan mal və xidmətlərin dəyəri 268,2 milyon manat, hər nəfər işçiyə düşən mal və xidmətlərin dəyəri isə 25,6 milyon manat təşkil etmişdirsə, Uzaq xarici ölkələrdə bu göstəricilər müvafiq surətdə 4371,8 və 287,9 milyon manat təşkil etmiş və ya MDB ölkələrindəkinə nisbətən 16,3 və 11,2 dəfə çox olmuşdur. Başqa bir misal. Azərbaycanda fəaliyyət göstərən Türkiyəyə məxsus müəssisələrdə çalışan hər nəfər işçiyə düşən buraxılan məhsul və xidmətlərin dəyəri 90,4 milyon manat təşkil etmişdirsə, Almaniya müəssisələrində bu göstərici 49,8 milyon manat, ABŞ müəssisələrində 284,2 milyon manat, İsveçrə müəssisələrində 82,4 milyon manat, İran müəssisələrində 28,6 milyon manat və s. təşkil etmişdir.

Bütün bu yuxarıda göstərilənlər bir daha təsdiq edir ki, Azərbaycan Respublikasında fəaliyyət göstərən xarici investisiyalı müəssisələrin hər biri burada ölkə əhalisinin məşğulluğunun təmin edilməsində və əhalinin həyat səviyyəsinin yüksəldilməsində müəyyən müsbət rol oynayır və onların rolu həm də təkcə bununla bitmir. Burada fəaliyyət göstərən həmin müəssisələr tədqiqata cəlb etdiyimiz bütün ölkələrlə Azərbaycanın çoxtərəfli əlaqələrinin inkişaf edib möhkəmlənməsi, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, bütün başqa mədəni, elmi-texniki, kadr mübadiləsi və s. sahələrdə qarşılıqlı əlaqələrin inkişaf edib formalaşması, siyasi əlaqələrin genişləndirilməsi və nizamlanmasında da az əhəmiyyət kəsb etmir.

Müxtəlif ölkələrin Azərbaycanda fəaliyyət göstərən ayrı-ayrı müəssisə və şirkətləri öz fəaliyyətləri ilə respublikada əhalinin səmərəli məşğulluğunun təmin edilməsində də az rol oynamırlar. Məsələn, respublikada fəaliyyət göstərən «Koçbank», «EGE» Beynəlxalq Bank, «Bank Milli İran», «Kapital İnvestment» Şirkətinin «Sibank», «Petrol-Bank LTD», «Azəri-Kastel», «Bakı Koka-Kola Botlers», «Ulduz LTD» firması, «Europian Tobakko» Bakı, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti, «Qaradağ Sement» Açıq Tipli Səhmdar Cəmiyyəti, «Zaman» idxal-ixrac firması, «Çağ öyrətim işləmləri», «Qafqaz» Universiteti, «Gənclərə yardım fondu», Azərbaycan «Saman yolu» yayıncılıq xidmətləri LTD şirkəti, «Çiyoda Korporeyşn», «Kaspian Georizikol - MMM», «Azopen», «Sönmez» turizm və Ticarət limited şirkəti, «Şou Transport - İmport LTD», «Ultel» birgə müəssisəsi, «Azevrotel» birgə müəssisəsi və s. müştərək və xarici müəssisələrin ilkin uçot-hesabat materiallarının təhlili göstərir ki, həmin müəssisələrin hər birində 3 nəfərdən 368 nəfərədək işləyərək, müxtəlif istiqamətdə istehsal və xidmətlərlə məşğul olur, respublika iqtisadiyyatına öz töhfələrini verir. Yuxarıda adları çəkilən müəssisələrdə 3162 nəfər çalışmışdır ki, onların da 337 nəfərini əcnəbilər (10,7%-i), 2825 nəfərini (89,3%-i) isə Azərbaycan Respublikasının vətəndaşları təşkil etmişlər.

Bütün bu deyilənlər xarici investisiyalı müəssisələrin və deməli, Azərbaycana xarici investisiyaların qoyulmasının

respublika əhalisinin səmərəli məşğulluğunun təmin edilməsi və onların həyat səviyyəsinin yüksəldilməsində nə kimi əhəmiyyət kəsb etdiyini əyani surətdə sübut edir. Lakin burada belə bir cəhəti də unutmaq olmaz ki, hələlik respublikaya yatırılan xarici kapitalın əksəriyyəti neft sektoruna yönəldiyindən, başqa sahələrdə əhalinin məşğulluğunun təmin edilməsi və onun coğrafiyası məhdud xarakter daşıyır.

Neft sektoruna qoyulan sərmayələrin içərisində Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin (ABƏŞ) payına düşən hissə bütün illər boyu daha çox olmuşdur. Belə ki, ABƏŞ 1995 və 1996-ci illərdə Azərbaycana cəlb edilən neft sərmayəsinin demək olar ki, 100%-ni, 1997-ci ildə 79%-ni, 1998-ci ildə 67%-ni, 1999-cu ildə 59,2%-ni, 2000-ci ildə 44,9%-ni özündə birləşdirib. Müqayisə üçün deyək ki, Azərbaycan Dövlət Neft Şirkəti 1995-ci ildə neft kontraktlarına bir qəpik də olsun, sərmayə qoymayıb, sonrakı illərdə isə neft kontraktlarına sərmayə qoyuluşunun həcmi ümumi investisiyaların 0,3%-ni ötməyib. ARDNŞ-nin neft kontraktlarındakı payı digər tərəfdaşların hesabına maliyyələşib. Azərbaycana cəlb edilən xarici investisiyanın həcmi digər MDB ölkələri ilə müqayisədə irəlidədir. Beynəlxalq Valyuta Fondunun (BVF) hesablamalarına görə, 1989—1999-cu illəri əhatə edən son on il ərzində Azərbaycanda adambaşına 448 ABŞ dolları həcmində xarici sərmayə düşmüşdür ki, bu da MDB ölkələrində yalnız Qazaxıstandan geri qalmaq deməkdir. Həmin dövrdə bu göstərici Ermənistanda 120, Gürcüstanda 116, Moldovada 79, Rusiyada 71, Türkmənistanda 159, Ukraynada 55, Özbəkistanda isə cəmi 32 ABŞ dolları təşkil etmişdir. Onu da deyək ki, BVF-i MDB ölkələri üçün adambaşına düşən xarici investisiyaların orta göstəricisini 174 ABŞ dolları hesablamışdır. Qeyd edilən dövrdə Azərbaycanın adambaşına düşən cəlb olunan investisiyanın həcminə görə MDB-dəki liderliyi, yuxarıda qeyd etdiyimiz kimi, daha çox neft sektoruna yatırılan sərmayənin hesabınadır. Qeyd edilən dövrdə Azərbaycan iqtisadiyyatına cəlb edilmiş xarici investisiyanın 58,3 faizi neft sektorunun payına düşmüşdü. 1994—2000-ci illərdə ölkəyə cəlb edilmiş xarici kapitalın həcmi 43 dəfə artmışdır. Neft sektoruna investisiya cəlbi **«Əsrin**

müqaviləsi» reallaşmağa başlayandan sonra start götürmüşdür. Azərbaycanın neft sektoruna 1994-cü ildə 22 milyon ABŞ dolları, 1995-ci ildə 140, 1996-cı ildə 417, 1997-ci ildə 780, 1998-ci ildə 894, 1999-cu ildə 545, 2000-ci ildə isə 546 milyon ABŞ dolları sərmayə cəlb olunmuşdur.

Azərbaycanın imzaladığı 21 neft müqaviləsi üzrə bu sektora 60 milyard ABŞ dolları məbləğində sərmayə cəlb ediləcəyi proqnozlaşdırılmışdır. Bu sırada Bakı—Tbilisi—Ceyhan əsas ixrac boru kəmərinə 2,9 milyard ABŞ dolları və **«Əsrin müqaviləsi»** çərçivəsində «Faza-1» layihəsinə 3,4 milyard ABŞ dolları sərmayə yatırılacağı proqnozlaşdırılıb. 2000-ci ildə ABƏŞ «Faza-1» layihəsi üzrə tikinti işləri üçün 750 milyon ABŞ dolları dəyərində 6 əsas müqavilə imzalamışdır. İmzalanmış neft müqavilələri Azərbaycana ilkin xeyrini verməyə başlamışdır. Təkcə bunu demək kifayətdir ki, «Əsrin müqaviləsi» çərçivəsində, 2000-ci ilə olan məlumatlara əsasən, Azərbaycan bütövlükdə 1 milyard ABŞ dolları dəyərində gəlir götürmüşdür. Həmin ilədək neft fondunda 430 milyon dollardan çox vəsait toplanmışdır. 2003-cü ildə bu məbləğ 830 milyon dolları ötüb keçmişdir.

Respublikanın təkcə **«Əsrin müqaviləsi»ndən 2006-cı ildə gəliri** 1 milyard dollardan çox olacaqdır. 2011-ci ildə isə «Əsrin müqaviləsi» çərçivəsində mənfəət nefti, bonuslar, mənfəət vergisi və ARDNŞ-nin iştirak payı üçün nəğd pul axımı şəklində Azərbaycanın gəlirləri 5 milyard ABŞ dollarını ötüb keçəcəkdir. Azərbaycanın artan neft gəlirlərinin ölkə iqtisadiyyatının ayrı-ayrı sahələrinə reinvestisiya edilməsi üçün yaxşı şərait yaranmışdır. Nəzərə almaq lazımdır ki, mənfəət nefti və bonuslar Neft Fonduna toplanır. Bu fondun xərc maddələrini iqtisadiyyatın prioritet sahələrinin inkişafına yönəltmək lazımdır. Neft Fondu neftdən gələn vəsaitin iqtisadi tərəqqi üçün təkrar bölgüsünü aparan bir strateji qurum rolunu oynamalıdır. Onu da qeyd etmək lazımdır ki, son 5 il ərzində (1995—2000-ci illərdə) neft müqavilələri üzrə vergi daxilolmalarının sürəti də xeyli artmışdır. Məsələn, 1997-ci ildə bu verginin ümumi məbləği 140,8 milyard manat, 1998-ci ildə təqribən 200 milyard, 1999-cu ildə 218,2 milyard, 2000-ci ildə isə 330,2 milyard manat

təşkil etmişdir. Bu, bir həqiqətdir ki, indi Azərbaycanda 1478 xarici kapital müəssisəsi fəaliyyət göstərir və bu, 1994-cü illə müqayisədə təqribən 2,8 dəfə çoxdur. Rəsmi mənbələrdən götürülmüş məlumatlara əsasən, indi Azərbaycana ən çox sərmayə yatıran ölkələr arasında ABŞ, Böyük Britaniya, Türkiyə, Rusiya, Norveç, Yaponiya və Almaniyanın şirkətləri xüsusilə fərqlənirlər (56-cı cədvələ bax).

56-cı cədvəlin məlumatlarından aydın olur ki, 2003-cü ildə Azərbaycan iqtisadiyyatına birgə müəssisələr və xarici firmalar tərəfindən yatırılmış 250,1 milyon ABŞ dolları məbləğində xarici investisiyaların ən çoxu, yəni 52,5 milyonu (39,0%-i) Böyük Britaniyanın, 42,7 milyonu (17,1%-i) ABŞ-ın, 30,1 milyonu (12,2%-i) Türkiyənin, 25,5 milyonu (10,2%-i) Norveçin, 1,6 milyonu (0,6%-i) Rusiyanın, 17,4 milyonu (7,6%-i) Yaponiyanın, 14,7 milyonu (5,9%-i) Fransanın payına düşmüşdür. Qeyri-neft sektoruna sərmayə yatıranlar arasında isə ABŞ, İngiltərə və Türkiyə aparıcı rol oynayırlar. 2000-ci ildə Qeyri-neft sektoruna sərmayə qoymuş türk şirkətlərinin sayı 808 olmuşdur. Onların 379-nu (46,8%) xarici müəssisələr, 370-ni (45,9%) müştərək müəssisələr, 59-nu isə (7,3%) nümayəndəliklər təşkil etmişlər. Həmin türk şirkətlərinin 184-ü (22,8%) sənayedə, 75-i tikintidə (9,3%), 39-u (4,8%) nəqliyyat sahəsində, 298-i (36,8%) kommersiya ilə məşğul olmuşdur. Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində «Azərsell», «Azərsun», «Azopen», «Koka-Kola», «Başak İnam» sığorta şirkəti, Azər-Türkbank, Baybank, Koçbank, «Ramstor» Qapalı Tipli Səhmdar Cəmiyyəti və «Bakıelektrikşəbəkə»ni 25 illiyə idarəçiliyə götürmüş «Barmek Holdinq» kimi türk sərmayəli qurumlar fəaliyyət göstərirlər.

56-cı cədvəl [288]

Müxtəlif ölkələrin Azərbaycan iqtisadiyyatına yatırdığı birbaşa xarici investisiyaların dəyəri (milyon ABŞ dolları)

Ölkələr/ İllər	1995	1998	1999	2000	2001	2002	2003
Türkiyə	6,8	20,3	67,8	31,6	11,8	55,6	30,4
ABŞ	2,1	56,7	29,8	11,2	16,9	41,4	42,8

[288] Azərbaycan rəqəmlərdə, 2004-cü il. s. 119.

Böyük Britaniya	0,7	47,4	45,8	6,8	15,1	108,1	97,5
Almaniya	1,2	2,1	6,2	1,7	1,2	1,7	0,5
Rusiya	0,7	10,3	-	-	1,4	0,7	1,6
İtaliya	0,1	-	-	-	-	-	14,7
Yaponiya	-	-	-	16,4	4,0	23,7	17,4
Fransa	-	-	25,4	39,3	7,6	25,7	14,7
Norveç	-	-	-	-	-	21,6	25,6
BƏƏ	0,7	16,6	7,6	2,8	0,7	0,2	1,0
İsveçrə	1,2	-	-	-	8,3	-	-
İran	0,9	40,7	9,2	2,9	-	2,7	0,1
Başqaları	0,4	118,5	18,6	5,3	12,3	27,5	3,8
Cəmi	14,8	452,6	210,4	118,0	77,5	319,5	250,1

Respublika iqtisadiyyatının müxtəlif sahələrində türk şirkətlərinin rəngarəng rolunu 57-ci cədvəldə verilmiş 44 türk şirkətinin fəaliyyətindən aydın görmək olar. Türkiyədən sonra qeyri-neft sektoruna ən çox investisiya qoyan dövlətlər ABŞ və Böyük Britaniyadır. Azərbaycanda İngiltərənin 158-dən artıq müştərək və xarici müəssisəsi fəaliyyət göstərir ki, bu da ABŞ-dan 1,6 dəfə çoxdur. İngiltərənin Azərbaycanda fəaliyyət göstərən müəssisələrində 2114 nəfər, ABŞ-ın müəssisələrində 1016 nəfər, Türkiyənin müəssisələrində isə 8040 nəfər və ya birlikdə götürüldükdə, İngiltərə və ABŞ-ın müəssisələrində işləyənlərin sayından 2,6 dəfə çox adam çalışır. 2001-ci ildə ölkədə fəaliyyət göstərmiş bütün xarici investisiyalı müəssisələrdə işləyənlərin 8905 nəfəri və ya 40,2%-i sənayedə, 2052 nəfəri

57-ci cədvəl [289]

Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində Türkiyə kapitalı müəssisələrinin fəaliyyət göstəriciləri (2000-ci ilin məlumatları)

Müəssisənin adı	Fəaliyyət növü	Yerləşdiyi ərazi	İşçilər	Məhsul, mln. man.	% işçilər	% məhsul	Məhliq mln. man
1 .Elvan Qida Senayi Ltd	yeyinti	Bakı	65	1430.6	1.43	0.661	22.01
2. BM-SUN	yeyinti	Bakı	69	20991.2	1.52	9.699	304.2
3.Sağlam Az-Tür	avtotəmir	Bakı	12	117.5	0.26	0.054	9.79
4. Günay BM	maşın-qayırma	Bakı	22	967	0.48	0.447	43.95

[289] Cədvəl həmin müəssisələrin ilkin məlumatlarına əsasən tərtib edilib

5. Orient Az-Tünc	yüngül	Bakı	29	1873	0.64	0.865	64.58
6.Azeri-Kayalar	kənd təs-tı	Bakı	25	8174	0.55	3.77	326.9
7. Asil-Ahsar	tütün	Bakı	11	165.6	0.24	0.076	15.05
8.Azeri-Kastel (Fransa-TürK)	yeyinti	Bakı	121	12787	2.66	5.908	105.6
9.İvvpero-AKU	avtotəmir	Bakı	15	16.78	0.33	0.0077	1.118
10. TeksunYağ Sənaye	yeyinti	Bakı	258	22631.6	5.68	10.46	87.72
11.Can Dış Ticarət MMC	yeyinti	Bakı	13	6.54	0.28	0.003	0.503
12. Mahmud Torçu MMM	tekstil	Bakı	27	349.5	0.59	0.162	12.94
13. Antalya LTD BM	mebel	Bakı	12	46.7	0.26	0.022	3.89
14.Zaman-A	sənaye	Bakı	14	2.94	0.31	0.0014	0.21
15. Pet-Azər	tekstil	Bakı	59	38277.3	1.30	17.68	648.7
16. Azturqaz	qaz	Bakı	50	9951	1.10	4.59	199.02
17. Pərviz-Sənaye və Ticarət	yeyinti	Bakı	32	21	0.71	0.0097	0.656
18. Misgər Sənaye və Ticarət	sənaye	Bakı	34	4178	0.75	1.930	122.8
19. Aztel	rabitə	Bakı	15	712	0.33	0.328	47.46
20. Doymand-SUM BEZ Tek	yüngül	Bakı	36	23130	0.79	10.68	642.5
21.Tüncan-98	yeyinti	Bakı	15	184.4	0.33	0.085	12.29
22. Kaspi-Yıldız	kimya	Bakı	14	98.4	0.31	0.045	7.028
23. Azərsintez	neft-kimya	Bakı	15	0.33	0.33	0.0002	0.022
24. Azər-Pen	tikinti mater.	Bakı	18	334.3	0.39	0.154	18.57
25. On-Ay	mebel	Bakı	12	134.9	0.26	0.062	11.24
26. Nurtaş BM	təmir -sa-a	Sumqayt	26	103.63	0.57	0.047	3.985
27. Çayın emalı MMM	yeyinti	Lənkəran	22	92	0.48	0.043	4.18
28. Yevlax Pambıq	yüngül	Yevlax	71	2908	1.56	1.343	40.96
29. Yağ-Piy ATSC	yeyinti	Əlibayramlı	258	1846.6	5.68	0.853	7.157
30. Muğan-Pambıq	yüngül	Əlibayramlı	178	775.2	3.92	0.358	4.35
31. Mingəçevir toxucu ATSC	yüngül	Mingəçevir	1962	519.4	43.3	0.239	0.26
32. Saatlı-Pambıq ATSC	yüngül	Saatlı	297	22199	6.55	10.25	74.74
33.Muğan-Pambıq ATSC	yüngül	Əlibayramlı	178	775.2	3.92	0.358	4.355
34.Beyləqan-Pambıq AŞC	yüngül	Beyləqan	139	11870	3.06	5.48	85.39
35.Ağdaş-Pambıq ATSC	yüngül	Ağdaş	90	2755	1.98	1.27	30.61
36. İmişli-Pambıq ATSC	yüngül	İmişli	82	13680	1.81	6.32	166.8
37.Azernut Oretim iç ve diş t	yeyinti	Qəbələ	20	13	0.44	0.006	0.65
38.Edir Ozaltın Məş-rubat	nəşriyyat	Abşeron	32	511	0.71	0.236	15.97
39. Ağdam-Pambıq ATSC	yüngül	Ağdam	48	200	1.06	0.09	4.166

40.Zərdab-Pambıq ATSC	yüngül	Zərdab	61	10895	1.34	5.034	178.6
41.Astara-çay ATSC	yeyinti	Astara	23	103.6	0.51	0.047	4.50
42. Elxo Metal sənaye və ticarət	sənaye	Gəncə	31	506	0.68	0.234	16.35
43.Yaprak Plastk	sənaye	Naxçıvan	11	1.6	0.24	0.0007	0.145
44.Sun Tea Lənkəran çay emalı	yeyinti	Lənkəran	15	85	0.33	0.039	5.666
Cəmi			4537	216422.5	100	100	47.70

və ya 9,3%-i tikintidə, 4118 nəfəri və ya 18,6%-i nəqliyyat, anbar təsərrüfatı və rabitədə məşğul olduğu halda, bu göstərici müvafiq qaydada ABŞ müəssisələri üzrə 37,3; 43,2 və 11,8%, İngiltərə müəssisələri üzrə 75,3; 0,9 və 16,6%, Türkiyə müəssisələrində isə - 50,6; 12,8 və 24,6% təşkil edərək, bir-birindən ciddi surətdə fərqlənirlər. Ümumiyyətlə götürüldükdə isə, gələcəkdə respublika iqtisadiyyatının inkişaf səviyyəsinin yüksəldilməsi və burada əhalinin səmərəli məşğulluğunun təmin edilməsi xarici investisiyaların daha çox istehsal sahələrinə yönəldilməsini tələb edir. Bu sahədə son illərdə Azərbaycan dövlətinin apardığı məqsədyönlü siyasət heç şübhəsiz ki, öz bəhrəsini verəcəkdir. 1994-cü ilin sentyabrında Azəri, Çıraq və Günəşli yataqlarının işlənməsi üzrə bağlanmış «Əsrin müqaviləsi»nə əsasən, həmin yataqların işlənməsinə 7,5 milyard ABŞ dolları məbləğində investisiya qoyulması nəzərdə tutulmuşdur.

«Əsrin müqaviləsi»ndə dünyanın 7 ölkəsinin -- Azərbaycan, ABŞ, İngiltərə, Rusiya, Türkiyə, Yaponiya və Səudiyyə Ərəbistanının 12 neft şirkəti iştirak edir. İnvestisiya qoyuluşunun təxminən 65%-i Britiş-Petroleum, AMOKO, ARDNŞ, LUKoyl və Yunokal şirkətlərinin payına düşür. Təkcə Azəri-Çıraq-Günəşli yataqlarından 2005—2007-ci illərdə neftin illik hasilatı 35-40 milyon tona çatdırılacaqdır. Bütün bunlar isə, şübhəsiz, Azərbaycanın iqtisadi və sosial inkişafına təkan verməklə, onun əhalisinin məşğulluq və işsizlik problemlərinin həllində mühüm rol oynayacaqdır. Təkcə bunları demək kifayətdir ki, Azərbaycan Respublikasının sabiq Prezidenti cənab H.Əliyev 2001-ci ilin 23 iyununda Bakıda fəaliyyət göstərən İngiltərənin «BP» şirkətinin prezidenti Con Braunla görüşündə və həmin ilin 24 iyununda ABŞ-ın Pritsker ailəsinə məxsus olan Bakı Poladtökmə zavodunun açılışındakı görüşdə demişdir ki,

«BP» Şirkəti Azərbaycan iqtisadiyyatına 13 milyard ABŞ dolları həcmində sərmayə qoyacaq və həyata keçirəcəkləri bu layihələrdə böyük sayda işçi qüvvəsindən istifadə edəcəklər. Bunun da çox hissəsi, əsasən, Azərbaycanda olacaqdır. Bu, Azərbaycanın potensialının, qüvvəsinin, bacarıq və səriştəsinin hərtərəfli səfərbər olunması demək olacaqdır.[290]

Bakı Poladtökmə zavodunun inşasına isə 40 milyon ABŞ dollarından artıq sərmayə qoyulmuş və hazırda burada 700 nəfər, ümumiyyətlə isə, 1500 nəfər işləyəcək və onların maaşı 400 ABŞ dolları qədərdir.[291] Yeri gəlmişkən, burada belə bir məsələni də vurğulamaq lazımdır ki, bütün bu deyilənlərə baxmayaraq, yuxarıda göstərildiyi kimi, ölkə iqtisadiyyatına xarici investisiya qoyuluşunun tam əksəriyyəti Bakı şəhərində cəmlənmişdir və ölkənin müxtəlif əraziləri üzrə onun bölgüsünü səmərəli hesab etmək olmaz. Nəzərə almaq lazımdır ki, ölkə əhalisinin və əmək ehtiyatlarının əksər hissəsi Azərbaycanın başqa ərazilərində yerləşir və onların işlə təmin edilməsinə böyük ehtiyac vardır. Lakin buna baxmayaraq, hazırda respublikada fəaliyyət göstərən xarici investisiyalı müəssisələrin 93,4%-i, orada məşğul olan işçilərin isə 83,1%-i Respublika ərazisinin cəmi 2,4%-ni, əhalisinin isə 22,4%-ni əhatə edən Bakı şəhərində cəmlənmişdir. Qeyd edilən həmin müəssisələrin və orada işləyənlərin cəmi 1,3%-i 300 min nəfərdən çox əhalisi olan Gəncə şəhərində, müvafiq surətdə 1,6%-i isə 150 min əhalisi olan Sumqayıt şəhərinin payına düşür. Bu isə onu göstərir ki, xarici kapitalın iştirakı ilə yaradılan müəssisələrin fəaliyyəti Azərbaycanın əksər rayonlarını əhatə etmir və ölkənin depressiv rayonlarında dərin kök salmış sosial-iqtisadi problemlərin konservasiyasına şərait yaradır.

Bu vəziyyət isə, heç şübhəsiz ki, ölkəyə xarici investisiya axınının regional siyasətlə əlaqələndirilməməsi nəticəsində yaranmışdır. Ona görə də gələcəkdə bu məsələlər həm hökumət və həm də bu problemlərlə məşğul olan elmi-tədqiqat müəssisə-

---

[290] «Respublika» qəzeti, 23 iyun, 2001, s. 1.
[291] Yenə orada, 24 iyun, 2001, s. 1.

lərində çalışan iqtisadçı alimlərin diqqət mərkəzində olmalı və həll edilməlidir.

4.3. ÖLKƏ İQTİSADİYYATINA XARİCİ İNVESTİSİYA QOYULUŞUNUN ƏHALİNİN MƏŞĞULLUQ VƏ İŞSİZLİK PROBLEMİNİN HƏLLİNƏ TƏSİRİNİN DÜNYA TƏCRÜBƏSİ

Soyuq müharibə dövrü başa çatdıqdan sonra ölkələr arasında münasibətlər canlanmış və bunun nəticəsində siyasi rəqabət öz yerini iqtisadi rəqabətə vermişdir. 2000-ci ilin astanasında dünya iqtisadiyyatı ölkə sərhədlərini aşaraq, qlobal xarakter almışdır. Rabitə texnologiyasının inkişafı ölkələr arasındakı cografi məsafələrin əhəmiyyətini azaltmış, şirkətlərin beynəlxalq iqtisadi fəaliyyətini asanlaşdırmış və onlar arasında koordinasiya imkanlarını artırmışdır. Qloballaşma ilə birlikdə, ölkə sərhədləri daxilində qapalı iqtisadiyyat yerinə, rəqabətə əsaslanan, ixracata yönəldilmiş iqtisadiyyatın inkişaf etdirilməsinə səy göstərilmişdir.

İnkişaf etmiş ölkələrin sənayeləşməsi nəticəsində yığılıb qalan texnologiya və kapitalın bir yerdə cəmlənməsi ölkə sərhədlərini aşaraq, beynəlxalq səviyyəyə çıxdığı halda, inkişaf etməkdə olan ölkələrdə kapital azlığı və texnologiyaların müasir tələblərə cavab verməməsi ölkəyə xarici kapitalın daxil olmasına səbəb olmuşdur. "Xarici kapital qoyuluşu" (beynəlxalq kapital qoyuluşu) geniş mənada bir ölkədə olan şəxslərin və ya təşkilatların başqa bir ölkədə maliyyə sərvəti və fiziki sərvət qazanmalarıdır. Əsas etibarı ilə, bir ölkəyə xarici kapital daxil olmaları birbaşa kapital qoyuluşları, investisiyalar portfeli, kredit və pul ayırmaları olmaqla, aşağıdakı üç formada həyata keçirilir.

Şəxsi xarici kapital kömrük sədlərini mal şəklində keçməyin çətin olduğu və ya nəqliyyat xərclərinin çox artdığı zamanlarda bir malın istehlak olunacağı ölkədə istehsal edilməsidir. İstehsal üçün istifadə edilən mənbələrin bol və qiymətlərinin aşağı olduğu (xammal qiymətləri və ya əmlak

haqqı), üstəlik istehlak mərkəzlərinə yaxın olan yerlər xarici kapitalın birbaşa qoyulduğu sahələri təşkil edir. Ümumiyyətlə, transmilli şirkətlər vasitəsilə bir donor bölgədən digər ölkələrə kapital qoyuluşu fabriklər quraşdırılması, filiallar açılması, yerli şirkətlərlə ortaq olmaq və ya lisenziya müqavilələri şəklində həyata keçirilir.

Birbaşa xarici investisiyalar şirkətlərin, əsas etibarı ilə transmilli şirkətlərin mərkəzinin yerləşdiyi ölkə xaricindəki dövlətlərdə nisbətən uzun müddətli ticarət fəaliyyətini həyata keçirmək, kapital qoyuluşu və istehlak prosesini nəzarətdə saxlamaq və müəyyən gəlir əldə etmək məqsədilə yeni bir şirkət yaradılması və ya mövcud şirkəti satın almaq və ya kapitalını artırmaq yolu ilə özünə tabe etmək kimi səciyyələndirilə bilər. Birbaşa xarici kapital qoyuluşları ev sahibi olan ölkəyə valyuta daxilolmasını təmin edərək, maddi kapital şəklində, qeyri-maddi hüquqların daxil olması şəklində ola bilər. Birbaşa xarici kapital qoyuluşları **"beynəlxalq kapital qoyuluşları"** da adlanır.

İstiqraz, əmanət sertifikatı, ticarət sənədləri və aksiyalar şəklində həyata keçirilən kapital qoyuluşları **"portfel investisiyaları"** adlandırılır. Xarici ölkələrdən gələn bu cür kapital qoyuluşları **"beynəlxalq investisiyalar portfeli"** adlandırılır.

Hazırda inkişaf etməkdə olan ölkələrə təmiz kapitalın təxminən 1/3 hissəsi investisiyalar portfeli şəklində daxil olur. Digər kapital qoyuluşlarına nisbətən ən sürətli artım investisiyalar şəklində olan kapital qoyuluşlarında nəzərə çarpır.[292]

Ölkələrin mənfəət və faiz göstəriciləri arasındakı fərqləri investisiyalar portfelinin ən vacib xüsusiyyətidir. Maliyyə investisiyalarının bir növü olan investisiyalar portfeli təsis olunan qurumların mülkiyyət və borc münasibətlərini tənzimlədiyi üçün etibarlı və sabit sərmayə bazarının mövcud olmasını tələb edir. Buna görə investisiyalar portfeli daha yüksək inkişaf etmiş iqtisadiyyat arasında cərəyan edən bir kapital yerdəyişməsidir.

---

[292] *Oğür Esen.* Gelişmekte olan ülkelerde portföy yatırımlarının Etkileri, Ekonomide Durum, KIS/Türk-İş Araştırma Merkezi, Ankara, 1997, s.152 (565 s.).

Həm investisiyalar portfeli, həm də birbaşa xarici kapital qoyuluşları beynəlxalq aləmdə hərəkət edən investisiya olmaqla yanaşı, bəzi fərqli xüsusiyyətlərə malikdir.[293]

Birincisi, ən əhəmiyyətli fərq xarici ölkədə qoyulan kapital qoyuluşunun idarə olunmasıdır. Bu səbəblə xarici kapital qoyuluşu şəklində xarici ölkədə təsis olunan şirkət ana şirkətin bilavasitə rəhbərliyi altındadır. Bu şirkətin rəhbər kadrları ana şirkət tərəfindən təyin olunur. Xarici kapital qoyuluşu ifadəsinin əvvəlində olan birbaşa (direkt) özü şirkətin xaricdən idarə olunmasını ifadə edir, "**beynəlxalq**" investisiyalar portfelinə tətbiq olunduğu zaman, bir xarici istiqraz və aksiya satın alarkən şirkətin idarə heyətinin bilavasitə yoxlanmasına ehtiyac qalmır. Başqa sözlə desək, milli şirkət özünü bu yolla xarici bazarlardan maliyyə ilə təmin edir, lakin əvvəlki kimi yerli kadrlar tərəfindən idarə olunmur. Həqiqətən aksiya şəklində olan payların sahibləri, hissədarlar şurasında səs vermək hüququna malikdirlər. Lakin ümumi şurada səs vermək şirkətin idarə olunmasında bilavasitə iştirak etmək deyildir.

İkincisi, birbaşa beynəlxalq investisiyalar qoyan investorlar xarici inkişaf kapitalı ilə birlikdə istehsal texnologiyaları və işgüzar idarəetmə təcrübəsini gətirir. İnvestisiyalar portfelində isə xarici investor kapital qoyuluşundan başqa heç bir əməliyyatda iştirak etmir.

Üçüncüsü, investorlar da müxtəlif olur. İnvestisiyalar şəklində kapital qoyuluşunu fiziki şəxslər də həyata keçirə bilərlər. Halbuki birbaşa xarici kapital qoyuluşlarını həyata keçirən investorların demək olar ki, hamısı transmilli şirkətlərdir.

Nəhayət, dördüncü fərq investisiya olunan əsas məbləğin və gəlirlərin geri ödənilməsi ilə əlaqədardır. İnvestisiya portfeli şəklində kapital qoyuluşlarında gəlirlərin və amortizasiya xərclərinin geri ödənilməsi şərtləri əvvəlcədən müəyyən olunur. Borc alanlar üçün istiqraz sabit valyuta borcudur və iqtisadi şərtlərə görə dəyişmir. Halbuki birbaşa kapital qoyuluşlarında,

---

[293] *Seyyitoğlu Halil.* Uluslararası İktisat, Teori politka ve Uyqulama, Gürem Yayılanları. № 14, İstanbul, 1998, s.712 (985 s.).

ümumiyyətlə, müəyyən bir amortizasiya olmur. Köçürülən mənfəətlər müəssisənin qazancından və hökumətlərin köçürmə əməliyyatları ilə əlaqədar tətbiq etdikləri məhdudiyyətlərdən asılıdır.

Qeyd etmək lazımdır ki, investisiyalar portfeli inkişaf etməkdə olan ölkələr üçün iş nöqteyi-nəzərindən əhəmiyyətlidir. Çünki **əvvəla**, bu cür kapitalın daxil olması inkişaf etməkdə olan ölkələrdə həyata keçirilən siyasətə etimad göstərilməsini və dəstəklənməsini ifadə edir. **İkincisi** isə, inkişaf etməkdə olan ölkələr maliyyə çatışmazlıqlarını, digər kapital axınlarının əksinə olaraq, öz müstəqilliklərini məhdudlaşdırmadan həll edə bilərlər. Lakin bununla bərabər, investisiyalar portfeli şəklində kapital qoyuluşları inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatına mənfi təsir göstərir. Bu cür kapital qoyuluşu iqtisadi siyasətin avtonomluğunu məhdudlaşdırır və iqtisadiyyatı maliyyə daxilolmaları və böhranlara məruz qoyur.

Məlum olduğu kimi, həm böyük və həm də kiçik şirkətlər inkişaf etmiş ölkələrdə qazandıqları liderlik mövqelərini saxlaya bilmək uçun dünyanın bütün inkişaf etmiş bazarlarında lider olmağa və öz mövqelərini qorumağa məcburdurlar. Dünyanın hansı inkişaf etmiş ölkəsində olmasından asılı olmayaraq, tədqiqat, layihələşdirmə, inkişaf etdirmə, mühəndislik xidmətlərini və istehsalı həyata keçirməlidirlər. Beynəlxalq səviyyəyə qalxmalıdırlar. Bu, yeni beynəlxalq səviyyədə sərhədlər aşmaq ehtiyacı dünyada meydana gələn beynəlxalq investisiya qoyuluşlarındakı canlanmanın səbəblərini əhəmiyyətli dərəcədə izah edir. Xarici kapitalın başqa bir ölkədə qoyulmasının başlıca səbəbi çox qazanc əldə etməkdir. İnkişaf səviyyələri fərqli olan ölkələrdə kapital qoyuluşları da fərqlənir. Bu müxtəliflik kapitalın hərəkət etməsinə imkan verir. Xarici kapital inkişaf etməkdə olan ölkələrin qazanclarını artırmaqla yanaşı, mövcud bazarları qorumaq, yeni bazarlar əldə etmək və inhisarçı qüvvəni təmin etmək uçun kapital qoyuluşunu həyata keçirirlər. Xarici kapitalın başqa bir ölkəyə qoyulmasının səbəbləri iqtisadi, siyasi, sosial və mədəni baxımdan nəzərdən keçirilməlidir.

Kapitalın başqa bir ölkəyə qoyulmasının başlıca səbəbi hər şeydən əvvəl, iqtisadi maraq, investorun daha çox qazanc əldə etmək arzusundan irəli gəlir. İnvestor ölkənin özündə heç olmayan və ya istehsalın maya dəyəri çox yüksək olan xammal, qida məhsulları, neft və digər faydalı qazıntılar və kənd təsərrüfatı məhsullarına olan ehtiyacı təmin etmək üçün bu imkanlara malik olan ölkələrdə investisiyalar qoyurlar. XIX əsrdə İngiltərə və Avropa ölkələrinin müstəmləkələrə qoyduqları investisiyalar ilə bu gün inkişaf etməkdə olan ölkələrə qoyulan investisiyalar bu qəbildəndir. Təbii sərvərtlərin bol və ucuz olması əhəmiyyətli amildir. Meksika, Filippin adaları, Çili kimi ölkələrə qoyulan investisiyaların başlıca səbəbi bu ölkələrin zəngin yeraltı sərvətlərə malik olması idi.

Bazar imkanlarını genişləndirmək, xarici bazarlar əldə etmək arzusu ilə və iqtisadi inkişaf nəticəsində dəyişən tələbat və genişlənən bazar potensialı inkişaf etməkdə olan ölkələrə investisiya qoyulmasına marağı artırır. ***İndi investisiyanın istiqamətləndirildiyi dünya iqtisadiyyatında ixracata əsaslanan strategiya dəbdən düşmüşdür. Dünyada son sözü söyləmək üçün bazara yaxın olmaq və bazarı hiss etmək lazımdır. Bunun üçün bazarda mövcud olmaq və orada bir yer qazanmaq lazımdır.***

Xarici investorun istehsal etdiyi mala bir ölkədə mövcud olan tələbat bu ölkəyə xarici kapitalı cəlb edir. Xarici kapitallı şirkətin bazar təşəkkül etdiyi yerdə istehsalı təşkil edərək bazara hakim olması və hakimiyyətini saxlaması daha asan ola bilər. Yaponlar ABŞ-ın avtomobil bazarının 20 faizini ələ keçirmişlər. Digər istehsalçıların isə bu bazarlardakı payı 30 faizdir.

Texnologiyanın sürətlə dəyişməsi nəticəsində inkişaf etmiş ölkələrdəki müəssisələr iqtisadi ömrünü başa vurmadan texnoloji cəhətdən köhnəlirlər. Bu müəssisələr zəif inkişaf etmiş ölkələrə köçürülərək onların yerini yeni, mütərəqqi texnologiyalara əsaslanan investisiyalara verirlər.

İnkişaf etmiş ölkələrin iqtisadiyyatı get-gedə daha az sərmayə və əmək qoyuluşu tələb edir. Kiçik əmanət hesablarında və böyük pensiya fondlarında iri məbləğdə pul yığılıb qalmışdır. Bu səbəbdən iri investorlar ənənəvi funksiyalarına uyğun olaraq pulu

müəyyən miqdarda məhdudlaşdırmaq əvəzinə hazırda investisiya qoyuluşu üçün yer axtarırlar.

İnkişaf etmiş ölkələrdə işçilərin məvacibləri yüksək olduğu üçün sahibkarlar iş qüvvəsinin ucuz olduğu yerlərə meyl göstərirlər. Vaxtı ilə Honkonq, Koreya, Sinqapur, Çin kimi ölkələrə xarici kapital axınının ən mühüm səbəblərindən biri bu ökələrdə iş qüvvəsinin ucuz olması ilə izah olunurdu. 80-ci illərdə Çində baş vermiş iqtisadi canlanmanın əsas səbəbi Pekinin sahil əyalətlərinin iqtisadiyyatının liberallaşdırılaraq bura xarici kapitalın cəlb edilməsi və ixracat üçün mal istehsal edən «açıq şəhərlər» və «sərbəst iqtisadi zonalar»ın yaradılmasıdır. Bu tədbirlər nəzərə çarpacaq dərəcədə müsbət nəticələr vermişdir. Əsas etibarı ilə Çinin cənub-şərq hissəsində yerləşən 5 sərbəst iqtisadi zonanın ümumi sahəsi 34632 kv.km-dir. Bu, Türkiyənin ərazisinin 4 faizindən çoxdur.

Ölkələrin iqtisadi və maliyyə siyasətləri xarici kapitala təsir göstərir. Kapital qoyuluşundakı, gömrük və vergi siyasətindəki güzəştlər, ucuz kreditlər və digər həvəsləndirici tədbirlər, maddi-texniki baza, valyuta məzənnəsinin sərbəst şəkildə dəyişməsi sərmayənin hərəkətinə təsir göstərən amillərdəndir. Yüksək mənfəətin gözlənilməsi, bazar payını genişləndirmək arzusu, istehsalın səmərəli idxal və ixrac əməliyyatlarının asanlığı, texnologiyanın bir yerdən başqa yerə daşınması kimi amillər xarici kapitalın investisiya olunmasına sövq edir. Xarici şirkətlər investisiya üçün ölkə seçərkən, həvəsləndirici tədbirlərdən daha çox, inkişaf etməkdə olan ölkələrdəki siyasi və iqtisadi sabitliyə əhəmiyyət verirlər.

Xarici kapital qoyuluşları təhlükəsizlik və sabitlik şəraitində sürətlə artır. İnvestisiya qoyulan ölkənin daxili siyasi sabitliyi ilə yanaşı, xarici siyasi sabitliyin də olması əhəmiyyətlidir. ***Xarici şirkətlər bir ölkədəki rejimi, siyasi vəziyyəti, idarəetmə üsullarını bəyənməsələr də, bazarın genişliyi, böyük qazanc perspektivi o ölkəyə investisiya həyata keçirmələri üçün kifayət edir.*** Birbaşa xarici kapitalın daxil olduğu ilk 50 ölkə arasında Asiya-Sakit Okean ölkələrindən olan Çin, Sinqapur, Malayziya, İndoneziya, Tailand, Honkonq, Filippin, Tayvan və Cənubi Koreyaya daxil olan birbaşa xarici kapitalın həcmi

1983—1988-ci illərdə cəmi 8%, 1989—1994-cü illərdə 16% olduğu halda, son illərdə 20-25%-i ötüb keçmişdir.

Xarici kapital qoyuluşlarında siyasi sayıla bilən mənfi amillərdən biri də xarici investisiyaların nəticələrinin milliləşdirilməsidir. Hər hansı bir ölkədə siyasi vəziyyət bir layihənin uzunmüddətli olmasını riskli edirsə, məsələn, vətəndaş müharibəsi, təcavüz və ya dövlət çevrilişi ehtimalı mövcuddursa, o zaman xarici şirkətlər bu ölkəyə kapital qoyuluşlarına meylli olmayacaqlar. Doğrudur, xarici investorların məqsədi qazanclarını maksimum artırmaqdır. Bununla belə, ölkənin sosial quruluşu, mədəni-əxlaqi dəyərləri kapital qoyuluşuna təsir edə bilər. Bu dəyərlər investorlar üçün risk amilidir. Məhz bu səbəbdəndir ki, xarici kapital qoyuluşlarının başlanğıcından bu günə qədər dəyişməyən xüsusiyyəti investisiya qoyulan ölkənin siyasi, sosial və iqtisadi həyatında sabitlik hökm sürməsinin başlıca şərt olmasıdır. Çünki bu amillər investisiya qoyan transmilli şirkətin satışdan əldə etdiyi qazanc və mənfəətinə deyil, eyni zamanda beynəlxalq bazarlardakı və xüsusən gedilən ölkələrdəki mövcudluğuna və bu mövcudluğun davam etməsinə təsir edir.

Xarici investor investisiya qoyuluşu üçün ölkə seçərkən təkcə yeridilən siyasətə deyil, həm də o ölkə daxilindəki sosial, siyasi və iqtisadi şərtlərə baxır və əsas etibarı ilə sabitlik axtarır. ***Hər hansı bir ölkədə fəal həvəsləndirici siyasət yeridilsə də, əgər bu ölkədə qeyri-sabitlik olarsa və uzunmüddətli proqnozlar vermək və gələcəkdən əmin olmaq çətindirsə, bu ölkənin investisiya qoyuluşu üçün seçilməsi də çətin olur***. Xarici investora ölkənin sərvətinin istifadəçisi olduğunu düşünmək və qarşılıqlı mənfəət üçün münasibətlər yaratmağı münasib bilməmək kapital axınına mənfi təsir göstərən amildir. Cəmiyyətin investisiyalar haqqındakı düşüncəsi də mühüm amildir.

İnkişaf etməkdə olan ölkələrin inkişafı yolunda mövcud olan ən böyük maneələrdən biri vəsait çatışmazlığı ilə qarşılaşmalarıdır. Bu ölkələr investisiya qoyuluşu üçün yetərli sərmayəyə malik deyillər. Xarici sərmayə inkişaf etməkdə olan ölkələrdə vəsait çatışmazlığını aradan qaldıran əhəmiyyətli vasitə olaraq qiymətləndirilir.

Arzumuz budur ki, xarici kapital bizim işlərimizə və sabit sərmayəmizə qatılsın. Bizim üçün və onlar üçün faydalı nəticələr versin".[296]

İlk sənaye təşəbbüsü ölkənin öz maliyyə imkanları ilə həyata keçirilirdi. Bu dövrdə ölkənin dirçəlməsi üçün xarici kapitala ehtiyac var idi. Xüsusi imtiyazlar verilməmək və Respublika qanunlarına tabe olmaq şərtilə verilən bütün təminatlara baxmayaraq, o dövrdə mövcud olan şərtlər üzündən xarici kapital Türkiyədə investisiya qoymağa maraqlı olmamışdır. Bu səbəbdən 1923—1950-ci illər Türkiyə tarixinə xarici kapitalın gətirilmədiyi kimi daxil olmuşdur.

İkinci dünya müharibəsindən sonra dünyada başlayan liberallaşma cərəyanlarına paralel olaraq, Türkiyədə xarici sərmayə qoyuluşlarına daha müsbət münasibət bəslənməyə başlandı. 1950-ci ildən sonra bu münasibət daha aşkar şəkil aldı. Bu dövrdə qabaqcadan bəzi qanunverici aktlar qəbul edildikdən sonra, 1954-cü ildən indiyədək qüvvədə olan 6224 saylı "Xarici kapitalın Təşviqi qanunu" qəbul edildi. Bu qanunla əvvəlki qanunlarda mövcud olan və xarici sərmayənin fəaliyyət göstərə biləcəyi sahələrdə əlaqədar məhdudlaşdırmalar aradan qaldırılmış və xarici sərmayəli müəssisələrin yerli sahibkarlar üçün açıq olan bütün sahələrdə fəaliyyət göstərə biləcəkləri qəbul edilmişdir. Ancaq Türkiyəyə 25 ilə yaxın bir dövrdə gələn xarici sərmayə 250 milyon dollar həcminə belə gəlib çatmamışdır. İnvestisiya qoyan ölkələrin sayı 100-dən az olmuşdur. Xarici sərmayə qanununda sərmayəni cəlb etmək məqsədilə müxtəlif tədbirlər görülmüşdür. Müasir dövrdə yerli investorlara tətbiq olunan investisiya və ixrac həvəsləndirmələri xarici sərmayə şirkətlərinə də tətbiq olunur. Yenə də ölkəyə 80-ci illərə qədər həm iqtisadi, həm də siyasi səbəblərə görə xarici kapital maraq göstərməmişdir. Ancaq 1980-ci ildən sonra yeridilən liberal iqtisadi siyasət xarici sərmayənin daxil olmasına əhəmiyyətli dərəcədə təsir göstərdi.

---

[296] *Gülerman Adnan.* Atatürk Döneminde Türk Ekonomisi və Endüstrisi. İşveren Dergisi. Cilt: XIX, sayı: 4, Ankara, 1981, s.4.

Xarici kapital haqqında qanunda edilən müsbət dəyişikliklərlə birlikdə, bürokratiyanın səviyyəsinin azalması, gömrük rüsumlarının aşağı salınması, valyuta məzənnəsinin sərbəstləşməsi çox səmərəli olmuşdur. Bu zaman daha çox sərmayə cəlb etmək üçün müxtəlif ölkələrdə "İnvestisiyanın qarşılıqlı həvəsləndirilməsi və qorunması" müqavilələri imzalandı. Bundan başqa, son illərdə dövlət sektorunda fəaliyyət göstərən şirkətlərin özəlləşdirilməsi çərçivəsində bu şirkətlərin bir hissəsinin xarici şəxslərə satılması ilə xarici sərmayənin daxil olması üçün yeni qapı açılmışdır. 1998-ci ilin əvvəlinə olan məlumatlara əsasən, özəlləşmə yolu ilə Türkiyəyə 640 milyon ABŞ dolları həcmində xarici sərmayə daxil olmuşdur ki, bu da həmin ilin may ayında olan vəziyyətə görə, ölkədə həyata keçirilən özəlləşdirmənin 15 %-ni təşkil etmişdir.

1950-ci ildən başlayaraq, Türkiyə xarici kapital qoyuluşuna geniş maraq göstərməyə başlamışdır. Xarici kapital 80-ci illərin ikinci yarısı və 90-cı illərin birinci yarısında böyük dəyişikliklərə məruz qalmış və həmin dövrdə xarici kapital dünyada rekord səviyyəyə çatmışdır. Lakin bunu Türkiyəyə şamil etmək olmaz. Dünya miqyasında xarici kapital verilən hüquqlara və yerli investor ilə eyni dərəcədə tanınan həvəsləndirmələrə baxmayaraq, 80-ci illərə qədər Türkiyədə ölkəyə daxil olan xarici kapitalın 54,9%-i emal sektorunun, 40,5%-i xidmət sektorunun, 1,6%-i kənd təsərrüfatı sektorunun, 1,14%-i isə mədəniyyət sektorunun payına düşmüşdür. 1998-ci ilin may ayında Türkiyədə 4206 xarici kapitallı şirkət fəaliyyət göstərmişdir. Bu şirkətlərin kapitalının həcmi 566 trilyon Türk Lirəsi olmuşdur. Bunda xarici kapitalın payı 317 trilyon Türk Lirəsi olmuşdur (56%). Şirkətlərin sayı 4 mindən çox olsa da, onların əksəriyyəti 50-100 min dollarlıq kiçik şirkətlərdən ibarət idi.

Dünyada iqtisadiyyat və ticarət sahəsində sürətli dəyişikliklər baş verdiyi halda xarici kapitalın cəlb olunması baxımından Türkiyəyə rəqib ola bilməyən ölkələr bu sahədə müəyyən addımlar atdığı halda, Türkiyənin 50 ölkə arasında 42-ci olmasının başlıca səbəbi siyasi qeyri-sabitlik və inflyasiyanın səviyyəsinin yüksək olması idı. Bir sözlə, xarici investorların

Türkiyəyə etibar etməməsi idi. Türkiyənin Xəzinədarlıq Müşavirliyinin Bank Valyuta əməliyyatları Baş İdarəsinin verdiyi məlumatlara əsasən, həmin dövrdə 52 xarici ölkədə 742 Türk şirkəti fəaliyyət göstərmiş və bunların ixrac etdikləri kapitalın həcmi 1364 milyon ABŞ dolları olmuşdur. Ölkədən ixrac edilmiş həmin kapitalın əksər hissəsi, yəni 688 milyon dolları bank sektorunda (50,4%-i) fəaliyyət göstərmişdir. 290 milyon dolları (21,3%-i) emal sektorunun, 250 milyon dolları (18,3%-i) ticarət sektorunun, 54 milyon dolları (4,0%-i) telekommunikasiya sektorunun və s. payına düşmüşdür.

Türkiyədən ixrac edilmiş kapitalın ən çox hissəsi, yəni 323 milyon dolları və ya 23,7%-i İngiltərəyə ixrac olunmuşdur. Bu kapitalın 131 milyon dolları (9,6%-i) bank sektorunda istifadə olunmuşdur. İngiltərədən sonra 240 milyon dollarla (17,6%) Almaniya, 101 milyon dollarla (7,4%) Hollandiya, 86 milyon dollarla (6,3%) Rusiya Federasiyası gəlir. Almaniyaya yönədilmiş kapitalın 179 milyon dolları və ya 74,6%-i bank sektorunda istifadə olunmuşdur. Türk dilli Respublikalara - Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistana ixrac olunmuş kapitalın həcmi 143 milyon dollar (10,5%) təşkil etmişdir. Bunun 83 milyon dolları (58,0%-i) emal sektorunda istifadə olunmuşdur. Bu illərdə Almaniyada yaşayan türk vətəndaşlarının 135 mini burada əmanət sahibi, 42 mini şəxsi işini qurmuş sahibkarlar, 186 mini isə həmin sahibkarlar tərəfindən yaradılan sahələrdə işləyənlər idi.[297]

Hazırda dünya iqtisadiyyatı idxal yönümlü iqtisadiyyatdan ixraca söykənən iqtisadiyyata keçmişdir. Bu gün ixraca əsaslanan strategiyadan başqa, artıq bazarın olduğu yerdə investisiya qoymaq rəqabət apara bilmək üçün vacib şərtə çevrilmişdir. 1980-ci ildən başlayaraq transmilli şirkətlərin strategiyasında qlobal rəqabətin inkişaf etdiyi müşahidə olunur. Transmilli şirkətlər böyük bazarlara daxil olaraq, burada üstünlüklərini qoruyub saxlamağa çalışmışlar. Bunun nəticəsində bir çox transmilli şirkət ənənəvi strategiyalarını dəyişdirərək, daha yaxın əməkdaşlıq, ixtisaslaşma və coğrafi

---

[297] Fokus, Almaniya, 08.12.1997, s.118.

baxımdan dağınıq fəaliyyətlərini cəmləşdirməyə başlamışlar. 80-ci illər transmilli şirkətlərin meydana çıxdığı illər olmuşdur. Xüsusilə Yaponiya və Uzaq Şərq, Asiya şirkətlərində ixrac yönlü strategiyalardan birbaşa investisiya qoyuluşuna üstünlük vermişlər. 70-ci illərdə Transmilli şirkətlərin hakim strategiyası şirkətlərin yaşamasını təmin etmək idi. 80-ci illərdə bu strategiya dəyişərək, qlobal rəqabət üstünlüyünün təmininə yönəldilmişdir. Bunun 3 əsas səbəbi vardır. Bunlar bazarların qloballaşması, qlobal rəqabət və texnologiyanın sürətli dəyişməsidir.

Bu gün dünyada, başda parçalanan SSRİ və Çin olmaqla, siyasi-iqtisadi rejimləri müxtəlif olan ölkələr qapılarını xarici kapitalın üzünə açmışlar. Xüsusilə Çin xüsusi iqtisadi zonalar təşkil edərək, xarici kapitaldan səmərəli şəkildə istifadə edən ölkələrdən biri olmuşdur. İnkişaf etməkdə olan ölkələr inkişaf strategiyasında xarici kapitaldan istifadə edə bilmələri üçün xüsusi həvəsləndirmə tədbirləri və siyasət həyata keçirmişlər. Dünyadakı bu proses - ölkələrin xarici kapitalla müsbət münasibəti transmilli şirkətlərin dünya istehsalındakı xüsusi çəkisini əhəmiyyətli dərəcədə artırmışdır.

Onu da demək lazımdır ki, dünyanın yaranmasından bu günədək ən böyük texnoloji və iqtisadi inkişaf son 30-40 ildə müşahidə edilmişdir. İnsanı heyran qoyan bir sürətlə inkişaf edən texnologiya dünyanın o biri başında baş verən hadisələrdən xəbər tutmağa imkan verir, o hadisəylə heç bir əlaqəsi olmayan insanlar sevinir və ya kədərlənirlər. Soyuq müharibə dövrünün qurtarması ilə eyni vaxtda kommunizm də iflasa uğramış, stereotiplər məhv edilmiş, həqiqət üzə çıxmışdır. Keçmişdə sərhədləri bağlı olan ölkələr bu gün kapitalizmin imkanlarından yararlanmaq üçün sanki yarışır, iqtisadiyyatlarını liberallaşdırıb dünya sərvətindən pay almaq üçün çalışırlar. Bu ölkələrdəki milyonlarla insanlar birdən-birə dünya səhnəsinə çıxmışlar. Yüz minlərlə gizli işsiz meydana çıxmış və dünyada işsizlər ordusunun sayının çoxalmasına səbəb olmuşdur. Bu işsizlər ayda 15-20 dollara işləmək üçün növbədə dururlar. Bütün dünyada olduğu kimi, bu ölkələrdə belə işsizlər ordusuna iş tapmaq, məşğulluq sahəsi təmin etmək üçün yeni

Xarici kapitalı cəlb etmək istəyən ölkələr xarici kapitalın ödənişlərə müsbət təsir göstərməsi, gətirəcəyi mütərəqqi texnologiya, marketinq və idarəçilik təcrübəsi kimi iqtisadi quruluşa müsbət təsir göstərən vasitələrindən istifadə etmək niyyətindədirlər. Xarici sərmayənin qoyulduğu ölkələrin iqtisadiyyatına göstərdiyi təsiri daha yaxşı görmək üçün investisiyaların istehsal, əmək məşğulluğu, gəlir, qiymətlər, xarici ticarət, ödənişlər tarazlığı, iqtisadi inkişaf və əhalinin rifah halına göstərdiyi iqtisadi təsiri də qeyd etmək lazımdır.

Dünyada qloballaşma prosesindən əvvəl xarici sərmayəyə lazımi dərəcədə əhəmiyyət verilmirdi. Lakin bu gün onun iqtisadi inkişafındakı rolu dərk edildiyindən inkişaf etməkdə olan bütün ölkələrin diqqət mərkəzində durur. Qloballaşmada, iqtisadiyyatda və ticarətdə liberallaşma meyllərinin sürətlə artmasıyla birlikdə kapitalın sərbəst dövriyyəsi də artmış, ticarət sərbəstləşmiş və istehlak vərdişlərində oxşarlıqlar görünməyə başlamışdır.

Xarici kapitalın investisiya olunduğu ölkədə təsiri müxtəlif formada ola bilər. Bu təsir növlərini 4 qrupa bölmək olar: a) sərmayənin toplanması və istehsalın həcminə təsiri; b) texnoloji və idarəetmə biliklərinə təsiri; v) ödəmələr tarazlığına təsiri; q) əmək məşğulluğuna təsiri.

Xarici kapital qoyuluşlarının başqa proseslərə də təsiri vardır. Müasir dövrdə bu təsir aşağıdakıları əhatə edir: a) inkişaf etmiş və kapital ixrac edən ölkələrin siyasi və iqtisadi dəstəyi; b) tanıtma; v) qloballaşma; q) ətraf mühitin qorunması; d) insan ehtiyatlarının inkişaf etdirilməsi.

Bizim tədqiqatın məqsədi kapital qoyuluşunun əhalinin məşğulluq və işsizlik səviyyəsinə təsirini öyrənməkdən ibarət olduğundan, burada həmin məsələyə diqqəti cəlb etmək istərdik. Xarici kapitalın bir ölkəyə investisiya olunması nəticəsində həm investor ölkədə, həm də investisiya qoyulan ölkədə yeni iş imkanları açılır. Bununla yanaşı, investor ölkədən və digər ölkələrdən investisiya qoyulan ölkəyə yüksək ixtisaslı kadrlar gətirilir. Digər lazımi ixtisaslı və ixtisassız kadrlar isə investisiya qoyulan ölkənin özündə təmin edilir.

İşsizlik səviyyəsinin yüksək olduğu iqtisadi cəhətdən az inkişaf etmiş ölkələrin bu işsizliyi aradan qaldıran investisiya qoyuluşları üçün öz imkanları az olduğundan, xarici sərmayə yatırımları məşğulluq sahəsində əlverişli şərait yaradır. Transmilli şirkətin sərmayə qoyulan ölkələrdə yeni iş yerləri yaranmasında əhəmiyyətli rol oynadığı məlum olsa da, bunu birbaşa kapital qoyuluşları ilə yaradılan iş yerləri ilə müqayisə etmək çətindir. Çünki birbaşa kapital qoyuluşları iş yerlərinin azalmasına birbaşa və dolayısı ilə təsir göstərir. Rəsmi məlumatlara əsasən, 90-cı illərin ikinci yarısında Rusiyada xarici sərmayə qoyuluşlarının həcmi 350 milyard ABŞ dolları həcmində olmuş və müasir dünya iqtisadyyatını səciyyələndirən qloballaşma layihəsinin təkanverici qüvvəsi olaraq qalmaqdadır.

Hazırda dünyada təxminən 45 min beynəlxalq ana şirkət və bu şirkətlərin şərik olduğu təxminən 280 minə qədər xarici firmaları olmaqla, cəmi 325 min firma fəaliyyət göstərir. 90-cı illərin ortalarında ildə xarici investisiya qoyuluşlarının qlobal həcmi 3,2 trilyon ABŞ dollarına çatmışdır. Onların apardıqları satışların həcmi isə 7 trilyon ABŞ dolları təşkil etmişdir ki, bu da dünya üzrə aparılan ixracatın 25%-indən çoxdur. Birbaşa xarici yatırımların 300 mindən çox firma tərəfindən həyata keçirilməsinə baxmayaraq, ən böyuk 100 transmilli şirkət bütün firmaların xarici əmlakının təxminən beşdə bir hissəsinə nəzarət edir. Qeyd edilən dövrdə 349 milyard ABŞ dolları həcmində xarici sərmayənin 59,6%-i və ya 208 milyard dolları inkişaf etmiş ölkələrin, 37%-i və ya 129 milyard dolları isə inkişaf etməkdə olan ölkələrin payına düşmüşdür. Bu məsələni qardaş Türkiyə dövlətinin misalında nəzərdən keçirmək lazımdır. Türkiyəyə birbaşa kapital qoyuluşunun əsası hələ Osmanlı İmperiyası dövründə qoyulmuşdur. Ancaq sonralar Osmanlı İmperiyası başda İngiltərə olmaqla, Avropa ölkələri ilə bağladığı ticarət sazişlərindən asılı vəziyyətə düşmüşdür. Bu müqavilələrə görə, Osmanlı dövləti xarici ölkələrdən hər cür malların idxal edilməsinə sərbəstlik verməli, idxalatda 5%, ixracatda 13% gömrük vergisi tətbiq etməli və xarici malların

bir bölgədən başqa bölgəyə daşınması üçün onları müxtəlif vergi və rüsumlardan azad etməli idi.[294]

Beləliklə, Osmanlı dövlətinin iqtisadiyyatı qısa bir zamanda Qərb ölkələri üçün sənaye malları sata bildikləri açıq bazara çevrildiyindən, xarici şirkətlər yun, xalça, toxuculuq, yağ və sabun istehsalından başqa digər sənaye investisiyaları ilə az maraqlanmışdır. Osmanlı dövlətinin açıq bazar siyasəti Avropa merkantilizminin tamamilə əksinə olan iqtisadi anlayışdan, daxili bazarda malların bolluğu və ucuzluğu prinsiplərinə əsaslanan iqtisadi anlayışdan qaynaqlanırdı. Bu siyasət nəticəsində daha ucuz və keyfiyyətli Qərb malları qarşısında yerli sənayenin çökməsinə zəmin yaranmışdır. 1800—1850-ci illərdə Osmanlı dövləti pambıq, benzin və İstanbul üçün unu belə Qərb ölkələrindən idxal edirdi. 1838-ci ildə verilən yeni imtiyazlar nəticəsində İngiltərənin Yaxın Şərq ixracatının həcmi bütün xarici ticarətin 1/3 həcminə çatmışdır. 1500—1890-cı illərdə Ön Asiya, Balkanlar və Ərəb torpaqlarından ibarət olan geniş Osmanlı dövləti Avropanın iqtisadi inkişafında ilkin Avropa—Asiya ticarətində anbar, sonra isə bazar kimi böyük rol oynamışdır.[295]

XIX əsrin ikinci yarısından sonra Osmanlı İmperiyası borclarını ödəyə bilməmişdir. Bu səbəbdən 1881-ci ildə Duyunu Ümumiyyə İdarəsi yaradılmışdır. Başçıları, ümumiyyətlə xarici şəxslərdən ibarət olan bu idarənin vəzifəsi borclara qarşı göstərilən gəlirləri toplayaraq, kreditorlara vermək idi. Bu qrupun rəhbərləri qısa zamanda dövlətin ən əhəmiyyətli mənbələrinə əl uzatmışdır. 1887-ci ildə büdcənin 35%-i borclara ayrılmışdır. Başlanğıcda xarici borcların tez bir zamanda ödənilməsi qarşıya məqsəd qoyulduğu halda, borcları ödəmək üçün alınan yeni borcların ağırlığı Osmanlı dövlətinin iqtisadi və maliyyə iflasını sürətləndirən amilə çevrilmişdir. Bu yükdən yaxa qurtarmaq səyləri isə ölkədəki xarici kapitalın miqdarını və Duyunu Ümumiyyənin maliyyə təminatı altında fəaliyyət

---

[294] İşbank – Yabancı Sermaye, a.g.e., s.68.

[295] *İnakık H.* Türkiyə ve Avropa Dünü, Bugünü, Doğ-Batı Dergisi, Sayı: 2. İstanbul, 1998, s.16

göstərən xarici şirkətlərin fəaliyyətlərini artırmaqdan başqa bir işə yaramamışdır.

Beləliklə, kapitulyasiyaların verdiyi imtiyazlar və imperiyanın iqtisadi və siyasi gücsüzlüyü nəticəsində xarici şirkətlər ölkəni açıq bazara döndərmişlər, satış imkanı olmayan halda, ən qazanclı investisiya sahələrini seçərək gətirdikləri investisiyanı qısa bir zamanda geri almağın yollarını axtarmışlar. Xarici ölkələrdən alınan borclarla birlikdə, bu idarə daha sonra imperiyanı iqtisadi cəhətdən çökdürən ən əhəmiyyətli amillərdən biri olmuşdur. Buna görə də respublikanın ilk illərində Osmanlı İmperiyasını çökdürən amillərdən biri olan kapitulyasiyaların özündən sonra qoyub getdiyi mənfiliklərin təsirini aradan qaldırmaq üçün ciddi dövlətçilik siyasəti yeridilmişdir.

Osmanlı dövründə xarici kapitalın göstərdiyi mənfi təsirlərə baxmayaraq, xarici kapital yenidən Türkiyəyə dəvət edilmişdir. **Atatürk** hələ Respublika elan edilməzdən əvvəl, 25 oktyabr 1919-cu ildə Almaniyada bir jurnalistə xarici kapital haqqında aşağıdakıları **demişdir**: **"Millətimiz bəşərriyyətin müasir məqsədlərini üstün tutur və elm, texnika, sənaye və iqtisadi ehtiyaclarımızı normal qəbul edir. Bu səbəblə, dövlət və millətimizin daxili və xarici hakimiyyətinin və vətənimizin bütövlüyünün qorunması və qəbul edilməsi şərti ilə, 6-cı maddədə** (Sivas Konqresi, 4 sentyabr 1919-cu il) **göstərilən çərçivə daxilində milli əsaslara bağlı olan, millətimizə qarşı istila əməli bəsləməyən hər hansı bir dövlətin texniki, iqtisadi, sənaye sahələrindəki yardımlarını məmnunluqla qarşılayırıq".**

20-ci illərdə investisiya qoyuluşu üçün lazım olan kapital nə ictimai, nə də şəxsi sektorda yox idi. Bunun üçün xarici kapitala ehtiyac var idi. Ancaq xarici kapital üçün böyük qazancdan daha çox, etibarlı şərtlərin mövcud olması lazım idi. Atatürk 17 fevral 1923-cu ildə İzmir İqtisadi Konqresində xarici kapitala təminat verən və onu ölkəyə dəvət edən nitqində demişdir: **"Əfəndilər, iqtisadiyyat sahəsində düşünərkən və danışarkən elə təsəvvür edilməsin ki, biz xarici kapitalla özümüzə düşmən qazanırıq. Bundan ötrü qanunlarımıza hörmət etmək şərtilə, kapitala lazımi təminatı verməyə hər vaxt hazırıq.**

investisiyalar qoymaq yolları axtarılır və dünyadakı dəyişikliklər diqqətdə saxlanılır.

Qlobal səviyyədəki rəqabət transmilli şirkətlərə beynəlxalq bazarlara çıxmaq üçün təkcə bir müəssisənin məhsullarının ixracı ilə məşğul olmanın kifayət etmədiyini, bunun əvəzinə müştərinin, yəni bazarın olduğu yerdə müəssisələrin sayının çox olmasının vacib olduğunu göstərdi. Bu şərtlər transmilli şirkətlər timsalında xarici kapitalın məşğulluğa müsbət təsirini göstərir. Transmilli şirkətlər istər istehsal, istərsə də bölgü sahələrinə xarici kapital qoyur və beləliklə də müştəriyə daha yaxın olurlar. Bu vəziyyət şirkətlərin müxtəlif ölkələrdəki maliyyə imtiyazlarından istifadə etməsinə şərait yaradır. Nəticədə rəqabət apara bilmək imkanı qazanmış olurlar. Transmilli şirkətlərin bu strategiyası böyük bazarlara malik olan inkişaf etməkdə olan ölkələrə investisiyalar qoyulması, başqa sözlə yeni iş sahələrinin meydana çıxması baxımından əhəmiyyətlidir.

Xarici kapital qoyuluşlarının məşğulluğa təsirini ölçmək çox çətindir. Onun məşğulluğa təsiri investisiya qoyan ölkə ilə investisiya qoyulan ölkədə müxtəlif cür qiymətləndirilir. İnvestisiyanın bir ölkəyə daxil olma şəkli, seçilmiş texnologiya və investisiyanın yeri ilk mərhələdə məşğulluğa təsir edən mühüm amillərdir. Xarici investorun texniki irəliləmədəki səviyyəsi və sürəti ilə əlaqədar strategiyası, ticarət siyasəti, ana şirkətin qlobal istehsal və ticarətlə bağlı strategiyasında ondan asılı şirkətin yeri və asılı şirkətin müəssisədəki nailiyyəti məşğulluğa birbaşa təsir edən digər amillərdir. Transmilli şirkətlərin məşğulluğa təsiri transmilli şirkətlərin fəaliyyətinin artmasından və birbaşa xarici kapital qoyuluşlarının dünya miqyasında inkişafından və miqdarından asılıdır. Bununla belə, transmilli şirkətlərin birbaşa işlə təmin olunan adamların sayındakı artım sürəti birbaşa xarici kapital qoyuluşlarının artım sürətindən azdır. Son zamanlarda bəzi amillər, başqa qurumlarda olduğu kimi, transmilli şirkətlərdə də iş yerlərinin artımına mənfi təsir göstərir. **Bu amillər aşağıdakılardan ibarətdir**: sənaye ölkələrindəki iqtisadi inkişafın durumu; iş qüvvəsinə qənaət etməyə imkan verən texnologiyalar; daha çox kapital qoymaq siyasəti;

milli və beynəlxalq subkontrakt xidmətlərin inkişafı; transmilli şirkətlərin maya dəyərini aşağı salan siyasətlər həyata keçirməsi.

Dünya miqyasında sürətlə artan rəqabət yalnız transmilli şirkətlərdə iş yerlərinin azalmasına səbəb olmaqla qalmır, eyni zamanda digər şirkətlərdə də, milli şirkətlərdə də məşğulluq səviyyəsinin aşağı düşməsinə səbəb olur. Maya dəyərini aşağı salmaq üçün istifadə edilən vasitələrdən biri də işçilərin sayı ilə əlaqədardır.

Xarici sərmayəli kapital qoyuluşlarının uğurları digər xarici kapital qoyuluşlarında müəyyən bir ölkəyə daxil olmasına kömək edir. Birbaşa xarici kapital qoyuluşunun bu böyük təsiri məşğulluğun inkişafına da əhəmiyyətli dərəcədə kömək edə bilər.

Xarici investisiyaların məşğulluğa təsiri investisiya qoyulan ölkənin inkişaf etmiş və ya inkişaf etməkdə olan ölkə olmasından asılı olaraq, müxtəlif cür qiymətləndirilir. Transmilli şirkətlərin məşğulluğa təsiri isə investisiyanın növü, həcmi və istifadə olunan texnologiyadan asılı olaraq, müxtəlif olur. Xarici kapitalla birlikdə, rəhbər işçilər və mütəxəssislər investisiya qoyulan ölkəyə getməklə, investisiya qoyan ölkənin məşğulluğuna təsir edir. Transmilli şirkətlər digər ölkəyə investisiya qoyduqda məşğulluqdan daha çox yeni bazarlar əldə etmək, mövcud bazarları qorumaq, gömrük sədləri ilə qorunan bazarlarda rəqabət apara bilmək haqqında düşünürlər. Bir sıra kapitalist ölkələrində, o cümlədən də ABŞ-da və Almaniyada Həmkarlar İttifaqları transmilli şirkətlərin ölkə xaricində kapital qoyuluşlarının məşğulluğa mənfi təsir edəcəyini göstərərək, ölkə xaricinə kapital qoyuluşunun əleyhinə çıxış etmişlər. ABŞ-ın hökumət dairələrinin apardığı təhlillərin nəticələri Həmkarlar İttifaqlarının bu iddialarını rədd edir, bunun müqabilində iş verən dairələri müdafiə edir.

Aparılan geniş həcmli tədqiqatların nəticələrindən aydın olmuşdur ki, ABŞ-ın ölkə daxilində və ölkə xaricində qoyduğu xarici investisiyalar ABŞ-ın məşğulluq səviyyəsinin inkişafına səbəb olmuş, onun ümumi məşğulluq səviyyəsinə isə mənfi təsiri çox cüzi olmuşdur. Bir cəhəti də xüsusi olaraq vurğulamaq lazımdır ki, transmilli şirkətlərin xarici ölkələrdəki fəaliyyət-

lərinin əsas ölkədə qlobal məşğulluq imkanlarını nə qədər azaltdığı məlum olmaqla bərabər, ölkə xaricinə aparılan kapital müəyyən bir yerdə ixracatı təkmilləşdirir və bu da əsas ölkədə iş yerlərinin azalmasına səbəb olur.

Xarici investisiya qoyuluşlarının kapital qoyulan ölkələrdəki məşğulluğa təsiri ölkənin inkişaf səviyyəsinə görə müxtəlif olur. İnkişaf etməkdə olan ölkələrə daxil olan xarici kapital o ölkədə olan kapital çatışmazlığını müəyyən qədər ödəyir, borc riskindən xilas edir, yeni texnologiyalar təmin edir, ixrac imkanlarını inkişaf etdirir, işin idarə olunması və idarəetmə anlayışlarını dəyişdirərək, sahibkarların bacarmadıqları bəzi işləri öyrənmələrinə kömək edir.

Ümumilikdə, transmilli şirkətlər tərəfindən həyata keçirilən xarici kapital qoyuluşları bunları qəbul edən ölkələrin məşğulluq səviyyəsinə təsir edir. Bu təsir ölkənin sənayeləşmə səviyyəsinə görə müxtəlif ola bilər. Sənaye ölkələrində bu investisiyaların həyata keçirilmə forması böyuk əhəmiyyət kəsb etdiyi halda, inkişaf etməkdə olan ölkələrdə xarici kapitalın özü ilə gətirdiyi istehsal texnologiyası mühüm hesab edilir. Həqiqətən də sənaye ölkələrində yeni iş yerlərinin açılması nəticəsində yeni məşğulluq imkanlarının meydana gəlməsinə, mövcud iş yerlərinin transmilli şirkətlər tərəfindən alınmasına əhəmiyyət verildiyi halda, inkişaf etməkdə olan ölkələrdə iş qüvvəsindən daha çox istifadə olunan texnologiyaların istifadəsinə məşğulluq problemini həll edən vasitə kimi baxılır. Təbii ki, hər bir investisiya qoyuluşunda bəhs edilən xüsusi şirkətlərə məhz ona görə diqqət yetirilməli və qiymətləndirilməlidir. Məsələn, inkişaf etmiş hər hansı bir sənaye ölkəsində müasir texnologiyadan istifadə edən, daxili və xarici rəqabət qabiliyyətinə malik olan bir şirkətin transmilli şirkətlər tərəfindən satın alınmasıyla köhnəlmiş maşın və istehsal texnologiyalarından istifadə edən müəyyən bir yerli şirkətin transmilli şirkətlər tərəfindən satın alınması arasında məşğulluq səviyyəsinə təsirləri baxımından bəzi fərqlər mövcuddur. Bundan başqa, transmilli şirkətlər tərəfindən istifadə edilən texnologiyanın yaratdığı problemlər təkcə inkişaf etməkdə olan ölkələrə xas deyil. Son zamanlar ən çox birbaşa investisiya qoyulan Qərbi Avropa ölkələrində belə

texnoloji problemlərlə əlaqədar müzakirələr davam edir, bunların meydana gətirdiyi iş qüvvəsi və məşğulluq geniş müzakirələrə səbəb olur. Belə olan halda inkişaf etmiş sənaye ölkələrinin qarşılıqlı problemlərlə inkişaf etməkdə olan ölkələrin problemləri bir-birindən tamamilə fərqlənmir. Bu iki qrup ölkələrdə sadəcə olaraq həmin problemlər kəskin xarakter alıb-alınmama dərəcəsiylə fərqlənir.

Transmilli şirkətlər istər istehsal, bölgü və istərsə də xidmət sektorunda müştəriyə daha yaxın olan ölkələrə investisiyalar qoyurlar. Bu investisiyalarda biliklərin, texnologiyaların və iş qüvvəsinin çox olması məşğulluq səviyyəsinə bilavasitə təsir göstərir.

XX əsrin 80-90-cı illərində transmilli şirkətlərin öz ölkələrindəki məşğulluq səviyyəsinə təsirləri xarici ölkələrdə onlardan asılı şöbələrinə olan təsirlərindən daha az olmuşdur. İnvestisiya qoyulan inkişaf etmiş ölkələrdə birbaşa xarici kapital qoyuluşlarının inkişafı xüsusilə emal və xidmət sektorunda məşğulluğa təsir göstərmişdir. Bu da xarici inteqrasiyaların məşğulluq bazarı baxımından inkişaf etmiş ölkələrdə birbaşa xarici kapital qoyuluşu ilə xeyli inkişaf etdiyini göstərir. Xarici ölkələrdəki transmilli şirkətlər yeni məşğulluq sahələrinin artmasına nə qədər təsir etsələr də, birbaşa xarici kapital qoyuluşu investisiya qoyulan inkişaf etmiş ölkələrdə daha az hiss edilir. Başqa sözlə desək, birbaşa iş yerləri açılmasından daha çox məşğulluq sahəsində bir yenilik və yenidən təşkilatlanma şəklində dəyişikliklər olmuşdur.

İnkişaf etmiş ölkələrdə daha çox böyük miqdarda investisiyalar qoyulduğu halda, inkişaf etməkdə olan ölkələrdə nisbətən zəif texnologiyaların tətbiq olunduğu investisiyalar qoyulur. Bəzən inkişaf etmiş ölkələrdəki istifadə edilmiş maşın və avadanlıqlar olduğu kimi sökülərək inkişaf etməkdə olan ölkələrə göndərilir. İstifadə olunmuş bu maşın və avadanlıqlar dəfələrlə Türkiyəyə də gətirilmişdir. Bununla bərabər, bu avadanlıqlar da, eyni ilə yeni yaradılan avadanlıqlar kimi, həvəsləndirmə imkanlarından istifadə edir. Gətirilən və istifadə edilən bu avadanlıqlar o ölkə üçün zəif texnologiya da hesab edilə bilər, eyni zamanda ölkədən çıxarılan və xüsusilə ekoloji

tələblərə cavab verə bilməyən avadanlıqlar da ola bilər. Birbaşa xarici kapital qoyuluşlarının məşğulluğa bilavasitə təsiri ilə birlikdə, dolayı yolla təsiri də mühüm rol oynayır. Birbaşa xarici kapital qoyuluşlarının məşğulluğa dolayı yolla təsiri yerli şirkətlərin rəqabət aparmaq imkanı ilə əlaqədardır. Əgər yerli şirkətlər rəqabət apara bilirlərsə, transmilli şirkətlərin ölkəyə daxil olması məşğulluğa həvəsləndirici təsir göstərir.

Əlbəttə, xarici kapital qoyuluşlarının dünyadakı məşğulluğa təsirini sona qədər müəyyən etmək mümkün deyildir. Çünki bu sahədəki məlumatlar olduqca məhduddur. Aparılan tədqiqatlar nəticəsində xarici kapital qoyuluşlarının məşğulluğa olan təsiri haqqında müəyyən göstəricilər əldə edilmişdir. Öyrənilən dövrdə dünya miqyasında transmilli şirkətlər vasitəsilə təxminən 74 milyon nəfərin işlə təmin edildiyi müəyyənləşdirilmişdir. Onun 44 milyon nəfəri (60%-i) inkişaf etmiş ölkələrin şirkətlərində işləyənlərin, 30 milyon nəfəri (40%-i) əsas şirkətlərin xaricdəki şöbələrində işləyənlərin payına düşmüşdür. Bunların isə təxminən 12 milyon nəfəri inkişaf etməkdə olan ölkələrdə işləmişlər. Bütünlükdə götürüldükdə, transmilli şirkətlərin işləmək imkanı yaratdığı adamların sayı dünya iş qüvvəsinin cəmi 3%-ni təşkil edir.

Transmilli şirkətlərin dünyadakı məşğulluğa təsirinin 150 milyon nəfəri əhatə etdiyi ehtimal edilir ki, bu da təqribən dünya iş qüvvəsinin təxminən 6-6,2%-i qədərdir. Müasir dövrdə xarici kapitalın verdiyi imkanlardan bütün dövlətlər istifadə etməyə çalışırlar. Dünya miqyasında 100 transmilli şirkətin xarici ölkələrə qoyduğu investisiyalar təkcə bir il ərzində — 1995-ci ildə təxminən 5,8 milyon iş yeri açılmasına səbəb olmuşdur. Həmin dövrdə inkişaf etməkdə olan ölkə mənşəli 50 transmilli şirkət 460 min iş yeri təmin etmişdir. İlk yerdə bu qeyd edilən 100 transmilli şirkətin xarici ölkələrdəki məşğulluğa təsiri 1993—1995-ci illər arasında 4% artmış və ya 12,1 milyon nəfərə məşğulluq imkanı vermişdir. İnkişaf etməkdə olan ölkə mənşəli 50 transmilli şirkət isə 1236 min nəfərə məşğulluq imkanı yaratmışdır.

Türkiyə Respublikasında da, digər inkişaf etməkdə olan ölkələrdə olduğu kimi, birbaşa xarici kapital qoyuluşlarının

vəsait çatışmazlığını aradan qaldıracağı, texnologiyalar gətirəcəyi, ixracatı artıraraq xarici ticarət kəsirlərinin yerini dolduracağı, məhsuldarlığı artıracağı və məşğulluq sahələri təmin edəcəyi gözlənilir. **Nəzərə almaq lazımdır ki, Türkiyə böyük bir işsizlik problemi ilə baş-başa qalmışdır**. Mövcud yoxsulluq terroru qızışdırır, terror isə ölkə iqtisadiyyatına zərbə vurur və iqtisadi inkişafı ləngidir. **Bütün bu problemlərin həlli daha çox istehsaldan, istehsal isə yeni kapital qoyuluşlarından asılıdır.** Kapital qoyuluşu isə məşğulluğun artımı, iqtisadi tarazlığın təmini, ədalətli gəlir bölgüsü, daha çox ixracat kimi başa düşülür. Bu isə ölkədə sabitlik deməkdir. **Kapital qoyuluşları üçün böyük ehtiyatlar olmalıdır.**

Türkiyədə neft, mədənlər, meşələr, heyvandarlıq sahələri kifayət qədər deyildir. Üç tərəfi dənizlə əhatə olunmasına baxmayaraq, Türkiyənin dənizçiliyi və dəniz məhsulları həddindən çox azdır. Turizmdən və xaricdəki işçiləri vasitəsilə daxil olan müəyyən miqdar valyutanın olmasına baxmayaraq, Türkiyənin lazımi texnologiyaya malik olmadığı kimi, orada sənaye də inkişaf etməmişdir. Başqa sözlə, Türkiyə hələ ki, dünya ölkələri ilə rəqabət apara bilən sənayeyə və iqtisadi gücə malik deyildir. Ölkənin əlində olan ən böyük imkanı əlverişli geosiyasi mövgeyi və milyonlarla işsizlərin olmasıdır.

Türkiyə xarici kapital qoyuluşunu həyata keçirmək üçün ya ixracatı qat-qat artırmalı, ya da xaricdən borc almalıdır. Ümumiyyətlə, biz xarici kapital qoyuluşuna əhəmiyyət verəndə, **əvvəlcə,** onun xarici ödənişlərə göstərdiyi müsbət təsiri, məşğulluq probleminin həll olunmasında oynadığı mühüm rolu, eyni zamanda, əhəmiyyətli miqdarda texnologiya nəqli və marketinq baxımından tamamilə yeni imkanların bir-biri ilə birləşdirilməsini nəzərə alırıq və Türkiyədə bunlardan səmərəli istifadə edilməsinə dair çoxlu faktlar vardır. Əgər Türkiyə dövləti 1954-cü ildən başlayaraq, yaxşı təşkil edilmiş bir marketinqlə kifayət qədər investoru ölkəmizə cəlb edə bilsəydi, onda ölkəyə 20-30 milyard dollar həcmində xarici kapital qoyuluşu gətirə bilər və bunun sayəsində 3-5 milyon nəfərə iş yeri yarada bilərdi. Bu da Türkiyənin bəlası olan işsizliyi kökündən həll edə bilər, hətta kənardan iş qüvvəsi idxal etməyə

belə ehtiyac olardı. Türkiyə bu investisiya ilə ildə 15-20 milyard dollarlıq əlavə "ixracat" da həyata keçirə bilərdi. 1954—1998-ci illərdə Türkiyəyə 22,7 milyard dollarlıq xarici kapitalın daxil olmasına icazə verilmişdir. Daxil olan xalis kapitalın məbləği isə cəmi 10,4 milyard dollar olmuşdur. Çox təəssüflər olsun ki, ölkədə indiyədək daxil olan xarici kapitalın məşğulluğa olan təsirini lazımı səviyyədə əks etdirən ciddi bir tədqiqat işi aparılmamışdır. Təqribi hesablamalara əsasən, hazırda Türkiyədə xarici kapitallı şirkətlərin 11,5 milyon nəfərlik iş yeri yaradacaqları ehtimal edilir. Bu, Türkiyə əhalisinin təqribən 9,2%-nin dolandırılmasına imkan verərdi. 2000-ci ilin məlumatlarına əsasən, Türkiyənin mülki əhalisinin sayı təqribən 64,4 milyon nəfər, işləmək yaşına çatmış 15 və yuxarı yaşında əhalinin sayı 45,1 milyon nəfər, iş qüvvəsi 21,6 milyon nəfər təşkil etmişdir. Bunun 20,2 milyon nəfəri və ya 93,6%-i işlə təmin olunmuşdur. Yerdə qalan 1360 min nəfəri hələlik işsizdir. İşlə təmin olanların 1298 min nəfərini və ya 6,0%-ni natamam məşğul olan adamlar təşkil edir. İşsizlik səviyyəsi 6,4%, natamam işsizlər 6,0%, passiv iş qüvvəsi isə 12,4%-dir.[298]

Bu rəqəmlərin daha çox olduğu güman edilir. Hər il əhalinin sayının 1,5% artdığını nəzərə alsaq, bu rəqəmlərin ilbəil artdığı bir həqiqətdir. Ona görə də işsizlik probleminin həll edilməsi Türkiyə dövlətinin qarşısında duran ən çətin və mürəkkəb problemlərdən biri olaraq qalır. Başqa sözlə desək, yaxın 10 il ərzində Türkiyədə həmin problemi həll etmək üçün ən azı 7 milyon nəfərdən çox adama iş tapmaq lazım gələcək. Təqribi hesablamalara əsasən, Türkiyədə bir nəfəri işlə təmin etmək üçün lazım olan orta investisiya xərci 70 min dollardır. İşsizlərin işlə təmin olunması üçün investisiya qoyulmalıdır. İnvestisiya isə kapital deməkdir. Bir nəfərin işlə təmin olunması üçün orta hesabla 70 min dollar lazım olduğunu nəzərə alsaq, yaxın 10 ildə 7 milyon nəfəri işlə təmin etmək üçün 490 milyard dollara ehtiyac olduğu aydınlaşar. Lazım olan bu kapital ya

---

[298] Türkiyə Ekonomisi və yorumlar. Ocaq-nisan, yanvar-aprel 2001, s.129.

ölkədəki mövcud mənbələrdən götürülməli, ya borc alınmalı və yaxud da xarici kapital qoyuluşu şəklində əldə edilməlidir.

Aparılan hesablamalara görə, yalnız enerji çatışmazlığını aradan qaldırmaq üçün Türkiyə hər il 3,5 milyard dollar dəyərində investisiya qoymalıdır. Lakin dövlət sektorunun əlində bu investisiyanı həyata keçirmək üçün kifayət qədər vəsait yoxdur. Bu gün, enerji sahəsində olduğu kimi, avtomobil yollarının inşası və təmirinə də xeyli kapital qoyuluşu tələb edilir. 20 milyard dollara çatan ixracatla bu qədər kapital əldə etmək mümkün deyil. Xarici borc tapmaq çətin olmaqla yanaşı, ölkəyə baha başa gəlir. Türkiyə mövcud borclarını ödəməkdə çətinlik çəkir. Bundan başqa, xarici borcdan məhsuldar şəkildə istifadə edilib-edilməyəcəyi məlum olmadığı kimi, risk ehtimalı da böyükdür. Mənfəət əldə edilib-edilməməsindən asılı olmayaraq, həm borc, həm də borc faizi ödənilməlidir. O zaman qalan xarici kapital alternativini qiymətləndirmək lazımdır. Bəs xarici kapital ilə mövcud işsizlik problemi həll oluna bilərmi? Xarici kapital Türkiyəyə idxal edilə bilərmi? Bu sualın cavabını aşağıdakı reallıqlara istinadən vermək olar. Türkiyə 1980-ci ildən bu günə qədər daha səmərəli, daha realist və daha "xaricə istiqamətlənmiş" siyasət həyata keçirir. Xarici investorun ölkəmizə gəlməsi üçün vacib olan ilk şərt "daxili bazarın" genişliyidir.

Türkiyə daxili bazar baxımından da Orta Şərqin ən güclü ölkəsidir. Bundan əlavə, Türkiyə Avropaya, Orta Şərqə, Rusiyaya, Orta Asiya ölkələrinə çıxmaq üçün də əlverişli mövqeyə malikdir. Türkiyənin nəqliyyat sahəsində də böyük üstünlükləri vardır. Burada telekommunikasiya sistemi də çox inkişaf etmişdir. Təbii sərvətləri baxımından da qonşu ölkələrdən zəngindir. Ümumi Milli Məhsula görə də qonşu ölkələrdən irəlidədir. Daha əhəmiyyətli olan isə çox sayda və ucuz iş qüvvəsinə malik olmasıdır. Ölkəyə xarici kapitalın daxil olmasında xarici investor da böyük rol oynayır. Siyasi sabitliyin olması xarici kapitalın bu ölkəyə heç bir sıxıntı çəkmədən daxil olmasında böyük rol oynayır. Türkiyə inkişaf etmiş ölkələrin həyat səviyyəsinə çatmaq üçün orta hesabla hər il 5 faiz təşkil edən inkişaf sürətinə nail olmalıdır.

Türkiyədə son 20-25 ildəki inkişaf sürəti təhlil edilərkən bu günə qədər maksimum 10% inkişaf tempinə nail olunduğu, bununla birlikdə bu termin bir neçə il 1-2%-ə düşdüyü, hətta bəzi illərdə 0-dan az olduğu müəyyən edilmişdi. Ümumi milli məhsulun hər il 10% olmaqla, 20 il müddətində artması şəraitində (əhali artımı nəzərə alınmadan) hazırda təqribən 2600 ABŞ dolları həcmində olan adambaşına düşən milli gəlirin 10 ildə 6500 ABŞ dollarına, 20 ildə isə 17000 ABŞ dollarına çatacağı gözlənilir. Türkiyənin mövcud inkişaf tempi ilə inkişaf etmiş ölkələrə çatması qeyri-adi bir şey olub, mümkün deyildir. Orta hesabla 10%-li inkişafa nail olmaq üçün ən etibarlı xarici mənbə isə xarici kapitaldır. Türkiyədə xarici kapital qoyuluşları ilə 10 ildə işsizlik probleminin həllinə dair model işlənib hazırlanmışdır. Həmin modelə əsasən, Türkiyə əhalisinin sayı 16,8% artaraq, 2000-ci ilin əvvəlindəki 64,4 milyon nəfərdən 2009-cu ildə 75,2 milyon nəfərə, o cümlədən əmək qabiliyyətli yaşlı əhalinin sayı 25,0% artaraq, 45,1 milyon nəfərdən 56,4 milyon nəfərə, iş qüvvəsinin sayı 23,6% artaraq, 21,6 milyon nəfərdən 26,7 milyon nəfərə, işləyən əhalinin sayı 32,2% artaraq, 20,2 milyon nəfərdən 26,7 milyon nəfərə gəlib çatacaqdır.

Proqnoz hesablamalarına əsasən, işsizlərin sayı əhalinin artımından əlavə olunan işsizlərin sayı hesabına 1999—2009-cu illərdə 1,8 dəfə (83,1%) artaraq, 337 min nəfərdən 617 min nəfərə, hər adambaşına düşən investisiyaların məbləği 18,9% artaraq, 71,5 min ABŞ dollarından 85 min ABŞ dollarına, ümumi investisiya ehtiyacı isə bu illər ərzində 3,9 dəfə artaraq, 14,7 milyon dollardan 579,1 milyon dollara, illər üzrə isə 6,4 dəfə artaraq, 95,0 min dollara çatacaqdır. Ümumi investisiya ehtiyacı içərisində lazım olan yerli kapitalın xüsusi çəkisi 1999-cu ildəki 86%-dən 2009-cu ildə 71%-ə düşməklə, onun ümumi məbləği bütün illər ərzində 36,7 dəfə artaraq, 12,7 milyard dollardan 466,3 milyard dollara, illik məbləği isə 5,3 dəfə artaraq, 12,7 milyard dollardan 67,4 milyard dollara çatacaqdır.

Qeyd edilən dövrdə portfel investisiyaların məbləği bütünlüklə müqayisə edilən dövrdə 56,4 dəfə artaraq, 500

milyon dollardan 28,2 milyard dollara, illik məbləği isə 13,8 dəfə artaraq, 500 milyon dollardan 6,9 milyard dollara, birbaşa xarici kapitalın məbləği isə bütünlükdə bu illər ərzində 56,4 dəfə artaraq, 1,5 milyard dollardan 84,6 milyard dollara, illik həcmi isə 13,8 dəfə artaraq, 1,5 milyard dollardan 20,7 milyard dollara çatacağı gözlənilir. İşləyən əhalinin istehsal payı 1,7 dəfə artaraq, 10,2 milyard dollardan 17,4 milyard dollara, adambaşına düşən ÜMM-in dəyəri isə təqribən iki dəfə (99,4%) artaraq, 3110 milyon dollardan 6203 milyon dollara çatdırılacaqdır. Beləliklə, həmin modelə əsasən, Türkiyədə 10 il ərzində (1999—2009-cu illərdə) 7 milyon 268 min nəfərin işlə təmin edilməsi nəzərdə tutulmuşdur ki, bunun üçün də 579 milyard ABŞ dolları həcmində ümumi investisiya qoyuluşu tələb olunur. Modeldə bu vəsaitin modelimizdə yerli kapital, portfel investisiyaları və birbaşa xarici kapital qoyuluşları yolu ilə həyata keçirilməsi nəzərdə tutulmuşdur. Birbaşa xarici kapital qoyuluşunun birinci il 1500 milyon dollar miqdarında daxil olacağı və hər il 30 % həcmində artacağı qəbul edilmişdir. Bütün bu deyilənlərin həyata keçirilməsinin ölkədə məşğulluq və işsizlik probleminin həll edilməsinə əhəmiyyətli köməklik göstərə biləcəyini nəzərə alıb Azərbaycan Respublikasında da yerli xüsusiyyətlər nəzərə alınaraq, bu cür modellərin hazırlanması lazımdır.

4.4 MƏŞĞULLUQ VƏ İŞSİZLİK PROBLEMİNİN HƏLLİ İSTİQAMƏTİNDƏ AZƏRBAYCANIN XARİCİ İNVESTİSİYA SİYASƏTİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ MƏSƏLƏLƏRİ

Xarici investisiya siyasəti Azərbaycan dövlətinin ümumi investisiya siyasətinin mühüm tərkib hissəsi olub, milli iqtisadiyyatın dirçəlməsində, onun stabil inkişafında və əhalinin səmərəli məşğulluğunun təmin edilməsində özünəməxsus rol oynayır. Bu siyasətin həyata keçirilməsi üçün xüsusi xarici investisiya proqramları işlənilib hazırlanmalı və həmin proqramlarda milli iqtisadiyyatın xüsusiyyətləri, keçid dövrü-

nün şərtləri və beynəlxalq təcrübə hərtərəfli öyrənilib nəzərə alınmalıdır. Bu zaman ölkə iqtisadiyyatının inkişafı üçün strateji əhəmiyyət kəsb edən sahələrə xüsusi diqqət yetirilməlidir. Belə sahələrdən biri yanacaq-energetika sahəsi olduğundan, ilk növbədə həmin sahəyə xarici kapitalın cəlb edilməsi üçün ayrıca investisiya proqramı işlənilib hazırlanmalı və həyata keçirilməlidir. Digər tərəfdən, qeyri-neft sektoruna xarici kapitalın cəlb olunması da diqqət mərkəzindən qaçmamalı və mühüm vəzifə kimi qarşıda durmalıdır. Ancaq təəssüflər olsun ki, indiyədək Azərbaycan hökuməti qeyri-neft sektoruna xarici kapitalın cəlb olunması üçün dövlət investisiya proqramlarının qeyri-neft sektorunun ayrı-ayrı sahələri üzrə işlənməsinə üstünlük verir ki, bu da komplekslilik siyasəti ilə ziddiyyət təşkil edir. Fikrimizcə, bu proqramlar sistemli şəkildə işlənməli və həmin sahənin müxtəlif bölmələri arasındakı qarşılıqlı əlaqələri özündə əks etdirməlidir. Neft sektorundan alınan gəlirlər neft fondunu formalaşdırmalı və həmin fondun vəsaitlərinin qeyri-neft sektoruna yönəldilməsi üçün də kompleks proqramlar işlənib hazırlanmalıdır. Xarici kapitalın, o cümlədən Türkiyə kapitalının Azərbaycana cəlb olunmasını sürətləndirmək üçün əlverişli investisiya iqliminin formalaşma istiqamətləri bu proqramın əsasını təşkil etməlidir.

Milli iqtisadiyyatın inkişafının sahələrarası prioritetləri seçilərkən, struktur-investisiya siyasətinin həyata keçirilməsi prosesində balanslayıcı yanaşmaya üstünlük verilməli və bu zaman nə ağır, nə də yüngül sənaye sahələri yaddan çıxmamalıdır. Çünki xarici kapitalın iqtisadiyyata birtərəfli cəlb edilməsi mənfi nəticələrə gətirib çıxara bilər. Ancaq bu, heç də o demək deyildir ki, ölkənin ağır sənaye sahələri investisiya siyasətində prioritet istiqamət kimi götürülməməlidir. Burada yüksək əmək tutumlu sahələr kimi, yüngül və yeyinti sənayesinə xarici kapital qoyuluşunun stimullaşdırılması digər sahələrə nisbətən ilkin məqsədlər kimi qarşıya qoyulur. Eyni zamanda, onu da demək lazımdır ki, Azərbaycanda ağır sənayenin elə sahələri (məsələn, neft maşınqayırması) var ki, hələlik burada mövcud istehsaldan və elmi-texniki potensialdan tam istifadə olunmur. Halbuki bu sahələr makroiqtisadi inkişafın əsasını

təşkil edərək, digər sahələrin də qarşılıqlı inkişafını təmin etməyə qadirdir.

Ağır sənaye sahələrinə xarici kapitalın cəlb edilməsi isə, **ilk növbədə**, rəqabət qabiliyyətli ixrac məhsullarının istehsalını nəzərdə tutmalıdır. **Digər tərəfdən**, iqtisadiyyatın baza sahələrinin inkişafı yüksək texnologiyaların tətbiqini tələb edir. Beynəlxalq ticarətdə isə bu sahələrin məhsullarının dünya bazarına çıxarılması inkişaf etmiş ölkələrin inhisarındadır və onlarla dünya bazarında rəqabətə tab gətirmək hələlik mümkün deyildir. Ağır sənaye sahələrinə xarici kapitalın cəlb olunması və bu sahədə iqtisadi səmərəyə nail olunması özlüyündə uzunmüddətli prosesdir. Bu mənada xarici kapitalın yüngül və yeyinti sənayesinə cəlb olunması və səmərə verməsi isə qısa müddətli proses olub, qoyulmuş investisiyaların tez bir vaxtda qaytarılmasına imkan verə bildiyi üçün xarici kapital daha çox bu sahələrə meyl edir. Bununla belə, son vaxtlar Azərbaycanda ağır sənaye sahəsinə də xarici kapitalın maraqları artmaqdadır. Bakı poladəritmə zavodunun yenidən qurulması və istismara verilməsi (təxminən 40 milyon ABŞ dolları həcmində investisiya qoyulmuşdur) buna misal ola bilər. Müəssisənin əsas məqsədlərindən biri daxili bazarı uyğun məhsullarla və əhalini iş yerləri ilə təmin etmək və gələcəkdə Yaxın və **Uzaq xarici ölkələrə poladəritmə məhsullarını ixrac etməkdən ibarətdir.** Hələlik ölkədə belə hallar nadir xarakter daşıyır və bu sahələrə xarici kapitalın axını stimullaşdırılmalıdır. Belə ki, yanacaq-energetika kompleksində fəaliyyət göstərən xarici investorlar artıq bu sahəyə xaricdən gətirilən uyğun məhsullardan imtina edərək, onu daxildə istehsal etməyi üstün tuturlar. Bununla belə, sahələrarası prioritetlərdə birinci yeri yüngül və yeyinti sənayesi sahələri tutmalıdır. Çünki bu sahələr **bir tərəfdən,** kapitalın başqa sahələrə nisbətən daha sürətli dövriyyəsi üçün əlverişlidirsə, **digər tərəfdən** də ölkədə mövcud olan ucuz iş qüvvəsinin, xüsusilə də qadınların işə cəlb edilməsi üçün stimul yaradır. Həm də sənayeləşdirmə siyasəti baxımından da yüngül və yeyinti sənayesinin digər sahələrə nisbətən üstün inkişafı müasir şəraitdə iqtisadi siyasətin optimal variantı sayıla bilər.

Beləliklə, investisiya axınının (həm xarici, həm daxili) dünya bazarında «müqayisəli üstünlük» xassəli məhsulları olan sənaye sahələrinə yönəldilməsi ixracat yönümlü inkişaf strategiyasının əsasını təşkil edə bilər. Belə strateji xarici kapitalı iqtisadiyyata fəal surətdə cəlb etmək və daxili mənbələrdən maksimum istifadə olunması ilə bərabər, beynəlxalq sənaye ixtisaslaşması və kooperasiyasını istifadə edərək, daxili bazarın tam təminatına və strukturunun dəyişdirilməsinə nail olmaq olar. Burada onu da qeyd etmək lazımdır ki, ixracat yönümlü sənayenin inkişafının sürətləndirilməsinin yuxarıda göstərilən istiqaməti heç də mütləq mənada qəbul edilə bilməz. Çünki ölkədə elə sahələr var ki, yerli xammal ehtiyatları və iş qüvvəsi hesabına xaricdən heç bir komponent idxal etmədən son məhsulun istehsalı imkanına malikdir. Buna çaxır və konyak istehsalını, son zamanlar yerli spirt məhsullarının istehsalının bərpası ilə əlaqədar, araq məhsullarının, habelə alkoqolsuz içkilərin istehsalını misal göstərmək olar. Son vaxtlar respublikada çaxır məhsullarının istehsalında xarici texnologiyaların tətbiqi ilə əlaqədar olaraq, bu sahənin səmərəliliyi xeyli artmışdır.

Xarici investisiyalar ölkənin bu sahələrinə yüksək maraq göstərir və artıq pivə və çaxır istehsalında fəal iştirak etmək-dədirlər. Bu mənada respublikada üzümçülük və üzümün emalı sənayesinin yenidən dirçəldilməsi üçün xüsusi dövlət investisiya proqramının işlənilib hazırlanmasına böyük ehtiyac vardır. **Üzümçülük və üzüm emalı sənayesinin inkişafı birinci dərəcəli məsələ olub, dövlətin məqsədli maliyyələşdirmə obyekti olmalı, fermer təsərrüfatlarına təşkilati-texniki kömək göstərilməlidir. Bu, öz növbəsində, şərabçılığın xammal bazasının bərpasına və ixracat yönümlü istehsaldan külli miqdarda dönərli maliyyə vəsaitlərinin dövlət büdcəsinə axınına, xeyli sayda yeni iş yerlərinin açılmasına və deməli, həm də ixtisaslı iş qüvvəsinin ictimai əməyə cəlb edilməsinə imkan verəcəkdir.**

Onu da nəzərə almaq lazımdır ki, xarici investisiyaların şərab və konyak istehsalı sahəsinə cəlb edilməsi perspektivləri bu sahənin xammal bazasının və onları hərəkətə gətirən ixtisaslı iş qüvvəsinin mövcudluğu vəziyyətindən asılıdır. Çünki xarici

investisiyalar müəssisələri satın alarkən, ilk növbədə, yerli xammal və iş qüvvəsi ehtiyatlarının mövcudluğuna böyük əhəmiyyət verirlər. Yüngül sənaye sahələrinin inkişafı üçün xarici kapitalın cəlb edilməsi isə, **ilk növbədə**, pambıq xammalının istehsalının genişləndirilməsindən asılıdır. **Digər tərəfdən**, giləmeyvə şirələri və konservi istehsalı sahəsində də böyük ixracat potensialı mövcuddur və onun inkişaf etdirilməsinə də ehtiyac vardır. Beləliklə, yaxın gələcəkdə yüngül və yeyinti sənaye sahələri xarici investisiyaların cəlb olunması üçün dövlətin investisiya siyasətinin strateji istiqamətlərindən biri olmalıdır. Coğrafi cəhətdən yaxın və iri satış bazarlarının (MDB dövlətləri), yerli xammal və əmək ehtiyatlarının mövcudluğu bu sahələrin cəlbediciliyini artırır. Bu sahələrin inkişafı aqrar sektorun sürətli inkişafı, milli və xarici investisiyaların müvəffəqiyyətli fəaliyyəti üçün əlverişli investisiya iqliminin formalaşdırılması və digər şəraitlərin yaradılmasını tələb edir.

Ümumiyyətlə götürüldükdə, respublika iqtisadiyyatında xarici investisiyaların rolunun get-gedə artması ölkənin hazırkı inkişaf səviyyəsi üçün normal hal kimi qiymətləndirilməlidir. Məsələ bundadır ki, xarici investisiyalar respublika iqtisadiyyatının zəruri maliyyə resursları ilə təmin edilməsində əhəmiyyətli rol oynayırlar. Həm də hazırda ölkə iqtisadiyyatının vəziyyəti elədir ki, o, xeyli dərəcədə xarici investisiyalardan asılıdır. Məhz bunu nəzərə alaraq, Azərbaycan hökuməti respublikaya xarici kapitalı daha geniş miqyasda cəlb etmək üçün əlverişli şərait yaratmağa çalışır. Bununla belə, tədqiqat əsasında müəyyənləşdirilmişdir ki, ***respublikada xarici sahibkarların rolunun yüksəldilməsi müsbət cəhətlərlə yanaşı, bir sıra çətinliklər yaradır. Bunlardan biri xarici sahibkarların öz fəaliyyət xüsusiyyətləri ilə bağlıdır. Məsələ bundadır ki, xarici sahibkarlar bazar münasibətlərinin daha yüksək inkişaf etmiş olduğu ölkələrdə formalaşaraq yetkinləşdiklərinə görə, onlar bazarda yerli iş adamlarına nisbətən daha müvəffəqiyyətlə rəqabət aparmaq üçün zəruri ilkin şərtlərə*** (o cümlədən vərdişə, bacarığa və s.) malikdirlər. ***Bundan əlavə, həmin ölkələrin bankları Azərbaycanda işgüzar fəaliyyəti həyata keçirərək, öz***

təsərrüfat subyektlərini vaxtlı-vaxtında zəruri kredit resursları ilə təmin edirlər.

Xarici sahibkarlar çox vaxt öz ölkələrinin ana cəmiyyətlərinin Azərbaycanda filiallarını, qız cəmiyyətlərini və s. təşkil edir və onları sistematik olaraq, zəruri dəzgahlarla, avadanlıqlarla, xammal və materiallarla (həm də əlverişli gömrük şərtləri əsasında) təmin edirlər. Nəticədə, bu gün xarici sahibkarlar vaxtı ilə ölkədə fəaliyyət göstərən milli sahibkarların mövqelərinin güclü olduğu sahələrdə (ticarətdə, ictimai iaşədə, digər xidmət sahələrində) üstünlük qazanmağa başlanışlar. Buna görə də ***respublika iqtisadiyyatının inkişafında xarici sahibkarların rolunu inkar etmədən qeyd etməliyik ki, hökumət tərəfindən sahibkarlar strukturlarına münasibətdə ayrı-seçkiliyə yol verilməsi milli sahibkarlığın tədricən sıxışdırılaraq aradan çıxmasına, milli kapitalın əhəmiyyətli hissəsinin xaricə axmasına səbəb olar. Fikrimizcə, belə bir vəziyyət öz iqtisadi fəaliyyətində Azərbaycanın milli mənafeyini heç də həmişə ön sırada saxlamayan xarici sahibkarlığın ölkənin əsas sosial fəal təbəqəsinə çevrilməsinə də gətirib çıxara bilər.***

Xarici investisiyalı müəssisələrlə ***bağlı digər bir problem onların sahə quruluşu ilə bağlıdır.*** İş ondadır ki, bu gün xarici kapital qoyuluşlarının əksər hissəsi (bir sıra formalar üzrə isə 90%-ə yaxın) xammalla bağlı, hər şeydən əvvəl isə, neftlə bağlı sahələrə qoyulur. ***Belə bir vəziyyət, fikrimizcə, respublika iqtisadiyyatının qurulmasında keçmiş sovetlər dövründən qalmış disproporsionallığın qorunub saxlanılmasına, gələcək struktur böhranların təkrarlanmasına, respublikanın inkişaf etmiş ölkələrin xammal bazasına çevrilməsinə gətirib çıxara bilər. Ona görə bu məsələ daim hökumətin diqqət mərkəzində saxlanmalıdır.***

Xarici kapitalla şəriklik qaydasında yaradılmış birgə müəssisələrə gəldikdə isə, onlar da respublikamızda iqtisadiyyatın daha çox ehtiyacı olan məhsullar istehsalı ilə deyil, əsasən bölgü və yenidən bölgü əməliyyatları ilə məşğul olurlar. Bundan əlavə, belə müəssisələr üçün yaradılmış əlverişli fəaliyyət mühiti bir sıra sui-istifadə halları üçün imkan da yaradır.

Deyilənlər, fikrimizcə, sübut edir ki, ***hazırda Azərbaycanda fəaliyyət göstərən xarici iş adamlarının strateji məqsədi Azərbaycanın mənafeyi ilə öz mənafelərini uyğunlaşdırmaqdan daha çox öz maraqlarını əsas götürməkdən, yerli istehsalı canlandırmaqdan və respublika iqtisadiyyatını dünya bazarına, dünya iqtisadi sisteminə uyğunlaşdırmaqdan daha çox onun daxili bazarını tutmaqdan və burada öz mövqelərini daha da möhkəmləndirməkdən ibarətdir***. Bununla belə, onu da demək lazımdır ki, xarici fiziki və hüquqi şəxslər Azərbaycanda həyata keçirdikləri işgüzar fəaliyyət zamanı bir sıra problemlərlə üzləşirlər. **Onlar aşağıdakı hallarda meydana çıxır:** qeyri-neft sektoruna xarici investisiyaların cəlbi strategiyası və mexanizmlərinin olmaması; əsaslı səbəb olmadan yoxlamaların aparılması; ayrı-ayrı müvafiq nazirliklərin bir-birinin funksiyalarını təkrar etməsi; bürokratiya və korrupsiyanın olması; qeyri-neft sahəsinin cəlbedici olmaması; biznes məlumatlarının alınması mənbələrinin naməlumluğu; kiçik müəssisələrə köməyin zəif olması; xarici investorlara məxsus müəssisələrin qeydə alınması ilə bağlı çətinliklər; işgüzar fəaliyyətlə bağlı qanunvericilik sənədlərinin tez-tez dəyişdirilməsi; xarici investisiyalar haqqında olan qanunvericilik sənədlərində investisiyaların respublikaya cəlb edilməsi üçün təşviq mexanizmlərinin nəzərdə tutulmaması və ümumiyyətlə, qanunvericilik bazasının zəifliyi; Azərbaycana investisiya qoymuş iş adamlarına verilən vizanın müddətinin qısalığı (bir il) və s.

Fikrimizcə, digər səbəblərlə yanaşı (milli iş adamlarının öz sahibkarlıq qabiliyyətlərini yüksəltmələri və işgüzar fəaliyyətlərini genişləndirmələri nəticəsində ölkəyə asan qazanc dalınca gəlmiş bir sıra zəif rəqabət qabiliyyətli xarici şirkətlərin ölkəni tərk etmələri), göstərilən problemlərə görə də son dövrlərdə respublikada fəaliyyət göstərən birgə müəssisələrin və xarici firmaların sayı xeyli azalmışdır. Bununla belə, o da danılmaz faktdır ki, ölkəni xarici firmaların bir qismi tərk etsə də, bəzi digər ölkələrin, o cümlədən Fransa və Yaponiya kimi inkişaf etmiş ölkələrin Azərbaycanda investisiya maraqları yaranmışdır.

Nəhayət, onu da qeyd edək ki, xarici investisiyaların işgüzar fəaliyyəti qarşısında meydana çıxan çətinliklərin əhəmiyyətli bir hissəsi eyni dərəcədə Azərbaycanın milli sahibkarları üçün də xasdır. Onu da qeyd etmək lazımdır ki, bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq respublikada sahibkarlıq risklərinin sığortalanması da vacib əhəmiyyət kəsb edir. Bu, **bir tərəfdən,** milli iş adamlarını yeni, onlar üçün əvvəllər məlum olmayan iqtisadi şəraitdə həyata keçirdikləri sahibkarlıq fəaliyyəti zamanı meydana çıxa biləcək risklərin sığortalanması zərurətindən doğur. **Digər tərəfdən isə** sahibkarlıq riskinin sığortalanması işinin yüksək səviyyədə təşkili iqtisadi inkişafımız üçün zəruri olan xarici investisiyaların ölkəyə cəlb edilməsinin əsas şərtlərindəndir. Çünki xarici sahibkarlar respublikanın iqtisadiyyatına kapital qoyarkən bu işin biznes üçün nə dərəcədə riskli olduğunu özləri üçün əvvəlcədən müəyyən edirlər. Bu baxımdan, investisiyaların sığortalanması işinin təşkili mühüm əhəmiyyət kəsb edir. Fikrimizcə, həmin sahədə keçirilməli olan mühüm vəzifələrdən biri kreditləşmə sahəsində ölkədə 90-cı illərin neqativ təcrübəsindən (kreditlərin qaytarılmaması) çıxış edərək, bank strukturları tərəfindən buraxılan borc vəsaitlərinin sığortalanması, bu məqsədlə bankyanı sığorta şirkətlərinin yaradılması və onların səmərəli fəaliyyətinin təmin edilməsidir.

Bazar iqtisadiyyatlı ölkələrdə sabibkarlıq şirkətlərinin sığortalanmasının ən vacib istiqamətləri kimi kommersiya risklərinin, yeni texnika və texnologiya ilə bağlı risklərin, birja və valyuta risklərinin və s. sığortalanması sahəsindəki dünya təcrübəsinin öyrənilməsi bazar iqtisadiyyatına keçid mərhələsində olan respublikamızda sığorta sisteminin müasir tələblər baxımından yenidən qurulmasına əməli kömək edə bilər.

Hazırda bazar sisteminə keçid dövründə olan ölkələrdə, o cümlədən Azərbaycanda sahibkarlığın ən geniş yayılmış sahəsi kimi kommersiya fəaliyyəti çıxış edir. Çünki həmin sahəyə yönəldilmiş kapital daha sürətlə dövr etmək və daha çox mənfəət gətirməklə səciyyələnir. Bununla yanaşı, kommersiya fəaliyyəti həm də istehsal fəaliyyətinə nisbətən daha yüksək risk dərəcəsinə malikdir.

Bazar ölkələrində sahibkarlıq risklərinin sığortalanmasının geniş yayılmış formalarından biri xarici iqtisadi fəaliyyətlə bağlı işgüzar əlaqələrin sığortalanmasıdır. Bu sığorta formasında başlıca məqsəd **xüsusən** idxal-ixrac əməliyyatlarına cəlb edilmiş sahibkarlıq subyektlərinin işgüzar fəaliyyətinə hər hansı bir səbəbə görə dəyə biləcək ziyandan onların qorunması, sığorta müqaviləsinə uyğun olaraq onlara dəyən ziyanın ya bir hissəsinin, ya da ki, hamısının sığorta şirkətləri tərəfindən ödənilməsidir. Təcrübə göstərir ki, belə itkilərin səbəbləri kimi ixrac üçün nəzərdə tutulmuş məhsulun alınmasından xarici partnyor tərəfindən imtina edilməsi və buna görə də onun istehsalına çəkilən xərclərin ödənilməməsi, məhsul ixrac edildikdən sonra onun haqqının hər hansı bir səbəbdən (mal alanın müflisləşməsi və ya maliyyə vəziyyətinin pisləşməsi, həmin ölkədə siyasi və ya qanunvericilik mühitinin dəyişməsi və s.) ödənilməsindən imtina edilməsi, malın göndərilməsi haqqında müqavilənin bağlandığı dövrdə icra haqqının ödənmə müddəti arasında valyuta kursunun dəyişməsi və s. çıxış edir.

Hazırda ölkəyə külli miqdarda xarici investisiyaların yönəldiyi bir şəraitdə ixrac əməliyyatlarının sığortalanması sahəsində mövcud olan, Azərbaycan üçün gərəkli ola bilən formalardan biri də xarici investorların müxtəlif iqtisadi maraqlarının sığortalanmasıdır. Həmin maraqlar dairəsinə əldə edilmiş mənfəətin ölkədən çıxarılmasının qanunla qadağan edilməsi və ya məhdudlaşdırılması, kontraktların pozulması, siyasi mühitin pisləşməsi və s. belə hallarda onlara dəyə biləcək ziyanın sığortalanması çıxış edə bilər. Sığorta şirkətləri bu və ya digər sahibkarlıq risklərinin məsuliyyətini öz üzərinə götürərkən, hər şeydən əvvəl, sığorta müqaviləsinin onun üçün gətirə biləcəyi nəticə üzərində düşünməli, iqtisadi qərarlar qəbul etməzdən əvvəl sığorta marketinqini həyata keçirməlidir. Öz növbəsində, burada sahibkarlıq subyektlərinin sığortaya olan tələblərini müəyyən etmək üçün aşağıdakılar tələb olunur: bazarın marketinqinin həyata keçirilməsi, hər bir növ sığorta xidməti üçün tələb və təklif əsasında formalaşan qiymətin (mükafatın) və onun ödənilməsi üsullarının seçilməsi, müxtəlif növ ənənəvi və yeni sığorta xidməti növlərinin izahı, təbliği və

reklamı, müştərilərin seçilməsi və onlara sığorta xidmətlərinin təşkili və s.

Müstəqil bazar subyekti sığorta şirkətlərinin sahibkarlıq fəaliyyəti ilə bilavasitə əlaqədar olan məsələlərdən biri də onların investisiya fəaliyyətidir. İş ondadır ki, sığorta mükafatlarının toplanması ilə sığorta ödəmələri arasında müəyyən bir müddət (bəzən çox uzun bir vaxt) keçir. Həmin müddət ərzində sığorta şirkətləri öz sərəncamında müvəqqəti azad olan maliyyə vəsaitlərindən səmərəli istifadə etmək məqsədilə onları investisiyalara yönəldirlər. Həm də bu investisiyaların həcmi heç də az olmayıb, əhəmiyyətli bir hissə təşkil edir. Məsələn, hələ 80-ci illərin axırında inkişaf etmiş bazar ölkələrində bu rəqəm 4 trilyon dollar təşkil etmişdir.

Həmin ölkələrdə nəzərdən keçirilən prosesin xüsusiyyətlərindən biri də onun dövlət tərəfindən tənzimlənməsidir. Bunda əsas məqsəd, ölkənin sığorta bazarının sabit fəaliyyətinə nail olunması, sığorta şirkətlərinin tədiyyə qabiliyyətinin təmin edilməsidir. Həmin məqsədə çatmaq üçün dövlət hər bir sığorta şirkətindən tələb edir ki, üzərinə müqavilə əsasında götürdüyü sığorta öhdəliklərinə uyğun olaraq öz sərəncamında müəyyən miqdar ehtiyat vəsaiti saxlasın. Bu vəsaitin həcmi və yerləşdirmə qaydası da dövlət tərəfindən müəyyən edilir.

Tədqiq edilən dövrdə (1994—2000-ci illərdə) Azərbaycanda iqtisadiyyata qoyulan xarici investisiyalar daha yüksək əhəmiyyət kəsb etmişdir. Belə ki, 1994—2000-ci illərdə respublika iqtisadiyyatına 5,9 milyard ABŞ dolları həcmində xarici investisiya cəlb edilmiş və onlar aşağıdakı struktura malik olmuşlar: maliyyə kreditləri, neft sənayesinə investisiyalar, birgə müəssisələr və xarici firmaların yaradılmasına yönəldilmiş investisiyalar. 58-ci cədvəlin məlumatlarından göründüyü kimi, 1994—2004-cü illərdə respublika iqtisadiyyatına yönəldilmiş xarici investisiyaların 69,1 faizi (8664,2 milyon ABŞ dolları) neft sənayesinə yönəldilən investisiyaların, 15,8 faizi (1980,6 milyon ABŞ dolları) maliyyə kreditlərinin, 15,1 faizi isə (1885,5 milyon ABŞ dolları) birgə müəssisələrin və xarici firmaların yaradılmasına yönəldilmiş investisiyaların payına düşmüşdür. Bu göstəricilər 1994—2004-cü illərdə neft sənayesi üzrə 16,0 faizdən

58-ci c

1994—2003-cü illərdə Azərbaycan Respublikası iqtisadiyyatına xarici investisiya qoyuluşunun dinamikası və quruluşu
(mil. ABŞ dolları ilə)

İLLƏR	1994—2003-cü illərdə cəmi		O cümlədən																			
			1994		1995		1996		1997		1998		1999		2000		2001		2002		2
	cəmi	yekuna nisbətən faiz	cəmi	yekuna nisbətən faiz	cəmi	yekuna nisbətən faiz	cəmi	yekuna nisbətən faiz	cəmi	yekuna nisbətən faiz	cəmi	yekuna nisbətən faiz	cəmi	yekuna nisbətən faiz	cəmi	yekuna nisbətən faiz	cəmi	yekuna nisbətən faiz	cəmi	yekuna nisbətən faiz	cəmi
Kreditin növləri																						
Cəmi xarici investisiyalar	12530,3	100,0	137,3	100,0	375,1	100,0	620,5	100,0	1307,3	100,0	1472	100,0	1091,1	100,0	927,0	100,0	1091,8	108,0	2234,9	100,0	3273,3
O cümlədən: Maliyyə kreditləri	1980,6	15,8	115,3	84,0	220,4	58,7	101,5	16,3	196,3	15,0	120,0	8,1	336,2	30,8	262,9	28,4	192,0	17,6	223,0	10,0	213,0
Neft sənayesinə	8664,2	69,1	22,0	16,0	139,8	37,3	416,2	67,1	780,1	59,7	891,8	60,6	544,5	49,9	546,1	58,9	820,5	75,1	1653,0	75,7	2810,2
Birgə müəssisələr və xarici firmalar	1885,5	15,1	—	—	14,9	4,0	102,8	16,6	330,9	25,3	460,2	31,3	210,4	19,3	118,0	12,7	79,3	7,3	318,9	14,3	250,7

[99] Cədvəl Azərbaycanın statistik göstəriciləri. 2003-cü il, s. 372 və Azərbaycan rəqəmlərdə, 2004-cü il, s. 119 əsasında müəllif tərəfindən tərtib edilib.

59-cu cədvəl [300]

1996—2000-ci illərdə Azərbaycan Respublikası iqtisadiyyatına qoyulan xarici investisiyaların sahə quruluşunun dinamikası (yekuna nisbətən, faizlə)

№	Sahələr	1999-cu ildə	2000-ci ildə
1	neft sənayesi	50,0	58,9
2	sənaycnin digər sahələri	7,1	5,4
3	tikinti	2,6	3,3
4	ticarət və xidmət dairəsi	5,1	1,8
5	mədəniyyət və rabitə	3,5	1,9
6	iqtisadiyyatın digər sahələri	0,9	0,3
7	maliyyə kreditləri	30,8	28,4
	cəmi	100,0	100,0

75,7 faizə qalxmaqla maliyyə kreditləri üzrə 84,0 faizdən 6,5 faizə düşmüş, birgə müəssisələr və xarici firmalar üzrə isə 1995-ci ildəki 4,0 faizdən 7,7 faizə qalxmışdır. Azərbaycan Respublikasına yönəldilmiş xarici investisiyanın ümumi məbləğində neft sənayesinə yönəldilmiş investisiyaların xüsusi çəkisinin ən aşağı səviyyəsi 1994-cü ilə (16,0 faiz), ən yüksək səviyyə isə 2003-cü ilə (85,8 faiz), müvafiq qaydada maliyyə kreditlərinin xüsusi çəkisi üzrə 1998-ci ilə (8,1 faiz) və 1995-ci ilə (58,7 faiz), birgə müəssisələr və xarici firmalara yönəldilmiş investisiyaların xüsusi çəkisi üzrə isə 1995-ci (4,0 faiz) və 1998-ci ilə (31,3 faiz) təsadüf etmişdir.

Göründüyü kimi, qeyd edilən dövrdə ölkə iqtisadiyyatına xeyli məbləğdə xarici investisiyalar yönəldilmişdir ki, bu da onun iqtisadiyyatının inkişafına və deməli, həm də əhalinin məşğulluğuna müsbət təsir göstərməmiş deyildir. Statistik materialların təhlilindən aydın olur ki, 1999—2000-ci illəri əhatə edən iki il ərzində respublikada xarici investisiyaların müxtəlif sahələrə yönəldilməsi quruluşu 59-cu cədvəldə göstərildiyi kimi olmuşdur. 59-cu cədvəldən göründüyü kimi,

[300] Cədvəl Azərbaycan Dövlət Statistika Komitəsinin həmin illərə dair məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir

ölkə iqtisadiyyatına qoyulmuş xarici investisiyaların 1999—2000-ci illərdə müvafiq surətdə 50,0 və 58,9 faizi neft bölməsinə, 7,1 və 5,4 faizi sənayenin digər sahələrinə, 2,6 və 3,3 faizi tikintiyə, 5,1 və 1,8 faizi ticarət və xidmət dairəsinə, 3,5 və 1,9 faizi mədəniyyət və rabitəyə, 0,9 və 0,3 faizi iqtisadiyyatın digər sahələrinə, 30,8 və 28,4 faizi isə maliyyə kreditlərinə yönəlmişdir. Göründüyü kimi, öyrənilən dövrdə xarici investisiyaların payı, tikinti sahəsi istisna edilməklə, bütün sahələr üzrə azaldığı halda neft sənayesində artmışdır.

Yeri gəlmişkən, onu da qeyd etmək lazımdır ki, 1995—2000-ci illərdə ölkə iqtisadiyyatının inkişafına təxminən 10 milyard manata yaxın daxili investisiya yönəldilmişdir. Onların ümumi həcmindən təxminən 60-65 faizi sənayenin, 8-9 faizi nəqliyyatın, 5-6 faizi telekommunikasiyanın və rabitənin, 20-27 faizi isə infrastrukturun və sosial obyektlərin inkişafına istiqamətləndirilmişdir. Öyrənilən dövrdə daxili investisiyaların tərkibində, xüsusilə müəssisə və təşkilatların öz vəsaitləri, habelə bank kreditləri daha yüksək paya malik olmuşdur (60-cı cədvələ bax). Qeyd edilən dövrdə Azərbaycanda neft bölmə-

60-cı cədvəl

Bütün daxili maliyyə mənbələri üzrə istifadə edilmiş investisiyaların ümumi həcmində xüsusi çəkisi (faizlə)

		1999	2000
	Cəmi	100,0	100,0
1	O cümlədən maliyyə mənbələri üzrə: Müəssisə və təşkilatların öz vəsaitləri	70,4	71,2
2	Əhalinin xüsusi vəsaitləri	4,1	4,7
3	Bank kreditləri	13,5	13,6
4	Büdcə vəsaitləri	1,7	2,9
5	Başqa təşkilatların borc vəsaitləri	1.8	1,3
6	Büdcədənkənar fondların vəsaitləri	2,5	0,9
7	Sair vəsaitlər	6,0	5,4

sindən kənarda fəaliyyət göstərən sahələrin inkişaf etdirilməsində bir sıra beynəlxalq maliyyə-kredit qurumları: BVF, Avropa Yenidənqurma və İnkişaf Bankı, Ümumdünya Bankı, İslam

Bankı və s. yaxından iştirak etmişdir. Lakin görülmüş işlərə baxmayaraq, bu sahədə hələ də bir sıra texniki və iqtisadi xarakterli problemlər də mövcuddur. **Birincisi,** xarici investorlar adətən fəaliyyət sahəsindən asılı olmayaraq, yeni yaranan və gənc özəl şirkətlərə kredit vermirlər. Onlardan kredit ala bilmək üçün bir neçə il ərzində mövcud olub, müvəffəqiyyətlə fəaliyyət göstərmək tələb olunur. **İkincisi,** belə kreditləri əldə etmək üçün həmin banklara özəl şirkətin iqtisadi fəaliyyətinin müxtəlif tərifləri barədə səlahiyyətli auditor firmaların tərəfindən təsdiq edilmiş maliyyə sənədləri, alınacaq kreditlər əsasında görüləcək işlərin əsaslandırılmış biznes-planı və s. təqdim olunmalıdır. Bir tərəfdən, respublikada hazırki mühasibat sisteminin dünya standartlarına tam cavab verməməsi, digər tərəfdən isə geniş, əhatəli və əsaslandırılmış biznes-planların tərtibi üzrə mütəxəssislərin, təcrübənin çatışmaması bu sahədə xeyli çətinlik yaradır.

Əlbəttə, heç şübhəsiz ki, qeyd edilən problemlər əsasən texniki xarakter daşıyır və vaxt keçdikcə onları aradan qaldırmaq mümkün olacaqdır. Lakin xarici kreditorlarla bağlı meydana çıxan daha ciddi iqtisadi xarakterli problemlər də mövcuddur. Bunlardan biri odur ki, bir sıra xarici investorlar təqdim edilən layihəni tam maliyyələşdirmir, yəni xarici kreditlərdən istifadə edə bilmək üçün həyata keçirməli olan işin (layihənin) müəyyən bir hissəsi krediti alan özəl şirkətin özü tərəfindən maliyyələşdirilməlidir.

Daxili maliyyə imkanlarının xeyli məhdud olduğu bir şəraitdə bu problemin həlli demək olar ki, əksər özəl şirkətlər üçün keçilməz bir sədd təşkil edir. Bundan da daha ciddi olan digər bir problem isə ondan ibarətdir ki, bir çox hallarda xarici sərmayədarlar mülkiyyət formasından asılı olmayaraq, respublika iqtisadiyyatına yönəltdiyi vəsaitlər üçün müxtəlif zəmanətlər, o cümlədən hökumət zəmanəti tələb edirlər. 2002-ci ildə təkcə dövlət bölməsində xarici investisiyalar əsasında yerinə yetirilməli olan layihələr üçün 2 milyard dollardan çox vəsaitə hökumət zəmanəti tələb olunmuşdur.

Belə bir vəziyyətdə özəl bölməyə yönəldilə bilən vəsait üçün də dövlət zəmanətinin verilməsi demək olar ki, qeyrimümkündür. Bizə belə gəlir ki, sonuncu problemi həll etmək

üçün dövlət qanunvericilik qaydasında iqtisadi fəaliyyət sahəsindən asılı olmayaraq, respublikamızla əməkdaşlıq etmək istəyən xarici firmalar qarşısında və əməkdaşlığın zəruri şərti kimi özəl bölmənin inkişafı məqsədilə yaradılması zəruri olan xüsusi investisiya fonduna (yaxud SKMF-ə) müəyyən kredit vəsaitinin ayrılması şərtini irəli sürə bilər. Ayrılmalı olan vəsaitin həcminə gəldikdə isə, onu bağlanmış kontraktların dəyərinə uyğun (faiz ifadəsi ilə) müəyyən etmək olar. Bu vəsaitlər, həmçinin xarici investorlarla şəriklik qaydasında həyata keçirilən və respublikanın iqtisadi təhlükəsizliyinə və inkişafına xidmət edən layihələrin maliyyələşdirilməsi üçün istifadə edilə bilər.

Deyilənlərə onu da əlavə etmək lazımdır ki, bu gün respublikada kiçik və orta sahibkarlığın investisiya problemlərinin həlli mexanizmi axıradək işlənib hazırlanmamış və burada aşağıdakılar tələb olunur: kredit dərəcələrinin azaldılması imkanlarının tapılması, investisiyalardan istifadəyə görə müxtəlif vergi güzəştlərinin tətbiqi, cəlb edilmiş kredit resurslarının bölüşdürülməsi və onlarla işləmək sisteminin son dərəcə sadələşdirilməsi və s.

Onu da qeyd etmək lazımdır ki, hazırda sahibkarlığın təşkili baxımından dövlətin kompleks həvəsləndirmə sisteminin müxtəlif ölkələrdə özünəməxsus xüsusiyyətləri vardır. Məsələn, Türkiyədə sahibkarlığı həvəsləndirmə sisteminin qarşısında duran başlıca məqsəd, ölkənin ayrı-ayrı iqtisadi regionlarının, cəmiyyətin ehtiyacı olan məhsulların, müəssisələrin, iş növlərinin və s. inkişafı üçün iqtisadi şəraitin yaradılmasından ibarətdir. Bu vəzifələrin yerinə yetirilməsi üçün bir sıra vergi, kredit, gömrük güzəştləri, investisiyaların bir qismini bağışlama, sığorta və s. kimi iqtisadi vəsaitlərdən istifadə edilir.

Türkiyədə kiçik müəssisələrə güzəştli kreditlər verən xüsusi bir bank - Xalq Bankı fəaliyyət göstərir. Bundan əlavə, illər üzrə sahibkarlığın inkişafının müxtəlif istiqamətlərini əhatə edən dövlət proqramları tərtib edilir.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycan iqtisadiyyatında xarici kapital olaraq əsas rolu Türkiyə kapitalı oynayır. Türkiyə kapitalı Azərbaycanın istehsal bazarında ən fəal rol oynadığı halda, digər ölkələr - ABŞ, İngiltərə və İsveçrə

kapitallarının Azərbaycanda fəaliyyəti ancaq neft və neft sektorunda infrastruktur sahələrlə bağlıdır. 2000-ci ilin məlumatlarına əsasən, Azərbaycanda əsas kapitala yönəldilmiş 555896,4 min ABŞ dolları həcmində ümumi xarici investisiyaların 507177,1 min dolları və ya 91,2%-i sənayenin, 4722,9 min dolları və ya 0,85%-i kənd təsərrüfatının, 2448,3 min dolları və ya 0,44%-i tikintinin, 677,9 min dolları və ya 0,12%-i topdan və pərakəndə satış, avtomobillərin və s. təmirinin, 112,4 min dolları və ya 0,02%-i mehmanxanalar və restoranların, 11953,4 min dolları və ya 2,15%-i nəqliyyat və rabitənin, 3363,8 min dolları və ya 0,6%-i daşınmaz əmlakla əlaqədar əməliyyatların, 1381,4 min dolları və ya 0,25%-i təhsilin, 17459,5 min dolları və ya 3,14%-i səhiyyə və sosial xidmətlərin, 6599,5 min dolları və ya 1,18%-i isə digər sosial, kommunal və fərdi xidmətlərin payına düşmüşdür. Fikrimizcə, gələcəkdə bununla kifayətlənməyib, Azərbaycan iqtisadiyyatının digər sahələrinə xarici kapital cəlbediciliyinin artırılması üçün də geniş tədbirlər planı işlənilib hazırlanmalı və həmin sahələrə investisiya axınını gücləndirmək üçün vergi, gömrük və s. sahələrdə dərin dəyişikliklər edilməlidir.

Azərbaycanda Türkiyə kapitalının fəaliyyət göstərdiyi əsas sahələrdən biri də inşaat xidmətləri bazarıdır. İnvestisiyaların yönəldiyi sahələr arasında sənaye sahəsindən sonra mənzil tikintisi əsas yer tutur. İndi Azərbaycanın paytaxtı Bakı şəhərində ucalan əksər yaşayış və inzibati binalar türk inşaatçılarının əməyinin nəticəsidir.

Azərbaycanın pambıq emalı sənayesində də əsas yeri Türkiyənin MKT şirkəti tutur. Bu şirkət holdinq təşkil edən 4 şirkətdən biridir. Şirkət öz fəaliyyətinə 1997-ci ildə 14 pambıqtəmizləmə zavodunun və Əli Bayramlı yağ-piy kombinatının özəlləşdirilməsindən sonra başladı. Türkiyə şirkətləri Sabirabad, İmişli, Tərtər, Ucar, Ağcabədi, Bərdə, Saatlı, Beyləqan, Yevlax, Salyan, Biləsuvar, Neftçala və Göyçay rayonlarında Azərbaycan üçün strateji sahə olan pambıqçılığın dirçəldilməsinə nail olmuşlar. Bu şirkətlərin səhmlərdə payı orta hesabla 49-51% təşkil edir. Pambıq emalı sahəsində fəaliyyət göstərən Türkiyə şirkətləri Azərbaycanın ixracat potensialının

yüksəldilməsində əhəmiyyətli yer tuturlar. 2000-ci ildə Azərbaycanın pambıq emalı sənayesinin ixracat potensialı orta hesabla 37553,8 min ABŞ dolları təşkil etmişdir. Pambıq emalı müəssisələri son vaxtlar daha çox daranmış mahlıc ixrac etməyə çalışır və bu, yaxşı meyldir. Lakin pambıq mahlıcının dünya bazarları ABŞ tərəfindən inhisarlaşdırıldığı üçün Türkiyə şirkətləri onu yalnız Türkiyəyə və müəyyən hissəsini də Rusiyaya ixrac etmək məcburiyyətində qalmışlar. Bunu aradan qaldırmaq məqsədilə Azərbaycan hökumətinin pambıqçılıq emalı sənayesi üçün müəyyən ixracat güzəştləri verməsi daha məqsədəuyğun olardı. Bu güzəştlərə aşağıdakıları aid etmək olar: beş il müddətində pambıq emalı müəssisələrinə vergi güzəştləri verməklə, onları son məhsul istehsalına yönəltmək; ucuz kreditlər verməklə ixracat potensialını yüksəltmək; yüngül sənaye müəssisələrinin özəlləşdirilməsində və tenderlərdə bu sahənin xammal bazasında fəaliyyət göstərən Türkiyə şirkətlərinə üstünlük vermək; Azərbaycanın pambıq regionlarında yüngül sənaye müəssisələrinin açılışı üçün azad sənaye zonalarının formalaşması məqsədilə hüquqi bazar yaratmaq və tezliklə həyata keçirmək lazımdır.

Xam pambığın son məhsula çatdırılması Azərbaycan üçün strateji istiqamət hesab edilir. Lakin hələlik bu problem həll edilməmişdir və onun həll edilməsində Türkiyə kapitalının böyük rolu ola bilər. Bunun üçün aşağıdakıların həyata keçirilməsi məqsədəuyğundur:

- yüngül sənayenin iplik istehsalı, toxuculuq və boyama, son məhsul - geyim məhsullarının istehsalı sahələrinin təşkili üçün Türkiyə investorlarına müəyyən güzəştlər verilməlidir. Bu güzəştlər, ilk növbədə, mənfəətdən verginin 5 il müddətinə ləğv olunması və müəssisələr mənfəətlə işlədikdən sonra vergiqoymanın tətbiqi şəklində həyata keçirilməlidir;
- yüngül sənaye sahələrinə Türkiyə kapitalının sürətlə cəlb olunması üçün uyğun regionlarda xüsusi istehsalat zonalarının yaradılması məqsədəuyğundur. Azad iqtisadi zonaların böyük şəhərlərdə yaradılması büdcə problemləri ilə əlaqədar dayandırıldısa da, bu layihənin kənd təsərrüfatı təmayüllü regionlarda tətbiqi böyük səmərə verə bilər;

➢ Türkiyə kapitalının yüngül sənaye sahələrinə aktiv axınını təmin etmək üçün onlara enerji-yanacaq resurslarının istifadəsində güzəştlər verilməsi məqsədəuyğundur;
➢ ilk dövrlərdə yüngül sənaye sahəsində fəaliyyət göstərən Türkiyə şirkətlərinin bütün gömrük resurslarından azad olması zəruridir;
➢ Türkiyə şirkətlərinin yüngül sənaye sahəsində müvəffəqiyyətli fəaliyyəti üçün dövlət tərəfindən güclü proteksionist siyasət yeridilməli, ölkəyə idxal olunan keyfiyyətsiz və ucuz yüngül sənaye mallarına yüksək gömrük tarifləri tətbiq olunmalıdır.

Bütün bu deyilənlərin həyata keçirilməsi gələcəkdə Azərbaycanla Türkiyə arasında iqtisadi əlaqələrin daha da genişləndirilməsini tələb edir və aşağıdakı istiqamətləri əhatə etməlidir: Azərbaycanın ixrac potensialının inkişafında xammal ixracından yarımfabrikat, daha sonra isə hazır məhsul istehsalına keçiddə türk sahibkarlarının potensialından istifadə etmək; Türkiyədən Azərbaycana investisiyaların cəlb olunmasında sahəvi strukturların səmərələşdirilməsi; elmi-texniki əməkdaşlığın gücləndirilməsi, süni maneələrin aradan qaldırılması; daxili bazarın qorunmasında iqtisadi vasitələrə üstünlük verilməsi.

Onu da qeyd etmək lazımdır ki, hazırda Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində fəaliyyət göstərən xarici və birgə müəssisələr hələ ki, yalnız öz iqtisadi maraqlarından çıxış edir, rentabellik səviyyəsi və kapitalın dövriyyə sürəti yüksək olan layihələrin həyata keçirilməsinə üstünlük verirlər. Onlar ölkədə sabit iqtisadi artımı təmin edə biləcək, strateji əhəmiyyət kəsb edən sənaye sahələrinə isə o qədər də maraq göstərmirlər. Dövlət bu cür müəssisələrin fəaliyyətini iqtisadi üsullarla tənzimləyə bilsə də, onlar üçün hər hansı bir şərt qoymaq imkanına malik deyildir. Fikrimizcə, xarici kapitalı ölkənin sosial-iqtisadi inkişaf səviyyəsinə görə geri qalmış regionlarına cəlb etmək məqsədi ilə xarici investorlar üçün güzəştli rejim müəyyən edilməlidir. Bu, bir tərəfdən, Azərbaycanın zəif inkişaf etmiş rayonlarında mövcud olan iqtisadi potensialdan səmərəli istifadə edilməsinə, **digər tərəfdən** isə yeni iş yerlərinin açılmasına və sosial-demoqrafik problemlərin, qismən də olsa, həllinə şərait yarada bilər.

Fikrimizcə, xarici kapitalın ölkəyə axınını təşviq etmək məqsədi ilə sığorta qanunvericiliyində də xarici investorlar üçün müəyyən edilmiş bəzi məhdudiyyətlərin aradan qaldırılmasına ehtiyac vardır.

Xarici kapitalın infrastruktur sahələrin inkişafına yönəldilməsi dövlətin investisiya siyasətinin əsas istiqamətlərindən birinə çevrilməlidir. ***Xarici investorların, bir qayda olaraq, öz sərmayələrini infrastruktur sahələrə yönəltmədiklərini nəzərə alaraq, bu sahələrin inkişaf etdirilməsi ilə bağlı layihələrin həyata keçirilməsində iştirak edən və bu sahədə görülən işlərə məsul olan qurumlar həmin məqsəd üçün ayrılmış olan investisiya kreditlərindən daha səmərəli istifadə etməli və israfçılığa yol verməməlidirlər.***

Xarici investisiyaların cəlb edilməsi həm də investisiyaların qarşılıqlı surətdə qorunmasına dair ayrı-ayrı ölkələrlə müvafiq sazişlərin bağlanmasını tələb edir. ***Doğrudur, Azərbaycan bəzi dövlətlərlə investisiya sazişləri imzalasa da, onların sayı olduqca məhduddur.*** İnvestisiyaların qarşılıqlı qorunması və həvəsləndirilməsinə dair saziş dünya ölkələri arasında geniş tətbiq olunur. Azərbaycanın mövcud qanunvericiliyindən fərqli olaraq, bu cür sazişlər xarici investorlar üçün nəzərdə tutulan təminatları daha da konkretləşdirir. Təcrübə göstərir ki, xarici sərmayənin cəlb edilməsi prosesində ölkəyə sənaye və maliyyə kapitalı ilə yanaşı, spekulyativ və ya «çirkli» kapital da daxil olur. Kriminal iqtisadiyyata malik olan ölkələrdə bu cür kapital asanlıqla dövriyyəyə cəlb edilərək, «çirkli» kapitaldan «təmiz» kapitala çevrilir və yenidən ölkədən çıxarılır. Ölkə iqtisadiyyatını fəaliyyəti «qaranlıq» olan bu cür müəssisələrdən qorumaq üçün Azərbaycana gələn xarici investorlar barədə dürüst informasiyalar toplanmalı və milli iqtisadi maraqlar baxımından, həmin müəssisələrin perspektivliyi dəqiq müəyyən edilməlidir.

Xarici iş adamlarının fəaliyyətinin qanunvericilik bazasını təkmilləşdirmək məqsədi ilə 1992-ci ildə qəbul edilmiş «Xarici investisiyanın qorunması haqqında» qanunun yeni variantda işlənib hazırlanması, konsepsiya müqavilələri haqqında, məhsulun bölgüsü haqqında qanun layihələrinin

hazırlanıb qəbul edilməsi tələb olunur. Bununla yanaşı, xarici investisiya fəaliyyətinin qadağan edildiyi və ya məhdudlaşdırıldığı sahələrin, fəaliyyət növlərinin və ərazilərin siyahısı da qanunvericiliklə müəyyən edilməlidir. Əgər Azərbaycana məxsus kapital hər hansı bir ölkənin iqtisadiyyatına investisiya olunursa, bəzi iqtisadçılar bunu dramatikləşdirərək, neqativ hal kimi qiymətləndirirlər. ***Fikrimizcə,*** respublikaya xarici kapitalın cəlb edilməsi ilə yanaşı, buradan da xaricə investisiya qoyuluşları üçün şərait yaradılmalıdır. 2000-ci ildə Azərbaycanda fəaliyyət göstərən xarici investisiyalı müəssisələrin 4,3%-i (64 müəssisə) MDB ölkələrinə məxsus olduğu halda, Azərbaycanın yerli şirkətləri nə üçün, heç olmazsa, ilkin mərhələdə Rusiya, Ukrayna, Belarus, Gürcüstan və s. bu kimi ölkələrə kapital qoymamalıdırlar? Qeyd etmək lazımdır ki, bir çox ölkələrdə xarici investisiya qoyan şirkətlərə hökumət tərəfindən təminatlar verilir, onların fəaliyyəti stimullaşdırılır. Məsələn, xarici ölkələrə qoyulmuş xüsusi investisiyaların sığortalanması üzrə ABŞ-ın dövlət korporasiyası 1999-cu ildə Rusiyada müxtəlif investisiya layihələrini həyata keçirən 59 ABŞ şirkətlərini sığortalayaraq, 2 milyard ABŞ dolları məbləğində dövlət təminatı vermişdir. Norveç hökuməti isə Rusiya ərazisində fəaliyyət göstərən şirkətlərinin ixracına və investisiyalarına təminat vermək məqsədi ilə 1997-ci ildə dövlət büdcəsindən 500 milyon ABŞ dolları həcmində təxsisat ayırmışdır.

İnvestisiya obyektləri barədə informasiyanın heç bir məhdudiyyət qoyulmadan əldə edilməsi imkanlarının yaradılması xarici kapitalın ölkəyə cəlb edilməsinin əsas şərtlərindən biridir. Bunu nəzərə alaraq, həmin informasiyalar üzərində hər hansı bir inhisarçılığın yaranmasına yol verilməməli, investisiya layihələri barədə məlumatlar potensial investorlar arasında geniş yayılmalıdır.

Dünyada birbaşa investisiyalar üzrə sərmayə potensialı, müxtəlif hesablamalara görə, 350-500 milyard ABŞ dolları təşkil edir. Hazırda müəyyən iqtisadi potensialı olan dövlətlər həmin kapitalı öz ölkələrinə cəlb etmək üçün bir-birləri ilə rəqabət aparırlar. Heç şübhə yoxdur ki, ***Azərbaycan***

Respublikası da beynəlxalq investisiya kapitalının müəyyən bir hissəsini öz iqtisadiyyatına cəlb etməklə, özünün zəngin iqtisadi potensialından və əmək qüvvələrindən səmərəli istifadə etmək üçün əlverişli imkan qazanacaq və bu proses onun dünya iqtisadiyyatına inteqrasiyasını daha da sürətləndirəcəkdir.

Bütün bu yuxarıda deyilən tədbirlərin həyata keçirilməsi *respublika iqtisadiyyatının sürətli inkişafını təmin etməklə, burada külli miqdarda yeni iş yerlərinin yaradılmasına səbəb olacaq, Azərbaycanda əhalinin səmərəli məşğulluğunun təmin olunmasına və işsizlərin sayının əhəmiyyətli dərəcədə azalmasına şərait yaradacaq, ölkə əhalisinin həyat səviyyəsinin yaxşılaşdırılmasına köməklik göstərəcəkdir.*

V FƏSİL

MÜASİR MƏRHƏLƏDƏ DÜNYADA VƏ AZƏRBAYCANDA ƏHALİ MİQRASİYASI VƏ MİQRASİYA SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

5.1. ƏHALİ MİQRASİYASININ ÖYRƏNİLMƏSİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI

Əhali miqrasiyası sosial-iqtisadi kateqoriya olaraq, lap qədim zamanlardan məlumdur. İnsanların köçməsi prosesinin dərin kökləri sivilizasiyanın hələ erkən inkişaf mərhələlərində başqa amillərlə yanaşı, istehsal-təsərrüfat amili kimi çıxış etmişdi. Məhsuldar qüvvələrin mühüm ünsürü kimi insanların rolu istehsal-təsərrüfat dairəsi ilə məhdudlaşmayıb, lap əvvəllərdən cəmiyyətin inkişafının bütün tərəflərinə – dövlət-siyasi, hərbi, dövlətlərarası, ideoloji, mənəvi, mədəni və sair ictimai münasibətlərə sirayət etməsilə şərtlənmişdir.

Əhali hərəkəti insan cəmiyyətinin mütərəqqi inkişafının bütün tarixi-inkişaf mərhələlərində fəaliyyət göstərmiş ümumi sosial-iqtisadi qanundur. Bununla yanaşı, bəşər cəmiyyətinin inkişaf tarixi göstərir ki, uzun illər boyu əhalinin miqrasiya yolu ilə ölkələrarası hərəkəti – məcburi qaydada, yəni müharibələrin, işğalların, əsrlik, milli-etnik, irqi, dini izləmələrin təsiri altda baş vermişdir.

Əhali hərəkəti qanununun sivilizasiyanın ayrı-ayrı tarixi inkişaf mərhələlərindəki fəaliyyəti müxtəlif səbəblərlə bağlı olmuşdur. Əhalinin miqrasiya yolu ilə yerdəyişməsi – bütün tarixi cəmiyyətlər üçün xarakterik olub, ictimai əmək bölgüsünün – heyvandarlığın əkinçilikdən ayrılması, sənətkarlığın yaranması, şəhərlərin meydana gəlməsi, müharibələrin aparılması, qulların əsir götürülməsi və s. nəticəsində əmələ gəlmişdir. Ancaq bu qanun insan cəmiyyətinin sənayenin inkişafı mərhələsinə keçməsi dövründə xüsusi əhəmiyyət kəsb etməyə başlamışdı. K.Marksın göstərdiyi kimi, əhalinin hərəkətinin və iqtisadiyyatın inkişafının arasıkəsilmədən davam etməsində, cəmiyyət həyatının bütün tərəflərinin inkişafında iri maşınlı sənayenin inkişafı in-

qilabi rol oynamışdı. Əhalinin yerləşməsinin dərin iqtisadi səbəbləri kapitalın, istehsalın və məhsuldar qüvvələrin hərəkətinin tələblərilə şərtlənmişdir. Kapitalın bir sahədən digərinə, bir regiondan başqasına axını iş qüvvəsinin də azad surətdə hərəkətini qanunauyğun zərurətə çevirmişdir. Bu mənada əhalinin hərəkəti iri maşınlı sənayenin inkişafının həm başlıca nəticəsini və həm də şərtini təşkil edir. İstehsalın özünün daxili inkişaf tələbatı isə onun ərazicə yüksək dərəcədə genişlənməsini və amillərini tələb edir. Eyni zamanda, miqrasiya – məhsuldar qüvvələrin inkişafının mühüm tərəflərindən birini təşkil edən əhalinin hərəkəti qanununu özündə əks etdirir.

XIX və XX yüzilliklərin ərəfəsində əhalinin hərəkəti qanununun mahiyyətini, miqrasiyanın mexanizmini dərindən tədqiq edib aşkara çıxarmağa, onun nəzəriyyəsini yaratmağa cəhd edənlərin hamısı – bu məsələdə ictimai inkişafın sosial-iqtisadi şəraitini əsas götürmüşlər. Əhali miqrasiyasının genezisi istehsal üsulunun maddi nemətlər istehsalı və ona uyğun gələn ictimai şərait əsasında formalaşmışdı. Bununla da belə bir nəticəyə gəlinmişdir ki, məhsuldar qüvvələrin və istehsal münasibətlərinin təkrar istehsalı əhali miqrasiyası prosesinin xarakterini müəyyən edir. Lakin əhali miqrasiyasının dünya təcrübəsi göstərir ki, bu proses bu və ya digər inkişaf mərhələsinin sadəcə olaraq təkrarlanması olmayıb, hər dəfə keçmiş inkişaf dəyişikliklərini yüksək səviyyədə özündə əks etdirən halda baş verən prosesdir. Bu prosesdə qanunauyğun əks qarşılıqlı əlaqələr də özünü göstərir: yəni sosial-iqtisadi şəraitin miqrasiyaya təsiri birtərəfli olmayıb, qarşılıqlı xarakter daşıyır.

Hər bir ictimai-iqtisadi istehsal üsulunun tərəqqisi əhalinin hərəkəti, onun bir yerdən digərinə keçməsi, bir sahədən keçib digərində məşğul olması ilə qarşılıqlı surətdə bağlıdır. Hər bir inkişaf etmiş cəmiyyət üçün xarakterik olan əhali miqrasiyası dəyişiklikləri, onun tərəqqisini göstərir. Çünki V.İ.Leninin sözləri ilə desək, əhalinin hərəkəti olmadan onun inkişafı da ola bilməz.

İqtisadi baxımdan əhalinin mexaniki hərəkəti – müsbət hadisədir. Bu, istehsalda arasıkəsilmədən baş verən struktur dəyişikliklərinin obyektiv tələbidir. Məhsuldar qüvvələrin inki-

şafı və kapitalın sahələr, regionlar, ölkələr üzrə axını, istehsalatda infrastruktur sahələrin (nəqliyyat, təchizat, ticarət və s.) yaradılması istehsalın özündə, başqa sözlə desək, əhalinin məşğulluq quruluşunda, onun yerdəyişilməsində müvafiq dəyişikliklərin baş verməsini tələb edir. Bu – məhsuldar qüvvələrin inkişafı, istehsalın inkişaf tələbi, kapitalın hərəkəti ilə bağlı qanunauyğunluqdur.

Müasir şəraitdə əhalinin mexaniki hərəkəti məhsuldar qüvvələrin ən çox dinamik inkişaf prosesinin ünsürlərindən biri olub, iqtisadi amillə şərtlənir. K.Marks, əhalinin hərəkəti qanununda sənaye istehsalının rolundan danışarkən, XIX əsrin ortaları üçün xarakterik olan texniki nailiyyətlərə əsaslanmışdır. Hal-hazırda sənayenin tələbatına əsaslanan iqtisadiyyatın inkişafından irəli gələn əhalinin mexaniki hərəkətinin bütün prosesləri daha geniş vüsət almış və təkcə bir ölkə hüdudları xaricində deyil, daha qlobal miqyasda baş verir. Ölkənin müasir sənaye inkişaf mərhələsində əhalinin hərəkəti qanunu daha geniş məzmunu ilə tamamlanır.

Onu da qeyd etmək lazımdır ki, əhali miqrasiyası – sosial-iqtisadi hadisə kimi cəmiyyətin iş qüvvəsinə tələbini ödəyən funksiyanı yerinə yetirir, obyektivdir və heç zaman aradan çıxmayacaqdır.

Klassik iqtisadi nəzəriyyə çərçivəsində ictimai münasibətlərin və əmək bölgüsünün inkişafını özündə əks etdirən əhali miqrasiyasına xalqların müxtəlif ərazilərdə yerləşdirilməsi, məhsuldar qüvvələrin inkişafı və yeni mədəniyyət ocaqlarının yaradılması proseslərilə bağlı olan insanların mühüm ünsiyyət xassələrindən biri kimi baxılır. Ancaq bu fikirə birdən-birə deyil, uzun tarixi inkişaf prosesində gəlinmişdir. Miqrasiya proseslərindəki əlaqələrin qanunauyğunluğunun izahı son iki əsr ərzində müxtəlif iqtisadi məktəblərin tədqiqat predmeti olmuşdur. Klassik, merkantilist, keynsçi, neoklassik və sair nəzəriyyələrin nümayəndələri sərvətin əmələ gəlməsi mənbəyini miqrasiya prosesinin inkişafında əhalinin müxtəlif ərazilərdə yerləşdirilməsilə qarşılıqlı əlaqədə olduğunu müəyyənləşdirməyə cəhd göstərmək təşəbbüsünüdə olmuşlar. Asılı inkişaf nəzəriyyəsi və dünya sistemi nəzəriyyəsinə (S.Kastl, Q.Kosak, M.Kasteli, M.Niko-

linakos və s.), «Səmərəli seçim» konsepsiyasına (M.Todor), «Səmərəlilik funksiyası» nəzəriyyəsinə (O.Stark), strukturlanma nəzəriyyəsinə (E.Giddelens) və başqalarına əsaslanmaqla, müasir əhali miqrasiyası konsepsiyalarının təhlili bir-birilə rəqabətdə olan iki nəzəri yanaşmanı aşkara çıxarmağa imkan verir. Bunların birinə əsasən əhalinin mexaniki hərəkətinin inkişafında həlledici əhəmiyyət kəsb edən obyektiv amillərdir, yəni – əhalinin miqrasiyasını sürətləndirən və ya ləngidən müxtəlif strukturlar təşkil edir. Digər halda isə üstünlük subyektiv amillərə – miqrasiyaya qərar verən və onların icraçısı olan fərdlərin özlərinə verilir. Nəzərə alsaq ki, əhali miqrasiyası həm obyektiv sosial-iqtisadi şəraitin və həm də bu şəraitə təsir edən insanların, fərdlərin qarşılıqlı əlaqələrinin nəticəsidir, onda belə qənaətə gəlmək olar ki, əhalinin miqrasiya yolu ilə yerləşməsi mexanizmi həm obyektiv «struktur» və həm də subyektiv fərdi «agentlərin» yaşayış yerlərini dəyişmək tələbatını, maraq və məqsədlərini özündə əks etdirən kompleks amillər sistemindən ibarətdir. Beləliklə, məhsuldar qüvvələrin inkişafı ilə bağlı olan və eyni zamanda onların dəyişilməsinə təsir göstərən amillərindən birini təşkil edən əhali miqrasiyası məhsuldar qüvvələrin şəxsi (subyektiv) və əşya (obyektiv) ünsürləri arasındakı möhkəm və çox mühüm qarşılıqlı əlaqələri özündə əks etdirir. Başqa sözlə desək, miqrasiya proseslərinin əsasında istehsalın, iqtisadiyyatın inkişaf etdirilməsi tələbatı ilə şərtlənən qanunauyğunluq durur. Əhali miqrasiyasının qaunauyğunluğu kimi çıxış edən bir də odur ki, o, insanların öz həyat səviyyəsini yüksəltməyə cəhd etməsi vəziyyətini və həm də onların arzu edilən sosial standartlara çatması tələblərini özündə əks etdirir. Əhalinin yerləşməsinə təsir edən amillər arasında iqtisadiyyatın inkişafı ilə əhəmiyyətli dərəcədə bağlı olan, lakin müəyyən tarixi inkişaf mərhələlərində müstəqil funksional əhəmiyyət daşıyan dövlət-siyasi amilin də özünəməxsus yeri vardır.

Son vaxtlar keçmiş müttəfiq respublikalarda sosial-iqtisadi və siyasi sistemin dəyişilməsi nəticəsində postsovet məkanında miqrasiya vasitəsilə əhalinin yerdəyişməsinin ictimai əhəmiyyətinin artması baş verən proseslərin nəzəri-metodoloji cəhətdən dərk edilməsini obyektiv zərurətə çevirmişdir. Ona görə

də ərazicə əhalinin yer dəyişməsi səviyyəsinin kəmiyyətcə artması, habelə bu sahədə baş verən keyfiyyət dəyişiklikləri şəraitində həmin nəzəri-metodoloji məsələlərin həyata keçirilməsi mexanizmlərinin tədqiqi bu hadisənin ümumi qanunauyğunluqları və xüsusiyyətlərini, onun sosial-iqtisadi amillərini aşkara çıxarmadan mümkün deyildir.

Müasir mərhələdə miqrasiya proseslərinin ümumi qanunauyğunluqları və inkişaf meyllərinin təhlili göstərir ki, cəmiyyətin ümumi inkişaf qanunauyğunluqlarının nəticəsi olaraq MDB ölkələrinin ərazilərində iqtisadi münasibətlərin transformasiyası şəraitində əhali miqrasiyasının dəyişilməsinə təsir edən amillər və onların özünəməxsusluğu obyektiv əsasa malikdir. Postsovet məkanında əhalinin mexaniki hərəkəti proseslərinin əsas inkişaf meylləri arasında ölkə iqtisadiyyatının qeyri-bərabər inkişaf xarakteri, etnik proseslərin qüvvətlənməsi, əmək və intellektual miqrasiyanın həcmi, bu və digər ölkə əhalisinin «immiqrasiya imkanları» potensialı haqqında informasiya ilə məlumatlandırılmasının genişləndirilməsi və s. seçilir. Əhali miqrasiyası sosial-iqtisadi kateqoriya olub, ictimai istehsal münasibətlərinin müəyyən tərəflərini, daha doğrusu, əhalinin hərəkəti, ictimai həyat prosesində insanların sıx, geniş və hərtərəfli qarşılıqlı əlaqələrini əhatə edən hadisələri özündə əks etdirir. Əhali miqrasiyasının ən köklü səbəbləri arasında məhsuldar qüvvələrin inkişaf səviyyəsi əsas yer tutur, yəni məhsuldar qüvvələrin inkişaf səviyyəsi nə qədər yüksək olarsa, insanlar arasında qarşılıqlı sosial-iqtisadi əlaqələri də bir o qədər yüksək olar. Əgər söhbət məhsuldar qüvvələrin inkişafından gedirsə, onda bu qarşılıqlı münasibətlər özündə əmək bölgüsü sahəsindəki istehsal münasibətlərini əks etdirir. Əhali miqrasiyasına sosial-iqtisadi kateqoriya kimi yanaşılması bir də onunla izah edilir ki, əmək bölgüsü ilk növbədə istehsal dairəsinə, mənimsəmə dairəsinə və deməli, mülkiyyət dairəsinə toxunur. Əhalinin hərəkəti prosesində, insanların istehsala qarşı təsiretmələrində mülkiyyət məsələləri izlənir, yəni o ictimai sərvətlərin mənimsənilməsi izlənir ki, onlar əmək bölgüsü ilə şərtlənən insanların fəaliyyəti nəticəsində yaradılır. Təbii ki, bu hərəkətlərdə, insanların bu yerdəyişmələrində, daim onların iqtisadi, sosial ma-

raqları iştirak edir. Bu, əhali miqrasiyasının əsas səbəblərindən birini təşkil edir. Əhali miqrasiyasına sosial-iqtisadi kateqoriya kimi yanaşılması eyni zamanda onunla izah edilir ki, o, əhalinin əmək funksiyasını dəyişmək və həyat səviyyəsini yaxşılaşdırmağa yönəlmiş ictimai münasibətləri özündə əks etdirir. Bu halda ona əhalinin sadə mexaniki hərəkəti kimi deyil, sosial-iqtisadi həyatın bir çox tərəflərinə toxunan mürəkkəb proses kimi baxılır.

Beləliklə, **əhali miqrasiyası** – onun mobilliyinin (əhalinin sürətlə hərəkət etmək qabiliyyətinin) növlərindən biridir, daha doğrusu, onun məkanca mobilliyidir. **Sözün ən geniş mənasında, əhalinin miqrasiyası dedikdə – insanların ərazilərdəki hər cür yerdəyişmələrinin** məcmusu başa düşülür. ***Başqa sözlə desək***, əhali miqrasiyası, ***onun bir yaşayış məntəqəsindən digərinə getməsi prosesidir.*** Bu, ictimai proses olub, kompleks sosial, iqtisadi və siyasi amillərin təsiri nəticəsində baş verir. Bu prosesin baş verməsində təbii şəraitin, xüsusilə də, iqlimin böyük rolu vardır.[301]

Ümumiyyətlə götürüldükdə isə, əhali miqrasiyası ərazilərin mənimsənilməsində, məhsuldar qüvvələrin inkişafında, etnik birliklərin formalaşmasında və inkişafında xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda qeyd etməliyik ki, plansız, kortəbii miqrasiyalar cəmiyyətin inkişafında çox mənfi əlamətlərin yaranmasına səbəb olur.

Əhalinin miqrasiyasının tarixi bəşər cəmiyyətinin yaranması tarixi qədər qədimdir. Sinifli cəmiyyətin yaranmasınadək olan dövrlərdə əhalinin miqrasiyası əsasən kortəbii xarakter daşıyırdı. Onun formalaşmasında istehsal alət və vasitələrinin təkmilləşməsi, məhsuldar qüvvələrin inkişafı və siyasi hakimiyyətin yaranması mühüm rol oynamışdır. Elmi-texniki inqilab, bütün dünyada və müxtəlif ölkələrdə siyasi və iqtisadi vəziyyətin dəyişilməsi əhalinin miqrasiyasını daha da sürətləndirmişdir.

---

[301] *В.И.Перевенденцев.* Методы изучения миграции населения. Изд-во «Наука», Москва, 1975, с. 9.

Deyilənlərlə əlaqədar olaraq, miqrasiyanın həcmi və istiqaməti tarixən çox müxtəlif olmuşdur. Miqrasiya tarixində aşağıdakı dövrlər daha səciyyəvidir:

İlkin miqrasiya. Bu mərhələ insanların ibtidai dövrünü əhatə edir. Həmin mərhələdə insanlar ibtidai həyat şəraitinə, çox primitiv əmək alətlərinə malik olduqlarına görə təbii şəraitdən daha çox asılı olmuşlar. Məhz buna görə də təbii şərait onların miqrasiyasına böyük təsir göstərmişdir. Bu dövrdə əhali ən çox təbii şəraiti əlverişli olan rayonlarda məskanlaşmışdır.

İkincisi, sinifli cəmiyyətin meydana gəlməsindən böyük coğrafi kəşflərə qədər davam edən dövrdəki miqrasiya. Bu dövrdə **miqrasiya həm ölkədaxili, həm də ölkələrarası xarakter daşıyırdı.**

Üçüncüsü, böyük coğrafi kəşflərdən sonraki dövrdə miqrasiya. Bu dövrdə miqrasiya edənlər getdikləri ərazilərin miqrasiyasına, çoxluğuna və özlərinin fəallığına görə fərqlənmişlər. XVI əsrdən başlayaraq qitələrarası miqrasiya üstünlük təşkil etmişdi. Həmin dövrdə coğrafi kəşflər miqrasiyanın inkişafına xarici amil kimi təsir göstərirdi.[302]

Miqrasiya prosesi bir çox amillərlə bağlı olduğuna görə onun istiqaməti olduqca dinamikdir.

Ümumiyyətlə, bütün dünyada 1920-ci ildən sonra şəhər əhalisinin 50 faizə yaxını mexaniki artım hesabına çoxalmışdır. Bütünlükdə götürüldükdə, keçmiş SSRİ ərazisində, o cümlədən də Azərbaycanda Böyük Oktyabr sosialist inqilabına qədər olan dövrdə əhalinin miqrasiyası aşağıdakı dörd əsas formada baş vermişdir:

1) işsiz və yarımışsız əhalinin müəyyən mövsümdə pul qazanmaq məqsədilə sənaye və kənd təsərrüfatı rayonlarına işləməyə getməsi;

2) daimi işləmək üçün şəhərə köçənlər;

3) kənd əhalisinin bir qisminin nisbətən çox torpağı olan rayonlara getməsi, yüksək gəlir əldə etmək məqsədilə uzaq ərazilərə köçənlər və yaxın keçmişdə şərqə köçənlərin yenidən uzaq torpaqlara gedib orada məskən salması;

---

[302] *Ş.Göyçayski.* Əhali coğrafiyası. Bakı, Maarif nəşriyyatı, 1979, səh. 175-176.

4) Rusiyanın mərkəzi hissəsində çarizmin zülmündən, millətçiliyin əlindən, din ayrı-seçkiliyindən, siyasi təqiblərdən uzaq-laşanlar və yaxud sürgün edilənlər.

Miqrasiyanı əhalinin yalnız bir rayondan başqa rayona hərəkəti kimi qiymətləndirmək azdır. Miqrasiya təsərrüfatın, ictimai həyatın, coğrafi şəraitin və bununla əlaqədar olaraq yaşayış məntəqələri şəbəkəsinin funksional inkişafı, eləcə də əhalinin məskunlaşması ilə bağlıdır. Bunlar miqrasiyanın mexanizmini yaradır.

Bütün bu deyilənləri yekunlaşdıraraq demək olar ki, **sözün geniş mənasında əhalinin miqrasiyası dedikdə** – əhalinin ərazilər üzərində hər hansı bir formada kütləvi halda yerləşməsi, məskunlaşması başa düşülür. Bu mənada əhalinin miqrasiyası dedikdə, hər gün şəhər əhalisinin miqrasiyası, onların evdən iş yerinə və əksinə hərəkəti, ticarət müəssisələrinə və sair yerlərə hərəkəti, mövsümü və əhalinin istirahət yerlərinə getməsi ilə və sairlə bağlı bir yerdən başqa yerə getməsindən söhbət gedir. **Sözün dar mənasında, əhalinin miqrasiyası dedikdə** isə onların nisbətən müəyyən bir müddət ərzində öz yaşayış yerlərini dəyişməsi başa düşülür. Başqa sözlə desək, **əhalinin miqrasiyası dedikdə** – onların bir yaşayış məntəqəsindən başqasına keçməsi başa düşülür. Eyni yaşayış məntəqəsi daxilində isə əhalinin yaşayış yerini dəyişməsinə miqrasiya prosesi kimi baxmaq olmaz.

Əhalinin miqrasiyası cəmiyyətin iqtisadi həyatının bütün tərəfləri ilə sıx surətdə bağlıdır.

Müasir dövrdə ölkə ərazisində əhalinin və əmək ehtiyatlarının səmərəli surətdə yerləşdirilməsi xalq təsərrüfatının əsas problemlərindən hesab olunur.

Əhalinin miqrasiyası onun ərazi üzrə bölüşdürülməsinin forması olmaqla əmək ehtiyatlarının yerləşdirilməsində mövcud olan uyğunsuzluqların aradan qaldırılmasında həlledici amildir.

Miqrasiya anlayışının məzmununun müəyyən edilməsi sahəsində ölkə iqtisadçıları, demoqrafları və statistikləri arasında bu günədək vahid fikir birliyi yoxdur.

Miqrasiya sözü əhalinin bir ölkə daxilində, yaxud da ölkələr arasındakı gəliş və gedişini ifadə edir. Əhalinin bir ölkədən

başqasına getməsi – **miqrasiya**, başqa ölkədən gəlməsinə isə – **immiqrasiya** deyilir.

Əhali miqrasiyasının öyrənilməsinin çox böyük elmi və elmi-təcrübi əhəmiyyəti vardır. Hər şeydən əvvəl, nəzərə almaq lazımdır ki, miqrasiya prosesi bu və ya digər ölkədə və rayonda təkcə əhalinin azalıb artmasına deyil, həm də onun yaş-cins quruluşuna, milli tərkibinə və sairə də təsir göstərir. Buna görə də hər bir ölkədə və rayonda əhalinin miqrasiyasını öyrənmədən bu ərazilərdə iqtisadiyyatın inkişaf etdirilib düzgün yerləşdirilməsini, onun təşkili və idarəedilməsini həyata keçirmək, həmin regionlarda baş verən sosial-iqtisadi və demoqrafik prosesləri nizamlamaq qeyri-mümkündür. Bu və ya digər ərazilərdə mövcud olan insan resurslarından səmərəli istifadə edilməsi, əhaliyə xidmət sahələrinin inkişaf etdirilib düzgün yerləşdirilməsi və sair bu kimi mühüm sosial-iqtisadi hadisə və proseslərin nizamlanması ilə bağlı məsələlərin lazımı səviyyədə həll edilməsi əhali miqrasiyasının dərindən və hərtərəfli tədqiq edilib öyrənilməsini tələb edir. Elə bu səbəbdəndir ki, ölkəmizdə əhali miqrasiyası sosial-iqtisadi inkişafın mühüm amili kimi qiymətləndirilir və cəmiyyətin həyatında onun rolu və yeri geniş surətdə tədqiq edilib öyrənilir.

Ümumiyyətlə götürüldükdə, keçmiş ittifaqda, o cümlədən də respublikamızda əhalinin miqrasiyası məsələsinin əsaslı surətdə tədqiq edilməsinə 60-70-ci illərdən başlanmışdır. Çünki hələ 30-cu illərin əvvəllərindən etibarən demoqrafik proseslərin, o cümlədən də əhalinin miqrasiyası prosesinin öyrənilməsi keçmiş ittifaqın hər yerində qadağan edildiyindən müxtəlif terminlər, anlayışlar kimi miqrasiya da «erroziyaya» uğramış və unudulmuşdur. Həmin dövrdə miqrasiya, sözün əsl mənasında, lüğət kitablarından, məlumat kitabçalarından çıxarılmış və hətta 1954-cü ildə nəşr edilmiş «Böyük Sovet Ensiklopediyası»nda belə öz əksini tapmamışdır. Miqrasiya anlayışı, termini yalnız 1959-cu və 1961-ci illərdən etibarən ayrı-ayrı ədəbiyyatda özünə yer tapmağa başlamışdır. Həmin dövrdən sonra miqrasiya proseslərinin öyrənilməsi sahəsindəki fəallaşmanın artması nəticəsində onun məzmun və mahiyyətinin şərh edilməsi ilə bağlı bir sıra təşəbbüslər ortaya atıldı və 60-cı illərdən etibarən elmi ədə-

biyyatda bu sahədə mübahisələr genişlənməyə başladı. Bu sahədə B.S.Xoryev, A.U.Xomra, V.İ. Prevendentsev, L.A.Rıbakovski, M.M.Allahverdiyev və başqalarının xüsusi xidmətləri vardır. Bu alimlərin əsərlərində əhalinin miqrasiyasının mahiyyəti haqqındakı fikirlərini yekunlaşdırsaq, onları dörd qrupa bölmək olar:

Birinci qrupa daxil olan alimlər miqrasiya anlayışına tərif verərkən miqrasiya prosesi ilə miqrasiyanın nəticələri kimi iki müxtəlif hadisəni bir-birilə qarışdırırdılar. V.İ.Perevedentsevin haqlı olaraq dediyi kimi, bəzi alimlər doğru olmadan miqrasiyaya əhalinin ərazilər üzrə yerləşdirilməsi kimi baxırdılar.[303] N.N.Filippov və V.V.Surkov isə hər bir əhalinin ərazilər üzrə yenidən bölüşdürülməsi prosesini miqrasiya prosesi, hadisəsi kimi izah edirlər.[304]

İkinci qrup iqtisadçı – demoqrafların fikrincə, əhalinin yerləşməsi və mobilliyi kimi anlayışlarla miqrasiyanı eyniləşdirmək olmaz. Məsələn, T.M.Karaxanovanın fikrincə, miqrasiya dedikdə – ona əhalinin coğrafi mobilliyi kimi baxılmalıdır.[305]

Üçüncü qrup iqtisadçılar bir az sonra bu fikri təkrar edərək əhalinin miqrasiyasına onun mobilliyi kimi baxılmasını təklif etmişlər.[306] B.S.Xoryev isə miqrasiya prosesinə daha **geniş mənada** baxaraq onu miqrasiya fəallığı, miqrasiya hərəkəti kimi, **dar mənada** isə əhalinin bir yerdən başqa yerə köçürülməsi kimi izah etmişdir.[307] O.B.Lormin də eyni mövqedən çıxış edərək miqrasiya prosesinə miqrasiya fəallığının, hərəkətinin bir hissəsi kimi baxmışdı.[308]

---

[303] *Переведенцев В.И.* «Методы изучения миграции населения». Москва, 1975, с. 34.

[304] *Филиппов Н.Н., Сурков В.В.* «Проблемы формирования трудовых ресурсов села», Свердловск, 1972, с.107.

[305] *Караханова Т.М.* «Некоторые вопросы миграции населения в Узбекской ССР». Ташкент, 1974.

[306] *Шамильева Л.Л.* «Моделирование миграцией населения в районе». Москва, 1975.

[307] «Миграционная подвижность населения в СССР». Москва, 1974

[308] *Лормин О.Б.* «Методологические проблемы изучения народонаселения». Москва, 1974

Dördüncü qrup iqtisadçılar isə miqrasiya prosesinə əhalinin müxtəlif hərəkət formaları, o cümlədən miqrasiya və sosial hərəkəti kimi yanaşır və ona əhalinin ərazi, sahə, peşə və sosial hərəkətini aid edirlər. B.D.Breyev isə mobillik terminini miqrasiya ilə əvəz etmişdir.[309]

Bütün bu yuxarıda deyilən fikirlərə baxmayaraq, əvvəldə qeyd etdiyimiz kimi, əhalinin miqrasiyası dedikdə, onun bir ərazidən digərinə köçməsi prosesi başa düşülməlidir. Əhalinin ərazilər üzrə hərəkətinin isə azı üç mümkün tərəfini miqrasiyaya aid etmək olar.

Birincisi, xarakter və məqsədindən asılı olmayaraq ərazilər üzrə əhalinin bütün hərəkətini;

İkincisi, ərazilər üzrə əhalinin elə hərəkətini ki, bunun nəticəsində əhali ya daimi, yaxud da müəyyən müddət ərzində öz yaşayış yerini, iş yerini və təhsil yerini dəyişmiş olsun.

Üçüncüsü, əhalinin ərazilər üzrə elə hərəkətini ki, onun nəticəsində əhalinin ərazilər üzrə yenidən bölünməsi prosesi baş vermiş olsun.

Yuxarıda qeyd edilənlərə əsasən demək olar ki, əhalinin miqrasiyasına ərazilər üzrə onun ***dörd əsas hərəkətini daxil etmək*** olar. Bunlara – ***ani miqrasiya, mütərəddid (mayatkovıy) miqrasiya, mövsümi miqrasiya, geriqayıtmaz (köçürülən) əhali miqrasiyası daxildir.***

Ani və ya epizodik miqrasiya dedikdə – əhalinin həmişə müxtəlif istiqamətdə və müxtəlif vaxtda baş verə bilən işguzar hərəkəti başa düşülür.

Mütərəddid (mayatkovıy) miqrasiya dedikdə – daimi yaşayış yerini dəyişməyən, lakin başqa ərazilərdə işləyən əhalinin gündəlik hərəkəti başa düşülür və onların yaşayış yerindən iş yerinə və əksinə hərəkəti nəzərdə tutulur.

Mövsümi miqrasiya isə – qısamüddətli əhali miqrasiyası olub, başlıca olaraq, əmək qabiliyyətli əhalinin bir qisminin

---

[309] B a x: *Бреев Б.Д.* «Подвижность населення и трудовые ресурсы». Москва, 1977, с.6.

müvəqqəti olaraq müəyyən müddət ərzində iş yerlərini və yaşayış yerlərini dəyişməsi prosesi kimi başa düşülür.

Geriqayıtmaz (köçürülən) əhali miqrasiyası dedikdə isə əhalinin daimi yaşayış yerini dəyişməsi ilə əlaqədar olan və əsasən iqtisadi səbəbdən doğan miqrasiya başa düşülür. Bu növ miqrasiya əhalinin bir yaşayış yerindən başqasına yerdəyişməsini özündə əks etdirən və başqa ərazilərdə yaşayış və həyat səviyyəsinin yüksək olması ilə əlaqədar olub insanların həmin ərazilərdə cəmlənməsi nəticəsində baş verir.

Bütün başqa mürəkkəb sosial proseslər kimi, əhali miqrasiyasını da mükəmməl surətdə yalnız müəyyən göstəricilər sisteminin köməyi ilə təsvir etmək və ayrı-ayrılıqda həmin göstəricilər sisteminin hər bir vasitəsilə onun bu və ya digər tərəfinin üstünlüyünü işıqlandırmaq olar.

Əhali miqrasiyasının göstəriciləri çoxdur. Burada bizim başlıca məqsədimiz ondan ibarət olmalıdır ki, mövcud statistik uçotun imkanlarından elə istifadə edək ki, miqrasiya proseslərini lazımi səviyyədə təhlil edib öyrənmək mümkün olsun və bunun nəticəsində müəyyən nəzəri və praktiki nəticələr çıxarıla bilsin.

Miqrasiya proseslərinin öyrənilməsi təcrübəsi göstərir ki, onun ən mühüm **göstəricilərinə: köçənlərin sayı; miqrasiya qalığı (saldo); köçənlərin tərkibi; miqrasiyanın intensivliyi; miqrasiya edən əhali kütləsinin ərazi quruluşu; köçürülənlərin əks və başqa qarşılıqlı gəlmələrlə nisbəti və s. aiddir.**

Bu göstəricilər sistemindən miqrasiya prosesinin bütünlükdə ölkə, rayon və ayrı-ayrı yaşayış məntəqələri üzrə öyrənilməsində istifadə edilə bilər.

Əhali miqrasiyasının bütün göstəricilərini – **ilkin, ikinci, mütləq və nisbi göstəricilərə ayırmaq olar.**

Əsas **ilkin** göstəricilərə – gələnlərin və gedənlərin sayı daxildir. Miqrasiyanın vəziyyəti şərh edilərkən bu məlumatları ya statistik hesablamalardan götürmək və yaxud da sosioloji materiallara əsaən müəyyən etmək olar.

Miqrasiyanın bütün **mütləq və nisbi** göstəricilərinin əsasına: gələnlərin sayı, gedənlərin sayı və onların fərqi (saldo) qoyulur.

Gələnlərin və gedənlərin sayı ya əhali miqrasiyası statistikası məlumatlarından, ya da köçürülənlərin ilkin uçot məlumatlarından götürülür.

Miqrasiya prosesinin öyrənilməsində ən çox gəlmə və getmələrin intensivliyindən istifadə edilir.

Gəlmələrin intensivliyi bu və ya digər əraziyə gəlmiş əhalinin orta sayını burada yaşayan əhalinin orta sayına bölməklə tapılır. **Gedənlərin intensivliyi** də eyni qaydada, yəni gedənlərin orta sayını burada yaşayan əhalinin orta sayına bölməklə müəyyən edilir. Bəzi hallarda miqrasiyanın **intensivlik dövriyyəsi** göstəricisindən də istifadə edilir.

Miqrasiya dövriyyəsinin intensivliyi əmsalını gəlmə və getmə əmsallarını üst-üstə gəlməklə və yaxud da gələn və gedənlərin cəmini əhalinin orta sayına bölməklə müəyyən etmək olar.

Miqrasiya prosesinin öyrənilməsində **ən mühüm nisbi göstəricilərdən biri də** gələnlərlə gedənlərin nisbətindən ibarətdir. Bu göstəricini eyni ərazidən gedənlərin sayını bu əraziyə gələnlərin sayına və ya əksinə bölməklə müəyyən etmək olar.

Miqrasiya prosesinin öyrənilməsində istifadə edilən digər ən mühüm göstəricilərindən biri də **quruluş** (struktur) göstəricisidir. Quruluş göstəriciləri həddindən artıq çoxdur. Ancaq mövcud statistik məlumatlar, uçotun vəziyyəti bunu tam öyrənməyə imkan vermir. Bu qrup göstəricilər sisteminə daxil olan ən mühüm göstəricilərdən biri də miqrasiya edən əhalinin yaş və cins quruluşundan ibarətdir. Buraya habelə miqrasiya edənlərin **milli tərkibi, sosial tərkibi** və s. bu kimi göstəricilər də daxildir.

Əhalinin miqrasiyasını müxtəlif əlamətlərinə görə təkmilləşdirmək olar: miqrasiyanın səbəblərinə görə, onların tutduğu ərazilərə görə, miqrasiyanın müddətinə görə və miqrasiyanın quruluşuna görə.

Səbəblərinə görə əhalinin miqrasiyası iki yerə bölünür: ***iqtisadi və siyasi*** səbəblərlə bağlı olan miqrasiya.

İqtisadi səbəblər üzrə baş verən əhali miqrasiyası özlərinin həyat şəraitini yaxşılaşdırmaq üçün başlıca olaraq öz arzuları ilə ölkənin bir rayonundan başqa bir rayonuna, bir şəhərdən digərinə, bir ölkədən başqa ölkəyə köçüb gedən əhalinin

hərəkəti kimi başa düşülür. Burada məqsəd yaşayış vəziyyətini yaxşılaşdırmaqdan ibarətdir. ***Bu kateqoriya miqrasiyaya indiyədək Yer kürəsində mövcud olmuş miqrasiyanın əksəriyyəti daxildir.***

Son onilliklərdə, xüsusilə axır vaxtlarda dünyada baş verən hadisələrin get-gedə daha çox hissəsinin **siyasi səbəblərlə** bağlılığı artır. Burada artıq məqsəd iqtisadi cəhətdən həyat səviyyəsini yaxşılaşdırmaq deyil, siyasi cəhətdən vəziyyətin düzəldilməsindən ibarətdir. 90-cı illərdə keçmiş ittifaq respublikalarının ərazilərində baş verən milli münaqişələrlə əlaqədar olaraq külli miqdarda əhalinin bir yerdən başqa yerə zorla köçürülməsi, qaçqın düşməsi və sair hadisələri ***siyasi motivlər üzündən baş verən miqrasiyaya aiddir.*** Bu cür miqrasiya müxtəlif respublikalardan bir-birinin ərazisinə köçmək və qaçıb getməklə, habelə bir respublikanın müəyyən bir kənd, şəhər və rayonundan digərinə zorla köçürülməklə, qaçqın düşməklə baş verir. 90-cı illərin əvvəllərində respublikamızda bir milyon nəfərdən çox əhalinin, ən başlıcası isə Ermənistanda yaşayan azərbaycanlı əhalinin öz yurd-yuvasından didərgin düşməsi bu qəbildən olan miqrasiyadır.

Miqrasiyanın digər növünə ***daimi xarakter daşıyan əhali hərəkəti*** daxildir. Buraya turizm, başqa rayonlara ezamiyyətə getmək, müvəqqəti olaraq qohum və tanışların yanında yaşamağa və işləməyə getmək, oxumağa getmək, hərbi xidmətə getmək və s. səbəblərlə əlaqədar olaraq baş vermiş miqrasiya aiddir.

Ərazilərin tutulması və ya ərazilərdə yerləşmə üzrə mövcud olan əhali miqrasiyası da iki yerə bölünür:

1) ***Dövlətlərarası*** (başqa sözlə, əhalinin bir dövlətin ərazisindən başqa bir dövlətin ərazisinə köçürülməsi). Məsələn, 1989—1990-cı illərdə Ermənistandan 250 min nəfərə qədər azərbaycanlının zorla respublikamıza köçürülməsi və s.
2) **Dövlətdaxili** (yəni bir dövlətin ərazisində yaşayan əhalinin müəyyən bir rayondan, şəhər və kənddən başqasına köçürülməsi, çıxıb getməsi və s.).

Müddətinə görə əhali miqrasiyası da aşağıdakılara bölünür:

1) Daimi köçüb gedənlərə, daha doğrusu, yaşayış yerini həmişəlik olaraq dəyişənlərə və yaxud da heç olmasa bir neçə illiyə, uzun müddətə köçüb gedənlərə;
2) Mövsümi qaydada köçüb gedənlərə, yəni 1-2 illiyə işləməyə, yaşamağa, oxumağa gedənlərə.

Quruluşuna və ya strukturuna görə miqrasiyaya isə əhalinin ayrı-ayrı sənaye mərkəzlərinə, şəhər və kənd təsərrüfatı rayonlarına getməsi daxildir.

Miqrasiya prosesinə bir çox iqtisadi, təbii-coğrafi, demoqrafik və etnik amillər və s. təsir edir. İstər iqtisadi, sosioloji amillər, istərsə də təbii-coğrafi şərait əsasən əhalinin miqrasiyası prosesinə həyat səviyyəsi vasitəsilə təsir göstərir. Həyat səviyyəsi təsir göstərən amillər isə aşağıdakılara bölünür:

1) **İqtisadi amillər**. Buraya: əmək haqqının məbləği; əhalinin əmək və məişət şəraiti; əmtəə və xidmətlərin qiyməti, dəyəri; istehsalın mexanikləşdirilməsi və avtomatlaşdırılması səviyyəsi; şəxsi həyatyanı və fərdi sahədən gələn gəlirlərin miqdarı; ictimai istehsaldan və sahibkarlıqdan gələn gəlirlərin məbləği; həyat üçün yaşayış vasitələrinin yeni dəyəri; istehsalın keyfiyyət dərəcəsi və s. daxildir.

2) **Təbii şərait və coğrafi amillər**. Buraya: iqlim; landşaft və elastik görünüş; rayonun mənimsənilməsi və əhalinin yerli şəraitə uyğunlaşma dərəcəsi; böyük şəhərlərə və sənaye mərkəzlərinə yaxınlıq; daxili və xarici nəqliyyatın inkişafı, onların müxtəlif fəsillərdə əlverişli olması və s. aiddir.

3) **Demoqrafik və etnik amillər**. Burada: əhalinin təbii hərəkəti (doğum, ölüm və təbii artımı); əhalinin tərkibi (yaşı, cinsi, milli quruluşu və s.) nəzərdə tutulur;

4) **Əhalinin etnik xüsusiyyətləri**. Buraya: hər bir millətin, xalqın və etnik qrupların tarixən miqrasiyaetmə meyli; milli formalaşmada assimilyasiya dərəcəsi; millətlərarası əlaqələrin inkişaf dərəcəsi; başqa xalqların dillərində danışmaq, xüsusilə bir çox xalqları birləşdirən ümumi dilin öyrənilməsi və s. daxildir.

5) **Məskunlaşma xüsusiyyətləri.** Buraya: əhalinin sıx, yaxud seyrək məskunlaşması; yaşayış məntəqələrinin böyüklüyü;

yaşayış məntəqələrinin funksional inkişafı; məskunlaşmanın transformasiya edilməsi.

6) **Mədəni-məişət şəraiti və xidmət səviyyəsi.** Buraya: yaşayış binalarının həcmi və keyfiyyəti; yaşayış məntəqəsinin abadlığı; uşaqlara və körpələrə xidmət müəssisələrinin olması; tibb xidmətinin səviyyəsi; ticarət xidmətinin səviyyəsi; məişət və kommunal xidmətinin səviyyəsi aiddir.

7) **Həyat tərzi və sosioloji şərait**. Buraya: əmək rejimi və boş vaxtın (asudə) miqdarı; məşğuliyyət və peşəyə görə yüksəlmə imkanları; dünyagörüşünün genişləndirilməsi imkanları; ailə qurmaq imkanları; əhalinin iş yerlərində və ailədəki sosioloji, psixoloji şəraiti; sosial əlaqələrin intensivliyi; müxtəlif rayonlarda əhalinin həyat tərzinə və əmək ehtiyatlarına tələbatın olması haqqında məlumat və s. daxildir.[310]

Təsərrüfat işlərinin səmərəli təşkili və əmək məhsuldarlığının yüksəldilməsi müəyyən dərəcədə də mövsümi və müvəqqəti miqrasiyanın idarə olunmasından aslıdır.

5.2. MÜASİR MƏRHƏLƏDƏ DÜNYADA VƏ MDB ÖLKƏLƏRİNDƏ ƏHALİ MİQRASİYASININ XÜSUSİYYƏTLƏRİ VƏ DƏYİŞİLMƏ MEYLLƏRİ

Əhalinin ərazilər üzrə yerləşdirilməsi (miqrasiyası) ictimai-iqtisadi formasından asılı olmayaraq bütün cəmiyyətlərə xas olan ictimai prosesdir. Bu prosesin iqtisadi və siyasi əhəmiyyətini dərindən tədqiq edib öyrənmiş dünyanın görkəmli dühalarından biri olan V.İ.Lenin ***«Rusiyada kapitalizmin inkişafı»*** adlı əsərində yazmışdır ki: «.....ağlı başında və yüksək hafizəsi olan bircə nəfər iqtisadçı, əhalinin hər il bir yerdən başqa yerə köçməsinə əhəmiyyət verməyə bilərmi və daha sonra... vəzifəsini Rusiyanın iqtisadi quruluşunun və inkişafının xüsusiyyətlərini öyrənməkdə görən (Marksdan ətraflı və çox vaxt yersiz sitatlar gətirməkdən ibarət bilməyən) iqtisadçı hökmən

---

[310] B a x: *Ş.Göyçayski.* Göstərilən əsəri, s. 188-189.

qarşısına belə bir sual qoyulmalıdır: Rusiyada əhalinin bir yerdən başqa yerə köçməsinin məhz nə kimi təsiri olur?».[311] Bu təsadüfi deyilməmişdir. Çünki hər bir cəmiyyətdə baş verən əhali miqrasiyasının əsası ictimai-iqtisadi hadisələrin nəticəsində meydana çıxır. Cəmiyyət inkişaf etdikcə, əhalinin bir ərazidən başqa əraziyə yerdəyişməsi fasiləsiz olaraq davam edir və onun yeni mütərəqqi forma və növləri yaranır.

Miqrasiya nəticəsində zəhmətkeşlərin istehsal prosesində öz yerlərini dəyişmələrinin müəyyən dərəcədə ictimai-iqtisadi əhəmiyyəti ilə yanaşı, onun mənfi cəhətləri də vardır. Bu mənfi cəhətlər özünü iqtisadiyyatda baş verən bir sıra durğunluq və itkilərdə, ilk növbədə isə əhalinin yerdəyişməsi ilə əlaqədar olaraq işdən çıxması və yeni yaşayış yerində iş tapması nəticəsində baş verən vaxt itkisində, yeni ixtisas əldə etmək üçün tələb olunan xərclərdə, işçilərin iş yerlərini dəyişməsi nəticəsində əmək məhsuldarlığının aşağı düşməsi ilə əlaqədar itkilərdə və s. göstərir. Bunlardan əlavə, miqrasiya müəyyən ərazinin tam xeyrinə olmaya da bilər. Belə ki, müəyyən bir ərazidə əhalinin mexaniki hərəkətinin müəyyən müsbət və ya mənfi qalığı həmin ərazinin əhalisinin məşğuliyyətinə, cins və yaş quruluşuna, peşə-ixtisas və milli tərkibinə, habelə bir sıra demoqrafik proseslərə təsir göstərə bilər.

Hər bir ölkə, respublika, mahal, vilayət, iqtisadi rayonun, şəhər və kənd yerlərinin bilavasitə sosial-iqtisadi inkişafının dəyişilməsi səviyyəsindən asılı olaraq, əhali miqrasiyasının xüsusiyyətləri, yaranma səbəb və mənbələri, miqrasiyası müxtəlif olur. Bu vəziyyəti daha düzgün təsəvvür etmək üçün burada son 50-60 il ərzində bütünlükdə dünyada və onun müxtəlif ölkələrində, o cümlədən də Azərbaycanda baş verən əhali miqrasiyasının dəyişilməsi vəziyyətini, xüsusiyyətlərini və qanunauyğunluqlarını, qısaca da olsa, tarixi səpkidə nəzərdən keçirməyi məqsədəuyğun hesab etdik.

Aparılan tədqiqatların nəticələrindən və rəsmi statistik məlumatların təhlilindən aydın olur ki, son 50-60 il ərzində

---

[311] *V.İ.Lenin.* Əsərləri, 3-cü cild, s. 615.

bütünlükdə dünyada və onun ayrı-ayrı ərazilərində əhali miqrasiyasının xarakteri əhəmiyyətli surətdə dəyişmiş və onun inkişafında həmişə mühüm rol oynamış iqtisadi amillərlə yanaşı, siyasi amillər (yeni dövlətlərin yaranması, sərhədlərin dəyişilməsi, milli-azadlıq mübarizələri, müxtəlif ölkələrdə baş verən siyasi-iqtisadi yenidənqurma, milli münaqişələr və s.) getdikcə daha mühüm rol oynamağa başlamışdır. Bəzi hallarda isə miqrasiya prosesinə milli və dini amillər də təsir göstərir. Bununla bahəm onu da qeyd etmək lazımdır ki, əvvəllərdə olduğu kimi, yenə də urbanizasiya prosesinin sürətlənməsi ilə əlaqədar olaraq əhalinin kənd yerlərindən şəhərlərə köçməsi geniş vüsət almışdır.

Tarixi faktlar sübut edir ki, əhali miqrasiyası İkinci dünya müharibəsi dövründə daha böyük miqyas almışdı. Bu da təsadüfi olmayıb həmin dövrdə hərbi əməliyyatların getdiyi rayonlardan dinc əhalinin kortəbii surətdə qaçması və mütəşəkkil qaydada köçürülməsi ilə bağlı olmuşdu. Müharibədən sonra isə həmin əhalinin əsas hissəsi əvvəlki yaşayış yerlərinə qayıtmışlar. Bu insanlarla yanaşı, hitlerçilər tərəfindən bu və ya digər ölkədən zorla aparılmış və müvəqqəti olaraq faşist işğalı altında qalmış insanların və hərbi əsirlərin də çox hissəsi həmin dövrdə öz vətənlərinə qayıtmışlar. Qərbi Avropada isə onlardan yalnız qarışıq millətlərdən olan insanlar (əsasən Şərgi Avropa ölkələrindən olanlar) qalmışlar və onların da çoxu sonradan ABŞ, Avstraliya və Kanadaya, habelə qeyri-Avropa ölkələrinə (Avropada isə başlıca olaraq İngiltərə, Fransa, Belçika və AFR-na köçüb getmişlər ki, onların da sayı təqribən 200 min nəfər olub həmin insanların 15%-ni təşkil etmişlər) köçmüşlər.

Onu da qeyd etmək lazımdır ki, Böyük Vətən müharibəsi illərində 25 milyon nəfərədək adamın cəbhə bölgəsi rayonlarından şərq vilayətlərinə köçürülməsi SSRİ-də əhalinin ərazilər üzrə yerləşdirilməsində kəskin dəyişikliklərin baş verməsinə səbəb olmuşdu. Müharibədən sonra həmin əhalinin böyük bir hissəsi öz vətənlərinə qayıtmışlar.

Müharibədən sonrakı illərdə ilk dəfə olaraq könüllülük əsasında xırda millətlərdən olan bəzi əhali qruplarının SSRİ ilə Polşa, SSRİ ilə Çexoslovakiya, Bolqarıstanla Rumıniya, Macarıstanla Yuqoslaviya, Yuqoslaviya ilə İtaliya arasında dəyişdi-

rilməsi prosesi həyata keçirilmişdir. Bir qədər sonra, yəni 1950—1961-ci illərdə isə türkdilli əhalinin bir hissəsi Bolqarıstandan Türkiyəyə, Türkiyədə yaşayan bolqarlar isə öz vətənlərinə qayıtmışlar. Müharibədən sonrakı illərdə on millərlə erməni millətindən olan adamlar isə başlıca olaraq Cənub—Qərbi Asiya, Şimali Afrika və Cənubi Avropa ölkələrindən Sovet Ermənistanına köçüb gəlmişlər.

Alman faşistlərinin məğlubiyyətindən sonra 10 milyon nəfərdən çox alman mütəşəkkil halda Polşa və Çexoslovakiyadan ADR, AFR və Qərbi Berlinə (eyni zamanda həm də Avstraliyaya) köçürülmüşlər. Buna müvafiq olaraq almanlardan boşaldılmış rayonlarda isə 5 milyon nəfərədək polyak, 2,3 milyon nəfər isə çex yerləşdirilmişdi. 1945—1947-ci illərdən başlayaraq 1956-cı ilədək olan dövrdə isə əvvəllər yaponlar tərəfindən zəbt edilmiş torpaqlardan (əsas etibarı ilə Çindən və Koreyadan) 6,3 milyon nəfərədək yapon öz vətənlərinə qayıtmışlar.

Keçmiş Britaniya Hindistanında iki müstəqil – Hindistan və Pakistan dövlətlərinin yaranması və sonradan Pakistandan ayrılaraq Banqladeş dövlətinin yaranması nəticəsində bu ölkələr arasında dəyişdirilən müsəlman və induistlərdən ibarət olan əhalinin sayı 18 milyon nəfər təşkil etmişdi.[312]

Əhali miqrasiyası xeyli dərəcədə Yaxın Şərq ölkələrində də baş vermişdi. İlk dəfə İsrail hökümətinin yaradılmasından (1948-ci ildə yaradılıb) keçən dörd il ərzində buraya 700 min nəfərdən çox yəhudi gəlmişdi ki, onların da əksəriyyəti Avropadan, habelə Asiya və Afrikanın ərəb ölkələrindən gələnlərin payına düşmüşdü. Bu dövrdə, xüsusilə də İsrail-ərəb müharibəsi vaxtında (1948-ci ildə) 730 min nəfərədək ərəb İsraildən və onların qonşu ölkələrdə tutduğu ərəb torpaqlarından qaçmışlar. Hazırda bu köçkünlər və onların uşaqları (Fələstin qaçqınları adlananlar) İsraillə qonşuluqda olan ölkələrin əhalisinin tərkibində xeyli yer tuturlar və uzun illərdən bəridir ki, öz doğma torpaqlarına qayıtmaq və Fələstin ərəb dövlətinin yaradılması uğrunda mübarizə aparmışlar.[313]

---

[312] *С.И.Брук*. Население мира. Этнодемографический справочник. Москва, Изд-во «Наука», 1986, с. 46-47.
[313] Yenə orada, s.47.

İkinci dünya müharibəsindən sonra ABŞ, Kanada, Avstraliya, Yeni Zelandiya və bəzi Cənubi Amerika ölkələrində immiqrantların sayını məhdudlaşdıran yeni qanunvericilik aktlarının qəbul edilməsinə baxmayaraq, hələ indiyə kimi də bu ölkələrə əhali axını davam etməkdədir. Belə ki, Qərbi Avropa ölkələrindən yuxarıda qeyd edilən ölkələrə 1921—1930-cu illərdə 5,9 milyon nəfər, 1931—1939-cu illərdə isə cəmi 1,2 milyon nəfər adam emiqrasiya olunmuşdursa, adı çəkilən müharibədən sonra 11 milyon nəfər və ya müqayisə edilən dövrlərdə olduğuna nisbətən müvafiq surətdə təqribən 1,8 və 9,1 dəfə çox adam emiq-rasiya olmuşdu. Bu avropalı miqrantların əksəriyyəti Amerika ölkələrinə yollanmışlar. 1946—1982-ci illərdə onların 3,3 milyon nəfərindən çoxu ABŞ-a (başlıca olaraq AFR, Böyük Britaniya, İtaliyadan), 2 milyon nəfərindən çoxu Kanadaya (İngiltərə, İtaliya, AFR, Niderlanddan), 1 milyon nəfəri Argentinaya (İtaliya və İspaniyadan), 800 min nəfəri Braziliyaya (Portuqaliya, İspaniya, İtaliyadan), 500 min nəfəri isə Venesuelaya (İtaliya və İspaniyadan) getmişlər.[314]

Müharibədən sonrakı dövrdə emiqrantların böyük bir hissəsi də Avropadan Avstraliyaya (1946—1982-ci illərdə – 1,7 milyon nəfər, əsas etibarı ilə İngiltərə, İtaliya və AFR-dan) və Yeni Zelandiyaya (həmin illərdə – 260 min nəfər) yollanmışlar. Zəncillərdən və mulatovlardan ibarət olan böyük sayda emiqrantlar Vest-Hind ölkələrindən (əsas etibarı ilə Yamaykadan) və Qərbi Afrika ölkələrindən olan zəncilər, habelə ingilis müstəmləkələrindən olan və başqa əhali qruplarından olan emiqrantlar İngiltərəyə, Şimali Afrikadan olan ərəblər Fransaya, İngiltərə, Niderlanda və AFR-da yaşayanlar – Cənubi Afrika Respublikasına, yaponlar, çinlilər, indoneziyalılar, filippinlər və başqa Asiya ölkələrindən olanlar isə ABŞ-a üz tutmuşlar.

Müharibədən sonra baş vermiş siyasi dəyişikliklərlə əlaqədar olaraq Avropanın bəzi ölkələrinə gələn miqrantların sayı buradan gedənlərin sayından çox olmuşdu. Belə ki, keçmiş müstəmləkə ölkələrindən öz vətənlərinə daha çox qayıdanlar ingilislər (Hindistandan, Pakistandan və başqa ölkələrdən),

---

[314] *S.İ.Bruk*. Göstərilən əsəri, s. 47.

hollandiyalılar (İndoneziyadan), fransızlar (Əlcəzair və Mərakeşdən), italyanlar (Həbəşistan, Liviya və başqa Afrika ölkələrindən), portuqaliyalılar (Anqola, Mozambik və Qvineya-Bisaudan) olmuşlar.

Elmi-texniki tərəqqinin sürətlənməsi də öz növbəsində əhalinin hərəkətdə olmasını gücləndirmiş və miqrasiyanın özünəməxsus yeni növü meydana çıxmağa başlamışdı. Daha doğrusu, miqrantlar yüksək ixtisaslı mütəxəssisəlrlə əvəz olunmağa (əsas etibarı ilə ABŞ-da) və «**beyin axını**» meydana çıxmağa başlamışdı. **Bu növ miqrasiyanın əsası 1930-cu ildən qoyulmuşdu.** Bu zaman ABŞ faşist Almaniyasından və hitlerçilər tərəfindən işğal olunmuş Avropa ölkələrindən qaçqın düşmüş alimləri seçib götürmək imkanları əldə etdi. İndi də davam etməkdə olan «**beyin axını**» dünyanın bir çox ölkələrini bürümüş və o, respublikamızdan da yan keçməmişdir. Məsələn, 1960—1980-ci illəri əhatə edən 20 il ərzində ABŞ, Kanada və İngiltərə kimi inkişaf etmiş ölkələrə inkişaf etməkdə olan ölkələrdən təqribən 300 min nəfərdən çox yüksək ixtisaslı mütəxəssislər emiqrasiya olmuşlar. [315] Bu proses yüksək ixtisaslı kadrları az olan ölkələrin nəinki iqtisadiyyatının inkişafına, həm də onun mədəniyyətinin, elminin və ölkə əhalisinin intellektual səviyyəsinin inkişafına mənfi təsir göstərir.

Müharibədən sonrakı dövrdə qitələrarası və dövlətdaxili əhali miqrasiyası prosesi də kəskin şəkildə güclənməyə başlamışdı. Bu proses həm də onun üçün xarakterik olan təkcə Avropa ölkələrinə deyil, həm də dünyanın bütün başqa ölkələri üçün də xarakterik olmuşdu.

İmmiqrasiya ölkələrinə isə indi ən çox Almaniya, Fransa, Belçika, İsveçrə, qismən də Qərbi və Şimali Avropa ölkələri aiddir. Bu ölkələrə gələnlərin əksəriyyətini başlıca olaraq az ixtisaslı fəhlələr təşkil edirlər. Onların sayı ayrı-ayrı illərdə 10-14 milyon nəfər arasında tərəddüd edirdi. Bu fəhlələr iqtisadi cəhətdən nisbətən zəif inkişaf etmiş və eyni zamanda, əhalisinin təbii artımı yüksək olan Cənubi Avropa ölkələrindən, daha doğrusu, İtaliya, Yunanıstan, Yuqoslaviya, İspaniya, Portuqa-

---

[315] *S.İ.Bruk*. Göstərilən əsəri, s. 48.

liya, habelə Türkiyədən gəlirlər. 1980-ci ilin əvvəllərində AFR-da 4,5 milyon nəfər (ən çox Türkiyə, İtaliya, Yuqoslaviya və Yunanıstandan gələnlər olmuşlar), Fransada – 4,0 milyon nəfərdən çox (İtaliya, İspaniya və Portuqaliyadan gələnlər), İsveçrədə isə 1 milyon nəfər (ən çox italyanlar) immiqrant yaşamışdır.

Bir qayda olaraq, immiqrantalrın əksəriyyətini aşağı əmək haqqı alanlar, istismar olunan və öz hüquqlarına malik olan zəhmətkeşlər təşkil edirlər. Əmək haqqı qazanmaq məqsədilə bir ölkədən başqa ölkəyə gedən immiqrantların bir hissəsi müəyyən müddət keçdikdən sonra öz vətənlərinə qayıtmağa məcbur olmuşlar. Onu da qeyd etmək lazımdır ki, axır vaxtlarda adlarını çəkdiyimiz ölkələrin əksəriyyətində işsizlərin sayının artması həmin ölkələrə miqrasiya edən əhalinin sayının xeyli azalmasına səbəb olmuşdur.

Burada ayrıca olaraq onu da qeyd etmək istərdik ki, başqa inkişaf etmiş ölkələrdən fərqli olaraq, ABŞ üçün Avropadan, dünyanın müxtəlif güşələrindən immiqrantların gəlməsinin davam etdiyi bir vaxtda buraya hər il ən azı 1 milyon nəfər mövsümi (əsas etibarı ilə kənd təsərrüfatı işləri görüldüyü vaxtlarda) meksikalı immiqrantların gəlməsi də səciyyəvi xarakter daşıyır. Həmin meksikalı fəhlələrin bir hissəsi ABŞ-da qalmağa üstünlük verir və onun daimi əhalisinə çevrilirlər. Onu da qeyd etmək lazımdır ki, ABŞ-a gələn immiqrantların əksəriyyəti ölkənin Nyu-York və başqa iri şəhərlərində toplanmağa üstünlük verirlər. ABŞ-a və buna nisbətən bir qədər az da olsa Kanadaya başqa Latın Amerikası ölkələrindən gələnlərin sayı get-gedə sürətlənməkdədir. Təkcə bunu demək kifayətdir ki, 1975—1980-ci illəri əhatə edən 5-6 il ərzində ABŞ-da yaşayan ispandilli əhalinin sayı 11,5 milyon nəfərdən 14,6 milyon nəfərə gəlib çatmış və ya 26,9 faiz artmışdı.[316] Ancaq XX əsrin 70-ci illərindən etibarən miqrantları özünə cəlb edən dünyanın ən nəhəng ölkəsi sayılan ABŞ-da qitələrarası və qitələrdaxili miqrasiyalar arasındakı nisbilik köklü surətdə dəyişməyə başlamışdır. Belə ki, XX əsrin son 15 ili ərzində avropalı köçkünlər bu ölkədə

---

[316] *S.İ.Bruk*. Göstərilən əsəri, s. 49

olan miqrantların 85-95 faizini təşkil etdiyi halda, iki dünya müharibəsi arasındakı dövrü əhatə edən müddətdə bu göstərici 70 faiz, 1950—1970-ci illərdə 34,2 faiz (başqa ölkələrdən ABŞ-a gələnlər 42,1 faiz, Asiya ölkələrindən gələnlər isə 21 faiz) təşkil etmişdi.[317]

ABŞ-a gələn miqrantların sayının ayrı-ayrı illərdə artıb-azalmasının müəyyən dərəcədə tərəddüd etməsinə baxmayaraq, (40-70-ci illərdə buraya hər il təqribən 300-600 min nəfər adam gəlirdi) burada əhalinin təbii artım səviyyəsinin azalması ilə əlaqədar olaraq bütünlükdə əhali arasında miqrantların xüsusi çəkisinin yenidən artması müşahidə olunmağa başladı. Bu göstərici 40-cı illərdə 5,4 faiz olduğu halda, 50-ci llərdə – 9,0 faiz, 60-cı illərdə – 13,9 faiz, 70-ci illərdə isə 22,3 faiz təşkil etmişdir.[318]

İqtisadi cəhətdən nisbətən zəif olan başqa regionlarda isə əhali miqrasiyası nisbətən az rola malikdir. Belə ki, öyrənilən dövrdə Afrikanın qonşu ölkələrindən müvəqqəti olaraq (bütünlükdə Afrika ölkələrində miqrantların sayı 6 milyon nəfərə gəlib çatmışdır) onun Cənubi Afrika Respublikasına, Zimbabve, Qana, Fil Sümüyü Sahili və Sudana cəmi 2 milyon nəfər adam köçmüşdü. Cənub-Qərbi Asiyada isə miqrantları (əsas etibarı ilə əhalisi sıx olan Livan, Suriya və Cənubi Asiya ölkələrindən) neftçıxaran ərəb ölkələri özünə cəlb edir. O ki, qaldı hindlilərin Cənub-Şərqi Asiya, Şərqi və Cənubi Afrika ölkələrinə emiqrasiyasına bu prosesin arası demək olar ki, kəsilmişdi.

Ən rəngarəng miqrasiya prosesi isə dövlətdaxili əhali miqrasiyasında özünü göstərir. Bu miqrasiya prosesi də xarici miqrasiyada olduğu kimi, eyni səbəblərlə əlaqədar olaraq baş verir, yəni əhalisi nisbətən çox olan və torpaq sahəsi azlıq təşkil edən rayonlardan əhalinin bir qismi yenidən istifadə edilən torpaq sahələrinin olduğu ərazilərə, kənd yerlərindən şəhərlərə köçür, bir qrup əhali isə mövsümi olaraq kənd təsərrüfatı işlərinin qızğın vaxtı müvəqqəti olaraq həmin ərazilərə işləməyə gedirlər. Avropada bu cür əhali miqrasiyası nisbətən azdır. Çünki

---

[317] *S.İ.Bruk*. Göstərilən əsəri, s. 49-50.
[318] Yenə orada, s. 49.

ölkələrin böyük olmaması və əhalinin çox sıx yaşadığı Avropa ölkələrində bu cür əhali miqrasiyası üçün lazımi şərait yoxdur.

Hazırda əhalisi çox hərəkətdə olan ölkələr Şimali Amerikadadır. Təkcə bunu demək kifayətdir ki, ABŞ-da əhalinin 30 faizi doğulduqları ştatlarda yaşamırlar. Ölkənin cənub rayonlarında mövcud olan daimi işsizlik üzündən burada yaşayan zəncilər Şimal rayonlarına üz tuturlar. Ölkənin qərb və cənub-qərb rayonlarında, onun iri şəhərlərində isə əhalinin məskunlaşması prosesi daim davam etməkdədir. İşə düzəlmək üçün əlverişli olan ərazilərdə mövsümi fəhlə miqrasiyası daha geniş vüsət almışdır.

İnkişaf etməkdə olan ölkələrdə isə, bir qayda olaraq, məhsuldar qüvvələrin inkişaf səviyyəsi nə qədər yüksəkdirsə, bir o qədər də daxili miqrasiya güclüdür. Ancaq əksər hallarda onlar öz miqyasına görə də böyük deyillər. İnkişaf etməkdə olan Latın Amerikası ölkələrində isə əhali miqrasiyası aqrar məsələlərin həll edilməməsi ilə bağlıdır. Burada hələ də iri latifundiyalar, köhnə təsərrüfat formalarının saxlandığı rayonlar mövcuddur. Eyni zamanda həmin ərazilərdə daha yüksək səviyyədə inkişaf etmiş sosial münasibətlərin hökm sürdüyü rayonlar da var ki, bu da ölkədaxili əhali miqrasiyasına səbəb olur.

Məlum həqiqətdir ki, uzun tarixi inkişaf dövründə bəşəriyyət yeni-yeni əraziləri fəth edərək tədricən Yer kürəsində məskunlaşmışlar. Hazırda demək olar ki, Yer kürəsində yaşamaq üçün əlverişli olan bütün ərazilər insanlar tərəfindən tutulmuş və təsərrüfat dövriyyəsinə cəlb olunmuşdur. Onu da qeyd etmək lazımdır ki, ***əhali miqrasiyasının əsas istiqamətləri və növləri çox az-az hallarda bir-birinə uyğun gəlir və yaxud da bir-birini tamamlayır*** (məsələn, qaçqınlar axını, qeyri-qanuni əmək miqrasiyası, mühacirlər və s.). ***Bütün miqrasiya növləri üçün ümumi olan cəhət isə əmək amilidir, yəni miqrantların yeni yaşayış yerlərində məskunlaşması və oraya uyğunlaşmaları üçün ən vacib olan şərt onların işə düzəldilməsi ilə bağlı problemlərinin həll edilməsi zərurətindən ibarətdir. Buna görə də miqrasiyanın bütün növləri iş qüvvəsinə olan tələb və təklif balansını dəyişməklə istər-istəməz milli və yerli əmək bazarındakı vəziyyətə təsir göstərir.***

90-cı illərdə Müstəqil Dövlətlər Birliyinə daxil ***olan ölkələr arasındakı geriqayıtma və məcburi əhali miqrasiyasına təkcə onları müəyyən edən amillər deyil, bunlarla yanaşı, bazar münasibətlərinə keçidlə əlaqədar olaraq meydana çıxmış yeni həvəsləndirici amillər də təsir göstərmişdi. Bunların arasında MDB dövlətlərinin beynəlxalq miqrasiya sisteminə qoşulması, xüsusi sahibkarlığın, torpaq mülkiyyətçisi, kommersiya və xüsusi maliyyə fəaliyyəti ilə məşğulluğun inkişafı və s. vardır.***

Hazırda əmək bazarı yeni stimul qazanmış, daha çevik xarakter almış, dövlət mülkiyyəti ilə əlaqəsi olmayan alternativ iş yeri və əmək haqqı almaq imkanları yaranmışdır. Bütün bunlar isə miqrasiyanın xarakteri, miqyası və istiqamətlərində öz xüsusi izlərini qoymuş və ona öz təsirini göstərmişdir.

90-cı illərdə əhali miqarsiyasının özünəməxsus xüsusiyyətlər kəsb etməsi ***MDB dövlətləri arasında*** iqtisadiyyatın islahatlaşdırılmasının xarakteri və sürətindəki, əhalinin həyat səviyyəsi və etnik dözümlüyündəki ***fərqli cəhətlərlə də əlaqədar olmuşdur.*** Bu dövrdə əhalinin **bir hissəsi** daha tez yeni bazar münasibətlərinə uyğunlaşdığı halda, **digərləri** buna nail olmadı. Ancaq əhalinin əksər çoxluğu bu illər ərzində miqrasiya əhvalruhiyyəsindəki köhnə oriyentlərini itirmiş, yeniləri isə onlar tərəfindən tam dərk edilməmişdi. Bütün bunlar əhalinin ərazi yerdəyişməsinin mobilliyini kəskin surətdə azaltmışdı. 90-cı illərdə əhalinin yerdəyişməsinin ümumi həcmi (gələnlərin və gedənlərin sayı) xeyli azalmışdı. Bu illərdə əhali miqrasiyası axınının azalması bütün MDB ölkələri üçün, xüsusilə də Azərbaycan, Ermənistan və Gürcüstan üçün səciyyəvi olmuşdu. Qeyd edilən dövrdə əhali miqrasiyası axınının azalması onun bütün istiqamətlərinə – MDB ölkələri arasında, MDB ölkələri ilə Uzaq xarici ölkələr arasında miqyasına xas idi. BMT-nin məlumatlarına əsasən, həmin dövrdə təkcə beynəlxalq miqrantların sayı Qərbi Avropa ölkələrində əhalinin 6,1 faizini, Şimali Amerikada (ABŞ və Kanada) – 8,6 faizini, Qərbi Asiyada isə 10,0 faizini təşkil etmişdi.[319]

---

[319] Демографическая ситуация и формирование общего рынка труда государств – участников СНГ. Москва, 2001, с.96.

Əhalinin miqrasiyası fəallığının artmasına bir sıra amillər mənfi təsir edir. Bunlara əmək və mənzil bazarının zəif inkişaf etməsi, pasport məhdudiyyətinin və qeydiyyat institutunun saxlanması, başqa regionlarda və ölkələrdə olan boş iş yerinə dair informasiyaların olmaması, vətəndaşlığın rəsmiləşdirilməsi qaydasının mövcud olması, yol pulu xərclərinin çoxluğu və s. daxildir. Təsadüfi deyildir ki, 90-cı illərdə MDB ölkələri arasında əhali miqrasiyası mübadiləsinin həcmi 3,0 dəfə azalaraq, 1991-ci ildəki 2,93 milyon nəfərdən 1999-cu ildə 997 min nəfərə düşmüşdü. Ümumi əhali miqrasiyasının həcmində isə dövlətlərarası miqrasiyanın xüsusi çəkisi bu dövrdə 17,1 faizdən 11,1 faizə düşmüşdü. MDB ölkələri arasında ən sıx miqrasiya əlaqələri qonşu dövlətlərlə, habelə Rusiya ilə başqa MDB ölkələri arasında müşahidə olunur. Belə ki, məsələn, Belorusdan miqrasiya edən əhalinin ən çoxu Rusiyaya (bütün çıxıb gedənlərin 78%-i) və Ukraynaya (16,0%); Ukraynadan Rusiyaya (78%-i); Moldovadan Rusiyaya (62%) və Ukraynaya (35%); Qazaxıstandan Rusiyaya (89%); Özbəkistandan Rusiyaya (64%), Qazaxıstana (18%) və Ukraynaya (10%); Tacikistandan Rusiyaya (71%), Özbəkistana (17%), Qırğızıstana (4%) və Ukraynaya (4%) getmişdir.

90-cı illərdə Müstəqil Dövlətlər Birliyi ölkələrini burada baş vermiş əhali miqrasiyası mübadiləsinin yekununa görə iki yerə ayırmaq olar. **Birinci qrup ölkələrə** Belorus və Rusiya daxildir. Bu ölkələrdə miqrasiya qalığı müsbət olmuşdu. **İkinci qrup ölkələrə** bütün başqa MDB dövlətləri aiddir və burada miqrasiya balansı mənfi qalığa malik olmuşdu (61-ci cədvələ bax). 61-ci cədvəlin məlumatlarından görünür ki, hazırki dövrdə Müstəqil Dövlətlər Birliyi ölkələrində əhali miqrasiyasının əsas istiqaməti Rusiyaya tərəfdir. Statistik məlumatların təhlilindən aydın olur ki, 1991-2000-ci illər ərzində Rusiyanın yaxın xarici ölkələrlə əhali miqrasiyası mübadiləsinin qalığı müsbət 4 milyon nəfər (Belorusda isə cəmi +212 min nəfər) təşkil etmişdir. Rusiyada yaranmış bu müsbət miqrasiya qalığı başlıca olaraq Mərkəzi Asiya və Zaqafqaziya regionlarının hesabına olmuşdur.

61-ci cədvəl[320]

Müstəqil Dövlətlər Birliyi ölkələrində dövlətlərarası əhali miqrasiyasının vəziyyəti (1991—2000-ci illərdə)

MDB ölkələri	Ölkəyə gələnlər	Ölkədən gedənlər	Artım+ azalma-
Azərbaycan	161	279	-118
Ermənistan	89	156	-67
Belorusiya	635	423	-212
Gürcüstan	50	-	-
Qazaxıstan	834	2801	-1967
Qırğızıstan	186	541	-355
Moldova	200	300	-100
Rusiya	8395	4410	-3985
Tacikistan	70	400	-330
Türkmənistan	120	190	-70
Özbəkistan	400	1000	-600
Ukrayna	2054	2300	-246

Öyrənilən dövrdə MDB ölkələri arasında ən yüksək mənfi miqrasiya qalığı Qazaxıstanda (2,0 milyon nəfər), Özbəkistanda (600 min nəfər), Qırğızıstanda (355 min nəfər) və Tacikistanda (330 min nəfər) qeydə alınmışdır. Bu göstərici Ukraynada – 246 min nəfər, Azərbaycanda – 118 min nəfər, Moldovada – 100 min nəfər, Türkmənistanda – 70 min nəfər, Ermənistanda isə cəmi 57 min nəfər olmuşdur.

90-cı illərdə MDB ölkələri arasında əhali miqrasiyası mübadiləsini öz xarakteri və miqyasına görə də iki dövrə – 1991—1994-cü və 1995-ci illərə bölmək olar. Birinci dövrdə Rusiya miqrasiya mərkəzi kimi həmin proseslərin həyata keçirilməsində akkumulyator rolu oynamışdır. Bu dövrdə Rusiyada əhali miqrasiyasının müsbət qalığı 16 dəfə artaraq 1991-ci ildəki 52 min nəfərdən 1994-cü ildə 810 min nəfərə gəlib çatmışdı. ***Həmin dövrün digər bir xüsusiyyəti isə ondan ibarətdir ki, Ukrayna Rusiyadan sonra miqrantları özünə cəlb edən ikinci mərkəz kimi qalmışdı.*** MDB ölkələrindən Ukraynaya gələn miqrantların (qalığı) sayı 1991—1993-cü

[320] Демографическая ситуация и формирование общего рынка труда государств-участников СНГ. Москва, 2001, с. 97.

illərdə 458 min nəfər təşkil etmişdi. ***Belə vəziyyətin yaranmasına səbəb həmin dövrdə əhali miqrasiyasının mühüm amillərindən biri olan urbanizasiya prosesinin əmək bazarına təsirinin kəskin surətdə azalması və etnik amillərin ön plana keçməsindən ibarət olmuşdur.*** Bu dövrdə Ukraynada əhali miqrasiyası artımının 40 faizi Rusiyadan, xüsusilə də onun Şimal rayonlarından çıxıb gəlmiş ukraynalıların hesabına olmuşdur.

İkinci dövrün (1995—2000-ci illər) ***xüsusiyyəti isə ondan ibarət olmuşdur*** ki, bu dövrdə Rusiyada müsbət miqrasiya qalığı 3,8 dəfə azalaraq 1994-cü ildəki 810 min nəfərdən 2000-ci ildə 214 min nəfərə düşməsinə baxmayaraq, ***MDB məkanında miqrantları özünə cəlb edib toplayan yeganə ölkə idi.*** 1994-cü ildən sonra MDB ölkələrində həyata keçirilən iqtisadi islahatların sürətindəki müxtəliflik əhalinin miqrasiyası prosesinə də öz təsirini göstərməmiş qalmadı. Belə ki, əgər 1991—1992-ci illərdə Rusiya ilə Ukrayna arasındakı əhali miqrasiyası mübadiləsində Rusiya 176 min nəfər adam itirmişdirsə, 1994-cü ildən sonra Ukrayna Rusiyaya öz əhalisini qaytarmalı olmuşdu.

90-cı illərdə Rusiyada baş verən demoqrafik proseslərin özünəməxsusluğu ondan ibarət olmuşdur ki, Rusiyadan MDB ölkələrinə gedənlərin sayı kəskin surətdə azalmışdı. Əgər 1991-ci ildə Rusiyadan gedənlərin sayı Rusiyaya gələnlərin sayının 47 faizini təşkil etmişdirsə, 2000-ci ildə bu göstərici cəmi 24 faiz təşkil etmiş və ya 2 dəfə az olmuşdur. Nəticədə 90-cı illərdə Rusiya əhalisinin sayının MDB ölkələrindən gələnlərin hesabına artımı 80-ci illərdəkinə nisbətən iki dəfə çox olmuşdur. Ancaq 1998-ci ilin avqust ayında Rusiyada baş vermiş böhrandan sonra burada vəziyyət kəskin surətdə dəyişmişdi. Həmin böhranla əlaqədar olaraq Rusiyanın əmək bazarı əhəmiyyətli dərəcədə daralmış və bu, özünü, hər şeydən əvvəl, miqrantların iş yerləri üçün müraciət etdikləri kiçik sahibkarlıq sahəsində büruzə vermişdi. Rusiya bu dövrdə bir çox sahələrdə, o cümlədən də əmək haqqının səviyyəsi sahəsindəki əvvəlki üstünlüyünü itirmişdi. Belə ki, Rusiyada orta aylıq əmək haqqının səviyyəsi 1997-ci ildəki 164,3 dollardan 1999-cu ildə 64 dollara düşmüş və ya 2,6 dəfə azalmışdır. Sonradan bu göstərici bir qədər artaraq 2000-ci ildə 81 dollara qalxmış olsa da, yenə də 2000-ci ilin səviyyəsindən 2 dəfə aşağı olaraq qalmışdı. Təsadüfi

deyildir ki, 1997-ci ilə nisbətən Rusiyada əhali miqrasiyasının müsbət qalığı 1998-ci ildə 20 faiz, 1999-cu ildə isə yarıbayarı azalmışdı. Yalnız 2000-ci ildə Rusiyada əhali miqrasiyasının təmiz qalığı bir qədər artaraq 214,0 min nəfər təşkil etmiş və ya 1999-cu ildəkinə nisbətən 29 faiz çox olmuşdu. 1998-ci il böhranlarından sonra Rusiya iqtisadiyyatında müəyyən müsbət dəyişikliklərin baş verməsinə baxmayaraq, son illərdə MDB ölkələrindən Rusiyaya elə bir yeni böyük miqrasiya axını baş verməmişdir.

Rusiyanın külli miqdarda miqrantları qəbul etmək imkanlarını itirməsi başqa MDB ölkələrinin bu sahədəki imkanlarını xeyli artırmışdır, 1994-cü illə müqayisədə Mərkəzi Asiya ölkələrindən və Azərbaycandan Rusiyaya yönəlmiş əhali miqrasiyasının intensivliyi (hər 1000 nəfər əhaliyə düşən miqrasiya qalığı) bir neçə dəfə azalmışdır. Məsələn, hər 1000 nəfər əhaliyə düşən miqrantların sayı Qazaxıstanda 1994-cü ildə 24 nəfər təşkil etmişdirsə, 1999-cu ildə bu göstərici 8 nəfər olmuş və ya 3 dəfə azalmışdır. Mərkəzi Asiya və Zaqafqaziya ölkələrinə gəldikdə isə bu ölkələr arasında miqrasiya əlaqələri çox zəifləmiş və yalnız qaçqın kütləsinin axını ilə əlaqədar olaraq baş vermişdir ki, bu da özünü əsas etibarı ilə 90-cı illərin birinci yarısında büruzə vermişdir.

Hazırda intensiv miqrasiya əlaqələri yalnız Rusiya, Ukrayna və Belorus arasında saxlanmaqdadır. İndi Rusiya ilə Ukrayna və Ukrayna ilə Belorus arasındakı miqrasiya mübadiləsinin nisbiliyi isə bir balaca Belorusun xeyrinə olmaqla təqribən eyni vəziyyətdədir. Bu isə o deməkdir ki, həmin ölkələr arasındakı əhali miqrasiyası əlaqələri qırılmamış və bu əlaqələr orada mövcud olan sabitliyin əsasını təşkil edir.

MDB ölkələri arasında mövcud olan əhali miqrasiyası mübadiləsinin vəziyyətini bütünlükdə qiymətləndirsək, belə nəticəyə gəlmək olar ki, həmin əlaqələr bu ölkələrdəki demoqrafik potensial fərqlərini nisbətən azaltdığından burada ümumi əmək bazarının formalaşması üçün əlverişli şərait yaradır. Rusiya ilə Belorus arasındakı əhali miqrasiyası əlaqələri isə bu ölkələrdə əhalinin sayca azalmasını nisbətən ödədiyindən onların demoqrafik inkişaf vəziyyətinə müsbət təsir göstərir. Belə ki, 1994-cü ildəki miqrasiya artımı Rusiya əhalisinin azalmasını demək olar ki, tam (93 faiz)

ödəmişdir. 1996—1998-ci illərdə bu bərpa faizi təqribən 50 faiz, 1999-cu ildə – 18 faiz, 2000-ci ildə isə 22 faiz təşkil etmişdir.

MDB məkanında əhalisinin sayı azalan ölkələr arasında təkcə Ukrayna bu ölkələrlə əhali miqrasiyası mübadiləsi nəticəsində öz əhalisinin sayını itirmiş və bu proses onun əmək potensialına mənfi təsir göstərmişdir. Digər tərəfdən isə nisbətən yüksək demoqrafik potensiala malik olan Orta Asiya və Zaqafqaziya ölkələri qeyd edilən dövrdə yaxın xarici ölkələrlə miqrasiya mübadiləsi nəticəsində öz əhalisinin bir qismini itirdiyindən bu ölkələrin əmək ehtiyatlarının Rusiya və Ukraynanın əmək bazarına təzyiqi xeyli azalmışdır.

Lakin bu deyilənlərə baxmayaraq, 90-cı illərdə Müstəqil Dövlətlər Birliyi ölkələrində baş verən əhali miqrasiya prosesləri arasında ***əmək miqrasiyası*** özünə məxsus yer tutmuş və MDB ölkələrinin **ümumi əmək bazarı** üçün birinci dərəcəli əhəmiyyət kəsb etmişdir.

Əmək miqrasiyası iki formada – leqal (əmək kontraktları üzrə) və qeyri-leqal formada həyata keçirilir. MDB ölkələrində baş verən leqal əmək miqrasiyası böyük həcmdə olmayıb hər il təqribən 300 min nəfərdən bir qədər çox iş qüvvəsini əhatə edir. MDB məkanında bütünlükdə əhali miqrasiyası kimi, əmək miqrasiyasında iştirak edənlərin də əsas kütləsi Rusiya Federasiyasına gedir. Rusiyanın Federal Miqrasiya Xidmətinin məlumatlarına əsasən, 1994—2000-ci illəri əhatə edən 7 il ərzində MDB ölkələrindən Rusiyanın ərazisinə təqribən 780,1 min nəfər fəhlə və mütəxəssis işə cəlb edilmişdir ki, bu da bütünlükdə Rusiyanın əmək bazarına cəlb edilmiş xarici iş qüvvəsinin (1610,8 min nəfərin) 48,4 faizini təşkil etmişdir (62-ci cədvələ bax).

Rusiya Federasiyasına Uzaq xarici və MDB ölkələrindən xarici iş qüvvəsinin cəlb edilm
(1994—2000-ci illər)

	1994		1995		1996		1997		1998		1999		
	nəfər	%	nəfər	%	nəfər	%	nəfər	%	nəfər	%	nəfər	%	nəf
Cəmi, o cümlədən	129000	100,0	281081	100,0	292236	100,0	241488	100,0	242292	100,0	211361	100,0	213
MDB ölkələrindən	70800	54,88	134423	47,82	145628	49,83	114044	47,23	111081	45,85	94720	44,8	108
Belorus	5790	4,49	11123	3,96	10277	3,52	987	0,41	-	-	-	-	7
Moldova	3692	2,86	6713	2,39	9462	3,23	9881	4,09	10469	4,32	8619	4,08	119
Ukrayna	55079	42,70	94242	33,5	98696	33,77	76636	31,73	73717	30,42	62856	29,74	641
Qazaxıstan	1007	0,78	2069	0,74	2165	0,74	1816	0,75	1802	0,74	1662	0,79	28
Qırğızıstan	142	0,11	695	0,25	1184	0,41	1259	0,52	728	0,3	549	0,26	87
Tacikistan	572	0,44	1497	0,53	2027	0,69	3112	1,29	3296	1,36	4135	1,96	62
Türkmənistan	16	0,01	99	0,04	305	0,1	382	0,16	324	0,13	281	0,13	20
Özbəkistan	1474	1,14	3547	1,26	4108	1,41	3236	1,34	2965	1,22	3411	1,61	60
Azərbaycan	426	0,33	1331	0,47	2200	0,75	3183	1,32	4011	1,66	2826	1,34	33
Ermənistan	1687	1,31	6092	2,17	7150	2,45	6893	2,85	7472	3,08	5167	2,44	55
Gürcüstan	915	0,71	7015	2,50	8090	2,77	6659	2,76	6297	2,6	5214	2,47	51
Başqa ölkələrdən	58200	45,12	146658	52,2	146608	50,2	127444	52,8	131211	54,15	116641	55,2	102
Türkiyə	-	-	-	-	39043	13,4	33186	13,7	35697	14,7	26708	12,64	178
Çin	-	-	-	-	24043	8,2	22227	9,2	23318	9,6	24256	11,48	262
Keçmiş Yuqoslaviya Respublikaları	-	-	-	-	18613	6,4	16864	7,0	14096	5,8	9771	4,62	80
ÇXDR	-	-	-	-	-	-	10416	4,3	9383	3,9	10110	4,78	87

[321] Bax: Демографическая ситуация и формирование общего рынка труда государств-участников СНГ. М., 2001, с. 104

Rusiyanın əmək bazarına iş qüvvəsi ixrac edən ölkələr arasında birinci yeri Ukrayna tutur. Qeyd edilən 7 il ərzində Rusiyaya ixrac edilmiş bütün iş qüvvəsinin 525,3 min nəfəri və ya 67 faizi Ukraynanın payına düşmüşdür. İkinci yeri Moldova respublikası tutmuşdur. Həmin dövrdə Moldovadan Rusiyanın əmək bazarına 59,7 min nəfər iş qüvvəsi cəlb edilmişdir ki, bu da həmin ölkəyə ixrac edilmiş bütün iş qüvvəsinin 7,6 faizini təşkil edir. Belorusdan da Rusiyaya qeyd edilən dövrdə hər il təqribən 10-11 min nəfər adam işləməyə getmişdir. Ümumiyyətlə götürüldükdə isə 1994-2000-ci illərdə Rusiyanın əmək bazarına ixrac edilmiş iş qüvvəsinin 80 faizə qədəri MDB-nin Avropa hissəsində yerləşmiş ölkələrin payına düşmüşdür. Rusiyanın əmək bazarında işləməyə gələnlər arasında Zaqafqaziya Respublikalarından gələnlərin sayı isə həmin dövrdə 98,3 min nəfər olmuş və ya bu əraziyə ixrac edilmiş iş qüvvəsinin 12,6 faizini təşkil etmişdir. Qeyd edilən dövrdə Azərbaycan Respublikasından Rusiya ərazisində işləməyə cəlb edilmiş iş qüvvəsinin sayına gəldikdə isə onların sayı 17736 nəfər olmuş və ya həmin əraziyə işə cəlb edilənlərin cəmi 1,1 faizini təşkil etmişdir. Bu göstərici ayrı-ayrı illərdə eyni olmayıb 426 nəfər və ya 0,33 faizlə 4011 nəfər və ya 1,66 faiz arasında tərəddüd etmişdir. Bu göstəricinin ən aşağı olduğu dövr 1994-cü və 1999-ci illərə (müvafiq surətdə 426 nəfər və ya 0,33 faiz; 1331 nəfər və ya 0,47 faiz), ən yüksək olduğu dövr isə 1998-ci və 2000-ci illərə (müvafiq surətdə 4011 nəfər və ya 1,66 faiz; 3336 nəfər və ya 1,6 faiz)təsadüf etmişdir. Başqa sözlə desək, Azərbaycandan Rusiyanın əmək bazarına ixrac edilən iş qüvvəsinin sayı 2000-ci ildə 1994-cü ilə nisbətən 7,8 dəfə (426 nəfərdən 3386 nəfərə), 1995-ci ilə nisbətən isə 2,5 dəfə (1331 nəfərdən 3336 nəfərə) artmışdır.

Azərbaycandan ölkəni tərk edib qeyri-leqal yolla Rusiya ərazisində işləməyə və yaşamağa gedənlərin sosial-iqtisadi əhəmiyyətini düzgün təsəvvür etmək üçün təkcə bunu demək kifayətdir ki, 1999-cu ilin məlumatlarına əsasən əmək haqqı qazanmaq üçün Rusiyaya gedən həmvətənlərimizin sayı 1 milyon nəfər təşkil etmiş və onların hər il respublikamıza göndərdikləri pul gəlirlərinin həcmi 700 milyon ABŞ dolları həcmində olmuşdur.[322]

---

[322] B a x: Демографическая ситуация и формирование общего рынка труда-государств-участников СНГ (аналитический доклад Исполкома СНГ). ЗАО

Azərbaycanlıların Rusiyadakı fəaliyyət dairəsi kifayət qədər genişdir. Vaxtilə Sovet hakimiyyəti illərində Rusiyaya təhsil almağa və işləməyə gedib orada qalanlar, orada doğulub boya-başa çatmış və Rusiyanın vətəndaşlığını qəbul etmiş azərbaycanlılar indi Rusiyada elm, incəsənət sahələrində çalışır, iri bizneslə məşğul olur və bir qayda olaraq, azərbaycanlı icmalarına başçılıq edirlər. SSRİ-nin dağılması dövründə və Qarabağ münaqişəsi illərində Azərbaycanı tərk edib Rusiyaya getmiş həmvətənlərimizə gəldikdə isə hazırda onların çoxu xırda, orta və iri biznesdən tutmuş tikinti, sənaye və nəqliyyat sahələrində mövsümi işlərdə çalışırlar. Xidmət dairəsində və hüquq-mühafizə orqanlarında işləyənlər arasında da onların sayı az deyildir. Son vaxtlaradək Azərbaycandan Rusiyanın əmək bazarlarında işləməyə gedənlərin çoxu kənd yerlərindən gedənlər olmuşdur ki, bu da həmin ərazilərdə işsizlik səviyyəsinin yüksəkliyi ilə bağlı olmuşdur. Bu dövrdə Azərbaycanın əmək bazarında vəziyyəti kəskinləşdirən ən aktual miqrasiya problemlərindən biri də burada geniş surətdə iştirak edən xarici vətəndaşların tam uçotu və qanunvericilik bazasının olmaması üzündən həmin prosesləri nizamlamağın qeyri-mümkünlüyündən ibarətdir. Təsadüfi deyildir ki, artıq 2000-ci ildə «***Əmək miqrasiyası haqqında***» Azərbaycan Respublikası qanununun tətbiqi haqqında» sərəncam imzalanmış və bu sərəncama əsasən xaricə gedən vətəndaşlarımız qanunu status və işə düzəlmək üçün lisenziya alırlar. Azərbaycan hökuməti ilə Beynəlxalq Miqrasiya Təşkilatı arasında əldə olunmuş razılaşmaya əsasən miqrasiya proseslərinin nizamlanması üzrə idarəetmə potensialının yaradılmasına dair proqram həyata keçirilir. Bu proqram çərçivəsində miqrasiya sahəsində dövlət siyasəti konsepsiyası, «Əmək miqrasiyası» və «İmmiqrasiya haqqında» qanun layihələri işlənib hazırlanmışdır. Eyni zamanda, respublikamızda qaçqınlar və məcburi köçkünlər də daxil olmaqla, sosial cəhətdən ən çox müdafiəyə ehtiyacı olan əhalini işlə təmin etmək məqsədilə iş yerlərinin kvotalaşdırılması, özüməşğulluq və al-

---

«Финстатинформ», Москва, 2001, с. 114 və «Труд» qəzeti, 1999 г., 10 ноября.

ternativ iş yerlərinin yaradılması üzrə tədbirlər işlənib hazırlanır və həyata keçirilir. Bundan əlavə respublikamızda xarici investisiyaların cəlb edilməsi üçün hüquqi baza yaradılması və xarici iş qüvvəsinin cəlb edilməsi üzrə beynəlxalq əmək normalarına uyğun əsasnamə işlənib hazırlanmışdır.

Beləliklə, 90-cı illərdə MDB ölkələri arasındakı miqrasiya axınının xarakteri və miqyasının təhlili onu göstərir ki, **əvvəla**, burada kifayət qədər əhali, o cümlədən də əmək miqrasiyası potensialı toplanmış və əlverişli şəraitin yaradılacağı hər bir an onların reallaşdırılması mümkün olacaqdır; **ikincisi**, Rusiya miqrantların qəbul edilməsi və inteqrasiyası üzrə malik olduğu şəraitə görə MDB ölkələri çərçivəsində əhali və əmək miqrasiyasının həcminin və istiqamətləndirilməsinin müəyyənləşdirilməsində aparıcı rola malik olaraq qalmaqdadır.

5.3. MÜASİR MƏRHƏLƏDƏ AZƏRBAYCANDA ƏHALİ MİQRASİYASININ DİNAMİKASI, XÜSUSİYYƏTLƏRİ VƏ MİQRASİYA SAHƏSİNDƏ DÖVLƏT SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

Əhalinin miqrasiyası sosial-iqtisadi inkişafın mühüm amillərindən biridir. Hər il miqrasiya prosesində on minlərlə əhali kütləsi iştirak edir. Respublikamızın müasir sosial-iqtisadi və demoqrafik inkişaf xüsusiyyətləri əhalinin miqrasiyası prosesinin elmi surətdə idarə edilməsi məsələlərinin tədqiq edilməsini mühüm vəzifəyə çevirmişdir.

Müxtəlif ictimai-iqtisadi quruluşa malik olan ölkələrdə və onların ayrı-ayrı tarixi inkişaf mərhələlərində bu ölkələrin, malik olduğu sosial-iqtisadi inkişaf səviyyəsindən, təbii-coğrafi şəraitindən, məhsuldar qüvvələrin inkişaf səviyyəsi və ərazilər üzrə yerləşməsi vəziyyətindən, əhalisinin quruluşu və tərkibindən asılı olaraq əhalinin miqrasiyasının intensivliyi, istiqamətləri və tərkibi eyni olmayıb bir-birindən fərqlənir.

Hazırda respublikamızda sosial-iqtisadi və demoqrafik cəhətdən əhali miqrasiyası prosesinin üç əsas istiqaməti özünü daha qabarıq şəkildə büruzə verir:

1) erməni faşistlərinin respublikamıza təcavüzü ilə əlaqədar olaraq təcavüzə məruz qalmış torpaqlardan və həmin ərazilərə yaxın olan ərazilərdən əhalinin mərkəzi şəhərlərə və respublikamızın bir sıra başqa rayonlarına zorla köçürülməsi;

2) ardıcıl olaraq əhalinin kənd yerlərindən şəhər yerlərinə axıb getməsi;

3) urbanizasiya prosesinin sürətlənməsi və iri şəhərlərin yaranması ilə əlaqədar olaraq şəhər əhalisinin sayının artması.

Qeyd etdiyimiz bu sonuncu iki qanunauyğun hal istər İkinci dünya müharibəsinədək olan dövrdə, istərsə də ondan sonrakı dövrlərdə səciyyəvi hal kimi mövcud olmuşdur. Lakin bununla belə respublikamızın müxtəlif ərazilərində, şəhər və kənd yerlərində sosial-iqtisadi inkişafda baş verən dəyişikliklərdən asılı olaraq, əhali miqrasiyasının xüsusiyyətləri, yaranma mənbələri və miqdarı müxtəlif olmuşdur. Bu deyilənlərdən asılı olaraq, Azərbaycanın ərazisində ictimai-iqtisadi inkişafın müxtəlif dövrlərində əhalinin miqrasiyasının öz xüsusiyyəti, yaranma mənbəyi və miqdarı müxtəlif cür olmuşdur.

Qeyd etmək lazımdır ki, bir qayda olaraq, miqrasiya edən əhalinin 85-90 faizini əmək qabiliyyətli şəxslər təşkil edir. Buna görə də ərazi üzrə hərəkət edən əhalinin əmək ehtiyatlarının təkrar istehsalına, onun kəmiyyət və keyfiyyətcə dəyişməsində rolu olduqca böyükdür.

Sovet hakimiyyəti illərində, bütünlükdə, keçmiş ittifaq respublikalarında olduğu kimi, Azərbaycanda da əhalinin mexaniki hərəkəti əsas etibarı ilə xalq təsərrüfatının planauyğun proporsional inkişaf qanununun tələblərinə müvafiq olaraq, iş qüvvəsinə tələbatı ödəmək məqsədilə həyata keçirilməyə başlamışdı. Sovet hakimiyyətinin qurulması ərəfəsində (1917—1920-ci illərdə) respublikamızda istər əhalinin ümumi sayı, istərsə də əmək qabiliyyətli əhalinin sayı xeyli azalmışdır. Bu azalma əhalinin ümumi sayı üzrə 401,5 min nəfər, əmək qabiliyyətli əhali üzrə isə 110 min nəfər təşkil etmişdir. Bir tərəfdən, bu vəziyyət, digər tərəfdən isə xalq təsərrüfatının bərpası və inkişafı ilə əlaqədar olaraq iş qüvvəsinə tələbatın ciddi surətdə artması Sovet

hakimiyyətinin qurulduğu ilk illərdə respublikamıza kənardan, başqa respublikalardan çoxlu miqdarda iş qüvvəsi gətirilməsini tələb edirdi. Buna görə də heç təsadüfi deyildir ki, İkinci dünya müharibəsi ərəfəsinə qədər respublikamızda əhalinin ümumi artımının 50 faizindən çoxunu kənardan gələnlər təşkil edirdi.

Sovet hakimiyyətinin ilk illərində respublikamıza iş qüvvəsi axını əsasən burada sənayenin, ilk növbədə isə neft sənayesinin yüksək sürətlə inkişafının başlanması və bununla əlaqədar olaraq mütəxəssis kadrlara ehtiyacın artması nəticəsində baş vermişdi. 1921—1923-cü illərdə Muğan düzünə, Kür və Araz çayları boyuna çoxlu sayda ruslar gəlmişdir. Bu axın 1921-1922-ci illərdə Bakıda hətta işsizliyə səbəb olmuşdur. Həmin dövrdə buraya köçüb gələn 5272 nəfərin 673 nəfərini, yaxud 12,8 faizini kənd yerlərindən gələnlər, 4599 nəfərini və ya 87,2 faizini isə şəhər yerlərindən gələnlər təşkil etmişlər. Bakıya iş dalınca gələnlərin 3,6 faizini Gürcüstandan, 13,1 faizini Ermənistandan, 10,2 faizini İrandan, 1,0 faizini Türkmənistandan, 1,0 faizini isə Rusiyadan və başqa yerlərdən gələnlər təşkil edirdi. 1924-1928-ci illərdə Azərbaycana əhali axınının davamı daha da artdı. Bu dövrdə Azərbaycana 44253 nəfər köçürülmüşdür. Onların 20052 nəfəri və ya 45,3 faizi keçmiş ittifaqın başqa respublikalarından, 24200 nəfəri isə respublika daxilindən köçürülənlərdən ibarət idi. 1929-1930-cu illərdə isə hər il orta hesabla üç minə yaxın adam respublikamızın Gəncə, Ağcabədi, DQMV-ti və Naxçıvan MR-a köçürülmüşdür.[323]

Qeyd etmək lazımdır ki, bu dövrdə kənd yerlərindən əhalinin miqrasiyası xeyli əhəmiyyət kəsb etmişdi. 1935-ci ildə 1928-ci ilə nisbətən xalq təsərrüfatının bütün sahələrində çalışan fəhlə və qulluqçuların sayı 212,6 min nəfər, o cümlədən sənaye işçilərinin sayı təqribən 151 min nəfər artmışdı. Əlbəttə, bunların hamısını təkcə həmin xalq təsərrüfatı sahələrinin inkişaf etdiyi rayonlar hesabına təmin etmək mümkün deyildi. Bunu demək kifayətdir ki, əgər birinci beşilliyin əvvəlində respublikanın

---

[323] *Ş.M.Muradov* və başqaları. «Azərbaycan SSR-də əmək ehtiyatlarından istifadənin ictimai-iqtisadi problemləri». Bakı, 1978, s. 78.

sənaye şəhərlərinə cəlb edilmiş işçilərin 50 faizini kənd yerlərindən gələnlər təşkil etmişlərsə, 1936-cı ildə respublikamızın kolxozlarından xalq təsərrüfatının başqa sahələrinə işləmək üçün cəlb edilmiş işçilərin sayı 54,2 min nəfər təşkil etmişdir. Həmin müddət ərzində respublikamızın ali və orta ixtisas məktəblərində oxuyan tələbələrin sayı da ciddi surətdə artmışdır. Əgər 1928-ci ildə respublikamızın bütün ali və orta ixtisas məktəblərində cəmi 11,9 min nəfər tələbə oxuyurdusa, 1934-cü ildə onların sayı 24,9 min nəfər olmuş və ya iki dəfədən çox artmışdır. Heç şübhəsiz ki, şəhərdən kəndə və kənddən şəhərə belə bir əhali miqrasiyası respublikanın kadrlara olan tələbatının ödənilməsində və əhalinin mədəni səviyyəsinin yüksəldilməsində mühüm rol oynamışdır.[324]

Bu dövrdə respublikamızın iqtisadiyyatının və mədəniyyətinin inkişafı ölkənin başqa rayonlarından buraya əhali axınını daha da sürətləndirmişdir. Təkcə bunu demək kifayətdir ki, əgər ölkənin başqa rayonlarından gələnlər hesabına Bakı şəhərinin əhalisi 1927-ci ildə 14,5 min nəfər çoxalmışdırsa, 1928-ci ildə bu göstərici 36,5 min nəfər, 1930-cu ildə 70,1 min nəfər, 1931-ci ildə isə 138,1 min nəfər təşkil etmişdir.[325]

63-cü cədvəl [326]

1920—2001-ci illərdə Azərbaycanda əhalinin respublikalararası miqrasiyasının dəyişilməsi dinamikası (min nəfər)

İllər	Miqrasiya hesabına əhalinin artımı (+) və ya azalması (-)	
	cəmi	hər il orta hesabla
1920-1927	+186,5	+26,6
1927-1939	+287,4	+23,7
1939-1959	-746,3	-37,3
1960-1970	-76,9	-6,6
1970-1979	-64,6	-7,2

[324] Ş.M.Muradov və başqaları. Azərbaycan SSR-də əmək ehtiyatlarından istifadənin ictimai-iqtisadi problemləri. Bakı, 1978, s.79.
[325] Yenə orada, s.79.
[326] Ş.M.Muradovun və başqalarının göstərilən monoqrafiyası, s. 81 və Azərbaycanın demoqrafik göstəriciləri (Statistik məcmuə). Bakı, 2002, s. 298; Azərbaycanın əhalisi. 2003 (Statistik bülleten). Bakı, 2003, s. 51.

1980-1989	-285,6	-28,6
1990-1995	-140,9	-23,5
1996-2002	-38,3	-5,5

Sovet hakimiyyəti illərində və müstəqillik dövründə (1991—2001-ci illər) Azərbaycanda əhalinin miqrasiyasında baş verən dəyişiklikləri 63-cü cədvəlin məlumatlarından daha aydın görmək olar. 63-cü cədvəldən göründüyü kimi, 1920—1939-cu illərdə respublikamızda əhalinin sayı kənardan gələnlər hesabına ciddi surətdə artdığı halda, sonrakı illərdə əksinə azalmışdır. 1939-1959-cu illərdə bu vəziyyət, əsas etibarı ilə, müharibənin nəticələri ilə bağlı idisə, 1960—1970-ci illərə gəldikdə isə bu vəziyyət vaxtilə keçmiş SSRİ-nin başqa respublikaları öz xalq təsərrüfatı ehtiyaclarını ödəyə biləcək kifayət qədər ixtisaslı və mütəxəssis kadrlara olan tələbatının ödənilməsi və habelə bu respublikaları ixtisaslı işçi qüvvəsi və kadrlarla təmin etməklə əlaqədar olmuşdur.

Bütün bu yuxarıda deyilənlərə baxmayaraq, əhali siyahıyaalınması məlumatlarına əsasən, 1959-cu ildə əhalinin əmək qabiliyyətli yaşda olan hissəsi ümumi əhalinin təqribən 51,4 faizini təşkil etmişdi. Müharibə nəticəsində əhalinin bu hissəsinin daha çox zərər çəkməsinə baxmayaraq, 1959-cu ildə həmin yaşda olan əhalinin sayı əvvəlki illərə nisbətən nəinki azalmamış, hətta çoxalmışdır. Belə ki, 1959-cu ildə həmin yaşda olan əhalinin sayı 1939-cu ildəkinə nisbətən 360 min nəfər, 1926-cı ildəkinə nisbətən 764,3 min nəfər, 1897-ci ildəkinə nisbətən isə 980,3 min nəfər çox olmuşdur. Bu rəqəmlərdən məlum olur ki, əvvəlki əhali siyahıyaalnması illəri ərəfəsində (1897, 1920-1926, 1926 və 1939-cu illərdə) kənardan respublikamıza gələnlərin sayı gedənlərin sayından çox olduğu halda, 1939, 1959, 1970, 1989 və 1999-cu illərdə isə əksinə, gedənlər gələnlərdən çox olmuşdur.

Miqrasiya edənlərin əksəriyyəti (85-90 faizi) əmək qabiliyyəti yaşında olduğundan, miqrasiyasının əmək qabiliyyətli yaşda olan əhalinin ümumi əhali içərisində tutduğu xüsusi çəkiyə təsiri əvvəlki illərdə müsbət, sonrakı illərdə isə mənfi olmuşdur. Buna baxmayaraq, əhalinin siyahıya alındığı 1959,

1979, 1989 və 1999-cu illərdə əmək qabiliyyətli əhalinin ümumi əhali kütləsi içərisindəki xüsusi çəkisi əvvəlki illərdəkinə nisbətən daha yüksək olmuşdur. Bunu 64-cü cədvəlin məlumatlarından aydın görmək olar. Həmin cədvəldən göründüyü kimi, əgər 1926-cı ildə bütün əhali arasında əmək qabiliyyətli yaşından aşağı olanlar (0-15 yaşında) 44,3 faiz, əmək qabiliyyəti yaşında olanlar (16-59 yaşında kişilər və 16-54 yaşında qadınlar) 47,1 faiz, əmək qabiliyyəti yaşından yuxarı olanlar isə (55 yaşından yuxarı qadınlar, 60 yaşından yuxarı kişilər) 8,6 faiz təşkil etmişdirsə, 1939-cu ildə müvafiq surətdə bu göstərici 43,2; 48,2 və 8,6 faiz, 1959-cu ildə 38,0; 51,5 və 10,5 faiz, 1979-cu ildə 38,1; 52,8 və 9,0 faiz, 1989-cu ildə 34,7; 54,4 və 10,9 faiz, 1999-cu ildə isə 33,9; 57,4 və 8,7 faiz təşkil etmişdi.

Respublikamızda sənayenin inkişafı və əhalinin miqrasiyası ilə bağlı olaraq, Azərbaycanda şəhər əhalisinin sayı və xüsusi çəkisi daim artıb dəyişmişdir. Bunu kitabın 1-ci bölməsində verilmiş 1-ci cədvəlin məlumatlarından görmək olar. Həmin cədvəlin məlumatlarından göründüyü kimi, Sovet hakimiyyəti illərində (1920—1991-ci illərdə) respublikamızda bütünlükdə əhali arasında şəhər əhalisinin xüsusi çəkisi daim artmış, kənd əhalisinin xüsusi çəkisi isə azalmışdır. Eyni zamanda, əhalinin artım sürəti müxtəlif olmaqla, həm şəhər və həm də kənd yerlərində artmaqda davam etmişdir. Belə ki, 1920—1991-ci illərdə respublikamızda əhalinin sayı 3,7 dəfə artdığı halda,

64-cü cədvəl [327]

Azərbaycan Respublikasında əhalinin əmək quruluşunun dəyişilməsi (yekuna nisbətən, faizlə)

Yaş qrupları	İllər							
	1926	1939	1959	1970	1979	1989	1995	1999
Cəmi əhali	100	100	100	100	100	100	100	100
o cümlədən əmək qabiliyyətli yaşınadək	44,3	43,2	38,0	46,2	38,1	34,7	35,2	33,9

[327] Население Союзных Республик. Москва, «Статистика», 1977, с. 167; Azərbaycan rəqəmlərdə. 1995. Bakı, 1996, s. 17 və Azərbaycan əhalisinin siyahıya alınması. 1999. Bakı, 2001, s. 41.

Əmək qabiliyyətli yaşında	47,1	48,2	51,5	43,8	52,8	54,4	53,9	57,4
Əmək qabiliyyətli yaşından yuxarı	8,6	8,6	10,5	10,0	9,0	10,9	10,9	8,7

şəhər yerlərində 9,5 dəfə, kənd yerlərində isə ondan 4,5 dəfə az sürətlə, yəni 2,1 dəfə çoxalmışdır. Nəticədə bütünlükdə respublika əhalisi arasında şəhər əhalisinin xüsusi çəkisi müqayisə edilən dövrdə 32,8 faiz bənd artaraq 21 faizdən 53,8 faizə qalxmış, kənd əhalisinin xüsusi çəkisi isə eyni qaydada azalaraq 79 faizdən 46,2 faizə düşmüşdü.

Azərbaycan Respublikasının müstəqillik qazandığı son 12 il ərzində isə (1991—2002-ci illər) bu proses bir qədər başqa istiqamət almışdır. Bu dövrdə respublikamızın əhalisinin sayı 13,3 faiz, o cümlədən şəhər əhalisinin sayı cəmi 6,9 faiz artdığı halda, kənd əhalisinin sayı 20,8 faiz və ya şəhər əhalisinin artımına nisbətən 2.9 dəfə sürətlə çoxalmışdır. Nəticədə, bütünlükdə ölkə əhalisi arasında şəhər əhalisinin xüsusi çəkisi 3,1 faiz azalaraq 53,8 faizdən 50,7 faizə düşdüyü halda, kənd əhalisinin xüsusi çəkisi 3,1 faiz artaraq 46,2 faizdən 49,3 faizə qalxmışdır. Bu vəziyyət həmin dövrdə şəhər əhalisinin qeyri-millətlərdən olan bir hissəsinin başqa ölkələrə köçüb getməsi və şəhər əhalisinin kəndlə əlaqəsi olan başqa bir qisminin isə kənd yerlərində yaşamağa getməsi ilə, habelə şəhər yerlərinə nisbətən kənd yerlərində əhalinin doğum və təbii artım göstəricisinin nisbətən xeyli aşağı olması və sair səbəblərlə bağlıdır.

Onu da qeyd etmək lazımdır ki, öyrənilən dövrdə (1920-2002-ci illərdə) Azərbaycanda əhalinin mexaniki hərəkətinin, daha doğrusu, ərazicə yerdəyişməsinin mühüm növlərindən birini **respublikadaxili** əhali miqrasiyası təşkil etmişdi. Bu növ əhali miqrasiyası ümumi əhali miqrasiyasının tərkibində demək olar ki, ən yüksək faiz təşkil edir. Belə ki, əgər öyrənilən dövrlərdə **respublikalararası** əhali miqrasiyası bütünlükdə miqrantlar arasında 40-45 faiz təşkil etmişdirsə, **respublikadaxili** əhali miqrasiyası 60-70 faiz, o cümlədən şəhər yerlərində 75-80, kənd yerlərində isə 50-55 faiz təşkil etmişdir.

Son vaxtlaradək respublikamızda əhalinin rayonlar arasında yenidən bölüşdürülməsi müxtəlif istiqamət və həcmdə baş

vermişdi. Öz əhəmiyyətinə və həcminə görə əhalinin rayonlar arasında yerləşdirilməsində birinci yeri sənaye miqrasiyası tutmuşdur. Yəni ayrı-ayrı rayonlarda sənayenin sürətli inkişafı ilə əlaqədar olaraq iş qüvvəsinə olan tələbatı ödəmək məqsədilə kənd rayonlarından həmin rayonlara əhali köçürülmüşdür.

Uzun illər boyu Azərbaycanda iqtisadiyyatın birtərəfli və məhdud rayonlarda inkişafı, bir çox rayonlarda süni suvarma tətbiq edilmədən əkinçiliyin inkişafının mümkün olmaması əhalinin respublika ərazisində qeyri-bərabər qaydada yerləşməsinə səbəb olmuşdur.

Böyük Oktyabr sosialist inqilabından əvvəlki dövrdə əhalinin əksər hissəsi şəhərlərdə, dağ və dağətəyi rayonlarda yerləşmişdi. Bu dövrdə dağ və dağətəyi rayonlarda hər kvadrat kilometr sahəyə 28-37 nəfər, düzənlik rayonlarda isə cəmi 9-12 nəfər və yaxud 2-3 dəfə az əhali düşürdü. 1926—1970-ci illər ərzində respublikanın ayrı-ayrı zonalarında hər kvadrat kilometr sahəyə düşən əhalinin sayı müxtəlif zonalarda müxtəlif olaraq dəyişmişdir. Belə ki, əgər 1926-cı ildə hər kvadrat kilometr sahəyə Abşeronda 89 nəfər, Gəncə—Qazaxda 39 nəfər, Lənkəran—Astarada 26 nəfər düşürdürsə, 1970-ci ildə bu göstərici həmin zonalarda müvafiq olaraq, 240; 78 və 62 nəfər olmuşdur. Sonrakı illərdə bu göstərici daha da artmışdır. Bu isə respublikamızın müxtəlif rayonlarında xalq təsərrüfatının inkişafında, ilk növbədə isə sənaye və kənd təsərrüfatının inkişafında baş verən dəyişikliklərlə əlaqədar olmuşdur. Xalq təsərrüfatının müxtəlif sahələrinin ölkəmizin ayrı-ayrı rayonlarında qeyri-bərabər inkişaf etdirilib yerləşdirilməsi və onun sahə və ərazi quruluşunda baş verən dəyişikliklər obyektiv surətdə əhalinin bu rayonlarda məskunlaşmasına ya müsbət təsir göstərmiş və yaxud da əksinə, onların bir rayondan digərinə axıb getməsinə səbəb olmuşdur.

Rəsmi statistik məlumatlara əsasən, 1959-cu ildən sonra respublikamıza əhalinin **respublikalararası** və **respublikadaxili** hərəkəti, daha doğrusu miqrasiyası, özünəməxsus xüsusiyyətlər kəsb etməklə bütünlükdə respublikada və onun ayrı-ayrı zonalarında əhalinin və onun mühüm tərkib hissəsi olan əmək ehtiyatlarının formalaşmasına müxtəlif istiqamətlərdə təsir etmişdir.

Başqa sözlə desək, əgər 1960-cı ilədək respublikamıza gələn əhalinin sayı gedənlərdən çox olurdusa, 60-cı illərdən sonra bu proses tərsinə getmişdi. Əlbəttə, 1989-cu ildən sonra «**qaçqınlar**» ordusu kimi qeyri-normal hal istisna edilməklə, bu hal həmin dövrə kimi mövcud olmuşdur. Belə ki, 1959—1970-ci illərdə respublikamıza gələnlərlə buradan gedənlər arasındakı fərq (saldo) mənfi (-) 56 min nəfər təşkil etmişdirsə, bu göstərici xeyli artaraq 1970—1979-cu illərdə 62,0 min nəfərə çatmışdır. Sonrakı illərdə isə bu göstərici müxtəlif olub hər il bir-birindən fərqlənmişdir. Həmin vəziyyəti aşağıdakı 65-ci cədvəlin məlumatlarından daha aydın görmək olar. 65-ci cədvəlin məlumatlarının təhlilindən aydın olur ki, respublikamızda baş vermiş və hazırda da davam etməkdə olan əhali miqrasiyası istər-istəməz burada mövcud olan bütünlükdə əhalinin və onun mühüm tərkib hissəsi olan əmək ehtiyatlarının artım sürətinin azalmasına da təsir göstərməmiş deyil. Ancaq rəsmi statistik məlumatların təhlilindən o da aydın olur ki, 1960-ci ildən sonra respublikamızdan

65-ci cədvəl [328]

Azərbaycan Respublikasında respublikalararası miqrasiya qalığının (saldonun) dəyişilməsi (min nəfərlə)

İllər	Miqrasiya fərqi (+) və ya (-)	O cümlədən	
		şəhər yerində	kənd yerində
1970	-2,8	25,2	-28,0
1975	-13,3	18,9	-32,2
1979	-21,8	5,0	-26,8
1980	-22,8	5,5	-28,3
1985	-36,3	0,4	-36,7
1988	-34,2	-2,8	-31,4
1989	-40,2	-11,5	-28,7
1990	-53,6	-52,7	-0,9
1991	-40,1	-39,4	-0,7
1992	-14,2	-13,8	-0,4
1993	-12,2	-11,9	-0,3

[328] B a x: Azərbaycanın demoqrafik göstəriciləri (Statistik məcmuə). Bakı, 2002, s. 298; Azərbaycanın əhalisi. 2003 (Statistik bülleten). Bakı, 2003, s.51.

1994	-11,2	-10,8	-0,2
1995	-9,8	-9,5	-0,3
2000	-5,5	-5,1	-0,5
2001	-4,7	-3,6	-1,1
2002	-3,7	-2,0	-1,1

kənara gedənlərin sayı xeyli çoxalmışdır ki, onların da əksəriyyətini gənc azərbaycanlı oğlanlar təşkil etmişlər. Bunun başlıca səbəbi son vaxtlaradək respublikamızda mövcud olan sosial-iqtisadi **inkişaf səviyyəsindəki gerilik və burada müvafiq** iş yerlərinin çatışmamasından ibarət olmuşdur. Bu hal istər-istəməz respublikamızda mövcud olan həm bütünlükdə əhalinin və həm də əmək ehtiyatlarının artım sürətinin azalmasına gətirib çıxarmışdır. Hesablamalr göstərir ki, miqrasiya edən əhalinin əksəriyyəti əmək qabiliyyəti yaşında olanlardır ki, onların da xeyli hissəsini cavan oğlanlar təşkil etmişlər. Lakin son vaxtlaradək miqrasiya edən əhalinin yaş və cins üzrə uçotunda mövcud olan çatışmazlıqlar bu sahədə dəqiq məlumat əldə etməyə imkan vermir. Halbuki miqrasiya edən əhalinin yaş və cins tərkibinin öyrənilməsinin mühüm xalq təsərrüfatı əhəmiyyəti vardır. Çünki miqrasiya edən əhalinin yaş və cins tərkibində baş verən dəyişikliklər təkcə demoqrafik vəziyyətin xüsusiyyətlərini aşkara çıxarmaqda kifayətlənmir, habelə cəmiyyətin bütün başqa ictimai-iqtisadi həyatında baş verən bir sıra başqa hadisələrin öyrənilməsi üçün də əhəmiyyətlidir.

Əhali miqrasiyasının cins üzrə dəyişməsi dinamikası bir tərəfdən, məhsuldar qüvvələrin, digər tərəfdən isə qadın və kişi əməyinin tətbiq edildiyi sahələrin düzgün inkişaf etdirilib yerləşdirilməsi üçün zəruridir. Çünki ərazilər üzrə məhsuldar qüvvələrin düzgün inkişaf etdirilib yerləşdirilməsi istər respublika və istərsə də onun ayrı-ayrı regionlarında kişi və qadın əməyinin daha səmərəli istismarının təmin edilməsinə imkan verən mühüm amillərdən biridir. Aparılan tədqiqatlara əsasən müəyyən edilmişdir ki, 1959—2000-ci illərdə respublikamızın ərazisinə gələnlərin 64-65 faizini kişilər, 35-36 faizini isə qadınlar təşkil etmişlər. Başqa sözlə desək, kişilərin sayı qadınların sayından təqribən 1,8 dəfə çox olmuşdur. Gedənlər üzrə də kişilərin sayı qadınların sayından çoxdur. Bu səbəbdən də əhali-

nin miqrasiyası qalığında da kişilərin sayı qadınların sayından həmişə çox olmuşdur.

Müasir mərhələdə Azərbaycana gələn və buradan gedən əhalinin cins-yaş quruluşunun vəziyyəti 66-ci cədvəlin məlumatları ilə səciyyələnir. Həmin cədvəldə öz əksini tapmış son üç ilin (1999, 2000 və 2001-ci illərin) məlumatlarının təhlilindən aydın olur ki, qeyd edilən dövrdə respublikamıza gələn əhali arasında kişilərin xüsusi çəkisi üstünlük təşkil etdiyi halda, əksinə bura- dan gedənlər arasında qadınların xüsusi çəkisi çoxluq təşkil etmişdir. Belə ki, əgər 1999-2001-ci illərdə bütövlükdə respublikamıza gəlmiş əhalinin 61 faizini (11741 nəfərin 7159 nəfəri) kişilər, 39 faizini (11741 nəfərin 4582 nəfəri) qadınlar təşkil etmişlərsə, həmin dövrdə Azərbaycandan kənara gedənlərin 56,2 faizi(26577 nəfərdən 14811 nəfəri) qadınlara, 43,8 faizi isə kişilərə (26377 nəfərdən 11566 nəfərini) aiddir. Onu da qeyd etmək lazımdır ki, öyrənilən dövrdə respublikamıza gələnlərin 76,2 faizini, o cümlədən kişilərin 79,2 faizini, qadınların 71,5 faizini, buradan gedənlərin isə müvafiq surətdə 68,9; 68,8 və 69,0 faizini əmək qabiliyyətli yaşında olanlar təşkil etmişlər.

Maraqlı haldır ki, Azərbaycandan gedənlərlə Azərbaycana gələnlər arasında həm əmək qabiliyyətli yaşından aşağı və həm də bu yaşdan yuxarı olanların xüsusi çəkisi xeyli yüksəkdir. Bu isə onu göstərir ki, respublikanı tərk edənlərin xeyli bir qismini ailəvi surətdə köçüb qedənlər təşkil etmişdir.

Respublikanı tərk edənlər arasında qadınların xüsusi çəkisinin həm əmək qabiliyyətli yaşında, həm də bu yaşdan yuxarı olanlar arasında kişilərə nisbətən əhəmiyyətli dərəcədə yüksək olması isə bir sıra obyektiv və subyektiv səbəblərlə, o cümlədən ölkə ərazisində qadın əməyinin tətbiqi üçün müvafiq iş yerlərinin çatışmaması, mövcud iş yerlərində isə lazımi əmək haqqının həddən artıq aşağı olması, vaxtilə azərbaycanlılarla ailə qurmuş başqa millətlərdən olan qadınların ərləri dünyasını dəyişdikdən sonra əvvəlki yaşayış yerlərinə və qohumlarının yanına köçüb getmələri, başqa ölkələrdə işləməyə, təhsil almağa, müvəqqəti və daimi yaşamağa getməklə, habelə azərbaycanlı mentalitetinə uyğun gəlməyən bəzi neqativ hallarla bağlı ölkənin müvəqqəti və daimi tərk etməklə və s. bağlıdır.

Azərbaycan Respublikasına gələn və gedən əhalinin cins və yaş quruluşunun vəziyyəti (1999—2001-ci illərdə)

Əhalinin əmək quruluşu	Azərbaycana gələnlər (nəfər)							Azərbaycandan gedənlər (nəfər)					
	cəmi	Yekuna nisbətən, %-lə	onlardan				Cəmi gələnlərdən qadınlar, %-lə	cəmi	Yekuna nisbətən, %-lə	onlardan			
			kişilər		qadınlar					kişilər		qadınlar	
			cəmi	Yekuna nisbətən, %-lə	cəmi	Yekuna nisbətən, %-lə				cəmi	Yekuna nisbətən, %-lə	cəmi	Yekuna nisbətən, %-lə
Cəmi əhali	11741	100,0	7159	100,0	4582	100	39,0	26377	100,0	11566	100,0	14811	100,0
Onlardan: əmək qabiliyyətli yaşadək olanlar	1999	17,0	1112	15,5	887	19,4	44,4	4967	18,8	2756	23,8	2211	14,9
Əmək qabiliyyətli yaşında olanlar	8944	76,2	5667	79,2	3277	71,5	36,6	18178	68,9	7962	68,8	10216	69,0
Əmək qabiliyyəti yaşından yuxarı olanlar	798	6,8	380	5,3	418	9,1	52,4	3232	12,3	848	7,4	2384	16,1

[329] Azərbaycanın demoqrafik göstəriciləri (Statistik məcmuə). Bakı, 2002, s. 303, 306, 309.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycandan xarici ölkələrə gedənlərin bir qismi ölkəmizin başqa dövlətlərdə yaratdığı müvafiq dövlət orqanları və təşkilatlarında, səfirliklərində, konsulluqlarda, diplomatik işlərdə çalışmağa, digər bir qismi təhsil almağa, müəyyən elmi təcrübələr aparmağa, təcrübə keçməyə, başqa bir qismi isə müqavilə üzrə işləməyə gedənlərdən ibarətdir. Ona görə də bütün başqa hallarda xaricə getmək prosesinə mənfi hal kimi yanaşmaq olmaz. Onu da nəzərə almaq lazımdır ki, Sovet hakimiyyəti illərində Azərbaycan müstəqil dövlət olmadığından buradan xarici ölkələrə yaşamağa, təhsil almağa və işləməyə getmək asan bir iş deyildi və demək olar ki, İttifaq miqyasında həll edilməsi tələb edilən bir problem idi. Həm də sovet hakimiyyəti illərində xaricə getməyin xeyli məhdud xarakter daşıması, xüsusi qadağalar qoyulması və bu qadağaların daha çox müsəlman ölkələri və xalqlarına tətbiq edilməsi insanların əl-qolunu bağlamış və onların müstəqil hərəkət etməsinə imkan vermirdi.

Müstəqillik qazandıqdan sonra əldə etdiyimiz ən böyük nailiyyətlərdən biri də məhz elə miqrasiya sahəsindəki sərbəstliyə nail olunmasından ibarətdir. İndi hər bir vətəndaşın mövcud qaydalara uyğun olaraq dünyanın hər bir ölkəsində yaşamaq, işləmək və təhsil almaq hüququ olduğundan əhalinin bir qisminin başqa ölkələrə getməsi müsbət hal kimi qiymətləndirilməlidir. ***Ancaq burada ona cəhd göstərmək lazımdır ki, ölkədən «beyin axını» baş verməsin və onu doğuran səbəblər aradan qaldırılsın. Bu, mənəvi-əxlaqi sahədə baş verən neqativ halların törəməsinə səbəb olan şəraitin aradan qaldırılmasına da aiddir. Gələcəkdə elə etmək lazımdır ki, ölkəni tərk etməyin səbəbləri əhalinin həyat şəraitinin pis olması ilə bağlı olmasın.***

Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, müstəqillik illərində Azərbaycana gəlmiş əhalinin əksəriyyəti MDB və Baltikyanı ölkələrin payına düşmüşdü (66-cı cədvələ bax). 66-cı cədvəlin məlumatlarından aydın olur ki, 1990-2001-ci illərdə Yaxın və Uzaq xarici ölkələrdən Azərbaycana gəlmiş 247,8 min nəfər əhalinin 244,5 min nəfərini və ya 98,7 faizini MDB və Baltikyanı ölkələrdən, cəmi 2,8 min nəfərini və ya 1,3 faizini isə Uzaq xarici ölkələrdən gələnlər təşkil et-

mişlər. MDB və Baltikyanı ölkələrdən respublikamıza gələnlərin isə 102,0 min nəfəri (45,9%-i) Rusiya Federasiyasından, 22,9 min nəfəri (9,4%-i) Gürcüstan Respublikasından, 19,2 min nəfəri (7,8%-i) Özbəkistan Respublikasından, 12,9 min nəfəri (5,3%-i) Ukrayna Respublikasından, 10,4 min nəfəri (4,3%-i) Qazaxıstan Respublikasından, 3,8 min nəfəri (1,6%-i) Türkmənistan Respublikasından, 3,4 min nəfəri (1,4%-i) Qırğızıstan Respublikasından və s. gələnlər olmuşlar. Bu dövrdə respublikamıza gələnlərin 63,6 min nəfərini (26,0%-ni) isə ölkəsi göstərilməyənlər təşkil etmişlər.

Tədqiq edilən dövrdə Azərbaycandan gedən əhalinin hansı ölkələrə getməsinin vəziyyəti isə 68-ci cədvəlin məlumutları ilə səciyyələnir. Həmin cədvəlin məlumatlarından aydın olur ki, 1990-2001-ci illəri əhətə edən 12 il ərzində Azərbaycandan Yaxın və Uzaq Xarici ölkələrə 424,1 min nəfər adam çıxıb getmişdir. Onların 394,3 min nəfəri (65,1%-i) Rusiya Federasiyasına, 35,1 min nəfəri (8,9%-i) Ukrayna Respublikasına, 17,9 min nəfəri (4,5%-i) Qazaxıstan və Orta Asiya respublikalarına, 1,7 min nəfəri (0,4%-i) Moldova və Baltikyanı ölkələrə (o cümlədən, 1088 nəfəri Latviya, Litva və Estoniyaya, 597 min nəfəri Moldovaya) gedənlər olmuşlar.

67-ci cədvəl [330]

Azərbaycana gələnlərin sayının dinamikası (nəfərlə)

İllər / Ölkələr	1990	1991	1992	1993	1994	1995	1996	1997	1998	1999	2000	2001
Azərbaycana gələnlər	84279	66300	35705	15250	8629	6222	5781	7528	54404	4806	4351	2574
o cümlədən: MDB və Baltikyanı ölkələrdən	83607	65286	35188	8450	6002	5642	7447	5350	4780	4780	4250	2486
Rusiya Federasiyasından	30857	24508	14676	8432	4226	2968	2800	3588	2826	2952	2710	1673
Ukraynadan	43	3130	1899	965	528	367	385	4733	390	300	291	177
Belorusdan	549	421	207	135	63	51	45	56	25	37	39	7
Özbəkistandan	7057	6804	2202	617	476	336	462	647	248	146	142	82

[330] Azərbaycanın demoqrafik göstəriciləri (Statistik məcmuə). Bakı, 2002, s. 300

Qazaxıstandan	3190	2682	1528	742	553	341	339	405	306	183	150	107
Gürcüstandan	6637	4593	3549	2906	1589	942	65	986	496	354	307	210
Litvadan	119	67	60	28	16	5	3	14	7	22	16	1
Moldovadan	144	128	72	25	17	6	11	6	18	10	2	9
Latviyadan	237	198	129	85	29	35	19	31	12	4	1	7
Qırğızıstandan	1582	1094	319	133	63	38	27	61	29	35	35	22
Tacikistandan	147	76	120	124	39	31	32	27	24	9	6	8
Türkmənistandan	1336	996	557	348	232	165	202	268	187	137	175	151
Estoniyadan	67	48	58	15	6	9	13	19	1	3	-	1
Ölkəsi göstərilməyib	27350	20359	9811	1403	653	706	648	866	781	588	366	27
Uzaq xarici ölkələrdən	672	1018	447	242	97	158	66	19	29	14	17	14

Qeyd edilən dövrdə Azərbaycandan Uzaq Xarici ölkələrə gedənlərin sayı isə 29,8 min nəfərdən və ya bütünlükdə ölkədən gedənlərin 7,0 faizini təşkil etmişlər. Onların 1022 nəfəri (3,4%-i) Almaniyaya, 21,8 min nəfəri (73%-i) İsrailə, 5,9 min nəfəri (19,8%-i) ABŞ-a, 245 nəfəri (0,8%-i) Türkiyə Respublikasına, 0,5 min nəfəri (1,7%-i) başqa ölkələrə getmişlər.

Tədqiqat materiallarının təhlilindən aydın olur ki, yuxarıda adlarını çəkdiyimiz Yaxın və Uzaq xarici ölkələrə əhali miqrasiyasının başlıca səbəbləri əhalinin özü üçün daha yaxşı yaşayış yeri, iş yeri, təhsil almaq, daimi və müvəqqəti yaşayış yeri tapmaq arzusu ilə və sair səbəblərlə bağlıdır.

68-ci cədvəl [331]

Azərbaycandan gedənlərin sayının dinamikası

İllər / Ölkələr	1990	1991	1992	1993	1994	1995	1996	1997	1998	1999	2000	2001
Azərbaycandan gedənlər	137900	106359	49900	28500	89601	16033	13151	15703	10498	9142	9947	7288
o cümlədən: MDB və Baltikyanı ölkələrə	128756	46988	26109	18001	13685	11031	14594	10063	8658	9558	9521	7008
Rusiya Federasiyasına	77452	49864	32804	19416	19416	11316	8149	12363	9175	7118	8393	6230
Ukraynaya	12794	8743	5738	2091	1104	860	704	1116	381	655	513	339
Belorusiyaya	1904	1280	1117	430	230	151	111	173	65	132	148	118
Özbəkistana	1234	1094	532	308	158	144	94	148	45	103	46	32
Qazaxıstana	1975	1950	1078	499	285	204	188	189	156	153	174	170

[331] Azərbaycanın demoqrafik göstəriciləri (Statistik məcmuə). Bakı, 2002, s. 301.

Gürcüstana	1934	1396	651	421	258	178	193	224	81	129	97	53
Litvaya	114	128	56	22	8	7	4	11	1	5	2	3
Moldovaya	228	152	83	48	21	12	17	11	5	8	7	5
Latviyaya	239	128	58	17	4	5	5	2	1	2	1	-
Qırğızıstana	212	629	258	111	56	41	34	73	18	30	31	16
Tacikistana	128	77	35	13	8	7	3	2	1	6	3	1
Türkmənistana	1408	1163	488	275	153	118	1235	86	37	187	63	40
Estoniyaya	113	66	24	4	1	2	56	4	-	3	1	1
Ölkəsi göstərilməyib	29033	33216	4066	2456	1198	644	236	192	97	127	42	-
Uzaq xarici ölkələrə	9144	6503	2912	2391	1600	2348	2120	1109	435	484	426	280
Onlardan: Almaniyaya	20	6	27	15	38	74	407	6	120	127	62	110
İsrailə	8442	4578	1873	1640	1085	1688	1253	643	153	179	199	88
ABŞ-a	543	1873	964	699	447	570	445	-	103	92	103	42
Türkiyəyə	2	4	5	-	-	-	3	1	113	39	56	23

90-cı illərin əvvəllərində yaxın keçmişdə xarici ölkələrə gedib yenidən respublikamıza qayıtmış adamlar arasında aparılan sorğu məlumatlarına əsasən müəyyən edilmişdir ki, indikindən fərqli olaraq, o zaman onların 47 faizi turist gəzintisinə, 25 faizi sovet ordusu sıralarında hərbi xidmətə (ADR, Çexoslovakiya, Macarıstan və s.), 12 faizi xidməti iş ilə əlaqədar ezamiyyətə, 9 faizi qohumlarına baş çəkməyə, 6 faizi oxumağa, ixtisas kurslarına və yalnız 1 faizi işləməyə getmişlər.

Heç vaxt xaricdə olmayan vətəndaşlara «Siz xaricə nə üçün getmək istəyirsiniz?» sualına respondentlərin cavabları çox maraq doğurmuşdur. Məlum olmuşdur ki, xaricə getmək istəyənlərin 63%-i turist gəzintisinə, 15-i işləməyə, 9%-i təhsil almağa, 6%-i ezamiyyətə, 5%-i qohumları ilə görüşmək üçün və yalnız 8%-i daimi yaşamağa getmək arzusunda olanlardı.

Göründüyü kimi, hazırda xarici ölkələrdə işləmək və yaşamaq istəyənlərin xüsusi çəkisi xeyli artmışdır. Bu potensial emiqrantların sosial-demoqrafik xarakteristikası 69-cu cədvəldə verilmişdir. Həmin cədvəlin məlumatlarından göründüyu kimi, xaricə uzun müddətə işləməyə getmək istəyənlərin 80%-i 18-39 yaşında olanların payına düşür. Bunların 67%-i ali və orta texniki ixtisas təhsilli olan kadrlardır. Daimi yaşamağa getmək istəyənlər arasında isə bu göstəricilər müvafiq olaraq 83 və 64 faiz təşkil edir. Buradan aydın olur ki, ölkəni tərk etmək istəyənlər ən «**seçimli**» nümayəndələrdir. Bu, **əlbəttə,** heç şübhəsiz ki, respublikamızda iş qüvvəsinin normal təkrar istehsalı prose-

sinə öz mənfi təsirini göstərməyə bilməz. Bu məlumatlardan görünür ki, xaricə uzun müddətə işləməyə getmək istəyənlərin 31%-i rəhbər vəzifəli şəxslərin, 13%-i texniki mütəxəssislərin, 19%-i humanitar ixtisaslı mütəxəssislərin, 13%-i qulluqçuların, 19%-i yüksək ixtisaslı fəhlələrin payına düşür. Daimi yaşamaq üçün xaricə getmək istəyənlərin isə 43%-ni texniki mütəxəssislər, 43%-ni yüksək ixtisaslı fəhlələr, 14%-ni isə humanitar ixtisaslı mütəxəssislər təşkil edirlər.

Nəhayət, deyilənləri ümumiləşdirərək bu nəticəyə gəlmək olar ki, «müddətli» (xaricə işləməyə gedənlər) emiqrasiyanın ilk nümayəndələri əsasən ölkəmizin iş qüvvəsinin ən ixtisaslı kadrlarından ibarətdir. Sonrakı potensial emiqrantların isə (xaricdə işləmək arzusunda olanlar) daha aşağı təhsil-ixtisas səviyyəsi ilə xarakterizə olunan və əksərən 18-30 yaşında olan gənclərə aiddir. **Əlbəttə, Qərb sahibkarları üçün yüksək ixtisaslı kadrlar, sözsüz ki, daha cəlbedici görünürlər**. Eyni zamanda, müəyyən şərtlər daxilində (Qərbdə iqtisadi konyukturanın yüksəlməsi ilə bağlı iş qüvvəsinə tələbin mövcudluğu, iş qüvvəsi idxalına sərt hökumət məhdudiyyətlərinin olmaması və s.) potensial emiqrantlar üçün də ixtisas səviyyələri aşağı olsa da, gəncliklərin hesabına yüksək adapdasiyaya malik olduqları üçün gözəl perspektivlər yarana bilər. ***Bu proses, hər iki halda, ölkəmizin iqtisadiyyatı üçün ziyanlıdır. Əgər birinci halda, əmək ehtiyatları özünün ən yaxşı hissəsini itirirsə, ikinci halda daha gənc işçilərin getməsi nəticəsində onların (əmək ehtiyatlarının) təkrar istehsal bazası daralır.***

69-cu cədvəl

Potenisal emiqrantların sosial-demoqrafik göstəriciləri (%-lə)

Rəyləri soruşulanlar	Uzun müddət işləmək üçün xaricə getmək istəyənlər	Daimi yaşayış üçün xaricə getmək istəyənlər
Cəmi: O cümlədən:	100	100
Kişilər	58	47
Qadınlar	42	53
20 yaşadək	13	28

20-29 yaşda	38	37
30-39 yaşda	29	18
40-49 yaşda	14	7
50-54 yaşda	2	1
55 və yuxarı	4	9
Ali və natamam ali təhsilli	23	21
Orta texniki və orta ixtisas	44	43
Ümumi orta	21	17
Natamam orta	12	19
Xarici dillər: sərbəst bilirlər	2	6
Oxuyub, başa salırlar	42	40
Bilmirlər	56	54

Qeyd etmək lazımdır ki, xaricə işləməyə və yaşamağa gedənlərin bir çoxu öz ixtisas səviyyələrinin yeni iş yerlərində çalışmaq üçün kifayət dərəcədə yüksək olmasına əmin deyillər. Belə ki, «Xaricə gedərkən insanlar ən çox hansı çətinliklərlə qarşılaşırlar?» sualına sorğuda iştirak edən hər yeddinci şəxs (15 faiz) «bizim işçilərin ixtisas dərəcəsinin aşağı olması»nı, bir o qədər də (17%) «tanış olmayan şəraitdə yaşayıb işləməyə hazır olmaması»nı cavab vermişlər. Xaricdə işləmək üçün ixtisas səviyyəsinin kifayət qədər olmamasının əsas çətinlik olduğunu söyləyənlərin xüsusi çəkisi 70-ci cədvəldə verilmişdir.

71-ci cədvəlin məlumatlarından göründüyü kimi, bütünlükdə rəy sorğusuna əsaslanaraq demək olar ki, xaricdə işləmək amilinin özü burada əsas rol oynayır və respondetlərin əksəriyyəti peşənin ləyaqətli olub-olmamasından, aşağı və ya yüksək ixtisaslı olub-olmamasından asılı olmayaraq, hər hansı bir işlə məşğul olmaq üçün doğma ölkəsini uzun müddətə və bəzən də daimi olaraq tərk etməyə hazırdırlar. Bunu əyani surətdə 71-ci cədvəlin məlumatlarından aydın görmək olar.

70-ci cədvəl

Peşə-ixtisas yararsızlığı səbəbindən xaricdə işləməyin çətin olmadığını bildirənlərin sosial tərkibi (%-lə)

RƏYİ SORUŞULANLAR	Xaricdə işləməyin çətinliyini kifayət qədər yüksək ixtisas səviyyəsinin olmamasında görənlər	ƏSAS
	bütünlükdə	o cümlədən: yaxın zamanda xaricə gedənlər
1. Cəmi, o cümlədən	100	5
2. Ali təhsilli şəxslər	20	7
3. Orta texniki və ixtisaslı şəxslər	16	1
4. Ümumi orta təhsilli şəxslər	16	8
5. Natamam orta təhsilli şəxslər	13	0
6. Rəhbər vəzifəli şəxslər	18	22
7. Texniki mütəxəssislər	24	0
8. «Humanitar» və «təbii» mütəxəssislər	17	0
9. Qulluqçular	13	3
10. İxtisaslı fəhlələr	14	18
11. İxtisassız fəhlələr	13	0
12. İstehsalda məşğul olanlar	15	10
13. Q/istehsal sahələrində məşğul olanlar	12	0
14. Sosial sferanın işçiləri	17	3

Burada belə bir maraqlı faktı da göstərmək lazımdır ki, rəyi soruşulanların 32 faizi işləmək üçün Almaniyanın, 26 faizi Skandinaviya ölkələrinin, 21 faizi Fransanın, 20 faizi Kanadanın, 17 faizi Yaroniyanın və yalnız 9 faizi ABŞ-ın adını çəkmişlər.

71-ci cədvəl

Xaricə gedənlərin yerinə yetirməyə razı olduqları işlərin xarakteri (hər qrup soruşulanlar (%-lə)

RƏYİ SORUŞULANLAR	İŞİN XARAKTERİ				
Bütünlükdə	29	26	23	15	22
Ali təhsilli mütəxəssislər	30	35	19	12	16
Orta texniki və orta ixtisaslı mütəxəssislər	28	23	26	16	23

Ümumi orta təhsilli	25	33	25	14	17
Natamam orta təhsilli	31	19	20	18	30
Rəhbərlər və müavinləri	38	39	12	9	11
Texniki mütəxəssislər	23	32	17	12	28
«Humanitar» mütəxəssislər	39	30	19	13	12
Qulluqçular	27	31	20	11	22
İxtisaslı fəhlələr	31	23	27	18	19
İxtisassız fəhlələr	35	11	32	38	22
İstehsal sahələrində məşğul olanlar	32	27	22	14	19
Qeyri-istehsal sahələrində məşğul olanlar	34	22	21	20	23
Sosial sferada məşğul olanlar	36	26	23	16	15

Göründüyü kimi, ***emiqrantdar əsasən Avropa ölkələrinə üstünlük verirlər. Görünür ki, bu iki amillə, birincisi, bu və ya digər ölkədə həyat səviyyəsi ilə; ikincisi, bu ölkələrin doğma ölkəyə daha yaxın yerləşməsi ilə bağlıdır.***

Beləliklə, əhalinin fəallığını, onu törədən səbəbləri, bu sahədə yaranan disproporsiyaları, iş qüvvəsinin ixracı məsələlərinin miqrasiyadakı rolu, miqrasiyanın iş qüvvəsinin təkrar istehsalına, onun formalaşması və bölüşdürülməsinə, ərazilər üzrə yerləşdirilməsinə olan təsirini, onun müsbət və mənfi tərəflərini nəzərdən keçirib təhlil etdikdən sonra, belə bir nəticəyə gəlmək olar ki, əmək ehtiyatlarının ərazi üzrə bölüşdürülməsi çətin və çox mürəkkəb proses olmaqla bərabər, həm də çoxlu maddi vəsait tələb edir.

Hazırda yeni mənimsənilən rayonlarda mənzil, kommunal və məişət xidmətlərinə olan tələbatın mövcud yaşayış normalarını ödəmək, uşaq bağçaları, təhsil ocaqları və səhiyyə obyektləri tikmək üçün əsas istehsalatda hər məşğul olana milyonlarla manat pul xərcləmək lazımdır. Buna görə də dövlət əmək qabiliyyətli əhalinin məşğulluğunu təmin edərkən, miqrasiyadan, yalnız iqtisadi proqnozlaşdırmadan sonra, bu prosesin iqtisadi cəhətdən səmərəliliyinə əmin olduqda istifadə edə bilər. Bunu da, ***fikrimizcə***, proqnozlaşdırmanın riyazi aparatı bazasında müəyyən etmək olar. Bu məsələni ictimai istehsalın mövcud strukturuna nisbətdə istehsalın ərazi üzrə təşkilinin müxtəlif variantlarından ən optimalını seçməklə həll etmək lazımdır. Əsas məsələ məhdud investisiya imkanları şəraitində xalis məhsul istehsalını maksimum dərəcədə qaldırmaqdan ibarətdir. **İqtisad elmləri doktoru Rəşad Muradovun həmin məsələ ilə bağlı**

apardığı aşağıdakı riyazi hesablama xüsusi maraq doğurur. Onun apardığı tədqiqatı əsas götürərək məsələni ən ümümi şəkildə foralaşdıraq. **Əvvəlcə,** sərbəst əmək ehtiyatlarının cəmləndiyi rayonları **i =1, 2....., m** ilə, bunların hər birindəki sərbəst iş qüvvəsi ehtiyatlarını isə A_i ilə işarə edək. İş qüvvəsinin istifadə olunacağı rayonları (buraya həm «köhnə» rayonlar, həm də yeni mənimsəniləcək rayonları daxil edirik) **j = 1, 2....., n**; bu zaman hər işləyən adambaşına yaradılacaq xalis məhsul göstəricisini C_{ij} ilə işarə edək.

Müvafiq olaraq, hər işləyənə kapital (investisiya) qoyuluşu (xərci) K_{ij} ilə; ümümi kapital qoyuluşu (investisiya) isə **K** ilə limitləşdirilir. Məqsəd cəmləndiyi yerdən istifadə olunacağı rayonlara yenidən bölüşdürülən (miqrasiya olunan) iş qüvvəsinin optimal sayını müəyyən etməkdən ibarətdir ki, bunu da X_{ij} ilə işarə edirik. Daha aydınlıq olsun deyə, şərti işarələri ardıcıllıqla aşağıdakı şəkildə verək:

i – sərbəst əmək ehtiyatlarının cəmləndiyi rayonlar («köhnə» rayonlar) **i =1, 2....., m**;

A_i - i rayonda iş qüvvəsi ehtiyatları;

j – iş qüvvəsinin istifadəsi rayonları («köhnə» və «yeni»);

C_{ij} – j rayonda işlədilən hər nəfərə düşən xalis məhsul;

K_{ij} - istehsalın ərazi təşkilinin bu və ya digər variantı ilə əlaqədar hər adamabaşına kapital (investisiya) qoyuluşları;

K – kapital (investisiya) məsrəflərinin ümumi həcmi;

X_{ij} – iş qüvvəsinin optimal sayı.

Bu şərtlər daxilində funksiya Z(x) bu şəkli alır:

$$Z(x) = \sum_{i=1}^{m} \sum_{j=1}^{n} C_{ij}X_{ij} \Rightarrow Max \qquad (3.1)$$

Bu zaman aşağıdakı məhdudiyyətlər nəzərə alınmamalıdır:

$$\sum_{j=1}^{n} X_{ij} \leq A_i; \quad \sum_{i=1}^{m} \sum_{j=1}^{n} K_{ij}X_{ij} = K; \quad i=1/m,\ j=1/n,\ n>m$$

(3.2)

a. Yəni **j** rayonunda işləyən iş qüvvəsinin ümumi sayı i rayonundakı iş qüvvəsi ehtiyatlarından çox ola bilməz;

b. Bütün kapital məsrəfləri **K** ilə sərt olaraq limitləşdirilir;

c. X_{ij} dəyişənləri tam və mütləq müsbət ölçüdədirlər ($X_{ij} \geq 0$).

Bu məsələ həll olunarkən «köhnə» rayonlarda istifadə olunan iş qüvvəsinin sayı

$$\sum_{i=1}^{m} \sum_{j=1}^{n} X_{ij} - \text{ə}, \qquad (3.3)$$

«yeni» rayonlarda ictimai istehsala cəlb edilən iş qüvvəsinin sayı isə

$$\sum_{i=1}^{m} \sum_{j=m+1}^{n} X_{ij} - \text{ə} \qquad (3.4)$$

Bizim məsələnin şərtləri çərçivəsində ikinci məsələni də formalaşdırmaq olar. Onun məqsədi resursların qiymətləndirilməsi və (m+1) komponenti vasitəsi ilə material məsrəflərinin iqtisadi səmərəliliyini müəyyən etməkdir. Bunu da aşağıdakı kimi yazmaq olar:

$$Z(y) = (\sum_{i=1}^{m} A_i Y_i + KY(m+1)) \Rightarrow Min \qquad (3.5)$$

$$\sum_{i=1}^{m} \sum_{j=1}^{n} (Y_i + K_{ij} Y(m+1)) \geq \sum_{i=1}^{m} \sum_{j=1}^{n} C_{ij}; \qquad Y_i \geq 0; \; i = 1,....m \; (3.6)$$

Burada A_i (i=1...., m) resursu üzrə Y_i-nin qiymətləndirilməsi iqtisadi nöqteyi-nəzərdən böyük maraq doğurur. Hər şeydən əvvəl, bu, bəzi ərazilərdə iş qüvvəsinin çatışmaması ilə əlaqədar olan, iş qüvvəsinin obyektiv zəruri qiyməti kimi çıxış edir. Göründüyü kimi, məsələ çox ümumi şəkildə qurulmuş və model dinamik xarakter daşımır. Bu da aydındır, çünki burada əsas məqsəd iş qüvvəsinin hərəkətinin tədqiqi zamanı xətti pro-

qramlaşdırmanın yaxşı tərtib olunmuş məsələlərindən istifadə etmək imkanını nümayiş etdirməkdən ibarətdir.[332]

Beləliklə, əhalinin sahə aspektində hərəkəti zamanı baş verən kortəbiiliyin azaldılması və işə mütəşəkkillik xarakteri verilməsi üçün, bütün yuxarıda deyilənləri nəzərə alaraq, əhali miqrasiyasının tənzimlənməsi məqsədilə bir sıra tədbirlər işlənib həyata keçirilməlidir.

Bunlara aşağıdakı tədbirlər sistemi daxildir:

➢ bütünlükdə Respublikada miqrasiya edən əhalinin sayı, yaş-cins quruluşu, milli tərkibi diqqətlə öyrənilməli, hər bir ra-yonun ərazisində miqrasiya edən əhalinin dəqiq üçotu aparılmalı; onların yaş-cins tərkibi, təhsil səviyyəsi, peşəsi dəqiq müəyyən edilməlidir;

➢ əhalinin, o cümlədən miqrasiya edənlərin yuxarıda gös-tərilən tərkibi və xarakteristikası nəzərə alınmaqla, həmin ərazilərdə lazımi istehsal obyektləri, infrastruktur obyektləri yaradılmalıdır;

➢ miqrasiya edən əhalinin arzusu və istəkləri diqqətlə öyrənilib nəzərə alınmalı, onların sosial müdafiəsi lazımi dərəcədə təşkil edilməlidir;

➢ ayrı-ayrı ərazilərdə bütünlükdə əhalinin, o cümlədən, gənclərin şəraiti üçün zəruri olan məsələlər öyrənilib həll edilməli, gənclərin yaşayış mənzilləri və işlə təmin edilməsinə dövlət səviyyəsində qayğı göstərilməlidir;

➢ ayrı-ayrı regionlarda əhalinin normal yaş-cins tərkibinin, demoqrafik strukturunun qorunub saxlanması üçün tədbirlər görülməli və onun deformasiyaya üğramasının qarşısı alınmalıdır;

➢ kənd yerlərində lazımi sosial-iqtisadi şərait yaratmaqla, gənclərin şəhərə axınının qarşısını almaq üçün lazımi tədbirlər həyata keçirilməlidir;

➢ həddindən artıq iri şəhərsalmaya yol verməmək, tədricən kiçik və orta şəhərlərin salınmasına diqqət yetirmək və hə-

---

[332] Daha ətraflı bax: *R.Ş.Muradov.* «Müasir mərhələdə Azərbaycan Respublikasında əmək bazarının formalaşması və məşğulluq siyasətinin əsas istiqamətləri» doktorluq dissertasiyası. Bakı, 2002.

min şəhərlərin kompleks inkişafını təmin etməklə, iri şəhərlərə əhali axınının qarşısını almaq üçün tədbirlər görüb həyata keçirmək tələb olunur.

Məhz bu tədbirlərin həyata keçirilməsi respublika ərazisində əhalinin miqrasiyasının nizama salınmasına, onların ərazilər, şəhər və kəndlər üzrə optimal qaydada yerləşməsinə, müsbət təsir göstərməklə, əhalinin təkrar istehsalı prosesinin normal qaydada həyata keçirilməsinə köməklik göstərə bilər.

Burada belə bir məsələni də xüsusi olaraq qeyd etmək lazımdır ki, respublikamızın əhalisinin təbii təkrar istehsalına mənfi təsir göstərən amillərdən biri də 1988-ci ildən başlayan ermənia-azərbaycanlı müharibəsi nəticəsində respublikadaxili əhali miqrasiyasının lazımi səviyyədə nizamlana bilməməsidir.

Demək lazımdır ki, indiki durumda məcburi köçkünlər öz sayına, miqyasına və problemlərinə görə ən böyük miqrant kateqoriyasıdır. Hazırda Azərbaycan Respublikasında Ermənistan Respublikasından qovulmuş 204,6 min nəfər qaçqın, ölkə ərazisinin 20 faizinin Ermənistan silahlı qüvvələri tərəfindən zəbt edilməsi nəticəsində öz daimi yaşayış yerlərini tərk etmiş 600 min nəfərə yaxın məcburi köçkün, etnik münaqişə nəticəsində Özbəkistandan Azərbaycana pənah gətirmiş 29 min nəfər məshəti türkü, müəyyən səbəblər üzündən öz həyatını təhlükədən qorumaq məqsədilə bir sıra ölkələrdən gəlmiş və geri qayıtmaq arzusunda olmayan 2,8 min nəfər sığınacaq axtaran şəxs, 90-cı illərdə bəzi MDB ölkələrində azərbaycanlı əhaliyə qeyri-sağlam münasibət və onların hüquqlarının pozulması üzündən Azərbaycana qayıtmaq məcburiyyətində qalan və vətəndaşlığı olmayan on minlərlə azərbaycanlı əhali, Xəzər dənizinin səviyyəsinin dəyişməsi, torpaq sürüşməsi, şoranlaşma və digər proseslər nəticəsində öz yaşayış yerlərini respublika daxilində dəyişməyə məcbur olan 4,5 min nəfər ekoloji miqrant vardır. Bunlarla yanaşı, mövcud iqtisadi çətinliklər üzündən xarici ölkələrə qeyri-rəsmi yollarla gedən və sayı yüz minlərlə ölçülən əməkçi miqrantlar, şəhərlə kənd arasında iqtisadi və məişət şəraitində mövcud olan fərqlərə görə ölkə daxilində kəndlərdən, qəsəbələrdən, xırda və orta şəhərlərdən iri şəhərlərə gələn sosial-

iqtisadi miqrantlar, tranzit miqrasiya və digər miqrasiya formaları mövcuddur.

Son illərdə Azərbaycan Respublikasında bazar münasibətlərinin formalaşması istiqamətində aparılan iqtisadi islahatlar, dünyanın aparıcı şirkətləri ilə nizamlanmış və artıq öz bəhrəsini verməyə başlayan kontraktlar Azərbaycanın əlverişli geosiyasi mövqeyi, tarixi **«İpək yolu»nun** bərpası **Bakı—Tbilisi-Ceyhan** əsas boru kəmərinin çəkilməsi və bu baxımdan ölkəmizin strateji əhəmiyyəti yaxın gələcəkdə respublikamızda miqrasiya axınlarının güclənməsini proqnozlaşdırmağa əsas verir. Bu baxımdan Azərbaycan Respublikasının qarşısında ölkənin mənafeyinə və beynəlxalq normalara uyğun olan dövlət miqrasiya siyasətinin hazırlanması və onun əsasında miqrasiya proseslərinin idarə edilməsinin dövlət sisteminin formalaşdırılması kimi çox mühüm vəzifə durur. Nəzərə almaq lazımdır ki, 1997—1998-ci illərdə Azərbaycan dövləti və beynəlxalq təşkilatlar tərəfindən Füzuli və Ağdam rayonlarının zəbt olunmuş və işğaldan azad edilmiş kəndlərində yaşayış üçün lazımi şərait yaradılmaqla və təhlükəsizlik üçün təminat verilməklə 50 min nəfərə yaxın məcburi köçkünün könüllü surətdə geri qaytarılmasına baxmayaraq, onların sayı 1 iyul 1998-ci il tarixə 599084 nəfər və ya 144939 ailə təşkil etmişdir. Milli tərkibinə görə, məcburi köçkünlərin əksəriyyətini (99 faizini) azərbaycanlılar təşkil edir. Məcburi köçkünlərin tərkibində 4 min nəfərə yaxın kürd, 428 nəfər rus, 240 nəfər digər millətlərin nümayəndələri vardır. Həmin ildə məcburi köçkünlərin 92 min nəfəri çadır düşərgələrində, 280 min nəfəri ictimai binalarda (istirahət evlərində, pansionat və sanatoriyalarda, mehmanxanalarda, məktəblərdə, idarə binalarında və s.), 236 min nəfərə yaxını isə qohumlarının evlərində və ya onlar üçün ayrılan yerlərdə tikdikləri şəxsi evlərdə məskunlaşmışlar. Ərazi baxımından məcburi köçkünlərin 53 faizi və ya 317 min nəfəri şəhərlərdə, xüsusilə Bakıda (138,7 min nəfər), qalanlar isə Bərdə, İmişli, Ağcabədi, Biləsuvar, Saatlı, Sabirabad və digər rayonların ərazilərində müvəqqəti məskunlaşmışlar.

2002-ci ilin əvvəlinə olan məlumatlara əsasən, respublikamızda mövcud olan qaçqın və məcburi köçkün ailələrinin

sayı 190676 olmuşdur (onların 44771-ni və ya 23,5%-ni qaçqın, 145905-ni və ya 76,5%-ni isə məcburi köçkün ailələri təşkil etmişdir). Həmin ailələrdəki şəxslərin sayı isə 783241 nəfər təşkil etmişdir (onların 211229 nəfərini və ya 27,0 faizini qaçqınlar, 57012 nəfərini və ya 73,0 faizini isə məcburi köçkünlər təşkil etmişdir). Bu qaçqın və məcburi köçkünlərin 243924 nəfəri və ya 31,1 faizi Bakı şəhərində, yerdə qalan 539317 nəfəri və ya 68,9 faizi isə Azərbaycanın başqa rayon və şəhərlərində yaşamışlar[333]. Çadır düşərgələrində, daxmalarda, yük vaqonlarında və digər yerlərdə, hətta minimum yaşayış şəraitinin olmaması məcburi köçkünləri daha yaxşı şərait yaratmaq məqsədilə tez-tez yerlərini dəyişməyə təhrik edir. Bunun nəticəsidir ki, təkcə 1997-ci ildə 2952 məcburi köçkün ailəsi əvvəlki qeydiyyat yerində uçotdan çıxmış, lakin yeni yaşayış yerində olanların cəmi 1507-si qeydiyyata düşmüşlər. Bundan başqa, 1997-ci ildə 5148 məcburi köçkün ailəsi qeydiyyatda olduğu yerlərdə yaşamışlar. Bütün bunlar isə məcburi köçkünlərin qeydiyyatı və uçotunu, habelə onlara yardım proqramlarının lazımi səviyyədə həyata keçirilməsini çətinləşdirir.

Məcburi köçkünlərin təkrar miqrasiyasının ən mühüm səbəblərindən biri də əmək qabiliyyətli əhalinin işlə təmin olunmasında mövcud olan çətinliklərdir. Son illərdə bu sahədə görülən bir sıra tədbirlərə baxmayaraq, 1997-ci ilin sonunda əmək qabiliyyətli 300 min nəfərə yaxın məcburi köçkünün cəmi 102 nəfəri və ya 34 faizi daimi, yaxud da müvəqqəti işlə təmin olunmuşlar. Bu vəziyyət məcburi köçkünlər arasında xüsusilə daha da yarıtmazdır. Məcburi köçkünlərin ümumi sayının 53 faizindən çoxunu təşkil edən qadınlar arasında əmək qabiliyyətli əhalinin işlə təminat səviyyəsi kişilər üzrə müvafiq göstəricilərdən xeyli aşağıdır. Belə ki, məcburi köçkünlər içərisində əmək qabiliyyətli kişilərin 38 faizi işlə təmin olunmuşdursa, bu göstərici qadınlar üzrə cəmi 28 faiz təşkil edir.

Bir sıra dağlıq və dağətəyi rayonlardan olan məcburi köçkünlərin məsukunlaşdıqları aran bölgələrində iqlim şəraitinə uyğunlaşması işi də ciddi problem yaradır. Məhz bu səbəbdən

---

[333] B a x: Azərbaycanın demoqrafik göstəriciləri. 2002. Bakı, 2002, s. 313.

məcburi köçkünlərin infeksiya xəstəliklərinə tutulması və ölüm halları geniş yayılmışdır. Bərdə rayonunda yerləşən çadır düşərgəsində 1997-ci ildə baş verən ölüm halları buna misal ola bilər. Belə ki, 1997-ci ildə həmin düşərgələrdə 911 məcburi köçkün ölümü qeydə alınmışdır ki, bu da məcburi köçkünlərin respublika üzrə ölüm hallarının 28,7 faizini təşkil etmişdir. Əgər 1997-ci ildə respublika üzrə məcburi köçkünlər arasında doğulanların sayı ölənlərin sayından 2,3 dəfə çox olmuşdursa, Bərdə rayonunda yerləşən müvafiq kontingent üzrə bu göstərici mənfi xarakter daşıyır və 730 yeni doğulan, 911 ölüm təşkil etmişdir. Əksinə, Füzuli rayonunun işğaldan azad olan kəndlərinə könüllü surətdə qayıdan əhali arasında doğum halları ölüm hallarını üç dəfə üstələmiş və 1997-ci ildə orada məskunlaşmış şəxslərdən biri də qeydiyyatdan çıxaraq başqa yerə miqrasiya etməmişdir.

Respublikada ölkədaxili miqrasiya kateqoriyalarından biri də **ekoloji miqrasiyadır**. Ölkəmizdə ekoloji miqrasiyanın meydana çıxması səbəblərinə əsasən Xəzər dənizi səviyyəsinin dəyişməsi, dağətəyi bölgələrdə meşə və kolluqların qırılması nəticəsində baş verən torpaq sürüşmələri, aran bölgələrdə meliorasiya işlərinin vəsait və texnika qıtlığı üzündən ciddi şəkildə ixtisara salınması ilə əlaqədar torpaqların şoranlaşması, qismən də zəlzələlər, sellər, radioaktiv şüalanmalar, Bakı və Sumqayıt şəhərlərində zərərli sənaye tullantılarının çoxalması və sair kimi amillər aid edilir.

Ekoloji səbəblərdən əhalinin ölkə daxilində miqrasiyası haqqında rəsmi üçot materiallarının olmamasına baxmayaraq, onun miqyası barədə yerli icra hakimiyyəti orqanlarının hesabatları əsasında müəyyən təsəvvür yaratmaq mümkündür. Belə ki, Xəzər dənizi səviyyəsinin dəyişməsi ilə əlaqədar olaraq, respublikamızın Lənkəran, Neftçala, Astara, Xaçmaz, Dəvəçi və Abşeron rayonlarında 3 min nəfər öz daimi yaşayış yerini dəyişməyə məcbur olmuşdur. Torpaq sürüşmələri hallarının baş verdiyi İsmayıllı, Şamaxı, Yardımlı, Lerik, Quba, Qusar və bir sıra başqa rayonlarda göstərilən səbəbdən öz daimi yaşayış yerlərini dəyişməyə məcbur olanların sayı isə 1,5 min nəfər təşkil etmişdir. Digər ekoloji səbəblərdən məcburi surətdə yaşayış

yerlərini dəyişən əhali barədə heç bir məlumat toplanmadığından, onların miqrasiyası barədə ftkir söyləmək mümkün deyildir. Ekoloji təhlükənin insan fəaliyyəti ilə əlaqədar olan hallarının qarşısının alınmaması, əhalinin bu təhlükə barədə qabaqcadan məlumatlandırılmaması, fövqəladə hallar üçün ehtiyat proqramlarının hazırlanmaması və bu problemlə bağlı digər məsələlərin həllinin təxirə salınması qarşısıalınmaz ekoloji proseslərin baş verməsinə gətirib çıxara bilər. Odur ki, bu məsələnin dövlət səviyyəsində həlli üçün imkan daxilində təcili tədbirlər həyata keçirilməlidir. Müstəqillik illərində ölkədə həyata keçirilən islahatlar nəticəsində kolxoz və sovxozların ləğvi, dövlət müəssisələrinin fəaliyyətində baş verən durğunluq, qaz və elektrik enerjisi ilə təchizatda mövcud olan çətinliklər ölkə daxilində sosial-iqtisadi miqrasiya proseslərini gücləndirmişdir.

Ölkədaxili sosial-iqtisadi miqrasiya axınının istiqaməti əsasən kənd yerlərindən iri şəhərlərə, xüsusilə Bakı şəhərinin yerləşdiyi Abşeron aqlomerasiyasına yönəldilmişdir. Daxili miqrasiyanın, xüsusilə sosial-iqtisadi miqrasiyanın uçotunun lazımi səviyyədə aparılmamasına baxmayaraq, təxmini hesablamalar və müşahidələr bu axının yüz minlərlə əmək qabiliyyətli əhalni əhatə etdiyini əyani surətdə göstərir. Ölkədaxidi sosial-iqtisadi miqrasiyanın intensivləşməsinə təsir edən amillərdən ən mühümü iri şəhərlərdə, xüsusilə Bakı şəhərində yaşayış minimumunu təmin etmək üçün heç olmazsa, müvəqqəti iş yerləri yaratmaq probleminin kənd yerlərindəkinə nisbətən asanlıqla həll edilməsidir.

Əhalinin ölkə daxilində iqtisadi motivlər üzündən baş verən xaotik miqrasiyanın tənzimlənməsini və rayon yerlərində əmək qabiliyyətli yerli sakinlərin, habelə orada müvəqqəti məskunlaşan qaçqın və məcburi köçkünlərin məşğulluğunu təmin etmək üçün xırda və orta sahibkarlığın, fermer və kəndli təsərrüfatının intensiv inkişafına, yerli xammalın emalına və xalq sənətkarlığına əsaslanan yeni müəssisələrin yaradılmasına yönəldilmiş kompleks proqramlar həyata keçirilməli, bu tədbirlərə beynəlxalq iqtisadi təşkilatlar və maliyyə qurumları fəal surətdə cəlb olunmalı və beləliklə də, kənd əhalisinin məşğulluq probleminin həlli vasitələrindən maksimum istifadə edilməlidir.

Respublikamızda miqrasiyanın mühüm formalarından biri də **xarici miqrasiyadır**. Bu miqrasiyanın subyektini **emiqrasiya və immiqrasiya** formalarında baş verən aşağıdakı miqrant kateqoryiaları təşkil edir: ***qaçqınlar, qaçqınlara oxşar vəziyyətdə olan miqrantlar, əmək miqrasiyası, tranzit miqrantlar, digər qanuni miqrantlar və qeyri-qanuni miqrantlar.***

Azərbaycan Respublikası keçmiş Sovet respublikaları arasında qaçqın problemi ilə üzləşən ilk ölkədir. Qaçqınların ilk axını Ermənistandan 1987-ci ilin sonundan başlamışdır. 1990-cı ilin əvvəlində artıq 200,5 min nəfər Ermənistandan zorla qovulub çıxarılmış və Azərbaycana pənah gətirmişdir. Bunların 186 min nəfərini azərbaycanlılar, 11 min nəfərini kürdlər və 3,5 min nəfərini ruslar təşkil etmişlər. Ermənistandan qaçqın düşmüş rusların əsas hissəsini, habelə kürdlərin və azərbaycanlıların bəzilərinin sonradan Rusiyaya və digər MDB ölkələrinə getməsi nəticəsində 1992-ci ildə Azərbaycan Respublikasında Ermənistandan zorakılıqla qovulmuş 196846 nəfər qaçqın qeydə alınmışdır. Bununla yanaşı, əvvəllər Gürcüstandan deportasiya olunaraq Orta Asiya Respublikalarında yerləşdirilmiş məshəti türkləri 1989-cu ildə Özbəkistanda baş vermiş milli münaqişə nəticəsində keçmiş SSRİ-nin başqa regionlarına, xüsusilə Azərbaycana və Rusiyaya köçməyə məcbur oldular.

1989—1991-ci illər ərzində Azərbaycana pənah gətirən ***məshəti türklərinin sayı 51649 nəfər təşkil etmişdi***. Sonrakı illərdə isə, əsasən iqtisadi motivlərdən, məsəhəti türklərinin bir hissəsi Azərbaycan Respublikasını tərk etdi. Nəticədə, 1998-ci ilin əvvəlinə olan vəziyyətə görə, Respublikamızda 204,6 min nəfər Ermənistan Respublikasından olan qaçqın və 29 min nəfər məshəti türkü yaşamışlar. Ümumi sayı 233,6 min nəfərdən artıq olan qaçqınların 63 faizi və ya 147,3 min nəfəri Bakı, Gəncə, Sumqayıt və Xanlar şəhərlərində, qalan hissəsi, xüsusilə məhsəti türklərinin demək olar ki, hamısı respublikamızın kənd və rayonlarında məskunlaşmışlar.

Respublikamızda qaçqınlarla yanaşı, qaçqınlara oxşar vəziyyətdə olan **miqrantlar da mövcuddur**. Bu cür miqrant kateqoriyasına 1989-cu ildə Qazaxıstanı tərk etmək məcburiyyətində qalmış 1,6 min nəfərə yaxın etnik azərbaycanlılar, Rusiya

Federasiyasında yerli əhalinin azərbaycanlılara qeyri-səmimi yanaşması nəticəsində yaranan problemlərlə əlaqədar olaraq, oradakı daimi yaşayış yerlərini tərk etməyə məcbur olmuş 6 min nəfərə yaxın soydaşımız, siyasi səbəblərdən İran İslam Respublikasını tərk edərək respublikamızda sığınacaq tapan və ümumi sayı təxminən 3 min nəfər olan etnik azərbaycanlılar, Əfqanıstandan, İraq Respublikasından, habelə digər ölkələrdən öz həyatlarını təhlükədən qorumuq məqsədilə respublikamıza gələn 334 şəxs daxildir.

1991—1992-ci illərdə Gürcüstan Respublikasında mövcud olan mürəkkəb siyasi vəziyyətlə və azərbaycanlıların sıxışdırılması ilə əlaqədar olaraq, Azərbaycana köçməyə məcbur olan və dəqiq uçotu aparılmayan azərbaycanlıları da qaçqınlara oxşar vəziyyətdə olan şəxslər kateqoriyasına aid etmək olar. 1993-cü ildən sonra Azərbaycan Respublikası ilə Gürcüstan Respublikası arasında yaranmış müsbət münasibətlərə əsasən həmin şəxslərə geriyə qayıtmaq üçün lazımi təminat verilmişdir.

Respublikamızda hər bir şəxsin qanuni olaraq ölkədən getməsi və ölkəyə gəlməsi üçün bütün zəruri şərait yaradılmışdır. Qeyd etmək lazımdır ki, müstəqilliyin ilk illərində ölkəmizdən emiqrasiya axını, xüsusilə rusdilli əhali axını müəyyən dərəcədə siyasi, milli və etnik xarakter daşıyırdısa, sonrakı illərdə emiqrasiyanın ən mühüm səbəbini iqtisadi motivlər təşkil etmişdir. 1991—1997-ci illər ərzində Azərbaycan Respublikasından qanuni əsaslarla cəmi 272,1 min nəfər emiqrasiya etmiş, onların əsas hissəsini ruslar (112,7 min nəfər), azərbaycanlılar (65,5 min nəfər), ermənilər (35,9 min nəfər), yəhudilər (11,1 min nəfər) və ukraynalılıar (9,8 min nəfər) təşkil etmişlər. Emiqrasiya sahəsində Azərbaycan Respublikasının əsas tərəf müqabilləri keçmiş İttifaqa daxil olan Rusiya Federasiyası və Ukrayna olmuşdur. Digər xarici ölkələr arasında Türkiyə, Almaniya, Polşa, İsrail və Birləşmiş Ərəb Əmirliklərinə gedənlərin xüsusi çəkisi çoxdur. Əsasən iqtisadi motivlər üzündən respublikamızdan Rusiya Federasiyasına, Ukraynaya və digər MDB ölkələrinə, habelə Türkiyəyə, İrana, Birləşmiş Ərəb Əmirliklərinə pasport qeydiyyatından çıxmadan, turist qismində və müvəqqə-

ti vizalar üzrə gedən vətəndaşların uçotunun lazımi səviyyədə aparılmaması ölkəmiz üçün əlavə problem yaradır.

1991—1997-ci illərdə Azərbaycan Respublikasına ***immiqrasiyanın səviyyəsi emiqrasiyadan xeyli aşağı olmuşdur***. Həmin illərdə respublikamıza qanuni yolla 123,3 min nəfər gəlmişdir ki, onların da 93,8 min nəfərini azərbaycanlılar, 10 min nəfərini ruslar, yerdə qalan hissəsini isə ukraynalılar, tatarlar, yəhudilər, iraqli kürdlər və digər millətlərin nümayəndələri təşkil etmişlər. MDB ölkələri ilə sərhədlərin nisbətən şəffaf olması miqrasiya proseslərinin dövlət tərəfindən tənzimlənməsi işində başlıca maneələrdən biridir. Göstərilən proses ölkəmizin dövlət təhlükəsizliyinə və iqtisadi mənafeyinə neqativ təsir etməklə yanaşı, respublikadakı demoqrafik vəziyyətə də mənfi təsir göstərir. Miqrantlar əsasən 20-40 yaşlı kişiləri əhatə etdiyindən, respublikamızda gənc qızların ərə getməsini çətinləşdirir və doğum hallarının azalmasına səbəb olur. Məhz göstərilən səbəblərin təsiri nəticəsində 1989-cu ilin məlumatlarına görə, keçmiş SSRİ məkanında əhalinin artımına görə birinci sırada Azərbaycanda əhalinin illik orta artımı həmin dövrdəki 1,5 faizdən 1997-ci ildə 0,75 faizə enmişdir.

Son illərdə respublikamızda **xarici əmək miqrasiyasının** tənzimlənməsi sahəsində də müəyyən tədbirlər həyata keçirilmişdir. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tərkibində Miqrasiya İdarəsi yaradılmışdır. Həmin struktur xarici ölkələrdə işləmək üçün rəsmi müraciət edən şəxslərin qeydiyyatını aparır, xarici ölkələrdə onlara müvafiq iş yerləri axtarır, onları xarici ölkələrə işləməyə göndərir. Lakin normativ baza olmadığından həmin struktur Azərbaycan Respublikasından başqa ölkələrə işləməyə gedənlərin dəqiq uçotunu apara bilmir, habelə, əcnəbi işçi qüvvəsinin Azərbaycan Respublikası ərazisində işə cəlb edilməsini tənzimləmir. Yaxın gələcəkdə zəruri normativ bazanın yaradılması və xarici əmək miqrasiyası sahəsində ikitərəfli və çoxtərəfli dövlətlərarası müqavilələr bağlanması yolu ilə əmək miqrasiyası proseslərinin tənzimlənməsi həm işsizlik proebleminin həllinə və əməkçi miqrantların hüquqlarının dövlət səviyyəsində qorunmasına, həm də onların pul köçürmələrinin respublikamızın və

xarici əmək miqrantlarının ailələrinin iqtisadi mənafelərinə yönəldilməsinə imkan verərdi. Göstərilən məsələlərin həlli zamanı xarici əmək miqrasiyasının tənzimlənməsi sahəsində inkişaf etmiş Avropa ölkələrinin və Türkiyə Respublikasının təcrübəsindən geniş istifadə olunması müsbət nəticələr verərdi.

Xarici əmək miqrasiyasının tərkib hissələrindən və gələcəkdə tənzimlənmə zəruriliyi güclənəcək yollarından biri də Respublikamızın əmək bazarında xarici iş qüvvəsinin iştirakıdır. Çünki rəsmi statistika orqanlarına xarici firmalara məxsus olan və onların iştirakı ilə yaranan müəssisələrdə işləyən əcnəbi vətəndaşlar barəsində verilən hesabatlar heç də ölkəmizin əmək bazarında xarici ölkələrdən, xüsusilə Türkiyə və İrandan gələn şəxslərin iştirakına aid məlumatları tam əhatə etmir. Belə ki, rəsmi hesabatlara görə, qanuni əsaslarla respublikada əmək fəaliyyəti ilə məşğul olan immiqrantların sayı 1997-ci ilin sonuna cəmi 2,1 min nəfərə yaxın olmuşdur. Halbuki təkcə tikinti, ticarət və digər xidmət sahələrində işləyən əcnəbilərin faktiki sayı qeyd olunan rəqəmdən dəfələrlə çoxdur.

Qeyd olunanları nəzərə alaraq, daxili əmək bazarının dövlət tərəfindən tənzimlənməsi, həmçinin Azərbaycan vətəndaşlarının iş yerlərinin üstün hüquqlarının təmin edilməsi məqsədi ilə **immiqrasiya kvotası** tətbiq olunmalı, müvafiq dövlət orqanlarında rəsmi qeydiyyatdan keçməyən xarici ölkə vətəndaşlarının respublikamızın ərazisində əmək fəaliyyəti ilə məşğul olmalarına yol verilməməli, kvotalar ayrı-ayrı ixtisaslar üzrə dəqiqləşdirilməli və beləliklə də işləmək üçün respublikamıza ayrı-ayrı sahələr üzrə mütəxəssislərin lazımi sayda gəlməsi əsaslandırılmalı və bunun üçün hər cür şərait yaradılmalıdır.

Miqrasiyanın respublikamızın gələcək Avrasiya nəqliyyat dəhlizində həlledici məntəqəyə çevriləcəyi halda mühüm rol oynayacaq kateqoriyalardan biri də **tranzit miqrasiyasıdır**. Tranzit miqrantların uçotunun aparılmasında da çatışmazlıqlar mövcuddur və bu barədə olan məlumatlar müntəzəm xarakter daşımır. Azərbaycan Respublikasının daxili işlər orqanlarının verdiyi məlumatlara görə, qrup halında Azərbaycandan tranzit ərazisi kimi istifadə edən Türkiyə Respublikasından 47 nəfər kürd və İraqdan gəlmiş bir neçə şəxs aşkar edilmişdir ki, onların

da əsas məqsədi Azərbaycandan keçməklə Rusiyaya, oradan isə Avropaya getməkdən ibarət olmuşdur. BMT-nin qaçqınlar üzrə Ali Komissiyasının Bakıdakı nümayəndəliyində son illərdə 400-dən artıq heç bir sənədi olmayan əcnəbi və ya vətəndaşlığı olmayan şəxs qeydiyyata alınmışdır. Onların əksəriyyətinin niyyəti Azərbaycan Respublikasından qanunsuz yollarla başqa ölkələrə getmək olmuşdur. ***Beləliklə, Azərbaycan Respublikası qanunsuz miqrantların sərbəst hərəkət etdiyi ölkələrdən birinə çevrilmək təhlükəsi qarşısında qalmışdır. Bu isə Respublika üçün əlavə problemlər yaratmaqla bərabər, onun beynəlxalq imicinə xələl gətirə bilər.***

Ölkəmizdə mövcud olan daxili və xarici miqrasiya proseslərinin təhlili göstərir ki, tənzimlənməyən miqrasiya halları eyni zamanda cinayətkarlığın dinamikasına təsir edən mühüm amillərdən biri kimi meydana çıxır. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin məlumatlarına görə, miqrasiya proseslərinin dərinləşməsi miqrantlar arasında cinayətlərin sayının getdikcə artmasına səbəb olur. Məsələn, 1992-ci ildə miqrantlar arasında 10 cinayət hadisəsi qeydə alınmışdırsa, bu göstərici 1997-ci ildə 310-a çatmışdır. Bu isə miqrasiya proseslərinin tnzimlənməsi sahəsində dövlət siyasətinin olmamasının birbaşa nəticəsi kimi qiymətləndirilməlidir.

Azərbaycan Respublikasındakı ***xarakterik xüsusiyyətləri ilə seçilən miqrasiya sahəsindəki mövcud vəziyyətin təhlili bir daha təsdiq edir ki, bu prosesin dövlət tərəfindən milli mənafelər gözlənilməklə beynəlxalq normalara uyğun tənzimlənməsi üçün təsirli tədbirlər görülməlidir.*** Təsadüfi deyildir ki, hazırda Azərbaycan Respublikasının hökumət və dövlət orqanları əhali miqrasiyasının idarə edilməsi sahəsində xeyli səmərəli işlər görür və bunun nəticəsində həmin sahədə baş verə biləcək neqativ proseslərin qarşısını almaq mümkün olur.

- Azərbaycan Respublikasının Nazirlər Kabineti ölkənin ən yüksək icraedici hakimiyyət orqanı olaraq, aşağıdakı dövlət tədbirlərinin həyata keçirilməsinə məsuliyyət daşıyır:

➢ miqrasiyanın ayrı-ayrı məsələləri ilə bağlı dövlət idarəetmə və icra orqanlarının fəaliyyətinin əlaqələndirilməsi; onlara rəhbərlik etməsi;

➢ Azərbaycan Respublikası Prezidentinin miqrasiya sahəsindəki fərman və sərəncamlarının icrası;

➢ miqrasiya ilə bağlı dövlət proqramları və tədbirlərin hazırlanması, onların həyata keçiriilməsi;

➢ ali icra hakimiyyəti orqanı qarşısında miqrasiya sahəsində təkliflər verilməsi.

- ***Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:***

➢ demoqrafik prosesləri, əhali sakinliyini öyrənir və demoqrafiya, o cümlədən miqrasiya siyasətinin formalaşmasına dair təkliflər hazırlayır;

➢ Qaçqınlar və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi ilə birlikdə millətlərarası münaqişə bölgələrindən və təcavüzə məruz qalmış rayonlardan olan qaçqınların və məcburi köçkünlərin ictimai istehsala cəlb edilməsi və sosial müdafiəsi sahəsində tədbirlər həyata keçirir;

➢ Səlahiyyətləri çərçivəsində xarici ölkələrlə və beynəlxalq təşkilatlarla əlaqələr yaradır, faydalı əməkdaşlığın perspektiv inkişaf proqramlarını işləyib hazırlayır, dövlətlərarası və idarələrarası müqavilə layihələrinin işlənməsində iştirak edir, respublikamızın əmək və əhalnin sosial müdafiə məsələləri üzrə beynəlxalq təşkilatlarda üzvlüyü ilə bağlı tədbirlərin həyata keçirilməsini təşkil edir;

➢ Respublikamızın sosial-iqtisadi inkişaf səviyyəsindən asılı olaraq, əmək və əhalinin sosial müdafiəsi sahəsində beynəlxalq Konvensiyalara və digər aktlara qoşulmasına dair və Respublika qanunvericiliyinin bu aktlara uyğunlaşdırılması barədə təkliflər hazırlayır;

➢ xarici əmək miqrasiyası sahəsində respublikamızın dövlət siyasətinin formalaşmasında, dövlətlərarası iki və çoxtərəfli sazişlərin hazırlanmasında iştirak edir və onları müəyyən edilmiş qaydada həyata keçirir;

➢ əhalinin məşğulluğu proqramlarını həyata keçirir, ölkənin əmək bazarını hərtərəfli surətdə təhlil edərək, onun inkişaf proqnozlarını hazırlayır və s.

- ***Qaçqınlar və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsi:***

➢ «Qaçqınlar və məcburi köçkünlərin statusu haqqında» Azərbaycan Respublikası Qanununun həyata keçirilməsi üçün zəruri olan hüquqi aktların və təlimatların hazırlanmasını təşkil edir;

➢ qaçqın və məcburi köçkünlərə aid hökumət qərarlarının yerinə yetirilməsinin təmin edilməsi, bu şəxslərin məskunlaşması və işlə təmin olunması üçün müvafiq təşkilatlarla birlikdə lazımi tədbirlər görür;

➢ vətəndaşların məcburi tərk etdikləri yerlərə könüllü surətdə qayıtmasına şərait yaradılması istiqamətində dövlət orqanları və təşkilatları tərəfindən aparılan işləri əlaqələndirir;

➢ qaçqınların vətəndaşlıq hüquqlarının bərpa edilməsi, milli mənsubiyyətinə və siyasi baxışlarına görə işdən çıxarılmış və doğma yerlərindən qovulmuş şəxslərin hüquqlarının bərpası və onlara dəyən maddi zərərin qaytarılması sahəsində tədbirlər görür;

➢ bu və ya digər səbəbdən qaçqın düşmüş, daimi yaşayış yerlərinə qayıtmaqdan imtina etmiş şəxslərin məskunlaşması və ictimai istehsala cəlb edilməsi üçün uzunmüddətli proqramların hazırlanmasında iştirak edir;

➢ qaçqınların və məcburi köçkünlərin respublikanın şəhər və rayonları üzrə uçotunu təşkil edir, onların yaşı, təhsil səviyyəsi və yaşayış şəraiti barədə məlumatları torlayır və təhlil edir;

➢ Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birlikdə qaçqınların və məcburi köçkünlərin işlə təmin olunması və onlara peşə təliminin verilməsi sahəsində tədbirlər işləyib hazırlayır və həyata keçirir və s.

- Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi:

➢ Respublika ərazisində pasport rejimini və yaşayış yerləri üzrə qeydiyyatı təşkil edir;

➢ vətəndaşlar tərəfindən sərhəd rejimi və viza qaydalarına riayət olunmasına nəzarət edir;

➢ əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin respublikamıza gəlib-getməsi proseslərinə nəzarəti həyata keçirir;

➢ sığınacaq axtaranların ərizələrinə baxır;

➢ deportasiya ilə əlaqədar olan tədbirləri həyata keçirir;

➢ Azərbaycan vətəndaşlarının ölkədən getmək və ölkəyə gəlməklə əlaqədar məsələlərini həll edir;

➢ miqrantların arasında cinayət hallarının uçotunu və qeydiyyatını aparır;

➢ Respublika vətəndaşlarını, vətəndaşlığı olmayan şəxsləri və əcnəbiləri yaşayış yeri və olduğu yer üzrə qeydiyyata alır, bu barədə müvafiq ümumiləşmələr aparır;

➢ ünvanlar bürosu vasitəsilə əhalinin miqrasiyasına nəzarət edir və şəxsiyyəti təsdiq edən sənədlə təmin olunmuş şəxslər barədə bütün məlumatları toplayır;

➢ vətəndaşlıq məsələləri ilə əlaqədar müraciət etmiş şəxslər barədə müvafiq sənədləşmə aparır;

➢ vətəndaşlığı olmayan şəxsləri və əcnəbiləri respublikamızda yaşamaq hüquqi verən sənədlə təmin edir.

- Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi:

➢ Respublika ərazisinə gələn və respublikadan gedən əcnəbilərə viza verilməsi və bununla bağlı sənədləşmənin aparılması işini təşkil edir;

➢ Respublikaya gələn xarici hüquqi və fiziki şəxslərin sənədlərinin sorğusu və leqallaşdırılması üçün işlər aparılır və vətəndaşlıq vəziyyəti aktları ilə bağlı digər konsulluq məsələlərini həll edir;

➢ Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirlik və konsulluqları vasitəsilə ölkəmizə gəlmək istəyən əcnəbilərin viza ilə təminatı, xaricdə müvəqqəti və ya daimi yaşayan Azərbaycan Respublikası vətəndaşlarının qeydiyyata götürülməsi məsələlərinə baxır və s.

- Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi:

➢ sərhəd-buraxılış məntəqələri vasitəsilə sərhəd və pasport nəzarətini həyata keçirir;

➢ ölkəyə gəlmək və ölkədən getmək proseslərinə nəzarət edir;

➢ qanunsuz miqrasiyanın, qadın və uşaqlarla ticarətin, qaçaqmalçılığın qarşısını almaq üçün tədbirlər görür;

➢ deportasiya proseslərinin icrasında iştirak edir.

- Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi:

➢ tabeçiliyində olan Respublika Sanitariya-Karantin Müfəttişliyinin ölkəmizin sərhəd-buraxılış keçidlərində fəaliyyət göstərən şöbə, bölmə və məntəqələri vasitəsilə Azərbaycan Respublikası ərazisinə xüsusi təhlükəli və yoluxucu xəstəliklərin gətirilməsinin qarşısını almaq üçün sərhəddən keçən şəxslərin tibbi müayinəsini və zəruri hallarda onların müalicəsini həyata keçirir.

- ***Azərbaycan Respublikasının Təhsil Nazirliyi:***

➢ Respublikamızda təhsil almağa gəlmiş əcnəbi tələbələrin qeydiyyatını aparır;

➢ xaricdə təhsil alan Azərbaycan Respublikası vətəndaşlarının uçotunu aparır və onların problemlərinin həllində iştirak edir;

➢ Nazirlik xətti ilə ixtisasartırma və təcrübə mübadiləsi üzrə ölkəmizə gələn və ölkədən gedən şəxslərin uçôt və qeydiyyatını həyata keçirir.

- ***Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi:***

➢ Respublikaya gələn və respublikadan gedən fiziki şəxslərin sərhəd gömrük-buraxılış məntəqələrindən keçidinə nəzarət edir;

➢ miqrantlar tərəfindən gömrük qaydalarına və vergi qanunvericiliyinə riayət edilməsinə nəzarəti həyata keçirir;

➢ qanunsuz miqrasiyanın və qaçaqmalçılığın qarşısının alınması üçün müvafiq tədbirlər görür.

➢ Göstərilən mərkəzi dövlət idarəetmə qurumları ilə yanaşı, miqrasiya proseslərinin tənzimlənməsində yerli icra hakimiyyəti orqanları da bilavasitə iştirak edirlər.

- ***Azərbaycan Respublikası yerli icra hakimiyyət orqanları:***

➢ sahibkarlığın inkişafına, rayonun, şəhərin əhalisinə xidmət göstərən fermer təsərrüfatlarının, kiçik müəssisələrin, kooperativlərin yaradılmasına köməklik göstərirlər;

➢ qanunçuluğun təmin edilməsi, vətəndaşların hüquqlarının, azadlıqlarının və mənafelərinin müdafiəsi sahəsində tədbirlər görürlər;

➢ pasport və qeydiyyat rejiminə əməl olunmasını, əhalinin yerdəyişmələrinin uçotunun aparılmasını təmin edirlər;

➢ təbii fəlakətlər, ekoloji qəzalar, epidemiyalar və digər fövqəladə hallar baş verən zaman adamların həyatını xilas etmək, onların sağlamlığını və hüquqlarını qorumaq, maddi sərvətləri qoruyub saxlamaq, qanunçuluğu və hüquq qaydalarını təmin etmək üçün qanunda nəzərdə tutulmuş müvafiq tədbirlər görürlər və s.

Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi və Dövlət Statistika Komitəsi isə miqrasiya problemləri ilə dolayısı ilə məşğul olan dövlət orqanlarıdır.

- Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi:

➢ miqrasiya proseslərini nəzərə alaraq, ölkənin sosial-iqtisadi inkişaf proqnozlarını hazırlayır, miqrasiyanın demoqrafik göstəricilərə təsirini, iqtisadi fəal əhalinin şəhər və kənd yerləri üzrə sayının dəyişməsini, əhalinin iş yerlərinə olan tələbatını, ərazilər üzrə iş qüvvəsinə olan tələbatı və digər amilləri müəyyənləşdirir.

- Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi:

Müəyyən olunmuş funksiyalarına uyğun olaraq, respublikamızın müvafiq dövlət idarəetmə orqanlarından, təsərrüfat subyektlərindən və özünün yerli qurumlarından miqrasiyaya dair məlumatların alınması, yekunlaşdırılması və təhlili işlərini yerinə yetirərək, onları ölkənin sosial-iqtisadi və regional inkişafı sahəsində görülən tədbirlərdə istifadə olunmaq üçün təqdim edir. Statistik üçot əsasən miqrasiyanın öyrənilməsi üçün zəruri olan aşağıdakı məsələləri əhatə edir:

✓ demoqrafiya;
✓ işsizlik;
✓ qaçqınlar və məcburi köçkünlər;
✓ əhalinin məşğulluğu;
✓ xaricdə təhsil alanlar və s.

Miqrantlarla bağlı bəzi problemlərin həllində və mərkəzi dövlət icra orqanlarının bu sahədəki fəaliyyətinin əlaqələndirilməsində Azərbaycan Respublikası Nazirlər Kabinetinin nəznində yaradılmış və təbii fəlakətlərin, habelə insan fəaliyyəti nəticəsində baş verən fövqəladə halların aradan qaldırılması, qəza, xilasetmə və bərpa işlərinin təşkil edilməsi, əhalinin köçürülməsi, onların yaşayış şəraiti və ərzaqla təmin olunması sahəsində

təcili tədbirlərin həyata keçirilməsinə məsul olan ***Fövqəladə Hallar üzrə Dövlət Komissiyasının***, xarici dövlətlərdən və beynəlxalq təşkilatlardan daxil olan humanitar yardımların qəbulu, uçotu, saxlanması, bölüşdürülməsi və təyinatına müvafiq istifadəsi üzrə işləri təşkil edən, respublikada mövcud olan beynəlxalq humanitar təşkilatların fəaliyyətini əlaqələndirən ***Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyasının***, hərbi işğaldan azad olunmuş ərazilərdə bərpa və yenidənqurma işlərini həyata keçirən ***Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Dövlət Komissiyasının*** və bu tədbirləri bilavasitə yerinə yetirən ***Bərpa və Yenidənqurma Agentliyinin*** müəyyən rolu vardır.

Göründüyü kimi, Respublikamızda miqrasiya problemləri ilə çoxsaylı dövlət orqanları məşğul olur. Lakin bu orqanların miqrasiya sahəsində funksiyaları dəqiq müəyyənləşdirilmədiyinə, həmin funksiyalar arasında konkret çərçivələr qoyulmadığına, dövlət idarəetmə orqanları arasında əlaqələndirmə mexanizmi olmadığına, əlaqələrin yalnız şaquli tabeçilik prinsipləri əsasında qurulduğuna və yetkin məlumat-informasiya bazasının yoxluğuna, habelə Azərbaycan Respublikasının formalaşmış dövlət miqrasiya siyasəti olmadığına görə bu sahədə həyata keçirilən tədbirlər lazımi nəticələr vermir.

Belə bir şəraitdə hər bir nazirlik, dövlət komitəsi və yerli icra hakimiyyəti orqanı əksər hallarda miqrasiya ilə bağlı məsələləri özlərinin əsas funksiyalarının yerinə yetirilməsi gedişində ikinci dərəcəli məsələ nöqteyi-nəzərindən həll edir, digər aidiyyatı dövlət orqanlarının isə bu tədbirlərdən heç bir məlumatları olmur. Bu isə miqrasiya proseslərinin idarə edilməsində pərakəndəliyə və paralelizmə gətirib çıxarır, görülən tədbirlərin səmərəsini aşağı salır. Eyni zamanda, bir sıra dövlət idarəetmə orqanlarının fəaliyyətlərini tənzimləyən Əsasnamələrdə təkrarçılığa yol verilir (Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Qaçqınlar və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsi, İqtisadi İnkişaf Nazirliyi və s.). Respublikamızda miqrantların bəzi kateqoriyalarının eyni problemləri ilə bir neçə dövlət orqanı məşğul olduğu halda (Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası, Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Dövlət Komissiyası, Əmək və Əhalinin Sosial Müda-

fiəsi, Səhiyyə və Təhsil nazirlikləri, Qaçqınlar və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsi və s.), digər miqrant kateqoriyaları diqqətdən kənarda qalır (ekoloji və tranzit miqrantlar, kortəbii miqrasiya və s.).

Ölkədə miqrasiya proseslərinin tənzimlənməsinə yönəlmiş qanunvericilik bazası da hələlik təkmil deyildir. Son illərdə respublikamızda bu sahədə xeyli işlər görüldüyünə və «Qaçqınların və məcburi köçkünlərin statusu haqqında», «Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında», «Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında», «Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında», «Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqi vəziyyəti haqqında», «Dövlət dili haqqında» Azərbaycan Respublikası Qanunlarının qəbul edilməsinə, habelə respublikanın bəzi Beynəlxalq Konvensiyalara və digər hüquqi sənədlərə qoşulmasına baxmayaraq, miqrasiya ilə bağlı qanunvericilikdə hələ də ciddi boşluqlar mövcuddur. Bundan başqa, qüvvədə olan qanunlara hüquqi baxımdan ziddiyyət təşkil edən qanun, aktlar və icra hakimiyyəti orqanlarının bəzi sərəncamları mövcuddur ki, bunlar da qəbul edilmiş qanunların işləməsinə maneə törədir.

Bütün bu yuxarıda deyilənlər nəzərə alınaraq, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşəbbüsü və rəhbərliyi ilə «**Azərbaycan Respublikasının Dövlət Miqrasiya Siyasəti Konsepsiyası**» işlənib hazırlanmışdır.

Azərbaycan Respublikasının dövlət miqrasiya siyasətinin ***əsas məqsədini miqrasiya axınlarının tənzimlənməsi, idarə olunmayan miqrasiya proseslərinin neqativ təsirinin aradan qaldırılması, gözlənilməz kütləvi miqrasiyaya səbəb olan amillərin öyrənilməsi və onların optimal həlli üçün qabaqlayıcı tədbirlər kompleksinin hazırlanması, miqrantların öz hüquqlarını maneəsiz həyata keçirmələri üçün lazımi şəraitin yaradılması, həmçinin ölkədə özünə sığınacaq axtaran şəxslərə humanist münasibət göstərilməsi məsələləri təşkil edir.***

Dövlət miqrasiya siyasətinin *əsas vəzifələri* miqrantların Azərbaycan Respublikası Konstitusiyası və müvafiq qanunvericilik aktları ilə, habelə Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq sənədlərlə müəyyənləşdirilmiş hüquq və mənafeləri-

nin müdafiəsindən, miqrantların iqtisadi, etnik, dini, sosial maraqlarını və aktiv əmək fəaliyyəti ilə məşğul olmalarını təmin edən şəraitin yaradılmasından ibarətdir.

Qarşıya qoyulmuş məqsəd və vəzifələrə uyğun olaraq, Dövlət miqrasiya siyasəti aşağıdakı *prinsiplər* əsasında həyata keçirilir:

➢ Miqrantların əsas insan hüquqlarının və azadlıqlarının hərtərəfli surətdə qorunmasına və onlara əməl olunmasına dövlət tərəfindən təminat verilməsi;

➢ İnsan hüquqları və azadlıqlarının qorunması sahəsində dövlətlərarası və beynəlxalq əməkdaşlığın miqrasiya proseslərinin tənzimlənməsində mühüm amil kimi qəbul edilməsi;

➢ Ölkədə qüvvədə olan qanunvericilikdə nəzərdə tutulan hallardan başqa, xarici ölkələrdən gəlmiş qaçqınların və yerini dəyişmiş şəxslərin deportasiyasının onların həyatına və azadlığına təhlükə törədəcəyi faktının nəzərə alınması;

➢ Məcburi surətdə öz ölkəsini tərk etmiş qaçqınlar üçün Azərbaycan Respublikası vətəndaşlığı ilə bərabər imkanlar yaradılmasının milli qanunvericilikdə təsbit olunması;

➢ Miqrant qadınların və uşaqların hüquqlarının qorunmasına, onların istismar olunmasına və əsas azadlıqlarının pozulmasına qarşı mübarizə aparılmasına yönəldilmiş tədbirlərə xüsusi diqqət verilməsi;

➢ Miqrasiya proseslərinin tənzimlənməsi zamanı ölkənin mənafeyinin qorunmasına və immiqrasiya kvotasının müəyyənləşdirilməsində ölkənin sosial-iqtisadi inkişafı mənafeyinə uyğun gələn əməkçi miqrantlara üstünlük verilməsi.

Dövlət miqrasiya siyasətinin prioritet istiqamətləri aşağıdakılardan ibarətdir:

➢ Miqrantların əsas hüquq və azadlıqlarının beynəlxalq normalara və Azərbaycan Respublikası Konstitusiyasına müvafiq surətdə müdafiəsini təmin edəcək mövcud qanunvericilik bazasının təkmilləşdirilməsi və yenilərinin yaradılması;

➢ Qaçqınların və məcburi köçkünlərin problemlərinin kompeks surətdə həllinə yönəldilmiş tədbirlərin ardıcıl həyata keçirilməsi;

➢ Ekoloji təhlükə olan bölgələrdən əhalinin köçürülməsi və yeni yaşayış yerlərində məskunlaşdırılması işinin proqnozlaşdırılması, onların adaptasiyası və reabilitasiyası üzrə konkret proqramların hazırlanması;

➢ Fövqəladə hallar üçün ehtiyat fəaliyyət proqramlarının hazırlanması;

➢ Miqrasiya proseslərinə müasir nəzarət sisteminin və vahid informasiya bazasının yaradılması;

➢ Ölkədən «beyin axınının» qarşısının alınmasına yönəlmiş dövlət həvəsləndirici tədbirlərinin həyata keçirilməsi;

➢ Daxili əmək bazarının qeyri-qanuni immiqrantların müdaxiləsindən qorunması;

➢ Ölkənin immiqrasiya kvotasının müəyyənləşdirilməsi;

➢ Miqrasiya proseslərinin idarə olunmasında iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edən turizm və tranzit miqrasiyanın inkişaf etdirilməsi;

➢ Emiqrantlarla, xarici ölkələrdə fəailyyət göstərən azərbaycanlı icma və diasporaları ilə sıx əlaqələrin yaradılması;

➢ Qeyri-qanuni miqrasiyanın qarşısının alınması.

Dövlət miqrasiya siyasətinin həyata keçirilməsinin təmin edilməsi dövlət miqrasiya idarəetmə sistemi yaraldılmasını; miqrasiya proseslərinin tənzimlənməsini təmin edən milli qanunvericilik aktlarının normalara uyğun olaraq təkmilləşdirilməsini və ölkədə miqrasiya üzrə vahid informasiya sistemi yaradılmasını tələb edir.

Miqrasiya proseslərinin mövcud idarəetmə sisteminin təhlili bir daha təsdiq edir ki, bu sahədə ciddi struktur dəyişiklikləri həyata keçirilməli, müvafiq dövlət icra orqanlarının miqrasiya ilə bağlı funksiyaları dəqiqləşdirilməli və ya yenidən müəyyənləşdirilməli, onların bu sahədəki fəaliyyətlərinin əlaqələndirilməsi mexanizmi yaradılmalıdır.

Bu məqsədlə miqrasiya proseslərinin dövlət tərəfindən tənzimlənməsi və idarə edilməsi sahəsində beynəlxalq təcrübə, xüsusilə ölkəmizlə oxşar vəziyyətdə olan MDB dövlətlərinin təcrübəsi nəzərə alınmaqla, müasir tələblərə uyğun dövlət miqrasiya idarəetmə orqanı (DMİO) yaradılmalıdır. DMİO Azərbaycan Respublikasının dövlət miqrasiya siyasətini həyata keçi-

rərək, bu sahədə müvafiq dövlət icra orqanlarının, habelə, beynəlxalq təşkilatların nümayəndəliklərinin və qeyri-dövlət təşkilatlarının fəaliyyətlərini əlaqələndirməlidir.

DMİO Azərbaycan Respublikasında miqrasiya proseslərinin dövlət idarəetmə sisteminin əsasını təşkil etməlidir.

DMİO-nın mühüm vəzifələrindən biri miqrasiya sahəsində mövcud qanunvericiliyin həyata keçirilməsini təmin etməkdən, bu sahədəki qanunvericiliyin və miqrasiya proseslərinin dövlət tərəfindən tənzimlənməsinin daha da təkmilləşdirilməsi məqsədi ilə müvafiq təkliflər hazırlamaqdan ibarət olmalıdır.

Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasına yaşamaq, yaxud işləmək üçün gəlməsi, onların statusunun müəyyənləşdirilməsi, Azərbaycan Respublikası vətəndaşlarının həmin məqsədlərlə xarici ölkələrə getməsi, onların həmin ölkələrdə əsas hüquq və azadlıqlarının qorunması sahəsində tədbirlərin görülməsi və bu qəbildən olan digər problemlərin tənzimlənməsi və proqnozlaşdırılması üzrə qərarların qəbul edilməsi funksiyaları da DMİO-nın fəaliyyət dairəsinə daxil olmalıdır.

DMİO miqrantların hüquqlarının müdafiəsi, həm xarici, həm də daxili miqrantların məskunlaşdırılması, yerli şəraitə uyğunlaşdırılması, əmək fəaliyyətinə cəlb olunması sahəsində dövlət proqramlarının layihələrini hazırlamalı və onların həyata keçirilməsini təmin etməlidir. DMİO öz fəaliyyətini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi, Xarici və Daxili İşlər, Milli Təhlükəsizilk, Səhiyyə və Təhsil Nazirliklərinin, Dövlət Statistika Komitəsinin, Qaçqınlar və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsinin, Dövlət Gömrük Komitəsinin, yerli icra hakimiyyəti orqanlarının müvafiq strukturları ilə sıx əlaqəli şəkildə həyata keçirməlidir.

DMİO həm özünün struktur bölmələrindən, həm də əlaqədar Nazirlik və Dövlət Komitələrindən miqrasiya proseslərinin mövcud vəziyyəti haqqında zəruri məlumatları toplayaraq, vahid miqrasiya informasiya sistemində -- Mərkəzi Serverdə – cəmlənməsini, müxtəlif miqrasiya növləri üzrə təhlilini, əldə olunan nəticələrdən miqrasiya proseslərinin idarə edilməsi və

tənzimlənməsi işində istifadə olunmasını, bu sahədə zəruri tədbirlərin və fəaliyyət proqramlarının hazırlanmasını və həyata keçirilməsini təmin etməlidir.

Dövlət miqrasiya idarəetmə orqanının yaradılması ilə yanaşı, miqrasiya proseslərinin idarə edilməsində mövcud olan qeyri-müəyyənliyin və paralelizmin aradan qaldırılması məqsədi ilə bu sahədə fəaliyyət göstərən nazirlik və dövlət komitələrinin əsasnamələrində zəruri dəyişikliklər aparılmalı və funksiyalar dəqiqləşdirilməlidir.

Azərbaycan Respublikasının Dövlət Miqrasiya Siyasətinin əsas müddəalarının həyata keçirilməsi respublikamızın beynəlxalq əmək bölgüsünə inteqrasiyasının daha da dərinləşməsinə kömək edəcək, ölkəmizin beynəlxalq normalara və demokratik prinsiplərə əsaslanan sivil dövlətlər sırasına qatılmasında və ölkəmizin əhalisinin normal təkrar istehsal prosesinin həyata keçirilməsində əhəmiyyətli rol oynayacaqdır.

VI FƏSİL

İNSAN RESURSLARI VƏ ONLARIN İDARƏ EDİLMƏSİ STRATEGİYASI. MƏŞĞULLUQ SAHƏSİNDƏ GENDER PROBLEMİ. ƏHALİSAKİNLİYİ VƏ DEMOQRAFİYA SAHƏSİNDƏ DÖVLƏT SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

6.1. İNSAN RESURSLARI VƏ ONLARIN İDARƏ EDİLMƏSİ STRATEGİYASI

İnsan resursları sosial-iqtisadi kateqoriya olub, cəmiyyətin (ölkənin)malik olduğu fiziki və intellektual imkanlarının məcmusunu təşkil edir. Onun tərkibində ən mühüm və aparıcı yeri fiziki və zehni cəhətdən inkişaf etmiş əmək qabiliyyəti yaşında olan əmək qabiliyyətli əhali tutur. ***Bu isə o deməkdir ki, konkret sosial-iqtisadi tarixi inkişaf mərhələsində, hansı ölkədə ictimai istehsal prosesinin əsasını və subyektini təşkil edən əhalinin fiziki və zehni cəhətdən inkişaf etmiş hissəsi çoxdursa, həmin ölkə daha çox məhsuldar insan resurslarına malikdir. İnsanlar və onların istedadı ölkənin ən qiymətli resursudur. Buna görə də hər bir ölkədə və regionda həmin resursların idarə edilməsi və onlardan səmərəli istifadə olunması strateji vəzifəyə çevrilmişdir. İnsan resurslarının xüsusiyyəti ondan ibarətdir ki,*** *əvvəla,* ***insanlar nə qədər çox peşə fəaliyyətinə qoşulurlarsa, onlar bir o qədər çox həyat və peşə təcrübəsi qazanır, bir o qədər az vaxt ərzində peşə vəzifələrini daha keyfiyyətlə yerinə yetirir, ölkə, müəssisə, təşkilat və sair üçün daha çox dəyərlər yaradırlar;*** *ikincisi,* ***insanlar sosial idarəetmənin ən mürəkkəb obyektidir;*** *üçüncüsü,* ***insanların peşəkar olması üçün fəaliyyət növlərinin peşəkarlaşması çoxlu kapital tutumluluğu tələb edir;*** *dördüncüsü,* ***peşəkarların fəaliyyətinin səmərəliliyinin yüksəkliyi onların imkanlarının düzgün idarə edilməsi sisteminin yaradılması ilə əldə edilir.***

İnsan potensialının idarə edilməsinin mahiyyəti ondan ibarətdir ki, insanlar rəqabət obyekti olaraq, məqsədə çatmaq üçün başqa resurslarla yanaşı, səmərəli yerləşdirilməli, inkişaf etdirilməli və motivləşdirilməlidirlər. Vətənimizin və xarici

ölkələrin müəssisələrinin təcrübəsinin ümumiləşdirilməsi insan potensialının idarə edilməsinin qlobal məqsədinin formalaşdırılmasına, yəni ölkənin (müəssisənin, idarə və təşkilatların və s.) malik olduğu əmək potensialının daha səmərəli formalaşması, inkişafı və reallaşmasına imkan verir. Bu isə o deməkdir ki, ölkənin (müəssisənin, idarənin, təşkilatın və s.) hər bir əmək qabiliyyətli adamın iş fəaliyyəti yaxşılaşacaq, öz əmək potensialını inkişaf etdirmək və ondan optimal qaydadad istifadə etmək imkanı artacaq, bu isə, öz növbəsində bütünlükdə ölkənin(müəssisənin, idarə və təşkilatın) malik olduğu iş qüvvəsinin fiziki və intellektual imkandan daha səmərəli istifadə olunmasına müsbət təsir göstərəcəkdir.

İnsan resurslarının idarə edilməsi təşkilatçılıq mühitinin bütün aspektlərini əhatə edir və özünə inteqrasiya edilməsi baxımından yanaşılmasını tələb edir. Çünki klassik iqisadi nəzəriyyənin bəzi nümayəndələrinin düşündüyü kimi, dünyada qlobal rəqabətin yüksəlməsinin milli rəqabət qabiliyyətliyinin ən mühüm amillərini torpaq, kapital və təbii resurslar deyil, yüksək ixtisaslı və motivləşdirilmiş insan resursları təşkil edir. Ölkənin (müəssisələrin, təşkilatların, idarələrin və s.) iqtisadi və başqa imkanları həmin resursların keyfiyyətindən və xarakterindən asılıdır.

İnsan resurslarının idarə edilməsi idarəetmə təcrübəsini biznes strategiyası ilə əlaqələndirir. Buna görə də o, innovasiya xarakteri daşıyır və son məqsəd kimi ölkənin (müəssisənin, təşkilatın, kompaniyanın) iqtisadi nəticələrinin yüksəldilməsi və əhalinin tələbatının ödənilməsi vəzifəsini qarşıya qoyur. Buna görə də hər hansı bir idarəetmə məsələsi həll edilərkən insan aspekti, yəni adamların imkanı və kadrlara təsir nəzərə alınmalıdır.

İnsan resurslarının idarə edilməsi **iqtisadi və təşkilati** nəzəriyyələrdən çıxan **iki qarşılıqlı** yanaşmaya əsaslanır. **Birinci yanaşma** özünü iqtisadi artımın tədqiqatlarının və mənfəətin insan amilinə (əmək haqqı, təhsil, fəhlə və qulluqçuların tərbiyəsi) kapital qoyuluşundan asılılığında özünü əks etdirir. Bu və ya digər müəssisə, firma və kompaniyanın öz əməkdaşlarının öyrənilməsində vəsait qoymağa cəhd göstərməsi onunla şərt-

lənir ki, xalis iqtisadi nəticə, başqa sözlə desək, daha yüksək əmək məhsuldarlığı olanların oxumasına sərf edilən xərcləri üstələyir, müəssisənin hesabına öyrədilən, hazırlanan adamlar isə ondan kənarda iş axtarmalı olmurlar. Bu yanaşma qaydasında həyata keçirilən idarəetmə strategiyası həmin adamların işlədikləri müəssisə və təşkilatlarda nüfuzlu vəzifə tutmasına zəmin yaradır və onların intellektual inkişaf səviyyəsinin yüksəlməsinə köməklik göstərir. **İkinci yanaşma** üsulu isə daxili əmək bazarına təsir edən amillərlə bağlıdır. Bu yanaşma formasında həyata keçirilən idarəetmədə – müəssisələrdə kadrların seçilməsi, öyrədilməsi və yerləşdirilməsi funksiyaları onların özləri tərəfindən həyata keçirilir.

Bütün bu yuxarıda deyilənləri yekunlaşdırsaq, müasir mərhələdə insan resurslarının idarə edilməsinin əsas cəhətlərinin aşağıdakılardan ibarət olduğunu söyləməyə əsas verir:

➢ Müəssisə, təşkilat, firma, kompaniya və sairəyə yüksək səviyyədə rəhbərliyin idarəetmə ilə bağlı həll etdiyi bütün məsələlər həmin müəssisə və təşkilatlarla onların işçiləri arasındakı münasibətləri əhatə edir;

➢ İnsan resurslarının müəssisə, təşkilat, idarə və kompaniyaların strategiya və təşkilat quruluşunun işlənməsinə cəlb edilməsi;

➢ Müəssisə, təşkilat, idarə və kompaniyalarda idarəetmə vəzifələri onların vahid fəaliyyət proqramı əsasında sistemli və kompleks halında həll edilməsi və s.

Hazırda ölkədə mövcud olan insan resurslarının idarə edilməsi sahəsində qarşıda duran ən mühüm və strateji vəzifə isə bu resurslardan bütünlükdə cəmiyyətin və onun hər bir üzvünün mənafeyi baxımından daha düzgün və səmərəli istifadə etməkdən ibarətdir. Çünki, əvvələrdə qeyd etdiyimiz kimi, ***kadr potensialının inkişafı və insan resurslarından səmərəli istifadə edilməsi dövlətin fəal sosial siyasətinin başlıca istiqamətlərindən birini təşkil edir. Burada məqsəd əhalinin peşə – ixtisas səviyyəsinin yüksəldilməsi, əməyin motivləşdirilməsinin gücləndirilməsi, milli iqtisadiyyatın kadr (peşə) potensialının quruluşu və keyfiyyətinə dövlətin təsirinin artırılması, peşə kadrlarının beynəlxalq standartlarda sertifikasiya edilməsi, insan resurslarının ümumi və***

regional kompleks proqramlarının işlənməsi və həyata keçirilməsi, peşə yönümünün səmərəli sisteminin yaradılması, məşğul və qeyri-məşğul əhalinin hazırlanması və yenidən hazırlanması sisteminin təkmilləşdirilməsi yolu ilə həmin resurslardan daha dolğun və səmərəli istifadə olunmasını təmin etməkdən ibarətdir. Bu, insanın bir vətəndaş və peşəkar kimi inkişaf etdirilməsinin anlamlı şəkildə idarə edilməsi və özünü idarə etməsini nəzərdə tutur və insanlarla münasibətdə ictimai şüurda tamamilə yeni konsepsiyanın, insan resurslarının idarə edilməsi konsepsiyasının formalaşdığını göstərir.

İnsan resurslarının idarə edilməsinin nəticəsi, **bir tərəfdən,** bütün peşə sahiblərinin – sənətkardan və sahibkardan tutmuş muzdlu işçilərə və dövlət qulluqçularına – məmurlaradək hamının bazarın tələblərinə uyğun gələn yaxşı hazırlanmış kadr kontingentinin yaradılmasından, **digər tərəfdən** isə həmin kadrlar üçün məhsuldar məşğulluq yerlərinin açılmasından ibarət olmalıdır.[334]

Sosial siyasətin konkret tərəflərinin həlli ***üç məsələyə – həyat şəraiti və ayrı-ayrı fərdlərin və sosial qrupların fəaliyyətinə; müxtəlif fəaliyyət dairələrində şəxslər arasındakı münasibətlərə və subyektlərin özlərinin formalaşması prosesinin inkişafına təsir etməyə gətirib çıxarır. Bu üçlük öz spesifik xüsusiyyətlərini müxtəlif fəaliyyət dairələrində – insanların təhsil, əmək və istirahət, məşğulluq və asudə vaxtlarında və s. büruzə verməklə təzahür etdirir.***

İctimai istehsal prosesinin mühüm ünsürü olan adamlar vətəndaş və peşəkar olaraq təhsil və məşğulluq sistemində, xüsusilə də təhsildən əməyə və əksinə keçmək prosesləri və mexanizmlərində insan resurslarının idarəedicilərinə çevrilirlər. Həmin vəzifələrin həll edilməsi insan resurslarının idarə edilməsinin sosial mexanizmlərinin olmasını tələb edir. Bu mexanizmlərin işlənməsi bir-birinə yaxınlaşmaqda olan insan haqqında kompleks elmlərin fəal dayağına, daha doğrusu, **bir tərəfdən,** iqtisad elminin və tətbiqi sosiologiyanın, **digər tərəfdən** isə sosial

---

[334] Daha ətraflı b a x: «Социальная политика в постсоциалистическом обществе: Задачи, противоречия, механизмы», Москва, «Наука», 2001, s. 154-155

psixologiya və əməyin psixologiyası, şəxsiyyətin psixologiyası və fiziologiyası da daxil olmaqla, nəzəri və tətbiqi psixologiya və başqa elmlərin köməkliyinə əsaslanır.

İqtisadiyyatın kadr potensialının formalaşması və ondan səmərəli istifadə edilməsinə dövlət mexanizminin təsirinə gəldikdə isə bu, kompleks xarakter daşıyıb idarəetməninin bütün səviyyələrini əhatə edir. Bu mənada insan resurslarının idarə edilməsi həqiqətən də təkcə bu və ya digər idarə və təşkilatlardakı peşə sahiblərinin «fəaliyyətini» deyil, həm də hər bir ərazidə və iqtisadi fəaliyyət sahəsində insanların həyatı ilə bağlı sosial proseslərin idarə edilməsinə çevrilir.

Postsovet ölkələrinin çoxunda olduğu kimi, Azərbaycanda da yenidənqurma problemlərinin əksəriyyəti bu və ya digər dərəcədə sosial proseslərin dövlət tərəfindən və ictimai qaydada nizamlanmanın səmərəliliyini yüksəldən qeyri-inzibati mexanizmlərin axtarılması ilə bağlı olmuşdur. İndi artıq aydın olur ki, islahatların inkişafı prosesində meydana çıxan çətinliklər – insanların həyat şəraiti, insan münasibətləri, xüsusilə də insanların özlərinin bir vətəndaş və peşə sahibləri kimi inkişafındakı radikal dəyişikliklər fonunda və nəticəsində mövcuddur. Tədricən insanların həyat və fəaliyyətinin təşkilinin keyfiyyətcə yeni prinsipləri formalaşır, sosial iyerarxiyalar, əxlaq normaları və dəyərləri dəyişir,təkcə dövlət və ölkənin deyil, həm də şəxsiyyətlərin, vətəndaşların inkişafının sosial dayanaqlılığı və təhlükəsizliyi məsələləri ön plana keçir. Belə şəraitdə ölkədə baş verən bütün dəyişikliklərə, o cümlədən insan münasibətlərinin dəyişilməsi qanunauyğunluqları və perspektivlərinə insan ölçüləri nöqteyi – nəzərdən baxmaq tələb olunur. Çünki indi yeni sosial vəziyyətin xüsusiyyətlərini düzgün müəyyən edib yalnız insan ölçüsü ilə qiymətləndirmək mümkündür. **İndi getdikcə daha çox aydınlaşır ki, insan resurslarının inkişafı və onlardan səmərəli istifadə olunmadan nə cəmiyyətin inkişafı üçün əsaslı şərait yaratmaq, nə də insanların özlərinin həyat və fəaliyyəti, onların arasındakı münasibətlərin dəyişdirilib təkmilləşdiriləməsi sahəsində irəliləyişlərə nail olmaq mümkündür. Bu isə o deməkdir ki, respublikamızda aparılan islahatların başlıca amilini ölkənin vətəndaş, intellektual və peşə**

potensialı təşkil edir. Bununla əlaqədar olaraq, ölkəmizin malik olduğu **insan resurslarının** – ümumi potensialı və dəyişilməsi dinamikası (fərdi və kollektiv) vəziyyətinin öyrənilib qiymətləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu işdə ölkənin dövlət və qeyri-dövlət bölmələrində məşğul olanların, iqtisadi fəal əhalinin, rəsmi iqtisadiyyatda məşğul olanların, o cümlədən sənayedə iş-ləyənlərin sayı, peşə miqrantlarının və işsizlərin sayı, ali, orta və ümumi təhsil məktəblərini qurtaranların işə düzəlməsi vəziyyəti, ixtisası üzrə işləmək istəyənlərin və peşə təhsilini artırmaq arzusunda olanların sayı və sairlə bağlı məlumatları təhlil edib öyrənmək və qiymətləndirmək kimi məsələlər əsas yer tutur.

Monoqrafiyanın müvafiq fəsillərində bu məsələlər öz ətraflı təhlilini tapdığından burada insan resurslarının idarə edilməsi və onlardan səmərəli istifadə olunması strategiyası ilə bağlı bəzi mühüm məsələlərə toxunmağa üstünlük verməyi daha məqsədəuyğun hesab etdik. **Məsələ burasındadır ki, hazırda respublikamızın malik olduğu demoqrafik potensialın tədricən azalmağa doğru meyl etməsinə baxmayaraq, onun mövcud insan resurslarının həcmi hələlik xeyli çoxdur və bu resurslardan səmərəli istifadə etməklə ölkə iqtisadiyyatını əhəmiyyətli dərəcədə inkişaf etdirmək və əhalimizin həyat səviyyəsini xeyli yüksəltmək mümkündür**. Ancaq **təəssüflər olsun ki, bir çox obyektiv və subyektiv səbəblər üzündən bu zəngin insan resurslarından olduqca zəif və qeyri-səmərəli qayda ilə istifadə edilir.** Təkcə bunu demək kifayətdir ki, hazırda respublikamızın malik olduğu əmək ehtiyatlarının əhəmiyyətli hissəsi işləmir, işə gecikmə, xəstəlik və sair səbəblərdən istifadəsiz qalır, iş vaxtında yaratdıqları məhsul və xidmətlərin xeyli bir qismi isə reallaşmır. Ali, orta ixtisas və peşə təhsili məktəblərini bitirənlərin böyük bir qismi (50-80% -i) iş yerləri ilə təmin edilmir və bu səbəbdən də onların bir qismi ölkəni tərk etmək məcburiyyətində qalır. Halbuki yalnız bu insan resurslarından səmərəli istifadə etməklə ölkə iqtisadiyyatının dinamik inkişafına nail olmaq olar. Hazırda həmin problemin müxtəlif aspektləri arasında psixoloji aspekt xüsusi əhəmiyyət kəsb edir. Aparılan xüsusi tədqiqatların nəticələrindən aydın olur ki, postsovet məkanına

daxil olan ölkələrdə olduğu kimi, Azərbaycanda da keçid dövrü şəraitində həm yaşlı əhalidə, həm də gənclərdə əməyə və əmək fəaliyyətinə olan psixoloji münasibət kəskin surətdə dəyişmişdir. **Ayrı-ayrı insanlar yaranmış vəziyyətdə qeyri-müəyyənliklə üzləşmiş, peşə təhsili və peşə əməyinin nüfuzu əhəmiyyətli dərəcədə aşağı düşmüş; müasir yaşayışın qeyri-sabit olması və sabaha inamın azalması nəticəsində insanlarda gərginlik və stres vəziyyəti artmışdır.** Buna görə də, **insan resurslarının idarə edilməsi** vəzifəsi **insan amilinin nəzərə alınması** vəzifəsindən fərqli olaraq dünya ilə, öz yaxın ətrafı ilə, müəyyən sosial mühitlə daim qarşılıqlı təsirdə olan vahid bir varlıq olaraq subyektin (insanın) inkişaf imkanlarını və qanunauyğunluqlarını aşkara çıxartmaqdan ibarətdir. Bunun üçün, ilk növbədə, konkret yaşayış vəziyyətində insanların davranışının təşkili və idarə edilməsinin psixoloji mexanizminin öyrənilməsinin konseptual əsaslarının işlənib hazırlanması və həyata keçirilməsi tələb olunur. Nəzərə almaq lazımdır ki, iqtisadi və sosial dəyişikliklərin baş verdiyi şəraitdə insanın özünün sosiallaşmasının və professionallaşmasının yüksəldilməsinə yönəldilən insan resurslarının idarə edilməsi (istər fərdi və istərsə də kollektiv halda) onların ən yaxşı sosial müdafiəsinə gətirib çıxarır.

İşləməyə hazır olmağın formalaşması, vətəndaşlıq və peşəkarlıq mövqeyinin yaranması ona gətirib çıxarır ki, insan iqtisadi məkanda daha müstəqil və sosial dayanıqlı olur. O da məlumdur ki, iqtisadi sistemin bazar münasibətləri cəhətdən inkişaf etməsi səviyyəsini xarakterizə edən mühüm göstəricilərdən biri iqtisadiyyatın qeyri-dövlət bölməsindəki məşğulluq dərəcəsindən ibarətdir. Azərbaycanı həmin göstəriciyə görə ABŞ və Rusiya ilə müqayisə etsək, vəziyyətin nə yerdə olduğu aydınlaşar (72-ci cədvələ bax).

Həmin cədvəlin məlumatlarından görünür ki, artıq 90-cı illərin sonunda Azərbaycanda iqtisadiyyatda məşğul olanların qeyri-dövlət bölməsindəki xüsusi çəkisi Rusiyadakı vəziyyəti 4,6 bənd ötüb keçmiş, ABŞ-ın 90-cı illərin əvvəlindəki vəziyyətinə isə xeyli yaxınlaşmaq üzrədir. Nəzərə alsaq ki, hazırda respublika iqtisadiyyatında məşğul olanların dövlət bölməsindən

qeyri-dövlət bölməsinə axını 1995—1998-ci illərdə olduğu kimi, sürətlə davam etməkdədir, onda belə proqnozlaşdırmaq olar ki, yaxın 10-15 il ərzində ölkəmizdə əhalinin mülkiyyət formaları arasında bölünməsi nisbiliyi nəinki ABŞ-ın 90-cı illərin əvvəlindəki səviyyəyə gəlib çatacaq, hətta onu ötüb keçəcəkdir.

Hazırda respublikamızın iş qüvvəsinin peşə tərkibində də xeyli müsbət dəyişikliklər baş verməkdədir. Ölkə iqtisadiyyatının bazar münasibətləri yolu ilə irəliləməsi məşğul əhalinin peşə-ixtisas tərkibində də prinsipial dəyişikliklərlə müşayiət olunur. Cəsarətlə demək olar ki, ölkə əhalisinin peşə tərkibində baş verən dəyişikliklər əvvəllər mövcud olmuş ənənəvi peşələrdən və son illərdə meydana çıxan «bazar peşələri» adlanan peşələrdən (brokerlər, dəllallar, menecerlər, auditor və s. sahələrdəki mütəxəssislər) ibarət olan iki kadr təbəqəsinin yaranmasına səbəb olmuşdur.

72-ci cədvəl [335]

Azərbaycanda, Rusiyada və ABŞ-da məşğul əhalinin mülkiyyət formaları üzrə bölünməsi (%-lə)

İqtisadiyyatın bölmələri	**Azərbaycanda**		**Rusiyada**		**ABŞ-da**
	90-cı illərin əvvəlində	**90-cı illərin sonunda**	**90-cı illərin əvvəlində**	**90-cı illərin sonunda**	**90-cı illərin əvvəlində**
dövlət bölməsində	70,7	33,4	82,4	38,0	15,9
qeyri - dövlət bölməsində	29,3	66,6	17,6	62,0	84,1

Əmək potensialının özünün **«ənənəvi»** və **«bazar»** kadrlarına bölünməsi şərti anlayışlar olsa da, **birincilər** ölkəmizin iqtisadiyyatının müasir xüsusiyyətləri və tələbləri

[335] Социальная политика в постсоциалистическом обществе: задачи, противоречия, механизмы. Москва, «Наука», 2001, с. 163; «Əmək bazarı». Rəqəm və diaqramlarda. 2000, Bakı, 2000, s. 31; «Xalqa həsr olunan illər». Bakı, 2003, s. 402

baxımından yenidən hazırlanıb təkmilləşdirilməklə yeni şəraitə uyğunlaşdırılmalıdır, **ikincilər isə,** yaranma prosesindədəir. Burada onu da qeyd etmək lazımdır ki, ölkəmiz müstəqillik qazandığı və bazar iqtisadiyyatı münasibətlərinə keçdiyi ilk dövrlərdən başlayaraq burada əhalinin iqtisadiyyat sahələri və fəaliyyət növləri arasında bölünməsi qeyri-istehsal dairəsinin xeyrinə dəyişməkdə davam edir. Belə ki, 1993-2002-ci illərdə maddi istehsal sahələrində işləyənlərin sayı təqribən 2,2 faiz azaldığı halda, qeyri-istehsal dairəsində məşğul olanların sayı 5,2 faiz artmışdır. Müqayisə edilən dövrdə maddi istehsalın kənd təsərrüfatı və meşə təsərrüfatı sahəsində işləyənlərin sayı artaraq 1203,5 min nəfərdən 1495,0 min nəfərə çataraq 24,3 faiz, topdan və pərakəndə ticarətdə işləyənlərin sayı isə artaraq 445,8 min nəfərdən 621,9 min nəfərə çataraq 39,5 faiz çoxaldığı halda, qeyri-istehsal dairəsinin səhiyyə və sosial xidmət sahəsində işləyənlərin sayı 178,0 min nəfərdən 173,6 min nəfərə düşərək 2,5 faiz azalmış, dövlət və təsərrüfat idarəetmə orqanlarının, müdafiə və məcburi sosial təminat işçilərinin sayı isə artaraq 50,1 min nəfərdən 2651,3 min nəfərə çatmış və ya 5,3 dəfə çoxalmışdır.[336]

Hazırda respublikamızda maddi istehsalın müxtəlif sahələrində işləyənlərin əmək motivliyi də əhəmiyyətli dərəcədə aşağıdır. Aparılan tədqiqatların nəticələri göstərir ki, son vaxtlarda sənaye müəssisələrində işləyənlərin 25-30 faizdən çoxu öz peşə ustalığını artırmaq arzusunda olmamış, müəssisə və təşkilatlarda işləyən rəhbər işçilərin və mütəxəssislərin isə xeyli bir qisminin ixtisas dərəcəsi bazar iqtisadiyyatının tələblərinə cavab vermir. Bir çox nazirlik və müəssisələrin rəhbər işçiləri və mütəxəssisləri isə öz ixtisas və peşəsinə uyğun olmayan işlərdə çalışır, həmin vəzifələrdə çalışmalı olan mütəxəssislərin əksəriyyəti isə ya heç bir yerdə işləmir ya da öz ixtisasına və peşəsinə uyğun olmayan işlərdə çalışırlar.

Bütün bunlar, **bir tərəfdən,** ölkə iqtisadiyyatının lazımi səviyyədə inkişaf etməsinə maneçilik törədirsə, **digər tərəfdən** də vətəndaşlarda öz təhsil səviyyəsini və ixtisasını artırmaq

---

[336] Xalqa həsr olunan illər. Səda nəşriyyatı, Bakı, 2003, s. 395-397.

marağını azaldır. Halbuki işçilərin ixtisas səviyyəsinin yüksəldilməsi, kadrların öz ixtisasına və peşəsinə uyğun işlə təmin edilməsi və əməyin motivliyinin artırılması insan resurslarının idarə edilməsinin güclü amillərindən birini təşkil edir.

Hazırda gənclərin orta təhsil alması sahəsində də gərginlik qalmaqda davam edir. Orta təhsil alan gənclərin xüsusi çəkisi azalır. Əmək bazarına düşən gənclərin böyük bir qismi isə işə düzəlmək sahəsində çətinliklərlə üzləşir. Ümumtəhsil və peşə məktəblərini qurtaran gənclərin çoxu öz gələcək həyatlarını dəqiq müəyyənləşdirməkdən və peşə nüfuzlarının qeyri-müəyyənliyindən əziyyət çəkirlər. Çünki məlum olduğu kimi, hazırda ali, orta ixtisas və peşə təhsili məktəblərini qurtaranların müvafiq işlə təmin olunmasına dövlət təminat vermir və bu səbəbdən də onların işə düzəlməsində hələlik böyük çətinliklər vardır.

Bütün bunlar bazar iqtisadiyyatının tələblərinə müvafiq olan insan resurslarının idarə edilməsi və onlardan səmərəli istifadə olunmasına dair dövlət səviyyəsində müəyyən tədbirlər sistemi və proqramlarının işlənib hazırlanmasını və həyata keçirilməsini tələb edir. İnsan resurslarının idarə edilməsi proqramının səmərəlilik meyarı isə aşağıdakılardan ibarətdir:

- milli iqtisadiyyatın kadr potensialının müvəffəqiyyətlə formalaşmasının qiymətləndirilməsi;
- heyətin və ayrı-ayrı işçilərin keyfiyyətinin (peşə səriştəliyinin) qiymətləndirilməsi.
- İnsan resurslarının idarə edilməsi sahəsində hazırlanan hər bir proqram və layihələr isə ilk növbədə aşağıdakı işlərin görülməsini nəzərdə tutur:
- bütünlükdə ölkə, onun regionları, iqtisadiyyat sahələri, məşğulluq formaları və fəaliyyət növləri üzrə sosial əmək dairəsindəki vəziyyətin təhlil edilməsi;
- Azərbaycanın peşə və təhsil bazarının quruluşunun, o cümlədən ölkəmizdə onlardan istifadə etmək üçün xarici təcrübənin öyrənilib ümumiləşdirilməsinin elmi surətdə araşdırılması.

İnsan resurslarının idarə edilməsi sahəsində yeni fəal dövlət siyasətinin həyata keçirilməsində məqsəd, hər şeydən

əvvəl, firma və müəssisə daxilində kadrların hazırlanması və öyrədilməsi vasitəsilə iş qüvvəsinin milli və beynəlxalq əmək bazarlarında rəqabət qabiliyyətliyini yüksəltməkdən; dövlət peşə standartlarının işlənməsi və işçilərin sertifikatlaşdırılması mexanizmini yaratmaq vasitəsilə ixtisaslı işçilərin profilini və işverənlərin iş qüvvəsinin istehlakçısı kimi dövlət müdafiəsi sistemini həyata keçirməkdən və işçilərin peşə nüfuzunun yüksəldilməsinə təsir göstərməkdən ibarətdir.

İnsan resurslarının idarə edilməsinin ümumi konsepsiyasına uyğun olaraq, ölkəmizdə həyata keçirilməsi zəruri olan fəal sosial siyasət sahəsində qarşıda duran əsas vəzifələr aşağıdakılardan ibarətdir:

- dövlətin fəal sosial siyasətinin kompleks istiqamətləri kimi, ölkənin insan resurslarının inkişafı üzrə tədbirlər sisteminin işlənməsi və həyata keçirilməsi;
- ölkə iqtisadiyyatının kadr potensialının səmərəli inkişafı üçün tədbirlər görülməsi;
- iqtisadi fəal əhalinin həcminə və quruluşuna təsir etmək yolu ilə ölkənin insan resurslarının keyfiyyətinin və əmək motivliyinin gücləndirilməsi;
- regional əmək bazarlarının və təhsil xidmətinin xüsusiyyətlərinə müvafiq olaraq, insan resurslarından səmərəli istifadə olunması və milli peşə yönümlüyü sisteminin inkişaf etdirilməsi və əhalinin psixoloji cəhətdən müdafiə edilməsi;
- yaşlı məşğul, işsiz və qeyri-məşğul əhaliyə peşə öyrədilməsi və onların yenidən hazırlanmasını təşkil etməklə ölkənin müəssisələrində ixtisaslı və məhsuldar iş qüvvəsi kimi isə düzəldilməsi.

Burada həyata keçirilməsi zəruri olan və ilk növbədə həll edilməsi tələb edilən vəzifələrdən biri insan resurslarının idarə edilməsi sahəsində qanunların və normativ aktların hazırlanması, qəbul edilməsi və həyata keçirilməsindən; göstərilən fəal sosial siyasətin həyata keçirilməsi üçün normativ-metodik, analitik-informasiya materiallarının və sənədlərin işlənib hazırlanması və reallaşdırılmasından ibarətdir.

Ölkəmizin əmək və təhsil xidməti bazarındakı vəziyyətin dərindən və hərtərəfli təhlil edilib öyrənilməsi və ümumiləşdi-

rilib qiymətləndirilməsi əsasında Azərbaycan iqtisadiyyatının peşə (kadr) potensialının saxlanması və inkişafı, insan resurslarının keyfiyyəti sahəsində bir sıra ciddi problemlərin olduğu aşkara çıxarılmışdır. Bunlar əsas etibarı ilə aşağıdakılardan ibarətdir:

- ölkəmizin müəssisə və təşkilatlarında məşğul olan işçilərin keyfiyyət səviyyəsi inkişaf etmiş Qərb ölkələrində olduğundan əhəmiyyətli dərəcədə aşağıdır və bu göstərici azalmaqda davam edir;
- əksər müəssisə və təşkilatlarda kadr siyasəti və onun təşkili bazar iqtisadiyyatının tələblərinə tam uyğun gəlmir və bununla yanaşı, ixtisaslı iş qüvvəsinin istehlakçıları kimi (sahibkarların) marağını təmin etmir;
- ölkənin iş qüvvəsinin peşə-ixtisas quruluşu sərt dəyişikliyə az meyllidir və peşə miqrantları ilə birlikdə muzdlu işçilər müdafiəsiz qalmışdır;
- İşverənlərin (sahibkarların) və işçilərin əsas kütləsi peşə ixtisaslarının yüksəldilməsində və əməyin məhsuldarlığının artırılmasında maraqlı deyillər.

6.2. ELMİ-TEXNİKİ KADR POTENSİALI, ONUN İDARƏ EDİLMƏSİ VƏ İSTİFADƏSİ STRATEGİYASI

Cəmiyyətin başlıca məhsuldar qüvvələrini təşkil edən insan potensialının tərkibində elmi-texniki kadr potensialı öz intellektual inkişaf səviyyəsinə görə mühüm və həlledici yer tutur.

Müasir dünyamızda cəmiyyətin elmi-texniki və texnoloji inkişafa daha çox meyli olması ölkədə elmi-texniki kadr potensialının inkişaf etdirilməsi, ondan səmərəli istifadə olunması və sosial-iqtisadi tərəqqinin təmin edilməsində elmin rolunun artırılmasına xüsusi diqqət yetirilməsini ön plana çəkir. Bu, təsadüfi olmayıb, ta qədim zamanlardan elmin cəmiyyətin və insanın formalaşmasında oynadığı əvəzsiz rolu ilə bağlıdır. Dahi Azərbaycan alimi Nəsrəddin Tusi hələ XII əsrdə

yazmışdır ki: «Elm – varlığın həqiqətən necə olduğunu düzgün təsəvvür etmək, insanın yaradıcı ağlı (nəfsi-əmir) və sağlam düşüncəsi dairəsində onun xüsusiyyət və keyfiyyətlərini kəşf etməkdir».[337] F.Jolio-Kuri də elmin xalq üçün zəruri olduğunu və onu inkişaf etdirməyən ölkənin labüdən müstəmləkəyə çevriləcəyini qeyd etmişdir.[338] Müasir görkəmli Azərbaycan alimi, akademik A.X.Mirzəcanzadə isə – elmi azad insan zəkasının ən böyük nailiyyəti, narahat ağlın məhsulu, bəşər sivilizasiyasının məhək daşı adlandırmışdır.[339]

Bütün bu deyilənlərdən ən güclüsünü isə dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi demişdir:

«Qüvvət elmdədir, başqa cür heç kəs
Heç kəsə üstünlük eyləyə bilməz!
Hər uca rütbədən, biliniz, fəqət
Alimin rütbəsi ucadır, əlbət!»[340]

Elm insan fəaliyyəti dairəsinin xüsusi növü olaraq, nəinki bugünkü, həm də gələcək nailiyyətlərin əsasını təşkil edir. Görkəmli Amerika iqtisadçısı və sosioloqu D.Bell gələcəkdə əhalinin (xalqların) yüksək sosial təbəqəyə aid olan və aid olmayan hissələrə bölünməsini onların maddi vəziyyətlərinə görə deyil, intellektual potensialı – yəni bilik daşıyıcıları (knowladge stratum) ilə müəyyən olunacağını göstərir.[341] A.E.Mindeli və V.P.Zavaruxin də buna bənzər fikir söyləyərək, XXI əsrdə hər bir ölkənin müstəqilliyi və texnoloji təhlükəsizliyinin elmi-texniki potensialla, hər şeydən əvvəl, fundamental elmin səviyyəsi, kadrların ixtisası və innovasiya potensialı ilə

---

[337] *Tusi N.* «Əxlaqi-nasiri». 2-ci nəşr. Bakı, Elm nəşriyyatı, 1989, s. 35
[338] İpə-sapa düzülməmiş incilər. Bakı, Azərnəşr. 1993, s. 8
[339] *Mirzəcanzadə A.X.* İxtisasa giriş. Neft və qaz profilli ali məktəblər üçün dərs vəsaiti. Bakı, 1990, s. 183.
[340] *Nizami Gəncəvi.* İsgəndərnamə. Bakı, «Yazıçı» nəşriyyatı, 1982, s. 402, 430. (İqbalnamədə).
[341] *Белл Д.* Грядущее постиндустриальное общество. Опыт социального прогнозирования. М., 1999, с.77

müəyyən olunacağını yazmışlar[342] A.E.Mindeli və V.P.Zavaruxinin fikirlərini bu gün cəmiyyətdə gedən inkişaf prosesi bir daha təsdiq edir və hər bir ölkənin ümumi tərəqqisində elmin və elmi biliklərin əhəmiyyətli rol oynadığını göstərir. Təsadüfi deyildir ki, 1998-ci ildə «Elm və cəmiyyət» haqqında Qenuel Bəyannaməsində deyilirdi ki: universallıq, azadlıq, tənqidi təfəkkür elmi proseslərin əsas elementlərindən hesab olunur və bütün mədəniyyətlər arasında ümumi əlaqələri formalaşdırır. Beləliklə, həmin bəyannamədə elmin müxtəlif mədəniyyətlər arasında əməli münasibətlərə əhəmiyyətli səmərə gətirə bilən və irqi ayrı-seçkilik və ideoloji dözülməzliklərin əleyhinə olan güclü vasitə olduğu qeyd olunur. Bəyannamədə bəşəriyyətin elmin inkişaf səviyyəsindən və onun nəticələrinin istifadəsindən əhəmiyyətli dərəcədə asılı olduğu göstərilir[343].

Bu deyilənlərdən bir daha aydın olur ki, elmə təbiət və cəmiyyətdə baş verən dəyişiklikləri və onlara təsir göstərən elementləri daim nəzarətdə saxlamaqla, baş verən proseslərdən düzgün nəticə çıxarmağa qadir olan və insanların təfəkküründə inqilablar yarada bilən mühüm fəaliyyət sahəsi kimi baxmaq lazımdır.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, müasir dövrdə, elmin və elmi biliklərin köməyi olmadan ölkənin, millətin (xalqın) dünya miqyasında tanınmasına, dünya bazarına elmtutumlu məhsulların çıxarılmasına və nəhayət, dünyada layiqli mövqe tutmağa nail olmaq qeyri-mümkündür. Elmin və elmi biliklərin inkişafı isə elm adamlarının və dövlətin həlledici təsiri altında reallaşa bilər. Ona görə də müasir dövrdə yüksək yaradıcı fəaliyyət dairəsi kimi, elmin və elm adamlarının cəmiyyətdə nüfuzunun artırılması, onun sosial və iqtisadi əhəmiyyətinin müəyyən olunması, elmin ətraf aləmə təsiri mexanizminin öyrənilməsi istiqamətində fundamental və tətbiqi araşdırmaların aparılması tələb olunur. Bu sahələrdə aparılan

---

[342] *Минделли А.Э., Заварухин В.П.* Международное аспекты Российской инновационной политики. Журнал «Мировая экономика и международное отношения», № 5, 2001, с. 551

[343] Международная Ассоциация Академии Наук и развитие интеграции в сфере науки. Киев, «Науково Думка», 1998, s.250

tədqiqatların uğurlu olması isə, ilk növbədə, elmin mütərəqqi istiqamətlərinin və inkişaf perspektivlərinin müəyyən edilməsini, elmin sosial, iqtisadi, tarixi, fəlsəfi, psixoloji əhəmiyyəti və idarəedilməsinin metod və formalarının tədqiq edilməsini tələb edir. Hazırda bu istiqamətdə tədqiqatların aparılması ilə elmşünaslıq fənni məşğul olur. Qeyd etmək lazımdır ki, hazırda inkişaf etmiş ölkələrdə bu sahədə elmi-tədqiqat işi aparan xüsusi institutlar fəaliyyət göstərir.

Aparılan tədqiqat işlərində və lüğətlərin bəzilərində elm sistemləşdirilmiş biliklərin və insan intellektinin məcmusu, insanın əməyi və nəzəri fəaliyyətinin özünəməxsus sahəsi, ictimai şüur formalarından biri, digərində isə təbiət, cəmiyyət və təfəkkürün inkişaf qanunu haqqında biliklər sistemi kimi izah edilir.[344] Elm sahəsində tanınmış alim Q.M.Dobrova görə isə, «Elm insanların fəaliyyət sisteminin məcmusudur».[345] Q.M.Dobrov bu yanaşmasında elmə daha geniş anlamda baxmış və onu altisistemlərə bölməmişdir. B.M.Kedrov və S.P.Mikulinski isə Q.M.Dobrovdan fərqli olaraq, elmə təkcə sistemləşdirilmiş biliklərin məcmusu kimi deyil, həm də öz inkişafında xüsusi qanunauyğunluqları, xüsusi fəaliyyət forması və özünəməxsusluğu olan tam bir sistem kimi baxmışlar.[346] Gənc elmşünas alim A.N.Muradovun fikrincə isə, **elmi fəaliyyət bu və ya digər xüsusiyyətlərinə görə insan fəaliyyətinin başqa sahələrindən əsaslı şəkildə fərqlənir**. Çünki elmi fəaliyyət obyektivliyə əsaslanaraq, yeni elmi biliklərin yaradılması, mənimsənilməsi, tətbiqi, onların qarşılıqlı fəaliyyətinin təşkili, elmi informasiyaların toplanması və mühafizəsini həyata keçirən yaradıcılıq prosesidir. Bu proses keçmiş elmi biliklərə əsaslanaraq, onun elementlərini özündə saxlamaqla, qarşıya qoyulmuş problemlərin həlli və quruluşu istiqamətində yeni ideyanın yaranmasına təkan verir. Yaradıcılıq prosesi, hər şeydən əvvəl, idraki

---

[344] *Джуенков В.И.* «Проблемы организации науки (региональный аспекты)». Москва, Наука, 1978, s. 46.

[345] *Добров Г.М.* «Наука о науке». 3-е изд. перераб. Киев, «Науково Думка», 1988, s. 36.

[346] *Кедров Б.М., Микулинский С.Н.* Наука и современное общество. Наука сегодня. Москва. Изд-во «Молодая гвардия», 1969, s. 48

prosesdir və onun necə baş verməsi sirlərini müasir psixologiya və neyrofiziologiya hələ də öyrənə və aydınlaşdıra bilməyib».[347] **Fikrimizcə, elmə verilmiş bu tərif yuxarıda qeyd edilən alimlərin fikirlərinin hamısından fərqlənir və bütün deyilənləri özündə əks etdirməklə ən məntiqlisidir.**

Elmi xüsusi fəaliyyət hesab edən və onu əsasən iki hissəyə — insanların ictimai həyatı, təbii cisimlər və maddi dünyanın dərk olunması haqqında sistemləşdirilmiş biliklərə və insan fəaliyyətinin xüsusi növü kimi yeni elmi biliklərin istehsalına bölən Y.V.Lebedevdən[348] fərqli olaraq, A.N.Muradovun fikrincə: «Elmi fəaliyyət təkcə Y.V.Lebedevin göstərdiyi şərtlərə görə deyil, həmçinin istehsal sahələrinin inkişaf etdirilməsi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi şərtlərinə görə də müəyyənləşdirilir. Burada belə nəticəyə gəlmək olar ki, elmi fəaliyyət **dünyanın dərk olunması, elmi biliklərin istehsalı və mənimsənilməsi, həyat səviyyəsinin yüksəldilməsi kimi** üç mühüm şərti özündə birləşdirir və ictimai həyatın bütün sahələrinə güclü təsir göstərməklə çox geniş sahəni əhatə edir. Çünki **elm bir tərəfdən,** təbiət və cəmiyyətdə baş verən prosesləri öyrənərək, elmi idrakın (təfəkkürün), cəmiyyətin, insan kapitalının, yeni bilik və istehsal sahələrinin inkişafına geniş imkanlar yaradır. **Digər tərəfdən isə** insanın dünyagörüşünü formalaşdırır, informasiya bazasını, qazanmış olduqları bilikləri daha da zənginləşdirir. ***Deyilənlərə əsaslanaraq, elmi fəaliyyəti cəmiyyətin, sosial-iqtisadi, elmi-texniki və intellektual tərəqqinin yeganə şərti hesab etmək olar. Elmi digər fəaliyyət sahələrindən fərqləndirən əsas cəhətlərdən biri də burada müxtəlif düşüncə, təfəkkür və intellektə malik insanların cəmləşməsidir.*** Bu insanların hər biri cəmiyyət, elm, texnika və təhsilin inkişafına müxtəlif formada və müxtəlif dərəcədə təsir göstərir. Bu da onu göstərir ki, elmi fəaliyyət sferasında çalışan insanlar təhsilin, elmi biliklərin yaradılması və yayılmasında, insan

---

[347] B a x: *Muradov A.N.* «Azərbaycanda elmi-texniki kadr potensialının səformalaşması və istifadəsi». İqtisad elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyası. Bakı, 2003, s.14.

[348] *Лебедев Ю.В.* Управление отраслевой наукой (вопросы теории и практики), Москва, «Наука», 1991, s. 25.

tələbatının (maddi və qeyri-maddi) təmin olunmasında, sonda isə cəmiyyətin tərəqqisində əhəmiyyətli rol oynayırlar. ***Hesab edirik ki, cəmiyyətdə baş verən hər bir tərəqqi əsasən iki mərhələdən keçir. Burada təhsil, elm və elmi biliklər ilkin mərhələ*** hesab olunur. **Bu mərhələdə** elm mərkəzi mövqe tutmaqla, cəmiyyətin inkişafının əsasını təşkil edir. **İkinci mərhələ** elmin nəticəsinin istehsalatda (maddi və qeyri-maddi) reallaşması mərhələsidir. Bunu aralıq mərhələ («elm-istehsal-istehlak») kimi də qiymətləndirmək olar. Bu mərhələlər arasında əlaqələrin düzgün qurulması cəmiyyətin inkişafına əhəmiyyətli təsir göstərir. Elm həmçinin özündə çoxsaylı elementləri birləşdirərək, sosial-iqtisadi münasibətlərin formalaşmasında və inkişafında əhəmiyyətli rol oynayan sosial institut funksiyasını yerinə yetirir».[349]

Elmin inkişafının nəticəsidir ki, hazırda ABŞ, Yaponiya, Almaniya, Fransa, İngiltərə və bu kimi inkişaf etmiş ölkələr sosial-iqtisadi, əhalinin həyat səviyyəsi, istehsalın rəqabət qabiliyyətliliyi, məşğulluğun təmin olunması, insan inkişaf indeksi və sair bu kimi makroiqtisadi göstəricilərinə görə, hətta zəngin təbii sərvətləri olan bir çox ölkələri geridə qoyurlar. Bu isə, heç şübhəsiz ki, bilavasitə elm və elmi-texniki fəaliyyətin, təhsilin və insan kapitalının inkişafı ilə bağlıdır.

Elmin inkişafının əsas şərtlərindən biri də, elmi-texniki fəaliyyətin resurslarla (maliyyə, cihaz və avadanlıqlar, informasiya və s.) təmin olunmasından və müasir tələblərə uyğun infrastrukturun yaradılmasından ibarətdir. Onu da nəzərə almaq lazımdır ki, elmi biliklərin istehsalı və mənimsənilməsi bilavasitə insan amili ilə bağlıdır və burada kadrların hazırlanması və onların kəmiyyət-keyfiyyət tərkibinin daim inkişaf etdirilib təkmilləşdirilməsinə böyük ehtiyac vardır. Çünki ***elmi fəaliyyətin yüksək səviyyəli bilik və bacarığa malik kadrlarla təmin olunması cəmiyyətdə maddi və mənəvi dəyərlər istehsalının artırılmasına əhəmiyyətli təsir göstərən ən mühüm amillərdən biridir.*** Eyni zamanda, elmi fəaliyyətin nəticələrinin kəmiyyət və keyfiyyət göstəriciləri bir çox amillərdən asılıdır. Bunlara elmin

---

[349] Bax: *Muradov A.N.* Göstərilən dissertasiyası, s. 14-15

idarəedilməsi, alimlərin, mühəndislərin, texnoloqların bilik səviyyəsi, elmə qoyulan investisiyanın kəmiyyəti, elmi-texniki məhsul bazarının vəziyyəti, elmi-tədqiqat istiqamətində marketinq araşdırmaları, maliyyələşdirmə sisteminin xarakteri, fundamental və tətbiqi elmlərin inkişafı və sair daxildir. Təsadüfi deyildir ki, son vaxtlarda, elm, texnika və texnologiyanın inkişafının nəticəsi olaraq, XXI əsrdə **«bilik iqtisadiyyatı»** və ya «innovasiyalara əsaslanan iqtisadi inkişaf» kimi yeni iqtisadi anlayışlar meydana çıxmışdır. Aparılan tədqiqatların nəticələri göstərir ki, elm və elmi fəaliyyət cəmiyyətdə tez-tez dəyişən sosial-iqtisadi proseslərin tənzimlənməsində əsas vasitə kimi çıxış edir. Elmin sosial-iqtisadi əhəmiyyəti isə, hər şeydən əvvəl, özünü onun son məhsulu olan yeniliyin, yəni innovasiyaların tətbiqindən əldə edilən səmərədə ifadə edir ***(«İnnovasiya» ingilis, dilində – «innovation», latın dilində – «innovati» - yeniləşmə mənasını verir).*** **İnnovasiya** – yeni ideyaların, tədqiqatların, işləmələrin yaradılması və ya təkmilləşdirilməsi prosesidir. Bu baxımdan elmi əməyin məhsulu olan innovasiyaların yaradılması özünəməxsus xüsusiyyətə malik olan **intellektual** bilik tələb edir. Bu nöqteyi-nəzərdən elmi biliklərin yaranması öz təbiətinə görə intellektual əmək ***hesab olunur. İntellektual əməyin məhsuldarlığının yüksəldilməsi və onlardan qanunauyğun qaydada istifadə olunması isə bu prosesin sürətləndirilməsindən asılıdır.***

Bütün bunlar isə, ilk növbədə, elmin özünün inkişaf etdirilməsini, elmi-texniki potensialın resurs təminatının (kadr, maliyyə, informasiya, maddi-texniki təchizat) müasir tələblərə uyğunlaşdırılmasını və elmi-texniki potensialdan səmərəli istifadə olunmasını tələb edir.

Qeyd etmək lazımdır ki: **«elmi potensial»** və **«elmi-texniki potensial»** anlayışları elmi dövriyyəyə XX əsrin 60-cı illərində Kiyev elmşünaslıq məktəbinin nümayəndələri (Q.M.Dobrov, V.N.Klimenyuk) tərəfindən gətirilmişdir. Həmin vaxtadək sosial-iqtisadi ədəbiyyatlarda **«intellektual potensial»** və **«yaradıcı potensial»** anlayışlarından istifadə olunurdu. XX əsrin 60-cı illərindən başlayaraq, elmi fəaliyyətin tədqiqi ilə məşğul olan iqtisadçı, sosioloq və filosoflar **«elmi-texniki potensial»** və **«elmi**

potensial» anlayışlarının öyrənilməsinə üstünlük vermiş və bu anlayışların mahiyyət və məzmununun izahına dair müxtəlif fikirlər söyləmişlər.

Müasir dövrədək aparılan tədqiqatlarda hər iki anlayış istehsalın intensiv qaydada inkişaf etdirilməsinin mühüm amili kimi göstərilirdi. Bunu əsas tutan tədqiqatçıların bəziləri qeyd olunan anlayışları eyniləşdirir, digərləri isə buraya təhsil potensialını da daxil etməklə hər bir dövlətin intellektual və sosial-iqtisadi inkişafının həlledici amili olduğunu göstərirdilər. Bir qrup alimlər isə əsaslı olaraq elm, texnika, təhsil potensiallarından əlavə, **Elmi-Texniki Potensiala (ETP) İstehsal Potensialını (İP) da əlavə edir və sübut etməyə çalışırdılar ki,** ETP nəinki ölkənin sosial-iqtisadi, həmçinin İP-in (buraya sənaye potensialını, intellektual potensialı əlavə etmək olar) inkişafında mərkəzi yerlərdən birini tutur. Əslində isə «**intellektual potensial**»ın cəmiyyətdə əhatə miqyasının geniş olması onu «**elmi-texniki potensial**»dan fərqləndirən əsas cəhətdir. Çünki «**intellektual potensial**» cəmiyyətin (xalqın, millətin) intellektual inkişaf səviyyəsini səciyyələndirir və bütövlükdə əhalinin təhsil səviyyəsinin əsas göstəricisi hesab olunur. «**Elmi-texniki potensial**» isə cəmiyyətdə elmi-texniki, sosial-iqtisadi inkişafa nail olunması üçün elmi-tədqiqat işlərinin aparılması, tədqiqi, təcrübədən keçirilməsi və s. proseslərdə bilavasitə iştirak edən resurslarla (insan, texnika və texnoloji vasitələr, əsas fondlar, informasiya bazası və s.) xarakterizə olunur. Ancaq, əlbəttə ki, «intellektual potensial»ın özünün formalaşması da bilavasitə «elm» və «elmi-texniki potensial»ın inkişaf səviyyəsindən asılıdır.

Sosial-iqtisadi ədəbiyyatlarda «elmi potensial» və «elmi-texniki potensial» anlayışlarına müxtəlif aspektlərdən yanaşılır. Bunların arasında xüsusi maraq doğuran bir neçəsinə diqqət yetirmək pis olmazdı. Məsələn, Q.M.Dobrov «elmi potensialı» elmi-texniki problemlərin perspektivli həllində elm sisteminin inkişaf imkanlarını xarakterizə edən kompleks parametrlər kimi izah edir.[350] Q.Krayuxin isə «elmi-texniki potensial» anlayışına elmi-tədqiqat təşkilatlarının və elmi işçilərin sayını, elmi-

---

[350] *Добров Г.М.* Прогнозирования науки и техники. Москва, «Наука», 1969, с.66

tədqiqat və işləmələrin sayını; elmin nəticələrindən istehsalatda istifadə edilmə dərəcəsini; buraxılan maşın və avadanlıqların texniki səviyyəsini və onların yeniləşmə sürətini; ixtiraçılıq və səmərələşdiricilik fəaliyyətini və s. daxil edir.[351] P.A.Kulvetsin fikrincə isə, «elmi-texniki potensial» alim, mühəndis, texnoloq və başqa uyğun ixtisaslı mütəxəssis kadrlardan, elmi-texniki fəaliyyətin maddi-texniki təchizatından, həmçinin elmin istehsal vasitələrindən (bilik, avadanlıq, cihaz), elmi-tədqiqat, işləmə (elmi-texniki fəaliyyətin qarşılıqlı sahələri də daxil olmaqla) yoxlama və yeni məhsulun təcrübi nümunəsinin hazırlanması, onların istehsalının təşkili və xalq təsərrüfatında istifadə olunması üçün lazım olan material, xammal, informasiyalar fondundan ibarətdir.[352] Başqa bir mütəxəssis Y.Yakovets isə hesab edir ki, «**elmi-texniki potensial**» anlayışı istehsalın elmi-texniki və texnoloji əsasdan yeniləşməsinin daha geniş şərhini verərək, buraya «alimlər, mütəxəssislər, ixtisaslı işçilər və kənd təsərrüfatı işçiləri, onların yeni yaranan texnika və texnologiyalar nəslini dərk etmək və yaratmaq qabiliyyətini; ixtiralar, kəşflər, yeni texnika nümunələri, onların yenilik dərəcəsi və səmərəlilik potensialı; elm, istehsal və qeyri-istehsal dairələrinin texniki bazası və onların vəziyyətinin elmi-texniki inqilabın tələblərinə cavabvermə qabiliyyəti; elmi-texniki fəaliyyətin təşkilati forması, onun idarəedilmə metodu, insan amilinin fəallaşdırılması imkanları, elmin nailiyyətlərinin istehsala tətbiqin sürət-ləndirilməsi və onun miqyasının genişləndirilməsi və sair daxildir.[353] **P.Q.Oldaka görə isə «elmi-texniki potensial» anlayışı istehsalın inkişafını əks etdirən təhsil, elm və idarəetmə kimi üç müxtəlif keyfiyyət parametrləri ilə səciyyələnir.[354]** Başqa bir amerikalı alim V.İ.Qromok isə P.Q.Oldakdan fərqli olaraq, «***elmi-texniki potensiala» texniki potensialı da daxil edərək, ETP-yə «elm,***

---

[351] Экономические проблемы научно-технического прогресса. Учеб.пособ. для работников НИИ и КБ. Москва, 1984, с.21.

[352] *Кулвец П.А.* Проблемы экономической эффективности использования научно-технического потенциала. Вильнюс, «Минтис», 1978, с.21.

[353] *Яковец Ю.* Перестройка структуры научно-технического прогресса: теория и экономический механизм. Москва, «Экономика», 1988, с.14.

[354] *Олдак П.Г.* Принцип программного подхода (материалы научного симпозиума по проб. долгосрочного экон. прогн. развития нар. хоз. Сибири и Дал. Востока), Новосибирск, 1970, с.9.

texnika, təhsil, idarəetmə potensialının və yeniləşmə prosesinin bir-biri ilə qarşılıqlı fəaliyyətdə olan vahid hissəsi kimi baxır.[355] ***Əlbəttə, ETP yuxarıda adları çəkilən alimlərin göstərdiyi kimi, təkcə elm, təhsil, texnika və idarəetmə potensiallarının qarşılıqlı fəaliyyəti ilə məhdudlaşmır və burada digər potensiallar da (iqtisadi, sənaye, intellektual və s.) mühüm rol oynayır.*** Bu mənada V.V.İvanov, V.N.Qnevoy, Q.V.Monastırskaya və başqaları «elmi-texniki, potensial» *anlayışına daha geniş, yəni elmi-texniki yeniliklər, ixtiralar, elmi tədqiqatların aparılması üçün vacib olan resursların məcmusu kimi baxırlar.*[356]

Burada onu da qeyd etmək lazımdır ki, elm (və ya elmi biliklər) insan fəaliyyətinin özünəməxsus dairəsi kimi öz-özünə inkişafda olan təbii bir proses deyildir. Onun inkişafı elmi-texniki kadrlardan (ETK), onların bilik və bacarığından, səmərəli istifadə olunmasından bilavasitə asılıdır. Bu isə o deməkdir ki, elmi-texniki kadrlar elmi inkişaf etdirən qüvvə, elmin özü isə bu kadrları istehsal gücünə çevirən vasitədir.

Elmi-texniki kadrların tədqiqi ilə məşğul olan Q.M.Dobrov, V.E.Tonkal, A.A.Savalev və başqaları onu 4 tərkib elementə (kadr potensialı, elmi informasiya, maddi-texniki təchizat və elm sistemində optimal təkmilləşdirmə) ayırır və burada onun kadr tərkibini birinci və ən vacib element hesab edirlər.[357] ***Nəzərə alsaq ki, indiki yeni iqtisadi münasibətlər şəraitində ölkənin elmi, elmi-pedaqoji, mühəndis və texnoloqlarından istifadənin yaxşılaşdırılmasına, elmi fəaliyyətin bazar iqtisadiyyatının tələblərinə transformasiya olunmasına böyük ehtiyac duyulur, onda ölkəmizdə elmi-texniki kadrların hazırlanması, bölüşdürülməsi və istifadə vəziyyətinin təhlil edilib öyrənilməsi və bu sahədə müvafiq strategiyanın işlənib hazır-***

---

[355] *Громок В.И.* США: Научно-технический потенциал. М., «Мысль», 1977, с. 117.

[356] *Иванов В.В., Гневой В.К., Монастырская Г.В.* Анализ, оценка и стимулирование эффективности научного потенциала АН УССР. Киев, «Науково Думка», 1990, с.5.

[357] *Добров Г.М, В.Е.Тонкал, А.А.Савалев* и другие. «Научно-технический потенциал: структура, динамика, эффективность». Киев, «Науково Думка», 1997, с.63.

lanmasının nə kimi böyük elmi və elmi-təcrübi əhəmiyyət kəsb etməsinin sübut etməyə ehtiyac qalmır.

Ölkə iqtisadiyyatının dinamik və səmərəli inkişafı, ilk növbədə, burada elmin inkişaf etdirilməsini tələb edir. Çünki elmi inkişaf etdirmədən, ölkə iqtisadiyyatında istənilən nailiyyətlər əldə etmək qeyri-mümkündür. Lakin buna baxmayaraq, müstəqillik əldə etdiyimiz *1991-ci ildən başlayaraq respublikamızın elmi və elmə xidmət sahələrində («EEX») yaranmış çətin sosial-iqtisadi və sosial-psixoloji vəziyyətlə əlaqədar elmi-texniki kadrların ölkə daxili və ölkədən xaricə miqrasiyası («beyin axını») xeyli sürətlənmiş, elmi-tədqiqat işlərinin keyfiyyəti isə aşağı düşmüşdür. Bu, elmi kadrların kəmiyyət və keyfiyyət göstəricilərində, onun quruluşunda baş verən ciddi dəyişikliklərdə özünü göstərir. Elmi-texniki kadrların kommersiya və sənaye strukturlarına getməsi (ölkədaxili miqrasiyası) bir tərəfdən həmin təşkilatların inkişafında mühüm rol oynayırsa, digər tərəfdən, bu proses elmin özünü çətin vəziyyətə salır ki, bu da ölkənin milli, iqtisadi və intellektual təhlükəsizliyi baxımından xoşagəlməz nəticələrə gətirib çıxara bilər. Onu da qeyd etmək lazımdır ki, elmi-texniki kadrların ölkədən xaricə miqrasiyası (daimi yaşamağa getməsi) daxili miqrasiya ilə müqayisədə daha təhlükəlidir. Çünki «beyin axını» təkcə kadrların hazırlanmasına qoyulan vəsaitin səmərəliliyi, intellektual inkişafın ardıcıllığının pozulması və elmi-texniki potensialın zəifləməsi baxımından deyil, həm də millətin genetik fondunun itirilməsi baxımından ölkədə ciddi problemlər yarada bilər*[358].

Aparılan tədqiqatların nəticələrindən aydın olur ki, axırıncı 10-12 il ərzində iqtisadi böhran keçirmiş ölkələrdən, xüsusilə də MDB ölkələrindən ABŞ və Avropa ölkələrinə yüksək ixtisaslı kadrların (yaxud da **«düşünən beyinlərin»**) **axını xeyli çoxalmışdır**. Həmin ölkələr bu kateqoriya işçiləri, heç bir maneə qoymadan, iş, mənzil və s. əsas yaşayış vasitələrilə təmin edir və onlara səmərəli fəaliyyət göstərmələri üçün həvəsləndirici əlverişli mühit yaradırlar. **Əvvəla,** ona görə ki, həmin

---

[358] *Мурадов Ш.М.* Проблемы демографического развития и занятости населения в Азербайджане. Azərbaycan EA Xəbərləri. İqtisadiyyat seriyası, 2000, № 3-4.

ölkələr heç bir əlavə kapital qoymadan hazırlıqlı və təcrübəli kadrlar əldə edirlər. **İkincisi,** bu kadrlar müxtəlif elmi təşkilatlarda və kompaniyalarda çalışmaqla yaratdıqları yeniliklər sayəsində həmin ölkələrə milyonlarla dollar həcmində yüksək iqtisadi səmərə verirlər. **Üçüncüsü**, mühacirətdə olan elmi kadrlar bu ölkələrdə yüksək səviyyəli elmi-texniki potensialın formalaşmasına kömək edirlər. Heç şübhəsiz ki, ABŞ və bir sıra Avropa ölkəsinin elm və texnologiyalar sahəsində liderlik etməsinə bu ölkələrə miqrasiya etmiş elm adamlarının da müəyyən dərəcədə təsiri olmuşdur. Təbii ki, bu işdə həmin ölkələrin elmi-texniki sahədə apardıqları dövlət siyasəti və elmi işçilər üçün yaradılmış əlverişli əmək şəraiti mühüm rola malikdir.

Dünya təcrübəsindən məlumdur ki, sivilizasiyalı cəmiyyətlərin formalaşmasında elmin və elmi-texniki kadrların müstəsna dərəcədə əhəmiyyətli rolu olmuşdur. Məhz onların əməyinin nəticəsində ağır əl əməyi avtomatlaşdırılmış, əməyin məhsuldarlığı yüksəlmiş, insanların həyat tərzində köklü dəyişikliklər baş vermişdir. Ona görə **də indiki şəraitdə elm adamlarının xarici ölkələrə çıxıb getmələri arzuolunmazdır və hər bir ölkə üçün yolverilməz proses kimi qiymətləndirilməlidir.** Rusiya ekspertləri tərəfindən aparılmış təqribi hesablamalara görə, müstəqillik illərində Rusiya Federasiyası xarici ölkələrə **«beyin axınından»** nə az, nə çox ən azı 200 milyard dollar itirmişdir. Ekspertlərin hesablamalarına görə, Rusiya Federasiyası hər bir alimin xaricə getməsindən təqribən 300 min dollar itirir. Rusiya Federasiyası və Azərbaycan Respublikasının bir sistemdə yaşadığını nəzərə alsaq, bu rəqəmi Azərbaycan üçün də əsas götürmək olar. Ancaq, *əlbəttə, alimlərimizin xaricdə işləməyə getməsini bütün hallarda mənfi proses kimi də qiymətləndirmək olmaz. Burada məsələyə konkret halda yanaşmaq lazımdır. Bir çox hallarda Azərbaycan alimləri xarici ölkələrə məqsədli şəkildə uzun müddətə ezam edilirlər və onlar həmin ölkələrin alimləri ilə birlikdə hər iki ölkənin mənafelərinə xidmət edən tədqiqatlar aparır, elmi təcrübələr keçir və s. qarşılıqlı yaradıcılıq işlərilə məşğul olurlar*. Əlbəttə, bu cür elmi əlaqələrin inkişaf etdirilməsi obyektiv zərurət olub, gələcəkdə də ona diqqətin artılırmasını tələb edir.

Aparılan tədqiqatlar göstərir ki, son illərdə başqa MDB ölkələrində ölduğu kimi, Azərbaycanda da yüksək ixtisaslı elmi-texniki kadrların sayı ildən-ilə azalır və buna müxtəlif amillər təsir göstərir. Əmək haqqının aşağı olması isə həmin prosesə ən ciddi təsir göstərən amillərdən biridir. Hazırda elmi-texniki kadrların, xüsusilə də gənc tədqiqatçıların əmək haqqı respublika üzrə orta nominal əmək haqqı səviyyəsindən və minimum istehlak büdcəsinin dəyərindən xeyli aşağıdır. Bu isə elmi fəaliyyətə yeni başlayan gənc kadrlarda bu sahəyə maddi maraq yaratmır və öz növbəsində, həmin gənclərin elmi fəaliyyətlərini yarımçıq qoyub başqa sahələrdə işləməyə getmələrinə səbəb olur. **Nəticədə, bir tərəfdən, elmi-texniki kadrların sayı azalır, digər tərəfdən isə onların tərkibində qocalma prosesi sürətlənir. Belə olan halda isə elmi biliklərin nəsildən-nəsilə ötürülməsindəki ahəngdarlıq pozulur. Ədalət naminə onu da qeyd etmək lazımdır ki, eks-prezident Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk dövrdə (1962-1982-ci illərdə)** respublikamızda elmi-tədqiqat, layihə-konstruktor və texnologiya işlərini yerinə yetirən mütəxəssislərin sayı 36,6 faiz artaraq, 16594 nəfərdən 22672 nəfərə, o cümlədən elmlər doktorlarının sayı 60,1 faiz artaraq 582 nəfərdən 932 nəfərə, elmlər namizədlərinin sayı isə 76,6 faiz artaraq 4931 nəfərdən 8710 nəfərə çatmışdır.[359] Bu dövrdə Azərbaycan alimlərinin əldə etdiyi 540 elmi nəticə SSRİ Elmlər Akademiyası tərəfindən sovet elminin ən mühüm nailiyyətləri sırasına daxil edilmişdir ki, bu da Azərbaycan Elmlər Akademiyasının SSRİ Elmlər Akademiyasının tərkibində olduğu 46 il ərzində (1945-1991-ci illərdə) SSRİ EA tərəfindən Azərbaycan alimlərinin həmin nailiyyətlər sırasına daxil edilmiş 1100 elmi nəticəsinin 49,1%-ni təşkil edir. Əvvəllər Azərbaycandan SSRİ EA-nın mühüm nailiyyətləri sırasına bir dənə olsun iqtisadiyyat üzrə elmi nəticə daxil edilmədiyi halda, 1973-cü ildən başlayaraq hər il orta hesabla bu sahədə əldə edilmiş ən azı 2-3 elmi nəticə, bütünlükdə isə 40-dan çox elmi nəticə həmin nailiyyətlər sırasına daxil edilmişdir.[360]

---

[359] Xalqa həsr olunan illər. Bakı, Səda nəşriyyatı, 2003, s. 436.

[360] *Ş.M.Muradov*. Azərbaycanda elmin inkişafının Heydər Əliyev mərhələsi. (Elm qəzetinin xüsusi buraxılışı kitabında). Bakı, 2003. s.239.

70-ci illərdə və 80-ci illərin əvvəllərində Azərbaycan Elmlər Akademiyasında və bütünlükdə respublikada aparılan elmi tədqiqatlar sahəsində uğurlu nəticələrin əldə edilməsinin əsas səbəblərindən biri həmin illərdə Azərbaycana rəhbərlik etmiş mərhum Heydər Əliyevin böyük təşkilatçılıq istedadı və tələbkarlığı nəticəsində burada güclü kadr potensialının və texniki arsenalın yaradılması olmuşdur. Bunun nəticəsi idi ki, 1969-1982-ci illərdə Azərbaycan Elmlər Akademiyasında çalışan işçilərin sayı 1,9 dəfə artaraq 7892 nəfərdən 15072 nəfərə, o cümlədən elmi işçilərin sayı 45,6% artaraq 3431 nəfərdən 4995 nəfərə, elmlər doktorlarının sayı 1,5 dəfədən çox artaraq 188 nəfərən 285 nəfərə, elmlər namizədlərinin sayı 1,6 dəfədən çox artaraq 1275 nəfərdən 2068 nəfərə çatmışdır. Bütünlükdə götürülükdə isə, 1970—1982-ci illərdə respublikamızda 265 elmlər doktoru və 3141 elmlər namizədi hazırlanmışdır.[361] Bu çox böyük nailiyyət idi.

1969—1982-ci illərdə Respublika Elmlər Akademiyasının alimləri tərəfindən hər il orta hesabla 208 adda 1486,5 çap vərəqi həcmində və 250,7 min nüsxədə elmi əsər çap etdirilmişdir. **Heydər Əliyevin Azərbaycandan Moskva şəhərinə – keçmiş SSRİ-nin rəhbərliyinə aparıldıqdan sonrakı illərə (1982-1987-ci illər) gəldikdə isə onun o vaxtlar Sov.İKP Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Sovet sədrinin birinci müavini kimi yüksək partiya və hökumət rəhbərliyində işlədiyi və bilavasitə Azərbaycana rəhbərlik etmədiyi müddətdə də həmişə diqqəti Azərbaycanın və onun Elmlər Akademiyasının üzərində olmuşdur. Bu səbəbdən həmin illərdə də Azərbaycan Elmlər Akademiyası öz fəaliyyətinin əvvəlki ahəngini qoruyub saxlaya bilmiş, xeyli elmi nailiyyətlər qazanmış və əvvəlki ənənələrini davam etdirmişdir. Bu dövrdə (1983-1987-ci illərdə) Azərbaycan Elmlər Akademiyasında 859 elmi nəticə əldə edilmiş və onların 281-i (32,7%-i) SSRİ EA tərəfindən sovet elminin ən mühüm nailiyyətləri sırasına daxil edilmişdir. Burada çalışan əməkdaşların sayının 12%-i azalaraq 15,1 min nəfərdən 13,3 min nəfərə, o cümlədən**

---

[361] *Ş.M.Muradov.* Göstərilən əsəri (Elm qəzetinin xüsusi buraxılışı kitabında), səh.239-240.

elmi işçilərin sayının 7% azalaraq 4985 nəfərdən 4640 nəfərə düşməsinə baxmayaraq, Akademiyada işləyən elmlər doktorlarının sayı 16,1% artaraq 285 nəfərdən 331 nəfərə, elmlər namizədlərinin sayı isə 10,7% artaraq 2088 nəfərdən 2312 nəfərə çatmışdır.[362] **Lakin təəssüflə qeyd etmək lazımdır ki, bu nailiyyətlər getdikcə artmaq əvəzinə, tədricən azalmağa doğru meyl etmiş və 1987-ci ilin axırına Azərbaycan xalqının düşməni M.S.Qorbaçovun və onun erməni lobbisindən olan** nökərlərinin, habelə nə qədər acınacaqlı olsa da bizim bəzi nankor «**azərbaycanlı həmvətənlərimizin**» də köməkliyi ilə xalqımızın yenilməz oğlu Heydər Əliyevin Kremldən Sov.İKP Siyasi Bürosu üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi yüksək partiya və hökumət vəzifələrindən istefaya göndərilməsinə nail olunduqdan sonra, ***bütövlükdə, Azərbaycan kimi, onun Elmlər Akademiyasının da əsl faciəli günləri başladı. 70-ci illərdə Azərbaycan Elmlər Akademiyasına dünya şöhrəti qazandırmış Heydər Əliyev təqaüdə çıxması adı ilə vəzifədən uzaqlaşdırıldıqan sonra ilk zərbə hədəfi qəsdən Azərbaycan xalqının böyük ziyalılar ordusunun toplandığı, Azərbaycanın elm məbədgahı sayılan Elmlər Akademiyası oldu.*** Bu dövrdə Elmlər Akademiyasının başı üstünü tədricən qara buludlar almağa başladı və o tamamilə dağılmaq təhlükəsi ilə üz-üzə qaldı. Akademiya və onun alimləri ətrafında elə bir mühit yaradılmağa başladı ki, bu sanki Akademiyanı və onun çoxminli kollektivinin respublika ictimaiyyətinin gözündən salmağa və tədricən bu elm məbədgahının bağlanmasına yönəldilmişdi. **Bu vəziyyət özünü xüsusilə 1988-1993-cü illərdə daha qabarıq şəkildə büruzə vermişdir**. Bunun mühüm səbəblərindən biri o zaman bütünlükdə keçmiş İttifaqda yaranmış sosial-iqtisadi, siyasi və mənəvi şərait və gərginlik, habelə o vaxtkı ölkə rəhbərlərinin elmə olan ögey və soyuq münasibətləri ilə bağlı idisə, digər mühüm səbəblərindən biri də respublikaya və onun elminə səriştəsiz insanların rəhbərlik etməsi idi.

---

[362] *Ş.M.Muradov.* Göstərilən məqaləsi (Elm qəzetinin xüsusi buraxılışı kitabında), s.242-243.

1988-1992-ci illərdə müxtəlif səbəblər üzündən respublika «rəhbərliyinin» Akademiyaya və ümumiyyətlə, elmimizin inkişafına münasibəti son dərəcə pisləşmiş və ifrat dərəcədə kəskinləşmişdi. 1992-ci ildə və 1993-cü ilin əvvəllərində isə hətta elə vəziyyət yaranmışdı ki, vaxtı ilə Azərbaycan EA-nın müxtəlif İnstitutlarında işləyib uzun illər boyu yüksək elmi dərəcə və elmi adlar almaq arzusunda olub, lakin buna nail olmaq qabiliyyətinə malik olmayan bəzi üzdəniraq «demokratlar» hakimiyyətə yiyələndikdən sonra sanki Elmlər *Akademiyasından qisas almaq və ümumiyyətlə, onu bağlamaq mövqeyi tutmuşdular. Elmlər Akademiyasına olan bu ögey münasibətin* nəticəsi idi ki, vaxtı ilə ən yüksək əmək haqqı alan alimlər üçün ən aşağı səviyyəli əmək haqqı və rütbə maaşı müəyyən edilmiş və indiyədək *onların atdığı bu elmə zidd və səhv addımların mənfi nəticələrini tamamilə aradan qaldırmaq mümkün olmamışdır. Elə bu səbəbdən də həmin illərdə və ondan sonrakı dövrdə də elmi işçilərin bir çoxu elmdən uzaqlaşaraq ticarət sahəsinə, kommersiya işinə, özəl qurumlara və xarici ölkələrdə işləməyə getmişlər. Ağır maddi çatışmazlıq ucbatından Akademiyanın yüzlərlə elmi əməkdaşı bu elm məbədgahını tərk etmiş və indiyədək burada yalnız elm fanatikləri, əsl elmsevərlər, vətən elmini qoruyub saxlamaq arzusu ilə yaşayanlar, onun qeyrətini çəkən namuslu elm adamları qalıb işləyirlər.*

Son vaxtlaradək Elmlər Akademiyasından bəzi zəka sahiblərinin axınına səbəb bir də onunla bağlı idi ki, cənab Heydər Əliyev Azərbaycan Respublikasının rəhbərliyindən Moskvaya yüksək hökumət postuna getdikdən sonra Akademiyaya seçkilər, bir qayda olaraq, süni surətdə gecikdirilmiş və onun nizamnaməsinə əsasən iki ildən gec olmayaraq seçkilərin keçirilməsi nəzərdə tutulduğu halda, o zamankı sərişdəsiz və qeyri-təşəbbüskar Akademiya rəhbərlərinin təqsiri üzündən uzun bir vaxt ərzində, yəni 1983-2000-ci illəri əhatə edən 17 il ərzində yalnız bir dəfə – 1989-cu ildə Akademiyaya seçkilər keçirilmiş və Akademiyanın tarixində bu seçkilər qədər qeyri-obyektiv seçkilər bəlkə heç zaman olmamışdır. Çox acınacaqlı hal idi ki, Akademiyanın bəzi keçmiş rəhbərləri özləri elmlər doktoru alimlik dərəcəsi aldıqdan sonra, vaxtı ilə hər iki və ən

geci üç ildən bir keçirilən seçkilərdə diplomlarının mürəkkəbi qurumamış Akademiyanın müxbir və həqiqi üzvləri «seçildikdən» sonra, Akademiyaya seçkiləri müxtəlif bəhanələrlə süni surətdə gecikdirməklə, başqa layiqli alimlərin bu adları almalarına maneçilik törətmiş, onları qocaltmış, elmə maraqlarını öldürmüş, mənəvi və fiziki cəhətdən sıradan çıxmalarına şərait yaratmışlar. Elə bu səbəbdəndir ki, Akademiyanın bir sıra institutlarında 30-35 il bundan öncə 30-32 yaşında elmlər doktoru alimlik dərəcəsi almış, hər biri 35-40 elmlər namizədi və elmlər doktorları hazırlamış, onlarla monoqrafiyaların və yüzlərlə elmi məqalələrin müəllifi olan onlarca istedadlı alimlərimiz 60-65 və daha yuxarı yaş həddinə gəlib çatdığı halda, onlar yuxarıda deyilən subyektiv səbəblər üzündən Akademiyanın üzvlüyünə seçilə bilməmişlər. **Vaxtında və obyektiv seçkilər keçirilsəydi, yəqin ki, onların bir çoxu indi Akademiyanın həqiqi üzvləri olardılar. 1987-ci ildən keçən 18 il ərzində Akademiyaya seçkilərin ən azı 8-9 dəfə əvəzinə, cəmi iki dəfə, yəni 1989-cu və 2001-ci illərdə keçirilməsi Akademiya üzvlərinin bir neçə nəslinin itirilməsinə səbəb olmaqla, bütünlükdə, Azərbaycan elminin inkişafına çox** böyük zərbə vurmuşdur. Təsadüfi deyildir ki, Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi məlumatlarına əsasən, 1991-2001-ci illərdə bəzi elm sahələri istisna olmaqla (fizika-riyaziyyat, filologiya, coğrafiya, hüquq, tibb, əczaçılıq, sənətşünaslıq və memarlıq), əksər elm sahələrində onların sayı xeyli azalmışdır (73-cü cədvələ bax). 73-cü cədvəlin məlumatlarından göründüyü kimi, SSRİ-nin dağılması ərəfəsindəki 10 il ərzində (1980-1990-cı illər) Azərbaycan Respublikasında çalışan elmi-tədqiqat işlərini və işləmələri yerinə yetirən əməkdaşların sayı 2373 nəfər və ya 10,7 faiz artaraq, 21993 nəfərdən 24366 nəfərə çatmışdırsa, müstəqillik dövrünün 10 ili ərzində isə əksinə (1991-2001-ci illər) bu göstərici 3223 nəfər və ya 13,3 faiz azalaraq 24366 nəfərdən 21143 nəfərə düşmüşdür. Bu göstərici müxtəlif elm sahələrində eyni olmayıb, bir-birindən fərqlənir. Məsələn, 1980-1990-cı illərdə həmin göstəricinin ən sürətli artımı memarlıq (182,6%), pedaqogika (129,6%), geologiya-mineralogiya (126,5%), fəlsəfə (122,6%), əczaçılıq (125,5%), psixologiya

(121,8%) sahəsində, 1990—2001-ci illərdə isə hüquq (164,4%), filologiya (141,9%), əczaçılıq (128,2%), sənətşünaslıq (127,5%),

73-cü cədvəl [363]

Azərbaycan Respublikasında ayrı-ayrı elm sahələrində elmi-tədqiqat və işləmələri yerinə yetirən işçilərin dinamikası (nəfərlə)

Elm sahələri	1980	1990	2000	2001	1990-cı ildə	2001-ci ildə	
					1980-ci ilə nisbətən, %-lə	1980-ci ilə nisbətən, %-lə	1990-cı ilə nisbətən, %-lə
1	2	3	4	5	6	7	8
Cəmi	21993	24366	20729	21143	110,7	96,1	86,7
Fizika-riyaziyyat	2102	2191	2388	2340	104,2	111,3	123,5
Kimya	1810	1895	1803	1845	104,6	101,9	97,6
Biologiya	1375	1460	1265	1404	106,2	102,1	96,2
Geologiya-mineralogiya	875	1107	849	780	126,5	89,1	70,5
Texnika	6376	7673	4143	3982	115,6	62,4	51,9
Kənd təsərrüfatı	1153	1199	743	779	104,0	67,6	65,0
Tarix	733	875	885	871	119,4	118,8	99,5
İqtisadiyyat	1404	1425	1234	1295	101,5	92,24	90,8
Fəlsəfə	403	494	447	450	122,6	111,6	91,0
Filologiya	1878	1899	2415	2695	101,1	143,5	141,9
Coğrafiya	311	370	397	404	118,9	129,9	109,1
Hüquq	158	163	233	268	103,1	169,6	164,4
Pedaqogika	758	983	1119	1074	129,6	141,7	109,2
Tibb	1422	1674	1692	1795	117,7	126,2	107,2
Əczaçılıq	32	39	56	50	125,5	156,2	128,2
Baytarlıq	148	130	58	83	87,8	56,0	63,8
Sənətşünaslıq	423	426	500	543	100,7	128,3	127,5
Memarlıq	75	137	140	170	182,6	2,2 dəfə	124,0
Psixologiya	78	95	105	81	121,8	103,8	85,2

memarlıq (124,0%) və fizika-riyaziyyat (123,5%) sahəsində özünü büruzə vermişdir. Statistik rəqəmlərdən göründüyü kimi, 1990-cı illə müqayisədə 2001-ci ildə isə fizika-riyaziyyat, filologiya, coğrafiya, hüquq, pedaqogika, səhiyyə, əczaçılıq, sənətşünaslıq, memarlıq, və s. elm sahələrində kadrların sayı

[363] Cədvəl Azərbaycan Dövlət Statistika Komitəsinin ilkin uçot məlumatları əsasında tərtib edilmişdir.

artdığı halda, bəzi mühüm elm sahələrində (geologiya-mineralogiya, kənd təsərrüfatı, texnika və s.) isə kadrların sayı, hətta 1980-cı ildəki səviyyədən də aşağı düşmüşdür. Bu göstərilən elm sahələrində kadrların sayının azalmasına həmin sahələrdə çalışanların xarici ölkələrə getməsi də müəyyən dərəcədə təsir göstərmişdir.

Kimya və texniki elmlər sahəsində kadrların sayının azalması isə 90-cı illərdə bu sahələrdə iqtisadiyyatın böhranlı vəziyyətə düşməsi ilə bağlı olmuşdur. Tədqiq edilən dövrdə elmi-tədqiqatı və işləmələri yerinə yetirən yüksək ixtisaslı elmi işçilərin (elmlər doktorları və namizədləri) elmin sahələri üzrə bölünməsi dinamikası 74-cü cədvəldə öz əksini tapmışdır. Həmin cədvəlin məlumatlarından görünür ki, hazırda ölkəmizdə elmi-tədqiqatı və işləmələri yerinə yetirən elmlər doktorlarının 38,3 faizi fizika-riyaziyyat, texnika və kimya elmləri sahəsinin payına düşdüyü halda, tarix, iqtisadiyyat və fəlsəfə elmləri sahələrinin payına onların cəmi 16,2 faizi düşmüşdür. Eyni vəziyyəti elmlər namizədlərinin haqqında da demək olar.

1980—2001-ci illərdə Azərbaycanda elmi-tədqiqatı və işləmələri yerinə yetirən elmlər doktorları və namizədlərinin say dinamikası və onların elm sahələri üzrə məşğulluq quruluşunun təhlilindən aydın olur ki, müqayisə edilən dövrdə elmi dərəcəsi olanların sayı 6,8 faiz artaraq 9093 nəfərdən 9709 nəfərə, o cümlədən elmlər doktorlarının sayı 1,6 dəfə artaraq 907 nəfərdən 1481 nəfərə, elmlər namizədlərinin sayı isə cəmi 0,5 faiz artaraq 8186 nəfərdən 8228 nəfərə gəlib çatmış, elmi dərəcəsi olanlar arasında elmlər doktorlarının xüsusi çəkisi 10,0 faizdən 15,2 faizə qalxmış, emlər namizədlərinin xüsusi çəkisi isə azalaraq 90,0 faizdən 84,8 faizə düşmüşdür. Bu meyl ayrı-ayrı elm sahələrində müxtəlif olmaqla bir-birindən fərqlənir.

Son vaxtlarda respublikamızda elmlər doktorları və namizədlərinin sayının azalması bir tərəfdən, onların müəyyən qisminin xarici ölkələrə işləməyə getməsi ilə bağlı idisə, digər tərəfdən də SSRİ-nin dağılmasından sonra Azərbaycanın Ali Attestasiya Komissiyasında yaranmış elməzidd hərəkətlərlə, müvafiq elmi istiqamətlər üzrə Müdafiə Şuralarının yaradılmasına qoyulmuş süni qadağalar, burada baş alıb gedən özbaşına-

lıqlar, elmə rəhbərlik sahəsində buraxılmış ciddi nöqsanlar və s. səbəblərlə bağlı olmuşdur.

Tədqiq edilən dövrdə elmi-texniki kadr potensialının hazırlanması və istifadəsi sahəsində də bir sıra nöqsanlar aradan qaldırılmamış və bu proses ölkəmizdə intellektual insan potensialının formalaşması və inkişafına öz mənfi təsirini göstərməkdə davam edir. Təkcə bunu demək kifayətdir ki, 1990—2002-ci illəri əhatə edən son 12 il ərzində respublikamızda aspirantların sayı 21,0 faiz azalaraq 1340 nəfərdən 1053 nəfərə, o cümlədən elmi müəssisələrdə 31,2 faiz azalaraq 785 nəfərdən 540 nəfərə, ali məktəblərdə isə 6,5 faiz azalaraq 555 nəfərdən 519 nəfərə, aspiranturaya qəbul olunanların sayı 24,2 faiz azalaraq 400 nəfərdən 303 nəfərə, o cümlədən elmi müəssisələrdə 22,1 faiz azalaraq 226 nəfərdən 176 nəfərə, ali məktəblərdə isə 27 faiz azalaraq 174 nəfərdən 127 nəfərə, aspiranturanı bitirənlərin sayı isə 45,3 faiz azalaraq 369 nəfərdən 202 nəfərə, o cümlədən elmi müəssisələrdə 31,5 faiz azalaraq 203 nəfərdən 139 nəfərə, ali məktəblərdə isə 64,0 faiz azalaraq 166 nəfərdən 63 nəfərə düşmüşdür. ***Ən çox diqqəti cəlb edən məsələ isə budur ki, əgər 1990-cı ildə aspiranturanı bitirənlərin 47 faizi, o cümlədən elmi müəssisələrdə – 19 faizi, ali məktəblərdə isə 28 faizi dissertasiya işlərini müdafiə etmişlərsə, 2002-ci ildə bu göstərici qat-qat azalaraq müvafiq surətdə 14; 11 və 3 faiz təşkil etmişdir.***[364]

Bu vəziyyətin yaranması yuxarıda qeyd etdiyimiz səbəblərlə yanaşı, aspirantların sosial müdafiəsi, iş və mənzil şəraiti, təqaüdlərinin aşağı olması, elmi seminarlara və ezamiyyətlərə göndərilə bilməmələri, yeni elmi ədəbiyyatların və informasiyaların əldə edilməsi sahəsindəki çətinliklər və sairlə bağlıdır.

80-ci illərin ikinci yarısı və 90-cı illərin axırlarına yaxın respublikamızda elmi kadrların hazırlanması və istifadəsi sahəsində mövcud olan nöqsanlar Azərbaycan xalqının milli fikir və mədəniyyətinin çoxəsrlik inkişaf yollarının aşkarlanmasında, onun milli-mənəvi və elmi intibahında, elmi ənənələrimizin elmin

---

[364] Azərbaycanın statistik göstəriciləri. 2003. Səda nəşriyyatı, Bakı, 2003, s. 214.

Azərbaycan Respublikasında elmi-tədqiqatı və işləmələri yerinə yetirən elmlər doktorları və namizədlərinin elm sahələri arasında bölünməsi dinamikası (nəfərlə)

İllər	1980		1990		2000		2001		1990-cı ildə 1980-cı ilə nisbətən, %-lə		2001-ci ildə 1980-cı ilə nisbətən, %-lə		2001-ci ildə 1990-cı ilə ni %-lə	
Elm sahələri	elmlər doktoru	elmlər namizədi	elmlər doktoru	elmlər namizədi	elmlər doktoru	elmlər namizədi	elmlər doktoru	elmlər namizədi	elmlər doktoru	elmlər namizədi	elmlər doktoru	elmlər namizədi	elmlər doktoru	
Cəmi	907	8186	1186	8893	1510	8365	1481	8228	130,7	108,6	163,3	100,5	124,8	
ika-riyaziyyat	81	917	172	1249	226	1161	211	1135	2,1 d.	136,2	2,6 d	123,7	122,7	
Kimya	63	738	98	928	148	825	148	801	155,5	125,7	2,3 d	108,5	151,0	
Biologiya	95	706	103	756	99	649	96	695	108,4	107,7	101,0	98,4	93,2	
Geologiya nineralogiya	61	425	60	347	65	258	59	250	98,3	81,6	96,7	58,8	98,3	
Texnika	110	1769	133	1806	203	1468	209	1373	120,9	102,0	190,0	77,6	157,1	
nd təsərrüfatı	33	609	42	478	30	360	37	360	120,3	122,8	112,1	59,1	88,0	
Tarix	69	322	93	386	109	378	99	347	134,8	119,8	143,5	107,7	106,4	
qtisadiyyat	38	519	50	530	84	494	79	529	131,6	102,1	2,0 d	101,9	158,0	
Fəlsəfə	30	220	48	298	60	243	62	245	160,0	135,4	2,0 d	111,4	129,2	
Filologiya	93	524	131	640	178	711	172	748	140,8	122,1	184,9	142,7	131,3	
Coğrafiya	16	133	13	142	29	184	23	172	81,2	106,8	143,7	130,0	176,9	
Hüquq	13	61	10	77	7	99	10	101	76,9	126,2	76,9	165,6	100,0	
Pedaqogika	16	187	15	209	49	449	42	363	93,7	111,8	2,6 d	194,1	2,8 d	
Tibb	153	798	189	793	178	790	178	790	123,5	99,4	116,3	99,0	94,2	
Əczaçılıq	2	19	4	21	5	15	5	15	2 dəfə	110,5	2,5 d	78,9	125,0	
Baytarlıq	15	108	9	57	5	41	6	41	60,0	52,8	40,0	37,9	66,7	
enətşünaslıq	9	62	9	80	16	91	15	113	100,0	129,0	166,6	182,2	166,6	
Memarlıq	6	25	5	44	7	43	8	44	83,3	176,0	2 d	176,0	33,3	
Psixologiya	4	29	5	49	9	48	4	16	125,0	169,0	100,0	55,2	80,0	
Siyasi	-	-	-	-	2	35	14	53	-	-	-	-	-	
Sosiologiya	-	-	-	-	2	23	4	36	-	-	-	-	-	
Digər	-	15	-	3	-	-	-	-	-	-		-		

dvəl. Azərbaycan Dövlət Statistika Komitəsinin bülletenləri və ilkin uçot məlumatlarına əsasən tərtib edilmişdir.

əksər sahələrini əks etdirən sistemli məcraya düşməsində, dünyada tanınmış məktəblərin və istiqamətlərin formalaşıb inkişaf etməsində misilsiz rol oynamış və indi də əsas rol oynamaqda davam edən Elmlər Akademiyasında özünü daha kəskin şəkildə büruzə vermişdir. Halbuki Elmlər Akademiyasının qarşısında duran əsas məsələ dövlətçiliyimizin qorunması, cəmiyyətin demokratikləşməsinin inkişaf etdirilməsi məqsədilə fəaliyyətini günün tələblərinə uyğun qurmaq, elmi tədqiqatların aktual strateji istiqamətlərini müəyyənləşdirmək, ölkənin inkişaf proqramına uyğun olaraq mühüm problemlər üzrə fundamental və tətbiqi tədqiqatların intensivliyini və səmərəliliyini yüksəltməkdən ibarətdir. Son vaxtlarda, xüsusilə də 1997-ci ildən başlayaraq ***Azərbaycan Elmlər Akademiyasında və onun bütün elmi bölmələrində həyata keçirilmiş*** tədbirlər nəticəsində, Akademiyanın fəaliyyətinə rəhbərlik və nəzarət xeyli gücləndirildikdən sonra, burada müsbət dəyişikliklər olmuş və onun **fəaliyyətində yenidən böyük canlanma hiss edilməyə başlamışdır.** Bu da təsadüfi olmayıb, ölkə rəhbərlərinin Akademiyaya diqqət və qayğısının artması ilə bağlıdır. 1997-ci ilin 31 yanvarında Prezident sarayında Azərbaycan Respublikasının sabiq prezidenti Heydər Əliyev Elmlər Akademiyasının üzvləri ilə görüşündə demişdir ki: ***«Elmlər Akademiyasına keçmiş illərdə də, son illərdə də mənim daim hörmətim və diqqətim, qayğım olmuşdur. Ancaq, hesab edirəm ki, bizim elmimizə, xüsusən Elmlər Akademiyasına qayğı, diqqət daha da artıq olmalıdır.... XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyətlərindən biri ölkəmizdə elmin, təhsilin sürətlə inkişaf etməsidir... Biz bununla fəxr edirik. Bir şeyi bilməlisiniz – bu mənim fikrimdir – Azərbaycan Elmlər Akademiyası respublikamızın ən yüksək elm müəssisəsidir.... O, dövlətə məxsusdur. Bu Akademiyanın işi və orada işləyənlərin səviyyəsi, şübhəsiz ki, başqalarından yüksəkdir, yüksək də olacaq. Biz bu Akademiyanın hörmətini qoruyub saxlamalıyıq. Heç vaxt imkan vermək olmaz ki, Akademiyamız yüksək səviyyəli elmi-tədqiqat institutlarımız yaranan cürbəcür özəl elmi müəssisələr arasında ərisin, itsin. Buna yol vermək olmaz».***

Bu bir həqiqətdir ki, müasir iqtisadi inkişafın əsasında elmi-texniki tərəqqi durur. Azərbaycan müstəqil bir dövlət

olaraq dünyanın iqtisadi-siyasi proseslərinə getdikcə daha çox inteqrasiya olunduqca elmi-texniki tərəqqinin səviyyəsi ilə uzlaşmaq məcburiyyətindədir. Çünki ***elm müstəqil dövlətimizin davamlı sosial-iqtisadi və mədəni inkişafını təmin edən mühüm bir amildir. Bunu nəzərə alan Azərbaycan Respublikasının sabiq prezidenti Heydər Əliyev son illərdə elmin inkişafı, elmi-texniki potensialın qorunub saxlanması, elm və təhsil sahəsində yüksək ixtisaslı kadrların hazırlanması, onlara qayğı göstərilməsi, cəmiyyətdə elmi işçilərin nüfuzunun artırılması və sair sahələrdə bir sıra mühüm qərarlar qəbul etmişdir.***

Dövlətimizin sabiq başçısının 15 may 2001-ci il tarixli **«Azərbaycan Milli Elmlər Akademiyası haqqında»** fərmanı ilə Azərbaycan Elmlər Akademiyasına ən yüksək ali dövlət elmi təşkilatı statusu verilməsi və həmin il, nəhayət ki, 12 il keçdikdən sonra AMEA-da seçkilər keçirilməsi bilavasitə dövlət başçısının Azərbaycan elminə göstərdiyi böyük qayğının parlaq təzahürüdür. Minnətdarlıq hissi ilə qeyd edilməlidir ki, cənab Heydər Əliyevin göstərişi ilə 2001-ci ilin iyun ayında AMEA-na seçkilər vaxtı Akademiyamızın qarşısında qoyulan vəzifələrin uğurla yerinə yetirilməsini təmin etmək və ölkəmizin görkəmli elm adamlarının bu elm ocağının fəaliyyətinə daha geniş surətdə cəlb etmək məqsədilə Akademiyanın üzvlərinin sayı 141-dən 200-ə (80 həqiqi və 120 müxbir üzvü olmaqla) qaldırıldı.

Respublika Elmlər Akademiyasının inkişafına qayğının digər bir təzahürü isə 2001-ci il avqustun 7-də Akademiyanın Naxçıvan bölməsinin yaradılması barədə Respublika Prezidentinin verdiyi Fərmandır. Blokada şəraitində yaşayan, ölkəmizin ayrılmaz hissəsi olan doğma Naxçıvanımızda Akademiyamızın bölməsinin yaradılması həm ölkəmizin sosial-iqtisadi, mədəni inkişafı, elmi tərəqqisi, həm də dövlətçiliyimizin möhkəmləndirilməsi və qorunub saxlanması üçün müstəsna əhəmiyyət kəsb edir.

2002-ci ilin dekabr ayının 31-də (birinci görüşdən düz 5 il sonra) – Dünya Azərbaycanlılarının Həmrəylik günündə Azərbaycan Milli Elmlər Akademiyasının prezidentini qəbul edən dövlət başçısı bununla elmin onun dövlətçilik siyasətində

hansı pillədə durduğunu, Azərbaycan Respublikasında Milli Elmlər Akademiyasının, xalqımızın bu milli sərvətinin yerini bir daha təsdiq etmiş oldu.

2003-cü ilin yanvar ayının 4-də isə AMEA-nın Respublikada elmin inkişafını təşkil və təmin etdiyini, dövlətin elmi və elmi-texniki siyasətini həyata keçirdiyini, elmi müəssisə və ali məktəblərin elmi fəaliyyətini əlaqələndirdiyini və istiqamətləndirdiyini, Respublikamızı xarici ölkələrdə elmi və elmi-texniki fəaliyyət sahəsində təmsil etdiyini nəzərə alaraq, ***möhtərəm Heydər Əliyev Milli Elmlər Akademiyasının statusu, Nizamnaməsi və MEA prezidentinin təsdiqi haqqında fərman imzalamış, Akademiyanın işini müstəqil dövlətimizin tələbatlarına uyğun olaraq daha intensiv qurması və dövlət əhəmiyyətli prioritet istiqamətlər üzrə elmi-tədqiqat işlərinin aparılması, Azərbaycan elminin dünya elminə daha sıx inteqrasiya olunması, ümumiyyətlə, elmin dövlətin, millətin sabahına xidmət etməsi məqsədilə strukturunun təkmilləşdirilməsi üçün müəyyən tapşırıqlar vermişdir.***

«Milli Elmlər Akademiyası bizim milli sərvətimizdir. Onu qoruyub saxlamalıyıq» - mərhum Prezidentimizin yuxarıda qeyd etdiyimiz görüşdə dediyi bu sözlər bütövlükdə Azərbaycan elminə, Akademiya əməkdaşlarına verilən yüksək qiymət, həm də böyük məsuliyyətdir. Ölkəmizin sadiq Prezidentinin Akademiyamızın inkişafına qayğısının digər çox mühüm təzahürü isə Azərbaycan elminin gələcək inkişafında yeni üfüqlər açan «*Azərbaycan Milli Elmlər Akademiyasının statusu*» *və «Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsinin təsdiq edilməsi» haqqında 2003-cü il yanvarın 4-də imzaladığı Fərmanda bir daha öz əksini tapmışdır. Fərmanda deyilir: «Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasında elmin inkişafını təşkil və təmin edən, dövlətin elmi və elmi-texniki səviyyəsini həyata keçirən, Azərbaycan Respublikasındakı bütün elmi müəssisələrin elmi-tədqiqat fəaliyyətini əlaqələndirən və istiqamətləndirən, Azərbaycan Respublikasını xarici ölkələrdə elmi və elmi-texniki fəaliyyət sahəsində təmsil edən ali dövlət elmi təşkilatdır».*

Bu, ***Akademiyamızın yarandığı 60 ilə yaxın bir dövr ərzində onun fəaliyyətinə verilən bəlkə də ilk belə yüksək qiymət olub, Akademiyamız və ölkəmiz üçün misli görünməmiş tarixi hadisədir***. Sevimli mərhum Prezidentimiz Heydər Əliyev eyni zamanda son bir neçə il ərzində Akademiyamızın üzvlərinin rütbə maaşlarını hiss ediləcək dərəcədə, elmi əməkdaşların vəzifə maaşlarını və elmi dərəcəyə görə onlara edilən əlavələri isə iki dəfə artırmaqla onların həm maddi vəziyyətinin yaxşılaşdırılmasına, həm də şübhəsiz ki, daha çox mənəvi cəhətdən yüksəlmələrinə möhkəm zəmin yaratmışdı.

2004-cü ilin yanvar ayının əvvəlindən elmlər namizədi və elmlər doktoru elmi dərəcələrinə görə vəzifə maaşlarına əlavələrin yenidən orta hesabla daha 5 dəfə artırılması qərara alınmış və ölkənin dövlət büdcəsində nəzərdə tutulmuşdur. İlbəil dövlət büdcəsindən Milli Elmlər Akademiyasının saxlanmasına ayrılan vəsaitin məbləği az da olsa artmaqda davam edir və heç şübhəsiz ki, yaxın gələcəkdə elmin inkişafına diqqət daha da artacaqdır. ***Çünki elmi inkişaf etdirməyən dövlətin gələcəyi yoxdur. Bu gün tam qətiyyətlə demək olar ki, Azərbaycan elminin sabahı möhkəm, sarsılmaz təməl üzərində qurulur. Akademiyamız böyük elmi-texniki kadr potensialına malikdir. Buna görə də inamla qədəm qoyduğumuz XXI əsr Azərbaycan elmi qarşısında mühüm vəzifələr qoyur. Azərbaycan dövlətinin daha da çiçəklənməsi, müstəqilliyinin əbədiliyi hər bir Azərbaycan alimindən dünya sivilizasiyasına inteqrasiya prinsiplərini, müasir tərəqqinin mahiyyətini yaxşı mənimsəməyi, habelə bilik və bacarığını səmərəli araşdırmalar aparmağa yönəltməyi bacarmağı tələb edir. Çünki yalnız elmi fəaliyyətin nəticələri əsasında təbiətdə və cəmiyyətdəki inkişafın qanunauyğunluqları aşkar edilərək, onlardan istifadə imkanları təkmilləşdirilməklə elmi bilikləri genişləndirmək olar.***

Müasir dünyamızda elm, cəmiyyətin dayanıqlı inkişafının hərəkətverici qüvvəsi hesab edildiyindən, dövlətin ən başlıca funksiyası güclü elmi-texniki və kadr potensialını yaradıb onlardan səmərəli istifadə etməkdən ibarətdir. Təsadüfi deyildir ki, ***hazırda inkişaf etmiş ölkələrdə dövlət öz daxili və xarici siyasətini elmi əsaslara istinad etməklə idarə edir***.

Gələcəkdə ölkəmizin daha da inkişaf etdirilməsi, onun iqtisadi qüdrətinin yüksəldilməsi, təhlükəsizliyinin təmin edilməsi, elmi-texniki kadr potensialının artırılması, dünya miqyasında mövqeyinin möhkəmləndirilməsi və cəmiyyətdə baş verən bütün sosial-iqtisadi, demoqrafik və sair proseslərin elmi cəhətdən əsaslandırılmasına nail olunması əsas proqram sənəd kimi dövlətin qarşısında durur. Bir sıra qabaqcıl ölkələrdə elmin inkişafı, əsas etibarı ilə, özəl sektorun hesabına maliyyələşdirilsə də, hazırda ölkə elminin fundamental və tətbiqi inkişafına əsaslanan xüsusi proqramlar üzrə elmi-texniki siyasətin formalaşmasında dövlətin rolu danılmazdır. *Ancaq çox təəssüflər olsun ki, ölkəmiz müstəqillik əldə etdikdən sonra burada bazar münasibətlərinə keçidin çətinlikləri, sənaye-istehsal sahəsinin zəifləməsi, yeni texnologiyaların həyata yol tapmasının səmərəli mexanizminin olmaması, elmi əlaqələrin kəsilməsi*, informasiya qıtlığı elmin nəinki sosial-iqtisadi sahələrdə, hətta real həyatda da özünə müvafiq yer tapmasına imkan verməmişdir. Belə ki, **90-cı illərin əvvəllərində respublikamızda mövcud olmuş siyasi boşluqlar elmin inkişafına laqeyd münasibətlə nəticələnmiş və elmə dövlət büdcəsindən ayrılan vəsaitlərin həcminin azalmasına səbəb olmuşdur.** Bu isə, öz növbəsində, elmi nəticələrin tətbiqini çətinləşdirmiş və elmi kadrların axıcılığına səbəb olmaqla bütünlükdə elmin inkişafına mənfi təsir göstərmişdir. Yalnız 1993-cü ildən etibarən Azərbaycan Respublikasının sabiq Prezidenti **Heydər Əliyevin hakimiyyətə qayıdışı elm sahəsində də vəziyyətin tədricən və durmadan yaxşılaşmasına və bu sahəyə diqqətin artmasına şərait yaratmışdır.**

Elmin ölkənin həyatındakı rol və yerinin bərpa edilməsi məqsədilə son illərdə bu sahəyə dövlət qayğısı artırılmış, Azərbaycan elmində bir sıra mütərəqqi islahatlar həyata keçirilmiş, elmi-tədqiqat müəssisələrində köklü struktur dəyişiklikləri aparılaraq, aktuallığını itirmiş bir çox elmi-tədqiqat işlərinin icrası dayandırılmış, bir sıra Elmi-Tədqiqat İnstitutları, şöbə və labaratoriyaları ləğv edilmiş və ya birləşdirilmiş, əvəzində daha mütərəqqi və müasir şöbə və labaratoriyalar yaradılmış, yeni və daha aktual problemlərin işlənməsinə başlanmışdır.

Hazırda ölkəmizin qarşısında duran ən mühüm vəzifələrdən biri Azərbaycan dövlətinin elmi-texniki siyasəti əsasında ***elmin gələcək inkişaf strategiyasını müəyyənləşdirməkdən*** ibarətdir. Bu strategiyanın ***əsas məqsədi – ölkənin mövcud elmi-texniki və kadr potensialının qorunub saxlanılması, təbiət və cəmiyyətin inkişaf qanunauyğunluqları haqqında dövlət əhəmiyyətli yeni fundamental elmi istiqamətlərin daha da inkişaf etdirilməsi, onların nəticələrindən daha səmərəli istifadə olunmasını təmin etməkdən və elmi-texniki tərəqqinin uzunmüddətli inkişaf istiqamətlərini müəyyənləşdirməkdən ibarətdir. Bu baxımdan yaxın gələcəkdə ölkəmizdə elm sahəsində dövlət siyasətinin əsas istiqamətləri aşağıdakı kimi müəyyənləşdirilmişdir:***

- fundamental elm sahələrinin dövlət tərəfindən dəstəklənməsi, elmi-texniki və innovasiya sahələrində müntəzəm olaraq proqnozlaşdırmanın və monitorinqin həyata keçirilməsi;
- sahəvi elmi tədqiqat və layihə institutlarının fəaliyyətinin iqtisadi strukturlarla əlaqələndirilməsi;
- tətbiqi elmlərin stimullaşdırılması;
- ilk növbədə informasiya texnologiyaları, yeni materiallar və kimya texnologiyaları, elektronika, ekologiya və təbiətdən səmərəli istifadə sahələrinə xüsusi diqqət yetirilməsi;
- intellektual mülkiyyət hüquqlarının müdafiəsinin gücləndirilməsi;
- cəmiyyətdə elmi fəaliyyətin nüfuzunun artırılması və istedadlı gənclərin bu sahəyə yönəldilməsinin təmin edilməsi;
- elmin maliyyələşdirilməsinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılması və sair.

Ölkəmizdə bazar münasibətlərinin müasir inkişaf mərhələsində elmin dövlət tərəfindən maliyyələşdirilməsinin gücləndirilməsi elmi-texniki biliklərin genişləndirilməsinə və elmin nəticələrinin dünya nailiyyətlərinə uyğunlaşdırılmasına; innovasiyaların yaradılması, tətbiqi və yayılmasına; elmi müəssisələrin maddi-texniki vasitələrlə təmin olunmasına; informasiya bazasının genişləndirilməsinə; elmi təşkilatların və elmtutumlu istehsal müəssisələrinin texniki və texnoloji imkanlarının artırılmasına; elmi təşkilatların iqtisadi imkanlarının genişləndirilməsinə; elmi təşkilatların kadrlarla təmin olunması

və onların əməyindən səmərəli istifadə edilməsinə; elmi-tədqiqat işlərinin nəticələrinin təcrübədən keçirilməsi və istehsalata tətbiq olunmasına və s. təsir göstərməklə dövlətimizin iqtisadi qüdrətinin artırılmasına və əhalimizin həyat səviyyəsinin yüksəldilməsinə imkan verəcəkdir.

Gələcəkdə ölkəmizin iqtisadi qüdrətinin daha da artırılması və xalqın həyat səviyyəsinin arasıkəsilmədən yüksəldilməsinin təmin edilməsi bütünlükdə elmimizin inkişafı ilə yanaşı, onun ayrı-ayrı sahələrinin də qarşısında həll edilməsi zəruri olan bir sıra vəzifələr qoyur. Yaxın gələcəkdə Azərbaycanın iqtisad elmi qarşısında duran ən başlıca vəzifələr isə, bizim fikrimizcə, aşağıdakılardan **ibarətdir:**

➢ qloballaşma şəraitində dünyada baş verən sosial-iqtisadi, demoqrafik və ekoloji dəyişikliklər nəzərə alınmaqla Azərbaycanın müstəqil milli iqtisadiyyatının formalaşdırılması, yaxın və uzaq gələcəyə (2015-ci ilədək) onun sosial-iqtisadi inkişaf meylləri və istiqamətlərinin müəyyənləşdirilməsi strategiyası və proqnozlaşdırılmasının nəzəri-metodoloji və konseptual əsaslarının işlənməsi;

➢ dünyada baş verən sosial-iqtisadi tərəqqinin müasir təmayüllərinin Azərbaycanın ictimai sisteminin transformasiyası və sosial-iqtisadi inkişaf strategiyasına təsiri fonunda ölkədə yeni bazar iqtisadiyyatı münasibətlərinin formalaşması qanunauyğunluqları, sosial-iqtisadi inkişaf modeli, strukturu və onları tənzimləyən iqtisadi qanunlar sisteminin tədqiqi;

➢ Respublikada aparılan iqtisadi siyasətin, o cümlədən aqrar islahatların və aqrar siyasətin sosial-iqtisadi nəticələrinin öyrənilib ümumiləşdirilməsi və onların gələcək inkişaf istiqamətlərinin konseptual əsaslarının işlənməsi;

➢ XX əsrdə Azərbaycanın iqtisadi tarixinin və iqtisadi fikrinin formalaşması və inkişafının yeni baxımdan tədqiq edilib öyrənilməsi və ümumiləşdirilməsi;

➢ dünyada gedən sosial-demoqrafik dəyişikliklər fonunda Azərbaycanın demoqrafik vəziyyətinin keçmiş, müasir və gələcək inkişaf meyllərinin aşkara çıxarılıb öyrənilməsi;

➢ intellektual insan, əmək və kadr potensialının formalaşdırılması və istifadəsi strategiyasının, əmək bazarı meyl-

lərinin, məşğulluq, işsizlik, əhalinin sağlamlığı, həyat səviyyəsi və sosial müdafiəsinin müasir durumunun ümumiləşdirilməsi və qiymətləndirilməsi;

➢ yeni şəraitə uyğun dövlətin demoqrafiya, məşğulluq, miqrasiya və sosial siyasət konsepsiyasının formalaşdırılması və təkmilləşdirilməsinə dair elmi cəhətdən əsaslandırılmış təkliflərin işlənib hazırlanması;

➢ iqtisadiyyatın dövlət tənzimlənməsinin əsas istiqamətləri, metod və mexanizmlərinin, dövlətin yeni maliyyə, pul və kredit siyasəti ilə bağlı məsələlərin tədqiq edilməsi;

➢ müstəqil Azərbaycan Respublikasının iqtisadi idarəetmə strukturu və metodlarının müasir durumunun öyrənilməsi əsasında elmi cəhətdən əsaslandırılmış təkliflərin işlənib hazırlanması;

➢ investisiya siyasətinin nəzəri-metodoloji əsaslarının öyrənilməsi əsasında onun həyata keçirilməsi metod və mexanizmlərinin təkmilləşdirilməsi yollarının tədqiqi;

➢ bazar proseslərinin xalq təsərrüfatında makro- və mikroiqtisadi dəyişikliklərə təsirinin müəyyənləşdirilməsi;

➢ beynəlxalq inteqrasiya və Azərbaycan Respublikasının yeni xarici iqtisadi münasibətlərinin formalaşdırılması, xarici iqtisadi əlaqələrin qurulmasının əsas istiqamətlərinin (coğrafi-iqtisadi baxımdan) düzgün müəyyən edilməsi;

➢ sivil dövlətlərlə, habelə MDB ölkələri ilə xarici iqtisadi əlaqələrin təkmilləşdirilməsi və səmərəliliyinin yüksəldilməsi problemlərinin tədqiq edilməsi;

➢ Azərbaycanda milli sahibkarlığın formalaşdırılması və inkişafının sosial-iqtisadi və təşkilati-idarəetmə problemlərinin öyrənilməsi;

➢ yerli resurslardan və təbii sərvətlərdən, dövlət və xarici investisiyalardan səmərəli istifadə etmək və sosial-iqtisadi inkişafın dövlət tənzimləmə mexanizmini yenidən qurmaq əsasında məhsuldar qüvvələrin düzgün yerləşdirilməsi;

➢ regionlarda istehsalın inkişafı, xalq təsərrüfatının sahə və ərazi quruluşunun təkmilləşdirilməsi;

➢ Azərbaycan Respublikasının bütün regionlarında, şəhər və kənd yerlərində mövcud olan təbii sərvətlərdən və

əmək ehtiyatlarından istifadənin sosial-iqtisadi və demoqrafik aspektlərinin kompleks tədqiq edilməsi və s.

6.3 MƏŞĞULLUQ SAHƏSİNDƏ GENDER PROBLEMİ VƏ QADIN MƏŞĞULLUĞU SAHƏSİNDƏ DÖVLƏT SİYASƏTİ STRATEGİYASI

İqtisadi formasından və sosial-iqtisadi məzmunundan asılı olmayaraq, bütün cəmiyyətlərdə ölkənin başlıca məhsuldar qüvvələrinin mühüm tərkib hissəsi olan və analıq kimi çox mürəkkəb, çətin və şərəfli bir funksiyanı yerinə yetirən qadınların əməyinin cəmiyyət və ailə miqyasında necə və hansı dərəcədə səmərəli təşkil edilməsi hər bir sivil dövlətin sosial siyasət sahəsində, ilk növbədə, yerinə yetirməli olduğu vəzifələrindəndir. Azərbaycan Respublikasının Konstitusiyasında deyilir ki: *«Kişi ilə qadının eyni hüquqları vardır».*[365] ***Bu, hər şey deməkdir.***

Qadınların ictimai əməkdə iştirakının əhəmiyyəti təkcə onların ailənin büdcəsini zənginləşdirmələri ilə deyil, həm də onların şəxsi nüfuzları, ailədə hazırlanıb qəbul edilən qərarların və ailədən kənarda ictimai əlaqələrin və kontaktların qaydaya salınmasına verdikləri töhfələrlə izah edilir. Buna görə də hazırda başlıca vəzifələrdən biri keçid iqtisadiyyatına qədəm qoymuş ölkələrdə qadınların yenicə meydana çıxan, formalaşmaqda olan əmək bazarında hansı dərəcədə və miqyasda iştirakını müəyyənləşdirməkdən və onların yeni məşğulluq sistemində hər hansı bir şəkildə «sıxışdırılması» vəziyyətini aşkara çıxarıb tədbirlər görməkdən ibarətdir.

Nəzərə almaq lazımdır ki, qadın məsələsi-ictimai həyatın iqtisadi, siyasi, hüquqi və etika cəhətlərini özündə birləşdirən mürəkkəb sosial problemdir. Dünya miqyasında qadın məsələsinin həll edilməsi, qadınların iqtisadi, siyasi və hüquqi cəhətdən azad edilməsi bir-biri ilə qarşılıqlı əlaqədə olan bir sıra mühüm problemlərin həll edilməsi demək olacaqdır. **Qadın məsələsinin ən mühüm və həlledici tərəfi onun iqtisadi cəhətdən**

---

[365] B a x: Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 1998, s. 14

azad edilməsidir. Qadın məsələsinin qalan bütün cəhətləri onun iqtisadi tərəfi ilə bağlıdır və onunla müəyyən edilir.

Qadınlar cəmiyyətin başlıca məhsuldar qüvvələrinin mühüm tərkib hissəsini təşkil edərək, onun maddi və mənəvi nemətlərinin yaradılmasında bilavasitə iştirak etməklə yanaşı, həm də **analıq funksiyası kimi çətin və şərəfli bir vəzifəni yerinə yetirirlər.**

İnsan cəmiyyəti tarixinin **matrearxat dövründə** qadınlar maddi nemətlər istehsal edən əsas qüvvə idi və cəmiyyət üzvlərinin yaşaması uzun müddət onlardan asılı olmuş və onlar cəmiyyətdə başlıca rol oynamışlar. Bu, təsadüfi olmayıb, insanların o zamanki maddi həyat şəraitindən irəli gəlirdi. O vaxtlar kişilərin məşğül olduğu ən primitiv alətlərin köməkliyi ilə həyata keçirilən ovçuluq insanların yaşayışının tam ödənilməsi üçün kifayət etmirdi. Çünki kişilərin məşğul olduğu ovçuluğun nəticələri təsadüfi xarakter daşıyırdı. Belə bir şəraitdə **əkinçiliyin və maldarlığın (heyvanları əhilləşdirmək) hətta rüşeym halında olan formaları böyük təsərrüfat əhəmiyyətinə malik olmaqla, həyati yaşayış tələbinin zərurətindən irəli gəlirdi.** Ona görə ki, bu məşğələlər insanların yaşayış vasitələri üçün ovçuluqdan daha etibarlı və daimi bir mənbə idi. Kişilər daim ovda olduqları üçün əkinçilik və maldarlıqla əsasən qadınlar məşğul olurdular. **O zamanlar qadınlar başçı rolunu oynayırdı və qohumluq ana xətti üzrə aparılırdı**. İnsan cəmiyyəti tarixində **qanunçuluğun, əkinçiliyin və mədəniyyətin** də ilk dəfə əsasını qoyan qadınlar olmuşlar.

Matriarxat dövründə qadınlar uzun müddət cəmiyyətdə şərəfli bir mövqe tutmuşlar. Təsadüfi deyildir ki, hələ vaxtı ilə F. Engels yazmışdır ki: ***«Bütün vəhşilirdə, həmçinin barbarlığın aşağı, orta və qismən də, hətta, yüksək pilləsində duran bütün tayfalarda qadın azad olmaqdan başqa, hətta, çox mötəbər bir mövqe tutur»***[366]. Ancaq ictimai əmək bölgüsünün və məhsuldar qüvvələrin get-gedə inkişaf edib dəyişməsi nəticəsində kişilərin peşəsi olan köçəri maldarlıq (çobanlıq) və inkişaf etmiş əkinçilik (taxılçılıq) ibtidai icmanın həyatında həlledici rol

---

[366] K.*Marks və F. Engels*. Seçilmiş əsərləri. II- ci cild, Bakı, 1953, s. 207.

oynamağa başladıqda **matriarxat qəbilənin** yerini **patriarxat qebilə** tutdu. **Bu zamandan etibarən başçılıq mövqeyi kişilərə keçdi. Qohumluq ata xətti ilə hesablanmağa başladı.** Həmin dövrdən, yəni ana hüququnun sükutu dövrundən başlayaraq, qadındar cəmiyyətdə əvvəlki şərəfli mövqeyini itirdilər. Bu məsələdən bəhs edərək F.Engels yazmışdır ki: «**Ana hüququnun devrilməsi qadın cinsinin ümumdünya tarixi məğlubiyyəti idi. Ər evdə də idarəetməyi öz əlinə aldı, qadın isə öz şərəfli mövqeyini itirdi, ərin kənizi oldu, onun ehtirası üçün bir qula, sadəcə uşaq doğmaq alətinə çevrildi**»[367] Buna görə də, **Avqust Bebel qadın hüququnun sükutunu insan cəmiyyəti tarixində ilk böyük inqilab adlandırmışdır. O yazmışdır ki, qadın qul vəziyyətinə düşmüş ilk bəşər övladıdır. Qadın hələ qul yox ikən, qul olmuşdur.**[368] İ.Y.Baxofen[369] və L.M.Morqanın[370] apardığı tədqiqıtlar və s. nəticəsində də müəyyən edilmişdir ki, **Afroditanın**[371] hökm sürdüyü qədim dövrlərdən bəri qadınlar kişilərin ağalığı altında yaşamış, onların zövq və nəşə mənbəyi olmuş və ilk dəfə olaraq onların ictimai sürətdə əsarətdə qalması xüsusi mülkiyyətin meydana gəldiyi dövrə təsadüf etmişdir. **Eyni zamanda onu da qeyd etmək lazımdır ki, bəşər cəmiyyəti tarixində ilk dəfə olaraq yalnız kapitalızmdə qadınların ictimai istehsala** cəlb edilməsi onların da əməyinə kişilərin əməyi kimi böyük ictimai məna verdi və qadınlar dörd divar arasından ictimai əməyə cəlb olunmaqla iqtisadi cəhətdən müstəqil oldular.

Kapitalizmdə qadınların geniş surətdə ictimai istehsala cəlb edilməsi mütərəqqi hal olub, kapitalist istehsal üsulunun və onun istehsal münasibətlərinin xarakteri ilə əlaqədardır. Kapitalizmdə bu hal, hər şeydən əvvəl, yüksək mənfəət əldə elmək məqsədilə həyata keçirilmiş və bu, maşın tətbiqi ilə bağlı

---

[367] K.Marks və F. Engels. Seçilmiş əsərləri. II- ci cild, Bakı, 1953, s. 214.

[368] *Август Бебел.*Женшина и социализм. Москва, 1959, с.40

[369] **İ.Y.Baxofen** (1815-1887) — İsveçrə hüquqşünası və tarixçisi, ibtidai hüquq tədqiqatları sahəsində məşhur şəxs.

[370] **L.M.Morqan** (1818-1881) Marks və Engels tərəfindən yüksək qiymətləndirilmiş «Qədim cəmiyyət» adlı kitabın müəllifi, məhşur amerikan tarixçisı və etnoqrafı.

[371] **Afrodita** — Qədim Yunanıstanda gözəllik və məhəbbət ilahəsi.

olmuşdur. Çunki maşın tətbiqi qadın əməyindən geniş surətdə istifadə edilməsi üçün hər cür imkan yaradır. K.Marksın ifadəsi ilə dəsək: «Maşın tətdiqi əzələ qüvvəsini gərəksiz etdiyinə görə maşınlar əzələ qüvvəsinə malik olmayan, yəni bədəncə zəif olan, lakin əzaları daha çevik hərəkət edən fəhlələr işlətmək üçün bir vasitə olur. Buna görə də maşınların kapitalist üsulu ilə tətbiqinin ilk nəticəsi **qadın və uşaq əməyinin** tətbiqindən ibarət olmuşdur»[372] Burada onu da qeyd etmək lazımdır ki, **qadınların geniş surətdə ictimai istehsala cəlb edilməsi onların analıq vəzifəsilə müəyyən peşə əməyi arasında dərin ziddiyyət yaradır**, «...ailədə xüsusi xidmət zamanı o, öz vəzifələrini yerinə yetirsə, onda ictimai istehsaldan kənar edilmiş olur və heç bir şey qazana bilmir. Yox əgər ictimai əməkdə iştirak etmək və müstəqil müzda malik olmaq istəyərsə, onda öz ailə vəzifələrini yerinə yetirə bilmir»[373] V.İ.Lenin isə göstərirdi ki: «Qadının tamamilə azad olması və kişi ilə həqiqətən bərabər olması üçün gərək ictimai təsərrüfat olsun və qadın ümumi məhsuldar əməkdə iştirak etsin. **O zaman qadın da kişinin mövqeyi kimi bir mövqe tutar**»[374]. **Əlbəttə, burada** qadınlarla kişilərin hüquq bərabərliyindən söhbət getdikdə, onların fiziki qüvvələrinin, mənəvi bacarıqlarının bərabərliyi deyil, ictimai bərabərliyi, ictimai mövqe bərabərliyi nəzərdə tutulur. V.İ.Lenin yazırdı ki: «... **burada ondan bəhs olunmur ki, əmək məhsuldarlığı, əməyin miqdarı, onun müddəti, əmək şəraiti və i.a. cəhətdən qadın kişi ilə bərabərləşdirilsin, ondan bəhs olunur ki, qadının təsərrüfat vəziyyəti onu kişidən fərqli edib əsarətdə saxlamasın**».[375] K.Marks da **qadın əməyini onların orqanizimi üçün zərərli olan və əxlaq nöqteyi-nəzərindən mümkün olmayan işlərdə tətbiq etməyin əleyhinə çıxmışdı.**[376]

Əlbəttə, yuxarıda deyilən fikirlər, müəlliflərinin kimliyindən və hansı ideologiyaya xidmət etmələrindən asılı olmayaraq doğru fikirlərdir və onlarla razılaşmamaq olmaz. Bu

---

[372] *K.Marks* və *F. Engels*. Seçilmiş əsərləri. II- ci cild, Bakı, 1953, s. 325.
[373] Yenə orada, s. 230.
[374] *V.İ.Lenin*. Əsərlərinin tam külliyatı, 39-cu cild. Bakı, 1983, s. 223.
[375] Yenə orada.
[376] *K.Marks* və *F. Engels*. Əsərləri. 19- cu cild, s. 31.

baxımdan qadın şəxsiyyətinin inkişafında və onların iqtisadi azadlığının az-çox təmin edilməsində keçmiş SSRİ-də qadınlar üçün yaradılmış şəraitin rolunu da inkar etmək olmaz. Sovet hakimiyyəti illərində bütünlükdə keçmiş İttifaqda olduğu kimi, Azərbaycanda da qadınların ictimai-iqtisadi həyatında çox mühüm dəyişikliklər baş vermiş, ictimai həyatın bütün sahələrində qadınlara kişilərlə bərabər hüqüq verilmişdir.

Sovet hakimiyyətinin qurulduğu ilk dövrlərdən başlayaraq qadın əməyinin tətbiq edilmədiyi və nisbətən az tətbiq edildiyi qadınların təhsil səviyyəsini və ixtisaslarını yüksəlməyə, ictimai istehsalda onların iştirakını artırmağa kömək edən müəssisələrin tikilməsi və çoxalması qayğısına qalınmış və Sovet hakimiyyəti quruculuğunun bütün inkişaf mərhələlərində bir tərəfdən, daim əmək şəraitinin zərərli və ağır olduğu sahələrdə qadın əməyinin qadağan edildiyi işlərin siyahısı artırılmış, digər tərəfdən, qadınları ictimai əməyə daha geniş surətdə cəlb etmək məqsədilə əl əməyinin həlledici yer tutduğu əsas və köməkçi sahələrdə mexanikləşdirmə səviyyəsinin yüksəldilməsi, iş yerlərinin sağlamlaşdırılması və yüngülləşdirilməsi siyasəti həyata keçirilmişdir.

Təsadüfi deyil ki, SSRİ-nin dağılması ərəfəsində respublika iqtisadiyyatında məşğul olanların 43 faizini, o cümlədən sənayedə işləyənlərin 47, kənd və meşə təsərrüfatında işləyənlərin — 48, ticarət və ictimai iaşədə işləyənlərin — 45, sahiyyə, idman və sosial müdafiə dairəsində işləyənlərin — 72, təhsil, mədəniyyət və incəsənətdə isləyənlərin — 59, elm və elmə xidmət sahəsində işləyənlərin — 47, kreditləşmə və sığortada — 49, dövlət idarəetmə orqanlarında isə 32 faizini qadınlar təşkil etmişlər[377] Bununla belə, sosializm cəmiyyəti şəraitində də qadınların tam azadlığı təmin edilməmiş, onların əməyindən lazımınca düzgün və səmərəli istifadə olunmamış və bu sahədə öz həllini gözləyən bir sıra neqativ hallar yığılıb qalmışdır.

Məsələ burasındadır ki, forma və məzmunundan asılı olmayaraq, bütün cəmiyyətlərdə bir şəxsiyyət və iş qüvvəsi kimi qadınların ictimai təkrar istehsal prosesində rol və yerini

---

[377] Azərbaycanda qadın və kişilər. 1999 (Statistik məcmuə). Bakı, 1999, s.62.

düzgün müəyyən etmək üçün ictimai təkrar istehsalın və onun bir hissəsi kimi insanların təkrar istehsalı və uşaq döğülmasındakı rolunu fərqləndirmək lazımdır. Belə ki, ***bütün cəmiyyətlərdə, bütövlükdə götürüldükdə, ictimai təkrar istehsal, o cümlədən əhalinin təkrar istehsalı hər iki cinsdən — kişilərdən və qadınlardan idarət olan əhali kütləsinin işi oldüğü halda, uşaq doğmaq funksiyası bilavasitə qadınlara aiddir.*** Bu baxımdan ***qadın—işçi*** və ***qadın—ana kimi anlayışlar müəyyən ziddiyyət təşkil edir***. Analıq funksiyası qadınların ictimai istehsaldakı iştirakını əhəmiyyətli dərəcədə azaltdığı kimi, istehsalatda məşğul olmaq da, öz növbəsində qadınlara müəyyən dərəcədə analıq funksiyasını həyata keçirməyə imkan vermir. Qadınların bu ikili istehsal funksiyasından irəli gələn ***qadın—işçi*** və ***qadın—ana*** maraqları arasında mövcud olan ziddiyyətlər hələ uzun illər boyu ictimai həyatımızı tərk etməyəcək və qalacaqdır. Ancaq maraqların mövcud olması və onların həlli formaları müxtəlif olacaqdır. İş qüvvəsinin tarixi inkişaf təhlilinə əsasən ictimai istehsalda heç də həmişə bir-birinə uyğun gəlməyən nəinki «**qadın əməyi**» və «**qadınların əməyi**» anlayışlarını, habelə «**qadın iş qüvvəsi**» **və** «**qadınların iş qüvvəsi**» anlayışlarını da bir-birindən fərqləndirmək lazımdır.

Kişi və qadın iş qüvvəsi anlayışları özlərini ümumbəşəri iş qüvvəsində əks etdirir. Eyni zamanda, qadın və kişi orqanizminin fizioloji və psixoloji xüsusiyyətlərinə uyğun və onları özündə əks etdirən kişi və qadın iş qüvvəsinin öz xüsusiyyətləri vardır. **Bu xüsusiyyətlərinə görə qadınlar daim istehlak məhsulları istehsalı və ev təsərrüfatı dairəsində üstunlük təşkil etməklə məşğul olmuşlar.** Qadınların zehni fəaliyyətlərinə, zehni qabiliyyətlərinə gəlincə, onlar bu cəhətdən də kişilərdən geridə qalmırlar. Ancaq istismarçı cəmiyyətlər qadınları elə vəziyyətə salmışdır ki, onların zehni qabiliyyətləri əhəmiyyətli dərəcədə zəif və ləng inkişaf etmişdir.

Böyük əzələ qüvvəsinə malik olmayan, yəni bədəncə zəif olan, lakin əzaları daha çevik hərəkət edən qadın orqanizmi kişilərə nisbətən bir çox iş proseslərini daha dəqiq, diqqətlə və səliqə ilə yerinə yetirirlər. Bundan əlavə, qadınlar hər çür kiçik səhvləri daha tez görürlər, dəftərxanaçılığa, dağıntıya və bu

kimi qanunsuzluğa daha az qatılırlar. Bütün bu deyilənləri nəzərə alaraq, ***qadın iş qüvvəsi*** dedikdə, ***biz onların malik olduğu elə fiziki və zehni qabiliyyətlərinin məcmusunu başa düşürük ki, bu keyfiyyətlər qadınlara kişilərə nisbətən daha yüngül və yaşayış üçün zəruri olan vasitələri istehsal etməyə imkan verir.***

Yuxarda deyilənlərə əməl olunmadığı şəraitdə **«qadın_iş qüvvəsi»** və **«qadın əməyi» «qadınların iş qüvvəsinə»** və **«qadınların əməyinə» çevrilir.**

Ölkəmizdə qadın azadlığının həyata keçirilməsi, onların ictimai istehsala cəlb edilməsi, qadın əməyinin tətbiqi xarakterinin dəyişilməsi, onların iş şəraitinin yaxşılaşdırılması, bərabər əmək üçün bərabər haqq verilməsi, ana və üşaqların əməyinin mühafizəsi qadınların təhsil və mədəniyyət səviyyəsinin yüksəldilməsi yolu ilə mümkündür və bütün sahələrdə buna ciddi əməl edilməsi tələb olunur.

Təsadüfi deyildir ki, hazırda qadın məşğulluğu sahəsində dövlət siyasətinin və qadın əmək potensialının səmərəli məşğulluğunun təmin edilməsi istiqamətlərinin müəyyən edilməsi iqtisad elmi qarşısında duran vahid bir problemin iki tərəfi olub, qarşılıqlı surətdə həll edilməsi tələb edilən sosial-iqtisadi və siyasi vəzifədir.

Əmək bazarında iştirak etmək qadınların iqtisadi müstəqilliyinin mənbəyini təşkil edərək, onların sosial və pensiya təminatı, habelə səhiyyə xidmətlərindən istifadə etmək hüquqlarının təmin olunması, ictimai vəziyyətinin və şəxsiyyətlərinin inkişafı üçün geniş imkan və şərait yaradır.

Məlum olduğu kimi, keçmiş sosialist ölkələrində olduğu kimi, Azərbaycanda da sosializm cəmiyyəti şəraitdə Konstitusiya ilə bütün əmək qabiliyyətli qadın və kişilərə əmək hüququ və qadınlara kişilərlə bərabər əmək üçün, bərabər əmək haqqı almaq hüququ verilmişdir. O zaman ölkədə rəsmi qeydə alınmış işsizlər olmamış və əmək qabiliyyətli yaşında olan qadınlar bütün həyatı boyu evdən kənar əməkdə tam iş günündə məşğul olurdular. Əhali iqtisadiyyatda hakim mövqe tutan dövlət sektoru hesabına qeyri-məhdud dərəcədə iş yerləri ilə təmin edilirdi. Lakin SSRİ-nin dağılması nəticəsində öz müstəqilliyinə qovuşmuş respublikamızın bazar iqtisadiyyatı sisteminə keçməsi bu sahədə yeni münasibətlərin yaranıb

inkişaf etməsinə və onlara uyğun yeni məşğulluq prinsiplərinin formalaşmasına səbəb olmuşdur.

Ölkə iqtisadiyyatının bazar münasibətləri sisteminə keçməsi qadın və kişilər arasında işsizliyin yaranıb artmasını labüd edərək, məşğulluq probleminin kəskinləşməsinə səbəb olmuş və onun həllini xeyli çətinləşdirmişdir.

Nəzərə alsaq ki, bazar münasibətlərinə keçid şəraitində qadın və kişilərin məşğulluğunun təmin olunmasında tələb və təklif əsas rol oynadığından dövlət onların məşğulluğuna təminat vermir və yalnız «Azərbaycanda əhalinin məşğulluğu haqqında» Azərbaycan Respublikasının qanununda deyildiyi kimi: *«dövlət vətəndaşlarının dolğun, məhsuldar və sərbəst seçilmiş məşğulluq hüququnun həyata keçirilməsinə yardım göstərir», onda bu problemin həll edilməsinin nə qədər çətin və mürəkkəb olduğu bir daha aydın olar.* Bu səbəbdən də indi ölkəmizdə dəyişməkdə olan iqtisadi, sosial və siyasi şəraitə uyğun gələn dövlət məşğulluq siyasəti və onun həyata keçirilməsi mexanizminin işlənib hazırlanmasına böyük ehtiyac vardır. Lakin buna baxmayaraq, 27 iyun 1991-ci ildə qəbul edilmiş «Azərbaycan Respublikasında əhalinin məşğulluğu haqqında» Azərbaycan Respublikasının qanunundan xeyli dərəcə fərqlənən 2 iyul 2001-ci ildə qəbul edilmiş «Məşğulluq haqqında» Azərbaycan Respublikasının yeni qanununda da əhalinin məşğulluğu sahəsində dövlət siyasətinin həyata keçirilməsi mexanizmi və bu sahədə hökümətin vəzifələrinin nədən ibarət olması barədə, və nə də özünəməxsus xüsusiyyətlər kəsb edən qadınların məşğulluğu sahəsndə dövlət siyasəti və onun təmin edilməsi barədə bir kəlmə də olsa söz deyilmir. Halbuki hazırda respublikamızda yaşayan əhalinin 51 faizi, əmək qabiliyyətli yaşda olan əhalinin 50,5 faizi, iqtisadi cəhətdən fəal əhalinin 47,8 faizi, iqtisadiyyatda məşğul olmayanların 47,7 faizi, işsizlik statusu alanların 55,9 faizi, iqtisadiyyatda işləməyən əhalinin isə 70 faizindən çoxu qadınlardır.[378] Onu da nəzərə almaq lazımdır ki, qadınlar iqtisadiyyatda işləməklə yanaşı, həm də analıq

---

[378] Azərbaycanın statistik göstəriciləri. 2002. Bakı, 2002, s. 35; «Əmək bazarı». Rəqəm və diaqramlarda (Statistik məcmuə). Bakı, 2001, s.19.

funksiyası kimi çətin və şərəfli bir vəzifəni yerinə yetirən, gənc nəslin tərbiyəsi ilə bilavasitə məşğul olan və əhalinin təbii təkrar istehsalı prosesinin həyata keçirilməsində əvəzsiz xidmət göstərən bəşər övladlarıdırlar.

İlk baxışda belə görünə bilər ki, hazırda ölkəmizdə qadın əməyi ilə bağlı olan heç bir xüsusi məsələ yoxdur və bunun nizamlanmasına da ehtiyac duyulmur. Əsl həqiqətdə isə tarixi təcrübə, həyat bunu sübut edir ki, bazar iqtisadiyyatı şəraitində qadın əməyi ilə əlaqədar olan **xüsusi qadın məsələsi mövcuddur və müstəqil əhəmiyyətinə görə bu məsələ qadının cəmiyyətdə, ailədə və istehsalatdakı vəziyyəti ilə əlaqədardır.** Əlbəttə, bu o demək deyildir ki, qadın əməyi məsələsi o qədər spesifik xüsusiyyətlərə malikdir ki, onu mütləq ümumi əmək məsələlərindən tamamilə ayrılıqda həll etmək lazımdır. ***Əmək məsələsi ilə əlaqədar olan həm qadın, həm də kişi məsələsi bir-biri ilə sıx əlaqədar olduğu üçün birlikdə həll edilir. İctimai istehsalın bu və ya digər sahəsində qadın əməyi tətbiq edilərkən və onlar tərəfindən analıq kimi mürəkkəb və çətin bir vəzifənin yerinə yetirilməsi, qadın orqanizminin fizioloji xüsusiyyətləri tarixi inkişafın keçmiş mərhələlərindən fərqli olaraq, yalnız indiki sivil cəmiyyətlərdə nəzərə alındığı və Gender problemi bütün dünyada ön plana çəkildiyi üçün qadın əməyi ilə bağlı olan problemlərə xüsusi diqqət yetirilməsi zəmanəmizin mühüm tələblərindən birinə çevrilmişdir. Bu məsələnin özü isə cəmiyyətimizin ümumi mənafeyinə uyğundur. Çünki müstəqil dövlətimizin inkişaf mənafeyi eyni zamanda, qadınların mədəni-texniki inkaşaf səviyyəsinin artırılması və yeni nəslin sağlam ruhda tərbiyə edilməsi mənafeyi ilə sıx surətdə bağlıdır.***

Ölkəmizin yeni iqtisadi münasibətlər sisteminə keçməsi və əmək bazarında yaranmış ciddi vəziyyət burada qadın əmək potensialından düzgün istefadə edilməsini, ilk növbədə, həll edilməsi zəruri olan problemlərdən biri kimi meydana çıxır. Çünki bazar münasibətlərinə keçid strategiyası ölkəmizdə mövcud olan əmək potensialının yarısına qədərini özündə birləşdirən qadınların əməyindən səmərəli istifadə edilməsindən çox asılıdır.

Qadın əməyindən istifadənin səmərəliliyinin yüksəldilməsi məsələsinin dövlətin mühüm vəzifələrindən biri kimi irəli sürülməsi təkcə iqtisadiyyatın struktur cəhətdən yenidən qurulması ilə deyil, həm də onun sosial yönümlüyü ilə şərtlənir. Həmin vəzifənin həll edilməsinin başlıca istiqaməti mövcud əmək potensialından, o cümlədən də qadın əmək potensialından istifadənin səmərəliliyinin yüksəldilməsindən, yəni onların əmək qabiliyyəti və bacarığından optimal qaydada istifadə edilməsindən ibarətdir. Bu isə öz növbəsində iqtisadiyyatın bütün dairələrində qadın əməyindən istifadə üçün zəmin və şəraitin yaradılmasına, bu cəhətdən Kender siyasətinə xüsusi diqqət yetirilməsini nəzərdə tutur. Həmin məsələni aydınlaşdırmaq məqsədilə YUNİSEF-in xətti ilə bir neçə il öncə bazar iqtisadiyyatı cəhətdən inkişaf etmiş altı ölkənin — Türkiyə, Yunanıstan, Braziliya, Fransa, ABŞ və İsveçlə yanaşı keçid iqtisadiyyatına qədəm qoymüş MDB ölkələrinin və Baltikyanı dövlətlərin məlumatları əsasında tədqiqatlar aparılmış və belə bir gözlənilməz nəticə əldə edilmişdir ki, qadınların ən yüksək iqtisadi fəalliği Baltikyanı dövlətlərdə və Müstəqil Dövlətlər Birliyinin qərb hissəsi ölkələrində – Belorus, Moldova, Rusiya və Ukraynada qeydə alınmışlır. Bu ölkələrdə iqtisadiyyatda məşğul olanlar arasında qadın və kişilərin xüsusi çəkisi arasındakı fərq çox olmayıb, cəmi 2 faiz təşkil etmişdir. Bu göstərici yalnız Qərb ölkələri arasında aparıcı rol oynayan İsveçin məlumatları ilə müqayisə oluna bilər. Nəzərə alsaq ki, Sovet hakimiyyəti dövründə mövcud olmuş metodikaya əsasən hamiləliyə və doğuma görə məzuniyyətdə olan qadınlar da iqtisadi fəal əhali hesab edilirdi və qadınların təqaüdə çıxma yaşı daha aşağı idi, belə olan halda həmin ölkələrdə onların iqtisadi fəallıq göstəricisi yaxşı təsir bağışlayırdı. Bu səbəbdən də təəccüblü deyildir ki, qadınların ictimai əməkdə iştirakı sənaye cəhətdən nisbətən zəif inkişaf etmiş Zaqafqaziya və Mərkəzi Asiya ölkələrində xeyli aşağıdır. Məsələn, öyrənilən dövrdə Özbəkistanda ictimai əməkdə iştirak edən qadın və kişilərin xüsusi çəkiləri arasındakı fərq 9 faiz təşkil etmişdir. Halbulki qeyd edilən dövrdə bu göstərici ailədə uşaqların sayının Asiya ölkələrində olduğuna nisbətən xeyli az olduğu

Macarıstanda 11 faiz bənd, Polşada isə 13 faiz bənd olmuşdur. Bu göstəricilər yalnız ABŞ və Fransanın 80-ci illərin axırına olan göstəriciləri ilə müqayisə edilə bilər. Bu ölkələr arasındakı mühüm fərq ondan ibarət olmuşdur ki, ABŞ və Fransadakına nisbətən Polşa, Macarıstan və Ruminiyada qadınlar tam iş günü ərzində məşğul olmuşlar. Bəzi mütəxəssislərin fikrincə, bu ölkələrdə qadının tam iş günü ərzində işləməsi həmin ölkələrdə əməyin belə şərəf və şöhrət işi olması və əmək hüququnun öz ideoloji kökləri ilə kommunist doktrinasına gedib çıxması ilə bağlıdır. Digər bir qrup mütəxəssislərin fikrincə isə həmin ölkələrdə qadınların istehsalatdakı iştirakının belə yüksəkliyi onlara real iqtisadi müstəqillik verilməsi ilə deyil, iqtisadi zərurətdən irəli gəlmişdir.

Məlum olduğu kimi, mərkəzləşdirilmiş planlı iqtisadiyyat çox iş qüvvəsinə tələbat yaratmaqla yanaşı, burada mövcud olmuş əmək haqqının və qiymətlərin aşağı olması ailədə iki gəlir mənbəyinin olmasını tələb edirdi. Buna görə də əmək qabiliyyətli qadınların getdikcə daha çox hissəsi içtimai istehsalda işləməyə getmiş və bunun əvəzində dövlət onlara ödənişli məzuniyyət, uşaqlarını körpələr evlərində və uşaq baxçalarında yerləşdirmək və sair yollarla müəyyən müavinətlər verir və ailə işlərində onlara köməklik göstərirdi. Lakin butun bu müsbət cəhətlərə baxmayaraq, aparılan sosioloji tədqiqatların nəticələri göstərir ki, bu ölkələrdə ev təsərrüfatında qadınların haqqı ödənilməyən işlərə sərf etdiyi gündəlik vaxtın həcmi Qərb ölkələrindəkindən az olmamış, əksinə iki saat çox olmuşdur. Əlbəttə, mövcud informasiya çatışmazlığı şəraitində Mərkəzi və Şərqi Avropa ölkələrində, habelə keçmiş SSRİ ərazisində yaranmış Müstəqil dövlətlərdə keçid dövrü iqtisadiyyatının qadınların əmək fəallığına təsirini aşkara çıxarıb düzgun qiymətləndirmək o qədər də asan məsələ deyildir.

Burada belə bir məsələni də yaddan çıxarmaq olmaz ki, əvvəla, əməyə dair toplanmış statistik rəqəmlərin çoxu həqiqətdən uzaqdır, yeni konsepsiyalar və seçmə üsulu ilə aparılan tədqiqatlar isə həmin ölkələrdə çox ləng həyata keçirilir və tez-tez dəyişdirilir. Əksər hallarda isə statistik məlumatların toplanması və işlənməsi, habelə sosioloji tədqiqatlar aparılması üçün

irəli sürülən metodikalar vəziyyəti daha da qaranlıqlaşdırır. Belə ki, əvvəlki rejimə əsasən, iş qüvvəsində iştirak etmək məşğulluğa bərabər tutulurdusa, bazar iqtisadiyyatına keçən ölkələrdə məşğulluq anlayışına həm iş qüvvəsində iştirak edənlər və həm də işsizlər daxil edilirlər. İşsizlik səviyyəsinin öyrənilməsinə dair beynəlxalq normalara əsasən isə işsizlər iş yerlərini tutmağa hazır olmalı, fəal surətdə iş axtarmalıdırlar. Məsələn, əmək birjalarında iş almaq üçün qeydiyyata düşməli, muzdla verilən işlər üçün elanları izləməli və ya boş iş yerləri haqqında arayışlar toplamalıdırlar.

Qadınların iqtisadi fəallığını səciyyələndirən məcmu göstəricilərin mövcud olduğu 14 ölkənin timsalında qeyd edilən vəziyyətin təhlil edilməsi və həmin ölkələrdə bu sahədə baş verən dəyişikliklərin öyrənilməsi xüsusi elmi maraq doğurduğundan diqqəti həmin məsələyə yönəltməyi məqsədəuyğun bildik. Aşağıdakı 75-ci cədvəldə 1989—1997- ci illəri əhatə edən dövrdə həmin ölkələrdə qadınların iqtisadi fəallığının məcmu göstəriciləri və Gender fərqləri verilmiş və müəyyən edilmişdir ki, göstərilən 14 ölkənin 10-da qadınların məcmu iqtisadi fəallığı azalmışdır. Bu azalma prosesi üç Baltikyanı ölkələrdə — Estoniya, Latviya və Litvada, habelə Rusiya, Türkmənistan və Tacikistanda özünü daha qabarıq şəkildə büruzə vermişdir. Bu dövrdə qadınların iqtisadi fəallığı Macarıstan və Polşada da əhəmiyyətli dərəcədə azalmışdır. Eyni zamanda, bu ölkələrdəki iqtisadi fəallıqdakı kəskin Gender fərqləri də xeyli azalmışdır. Rumıniya və Azərbaycanda iqtisadi fəal qadınların sayı, Rumıniya və Bolqarıstanda isə iş qüvvəsində iştirak edən kişilərin sayı artmışdır. Polşa, Macarıstan və Tacikistanda isə qeydə alınmış iqtisadi fəallıq isə kişilər arasında qadınlara nisbətən daha sürətlə azalmışdır.

75- ci cədvəl [379]

Müxtəlif ölkələrdə qadınların iqtisadi fəallığının məcmu göstəriciləri və Gender fərqləri (1989—1997- ci illərdə)

Ölkələr	Qadınların iqtisadi fəallığının məcmu göstəricisi (faizlə)		Qadınların iqtisadi fəallığının məcmu göstəricisinin artması (+) və ya azalması (-) (faiz bəndlə)	Fəallıq göstəricisndə Gender fərqi göstəricisindən çıxılsın qadınlar üçün göstəricilər (faiz bəndlə)		İqtisadi fəallıqda Gender fərqinin dəyişməsi (faiz bəndlə)
	1989-cu ildə	1997-ci ildə	1989-1997-ci illərdə	1989-cu ildə	1997-ci ildə	1989-1997-ci illərdə
Slovakiya	40,4	40,5	0,1	11,8	11,1	- 0,7
Polşa	43,2	39,4	- 3,8	11,3	10,0	- 1,3
Macarıstan	37,4	33,2	- 4,2	13,0	10,3	- 2,7
Bolqarıstan	42,4	39,3	- 3,1	1,9	7,3	5,4
Rumıniya	42,6	46,9	4,3	8,4	10,9	2,5
Estoniya	51,3	43,4	- 7,9	7,2	10,7	3,5
Latviya	51,5	42,9	- 8,6	7,8	10,7	2,9
Litva	48,6	44,0	- 4,6	8,0	10,8	2,8
Belorusiya	48,3	46,0	- 2,3	8,9	- 0,2	- 9,8
Rusiya	47,9	40,6	- 7,3	10,0	12,0	2,0
Ukrayna	46,4	46,8	0,4	9,6	6,9	- 2,7
Azərbaycan	33,3	35,1	1,8	15,3	6,8	- 8,5
Türkmənistan	37,4	29,0	- 5,7	14,2	15,2	1,0
Tacikistan	34,	28,2	- 6,6	7,4	4,3	- 3,1

Əmək bazarının meydana gəlməsi ilə əlaqədar olaraq, yuxarıda adları çəkilən ölkələrdə iş qüvvəsində qadın və kişilərin iştirakı arasındakı fərqlər kəskin dəyişikliklərə məruz qalmışdır. Bu təəccüblü deyildir. Çünki nəzərə alsaq ki, həmin ölkələrdə real əmək haqqı xeyli aşağı düşmüşdür və buna görə də ailəni saxlamaq üçün əvvəllərdə olduğu kimi, yenə də ailədə iki nəfər – həm kişi və həm də qadın (iş yerlərinin sayının azalmasına baxmayaraq) işləməyə məcbur olmuşlar.

[379] ЮНИСЕФ (1999) « Женщины в переходный период». Региональный мониторинговый доклад № 6. Флоренция: Международный Центр развития ребенка ЮНИСЕФ. с.28(Bundan sonrakı məlumatlar mövcud deyildir).

Öyrənilən dövrdə bu sahədə kiçik və yaşlı əhali qrupları arasında, xüsusilə də gənc və orta yaşlı qadınlar arasında daha ciddi dəyişikliklər baş vermişdir. Statistik rəqəmlərdən aydın olur ki, uşaqlara qulluq etməklə 50 yaşından yuxarı qadınların rolu başqa yaşda olan qadınlara nisbətən daha çox artmaqdadır. Onların bir çoxu əvvəllərdə olduğu kimi, vaxtında təqaüdə çıxmağa üstünlük verirlər. Aparılan tədqiqatlar göstərir ki, o ölkələrdəki qadınların ümumi iqtisadi fəallığı kəskin surətdə aşağı düşmüşdür, orada daha çox gənc qadınlar iş yerlərini itirmişlər. Məsələn, son illərdə Rusiyada 20-24 yaşlı qadınların iş qüvvəsində iştirakı 12 faiz bənd azalmışdır. Gənc kişilər arasında isə bu göstərici iki dəfə aşağı olmuşdur. Gənc qadınlar arasında iqtisadi fəallığın azalmasının dörddə bir hissəsi onların ali məktəblərə daxil olmaları ilə, dörddə üç hissəsi isə başqa amillərlə, məsələn, uşaq müəssisələrinin və iş yerlərinin ixtisarı ilə bağlı olmuşdur.

Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 1991— 2002-ci illərdə respublikamızda qeydə alınmış bütün işsizlərin sayı 383,2 min nəfər təşkil etmişdir. Onların 218,7 min nəfərini və ya 57,1 faizini qadınlar, 164,3 min nəfərini və ya 42,0 faizini isə kişilər təşkil etmişlər. Bu dövrdə respublikada **iqtisadi fəal**, **məşğul** və **işsiz əhali** arasında qadınların xüsusi çəkisinin dəyişməsini 76-ci cədvəlin məlumatlarından daha aydın görmək olar. Həmin cədvəlin rəqəmlərindən göbründüyü kimi, müqayisə edilən dövrdə respublikada həm iqtisadi fəal əhali və həm də məşğul əhali arasında qadınların xüsusi çəkisi təqribən eynilə dəyişərək müvafiq surətdə 42,4 faizdən 47,7 və 47,8 faizə qalxdığı və ya 5,3 və 5,4 faiz bənd çoxaldığı halda, işsizlər arasında onların xüsusi çəkisi 7,7 faiz bənd azalaraq 62,5 faizdən 54,8 faizə enmişdir.

İşsizlər arasında qadınların ən yüksək xüsusi çəkiyə malik olduğu dövr 1991-ci, 1993-cü və 1994-cü illərə, daha doğrusu, ölkəmizin müstədillik qazandığı və onun bazar iqtisadiyyatına keçdiyi ilk illərə təsadüf etmişdir. Aparılan tədqiqatların nəticələrindən aydın olur ki, respublikamızda həm kişilər və həm də qadınlar üzrə işsizlik statusu alanların sayı həqiqi vəziyyəti əks etdirmir. Belə vəziyyətin yaranmasına səbəb, hər

76-cı

Azərbaycan Respublikasında iqtisadi fəal, məşğul və işsiz əhali arasında qadınların xüsusi çək
dəyişilməsi dinamikası (1991—2002-ci illər)

	İllər										
	1991	1992	1993	1994	1995	1996	1997	1998	1999	2000	
İqtisadi fəal əhali	3736,0	3728,4	734,1	3654,9	3641,3	3718,6	3732,4	3743,8	3748,0	3748,2	
o cümlədən: qadınlar	1584,9	1556,6	1649,9	1648,5	1650,0	1725,7	1784,2	1789,7	1791,8	1791,5	
kişilər	2151,1	2131,8	2084,2	2006,4	1991,3	1992,9	1948,2	1954,1	1996,2	1996,7	
qadınlar, faizlə	42,4	42,8	44,2	45,1	45,3	46,4	47,8	47,8	47,8	47,8	
məşğul əhali (min nəfər)	3732,0	3722,0	3714,6	3631,3	3613	3686,7	3694,1	3701,5	3702,8	3704,5	
o cümlədən: qadınlar	1582,4	1593,0	1638,1	134,1	1633,1	1706,9	1762,1	1765,6	1766,9	1767,0	
kişilər	2149,6	2129,0	2076,5	1997,2	1979,9	1979,8	1932,0	1935,9	1936,6	1937,5	
qadınlar, faizlə	42,4	42,8	44,1	45,0	45,2	46,3	47,7	47,7	47,7	47,7	
işsizlər (min nəfər)	4,0	6,4	19,5	23,6	28,3	31,9	38,3	42,3	45,2	43,7	
qadınlar	2,5	3,6	11,8	14,4	16,9	18,8	22,1	24,1	25,6	24,4	
kişilər	1,5	2,8	7,7	9,2	11,4	13,1	16,2	18,2	19,6	19,3	
qadınlar, faizlə	62,5	56,2	60,5	61,3	59,7	58,9	57,8	57,0	56,6	55,8	

[380] B a x : «Əmək bazarı 1999». Bakı, 1999, s. 143 və «Əmək bazarı 1999» Rəqəm və diaqramlarda. (Statistik məcm
Bakı, 2001, s.19; «Əmək bazarı 2003» statistik məcmuə», Bakı, 2003, s. 27.

şeydən əvvəl, işsizlərin uçotunun düzgün aparılmaması və burada yalnız qeydə alınmış işləmək arzusunda olanların sayının əsas götürülməsidir. Həqiqi vəziyyəti müəyyən etmək üçün işləməyənlər arasında sorğu yolu ilə tədqiqatlar aparılmalı və onların qeydiyyata düşməmələrinin səbəbləri aşkara çıxarılmalıdır. ***Bu yolla həm qadınlır və həm də kişilər üzrə həqiqi işsizlərin sayını müəyyən etmək olar. Bizə belə gəlir ki, işsizlik səviyyəsini müəyyən etmək üçün beynəlxalq qaydaları qəbul etməkdən başqa digər üsullardan istifadə etmək daha ağılabatandır. Bu üsul bütün işsizlərin sayının əmək ehtiyatlarının sayına bölünməsindən ibarətdir.***

Sovet hakimiyyəti illərində də bu üsuldan istifadə edilirdi. Daha doğrusu, o vaxtlar xalq təsərrüfatında işləyənlərin sayını mövcud əmək ehtiyatlarının sayına bölməklə əhalinin məşğullıq səviyyəsini, ictimai istehsaldan kənarda qalan əmək ehtiyatlarının sayını isə bütünlükdə əmək ehtiyatlarının sayına bölməklə ictimai istehsaldan kənarda, daha doğrusu içtimai istehsalda işləməyən əmək ehtiyatlarının xüsusi çəkisini tapardıq. Lakin o zaman «işsizlik» anlayışını işlətmək mümkün olmadığından, Sovet iqtisadi ədəbiyyatlarında bu kateqoriyadan imtina edilmişdir. Əslində isə Sovet hakimiyyəti dövründə işsizlik həmişə mövcud olmuş və bu, Azərbaycanda daha kəskin şəkildə özünü bürüzə vermişdir. İşsizlik problemi indi daha da kəskinləşmiş və ciddi problem kimi öz həllini gözləyir. Lakin Beynəlxalq Əmək Təşkilatının tövsiyələrinə və mövcud əmək qanunvericiliyinə əsasən, **«işsiz»** əhali anlayışı bizim indiyədək **«bildiyimizdən»** daha fərqli şəkildə başa büşülür. ***Əvvəllər işsizlər dedikdə, ictimai istehsalda işləməyən bütün əmək qabiliyyətli əhali başa düşülür və işsizlik səviyyəsini onların mövcud əmək ehtiyatlarının sayına bölməklə tapırdıqsa, bazar münasibətlərinə keçidlə əlaqədar olaraq, hazırda həm «işsizlər» anlayışına və həm də «işsizlik» səviyyəsinin müəyyən edilməsinə tamamilə yeni qaydada yanaşılması tələb olunur.***

Yuxarıda qeyd edildiyi kimi, hazırda dünya təcrübəsində işsizlərin müəyyən edilməsi üçün iki üsuldan (metoddan) istifadə olunur: **Birincisi,** müvafiq məşğulluq xidməti orqan-

larında qeydə alınmış işsizlərin sayına əsasən; **İkincisi,** ev təsərrüfatlarında seçmə üsulu ilə aparılan tədqiqatlar əsasında.

İndi bütün dünya ölkələrində bu metodlardan birinə üstünlük verilir. Məsələn, ABŞ, Kanada, Yaponiya, Avstraliya və əksər Skandinaviya ölkələrində üstünlük hər ay keçirilən seçmə üsulu ilə aparılan tədqiqatlara verilir. **Bu yolla həmin ölkələrdə hər ay işsizlərin sayı, işsizlik səviyyəsi, onun dinamikası, quruluşu, işsizlik müddəti və sair parametrlər üzrə məlumatlar əldə edilir**. Əksər Avropa ölkələrində isə üstünlük qeydiyyata alınmış işsizlərin sayına dair məlumatlara verilir. Əlbəttə, bu metodikaların ayrı-ayrılıqda hər birinin **üstün** və **nöqsanlı** cəhətləri də vardır. Seçmə metodu ilə aparılan sorğu materialları praktik surətdə bütün kateqoriya işsizlərin, o cümlədən məşğulluq xidməti orqanlarının diqqətindən kənarda qalmış işsizləri meydana çıxarmağa imkan verir. **Bundan əlavə, bu cür sosioloji tədqiqatlar işsizlik məlumatlarının ölkələrarası müqayisəsi üçün də əlverişlidir.** Bununla belə, həmin tədqiqatların tətbiq edilməsi, aparılması imkanları da məhduddur. Çünki bu cür sorğu tədqiqatlarını hər bir səxsin və regionun təmsil edilməsi əsasında ardıcıl və keyfiyyətlə aparılması, onların operativ qaydada seçilib işlənməsi üçün müvafiq texnoloji təminatın, ixtisaslı kadrların və xeyli maliyyə xərclərinin olmasını tələb edir. **Bir çox inkişaf etməkdə olan ölkələrdə yuxarıda qeyd edilən vəziyyət həmin metodun geniş yayılmasının qarşısına ciddi çəpər çəkmiş və ona imkan vermir. Keçmiş Sovetlər İttifaqının sələfi sayılan Rusiya Federasiyasının hələlik belə təbqiqatlar aparmağa texnoloji təminatı və maliyyə imkanları olmadığı kimi, Azərbaycan Respublikasında da belə imkanlar yox dərəcəsindədir; ikincisi, hər bir seçmə üsulu ilə aparılan sosioloji tədqiqatlarda müəyyən statistik çatışmazlıqlar olur; üçüncüsü, bu və ya digər konsepsual müddəa üçün seçmə apararkən anket suallarında vaxtaşırı dəyişikliklər edilir ki, bu da müxtəlif dövrlərin məlumatlarını müqayisə etməyə imkan vermir.**

Məşğulluq xidmətində işsizlərin qeydə alınmasının üstünlüyü isə ondan ibarətdir ki, bu zaman həm çox maliyyə xərcləri tələb olunmur, həm də hesabatlar başdan-başa və arasıkəsilməz xarakter daşıyır. Bu səbəbdən də əmək bazarının

məşğulluq, işsizlik və başqa parametrlərinin mövsümi tərəddüdlərini onların uzunmüddətli dəyişmələrindən asanlıqla ayırmaq mümkün olur. Başdan-başa aparılan statistika hər bir reqionda işsizlərin kateqoriyaları üzrə vəziyyətinin dərindən və düzgün təhlil edilməsinə imkan verir.

İşsizlik səviyyəsinin məşğulluq xidmətində qeydə alınması metoduna əsasən, müəyyənləşdirməyə üstünlük verən ölkələrdə belə bir əhval-ruhiyyə genişlənməkdədir ki, bu cür informasiyalar natamam xarakter daşıyır. Çünki həmin məlumatlar yalnız sosial müdafiə orqanlarının yardımçı məhsulu olub, əhalinin müəyyən bir təbəqəsinə köməklik etmək vasitəsidir. Təqaüd almaq hüququna malik olan qeydiyyata alınmış işsizlər haqqında informasiya labüd olaraq, o şəxsləri özündən «uzaqlaşdırır ki» onların ya iş yerləri yoxdur, ya qeydiyyatın meyarını təmin etmir, ya hansısa bir qaydanı pozub və yaxud da sadəcə olaraq, müstəqil surətdə özü iş axtarmağa üstünlük verir (doğrudur, bu kateqoriya işsizlər inkişaf etmiş ölkələrdə o qədər də çox deyil). Çünki qeydiyyat qaydası adidir, ancaq təqaüdlərin verilməsi meyarı ayrı-ayrı ölkələrdə bir-birindən fərqlənir və bu səbəbdən də milli rəqəmlər müqayisə-edilməzdir.

Qeydiyyatın meyarının işlənməsi və dəyişdirilməsində siyasi baxışlar da az rol oynamır. Siyasi qüvvələrin yerinin dəyişilməsi, sosial dairədə prioritetlərin əvəz olunması işsizliyə görə verilən təqaüdlərin şərtlərini sərtləşdirə və yumşalda bilər. Məsələn, İngiltərədə konservativ hökumətə leyboristlər gəldikdə bu hər dəfə dəyişir və əksinə. Nəticədə, qeydiyyata düşmüş işsizlərin sayı daim dəyişir, çünki bu və ya digər kateqoriya insanlar ya təqaüd almaq hüququnu qazanır və yaxud da itirirlər.

Yuxarıda qeyd edilən vəziyyət məşğulluq xidmətinin məlumatlarına əsaslanan Avropa ölkələrində, bir qayda olaraq, ildə bir-iki dəfə BƏT-nin metodologiyasına uyğun qaydada ardıcıl olaraq, seçmə yolu ilə yoxlama aparmağa hökuməti məcbur edir. Beləliklə, 40 ildən artıqdır ki, işsizlik haqqında dünyanın bir çox ölkələrində bir-birindən asılı olmayan iki

mənbədən məlumat toplanılır və bunun əsasında işsizlik məsələsi öyrənilib həll edilir.

Respublikamızda işsizlərin beynəlxalq aləmdə qəbul edilmiş qaydalara uyğun işsizlərin uçota alınması sistemi qurulmuşdur. Doğrudur, məşğulluq xidmətində işsiz əhalinin qeydiyyatı BƏT-in qaydalarına uyğun və dəqiq aparılır. Lakin bu sahədə aparılan işlər, hələlik lazımi səviyyədə olmadığından qeydiyyata düşən işsizlərin sayı həqiqətdə mövcud olan potensial işsizlərin sayından qat-qat azdır. **Buna görə də həmin sahədə lazımi qayda yaradılmalı və işsiz əhalinin uçota alınması sahəsində əhali arasında geniş təbliğat işi aparılmalı və bu işin əhəmiyyəti əhaliyə izah edilməlidir**. Eyni zamanda, işsiz əhalinin uçota düşməməsi səbəbləri və amilləri də dərindən öyrənilməli və təhlil olunmalıdır. Onu da qeyd etmək lazımdır ki, respublikamızda mövcud olan qanunvericiliyə əsasən, məşğulluq xidmətində uçota duran işi olmayan və iş axtaranların hamısına işsiz statusu almaq hüququ verilir (pensiyaçılardan və gündüz bölmələrində oxuyanlardan başqa). Lakin buna baxmayaraq, hələlik respublikamızda işləməyən əhalinin çox az bir qismi məşğulluq xidməti idarələrinə müraciət edir və bu səbəbdən də ölkəmizdə işsizlik səviyyəsi zahirən çox aşağı görünür. Bunun bir sıra obyektiv və subyektiv səbəbləri vardı. **Ən başlıçası isə, hələ də ölkəmizdə məşğulluq xidmətinin lazımi səviyyədə qurulmaması, işsizlərin uçotunun düzgün aparılmaması, onların uçota düşməsinin istənilən qaydada stimullaşdırılmaması, təklif olunan iş yerlərində əmək haqqının həddən çox aşağı olması və əmək şəraitininin iştənilən səviyyədə olmaması və s. bu kimi amillərlə bağlıdır**. Bu xüsusilə də işləməyən qadınlar arasında məşğulluq xidməti idarələrində uçota düşmək istəməyənlərin kişilərə nisbətən çox olması ilə bağlıdır. Nəzərə alsaq ki, işləməyən əmək qabiliyyətli əhalinin əksər çoxluğu qadınlardır və onlar məşğulluq xidməti idarələrinə daha az müraciət edirlər, onda işsizlik səviyyəsinin yuxarıda göstərilən kimi olmasının səbəbi aydın olar.

Bütün bu deyilənlərə əsasən, belə qənaətə gəlmək olar ki, hazırda respublikamızda bütünlükdə işsizlərin, o cümlədən də işsiz qadınların **sayını** və onların **kəmiyyət-keyfiyyət tərkibini**

düzgün müəyyən etmək üçün məşğulluq xidməti idarələri yenicə formalaşmaqda olan ***bələdiyyələrin iştirakı və köməkliyi ilə vaxtaşırı hər bir rayon və şəhərdə, qəsəbə və kəndlərdə dəqiq uçota alıb öyrənməklə yanaşı, onların arzu və istəklərini aşkara çıxarmağa imkan verən sorğu-anket məlumatları əsasında sosioloji tədqiqatlar aparmaları məqsədəuyğun olardı. Çünki məşğul və işsiz əhali haqqında yalnız doğru-düzgün məlumatlar əldə etmək yolu ilə əsl həqiqəti aşkara çıxarıb həll etmək mümkündür. Belə olmazsa, biz nəinki yaxın gələcəkdə, hətta uzaq gələcəkdə də nə bütünlüklə əhalinin, o cümlədən də qadınların səmərəli məşğulluğunun təmin edilməsinə nail ola bilmərik***. Bunu bəzi Keçmiş Sovet respublikalarının və Şərqi Avropa ölkələrinin təcrübəsi də aydın şəkildə sübut edir.

YUNİSEF-in Mərkəzi və Cənubi–Şərqi Avropa və keçmiş SSRİ-nin yarısını əhatə edən 27 ölkənin materialları əsasında müəyyən edilmişdir ki, 1989—1997-ci illərdə bu ölkələrdə iş yerlərinin sayı 26 milyon ədəd azalmışdır ki, bu da keçid dövrünün başlanğıcında həmin ölkələrdə olan iş yerlərinin ümumi sayının 13 faizinə bərabərdir .[381] İş yerlərinin sayının belə ixtisarı təsadüfi olmayıb bazar iqtisadiyyatı və istehsalın həcminin azalması ilə bilavasitə bağlı olan haldır. YUNİSEF-in **«Qadınlar keçid dövründə»** mərüzəsində göstərilir ki, 90-cı illərdə Ümumi Daxili Məhsulun həcmi Mərkəzi Avropa ölkələrində 15—20 faiz, Cənubi-Şərqi Avropa ölkələri, MDB-nin Qərb hissəsi, habelə Zaqafqaziya və Mərkəzi Asiyada yerləşən ölkələrdə müəyyən istisnalarla orta hesabla 50 faiz azalmışdır. ***Nəticədə, bu ölkələrdə real əmək haqqının məbləği əhəmiyyətli dərəcədə aşağı düşmüş və işverənlər iş yerlərinin sayını xeyli ixtisar etmişlər. İxtisar olunmuş iş yerlərinin isə 14 milyonu və ya 58,3 faizi qadınların payına düşmüşdür.*** Bununla belə, formal iqtisadiyyatda məşğul olan qadınların xüsusi çəkisi 40—50 faiz həcmində qalmışdır. ***Qadınların işləməyə can atdığı bir çox ölkələrdə isə tam olmayan iş rejimində işləyənlərin sayının***

---

[381] ЮНИСЕФ (1999) « Женщины в переходный период» Региональный мониторинговый доклад № 6. Флоренция: Международный Центр развития ребенка ЮНИСЕФ. с. 9.

artmasına baxmayaraq, evdən kənarda işləyən qadınların 90 faizi tam iş günündə işləmişlər.

Mərkəzləşdirilmiş vahid planlı iqtisadiyyatın mövcud olduğu keçmiş SSRİ ölkələrində isə qeydə alınmış işsizlərin sayı qeyd edilən dövrdə demək olar ki, sıfırdan 10 milyon nəfərə gəlib çatmışdır. İşsizlik faizi qadınlar arasında kişilərə nisbətən yüksək olmuşdur. 90-cı illərin axırında həmin regionlarda rəsmi qeydə alınmış issiz qadınların sayı 7 milyon nəfəri ötüb keçmişdir ki, bu da bütünlükdə işsiz əhalinin 60 faizini təşkil etmişdir. **Bundan əlavə,** bu ölkələrdə getdikcə daha çox işsiz qadınlar və kişilər işsizlər siyahısından çıxarılır və işsizliyə görə müavinat almaq hüququndan məhrum edilirlər. **Halbuki qadınlar iqtisadiyyatda, cəmiyyətdə və bütün başqa sahələrdə haş verən dəyişikliklər prosesində mühüm rol oynayırlar. Onlar iqtisadiyyatda fəal iştirak etməklə, yeni haqqı ödənilən və ödənilməyən işlərdə məşğul olaraq siyasi həyata və fərdi təşəbbüskarlığa böyük töhfələr verirlər.**

Qadınlar uşaqların xoşbəxtliyinin həyata keçirilməsində həlledici, ailədə və cəmiyyətdə isə əsas rol oynayırlar. Başqa sözlə desək, qadınlar keçid dövrünün yaşadığı bütün çətinliklərdə iştirak edərək, ölkənin gələcək inkişafı naminə əllərindən gələni əsirgəmirlər.

Sosializm cəmiyyətində isə dövlət yuxarıda qeyd edilən sosialist ölkələrinin hamısında əsas sosial institut (qurum) olmaqla cəmiyyətdə bazarın, ailənin və başqa qurumların rolunu heçə endirmişdir. **Ancaq əvəzində o, sosial normaların və dəyərlərin əsl arbitri, rəsmi aparıcısı rolunu öz üzərinə götürmüş və qadınlarla kişilərin bərabərliyinin təminatçısı rolunu oynamışdır.**

Sovet dövləti əmlakının bəradər bölüşdürülməsinə əsaslanan ideologiyanı rəhbər tutaraq, qadınlarla kişilərin bərabərliyini qanunçuluqla möhkəmləndirmişdir. **Lakin təəssüflər olsun ki, onun məqsədi və verdiyi vədlər qadınların gündəlik həyatında tam yerinə yetirilməmişdir. Ancaq bu da bir həqiqətdir ki, sosializm şəraitində bir sıra mühüm sahələrdə qadınların vəziyyəti əvvəllərə nisbətən xeyli yaxşılaşmışdı.** Belə ki, inzibati-amirlik sisteminin hökm sürdüyü bütün ölkələrdə təhsil dairəsində,

yüksək məşğulluq səviyyəsinin təmin edilməsi sahəsində qadınlara kişilərlə tam bərabərlik şəraiti yaradılmış, uşaqlara və analara xidmət üçün lazımi tədbirlər görülmüşdür.

Sosializmldə qadınlara göstərilən bu köməklik və qayğı təkcə ədalət naminə deyil, həm də onun iqtisadi səmərəliliyi naminə edildiyinə baxmayaraq, bu ***addımlar qadınların inkişafında böyük rol oynamış və bu sahədə danılmaz tərəqqiyə səbəb* olmuşdur**. Ancaq hazırda keçid dövrü qeyd etdiyiniz dövlətlərin iqtisadi, sosial və siyasi həyatında Gender bərabərliyində dövlətin inhisarını aradan qaldırmış və qadınlar kişilərlə bərabər tamamilə başqa mühütə, məkana düşmüşlər. Ancaq təhlükə törədən şəraitdən də tam qurtula bilməmişlər.

Keçid dövrü iqtisadiyyatı qadınların bir qisminini indiyədək əldə etdikləri məşğulluq və sosial təminat sahəsində nailiyyətlərdən məhrum etmişdir. Bu geriləmə və tənəzzul, bir qayda olaraq, dövlətin həmin sahədəki rolunun kəskin şəkildə azaldılması ilə əlaqələndirilir və izah olunur. ***Köhnə cəmiyyətin geri çəkildiyi və yeni demokratik quruluşun yaranmağa başladığı keçid dövründə qadınların geniş surətdə cəmiyyət həyatında iştirakının təmin edilməsinin mümkün olmaması təhlükəsi mövcuddur və bu günün reallığıdır***. Lakin bütün bunlara baxmayaraq, fikrimizcə, yeni cəmiyyətin qurulub başa çatması, ***heç şübhəsiz ki, gələcəkdə qadın və kişilərin bərabərliyinin təntənəsi olacaqdır.***

Başqa MDB dövlətlərində oldüğü kimi, Azərbaycan Respublikasında da bu sahədə həll edilməmiş bir çox problemlər və çətinliklər vardır. Onlardan biri, məhz əmək bazarının formalaşdığı keçid iqtisadiyyatı şəraitində qadınların və kişilərin hüquq bərabərliyinin cəmiyyətdə bərqərar olmasını əks etdirən Gender problemlərinin sosial həyatın bütün tərəflərini əhatə etməsini təmin etməkdən ibarətdir. Azərbaycanda qadın və kişilərin bərabər hüquq və azadlıqları prinsipi Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsində belə ifadə olunur: **«Kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır»**.[382]

---

[382] Azərbaycan Respublikasının Konstitusiyası. Qanun nəşriyyatı, Bakı, 2002, s.15.

Eyni zamanda, bu məsələ Azərbaycanın bir çox qanunları, Azərbaycan Respublikası Prezidentinin fərmanları, sərəncamları və hökümətin qərarları ilə tənzimlənir.

Məlum olduğu kimi, Azərbaycan Respublikasında bugünkü Gender siyasətinin kökləri sovet dövrünün «**Qadın məsələsi» ilə baglıdır. Həmin dövrdə qadınların aşagıdakı rəsmi bərəbərliyi mövcud idi: bərabər iş üçün bərabər ödənişlə hüquqi zəmanətlər; hökumətin bütün səviyyələrində qadınların təmsil olunmalarını təmin edən kvota sistemi və qadınların bir çox hüquqlarını təsdiqləyən qanunvericilik aktlarının qüvvədə olması və s.** Həmin dövrdə tüğyan edən ideologiyaya tabe olaraq, **Qadın Şuraları «Qadın məsələsi»ni tənzimləyirdi**. Bu Şuralar qadınların maraqlarını bütün səviyyələrdə təmsil edir və onların hüquqlarını qorumağa səlahiyyətli idi. 80-ci illərin axırından başlayaraq «**Qadın məsələsi**» ideologiyasızlaşdırıldı və daha artıq, dövlət siyasətinin tərkib hissəsi olmadı. Eyni zamanda, qadınların hüqüqlarını və problemlərini təmsil edən QKT-lər yaranmağa başladı. [383]

«**Qadın məsələsi**»nin beynəlxalq standartlara müvafiq olaraq, inkişaf etdirilməsi Azərbaycanın müstəqilliyi dövrünə təsabüf edir. IV Ümumdünya Qadınlar Konfransına (Pekin, 1995) hazırlığın bir hissə kimi, Azərbaycanda dövlət və qeyri – hökümət qadın təşkilatları qadın problemlərinin həll edilməsinə səfərbər olunmuşdur. Bununla əlaqədar olaraq, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Milli Hazırlıq Komitəsi yaradılmışdır. Burada dövlət strukturlarında rəhbər vəzifələrdə çalışan qadınlar və qadın QKT-lərin liderləri təmsil olunmuşdur. 1995-ci ildə Azərbaycan Respublikası «Qadınlara Qarşı Ayrıseçkiliyin Ləğv Edilməsi Haqqında Konvensiya»nı qəbul etmiş və Azərbaycanın nümayəndə heyəti Pekin Konfransının işində fəal iştirak etmişdir. 14 yanvar 1998-ci ildə isə Respublika QPDK (Qadın Problemləri üzrə Dövlət Komitəsi) yaradılmış və «Azərbaycan qadınlarının rolunun artmasına dair tədbirlər haqqında» Azərbaycan Respub-

---

[383] B a x: Yoxsulluğun azalması və iqitsadi inkişaf üzrə dövlət proqramı. Bakı, 2003, s. 12-13.

likasının Prezidentinin Sərəncamı mətbuatda dərc olunmuşdur. Həmin Komitənin əsas vəzifəsi müxtəlif sahələrdə qadınların vəziyyəti ilə baglı məsələləri həll etməkdən ibarətdir. 1997—2000-ci illərdə hökumət və BMTİP-nin «**Azərbaycanda Gender İnkişafda**» layihəsi üzrə fəaliyyət başlandı. Bu layihə daxilində Gender ilə bağlı institusionallaşdırma işlərinin təşkili məlumatlarının yayılması, yenicə yaradılmış QPDK-ya və qadın QKT-inə texniki yardım göstərilməsi olmuşdur.

Məlum olduğu kimi, keçmiş SSRİ məkanında mövcud olan bütün dövlətlərdə olduğu kimi, Azərbaycan Respublikasında da son dövrlərədək Gender təhlilinə kifayət qədər diqqət yetirilmədiyindən bir çox sahələrdə hələ də qadınların mənafeyinə etinasızlıq göstərməkdə idi. Təsadüfi deyildi ki, MDB dövlətləri arasında Azərbaycan Respublikasının Prezidenti mərhum Heydər Əliyev **ilk dəfə olaraq** «6» mart 2000-ci il tarixdə «**Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında**» Fərman imzalamışdır. Bundan əvvəl isə Azərbaycan Respublikası 1999-cu il iyunun 30-da Birləşmiş Millətlər Təşkilatının «**Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında**» konvensiyasına qoşularaq öz üzərinə müvafiq öhdəliklər götürmüşdür. «**Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında» Prezident Fərmanında deyilir ki:** «Respublikada müxtəlif səviyyələrdə qəbul olunan qanunvericilik aktları, qərar və qətnamələr, xüsusilə Nazirlər Kabineti, ayrı-ayrı nazirlik və idarələrdə qəbul olunan qərarlar çox vaxt Gender siyasətinin tələbləri baxımından ekspertiza olunmur.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonrakı dövr qadınların qarşısında yeni məqsəd və vəzifələr qoydu. Bazar iqtisadiyyatının təşəkkül tapması, ölkəmizin müxtəlif sahələrində aparılan islahatlar, vətəndaş cəmiyyətinin formalaşmasında vətəndaşların fəaliyyətinin artırılması yolunda görülən işlər qadınların cəmiyyətdəki rolunun artırılmasını tələb edir. Bu baxımdan qeyd edilməlidir ki, qadınlar üçün bəyan edilən bərabər hüquqlar real bərabər imkanların olmaması üzündən çox vaxt gerçəkləşə bilmir.

«...Cəmiyyətdə qadınların rolunun artırılması yolunda hələ çox iş görülməlidir».[384] Həmin fərmanda qadınların kişilərlə hüquq bərabərliyini, xüsusilə onların ölkənin dövlət idarəçiliyi sistemində lazımi səviyyədə təmsil olunması məqsədilə bütün dövlət qurumlarında fəaliyyət növü nəzərə alınmaqla rəhbərlik səviyyəsində kişilərlə bərabər təmsil olunması, ölkədə gedən iqtisadi islahatlar çərçivəsində həyata keçirilən işlərdə Gender siyasəti tələblərini rəhbər tutmaqla, onlar üçün kişilərlə bərabər imkanların yaradılması, qaçqın və məcburi köçkün qadınların məşğulluğunun təmin edilməsi məqsədilə onların münasib işlə təmin edilməsi proqramının işlənib hazırlanması, qadınların hüquqlarının müdafiəsinin gücləndirilməsi məqsədilə Azərbaycan Respublikasının qanunlarında müvafiq dəyişikliklər və əlavələr edilməsi məqsədilə mövcud qanunvericiliyinin təhlil edilib təkliflər verilməsi və sair tələblər irəli sürülmüşdür.

Bütün yuxarıda deyilənlər respublikada qadın məşğulluğu sahəsində də xüsusi dövlət siyasətinin işlənib hazırlanmasını tələb edir. Məlumdur ki, iqtisadiyyatda işləməklə yanaşı analıq funksiyası kimi çətin və mürəkkəb bir vəzifəni yerinə yetirən qadınlar özünəməxsus fizoloji orqanizm xüsusiyyətlərinə malikdirlər. Onu da nəzərə almaq lazımdır ki, qadın orqanizminin fizioloji xüsusiyyətlərinin tarixi inkişafın keçmiş mərhələlərindən fərqli olaraq, yalnız indiki sivil dövlətlərdə nəzərə alındığı və Gender problemi dünyada ön plana çəkildiyi bir zamanda qadın əməyi ilə bağlı problemlərə xüsusi diqqət yetirilməsini zərurətə çevirir. Bu məsələnin özü isə cəmiyyətimizin ümumi mənafeyinə tamamilə uyğundur. Çünki müstəqil dövlətimizin inkişafı mənafeyi eyni zamanda, ölkəmizdə qadınların ictimai-iqtisadi fəallığının və mədəni-texniki inkişaf səviyyəsinin artırılması və yeni nəslin sağlam ruhda tərbiyə edilməsi mənafeyi ilə sıx surətdə bağlıdır.

Hazırda respublikamızda qadın əmək ehtiyatlarının iqtisadi fəallığına mənfi təsir göstərən ən başlıca amillərdən biri məhz doğum səviyyəsi və ailədəki üşaqların sayıdır. Təsadüfi deyildir ki, hazırda iqtisadiyyatda məşğul olmayan qadınların

---

[384] B a x: «Azərbaycan» qəzeti, 15 yanvar 1998-ci il.

əksəriyyəti körpə uşaqların tərbiyəsi ilə məşğul olan çoxuşaqlı analardır. Nəzərə alsaq ki, **əvvəla,** qadınların geniş miqyasda ictimai istehsala cəlb edilməsi müasir cəmiyyətin mühüm qanunauyğunluqlarından biridir və geri qaytarılması mümkün olmayan bir prosesdir; **ikincisi,** qadınların səmərəli məşğulluğu təkcə onun iqtisadi tərəfi ilə deyil, həm də sosial tərəfi ilə müəyyən edilir və nəhayət **üçüncüsü**, qadınların əmək haqqı ailənin yaşayış fondunun formalaşmasının mühüm tərkib hissəsini təşkil edir, onda onların ictimai istehsalda iştirakının təmin edilməsinin nə kimi mühüm iqtisadi və siyasi əhəmiyyət kəsb etməsini sübut etməyə ehtiyac qalmır. ***Burada belə bir həqiqəti də unutmaq olmaz ki, qadınların ictimai istehsala cəlb edilməsi həm də onların bir şəxsiyyət kimi inkişaf edib formalaşmasına təsir edən əsas amillərdən biridir.***

Aparılan sosioloji tədqiqatların nəticələri göstərir ki, bir qayda olaraq, qadınlar istər istirahət günləri olsun, istərsə də adi iş günləri, fərqi yoxdur, hər iki halda ailəyə xidmət edilməsinə kişilərə nisbətən 3,1-4,3 dəfə çox vaxt sərf edirlər. ***80-ci illərin axırı 90-cı illərin əvvəllərində*** respublikamızda aparılmış sosioloji tədqiqatların məlumatlarına əsasən, **birinci dövrdə** işçi qadınların hər biri sutkada ev təsərrüfatı işlərinə 3 saat 46 dəqiqə, **ikinci dövrdə** isə 3 saat 41 dəqiqə, **kişilər isə** muvafiq surətdə 53 dəqiqə və 1 saat 11 dəqiqə vaxt sərf etmişlər. Qadınların ev işlərinə sərf etdiyi vaxtın miqdarı kişilərin həmin işlərə sərf etdiyi vaxtda birinci dövrdə 6,3 dəfə, ikinci dövrdə 4,0 dəfə çox olmuşdur. Bu fərq ayrı-ayrı ev işləri üzrə müxtəlif olub **birinci** dövrdə 4,5-24,7 dəfə, **ikinci dövrdə isə** 3,0-23,3 dəfə arasında tərəddüd etmişdir.[385] Onu da nəzərə almaq lazımdır ki, qadınların ev təsərrüfatı ilə yanaşı, ictimai istehsalda da iştirak etməsi onların üzərinə eyni vaxtda həm iqtisadiyyatda işləmək və həm də analıq funksiyası kimi mühüm bir vəzifənin yerinə yetirilməsini qoyur.

Dünyanın bütün ölkələrində olduğu kimi, Azərbaycanda da qadın əmək potensialının bir qisminin ictimai əmək dairəsindən

---

[385] B a x: Azərbaycanda qadınlar və kişilər. Bakı, 2000, s. 43.

kənarda qalması və ictimai istehsalda çalışan qadınların çoxunun az ixtisaslı işlərdə işləməsinin əsas səbəblərindən biri kişilərə nisbətən onların mədəni-texniki səviyyəsinin hələlik aşağı olmasıdır. Elmi-texniki tərəqqinin inkişafı ilə əlaqədar olaraq, fiziki qüvvələrin yerini daha çox zehni qüvvələrin tutması müvafiq ixtisas, peşə və təhsil səviyyəsinə malik olmayan adamların müxtəlif əmək fəaliyyəti dairələrinə cəlb edilməsi işini get-gedə çətinləşdirir və onun həllini mühüm problemə çevirir.

Elmi-texniki tərəqqi iş qüvvəsinin quruluşu və onun keyfiyyətinin dəyişilməsi ilə üzvi surətdə bağlıdır. Çünki istehsalın inkişafı və burada yeni texnologiyanın və texnikanın tətbiqi əl əməyinə, habelə qurğular və alətlərə əsaslanan peşələrin əvəzinə müasir texnikaya uyğun yeni və yüksək ixtisaslı peşələrin meydana gəlməsinə, işçilərin yaş-cins, peşə-ixtisas tərkibində ciddi dəyişikliklərin baş verməsinə səbəb olur və onların mədəni-texniki səviyyəsinin yüksəldilməsini tələb edir.

Müasir cəmiyyətdə əhalinin mədəni-texniki səviyyəsinin yüksəldilməsi tələbi təkcə iqtisadi və ictimai tərəqqinin inkişafı üçün deyil, həm də insan şəxsiyyətinin hərtərəfli inkişafı üçün zərurət təşkil edən bir prosesdir. Buna görə də Müstəqil Azərbaycan dövlətində texniki və ictimai tərəqqinin iş qüvvəsinin, o cümlədən də qadın iş qüvvəsinin peşə ixtisas tərkibinin dəyişilməsinə təsirinin öyrənilməsinə də məhz bu səpkidən yanaşılmalıdır.

Azərbaycanda qadın əmək potensialının xeyli bir qisminin iqtisadiyyatda məşğul olmamasına səbəb onların nəinki xüsusi ixtisas və peşə təhsilinə, hətta ümumi orta təhsilə belə malik olmamalarıdır. Bunu ilin əvvəlində Azərbaycan Respublikası Dövlət Satistika Komitəsinin məlumatlarına əsasən işsizlik statusu almış əmək qabiliyyətli qadın və kişilərin təhsil səviyyəsini səciyyələndirən 77-ci cədvəlin rəqəmlərindən daha aydın görmək olar. 77-cı cədvəldə verilmiş rəqəmlərdən göründüyü kimi, respublika iqtisadiyyatında işləməyən və işsizlik statusu almış qadınların 5,5, kişilərin isə 4,5 faizinin hələ də ümumi orta təhsili yoxdur. İşsiz qadınların 33,5, kişilərin isə 34,3 faizinin xüsusi ixtisas təhsili olmayıb, müvafiq surətdə 37,7 və 29,7 faizinin isə yalnız ümumi orta təhsili vardır. Bu

isə o deməkdir ki, hazırda qadınların peşə ixtisas təhsili səviyyəsinin artması respublikamız üçün problem olaraq qalır. Ancaq unutmaq olmaz ki, işsiz qadınların daha çox hissəsinin, yəni 58,9 faizinin ali və orta ixtisas təhsili olduğu halda,

77-ci cədvəl [386]

Azərbaycanda işsizlik statusu almış əmək qabiliyyətli qadın və kişilərin təhsil səviyyəsi (2001-ci ildə)

təhsil səviyyəsi	**Yekuna nisbətən**	
	qadınlar	**kişilər**
Ali	23,8	31,6
Orta ixtisas	33,5	34,3
Ümumi orta	37,7	29,7
Ümumi orta təhsili olmayanlar	5,0	4,4

onlar üçün müvafiq iş yerləri çatışmır. Buna görə də qadınların təhsil səviyyəsinin və peşə ixtisas dərəcəsinin yüksəldilməsi paralel surətdə ona uyğun olan yeni iş yerlərinin yaradılmasını tələb edir. ***Bu iki vahid bir problemi eyni zamanda həll etmədən qadınların səmərəli məşğulluğunu təmin etmək olmaz.*** Ancaq onu da qeyd etməmək olmaz ki, hazırda respublikamızda elə peşə və ixtisaslar vardır ki, orda qadınların ali və orta ixtisas təhsili səviyyəsi kişilərin təhsili səviyyəsindən nəinki geridə qalmır, hətta onları üstələyir. Bunu müxtəlif ali, orta ixtisas təhsili məktəblərində oxuyan tələbələr arasında oğlan və qızların xüsusi çəkisini xarakterizə edən 78-ci cədvəlin məlumatlarından daha aydın görmək olar. 78-ci cədvəldən göründüyü kimi, hazırda maşınqayırma və metal emalı, kənd və meşə təsərrüfatı, kimya texnologiyası, radiotexnika və telekommunikasiya, qida məhsulları texnologiyası və s. kimi ixtisaslar istisna olunmaqla, qalan bütün istiqamətlər üzrə orta ixtisas məktəblərində təhsil alanlar arasında qızlar üstünlük təşkil edirlər. Dövlət ali təhsil məktəblərində isə vəziyyət bir qədər fərqlidir. Burada qızlar yalnız səhiyyə, təhsil, təbiət elmləri, mədəniyyət və incəsənət

[386] B a x: Əmək bazarı . 2003.(Statistik məcmuə). Bakı, 2003, s.136.

istiqamətli ali məktəblərdə oxuyanların müvafiq surətdə 71, 76, 68 və 59 faizini təşkil edir, qalan sahələrdə isə 3—49 faiz arasında tərəddüd etməklə, bütünlükdə dövlət ali məktəblərində oxuyanların 41, orta ixtisas məktəblərində oxuyanların isə 67 faizini təşkil edirlər.

78-ci cədvəl [387]

1999—2000-ci illərdə Azərbaycanın dövlət orta və ali ixtisas məktəblərində təhsil alanların cins tərkibi (yekuna nisbətən, faizlə)

Təhsil müəssisələrinin ixtisas qrupları üzrə		Orta ixtisas məktəblərində oxuyanlar arasında		Ali məktəblərdə oxuyanlar arasında	
		qızlar	oğlanlar	qızlar	oğlanlar
1	Təbiət-texniki fənnlər	97	3	24	76
2	Təhsil	97	3	76	24
3	Səhiyyə	97	3	71	29
4	Təbiət elmləri	-	-	68	32
5	Mədəniyyət və incəsənət	73	27	59	41
6	Humanitar və sosial	50	50	49	51
7	Kənd və balıq təsərrüfatı	22	78	23	77
8	Meşə təsərrüfatı	11	89	22	78
9	İqtisadiyyat və idarəetmə	54	46	23	77
10	Kimya texnologiyası	43	57	35	65
11	Elektronika və elektrotexnika			18	82
12	Maşınqayırma və metal emalı	5	95	3	97
13	Cihazqayırma	68	32	16	84
14	Radiotexnika və telekommunikasiya	31	69	-	-
15	Kommersiya			35	65
16	Qida məhsulları texnologiyası	39	69	22	78
17	Memarlıq və idarəetmə	-	-	14	86

[387] B a x: Azərbaycanda qadınlar və kişilər. Bakı, 2000, s. 33-34; 36-37

18	Avtomatika və idarəetmə	-	-	16	84
19	İnformasiya və hesablama texnikası	-	-	25	75
20	Metallurgiya	-	-	6	94
21	Cəmi oxuyanlar arasında	67	33	41	59

Deməli, hələlik bir sıra ixtisas üzrə dövlət ali və orta ixtisas məktəblərində təhsil alanlar arasında qızların xüsusi çəkisi olduca aşağıdır ki, bu da öz növbəsində xalq təsərrüfatının müvafiq sahələrində onların yüksək ixtisaslı işlərdə və vəzifələrdə çalışmasına mənfi təsir göstərir.

Hazırda Azərbaycanda qadınların ali təhsilə cəlbedilmə əmsalı Türkmənistan Respublikası istisna edilməklə, bütün keçmiş SSRİ ərazisində yaranmış müstəqil dövlətlərdə, habelə bir sıra Şərqi Avropa və Avropa ölkələrində olduğuna nisbətən xeyli aşağıdır.

90-cı illərin axırlarına dair statistik məlumatlara əsasən, ali məktəb tələbələri arasında qızların xüsusi çəkisi Rusiya, Belorusiya və Moldovada 54,5—55,7 faiz, Estoniya, Latviya və Litvada 54,7-57,7, Ermənistan və Gürcüstanda 50,4, Polşa, Macarıstan, Bolqarıstan və Rumıniyada 49,9—59,8 faiz arasında tərəddüd etdiyi halda, Azərbaycanda cəmi 41 faiz təşkil etmiş və ya həmin ölkələrdə olduğuna nisbətən 8,9—18,8 bənd aşağı olmuşdur.

Nəzərə almaq lazımdır ki, hazırda bütün dünya ölkələrində cinsi bərabərlik məsələləri cəmiyyətdə ən aktual siyası, iqtisadi və sosial problemlərdən biri kimi öz həllini gözləyir və həmin fərqlərin aradan qaldırılması yolları cəmiyyət üzvlərinin diqqətini özünə cəlb etməkdədir. Bu isə dövlət səviyyəsində qadın əmək potensialının məşğulluğunun optimallaşdırılması və qadın məşğulluq siyasətinin işlənib hazırlanması işində mühüm əhəmiyyət kəsb edir.

Hazırda qadınlar respublikamızda iqtisadiyyatın, mədəniyyətin, incəsənətin, səhiyyənin və sair sahələrin inkişafında, habelə milli və ümumi daxili məhsulun istehsalında və ölkə əhalisinin təkrar istehsalı prosesində mühüm rol oynayırlar. Respublikanın iqtisadçı alim qadınlarının birinin obrazlı ibarəsi

ilə desək, hazırda qadınlar belə bir qəribə hərəkət edib onların çoxluq təşkil etdikləri sahələrdə iş yerlərini buraxıb getsələr, bu, iqtisadiyyatda xaos yaradar, xidmət dairəsinə, səhiyyənin, təhsil sisteminin isə dağılmasına gətirib çıxardar.

Qadınların istehsalatdakı məşğulluğu ictimai tərəqqinin səviyyəsi ilə bağlıdır və bütün dünya ölkələrində qadınların məşğulluğu günü-gündən artmaqda davam edir. Onların iqtisadiyyatda iştirak sürəti kişilərin iştirak sürətini ötüb keçir. Bu, ictimai tərəqqinin obyektiv inkişaf meylidir. Bu proses qadınların əmək fəallığında yeni hərəkət-tərzi vəziyyəti yaradır və öz növbəsində qadınların həyat tərzi və şəraitinə təsir göstərir. Qadın əməyi ilə məşğul olan bəzi iqtisadçıların fikrincə, hazırda qadınların məşğulluğunu təmin edən ***üç əsas prinsip mövcuddur.*** Bunlara aşağıdakılar daxildir:

Birinci prinsip əməyin könullü və sərbəst olması - yəni qadınların ictimai əməkdə iştirak edib-etməməsi onların özlərinə, öz arzusuna aid olan bir iş olması; demokratik cəmiyyətlərdə ictimai əmək dairəsinə — uşaqların tərbiyəsi, istirahətin təşkili, təhsil, ev təsərrüfatı işlərinin aparılması və sairəyə ictimai faydalı fəaliyyət dairəsinin bərabərhüquqlu bir sahəsi kimi baxılmalıdır.

İkinci prinsip — harada və nə qədər işləməli ki, bu qadınlar ücün zəruri hesab edilir. Bu prinsiplərə uyğun olaraq, müxtəlif məşğulluq formalarından — daimi, müəyyən müddətdə, müvəqqəti, əvəzçiliklə, işlərin müəyyən qrafik üzrə aparılması və s. istifadə olunur.

Üçüncü prinsip – əmək sərfinin coğrafi yerinin sərbəst seçilməsi.

Qadınların məşğulluq səviyyəsinə təsir edən amillərin təhlili göstərir ki, onların məşğulluq səviyyəsinin aşağı olması bir sıra tarixi, sosial-iqtisadi, demoqrafik və sair amillərlə bağlıdır. Tarixi amillərdən söhbət getdikdə, biz xalqımızın qoruyub saxladığı çoxlu adət-ənənələri, əxlaq normalarını və milli xüsusiyyətləri nəzərdə tuturuq. Tarixi amillər sosial-iqtisadi amillərlə sıx surətdə bağlıdır.

Qadınların məşğulluğunun aşağı olmasına təsir edən sosial-iqtisadi amillərin təhlili göstərir ki, onların iqtisadiyyatda

işləməmələrinin əsas səbəblərini müvafiq iş yerlərinin olmaması, qısaldılmış iş günü üzrə iş yerlərinin çatışmaması, müəyyən peşə və ixtisasa malik olmamaları və sair təşkil edir. **Başlıca amillərdən biri** də məhsuldar qüvvələrin, xüsusilə də qadın əməyinin üstünlükdə tətbiq edildiyi sahələrin respublika ərazisində lazımi dərəcədə səmərəli yerləşdirilməməsindən ibarətdir. Bunun üçün respublikamızda sivil xüsusi mülkiyyətə əsaslanan iqtisadiyyat sektorunun inkişafına qayğının artırılmasına da böyük ehtiyac vardır. **Söhbət dövlətin** himayəsi ilə xüsusi mülkiyyətdə olan bütün sahələrin inkişaf etdirilməsindən (emaledici, yüngül və yeyinti sənayesinin, topdan-pərakəndə ticarət, sosial-məişət və kommunal xidmətlərinin, heyvandarlığın və s.) gedir, daha doğrusu, o sahələrin ki, orada qadın əməyindən geniş iştifadə etmək olar. **Digər mühüm yollardan biri** də qadın əmək ehtiyatlarının müstəqil məşğulluğa, xüsusi işlərin təşklinə, kiçik biznes müəssisələrində və qeyri-dövlət müəssisələrində işləməyə yönəltməkdən ibarətdir.

Kooperativlərdə, yoldaşlıq müəssisələrində, fermer təsərrüfatlarında və sair mürəkkəb idarəetmə işləri tələb etməyən sahələrdə iş yerlərinin yaradılması da qadın əməyinin tətbiqi üçün əlverişli ola bilər. **Nəhayət, ictimai işlərdə** məşğulluq. Elə işlər ki, xüsusi peşə hazırlığı tələb etmir və bu yolla müvəqqəti olaraq işləməyən qadınların məşğulluğunu təmin etmək olar. ***Onu da nəzərə almaq lazımdır ki, işləyən qadınların xeyli bir hissəsi hələ də lazımi əmək şəraiti olmayan, aşağı əmək haqqı verilən və ağır fiziki əməyin tətbiq edildiyi işlərdə və sahələrdə çalışırlar.*** Respublika Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 2000-ci ildə sənayedə qadınlar sanitar-gigiyena normalarına cavab verməyən şəraitdə işləyənlərin — 30,9 faizini, səs-küyün çox olduğu şəraitdə işləyənlərin — 24,2 faizini, iş zonasında havanın həddən artıq qazlı olduğu şəraitdə işləyənlərin — 7,9 faizini, ağır fiziki əməklə məşğul olanların — 8,2 faizini təşkil edir.[388]

---

[388] B a x: Əmək bazarı. Rəqəm və diaqramlarda (Statistik məcmuə), Bakı, 2001, s. 63.

Qadınların kişilərə nisbətən daha çox aşağı ixtisaslı işlərdə və aşağı əmək haqqı verilən sahələrdə işləməsini sənayenin ayrı-ayrı sahələrində işləyən qadınlarla kişilərin əmək haqqlarının məbləği arasındakı fərqlərdən daha aydın görmək olar. Qeyd edilən dövrdə respublikanın bəzi sənaye sahələrində, rabitə, səhiyyə və təhsildə işləyən qadınların əmək haqlarının səviyyəsi kişilərin əmək haqlarının səviyyəsindən xeyli aşağı olmuşdur. Bu vəziyyətin ən kəskin surətdə meydana çıxdığı sahələrə — neftçıxarma (51,0 faiz), kimya sənayesi (62,5 faiz), neftkimya sənayesi (63,7 faiz) və səhiyyə sahəsi (64,8 faiz); peşələrə isə qazma işləri (36,0 faiz) və neft-kimya aparatçıları (56,7 faiz) və s. daxildir. Bu, onu göstərir ki, qadınlar həmin sahə və peşələrdə ən aşağı əmək haqqı verilən və nisbətən aşağı təhsil və peşə-ixtisas səviyyəsi tələb edilən işlərdə çalışdıqlarından onların əmək haqları nisbətən yüksək ixtisaslı işlərdə çalışan kişilərə nisbətən xeyli aşağıdır. ***Deməli, həmin sahə və peşələrdə, sözün əsl mənasında, qadın və kişi bərabərliyi təmin edilməmişdir***. Bu vəziyyəti iqtisadiyyatın başqa sahələrinə də şamil etmək olar. ***Ona görə də gələcəkdə həmin vəziyyətin düzəldilməsinə qayğı göstərilməli, orada çalışan qadınların təhsil səviyyəsi və peşə-ixtisas dərəcəsi artırılmalıdır. Bu isə o deməkdir ki, hazırda iqtisadiyyatın müxtəlif sahələrində çalışan qadın iş qüvvəsinin*** sosial-peşə xarakteristikasının təkmilləşdirilməsi qadın əmək potensialından istifadənin optimallaşdırılmasının mühüm ilkin şərtlərindən biridir.

İqtisadiyyatın köklü surətdə dəyişdirilməsi, istehsalda mexanikləşdirmə və avtomatlaşdırma vasitələrinin tətbiqi əməyin dəyişməsi qanununun fəaliyyətinə geniş yol açan təkcə müasir texnikanı idarə edən kadrları deyil, həm də yüksək sosial-iqtisadi mobilliyi olan ixtisaslı kadrların formalaşdırılması vəzifəsini irəli sürür. Bu isə, öz növbəsində, əmək bazarında rəqabət mübarizəsi aparmaq üçün zəmin yaradır. Rəqabət mübarizəsi texnikanın sürətlə təkmilləşdirilməsini və texnolgiyanın yeniləşdirilib dəyişdirilməsini tələb edir. Bu isə qadın iş qüvvəsinin bütün əmək fəaliyyəti dövründə normal qaydada işləməsinə imkan verən məqsədli sistem yaratmaqla fasiləsiz təhsilin reallaşmasına şərait yaradar. Bizim fikrimizcə, qadınların ümumtəhsil və

peşə-ixtisas səviyyəsinin yüksəldilməsi zərurəti onda özünü əks etdirir ki, o, qadınların əmək fəaliyyətinin yüksəlməsinin mühüm amillərindən birini təşkil edir. Çünki ***təhsil almaqla, qadınlar bir tərəfdən*** öz biliklərini ictimai əmək dairəsində reallaşdırmaq imkanı əldə edir, ***digər tərəfdən isə əməkdə*** iştirak etməklə özlərinin təhsil səviyyələrinin yüksəldilməsi, peşə və ixtisaslarının təkmilləşdirilməsi üçün stimul əldə edirlər. Ancaq tədqiqat materiallarının təhlili göstərir ki, hələ də iqtisadiyyatın bir çox sahələrində yüksək ixtisaslı işlərdə işləyənlər arasında qadınların xüsusi çəkisi kişilərə nisbətən xeyli aşağıdır. ***Təsadüfi deyildir ki, 4—15 sentyabr 1995-ci ildə Çinin Pekin şəhərində keçirilmiş «Qadınların vəziyyəti üzrə IV Ümumdünya Konfransında» qadın və iqtisadiyyat məsələsinə xüsusi diqqət verilmiş, onların məşğulluğu və işsizliyi ilə bağlı problemlərə dair bir sıra konseptual tədbirlər işlənib hazırlanmışdır.*** Orada bir daha qeyd olunmuşdur ki, cəmiyyətdə yaranan iqtisadi strukturlarda iştirak etmək baxımından qadın və kişilər arasında mühüm fərqlər mövcuddur və müxtəlif dövrlərdə bu fərqlər bir-birindən fərqli olmuşdu.

Dünyanın bir çox regionlarında iqtisadiyyata dair qanunların qəbul edilməsi prosesində, məsələn, maaş tənzimləyən maliyyə, büdcə, ticarət, həmçinin vergi həcminin müəyyən edilməsi və iqtisadi siyasətin başqa sistemlərinin tədqiqində qadınlar praktik olaraq iştirak etmir və ya da onların iştirakı olduqca azdır. Nəzərə almaq lazımdır ki, kişi və qadınlar öz qərarlarını məhz bu siyasət çərçivəsində, o cümlədən öz vaxtlarında ödənən və ödənməyən əmək arasında necə bölüşdürmək də daxil olmaqla, qəbul edərək, bu iqtisadi struktur və siyasətin faktiki formalaşması, onların iqtisadi ehtiyaclarından istifadə etmək imkanlarına, habelə fərdi, ailə və cəmiyyət səviyyəsində iqtisadi imkanlarda olan fərqə, onların bərabərlik dərəcəsinə təsir edirlər.

Keçmiş SSRİ məkanının başqa regionlarında olduğu kimi, Azərbaycanda da ***son onillikdə mütəşəkkil və qeyri-mütəşəkkil əmək bazarında*** məşğul olan qadınların sayı xeyli çoxalmışdır. Bu, onların öz hüquqlarını daha dərindən dərk edərək və ona riayət olunmasını tələb edərək, getdikcə daha

çox öz istəklərinə müvafiq olan iş əldə etmələri nəticəsində mümkün olmuşdur. Onlar eyni zamanda, iş tapmaq və işdə irəli çəkilməyə, habelə maaşlarının artırılması və iş şəraitinin yaxşılaşdırılmasına da müvəffəq olurlar. Buna baxmayaraq, muzdlu əməyin xarakterinin dəyişilməsinə və bəzi hallarda peşəkar və ixtisaslı qadınlar tərəfindən iş yerlərinin itirilməsinə gətirib çıxaran hallar onunla nəticələnir ki, iqtisadi vəziyyət və yenidənqurma prosesi qadınlara öz mənfi təsirini göstərir. **Bundan əlavə,** qadınların çoxu başqa imkanlarının olmaması üzündən özlərinə qeyri-formal sektorda məşğulluq tapırlar. Qadınların mənafeləri və əsasən də Gender problemləri hələ ki, öz həllini lazımi səviyyədə tapmadığından onların əmək və yaşayış şəraitləri struktur yenidənqurma, məşğulluq, miqrasiya və sairə üzrə proqramlarda, istiqraz və əvəzsiz subsidiyaların məsələləri müəyyən edilərkən çoxsahəli idarələr mütləq bunları nəzərə almalıdırlar.

Təhsil və hazırlıq səviyyəsi, muzdluluq və mükafat, işdə irəli çəkilmək və fəaliyyət sahələrində ayrıseçkilik siyasəti və habelə ağır iş şəraiti, ailə vəzifələrinin kifayət qədər ədalətli bölünməməsi, uşaqlara qulluq etmək xidmətlərinin olmaması və ya çatışmaması əvvəllərdə olduğu kimi, yenə də qadınların imkanlarını məşğulluq və iqtisadi fəaliyyət baxımından məhdudlaşdırır.

Bu yuxarıda deyilənlərdən əlavə, cəmiyyətdə qadınlar barədə mövcud olan təsəvvürü olanların iqtisadi siyasətin tədqiqi prosesində iştirakına və bəzi regionlarda qızların təhsil almaq imkanlarına mane olur. Lakin bütün bunlara baxmayaraq, iş qüvvəsi tərkibində qadınların sayı və xüsusi çəkisi ləng də olsa çoxalmaqdadır; cəmiyyətdə və ev təsərrüfatlarında haqqı ödənilməyən işlərdə vəzifələrin münasib şəkildə azalmasına baxmayaraq, qadınlar demək olar ki, hər yerdə ev təsərrüfatlarından başqa evdənkənar əməklə də məşğuldurlar. Bəzi regionlarda qadınların sahibkarlıq sahəsində fəallığı və xüsusilə qeyri-mütəşəkkil sektorda onların müstəqil fəaliyyətlərinin genişləndirilməsi də müşahidə olunur.

Hazırda bir çox ölkələrdə olduğu kimi, respublikamızda da qadınlar qeyri-standart iş növləri sahəsində, məsələn,

mütərəqqi iş, əvəzçilik üzrə natamam iş günü, kontaktlara əsaslanan işlərdə və ev işlərində çalışanların xeyli hissəsini təşkil edirlər.

İşləyən məcburi köçkün və qaçqın qadınlar da ölkənin iş qüvvəsinin bir hissəsi olaraq respublikamızın iqtisadiyyatında fəal iştirak edirlər. Ancaq məcburi köçkün və qaçqın qadınlar arasında köçkün olmayan qadınlara və köçkün kişilərə nisbətən işsizlik səviyyəsi daha yüksəkdir. Hazırda respublikamızda mövcud olan əmək qabiliyyətli qaçqın və köçkünlərin 45,3 faizini kişilər, 54,7 faizini qadınlar təşkil edirlər. Həmin əmək qabiliyyətli kişilərin 35,5 faizi iş yerləri ilə təmin olunduğu halda, qadınların cəmi 24,6 faizi iş yerləri ilə təmin edilmişlər. Onların işlə təminat səviyyəsinin belə aşağı olmasının əsas səbəbi **bir tərəfdən,** həmin qadınların əksəriyyətinin kənd təsərrüfatı işçisi olduğu halda, onların 60,4 faizi şəhər yerlərində məskunlaşdıqlarından müvafiq peşə və ixtisaslarına uyğun iş yerləri tapmamaları, **digər tərəfdən isə** onların bir qisminin (32,9 faizinin) heç bir peşə və ixtisasa malik olmamalarıdır. Onu da qeyd etmək lazımdır ki, qadınların bir çoxu iqtisadi struktur çərçivəsində müəyyən müvəffəqiyyətə nail olmalarına baxmayaraq, mövcud olan çətinliklər onların iqtisadi müstəqilliyinə özləri, həmçinin himayələrində olan başqa ailə üzvləri üçün sabit yaşayış vasitələri mənbələri ilə təmin etməyə mane olur. Halbuki qadınların nəinki haqqı ödənilən, habelə haqqı böyük həcmdə ödənilməyən əmək**ləri** hesabına ölkəmizin iqtisadi və ictimai tərəqqisi sürətlənir.

Qadınlar **bir tərəfdən**, müxtəlif malların istehsalında və ev təsərrüfatında, sənaye və kənd təsərrüfatında, ərzaq istehsalı və ailə müəssisələrinin fəaliyyəti çərçivəsində istehlakda iştirak edirlər. Ancaq bütün bunlar BMT-nin milli hesablar sistemində və əmək statistikasında beynəlxalq standartlara uyğun şəkildə lazımınca qiymətləndirilmir. **Digər tərəfdən** isə qadınlar ev və ictimaiyyətlə bağlı bir çox funksiyaları, o cümlədən uşaqlara və qocalara qulluq, ailə üçün yemək hazırlanması, ətraf mühitin müdafiəsi və könüllü surətdə əlverişsiz şəraitdə yaşayan şəxslərə kömək edilməsi kimi fəaliyyət növlərini də yerinə yetirirlər. Ancaq bu iş çox vaxt milli hesabatlarda nəzərə alınmır və

kəmiyyət baxımından dəyərləndirilmir. Buna görə də ictimaiyyət tərəfindən onların təsdiq olunması məhdudlaşır.

Müasir şəraitdə iqtisadiyyatın qloballaşdırılması nəticəsində qadınlar üçün məşğulluq baxımından yeni imkanların yaranmasına baxmayaraq, qadın və kişilərin bərabərsizliyinin güclənməsi meyli meydana çıxmışdır. Bir çox hallarda iş yerlərinin yaradılmasına dair strategiyalarda qadınların üstünlük təşkil etdiyi peşə və işlərə kifayət qədər diqqət yetirilmir. Burada onu da nəzərə almaq lazımdır ki, muzdlu əmək şəraitində işləyən qadınların çoxu imkanlarının tam açıqlanmasına imkan verməyən çətinliklərlə rastlaşırlar. Hazırda aşağı səviyyədə rəhbər vəzifələrdə çalışan qadınların sayı nisbətən çox olsa da, cəmiyyətdə qadınlar barədə mövcud olan ayrı-seçkilik xarakterli təsəvvürlər çox vaxt onların irəli çəkilməsinə mane olur. Bəzi hallarda cinsi əlamətə görə çətinliklər **bir tərəfdən qadınların** ləyaqətini alçaldır, digər tərəfdən isə onların qabiliyyətinə uyğun imkanların gerçəkləşməsinə imkan vermir. Bütün bunlar məşğulluq sahəsində tətbiq olunan strategiyaların Gender problemləri baxımından yenidən işlənməsini tələb edir. Qadın və kişilərin iqtisadi bərabərliyinin bərqərar olunması üçün, onların bilik və təcrübəsi, habelə gördüyü işlər cəmiyyətdə layiqincə qiymətləndirilib etiraf olunmalıdır.

Qadınların iqtisadi müstəqilliyi məsələlərinə baxılan zaman dövlət və hökumət qadınları, eyni zamanda, bu prosesin başqa iştirakçıları Gender problemlərini nəzərə alan siyasətin bütün strategiya və proqramlarda tətbiq edilməsinə hər cür köməklik göstərməli, hələ qərarlar qəbul olunmamış, onların həm kişi və həm də qadınların mənafeyi baxımından nəticələri təhlil edib qiymətləndirməlidirlər.

Qadınların mədəni–texniki səviyyəsinin yüksəldilməsi, onların təhsil səviyyəsi və ixtisas dərəcələrinin artırılması və təhsildə bərabərliyin təmin edilməsi respublikamızda bir sıra tədbirlər sisteminin işlənib hazırlanması və həyata keçirilməsini tələb edir. Bunlara aşağıdakılar daxildir:

- qızların gələcəkdə peşə imkanlarının genişləndirilməsi üçün Gender xüsusiyyətlərini nəzərə alan və onlara qarşı ayrıseçkiliyi ləğv edən məqsədli proqramların işlənib hazırlanması;

➢ ümumi orta, peşə-texniki, orta ixtisas və ali təhsil məktəblərində təhsil alan oğlan və qızların nisbətinin mütənasibliyi probleminin həll olunması;

➢ təhsil və peşə hazırlığı almaq üçün bərabər imkanların təmini məqsədi ilə Gender məsələlərini nəzərə alan təhsil sisteminin formalaşdırılması;

➢ dövlətin, imkanlı adamların və iş adamlarının köməkliyi ilə, habelə lazımi həcmdə büdcə ehtiyatlarınının ayrılması yolu ilə qızların təhsil ocaqlarına qəbul göstəricilərinin yüksəldilməsi və onların təhsil üzrə xərclərinin mümkün qədər azaldılması;

➢ qadın və kişilərin sosial, iqtisadi və siyasi inkişaf proseslərində bərabər iştirakını təmin etmək məqsədilə təhsilin keyfiyyətinin yaxşılaşdırılması;

➢ qadınların işlə təminatını, sosial tələbatlarını ödəmək üçün onların təhsil, peşə hazırlığı və ixtisaslarının yüksəldilməsinin təkmilləşdirilməsi strategiyasının tədqiqi və həyata keçirilməsi;

➢ qaçqın və köçkün qadınların məşğulluq məsələlərinin həll edilməsi məqsədilə onların bütün səviyyələrdə keyfiyyətli təhsil və peşə hazırlığının təmin olunması;

➢ qız və qadınların həyatı üçün lazımi bilik və vərdişlərə fasiləsiz yiyələnmək məqsədilə onların genişmiqyaslı təhsil və peşə hazırlığı proqramları ilə təmin olunması;

➢ qadınlara məktəb təhsilini başa vurmaq üçün şərait yaradılması məqsədilə uşaqlara baxmaq işində köməklik göstərilməsi və s.

Qadın iş qüvvəsinin keyfiyyət tərkibinin təkmilləşdirilməsi məqsədi ilə:

a) yeni qadın iş qüvvəsinin peşə hazırlığının artırılmasına yönəldilmiş ümumi və peşə təhsili sisteminin inkişaf etdirilməsi;

b) istehsaldaxili, habelə iş yerlərində qadınlara təhsil verilməsi sisteminin bərpası və inkişafı, onların öz-özünə təhsil almalarına şərait yaradılması;

c) qadın iş qüvvəsinin təkrar istehsalı, saxlanması və təkmilləşdirilməsinə yönəldilmiş arasıkəsilməz təhsil sisteminin inkişaf etdirilməsi;

ç) ixtisar olunmaq təhlükəsi qarşısında qalmış, işsiz vətəndaşların və məşğuliyyəti olmayan qadın əhali kütləsinin hazırlanması üzrə məşğulluq xidməti tərəfindən yerinə yetirilən xidmətlərin inkişaf etdirilməsi;

g) işsiz və məşğuliyyəti olmayan, habelə iş profilini dəyişmək istəyən qadın vətəndaşlarımız üçün peşə yönümü sisteminin inkişaf etdirilməsi və təkmilləşdirilməsi;

e) qadınların peşə hazırlığını iqtisadiyyatın tələbi və əmək bazarında işçi qadınların rəqabət qabiliyyətinin yüksəldilməsini təmin edə bilən istiqamətlərə yönəldilməsi və s.

Ümumiyyətlə götürüldükdə, respublikanın qadın əmək bazarındakı vəziyyətinin təhlil edilib qiymətləndirilməsi aşağıdakıları aşkara çıxarmağa imkan vermişdir:

- hazırda qadın iş qüvvəsinə olan tələblə təklif arasında uyğunsuzluq vardır;
- əmək bazarının formalaşmasının əsas mənbəyini uşağı olan orta və böyük yaşlı qadınlar təşkil edirlər;
- qadınlar arasında işsizlik respublikanın bütün əraziləri, xüsusilə orta, kiçik şəhərləri və kənd yerləri üçün xarakterikdir;
- işsiz qadınlar arasında xüsusi ixtisas və peşə təhsili olmayanlar, habelə keçmiş kolxozçu və qulluqçular xeyli yer tuturlar.

Bu yuxarıda deyilənləri nəzərə alaraq, qadın əmək potensialının səmərəli məşğulluğunun təmin edilməsi aşağıdakı tədbirlərin həyata keçirilməsini tələb edir:

- yeni təsərrüfat formalarının inkşafı, əməyin və istehsalın səmərəli təşkili və onların ənənəvi — dövlət formaları ilə əlaqələndirilməsi;
- elmtutumlu və əmək tutumlu sahələrin inkişafı hesabına iqtisadiyyatın, o cümlədən sənayenin strukturunun təkmilləşdirilməsi;
- cəmiyyətdə qadınların demoqrafik və sosial – iqtisadi rolunun daha səmərəli əlaqələndirilməsi üçün şərait yaradılması;
- istehsalda əmək şəraitinin yaxşılaşdırılması;
- çevik əmək rejiminin hərtərəfli inkişaf etdirilməsi;

➢ qadınlar üçün iş yerlərinin kvotalaşdırılması;

➢ gənc qadınlar arasında peşəyönümü işinin yaxşılaşdırılması;

➢ dövlətsizləşdirilmiş və özəlləşdirilmiş müəssisələrdən azad olmuş qadınların yenidən hazırlanması miqyasının genişləndirilməsi;

➢ sənaye sahələrinin və xidmət dairəsinin respublika ərazisində inkişaf etdirilib yerləşdirilməsinin təkmilləşdirilməsi;

➢ iş yerlərinin qadınların yaşayış yerlərinə yaxınlaşdırılması;

➢ qadın iş qüvvəsinin keyfiyyətinin istehsalda və başqa tip tədris müəssisələrində hazırlıq və yenidən hazırlıq formaları vasitəsilə yüksəldilməsi;

✓ ***«Əhalinin məşğulluğu» üzrə regional proqramların hazırlanması və həyata keçirilməsi vasitəsilə əməyin idarəedilməsinin bazar mexanizminə təsirinin yaxşılaşdırılması;***

✓ əmək birjalarının və məşğulluq xidməti idarələrinin işinin təkmilləşdirilməsi və s.

Bu deyilənlərlə yanaşı, respublikamızda qadın əmək potensialının səmərəli məşğulluğunun təmin edilməsi məqsədilə respublikamızda aşağıdakı üç istiqamətdə dövlət siyasəti strategiyası hazırlanıb həyata keçirilməlidir:

Birinci, ictimai istehsalda məşğul olmaq istəyən qadınların əməyinin tətbiqi üçün zəruri olan iş yerlərinin sayının artırılması və keyfiyyətinin yüksəldilməsinə təsir göstərə bilən şəraitin yaradılması;

İkincisi, ev, ailə və uşaqların onlar üçün hər şey demək olduğu qadınlara dövlət tərəfindən hər cür şəraitin yaradılması;

Üçüncüsü, qadın məşğulluğu sahəsində dövlət siyasətinin işlənib hazılanması, onların əmək və ailə vəzifələrinin harmonik surətdə əlaqələndirilməsinin təmin edilməsi, qadınlara hər cür köməklik göstərilməsi üçün şərait yaradılması və s.

Bütün bu yuxarıda deyilən tədbirlərin həyata keçirilməsi respublikamızda qadın əmək potensialından səmərəli istifadə edilməsinə, onların şəxsiyyətinin hərtərəfli inkişafına, məşğulluq sahəsində qadın və kişi bərabərliyinin təmin edilməsinə və ölkə əhalisininin təkrar istehsalı prosesinə müsbət təsir göstərəcəkdir.

6. 4. ƏHALİSAKİNLİYİ VƏ DEMOQRAFİYA SAHƏSİNDƏ DÖVLƏT SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

Əhalisakinliyi siyasəti dedikdə – cəmiyyətin başlıca məhsuldar qüvvələrini və ictimai istehsalın subyektlərini təşkil edən, əhalinin kəmiyyət və keyfiyyətcə istehsalı və təkrar istehsalının nizamlanmasına yönəldilmiş kompleks sosial-iqtisadi, hüquqi, siyasi, təşkilati və təbliğati tədbirlər sistemi başa düşülür. Başqa sözlə, onun fəaliyyət dairəsi insanların əmək və həyat şəraitindən ibarətdir. Belə olan halda başlıca məhsuldar qüvvələr - ya «**sadə iş qüvvəsi**» kimi və yaxud da «**hərtərəfli inkişaf etmiş şəxsiyyət**» kimi təkrar istehsal edilməlidir. Bu cür təkrar istehsalı təmin edən şəraitin əhatə dairəsi və deməli, həm də əhalisakinliyi siyasətinin fəaliyyət dairəsi müvafiq dəyişikliklərlə müşayiət olunur. Müasir dövrün tələbi ondan ibarətdir ki, başlıca məhsuldar qüvvələr «**Sadə iş qüvvəsinin məcmusu**» kimi deyil, «**Hərtərəfli inkişaf etmiş şəxsiyyət**» kimi istehsal edilsin. Buna müvafiq olaraq, «**Əhalisakinliyi**» **anlayışının** miqyası da əvvəllər başqa dairələrə aid edilmiş ünsürlərin buraya daxil edilməsi hesabına daha da genişlənib artmışdır.

Əhalisakinliyi siyasətinin çox qədim tarixi var və ona tarixilik baxımından yanaşılması obyektiv zərurətdir. Hələ vaxtı ilə K.Marks özünün məhşur «Kapital» əsərində mövcud olan mücərrəd əhali qanununun olduğunu inkar edərək göstərmişdir ki: «**Hər bir ayrıca tarixi istehsal üsulunun həqiqətdə özünəməxsus ayrıca tarixi xarakterə malik əhali qanunları vardır**»[389] V.İ.Lenin K. Marksın fikrini inkişaf etdirərək göstərmişdir ki: «***İnsanın törəyib artması bilavasitə müxtəlif orqanizmlərin (formasiyanın- Ş.M.) quruluşundan asılıdır, buna görə də əhali qanununu belə bir orqanizm üçün ayrılıqda öyrənmək lazımdır; bunu «mücərrəd» şəkildə ictimai quruluşun tarixcə müxtəlif formalarından asılı etmədən öyrənmək olmaz***»[390]. O, daha sonra yazmışdır ki: «**Əhali məsələsini ictimai-tarixi zəmin üzərinə**

---

[389] *K.Marks*. Kapital. 1-ci cild. s. 634.
[390] *V.İ.Lenin*. Əsərlərinin tam külliyyatı. 1-ci cild, Bakı, 1974, s. 499-500.

gətirmək nə deməkdir. O deməkdir ki, **hər bir tarixi təsərrüfat sistemlərinin əhali qanununu ayrıca tədqiq etmək və onun mövcud sistem ilə əlaqəsi və tənasübünü öyrənmək lazımdır»,**[391] çünki cəmiyyətin bazisi əhalinin inkişaf xarakterinə təsir edirsə, onun üst qurumu bu cəmiyyət üçün özünəməxsus funksiyalar yerinə yetirir. *Kapitalizm cəmiyyətinədək olan bütün formasiyalarda istehsalın inkişafı ekstensiv xarakter daşıdığı kimi, əhali artımı da başlıca olaraq onların sayca çoxalması ilə müşayiət olunmuşdu.* Bu proses sadə kapitalist əmək kooperasiyası və manufaktura dövrü üçün də xarakterik olmuşdu. Sənaye çevrilişi isə təkcə fəhlələrin sayının çoxalmasını deyil, həm də onların yeni istehsal vərdişlərinə yiyələnməsini tələb edirdi. ***Bu isə o deməkdir ki, hər bir cəmiyyətin başlıca məhsuldar qüvvələrinin mühüm tərkib hissəsi olan əmək ehtiyatlarının formalaşmasının təbii əsasını təşkil edən əhalinin inkişafına bu cəmiyyətin özünəməxsus tələbi var və bu tələb həmin cəmiyyət üçün xarakterik olan əhalinin inkişaf qanunauyğunluqlarında öz əksini tapır.***

Müasir inkişaf mərhələsində ölkəmizdə ***əhalisakinliyi siyasəti insanların yaşayış və əmək şəraitinin yaxşılaşdırılmasına, daha doğrusu, onların sağlamlığının möhkəmləndirilməsinə, təhsil və mədəniyyət səviyyəsinin artırılmasına, işçilərin peşə və ixtisas səviyyəsinin yüksəldilməsinə, ana və uşaqların, habelə yaşlı nəsilin mühafizəsinə və ailənin möhkəmləndirilməsinə hərtərəfli qayğı göstərməsinə yönəldilmişdir.***

Əhalisakinliyi siyasəti aşağıdakı ünsürləri əhatə edir:

➢ ***Əmək şəraitinə təsir etmək*** (əməkqabiliyyətli yaş həddinin hüdudlarının, əhalinin əməkqabiliyyətli hissəsinin məşğulluq miqyası, iş həftəsi və iş gününün müddətinin müəyyən edilməsi; işçilərin ixtisas, peşə hazırlığı və peşəyönümünə qayğı göstərilməsi və s.);

➢ ***Bütün sosial-demoqrafik qruplardan olan əhalinin həyat şəraitinin dəyişdirilməsi*** (real əmək haqqının və ya gəlir səviyyəsinin artırılması; əməyin mühafizəsi; mənzil şəraitinin yaxşılaşdırılması; məişət xidmətlərindən, mədəniyyət nailiyyət-

---

[391] *V.İ.Lenin.* Əsərlərinin tam külliyyatı. 1-ci cild, Bakı, 1974, s.182.

lərindən və tibbi xidmətlərdən istifadə etmək imkanlarının yaradılması; asudə vaxtın çoxaldılması və s.);

➢ **Əhalinin təkrar istehsalına təsir etmək** (sosial çeviklik, nəslin təbii surətdə yeniləşməsi, əhalinin miqrasiya fəallığı və s.).

Əhalisakinliyi siyasətinin ən mühüm tərkib hissəsini, daha doğrusu, onun ürəyini ***demoqrafiya siyasəti təşkil edir. Demoqrafiya siyasəti dedikdə, əhalinin təbii təkrar istehsalı prosesinin ahəngdar surətdə həyata keçirilməsinin təmin edilməsinə yönəldilmiş, iqtisadi, sosial, hüquqi və təbliği xarakter daşıyan kompleks dövlət tədbirləri sistemi başa düşülür.***

Demoqrafik siyasətin başlıca məqsədi - demoqrafik proseslərə təsir edən ən mühüm amilləri nəzərə almaqla, bütünlükdə götürüldükdə, cəmiyyətin və onun hər bir üzvünün mənafeyi baxımından əhalinin normal təkrar istehsal prosesini həyata keçirməyi təmin etməkdən ibarətdir.

Demoqrafik siyasət tədbirlərinin başlıca istiqaməti demoqrafik proseslərin (doğum, ölüm, təbii artım, ailə qurulması və s.) idarə edilməsinə yönəldiyindən, **bu tədbirlər sistemi həmişə kompleks xarakter daşımalıdır**. Çünki bu proseslərə təkcə sosial-iqtisadi amillər deyil, həm də bütün **başqa ictimai münasibətlər sistemi təsir göstərir.**

Demoqrafik siyasət tədbirləri aşağıdakı üç ünsürdən ibarətdir:

1) Sosial çeviklik - əhalinin bir sosial qrupdan digərinə keçməsinə, onların sosial hərəkətinə təsir edən tədbirlər;

2) Nəslin yeniləşməsi xarakteristikasının təbii surətdə dəyişilməsinə, yəni doğum, ölüm səviyyəsi və onlarla bağlı proseslərə təsir edən tədbirlər;

3) Əhalinin miqrasiyası, onların bir ərazidən digərinə köçməsini nizamlamağa yönəldilən tədbirlər.

Bu vəzifələrin yerinə yetirilməsi üçün hazırlanmalı və həyata keçirilməli olan tədbirlər sistemi ilk növbədə ailənin qurulması və möhkəmləndirilməsinə yönəldilməlidir. Əvvəla, ona görə ki, doğum, ölüm və s. bu kimi demoqrafik dəyişikliklər və meyllər bilavasitə ailədə baş verir və sosial amillərin həmin proseslərə təsiri də məhz onun vasitəsi ilə həyata keçirilir. **İkincisi**, ailə əhalinin təkrar istehsalının özəyi olub, iqtisadi,

mədəni, uşaq doğulub tərbiyə edilməsi və s. kimi bir sıra funksiyaları yerinə yetirməklə, cəmiyyətin sosial-iqtisadi tərəqqisində mühüm rol oynayır.

Böyüməkdə olan nəslin sağlamlığının möhkəmləndirilməsində və tərbiyəsində, cəmiyyətin iqtisadi və sosial tərəqqisinin təmin edilməsində, demoqrafik proseslərin nizamlanmasında ailə getdikcə daha mühüm rol oynayır. İnsanın xarakteri, onun əməyə, ən mühüm mənəvi, ideya və mədəniyyət sərvətlərinə (dəyərlərinə) münasibətlərinin əsasları da ailədə formalaşır.

Sivilizasiyalı cəmiyyət möhkəm, mənəvi və əxlaqi cəhətdən sağlam ailələr olmasını istəyir. Bunu əsas götürərək, hər bir normal dövlət ailəni möhkəmləndirmək, sosial funksiyaların yerinə yetirilməsində, uşaqların tərbiyəsində ona yardım etmək və köməklik göstərmək, çoxuşaqlı və gənc ailələrin maddi, mənzil və məişət şəraitinin yaxşılaşdırılmasına yönəldilən tədbirlər sistemi işləyib hazırlamağa və həyata keçirməyə borcludur.

Hazırda ölkəmizdə baş verən demoqrafik çətinlikləri nəzərə almaqla, Azərbaycan dövləti elə demoqrafik tədbirlər sistemi işləyib hazırlamalı və həyata keçirməlidir ki, bu doğum səviyyəsinin sürətlə aşağı düşməsi və ölüm səviyyəsinin artmasının qarşısını ala bilsin və gənc ailələrin qurulması və onun möhkəmləndirilməsinə təminat versin. Bu tədbirlər sistemi, ilk növbədə, cəmiyyətdə uşaqlı, xüsusilə üç və daha çox uşaqlı ailələrin nüfuzunun qaldırılmasına, onlara hər cür lazımi şərait yaradılmasına yönəldilməlidir.

Nəzərə almaq lazımdır ki, həyata keçirilən sosial-iqtisadi tədbirlər demoqrafik hadisələrin inkişafına birdən-birə və bilavasitə deyil, uzun bir tarixi dövr ərzində və hər bir ailədə doğulan uşaqların sayına, onların doğulma müddətlərinə verilən üstünlük, şəxsi və ictimai sağlamlıq dəyərinin dərk edilməsi, ailənin möhkəmliyi və yeni yaşayış yerlərinin seçilməsi və s. bu kimi problemlərlə bağlı olan münasibətlərin dəyişməsi vasitəsilə təsir göstərir. Buna ***görə də demoqrafik proseslərin nizama salınması məsələlərinin həllinə təkcə müasir inkişafın tələbləri baxımından deyil, əksinə daha çox gələcək inkişafın***

məqsədləri baxımından yanaşmaq lazımdır. Eyni zamanda, hər hansı demoqrafik prosesin nizamlanması ilə bağlı olan tədbirlər sistemi işlənib hazırlanarkən ona həm konkret və həm də bütünlükdə sosial-iqtisadi hadisələr sistemində baxmaq lazımdır. Bu cəhətdən əhalinin təbii təkrar istehsalı prosesinin əsasını təşkil edən doğumun və ailədəki uşaqların sayının nizamlanması ilə bağlı olan tədbirlər sistemi işlənib hazırlanarkən ona, ***hər şeydən əvvəl, həmin prosesin müasir dövrdə və gələcəkdə bütünlükdə ölkə iqtisadiyyatının inkişafına və sosial hadisələrin gedişinə necə təsir göstərəcəyi öyrənilib, qiymətləndirməklə yanaşılmalıdır.*** Çünki əhalinin doğum səviyyəsinin artıb-azalması ayrı-ayrılıqda həm cari, həm də gələcək dövr baxımından bir sıra mənfi və müsbət sosial-iqtisadi və demoqrafik nəticələrə səbəb olur. Belə ki, doğumun azalması ***bir tərəfdən,*** gələcəkdə cəmiyyətin başlıca məhsuldar qüvvəsi olan əmək potensialının azalmasına, xalq təsərrüfatı sahələrinin iş qüvvəsi ilə təmin edilməsinin məhdudlaşmasına səbəb olursa, ***digər tərəfdən də*** ailədə uşaqların sayının azalması qadınların ictimai istehsaldakı məşğulluq səviyyəsinin, peşə-ixtisas dərəcəsinin, mədəniyyət səviyyəsinin yüksəlməsinə şərait yaradır. Buna görə də ***doğum səviyyəsinin nizamlanması ilə əlaqədar olaraq elə tədbirlər sistemi işlənib hazırlanmalı və həyta keçirilməlidir ki, bu əhalinin artımının optimal səviyyədə, yəni cəmiyytə və ailəyə lazım olan sayda fiziki və zehni cəhətdən hərtərəfli inkişaf etmiş əhali artımını təmin etməyə imkan verə bilsin.***

Bütün bunlar fəal demoqrafik siyasət tədbirlərinin hazırlanıb həyata keçirilməsini tələb edir. ***Bu tədbirlərin həyata keçirilməsi metodlarını şərti olaraq üç qrupa bölmək olar***:

- **İqtisadi** (uşaqların müəyyən sayına uyğun olaraq, analara verilən müavinətlər, ailənin həcmindən asılı olaraq, vergilərin diferensiallaşdırılması və s.); **İqtisadi vasitələr təkcə köməklik deyil, başqa vasitələrlə də həyata** keçirilir. Yarımgün və ya yarımiş həftəsində işləmək, doğumqabağı və sonra məzuniyyət verilməsi (1,5 il pullu, 3 ilə qədər öz hesabına məzuniyyət), uşaq paltarlarının ucuz satılması, müəssisələrin fondundan ev almaq və s. üçün kredit verilməsi xidmət sahələrinin inkişafı və s.

Doğum səviyyəsinə təsir göstərən kompleks iqtisadi tədbirlər sistemindən onun stimullaşdırılmasına yönəldilən tədbirləri ayırmaq lazımdır. Çünki bəzən bu tədbirlərlə ailəyə göstərilən yardım qarışıq salınır. Ailədə uşaqların sayından asılı olaraq verilən pul müavinətləri, çoxuşaqlı analara verilən müavinətlərlə eyniləşdirilir. Əgər ailəyə verilən hər birinci, ikinci və üçüncü uşaqlar üçün müavinətlər doğumun stimullaşdırılmasına yönəlirsə, çoxuşaqlı analara və aztəminatlı ailələrə verilən müavinətlər onlara göstərilən iqtisadi köməklikdir. Çoxuşaqlı ailələrə birbaşa pul müavinəti verilməsi keçmiş SSRİ-də hələ 1936-cı ildə irəli sürülmüş və 1944-cü ildən başlayaraq həyata keçirilmişdir. Həmin hökumət qərarına əsasən, müavinət hər ay dörd və ondan çox uşaqlar üçün verilirdi. Həm də uşaqların sayı artdıqca, müavinətlərin həcmi də çoxaldılırdı. Hazırda hər ailədə adambaşına aylıq gəliri 16500 manatdan az olan aztəminatlı ailələrə müavinət sistemi müəyyn edilmişdir.

- **İnzibati-hüquqi** (doğumun azaldılması və ya məhdudlaşdırılması üçün istehsal edilən və istifadə olunan vasitələrə, nikah bağlamaq yaşının minimum həddinin müəyyən edilməsinə və sairə dair müxtəlif qanunvericilik aktları, tibb müəssisələrində tam və ayrı-ayrı hallarda abortun qadağan edilməsi, ailə və kəbin haqqında qanunlarda edilən dəyişikliklər; işə qəbul ediləndə və işdən çıxarılanda hamilə qadınlara edilən güzəştlər, təqaüd verilməsinin müəyyən edilməsi, ezamiyyətə göndərilməsi və s. sahədəki hüquqi aktlar).

- **Sosial-psixoloji və tərbiyəvi** (ailələrin çoxuşaqlı olmasının müxtəlif vasitələrlə (mətbuat, radio, televiziya) təbliğ edilməsi; uşaqların tərbiyəsi sahəsində atalıq və analıq şərəfinin yüksəldilməsi; demoqrafik proseslərin nizamlanması məqsədilə siyasi, hüquqi, etik, fəlsəfi baxışlardan, habelə cəmiyyətdə mövcud olan başqa əxlaqi-tərbiyəvi metodlardan istifadə edilməsi və s.).

Yeri gəlmişkən, onu da qeyd etmək lazımdır ki, hələ lap qədim zamanlarda belə ölkədə əhalinin sayının nizamlanmasına dair fikirlər mövcud olmuş və ona xüsusi diqqət verilmişdir. Qədim yunan mütəfəkkirləri Platon (e.ə. təxminən 427-347-ci illərdə yaşamışdır) və Aristotel (e. ə. 384-322-ci illərdə yaşamışdır) ölkə vətəndaşlarının sayının məhdud çərçivədə saxlanıl-

ması ideyası ilə çıxış edir və hətta konkret rəqəmlər də göstərirdilər. Platon yazırdı ki, o vaxt üçün Yunanıstanın əhalisinin sayının 5040 nəfərdən çox olmasına yol vermək lazım deyil. O, «Dövlətlə» dialoqda belə bir təklif irəli sürmüşdür ki, hökmdarlar nikah münasibətlərini nizamlamalı və kişilərdən tələb etməlidirlər ki, onların yalnız 30 yaşla 55 yaş arasında olduqları vaxt uşaqları ola bilər: hökmdarlar əvvəlcədən nikahların sayını müəyyənləşdirməli və elə etməlidirlər ki, ölkə vətəndaşlarının sayı çox az olsun və yeni doğulan uşaqlar yalnız müharibədə, xəstəlik nəticəsində və gözlənilməz hadisələrdə ölənləri əvəz etsinlər. Çünki bu cür tədbirlərin həyata keçirilməsi əhalinin istənilən saydan çox və az olmasına imkan verməz. Eybəcər, qeyri-qanuni (bic) doğulan uşaqlar, həddən artıq yaşlı valideynlərin uşaqları isə öldürülməli və respublika əhalisinin onların hesabına çoxalmasına yol verilməməlidir[392].

Aristotel quldarlıq münasibətlərinin ideoloqu idi və o da Platon kimi belə hesab edirdi ki, əhalinin sayı nizamlanmalı və elə etmək lazımdır ki, onun sayı həddən çox olmasın. Aristotelin fikrincə, ölkə əhalisinin sayı daim elə həcmdə saxlanmalıdır ki, onlar bir-birlərini tanısınlar və yerləşdikləri ərazidə çətinliklə yaşamasınlar. Platondan fərqli olaraq, Aristotel belə hesab edirdi ki, kişilər üçün nikah yaşı Platon dediyi kimi, **30 yaş deyil, 37 yaş olaraq müəyynləşdirilməlidir.**

Görünür, qədim dünyanın hökmdarları bu təkliflərdən nəticə çıxarmış və həmin dövrdə bir sıra ölkələrdə nikah bağlamaq yaşı qanunla müəyyənləşdirilməyə başlanmışdır. Məsələn, həmin dövrlərdə Sparta dövlətində nikah bağlamaq yaşı kişilər üçün **30, qadınlar üçünsə 20 yaş olaraq** müəyyənləşdirilmişdir[393].

Platon və Aristotel əhalinin mövcud sayının saxlanılması üçün ən möcüzəli təkliflər, hətta valideynlər tərəfindən yeni doğulan uşaqların öldürülməsi kimi sərsəm fikirlər belə irəli

---

[392] B a x: «Основы теории народонаселения». Изд-во «Высшая школа», Москва, 1973, s. 130.

[393] «Основы теории народонаселения». Изд-во «Высшая школа», Москва, 1973, s. 130.

sürürdülər. Aristotelin bu cür fikirlər irəli sürməsinin motivləri onun 2-ci «**Siyasət**» kitabında ətraflı izah edilmişdir. Onun belə fikirlər irəli sürməsinə səbəb guya yeni doğulan uşaqlara torpaq payının çatmayacağı və bu səbəbdən də onların kasıb olacaqları qorxusu ilə bağlı olmuşdur. Bu isə vətəndaşların aclıq və kasıbçılığının artmasına, bu da, öz növbəsində, cinayətkarlığın çoxalmasına səbəb olacaqdır. Bu sonuncu mülahizə antik aristokratiya üçün ən kəskin fikir idi.

Platon ölkənin əhalisinin sayının kəskin şəkildə artmasının qarşısını müstəmləkələrin təşkili ilə almağın tərəfdarı idisə, Aristotel vətəndaşların rahatlığının təmin edilməsini başlıca olaraq onların sayının nizamlanması yolu ilə həyata keçirmək arzusunda idi. Heç şübhə yoxdur ki, qədim yunan filosofları Platon, Aristotel və başqaları, habelə həmin dövrün dövlət rəhbərləri, o cümlədən Yunanıstan və Roma hökmdarları əhalinin sayının çoxalmasına qarşı mübarizə apararkən qul əhalini deyil, azad vətəndaşları nəzərdə tutmuşdular[394].

Əhalinin sayının nizamlanması müxtəlif cəmiyyətlərdə və onun ayrı-ayrı tarixi inkişaf mərhələlərində eyni olmamış və müxtəlif məqsədlərə söykənmişdir. Məhz buna görə də burada bizim məqsədimiz heç də onların hamısı barədə fikir söyləməkdən ibarət olmayıb, sadəcə olaraq keçmişə nəzər salaraq həmin problemin bu günkü dövrdə qoyuluşunun əsl məqsəd və mahiyyətinin nədən ibarət olduğunu açıqlamaqdır.

Tarixi inkişafın müxtəlif mərhələlrində mütəfəkkir insanların əhalinin artması ilə bağlı mövqe bildirmələrini belə bir maraqlı faktdan da aydın görmək olar ki, hələ XVII əsrdə yaşamış görkəmli rus dahisi M.V.Lomonosov da ölkə əhalisinin artımı ilə maraqlanmış və 1 noyabr 1761-ci ildə öz şəxsi dostu qraf İ.İ. Şuvalova «**Xalqın saxlanması və artırılmasına**» dair məktub göndərmişdir. Həmin məktubunda M.V.Lomonosov əhalisakinliyi siyasətindən, əhalinin artımına maneçilik törədən ayrı-ayrı amillərdən bəhs etmiş və bu amillərin zərərli

---

[394] B a x: «Основы теории народонаселения». Изд-во «Высшая школа», Москва, 1973, s. 130.

təsirlərinin aradan qaldırılmasına dair bir sıra maraqlı təkliflər irəli sürmüşdür. M.V.Lomonosovun məktubunda əhalinin artımına mənfi təsir edən amillər sırasında ərlə arvadın yaş fərqi məsələsi ilk plana çəkilmişdi. Onun fikrincə, ərlə-arvadın yaş nisbətlərinin qeyri-normal olması doğumun azalmasına səbəb olan amillərdən biridir. M.V.Lomonosovun fikrincə, **«arvad ərindən iki yaşdan artıq yaşda olmamalıdır, ər isə arvaddan 15 yaş böyük ola bilər. Çünki, bir qayda olaraq,** qadınlar 45 yaşınadək doğduqları halda, kişilər 60 yaşınadək məhsuldarlıq qabiliyyətinə malik olurlar. Yaxşı halda isə ər arvaddan 7-10 yaş böyük ola bilər.

M.V.Lomonosov həmin məktubunda məcburi nikahın, istək olmadan nikah bağlamağın da zərərli olmasından bəhs etmişdir. Nikahda olmağın mühüm əhəmiyyət kəsb etməsindən bəhs edərkən, M.V.Lomonosov 4-cü dəfə nikah bağlamağın qadağan edilməsini və müqəddəs gənclərin ikinci dəfə evlənməsinə icazə verilməsi fikrini irəli sürmüşdür. O, qeyd edilən məktubunda Rusiyada baş verən ölüm hallarına da toxunmuş və ölümün azaldılmasına dair çox dəyərli və konkret fikirlər söyləmişdir. İlk növbədə o, **«uşaqların boğulub öldürülməsindən»** bəhs etmiş və göstərmişdir ki, anaların öz qanunsuz uşaqlarını boğub öldürərək biyabırçılıqdan can qurtarmasına son qoymaq üçün **«qəbahətli, eyibli, biyabırçı»** uşaqları qəbul edən xüsusi evlər yaradılması zəruridir.

M.V.Lomonosov yaşadığı dövrdə Rusiyada uşaq ölümünün yüksək olduğunu qeyd etmiş və onun azaldılmasına dair müəyyən təkliflər də irəli sürmüşdür. O, bir sıra faktlara müraciət edərək yazmışdır ki, elə hallarla rastlaşırıq ki, ananın 10—15 uşağından heç biri diri qalmır. M.V.Lomonosov təkcə uşaq ölümünə deyil, yaşlı adamlar arasındakı ölümün vəziyyətinə də xüsusi diqqət yetirmiş və ölkədə həkimlərin sayının artırılmasına, tibbi kitabların hazırlanmasına qayğı göstərilməsinin vacibliyini vurğulamış, bədbəxt hadisələrə, adam öldürülməsinə və quldurluğa qarşı mübarizə aparılmasının zəruriliyindən bəhs etmşdir. O, məktubunun sonunda miqrasiya məsələsinə də toxunmuş və Rusiyanı tərk edən əhalini «**Canlı ölülər**» adlandırmışdır. ***O, təklif edirdi ki, xaricə gedən***

adamların geri qaytarılması barədə tədbir görülməlidir. Çünki Rusiya ***«özünün təhlükəsiz torpağında külli miqdarda insanları yerləşdirmək iqtidarındadır».***

Beləliklə, M. V. Lomonosov öz məktubunda əhalinin həm də mexaniki hərəkəti ilə bağlı çoxlu problemlərə toxunmuşdur. Ancaq onun məktubu cavabsız qalmışdı. Çünki həmin məktubun ünvanlandığı qraf Şuvalov az sonra tutduğu vəzifəsindən uzaqlaşdırılmış, hakimiyyət dairələrindəki təsir nüfuzunu itirmiş və məcburiyyət qarşısında qalaraq Rusiyadan çıxıb getmişdir.

Bu yuxarıda deyilənlərdən bir daha aydın olur ki, əhalisakinliyi problemi Rusiyada və eləcə də keçmiş SSRİ-nin başqa ölkələrində həmişə diqqət mərkəzində olmuş və indi də diqqət mərkəzində olaraq qalmaqdadır. 1897-ci ildə Rusiya İmperiyasında keçirilmiş Ümumi əhali siyahıya alınması buna gözəl misal ola bilər. Ancaq burada belə bir həqiqəti də demək lazımdır ki, XIX əsrdə ölkə əhalisinin sayının və onun tərkibinin öyrənilməsi ilə bağı 5 yoxlama (reviziya) keçirilmiş və onun axırıncısı 1865-ci ilə təsadüf etmişdir. Bundan sonra qərara alınmışdır ki, əhalinin siyahıya alınması sistem halda və ardıcıl olaraq həyata keçirilsin. Bu dövrdə Qərbi Avropa ölkələrinin əksəriyyətində artıq dövlət ölkə əhalisinin siyahıya alınmasını ardıcıl surətdə həyata keçirdirdi. Rusiyada isə əhalinin belə siyahıya alınmasının təşkili ilə məşhur coğrafiyaşünas və səyyah P.P.Semyonov məşğul olmağa başlamışdı. O, əhalinin siyahıya alınmasının metodik və təşkili məsələlərini dərindən öyrənmiş və 1872-ci ildə Peterburq (indiki Sank-Peterburq) şəhərində keçirilən Beynəlxalq Statistika Konqresində əhalinin siyahıya alınması haqqında xüsusi məruzə ilə çıxış etmişdir. Bu məruzə konqres iştirakçıları tərəfindən yüksək qiymətləndirilmiş və onun prinsipləri bir çox ölkələrin statistikləri tərəfindən qəbul olunaraq tətbiq edilmişdir.

Rusiyanın özündə isə əhalinin siyahıya alınmasının təşkili çox ləng getmiş və yalnız 1880-ci ildə «**Əhalinin siyahıya alınmasına dair layihə**» Dövlət Şurasına qoyulmuş və çox gec, yəni 15 il sonra təsdiq edilmişdir. Rusiya İmperiyasında bu səbəbdən də əhalinin Ümumi siyahıya alınması çox çətin bir

şəraitdə — «9» fevral (j. t. 28 yanvar) 1987-ci ildə tanınmış rus alimi və səyyahı P. P. Semyonov-Tyan-Şanskinin layihəsi üzrə baş tutmuşdu. 1919–cu ilin yanvar ayında isə Kiyev şəhərində ***Kiyev Demoqrafiya İnstitutu yaradılmış və ona rəhbərlik etmək görkəmli demoqraf-alim M.V.Ptuxa tərəfindən həyata keçirilmişdir. Bu institutun elmi əməkdaşları M.V.Ptuxanın rəhbərliyi ilə keçmiş SSRİ-nin əhalisakinliyi probleminin öyrənilməsinin elmi əsaslarını yaratmışlar. Bu sahədə digər bir mühüm mərkəz də S.A.Novoselskinin rəhbərliyi ilə Leninqrad şəhərində (indiki Sankt-Peterburq) fəaliyyət göstərməyə başlamışdı.*** 1929-1930-cu illərdə S.A.Novoselski və V.V.Payevskinin rəhbərliyi ilə 1926-cı ilin Ümumittifaq əhali siyahıya alınması materialları əsasında ölkənin ayrı-ayrı rayonları üçün doğum və yaşamaq ehtimalı cədvəli tərtib edilmişdir.

Keçmiş SSRİ-də bu sahədə nəzəri məsələlərin öyrənilməsində akademik S.Q.Sturmilinin əvəzsiz xidmətləri olmuşdur. B.S.Uryanis, A.Y.Boyarski, D.İ.Valentey, M.M.Allahverdiyev, T.V.Ryabuşkin, A.Q.Vişnevski, B.S.Bedniy, A.Y.Kvaşa və başqa alimlərin əsərlərində də əhalisakinliyi və demoqrafiya siyasəti ilə bağlı problemlər özünün dərin tədqiqini tapmış və bu günə kimi onların əsərlərində irəli sürülmüş ideyaların çoxu öz əhəmiyyətini itirməmişdir.

Əhali problemlərinin tədqiqi sahəsində 1968-ci ildə keçmiş SSRİ Elmlər Akademiyasının bu sətirlərin müəllifinin də daim üzvü olduğu «**Əhalisakinliyinin sosial-iqtisadi problemləri**» Elmi Şurasının çox böyük rolu olmuşdur. Həmin Elmi Şuranın fəaliyyəti nəticəsində 1970-ci ildən başlayaraq «**2000-ci ilədək olan dövrdə elmi-texniki tərəqqinin kompleks proqramı və onun sosial-iqtisadi nəticələrinin**» «**Demoqrafiya, əmək ehtiyatlarından səmərəli istifadə edilməsi**» üzrə kompleks proqramı işlənib hazırlanmış və o vaxtkı dövlət və hökumət orqanlarına təhvil verilmişdir. ***Bu proqramda bütünlükdə keçmiş SSRİ-də və onun ayrı-ayrı müttəfiq respublikalarında mövcud demoqrafik vəziyyət (əhalinin sağlamlığı və ölümü, əməyin mühafizəsi, doğum problemi, miqrasiya və əhalinin məskunlaşması), fəal demoqrafiya siyasəti, əhalinin ümumi sayının proqnozlaşdırılması, əmək ehtiyatlarından səmərəli istifadə olunması, əhalinin təkrar***

istehsalının ərazi fərqləri və dəyişilməsi meylləri, ailə problemi və s. məsələlər kompleks şəkildə tədqiq edilib öyrənilmiş və onların nəticələri hökumət və dövlət orqanları tərəfindən bəyənilərək ölkənin gələcək sosial-iqtisadi inkişaf istiqamətlərinin müəyyənləşdirilməsində istifadə edilmişdir.

Əhalisakinliyi problemləri respublikamızda da xeyli müvəffəqiyyətlə tədqiq edilmiş və onların nəticələri ölkəmizin sosial-iqtisadi inkişaf istiqamətlərinin müəyyənləşdirilməsində geniş istifadə olunmuşdur. Bu tədqiqatların arasında «Azərbaycan SSR-də şəhər və kənd əhalisinin səmərəli məşğulluğu üzrə tədbirlərin işlənməsi» (Bakı, 1966-cı il); «Uzaq gələcəyə əmək ehtiyatlarının və onlardan istifadə edilməsinin proqnozlaşdırılması» (Bakı, 1968-ci il); «Demoqrafik inkişaf və əmək ehtiyatlarından səmərəli istifadə edilməsi» (Bakı, 1979-cu il); «Azərbaycan SSR-də əhalinin təkrar istehsalının xüsusiyyətləri və onun optimallaşdırılması» (Bakı, 1984-cü il); «Qadınların ictimai istehsaldakı məşğulluğu ilə analıq vəzifəsinin əlaqələndirilməsi» (Bakı, 1984-cü il); «1990-cı ilədək Azərbaycan SSR-də demoqrafik inkişaf və əmək ehtiyatlarından istifadə edilməsi» (Bakı, 1985-ci il); «Azərbaycanın demoqrafik inkişafı: əsas meyllər və problemlər» (Bakı, 1988-ci il); «2000-ci ilədək olan dövrdə Azərbaycanın demoqrafik inkişafı və əmək ehtiyatlarından istifadə edilməsi» üzrə ETT-nin kompleks proqramı və s. adları çəkmək olar.

Bütün bunlara baxmayaraq, *keçmiş SSRİ-də əhalisakinliyi və demoqrafiya siyasəti, bütünlükdə, ölkənin, ilk növbədə isə regionlara nisbətən doğum səviyyəsinin aşağı və ölüm səviyyəsinin yüksək olduğu Rusiya, Belorusiya, Ukrayna və Baltikyanı ölkələrin mənafeləri baxımından hazırlanıb həyata keçirilir, həmin demoqrafik proseslərin qeyd edilən regionların əksi olduğu Orta Asiya və Zaqafqaziya respublikalarında bu məsələyə son dərəcə zəif diqqət yetirilirdi. Belə ki, yaradılan yeni iş yerləri, tikilən məktəb və uşaq müəssisələri, xəstəxana və müalicə ocaqları və s. əhalinin və əmək ehtiyatlarının sürətlə artdığı, körpələrin və kiçik yaşlı uşaqların sayının çox olduğu regionlarda deyil, daha çox həmin göstəricilərin səviyyələrinin aşağı olduğu rayonların ərazisində tikilirdi.* Halbuki 60-cı və 70-80-ci illəri əhatə edən uzun bir dövr ərzində Orta Asiya Respublikalarında və Azərbaycanda həm əhalinin doğum

səviyyəsi və həm də təbii artımı yuxarıda adlarını çəkdiyimiz respublikaların müvafiq göstəricilərindən xeyli yüksək olmuşdu. Məsələn, 1960-cı ildə Orta Asiya Respublikalarında əhalinin hər 1000 nəfərinə düşən doğum səviyyəsi 33,5 nəfərlə (Tacikistanda) 42,1 nəfər (Türkmənistanda) arasında tərəddüd edir və Azərbaycanda bu göstərici 42,6 nəfər təşkil edirdisə, Rusiyada – 23,2; Ukraynada – 20,5; Belorusiyada 24,4; Litvada – 22,5; Latviyada – 16,7; Estoniyada isə 16,6 nəfər olmuşdur. Eyni fərqli vəziyyəti 70-80- ci illərə də şamil etmək olar. Məsələn, 1985-ci ildə bütünlükdə keçmiş SSRİ-də əhalinin hər 1000 nəfərinə düşən doğum səviyyəsi – 19,4, o cümlədən Rusiyada – 16,5; Ukraynada - 15,0; Belorusiyada – 16,5; Litvada - 16,3; Latviyada – 15,2 və Estoniyada – 15,4 nəfər təşkil etmişdirsə, Azərbaycanda – 26,7; Orta Asiya Respublikalarında isə 36,0 (Türkmənistan) nəfərlə 39,9 nəfər (Tacikistan) arasında tərəddüd etmişdir. Eyni vəziyyəti əhalinin hər 1000 nəfərinə düşən təbii artımın səviyyəsi haqqında da demək olar.[395]

Bu yuxarıda deyilənlərə baxmayaraq, həmin dövrdə demoqrafiya ilə məşğul olan, hətta, bəzi görkəmli alimlər belə ölkə üzrə demoqrafik siyasət tədbirləri işləyib hazırlayarkən həmin vəziyyəti nəzərə almır və göstərirdilər ki, Orta Asiya Respublikalarında və ona bənzər demoqrafik inkişaf vəziyyətinə malik olan ərazilərdə onsuz da qadınlar arasında doğum səviyyəsi yüksək, məşğulluq səviyyəsi isə aşağıdır və buna görə də bu regionlarda doğumun stimullaşdırılmasına, çoxuşaqlı qadınlara əlavə güzəştlər verilməsinə və onlar üçün iş yerləri açılmasına ehtiyac yoxdur. Bu fikrin möhkəm tərəfdarlarından biri olan və demoqrafiya sahəsində dünya miqyasında tanınmış alim professor **B.S.Urlanis əhalisakinliyinə həsr edilmiş Beynəlxalq Elmi Konfrans, Simpozium və Seminarlarda tez-tez çıxış edib göstərirdi ki, Orta Asiya və buna bənzər respublikalarda doğumun stimullaşdırılmasına tələsmək olmaz və buna əsas yoxdur. Orada doğumun stimullaşdırılması güclü leysan vaxtı**

---

[395] B a x: Народное хозяйство СССР в 1970 г. М., 1971, с. 50; Народное хозяйство СССР в 1985 г. М., 1986, с. 32

süni yağış yağdırmağa bənzəyir.[396] Əlbəttə, bu cür fikir tərəfdarları açıq-aşkar deməsələr də, qeyd edilən regionlarda əhalinin artımından narahat idilər. Hətta nitqlərinin birində keçmiş Sovet İKP Baş katibi L.İ.Brejnev də bu regionlarda əhalinin artımından guya narahat olmadığını söyləmişdir. Əslində isə bu narahatçılıqdan irəli gələn bir mövqe idi. Çünki o vaxtlar, yəni 70-80-ci illərdə ölkə miqyasında aparılan hesablamalara əsasən müəyyən edilmişdir ki, «*Mövcud demoqrafik vəziyyətlə əlaqədar olaraq SSRİ–də əmək ehtiyatlarının» artımı IX-XI beşilliklərdə olduğuna nisbətən XII-XIII beşilliklərdə 2 dəfə, XIV-XV beşilliklərdə isə 1,7 dəfə azalacaqdır. Əsrimizin sonunadək SSRİ-nin əhalisi və ərazisinin əksəriyyətini özündə birləşdirən RSFSR, Ukrayna SSR, Belorusiya SSR və Pribaltika Respublikalarının ölkənin əmək ehtiyatlarının formalaşmasındakı xüsusi çəkisi xeyli azalacaq, Orta Asiya Respublikaları, Qazaxıstan SSR, Ermənistan SSR və Azərbaycan SSR-in xüsusi çəkisi isə artaraq indiki 18-17 faizdən 27,4 faizə qalxacaqdır. Qeyd edilən dövrdə ölkəmizdə gözlənilən əhali artımının da çoxu cənub rayonlarının payına düşəcəkdir. XII beşillikdə ölkənin bütün əmək qabiliyyətli əhalisinin artımının hamısı Orta Asiya, Zaqafqaziya Respublikaları, Qazaxıstan SSR və Moldoviya SSR-nin hesabına formalaşacaqdır. Ümumiyyətlə, götürüldükdə isə yaxın 20 il ərzində ölkə əhalisi artımının 75, əmək qabiliyyətli yaşda olan əhalinin isə 85 faizi Orta Asiya, Zaqafqaziya Respublikaları və Qazaxıstanın payına düşəcəkdir. Ölkənin əmək qabiliyyətli yaşda olan əhalisinin artımında Orta Asiya Respublikalarının payı əsrimizin sonunda 55-56 faizə qalxacaqdır. Müqayisə edilən dövrdə SSRİ əhalisinin artımında respublikamızın xüsusi çəkisi indiki 4,2 faizdən 10-11 faizə qalxacaq və ya 2,3-2,5 dəfə artacaqdır. Keçən 25 il (1960-1985-ci illər) ərzində olduğu kimi, yaxın 20-25 il (2000-2010-cu illər) ildə də respublikamızda istər bütünlükdə əhalinin, istərsə də onun ayrı-ayrı yaş qruplarından olan hissəsinin sayı orta İttifaq miqyasında olduğuna nisbətən sürətlə çoxalacaqdır.*

---

[396] В а х: Проблемы народонаселения и демографической политики. Профиздат, Москва, 1981, с.39

2005-ci ilədək olan dövrdə SSRİ-nin əhalisinin sayı cəmi 10 faiz, o cümlədən əmək qabiliyyətli yaşda olan əhalinin sayı 14 faiz artacağı halda, bu göstəricilər respublikamızda müvafiq olaraq 40,7 və 40,3 faiz artacaq və ya orta İttifaq səviyyəsindən 4,3-2,9 dəfə yüksək olacaqdır. Xarakterik cəhət ondan ibarətdir ki, qeyd edilən dövrdə respublikamızda 16 yaşından kiçik olan gənclərin və əmək qabiliyyətli yaşını ötmüş qocaların sayı da orta İttifaq miqyasında olduğundan sürətlə çoxalacaqdır. Belə ki, əgər həmin dövrdə SSRİ-də 16 yaşından kiçik gənclərin cəmi 2 faiz, qocaların sayı 19 faiz artacaqsa, respublikamızda bu rəqəmlər müvafiq surətdə 35,9 və 60,6 faizi ötüb keçəcəkdir[397]. Keçmiş SSRİ-nin rəhbərlərini və onlara xidmət edən «alim-ideoloqları» qorxudan da elə bu idi.

Postsovet məkanına daxil olan yuxarıda adlarını çəkdiyimiz ölkələrdə demoqrafik vəziyyət əvvəllərdə olduğuna nisbətən indi daha da kəskinləşmiş və bu proses gələcəkdə də davam edəcəkdir. Bu vəziyyət Rusiyada xüsusilə daha kəskin xarakter daşıyır və yaxın gələcəkdə burada həmin sahədə hər hansı bir irəliləyişin baş verəcəyi barədə qəti fikir söyləmək qeyri-mümkündür. Bir neçə on il bundan əvvəl «Nezavisimaya» qəzetində çap edilmiş **«XXI əsr Rusiyasında kim yaşayacaqdır» adlı məqalədə həmin məsələdən bəhs olunarkən yazılmışdır ki: «İndi Rusiyada əhalinin sürətlə qocalması və azalması, səhhətinin pisləşməsi, istehsal və intellektual ixtisaslaşdırılmasının və bəlkə də əxlaqın tənəzzülü ilə yanaşı işsizlik də artır.**

Hazırda Rusiyanın ən iri şəhərlərində doğum sayı cəmi mində, altı mində, yeddi mində 1 nəfər təşkil edir və getdikcə azalır. Rus qadınlarında doğum sayının yekun əmsalı 1-dək enmişdir və aşağı enməkdə davam edir. Yəni o son həddə normasından iki-üç dəfə azdır. Həmin normadan sonra isə xalqı qırılıb-qurtarmaq təhlükəsi gözləyir. Orta həyat davamlılığının qısalmasına baxmayaraq, ölümün doğumu üstələməsinin get-gedə artması müşahidə edilir. Özü də sayına görə böyük xalqların arasında ən pis demoqrafik vəziyyətdə olan

---

[397] B a x: *Ş. M. Muradov*. Azərbaycan SSR-in əmək ehtiyatları. Bakı, «Elm», 1987, s. 84

rusların özü, eləcə də ukraynalılar (Rusiyanın ən iri milli azlığı), beloruslar və iqrofin xalqlarıdır.

Dünyaya təzə gələn körpələrin təxminən yarısı xəstə, 20 faizi isə nikahdankənar doğulur. Bir çoxları atasız, yaxud anasız ailələrdə, uşaq evlərində, ən nəhayət, əyyaş və narkoman ailəsində böyüyür. Gənclərin böyük əksəriyyəti nə işləmək, nə də oxumaq istəyir. Onların çoxunun valideyn, cəmiyyət, bəşəriyyət qarşısında borc adlanan məhfumlardan xəbəri belə yoxdur. Bunlar - yaradıcı fəaliyyət yox, cinayətkarlıq mənbəyidir. Demək lazımdır ki, Rusiyadakı müsəlmanların vəziyyəti bir o qədər də pis deyildir: doğum ölümü xeyli üstələyir, əhalinin sıxlığı artır və həmçinin müsəlmanların ənənəvi ərazilərində onların faizi artır. Ruslara nisbətən müsəlman ailələri daha böyük, möhkəm və sağlam olur. Ümumiyyətlə isə rusların içərisində çoxuşaqlılığı və ailə firəvanlığı ilə dini azlığı təşkil edən bantistlər, adventislər və əllibaşılar bir qədər fərqlənir.

Tatarların və onların qohumlarının-başqırdların (1,5 milyon) qonşusu olan çuvaşların (2 milyona yaxın) demoqrafik göstəriciləri pis deyildir. Çuvaşlar Çuvaş Respublikasından başqa Ulyanovsk vilayətinin şimal hissəsində, Tatarıstan, Başqırdıstan və Kuybışev vilayətinin bəzi rayonlarında məskunlaşmışlar, əhalisi sıx olan torpaqlardan çuvaşlar Rusiyanın digər bölgələrinə köçürlər. Deyəsən, rus xalqının tarixində ilk dəfə olaraq rusların Rusiya dövləti hüdudlarından (təkcə etnoqrafik Rusiyadan və Rusiya dövləti tərəfindən nəzərdə tutulmuş ölkələrin və torpaqların müstəmləkə altına alınması məqsədilə deyil) müntəzəm mühacirət kanalları və sosial mexanizmləri yoluna qoyulur. Ruslar Qərb ölkələrində məskunlaşmağa can atırlar. Bunun qarşısını almaq üçün Qərbin gördüyü bütün tədbirlərə baxmayaraq, rusların bir çoxu buna nail olur və yəqin ki, gələcəkdə də bu proses davam edəcəkdir. Digər tərəfdən, bir neçə milyon etnik rus və əksər hallarda isə heç rus mənşəli olmayan qarışıq rusdilli əhali Rusiyaya Mərkəzi Asiya, Qafqaz zolağından və qismən də Baltikyanı, Ukrayna, Moldova ölkələrindən köçüb gəlmişlər. Lakin bütün bunlara baxmayaraq, son üç ildə Rusiyada rusların sayı 2 milyon nəfər azalmalıdır. Bu isə hələ başlanğıcdır. 2020-ci il üçün Rusiyadakı

rusların sayı 85 milyon nəfərə qədər azalmalıdır və bu proses davam edəcəkdir. Rusiyanın qeyri-rus etnoslarındakı artımı da bu itkinin yerini doldurmur...

Bütün sınaqlar nəticəsində ruslar əvvəlcə öz ölkəsində mütləq çoxluq deyil, nisbi çoxluq təşkil edən, imtiyazlı və mədəni cəhətdən üstünlüyə malik bir etnik qrupa çevriləcək, sonra uzun-uzadı əziyyətlər bahasına immiqrantlardan ötrü Rusiya vətəndaşlığı məsələsi həll ediləcək və nəhayət, onlarla, yaxud onların əksər hissəsi ilə qovuşaraq vahid bir millətə çevriləcək və bundan sonra Rusiya dirçələ biləcək. Onun mədəniyyəti immiqrantların mənsub olduqları ən müxtəlif sivilizasiyaların mədəni irsi hesabına zənginləşəcək.

Rusiyanın yeni sakinləri və onların ruslarla, eləcə də bu ölkədə yaşayan xalqlar və milli azlıqlarla nikahlarından dünyaya gəlmiş övladları asiyalı və afrikalı əcdadlarının mədəniyyətlərinə xas olan bir çox cəhətləri unutsalar da, rus dilini və rus mədəniyyətini qəbul edəcəklər. Onlar bu ölkədə kök salaraq onun iqtisadi və mədəni inkişafına təkan verəcəklər. Onlar özləri ayağa qalxmaqla bu ölkənin də ayağa qalxmasına kömək edəcəklər.»

Neçə illər bundan əvvəl yazılmış bu məqalədə çoxlu mübahisəli məsələlər olsa da, bir həqiqət göz qabağındadır ki, indi Rusiyada baş verən demoqrafik dəyişikliklər öz kəskinliyi ilə seçilir və son on il ərzində (1991-2001-ci illər) burada əhalinin sayı bütünlükdə MDB ölkələrindəkinin əksinə olaraq artmaq əvəzinə azalmışdır. Belə ki, əgər 1991-2001-ci illərdə bütünlükdə MDB ölkələrində əhalinin sayı cüzi də olsa, yəni 0,5 faiz artaraq 282,3 milyon nəfərdən 283, 8 milyon nəfərə çatmışdırsa, Rusiyada 2,5 faiz artaraq 148,9 milyon nəfərdən 144,8 milyon nəfərə düşmüşdür. 2002-ci ildə keçirilmiş əhalinin siyahıyaalınması məlumatlarına əsasən, Rusiyanın əhalisinin sayı təqribən 145 milyon 181 min nəfər təşkil etmiş və onların arasında rusların sayı 104,1 milyon nəfər (71,7 faiz) olmuşdur. Halbuki, **1989-cu ilin əhali siyahıyaalınması məlumatlarına əsasən, Rusiyanın əhalisinin sayı 147,0 milyon nəfər təşkil etmiş və onların 119,8 milyon nəfəri və ya 81,5 faizi ruslar olmuşlar. Bu o deməkdir ki, 1981-2002-ci illəri əhatə edən 13 il ərzində burada**

əhalinin sayı 1,2 faiz (1,8 milyon nəfər) azaldığı halda, rusların sayı 13,1 faiz (15,7 milyon nəfər) azalmışdır[398].

2002-ci ildə Rusiyada keçirilmiş əhali siyahıyaalınmasının ilkin məlumatlarına əsasən burada yaşayan əhalinin artıq 5 milyon 43 min nəfərini çinlilər və vyetnamlar təşkil edirlər. Halbuki 15 il əvvəl, yəni 1978-ci ildə Rusiya ərazisində yaşayan çinlilərin sayı cəmi 5 min nəfər olmuşdur. İndi Rusiyada yaşayan çinlilərin və vyetnamların 2,5 milyon nəfərdən çoxu Uzaq Şərqdə və Sibirdə məskunlaşmışlar. Rusiyada yaşayan çinlilərin sayı (3,26 milyon nəfər) birlikdə götürüldükdə burada yaşayan qazaxların, taciklərin, özbəklərin, türkmənlərin, qırğızların və moldovanların sayından çoxdur (onların sayı 3,24 milyon nəfərdir).

Proqnoz məlumatlarına əsasən, vəziyyət belə davam edərsə, 2010-cu ildə Rusiyada yaşayan çinlilərin sayı 10 milyon nəfəri gtüb keçəcək, 2015-ci ildə isə Rusiyada əhalinin hər 4 nəfərindən biri Konfusiya dilində danışacaq. İndi hər il Rusiyaya orta hesabla 100 min nəfər çinli, bir o qədər də ukraynalı gəlir. 2002-ci ilin əhalisiyahıya alınması məlumatlarına əsasən indi Rusiyada təqribən 2,48 milyon nəfər erməni (o cümlədən Krasnodar diyarında-779 min nəfər, Moskvada və Moskva vilayətində-508 min nəfər), **2,24 milyon nəfər «Dağıstan xalqları»** (o cümlədən Dağıstanda-1,85 milyon nəfər), **2,16 milyon nəfər azərbaycanlı** (o cümlədən Moskvada və Moskva vilayətində-1,1 milyon nəfər) yaşayır.

MDB ölkələrində yaranmış demoqrafik vəziyyət onu göstərir ki, postsovet məkanı artıq demoqrafik yetkinlik mərhələsinə qədəm qoymuşdur. Belə ki, bütünlükdə postsovet məkanında ümumi doğum əmsalı 1,6-ya, Rusiyada isə 1,3-ə düşmüşdür ki, bu da inkişaf etmiş ölkələrin məlumatları ilə üst-üstə düşür. Bu göstərici Ukrayna, Belorusiya və Baltikyanı ölkələrdə - 1,2-1,4, Zaqafqaziya və Qazaxıstanda-1,7-2,3, Orta

---

[398] Демографическая ситуация и формирование общего ранка труда государств-участников СНГ. Москва, 2001, с. 9.

Asiya Respublikalarında isə 3,2 (Qırğızıstanda) ilə 4,2 (Tacikistanda) arasında tərəddüd edir.

Bütün bunlar onu göstərir ki, hazırda dünyanın əksər inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrində olduğu kimi, postsovet məkanına daxil olan ölkələrin hamısında əhalinin təbii artımına təsir edən əsas demoqrafik göstəricilərin səviyyəsi doğum səviyyəsinin get-gedə azalması, ölüm səviyyəsinin isə artması və yaxud da sabit qalması ilə səciyyələnməklə kəskin xarakter daşımaqda davam edir və bu meyl tədricən güclənir.

Keçmiş İttifaqın mövcud olduğu 70 il ərzində də qeyd edilən vəziyyət ayrı-ayrı regionlarda eyni olmamış və müxtəlif ərazilərdə bir-birindən fərqlənmişdir. Lakin buna baxmayaraq, bütün bu illər ərzində ölkədə vahid əhalisakinliyi və demoqrafiya siyasəti yeridilmiş, ayrı-ayrı respublikalarda yaşayan əhalinin ümumi inkişaf səviyyəsi və milli xüsusiyyətləri nəzərə alınmamışdır. Bunun nəticəsi idi ki, Sovet hakimiyyəti illərində Keçmiş İttifaqda *əhalisakinliyi problemi get-gedə kəskinləşmiş, 70-ci illərdə və 80-ci illərin əvvəllərində isə bu vəziyyət özünün son həddinə gəlib çatmışdır.* Ona görə də biz həmin dövrdə Keçmiş İttifaqın müxtəlif regionlarında keçirilən Ümumittfaq və Region əhəmiyyətli elmi və elmi-praktiki konfranslardakı məruzə və çıxışlarımızda, habelə çap etdirdiyimiz əsərlərimizdə Orta Asiya Respublikaları, Qazaxıstan və Zaqafqaziyada olan həmkarlarımızla birlikdə tələb edirik ki, SSRİ-nin demoqrafik inkişaf vəziyyətində yaranmış gərginliyi aradan qaldırmaq üçün ölkənin müxtəlif regionlarının hər birinin demoqrafik inkişaf xüsusiyyətlərini nəzərə alan və onların demoqrafik inkişaf mənafeyini özündə əks etdirən əhalisakinliyi, demoqrafiya və məşğulluq siyasəti işlənib hazırlansın və həyata keçirilsin[399].

---

[399] B a x: *Ş. M. Muradov* və başqaları. «Региональные особенности использования трудовых ресурсов». «Воспроизводство рабочей силы и повышение эффективности использования трудовых ресурсов». Изд-во Московского Университета, 1971. kitabında, s. 252-262; «Методологические проблемы изучения народонаселения в социалистическом обществе». Материалы Всесоюзной Конференции, Киев, 1973; *Ш. М. Мурадов, Ф. Г. Аббасов.* «Региональные особенности воспроизводствоа населения и демографические проблемы обеспечения его оптимальной занятости в Азербайджанской ССР». «Региональные особенности воспроизводства и миграция населения». Тезиси докладов Всесоюзной научной Конфереиции. г. Тбилиси, 12-15 октября 1976 г. *Ш. М. Мурадов.* «Особенности воспроизводства и миграция

Mənim 1987-ci ildə Bakıda Elm nəşriyyatında çap olunmuş «Azərbaycan SSR-nin əmək ehtiyatları: nəzəri-metodoloji və sosial-iqtisadi aspektlər» adlı monoqrafiyamda deyilir ki: «**Ölkəmizin müxtəlif ərazilərində demoqrafik inkişafın vəziyyəti və əmək ehtiyatlarının artım sürəti, onların kəmiyyət və keyfiyyət götəriciləri, ictimai istehsala cəlb edilməsi imkanları və şərtləri eyni olmadığından hər bir respublikada, rayonda, şəhərdə və kənd yerlərində sosial və iqtisadi inkişafın əsas istiqamətləri, xalq təsərrüfatının sahə və ərazi quruluşunun təkmilləşdirilməsi, ən əvvəl struktur və investisiya siyasəti yeridilərkən həmin ərazilərin hər birinin demoqrafik inkişaf xüsusiyyətləri, o cümlədən əhalinin yaş-cins tərkibi, onların ümumi və xüsusi**

населения в Азербайджанской ССР». с. 58-60; «Комплексная программа научно-технического прогресса и его социально-экономических последствий на перспективу до 2000 года», том. 22, «Демография, рациональное использования трудовых ресурсов» (*Ş. M. Muradov və başqaları.* «Азербайджанская ССР»). Москва, 1979 г., с. 609-638; «Региональные аспекты перспективных комплексно-целевых программ эффективного использования трудовых ресурсов». Тезисы докладов республиканской научно-практической конференции. Киев, 1980. (*Ш. М. Мурадов.* «Учет особенностей территориального-отраслевой структуры занятости при разработке программ улучшения использования трудовых ресурсов»), с. 144-147; Тезисы докладов научного совещания по проблеме «Фирмирование и еффективного использования трудовых ресурсов в народном хозяйстве в XI пятилетке и долгосрочной перспективе», «1-2 октября 1981 г., г. Душанбе, 1981 (*Ш. М. Мурадов.* «Формирование и использования трудовых ресурсов в Азербайджанской ССР в XI пятилетке и долгосрочной перспективе»), с. 26-28; «Проблемы народонаселения и демографической политики». Москва, Профиздат, 1981 (*Ш. М. Мурадов.* «Трудовые ресурсы Азербайджана»), с. 129-132; «Региональные особенности воспризводства миграции населения в СССР», Москва, 1981 (*Ш. М. Мурадов.* «Особенности поспроизводства и миграция населения Азербайджанской ССР»), с. 244-256; «Населения союзных республик». Москва, 1977. (*Ш. М. Мурадов.* «Азербайджанская Советская Социалистическая Республика»), с. 155-173; «Демографическая политика социалистического общества». Москва. 1986 (*Ш. М. Мурадов.* «Некоторые аспекты демографической политики в регионе с быстрорастующими трудовыми ресурсами»), с. 168-173; «Проблемы демографической политики в социалистическом обществе». Тезисы Всесоюзной Научной Конференции. г. Киев, 26-28 октября, 1982 г. (*Ш. М. Мурадов.* «Демографические аспекты развития и обеспечения в регионе ряда занятости населения с быстрорастующими трудовыми ресурсами»), с. 23-25; «Улучшение использования трудовых ресурсов в трудообеспеченных районах». Всесоюзная Научно-Практическая Конференция. г. Ташкент. 11-13 сентября 1984 г. *Ш. М. Мурадов.* «Проблемы обеспечения рациональной занятости населения в Азербайджанской ССР». Москва, 1984, с. 131-142; *Ş. M. Muradov və başqaları.* «Социально-демографические развития трудообеспеченных районов ССР». Москва, 1989 г. və s.

ixtisas təhsili səviyyəsi, peşə-ixtisas tərkibi, sənaye əməyinə hazırlıq dərəcəsi, ərazi, sahə, sosial və peşə çevikliyi, şəhər həyat tərzinə uyğunlaşa bilməməsi, əmək şəraiti, əməyin xarakteri və məzmunu, əhalinin milli adət və ənənəsi hökmən diqqətlə öyrənilib nəzərə alınmalı və bu xüsusiyyətlərdən asılı olaraq orada əmək ehtiyatlarından səmərəli istifadə üsullarının seçilməsi, onların mövcud və yaradılmaqda olan iş yerləri ilə tarazlaşdırılması üçün fərqli məşğulluq və demoqrafiya siyasəti işlənib hazırlanmalı və həyata keçirilməlidir.[400] Təsadüfi deyildir ki, 1983-cü ilin iyun ayının 14-15-də keçmiş Sov. İKP Mərkəzi Komitəsinin Plenumunda deyilmişdir ki, **biz öz təsərrüfat planlarımızı hazırlayarkən cəmiyyətin ən mühüm inkişaf amillərini - sosial, milli, demoqrafik amilləri hərtərəfli nəzərə almağı və həmin planlarda əks etdirməyi öyrənməliyik. Bu partiyanın vahid siyasəti, ictimai inkişafın vahid strategiyası olmalıdır**[401]. Ancaq çox təəssüflər olsun ki, bu sözlərin çoxu şüar xarakteri daşıyır və kağız üzərində qalırdı. Təsadüfi deyildir ki, az çəkmədi ki, SSRİ qalığı və deyilənlər də həmişəlik kağız üzərində qaldı. Məsələ burasındadır ki, həmin dövrdə ölkənin müxtəlif rayonlarında demoqrafik inkişafın və əmək ehtiyatlarından istifadənin vəziyyəti elə idi ki, o, özünəməxsus xüsusiyyətlərinə və həll edilməsi vəzifələrinə görə əsas qrupa ayrılırdı.

Birinci qrup rayonlara əhalinin doğum səviyyəsi və təbii artımın ən aşağı, əmək ehtiyatlarının ictimai istehsala cəlb edilməsi, əhalinin təhsil səviyyəsi və çevikliyinin, habelə iş vaxtı itkiləri və istehsaldaxili iş qüvvəsi ehtiyatlarının ən yüksək olduğu RSFSR-in Avropa hissəsi, Ukrayna SSR, Belorusiya SSR, Gürcüstan SSR və Baltikyanı respublikalar daxil idi. Bu ərazilərdə məşğulluq siyasəti başlıca olaraq iş vaxtı itkilərinin aradan qaldırılması və istehsaldaxili iş qüvvəsi ehtiyatlarından daha dolğun və səmərəli istifadə edilməsinə, ictimai istehsalda məşğul olan əhalinin sahələrarası, sahələrdaxili və ərazilərarası, maddi və qeyri-maddi istehsal sahələri arasında sonuncunun

---

[400] *Ş. M. Muradov.* Azərbaycan SSRİ-nin əmək ehtiyatları. Bakı, «Elm», 1987, səh. 220-221.

[401] Sov. İKP Mərkəzi Komitəsinin Plenumunun materialları. 14-15 iyun 1983-cü il. Bakı, 1983, s. 16.

xeyrinə olaraq yenidən bölüşdürülməsinə, kənddən şəhərə əhali miqrasiyasının mənfi nəticələrinin aradan qaldırılmasına və s. yönəldilməli idi.

İkinci qrup rayonlara əhalinin doğum səviyyəsi və təbii artımın və ictimai istehsalda məşğul olanların artımının, şəxsi yardımçı və ev təsərrüfatında məşğulluğun xüsusi çəkisinin ən yüksək olduğu, yerli millətlərdən olan əhalinin, o cümlədən gənclərin çeviklik və sənaye əməyinə hazırlıq dərəcəsinin ən aşağı, onların kənd yerlərində yaşamaq və kənd təsərrüfatı əməyi ilə məşğul olmaq meylinin yüksək, kənddən şəhərə zəif və şəhər əhalisinin xüsusi çəkisinin aşağı olduğu RSFSR-in bəzi muxtar vilayətləri, Qazaxıstan SSR-in bir hissəsi və Orta Asiya respublikaları daxil idi.

Bu rayonlarda əhalinin məşğulluq siyasəti-burada, xüsusilə də həmin ərazilərin kiçik və orta şəhərlərində sürətlə artmaqda olan əmək ehtiyatlarının, ən başlıcası isə yerli millətlərdən olan əmək qabiliyyətli əhalinin iş yerləri ilə, iri şəhərlərdə isə əksinə, mövcud olan iş yerlərinin onsuz da çatışmayan kadrlara və yerli millətlərdən olmayan əhalinin bu rayonlardan miqrasiyasının sürətlənməsi ilə bu çatışmazlığın daha da artacağı şəraitdə fəhlələrlə təmin edilməsi; yerli millətlərdən olan əhalinin, o cümlədən isə gənclərin sosial və iqtisadi fəallığının yüksəldilməsi, onların həyat tərzinin dəyişdirilməsi, ictimai istehsalda, xüsusilə sənayedə məşğul olmasına, əhalinin kənddən şəhərə getməsi meylinin güclənməsinə; kənd təsərrüfatında məşğulluq səviyyəsinin azaldılması ilə bağlı olan məsələnin həll edilməsinə yönəldilməsini tələb edirdi.

Üçüncü qrup rayonlara zəngin təbii, xammal ehtiyatlarına malik olub lazımi sayda əmək ehtiyatları olmayan Sibir, Uzaq Şərq və Şərqi Qazaxıstan daxil idi. Bu rayonlarda məşğulluq siyasəti - həmin ərazilərdə istehsal potensialının sürətlə artırılması və təbii ehtiyatlarının istifadəyə verilməsi davam etdirilməklə, təsərrüfatın kompleks inkişafına, istehsal və infrastruktur sahələrinin üstün sürətlə artmasına nail olmaqla, ən faydalı təbii ehtiyatları təsərrüfat dövriyyəsinə cəlb etmək və sairə ölkənin başqa rayonlarından buraya mütəşəkkil formada lazımi sayda ixtisaslı fəhlə kadrları və mütəxəssislər

gətirib möhkəmləndirmək və həmin rayonların öz qüvvəsi ilə kadrlar hazırlanmasının genişləndirlməsinə yönəldilməsini tələb edirdi.

Dördüncü qrup rayonlara orta doğum səviyyəsinin mövcud olduğu və əhalinin təbii artımının birinci və ikinci qrup rayonlara nisbətən sürətlə artdığı Qazaxıstan SSR, Moldova SSR, Ermənistan və Azərbaycan SSR daxil idi.

Bu rayonlar demoqrafik inkişaf xüsusiyyətlərinin bəzi əlamətlərinə görə, daha doğrusu orta doğum səviyyəsi, əmək ehtiyatlarının təbii artımının və şəxsi əmək dairəsində məşğulluğun, xüsusilə də qadınların məşğulluğunun yüksək xüsusi çəkiyə malik olması və s. görə Orta Asiya respublikalarına, bəzi əlamətlərinə görə (əhalinin təkrar istehsalı recimi, miqrasiya xarakteri və s.) isə RSFSR-in Avropa hissəsindəki rayonlarda, Ukrayna SSR, Belorusiya SSR və Baltikyanı respublikalarda mövcud olmuş demoqrafik inkişafın vəziyyətinə bənzəyirdi.

Bu ərazilərdə isə məşğulluq siyasəti mövcud əmək ehtiyatlarının keyfiyyət tərkibini əhəmiyyətli dərəcədə yaxşılaşdırmaqla, xalq təsərrüfatının quruluşunun təkmilləşdirilməsini tələb edirdi ki, bu hal iş qüvvəsinin ərazilər arasında yenidən bölüşdürülməsinə, ictimai istehsala cəlb edilə bilən asudə əmək ehtiyatlarının, xüsusilə qadınların ictimai istehsala, ilk növbədə qeyri-istehsal sahələrinə cəlb edilməsinə və onların daha dolğun və səmərəli istifadə olunmasına imkan versin. Bu rayonlarda sənayenin mütərəqqi sahələrinin və ictimai xidmət dairəsinin daha da inkişaf etdirilib düzgün yerləşdirilməsi, habelə iri ixtisaslaşdırılmış aqrar-sənaye komplekslərinin yaradılması mühüm vəzifə kimi qarşıda durmalı idi. Bu vəzifənin həll edilməsi qeyd edilən ərazilərdə əhalinin səmərəli məşğulluğunun təmin edilməsində əhəmiyyətli rol oynaya bilərdi[402].

Lakin çox təəssüflər olsun ki, yuxarıda qeyd edilən tədbirlərin heç birisi reallaşmadı və həmin vəziyyət daha kəskin şəkildə müstəqillik qazanmış respublikalara keçmiş SSRİ-dən bir problem olaraq qalmış və indi öz həllini gözləyir.

Qeyd etmək lazımdır ki, öz müstəqilliyinə qovuşmuş Azərbaycan Respublikası keçmiş SSRİ-nin tərkibində olduğu

---

[402] B a x: *Ş. M. Muradov.* Yuxarıda göstərilən kitabı, s. 221-223.

bir neçə onilliklər ərzində əhalisinin sürətli artımına görə müttəfiq respublikalar arasında ilk yerlərdən birini tutmuş və hətta 1960-cı ildə əhalinin hər 1000 nəfərinə düşən doğum və təbii artım səviyyəsinə görə birinci yerə çıxmışdı. Belə ki, əgər 1960-cı ildə keçmiş İttifaqda əhalinin hər 1000 nəfərinə düşən doğum səviyyəsi 24,9 nəfər, təbii artım səviyyəsi isə 17 nəfər olmuşdursa, Azərbaycanda bu göətəricilər müvafiq surətdə 42,6 və 36,9 nəfər və ya orta İttifaq səviyyəsindən 1,7 və 2,2 dəfə yüksək olmuş; əhalinin orta illik artım sürəti isə 1959-1989-cu ildlərdə keçmiş SSRİ-də 1.24 faiz təşkil etmişdirsə, Azərbaycanda 3,0 faiz və ya 2,4 dəfə yüksək olmuşdur.

Qeyd edilən dövrdə respublikamızda əhalinin doğum və təbii artım göstəricilərinin xeyli yüksək olması belə bir yalnış fikrin formalaşmasına səbəb olmuşdur ki, güya Azərbaycanın demoqrafik inkişaf vəziyyətində hec bir cətinlik mövcüd deyil və onun tənzimləməsinə də ehtiyac yoxdur. Halbuki, bu, zahirən belə idi. Əsl həqiqətdə isə bunun əksi mövcud idi. Uzün illərdən bəri respublikamızda əhalinin artım sürətinin göstərilən ərazilərə nisbətən yüksək olması həmin sahədə böyük arxayınçılıq yaratmış və bu səbəbdən də əhalinin artım və miqrasiyası prosesinin tənzimlənməsini təmin edən demoqrafik siyasət tədbirlərinin işlənib hazırlanması və qanunvericilik yolu ilə onun təsbit edilməsi respublikanın müvafiq dövlət və hökümət orqanlarının diqqət mərkəzindən yayınmış və bu işdə kortəbiiliyə yol verilmişdir. Təsadüfi deyil ki, 60-cı illərdən başlayaraq SSRİ-nin dağılmasınadək olan 30 illik bir müddət ərzində Azərbaycanda əhalinin artım sürətinin azalması meyli keçmiş İttifaqda və onun bir sıra respublikalarında olduğuna nisbətən daha güclü olmuşdur. Bunu ondan görmək olar ki, əgər 1960-1990-cı illərdə orta İttifaq miqyasında əhalinin hər 1000 nəfərinə düşən döğum səviyyəsi 24,9 nəfərdən 16,8 nəfərə, o cümlədən kənd yerlərində 27,7 nəfərdən 21,3 nəfərə düşmüş və ya müvafiq surətdə 32,5 və 23 faiz azalmışdır. Azərbaycanda bu göstəricilər müvafiq qaydada 42,6 nəfərdən 25,9 nəfərə və 49,8 nəfərdən 29,7 nəfərə düşmüş və ya 39,2 və ya 40,4 faiz azalmışdı. Bu vəziyyət özünü respublikamızın dağlıq və dağətəyi rayonlarında daha qabarıq şəkildə büruzə vermiş və

bu, həmin ərazilərdən gənc oğlanların keçmiş SSRİ-nin iri sənaye şəhərlərinə, tikinti obyektlərinə və kənd təsərrüfatı rayonların kütləvi axına və s. neqativ hallara səbəb olmuşdur.

Bu dövrdə respublikamızda hər il orta hesabla ən azı 30-40 min nəfər gənc oğlanlar keçmiş İttifaqın başqa şəhər və rayonlarına işləməyə, təhsil almaga və daimi yaşamağa köçüb getmişlər. Qeyd edilən dövrdə, ələlxüsus da 1980-ci ildən sonra keçmiş İttifaqın Arxangelsk, Neçernozemiya, Çernobıl, Tula vilayətləri, BAM zonası rayonlarına və s. minlərlə ali və orta ixtisaslı mütüxəssislər və ixtisaslı fəhlə kadrları mütəşəkkil qaydada göndərilmişdir. Təkcə 80-ci illərin ortalarında Azərbaycanda Rusiyanın Amur vilayətinə 600-dən çox ailə köçürülmüş və hər il orta hesabla yuxarıda qeyd edilən vilayətlərə buradan 1500 nəfərdən çox yüksək ixtisaslı mütəxəssislər göndərilmişdir ki, onların da 80-90 faizindən çoxunu azərbaycanlı oğlanlar təşkil etmişdir. Bu proses indiyədək dəvam etməkdədir.

Bütün bunlar isə istər-istəməz Azərbaycan əhalisinin demoqrafik quruluşunun pozulmasına, daha doğrusu respublikamızın müxtəlif regionlarında əhalinin yaş-cins tərkibində, ilk növbədə isə ailə qurmaq yaşında olan oğlan və qızların say tərkibində qeyri-normal nisbətliyin yaranmasına, bunlar isə öz növbəsində gənclərin ailə qurması işinin çətinləşməsinə səbəb olmuş və indi də səbəb olmaqdadır. Təsadüfi deyildir ki, 1999-cu ilin əhali siyahıya alınması məlumatlarına əsasən, həmin il Azərbaycanda heç zaman ərdə olmamış subayların sayı 25-29 yaşlı qadınlar arasında 79,4 min nəfər (23,7%-i), 30-34 yaşında olan qadınlar arasında 47,9 min nəfər (13,3%-i), 35-39 yaşında olan qadınlar arasında 33,7 min nəfər (9,3 %-i), 40-44 yaşında olan qadınlar arasında isə 16,2 min nəfəri (6,1%-i) ötüb keçmişdir.[403] Narahatçılıq doğuran budur ki, 1999-cu ilin əhali siyahıya alınması məlumatlarına respublikamızda yaşayan 30-44 yaşlı 918,1 min nəfər kişinin 70,3 min nəfəri və ya 7,6 faizi, 25-29 yaşlı 297,4 min nəfər gənc oğlanların 127,8 min nəfər və

---

[403] Azərbaycan Respublikası əhalisinin siyahıya alınması. 1999. Bakı, 2001, s. 101-102.

ya 43,0 faizi, 20-24 yaşlı 313,1 min nəfər oğlanların 260,5 min nəfəri və ya 83,2 faizi, habelə 20-25 yaşlı 334,9 min nəfər qızların 170,7 min nəfəri və ya 51,0 faizi, 25-29 yaşlı 331,7 min nəfər qızların 79,4 min nəfəri və ya 23,9 faizi daxil olmamışdır.[404] Bu isə o deməkdir ki, hazırda respublikamızıda on minlərlə qadın həmişəlik olaraq ailə qurmaq və ana olmaq səadətindən məhrum olmaq, evdə qalıb qarımaq təhlükəsi qarşısında qalmışdır. Onu da qeyd etmək lazımdır ki, son 12 il ərzində (1990—2002-ci illərdə) respublikamızda əhalinin hər 1000 nəfərinə düşən kəbin kəsdirənlərin sayı xeyli azalmış, boşanma hallarının azalma sürəti isə kəbin kəsdirənlərin azalma sürətindən xeyli yüksək olmuşdu. Belə ki, əgər 1990—2002-ci illərdə Azərbaycanda kəbin kəsdirənlərin sayı 73,1 mindən 41,7 minə düşmüş və ya 43,0 faiz azalmışdırsa, boşananların sayı 14,1 mindən 5,7 minə düşmüş və ya 59,6 faiz azalmışdı.

Bütün bu deyilənlər başqa amillərlə yanaşı, xeyli dərəcədə də erməni-azərbaycanlı müharibəsinin nəticələri, respublikanın sosial-iqtisadi, siyasi və mənəvi həyatında yol verilmiş bir sıra neqativ hallarla bağlı olmuşdur.

Bu yuxarıda deyilənlərin və başqa amillərin təsiri altında dünyanın bir sıra ölkələrinin demoqrafik inkişaf göstricilərində baş verən bəzi mənfi dəyişikliklər son onilliklərdə Azərbaycan Respublikasında da meydana çıxmağa başlamış və indi də davam etməkdədir. Belə ki, son 12 il ərzində (1990—2002-ci illərdə) respublikamızda əhalinin hər 1000 nəfərinə düşən doğum səviyyəsi 46,7 faiz azalaraq, 23,5 nəfərdən 12,2 nəfərə, kənd yerlərində isə 49,0 faiz azalaraq, 30,2 nəfərdən 15,4 nəfərə düşmüşdü. 2002-ci ilin məlumatlarına əsasən, Azərbaycanda əhalinin hər 1000 nəfərinə düşən doğum səviyyəsi 13,8 nəfər, biryaşınadək uşaqların arasındakı ölüm səviyyəsi isə 12,8 nəfər olmuşdu. Sonuncu göstərici respublikamızın bir çox kənd rayonlarında xeyli yüksək olub, orta ölkə səviyyəsindən 1,5-2,5 dəfə, bəzi hallarda isə yüksək olmaqla fərqlənir. Bu sahədəki

---

[404] Azərbaycan Respublikası əhalisinin siyahıya alınması. 1999. Bakı, 2001, s. 101-102.

statistik məlumatlardakı bəzi qeyri-reallıqlar da nəzərə alınarsa, respublikamızda mövcud olan demoqrafik vəziyyətin daha kəskin və ciddi xarakter daşıdığını sübut etməyə ehtiyac qalmır. Bununla belə, həmin vəziyyətin müasir durumunun daha düzgün təsəvvür edilməsi bu məsələnin bir qədər geniş açıqlanmasını tələb edir. Çünki müstəqillik illərində Azərbaycanda baş vermiş iqtisadi, sosial və siyasi dəyişikliklər burada demoqrafik proseslərin əvvəlki illərlə müqayisədə kəskin surətdə fərqlənməsinə səbəb olmuşdur.

Qeyd edilən dövrdə Azərbaycanın müstəqillik qazanması və bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq, onun başqa ölkələrlə iqtisadi əlaqələrinin pozulması, Ermənistanın silahlı qüvvələri tərəfindən torpaqlarımızın 20 faizinin işğal edilməsi ilə əlaqədar olaraq 1 milyon nəfərdən artıq əhalimizin qaçqın və məcburi köçkünə çevrilməsi və bunların nəticəsində yaranmış sosial-iqtisadi və mənəvi-psixoloji şərait demoqrafik proseslərə olduqca mənfi təsir göstərmişdir. Bunu ondan görmək olar ki, son 12 il ərzində (1991—2002-ci illər) ölkəmizdə əhalinin orta illik təbii artımı əhali miqrasiyası nəzərə alınmaqla 42,8 faiz azalaraq, **105,6 min** nəfərdən **60,4 min** nəfərə, əhalinin təkrar istehsalının səviyyəsini xarakterizə edən **həm brutto**[x] **və həm də netto**[xx] təkrar istehsal əmsalları müvafiq surətdə 1,380-dən 0,844-ə (o cümlədən şəhər yerlərində 1,188-dən 0,731-ə; kənd yerlərində isə 1,581-dən 0,974-ə) və 1,180-dən 0,755-ə (o

---

[x] Əhalinin təbii təkrar istehsalının ümumi (brutto) əmsalı dedikdə – hər bir yaşda doğumun müasir səviyyəsi saxlanmaq şərti ilə bir qadının məhsuldar dövrdə orta hesabla doğa biləcəyi uşaqların sayı başa düşülür. Bu göstərici doğumun nəsilvermə (fertillik) əmsalının həmin illərdə doğulmuş uşaqlar arasında qızların sayına vurulması yolu ilə hesablanır. Ümumi (brutto) əmsalı əhalinin yaş tərkibindən asılı deyildir və doğum səviyyəsinin ümumiləşdirilmiş səciyyəsini göstərir.

[xx] Əhalinin təbii təkrar istehsalının xalis (netto) əmsalı dedikdə – hər bir yaşda doğumun və ölümün müasir səviyyəsi saxlanmaq şərti ilə bir qadının bütün ömrü boyu doğduğu qızlardan analıq yaşına çatanların orta sayı başa düşülür. Bu əmsal doğumun və ölümün müasir səviyyəsi üçün müddət saxlanmaqla qadınlar nəslinin onların qızları tərəfindən əvəz edilməsi dərəcəsini səciyyələndirir. Xalis (netto) əmsal əhali artımının yaxın gələcək perspektivlərini deyil, doğumun və ölümün hazırki dövrdə mövcud olan səviyyələrinin ümumiləşdirilmiş səciyyəsini əks etdirir.

cümlədən şəhər yerlərində 1,078-dən 0,700-ə, kənd yerlərində isə 1,318-dən 0,862-ə) düşmüşdür.[405] Vəziyyət belə davam edərsə, heç şübhə yoxdur ki, gələcəkdə respublikamızda əhalinin normal qaydada təkrar istehsalını həyata keçirmək mümkün olmayacaq və buradan irəli gələn bir sıra mənfi sosial-demoqrafik hadisələrin meydana çıxmasına səbəb olacaqdır. Burada belə bir məsələni xüsusi vurğulamaq istərdik ki, əgər 1990-cı ilədək Azərbaycan Respubilkası əhalinin təbii artım əmsalı yüksək olan ölkələr sırasına daxil idisə, 1991-ci ildən başlayaraq ölkəmizdə əhalinin təbii artım səviyyəsi tədricən aşağı düşməyə meyl edərək, bu göstəricinin səviyyəsinə görə ölkəmizinin həmin göstəricisinin nisbətən aşağı olduğu regionlar sırasına qatılmasına səbəb olmuş və burada əhalinin hər 1000 nəfərinə düşən təbii artım göstəricisi 2,5 dəfə azalaraq 1991-ci ildəki 20,3 nəfərdən 2002-ci ildə 8,0 nəfərə düşmüşdür. Bu vəziyyətin yaranmasına səbəb sosial-iqtisadi amillərin mənfi təsiri altında əhalinin doğum səviyyəsinin sürətlə aşağı düşməsi və ölüm səviyyəsinin, xüsusilə də əmək qabiliyyətli yaşda olan kişilərin və 1 yaşadək olan uşaqların ölüm səviyyəsinin yüksək olmasıdır.

Tədqiq edilən dövrdə respublikamızda əhalinin təbii hərəkət göstəricilərinin dəyişilməsi vəziyyəti 79-cu cədvəlin məlumatları ilə xarakterizə olunur. Müqayisə edilən dövrdə ölkədə (1990—2002-ci illərdə) əhalinin doğum səviyyəsinin aşağı düşməsi nəticəsində burada demoqrafik vəziyyət kəskin surətdə dəyişmişdir. Həmin müddət ərzində respublikada əhalinin hər 1000 nəfərinə düşən doğum əmsalı 25,9‰-dən 13,8‰-dək, yaxud 46,7 faiz azalmışdır. Bu vəziyyət respublikanın həm şəhər və həm də kənd yerlərində müşahidə olunsa da kənd yerlərində doğum səviyyəsinin azalması şəhər yerlərinə nisbətən daha intensiv xarakter daşımışdır. Belə ki, əgər müqayisə əmsalı 22,2%-dən 12,2%-ə düşmüş və ya 45 faiz azalmışdırsa, kənd yerlərində bu göstərici daha sürətlə azalaraq, 29,7%-dən 15,4%-ə

---

[405] B a x: Azərbaycanın demoqrafik göstəriciləri (Statistik-məcmuə). 2002. Bakı, 2002, s. 130.

düşmüş və ya 48 faiz azalmışdır. Ölkənin şəhər və kənd yerlərində doğulanların sayı arasındakı fərq 1990-cı ildə 7 faiz təşkil etmişdirsə, bu fərq azalaraq, 2002-ci ildə 3,2 faizə düşmüşdür. Respublikamızın dağlıq və dağətəyi rayonlarında isə doğum səviyyəsinin aşağı düşməsi vəziyyəti özünü daha qabarıq şəkildə büruzə vermişdir. 1991—2001-ci illəri əhatə edən dövrdə əhalinin hər 1000 nəfərinə düşən doğum səviyyəsinini ən sürətlə azalması Tərtər rayonunda (63,2% və ya 28,0 nəfərdən 10,3 nəfərə düşüb), Sabirabadda (62,3% və ya 31,8 nəfərdən 12,0 nəfərə düşüb), Qazaxda (61,7% və ya 35,2 nəfərdən 13,5 nəfərə düşüb), Beyləqanda (61,6% və ya 30,7 nəfərdən 11,8 nəfərə düşüb), Saatlıda (60,5% və ya 33,7 nəfərdən 13,3 nəfərə düşüb), Salyanda (57,8% və ya 31,0 nəfərdən 13,1 nəfərə düşüb), Şamaxıda (57,4% və ya 38,7 nəfərdən 16,5 nəfərə düşüb), Şəmkirdə (56,4% və ya 29,6 nəfərdən 12,9 nəfərə düşüb), Zaqatalada (55,1% və ya 29,6 nəfərdən 13,3 nəfərə düşüb), Qaxda (54,9% və ya 29,5 nəfərdən 13,3 nəfərə düşüb), Oğuzda (54,1% və ya 37,0 nəfərdən 17,0 nəfərə düşüb), Cəlilabadda (53,6% və ya 33,0 nəfərdən 15,3 nəfərə düşüb), Qubada (52,9% və ya 31,4 nəfərdən 14,8 nəfərə düşüb), Daşkəsəndə (49,7% və ya 33,8 nəfərdən 17,0 nəfərə düşüb), Ucarda (48,5% və ya 29,3 nəfərdən 15,1 nəfərə düşüb) və Kürdəmirdə (48,0% və ya 34,0 nəfərdən 17,7 nəfərə düşüb) qeydə alınmışdır.[406] Bu vəziyyət respublikamızın iri və orta şəhərlərindən də yan keçməmişdir. Həmin göstərici Bakı şəhərində –42,1% (19,5 nəfərdən 11,3 nəfərə düşüb), Gəncədə – 54,1% (20,7 nəfərdən 9,5 nəfərə düşüb), Sumqayıtda – 54,2% (25,1 nəfərdən 11,5 nəfərə düşüb), Əli Bayramlıda – 59,0% (30,2 nəfərdən 12,4 nəfərə düşüb), Mingəçevirdə – 58,1% (27,2 nəfərdən 11,4 nəfərə düşüb), Lənkəranda – 48,1% (23,3 nəfərdən 12,1 nəfərə düşüb), Yevlaxda – 58,6% (27,5 nəfərdən 11,4 nəfərə düşüb), Naftalanda – 62,0% (24,2 nəfərdən 9,2 nəfərə

[406] Azərbaycanın demoqrafik göstəriciləri (Sstatistik məcmuə). 2002. Bakı. 2002, s. 104-111.

düşüb), Şəkidə – 47,8% (22,6 nəfərdən 11,8 nəfərə düşüb) təşkil etmişdir.[407]

79-cu cədvəl [408]

Azərbaycan Respublikasında əhalinin təbii hərəkət göstəricilərinin dəyişilməsi meylləri (1990—2001-ci illər)

İllər	Doğulanların sayı		Ölənlərin sayı		Təbii artım		hər 1000 nəfər diri doğulan 1 yaşadək uşaq ölümü
	cəmi nəfərlə	o cümlədən hər min nəfər əhaliyə düşən	cəmi nəfərlə	o cümlədən hər min nəfər əhaliyə düşən	cəmi nəfərlə.	o cümlədən hər min nəfər əhaliyə düşən	
1990	182989	25,9	42819	6,1	140170	19,8	23,0
1991	190353	26,6	44659	6,3	145694	20,3	25,3
1992	181364	25,0	51258	7,1	130106	17,9	25,5
1993	174618	23,7	52809	7,2	121809	16,5	28,2
1994	159761	21,4	54921	7,3	104840	14,1	25,2
1995	143315	18,9	50828	6,7	92487	12,2	23,3
1996	129247	16,9	48242	6,3	81005	10,6	19,9
1997	132052	17,1	46962	6,1	85090	11,0	19,6
1998	123996	15,6	46299	5,9	77697	10,0	16,6
1999	117539	14,9	46295	5,9	71244	9,0	16,5
2000	116994	14,8	46701	5,9	70293	8,9	12,8
2001	110356	13,8	45284	5,7	65072	8,1	12,5
2002	110715	13,8	46522	5,8	64193	8,0	12,5

Aparılan tədqiqatların və sorğu materiallarının nəticələrindən aydın olur ki, müstəqillik illərində respublikamızda doğum səviyyəsinin sürətlə aşağı düşməsinə təsir edən ən mühüm amillər arasında bazar iqtisadiyyatına keçidin törətdiyi çətinliklərlə əlaqədar olaraq, əhalinin əksər hissəsinin pul gəlirlərinin azalması, mənzillə təminatının pisləşməsi, uşaqların saxlanması, tərbiyə edilməsi və təhsili ilə bağlı olan xərclərin həddən ziyada artması, əhali arasında fertil yaşda (15-49 yaş)

---

[407] Azərbaycanın demoqrafik göstəriciləri (Statistik məcmuə). 2002. Bakı, 2002, s. 105-106.

[408] Azərbaycanın statistik göstəriciləri. 2003, Bakı, 2003, s. 61.

qadınların xüsusi çəkisinin azalması və həmin yaşda olan qadınların özlərinin tərkibində ayrı-ayrı yaş qruplarından olanların xüsusilə çəkisinin dəyişilməsi, nikahların kəskin surətdə azalması, boşanma və ayrılma hallarının çoxalması, əhalinin respublikadan kənara imiqrasiya axınının, xüsusilə gənc oğlanların və yenicə ailə qurmuş gənc ailə başçılarının ölkəni tərk etməsi hallarının güclənməsi və sair mühüm yer tutur.

Qeyd edilən dövrdə respublikamızda doğum səviyyəsinin azalmasına təsir edən ən mühüm amillər arasında gənc oğlanların və yenicə ailə qurmuş cavan ailə başçılarının xeyli bir qisminin ailəsini buraxıb ölkəni tərk edərək başqa yerlərə çıxıb getmələri xüsusi təşviş doğurur. Elə bunun nəticəsidir ki, son 40-45 il ərzində respublikamızda, xüsusilə də onun kənd yerlərində nikah yaşında olan oğlan və qızların sayı və onların yaş quruluşları arasındakı nisbətlilik xeyli deformasiyaya uğramış, bu isə, öz növbəsində, ölkəmizdə gənclərin ailə qurması işini əhəmiyyətli dərəcədə çətinləşdirmişdir. Narahatçılıq doğuran budur ki, gənclərimizin xeyli bir qismi ailə qurduqdan sonra öz həyat yoldaşını, bəzən də hətta körpə uşaqlarını analarının ümidinə qoyub **«pul qazanmaq»** məqsədilə başqa ölkələrə işləməyə və bizneslə məşğul olmağa gedir və təəssüflər olsun ki, bir çox hallarda onların bir qismi ailəsindən uzaqlaşır, başqa bir qismi həmin ölkələrdə ailə qurur, digər bir qismi isə müxtəlif bədbəxtliklərlə üzləşməli olurlar. Son illərdə Rusiyada və başqa ölkələrdə qətlə yetirilmiş həmvətənlərimizin taleyi buna misal ola bilər. Buna görə də həmin məsələlərə dövlət və hökumət səviyyəsində xüsusi diqqət yetirilməli və bu proseslərin qarşısını almaq üçün tədbirlər görülməlidir.

Başqa inkişaf etmiş ölkələrdə olduğu kimi, Azərbaycanda da demoqrafik inkişaf sahəsində baş verən mühüm hadisələrdən biri də ailələrdə 3 və daha çox uşaqların doğulması hallarının azalmasından və çoxuşaqlı ailələrdən orta və azuşaqlı ailələrə keçid prosesinin güclənməsindən ibarətdir. Bunu ondan görmək olar ki, əgər 1991-ci ildə respublikamızda doğulan uşaqların 40,6 faizini birinci, 31 faizini ikinci, 17,1 faizini üçüncü, 11,3 faizini isə dördüncü və daha sonrakı növbədə

doğulanlar təşkil etmişdirsə, bu göstərici 2001-ci ildə müvafiq qaydada 45,0; 32,4; 15,8 və 6,8 faiz təşkil etmişdir.[409] 1999-cu ilin əhali siyahıya alınması materiallarına əsasən, bir uşaqlı ailələr bütün ailələrin 22,5, 2 uşaqlı ailələr 35,3, 3 uşaqlı ailələr isə 25,5 faizini (o cümlədən müvafiq surətdə şəhər yerlərində, 26,1, 37,8 və 22,6; kənd yerlərində isə 18,7, 32,6 və 28,6 faizini) faizini təşkil etdiyi halda, 4 və daha çoxuşaqlı ailələlər bütün ailələrin cəmi 16,7 faizini, o cümlədən şəhər yerlərində 13,5 faizini, kənd yerlərində isə 20,1 faizini təşkil etmişdir.[410] Bu rəqəmlərdən aydın olur ki, çoxuşaqlı ailələrin sayı və bütün ailələr arasında onların xüsusi çəkisi tədricən azalır və gələcəkdə bu prosesin daha da intensiv xarakter alacağı gözlənilir. Onu qeyd etmək lazımdır ki, yaxın keçmişədək respublikamızda, xüsusilə də onun kənd yerlərində yaşayan ailələrdə üstünlük təşkil edən və az da olsa indi də qalmaqda davam edən çoxuşaqlılıq ənənəsinə get-gedə son qoyulmaq, ondan uzaqlaşmaq prosesi başlanmış və gələcəkdə onun daha da sürətlənməsi «təhlükəsi» reallığa çevrilmək üzrədir. Elə bunun nəticəsidir ki, son 20 il ərzində (1970—1999-cu illərdə) respublikamızda mövcud olan və yeni yaranan ailələrin sayı artsa da, ailənin həcmi get-gedə azalmağa başlamışdır (80-ci cədvələ bax). 80-ci cədvəlin məlumatlarına əsasən əgər 1959-cu ildə hər bir ailədə olan ailə üzvlərinin orta sayı 0,4 bənd azalaraq 5,1 nəfərdən 4,7 nəfərə, bütün ailələr arasında 6 nəfər və ondan sox ailə üzvləri olan ailələrin xüsusi səkisi isə 1970-ci ildəki 35,2 faizdən 30,0 faizə düşmüşdür. 1999-cu ilin əhali siyahıya alınması məlumatlarına əsasən respublikamızda mövcud olan bütün ailələrin 7,7 faizini bir nəfərdən ibarət olan ailələr, 8,2 faizini 2 nəfərdən ibarət olan ailələr, 12,7 faizini 3 nəfərdən ibarət olan ailələr, 20,8 faizini 4 nəfərdən ibarət olan ailələr, 20,5 faizini 5 nəfərdən ibarət olan ailələr təşkil etdiyi halda, 6 nəfərdən ibarət olan ailələr bütün ailələrin 13,7 faizini, 7 və daha çox ailə üzvü olan ailələr isə bütün ailələrin 16,4 faizini təşkil etmişdir. Bu proses

---

[409] Azərbaycanın demoqrafik göstəriciləri (Statistik məcmuə). 2002. Bakı, 2002, s. 191.
[410] Yenə orada, s. 179.

80-ci cəd

Ailələrin ailə üzvlərinin sayına görə quruluşunun dinamikası
(əhalinin siyahıya alınması üzrə)

	1970-ci il		1979-cu il		1989-cu il		1999-cu il	
	ailənin sayı (min)	yekuna nisbətən, %-lə	ailənin sayı (min)	yekuna nisbətən, %-lə	ailənin sayı (min)	yekuna nisbətən, %-lə	ailənin sayı (min)	yek nisb %
Ailələrin sayı	1076,9	100,0	1247,2	100,0	1519,4	100,0	1687,5	10
o cümlədən: ailə üzvlərinin sayı (min nəfər)								
1 nəfər	120,3	11,2	144,5	11,6	138,0	9,1	130,6	7
2 nəfər	142,8	13,3	165,3	13,3	203,2	13,4	138,7	8
3 nəfər	144,0	13,4	161,2	12,9	200,1	13,2	213,6	1
4 nəfər	153,2	14,2	191,1	15,3	293,6	19,3	350,1	2
5 nəfər	137,0	12,7	168,1	13,5	252,3	16,6	346,3	2
6 nəfər	128,0	11,9	141,4	11,3	181,9	11,9	230,9	1
7 nəfər və çox	251,6	23,3	275,6	22,1	250,3	16,5	277,3	1
Ailə üzvlərinin orta sayı	5,1	x	5,1	x	4,8	x	4,7	

[411] Azərbaycanın demoqrafik göstəriciləri (Statistik məcmuə). 2002. Bakı, 2002, s. 178.

indi də davam etməkdədir və gələcəkdə onun daha da sürətlənəcəyinə heç bir şübhə yoxdur. Bu onunla bağlıdır ki, respublikamızda əhalinin doğum səviyyəsi ilbəil azalır və bu azalma arasıkəsilmədən davam edir. Son 10-12 il ərzində (1991-2002-ci illərdə) respublikada doğum səviyyəsinin kəskin surətdə azalması bir çox sosial-iqtisadi amillərin təsiri altda uşaq doğumunun ailədaxili planlaşdırılması və nizamlanmasına gətirib çıxarmışdır. Bu proses müxtəlif millətlərdən və etnik qruplardan olan əhali arasında eyni olmayıb bir-birindən fərqlənsə də, ümumi meyl bütün əhali qrupları üçün xarakterikdir. Bununla belə, 1999-cu ilin əhali siyahıya alınması məlumatlarına əsasən, həmin müddətədək respubilkamızda yaşayan nisbətən çox sayda olan millətlər arasında doğumun **ən yüksək səviyyəsi** (hər 1000 nəfər 15-49 yaşında olan qadına düşən doğulan uşaqların orta sayı və hər doğan qadına düşən doğulan uşaqların sayı) **talışlar** (müvafiq surətdə 2555 və 4,2 nəfər), **türklər** (2835 və 4,1 nəfər), **kürdlər** (2603 və 4,0 nəfər), **avarlar** (2398 və 3,7 nəfər), **ləzgilər** (2565 və 3,6 nəfər) və **azərbaycanlılar** (2237 və 3,3 nəfər) arasında, **ən aşağı** səviyyəsi isə **tatarlar** (1633 və 2,4 nəfər) və **ruslar** (1403 və 2,1 nəfər) arasında özünü büruzə vermişdir (81-ci cədvələ bax). Fikrimizcə, respublikamızda yaşayan ruslar və tatarlar arasında doğum səviyyəsinin nisbətən aşağı olmasının mühüm səbəblərindən biri onların əksəriyyətinin şəhər yerlərində yaşaması ilə bağlıdır. Çünki ***bir qayda olaraq, bütün dünyada şəhər yerlərində doğum səviyyəsi kənd yerlərində olduğuna nisbətən həmişə aşağı olmuş, indi də belədir. Bu, hər şeydən əvvəl, şəhər yerlərində yaşayan əhalinin təhsil və peşə-ixtisas səviyyəsinin nisbətən yüksək olması, əmək və məişət şəraitindəki fərqlər və sairlə bağlıdır.*** 1999-cu ilin əhali siyahıya alınması məlumatlarından isə görünür ki, həmin il ölkəmizin köklü əhalisi (yerli) sayılan azərbaycanlıların 51,2 faizi, talışların 2,6 faizi, ləzgilərin 36,7 faizi, avarların 7,8 faizi və s. şəhər yerlərində məskunlaşmışdırsa, bu göstərici ruslar arasında – 95,1, tatarlar arasında 98,7, ukraynalılar arasında – 95,9 faiz, yerdə qalan bütün başqa millətlərdən və xalqlardan olan əhali

arasında isə 46,8 faiz təşkil etmişdir.[412] Nəzərə alsaq ki, 1999-cu ilin əhali siyahıya alınması məlumatlarına əsasən ölkəmizdə yaşayan əhalinin 90,6 faizini nisbətən yüksək doğum səviyyəsinə malik olan azərbaycanlılar, 2,2 faizini ləzgilər, 1,0 faizini talışlar, 0,2 faizini kürdlər və cəmi 4,9 faizini təşkil edən[413] nisbətən aşağı doğum səviyyəsinə malik olan ruslar, tatarlar, beloruslar, ukraynalılar və sair millətlərdən və xalqlardan ibarət olan insanlar təşkil edirlər, onda respublikamızda doğum səviyyəsinin sürətlə aşağı düşməsinin, xüsusilə də bu göstəricinin azərbaycanlılar arasında daha sürətlə azalmasının əhalimizin artıb-azalması üçün nə kimi rol oynadığını izah etməyə ehtiyac qalmır.

81-ci cədvəl [414]

Azərbaycanda yaşayan müxtəlif millətlərdən olan qadınların əhalinin siyahıya alınması dövrünədək doğduğu uşaqların sayı
(1999-cu ilin əhali siyahıya alınması məlumatları üzrə)

Milli tərkib	Qadınların sayı, cəmi (nəfərlə)	Doğulan uşaqların orta sayı (hər 1000 qadına) (nəfər)	Hər doğan qadına düşən doğulan uşaqların sayı (nəfər)
1	2	3	4
Azərbaycanlılar	2464920	2237	3,3
Ukraynalılar	13730	1763	2,4
Ruslar	78760	1403	2,1
Türklər	13667	2835	4,1
Tatarlar	13354	1633	2,4
Talışlar	26165	2555	4,2
Ləzgilər	62651	2565	3,6
Avarlar	17849	2398	3,7
Kürdlər	4083	2603	4,0

[412] Azərbaycan Respublikası əhalisinin siyahıya alınması. 1999-cu il. Bakı, 2001, s. 153.
[413] Azərbaycan Respublikası əhalisinin siyahıya alınması. 1999-cu il. Bakı, 2001, s. 152.
[414] B a x: Azərbaycan Respublikası əhalisinin siyahıya alınması 1999-cu il. III hissə, Səda nəşriyyatı, 2000, s. 251-300.

Müasir dövrdə doğum səviyyəsinin azalmasına təsir edən və müsbət qanunauyğun hal kimi çıxış edən mühüm amillərdən biri də əhalinin təhsil və məşğulluq səviyyəsinin yüksəlməsindən ibarətdir. Belə ki, təhsil səviyyəsinin yüksəlməsi ilə əhalinin mənəvi tələbatı artır və bu səbəbdən də qadınların getdikcə daha çox hissəsi özlərinin analıq funksiyalarının yerinə yetirilməsini az uşaqla məhdudlaşdırırlar. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, hazırda ölkəmizdə qadın əhali kütləsinin ümumi say tərkibində doğumun xeyli hissəsi, yəni 49,6 faizindən çoxu orta təhsil səviyyəsinə malik olan qadınların, 7,5 faizi isə ali və natamam ali təhsili olan qadınların payına düşür. ***Ayrı-ayrı millətlərdən olan qadınlar arasında bu göstərici eyni olmayıb bir-birindən fərqlənir. Məsələn, Ukrayna millətindən olan qadınlar arasında doğulan bütün uşaqların 17,7 faizi, ruslar arasında 17,0 faizi, tatarlar arasında 14,2 faizi, azərbaycanlı qadınlar arasında isə 6,8 faizi ali və natamam ali təhsili olan qadınların payına düşmüşdür. Bu isə o deməkdir ki, qadınların təhsil səviyyəsi yüksək olduqca, onların doğum səviyyəsi də aşağı olur və əksinə.***

Müasir dövrdə respublikamızda doğum səviyyəsinə təsir edən ən mühüm demoqrafik amillərə aşağıdakılar daxildir:

- kişi və qadın əhhali kütləsi arasında normal nisbətin pozulması;
- fertil yaşda (15-49 yaş) olan qadınların sayının azalması və yuxarı yaş qruplarında onların sayının artması;
- nikaha daxilolma səviyyəsinin aşağı düşməsi və s.

Doğum səviyyəsinə ciddi surətdə təsir göstərən amillərdən biri də əhalinin cins-yaş tərkibindən ibarətdir. Statistik məlumatlar təsdiq edir ki, doğulan uşaqlar arasında, bir qayda olaraq, oğlanlar çoxluq təşkil edir. Ancaq oğlan uşaqları arasında qız uşaqlarına nisbətən ölüm səviyyəsinin daim yüksək olması nəticəsində 20 yaşdan başlayaraq, bütün yaş qrupları üzrə qadınların sayı kişilərin sayını üstələyir. 2002-ci ilin məlumatlarına əsasən, respublikamızda yaşayan bütün əhalinin 49,0 faizini kişilər, 51,0 faizini isə qadınlar təşkil etmişdir.

Məlum olduğu kimi, doğum səviyyəsi də ilk növbədə fertil yaşda (15-49 yaşda) olan qadınların sayından və onların yaş quruluşundan asılıdır. 1989—2002-ci illəri əhatə edən 13 il

ərzində respublikamızda fertil yaşda olan qadınların sayı 563,1 min nəfər və ya 31,3 faiz artaraq, 1799,2 min nəfərdən 2362,3 min nəfərə gəlib çatmışdır ki, onların da arasında 35-49 yaşında olan qeyri-fəal fertil yaşında olan qadınların sayı 471,3 min nəfər və ya 2,1 dəfə artaraq, 453,9 min nəfərdən 925,2 min nəfərə, fertil yaşda olan qadınlar arasında onların xüsusi çəkisi isə artaraq, 25,2 faizdən 39,2 faizə gəlib çatmışdır. Halbuki 20-29 yaşında fəal fertil yaşında olan qadınların sayı bu dövrdə 48,6 min nəfər və ya 6,7 faiz azalaraq, 727,5 min nəfərdən 678,9 min nəfərə. Fertil yaşda olan qadınlar arasında onların xüsusi çəkisi isə azalaraq, 40,4 faizdən 28,7 faizə düşmüşdür.[415] Onu da qeyd etmək lazımdır ki, müqayisə edilən dövrdə fertil yaşda olan qadınların sayı həmin yaş qrupuna daxil olan kişilərin sayından 1989-cu ildə 72,1 min nəfər və ya 1 faiz, 1999-cu ildə 138,6 min nəfər və ya 1,1 faiz, 2002-ci ildə isə 125,1 min nəfər və ya 1,14 faiz çox olmuşdur.[416]

Qeyd edilən yaş qrupları üzrə qadın və kişilərin say nisbəti arasında mövcud olan fərqlər heç şübhəsiz ki, respublikada doğum səviyyəsinin azalmasına təsir edən amillərdən biri kimi diqqəti cəlb etməlidir. Azərbaycan Dövlət Statistika Komitəsinin rəsmi məlumatlarına əsasən, 2001-ci ildə respublikada hər 1000 nəfər 15-49 yaşında olan qadına düşən diri doğulan uşaqların sayı orta hesabla 47,2 nəfər təşki etdiyi halda, onun ən yüksək səviyyəsi 20-24 yaşlı qadınlar arasında (123,1 nəfər), ən aşağı səviyyəsi isə 45-49 yaşlı qadınlar arasında (0,6 nəfər) qeydə alınmışdır. Bu göstərici müvafiq surətdə şəhər yerlərində 40,4; 107,0 və 0,5 nəfər, kənd yerlərində isə 54,9; 140,2 və 0,8 nəfər təşkil etmişdir.[417] 1989—2001-ci illəri əhatə edən son 13 il ərzində respublikamızda fertil yaşda (15-49 yaş) ayrı-ayrı yaş qruplarından olan qadınların doğum səviyyəsinin dəyişilməsi dinamikasının isə 82-ci cədvəlin məlumatlarından aydın görmək olar. Həmin cədvəlin məlumatlarından göründüyü kimi, öyrənilən

---

[415] Rəqəmlər «Azərbaycanın demoqrafik göstəriciləri». 2002 (Statistik məcmuə). Bakı, 2002, s. 78 əsasında hesablanmışdır.

[416] Rəqəmlər «Azərbaycanın demoqrafik göstəriciləri» (Statistik məcmuə). 2002. Bakı, 2002, s. 78 əsasında hesablanmışdır.

[417] Rəqəmlər «Azərbaycanın demoqrafik göstəriciləri» (Statistik məcmuə) 2002. Bakı, 2002, s. 188 əsasında hesablanmışdır.

Azərbaycan Respublikasında doğumun yaş əmsallarının dəyişilməsi dinamikası
(hər 1000 nəfər qadına düşən diri doğulan uşaqların sayı, nəfərlə)

İLLƏR	Azərbaycan Respublikasında								Şəhər yerlərində								Kənd yerlərində					
	yaş qrupları								yaş qrupları								yaş qrupları					
	15-49 yaşda cəmi	20 yaşadək	20-24 yaşda	25-29 yaşda	30-34 yaşda	35-39 yaşda	40-44 yaşda	45-49 yaşda	15-49 yaşda cəmi	20 yaşadək	20-24 yaşda	25-29 yaşda	30-34 yaşda	35-39 yaşda	40-44 yaşda	45-49 yaşda	15-49 yaşda cəmi	20 yaşadək	20-24 yaşda	25-29 yaşda	30-34 yaşda	35-39 yaşda
1958-1959	163,3	43,0	200,6	266,5	216,1	162,7	73,5	29,6	120,0	42,1	177,8	212,6	151,4	100,0	31,2	7,6	210,8	43,8	236,2	318,4	301,4	243,4
1965-1966	165,8	46,7	239,3	273,1	241,8	152,0	70,1	31,1	111,6	45,9	187,4	205,4	159,6	82,3	29,7	7,2	226,8	46,2	294,0	339,7	331,0	240,7
1969-1970	134,6	40,8	228,4	233,1	210,0	146,9	53,3	14,1	99,5	39,8	193,2	184,2	146,1	84,5	25,2	5,0	180,1	42,0	287,8	301,6	285,3	215,0
1975-1976	104,4	20,1	215,4	239,0	155,3	104,9	42,5	5,9	90,6	21,9	204,0	200,7	113,7	86,3	26,2	2,0	120,7	17,4	228,0	302,1	224,7	155,8
1979-1980	98,3	18,2	193,4	217,4	134,4	69,6	29,2	4,2	88,6	19,9	178,5	179,9	95,3	38,2	11,8	1,5	112,3	16,4	215,2	270,9	201,4	114,2
1985-1986	104,1	19,8	196,2	199,3	110,6	46,5	12,9	1,8	96,1	21,8	205,8	178,1	86,5	32,4	8,4	0,6	115,9	18,5	197,3	229,2	143,3	72,2
1989	103,1	28,8	199,5	182,4	97,6	35,0	10,8	1,0	85,6	25,7	184,7	155,3	76,7	27,3	5,9	0,4	121,6	30,7	213,0	208,8	123,4	54,1
1990	99,4	26,7	200,6	189,9	93,9	35,2	8,8	0,9	85,0	25,0	185,5	155,4	76,7	26,2	5,5	0,4	117,0	28,3	218,7	193,4	117,2	48,8
1995	70,9	40,0	167,2	131,6	66,0	27,3	5,8	0,7	60,5	23,9	154,2	118,8	56,8	22,3	4,4	0,3	82,7	45,3	179,4	144,8	76,9	34,6
2000	51,2	29,0	131,2	98,5	51,7	22,3	6,1	0,8	41,3	20,4	107,7	86,2	43,8	18,4	4,7	0,6	62,5	37,9	156,0	111,0	59,9	26,7
2001	47,2	26,4	123,1	93,8	48,4	20,1	5,5	0,6	40,4	19,6	107,0	87,8	43,6	17,6	4,4	0,5	54,9	33,4	140,2	99,9	53,3	22,9

[45] Bax: «Azərbaycanın demoqrafik göstəriciləri» (Statistik məcmuə). 2002. Bakı: 2002, s. 188-190.

dövrdə qeyd edilən bütün yaş qruplarından olan qadınlar arasında doğum səviyyəsi sürətlə azalmağa başlamış və hazırda gəlib elə bir səviyyəyə düşmüşdür ki, əgər vəziyyət belə davam edərsə, yaxın gələcəkdə ölkəmizdə əhalinin nəinki geniş təkrar istehsalını, hətta sadə təkrar istehsalını belə həyata keçirmək mümkün olmayacaqdır. Qeyd edilən cədvəlin məlumatlarından görünür ki, 1959—1990-cı illərdə 15-49 yaşında olan hər 1000 nəfər qadına düşən diri doğulan uşaqların sayı bütünlükdə respublika miqyasında 39,1 faiz azalaraq, 163,3 nəfərdən 99,4 nəfərə, o cümlədən 20 yaşından aşağı olan qadınlar üzrə 38,9 faiz azalaraq, 43,7 nəfərdən 26,7 nəfərə, 20-24 yaşlı qadınlar üzrə 4,3 faiz azalaraq, 209,6 nəfərdən 200,6 nəfərə, 25-29 yaşlı qadınlar üzrə 28,8 faiz azalaraq, 266,5 nəfərdən 189,9 nəfərə, 30-34 yaşlı qadınlar üzrə 2,3 dəfə azalaraq, 216,1 nəfərdən 93,9 nəfərə, 35-39 yaşlı qadınlar üzrə 4,6 dəfə azalaraq, 162,7 nəfərdən 35,2 nəfərə, 40-44 yaşlı qadınlar üzrə 8,3 dəfə azalaraq, 73,5 nəfərdən 8,8 nəfərə və nəhayət, 45-49 yaşlı qadınlar üzrə isə 32,9 dəfə azalaraq, 29,6 nəfərdən 0,9 nəfərə düşmüşdür. Bu göstəricilər şəhər və kənd yerlərində də müxtəlif olub birbirindən fərqlənmişdir. 1990-cı ildən keçən dövr ərzində bu göstəricilər daha da azalmış və gələcəkdə də azalmağı gözlənilir. Son illərdə bu prosesin sürətlənməsini ondan görmək olar ki, əgər 1959—1989-cu illəri əhatə edən 30 il ərzində respublikamızda 15-49 yaşda hər 1000 nəfər qadına düşən diri doğulan uşaqların sayı 36,6 faiz azalaraq, 163,3 nəfərdən 103,1 nəfərə, o cümlədən şəhər yerlərində 28,7 faiz azalaraq, 120,0 nəfərdən 85,6 nəfərə, kənd yerlərində isə 42,3 faiz azalaraq, 210,8 nəfərdən 121,6 nəfərə düşmüşdürsə, 1989—2001-ci illərdə bu göstərici müvafiq surətdə 2,2 dəfə azalaraq, 103,1 nəfərdən 47,2 nəfərə, 2,1 dəfə azalaraq, 85,6 nəfərdən 40,4 nəfərə və 2,2 dəfə azalaraq, 121,6 nəfərdən 54,9 nəfərə düşmüş və ya əvvəlki dövrlə müqayisədə daha yüksək sürətlə azalmaqda davam etmişdir. Bu göstərici qeyd edilən fertil yaş qruplarına daxil olan bütün qadınlar arasında müşahidə olunmuş və ən çox da özünü nəsilvermənin daha yüksək olduğu 25-29, 30-34 və 35-39 yaşlı qadınlar arasında büruzə vermişdi. Belə ki, 1989—2000-ci illərdə respublika miqyasında hər 1000 nəfər 25-29 yaşlı qadına düşən diri doğulmuş uşaqların sayı 48,6 faiz azalaraq, 182,4 nəfərdən 93,8 nəfərə, müvafiq qaydada 30-34 yaşlı qadınlar

arasında 50,4 faiz azalaraq, 97,6 nəfərdən 48,4 nəfərə, 35-39 yaşlı qadınlar arasında isə 47,1 faiz azalaraq, 38,0 nəfərdən 20,1 nəfərə düşmüşdür.

Bu göstəricilər müxtəlif yaş qruplarına daxil olan qadınlar arasında müxtəlif olmaqla, şəhər və kənd yerlərində də özünü göstərmiş və indi də göstərməkdə davam edir. Onu da qeyd edək ki, 1990—2001-ci illərdə, bütünlükdə götürüldükdə, respublikamızda ümumi nəsilvermə əmsalı 33,1 faiz azalaraq, 2,77-dən 1,83-ə, ümumi əmsal (brutto – təkrar istehsal əmsalı) 36,4 faiz azalaraq, 1,32-dən 0,84-ə, xalis əmsal (netto təkrar istehsal əmsalı) 38,1 faiz azalaraq, 1,26-dan 0,78-ə, doğum zamanı ananın orta yaşı isə 26-dan 25,8-ə düşmüşdür.[419]

Müqayisə edilən dövrdə ölkəmizdə doğum səviyyəsinin belə azalmasında gənclərin nikaha daxilolma səviyyəsinin aşağı düşməsi də az rol oynamamışdır. Demoqrafik statistikanın verdiyi məlumatlara görə, 1994-cü ildən başlayaraq respublikamızda nigaha daxilolma əmsalının aşağı düşməsi prosesi müşahidə olunmaqdadır. 1959-cu ildən keçən dövr ərzində ölkəmizdə ən aşağı nikaha daxilolma səviyyəsi də məhz 1994-cü ildə qeydə alınmışdır. Həmin ildə əhalinin hər 1000 nəfərinə düşən nikahların sayı 6,3 olmuş və sonrakı illərdə bu göstərici daha da azalaraq, 1999-cu ildə 4,8-ə düşmüş, 2002-ci ildə isə bir qədər artaraq, 5,2 olmuşdur.[420] Qeyd edilən bu göstəricinin səviyyəsi 1990-cı ildə 10,4, o cümlədən şəhər yerlərində 9,9, kənd yerlərində isə 10,8 olmuşdur. Beləliklə, 1990-cı ilə nisbətən 2001-ci ildə respublikamızda əhalinin hər 1000 nəfərinə düşən nikahların sayı 2,0 dəfə, o cümlədən şəhər yerlərində 1,7 dəfə, kənd yerlərində isə 2,2 dəfə azalmışdır.[421] Müqayisə edilən dövrdə fertil yaşda olan qadınların say tərkibində də nikahların səviyyəsində xeyli dəyişikliklər baş vermişdir. Belə ki, qeyd edilən dövrdə nikahda olanların xüsusi çəkisi 18-21 yaşında olan qadınlar arasında 45,8 faiz, 25-34 yaşlı qadınlar arasında 42,3 faiz, 35 və yuxarı yaşlarda 53,7 faiz azalmışdır.

Maraqlı haldır ki, respublikamızda birinci nikaha daxil olanların orta yaş səviyyəsi də get-gedə artmağa başlamışdır.

---

[419] Azərbaycanda uşaqlar (Statistik məcmuə). 2002, Bakı, 2002, s. 17.
[420] B a x: Azərbaycanın demoqrafik göstəriciləri (Statistik məcmuə). 2002. Bakı, 2002, s. 135.
[421] Yenə orada, s. 135, 137, 139.

Azərbaycanda bu göstərici artaraq, 1989—2001-ci illərdə kişilər üzrə 25,7 yaşdan 27,3 yaşa, qadınlar üzrə isə 22,8-dən 23,1 yaşa çatmışdı.[422]

Bütün bu deyilənlər heç şübhəsiz ki, əhalinin doğum səviyyəsinə mənfi təsir göstərən amillərdəndir. Onu da demək lazımdır ki, son zamanlar azərbaycanlılar üçün xarakterik olmayan nikahdan kənar doğulan uşaqların sayı da xeyli artmışdır. Belə ki, 1990—2001-ci illərdə respublikada qeydə alınmış nikahda olmayan qadınlar tərəfindən doğulan uşaqların diri doğulmuş uşaqların ümumi sayındakı xüsusi çəkisi 2,5 dəfə artaraq, 2,6 faizdən 6,6 faizə, o cümlədən şəhər yerlərində 2,4 dəfə artaraq, 3,6 faizdən 8,6 faizə, kənd yerlərində isə 2,8 dəfə artaraq, 1,8 faizdən 5,0 faizə qalxmış, həmin uşaqları doğan qadınların sayı isə 1,5 dəfə artaraq, 4800 nəfərdən 7318 nəfərə, o cümlədən şəhər yerlərində 1,4 dəfə artaraq, 3057 nəfərdən 4282 nəfərə, kənd yerlərində isə 1,7 dəfə artaraq, 1743 nəfərdən 3036 nəfərə çatmışdır.[423]

Yuxarıda qeyd edildiyi kimi, son illərdə respublikamızda nikahların sayının azalması boşanmaların sayının da azalmasına səbəb olmuşdur. Demoqrafik statistikanın məlumatlarına əsasən, 1990—2001-ci illərdə respublikamızda boşananların sayı 2,6 dəfə azalaraq, 14040-dan 5382-ə, o cümlədən şəhər yerlərində 3,0 dəfə azalaraq, 13210-dan 4341-ə düşmüş, kənd yerlərində isə əksinə 25,4 faiz artaraq, 830-dan 1041-ə qalxmışdı.[424] Əhalinin hər 1000 nəfərinə düşən boşanmaların sayı isə müvafiq qaydada 2,8 dəfə azalaraq, 2,0-dən 0,7-yə, 3,5 dəfə azalaraq, 3,5-dən 1,1-ə düşmüş və 1,5 dəfə artaraq, 0,2-dən 0,3-ə qalxmışdı.[425] Burada belə bir məsələyə də xüsusi olaraq diqqət yetirmək istərdik ki, 1990-cı ildə bütünlükdə boşanan ər-arvadın 8853-nü (63,0 faizini) uşağı olmayanlar, 2045-ni (14,6 faizini) bir uşağı olanlar, 3142-ni (22,4 faizini) iki və daha çox uşağı olanlar təşkil edir və hər 1000 boşanmaya düşən uşaqların sayı 190 nəfər təşkil etmişdirsə, 2001-ci ildə bu göstəricilər müvafiq surətdə

---

[422] Azərbaycanın demoqrafik göstəriciləri (Statistik məcmuə). 2002. Bakı, 2002, s. 141.
[423] Azərbaycanda uşaqlar (Statistik məcmuə). 2002. Bakı, 2002, s. 18.
[424] Azərbaycanın demoqrafik göstəriciləri (Statistik məcmuə). 2002. Bakı, 2002, s. 142, 150, 158.
[425] Yenə orada.

3525 (65,5 faiz), 808 (15,0 faiz), 1049 (19,5 faiz) və 175 nəfər olmuşdur. Həmin dövrdə boşanma nəticəsində valideynlərinin biri ilə qalmış uşaqların sayı isə ilbəil azalsa da, 2526-9865 nəfər arasında tərəddüd etmiş və indi 3256 nəfəri ötüb keçir. Bütün bunlar nikahların pozulmasının nə kimi mənfi sosial-iqtisadi və demoqrafik nəticələrə gətirib çıxardığını göstərir.[426]

Müstəqillik illərində respublikamızın demoqrafik inkişaf vəziyyətində baş verən neqativ dəyişikliklərdən biri də əmək qabiliyyətli yaşında kişilər arasında ölüm səviyyəsinin xeyli artması, ana və uşaq ölümünün isə inkişaf etmiş dünya ölkələrinə nisbətən yüksək olaraq qalmasından ibarətdir. Bunu ondan görmək olar ki, 2001-ci ildə respublikamızda əmək qabiliyyətli yaşda olan əhalinin hər 1000 nəfərinə düşən ölənlərin sayı 2,5 nəfər, o cümlədən qadınlar arasında 1,4 nəfər təşkil etdiyi halda, kişilər arasında bu göstərici 3,7 nəfər olmuş və ya müvafiq qaydada 1,5 və 2,6 dəfə yüksək olmuşdur. Ümumiyyətlə götürüldükdə isə, 1988—2001-ci illər ərzində respublikamızda əmək qabiliyyətli yaşında ölən 172,5 min nəfər adamın 130,4 min nəfəri və ya 75,6 faizi kişi, 42,1 min nəfəri və ya 24,4 faizi isə qadın olmuşdur. Bu rəqəmlərdən də açıq-aydın görünür ki, ölkəmizdə əmək qabiliyyətli yaşında olanlar ölənlərin böyük əksəriyyətini təşkil edirlər.[427]

Analar arasında ölüm səviyyəsinə gəldikdə isə rəsmi statistik məlumatlara əsasən, 1990-2002-ci illərdə respublikamızda hər 100 min diri doğulan uşağa düşən ana ölümü halları 2,1 dəfə artaraq, 9,3 nəfərdən 19,9 nəfərə qalxmışdır (Bu rəqəm 1994-cü ildə – 43,8 nəfər, 1996-cı ildə – 44,1 nəfər, 1997-ci ildə 41,1 nəfər, 1998-ci ildə 43,4 nəfər, 2000-ci ildə – 37,6 nəfər, 2001-ci ildə isə – 25,4 nəfər olmuşdur).[428]

Hazırda ölkəmizdə mövcud olan ana ölümünün səviyyəsi Avropa İttifaqı ölkələrinindəkinə nisbətən 3-5 dəfə yüksəkdir.

Ayrı-ayrı cins-yaş qruplarından olan əhali arasında, o cümlədən bir yaşınadək uşaqlar arasında ölüm səviyyəsinin dəyişilməsi vəziyyəti isə aşağıdakı 83-cü cədvəlin məlumatlarında

---

[426] B a x: Azərbaycanda uşaqlar (Statistik məcmuə). 2002. Bakı, 2002, s.19.
[427] Azərbaycanın demoqrafik göstəriciləri (Statistik məcmuə). 2002. Bakı, 2002, s. 216.
[428] Azərbaycanın statistik göstəriciləri. 2003. Səda nəşriyyatı, B., 2003, s. 68.

83-cü cə

1990—2000-ci illər ərzində Azərbaycan Respublikası əhalisinin cins və yaşa görə ölüm əmsalının dəyişilməsi

(göstərilmiş yaş qrupundakı hər 1000 nəfər əhaliyə)

Yaş tərkibi	Hər iki cins				Kişilər				Qadınlar		
	1990	1995	2000	2001	1990	1995	2000	2001	1990	1995	2000
0	23.0	23,3	12,8	12.5	25.1	26,2	13,5	12.9	20,6	22,2	12,0
1-4	4,7	4,0	3,0	2.8	5,0	4.2	3,1	2,9	4,5	3,7	2,8
5-9	0,5	0,6	0,6	0,6	0.5	0,7	0,7	0,7	0,4	0,6	0,6
10-14	0,3	0,5	0,3	0,4	0.4	0,6	0,4	0,4	0,3	0,5	0.3
15-19	0,6	1.0	0,6	0,6	0.8	1,3	0,8	0,8	0,4	0,6	0,4
20-24	0,9	1,3	0,9	0.8	1,2	1,7	1,2	1,1	0,5	0,9	0,6
25-29	1,2	1,6	1,2	1,1	1,8	2,1	1,6	1,5	0,8	1,0	0,8
30-34	1,6	2,0	1,4	1.4	2,2	2,8	2,0	1,9	0,9	1,2	0,9
35-39	2,1	2,5	1,9	1,8	3,1	3,6	2,7	2,5	1,2	1,5	1,3
40-44	3,4	3,2	2,8	2.6	5,0	4,6	4,0	3,7	1,9	1,8	1,6
45-49	5,2	6,0	4,6	4,3	7,6	9,0	6,5	6,1	3,0	3,3	2,8
50-54	8,1	8,4	7,3	7,2	11,2	12,3	10,1	10,0	5,2	4,9	4,8
55-59	13,1	14,2	12,8	11,4	18,2	19,9	17,9	15,3	8,3	9,3	8,3
60-64	18,7	21,4	20,0	19,4	25,9	28,7	26,4	25,3	12,5	15,0	14,8
65-69	26,1	33,4	32,1	30,5	36,1	43,7	39,9	37,8	19,8	25,1	25,5
70-74	36,2	43,1	48,3	47,0	47,1	57,4	57,7	55,8	30,8	34,9	40,9
75-79	60,0	62,9	67,2	63,6	73,9	83,7	73,1	74,0	53,2	54,4	63,9
80-84	84,3	97,8	100,4	87,1	107,6	115,3	110,0	91,3	74,1	90,1	96,6
85 və ondan yuxarı	128,0	142,7	173,0	162,6	156,6	168,1	192,6	167,1	117,4	134,6	166,6
Cəmi	6,1	6,7	5,9	5,7	6,7	7,4	6,3	6,1	5,5	6,1	5,5

[429] B a x: Azərbaycanın demoqrafik göstəriciləri (Statistik məcmuə). 2002. Bakı, 2002, s. 213.

öz əksini tapmışdır. Həmin cədvəlin məlumatlarından göründüyü kimi, 1990—2001-ci illərdə hər iki cinsdən olan 1 yaşınadək uşaqlar arasında ölüm səviyyəsi (hər 1000 nəfər əhali hesabı ilə) 1,8 dəfə (84%) azalaraq, 23,0 nəfərdən 12,5 nəfərə, o cümlədən oğlanlar arasında təqribən 2,0 dəfə (94,6%) azalaraq, 25,1 nəfərdən 12,9 nəfərə, qızlar arasında isə 1,7 dəfədən çox (71,7%) azalaraq 20,6 nəfərdən 12,1 nəfərə düşmüşdür.

Müqayisə edilən dövrdə hər iki cinsdən olan bir yaşınadək ölən uşaqların sayı 3,0 dəfədən çox azalaraq, 4193 nəfərdən 1382 nəfərə, o cümlədən oğlan uşaqlarının sayı 3,1 dəfə azalaraq, 2369 nəfərdən 769 nəfərə, qız uşaqlarının sayı isə təqribən 3,0 dəfə (297,5%) azalaraq, 1824 nəfərdən 613 nəfərə düşmüşdür. Bu göstəricilər şəhər və kənd yerlərində də birbirindən fərqlənmişdir.

Müqayisə edilən dövrdə şəhər yerlərində hər iki cinsdən olan bir yaşınadək uşaqlar arasında ölüm səviyyəsi (hər 1000 nəfər hesabı ilə) 1,7 dəfə (72,3%) azalaraq, 19,3 nəfərdən 11,2 nəfərə, o cümlədən oğlanlar üzrə 1,7 dəfə (73,6%) azalaraq, 21,7 nəfərdən 12,5 nəfərə, qızlar üzrə isə 1,7 dəfə (69,4%) azalaraq, 16,6 nəfərdən 9,8 nəfərə; kənd yerlərində isə müvafiq surətdə 1,9 dəfə azalaraq, 26,3 nəfərdən 13,6 nəfərə, o cümlədən oğlanlar üzrə 2,1 dəfə azalaraq, 28,1 nəfərdən 13,3 nəfərə, qızlar üzrə isə 1,7 dəfə (73,4%) azalaraq, 24,1 nəfərdən 13,9 nəfərə düşmüşdür.[430] 2001-ci ildə respublikamızda bir yaşınadək ölən uşaqların 55,6 faizini oğlanlar, 44,4 faizini isə qızlar təşkil etmişdir. Bu göstərici müvafiq surətdə şəhər yerlərində 60,2 və 39,8 faiz, kənd yerlərində isə 52,5 və 47,5 faiz olmuşdur.[431] Tədqiqat materiallarının təhlilindən aydın olur ki, uşaqlar arasında ölüm səviyyəsi ölkəmizin ayrı-ayrı regionlarında eyni olmayıb birbirindən ciddi surətdə fərqlənir. Məsələn, 1990—2001-ci illərdə bu göstərici Zərdab rayonunda 31,2-41,7 nəfər (o cümlədən şəhər yerlərində 17,0-28,6 nəfər, kənd yerlərində isə 33,1-50,3 nəfər), Qusarda – 23,7-57,1 nəfər, (o cümlədən şəhər yerlərində

---

[430] B a x: Azərbaycanın demoqrafik göstəriciləri (Statistik məcmuə). 2002. Bakı, 2002, s. 213, 214, 215.
[431] B a x: Yenə orada.

13,4-66,6, kənd yerlərində – 26,0-55,0 nəfər), Yardımlıda – 22,5-38,6 nəfər (o cümlədən şəhər yerlərində 13,3-45,1 nəfər, kənd yerlərində – 23,1-39,2 nəfər), Tovuzda – 19,2-26,2 nəfər (o cümlədən şəhər yerlərində – 12,5-27,3 nəfər, kənd yerlərində – 21,4-26,0 nəfər), Yevlaxda – 14,1-33,0 nəfər (o cümlədən şəhər yerlərində – 8,3-55,6 nəfər, kənd yerlərində – 11,3-38,7 nəfər), Daşkəsəndə isə 15,8-35,8 nəfər (o cümlədən şəhər yerlərində – 12,6-37,2 nəfər, kənd yerlərində – 12,8-45,8 nəfər) və s. arasında tərəddüd etmişdir.[432] Halbuki hazırda bir yaşınadək uşaqlar arasında ölüm səviyyəsi (hər 1000 nəfər doğulan uşaqlara) Fransa və Almaniyada – 4,4 nəfər, İsveçrədə – 3,4 nəfər və s. təşkil edir.

Hazırda ölkəmizdə uşaq ölümünün əsas səbəblərini – tənəffüs orqanlarının xəstəlikləri (47,7%), perintal dövrdə əmələ gələn hallar (21%), yoluxucu və parazitar xəstəliklər (10,8%), anadangəlmə anomaliyalar (0,7%), bədbəxt hadisələr, zəhərlənmə və zədələmələr (0,94%) və sair təşkil edir.[433] **Bütünlükdə ölkə əhalisinin ölməsinin əsas səbəbləri isə** - qan dövranı sisteminin xəstəlikləri (55,8%), yeni törəmələr (12,0%), tənəffüs orqanlarının xəstəlikləri (7,8%), mədə orqanlarının xəstəlikləri (5,7%), bədbəxt hadisələr, zəhərlənmə və zədələrdən (4,5%), yoluxucu və parazitar xəstəliklər (3,4%), simptomlardan və düzgün qeyd olunmamış hallar (2,4%), qida pozuntuları, immunitet və maddələr mübadiləsinin pozuntuları (2,9%), əsəb sisteminin və hissiyat orqanlarının xəstəlikləri (2,0%), sidik-tənasül sisteminin xəstəlikləri (1,7%) və sairdən ibarətdir.[434]

Yeni doğulan uşaqlar arasındakı ölümün səbəblərinə gəldikdə isə bunlara asfiksiyalar, mərkəzi sinir sisteminin ağır orqanik pozuntularına gətirib çıxaran doğuş zamanı alınan zədələr, ağır bətndaxili infeksiyalar, anadangəlmə inkişaf qüsurları, pnevmaniyalar və sair aiddir.

Son vaxtlar respublikada ana ölümü hallarının artması isə burada demoqrafik vəziyyəti kəskinləşdirərək, analıq və uşaqlığın müdafiəsi sahəsində ciddi problemlər yaratmışdır ki,

---

[432] Azərbaycanın demoqrafik göstəriciləri (Statistik məcmuə). 2002. Bakı, 2002, s. 221-229.
[433] Yenə orada. s. 258.
[434] Yenə orada, 2002, s. 238.

bu da ölkəmizdə **ilk növbədə** profilaktik və sağlamlaşdırma təşkilatlarının maddi-texniki bazasının möhkəmləndirilməsinə, qadın və uşaqlara göstərilən tibbi yardımın keyfiyyətinin yaxşılaşdırılmasına yönəldilən tədbirlərin həyata keçirilməsini tələb edir. **Digər tərəfdən** isə səhiyyənin, xüsusən də qadın məsləhətxanalarının pullu xidmətlərə keçirilməsi bu problemin daha da dərinləşməsinə səbəb olur. ***Buna görə də həmin sahədə pulsuz xidmətlərə keçilməsinə dövlət qayğısının artırılmasına böyük ehtiyac vardır.***

Aparılan tədqiqatların nəticələri göstərir ki, ümumiyyətlə götürüldükdə respublikamızda ölüm səviyyəsinin artması daha çox yüksək əmək fəallığı ilə seçilən yaş qruplarında, ələlxüsus da kişilər arasında müşahidə olunur. Kişilər arasında ölüm səviyyəsinin yüksək olması isə əsas etibarı ilə onların ağır fiziki əməklə məşğul olmaları, ailənin bütün qayğılarını öz üzərlərinə götürmələri ilə emosional və bioloji cəhətlərlə və sairlə bağlıdır.

Respublikamızda yaranmış demoqrafik vəziyyəti səciyyələndirən mühüm göstəricilərdən biri də körpələrin doğulduğu anda gözlənilən ömür uzunluğundan ibarətdir. 2002-ci ildə respublikamızda doğulanların gözlənilən ömür uzunluğu 72,2 yaş, o cümlədən kişilər arasında 69,4 yaş, qadınlar arasında isə 75,0 yaş olmuşdur. Bu göstərici 1990-cı ilə nisbətən hazırda müvafiq surətdə 1,1 yaş, 2,5 yaş və 0,2 yaş yüksəkdir.[435] ***Ancaq dünya və Avropa ölkələri ilə müqayisədə Azərbaycanda bu göstərici bütün əhali üzrə 7-8 il, kişilər üzrə 4-5 il, qadınlar üzrə isə 6-7 il azdır.*** Onu da qeyd etmək lazımdır ki, əgər 1989-cu ildə Azərbaycanda 100 və yuxarı yaşında 2639 nəfər, o cümlədən 442 nəfər kişi və 2197 nəfər qadın olmuşdursa, 1999-cu ildə olanların sayı müvafiq surətdə 1664 nəfər, 223 nəfər və 1441 nəfər təşkil etmiş və ya təqribən 37,0 faiz, 49,6 faiz və 34,41 faiz azalmışdır.[436] 1999-cu ilin əhali siyahıya alınması məlumatlarına görə, ölkəmizdə yaşayanların 136,3 min nəfərini yaşı 70-dən yuxarı olanlar təşkil etmişlər. Onların 85,8 min nəfərini kişilər (36,3%), 150,4 min nəfəri isə qadınlar (63,7%) təşkil etmişlər.[437]

---

[435] Azərbaycanın statistik göstəriciləri. 2003. Səda nəşriyyatı, 2003, s. 68.
[436] Azərbaycan Respublikası əhalisinin siyahıya alınması. 1999, s. 35.
[437] Yenə orada, s. 37.

Beləliklə, aparılan tədqiqatların nəticələri göstərir ki, hazırda respublikamızda demoqrafik inkişafın ümumi vəziyyəti əhalinin sağlamlığının pisləşməsi, doğum səviyyəsinin aşağı düşməsi, ölüm səviyyəsinin nisbətən sabit qalması, gözlənilən ömür uzunluğunun aşağı olması (əsasən kişilər arasında), ana və uşaq ölümünün bir qədər yüksəkliyi və əhalinin artım sürətinin azalması və s. proseslərlə səciyyələnir.

Son vaxtlar ölkəmizdə yaranmış demoqrafik vəziyyətin bu cür kəskinləşməsinin əsas səbəbləri aşağıdakılardan ibarətdir:

- Bazar münasibətlərinə keçid və 1988-1995-ci illərdə ölkədə yaranmış sosial-iqtisadi böhranla əlaqədar olaraq əhalinin əksər sosial-demoqrafik qruplardan və təbəqələrdən olan hissəsinin yaşayış səviyyəsinin pisləşməsi, onların arasında kəskin fərqlərin mövcud olması;
- Sosial infrastruktur sahələrinin son dərəcə zəif inkişaf səviyyəsinin mövcud olması və əhalinin əksər hissəsinin onların xidmətindən lazımi səviyyədə istifadə etmək imkanlarının olmaması;
- Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzü nəticəsində əhalinin ölüm səviyyəsinin artması, respublikamızın ərazisinin 20%-nin işğal edilməsi, 1 milyon nəfərdən çox qaçqın və məcburi köçkünün mövcud olması, işğal olunmuş ərazilərdə 300 mindən çox iş yerlərinin itirilməsi;
- Ölkə əhalisinin arasında müxtəlif xəstəliklərin artması;
- Əhali tərəfindən istehlak edilən ərzaq məhsullarının keyfiyyətinə və satışına nəzarətin zəif olması;
- Ekoloji tarazlığın pozulmasının sürətlənməsi və ona nəzarətin zəif olması;
- Sağlam yaşayış tərzinin ləng formalaşması və onun təbliğinin aşağı səviyyədə olması;
- Ölkədə miqrasiya proseslərinin tənzimlənməməsi;
- Demoqrafik inkişaf sahəsində dövlət siyasətinin olmaması və s.

Bu amillərin nəzərə alınmaması yaxın gələcəkdə respublikanın demoqrafik inkişaf vəziyyətinin daha da kəskinləşməsi ilə yanaşı, ölkədə geosiyasi və sosial–demoqrafik vəziyyətin nəzərə

çarpacaq dərəcədə dəyişilməsinə, dövlət tərəfindən sosial sığortanın və pensiya təminatının maliyyələşdirilməsinin gərginləşməsinə, azuşaqlı ailə modelinin formalaşmasına səbəb olmaqla, gənclər kontingentinin azalmasına gətirib çıxarar və nəticə etibarı ilə ölkənin milli təhlükəsizliyinə mənfi təsir göstərə bilər.

Ölkəmizdə yaranmış demoqrafik vəziyyətin və əhalisakinliyinin inkişaf dinamikasında baş verən dəyişikliklərin təhlil edilib öyrənilməsi və ümumiləşdirilməsi əsasında burada, ilk növbədə, həll olunması zəruri olan aşağıdakı sosial-iqtisadi və demoqrafik problemlərin mövcud olduğu aşkara çıxarılmışdır. Bu problemlərin ən başlıcaları aşağıdakılardan ibarətdir:

➢ əhalinin doğum səviyyəsinin sürətlə azalmasının qarşısının alınması;

➢ ömür uzunluğunun nisbətən aşağı olmasına (xüsusilə kişilərin) təsir göstərən mənfi amillərin qarşısının alınması;

➢ ailənin və nikah-ailə münasibətlərinin möhkəmləndirilməsi;

➢ əhalinin miqrasiyası axınının və onun cins-yaş quruluşunun səmərəliləşdirilməsi;

➢ əhalinin mənzil və məişət şəraitinin yaxşılaşdırılması;

➢ sosial infrastruktur sahələrinin inkişafının təmin edilməsi, o cümlədən səhiyyə və təhsilin maddi-texniki bazasının və kadr potensialının möhkəmləndirilməsi və təkmilləşdirilməsi;

➢ ana və uşaq ölümünün artmasına təsir göstərən mənfi meyllərin qarşısının alınması;

➢ istehsalın səviyyəsinin aşağı düşməsi və müəssisələrin əksər hissəsinin əhalinin istehlak tələbatına uyğun gələn əmtəə və xidmətlərlə bazarı təmin etmək qabiliyyətində olmaması hallarının qarşısının alınması;

➢ yeni iş yerlərinin açılması və gənclər arasında işsizliyin azaldılması;

➢ əhalinin real gəlirlərinin əsasında əmək haqqı və sosial ödəmələrin artırılması və gələcək nəslin tərbiyəsi üçün lazımi şərait yaradılmasına imkan verə biləcək həyat səviyyəsinin təmin edilməsi;

➢ uşaqların saxlanması və tərbiyəsinə yönəldilən xərclərin azaldılması və s.

Bu problemlərin həll edilməsi, ilk növbədə, demoqrafiya və əhalisakinliyi sahəsində dövlət siyasətinin işlənib hazırlanması və həyata keçirilməsini tələb edir.

Təsadüfi deyildir ki, **insan problemi**, ona olan qayğı və **fəal demoqrafiya siyasəti** məsələlərinin həlli **Azərbaycan dövlətinin sabiq başçısı Heydər Əliyevin fəaliyyət platforması konsepsiyasında daim ciddi proqram vəzifə kimi müəyyən edilmişdir. O, bir çox onilliklər ərzində keçmiş SSRİ-nin tərkibində olmuş Azərbaycanda kəskinləşən əhalisakinliyi və məşğulluq probleminin törədə biləcəyi mənfi sosial-iqtisadi və demoqrafik nəticələri əvvəlcədən hiss edərək, çox böyük uzaqgörənliklə, hələ 80-ci illərin əvvəllərində dünya ölkələri və keçmiş SSRİ rəhbərləri arasında ilk dəfə olaraq dövlət səviyyəsində «Respublikanın demoqrafik inkişafı və əhalinin işlə təmin edilməsi üçün elmi surətdə əsaslandırılmış uzunmüddətli konsepsiyasının»** işlənib hazırlanması vəzifəsini irəli sürüb, elmi cəhətdən əsaslandırmışdır. Ancaq cənab Heydər Əliyevin SSRİ rəhbərliyinə irəli çəkilməsindən sonra Azərbaycana «rəhbərlik» etmiş şəxslərin hamısı başqa mühüm məsələlər kimi bu məsələni də unutmuş və həmin sahədə heç bir təsirli tədbirlər görməmişlər. 1993-cü il iyunun 15-də xalqımızın böyük əksəriyyətinin təkidi ilə yenidən Azərbaycanın rəhbərliyinə gətirilərək demokratik yolla iki dəfə dalbadal ölkə prizidenti seçilmiş **cənab Heydər Əliyevin diqqəti bir daha yenidən həmin problemin həllinə yönəlmiş** və o, 1998-ci il dekabrın 28-də **«Azərbaycanda demoqrafik inkişaf konsepsiyasının»** hazırlanmasına dair sərəncam imzalamışdır. Həmin konsepsiya bu şərtlərin müəllifinin elmi rəhbərliyi ilə işlənib hazırlanaraq dövlətimizin sabiq başçısına təqdim edilmiş və onun «9» dekabr 1999-cu il tarixli sərəncamı ilə təsdiq edilərək «16» dekabr 1999-cu ildə respublika mətbuatında çap olunmuşdur.

Bu konsepsiyada başlıca məqsəd - demoqrafik hadisələrə təsir edən mühüm amilləri nəzərə alaraq, cəmiyyətin və onun hər bir üzvünün mənafeyinə uyğun olan əhalinin təkrar istehsalının kəmiyyət-keyfiyyət xarakteristikasının yaxşılaşdırılması üçün əlverişli həyat və əmək şəraiti yaratmaqdan ibarətdir.

Demoqrafiya sahəsində dövlət siyasətinin əsas məqsədi isə demoqrafik proseslərdə yaranmış neqativ meylləri aradan qaldırmaqla ölkənin uzunmüddətli inkişaf strategiyasına uyğun gələn əhalinin kəmiyyət-keyfiyyət artımını təmin etməkdən ibarətdir.

Demoqrafiya sahəsində dövlət siyasətinin qarşısında qoyulan əsas vəzifələr aşağıdakılardan ibarətdir:

➢ əhalinin kəmiyyət və keyfiyyətinin normal təkrar istehsalı üçün zəruri olan doğum səviyyəsini təmin edə biləcək şəraitin yaradılması;

➢ ölüm səviyyəsinin azaldılması, əhalinin sağlamlığının və həyatının yaxşılaşdırılması hesabına ömür müddətinin uzadılması;

➢ nikah və boşanma proseslərinin, bütünlükdə, cəmiyyətin və ayrılıqda hər bir ailənin mənafeyinə uyğun tərzdə nizamlanması;

➢ ictimai tərəqqinin həm yaxın, həm də uzaq gələcəyə perspektivləri nəzərə alınmaqla miqrasiya prosesinin tənzimlənməsi;

➢ respublikanın sosial-iqtisadi, siyasi və demoqrafik mənafelərini rəhbər tutaraq, ölkə ərazisində, o cümlədən sərhəd rayonlarında və işğal edilmiş regionlarda əhalinin məskunlaşmasının yaxşılaşdırılması və həmin ərazilərdə demoqrafik potensialın artırılması üçün şəraitin yaradılması;

➢ ailə institutunun mənəvi-əxlaqi dəyərlərinin təbliği və müdafiəsi, sağlam həyat tərzinin formalaşdırılmasının ümumbəşəri normalara uyğun tənzimlənməsi;

Demoqrafiya sahəsində dövlət siyasəti aşağıdakı prinsiplərə əsaslanmışdır:

➢ demoqrafiya siyasətinin respublika vətəndaşlarının hüquq və azadlıqlarının təmin edilməsinə tam uyğun şəkildə qurulması və hər kəsin millətindən, irqindən, yaşından, dini etiqadından, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, siyasi və digər əqidəsindən asılı olmadan həyata keçirilməsi;

➢ **sabitlik və uzunmüddətlilik** – demoqrafik siyasətin sabit və məqsədyönlü olub uzun müddəti əhatə etməsi;

➢ **sosial ədalətlilik** – bütün sosial-demoqrafik qruplardan və təbəqələrdən olan əhalinin (qadınların, kişilərin, gənclərin, pensiyaçıların, əlillərin, qocaların, qaçqın və məcburi köçkünlərin və s.) mənafelərinin qorunması;

➢ **komplekslilik** – görülən tədbirlərin ayrı-ayrılıqda deyil, sistem halında, maksimum mümkün olan demoqrafik nəticələr almaq məqsədilə demoqrafik inkişaf proqramının həyata keçirilən digər proqramlarla qarşılıqlı əlaqədə və asılılıqda həyata keçirilməsi (təhsil, miqrasiya, məşğulluq, məhsuldar qüvvələrin yerləşdirilməsi, ətraf mühitin mühafizəsi və s.);

➢ **elmlilik** – demoqrafiya siyasətinin elmi əsaslar üzərində qurulması;

➢ **təhsil, məşğulluq** və **tibbi xidmət**, o cümlədən cinsi və reproduktiv sağlamlığın və ailənin planlaşdırılması sahələrində cinslər arasında bərabərliyin bərqərar olmasına yardım edilməsi;

➢ Azərbaycan Respublikasında ekoloji cəhətdən təhlükəsiz və sabit iqtisadi inkişafın təmin edilməsi;

➢ Ölkənin sosial-iqtisadi inkişafının həm bu günkü, həm də gələcək nəslin hərtərəfli inkişafına yönəlməsinin təmin edilməsi.

Azərbaycan Respublikasında demoqrafiya sahəsində dövlət siyasətinin milli prioritetləri isə aşağıdakılardan ibarətdir:

➢ əhalinin, xüsusilə ana və uşaqların, eləcə də əmək qabiliyyətli yaşında olanların ölüm səviyyəsinin ardıcıl surətdə azaldılması yolu ilə cinslər və yaşlar üzrə ömür müddətinin uzadılması;

➢ aztəminatlı uşaqlı ailələrə, əlillərə, qaçqın və məcburi köçkünlərə ünvanlı sosial yardımın göstərilməsi;

➢ əhalinin bütün sosial-demoqrafik qrupları və təbəqələri üçün sağlam həyat tərzinin təmin edilməsi;

➢ ana və uşaqların sosial müdafiəsi və mühafizəsinin gücləndirilməsi;

➢ əhalinin sağlamlığının və həyatının yaxşılaşdırılması (qida məhsullarının keyfiyyətinin yaxşılaşdırılması, suyun, havanın çirklənməsinin qarşısının alınması, ətraf mühitin

sağlamlaşdırılması, yoluxucu və cinsi yolla keçən xəstəliklərin qarşısının alınması və tədricən ləğv edilməsi və s.);

➢ analıq və uşaqlığın müdafiəsi sahəsində aşağıdakı tədbirlərin həyata keçirilməsi:

a) ixtisaslaşdırılmış tata-genekoloji və pediatrik yardım sisteminin inkişaf etdirilməsi;

b) həddi-büluğ yaşına çatmış qızlara, bütün yaş qruplarından olan sağlam və xəstə uşaqlara dinamik həkim nəzarətinin və onların reabilitasiyasının təşkili və təmin edilməsi;

v) ailədə mənəvi-psixoloji mühitin formalaşdırılmasının təşkili və təmin edilməsi; təzə doğulmuş və bir yaşa qədər uşaqlar üçün ixtisaslaşdırılmış şöbələrin yaradılması və inkişaf etdirilməsi;

q) qadın və uşaqların dispanserləşdirilməsi keyfiyyətinin yüksəldilməsi, sağlam həyat tərzinin təbliği, gənc nəslin əxlaqi-gigiyeniya tərbiyəsinin təşkili və inkişaf etdirilməsi.

➢ **Əhalinin sağlamlığının möhkəmləndirilməsi və ömrün uzadılması məqsədilə** – ürək-damar, ankoloji, patonoloji, endokrinoloji, yoluxucu və başqa ən çox yayılmış xəstəliklərin qarşısını almağa imkan verən tədbirlər görülməsi, ayrı-ayrı xəstəliklər, bədbəxt hadisələr, zəhərlənmə və travmalar nəticəsində əlilliyin və ölüm hallarının azaldılması ilə bağlı tədbirlər görülməsi, səhiyyə təşkilatlarının maddi-texniki bazasının möhkəmləndirilməsi, müalicə-profilaktik təşkilatlar, sanatoriyalar, sanatoriya profilaktoriyalar şəbəkəsinin inkişafı və əhaliyə göstərilən tibbi yardımın səviyyəsinin yüksəldilməsi, ətraf mühitin mühafizəsi, əmək şəraitinin və mühafizəsinin yaxşılaşdırılması, əhali arasında sağlam həyat tərzinin və fəal fiziki istirahətin yayılması üzrə konkret tədbirlər görülməsi tələb olunur. ***Həmin məsələlər həll edilərkən ahıl yaşda olan insanların fəal həyat fəaliyyəti müddətinin uzadılması məsələsi də nəzərdən qaçmamalıdır***. Bunun üçün onların müvafiq işlə təminetmə sisteminin təkmilləşdirilməsi, ahıl yaşlı insanların peşə yönümü və yenidən hazırlanması, əməyin xüsusiyyətinin dəyişməsi, natamam iş rejimini tətbiq edərək iş yerlərinin artırılması, ahıl yaşlı insanların sağlamlığının möhkəmləndirilməsi, onlara

göstərilən xidmətin yaxşılaşdırılması və onların ictimai-siyasi həyata fəal cəlb edilməsinə xüsusi diqqət verilməsi və qayğı göstərilməsidir.

➢ əhalinin reproduktiv sağlamlığının yaxşılaşdırılmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsi, ailənin planlaşdırılması xidmətinin inkişafı və bu barədə əhalinin məlumatlandırılması və məlumat almalarının təmin edilməsi;

➢ tam məhsuldar və dəyərli həyat tərzinin təmin edilməsi məqsədilə təhsil və məhğulluq sisteminin inkişaf etdirilməsi;

➢ aztəminatlı əhaliyə, o cümlədən çoxuşaqlı ailələrə, qaçqın və məcburi köçkünlərə və s. pulsuz səhiyyə xidmətinin verilməsi;

➢ əhalinin demoqrafiya sahəsində biliklərinin artırılması, təhsil müəssisələrində demoqrafiyanın tədris olunması və demoqrafiya sahəsində elmi-tədqiqat işlərinin genişləndirilməsi, ali məktəblərdə bu sahədə kadr hazırlığının həyata keçirilməsi;

➢ miqrasiya prosesinin tənzimlənməsi.

Demoqrafiya sahəsində dövlət siyasətinin həyata keçirilməsi mexanizminin əsas tərkib hissələrini aşağıdakılar təşkil edir:

➢ demoqrafik proseslərin monitorinqi və kompleks qiymətləndirilməsi;

➢ yaxın və uzaq gələcəyə əhalisakinliyi və demoqrafik proseslərin inkişafı sahəsində Dövlət Proqramlarının hazırlanması;

➢ müxtəlif sosial-iqtisadi inkişaf proqramlarının hazırlanması zamanı demoqrafik siyasətin prioritet istiqamətlərinin nəzərə alınması.

Məlum olduğu kimi, dünyanın ayrı-ayrı ölkələrində əhalinin artım sürəti müxtəlif olduğundan onun tənzimlənməsinə yönəldilən tədbirlər sistemi də eyni ola bilməz. Bir qrup ölkələrdə bu tədbirlər sistemi əhali artımının sürətlənməsinə, digərlərində onun sürətinin ləngidilməsinə, başqalarında isə sabitləşdirilməsinə yönəldilir. Azərbaycan Respublikasında demoqrafik vəziyyətin xüsusiyyətləri nəzərə alınmaqla, dövlət səviyyəsində elə səmərəli demoqrafik siyasət tədbirləri işlənib hazırlanmalı və həyata keçirilməlidir ki, bu həm əhalinin özünün geniş təkrar istehsalını

təmin edən optimal doğum səviyyəsinin formalaşmasına və ölüm səviyyəsinin azalmasına imkan versin və həm də əhalinin səmərəli məşğulluğunun təmin edilməsinə geniş şərait yarada bilsin.

Bunun üçün, əhalinin doğum səviyyəsinin azalmasının sürətlənməsinin qarşısını almaq və onun sabitliyini təmin etmək məqsədilə **əvvəla,** uşaqlı ailələrin dövlət səviyyəsində müdafiəsi təmin edilməli və doğum problemi ilə bağlı strateji tədbirlər sistemi həyat tərzinin elə tərəflərinin inkişafına yönəldilməlidir ki, o, uşaqlı ailələrin bütün yaşayış dövrlərində hərtərəfli inkişafına müsbət təsir göstərə bilsin; **ikincisi,** respublikada həyata keçirilən demoqrafiya siyasəti vahid strateji istiqamətə malik olmalı, onun sosial-iqtisadi inkişafını, əhalinin təkrar istehsalı və milli xüsusiyyətlərini özündə əks etdirməlidir; **üçüncüsü,** əhalinin normal təkrar istehsalı prosesinin həyata keçirilməsini təmin etmək məqsədilə respublikada mövcud olan və yeni yaradılan ailələrin ən azı 70-80 faizində 2-3, o cümlədən bütün ailələrin 40-45 faizində 2 nəfər, 30-40 faizində isə 3 nəfər uşaq doğulub tərbiyə edilməsi üçün şərait yaradılmalı; 3-4 uşaqlı ailələrin ideal ailə kimi qiymətləndirilməsi və stimullaşdırılması məqsədilə onların sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün müxtəlif ödənclər və güzəştlər müəyyənləşdirilməli; çoxuşaqlı ailələrə maddi yardımı gücləndirmək məqsədilə xüsusi müəssisələrdən, imkanlı adamların könüllü yardımından geniş istifadə edilməklə vəsait cəlb edilməsi təşkil edilməli; **dördüncüsü**, gənclərin arasında nikahın artırılması üçün gənc ailələrə yardımın və müxtəlif güzəştlərin müəyyən edilməsi, onların mənzillə təminatı və mənzil şəraitinin yaxşılaşdırılması dövlət səviyyəsində həll edilməli; **beşincisi,** əhalinin ölüm səviyyəsi xüsusilə uşaqlar, körpələr və əmək qabiliyyətli yaşında olan adamlar arasında azaldılmalı; anaların mühafizəsinə diqqəti artırmaq üçün səhiyyə sistemi təkmilləşdirilməli, onun maddi-texniki bazası möhkəmləndirilməli, həkim kadrların, o cümlədən uşaq həkimlərinin hazırlanması və onların ixtisaslarının artırılmasına xüsusi qayğı göstərilməli və bu iş ciddi dövlət nəzarətinə götürülməli; **altıncısı,** demoqrafik siyasət tədbirləri ilə sıx surətdə bağlı olan əhali miqrasiyası məsələləri dövlətin ciddi nəzarəti altına alınmalı və bunun üçün respub-

likada qanunvericilik yolu ilə xüsusi qayda yaradılmalı, miqrasiyanın kortəbii surətdə baş verməsinin qarşısı alınmalı, bu prosesə təsir göstərmək yolları araşdırılıb tapılmalı, dövlət və cəmiyyət üçün həmin prosesin törətdiyi neqativ hallara qarşı ciddi mübarizə aparılmalı, miqrantların potensialından səmərəli istifadə edilməsi üçün tədbirlər işlənib hazırlanmalı, bu zaman miqrantlar üçün xüsusi kvotalar qoyulmalı və ona ciddi nəzarət edilməli, işsizlik səviyyəsinin yüksək olduğu indiki şəraitdə onlara xüsusi kvotalar qoyulmalıdır.

Bütün bu deyilənləri özündə əks etdirən və Azərbaycan Respublikasının sabiq prezidenti cənab Heydər Əlirza oğlu Əliyevin sərəncamı ilə hazırlanaraq, «9» dekabr 1999-cu ildə onun tərəfindən təsdiq edilmiş «**Azərbaycanın demoqrafik inkişaf konsepsiyasında**» nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini sürətləndirmək məqsədi ilə «23» iyun 2003-cü il «**Azərbaycan Respublikasında demoqrafiya və əhalisakinliyinin inkişafı sahəsində Dövlət Proqramının hazırlanması üzrə Dövlət Komissiyasının tərkibi**» barədə yeni sərəncam imzalanmışdır. Həmin dövlət komissiyasının üzvlərindən biri olan bu şərtlərin müəllifinin iştirakı ilə adı çəkilən **Dövlət Proqramı** da işlənib hazırlanmış və dövlət başçısına təqdim ediləcəkdir. Bu proqramda irəli sürülmüş vəzifələrin yerinə yetirilməsi ölkəmizin əhalisinin normal təkrar istehsalının təmin edilməsinə imkan yaradacaq və onun dinamik inkişafına köməklik göstərəcəkdir.

Proqnoz məlumatlarına əsasən, həmin proqramın həyata keçirilməsi bir sıra müsbət sosial-demoqrafik nəticələrə gətirib çıxaracaqdır. Bunlar əsasən aşağıdakılardan ibarətdir:

➢ Azərbaycanda əhalinin təbii artım əmsalı artaraq 2001-ci ildəki 8,1‰ -dən 2010-cu ildə 13,7‰-ə çatacaqdır ki, bu da əsas etibarı ilə doğum səviyyəsinin artması hesabına baş verəcəkdir. Aparılan proqnoz hesablamalarına əsasən, əhalinin hər 1000 nəfərinə düşən doğum səviyyəsi 2010-cu ildə 19,4 nəfər, 2015-ci ildə isə 18,4 nəfər təşkil edəcək və ya 2001-ci ildəkinə nisbətən (2001-ci ildə – 13,8 nəfər təşkil edib) müvafiq surətdə 40,6 və 33,3 faiz artacaqdır.

➢ Respublikada doğum səviyyəsinin yuxarıda deyilən qaydada artmasına əsas etibarı ilə fertil yaşında (15-49 yaş) olan

qadınların sayının dəyişilməsi təsir göstərəcəkdir. Proqnoz məlumatlarına əsasən, 2000-ci ilə nisbətən burada 2010-cu ildə fertil yaşda qadınların sayı 351,4 min nəfər və ya 15,5 faiz, 2015-ci ildə isə 296,0 min nəfər və ya 10,3 faiz artacaqdır. Bu da 1980-1990-cı illərdə doğum səviyyəsinin yüksək olması ilə bağlı olub, həmin illərdə doğulanların 2010—2015-ci illərdə fəal reproduktiv yaşa daxil olacaqları ilə izah olunur.

➢ Proqnozlara əsasən, respublikadakı kənd əhalisinin artım sürəti də xeyli yüksələcəkdir. Daha doğrusu, 2010-cu ilədək olan dövrdə Azərbaycanda şəhər əhalisinin sayı, orta hesabla, 103-104 faiz, kənd əhalisinin sayı isə 106-107 faiz artacaqdır. Dövlət səviyyəsində həyata keçiriləcək iqtisadi-sosial və siyasi tədbirlər nəticəsində şəhər və kənd əhalisi arasındakı nisbət (müvafiq surətdə 49,8% və 50,2%) kənd əhalisinin xeyrinə dəyişəcəkdir.

➢ Ölkə əhalisi arasındakı doğum səviyyəsi başqa ölkələrindəkinə nisbətən gələcəkdə də yüksək olaraq qalacaqdır ki, buna da əsas etibarı ilə respublika əhalisinin etnik xüsusiyyətləri təsir göstərəcəkdir.

➢ Qadınlarla kişilərin sayı arasındakı nisbət bir qədər azalsa da, bütünlükdə əhali arasında qadınların xüsusi çəkisi üstünlük təşkil edəcəkdir (2010-cu və 2015-ci illərdə qadınların və kişilərin xüsusi çəkiləri müvafiq surətdə 50,9% və 49,1%, 50,8% və 49,2% təşkil edəcək), bu, əsasən kişi ömrünün uzadılması və miqrasiyanın azalması nəticəsində baş verəcəkdir;

➢ Respublikada əhalinin ümumi ölüm səviyyəsinin azalması da müşahidə olunacaqdır. Bu dövrdə körpə uşaq ölümünün müəyyən qədər aşağı düşməsi də gözlənilir. 2010-cu ildə əhalinin ümumi ölüm əmsalı təqribən 5,6%, 2015-ci ildə isə 5,5% olacaqdır. Əgər 2001-ci ildə hər 1000 nəfər doğulan 1 yaşa qədər uşağa 12,3 nəfər ölən düşürdüsə, 2010-cu ildə bu göstərici təqribən 11,1 nəfər, 2015-ci ildə isə – 9,9 nəfər təşkil edəcək və ya 9,8 faiz və 19,5 faiz azalacaqdır. Buna respublikada baş verəcək sosial-iqtisadi vəziyyət, xüsusən də səhiyyənin inkişafı səbəb olacaqdır;

➢ proqnoz dövründə oğlan uşaqlarının ölüm əmsalı qız uşaqlarının ölüm əmsalından xeyli yüksək olacaqdır. Buna

baxmayaraq, oğlanlarla qızların ölüm əmsallarında olan fərq tədricən azalmağa doğru meyl edəcəkdir (2001-ci ildə oğlan uşaqlarının ölüm əmsalı qız uşaqlarının ölüm əmsalından 2,2 faiz bənd yüksək idisə, 2010-cu ildə bu əmsal fərqi 1,5 və 2015-ci ildə isə – 1,2 faiz bənd təşkil edəcək, yəni 2001-ci ilə nisbətən müvafiq olaraq 0,7 və 1,0 faiz bənd azalacaqdır);

➢ əhalinin ömür uzunluğu 2010 və 2015-ci illərdə müvafiq surətdə 72,9 və 74,2 yaş, o cümlədən kişilər üçün 69,8 və 71,2 yaş, qadınlar üçün isə 76,0 və 77,2 yaş olacağı gözlənilir;

➢ əhalinin yaş qrupları arasında 0-14 yaşlıların xüsusi çəkisi isə nisbətən aşağı düşəcəkdir. 2015-ci ildə bu yaş qrupunun ümumi əhali sayındakı xüsusi çəkisi 2000-ci ilə nisbətən 8,3 faiz bənd aşağı düşəcək. Əmək qabiliyyətli (15-59) əhalinin yaş qrupunun xüsusi çəkisi nisbətən artacaq (2015-ci ildə bu yaş qrupun ümumi əhali sayındakı xüsusi çəkisi 2000-ci ilə nisbətən 7,8 faiz bənd artacağı gözlənilir. Bu isə üç demoqrafik prosesin təsiri altda formalaşır: **doğum, ölüm, əhalinin miqrasiyası**), ahıl yaş qruplarının (60 yaş və yuxarı), xüsusilə qadınları, əhalinin ümumi sayında xüsusi çəkisi nisbətən artacaq. 2015-ci ildə bu yaş qrupunun əhalinin ümumi sayında xüsusi çəkisi 2000-ci ilə nisbətən 0,5 faiz bənd artacaqdır ki, bu da əhalinin ömür uzunluğunun artacağı ilə bağlı olacaqdır.)

Bütün bu deyilənlərdən belə nəticəyə gəlmək olar ki, yaxın və uzaq gələcəkdə Müstəqil Azərbaycan dövlətinin intellektual insan potensialının artıb çoxalması və onların əməyindən səmərəli istifadə edilməsi üçün hər cür maddi və mənəvi imkanları indikinə nisbətən qat-qat çox olacaqdır. Bu potensialın gələcəkdə də qorunub saxlanması, inkişaf etdirilib təkmilləşdirilməsi, ondan dolğun və səmərəli istifadə edilməsi xalqımızın həyat səviyyəsinin getdikcə yüksəlməsinə və ölkəmizin dünya birliyində özünə daha layiqli yer tutmasına təkan verəcəkdir.

6.5. *GƏNCLƏRİN VƏ PENSİYAÇILARIN MƏŞĞULLUQ PROBLEMLƏRİ*

Ölkəmizdə həyata keçirilən sosial siyasətin mühüm istiqamətlərindən biri də gənclərin və pensiyaçıların əməyinin düzgün təşkil edilməsi və onların səmərəli məşğulluğunun təmin olunmasına dövlət qayğısının artırılmasından ibarətdir. Bu kateqoriyaya daxil olan əhali qruplarının **birincisinə** – ölkə əhalisinin təbii təkrar istehsalının və onun mühüm tərkib hissəsi olan əmək ehtiyatlarının formalaşması və inkişafının təbii əsasını təşkil edən gənclər daxildirlərsə, **ikincisinə** - daha mükəmməl əmək və peşə vərdişlərinə, yüksək təcrübəyə və təhsil səviyyəsinə malik olan pensiyaçılar daxildirlər. Buna görə də həmin əhali qruplarının əmək lərinin düzgün təşkil edilməsi və səmərəli məşğulluqlarının təmin olunması ilə bağlı məsələlərin tədqiqinə onların hər birinin özünəməxsus xüsusiyyətləri və problemləri baxımından yanaşmağı zəruri edir. Həmin problemin araşdırılması isə ilk növbədə bu anlayışların özlərinin mahiyyət və məzmununun aydınlaşdırılmasını tələb edir. Məlum olduğu kimi, iqtisadi ədəbiyyatlarda və rəsmi dövlət sənədlərində ümumi qəbul edilmiş «**gənclik**» anlayışına tam və dəqiq müəyyən edilməmiş yaşlarda olan əhali qrupları aid edilir. Son vaxtlaradək bir qrup müəllif həmin anlayışa 14-25, başqa bir qrup 16-30, digər bir qrup mütəxəssislər isə 16-29 yaşlı adamları aid etmişlər. Sovet hakimiyyəti illərində komsomola daxil olmaq üçün 15-27 yaş, yetkinlik yaşına keçid üçün 16 yaş, kəbin kəsdirmək və seçib-seçilmək hüququ üçün 18 yaş müəyyən edilmişdir. Tibb elmində isə gənclik anlayışının son həddi 25 yaş kimi götürülmüşdür. Ayrı-ayrı peşə sahibləri üçün isə bu yaş dövrü müxtəlifdir. Məsələn, ölkəmizdə bu dövr elmi əməkdaşlar üçün 35 yaş, hərbi xidmətə çağırış üçün 35 yaş və sair qəbul edilmişdir. Məsələ burasındadır ki, **gənclik insan həyatının elə dövrünü əhatə edir ki, onun çox tərəfləri müxtəlif müddətləri əhatə etmək baxımından özünü müəyyən yaş həddində büruzə verir**. Buna görə də məcmu insanların öz inkişafında keçdiyi bu dövrü hər bir bilik sahəsi öz qanunlarına uyğun şəkildə müəyyənləşdirir. Çünki insan həyatı heç də həmişə bir-

birinə tam uyğun gəlməyən mürəkkəb bioloji, psixoloji və sosial inkişafdan ibarətdir. Bir qayda olaraq, insanların fizioloji cəhətdən yetkinləşməsi onların psixoloji, xüsusilə də sosial cəhətdən yetkinləşməsindən əvvəl meydana çıxır. Hər bir yaşın özünəməxsus fizioloji və sosial-psixoloji xüsusiyyətləri olduğundan bütünlükdə insan həyatı **körpə, uşaqlıq, yeniyetmə, gənclik, yetginlik və qocalıq** dövrlərinə bölünür.

Gənclik dövrü dedikdə – bir qayda olaraq, uşaqlıqdan yetkinlik dövrünə keçid başa düşülür. Bioloji cəhətdən bu dövrün əsas əlaməti insanın cinsi cəhətdən yetkinləşməsidir. Bununla belə, cinsi yetginliyə hələ heç də yaşlı adamın istehsalatda, ailədə, cəmiyyətdə və sairdə yerinə yetirdiyi rol və funksiyalarda özünü əks etdirən sosial yetkinlik kimi baxmaq olmaz. Fizioloji yetkinlikdən sosial yetkinliyə keçid gənclik əlamətidir. Tam sosial yetginliyə və bütün sosial funksiyalara yiyələnməklə, «yaşlı» adamın gənclik dövrü başa çatır. Başqa sözlə, **gənc dedikdə** – elə insan kateqoriyası başa düşülür ki, o, öz inkişaflarında fizioloji, psixoloji və sosial yetkinlik mərhələlərini keçmiş olsun. Bu yaş həddi dövrü son dərəcə dəyişkən olub insanın bir çox sosial və fərdi xüsusiyyətlərindən, habelə konkret tarixi şəraitdən asılıdır.

Keçmişdə insanlar istehsalın və sosial strukturların zəif olduğu şəraitdə sosial rol və vərdişlərə daha tez nail olurdular. Ömür müddətinin qısa, uşaq ölümünün isə yüksək olması cəmiyyətə «hazırlıq müddətini» uzatmağa imkan vermirdi. Belə ki, əgər XX əsrin əvvəllərində ölkəmizdə orta ömür müddəti 32 yaş, əmək fəaliyyətinə başlamaq dövrü isə əksər halda 12 yaşa təsadüf edirdisə, gənclik dövrü 18-20 yaşda başa çatırdı.

Müasir dövrdə əksər inkişaf etmiş ölkələrdə cinsi yetkinlik yaşı nisbətən tez, sosial yetkinlik dövrü isə gec baş verir. Fizioloji və sosial yetkinlik arasındakı uyğunsuzluq isə olduqca böyükdür. ABŞ, Yaponiya, Fransa, Çexiya, Slovakiya və Polşa alimlərinin apardıqları tibbi-statistik tədqiqatlara əsasən müəyyən edilmişdir ki, yeniyetmələrin cinsi yetkinlik dövrü, keçmiş əsrlərdə olduğuna nisbətən hazırda bir qədər əvvəl, bəzi hallarda isə 2-3 il tez baş verir. İndiki dövrün yeniyetmələri keçən əsrlərin ortalarında yaşamış yeniyetmələrlə

müqayisədə 15-20 sm. hündürdürlər. Məsələn, yaxın keçmişdə SSRİ-nin texniki peşə məktəblərində oxuyan 15 yaşlı şagirdlərin boyu istehsalatda işləyən həmin yaşda olan yeniyetmələrin boyu XIX əsrin əvvəllərində (1822-ci ildə) olduğuna nisbətən 12 sm. hündür, çəkiləri isə 12 kq. çox olmuşdu.[438]

Uşaqların fiziki cəhətdən inkişaflarının sürətlənməsi təkcə onların yeməkləri və onlara göstərilən tibbi xidmətlərin yaxşılaşması ilə deyil, həm də bəzi sosial-psixoloji amillərin (ədəbiyyatın, incəsənətin və s.) təsiri ilə bağlıdır. Eyni zamanda, təhsil almaq üçün zəruri olan vaxtın uzanması və başqa səbəblərlə (istehsalın, sosial strukturun mürəkkəbləşməsi və s.) əlaqədar olaraq hazırda sosial yetkinlik və şəxsi sərbəstlik dövrü də xeyli gec baş verir. Ümumi meyl belədir. Onu da qeyd etmək lazımdır ki, gənclik yaşı təbii şəraitdən və milli xüsusiyyətlərdən asılı olaraq tərəddüd etdiyindən müxtəlif ölkələrdə və hətta eyni bir ölkənin ayrı-ayrı ərazilərində müxtəlif olur. Ancaq sosial yetkinlik əsas etibarı ilə müəyyən edilmiş təhsil normasından və əmək fəaliyyətinə başlamaq dövründən asılı olduğundan, o, yalnız ölkələr üzrə fərqlənir. Gənclik dövrünün özünün isə cinsi cəhətdən tez, sosial cəhətdən gec yetkinlik, habelə məlum sosial rolların fərqli olması hesabına uzanması isə gənclik dövrünün müxtəlifliyini şərtləndirir. Məsələn, 13-15, 17-18 və 25 yaşlar arasında əhəmiyyətli fərqlər vardır. Erkən gənclik dövrü isə yetkinlik kimi qəbul olunmuşdur. Yaş sərhədlərində qeyd edilən tərəddüdlər isə gənclər və yeniyetmələr, gənclər və böyüklər arasında dəqiq sərhədlərin müəyyən edilməsini çətinləşdirir. Vaxtı ilə görkəmli sosioloq alim İ.S.Kop haqlı olaraq yazırdı ki, bu, cəmiyyətdə yaşdan daha çox yaş qrupları arasındakı nisbətlik üçün xas sosial funksiyaların qeyri-müəyyənliyi ilə izah edilir.[439]

Cəmiyyətdə müəyyən yaş qrupları ilə yanaşı, insanların istehsal, əmlak, cins və sair əlamətlər üzrə bölünməsi bütün

---

[438] B a x: *В.Властовский.* Акселерация – одна из загадок XX века. Журнал «Наука и жизнь», Москва.1996, №12; *Т.Р.Зарихта, И.Н.Назимов.* «Рациональное использование трудовых ресурсов молодёжи». Москва, «Экономика», 1970, s. 7.

[439] B a x: *С.М.Коп.* Социология личности. М., 1967, с. 109-115

quruluşlar üçün xarakterikdir. Eyni yaş qruplarından olan insanları özündə birləşdirən «**yaş qrupu**» anlayışı isə tez-tez «**nəsil**» anlayışı ilə eyniləşdirilir. Onu da qeyd etmək lazımdır ki, «**nəsil**» anlıyışının özü də bir neçə məna kəsb edir: 1) bir vaxtda və ya təqribən eyni bir dövrdə anadan olmuş insanlar; 2) ümumi əcdaddan əmələ gələn pillə (nəvə, ata, baba – üç nəsil); 3) valideynlərin doğulmasından onların övladlarının doğulmasınadək olan dövr (təqribən 30 il); 4) ömür müddətinə fərq qoyulmadan - ümumi həyat təcrübəsi olan, eyni iztirabları görmüş, tarixi hadisələrin şahidi olmuş, bir-birinin müasiri olan insanlar.

«Gənc nəsil» anlayışı isə tam yetkinlik səviyyəsinə çatmamış uşaqlar və gənclərdən ibarət olan insanlara deyilir. Bu anlayış dəqiq olmasa da aşağı və **yuxarı həddi** olan «**gənclik**» anlayışına nisbətən **daha geniş və mücərrəd xarakter daşıyır.** Gənc nəslə hər hansı bir yaşda olan uşaqlar, hətta yeni doğulmuşlar və bu yaşa çatmamış bütün gənclər daxil edilirlər. Buna görə də bu anlayış bir qayda olaraq ona adekvat olan nəsil anlayışı ilə əvəz edilir. Ancaq qeyd edilən anlayışların mahiyyət və məzmununun açıqlanması da hələlik tamamlanmamışdır. Tədqiqatda qarşıya qoyulan məqsəddən asılı olaraq, həmin anlayışın mahiyyətinə xeyli əlavələr də edilməsi mümkündür. **Burada bizim qarşıya qoyduğumuz məqsəd gənclərin ictimai istehsala cəlb edilməsi və onların əməyindən səmərəli istifadə olunması ilə bağlı məsələlərin işıqlandırılmasından ibarət olduğundan ona iş qüvvəsinin tamamlanması mənbəyi kimi yanaşmışıq**. Heç şübhə yoxdur ki, bir tədqiqat işində gənclərin əməyindən istifadənin bütün tərəflərinin öyrənilməsi qeyri-mümkün olduğundan burada əsas diqqətimizi həmin məsələnin ən ümumi tərəflərinin nəzərdən keçirilməsinə verməyi məqsədəuyğun hesab etdik. Bu, təsadüfi olmayıb, ölkəmizin xalq təsərrüfatının iş qüvvəsi ilə təmin edilməsinin yeganə təbii əsasını təşkil edən gənclərin vaxtında və keyfiyyətlə əməyə hazırlanması, fəaliyyət dairələri arasında düzgün bölüşdürülməsi və onların əməyindən səmərəli istifadə edilməsi zərurətilə bağlıdır. **Çünki gənclər əmək ehtiyatları əmək qabiliyyətli yaşda olan əhalinin elə mühüm hissəsini təşkil edirlər ki, onlar müəyyən**

spesifik əlamətləri ilə bütündükdə əmək ehtiyatlarından fərqlənirlər. Bu özünü, **hər şeydən əvvəl**, onların ən gənc əmək ehtiyatları olmasında (buraya 16-29 yaşında əhali qrupu daxildir) və bu səbəbdən **də daha uzunmüddətli əmək fəaliyyəti qabiliyyətinə malik olmalarında əks etdirir. İkincisi**, gənclər daha çox yüksək təhsil hazırlığı səviyyəsinə malik olmaları ilə fərqlənirlər və bu keyfiyyət göstəricisi onların əməyə münasibətlərində və daha mürəkkəb peşə və ixtisaslara yiyələnməsində özünü büruzə verir. **Üçüncüsü**, gənclər əmək ehtiyatlarının həm ərazi, sahə, həm də peşə və sosial cəhətdən ən çevik hissəsini təşkil edirlər.

Hazırda sahələrarası və ərazilər üzrə iş qüvvəsinin yenidən bölüşdürülməsi probleminin həlli məhz gənclərlə bağlıdır. Çünki onlar miqrasiya edənlər və işçilərin sahələr arasında yenidən bölüşdürülməsi prosesində həlledici rol oynayırlar. Nəhayət, **dördüncüsü**, gənclər demoqrafik cəhətdən də ən fəal əhali qrupunu təşkil etdiklərindən, əhalinin təkrar istehsalı prosesinin ahəngdar surətdə həyata keçməsi də demək olar ki, əsasən gənclərdən asılıdır.

Bütün bunlar gənclərin əməyə hazırlanması, onların peşə seçmələri, işə düzəldilmələri və istehsalata uyğunlaşdırılmaları üzrə sistem yaradılması və bu sistemin daim inkişaf etdirilib təkmilləşdirilməsini tələb edir.

Gənclərə peşə seçməyin öyrədilməsi onların daha gənc yaşlarında, daha doğrusu orta təhsil məktəblərində oxuduqları və müxtəlif sistemlərdə peşə öyrəndikləri dövrdə aktualdır. Gələcəkdə adamların peşə fəaliyyətlərinin taleyi və bütünlükdə ictimai istehsalın səmərəliliyi də məhz bu dövrdə gənclərin peşə seçmələrinin nə dərəcədə doğru olub-olmamasından asılı olacaqdır. Buna görə də hazırda gənclərin əməyə hazırlanması və onların iş yerləri ilə təmin edilməsi dövlətimizin qarşısında duran ən ümdə vəzifələrdən biridir. Bunun üçün təhsil sistemi sahəsində köklü islahatlar aparılmalı, şagirdlərin əmək təlimi üçün, orta məktəbin hər bir məzununun kütləvi peşələrdən birinə yiyələnməsi üçün lazımi şərait yaradılmalı, gənclərin peşəyönümü işi təkmilləşdirilməli, texniki peşə təhsili sistemi inkişaf etdirilməli, elmi-texniki tərəqqinin tələblərinə uyğun olaraq bilavasitə istehsalatda ixtisaslı fəhlələr hazırlanması

yaxşılaşdırılmalı, hamı - tərbiyəçilik formaları yenidən canlandırılmalı və təkmilləşdirilməlidir. **Ali və orta ixtisas təhsilli mütəxəssislər hazırlanarkən təlimin səmərəli metodları və məqsədli formaları tətbiq edilməli,** ali məktəblərdə genişprofilli mütəxəssislər hazırlamaq xətti həyata keçirilməlidir.

Burada onu da qeyd etmək lazımdır ki, keçmiş İttifaq məkanına daxil olan ölkələrin əksər tədqiqatçıları gənc əmək kateqoryasına 16-29 yaşında olan əhali qrupunu daxil edirdilər və burada onu əsas götürürdülər ki, bu yaş dövründə gənclərin əmək və peşələrə yiyələnmək prosesinin təkmilləşməsi, habelə onların istehsalata uyğunlaşması əsasən başa çatır. Bu qrup əhalinin iqtisadi funksiyası isə onların bütünlükdə ölkədə və onun ayrı-ayrı ərazilərində əmək potensialının formalaşmasında oynadığı rol və tutduğu yerlə müəyyən edilir.

Gənc əmək ehtiyatları qrupuna daxil olanlar şərti olaraq iki yerə: **oxuyanlara** (16-24 yaşında) və **işləyənlərə** (25-29 yaşında) bölünürlər. Oxuyan gənclərlə işləyən gənclər qrupuna daxil olanlar üçün ən xarakterik meyl onların arasında oxuyanların xüsusi çəkisinin, 25-29 yaşlı gənclər arasında isə işləyənlərin xüsusi çəkisinin daha yüksək olmasından ibarətdir.

Elmi-Texniki Tərəqqinin sürətli inkişafı və onun nailiyyətlərinin geniş miqyasda istehsalata tətbiqi, ölkəmizin həyatında baş verən bir sıra sosial-iqtisadi dəyişikliklər, xalq təsərrüfatının daha yüksək ixtisaslı və təhsilli kadrlara olan tələbinin artması ilə əlaqədar olaraq, **gənclərin çox hissəsi öz əmək fəaliyyətinə orta ixtisas və ali təhsil aldıqdan sonra başlayır.** Bunun nəticəsidir ki, axırıncı onilliklər ərzində ölkənin xalq təsərrüfatında məşğul olanlar arasında 16-17 yaşında olanların xüsusi çəkisi sürətlə azalmağa başlamış və bu yaş qrupu tədricən əmək ehtiyatlarının formalaşması mənbəyi kimi də öz əhəmiyyətini itirməyə başlamışdır. 1999-cu ilin əhali siyahıya alınması məlumatlarına əsasən, respublikamızın iqtisadiyyatında məşğul olan 2847,7 min nəfər əhalinin 151,1 min nəfərini və ya cəmi 5,3 faizini 16-19 yaşında olanlar, 369,5 min nəfərini və ya 13,0 faizini 20-24 yaşında olanlar, 491,0 min nəfərini və ya 14,8 yaizini isə 25-29 yaşında olanlar təşkil etmişlər. Həmin əhalinin müvafiq qaydada 44,2; 47,7 və 46,4 faizi isə qadınlar

olmuşdur.[440] Statistik məlumatların təhlilindən aydın olur ki, iqtisadiyyatda işləyən gənclər arasında qadınların xüsusi çəkisi şəhər və kənd yerləri üzrə də bir-birindən fərqlənir. Qeyd edilən dövrdə şəhər yerlərində bütünlükdə məşğul olanlar arasında qadınların xüsusi çəkisi 41,6 faiz, o cümlədən 16-19 yaşlılar arasında 42,7 faiz, 20-24 aşlılar arasında 44,8 25-29 yaşlılar arasında isə 43,0 faiz, kənd yerlərində isə müvafiq surətdə 47,9; 51,8; 49,3 və 48,6 faiz təşkil etmişdir.[441]

Yuxarıda göstərilən rəqəmlərdən aydın olur ki, respublikamızın istər şəhər və istərsə də kənd yerlərində məşğul olan bütün əhali arasında, eləcə də gənclər arasında qadınların xüsusi çəkisinin xeyli aşağı olması, **əvvəla**, respublikamızda ailənin maddi cəhətdən təmin edilməsi işinin milli adət-ənənələrə əsasən ilk növbədə ailədəki kişilərin funksiyası ilə; **ikincisi,** kənd və şəhər yerlərində yaşayan oğlan və qızların şəhər yerlərində yaşayan oğlan və qızlara nisbətən peşə-ixtisas və təhsil səviyyələrinin xeyli aşağı olması ilə əlaqədar olaraq, onların xüsusi təhsil səviyyəsi və peşə əməyi tətbiq edilən iş proseslərinə geniş cəlb edilə bilməməsi və nəhayət, **üçüncüsü**, kənd yerlərində doğum səviyyəsinin nisbətən yüksək olması və bunun əksinə olaraq, burada əhaliyə göstərilən ictimai xidmət sahələrinin şəhər yerlərinə nisbətən xeyli aşağı olması üzündən kənd yerlərində gənc ana — qadınların bir qisminin ictimai istehsaldan ayrı düşüb ev təsərrüfatı ilə məşğul olması və sairə bu kimi bir sıra sosial-iqtisadi və demoqrafik xarakterli səbəblərlə əlaqədardır.

Kənd yerlərində çalışan gənclər arasında qızların xüsusi çəkisinin nisbətən yüksək olmasının əsas səbəbi isə ondan ibarətdir ki, buradan gənc oğlanların xeyli bir qisminin iş axtarmaq və təhsil almaq üçün şəhər yerlərinə çıxıb getmələri və qadın əməyinin geniş tətbiq edildiyi kənd təsərrüfatı istehsalı sahələrinin (pambıqçılıq, üzümçülük, tütünçülük, baramaçılıq,

---

[440] Azərbaycan Respublikası əhalisinin siyahıya alınması. 1999. Bakı, 2001, s. 194.
[441] Yenə orada.

bağçılıq, heyvandarlıq) inkişafı ilə bağlıdır. Kənd yerlərində yaşayan qızların əsas hissəsinin kənd təsərrüfatında çalışmasının başlıca səbəbi isə onların kənd həyat tərzini üstün tutması və çoxuşaqlılıq ənənəsinin qorunub saxlanması ilə əlaqədar olaraq miqrasiya prosesində zəif iştirak etməsi və qeyri-kənd təsərrüfatı əməyinə lazımi dərəcədə yiyələnməmələridir. **Bu isə, öz növbəsində, bir tərəfdən, kənd yerlərində xeyli sayda əmək qabiliyyətli əhalinin, xüsusilə də gənclərin işsiz qalmasına, digər tərəfdən isə bəzi istehsal sahələrində ixtisaslı iş qüvvəsi çatışmazlığına səbəb olur.** Çünki müvafiq peşə hazırlığına malik olmayan gəncləri həmin sahələrə cəlb etmək işi çətinləşir. Nəticədə ümumorta təhsil səviyyəsinə malik olan gənclərin əhəmiyyətli bir hissəsi peşə-ixtisas təhsilinə malik olmadıqlarından xalq təsərrüfatının müxtəlif sahələrində ixtisassız əmək tətbiq edilən işlərdə məşğul olmağa məcbur olur. Bu isə obyektiv olaraq gənclərin aldığı ümumorta təhsilin qiymətini aşağı salır və onların peşə-ixtisas səviyyəsinin yüksəldilməsi imkanlarını məhdudlaşdırır. Həmin vəziyyətin aradan qaldırılması gənclərin ümumtəhsil və peşə hazırlığının artırılmasını tələb edir. Nəzərə almaq lazımdır ki, məşğulluq xidməti orqanlarının məlumatlarına əsasən, 2004-cü ilin yanvar ayının əvvəlinə respublikada qeydə alınmış 53,4 min nəfər işsiz əhalinin 24,6 min nəfərini və ya 46,1 faizini 35 yaşdan aşağı olan gənclər təşkil etmişlər. Qeydə alınmış həmin işsiz gənclərin daha çox hissəsi Naxçıvanda (16,3 faizi), Bakıda (12,0 faizi), Ağdamda (9,4 faizi), Bərdədə (5,7 faizi), Zaqatalada (2,4 faizi), Cəlilabadda (3,0 faizi), habelə Kəlbəcər (3,9 faizi), Cəbrayıl (2,6 faizi), Laçın (2,2 faizi), Füzuli (1,6 faizi) qaçqınları arasında qeydə alınmışdır. Onu da qeyd etmək lazımdır ki, gənclər qeydə alınmış işsizlərin Naxçıvanda 55 faizini, Bakıda – 36,1 faizini, Gəncədə – 34,7 faizini, Qazaxda – 47,2 faizini, Qəbələdə – 47,7 faizini, Zaqatalada – 80,9 faizini, İsmayıllıda – 49,1 faizini, Sabirabadda – 77,2 faizini, Kəlbəcər qaçqınları arasında – 40,3 faizini, Tərtərdəki qaçqınların – 42,5 faizini, Fizuli qaçqınları arasında – 40,9 faizini, Cəbrayıl qaçqınları arasında – 46,1 faizini və s. təşkil edirlər. Bu isə o deməkdir ki, həmin **gənclərin müvafiq iş yerləri ilə təmin edilməsi indi ölkə qarşısında duran ən**

mühüm problemlərdən biridir. Bu işdə heç şübhəsiz ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin «11» fevral 2004-cü il tarixdə verdiyi sərəncamla təsdiq edilmiş «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004—2008-ci illər)» müvəffəqiyyətlə həyata keçirilməsi mühüm rol oynayacaqdır. Bu Dövlət Proqramında ölkəmizin ayrı-ayrı regionlarının sosial-iqtisadi inkişafının sürətləndirilməsi ilə bağlı konkret vəzifələr və onların yerinə yetirilməsinə məsul olan nazirlik və təşkilatların adları göstərilmişdir. Həmin nazirlik və təşkilatlara başqa vəzifələrlə yanaşı, məşğulluğun artırılması sahəsində də konkret tapşırıqlar müəyyənləşdirilmiş və ilk növbədə onların hansı regionlarda həyata keçirilməsi dəqiqləşdirilmişdir. Dövlət proqramında məşğulluğun yüksəldilməsi ilə bağlı müəyyən edilmiş tədbirlər arasında respublikanın ayrı-ayrı regionlarında sahibkarlığın inkişafına dövlət maliyyə köməyinin artırılması, yerlərdə sahibkarlıq üçün məsləhət xidməti, informasiya təminatı, marketinq xidməti və s. xidmətlər göstərəcək mərkəzlərin yaradılması, rayonlarda turizmin inkişaf etdirilməsi, ticarət yarmarkalarının yaradılması, yerli ixtisaslaşmanı nəzərə almaqla rayonlarda işsizlər üçün kadrların peşə hazırlığının təkmilləşdirilməsi mərkəzlərinin yaradılması, məktəbəqədər təlim-tərbiyə sisteminin genişləndirilməsi, yeni məktəblərin inşaası, kənd məktəblərinin kadr təminatının yaxşılaşdırılması, rayonlarda yeni səhiyyə müəssisələrinin tikintisi və sairlə bağlı məsələlər xüsusi əhəmiyyət kəsb edir. Əlbəttə, bütün bunlarla yanaşı, **əmək iqtisadiyyatı sahəsində məşğul olan bəzi müəlliflərin də haqlı olaraq dedikləri kimi, iqtisadi müstəqilliyini təmin etmək istəyən hər bir ölkənin siyasi varlığı və iqtisadi dəyanətliliyi, milli iqtisadiyyatın formalaşması, onun kəmiyyət və keyfiyyətcə daha da artırılması hər şeydən əvvəl,** ümumi bəşəri dəyərlərlə zənginləşmiş yeni təhsil sisteminin təşkilindən və onun fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsindən xeyli asılıdır. Bu məsələlərin bazar iqtisadiyyatına keçid şəraitində nəzərə alınması və düzgün istiqamətləndirilməsi respublikamız üçün xüsusi əhəmiyyət kəsb edir. Çünki ölkəmizdə əmək ehtiyatlarının formalaşması və onlardan istifadə edilməsi sahəsində illərdən bəri

yaranmış və gələcəkdə də davam etməsi gözlənən özünəməxsus xüsusiyyətlərinə görə başqa ölkələrdən ciddi surətdə fərqlənən Azərbaycan Respublikasında, istər Sovetlər İttifaqı dövründə və istərsə də indiki bazar iqtisadiyyatına keçid dövründə, gənclərin əməyə hazırlanmasında, təhsil sisteminin təşkilində və tənzimlənməsində gedən proseslər reallıqdan xeyli uzaq olduğu üçün, yaxın gələcəkdə nəticə etibarı ilə, bir tərəfdən, əmək bazarının tələb və təklifi arasındakı tarazlığın daha da gərginləşməsi, digər tərəfdən isə respublikada kifayət qədər yüksək ixtisaslı kadrların və boş iş yerlərinin olmasına baxmayaraq, işçilərin sayının artması müşahidə olunacaqdır. Bu baxımdan, gənc nəslin peşə və ixtisasa yiyələnmək istəyi ilə məqsədlə yaradılan real imkanlar arasında illərdən bəri yaranmış və getdikcə daha da dərinləşməkdə olan təzadların az bir vaxtda təmin edilməsinin ilkin və əsas şərtlərindən biri olmalıdır. Bu cür mülahizə bir tərəfdən, 1985—1986-cı tədris ilinə nisbətən 1996—1997-ci tədris ilində təhsil alanların peşə məktəblərində 4,6 dəfə, orta ixtisas məktəblərində 2,5 dəfə, ali məktəblərdə isə 29,3 faiz azalması ilə, digər tərəfdən isə tərtib edilmiş gənclər balansına görə orta məktəbləri qurtaranların qurtardığı ildə ali və orta ixtisasa, eləcə də peşə-ixtisas təhsili məktəblərinin gündüz şöbələrinə qəbul olunmasının 1985-ci ildəki 65,6 faizdən 1999-cu ildə 43,5 faizədək azalması ilə izah edilir.[442] İ.e.n. C.B.Quliyevin yazdığı kimi, gənclərin peşə və ixtisasa yiyələnmə imkanlarının azalmasına, hər şeydən əvvəl, son illərdə texniki-peşə təhsili məktəblərinin və onlara qəbul olunanların sayının ciddi surətdə azalması xeyli təsir göstərmişdir. Mövcud tam orta təhsil almış gündüz ümumi təhsil məktəbi məzunlarının qəbulu üzrə quruluşunu xarakterizə edən materialların təhlili göstərir ki, onların əgər 1985-ci ildə 55,8 faizi texniki peşə məktəblərinə, 19,2 və 25,0 faizi isə müvafiq olaraq ali və orta ixtisas təhsili məktəblərinə qəbul edilmişdirsə, 1999-cu ildə texniki-peşə məktəblərinə qəbul olunanların xüsusi çəkisi cəmi

---

[442] *C.B.Quliyev.* Gənclərin peşə və ixtisasa yiyələnmək imkanlarının genişləndirilməsi əmək bazarının formalaşmasında və tənzimlənməsində əsas şərtdir. Azərbaycan gənclərinin mənəvi tərbiyəsinin aktual problemləri (Elmi-Praktiki Konfransda məruzələrin tezisləri). Bakı, 2003, s. 32-33.

5,5 faiz təşkil etmişdir. Həmin dövrdə texniki-peşə məktəblərinə qəbul olunanların sayı 8 dəfə azalmış və nəticədə gənclərin texniki-peşə təhsili ilə əhatə olunma səviyyəsi 1985-ci ildəki 36,6 faizdən 1999-cu ildə 5,5 faizə düşmüşdür.[443] Nəzərə alınsa ki, respublika üzrə iqtisadiyyatın bütün sahələrində məşğul olanların 60 faizindən çoxunu ixtisaslı fəhlə kadrları (kənd təsərrüfatı mexanizatorları da daxil edilməklə) təşkil edir, onda son illərdə fəhlələrin hazırlanmasında yaranmış vəziyyəti qənaətbəxş hesab etmək olmaz. Onu da qeyd etmək lazımdır ki, gənclərin peşə və ixtisas təhsili ilə tam əhatə olunması və onun düzgün təşkili hər bir ölkənin əmək bazarının tələb və təklifi arasındakı tarazlığın təmin edilməsinin, iqtisadi inkişafının və əhalinin həyat səviyyəsinin yüksəldilməsinin ilkin və əsas şərtidir. Qeyd etmək lazımdır ki, hər bir insan və onun ailəsinin layiqli yaşaması üçün o mütləq işləməlidir, işləmək üçün müvafiq iş yerləri yaradılmalıdır və iş yerlərinin tələbatına uyğun peşə və ixtisasa yiyələnmək üçün müvafiq peşə və ixtisas öyrətmə mərkəzləri təşkil edilməlidir və s. Əks halda, əvvəlki illərdəki yaşıdlarından zövqünə, həyata münasibətlərinə və tələbatına görə ciddi fərqlənən indiki gənclər arasında cinayət törətmək meyli artacaq və bu cür yaşamaq onların peşəsinə və adi yaşayış tərzinə çevriləcəkdir.

Azərbaycanda hüquq pozuntuları statistikasının təhlili göstərir ki, məhkumlar arasında 14-25 yaşlı gənclərin xüsusi çəkisi 1999-cu ildə 45,4% olmuş və 1990-cı illə müqayisədə onların mütləq sayı 4,2 dəfə artmışdır. 1999-cu ildə törədilmiş 14400 cinayətdən 5888 cinayətin (və ya 4,1%-i) yetkinlik yaşına çatmışlar tərəfindən törədilməsi, onların 236-sının (və ya 40,1%) təkcə Bakı şəhərində baş verməsi, yetkinlik yaşına çatmayanlarla iş müfəttişliklərinin qeydiyyatında olan yeniyetmələrdən 47,4%-nin heç bir yerdə işləməməsi və təhsil almaması, onların mütləq sayının 1990-cı illə müqayisədə 4,2 dəfə artması təkcə gənclərin problemləri ilə məşğul olan dövlət təşkilatlarını deyil, həm də bütün ictimaiyyəti narahat etməlidir. [444]

---

[443] C.B.Quliyevin yuxarıda göstərilən məruzəsinin tezisləri, s. 33-34.
[444] *C.B.Quliyev*. Göstərilən məruzəsinin tezisləri, s. 34.

1990—2001-ci illərdə respublikadakı peşə məktəbləri və litseylərin sayının 38,0 faiz azalaraq, 176-dan 109-a, orada işləyən müəllimlərin sayının 1,8 dəfə azalaraq, 3465 nəfərdən 1922 nəfərə, təhsil alanların sayının 3,8 dəfə azalaraq, 82,2 min nəfərdən 21,6 min nəfərə, təhsilini başa vurmuş ixtisaslı kadrların sayının isə 4,2 dəfə azalaraq, 54,7 min nəfərdən 13,1 min nəfərə düşməsi də mənfi hal kimi qiymətləndirilməlidir.[445]

Hazırda gənclərimiz elə hazırlıq səviyyəsinə malik olmalıdırlar ki, bu elmi-texniki tərəqqinin müasir şəraitində fəaliyyət göstərən müəssisələrin və bazar iqtisadiyyatının kadrların keyfiyyətinə olan tələbinə uyğun gəlsin, hətta həmin tələbləri qabaqlayıb, üstəliyə bilsin. Belə hazırlıq çoxtərəfli olub, ciddi ümumtəhsil və sonra da xüsusi hazırlığa əsaslanmalıdır. Çünki yalnız belə olduqda, gənclərin çeviklik səviyyəsi və yeni texnikanın nailiyyətlərinə uyğunlaşa bilmək qabiliyyəti yüksələ bilər, onlar istehsalatda baş verən yenilikləri daha tez qavrayar və elmi-texniki tərəqqinin fəal iştirakçılarına çevrilərlər. Məlum olduğu kimi, hazırda yeni istehsal sahələrinin kadrlarla komplektləşdirilməsi, iş qüvvəsinin yerləşdirilməsi prosesi əsasən gənclər hesabına həyata keçirilir.

Qeyd etmək lazımdır ki, **respublikamızda gənclərin peşə hazırlığı sahəsində əldə edilmiş mühüm irəliləmələrə baxmayaraq, bu sahədə çoxlu nöqsanlar və mənfi proseslər hələ də qalmaqda davam edir**. Bu mənfi halların biri son vaxtlaradək mövcud olan texniki-peşə məktəblərində hazırlanmalı olan bütün peşələr üzrə deyil, yalnız onların bir qismi üzrə kadrlar hazırlanmasıdır. **Buna görə də hazırda ali və orta ixtisas məktəblərində geniş profilli və bazar iqtisadiyyatının tələblərinə uyğun gələn yeni, perspektivli və nüfuzlu ixtisaslar üzrə kadr hazırlığına xüsusi diqqət yetirilməlidir. Ancaq çox təəssüflər olsun ki, hazırda əksəriyyət dövlət və özəl ali tədris ocaqlarında ölkənin tələbləri nəzərə alınmadan eyni ixtisaslar üzrə, ələlxüsus da hüquqşunas, gömrük işçisi, maliyyəçi və sairlərdən ibarət kadrlar hazırlanmasına üstünlük verilir. Burada ən nöqsanlı cəhət isə ondan ibarətdir ki, heç bir müvafiq maddi və kadr potensialı olmayan**

---

[445] Azərbaycanda uşaqlar. Bakı, 2002, s. 39.

ali özəl məktəblərinin «rəhbərləri» bu işdə xüsusi fəallıq göstərirlər. Buna görə də hazırda həmin vəziyyət dərindən təhlil edilib öyrənilməli və bu sahədə mövcud olan çatışmazlıqların aradan qaldırılması üçün dövlət səviyyəsində xüsusi tədbirlər sistemi işlənib hazırlanmalı və həyata keçirilməlidir.

Gələcəkdə respublikamızda gənclərin məşğulluq və təhsil səviyyələrinin yüksəldilməsi məqsədilə ayrı-ayrı dövlət və özəl ali və orta ixtisas məktəblərinin ölkənin müxtəlif ərazilərində yaradılmasına və yaxud da heç olmasa bu ərazilərdə onların filiallarının açılmasına xüsusi diqqət yetirilməlidir. Ali və orta ixtisas təhsili ocaqlarının respublikanın müxtəlif regionlarında əhalinin tələbinə uyğun şəkildə düzgün yerləşdirilməsi həmin regionlarda əhalinin yaş-cins quruluşundakı, ilk növbədə də gənclərin yaş-cins quruluşunda yaranmış disproporsiyaların aradan qaldırılmasına, mövcud demoqrafik çətinliklərin və gənclərin ailə qurması sahəsindəki çətinliklərin xeyli azalmasına səbəb olmaqla həmin ərazilərdə əhalinin təbii təkrar istehsalı prosesinin normal qaydada həyata keçməsinə şərait yaradar.

Gənclərin əmək ehtiyatlarının formalaşmasında oynadığı mühüm rola və əmək bazarında yaşlı nəslə nisbətən müəyyən üstünlüklərə malik olmalarına baxmayaraq, istehsalat təcrübələrinin olmaması, peşə-ixtisas səviyyəsinin aşağı olması, təhsillərini davam etdirmələri, ailə qurmaları və ailədə ilk uşaqlarının dünyaya gəlməsi kimi problemlərinin olması əmək bazarında onların rəqabət qabiliyyətini müəyyən dərəcədə pisləşdirmişdir. Gənc əmək ehtiyatlarının malik olduqları bu xüsusiyyətlərin nəzərə alınması gənclərin əmək bazarının nizamlanmasının mühüm şərtlərindən biridir.

Gənclərlə bağlı problemləri həll edərkən onu da nəzərə almaq lazımdır ki, 16-29 yaşında olan bu əhali qrupuna daxil olan insanların hamısı eyni xüsusiyyətə malik olmayıb, sosial, demoqrafik və iqtisadi cəhətdən müxtəlif xarakterə malik olan adamlardan ibarətdirlər. Buna görə də gənclərin aşağıdakı qruplara bölünməklə öyrənilməsi daha məqsədəuyğun olardı: 1) qadınlara və kişilərə; 2) kənd və şəhər yerlərində yaşayanlara; 3) təhsil alanlara, işləyənlərə, işləməyənlərə və işsizlərə; 4) ümumi təhsil məktəblərində, ali, orta ixtisas və peşə-texniki

məktəblərində oxuyanlara (o cümlədən, dövlət və qeyri-dövlət təhsil ocaqlarında oxuyanlara); 5) orta ümumtəhsil, ali, orta ixtisas və peşə-texniki məktəbləri (o cümlədən dövlət və qeyri-dövlət təhsil ocaqlarını) qurtaranlara; 6) ordu sıralarından təxris olunmuşlara; 7) azadlıqdan məhrum edilmə yerlərindən azad olanlara; 8) evli və subay gənclərə; 9) əmək qabiliyyətli, tam əmək qabiliyyəti olmayan və əmək qabiliyyəti olmayan gənclərə.

Yuxarıda sadaladığımız gənclər qruplarına daxil olanların iş yerlərinə tələb və təklifləri, onların əmək bazarında tutduqları yer və rol müxtəlif olduğundan həmin gənclərin iş yerləri ilə təmin edilməsi, onların ixtisaslarının artırılması, təhsilə cəlb edilməsi və sairlə bağlı problemlərinin həllinə konkret qaydada yanaşılmasını tələb edir. Heç şübhə yoxdur ki, məsələyə bu cür yanaşılma gənclərin əksər problemlərinin müvəffəqiyyətlə həll edilməsinə şərait yaratmaqla onların əməyindən istifadənin nəinki iqtisadi və həm də sosial cəhətdən səmərəliliyinin yüksəldilməsinə geniş yol açacaqdır. Onu da nəzərə almaq lazımdır ki, Azərbaycan Respublikası Beynəlxalq Əmək Təşkilatının üzvü kimi 1975-ci il 142№-li «İnsan resurslarının inkişafı» konvensiyasını qəbul edərək bütünlükdə əhalinin, o cümlədən də gənclərin peşə yönümünə, peşə hazırlığına və məşğulluğuna köməklik proqramların hazırlanmasına və həyata keçirilməsinə borcludur.

Bazar münasibətlərinin yaranması şəraitində məşğulluğun nizamlanması sisteminin mühüm həlqələrindən birini sosial tərəfdaşlığın yaradılması və inkişafı hər üç tərəfin, yəni dövlətin simasında hökumətin, işverənlərin və zəhmətkeşlərin simasında Həmkarlar İttifaqlarının fəal iştirakının və maraqlarının birgə təmin edilməsindən ibarətdir.

Gənclərin işsizlik səviyyəsinin azaldılması üzrə həyata keçirilən tədbirlər isə əmək bazarının nizamlanmasının mühüm istiqamətlərindən birini təşkil edir.

Qeyd etmək lazımdır ki, son 8 il ərzində (1995—2002-ci illərdə) respublikamızın dövlət ümumtəhsil əsas məktəblərini

1001,6 min nəfər[446], dövlət ali məktəblərini – 154,3 min nəfər, dövlət orta ixtisas məktəblərini – 76,7 min nəfər, peşə məktəblərini və litseyləri – 115,8 min nəfər[447], qeyri-dövlət orta ixtisas məktəblərini – 3,6 min nəfər, qeyri-dövlət ali məktəblərini isə 22,1 min nəfər[448] bitirmiş və onların ümumi sayı 1374,1 min nəfər təşkil etmişdir. Həmin dövrdə respublikamızın dövlət ali məktəblərinə qəbul olunanların sayı 133,1 min nəfər, dövlət orta ixtisas məktəblərinə qəbul edilənlərin sayı – 90,8 min nəfər, qeyri-dövlət ali məktəblərinə qəbul olunanların sayı 32,7 min nəfər, qeyri-dövlət orta ixtisas məktəblərinə qəbul olunanların sayı isə 3,4 min nəfər[449] olmuş və bütünlükdə 260,0 min nəfər təşkil etmişdir. Fərz etsək ki, onların hamısı qeyd edilən dövrdə ümumtəhsil əsas məktəbi qurtaranlardır və bunlar qeyd edilən dövrdə məktəbləri qurtaranların cəmi 26,0 faizini təşkil edirlər, onda həmin gənclərin yerdə qalan hissəsinin, yəni 741,6 min nəfərinin iqtisadiyyatda işləməyə getmələri guman edilərdi. Ancaq nəzərə alsaq ki, müqayisə edilən dövrdə ölkə iqtisadiyyatında məşğul olanların sayı cəmi 113,5 min nəfər və ya 3,1 faiz artmışdır[450] və heç şübhəsiz ki, bunların da əksəriyyətini qeyd edilən dövrdə ali, orta ixtisas, peşə məktəblərini və litseyləri qurtaranlar təşkil etmişdir (onların sayı 372,5 min nəfər olmuşdur), onda həmin dövrdə həm ümumtəhsil əsas məktəbləri, ali, orta ixtisas, peşə məktəblərini və litseyləri bitirmiş yerdə qalan gənclərin işə düzəldilməsi və təhsilə cəlb edilməsi ilə bağlı problemlərin həll edilməmiş qaldığı və deməli, onların bir qisminin xarici ölkələrə çıxıb getmələri, digər bir qisminin məşğulluq xidməti orqanlarında işsizlik statusu alaraq müvafiq işlə təmin edilmələrini gözləyənlərdən, başqa bir qisminin isə boş-bekar olması aydınlaşar. Bu isə həmin gənclərin nə qədər çətin və ciddi iqtisadi, sosial və mənəvi sarsıntılarla üzbəüz qaldığını göstərir. Eyni zamanda, işsizlik gənclərdə ruh düşgünlüyünün yaranmasına və onları cinayətkarlığa sürük-

---

[446] Azərbaycanın statistik göstəriciləri. 2003, s. 182.
[447] Əmək bazarı. 2003. Bakı, 2003, s. 147-149.
[448] Azərbaycanın statistik göstəriciləri. 2003, s. 205, 208.
[449] Yenə orada.
[450] Yenə orada. s. 82.

ləyən bir mənfi hal kimi də diqqətdən qaçmamalıdır. Buna görə də işə düzəlməkdə çətinlik çəkən gənclərin sosial müdafiəsinin gücləndirilməsi mühüm vəzifələrdən biridir. Söhbət hərbidən təxris edilmiş və əlil gənclər üçün iş yerlərinin kvotalaşdırılmasından, azmüdafiə olunan gənclərin hazırlanması və yenidən hazırlanmasından, dövlət məşğulluq xidməti tərəfindən sahibkarlığın və özüməşğulluğun inkişafına təkan verən əmək bazarındakı vəziyyət haqqında doğru-düzgün informasiya verilməsindən və sair gedir.

Məşğulluğun yüksəldilməsi və işsizliyin azaldılmasında mühüm əhəmiyyəti olan məsələlərdən biri də sahibkarlığın inkişaf etdirilməsi, orta və xırda biznesin genişləndirilməsi yolu ilə yeni iş yerlərinin yaradılmasından ibarətdir. 2002-ci ilin məlumatlarına əsasən, respublikamızda 25113 kiçik müəssisə və kooperativlər, 748 xarici müştərək müəssisə, 2589 kəndli (fermer) təsərrüfatı, 6 birja fəaliyyət göstərmişdir. Bütünlükdə götürüldükdə həmin müəssisə, kooperativ, xarici müştərək müəssisə, kəndli (fermer) təsərrüfatları və birjalarda isə 167565 nəfər adam işləmişdir ki, bu da ölkə iqtisadiyyatında məşğul olanların cəmi 4,5 faizini təşkil etmişdir.[451] Halbuki inkişaf etmiş kapitalist ölkələrinin təcrübəsi göstərir ki, kiçik müəssisələrin inkişafı əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində, o cümlədən də gənclərin işlə təmin edilməsində mühüm rol oynayır. Məsələn, 2000-ci ildə ABŞ-da iqtisadiyyatda məşğul olan əmək qabiliyyətli əhalinin 50 faizindən çoxu kiçik biznesin payına düşmüşdür.[452]

Gələcəkdə ölkəmizdə fərdi əmək fəaliyyətinin, çevik məşğulluq formalarının (natamam iş vaxtında, qeyri-standart iş yerlərində, özüməşğulluqla iş rejimində məşğul olanlar), iqtisadiyyatın dövlət, qeyri-dövlət (qismən və qarışıq) və qeyri-formal bölmələrinin inkişaf edib genişlənməsi nəticəsində ölkə iqtisadiyyatının yaxşılaşması, əhalinin həyat səviyyəsinin yüksəlməsi

---

[451] Azərbaycanın statistik göstəriciləri. 2003, s. 82, 94.

[452] *Франц Ольга Бенционова.* Социально-экономическая инфраструктура предпринимательства и её развитие в рефермируваемой экономике. Автореферат диссертации на соискание учёной степени кандидата экономических наук. Екатеринбург, 2000, s. 3

və işsizliyin azalması sahəsində mühüm dəyişikliklər baş verəcəkdir. Bu isə asudə vaxtlarında sahibkarlıqla məşğul olmaq arzusunda olan gənclərin, çevik məşğulluq formasında peşə əməyilə məşğul olmaq arzusunda olan uşaqlı gənc qadınların, habelə məhdud əmək qabiliyyətinə malik olan, ali və orta ixtisas məktəblərini bitirən gənclərin bir qismi özlərinə iş yerləri tapacaqlar.

Əmək bazarının nizamlanması sahəsində qarşıda duran ən ciddi problemlərdən biri də gənc kadrların hazırlanması və yenidən hazırlanmasından ibarətdir. Çünki bazar iqtisadiyyatı muzdlu işçilərin ixtisas səviyyəsinə və peşəkarlığına tələbatı artırır, daxili və beynəlxalq əmək bazarında kadrların rəqabət qabiliyyətinin artırılması, iş qüvvəsinə olan tələblə təklif arasında keyfiyyət tarazlığına nail olunması məqsədilə kadrlar hazırlanması və yenidən hazırlanmasının vacibliyini obyektiv zərurətə çevirir. Buna görə də gənc kadrların hazırlanması və yenidən hazırlanmasına dövlət qayğısının artırılması, bu sahədə məqsədli kompleks proqramların işlənib hazırlanması və həyata keçirilməsi hökümətin diqqət mərkəzində olmalıdır. Təhsil proqramları məşğulluq proqramları ilə koordenasiyada işlənib hazırlanmalı və bütün təhsil növlərini əhatə etməlidir. Bu proqramlarda başlıca məqsəd hər bir cəmiyyət üzvünün qabiliyyət və bacarığı çərçivəsində ən yüksək bilik almaq səviyyəsinə yiyələnməsi üçün şərait yaradılmasından ibarətdir. Ölkəmizdə tətbiq edilən peşə təhsili proqramı aşağıdakı mərhələlərdən ibarətdir: ibtidai peşə, orta peşə, ali peşə, ali təhsildən sonrakı peşə. Vahid təhsil sisteminin ayrı-ayrı həlqələrini təşkil edən Universitet, peşə-texniki tədris müəssisələri, orta ixtisas və ali təhsil müəssisələri, ixtisası artırmaq sistemi, müxtəlif peşə və ixtisaslar üzrə kadrların hazırlanması və buraxılış işini təmin edir. Rəsmi statistik məlumatlara əsasən, 2002/2003-cü tədris ilində Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində – 101,7 min nəfər, dövlət orta ixtisas məktəblərində – 50,3 min nəfər[453], qeyri-dövlət ali məktəblərində – 18,3 min nəfər, qeyri-dövlət ixtisas məktəblərində – 1,1 min nəfər, peşə

[453] Azərbaycanın statistik göstəriciləri. 2003, s. 203, 205, 206, 208.

məktəbləri və litseylərdə – 20,8 min nəfər tələbə oxumuşdur.[454] Qeyd edilən dövrdə ali məktəbləri 27,8 min nəfər (o cümlədən dövlət məktəblərini – 230 min nəfər, qeyri-dövlət ali məktəblərini – 4,8 min nəfər), orta ixtisas məktəblərini – 12,9 min nəfər (o cümlədən dövlət orta ixtisas məktəblərini – 12,4 min nəfər, qeyri-dövlət orta ixtisas məktəblərini – 0,5 min nəfər) tələbə qurtarmışdır.[455] Ancaq çox təəssüf hissilə qeyd etmək istərdik ki, hazırda respublikamızda fəaliyyət göstərən 46 ali təhsil məktəbinin[456] 15-i, 58 orta ixtisas məktəbinin isə 3-ü qeyri-dövlət məktəbləridir. Bu məktəblərdən əlavə respublikamızda rəsmi qeydiyyatdan keçməmiş daha onlarca qeyri-dövlət ali məktəbləri fəaliyyət göstərir. Rəsmi statusu olan həmin ali məktəblərin bir neçəsində professor olmuş bir mütəxəssis kimi belə hesab edirəm ki, həmin ali məktəblərin əksəriyyəti gənclərimizə lazımi səviyyədə bilik vermədiyindən onların tezliklə bağlanması daha yaxşı olardı. Həmin məktəblər yalnız müəyyən vaxt ərzində gənclərin «hərbidən uzaqlaşması» və onların «məşğulluğunun təmin edilməsi» baxımından «əhəmiyyətlidir», ancaq onların gələcəkləri baxımından zərərlidir.

Ölkəmizin əmək potensialının tam və səmərəli məşğulluğunun təmin edilməsinin digər mühüm istiqamətlərindən biri də işləmək arzusunda olan pensiyaçıların və pensiya yaşlı əhalinin əməyinin düzgün təşkil edilməsi və onların malik olduqları qabiliyyət, təcrübə və bacarıqlarından lazımi səviyyədə istifadə olunmasından ibarətdir. Təsadüfi deyildir ki, **yaşlı nəslə – müharibə və əmək veteranlarına qayğı Azərbaycan dövlətinin daim diqqət mərkəzində olmuş və indi də diqqət mərkəzində olaraq qalmaqdır.** Nəzərə almaq lazımdır ki, insanı yaşadan tək çörək deyildir. Bəzi hallarda elə olur ki, pensiyaya çıxdıqdan sonra bir çox veteranlar, necə deyərlər, «boş-bekar» qalırlar. Ona görə də mərkəzdə və yerlərdə dövlət təşkilatları və ictimai təşkilatların xətti ilə elə əlavə tədbirlər görülməlidir ki,

---

[454] Əmək bazarı. 2003. Bakı, 2003, s. 145.

[455] Azərbaycanın statistik göstəriciləri. 2003, s. 203, 205, 206, 208.

[456] Ali Hərbi Ümumqoşun Komandirləri Məktəbi, Bakı Ali Hərbi Dənizçilik Məktəbi, Azərbaycan Ali Hərbi Təyyarəçilik məktəbi, Bakı Ali Polis Akademiyası və Milli Təhlükəsizlik Akademiyası daxil olmaqla.

bunlar veteranlara təsərrüfat həyatında və ictimai-siyasi həyatda daha fəal iştirak etməkdə kömək etsin. Axı, söhbət ölkəmizdə mövcud olan 1285 min nəfər Azərbaycan vətəndaşından gedir.

Pensiyaçıların əmək fəaliyyəti dairəsində iştirakının artması və istehsalatda onlar üçün müvafiq şərait yaradılması adamların fəal həyat müddətinin uzadılması, sağlamlığının möhkəmləndirilməsi, şəxsiyyətin fiziki və mənəvi cəhətdən inkişaf etdirilməsi və sair bu kimi mühüm sosial vəzifələrin həll edilməsinə imkan verir. Buna görə də pensiya yaşına çatan, işləmək istəyən şəxslərə ictimai əməkdə iştirak etmək üçün daha əlverişli imkanlar yaradılmalıdır.

Respublikamızda yaşına görə pensiyaçılara 62 yaşında və bundan yuxarı yaşında kişilər, 57 yaşında və bundan yuxarı yaşında qadınlar aiddir. Ölkəmizdə bu yaşda olanların bütünlükdə əhali arasında mütləq sayı və xüsusi çəkisi daimi artır. Belə ki, 1960-2003-cü illərdə respublikamızda pensiyaçıların sayı 5,1 dəfə artaraq 254 min nəfərdən 1285 min nəfərə, o cümlədən yaşa görə pensiyaçıların sayı 12,2 dəfə artaraq 61 min nəfərdən 743 min nəfərə, bütünlükdə əhali arasında pensiyaçıların xüsusi çəkisi isə 0,7 faizdən 1,57 faizə gəlib çatmışdır.[457]

2003-cü ilin əvvəlinə olan məlumatlara əsasən respublikamızda olan 1285 min nəfər pensiyaçının 743 min nəfərini qocalığa görə pensiya alanlar (57,8 faizi), 199 min nəfərini əlilliyə görə pensiya alanlar (15,5 faizi), 136 min nəfərini ailə başçısını itirməsinə görə pensiya alanlar (10,6 faizi), 207 min nəfərini isə sosial pensiyalar və xidmət işlərinə görə pensiya alanlar (16,1 faizi) təşkil etmişlər. Onu da qeyd edək ki, 1994-2003-cü illəri əhatə edən son 8 il ərzində respublikamızda mövcud olan pensiyaçıların sayı 2,7 faiz artaraq 1251 min nəfərdən 1285 min nəfərə, o cümlədən əlilliyə görə pensiyaçıların sayı 16,4 faiz artaraq 177 min nəfərdən 199 min nəfərə, sosial pensiyaçıların və xidmətlərinə görə pensiyaya çıxanların

---

[457] [466] B a x: *Ş.M.Muradov*. Azərbaycan SSR-in əmək ehtiyatları. Bakı, 1987, s. 181; Azərbaycanın əhalisi. 2000. Bakı, 2001, s. 15; Azərbaycanın statistik göstəriciləri. 2003, s. 117.

sayı 1,6 dəfədən çox (64,3 faiz) artaraq 126 min nəfərdən 207 min nəfərə gəlib çatmışdırsa, əksinə qocalığa görə pensiyaya çıxanların sayı 6,8 faiz azalaraq 797 min nəfərdən 743 min nəfərə, ailə başçısının itirilməsinə görə pensiyaya çıxanların sayı isə 13,4 faiz azalaraq 157 min nəfərdən 136 min nəfərə düşmüşdür.[458]

Hər bir ölkədə pensiya yaşında olan adamların sayının artması burada əhalinin orta ömür müddətinin uzanması, əhalinin maddi və mədəni həyat səviyyəsinin yüksəlməsi, tibbi xidmətlərin və adamların sağlamlığının yaxşılaşdırılmasını özündə əks etdirən əlamət hesab olunur. Böyük təcrübəsi olan əmək veteranlarının gücləri çatan əmək fəaliyyətində, ictimai həyatda və tərbiyə işlərində iştirakı üçün imkanların genişləndirilməsi mühüm sosial-iqtisadi əhmiyyətli tədbirlərdir.

Pensiya yaşında əhali qrupundan olan adamların məşğulluğunun formalaşması əsas etibarı ilə **iki amilin: cəmiyyətin bu sosial-demoqrafik qrupdan olan əhalinin əməyindən istifadə olunmasına tələbi və onların özlərinin əmək fəaliyyətində və ictimai fəaliyyətdə iştirak etmək arzusu və tələblərinin təsiri altında baş verir.**

Yaşa görə pensiyaçılarda əmək fəaliyyətini davam etdirmək arzusu bir çox amillərin təsiri altında formalaşır. Sosial-iqtisadi ədəbiyyatlarda bu amillər şərti olaraq iki qrupa: maddi və sosial amillərə bölünür. Birinci qrup amillərə pensiya üçün verilən təqaüdlərlə yaşamağın çətin olması (xüsusilə əvvəlki illərdə təyin edilmiş pensiyaların), ailəyə müəyyən maddi yardım göstərmək, maddi cəhətdən qohumlarından asılı olmamaq və gələcəyə müəyyən əmanət yığmaq, pensiyaya əlavə almaq; **ikinci qrup amillərə** isə ictimai istehsalda və ictimai fəaliyyətdə, kollektivdə olmaq, təhsil səviyyəsini və peşə hazırlığını artırmaq arzusu və sair daxildir. Pensiyaçıların ictimai istehsalda və ictimai fəaliyyətdə iştirakına təsir edən amillər arasında sosial amillərin rolu daim artır. Ölkəmizdə pensiyaçıların ictimai istehsala cəlb edilməsi zərurəti və imkanları **bir sıra sosial-iqtisadi və demoqrafik amillərlə əlaqədardır.** Bu amillərə

---

[458] Azərbaycanın statistik göstəriciləri. 2003, s. 117.

Elmi-Texniki Tərəqqi və xalq təsərrüfatının bir çox sahələrində ağır əl əməyinin ləğv edilməsi, pensiyaçıların əmək fəaliyyətinin uzadılmasını təmin edən qeyri-istehsal sahələrinin inkişafı, bəzi xalq təsərrüfatı sahələrində yüksək ixtisaslı fəhlə və mütəxəssis kadrların çatışmaması, əhalinin ölüm səviyyəsinin xeyli aşağı, ömür müddətinin isə nisbətən yüksək olması ilə əlaqədar olaraq əhali arasında pensiya yaşında olan adamların sayının çoxalması və sair daxildir.

Pensiya yaşında olan əhalinin ictimai istehsala cəlb edilməsi səviyyəsi xeyli dərəcədə də bütünlükdə ölkədə və onun ayrı-ayrı regionlarında xalq təsərrüfatının mövcud quruluşu və əmək şəraitindən asılıdır. İşləyən pensiyaçıların xalq təsərrüfatı sahələri arasında bölüşdürülməsi və orada işləyənlər arasında onların xüsusi çəkisinin vəziyyətinin təhlilindən aydın olur ki, hazırda onların ən yüksək xüsusi çəkisi elm, təhsil müəssisələrində, mənzil-kommunal, ticarət, sosial təminat, səhiyyə və s. xidmət sahələrində, daha doğrusu pensiyaçıların əməyinin tətbiqi üçün ən əlverişli olan sahələrə təsadüf edir.

Pensiyaçıların əmək fəallığı onların malik olduğu təhsil səviyyələri və peşə hazırlıqlarından da xeyli dərəcədə asılıdır. 1999-cu ilin əhali siyahıya alınması məlumatlarına əsasən müəyyən edilmişdir ki, pensiyaçılar arasında ictimai istehsalda məşğul olanların ən yüksək səviyyəsi ali və orta ixtisas təhsili olanlar arasında müşahidə olunmuşdur. Bu, hər şeydən əvvəl, ali və orta ixtisas təhsili olan pensiya yaşlı adamlarda peşə ixtisasına marağın daha uzun müddət saxlanılması ilə izah edilir. Onların əməyinin xarakteri və şəraiti elədir ki, bu, həmin yaşda olan adamlara əmək fəaliyyəti müddətini uzatmağa imkan verir. Çünki ali və orta ixtisaslı mütəxəssislərin əksəriyyəti zehni əməklə məşğul olduqları üçün bu onlara fiziki işlərdə çalışanlara nisbətən daha uzun müddət ictimai əmək dairəsində fəaliyyət göstərə bilmələrinə şərait yaradır. Mütəxəssislərin fikrincə, fiziki işlə məşğul olmaq qabiliyyətinin azalması zehni işlə məşğul olmaq qabiliyyətinə nisbətən daha tez baş verir. Belə ki, həmin mütəxəssislərin fikrinə görə, əgər fiziki işləmək qabiliyyəti 40 yaşından sonra azalmağa başlayırsa, bu proses zehni işləmək qabiliyyətində 50-59, 60-69 yaşından sonra baş

verir. Zehni işləmək qabiliyyəti 50-59 yaşlarında cuzi miqdarda azaldığından, bu qabiliyyət 60-69 yaşlarında olan adamlarda hələlik xeyli yüksək olaraq qalmaqda davam edir. Bu səbəbdən də zehni əmək tətbiqi sahələrində işləyənlər arasında əmək qabiliyyətli yaşını ötmüş adamların xüsusi çəkisi hələlik əhəmiyyətli yer tutur və fiziki əmək tətbiqi sahələrində olduğuna nisbətən yüksəkdir.

Bir çox müəlliflərin haqlı olaraq yazdığı kimi, pensiya yaşlı adamların əməyinin istifadə müddətinin artırılması işində pensiya yaşının çatmasına beş-altı il qalmış bəzi işçilərin yenidən hazırlanması mühüm əhəmiyyət kəsb edə bilər. Burada söhbət, hər şeydən əvvəl, fiziki qüvvə və əsəb gərginliyi sərf edən adamların hazırlanmasından gedir. Vaxtında həyata keçirilən yenidən hazırlanma qocalmaqda olan orqanizmin fizioloji qabiliyyəti ilə istehsalın təşkilatı-texniki xarakteristikası arasında müəyyən tarazlıq yaradılmasına, bu isə öz növbəsində pensiya yaşlı şəxslərin istehsalatda qalıb işləmək müddətinin xeyli uzadılmasına səbəb olar. Bu cür yenidən hazırlanma işləri xüsusilə sənaye istehsalında, o cümlədən onun yüngül, yeyinti, maşınqayırma və metal emalı, neftçıxarma sahələrində, habelə kənd təsərrüfatında daha çox zəruridir. Çünki yaxın gələcəkdə pensiya yaşına daxil olacaq adamların mütləq sayının ən çox artacağı bu sahələrdə gözlənilir.

Son vaxtlarda ölkəmizdə aparılmış sosial-iqtisadi tədqiqatların nəticəsində müəyyən edilmişdir ki, əmək qabiliyyəti yaşını ötmüş şəxslərdə əmək fəaliyyətini davam etdirmək tələbinin formalaşması bir sıra amillərin təsiri altında baş verir. Həmin tədqiqatlara əsasən müəyyən edilmişdir ki, əmək qabiliyyəti yaşını xeyli ötmüş pensiyaçıların əmək fəaliyyəti müddətinin uzanmasına təsir edən amillər içərisində əsas yeri maddi amillər (68,3 faiz), o cümlədən verilən aylıq pensiyalarla yaşamağın çətin olması (21,3 faiz), ailəyə maddi yardım göstərmək arzusu (24,2 faiz), pensiyaya əlavə almaq (9 faiz), gələcəyə əmanət yığmaq (4,2 faiz) və qohumlarından maddi cəhətdən asılı qalmamaq (9,6 faiz) istəyi tutur. Bu göstəricilər müxtəlif kateqoriyadan olan işləyən pensiyaçılar üzrə müxtəlif olub bir-birindən fərqlənir. Əmək fəaliyyətlərini davam etdirmə-

lərinin əsas səbəbini işdən və kollektivdən ayrı qala bilməmələri ilə izah edənlər soruşulan pensiyaçı-qulluqçular arasında 36,2, pensiyaçı – fəhlələr arasında isə 23,1 faiz təşkil etmişdir. Bu isə o deməkdir ki, qeyd edilən sosial amilin həmin prosesə təsir gücü pensiyanın məbləği nisbətən çox olanlar arasında daha yüksəkdir. Bunu ondan görmək olar ki, əgər nisbətən yüksək pensiya alanlar arasında bütün soruşulanların 34,2 faizi əmək fəaliyyətlərini davam etdirmələrinin səbəbini işdən və kollektivdən kənarda qala bilmədikləri ilə izah etmişlərsə, aşağı həcmdə pensiya alanlar arasında bu cür cavab verənlər 28,7 faiz təşkil etmişdir.

Pensiyaçıların əmək fəallığı ilə onların təhsil səviyyələri arasında da çox dəqiq asılılıq mövcuddur. Belə ki, pensiyaçıların təhsil səviyyəsinin yüksəkliyindən asılı olaraq onların ictimai istehsaldakı fəallığı da artır. Soruşulan bütün ali və qurtarmamış ali təhsilli pensiyaçılar arasında işləyənlərin xüsusi çəkisi 91,4 faiz olmuşdursa, bu göstərici orta ixtisas təhsili olanlar arasında 60, orta ümumtəhsili olanlar arasında 48,1, natamam orta və ibtidai təhsillilər arasında isə 26,4 faiz təşkil etmişdir. Tədqiqat nəticəsində o da müəyyən edilmişdir ki, respublikamızda qocalığa görə pensiyada olanların müxtəlif qrup pensiyaçıların cəmi 10,2-16,4 faizi yenidən işə qayıtmaq arzusundadırlar. Əlbəttə, pensiyaçılar yalnız onlar üçün müəyyən şərait yaradıldıqda ictimai istehsalda və ictimai fəaliyyət dairəsində iştirak edə biləcəklərini söyləmişlər. Onların 21 faizi fiziki cəhətdən ağır olmayan işlə, 20,3 faizi sadə və sakit əmək şəraiti olan işlə, 11,9 faizi pensiyasına əlavə ödənc edilməsinə imkan verən işlə, 6,6 faizi o qədər də məsuliyyət tələb etməyən işlə, 12,7 faizi yaşadığı yerə yaxın işlə, 6,4 faizi natamam iş günü və ya iş həftəsi üzrə işlə, 3,7 faizi evdə yerinə yetirilə bilən işlə, 6,6 faizi isə sair şərait olmaqla işlə təmin edildikdə yenidən ictimai istehsalda işləmək arzusunda olduqlarını bildirmişlər. Aparılan tədqiqatların nəticələrindən aydın olur ki, **pensiyaçıların yenidən ictimai istehsalda iştirak etmələri üçün onların maddi cəhətdən maraqlandırılması heç də kifayət deyildir. Burada əsas məsələ onların sağlamlığı üçün lazım olan iş şəraitinin yaradılmasından, təşkilati xarakterli tədbirlər sistemi işlənib**

hazırlanmasından ibarətdir. Təsadüfi deyildir ki, işləməyən **pensiyaçıların ictimai istehsala cəlb edilməsində başlıca şərt onlar üçün yaşayış yerinin yaxınlığında və nisbətən yüksək əmək haqqı verilən və fiziki cəhətdən ağır olmayan iş yerləri ilə təmin edilməsindən ibarətdir. Pensiyaçıların xeyli bir qrupu «sadə» və «sakit» işlərdə, digər bir qrupu isə elə işlərdə çalışmaq istəyirlər ki, onların pensiyalarına əlavə ödənişlər verilə bilsin və s.**

Beləliklə, gələcəkdə ölkəmizdə pensiyaçıların əmək fəallığının artırılması onların yaş və orqanizmlərinin fizioloji xüsusiyyətlərini nəzərə alan daha əlverişli əmək və istehsal şəraiti yaradılmasına yönəldilmiş kompleks tədbirlər sistemi işlənib hazırlanması və həyata keçirilməsini tələb edir. **Burada söhbət natamam iş günü və ya iş həftəsi rejiminin tətbiq edilib genişləndirilməsindən, azaldılmış iş normaları üzrə ixtisaslaşdırılmış iş sahələri, evdə iş üsulu tətbiq edilməsi, ağır əl əməyinə əsaslanan işlərin ləğv edilməsindən, iş yerlərində sanitar-gigiyena qaydalarına riayət edilməsi və sairdən, daha doğrusu, istehsalın və əməyin təşkilinin bütün həlqələrində işlərin yaxşılaşdırılmasından gedir.**

Bütün bu yuxarıda deyilənlərdən belə nəticəyə gəlmək olar ki, **yaxın və uzaq gələcəkdə müstəqil Azərbaycan dövlətinin intellektual insan potensialının artıb çoxalması və onların əməyindən səmərəli istifadə edilməsi üçün ölkəmizin hər cür maddi və mənəvi imkanları indikinə nisbətən qat-qat çox olacaqdır. Əsas məsələ isə bu potensialın gələcəkdə də qorunub saxlanması və inkişaf etdirilib təkmilləşdirilməsindən və onlardan düzgün və səmərəli istifadə edilməsinin nəticələrini bütünlükdə Azərbaycan xalqının maddi və mədəni həyat səviyyəsinin daim yaxşılaşdırılmasına yönəltməkdən ibarət olmalıdır.**

MÜƏLLİFİN MÖVZU ÜZRƏ ÇAP OLUNMUŞ MÜHÜM ƏSƏRLƏRİNİN SİYAHISI

1. **Kolxoz-kooperativ mülkiyyətinin ümumxalq mülkiyyətinə yaxınlaşması yolları (broşura). Bakı, Elm nəşriyyatı, 1962,** 52 s. R.B.Allahverdiyevlə birlikdə.

2. Azərbaycan SSR-in kənd təsərrüfatında qadın əməyi və onun yüngülləşdirilməsi məsələlərinə dair. **Azərbaycan SSR EA-nın Xəbərləri. «İctimai elmlər» seriyası, Bakı, 1964, №2,** s. 27-37.

3. Трудовые ресурсы и роль их материального стимулирования в создании материально-технической базы Коммунизма (на примере сельского хозяйства Азербайджанской ССР). **Тезисы докладов научной сессии (регионального совещания), посвящённой созданию материально-технической базы Коммунизма и наиболее экономически эффективным путям технического прогресса. Баку, 1964,** s. 52-55. Совместно с М.М.Аллахвердиевым.

4. Развитие культурного уровня женщин Советского Азербайджана. **Azərbaycanın Rusiya tərkibinə daxil olmasının 150 illiyinə həsr olunmuş elmi sessiyasının tezisləri. 20-22 aprel 1964-cü il. Bakı, 1964**, s. 61-62.

5. К вопросу рационального использования женского труда в сельском хозяйстве Азербайджана. Тезисы докладов аспирантов и младших научных сотрудников, посвященных вопросам повышения экономической эффективности общественного производства. Издательство АН Азербайджанской ССР. Баку, 1965, s. 130-132.

6. Женский труд и вопросы его рационального использования в сельском хозяйстве Азербайджанской ССР. **Автореферат диссертации, на соискание учёной степени кандидата экономических наук. Баку, 1965,** 22 s.

7. Вопросы рационального использования женского труда в сельском хозяйстве Азербайджанской ССР. **Тезисы докладов научной сессии, посвящённой развитию общественного производства и использованию трудовых ресурсов. Издательство АН Азербайджанской ССР. Баку, 1966,** səh. 31-34.

8. K.Marks və müasir maltusçuların tənqidi. **Azərbaycan SSR EA-nın Xəbərləri. «İqtisadiyyat seriyası», Bakı, 1968,** №2, s. 40-49.

9. Azərbaycan SSR kənd təsərrüfatında qadın əməyi və ondan səmərəli istifadə edilməsi məsələləri. **Monoqrafiya. Bakı, Elm nəşriyyatı, 1969,** 227 s.

10. İş qüvvəsinin təkrar istehsalı haqqında. **«Azərbaycan Kommunisti» jurnalı, Bakı, 1970,** №12, s. 65-70.

11. Социально-экономические условия и изменение характера применения женского труда в Советском Азербайджане. **Материалы по экономической истории Азербайджана (к Международному конгрессу экономической истории). Баку, Издательство «Элм», 1970,** (rus və ingilis dilində), s. 28-32 və 138-142.

12. Проблемы рациональной занятости населения в Азербайджанской ССР. Материалы Всесоюзной Экономической Сессии, посвящённой 110-летию со дня рождения В.И.Леннна.. Издательство Литовской АН ССР, г. Вильнюс, 1969. Совместно с З.А.Самедзаде.

13. Qadın əməyi: düşüncələr və təkliflər. **«Azərbaycan Kommunisti» jurnalı, Bakı, 1970,** №3, s. 64-70.

14. Azərbaycan SSR-in sənayesində qadın əməyindən istifadə edilməsi. **Azərbaycan SSR EA-nın Xəbərləri. İqtisadiyyat seriyası. Bakı, 1970, №1,** s. 60-70.

15. Социально-экономические проблемы использования женских трудовых ресурсов в Азербайджанской ССР. **Автореферат диссертации на соискание учёной степени доктора экономических наук. Баку, 1971,** 111 s.

16. **Воспроизводство рабочей силы и повышение эффективности использования трудовых ресурсов (коллективная монография). Москва, МГУ, 1971,** 279 s. Совместно: А.Э.Котляр, И.С.Маслова, О.И.Хасанова и другие.

17. Azərbaycan SSR-də qadın əməyinin səmərəli istifadəsinin bəzi ictimai-iqtisadi problemləri. **Azərbaycan SSR EA-nın Xəbərləri. İqtisadiyyat seriyası, Bakı, 1971**, №2, s. 30-37.

18. Azərbaycan SSR-də cins tərkibi üzrə əhalinin məşğuliyyət quruluşunun ərazi problemləri. **Azərbaycan SSR EA-nın Xəbərləri. İqtisadiyyat seriyası, Bakı, 1971**, №3, s. 65-71.

19. Azərbaycan SSR-də əhalinin ictimai istehsala cəlb edilməsinin bəzi məsələləri. **Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun Elmi əsərləri. Bakı, 1971, №3**, s. 11-16.

20. Региональные особенности воспроизводства населения и демографические проблемы обеспечения его оптимальной занятости в Азербайджанской ССР. **Материалы Всесоюзной Конференции – Методологические проблемы изучения народонаселения в социалистическом обществе. г. Киев, 6-8 декабря 1973 г.** s. 465-468.

21. Naxçıvan MSSR-ın yaradılmasının 50 illiyinə həsr edilmiş **«Naxçıvan MSSR-də ictimai istehsalın kompleks inkişafı və əmək ehtiyatlarından səmərəli istifadə edilməsi problemləri». Elmi-istehsalat konfransı məruzələrinin tezisləri. Bakı, iyun, 1974,** s. 2, 13-19.

22. **«Laçın rayonunda ictimai istehsalın kompleks inkişafı və əmək ehtiyatlarından səmərəli istifadə olunması problemləri»nə**

həsr edilmiş elmi-istehsalat konfransı. Məruzələrin tezisləri. (Laçın şəhərinin yaradılmasının 50 illiyi). Bakı, 1974, s. 2, 16-25.

23. **Azərbaycan SSR-də qadın əmək ehtiyatlarından istifadənin sosial-iqtisadi problemləri (monoqrafiya). Bakı «Elm», 1974,** 190 s.

24. **Azərbaycan SSR-in əmək ehtiyatları və onlardan səmərəli istifadə edilməsi məsələləri (broşura). Bakı, 1974,** 72 s. Z.A.Teymurova, F.H.Abbasovla birlikdə.

25. Sosializm cəmiyyətində əməyin reduksiyası. **«Azərbaycan Kommunisti» jurnalı, Bakı, 1975,** №7, s. 94-96.

26. Особенности воспроизводства и миграция населения в Азербайджанской ССР. **Тезисы докладов Всесоюзной Научной Конференции – Региональные особенности воспроизводства и миграции населения. Тбилиси, 12-15 октября 1976 г.**, s. 58-60.

27. İnkişaf etmiş sosializm mərhələsi – Azərbaycanın sosial-demoqrafik inkişaf mərhələsində. **Azərbaycan SSR EA-nın Xəbərləri. İqtisadiyyat seriyası, Bakı, 1977,** №3, s.24-32. F.H.Abbasovla birlikdə.

28. **Население союзных республик (коллективная монография). Москва, Издательство «Статистика», 1977,** 206 s. Совместно: Л.П.Шахотько, А.А.Раков, Б.А.Сарыгулов, В.А.Оникиенко и другие.

29. **Великий Октябрь и расцвет экономики и культуры Советского Азербайджана (коллективная монография). Баку, «Элм», 1977,** 274 s. Совместно: А.Сумбатзаде, М.Аллахвердиев, Б.Набиев, А.Саламзаде и другие.

30. **Azərbaycan SSR-də əmək ehtiyatlarından istifadənin ictimai-iqtisadi problemləri. Bakı, «Elm», 1978,** 304 s. A.Q.Gözəlova, F.H.Abbasov və başqaları ilə birlikdə.

31. **Azərbaycan SSR-də kəndin ictimai-iqtisadi və demoqrafik inkişaf məsələləri. Monoqrafiya. Bakı, «Elm», 1978,** 111 s. F.H.Abbasovla birlikdə.

32. **Особенности миграции населения в Союзных Республиках (коллективная монография). Москва, 1978,** s. 85-96. Совместно: Т.В. Рябушкин и другие.

33. Национальная специфика занятости женщин в Союзных Республиках на современном этапе. Основные тенденции **Материалы Всесоюзной Конференции «Основные направления эффективного использования трудовых ресурсов в свете решений XXV Съезда КПСС». Москва, 1978,** s. 18-37

34. **Комплексная программа научно-технического прогресса и его социально-экономических последствий на перспективу до 2000 года. Том 22. Демография, рациональное использование трудовых ресурсов. Москва, 1979 г.,** s. 609-638.

35. Əmək ehtiyatları problemi. **«Elm və həyat» jurnalı, Bakı, 1979, №2,** s. 1-3. F.H.Abbasovla birlikdə.

36. **Развитие экономики Азербайджана на современном этапе (коллективная монография). Баку, Издательство «Элм», 1980,** 299 s. Совместно: А.А.Махмудов, А.К.Алескеров и другие.

37. Sovet hakimiyyəti illərində Azərbaycanda əhalinin dinamikası və xalqın həyat şəraitinin yüksəldilməsi. **Azərbaycan SSR EA-nın Xəbərləri. İqtisadiyyat seriyası, Bakı, 1980, №1**, s. 70-80.

38. 60 ildə Azərbaycanda əhalinin dinamikası və quruluşunun dəyişilməsi. «Elm və həyat» jurnalı. **Bakı, 1980,** № 1.

39. Həyat səviyyəsinin yüksəldilməsi. **«Elm və həyat» jurnalı, Bakı, 1980, № 4,** s. 16-18.

40. Учёт особенностей территориально-отраслевой структуры занятости при разработке программ улучшения использования трудовых ресурсов – Региональные аспекты перспективных комплексно-целевых программ эффективного использования трудовых ресурсов. **Тезисы докладов Республиканской научно-практической конференции. г. Киев, «Науково думка», 1980,** s. 144-147.

41. **Проблемы народонаселения и демографической политики (коллективная монография). Москва, «Профиздат», 1981,** s. 129-132. Совместно: Т.В.Рябушкин, Д.И.Валентей и другие.

42. **Региональные особенности воспроизводства и миграции населения в СССР (коллективная монография). Москва, «Наука», 1981,** s. 266. Совместно: Т.В.Рябушкин, Р.А.Убайдуллайев, Е.П.Чернов и другие.

43. Формирование и использование трудовых ресурсов в Азербайджанской ССР в XI пятилетке и долгосрочной перспективе. **Тезисы докладов на научное совещание по проблеме «Формирование и эффективность использования трудовых ресурсов в народном хозяйстве в XI пятилетке и долгосрочной перспективе». 1-2 октября 1981. г. Душанбе, 1981,** s. 26-28.

44. Əhalinin səmərəli məşğulluğunun təmin edilməsinin regional problemləri. «Sosialist istehsal münasibətlərinin təkmilləşdirilməsinin regional aspektləri» **Respublika elmi konfransının tezisləri. Bakı, 1981,** s. 13-17.

45. Актуальные вопросы демографической политики в регионах с быстрорастущими трудовыми ресурсами. **Azərbaycan SSR EA-nın Xəbərləri. İqtisadiyyat seriyası, Bakı, 1982, №3,** s. 58-68.

46. Azərbaycan SSR-də demoqrafik inkişafın və əmək ehtiyatlarından istifadənin aktual problemləri. **Azərbaycan SSR EA-nın Xəbərləri. İqtisadiyyat seriyası, Bakı, 1982, №2,** s. 13-19.

47. Демографические аспекты развития и обеспечения рациональной занятости населения в регионе с быстрорастущими трудовыми ресурсами – Проблемы демографической политики в социалистическом обществе. **Тезисы докладов Всесоюзной научной конференции, г. Киев, 1982,** s. 23-25.

48. Azərbaycan SSR-də demoqrafik inkişafın və əmək ehtiyatlarından istifadənin aktual problemləri. **Azərbaycan SSR EA-nın Xəbərləri. İqtisadiyyat seriyası. Bakı, «Elm», 1982,** №2, s. 13-19.

49. Вопросы хозяйственного механизма **(Материалы конференции 1980 г.). Баку, «Элм», 1983,** s. 60-66.

50. Комплексная программа Научно-Технического Прогресса СССР на 1986-2005 годы (по пятилетиям). Региональный раздел. **Комплексная программа научно-технического прогресса Азербайджанской ССР. Москва, 1983**, s. 381-411.

51. Demoqrafik inkişafın regional xüsusiyyətləri, onların nizamlanması və ərazi planlaşdırılmasında nəzərə alınmasının bəzi məsələləri. **Azərbaycan SSR EA-nın Xəbərləri. İqtisadiyyat seriyası, Bakı, 1984,** №1, s. 29-40.

52. Проблемы обеспечения рациональной занятости населения в регионах быстрорастущими трудовыми ресурсами. **Azər-**

baycan SSR EA-nın Xəbərləri. İqtisadiyyat seriyası, Bakı, 1984, №2, s. 14-23.

53. Проблемы женской занятости в республиках и регионах с высоким уровнем рождаемости и детности. **Всесоюзная Научно-Практическая Конференция «Улучшение использования трудовых ресурсов в трудообеспечённых районах». г. Ташкент, 11-13 сентябрь 1984**, s. 16-25. R.A.Ubaydullayeva, S.Benxocayeva və O.A.Osipova ilə birlikdə.

54. Naxçıvan MSSR-də demoqrafik inkişafın və əmək ehtiyatlarından istifadənin aktual problemləri. «Naxçıvan MSSR-də təbii sərvətlərdən səmərəli istifadə və məhsuldar qüvvələrin inkişaf etdirilməsi problemləri» mövzusunda **elmi-praktiki konfransında ediləcək məruzələrin tezisləri. Bakı, «Elm», 1984**, s. 36-39.

55. Социально-демографическая структура незанятых трудовых ресурсов в Азербайджанской ССР и пути их вовлечения в общественное производство. **Всесоюзная научная конференция. Народонаселение и совершенствование планирования социальной инфраструктуры. Доклады. Баку, 1984**, s. 143-151.

56. Проблемы занятости рациональной занятости населения в Азербайджанской ССР. **Всесоюзная научно-практическая Конференция «Улучшение использования трудовых ресурсов в трудообеспечённых районах». г. Ташкент, 11-13 сентября 1984 г.**, s. 131-142.

57. Проблемы обеспечения рациональной занятости трудовых ресурсов женщин в Азербайджанской ССР. **Azərbaycan SSR EA-nın Xəbərləri. İqtisadiyyat seriyası. Bakı, 1985, №4**, s. 44-55. Совместно с А.Г.Гёзаловой.

58. Трудовой потенциал республики и проблемы обеспечения его рациональной занятости на перспективу. **Azərbaycan**

SSR EA-nın Xəbərləri. İqtisadiyyat seriyası, Bakı, 1986, №1-2, s. 69-78.

59. **Müasir mərhələdə demoqrafiya siyasəti. Monoqrafiya. Bakı, «Elm», 1986, 102 s.** F.H.Abbasovla birlikdə.

60. **Демографическая политика социалистического общества (коллективная монография). Москва, «Наука», 1986,** s. 168-173. Совместно: Т.В.Рябушкин, М.С.Бедный, Р.А.Галецкая и другие.

61. Respublikanın əmək potensialı və gələcəkdə onların səmərəli məşğulluğunun təmin edilməsi. **Azərbaycan SSR EA-nın Xəbərləri. İqtisadiyyat seriyası, Bakı, 1986, №1-2.**

62. Региональные проблемы взаимосвязи роста населения и развития экономики (на примере Азербайджанской ССР). **Тезисы научной конференции. г. Самарканд, 1986,** s. 16-20.

63. Социально-демографические аспекты обеспечения сбалансированности рабочих мест с трудовыми ресурсами в трудообеспеченном регионе. Демографические аспекты ускорения социально-экономического развития. **Тезисы докладов Всесоюзной научной конференции. г. Харьков. 27-29 октября 1987 г.,** s. 17-19.

64. **Комплексное развитие народного хозяйства и использование труда молодёжи в горных районах Азербайджанской ССР. Социалистические исследования: опыт, проблемы, перспективы. Баку, 1987,** s. 11-12. K.Həsənovla birlikdə.

65. **Azərbaycan SSR-in əmək ehtiyatları: nəzəri-metodoloji və sosial-iqtisadi aspektlər. Kollektiv monoqrafiya. Bakı, «Elm», 1987,** 258 s. F.Abbasov, İ.M.İsmayılov və başqaları ilə birlikdə.

66. Azərbaycan SSR-də demoqrafik inkişafın və əhalinin məşğulluq quruluşunun dəyişilməsi meylləri. **Azərbaycan SSR EA-nın Xəbərləri. İqtisadiyyat seriyası, Bakı, 1987,** №3, s. 3-17.

67. Социально-экономические проблемы развития Азербайджанского села (материалы Конференции). Баку, «Элм», 1988, s. 44-51. A.Q.Gözəlova ilə birlikdə.

68. Рациональная занятость населения в регионе. **Журнал «Вопросы экономики», Москва, 1988,** №6, s. 104-113.

69. Демографическое развитие и рациональное использование трудовых ресурсов в Азербайджанской ССР. **Azərbaycan SSR xalq təsərrüfatı kompleksinin formalaşması və inkişafı» elmi-praktiki konfransının materialları. Bakı, 1988,** s. 15-22.

70. Demoqrafik inkişaf: əsas meyllər və problemlər. **«Azərbaycan kommunisti» jurnalı. Bakı, 1989, №4,** s. 89-99.

71. Демографическое развитие: основные тенденции и проблемы. **Журнал: «Коммунист Азербайджана», Баку, 1989, №4,** s. 89-99.

72. Demoqrafik inkişaf və əhalinin məşğulluğu: perspektivlər və problemlər. **Azərbaycan SSR EA-nın Xəbərləri. İqtisadiyyat seriyası, Bakı, 1989, №4**, s. 37-49.

73.**Социально-демографическое развитие трудообеспечённых районов СССР (коллективная монография). Москва, «Наука», 1989,** s. 203. R.A.Ubaydullayeva, V.Q.Kostakov, B.D.Breyev, Y.İ.Ruzavina, A.Q,Gözəlova və başqaları ilə birlikdə.

74. Əhalinin səmərəli məşğulluğunun təmin edilməsinin regional problemləri. «Sosialist istehsal münasibətlərinin təkmilləşdirilməsinin regional aspekti». **Respublika elmi konfransının tezisləri. Bakı, ADU nəşriyyatı. 1989,** s. 13-17.

75. **Комплексная Программа Научно-Технического Прогресса Азербайджанской ССР. Москва, 1989**, s. 79-85.

76. **Программа развития народонаселения Азербайджанской ССР на 1991-2005 годы. Том II, часть II, Баку, 1989,** 47 s.

77. Qadın əməyi: sosial-demoqrafik aspektlər. **Azərbaycan SSR EA-nın Xəbərləri. İqtisadiyyat seriyası, Bakı, 1990, № 4,** s. 20-28.

78. Bazar iqtisadiyyatı işsizlik doğuracaq: bəs çarəsi? **«Azərbaycan kommunisti» jurnalı, Bakı, 1991, № 4,** s. 39-46.

79. Təsərrüfat hesabı və qadın əməyi. **«Azərbaycan qadını» jurnalı. Bakı, 1990, № 2,** s. 6-7.

80. Demoqrafik vəziyyət və milli məsələnin həllində onun nəzərə alınması problemləri. **Azərbaycan Respublikasının Milli Siyasəti: problemlər, perspektivlər. Respublika elmi-nəzəri konfransının materialları, Bakı, 19-20 aprel 1994, «Azərbaycan»** nəşriyyatı, s. 50-54.

81. Azərbaycanda əhalinin dinamikası və quruluşu. **«Bazar münasibətlərinə keçid və Azərbaycanın iqtisadi inkişafının bəzi problemləri». Bakı, 1994,** s. 187-198.

82. Bazar iqtisadiyyatına keçidin aktual problemləri. Nəzəri-metodoloji və sosial-iqtisadi aspektlər. Bakı, «Elm», 1994, s. 8-11.

83. Əmək bazarı: işsizlik və məşğulluq problemləri. **Azərbaycan EA-nın Xəbərləri. İqtisadiyyat seriyası, Bakı, 1995, № 1-4**, s. 36-42.

84. Bazar iqtisadiyyatına keçid şəraitində əmək ehtiyatlarının təkrar istehsalı və iş qüvvəsindən istifadənin təkmilləşdirilməsi yolları. **Azərbaycan EA-nın Xəbərləri. İqtisadiyyat seriyası, Bakı, «Elm», 1996, № 1-4.** s. 72-84.

85. Bazar iqtisadiyyatına keçid şəraitində Azərbaycanda məşğulluq və işsizlik problemləri. **«Bazar münasibətləri şəraitində biznesin sosial-iqtisadi problemləri». Elmi-nəzəri konfransın materialları. Bakı, Biznes Universiteti, 1996,** s. 10-12.

86. Azərbaycan Respublikası əhalisinin dinamikası və quruluşu. **«Reforma» jurnalı. ABŞ, Vaşinqton, 1996,** s. 65-66.

87. **Azərbaycan iqtisadiyyatının bazar münasibətlərinə uyğun qurulması və tənzimlənməsinin sosial-iqtisadi, hüquqi problemləri. Bakı, 1996,** s. 221-226.

88. Demoqrafik inkişafın, məşğulluğun və işsizliyin mövcud reallıqları, proqnozları və həlli problemləri. **«Azərbaycan XXI əsrin astanasında» Respublika elmi-praktiki konfransın materialları. Bakı, 1997,** s. 325-328.

89. Müasir mərhələdə demoqrafiya və məşğulluq siyasətinin formalaşması problemləri. **Azərbaycan EA-nın Xəbərləri. İqtisadiyyat seriyası, Bakı, 1997, № 1-4,** s. 30-45.

90. Dövlətin məşğulluq siyasəti və onun təkmilləşdirilməsinin əsas istiqamətləri. **Azərbaycan EA-nın Xəbərləri. İqtisadiyyat seriyası, Bakı, 1997, № 1**, s. 30-45

91. **İqtisadi nəzəriyyə. Dərs vəsaiti. XV mövzu – Azərbaycanda əhalinin inkişafı və məşğulluq. Bakı Universitetinin nəşriyyatı, Bakı, 1997,** s. 166-177.

92. **Azərbaycan iqtisadiyyatı. X fəsil – Azərbaycanda demoqrafik inkişaf və məşğulluq problemi. Əmək bazarının formalaşması. Bakı, 1998,** s. 199-216.

93. Azərbaycanda demoqrafiya və məşğulluq siyasəti: 70-80-ci illərin həqiqətləri, müasir dövrün reallıqları və problemləri. **«Müstəqil Azərbaycan Respublikasının milli iqtisadiyyatının inkişafı problemlərinə» həsr edilmiş elmi-nəzəri konfransın tezisləri. Bakı, 1998,** s. 21-23.

94. Azərbaycanda əhalisakinliyi və demoqrafik inkişaf problemləri. Yaxın keçmişin həqiqətləri, reallıqlar, proqnozlar, müasir çətinliklər və onların həlli yolları. **«Azərbaycan XXI əsrin Astanasında». İkinci Respublika elmi-praktiki konfransının materialları. Bakı, 1998,** s. 418-423.

95. Müasir mərhələdə Azərbaycanda kəskinləşən əhalisakinliyi problemi və demoqrafik siyasətin əsas prinsipləri. **«Azərbaycanda bazar münasibətlərinə keçid şəraitində sosial islahatlar» Respublika elmi-praktiki konfransının materialları. Bakı, 1998,** s. 66-73.

96. **Müasir mərhələdə Azərbaycanda məşğulluq, demoqrafiya və sosial siyasətin təkmilləşdirilməsi problemləri. Müasir mərhələdə Azərbaycanda yeni iqtisadi sistemə keçidin qanunauyğunluqları və problemləri (kollektiv monoqrafiya). Bakı, 1998, s. 314-357.** R.Ş.Muradovla birlikdə.

97. Naxçıvan Muxtar Respublikasında demoqrafik inkişafın və demoqrafiya siyasətinin bəzi aktual problemləri. **«Naxçıvan MR iqtisadiyyatı XXI əsrin astanasında». Elmi-nəzəri konfransının materialları. Bakı, 1998,** s. 12-16.

98. Müasir mərhələdə Azərbaycanda demoqrafik vəziyyətin xüsusiyyətləri və dəyişilməsi meylləri: əsas problemlər və mülahizələr. **Azərbaycan EA-nın Xəbərləri. İqtisadiyyat seriyası, Bakı, 1998, № 4,** s. 29-46.

99. Демографическая ситуация в Азербайджане на пороге третьего тысячелетия. **Azərbaycan EA-nın Xəbərləri. İqtisadiyyat seriyası, Bakı, 1999, № 1-4,** s. 9-18. A.Q.Gözəlova ilə birlikdə.

100. Naxçıvan Muxtar Respublikasının demoqrafik potensialı. **Azərbaycan EA-nın Xəbərləri. İqtisadiyyat seriyası, Bakı, 1999, № 1-4,** s. 19-24.

101. Məşğulluq siyasəti və müasir mərhələdə onun təkmilləşdirilməsinə dair bəzi mülahizələr. **«Sosial-iqtisadi inkişaf və demoqrafik proseslər» Respublika elmi-praktiki konfransın materialları, Bakı, 1999,** s. 19-22. G.Erenlə birlikdə.

102. Müasir şəraitdə dövlətin demoqrafiya siyasəti: məqsəd və vəzifələr. **«Sosial islahatlar və cəmiyyət» Respublika elmi-praktiki konfransın materialları, Bakı, 1999**, s. 33-35.

103. **Naxçıvan statistika güzgüsündə. Tarixi-statistik məcmuə. Bakı, 1999,** 125 s. C.Quliyev, A.Nadirov və başqaları ilə birlikdə.

104. Müasir mərhələdə Azərbaycanda demoqrafik vəziyyətin xüsusiyyətləri və dəyişilməsi meylləri: əsas problemlər və mülahizələr. **Müasir mərhələdə Azərbaycanın sosial-iqtisadi inkişafının əsas meylləri (məqalələr toplusu). I buraxılış. Bakı, 1999**, s. 3-19. G.Erenlə birlikdə.

105. Keçid iqtisadiyyatı şəraitində məşğulluq sahəsində gender problemi və qadın məşğulluğunun bəzi məsələləri (xarici ölkələrin müqayisəli materialları ilə). **Müasir mərhələdə Azərbaycanın sosial-iqtisadi inkişafının əsas meylləri (məqalələr toplusu). XII buraxılış. Bakı, 2000.** A.Gültəkin və M.Səmədova ilə birlikdə. S.3-29.

106. Демографическая ситуация и социальная политика в Азербайджанской Республике. **Azərbaycan EA-nın Xəbərləri. İqtisadiyyat seriyası, Bakı, 2000, №1-2,** s. 38-56. R.Ş.Muradov və A.Q.Gözəlova ilə birlikdə.

107. **Naxçıvan iqtisadiyyatı XX əsrdə (monoqrafiya). Bakı, «Elm», 2000,** 161 səhifə. A.Nadirov və Ə.Nuriyevlə birlikdə.

108. Проблемы демографического развития и занятости населения в Азербайджане. **Azərbaycan EA-nın Xəbərləri. İqtisadiyyat seriyası, Bakı, 2000,** s. 40-54.

109. Məşgulluq siyasəti və müasir mərhələdə onun təkmilləşdirilməsinin əsas istiqamətləri. **«Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafın problemləri». «Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı problemləri» konfransının materialları. Naxçıvan, 2000**, s. 7-13.

110. Демографическое развитие Азербайджана на пороге XXI века: основные тенденции и проблемы. **Журнал «Общество и экономика», Москва, 2000,** s. 88-98.

111. Azərbaycan Respublikasının demoqrafik potensialı – **«Azərbaycan və azərbaycanlılar» - Azərbaycan Elmlər Akademiyası. Bakı,** 2000, s. 92-100.

112. Образовательный потенциал и демографические процессы. **Тезисы докладов. Наука и образование III-го тысячилетия. В 2-х книгах. г. Минск, 2000, книга 1,** səh. 264-265; книга 2, s. 253-254. A.Q.Gözəlova ilə birlikdə

113. Проблемы демографического развития и занятости населения в Азербайджане. **Azərbaycan EA-nın Xəbərləri. İqtisadiyyat seriyası, Bakı, 2000, №3-4,** s. 40-54.

114. **Социальная политика в постсоциалистическом обществе. Задачи, противоречия, механизмы (коллективная монография). Москва, «Наука», 2001,** s. 647. K.Mikulskiy, A.Nikoforova, L.Çikava, R.Ş.Muradov və A.Q.Gözəlova ilə birlikdə.

115. Yeni iqtisadi münasibətlərə keçid şəraitində əhalisakinliyi və məşğulluq problemləri. **«Müstəqil Azərbaycan Respublikası üçüncü minilliyin yüzilliyində» mövzusunda elmi-praktiki konfransın tezisləri. Bakı, 2001** s. 19-24.

116. Azərbaycanda insan potensialının inkişafı və onun nizamlanması istiqamətləri. **Azərbaycan EA-nın Xəbərləri. İqtisadiyyat seriyası, Bakı, 2001, № 1-2,** s. 3-32.

117. Azərbaycanın əmək potensialı və ondan istifadənin sosial-iqtisadi strategiyası. **Azərbaycan EA-nın Xəbərləri. İqtisadiyyat seriyası, Bakı, 2001, № 3-4**, s. 3-24.

118. Azərbaycan Respublikasının demoqrafik inkişaf konsepsiyası. **«Beynəlxalq həyat». Elmi, ictimai-siyasi jurnal. Bakı, 2001, № 2,** s. 10-15.

119. Azərbaycanın demoqrafik inkişafı XXI əsrin astanasında: əsas meyllər və problemlər. **«Sosioloji tədqiqatlar: əhali və məşğulluq». «Rus dilindən tərcümələr» jurnalı. ABŞ, Nyu-York, 2001, may-iyun**, s. 34-43.

120. Müstəqilliyimizin və milli mənəviyyatımızın qarantı. **«Dirçəliş» XXI əsr jurnalı. Bakı, 2001, № 44,** s. 119-129.

121. Azərbaycan iqtisadiyyatına xarici investisiya qoyuluşu və məşğulluq problemləri. **Azərbaycan EA-nın Xəbərləri. İqtisadiyyat seriyası, Bakı, 2002, № 1**, s. 3-23. G.Erenlə birlikdə.

122. Qloballaşma şəraitində Azərbaycanda məşğulluq problemləri. **«Azərbaycan iqtisadiyyatının strateji problemləri» Respublika elmi-praktiki konfransın məruzələrinin tezisləri. Bakı, 2002,** s. 407-411.

123. Müstəqilliyimizin və milli mənəviyyatımızın qarantı. Yeni Azərbaycanın qurucusu. **«Azərbaycan müstəqillik yollarında» mövzusunda Elmi-praktiki konfransın materialları (tarixi həqiqətlər, faktlar və reallıqlar). 2 may 2002-ci il. Bakı, 2002,** s. 279-300.

124. Проблемы занятости и безработицы в Азербайджане в условиях глобализации. **«İqtisadiyyat və Audit» jurnalı, Bakı, 2002, № 7,** s. 17-21.

125. Azərbaycan elminin inkişafında Heydər Əliyevin xidmətləri. **Heydər Əliyevin iqtisadi idarəetmə məktəbi. II buraxılış. Bakı, 2003**, s. 126-143.

126. Müasir dünyada və Azərbaycanda gedən demoqrafik dəyişikliklər: əsas meyllər və problemlər. **«Müasir dövrdə Azərbaycanda demoqrafik inkişafın, məşğulluğun və işsizliyin sosial-iqtisadi problemləri». Elmi-praktiki konfransın materialları. Bakı, 2003,** s. 6-13.

127. Azərbaycanda elmin inkişafının Heydər Əliyev mərhələsi. **«Elm» qəzeti. Xüsusi buraxılış. Bakı, 2003**, s. 235-249.

128. Проблемы занятости в Азербайджане в условиях глобализации. «Yeni geostrateji münasibətlərdə Cənubi Qafqaz regionunun yeri». **Beynəlxalq elmi konfransın işçi materialları (Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 80 illik Yubileyinə həsr olunur). Bakı, 22-23 may 2003,** s. 196-204.

129. Heydər Əliyev və Azərbaycanın demoqrafik inkişaf konsepsiyası. **«Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev cənablarının anadan olmasının 80 illiyinə həsr edilmiş Elmi-praktiki konfransın materialları. Bakı, 2003,** s. 117-118.

130. Heydər Əliyev dövlət müstəqilliyimizin və iqtisadi yüksəlişimizin memarıdır. **«Azərbaycanın vergi xəbərləri» jurnalı. Bakı, dekabr, 2003,** №6, s. 65-77.

131. İşıqlı gələcəyimizin təminatçısı. **«Müdriklik zirvəsi» elmi, analatik hüquq jurnalı. Bakı, 2003, № 3,** s. 30-31.

132. Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı dinamik inkişaf yollarında. **Azərbaycan EA-nın Xəbərləri. İqtisadiyyat seriyası, Bakı, 2003,** s. 3-11.

133. **İqtisadi qloballaşma şəraitində milli iqtisadiyyat: nəzəri təhlil. Buraxılış № 1, Bakı, 2003,** s. 20-39.

134. **Azərbaycan iqtisadiyyatı. Xaricdə yaşayan azərbaycanlılar üçün (kollektiv monoqrafiya). Bakı, 2003,** 341 s. A.Nadirov, A.Ələsgərov, Ə.Nuriyev və T.Hüseynovla birlikdə.

135. Heydər Əliyev və onun qurduğu Azərbaycan. **«İqtisadiyyat və Audit» - aylıq elmi-praktik jurnal. fevral, № 2, Bakı, 2004,** s. 2-12.

Printed by Decision of Editing-Printing Committee of Humanitarian and Social Sciences Department of National Academy of Sciences of Azerbaijan

Editor: Real member of NASA (Academic), D.E.S. A.A.Nadirov
Referees: Correspondent Member of NASA, D.E.S., Professor A.K.Alaskarov, D.E.S., Professor, E.G.Mehraliyev

Muradov S.M.
Human potentials: main intentions, realities and problems.
Baku: Elm, 2004. Page 660.

During last 106 years (1897-2003) monograph was dedicated to research of theoretical, methodological, social-economical, ethno-demographic and regional problems of formation of human potential, its development and usage. The main feature that attracted the attention for the book is that the first time, basing on rich historical and official statistic data and long historical period, number of population of Azerbaijan, national content, age-sex structure, break-down between villages and cities, education, intellectual development and employment level and structure, migration process, family-registration (kebin), birth, death and natural increase, changes in lifelong and health indicators and development intentions, factors that influence them have been researched and summarized as a complex and all this was conducted in compare with the world and CIS countries. Here, main directions of country's policy on population-citizenship, demography, migration of population, employment and Gender have thoroughly and widely been spotlight in the actual stage, considering world and CIS countries' experience in this area number of theoretic-methodological and conceptual recommendations, which are grounded from scientific point of view, have been given.

Monograph is intended for scientific workers, high-school teachers, students and wide range of reader audience.

Издается по решению Редакционно-издательского совета отделения гуманитарных и общественных наук Национальной Академии наук Азербайджана

Редактор: действительный член НАН Азербайджана (академик), д.э.н., профессор А.А.Надиров

Рецензенты: член-корр. НАН Азербайджана, д.э.н., профессор А.К.Алескеров, д.б.н., профессор Э.Г.Мехралиев

Мурадов Ш.М.
Человеческий потенциал: основные тенденции, реалии, проблемы. Баку, «Элм», 2004, 660 стр.

Монография посвящена изучению теоретико-методологических, социально-экономических, этнодемографических и региональных проблем формирования, развития и использования человеческого потенциала в Азербайджане за последние 106 лет (1897-2003 г.г.).

Отличительной стороной монографии является то, что в ней впервые на основе богатого исторического и официального статистического материала комплексно изучены и обобщены закономерности и особенности изменения численности населения Азербайджана, его национального состава, половозрастной структуры, распределения между сельской и городской местностью, уровня образования, интеллектуального развития, занятости, миграции, рождаемости, смертности, естественного прироста, разводимости, семейно-брачных отношений, продолжительности жизни и здоровья населения, тенденции развития этих процессов и факторы, влияющие на них. Все изученные процессы даны в сравнении с республиками СНГ и зарубежными странами. С учетом опыта стран ближнего и дальнего зарубежья разработаны научно обоснованные предложения теоретико-методологического и концептуального характера, иселедованы основные направления государственной политики в области народонаселения, демографии, миграции, занятости, а также гендерной политики в Азербайджане.

Монография предназначена для научных сотрудников, педагогов вузов, студентов и широкого круга читателя.

BİOQRAFİYA

Şahbaz Musa oğlu Muradov 1938-ci ildə Azərbaycan Respublikası Laçın rayonu Köhnəkənd Sovetliyinin Xumarta kəndində anadan olmuşdur. O, 1946-cı ildə doğma kəndində açılmış ibtidai məktəbə daxil olmuş və 1953-cü ildə Köhnəkənd 7-illik məktəbini əla qiymətlərlə bitirmişdir. 1953-cü ildə Bakı şəhərinə gəlib imtahansız Azərittifaqın Bakı Kooperativ Texnikumuna qəbul olmuşdur. 1956-cı ildə həmin texnikumu əla qiymətlər və fərqlənmə diplomu ilə bitirib, əlaçıların 5%-i hesabı ilə Azərittifaqın İdarə Heyətinin qərarı ilə K.Marks adına Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunda təhsil almağa göndərilmiş və imtahan vermədən bu ali təhsil ocağına qəbul edilmişdir. 1959-cu ildə həmin İnstitutun ləğv edilməsi ilə əlaqədar olaraq, Azərbaycan Dövlət Universitetinin «İqtisadiyyat» fakültəsində təhsilini davam etdirmişdir. 1961-ci ildə Azərbaycan Dövlət Universitetini fərqlənmə diplomu ilə bitirib, gənc mütəxəssis kimi Azərbaycan Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda işləməyə göndərilmiş və indiyədək burada çalışaraq, kiçik elmi işçi vəzifəsindən İnstitutun direktoru vəzifəsinədək yüksəlmişdir. 1965-cu ildə namizədlik, 1972-ci ildə doktorluq dissertasiyası müdafiə etmiş, 1977-ci ildən professordur. O, 2001-ci ildə AMEA-nın müxbir üzvü seçilmişdir. 1961-1966-cı illərdə kiçik elmi işçi, 1966-1968-ci illərdə böyük elmi işçi vəzifəsində çalışmış, 1968-ci ildən «İş qüvvəsinin təkrar istehsalı» şöbəsinə, 2001-ci ildən isə "Demoqrafiya və iş qüvvəsinin təkrar istehsalı" sektoruna rəhbərlik edir. 1991-1998-ci illərdə eyni zamanda İnstitutun elmi işlər üzrə direktor müavini vəzifəsində çalışmışdır. 1999-cu ilin əvvəlindən İnstitutun direktorudur. Professor Ş.M.Muradov keçmiş SSRİ məkənında iqtisad elmi sahəsində gənc yaşında doktorluq dissertasiyası müdafiə etmiş 3-4 nəfərdən və Azərbaycanda isə iqtisad elmləri doktoru alimlik dərəcəsi almış 10-12 nəfərdən biri olub çox gənc ikən öz elmi məktəbini yaratmış istedadlı alimlər nəslinə mənsub tanınmış iqtisadi alimdir. O, 50 nəfərdən çox elmlər namizədi və doktoru hazırlamışdır. 350-dən çox elmi əsərin, o cümlədən 25-dən çox monoqrafiya, kitab və dərsliklərin müəllifidir. 50-yə qədər əsəri MDB və uzaq xarici ölkələrdə, o cümlədən Nyu-York, Vaşinqton, Moskva, Kiyev və

başqa şəhərlərdə ingilis və rus dillərində nəşr edilmişdir. 10-dan artıq tədqiqat əsəri, o cümlədən 1 monoqrafiyası 1974—1990-cı ilərdə SSRİ Elmlər Akademiyası Rəyasət Heyəti tərəfindən yüksək elmi nəticə kimi qiymətləndirilmiş və Sovet elminin ən yüksək nailiyyətləri sırasına daxil edilmişdir. O, onlarla beynəlxalq, ümumittifaq və respublika əhəmiyyətli simpoziumlarda, konqreslərdə və elmi konfranslarda məruzələr edərək, Azərbaycan iqtisad elmini layiqincə təmsil etmişdir. 1971—1991-ci illərdə SSRİ EA Rəyasət Heyətinin nəzdində fəaliyyət göstərmiş «Əhalisakinliyinin sosial-iqtisadi problemləri», «Əmək ehtiyatları problemləri» üzrə Problem Elmi Sovetlərinin, habelə ETT-nin kompleks proqramları komissiyalarının üzvü olmuş; SSRİ EA İqtisadiyyat, Mərkəzi İqtisadi-Riyaziyyat, Sosioloji Tədqiqatlar və s. İnstitutlarının elmi əməkdaşları ilə birlikdə tədqiqat işləri aparmış və həmin tədqiqatların nəticələri fundamental əsərlər kimi nəşr edilib dünyanın bir sıra ölkələrinə yayılmışdır. Bu əsərlər sırasında «İş qüvvəsinin təkrar istehsalı və əmək ehtiyatlarından istifadənin səmərəliliyinin yüksəldilməsi» (Москва, МГУ, 1971, 279-cu s.); «İttifaq respublikalarının əhalisi» (Москва, «Статистика», 1977, 321-ci s.); «İttifaq respublikalarında əhali miqrasiyasının xüsusiyyətləri» (Москва, 1978, 206-cı s.); «Əhalisakinliyi və demoqrafiya siyasəti problemləri» (Москва, «Профиздат», 1981, 211-ci s.); «SSRİ-də əhalilin təkrar istehsalı və miqrasiyasının regional xüsusiyyətləri» (Москва, «Наука», 1981, 266-cı s.); «Sosializm cəmiyyətinin demoqrafiya siyasəti» (Москва, «Наука», 1986, 190-cı s.); «SSRİ-nin əməklə təmin edilmiş rayonlarının sosial-demoqrafik inkişafı» (Москва, «Наука», 1989, 204-cü s.); «Postsosialist cəmiyyətdə sosial siyasət: vəzifələr, ziddiyyətlər, mexanizmlər» (Москва, «Наука», 2001, 647-ci s.) və s.

1979, 1983 və 1987-ci illərdə Moskvada nəşr edilmiş 50,0 çap vərəqi həcmində «Demoqrafiya və əmək ehtiyatları» üzrə «Elmi-Texniki Tərəqqi və onun sosial-iqtisadi nəticələri» adlı kompleks proqramın III cildlik yekun sənədinin, habelə «Azərbaycanın demoqrafik inkişaf konsepsiyası» və «Azərbaycan Respublikasında demoqrafiya və əhalisakinliyinin inkişafı sahəsində Dövlət Proqramı»nın müəlliflərindən biridir. 1995-1998-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinə seçkilər üzrə Mərkəzi Komissiyasının və «Naxçıvan Ensiklopediyası» Elmi

redaksiya Şurasının üzvü olmuşdur. Hazırda bir sıra jurnal və qəzet redaksiyalarının üzvü, AMEA-nın xəbərləri («İqtisadiyyat» seriyası) jurnalının məsul redaktoru, YUNESKO-nun Azərbaycan Respublikasında «Bioetika, elmi biliklər və texnologiyalarının etikası» üzrə Milli Komitənin və Azərbaycan Respublikası «Ensiklopediyası» Elmi redaksiya Şurasının üzvü, AMEA İqtisadiyyat İnstitutunda fəaliyyət göstərən İxtisaslaşdırılmış Doktorluq və Namizədlik Dissertasiya Şurasının sədridir. O, Azərbaycan elminin inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 14 fevral 2004-cü il tarixli sərəncamı ilə «Şöhrət» ordeni ilə təltif edilmişdir.

Ailəlidir, iki oğlu, bir qızı və 4 nəvəsi vardır.

MÜNDƏRİCAT

Giriş 5

I FƏSİL

İnsan potensialının formalaşması və inkişaf dinamikası: əsas tarixi dəyişikliklər və inkişaf meylləri

1.1. Dünyada və Azərbaycanda insan potensialının formalaşması, inkişaf dinamikası və onlara təsir edən amillər 10
1.2. Müasir mərhələdə demoqrafik dəyişikliklər, insan potensialının formalaşması və inkişafına onların təsiri 77

II FƏSİL

Əmək bazarının öyrənilməsinin nəzəri-metodoloji əsasları

2.1. Əmək bazarı: sosial-iqtisadi mahiyyəti, məzmunu və nizamlanmasının nəzəri-metodoloji əsasları 138
2.2. Məşğulluq anlayışı: mahiyyəti, məzmunu, quruluşu, prinsipləri və iqtisadi funksiyaları 161
2.3. İşsizlik anlayışı: mahiyyəti, məzmunu, formaları və modelləri 187

III FƏSİL

Müasir mərhələdə Azərbaycanda intellektual insan potensialının formalaşması qanunauyğunluqları, əhalinin məşğullıq səviyyəsi və quruluşunun dəyişilməsi meylləri, işsizliyin azaldılması istiqamətləri və strategiyası

3.1. Müasir mərhələdə Azərbaycanda intellektual insan potensialının formalaşması və inkişafı qanunauyğunluqları 206
3.2. Azərbaycanda əhalinin məşğulluq səviyyəsi və dinamikası 226
3.3. Azərbaycanda əhalinin məşğulluq quruluşu, onun formalaşması qanunauyğunluqları, dəyişilməsi meylləri və xüsusiyyətləri 258
3.4. Gələcəkdə Azərbaycanda əhalinin işsizlik səviyyəsinin azaldılması istiqamətləri və strategiyası 277

IV FƏSİL

Azərbaycan iqtisadiyyatına xarici investisiya qoyuluşu və onun əhalinin məşğulluq səviyyəsinə təsiri

4.1. Azərbaycan iqtisadiyyatına xarici investisiya qoyuluşu mühitinin qiymətləndirilməsi 304
4.2. Azərbaycan iqtisadiyyatına xarici investisiya qoyuluşunun əhalinin məşğulluq və işsizlik səviyyəsinə təsirinin qiymətləndirilməsi 319
4.3. Ölkə iqtisadiyyatına xarici investisiya qoyuluşunun əhalinin məşğulluq və işsizlik probleminin həllinə təsirinin dünya təcrübəsi 350
4.4. Məşğulluq və işsizlik probleminin həlli istiqamətində Azərbaycanın xarici investisiya siyasətinin təkmilləşdirilməsi məsələləri 374

V FƏSİL

Müasir mərhələdə dünyada və Azərbaycanda əhali miqrasiyası və miqrasiya siyasətinin əsas istiqamətləri

5.1. Əhali miqrasiyasının öyrənilməsinin nəzəri-metodoloji əsasları 395
5.2. Müasir mərhələdə dünyada və MDB ölkələrində əhali miqrasiyasının xüsusiyyətləri və dəyişilmə meylləri 410
5.3. Müasir mərhələdə Azərbaycanda əhali miqrasiyasının dinamikası, xüsusiyyətləri və miqrasiya sahəsində dövlət siyasətinin əsas istiqamətləri 428

VI FƏSİL

İnsan resursları və onların idarə edilməsi strategiyası. Məşğulluq sahəsində Gender problemi. Əhalisakinliyi və demoqrafiya sahəsində dövlət siyasətinin əsas istiqamətləri

6.1. İnsan resursları və onların idarə edilməsi strategiyası 472
6.2. Elmi-texniki kadr potensialı, onun idarə edilməsi və istifadəsi strategiyası 483

6.3. Məşğulluq sahəsində Gender problemi və qadın məşğulluğu sahəsində dövlət siyasəti strategiyası 512
6.4. Əhalisakinliyi və demoqrafiya sahəsində dövlət siyasətinin əsas istiqamətləri 552
6.5. Gənclərin və pensiyaçıların məşğulluq problemləri 609

Müəllifin mövzu üzrə çap olunmuş mühüm əsərlərinin siyahısı 633
Bioqrafiya 651

MURADOV ŞAHBAZ MUSA oğlu

İNSAN POTENSİALI: ƏSAS MEYLLƏR, REALLIQLAR, PROBLEMLƏR

(Monoqrafiya)

Bakı – Elm – 2004

МУРАДОВ ШАХБАЗ МУСА оглы

ЧЕЛОВЕЧЕСКИЙ ПОТЕНЦИАЛ: ОСНОВНЫЕ ТЕНДЕНЦИИ, РЕАЛИИ, ПРОБЛЕМЫ

(Монография)

Баку – Элм – 2004

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
«ELM» REDAKSİYA-NƏŞRİYYAT VƏ POLİQRAFİYA MƏRKƏZİ

Mərkəzin direktoru

ŞİRİNDİL ALIŞANLI

Baş redaktoru

TEYMUR KƏRİMLİ

Redaktorları

ƏMİNƏ NOVRUZOVA, ROZA KƏRİMOVA

Korrektorları

NƏRGİZ MƏLİKOVA, MEHRİBAN QASIMOVA

Çapa imzalanmış 05.07.2004.
Formatı 60x90 $^{1}/_{16}$. Həcmi 41,25 ç.v. Ofset çap üsulu.
Tirajı 1000. Sifariş 63. Qiyməti müqavilə ilə.

«Elm» Redaksiya-Nəşriyyat və Poliqrafiya Mərkəzinin
mətbəəsində çap olunmuşdur (Bakı, İstiqlaliyyət küç., 8.).

QEYD ÜÇÜN